MEHRIBAN MAHMUDOVA	HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYAS	482
BİLAL HƏSƏNLİ	ARTISTIC EMBODIMENT OF MOUNTAIN CULT AND MOUNTAIN IMAGES IN AZERBAIJAN LITERATURE	486
FƏRRUX ABBAS OĞLU RÜSTƏMOV	THE ROLE OF YEREVAN SCHOOLS IN THE FORMATION OF THE GENERATION OF THE NATIONAL INTELLIGENTSIA	491
ELMAN GULIYEV	YUSIF BALASAGUNLU'S WORK "GUTADGU BILIK" AS A WONDERFUL EXAMPLE OF TURKISH ARTISTIC AND AESTHETIC THOUGHT	495
ELMAN GULIYEV	NİZAMİ "XƏMSƏSİ" VƏ ƏLİŞİR NƏVAİ	500
ÜLKER BAHŞIYEVA	YUNUS ƏMRƏ ŞEİRİ VƏ İRFAN	507
ÜLKER BAHŞIYEVA	MANIFESTATION OF REALISM IN ASHIG LITERATURE (BASED ON LITERARY-THEORETICAL THOUGHTS)	512
Cengiz ŞAHİN Aydan MALİKOVA	EXAMINING THE RELATIONSHIP BETWEEN SOCIAL MEDIA ADDICTION, DEPRESSION, AND PSYCHOLOGICAL RESILIENCE AMONG UNIVERSITY STUDENTS	516
Vusal ZULFUGAROV	AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASINDA ELMİ ARAŞDIRMALAR: ƏNƏNDƏN GƏLƏCƏYƏ	531
Mustafa TALAS	AZERBAYCAN-TÜRKİYE STRATEJİK İŞBİRLİĞİNİN SOSYOLOJİK ANALİZİ	537
Malahat VELIEVA	Роль когнитивной лингвистики в изучении лингвокультурологии	544
AGABEY GULSHAN SHIKHMURAD	SATIRICAL CHARACTERISTICS IN SAMAD VURGUN`S POETRY	546
QASIMOVA FATİMƏXANIM ƏZİZAĞA QIZI	FORMS OF ORGANIZATION OF WORK WITH TALENTED STUDENTS	551
Dilarə ƏLİYEVA	TÜRK VƏ AZƏRBAYCAN NƏSRİ MODERNİZM ƏDƏBİ CƏRƏYANI KONTEKSTİNDƏ	554
Zəminə Rüstəmbəyli	VERBAL PHRASEOLOGICAL COMBINATIONS IN THE 14TH-CENTURY PROSE MONUMENT "SIYARUN-NABI	555
AYNUR BADALOVA	BÜYÜK ÖNDER HAYDAR ALIYEV'IN EDEBİYATTAKİ SANATSAL ROLÜ	565
NABAT JAFAROVA	KAPSAYICI EĞİTİM VE ZAMAN	568

Ulfan MIRZAZADA	SEMANTIC GROUPS OF GENDERED METAPHORS	570
Emrullah BANAZ	ANALYSIS OF THESES ON THE USE OF METAPHOR IN LANGUAGE EDUCATION: YÖK DATABASE SAMPLE	577
Battal ODABAŞI	THE STUDY OF STRENGTHENING THE RELIABILITY AND VALIDITY OF THE NEURO PSYCHO PEDAGOGY (NPP) INVENTORY	585
Ahmet USLU	THE IMPACT OF THE IMAGERY OF CHARACTERS AND OBJECTS ON THE PLOT İN THE NOVEL AŞK-I MEMNU	612
Battal ODABAŞI	REDUCING THE POWER AND IMPACT OF INNATE ADVANTAGES ON THE PROGRAM APPROACH WITH THE BRAIN ALGORITHM SYSTEM (BAS)	614
Ahmet USLU	ANALYZING SABRI ESAT SIYAVUŞGIL'S POEM "JOURNEY" THROUGH PSYCHOANALYTIC ANALYSIS METHOD	641
Atiye ÖZTÜRK	INVESTIGATION OF THE SPOUSAL RELATIONSHIP OF PARENTS WITH CHILDREN GOING THROUGH THE SCHOOL ADJUSTMENT PROCESS	643
Özlem COŞKUN	SIRAJ AL-DIN AL-URMAWI (594-682/1198-1283) IDEAS AND IMPACT ON THE SCIENTIFIC LIFE OF THE ANATOLIAN SELÇUKS	660
Rabia ARSLAN	UNREGISTERED EMPLOYMENT IN TURKEY	667
Didem ARGUT TUĞUTLU	THE EFFECT OF DISTANCE EDUCATION IMPLEMENTATION ON FEMALE TEACHERS DURING THE COVID-19 PANDEMIC PROCESS IN TURKEY	669
Oğuz Han ÖZTAY Bilal AKKÖPRÜ Adem TAYAN Bilal ÇAKAY	ANALYZING THE SOCIAL MEDIA USE OF ADULTS	673
Büşra BÜKE	CULINARY TOURISM: ITS IMPORTANCE IN THE WORLD AND TURKEY	675
Oğuz Han ÖZTAY	AN ANALYSIS IN THE CONTEXT OF LEADERSHIP COMMUNICATION: ATATÜRK	676
Bekir DEĞİRMENCİ	INVESTIGATION OF THE RELATIONSHIP BETWEEN INTERACTIONAL JUSTICE AND JOB SATISFACTION: THE MEDIATING ROLE OF TRUST IN THE MANAGERS	678
Fidan NAMAZOVA Mustafa ATATORUN	READING IRAN'S REGIONAL STRATEGY THROUGH THE LENS OF THE SECOND KARABAKH WAR	690
Bekir DEĞİRMENCİ	THE EFFECT OF EXTERNAL CORPORATE SOCIAL RESPONSIBILITY PRACTICES ON EMPLOYEES' PARTICIPATION IN CORPORATE SOCIAL	698

	RESPONSIBILITY ACTIVITIES: AN APPLICATION EXAMPLE FOR TEXTILE AND FOOD SECTORS	
Gülşah DEMİR Zuhal BAHAR Dilek YILDIRIM	EVALUATION OF HEALTH ANXIETY AND CYBERCHONDRIA LEVELS IN HIGH SCHOOL STUDENTS	710
Zühal BAHAR Ayşe KOYUNCU	THE EFFECT OF SELF-ESTEEM ON THE RELATIONSHIP BETWEEN PARTNER SOCIOTICISM AND MARITAL SATISFACTION IN MARRIED INDIVIDUALSITLE	719
Emel ELEM Ayşegül DURMAZ	THE IMPACT OF CLIMATE CHANGE ON MATERNAL AND NEWBORN NUTRITION	721
Süleyman ŞİMŞEK Orkun AKYEL	PRODUCTION OF BIODIESEL FROM WHEAT OIL BY TRANSESTERIFICATION METHOD	725
Ayşegül DURMAZ Emel ELEM	THE IMPACT OF MOBILE APPLICATIONS ON BREASTFEEDING	736
Burcu BİLTEKİN	THE EFFECT OF METOCLOPRAMIDE ON PROLIFERATION IN KERATINOCYTE CELL LINE	742
Elif YILDIRIM CAYNAK Tuğçe BAĞCI Çetin ILGAZ Yusuf KUMLUTAŞ Kamil CANDAN	INVESTIGATION OF INFRASPECIES VARIABILITY OF DAREVSKIA RUDIS (BEDRİAGA, 1886) COMPLEX FROM AN OSTEOLOGICAL PERSPECTIVE	743
Ulduz QƏHRƏMANOVA	AS A FOLLOWER OF MIRZA ALAKBAR SABIR MIRZA FATALI AKHUNDOV SCHOOL	745
Ulduz QƏHRƏMANOVA	POETIC SYNTACTIC FIGURES IN THE SYSTEM OF METAPHORS	751
RAMIL ZEYNALOV	“DİLDƏ MİFOLOJİ LEKSİKA”	757
Doç. Dr. Faiq ELEKBERLİ	IMPACT OF ISMAYIL BEY GASPIRALI'S PHILOSOPHY "UNITY IN LANGUAGE, THOUGHT AND WORK" IN THE CONTEMPORARY PERIOD	758
Güntəkin MUSAYEVA	THE LEGEND-POEM: A VARIANT OF THE LEGEND GENRE IN WRITTEN LITERATURE	760
Maral YAQUBOVA	BEING A WOMAN IN THE TEXT: VOICE AND EXPRESSION TECHNIQUES IN NARRATIVE	762
Məlahət ƏHMƏDOVA	HECA VƏZNİNİN FOLKLORDAN YAZILI ƏDƏBİYYATA KEÇİDİ: AŞIQ ŞEİRİ TƏRZİ	764
Valida ABBASBEYLİ	SIMILARITIES AND DIFFERENCES IN WORD FORMATION OF AZERBAIJANI LANGUAGE AND TURKISH	765
Aliyeva SHAHANE	ARTIFICIAL INTELLIGENCE AND ARTISTIC CREATIVITY	770
Nurlana EYUBOVA	ENGLISH PHRASEOLOGICAL UNITS REPRESENTING THE CONCEPT “MARRIAGE”	772

Şəfa Şakir qızı Əliyeva	CƏLİL MƏMMƏDQULUZADƏ YARADICILIĞINDA MÜXTƏLİF TƏBƏQƏ VƏ TİPAJLARIN DİALOQLA TƏQDİMİ	776
Abdullayeva Gültəkin Atəş qızı	DEVELOPMENT OF THE AZERBAIJAN LANGUAGE: HAYDAR ALIYEV'S MISSION AND MAHIRA HUSEYNOVA'S RESEARCH	777
NISHANI RANAWEERA	EXPLORING TRANSGENDER IDENTITY WITHIN TRADITIONAL CULTURAL FRAMEWORKS IN ASIA: A TEXTUAL DISCOURSE	780
Guzal MASSADIKOVA	RESEARCH ON THE RELATIONSHIP OF SPORTS AND ENTERTAINMENT EVENTS WITH TRENDS AND THEIR IMPACT ON FASHION BETWEEN 1900-2000	781
Zohaib Hassan SAIN	RETHINKING THE EMERGENCE OF ACADEMIC E-LEARNING IN HIGHER EDUCATION: MOVING BEYOND CONVENIENCE	794
Guzal MASSADIKOVA	RESEARCH ON THE DEFINITION AND TYPES OF FASHION TRENDS	795
Zohaib Hassan SAIN	LEVERAGING CHATGPT FOR EFFICIENT EVALUATION AND FEEDBACK IN THE EDUCATIONAL SETTING	806
Mukhabbat MASSADIKOVA	PROBLEMS OF ESTIMATE EDUCATIONAL GOALS IN PEDAGOGY OF THE 21ST CENTURY	807
GUZAL MASSADIKOVA	FASHION THEORIES DEFINING THE CYCLE OF CHANGE OF FASHION	813
NARGIZA JAMALOVA	UNUTULMAYA YÜZ TUTAN KAZAK GELENEKLERİ	821
KARDİNA ENGELİNA SİREGAR	REIMAGINING ISLAMIC EDUCATION: BRIDGING TRADITIONS TO FUTURE HORIZONS	826
MULETA HUSEİN SADETO	CONGRESS TITLE: ENHANCING DIPLOMATIC AND ECONOMIC TIES: THE EVOLVING DYNAMICS OF TURKEY-AFRICA RELATIONS	827
Ehsan RASOULINEZHAD	GREEN RECOVERY AND ESG INVESTMENT IN RUSSIAN FEDERATION	828
ROZINA KHATTAK	ADSORPTION KINETICS OF BRILLIANT PINK B ON BIOMASS OF FALSE CYPRESS	829
ROZINA KHATTAK	EFFICIENT REMOVAL OF TOXIC INDUSTRIAL DYE ACID RED 2 BY BIOSORPTION ON THE BARK OF DODONAEA VISCOSA	830
SAFA MELKI RAJA BEN AHMED ATF AZZOUNA	OCCURRENCE OF THE TWO CONGENERIC SPECIES CIONA INTESTINALIS AND THE INVASIVE SPECIES CIONA ROBUSTA IN THE PORT OF GHAR EL MELH (BIZERTE, NORTH OF TUNISIA)	831

Prof. Dr. MUHAMMAD FAISAL DR. KHALID MAQBOOL SIDDIQUI	EMPOWERING PAKISTAN'S FUTURE THE TASK OF THE MINISTRY OF SCIENCE AND TECHNOLOGY A REVIEW BY DR FAISAL	832
Prof. Dr. MUHAMMAD FAISAL	BEHIND UNIQUE FINGER IMPRESSION BIOMETRICS TO WORKS AND WHY IT MAKES A DIFFERENCE FOR THE HACKING PURPOSE	833
HASSAN ZARIOUH Zakariae AZNAY MOHAMED BENDAOUD	SPECTRAL PROPERTIES OF LINEAR COMBINATIONS OF IDEMPOTENTS IN BANACH ALGEBRAS	834
Rafael J.O. SIMÕES Raul D.S.G. CAMPILHO	DESIGN OF STANDARDIZED FIXATION SYSTEMS FOR POLYMER AUTOMOTIVE COMPONENTS	835
Ana C.P. SOARES Raul D.S.G. CAMPILHO	PROCESS OPTIMIZATION OF ACTIVE PHARMACEUTICAL INGREDIENT (API) MANUFACTURING PROCESS	836
K.R. PADMA K.R. DON	ENERGY HARVESTING INVESTIGATION OF PIEZOELECTRIC NANOGENERATORS AND ITS POTENTIAL APPLICATION AS SMART MATERIALS IN THE NEAR FUTURE	837
Busari M. B. Nafiu M. O.	A REVIEW ON APPLICATIONS OF NANOTECHNOLOGY IN THE DIAGNOSIS OF NON-COMMUNICABLE AND COMMUNICABLE DISEASES	838
Busari M. B. SALAWU M. O.	REVIEW ON APPLICATION OF NANOTECHNOLOGY IN DRUG DELIVERY	839
ALİRZAYEV MUKHTAR MULKUM OGHLU *SULEYMANOV NURBALA AZİZAGA OGHLU*	MATHEMATICAL ANALYSIS OF THE VALVALACHAY WATERSHED LANDSCAPE IN THE SOUTH-EASTERN CAUCASUS	840
ALLAHVERDIYEVA NURANA ELCHIN	GROSS MISTAKES AGAINST THE AZERBAIJAN LANGUAGE IN THE MASS MEDIA	850
Mukhabbat MASSADIKOVA	CHARACTERISTICS OF THE CHALLENGES FACED BY YOUNG TEACHERS IN HIGH SCHOOL	854
Melisa Asena YEŞİLYURT	COMMITTING THE CRIME OF TRANSNATIONAL HUMAN TRAFFICKING FOR THE PURPOSE OF PROSTITUTION	858
Meryem ARSLAN	TÜRK KÜLTÜRÜNDE YÖNETİCİLERİN KARAR ALMADAN ÖNCE FAL BAK(TIR)MALARINA BİR ÖRNEK: TURNA FALI	863

PARTY OF VICTORS, WINNERS - NEW AZERBAIJAN PARTY
QƏLƏBƏLƏR, QALİBLƏR PARTİYASI - YENİ AZƏRBAYCAN PARTİYASI

HƏSƏNOVA ŞAHANƏ ƏLİYƏNNAĞI QIZI,

filologiya üzrə fəlsəfə doktoru, Azərbayan respublikası,Bakı şəhəri, ADPU,
Filologiya fakultəsi,Ədəbiyyat kafedrasının baş müəllimi,
Orkid: https://orcid.org/0009-0002-4647-2006

Xülasə

Müstəqil Azərbaycan dövlətinin banisi Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi xalqımızın qəlbindəəbədi olaraq yaşayır. Belə ki, dünya şöhrətli siyasi xadim kimi, O, hər zaman xalq və dövlət amilini öz həyatından üstün tutmuşdur.Dünya tarixi sübut etmişdir ki, şəxsiyyətlərin gücü, ağlı, cəsarəti, siyasi iradəsi və müdrikliyi mənsub olduğu xalqın, onun yaratdığı dövlətin həyatında əvəzedilməz rola malikdir. Bu şəxsiyyətlər arasında müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ulu Öndər Heydər Əliyevin özünəməxsus yeri vardır. İllər keçəcək, müstəqil Azərbaycanın hakimiyyət olimpinə çox siyasi xadimlər gələcək, amma ümummilli lider Heydər Əliyevin göstərdiyi xidmətlərin səviyyəsinə qalxmaq, onun ucaldığı zirvəyə çatmaq kimsəyə nəsib olmayacaqdır.Türkiyənin tanınmış dövlət xadimi Bülənt Ecevit siyasət nəhəngi Heydər Əliyevin yalnız Azərbaycan xalqı deyil, bütün türk dünyası qarşısında xidmətlərini qiymətləndirərkən böyük fəxrlə demişdir: "Qüdrətli öndərsiz bir millət heç nəyə nail ola bilməz. Heydər Əlirza oğlu Atatürk qədər qüdrətli bir türkdür. Heydər Əlirza oğlu min ildən bir yetişən dahilərdəndir Heydər Əliyev isə həm keçmiş sovet, həm də müstəqillik dönəmində Azərbaycanın inkişafı, onun dünya dövlətləri cərgəsində layiqli yerini tutması üçün titanik əmək sərf etmiş, mənsub olduğu xalqın və eyni zamanda özünün adını əbədi olaraq tarixə yazmışdır. Heydər Əliyev üçün müstəqil Azərbaycan fəlsəfəsinin təməlində azadlıq, demokratiya, iqtisadi tərəqqi, sosial ədalət və rifah dururdu. Bu fəlsəfə onun memarı olduğu müstəqil Azərbaycanda öz real əksini tapdı.

Açar sözlər:mədəniyət,ədəbiyyat,ənənə,siyasət,xalq

Summary

The dear memory of National Leader Heydar Aliyev, the founder of the independent state of Azerbaijan, lives forever in the hearts of our people. So, as a world-renowned political figure, he has always prioritized the people and the state factor over his own life. World history has proven that the strength, intelligence, courage, political will and wisdom of individuals have an irreplaceable role in the life of the people they belong to and the state they created. . Among these personalities, the architect and founder of the modern independent state of Azerbaijan, Great Leader Heydar Aliyev has a special place. Years will pass, many political figures will come to the Olympics of independent Azerbaijan, but no one will be able to rise to the level of the services rendered by the national leader Heydar Aliyev, to reach the peak he reached. The well-known statesman of Turkey, Bulent Ecevit, praised the services of the political giant Heydar Aliyev not only to the people of Azerbaijan, but to the entire Turkic world. while evaluating, he said with great pride: "A nation without a powerful leader cannot achieve anything. Heydar Alirza oglu is as powerful a Turk as Atatürk. Heydar Alirza oglu is one of the

geniuses born every 1,000 years. Heydar Aliyev is responsible for the development of Azerbaijan in both the former Soviet and independent periods, its world powers. He spent a titanic effort to take his rightful place in the ranks, he wrote the name of the people he belonged to and at the same time his name forever in history. For Heydar Aliyev, freedom, democracy, economic progress, social justice and prosperity were the basis of the philosophy of independent Azerbaijan. This philosophy became his architect. It found its real reflection in independent Azerbaijan.

Keywords: culture, literature, tradition, politics, people

Giriş

Müasir Azərbaycan dövlətçiliyinin qurulması, inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər Heydər Əliyev xalqımızın taleyində misilsiz xilaskar missiyasını şərəflə yerinə yetirib. O, Azərbaycanda siyasi plüralizm, siyasi mədəniyyət və siyasi sistemin yaranmasının əsasını qoyan nadir şəxsiyyətdir. 1992-ci il noyabrın 21-də bir müxalifət partiyası olaraq yaratdığı Yeni Azərbaycan Partiyası (YAP) hakimiyyətə sivil yolla gəlməyin əsl "yol xəritəsi"ni ortaya qoydu. Bununla da bir siyasi mədəniyyət və siyasi əxlaq nümunəsi yaratdı. YAP Cənubi Qafqazın ən böyük partiyasıdır. Bu partiya ümumxalq partiyasıdır.

Araşdırma.Bu partiyada cəmiyyətin bütün təbəqələri iştirak edir. Həmçinin partiya hər zaman islahatlara açıqdır.Hər bir siyasi partiyanın keçdiyi yolun əsaslarına diqqət yetirmək, onun fəaliyyətinin xronikası və dinamikasını tədqiq etmək üçün bir sıra müxtəlif məqamlara toxunmaq lazımdır. Bunlardan biri partiyanın yarandığı şərait, daha dəqiq desək, hansı ictimai-siyasi şəraitdə yaranması və fəaliyyət göstərməsidir. Ümummilli lider Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasını şəraitin diktəsi ilə meydana gələn tarixi zərurət kimi qiymətləndirərək söyləyirdi: "Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içindən çıxmış zərurətdir. Azərbaycanda yaranan partiyaların bir çoxu ayrı-ayrı şəxslərin, siyasi fəaliyyətə başlayan şəxslərin şəxsi təşəbbüskarlığı ilə yaranan partiyalardır. Ancaq Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq istəyən, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan, hərənin öz tərəfindən hərəkət etməsi nəticəsində, ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmışdır". [2]. Həmin vaxt hakimiyyətdə olan AXC-Müsavat liderlərinin bacarıqsızlığı, səriştəsizliyi, naşılığı ucbatından səriştəsiz qüvvələr öz antimilli, yəni milli maraqlardan uzaq siyasətləri ilə Azərbaycanı parçalanma, hətta məhvolma təhlükəsi ilə qarşı-qarşıya qoymuşdular. Belə bir mürəkkəb şəraitdə Azərbaycan xalqı xilası böyük dövlət xadimi və dahi şəxsiyyət Heydər Əliyevdə görürdü. Həmin dövrdə Ümummilli lider Heydər Əliyev Naxçıvan Ali Məclisinin Sədri idi. 1992-ci ilin oktyabrın 16-da 91 nəfər ziyalı "SƏS" qəzetində ümummilli liderimizə müraciət etdi. Müraciətdə qeyd edilirdi ki, "öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir". Ümummilli Lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. Qeyd edək ki, ulu öndər Heydər Əliyev ziyalılara göndərdiyi cavab məktubu da "SƏS" qəzetində dərc olundu. Ulu öndər Heydər Əliyevin yaratdığı partiya onun öz sözlərində dediyi kimi, "Dünənin, bu günün və gələcəyin partiyasıdır". YAP-ın yaradılması ulu öndər Heydər Əliyevə Azərbaycan cəmiyyətinin sifarişi idi, çünki bu partiya yaradılmadan Azərbaycanın gələcəyi yox idi. Məşhur "91-lər"in müraciəti əsasında zəmanəmizin dühası ümummilli lider Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasına, ona rəhbərlik etməyə razılıq verdi.

Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının martın 5-də keçirilən VII qurultayında "91-lər"in Ulu Öndərə müraciətinə yönəldərək onların fəaliyyətini yüksək qiymətləndirərək

demişdir: “Bu gün də onların bir çoxu bizim sıramızdadır. Bundan sonra da onlar fəal işlərlə məşğul olacaqlar, Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasında fəaliyyət göstərəcəklər və ictimai həyatda fəaliyyət göstərəcəklər.. Beləliklə, noyabrın 21-də 550 nəfərin iştirakı ilə Yeni Azərbaycan Partiyası təsis olundu və Ulu öndər Heydər Əliyev partiyanın Sədri seçildi. Ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası qısa müddət ərzində təşkilatlandı, xalqın dəstəyi ilə 1993-cü ildəhakimiyyətə gəldi. Bu, xalqın Ümummilli lider Heydər Əliyevə böyük inamının, Onun rəhbərlik etdiyi partiyaya dəstəyinin bariz ifadəsi idi. Həmin dövrü xatırlayan Prezident İlham Əliyev bildirib ki, 1992-ci ildə Yeni Azərbaycan Partiyasının yaradılması tarixi hadisə idi. Çünki hamımız yaxşı xatırlayırıq ki, müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçib: “1992-ci ilin noyabrında Yeni Azərbaycan Partiyasının yaradılması xalqda böyük ümidlər yaratdı ki, nəhayət, xoşagəlməz hallara son qoyulacaq, nəhayət, Azərbaycanda çox ciddi siyasi qüvvə yaranır, nəhayət, Azərbaycanda siyasi sistem yaranır”. (1, 12)
Bəli, bu gün 30 il şərəfli yol keçən qələbələr partiyası olan Yeni Azərbaycan Partiyası öz sıralarında 800 minə yaxın insanı birləşdirir. Azərbaycanın müstəqillik tarixində qazandığı hər bir uğurunda Yeni Azərbaycan Partiyasının öz dəst-xətti, rolu vardır. Yeni Azərbaycan Partiyası fəaliyyətinin ilk günlərindən bütün xalqın partiyası oldu. Dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq özünü Azərbaycana bağlı sayan hər kəs bu partiyada öz yerini gördü. Onun düşüncələrinə, mövqeyinə göstərilən rəğbəti duydu, bu partiyanın arzularındakı siyasi təsisat olduğunu fərq etdi. Yarandıqdan cəmi 7 ay sonra hakim partiyaya çevrildi. Bu hadisənin özü Heydər Əliyev şəxsiyyətinə inamı ifadə etməklə yanaşı, eyni zamanda, partiyanın yaranmasında ifadə olunan tarixi zərurəti və partiyanın yaranması faktına tarixin özünün çox qısa bir zaman keçdikdən sonra haqq qazandırmasını əks etdirirdi. Yeni Azərbaycan Partiyası fəaliyyətinin ilk günündən özünə aydın vəzifələr müəyyənləşdirdi: dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, vətəndaşların dinc və firavan həyatının təmin edilməsi. Və bunlar təkcə proqram vəzifələri olaraq kağız üzərində qalmadı. Yeni Azərbaycan Partiyası təmsilçilərindən formalaşmış iqtidar komandası xalqımızın ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək bu gün ölkəmizi tarixinin ən böyük nailiyyətlərinə yetirmiş Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında bu vəzifələrin hər biri üzrə möhtəşəm nəticələr qazandı.
Beləliklə, ulu öndər Heydər Əliyev dühasının məhsulu olan və müasir Azərbaycan dövlətçiliyinin qorunması və inkişafında misilsiz xidmətlərə imza atan Yeni Azərbaycan Partiyası öz Müzəffər Liderinin-Prezident İlham Əliyevin rəhbərliyi altında yeni tarixi vəzifələrin icrası prosesinə böyük töhfələr vermək iqtidarında və niyyətindədir. Bu, ilk növbədə, 30 illik erməni işğalından azad edilmiş Qarabağın bərpası və yenidənqurulması kimi tarixi missiyanın icrası, habelə epoxal uğurlarımızın təminatında müstəsna əhəmiyyətə malik olan siyasi dialoq mühitinin qorunması və dərinləşdirilməsi prosesinə yüksək səviyyəli dəstəyin verilməsi anlamını özündə ehtiva edir. YAP həm cəmiyyətin irəliyə doğru, keyfiyyətcə yeni inkişaf mərhələlərinə daxil olmasını və onun mütərəqqi inkişafını təmin edən aparıcı siyasi qüvvə kimi çıxış edir, həm də yaratdığı yeni çağırışları və reallıqları özü tənzimləyərək, gələcəyə istiqamətlənmiş məqsəd və vəzifələr müəyyənləşdirir.

Məhz bundan irəli gələrək, YAP-ın 2021-ci il martın 5-də keçirilmiş VII qurultayında partiyanın qarşısına yeni hədəflər və vəzifələr qoyulmuşdur. YAP-ın Sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qurultaydakı genişməzmunlu çıxışında partiyanın yarandığı vaxtdan indiyə kimi müstəqil dövlətçiliyin və demokratik siyasi sistemin möhkəmlənməsi, ölkəmizin davamlı inkişafı, milli birliyin və vətəndaş həmrəyliyinin təmin olunması istiqamətində göstərdiyi fəaliyyətlə bağlı dəyərli fikirlər irəli sürmüşdür. Prezident İlham Əliyevin dediyi kimi: “Partiyamızın VII qurultayı ölkəmizin ictimai-siyasi həyatında

önəmli hadisədir. Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır. Partiyamızın böyük ənənələri var". Prezident İlham Əliyev qurultaydakı çıxışı zamanı YAP-ın müasir dövrün çağırışlarını özündəəks etdirən yeni proqramının hazırlanmasının vacibliyini bildirmişdir.Qeyd edək ki, Azərbaycan dövlətinin bütün sahələrindəəldə olunan uğurlar YAP-ın yeni proqramının hazırlanmasını şərtləndirən mühüm faktorlardır. Prezident İlham Əliyevin çıxışlarından irəli gələn vəzifələri rəhbər tutaraq və ölkəmizin davamlı inkişafı, Azərbaycanın xarici siyasət sahəsində strateji maraqları, dördüncü sənaye inqilabının ictimai həyata göstərdiyi təsirləri və 44 günlük Vətən müharibəsində şanlı qələbənin yaratdığı reallıqları nəzərə alaraq, YAP-ın "Biz birlikdə güclüyük!" devizi altında yeni proqramı işlənib hazırlanmış və partiyanın İdarə Heyətinin 29 dekabr 2021-ci il tarixli qərarı ilə təsdiq edilmişdir.

Bu gün Prezident İlham Əliyevin apardığı siyasətin məqsəd və vəzifələri eyni zamanda onun Sədri olduğu partiyanın məqsəd və vəzifələri deməkdir. Buna görə də Prezident İlham Əliyevin təsdiq etdiyi, cəmiyyətin müxtəlif sahələrinin inkişafını nəzərdə tutan milli prioritetlər, dövlət proqramları, konsepsiyalar, İnkişaf strategiyaları və fəaliyyət planlarındakı müddəalar partiyanın proqramında öz əksini tapmışdır.Partiyanın yeni proqramı beş fəsildən - "Partiyanın inkişafı və uğurları", "Siyasi dəyərlər və prinsiplər", "Partiyadaxili münasibətlərin və partiyanın fəaliyyətinin əsasları", "Partiyanın əsas hədəfləri" və "Müzəffər liderlə Azərbaycanı yeni zirvələrə aparan güclü partiya" ibarətdir. Hər bir fəsil sosial-iqtisadi, siyasi, mənəvi-mədəni, ordu quruculuğu, xarici siyasət, vətəndaş cəmiyyəti və s. sahələri əhatə edən bölmələrə ayrılır. Hər bir bölmədə partiyanın qarşısında dayanan hədəflər və vəzifələr göstərilir.YAP-ın proqramında partiyanın inkişaf tarixinə və uğurlarına nəzər salınır, onun Heydər Əliyev yoluna və irsinə sadiqliyi, qarşısına qoyduğu məqsəd və vəzifələri böyük məsuliyyətlə, layiqincə yerinə yetirdiyi vurğulanır. Hüquqi dövlətin və vətəndaş cəmiyyətinin, bazar iqtisadiyyatı münasibətlərinin inkişafı istiqamətində YAP-ın fəaliyyətinin tarixi-siyasi əhəmiyyəti qeyd olunur. Bildirilir ki, xalqımızın Heydər Əliyevə dərin inam və etimadı nəticəsində YAP yarandıqdan sonra respublikanın bütün bölgələrində onun təşkilatlanması prosesi başladı, partiyanın sıraları sürətlə genişləndi. Heydər Əliyevin müdrik siyasəti sayəsində müstəqil dövlət quruculuğunda əldə olunan uğurlar, Azərbaycanın dünya birliyində mövqeyinin möhkəmlənməsi YAP-ın xalq arasındakı nüfuzunu getdikcə artırdı.

Nəticə.Bəli, Yeni Azərbaycan Partiyası 30 il şərəfli yol keçərək monolitliyini qorudu, gücləndi, öz üstünlüyü, parlaq qələbələri ilə heç bir seçkidə rəqib tanımadı. Yeni Azərbaycan Partiyasının seçkilərdə qazandığı qələbələr bu partiyanın cəmiyyətdəki yerinin möhkəmliyini, dövlətçiliyimizin gücləndirilməsi istiqamətində həyata keçirilən siyasətə xalq dəstəyini, insanların bu təşkilata yüksək etimadını göstərir. Bütün iştirak etdiyi seçkilərdə Yeni Azərbaycan Partiyası qələbə qazanaraq bir daha ölkə vətəndaşlarının Azərbaycan reallığına verdiyi qiymət və Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətə inamın ifadəsidir. Bu, həm də hər bir vətəndaşın Prezidenti olduğunun göstəricisi, Azərbaycanın hərtərəfli inkişafı, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması ildən-ilə xalq-iqtidar birliyini göstəricisidir. Məhz bu gün sevinirik ki, Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayır, qalib gəlir. Azərbaycan Prezidenti, Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən bu ölməz amallar sədaqətlə, cəsarətlə daha müvəffəqiyyətlə həyata keçirilir. Necə ki, Yeni Azərbaycan Partiyasının yaradıcısı, Azərbaycan xalqının xilaskarı ulu öndərimiz Heydər Əliyev demişdir: «Yeni Azərbaycan Partiyası dünənin, bu günün, gələcəyin partiyasıdır».Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev martın 5-də partiyanın keçirilən VII qurultayında çıxışı zamanı bir çox məsələlərə toxunaraq partiyamızın VII qurultayı ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisə olduğunu bildirmişdir. Azərbaycan Prezidenti İlham Əliyev Yeni Azərbaycan

Partiyasının VI qurultayından üç il ötdüyünü və bu illər ərzində böyük nailiyyətlər və qələbələr əldə olunduğunu deyib: "Bu illər ölkəmiz üçün, bölgəmiz üçün həlledici illər olmuşdur. Üç il ərzində ölkə həyatında bir çox önəmli hadisələr baş vermişdir. Təbii ki, onların arasında ən önəmlisi ərazi bütövlüyümüzün bərpa edilməsi, Vətən müharibəsində parlaq Qələbənin qazanılmasıdır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları əzəli torpaqlarımızdan qovdu və beləliklə, tarixi ədalət bərpa olundu. Bizim şanlı Qələbəmiz qürur mənbəyimizdir».Bəli, bu Qələbə həqiqətən də bizim qürur mənbəyimizdir. Bu reallığı Azərbaycan xalqı görür və bəlkə də bu, son 30 ildə bu qədər qürurlu olmamışdı - 44 gün ərzində tariximizin Zəfər Salnaməsi yazıldı, Bütövləşən Azərbaycanımız – Qarabağ Azərbaycanımıza qovuşduq. Məhz bu Böyük Qələbə Prezident İlham Əliyevin sözünə, vədinə sadiq qalan dövlət başçısı imicini qazanması bütün sahələrdə təsdiqlənməsinin reallığıdır. Bu yerdə Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi bu fikirləri bir daha yada salmaq yerinə düşər: "Bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Ümummilli Lider Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən, mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm". (1, 25). Prezident İlham Əliyev keçirilən qurultayda da bildirib ki, Yeni Azərbaycan Partiyasının adı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Gənclər ölkəsi olan ölkəmizdə onların potensial imkanlarından səmərəli istifadə olunması, idarəçilikdə irəli çəkilmələri bütün dövrlərdə öz aktuallığını qoruyub. Bu gün sıralarında 800 minə yaxın üzvü birləşdirən Yeni Azərbaycan Partiyasının təmsilçilərinin 40 faizini gənclər təşkil edir. Dövlətimizin başçısı İlham Əliyevin tapşırığına uyğun olaraq gənclərin parlamentdə və bələdiyyələrdə təmsilçilik faizlərinin artırılması istiqamətində atılan addımlar öz bəhrəsini verir. Belə ki, Yeni Azərbaycan Partiyası son parlament və bələdiyyə seçkilərində zəngin seçki təcrübəsinəəsaslanaraq gənclərin parlamentdə və bələdiyyələrdə təmsilçiliyini artırıb. Bir sözlə, YAP Gənclər Birliyi ölkəmizdə gənclər sahəsindəən böyük təşkilat olaraq onların cəmiyyətdə fəal və təşəbbüskar rolunu dəstəkləyir. Çünki gənclərin potensialından ölkəmizin inkişafı naminə bəhrələnmək üçün təkcə intellektual imkanlar, bilik və bacarıqlar kifayət deyil. Eyni zamanda, həmin potensialın sərgilənə bilməsi üçün gənclərə münbit şəraitin yaradılması, onlara meydan verilməsi çox vacib məsələdir. Bu gün Azərbaycanda YAP-ın Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasəti məhz gənclərimizin bu yanaşma əsasında inkişafını özündə ehtiva edir.Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev cənablarının söylədiyi kimi: "YAP sözün əsl mənasında ümumxalq partiyasına çevrilib. Cəmiyyətimizin bütün təbəqələri hakim partiyada birləşib. YAP nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi təşkilatıdır. Partiyamızın böyük ənənələri var. Yeni Azərbaycan Partiyası bundan sonra da ölkəmizdə gedən bütün proseslərin mərkəzində olacaq". Dünənin, bugünün, gələcəyin partiyası olan Yeni Azərbaycan Partiyası müstəqil Azərbaycanımızın dövlətçilik tarixində yeni bir yüksəliş mərhələsinin əsasını qoydu. Yeni Azərbaycan Partiyasının sədri, dövlət başçısı cənab İlham Əliyev partiyanın keçdiyi keşməkeşli yolu belə dəyərləndirmişdir: "Yeni Azərbaycan Partiyası güclü təşkilatdır və Azərbaycanın ictimai-siyasi həyatında müstəsna rola malikdir. Heç bir siyasi qüvvə Yeni Azərbaycan Partiyası ilə rəqabət aparmaq iqtidarında deyil. Bu partiyaya mənim də münasibətim eynidir. Mən də öz siyasi fəaliyyətimi partiyasız təsəvvür etmirəm. Əminəm ki, biz hamımız birlikdə həm partiyamızı daha da gücləndirəcəyik, həm də ölkəmizi daha da inkişaf etdirəcəyik. Azərbaycan müasirləşəcək, güclənəcək və çox zəngin, qüdrətli dövlətə çevriləcəkdir" (3. 32). Ümummilli lider Heydər Əliyev bizim müasirimiz, hər bir azərbaycanlı üçün qürur mənbəyidir. Tarixin Azərbaycan xalqına bəxş etdiyi ən böyük tarixi şəxsiyyətlərdən biri olan Heydər Əliyev xalqımızn tarixində çox böyük iz qoymuşdur: bu gün milli dövlətçiliyimizin ideya əsası məhz bu tarixi şəxsiyyətə məxsusdur. Heydər Əliyev hər zaman Azərbaycan xalqının mənəvi

dəyərlərini yüksək tutmuş və onları bütün dünyaya tanıtdırmışdır. Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının fəaliyyəti də bir daha onu sübut edir ki, Azərbaycan xalqının bu günü və sabahı etibarlı əllərdədir. Heydər Əliyev milli dövlətçiliyimizin ideya təməlini qoymuşdur. Ulu Öndər Azərbaycan xalqının mənafeyini düşünən biri olmuş, bu istiqamətdə apardığı ardıcıl və məqsədəuyğun siyasət onun bütün fəaliyyətinin əsasını təşkil etmişdir. Məhz bu baxımdan xalqımız ümummilli liderin qoyduğu bu sərvəti və irsi qoruyub saxlayaraq gələcək nəsillərə ötürməlidir.

Ədəbiyyat siyahısı:

1. Orucov H. Heydər Əliyev və Azərbaycanda milli siyasət. Bakı, 2001, 324 s.

2. Heydər Əliyev Yeni Azərbaycan Partiyasının qurucusudur; http://anl.az/down/meqale/yeni_az/2011/aprel/171798.htm İstinad tarixi: 26.04.2021.

3. Yeni Azərbaycan Partiyası cəmiyyətdə nüfuzu olan siyasi təşkilatdır; http://anl.az/down/meqale/ses/2011/mart/165015.htm İstinad tarixi: 26.04.2021

MAHİRƏ NAĞI QIZI YARADICILIĞINDA ENANTİOSEMİYA HADİSƏSİNƏ BİR NƏZƏR

ELNARƏ GÜLAĞA QIZI NİFTƏLİYEVA

ADPU-nun"Müasir Azərbaycan dili kafedrasının" qiyabi doktorantı

Özet

Enantosemi olgusunun Türk dillerinin evrensel bir özelliği olduğu kadar farklı sistem dillerinin anlam kaynaklarının da özelliği olması konunun önemini bir kez daha belirlemektedir.

Dillerin tarihsel gelişimi ve evrimi ile bağlantılı olarak bazı dil birimleri eşanlamlı hale gelmekte ve bu tür anlamsal süreçler, zarflaştırma, adlaştırma, nesneleştirme, somutlaştırma, dönüştürme gibi kelime ve anlam oluşturma yöntemleri olarak çokanlamlılık yaratmaktadır. Bu tür süreçlerde, bir şekilde böyle bir anlamsal dilbilimsel çözümleme çalışmasını zorunlu kılan enantosemi olgusu da ortaya çıkar.

Anahtar kelimeler: türkoloji, anlamsal olay, dilsel olay, teorik düşünme, araştırma problemi, eğilim, gelenek

Summary

The relevance of the topic is determined once again by the fact that the phenomenon of enanthosemy is a universal characteristic of Turkish languages, and it is also characteristic of the semantic resources of different systematic languages.

In connection with the historical development and evolution of languages, certain language units become homonymous, antonymized, synonymous, synonymized, and such semantic processes create polysemy as word and meaning creation methods such as adverbialization, nominalization, objectification, substantiveization, and conversion. In such processes, the phenomenon of enanthosemy also appears, which somehow necessitates the work of giving such a semantic linguistic analysis.

Key words: turkology,emantic event, linguistic event, theoretical thinking, research problem, tendency, convention

Giriş

Enantiosemiya dilin həm linqvistik, həm də psixolinqvistik cəhətləri ilə meydana çıxır, bu hadisə həm atalar sözləri və məsəllər mətnlərin üst strukturunda, həm də semantik qatında implikativ şəkildə fəaliyyət göstərir ki, məqalədə daha çox bu məsələlərə diqqət yetirilir.

Enantiosemiya antifrazdan, sözün əks mənada istehzalı istifadəsindən də inkişaf edə bilər. Xüsusilə, istehzalı sözün işlədilməsi nəticəsində yaranmış enantiosemiya bir sıra nominal predikativlər, modal feillər və sözlər, hissəciklər üçün xarakterikdir.

Açar sözlər: türkologiya, semantik hadisə,linqvistik hadisə,nəzəri təfəkkür, araşdırılması problemi,tendensiya, konvensiya

Enantiosemiya tarixi-linqvistik hadisə kimi ta qədim dövrlərdən türkcələrdə fəaliyyət göstərir, qohum dillərin inkişaf və təkamül qanunauyğunluqlarından kənara çıxmır. (3,84)

Dillərin tarixi inkişaf və təkamülü ilə bağlı olaraq müəyyən dil vahidləri omonimləşir, antonimləşir, sinonimləşir və belə semantik proseslər adverbiallaşma, isimləşmə, əşyaviləşmə, sustantivləşmə, konversiya kimi söz və məna yaratma üsulları kimi çoxmənalılıq yaradır. Bu cür proseslərdə enantosemiya hadisəsi də meydana çıxır ki, belə semantik linqvistik təhlilini vermək işini bir növ zəruriləşdirir. (5.278)

Enantosemiya hadisəsi türk dillərində universal səciyyə kəsb etdiyi kimi, müxtəlif sistemli dillərin semantik resursları üçün də xarakterikdir.

Enantiosemiyanın mahiyyəti ondan ibarətdir ki, "söz formalarının üst-üstə düşməsinə baxmayaraq, onlar əks, zidd mənalar ifadə edirlər" (5,432).

Geniş yaradıcılıq erudisiyası, zəngin və əhatəli nəzəri təfəkkürü ilə fərqlənən Mahirə Hüseynova orijinal dəsti-xətti olan bədii söz üstası, filologiyamızın köklüvə aktual problemlərini həvəslə öyrənən tədqiqatçı kimi Azərbaycan dilçilik elminin inkişafına təmənnasız xidmətin canlı nümunəsidir. M. Hüseynovanın nəzəri planda qaldırdığı və həllinə səy göstərdiyi problemlər içərsində elmi, nəzəri-estetik kateqoriyaları müasir təfəkkür işığında təhlil etmək mərkəzi yer tutur.(4.4)

Mahirə Nağıqızı yaradıcılığında Qərbi Azərbaycan torpaqlarına olan həsrət, vətən sevgisi, torpaq, bayraq, təbiət, dəniz, bahar mənzərələri müxtəlif mənaları ifadə edir: onlardan ilham mənbəyi, şəfa mənbəyi və ya sabahla bağlı duyğuların rəmzi kimi istifadə etmişdir.

Mahirə Nağıqızının şeirlərində oxucusunda təkcə emosiya yaratmır, onun yaradıcılığının hər bir məqamında müəllifin maarifçilik missiyasının görmək mümkündür. Bu tendensiya şairin yeniyetmələr üçün yazdığı şeirlər kolleksiyasında görmək həm də ona görə xoşdur ki, müəllifin qəlbindəki yeniyetməlik duyğuları ilə bərabər, müəllimlik hissinin arxa plana keçmədiyinin şahidi olursan və deyim ki, bu cür epizodlarla hər vaxt və hər yerdə rastlaşmırıq.(2.30)

Mahirə Nağı qızı dilin ümumi anlayış diapozonu, geniş dinləyici kütləsinə yönəldiyi üçün müsir inkişaf etmiş cəmiyyətdə yazı qaydaları ilə şifahi nitq qaydaları arasında norma yaxınlığına riayət olunmasına, daxili bir tələbat yaradır.

Mahirə xanımın yaradıcılığında enantiosemiya hadisəsi yer aldığı kimi Mahmud Kaşğarinin "Divani-lüğət-it-türk" əsərində işlənən enantiosemiya hadisəsi geniş şəkildə tədqiq olunmuşdur.

Bir tədqiqatçı kimi, Mahirə xanıma nitq aydınlığını, fikir aydınlığını,poeziyasını davam etdirməyinindavamlı olmasını arzulayıram. Hətta, Mahirə xanımın 2022-ci ildə yazdığı Mahmud Kaşğarinin "Divani-lüğət-it-türk əsərində qrammatik xüsusiyyətlər" adlı kitabı həm həcm, həm məzmun, həm də yazılma etibarilə türkologiyanın ən böyük və ən qiymətli, ən qədim maddi-mənəvi mirasıdır, mədəniyyət abidəsidir.(2.30)

Türkologiyada Mahmud Kaşğarinin "Divan"ında qeydə alınmış atalar sözləri və məsəllərdə nəinki konvensiya, transformasiya hadisələri, həmçinin enontosemiyanı şərtləndirən cəhətlər, vasitələr barədə də demək olar bir kəlmə olsun belə danışılmamışdır. Halbuki, Kaşğarinin qeydə aldığı hikmətli kəlam mətnlərində enantiosemiyanı və yaxud konvensiyanı gerçəkləşdirən linqvistik vasitələrin tədqiqi günümüzün ən vacib və aktual problemlərindən olub öz layiqli tədqiqini gözləməkdədir.

Mahmud Kaşğarinin "Divan"ında əks tapmış atalar sözləri və məsəllərin semantik istiqamətdə araşdırılması əsas verir deyək ki, Azərbaycan, o cümlədən digər türkçələrdə enantosemiya hadisəsi olduqca qədim tarixi-linqvistik bir hadisədir.

"Divan"da qeydə alınmış hikmətli kəlamların bəzilərində müşahidə olunan enantosemiya hadisəsi söz və ifadələrin çoxmənalılığından doğur. "Çoxmənalılıq dildə müəyyən səbəblərlə

bağlı olaraq yaranır. Sözlər əvvəl təkmənalı olur, müəyyən tarixi dövrdən sonra çoxmənalılığa doğru inkişaf edir. Burada məcazlaşma üstünlük təşkil edir" (4,159).

Müdrik kəlamlarda məcazlaşma digər semantik vasitələri yaratdığı kimi enantosemiya hadisəsini şərtləndirir. Digər bir etimoloji yozuma diqqət yetirək: "İçürtdi: içirdi: ol manqa suv içirtdi = o mənə su içirdi". Başqası da belədir (içtürür – içtürmək). Bu mənada icürdi də deyilir. "Suv içürməksə süt ber" sözündə də işlənir. "Su içirməyənə süd ver" deməkdir. "Sənə pislik edənə yaxşılıq et" yerindədir (1, 260).

"Divan"da əks-zidd mənalar ifadə etmək xüsusiyyəti daha çox atalar sözləri və məsəllərdə özünü göstərir və belə deyim formalarında müxtəlif enantiosemiya ifadə vasitələri meydana çıxır və bu linqvistik hadisə həmin ifadə vasitələri ilə reallaşdırılır. Məsələn, lüğətdə "adhruk" sözünün izahı məqamında müasir tərcüməsi ilə birlikdə belə bir etimoloji təhlil verilmişdir: "Adhruk: oğuzca "başqa, ayrı" deməkdir. Digər türklər bu söz əvəzinə "adhın"deyirlər. Aşağıdakı məsəldə də işlədilmişdir: adhın kisi nənqi nənq sanmas = özgənin malı mal sayılmaz" (1,162). Tarixi dövrlər üçün nənqi nənq, müasir dövrdə isə malı // mal cütlükləri xarakterikdir. Hər iki forma omonimik səciyyə kəsb edib isimlə ifadə olunmasına baxmayaraq, semantik cəhətdən əks qütblərdə işlənərək ziddiyyət çaları yaradır.Burada qarşılaşdırılan sözlərin enantiosemik cəhətləri məsəl mətninin məzmununa müvafiq tərzdə müəyyənləşir: başqasının, özgəsinin malı və sənin malın ifadələri əks qütblərdə duran antonimik kəlmələrdir. Həqiqətən də, başqa adamın malı hətta sənin əlində olsa belə, sənin malın sayılmaz, çünki necə olsa da geci-tezi alınaraq Mahmud Kaşğarinin qeydə aldığı bu məsəlin ("özgəsinin malı mal sayılmaz) semantik sinonimliyinə, yəni məzmunca, mənaca oxşarlığına uyğun olaraq "özgə atına minən tez düşər" – məsəli xalq tərəfindən yaradılmışdır. Bu məsəldə də at sənin deyil, özgəsinin olduğuna görə sənin tez düşəcəyinə işarə edilmişdir. Hər iki məsəldə müəyyən qisim sözlər, ifadələrin (başqasının malı // sənin malın, özgəsinin atı // sənin atın) omonim mənalarının qarşılaşdırılması ilə yaranır. Əks semantik qütblərin ifadəçiləri olan omonim cütlüklər antonimlərə konvensiya və yaxud, transformasiya edilir"(6, 42). Çünki, bu tip sözlər, ifadələr "xaricən bir-birinin eyni olsa da, bir-birinə oxşasa da başqa-başqa semantik mənaları ifadə edir"(7,240).

"Divan" da müasir Azərbaycan dili üçün arxaikləşmiş, tamamilə fəaliyyətini dayandırmış "ukruk" sözü çağdaş dilimizdə "kəmənd"mənasını bildirir. "Ukruk" sözünün bir atalar sözündə işlənməsi barədə Kaşğari belə bir qeyd vermişdir: "tağıq ukrukın əgməs, tənqizni kayğıkın bügməs = dağ kəməndlə əyilməz, dəniz isə qayıqla qapanmaz". Bu söz "böyük bir iş kiçik bir səbəblə yarımçıq qalmaz" yerinə işlədilir (1,164). Həmin atalar sözü həm orijinal variantında, həm də tərcümə formasında iki kompomponentlidir: birinci komponentdəki obyekt (tağıq), əşya bildirən söz (ukruk = kəmənd), ikinci komponentdəki obyekt (təngiz = dəniz), əşya bildirən söz (kayğık –qayıq)məfhumlarla qarşılaşdırılaraq məcazi məna ifadə edən bir deyim formalaşdırılır. Məcazi mənada işlənən atalar sözündə "dağ kəmənd" sözləri "böyük bir işi", "dəniz qayıq" isə "kiçik bir səbəbi" simvolizə edir. Beləliklə, qarşılaşdırılan tərəflərdə əks-qütbdə (böyük iş = kiçik bir səbəb) istifadə olunmuş söz və ifadələr enantiosemiya hadisəsinin reallaşdırılması üçün mühüm rol oynayırlar. Başqa sözlə desək, həmin atalar sözü məcazlaşma məqamında iki antonimik cütlüyün mənaları (böyük-kiçik) qarşı-qarşıya qoyulmaqla enantiosemiya hadisəsi yaranmış olur. Qeyd etməliyik ki, bu atalar sözünün həm qədim variantının, həm tərcümə şəklinin üst strukturunda sifətlə ifadə olunmuş "böyük" və "kiçik" sözləri işlənməmişdir. Bu sözlər həmin deyimin alt qatında, dərinliyində implisistik şəkildədir. Məcazi mənanın açılması prosesində implistlikdən çıxaraq eksplistik şəkil alır.

Mahmud Kaşğaridən çox-çox əvvəlki zamanlardan başlayaraq bir ənənə şəklində obrazlılıq keyfiyyəti və effekti yaratmaq məqsədilə türklər atalar sözləri və məsəllərdə enantiosemik səciyyəli hikmətli kəlamlar, deyimlər formalaşdırmışlar ki, lüğət müəllifi bunlardan bəzilərini

yazıya alaraq gələcək nəsillərə uğurla çatdırmağa nail olkmuşdur. Uzaqgörən, ensiklopedik zəka sahibinin qeydə aldığı "ərnqən" sözünün izahı mənasında verdiyi digər bir atalar sözünə diqqət yetirək: "ərnqən: ərgən, subay. Həmin söz bu deyimdə də işlənmişdir: Ərnqəngə əlig kan böz üm tikəməs = ərgənə əlli arsın bezdən don, şalvar tikilməz" deməkdir. Çünki yad adamın subaya ürəyi yanmaz, ona evlənməsi üçün öyüd – nəsihət verməz, yaxşılığını istəməz. Bu söz evlənməyi təşviq etmək üçün söylənir (1,177). Bu məsəldə də məcazi məna ikikomponentlidir. Birinci komponentdəki məna eksplikativdir, açıqdadır, ikinci komponentdəki məna implikativdir, gizlindədir, qapalıdır, maddi söz cildi şəklində ifadəsimni tapmamışdır. Eksplistik şəkildə subay, ərgən adam üçün nəsihətin, öyüdün verilməsi yad adama şamil edilir və bunun özünü doğrultmadığı iqrar olunur və onun səbəbi də göstərilir , çünki yad adam subayın, ərgənin yaxşılığını istəməz. İkinci komponentdə subay adama qohumun öyüd-nəsihəti implist şəkildədir, qohumun nəsihəti, yaxşılığı təlqin edilir və beləliklə, folklor mətnində enantiosemik iki cəhət qarşılaşdırılır: subay adama yadın nəsihət verməsi ilə yaxın qohumun öyüd verməsi. Yad və qohum sözlərinin, eyni zamanda birinin eksplistik, digərinin implistik şəkildə qarşılaşdırılması yolu ilə əks qütblər inikas etdirilir və bunlar da enantiosemiya hadisəsinin yaranmasına şərait yaradılır.

Mahmud Kaşğarinin yazıya alıb bu günümüzə ərmağan etdiyi atalar sözləri və məsəllərin bəzilərində bir neçə enantiosemiya hadisəsinin gerçəkləşdirilməsinə xidmət edən antonimik vasitələrə təsadüf edirik və buna hikmətli kəlamların tərcümə variantlarında rast gəlirik. Aşağıdakı etimoloji təhlilə diqqət yetirək: "Ədhirdi: ayırdı. Ol edhgünü yavlaktan ədhirdi = o, yaxşını pisdən, düzü əyridən, xeyiri şərdən ayırdı". Bu məsəldə də işlənmişdir : ətli tırnqaklı əhdirməs = ət dırnaqdan ayrılmaz". Bu söz ətin dırnaqdan ayrımadığı kimi, qohumların da bir-birindən ayrılmayacağını bildirmək üçün deyilir, ədhirür - ədhirmək) (1,328). İnsanın bədən üzvlərindən olan "ət" və "dırnaq" onun əl və ayaq hissələrində mövcuddur. Məsəldə "ət" Məsəldə "ət" məcaziləşərək yaxşı, müsbət, düz, xeyir "dırnaq" isə pis, əyri, şər" kimi mənfi əmælləri işarələyir. İnsana məxsus bu müsbət və mənfi keyfiyyətlər qarşılaşdırılır. İmplistik cəhətlər süuraltı olaraq beynimizdə belə təsəvvür yaradır ki, qohum nə qədər pis, əyri, şər olsa da, yenə də o qohumdur, ətlə dırnaq kimidir, ayrılmazdılar. Müasir dövrdə müəyyən qohumların çox mehriban, çox səmimi olduqlarını işarələmək üçün "Onlar çox mehriban səmimi qohumdular, ətlə dırnaq kimi ayrılmazdılar" – məsəlindən də istifadə olunur. Digər bir məsəl də bu deyimə sinonim olaraq işlədilir: "Qohum dırnaq deyil ki, uzananda kəsib atasan". Fikrimizcə, "dırnaq" keyfiyyət etibarilə bərk olduğuna görə qohumların birliyindəki möhkəmliyi, "ət yumşaq, incə həssas olduğundan qohumlar arasındakı səmimiyyəti, mehribanlığı rəmzləşdirir ki, bu semantika da sözlərin olduqca dərin alt qatında gizli şəkildədir."

"Divan"da qeydə alınmış hikmətli kəlamların bəzilərində müşahidə olunan enantosemiya hadisəsi söz və ifadələrin çoxmənalılığından doğur. "Çoxmənalılıq dildə müəyyən səbəblərlə bağlı olaraq yaranır. Sözlər əvvəl təkmənalı olur, müəyyən tarixi dövrdən sonra çoxmənalılığa doğru inkişaf edir. Burada məcazlaşma üstünlük təşkil edir" (8,159). Müdrik kəlamlarda məcazlaşma digər semantik vasitələri yaratdığı kimi enantosemiya hadisəsini şərtləndirir. Digər bir etimoloji yozuma diqqət yetirək: "İçürtdi: içirdi: ol manqa suv içirtdi = o mənə su içirdi". Başqası da belədir (içtürür – içtürmək). Bu mənada icürdi də deyilir. "Suv içürməksə süt ber" sözündə də işlənir. "Su içirməyənə süd ver" deməkdir. "Sənə pislik edənə yaxşılıq et"yerindədir(9,260).Kaşğarinin qeydə aldığı "suv içürkməksəkə süt ber" – atalar sözünün dilin tarixi inkişaf və təkamülü ilə bağlı, həm də həmin kəlamın məna və məzmununa uyğun bir sıra sinonim variantları dayaranmışdır: *Yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq ər kişinin işidir.* Geniş formada olan bu atalar sözü çoxkomponentlidir:

1) Yaxşılıq edənin əvəzində ona yaxşılıqla cavab verilməsi. Bu əməl dilxarici aspektdən yanaşılanda bir qədər asandır. Burada sintaktik səviyyədə "yaxşılığa yaxşılıq"sintakmatik təkrar növündən istifadə olunaraq "yaxşı" sifəti substantivləşdirilmişdir. Əşyaviləşdirilmiş "yaxşılığa" kəlamın bir komponentini, "yaxşılıq" isə diğər komponentində işlənərək omonim funksiyada çıxış etmişdir.

2) *Yaxşılığa yaxşılıq hər kişinin işi* olduğuna görə həmin mücərrəd anlayışla "kişi", "insan" qarşılaşdırılır;

Bu komponentdə bir-birinə zidd, yəni antonimik mahiyyətli "yaxşılıqla" "yamanlıq" mücərrəd anlayışları qarşılaşdırılır, əks mənalı sözlər substantivləşdirilərək sifətlik funksiyasından çıxarılır, sözlər ismə konvensiya olunur;

Türkologiyada Mahmud Kaşğarinin "Divan"ında qeydə alınmış atalar sözləri və məsəllərdə nəinki konvensiya, transformasiya hadisələri, həmçinin enontosemiyanı şərtləndirən cəhətlər, vasitələr barədə də demək olar bir kəlmə olsun belə danışılmamışdır. Halbuki, Kaşğarinin qeydə aldığı hikmətli kəlam mətnlərində enantiosemiyanı və yaxud konvensiyanı gerçəkləşdirən linqvistik vasitələrin tədqiqi günümüzün ən vacib və aktual problemlərindən olub öz layiqli tədqiqini gözləməkdədir."Divan"da müəyyən sözlərin əks mənada işlədilməsi yolu ilə yaranan enantosemiyaya xeyli sayda hikmətli kəlamlarda təsadüf olunur və "üştərdi" sözünün etimoloji edütünə nəzər salaq: "*Üştərdi: ol kılmış ışın üştərdi" = elədiyi işi dandı:* (üştərür-üştərmək). Hər hansı bir məsələdə tanınma və inkar da belədir. Həmin söz bu atalar sözündə də işlənmişdir: "*tüzün bizlə uruş, utun bizlə ütərmə = xoşxasiyyət adamla lap vuruş, ancaq alçaq adamla heç yarışma da, çünki qabarar, pislik edər*" (8, 362). Bu atalar sözünün həm qədim, həm də tərcümə edilmiş variantlarında zidiyyətli qarşılaşdırma xoşxasiyyət adam və bədxasiyyət adam (tüzün birləutun birlə) söz və ifadələri ilə həyata keçirilərək antonimik enantosemiya hadisəsi reallaşdırılır.

Mahirə Nağı qızı yaradıcılığında əks tapmış atalar sözləri və məsəllərin semantik istiqamətdə araşdırılması əsas verir deyək ki, Azərbaycan, o cümlədən digər türkçələrdə enantosemiya hadisəsi olduqca qədim tarixi-linqvistik bir hadisədir. Dillərin tarixi inkişaf və təkamülü ilə bağlı olaraq müəyyən dil vahidləri omonimləşir, antonimləşir, sinonimləşir, və belə semantik proseslər adverbiallaşma, isimləşmə, əşyaviləşmə, sustantivləşmə, konversiya kimi söz və məna yaratma üsulları kimi çoxmənalılıq yaradır. Bu cür proseslərdə enantosemiya hadisəsi də meydana çıxır ki, belə semantik linqvistik təhlilini vermək işini bir növ zəruriləşdirir. Enantosemiya hadisəsi türk dillərində universal səciyyə kəsb etdiyi kimi, müxtəlifsistemli dillərin semantik resursları üçün də xarakterikdir.

İstifadə olunmuş ədəbiyyat

1."Kitabi-Dədə Qorqud" un izahlı lüğəti. Bakı, 1999.

2. Mahirə Nağıqızı Lövbər adam. Bakı 2022, ADPU-nun nəşriyyatı, 255 s

3.Hüseynova Mahirə.Mahmud Kaşğarinin "Divani lüğət-it-türk əsərininqrammatik xüsusiyyətləri". Bakı 2022, ADPU-nun nəşriyyatı, 275 s.

4.Hüseynova Mahirə. "Dilin elmi və estetik problemləri". Bakı 2019, ADPU-nun nəşriyyatı, 320s.

5.Məhərrəmova R. Sabirin satirik şeirlərinin leksikası. "Elm, Bakı1968.

6. Kaşğari M. Divani lüğat–it türk. Bakı 2006. "Ozan", çevirəni və nəşrə hazırlayanı R.Əskər, IV cid,

7. Kaşğari M. Divani lüğat–it türk. Bakı 2006. “Ozan” , çevirəni və nəşrə hazırlayanı R.Əskər, II cid,

8. Xəlilov B. Müasir Azerbaycan dilinin leksikologiyası.Bakı 2008, “Nurlan”,442 s.

XALQINI SEVƏN RƏHBƏR

MƏMMƏDOVA SVETLANA NƏSIB QIZI

Azərbaycan Dövlət Pedoqoji Universitetinin Xarici Dillər Mərkəzinin dosenti, filologiya üzrə fəlsəfə doktoru

Xülasə

Bu gün Ulu Öndər Heydər Əliyevin siyasi kursunu davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına və milli-mənəvi dəyərlərin qorunub saxlanmasına xüsusi diqqət yetirir, ölkəmiz dünyada söz və nüfuz sahibi kimi tanınaraq müdafiə qüdrətini daha da artırır. Qürurla deyə bilərik ki, Ali Baş Komandanımız və rəşadətli ordumuz 30 ilə yaxın düşmən tapdağında olan əzəli vətən torpaqlarımızı işğaldan azad edib. Ulu Öndərimizin müqəddəs vəsiyyəti yerinə yetirilərək qədim Şuşa şəhəri daxil olmaqla Qarabağ torpaqlarında Azərbaycan bayrağı dalğalanır.Bu Qələbənin mayasında rəhbər-dövlət-ordu-xalq birliyinin bərabərliyindən alınan güclü inam, möhtəşəm və sarsılmaz bağlılıq dayanır.

Açar sözlər

Lider,müstəqillik,demokratiya,islahatlar,inkşaf,sarsılmaz.

Özət

Bugün Ulu Önder Haydar Aliyev'in siyasi yolunu sürdüren Azerbaycan Cumhuriyeti Cumhurbaşkanı Sayın İlham Aliyev, devletin güçlendirilmesine, ekonominin kalkınmasına, milli ve manevi değerlerin korunmasına özel önem vermektedir. . Gururla söyleyebiliriz ki, Başkomutanımız ve yiğit ordumuz, yaklaşık 30 yıldır düşman elinde bulunan kadim vatanımızı işgalden kurtarmıştır. Ulu Önderimizin kutsal vasiyetinin yerine getirilmesi kapsamında, Şuşa kadim kentinin de aralarında bulunduğu Karabağ topraklarında Azerbaycan bayrağı dalgalanıyor.

Bu Zaferin temelinde lider-devlet-ordu-halk birlikteliğinden doğan güçlü inanç, muhteşem ve sarsılmaz bağlılık vardır.

Anahtar kelimeler

Lider, bağımsızlık, demokrasi, reformlar, kalkınma, sarsılmaz.

Summary

Today, the President of the Republic of Azerbaijan, Mr. Ilham Aliyev, who continues the political course of the Great Leader Heydar Aliyev, pays special attention to the strengthening of statehood, the development of the economy, and the preservation of national and moral values. We can proudly say that our Commander-in-Chief and our valiant army freed our ancient homeland from occupation, which was in the hands of the enemy for nearly 30 years. In fulfillment of the holy will of our Great Leader, the Azerbaijani flag is flying in the lands of Karabakh, including the ancient city of Shusha.At the root of this Victory is the strong belief, magnificent and unshakable commitment derived from the unity of the leader-state-army-people.

Key words: Leader, independence, democracy, reforms, development, unbreakable.

Giriş

Müstəqil Azərbaycan Dövlətinin xilaskarı, dünya şöhrətli siyasətçi və böyük şəxsiyyət olan Heydər Əliyev doğurdanda tarixə dərin iz qoyan görkəmli xadimlərdən biridir. O xalqını və vətənini böyük məhəbbətlə sevir və Azərbaycan dövlətinin qüdrətinin möhkəmlənməsi , iqtisadi və sosial cəhətdən inkşaf etməsi üçün əlindən gələni edirdi. Bildiyimiz kimi tarixən keçməkeşli yol keçən Azərbaycan dövləti müstəqil dövlətə sahib olmaq üçün əzmkarlıqla mübarizə aparıb. Heydər Əliyevin köməkliyi ilə Azərbaycan xalqının azadlıq mübarizəsinin əsas mərhələlərindən birini təşkil edən 17 noyabr - Milli Dirçəliş Günü tariximizdə Azərbaycanın müstəqilliyinin bərpa olunmasında önəmli rol oynayıb.1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin yeni tərkibdə ilk sessiyası keçirildi. Muxtar respublikanın adından "sovet" və "sosialist" sözləri çıxarıldı. Bununla da milli dövlətçiliyimizin dirçəlişi istiqamətində ilk böyük addım atılmış oldu. Ulu Öndərin sədrliyi ilə keçirilən həmin tarixi sessiyada Muxtar Respublikanın dövlət rəmzləri haqqında məsələ müzakirə edildi. Üçrəngli bayrağın dövlət rəmzi kimi qəbulu ilə əlaqədar təklif irəli sürüldü. Sessiya Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının bərpa olunması barədə qərar çıxararaq onun dövlət bayrağı kimi qəbul edilməsi ilə bağlı Azərbaycanın Ali Soveti qarşısında məsələ qaldırdı. Beləliklə, Heydər Əliyev müasir və müstəqil Azərbaycanın şanlı tarixini yazdı.Ümummilli Lider Heydər Əliyev hakimiyyətə gəlişi xalqa ümid oldu. Bütün sahələrdə inkişaf müşahidə olunmağa başladı, xalqımızın milli dirçəlişi və mənəvi dəyərlərinin yüksək tutulması, adət və ənənələrimizin qorunub saxlanılması reallığa çevrildi.

Bütün bunlar göstərir ki, Ulu Öndər Heydər Əliyev tariximizdə böyük iz qoyub.Onun Azərbaycan xalqınaelədikləri saymaqla bitməz.Azərbaycanın müstəqil dövlət quruculuğunun bütün sahələrində, o cümlədən hərbi təhlükəsizliyinin təmin edilməsi sahəsində gördüyü əzəmətli işlər Heydər Əliyevin mahir siyasətçi, böyük təşkilatçı olduğunu bir daha sübut edir. Azərbaycan Ordusunun formalaşdırılması sahəsində Heydər Əliyevin tarixi fəaliyyyətinin ilk addımları Naxçıvanda atıldı. Bu böyük dövlət xadiminin muxtar respublikadakı qısa fəaliyyəti bir daha göstərdi ki, məsqədyönlü, milli maraqları qoruyan siyasət yeridilməsi, xalqın milli maraqlar ətrafında birləşdirilməsi ən mürəkkəb vəzifələri belə həyata keçirməyə imkan verir. Heydər Əliyev parlaq zəkası və bənzərsiz təşkilatçılıq qabiliyyəti ilə həm Naxçıvanın erməni təcavüzündən müdafiəsini, həm də burada milli hərbi hissənin sağlam əsaslar üzərində formalaşmasını təmin etdi və bununla da respublikanın iqtidarında olan qüvvələrə də dövlətçilik nümunəsi göstərdi.Ordu quruculuğunda yeni bir mərhələnin başlanğıcını isə Heydər Əliyevin radio və televiziya ilə xalqa 2 noyabr 1993-cü il müraciəti qoydu. Azərbaycan Respublikasının Prezidenti seçilməsindən cəmi bir ay sonra edilmiş bu müraciət bir tərəfdən sağlam ordu quruculuğunun əsaslarını və bu istiqamətdə xalqın və dövlətin qarşısında dayanan mühüm vəzifələri müəyyənləşdirən konseptual bir sənəd idisə, bir tərəfdən də Heydər Əliyevin xalqa çağırışı idi. Bu çağırış xalqın bütün təbəqələri tərəfindən qəbul edildi və xalqın bütün potensialı ordu quruculuğuna istiqamətləndirildi. Yəni, Heydər Əliyev böyük dövlətçilik təfəkkürü ilə xalqın potensialını ordu quruculuğu kimi mühüm bir sahəyə səfərbər edə bildi. Heydər Əliyev respublika ağsaqqallarına, ziyalılarına, mədəniyyət və incəsənət xadimlərinə, dindarlara, iş adamlarına müraciət edib onları orduya daha yaxından kömək etməyə, əsgər və zabitlərin mübariz döyüş ruhunda tərbiyə olunmasına yardım etməyə, orduda baş verən qanunsuzluqların, başlıcası isə fərariliyin qarşısının alınmasında qətiyyətli mövqe tutmağa çağırdı. Heydər Əliyev xüsusilə hərbi strukturlara yol tapmış rüşvətxorluğa qarşı mübarizənin gücləndirilməsinin zəruriliyini vurğuladı. Bu baxımdan Ümummilli Lider orduya çağırış-səfərbərlik işinin düzgün təşkil edilməsinə böyük əhəmiyyət verir, bu məsələni yalnız hərbi

komissarlıqların və hərbi strukturların deyil, eyni zamanda, dövlət və hakimiyyət orqanlarını qarşısında dayanan çox mühüm vəzifə sayırdı.

Ulu öndər Heydər Əliyev Azərbaycan dövlətinin rəhbəri olduğu ilk illərdən ana dilinin sosial-siyasi, ideoloji problemləri ilə bilavasitə məşğul olub ve bu sahədə bir çox islahatlar keçirib:

1)Azərbaycan dili dövlət dili olaraq Azərbaycan SSR-in müvafiq qanunlarında (xüsusilə Konstitusiyada) öz əksini tapıb, Moskvanın etirazlarına baxmayaraq, respublikada rus dili ilə yanaşı, Azərbaycan dilinin də rəsmiliyi təmin edilib.

2)Azərbaycandilli məktəbin, maarifin inkişafına xüsusi qayğı göstərilib, bir sıra digər Sovet respublikalarından fərqli olaraq, Azərbaycanda gəncliyin ana dilində təhsilinə üstünlük verilib.

3)Azərbaycan dilində mətbuatın, elmin tərəqqisi üçün dövlət rəhbərliyi əlindən gələni edib, Azərbaycanın böyük yazıçıları öz əsərlərini, demək olar ki, yalnız ana dilində yazıb, Azərbaycan Yazıçılar İttifaqının aparıcı mətbuat orqanları - "Azərbaycan", "Ulduz" jurnalları, "Ədəbiyyat və incəsənət" qəzeti Azərbaycan dilində nəşr edilib.

4)Azərbaycan dilinin tarixi o zamana qədər görünməmiş bir ardıcıllıqla araşdırılıb, çoxcildlik "Müasir Azərbaycan dili" kitabları yaradılıb, həmin çoxcildliklərdən biri - ali məktəblər üçün "Müasir Azərbaycan dili" dərsliyi Azərbaycan Dövlət mükafatına layiq görülüb, ana dilini araşdıran alimlərin əməyi yüksək qiymətləndirilməklə, əslində, ana dilinin nüfuzu bir daha təsdiq edilib.

5)Həm rəsmi, həm də qeyri-rəsmi yığıncaqlarda, məclislərdə Azərbaycan dilində danışmaqdan çəkinməyən respublika rəhbəri praktik olaraq ana dilinin ictimai-siyasi mövqeyinin yüksəlməsinə bilavasitə təsir göstərib, başqalarına nümunə olub.

Bütün bunlar onu göstərir ki, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin hazırlayıb həyata keçirdiyi dil siyasəti Onun dövlət quruculuğu siyasətinin inkşafına xidmət edir. Ali məktəblər üçün yazılmış "Müasir Azərbaycan dili" dərsliklərinin Respublika Dövlət mükafatına layiq görülməsi, anadilli ədəbiyyatın inkişafı üçün hər cür şəraitin yaradılması, Azərbaycan ədəbiyyatı klassiklərinin təbliği məhz bunun nəticəsi idi.

Azərbaycan təhsilinin qayğıkeş hamisi olan ulu öndərimizin "Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" 4 oktyabr 2002-ci il tarixli sərəncamı və həmin sərəncamla hazırlanmış xüsusi proqram sayəsində Azərbaycanda dünya standartlarına uyğun müasir tipli məktəb binaları tikilməyə başlandı. "Təhsil sahəsi xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir" – deyən ümummilli lider Azərbaycan təhsilinin dinamik inkişafını təmin edən bir sıra sənədlər imzaladı. "Azərbaycan Respublikasının təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 13 iyun 2000-ci il, "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il, "Azərbaycan əlifbası və Azərbaycan Dili Günü (1 avqust) təsis edilməsi haqqında" 9 avqust 2001- ci il, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun tətbiq edilməsi barədə" 2 yanvar 2003-cü il tarixli fərman və sərəncamlar təhsilimizin dünya standartları səviyyəsinə qaldırılmasında böyük rol oynadı. Bununla yanaşı, Azərbaycan tarixinin, ədəbiyyatının, coğrafiyasının, öyrədilməsinə, mükəmməl dərsliklərin hazırlanmasına, Azərbaycan dilinin öyrədilməsinə, xüsusilə dövlət dili statusunda təbliğinə diqqət artırıldı.

Ulu Öndərin Azərbaycanda hakimiyyətə ilk gəlişi durğunluq illərinə təsadüf etmişdi. Cəmiyyətin hər sahəsində olduğu kimi, səhiyyədə də əvvəlki dövrlərdə əldə edilən uğurlar öz nəticələrini göstərirdi. Bununla belə, diqqətli müşahidəçi vəziyyətin heç də yaxşı olmadığını, səhiyyənin maddi–texniki bazası cəhətdən isə hətta acınacaqlı olduğunu müşahidə edirdi. İmmunlaşdırma, bir sıra infeksion xəstəliklər, o cümlədən vərəm, malyariya, difteriya,

poliomielit, məxmərək və s. narkomaniya, ana və uşaq sağlamlığı, kadr çatışmazlığı və mövcud kadrların səviyyəsi bütün bunlar Azərbaycan səhiyyəsində öz həllini gözləyən problemlərin yalnız bir hissəsi idi.Ümummilli Lider Heydər Əliyevin səhiyyənin inkişafı üzrə tədbirlər kompleksinin əsas məqamlarından biri mövcud səhiyyə ocaqlarının abadlaşdırılması, yeni tibb müəssisələrinin tikilməsi idi. 1970–ci illərdə bir sıra bölgələrdə tibb müəssisələri yararsız binalarda yerləşirdi. 1970–1980–ci illərdə respublikada bir çox mühüm səhiyyə obyektləri inşa edildi. Təkcə uşaq poliklinikalarının sayı 1970–1975–ci illərdə 150–dən 185–ə çatdı. Yeni istifadəyə verilən səhiyyə müəssisələri arasında Uroloji Kliniki Xəstəxana, neyrocərrahiyyə, toksikologiya, yanıq mərkəzləri kimi tibb ocaqları var idi. Elmi–Tədqiqat Oftalmologiya və Elmi–Tədqiqat Onkologiya institutları üçün yeni binalar da o zaman tikilməyə başladı.Müasir səhiyyə müəssisələri müvafiq yüksək səviyyəli kadr potensialının olmasını da tələb edirdi. Həkimlərin və orta tibb işçilərinin çatışmazlığını aradan qaldırmaq üçün Heydər Əliyevin təşəbbüsü ilə ilk növbədə Azərbaycan Tibb İnstitutuna və tibb məktəblərinə tələbə qəbulu artırıldı, tibbi kadrlara ehtiyac olan ucqar bölgələrdən gələn abituriyentlər üçün güzəştlər tətbiq edildi. Bununla da rayonların səhiyyə müəssisələrində kadr çatışmazlığı tədricən aradan qalxmağa başladı.Ümummilli lider Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusu, müstəqil respublikamızın dünya birliyinə inteqrasiyasının, yeni inkişaf strategiyasının banisi olmaqla bərabər, eyni zamanda Azərbaycanda multikulturalizmin dövlət siyasətinə çevrilməsinin əsasını qoymuşdur. Heydər Əliyev 1993-cü ilin 15 iyununda ölkə rəhbərliyinə qayıtdığı gün Milli Məclisdə etdiyi ilk çıxışında bu məqamı xüsusi vurğulamış, respublikadakı çoxmillətliliyi Azərbaycanın sərvəti adlandırıb:"Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Azərbaycanın ən başlıca sərvətlərindən biri qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif dinlərə etiqad edən adamlardır. Biz bunu qiymətləndiririk və saxlayacağıq. Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir. Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Azərbaycanlı sözü bizi həmişə birləşdirib".

Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqını, millətini və bütövlükdə, vətənimizi bəlalardan qurtardı və Azərbaycanın sürətlə inkişafı üçün hər cür şəraitləri yaratdı, həmçinin, bütün sahələrdə ölkəmizin inkişaf etməsinə nail oldu. Xalqımız Ulu Öndər Heydər Əliyevin gördüyü bu yüksək səviyyəli işlərə görə ona borcludur.Həmçinin qeyd etmək lazımdır ki, Azərbaycan xalqı həm də ona görə xoşbəxt xalqdır ki, Ulu öndər Heydər Əliyevin yetirməsi olan İlham Əliyev onun ideyalarını uğurla davam etdirir ,Azərbaycan Dövlətini nəinki Cənubi Qafqazda həm də bütün dünyada ən tanınan və qəbul edilən dövlətlərdən biri edib.

Ədəbiyyat siyahısı

1.Əbədi müstəqillik tarixi yazan lider Heydər Əliyev Heydər Əliyevin 95 illik yubileyi münasibətilə mərkəzi kitabxanalarının uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait. Bakı – 2018

2. İsa Həbibbəyli, Tehran Əlişanoğlu, Əlizadə Əsgərli, Elnarə Akimova, Aygün Bağırlı, Lalə Həsənova ƏDƏBİYYATDA HEYDƏR ƏLİYEV OBRAZI TARİXİ GERÇƏKLİKDƏN İDEALA “Elm və təhsil” Bakı – 2018

3.Heydər əliyevin kəlamları Bakı- 2019

4. Heydər Əliyev Biblioqrafik Məlumat Kitabı Abuzər Xələfov, Solmaz Sadıqova Bakı- 2003

HEYDAR ALIYEV'S AZERBAIJANI IDEOLOGY IN THE SCIENTIFIC-THEORETICAL VIEWS OF PROFESSOR MAHIRA HUSEYNOVA
HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI PROFESSOR MAHİRƏ HÜSEYNOVANIN ELMİ-NƏZƏRİ GÖRÜŞLƏRİNDƏ

RAZİM MƏMMƏDOV

ADPU-nun Ədəbiyyat kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent

0000- 0002-5694- 9501

Xülasə
Azərbaycan xalqının iftixarı Ümumilli Liderimiz Heydər Əliyev irsinin öyrənilməsi, ehtiyac özünü bu gün də hiss etdirir. Azadlıq və müstəqillik uğrunda mübarizənin bayraqdarı olan Heydər Əliyevin çoxcəhətli yaradıcılığı professor Mahirə Hüseynovanın elmi-nəzəri görüşlərində ətraflı öyrənilir və şərh olunur. Müəllif monoqrafiya və məqalələrində Ulu Öndərin şəxsi keyfiyyətlərini on plana çəkməklə yanaşı, həm də onun bütün dövlərdə Vətəninə, xalqına sədaqətlə və ləyaqətlə xidmət etməsindən söhbət açır. Eləcə də Ümummilli Lider Heydər Əliyevi ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-həyatını dirçəldən, Azərbaycanı və Azərbaycan xalqını ürəkdən sevən İNSAN kimi dəyərləndirilir.
Açar sözlər: Heydər Əliyev, peşəkar siyasətçi, dövlət qurucusu, azərbaycançılıq ideologiyası, professor Mahirə Hüseynova, elmi-nəzəri fikir**.**
Summary
The need to study the heritage of the national leader Heydar Aliyev, the pride of the Azerbaijani people, is felt even today. The multifaceted creativity of Heydar Aliyev, the flagbearer of the struggle for freedom and independence, is studied and interpreted in detail in the scientific-theoretical views of Professor Mahira Huseynova. In her monographs and articles, the author not only highlights the personal qualities of the Great Leader, but also talks about his loyal and dignified service to his homeland and people in all eras. Also, National Leader Heydar Aliyev is valued as a PERSON who revived the social-political, socio-economic, scientific-life of the country, who loves Azerbaijan and the people of Azerbaijan wholeheartedly.
Key words: Heydar Aliyev, professional politician, state builder, ideology of Azerbaijaniism, Professor Mahira Huseynova, scientific and theoretical views.

Giriş
Xalqımızın siyasi mübarizə əzminin güclənməsində, milli özünü dərketmə prosesində yeni məna kəsb etməsində, insanlarımızın öz gücünə inam hissinin formalaşmasında vətənpərvərlik qeyrəti və uzaqgörən siyasəti ilə dünya ictimaiyyətini heyrətləndirən ümummilli liderimiz Heydər Əliyevin şərəfli və danılmaz xidmətləri hər kəsə yaxşı məlumdur. Azadlıq və müstəqillik uğrunda mübarizənin bayraqdarı, milli dövlətimizin qurucusu Ulu Öndər deyirdi: "Əgər XX əsrin əvvəllərində xalqımız milli azadlıq, dövlət müstəqilliyi yolunda ilk dəfə böyük addım atıbsa, XX əsrin sonunda milli azadlığa, dövlət müstəqilliyinə tam nail olubdur. Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir. Eyni zamanda bu, XX əsrin əvvəllərindən sonunadək xalqımızın qəlbində yaşayan hissiyyatların, xalqımızın içində gedən proseslərin məntiqi nəticəsidir" [1, s.78]
Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi sayəsində yorulmaq bilmədən siyasi mübarizəsinə, milli dilimizin qorunması və inkişafına, onun dövlət dili səviyyəsinə qaldırılmasına, mənsub oldugu xalqın ədəbiyyat və mədəniyyətinə, onun görkəmli xadimlərinə qayğısına, Ümummilli Liderin 1969-1987-ci və 1991-2001-ci illərdə ölkəmizdə elm və təhsilin inkişafı ilə bağlı gərgin və məhsuldar əməyinə, SSRİ dövlətinin ali siyasi rəhbərliyində təmsil

olunduğu vaxtlarda ölkəmizin inkişafı və maddi-mənəvi mühitinin yaxşılaşdırılması işində əvəzsiz xidmətlərinə, eləcə də digər sahələrdə göstərdiyi səmərəli fəaliyyəti ilə yaxından tanış olmaq baxımından filologiya elmləri doktoru, professor Mahirə Hüseynovanın kitab və monoqrafiyalarında, eləcə də müxtəlif mövzularda yazdığı onlarla məqalələr də irəli sürdüyü elmi-nəzəri fikirləri olduqca əhəmiyyətlidir.

Alimin son illərdə qələmə aldığı "Missiya" (2019), "Ulu öndərimizə məhəbbbət ruhunda" (2008), "Ulu öndərimizin natiqlik məharəti xalqımızın ən böyük sərvətidir" (2011) kitablarında "Heydər Əliyev və Azərbaycan inkişaf konsepsiyası" (2023, S.Sadiqova ilə birlikdə) monoqrafiyasında, "Dünya Heydər Əliyevi belə tanıyırdı", "Əbədiyaşar Ümummili Lider", "Heydər Əliyev və natiqlik sənəti", "Dövlət quruculuğunun yeni mərhələsi", "Müstəqil Azərbaycan dövlətinin qurucusu", "Nümunələri ilə xatırladığımız böyük dövlət xadimi", "Şəxsiyyət və zaman", "Ulu öndər intibahın əbədi simvoludur", "Yazı mədəniyyətimizdə əlamətdar gün", "Heydər Əliyev və milli ədəbi-mədəni düşüncənin keçdiyi tarixi inkişaf yolu", "Ümummilli Liderimizin bir mənalı olaraq qəbul etdiyi Nərimanov" və s. kimi məqalələrində irəli sürdüyü elmi-nəzəri fikirləri aktuallığı ilə diqqəti cəlb edir.

"Missiya" kitabının əhəmiyyətindən bəhs edən akademik İsa Həbibbəyli yazır: "İstedadlı alim və təhsil işçisi, filologiya elmləri doktoru, professor, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin dekanı Mahirə xanım Hüseynovanın təqdim etdiyi kitab ümummilli liderimizin Azərbaycan Respublikasına rəhbərlik etdiyi birinci dövrün araşdırılması işində yaraşma mrtodologiyasına görə fərqlənir. Kitabda Ulu Öndərin respublikamıza rəhbərlik etdiyi birinci mərhələ (1969-1982-ci illər), həmçinin dünyanın superdövlətlərindən biri olan SSRİ-nin ali siyasi rəhbərliyində olduğu vaxtlar və ondan sonrakı zamanlar, 1993-cü ilin iyun ayına qədər olan müddətdə onun fəaliyyətində elm və təhsil, Azərbaycan dilinin qorunub inkişaf etdirilməsi, ədəbiyyatımıza və ədəbiyyat adamlarına qayğı ilə dolu münasibət faktlarla təqdim edilir. Biz müəllifin təqdim etdiyi o faktların yaratdığı mənzərədə xalqını, onun dilini və ədəbiyyatını dərindən sevən, gələcəyini onlarsız təsəvvür belə etmədiyi Azərbaycan gəncliyinin təhsilinə xüsusi diqqət ayıran, elmin səmərəliyini başlıca şərtlərdən biri kimi qəbul edərək, onun inkişafı üçün mümkün olan resursları səfərbər edən dövlət adamının titanik fəaliyyətini görə bilirik" [4, s.7].

Ümummilli Liderin həyat və yaradıcılığının öyrənilməsini özünün vətəndaşlıq və ziyalılıq borcu hesab edən professor Mahirə Hüseynova qürur hissi ilə bildirir: "Heydər Əliyev o fenomenal şəxsiyyətlərdəndir ki, yaşadığı və fəaliyyət göstərdiyi cəmiyyət üçün həmişə və hər məqamda onun irsinin öyrənilməsinə tələbat özünü hiss etdirir. O tələbatı yaradan amil isə ictimai maraqdan əlavə, həmin marağı doğuran situasiyaların diqtə etdiyi tələbi öyrənmək istəyirlər. Hesab edirik ki, zamanın titanik şəxsiyyəti olan ümummilli liderimizi, onun unikal, parlaq dövlətçilik məharətini öyrənən gəncliyimiz üçün Azərbaycan dili və ədəbiyyatının, incəsənət və mədəniyyətimizin hamisi olan Heydər Əliyev irsi xüsusilə cəlbedici olacaqdır. Ümummilli Liderimiz bütün məsələlərə, o cümlədən Azərbaycan dilnin və ədəbiyyatının öyrənilməsi məsələsinə tarixi bağlılıq və ənənəçilik prinsipinin prizmasından baxırdı. O, hesab edirdi ki, gələcək inkişafın yolu məhz fənnin prizmalar üzrə baxışlardan keçir" [4, s.28].

Yeri düşmüşkən onu da qeyd edək ki, "Missiya" kitabı professor Mahirə Hüseynovanın uzun illər çəkdiyi zəhmətin, gərgin əməyin və elmi araşdırmalarının məhsuludur. Professor müxtəlif dövrlərdə Ulu Öndərin yaradıcılığına müraciət etmiş, dövrü mətbuatda ümummilli liderimiz haqqında onun silsilə məqalələri işıq üzü görmüşdür. Müəllif həmin yazılarında da ümummilli liderin çoxcəhətli yaradıcılığının tərkib hissəsi olan mədəniyyət, dil, ədəbiyyat və bu sahələrin görkəmli nümayəndələrinə xüsusi diqqət və qayğı ilə yanaşmasından söhbət açmış, onun cəmiyyətimizdə hökm sürən sükuta yeni bir canlanma gətirməsindən, milli mənafeyin, milli mədəniyyəti və mənəviyyatın inkişafında əvəzolunmaz xidmətləri haqqında məlumat vermişdir. Alimin fikrincə dahi vətənpərvər insan olan Heydər Əliyev istər fəaliyyətinin birinci

dönəmində - Sovetlər dövründə, istərsədə müstəqillik illərində ölkəmizə bütün sahələrdə böyük nailiyyətlər qazandırması onun xalqına, vətəninə bəslədiyi məhəbbətin təzahürü idi.
Mahirə Hüseynovanın yeni faktlarla zəngin olan kitab və məqalələrini oxuduqca insan yorulmur, bezmir, əksinə, onun söhbət açdığı hadisələr oxucunu daha çox aludə edir, Ulu Öndərin yorulmaq bilmədən gördüyü işlərin nə qədər faydalı olduğu insanı təəccübləndirir. Alim bütün dövrlərdə Vətəninə, xalqına sədaqətlə, ləyaqətlə xidmət edən Heydər Əliyevin şəxsi keyfiyyətlərini ön plana çəkir, onun əmək fəaliyyətinə başladığı ilk gündən hansı vəzifədə işləməsindən asılı olmayaraq bütün illərdə və dövrlərdə xalqının yanında olan, onun qayğısını çəkən nadir Azərbaycan kişisi kimi dəyərləndirir, XX əsrdə xalqımızın başına gətirilən bəlalar, repressiyalar və onların səbəblərini araşdıran, imkan daxilində əsl vətənpərvərlik nümayiş etdirərək onların qarşısını almağa qadir olan iradəli, mübariz şəxsiyyət kimi təqdim edir. Kitabda keçən əsrin 20-30-cu illərində, eləcə də sonrakı illərdə həmvətənlərimizin başına gətirilən bəlaların başında duranlar haqqında Heydər Əliyevin arxiv sənədlərinə əsaslanaraq söylədiyi faktlar və dəlillər, bu hadisələrə ümummilli liderimizin münasibəti çox real təsvir olunur. Ulu Öndər 1998-ci il yanvar ayının 14-də Azərbaycan Respublikası Konstitusiya Komissiyasının iclasında Sovet hakimiyyəti dövründə xalqımıza qarşı edilən cinayətləri yada salaraq deyir: "1920-1930-cu illərdə nə qədər repressiyalar olub, insanlar öz yer-yurdundan sürgün edilibdir. O vaxtlar Sovet hakimiyyətinin siyasəti hər yerə aid olsa da, sürgün olunanlar içərisində ən çox repressiya və deportasiyaya məruz qalan elə Azərbaycan xalqı idi... Bütün bu milli faciələri də Azərbaycan xalqı yaşayıbdır. Təəssüf ki, bu hadisələr xalqdan, sonrakı nəsillərdən gizlədilibdir". [4, s.29]
Araşdırmalarda aydın hiss olunur ki, Azərbaycanın ictimai, siyasi, mədəni və ədəbi həyatında böyük xidmətləri olan Nəriman Nərimanovun adının əbədiləşdirilməsi istiqamətində Ulu Öndərin gördüyü işlərə geniş yer verilib. Məlumdur ki, Nəriman Nərimanovun fiziki ömrü Stalin repressiyasının qurbanına çevrildi. Bundan sonrakı illərdə isə onun şəxsiyyəti ilə bağlı qarayaxmalar başlamış, hətta ona "millətçi" damğası vurmağa səy göstərilibdir. Belə bir vaxtda Heydər Əliyev "böyük maarifçi və ədəbiyyat adamının, görkəmli dövlət xadiminin müdafiəsinə qalxdı, Nəriman Nərimanova atılan böhran və iftiraların əsassızlığını ortaya qoyaraq, Kremlin o zamankı ideoloqlarını, həmçinin Siyasi Büronun rəhbərliyini Nəriman Nərimanovun haqsız yerə təqib olunduğunu inandıra bildi. Professor M.Hüseynova öz tədqiqatlarında Nəriman Nərimanovun Azərbaycan xalqının maariflənməsi və tərəqqisi yolundakı tarixi xidmətlərini diqqətlə incələyir, onun oğlu Nəcəfə yazdığı məktubundan məsləhətlərə istinadən hisslərini, arzu və istəklərini, inandığı prinsipləri peşəkarlıqla açıqlaya bilir və H.Əliyevin onun 100 illiyini keçirməklə ədalətin bərpasına nail olduğunu bildirərək yazır: "Bu da ilahi bir qüvvənin uzlaşdırdığı tarixi faktdır ki, Nəriman Nərimanovun anadan olmasının 100 illiyində Azərbaycanın siyasi rəhbəri H.Əliyev idi və zərurətin doğurduğu təsadüfdən yaranan gerçəklik ondan ibarət idi ki, ölkə rəhbəri uzun illər ərzində xüsusi xidmət orqanlarında xidmət etdiyi vaxtlarda Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində işlədiyi müddət ərzində həmin qurumdakı xeyli işlər, o cümlədən Nəriman Nərimanovla bağlı sənədlərlə yaxından tanış olmuşdu. Məlumatın genişliyi və içindən gələn yanğı isə imkan verdi ki, Ümummilli Lider Nəriman Nərimanovun özünün vaxtında, həm də ondan sonrakı dövrdə baş qaldırmış böhtan və uydurmaları puça çıxara bilsin. Əlbəttə, bunların arxasında ardıcıl və gərgin zəhmət, Moskvadakı ali partiya və dövlət adamlarını məntiqin gücü, faktlarla inandırmaq üçün H.Əliyev fenomeninin ortaya qoyduğu arqumentlər lazım gəlirdi. Nəhayət, bütün bu müqavimətləri, ciddi təzyiqləri aradan qaldıraraq anadan olmasından rəsmən iki il sonra, 1972-ci il iyunun 22-də Nəriman Nərimanovun 100 illiyi təntənəli şəkildə keçirildi. Bakıda təntənəli yığıncaq keçirildi. Nəriman Nərimanovun həyatı və fəaliyyəti haqqında H.Əliyev məruzə etdi. H.Əliyev özünün məruzəsində onun Azərbaycan tarixində xidmətlərini, XX əsr ictimai fikir tarixinin görkəmli nümayəndəsi kimi rolu və mövqeyini elmi şəkildə əsaslandırdı, böhtan və iftiraları bir daha

puça çıxardı. Bakının görkəmli yerində Nəriman Nərimanovun əzəmətli abidəsi ucaldıldı. Abidənin açılışındakı dahiyanə nitqində Ümummilli Lider ənənəsinə sadiq olaraq xalq qarşısında xidmətləri olan hər kəsin layiq olduğu qiyməti almasına haqq etdiyini bildirir və Nəriman Nərimanovun şərəfli ömür yolunu bir daha xatırladır: "Nəriman Nərimanov maarifçi-demokratdan mətin bolşevik kimi çətin və keşməkeşli yol keçmişdir. ...Nəriman Nəcəf oğlu Nərimanov siyasi rəhbər və təşkilatçı kimi bütün bacarığını, qəlbinin bütün dövrünü xalqın xidmətinə vermişdir" [7]

Ümummilli Lider H.Əliyevin "qəlbinin bütün dövrünü xalqın xidmətinə vermiş" Nəriman Nərimanovun adının əbədiləşdirilməsi üçün apardığı mübarizəni professor Mahirə Hüseynova tədqiqata cəlb edir, əldə etdiyi çoxsaylı faktlarla bu mübarizənin necə ağır olduğunu sübuta yetirir. O, müxtəlif dövrlərdə H.Əliyevin ayrı-ayrı kütləvi informasiya vasitələrində, dövrü mətbuatda, mərkəzi qəzet və jurnallarda verdiyi müsahibələri, yazdığı məqalələri saf-çürük edir, vaxtının az olmasına baxmayaraq Azərbaycan xalqının ləyaqətli oğullarının unudulmaması, tarixin yaddaşından silinməməsi üçün keçmiş Sovetlər İttifaqının ən yüksək vəzifəli şəxsləri ilə dəfələrlə görüşməsini, onlarla belə demək mümkünsə inadla mübarizə aparmasını ətraflı işıqlandırır, dövrün qaranlıq səhifələrini müasir oxuculara geniş və ətraflı şəkildə çatdıra bilir. Müəllif "Ulduz" jurnalının 1990-cı il iyun (altıncı) nömrəsində jurnalist Esmira Əhmədovanın Moskvada H.Əliyevdən aldığı "Olub keçənləri düşünərkən" sərlövhəli müsahibəsini bir daha təhlil edir, H.Əliyevin birinci dəfə mətbuata açıqladığı faktları oxucularına çatdırır. M.Hüseynova yazır: "Müxbirin sualının əlavəsində H.Əliyev göstərirdi ki, "1970-ci ildə Nəriman Nərimanovun 100 illik yubileyi ərəfəsində materiallarla tanış olanda onun həyatının son dövrlərinin nə qədər faciəli olduğu məni çox ağrıtdı. Nərimanovun 100 illiyi 1970-ci ildə tamam oldu, yubileyi isə 1972-ci ildə keçirdik. Soruşa bilərsiniz niyə? Çünki bu yubileyi keçirmək üçün iki il mübarizə aparmaq lazım idi. Çünki N.Nərimanova "millətçi" damğası vurulmuşdu". Bu ləkəni aradan götürmək üçün H.Əliyev ciddi məşğul olmuşdu. Bu haqda o deyirdi: "Heç kəsə demədiklərini indi sizə açıram. Qoy xalqım bilsin. Mənim sinəmdə çox sirlər var. Bəzilərini indi açıram. İki dəfə Suslovun, Brejnevin yanına getdim, ancaq onlara Nərimanov barədə başqa informasiyalar vermişdilər. Əjdər İbrahimov İsa Hüseynovla birlikdə "Mosfilm"də Nəriman Nərimanova həsr olunmuş dəyərli film çəkmişdi. Bizdən qabaq həmin filmə Moskvada baxmışdılar və ermənilərin təsiri altında olan MK-nin bəzi məsul işçiləri həmin filmi qadağan etmişdilər... Nə yubileyi keçirməyə, nə də abidəni qoymağa imkan vermirdilər. çalışdım, mübarizə apardım, neçə adamı inandırdım və axır ki, istəyimə nail oldum. MK-da Nəriman Nərimanovun 100 illik yubileyinin keçirilməsinə dair qərara nail oldum, "Pravda" qəzetində Nəriman Nərimanovun yubileyinə həsr olunmuş böyük məqaləm getdi. Nəriman Nərimanovun yubileyini böyük təntənə ilə keçirdik. Bakıda gözəl filmə də icazə aldıq" [7].

Professor Mahirə Hüseynova onu da vurğulayır ki, H.Əliyev Nəriman Nərimanovun adının əbədiləşdirilməsi üçün yalnız Azərbaycanda deyil, keçmiş SSRİ miqyasında iş aparırdı. Kitabda oxuyuruq: "H.Əliyevin gərgin fəaliyyəti nəticəsində 1979-cu ildə Ulyanovsk şəhərində də Nəriman Nərimanovun abidəsi ucaldıldı. H.Əliyev Ulyanovskda abidənin təntənəli açılışında çıxış etdi. Şəhərin böyük bir prosprktinə Nərimanovun adı verildi" [4, s.85]

Azərbaycanda elmin, təhsilin, mədəniyyətin, maarifin inkişaf etdirilməsi Ulu Öndərin qarşıya qoyduğu ən müqəddəs missiyalarından biri idi. H.Əliyev ömrünün sonuna kimi mənsub olduğu xalqı təhsil işığına can atmasına səsləyir, bu işdə əlindən gələn köməkliyi əsirgəmirdi. H.Əliyevin bu sahədə gördüyü çoxsaylı işlərindən söhbət açan kifayət qədər fakt və məlumatlarla rastlaşırıq. Müəllif Heydər Əliyevin bu yolda dönməzliyindən söhbət açaraq yazır: "Xalqını maarifləndirmək uğrunda ən çətin məhrumiyyətlərə belə dözməsini özünün ən böyük keyfiyyəti adlandıran Heydər Əliyev yaranmış imkandan istifadə edərək keçmiş Sovetlər İttifaqının və dünyanın müxtəlif ölkələrinin yubiley tədbirlərində iştirak edən nümayəndələrinə xalqın mənalı keçmişindən, bəşəriyyət üçün verdiyi işıqlı insanlarından da söz açırdı. O,

insanlarımızın istənilən ictimai formasiyalarda belə, elmə, təhsilə verdiyi xüsusi önəm barədə danışırdı". M.Hüseynova umummilli liderin Bakı Dövlər Universitetinin 50 illik yubileyindəki çıxışına kitabda geniş yer ayırır, Heydər Əliyevin insanların maariflənməsi sahəsində yeritdiyi siyasətin dönməzliyini ön plana çəkir, bu ali təhsil ocağının xalqımıza verdiyi töhfə və faydaları və bir daha xatırladır: "Əziz yoldaşlar, dostlar, hörmətli qonaqlar! Bakıda universitet Azərbaycan xalqının həyatının ağır günlərində, ölkədə vətəndaş müharibəsi alovlandığı bir vaxtda yaradılmışdır. İnqilab dalğasının təlatümü içərisində Azərbaycan universitetinin yaranması qabaqcıl qüvvələrin qələbəsi idi, doğma xalqı maarifləndirmək uğrunda dünya mədəniyyəti və elmi xəzinəsinin qapılarını onun üzünə açmaq uğrunda Azərbaycanın ən yaxşı oğullarının bir çox illər ərzində apardıqları mübarizənin yekunu idi"[4, s.91] .

Mahirə Hüseynova Heydər Əliyevin nitqini Azərbaycan dilində söyləməsi məqamına xüsusi önəm verir. Keçmiş Sovetlər İttifaqının mötəbər nümayəndəlirinin, nüfuzlu ali məktəblərin rektorların və başqa rəsmi qonaqların iştirak etdiyi tədbirdə Heydər Əliyevin Azərbaycan dilində çıxış etməsini ön plana çəkir, bunu xalqına sevgisindən, doğma dilə bəslədiyi məhəbbətdən irəli gəldiyini vurğulayır. Kitabda oxuyuruq: "Respublikada böyük məmuniyyət hissi ilə qarşılanan həmin çıxış o dərəcədə ictimai əhəmiyyət kəsb edirdi ki, Azərbaycan dilində etdiyi uğurlu çıxışa görə hətta onu təbrik edənlər saysız-hesabsız idi. Bu münasibətlə onu təbrik edənlərin hissini uzun illərin gerçəkliyindən doğduğunu yaxşı bilən Heydər Əliyev isə cavabında onlara belə deyirdi: Burada bir qeyri-adilik yoxdur, nahaq təəccüb edirsiniz, bu mənim ana dilimdir və ana dilində çıxış etmək elə böyük bir qəhrəmanlıq da deyildir. Ana dili bilməmək isə, ana dilini qiymətləndirməmək isə, şübhəsiz ki, xalq qarşısında qəbahətdir" [6].

Heydər Əliyevin həyatı və fəaliyyəti ilə bağlı kitabda kifayət qədər maraqlı faktlarla rastlaşılır. M.Hüseynovanın xüsusi önəm verdiyi ciddi faktlardan biri də 1978-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasına "Azərbaycanın dövlət dili Azərbaycan dilidir" maddəsinin salınması ilə bağlı SSRİ-nin ali-siyasi rəhbərliyi ilə aparılan danışıqların haqqındadır. Bu sahədə Heydər Əliyevin böyük siyasi iradə göstərdiyini vurğulayan alim böyük rezonas doğuran hadisə ilə bağlı yazır: "Heydər Əliyevin bilavasitə təşəbbüsü və SSRİ-nin ali siyasi rəhbərliyini inandırması nəticəsində Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması haqqında maddə Azərbaycanın 1978-ci il Konstitusiyasında öz əksini tapdı. Beləliklə də ilk dəfə olaraq Konstitusiyanın 73-cü maddəsində göstərilirdi: "Azərbaycanın dövlət dili Azərbaycan dilidir" [5, s.32].

1995-ci il oktyabrın 31-də Azərbaycan Respublikası Konstitusiyayısının iclasında həmin tarixi anları xatırlayan Heydər Əliyev deyirdi: "Ancaq bu maddə (73-cü maddə) Moskvada çox böyük etiraza səbəb oldu. Belə izah edirdilər ki, başqa respublikalarda bu yoxdur, buna ehtiyac yoxdur... Ancaq o vaxt mən Sovetlər İttifaqının rəhbərliyi ilə, Kommunist partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar apardım. Sübut etməyə çalışdım ki, biz dövlət dilinin Azərbaycan dili olduğunu da öz Konstitusiyamıza yazmalıyıq və yazacağıq"[5, s.36] .

Heydər Əliyevin simasında ana dili milli məntiqin, müstəqilliyin əyani rəmzinə çevrildi. Onun dil siyasətində sərhəd məhdudiyyəti olmadığını vurğulayan M.Hüseynova bildirir ki, H.Əliyev təkcə Azərbaycan dilinin qayğısına qalmaqla kifayətlənmir, o, müasir türk xalqlarını yaxınlaşdırmaq, onlar arasında mənəvi, mədəni, iqtisadi bağlılığı daha da dərinləşdirmək üçün çox işlər görürdü. Alim Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi birinci dönəmdə olduğu kimi, müstəqil Azərbaycan Respublikasının Prezidenti olanda da dilin qorunub saxlanması ilə yanaşı, onun inkişaf məsələsinə xüsusi önəm verdiyini qeyd edir. Ümummilli liderin "Bu gün danışdığımız dil 20-ci illərdə danışılan dil deyildir" fikrinə bəraət qazandıran dilçi-alim Ulu Öndərin Azərbaycan yazıçılarının XX qurultayında ürək yanğısı ilə dediyi sözləri bir daha ehtiramla oxucuların nəzərinə çatdırır: "Xalqı xalq edən, milləti millət edən ana dilidir. Layiqli ana dili olmayan, ana dilindən istifadə edə bilməyən, ana dilindən bəhrələnə bilməyən xalq millət ola bilməz. Bizim xoşbəxtliyimiz ondan ibarətdir ki, Şərq ölkəsinin əsarəti altında

olduğumuz zaman da , sovet imperiyasının tərkibində olduğumuz zaman da biz bu dilimizi yaşatmışıq. Nəinki yaşatmışıq, onu inkişaf etdirmişik. Bu, xalqımızın, xüsusən bizim söz ustalarının, ədəbiyyatçıların, mədəniyyət xadimlərinin ən böyük nailiyyətidir"[4, s.134] .
Professor Mahirə Hüseynovanın tədqiqatlarında Ümummilli Liderimizin bənzərsiz rəhbərlik və idarəçilik keyfiyyətləri ilə dünyanın siyasi elitası sırasında özünəməxsus yeri olan nəhəng şəxsiyyət, Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi, elm, təhsil və səhiyyəni, eləcə də mədəni həyatımızın bütün sahə və istiqamətləri üzrə dirçələn dövlət qurucusu, Azərbaycanı, Azərbaycan xalqını ürəkdən sevən böyük İNSAN kimi dəyərləndirilir.

Ədəbiyyat:

1. Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı, Bakı, 2009
2. Heydər Əliyev və mədəniyyət. Üç cilddə. I cild. Bakı, 2008
3. Ümummilli Liderin ədəbiyyat strategiyası, Bakı, 2023, 293 s.
4. Hüseynova M. Missiya. Bakı, ADPU nəşriyyatı, 2019, 336 s.
5. Hüseynova M., Sadıqova S. Heydər Əliyev və Azərbaycan dilinin inkişaf konsepsiyası, Bakı, 2023, 372 s.
6. Hüseynova M. Ulu öndərimizin natiqlik məharəti xalqımızın ən böyük sərvətidir, Bakı, 2011, 142 s.
7. Görkəmli partiya və dövlət xadidmi N.Nərimanovun anadan olmasının 100 illiyinə həsr edilmiş təntənəli yığıncağında H.Ə.Əliyev yoldaşın məruzəsi. "Ədəbiyyat və incəsənət" qəzeti, 1 iyul 1972-ci il.
8. Hüseynova M. Ümummilli Liderimizin bir mənalı olaraq qəbul etdiyi Nərimanov, "Azərbaycan müəllimi", 14 aprel, 2023-cü il
9. Hüseynova M. Heydər Əliyev və milli ədəbi-mədəni düşüncənin keçdiyi tarixi inkişaf yolu.

KARABAKH ESSENTIAL OIL AND ANTIOXIDANT PLANT SPECIES

QARABAĞIN EFİR YAĞLI VƏ ANTİOKSİDANT BİTKİ NÖVLƏRİ

HƏSƏNOVA AMALİYA MURAD QIZI

Biologiya üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Dövlət Pedaqoji Universiteti,
ORCID: ***0000-0002-2196-3215***

Abstract

After the glorious victory in Karabakh, data related to the pre-occupation period with essential oil, antioxidant character, including those related to valuable medicinal plants, started to be collected. It is known that data related to rare and endemic, including valuable antioxidant, essential oil plants in pre-occupation Karabakh may be incorrect. The Armenian occupation did as much damage to plants as it did to people. In Karabakh, valuable trees and shrubs are on the verge of extinction; including hawthorn, Araz oak, winged hazel, eastern plane trees, common pomegranate, forest grapes, Eldar pine, common persimmon, willow pear and others.

Study and clarification of species composition of vitamin-rich essential oil and antioxidant plants in meadows and pastures of Karabakh is one of the urgent requirements of the post-war period. Identification of plants containing vitamin E is of special importance for human and farm animal health. In case of vitamin E deficiency in the body, avitaminosis occurs, which leads to serious complications in the body. Vitamins A, D, E, C and B vitamins also play an important role in human health.

Essential oil and antioxidant plant species are found on high mountain slopes, meadows, along river banks. These plants had special therapeutic value as remedies for worms, suckers, plague, leafworms, mint, rosehip, chamomile, thyme, sea buckthorn and pomotea. According to pre-occupation data, there were 606 species of valuable medicinal plants in Karabakh. Studies are already underway on which rare plant species common in Karabakh will be included in the Red Book.

Keywords: Karabakh, essential oil and antioxidant plants, medicinal plants

Xülasə: Şanlı Zəfər Bayramından sonra Qarabağda işğaldan əvvəlki dövrə aid olan efir yağlı, antioksidant xarakterli, cümlədən qiymətli dərman bitkilərinə aid olan məlumatlar toplanmağa başlamışdır. Məlumdur ki, işğaldan əvvəlki Qarabağda nadir və endemik, o cümlədən, qiymətli antioksidant, efir yağlı bitkilərə aid məlumatlar düzgün olmaya bilər. Erməni işğalı insanlara verdiyi zərər qədər bitkilərə də zərər vermişdir. Qarabağda qiymətli ağac və kol bitkilərinin nəsli kəsilmək ərəfəsindədir; o cümlədən yemşan, araz palıdı, qanadlı fındıq, şərq çinarları, adi nar, meşə üzümü, eldar şamı, adi xurma, söyüd armudu və s.

Qarabağın biçənək və otlaqlarında vitaminlərlə zəngin olan efir yağlı və antioksidant tipli bitkilərinin öyrənilməsi və növ tərkibinin dəqiqləşdirilməsi işğaldan sonrakı dövrün aktual tələblərindən biridir. İnsanların və kənd təsərrüfatı heyvanlarının sağlamlığı üçün tərkibində "E" vitamini olan bitkilərin aşkar edilməsi xüsusi əhəmiyyət kəsb edir. "E" vitamini çatışmazlığı zamanı orqanizmdə avitaminoz baş verir ki, bu orqanizmdə ciddi fəsadların

yaranmasına səbəb olur. A, D, E, C və B qrupu vitaminləri də insan sağlamlığında mühüm rol oynayır.

Efir yağlı və antioksidant bitki növləri yüksək dağ yamaclarında, çəmənlərdə, çayların kənarlarında rast gəlinir. Bu bitkilərdən xüsusi müalicəvi əhəmiyyətli qurdotu, əmənkömənci, qarayonca, yarpız, nanə, gülülcə, romaşka, çapıqotu, əvəlik və loğmanların müalicə vasitəsi kimi istifadə edilib.

İşğaldan əvvəlki məlumatlara əsasən Qarabağda 606 növ qiymətli dərman bitkisi vardı. Artıq Qarabağda yayılmış nadir bitki növlərinin Qırmızı Kitaba daxil ediləcəyi barədə tədqiqat işləri aparılır.

Açar sözlər: Qarabağ, efir yağlı və antioksidant bitkilər, dərman bitkiləri

Qarabağ özünəməxsus iqlim şəraitinə, torpaq və bitki örtüyünə malik əraziləri əhatə edir. Bu ərazidə yerləşən rayonlar öz zəngin flora və faunası ilə fərqlənir. İşğaldan əvvəlki dövrdə bu bölgənin bitkilər aləminin zənginliyi və bu bitkilərdən heyvandarlığın inkişafında səmərəli istifadə barədə zəngin ədəbiyyat məlumatları vardır. Qarabağın flora və faunasının öyrənilməsi müstəqillik dövründə daha geniş öyrənilməli, bu bölgədə yetişən dərman və yem bitkiləri ölkəmizin digər bölgələri üçün də dərman və digər sənaye sahələrində istifadə olunmalı idi. Lakin, erməni işğalı bu imkanları əlimizdən almış, bu misilsiz xəzinədən istifadə etməyimizə mane olmuşdur.

İnsan orqanizmi bir çox vitamin və mineralları bitkilərdən aldığına görə bitkilər aləmi daim diqqət mərkəzində olan tədqiqat obyektidir. Qarabağın iqlimi burada qiymətli, vitamin və minerallarla zəngin bitki örtüyünün inkişaf etməsinə imkan verir. Burada bitən bitkilər insanların qida mənbəyi olmaqla yanaşı, kənd təsərrüfatı heyvanlarının da qiymətli qida məhsullarıdır. Dünyada məşhur olan cins qarabağ atları, qiymətli qarabağ qoyunları məhz bu ərazinin bitki örtüyü ilə qidalanan heyvanlar olmuşlar.

Bölgənin qida əhəmiyyətli bitkilərinin A, D, E, C, və B qrupu vitaminləri ilə zəngin olması əhalinin sağlamlığında mühüm amil olduğu barədə çoxsaylı ədəbiyyat məlumatları vardır. Qeyd etmək lazımdır ki, Qarabağın vitaminlərlə zəngin bitkiləri, o cümlədən dərman sənayesinin təmin olunması üçün lazım olan bitkiləri barədə lazım olan səviyyədə elmi tədqiqat işləri azdır və bu sahənin öyrənilməsi müasir dövrün aktual tələblərindən biridir [1].

E vitaminin həm insan və həm də heyvan orqanizmi üçün böyük əhəmiyyəti vardır. E vitamini orqanizmə antioksidant təsir göstərdiyi üçün orqanizmdə piy mübadiləsinin dəyişməsinə, əzələlərdə distrofıyaya, qaraciyərdə A vitamininin azalmasına, oksidləşmə prosesinin pozulmasına səbəb olur.

Müasir məlumatlara əsasən, E vitamini süddə yağlılığın əmələ gəlməsində iştirak edir. Kənd təsərrüfat heyvanlarının məhsuldarlığının artırılması məqsədi ilə bu ərazilərdə heyvandarlığın inkişaf etdirilməsi dövlət nəzarətindədir. Laçın, Kəlbəcər, Şuşa, Qubadlı, Xocalı, Xocavənd, Suqovuşan ərazilərində heyvandarlığın inkişafı üçün yüksək dağ biçənəklərində və düzənlik ərazilərdə heyvandarlıq təsərrüfatları, o cümlədən arıçılıq təsərrüfatları yaradılır.

Qarabağın bitkilər aləminin zənginliyi hələ orta əsrlərdə dünya şöhrəti qazanmışdı. Fransadan *Qarabağa gəlmiş müsyö Jordanın prototipi, o illərdə əslində elmi araşdırmalar üçün Zaqafqaziyaya gəlmiş fransız təbiətşünası Aleksis Jordanın (1814–1897) Azərbaycanda məhz Qarabağı seçməsi, Qarabağın florasını öyrənməsi təsadüfi deyildi. Bu əsərin müəllifi M. F. Axundov Aleksis Jordanın elmi fəaliyyəti və bitkilərin təsnifatına etdiyi düzəlişlər barədə məlumatlar verdiyi barədə ədəbiyyat məlumatları vardır.*

Kiçik Qafqaz üçün xarakterik olan 3 rütubət zonası mövcuddur;

1.Kifayət qədər rütubətli

2.Mülayim rütubətlilik

3.Az rütubətli

Kifayət qədər rütubətlilik Kiçik Qafqazın yüksək dağlıq ərazilərini Şahdağ, Murovdağ və Qarabağ silsilələrini əhatə edir. Bu ərazilər alp və subalp çəmənlikləri ilə örtülüdür. Mülayim rütubətlilik zonası Kiçik Qafqazın geniş dağ-meşə və dağ-bozqır zonalarını əhatə edir. Bu ərazilər fıstıq, palıd-vələs meşələrilə, dağ-bozqır ərazilər isə müxtəlif növ taxıl bitkiləri ilə örtülüdür. Az rütubətlilik Kiçik Qafqazın bütün dağətəyi qurşağını əhatə edir. Bu ərazilər isə meşə-göl, quru bozqır, yovşan ağ ot bitkiləri ilə örtülüdür.

Kiçik Qafqazın dağlıq ərazilərini Murovdağ və Qarabağ silsilə dağları əhatə edir. Bitki örtüyü subalp və alp çəmənlikləri ilə örtülüdür. Bu ərazilər yay otlaqlarının əsasını təşkil edir. Orta dağ meşə qurşağı geniş bir enli zolaq əmələ gətirməklə, əsasını enli yarpaqlı meşə ağacları, gürcü palıdı (Quercus iberica), şərq fıstığı (Fagus orientalis), şərq vələsi (Carpinus caucasica) təşkil edir. Qarabağın əksər ərazisində subalp qurşağı geniş bir zolaq təşkil edir. Subalp zonası bitkiliyinin tərkibində çəmən, bozqır tipli bitkilərə rast gəlir. Meşə altından çıxmış hündür otlarda yayılmış baldırqanlıq (Heraclieta) bu qurşağın ərazilərində rast gəlinir. Baldırqanlıq ərazilər çox yüksək məhsul verir, ondan heyvanlara silos üçün genişistifadə etmək bu bölgədə daim effektiv istifadə olunmuşdur. Subalp çəmən və bozqırlarda rast gələn bitkilərin əksəriyyəti mal-qara tərəfindən yeyildiyi üçün onların tərkibi də araşdırılıb biokimyəvi xüsusiyyətləri öyrənilməlidir.

Qarabağın florasında müxtəlif növ bitki örtüyünün formalaşmasına baxmayaraq, efir yağlı, vitaminli, dərman və yem bitkiləri tam öyrənilməmişdir. Məlum olduğu kimi, *Qarabağın* torpaq örtüyü dağ-çəmən, dağ-çəmən-bozqır, dağ-qara torpaqları, dağ-meşə qonur torpaqları, dağ-meşə karbonatlı-çəmən torpaqları, dağ-qəhvəyi torpaqlar, boz qəhvəyi torpaqlar, çəmən-boz qəhvəyi torpaqları, allüvial-çəmən torpaqlarından ibarətdir. Məhz bu xüsusiyyət Qarabağda heyvandarlığın inkişafında və heyvandarlıq məhsuldarlarının artırılmasında vacib amillərdən biridir. Heyvanların sağlam və heyvandarlıq məhsullarının artırılması tərkibi vitaminlərlə zəngin olan yem bitkilərinin qəbulundan çox asılıdır. Qarabağın biçənəkləri və otlaqları vitaminlərlə zəngin olan efir yağlı bitkilərlə zəngindir. Bu bölgədə efir yağlı bitkilərdən insanlar müxtəlif xəstəliklərin müalicəsində də istifadə edirlər. İnsan və heyvan orqanizmində E vitamininin azlığı və ya olmaması bir sıra fəsadlar törədir. Məlumdur ki, tədqiqatçılar orqanizmdə vitaminlərin tədqiqi ilə məşğul olmuşlar və bir sıra nəticələr əldə etmişlər.

E vitamini 1922-ci ildə Evans və Bişaq (Evans, Bischop, 1922) tərəfindən kəşf edilmişdir. Öz kimyəvi quruluşuna görə tokoferollar biratomlu spirtlər olub bir-birindən xroman nüvəsində metil qruplarının müxtəlif cür yerləşməsi ilə fərqlənir. Tokoferol molekulalarmın yan zənciri yüksək molekulyar spirt olan fıtola (C16H23) uyğun gəlir. Təbiətdə E vitamininin əsas mənbəyi bitkilərdir. Çünki, insan və heyvan orqanizmləri tokoferolları sintez etməyə qabil deyildir, ayrı-ayrı üzvlərdəki E vitamini qida vasitəsilə bədənə daxil olan tokoferolların miqdarı ilə əlaqədardır.

Baldırğan (Heracleum L.) çətirçiçəklilər fəsiləsinə daxildir, 1970-ci ildə X.Q.Quliyevanın məlumatlarına görə Azərbaycanda 9 növü yayılmışdır. Bunlardan biri sərtkənar baldırğan (Heracleum trachyloma Fisch.et Mey.) daha geniş yayılmışdır. Qarabağın yaylaqlarında yayılmış sərtkənar baldırğanın tərkibində 8,7 mq% E vitamini, 4,7% yağ olduğu öyrənilmişdir. Tərkibində olan yağın və E vitaminin miqdarına görə bu bitkinin zəngin olduğu məlumdur.

Cacıx (Chaerophyllum L.) Çətirçiçəkkimilər fasiləsinə aiddir, Azərbaycanda 7 növü yayılmışdır. Ləkəli cacıx növü (Ch.maculatum Willd.) çoxillik, hündüboylu, kökü yoğun

bitkidir. İyun-iyul aylarında çiçəkləyir, iyul-avqust aylarında toxum əmələ gətirir.verir. Qarabağın şimal yaylaqlarında geniş rast gəlinir. V.S.Xəlilov 1968-ci ilin avqust ayının əvvələrində Kəlbəcər rayonunda və Şahdağın subalp çəmənliyindən bitkinin toxum vermə mərhələsində toplanmış ləkəli cacığın tərkibində 19 mq% E vitamini, 2,5% yağ olduğu müəyyən edilmişdir [1].

Qarabağda ermənilərin törətdiyi ekosid burada olan nadir və endemik bitki növlərinin dünyaya tanıdılması məsələsini dövrün aktual tələbi kimi bizim qarşımıza qoymuşdur. Qarabağın flora və faunası barədə məlumatlar 30 il əvvələ aiddir, ancaq bu ərazilərə aid endemik və nadir bitki növlərini dünyaya tanıtmaq üçün artıq bir çox işlər görülmüşdür. Azərbaycan Fitoterapevtlər İctimai Birliyi bu ərazinin nadir və qiymətli dərman bitkiləri barədə məlumat toplamışlar. Burada bitən nadir və endemik bitki növlərinə aid bir çox seminar və konfranslar keçirilmişdir. Fitoterapevtlər İctimai Birliyi Qarabağın insan sağlamlığının zəmanətçiləri olan və bu zəmanəti tarixdə Qarabağın loğman və həkimlərinin təsdiq etdiyi müalicə vasitəsi dərman bitkilərinin siyahısını tərtib etmişdir.

Şuşada 400-dən çox çiçək növü bitir və onlardan biri də xarı bülbüldür. Xarı bülbül Qarabağ bölgəsində əsasən Cıdır düzündə bitən orta boylu, şax qamətli, heyrət doğuran bir bitki növüdür. Onun qeyri-adi görünüşü və bənzərsiz gözəlliyi ondan ibarətdir ki, bu çiçəkdə müxtəlif istiqamətlərə yönəlmiş üç ləçək açılır. Bu ləçəklərin başında "bülbül" pərvazlanır və onun çiynində balaca qoşa ləçək vardır. Xarı bülbül dünya səviyyəsində tanınmış, təsdiq olunmuş bir çiçək növüdür və Qarabağın maddi irsidir. Qarabağın dərman və yem bitkiləri barədə, bu bitkilərin vitamin tərkibi, efir yağlı bitkiləri haqqında qiymətli ədəbiyyat məlumatları vardır. Efir yağlı bitkilərin heyvanların qurd xəstəliklərindən qurtarması artıq elmi təsdiqini tapmışdır [5].

Qarabagın dağ laləsi Cənubi Zaqafqaziya nadir və endemik növdür. Şuşa, Əsgəran (Topxana) və Hadrut (Domu, Tağ, Tuğ kəndləri ətrafında) rayonlarında yayılmışdır. Dəniz səviyyəsindən 1800 m hündürlüyə qədər daşlı-çınqıllı yamaclarda bitir. Tək-tək səpələnmiş halda rast gəlinir, bəzən də kiçik cəngəlliklər əmələ gətirir.

Azərbaycanda 42 növ itburnu növü yayılmışdır, bunların 36 növü yabanıdır. Antioksidant xüsusiyyəti vardır. Polifenol komponentlər, C və E vitaminləri və karotinoidlər kimi antioksidantlarla zəngin itburnu meyvəsi ən güclü antioksidant meyvələrdən biridir. Qarabağda bitən itburnu növü bölgənin torpağının tərkibinin mikroelementlərlə zəngin olması nəticəsində daha yüksək müalicəvi keyfiyyətə malik olur [2].

Dəvətikanı – Qarabağın quraqlıq və susuz ərazilərində rast gəlinir. Qızdırma üçün olduqca faydalıdır. Nanə Dünyada ən yaxşı tanınan və istifadə edilən bitkilərdən biridir. Güclü aroması vardır, qastronomiyada və kosmetikada istifadə olunur. Dərman yabanı bitki kimi antipazmodik, antiseptik və analgezik xüsusiyyətlərə malikdir. Min illərdir istifadə olunur.

Böyürtkən may ayından başlayaraq, avqusta qədər çiçəkləyir. Çiçəkləri ağ və ətirlidir. Eyni vaxtda kollarda həm təzə açılmış çiçək və həm də yetişmiş meyvə olur. Azərbaycanda irimeyvəli, gecyetişən və quraqlığa çox davamlı böyürtkən formaları vardır. Böyürtkən müxtəlif landşaftlarda rast gəlinən kol bitkisidir. Yüksək arterial təzyiq zamanı, həm də qrip və soyuqdəymə zamanı da geniş istifadə edilir. Tərkibi C, K, A vitaminləri ilə zəngindir.

Əmənköməci cinsinin Azərbaycanda 10 növü bitir, onlar əkin sahələrində, tarlalarda, bağlarda, meşə və yol kənarlarında, münbit torpaqlarda yabanı halda tapılmışdır. Gövdə və yarpaqları bişmiş və çiy halda yeyilir. Göyərti kimi xörəklərə qatılır, yaxşı bal verən bitkidir. Əmənköməci bu bölgədə geniş yayılmışdır [3].

Dazıotu çoxillik ot bitkisidir. Çəmənlərdə bitən və günəşi sevən bitkidir. Tərkibi flavonoidlərlə, saponinlərlə, karotin və askorbin turşusu ilə zəngindir. Mədə-bağırsaq xəstəlikləri zamanı büzücü, iltihab əleyhinə, antimikrob təsir göstərir, toxumalarda regenerasiyanı sürətləndirir. Antiseptik təsiri var. Dünya florasının tərkibində çobanyastığının 50 növü yayılmışdır. Cinsin Qafqazda 3, o cümlədən Azərbaycanda 2 növünə təsadüf edilir. Bir çox dərmanlarda kosmetik vasitələrdə çobanyastığı bitkisinə rast gəlinir. Çox böyük faydaları vardır.

Məlum olduğu kimi, adi üzərlik Azərbaycanın bir çox ərazilərində yayılmış, hündürlüyü 25-70 sm olan çoxillik, çılpaq ot bitkisidir. Adi üzərlik gövdəsi düz, budaqlı solğun yaşıl rəngdədir. Yarpaqları növbəli, açılmış hissəciklərə bölünmüş ovalşəkillidir. Açıq sarı rəngli çiçəkləri vardır, gövdəsi 10-15 mm olub, saplaqlıdır. Meyvəsi kürəşəkillidir, üç yuvalı qutucuqludur. May-iyul aylarında çiçəkləyir, iyul-avqust aylarında meyvə verir. Yarı çöl bölgələində yabanı halda rast gəlinir. Sinir xəstəliklərində və yüksək təzyiqdə istifadə olunur. Yuxu gətiricidir. Üzərliyin sağaldıcı xüsusittətləri vardır, Azərbaycanın bütün bölgələrində nəzərdən qorunmaq üçün istifadə olunur.

Ümumdünya irs siyahısına görə xədicə gülü növünün kateqoriyası və statusu "*Nəsli kəsilmək təhlükəsində olanlar*" kateqoriyasına aiddir. Azərbaycanın nadir, Qafqazın endemik növüdür. Çiçəkləmə dövrü fevral-mart (aprel) aylarına təsadüf edir. Soğanaqla, toxumla çoxalır. Aşağı və orta dağ qurşağında, meşədə, talada, kolluqlar arasında rast gəlinir. Dekorativ bitkidir.

Ümumdünya irs siyahısına görə Qarabağda yetişən qaya dovşanalması kateqoriyası və status üzeə "*Nəsli kəsilmək təhlükəsində olanlar*" kateqoriyasına aiddir. Meyvə verməsi sentyabr ayına təsadüf edir. Daşlı qayalıqlarda, kolluqların arasında rast gəlinir. Zaqafqaziyada qaya dovşanalması Azərbaycandan təsvir olunub [4].

Bitkilər aləminin Qarabağ torpağına məxsus ekoloji dəyişkənlikləri sayəsində bu ərazilərin florasının fundamental tədqiqatı, mühafizəsi, səmərəli istifadəsi və bərpası müasir dövrün ən vacib məsələlərindən və ölkəmizdə bununla bağlı mühüm işlər görülməkdədir. Qarabağ florasında rəngarəng, fərqli növ müxtəlifliyi olan bitki örtüyü faydalı, ətirli, vitaminli, dərman və yem bitkilərinin öyrənilməsi isə uzun sürən tədqiqatlar tələb edir.

Xüsusi qeyd etmək lazımdır ki, arıçılıq məhsullarının ən effektiv bölgəsi Qarabağdır! Qarabağ gözəl güllər və çiçəklər diyarıdır!

Ədəbiyyat

1. V.S.Xəlilov, KİÇİK QAFQAZIN "E" VİTAMİNİ İLƏ ZƏNGİN OLAN YEM BİTKİLƏRİ, Bakı, Təhsil, EİM 2012.

2. Qurbanov E.M., Axundova A.A. Abşeron yarımadasında fitosenozların, əsas yem bitkilərinin biokimyəvi tərkibi və səmərəli istifadəsi// AMEA Botanika İnstitutunun Elmi Əsərləri. XXVI cild. Bakı. Elm, 2006, s. 40-44.

3. Qurbanov E.M., Axundova A.A., Məmmədov A.A. Abşeron yarımadasının alkoloidli bitkiləri. // AMEA Botanika İnstitutunun Elmi Əsərləri. XXVI cild. Bakı. Elm, 2006, 240-244 s.

4. Mehdiyeva N.P. Azərbaycanın dərman florasının biomüxtəlifliyi. Bakı 2011, s.11-14.

5. Nuriyev E.R., Xəlilov V.S. və b. Hacıkənd, Göy-göl Milli parkının bitki örtüyünün ümumi xarakteristikası. AMEA Botanika İnstitutunun Elmi Əsərləri XXIX cild. Bakı "Elm" 2009. səh.272-277.

6. Hasanova A. M., THE ROLE OF ESSENTIAL OIL PLANTS OF THE NORTHEASTERN SLOPES OF THE LESSER CAUCASUS IN THE PROCESS OF DEHELMINTHIZATION OF LIVESTOCK, səh. 200-201, Heydər Əliyev ilinə həsr olunmuş "Bitki aləminin öyrənilməsinə müasir yanaşmalar" Beynəlxalq Konfransın materialları, Elm və Təhsil Nazirliyi, Botanika İnstitutu, Bakı 2023.

HALİDE EDİP ADIVAR`IN "SİNEKLİ BAKKAL", "VURUN KAHPEYE", "KALP AĞRISI" VE "ZEYNO`NUN OĞLU" ROMANLARINDA CUMHURİYET KADINLARI

Yrd. Doç. Kamer ALHANOVA

Edebiyat Kürsüsü Öğretim Görevlisi, Azerbaycan Devlet Pedagoji Universitesi, Filoloji Fakültesi,

Özet

Cumhuriyetin ilanına kadar hakları yenilmiş Türk kadını 1926 senesinde kabul edilen "Medeni Kanun"la haklarına kavuşmuş oldu. Şöyle ki, kadın ve erkek yasal olarak eşit sayıldı, boşanma hakkı sadece erkekler için değil, kadınlar için de geçerli sayıldı, malvarlığı konusunda da kadınların hakları esgeçilmedi. Cumhuriyetin kabulüne kadar çokeşliliğin olduğu dönemde Medeni Kanun`la a mirasta bile erkeklerle eşit haklara sahip oldu. 1934 senesinde seçimlerde hakk kazanan kadınlar TBMM`de de kendi yerlerini aldı. 1935 senesinde 18 kadın millet vekili seçildi.

En önemli konulardan biri de cumhuriyet sonrası eğitimde kadınların haklarını elde etmesi oldu. 1924 senesinden itibaren kadın ve erkek öğretmenler aynı haklara sahip oldular. 1926 senesinden okulların kapıları kız öğrencilere de açılmış, 1927 senesinden itibaren askeri okullar hariç tüm okullarda karma eğitime geçildi. Kadınlar ait oldukları haklara sahip oldukları sürece kadar çeşitli alanlarda mücadele ederek katkı sağlamışlardır. Kimisi meydanlarda savaşmış, kimisi arka sralarda hemşirelik, öğretmenlik yapmış, kimisi de taşrada çalışarak mücadelesini sürdürmüştür. Bu dönem aydın Türk kadınının da hem yobaz düşüncelerle, hem de varolmak ve varlığını kanıtlamak adına verdiği savaş dönem romancılarının başvurduğu konu olmuştur. Bazı kadınlarsa bu geçiş döneminin hem ahlaki açıdan, hem psikolojik açıdan, hem de gelişemediği için kurban seçilmenin sancılarını yaşamış, zarar görmüştür.

Makale cumhuriyete kadar ezilen, çoğu hakkı elinden alınan ancak cumhuriyet sonrası hak ve hukuklarına kavuşan Türk kadınını ile ilgili genel bir bilgi verdikten sonra Halide Edip Adıvar`ın "Sinekli Bakkal", "Vurun Kahpeye", "Kalp Ağrısı", "Zeyno`nun Oğlu" romanlarındaki Rabia, Aliye, Zeyno ve Kürt Zeyno karakterlerinin yaşadıkları, karakterleri, cumhuriyet döneminin artı ve eksi yanlarının bahsigeçen kadınlar üzerinden anlatımını içermektedir.

Anahtar kelimeler: roman, karakter, cumhuriyet, Medeni Kanun, güçlü

AZƏRBAYCAN MƏTBUATINDA VƏ ƏDƏBİYYATINDA TURAN İDEOLOGİYASI

LÜTVİYYƏ ƏSGƏRZADƏ

Filologiya elmləri doktoru, AMEA Ədəbiyyat İnstitutu

(A.Şaiqin Turançılıqdüşüncəsi: "Türk çələngi")

XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan ictimai fikrinin ən görkəmli nümayəndələri, mütəfəkkir Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu Peterburq baş Mətbuat İdarəsinə ərizə ilə müraciətlə "Həyat" adlı qəzet nəşr etmək istəyini bildirdilər (16 aprel 1905). Mesenat H.Z.Tağıyevin böyük nüfuzu sayəsində Qafqaz Canişini Vorontsov Daşkov "Həyat" qəzetinin nəşrinə icazə verdi (22 aprel 1905). Milli ictimai-siyasi fikrinin üç nəhəngi-Əlimərdan bəy Topçubaşov (naşir), Əhməd bəy Ağaoğlu (redaktor) və Əli bəy Hüseynzadə (redaktor) "Həyat" qəzetinin təməlini qoydu.Azərbaycanda mətbuatı xalqın tribunasına çevirdi. Əli bəy Hüseynzadə Millətin kimliyini, tarixini, dilini qəzet vasitəsiylə xalqına bəyan etdi: "Bilirsiniz, Türklər kimdir və kimlərdən ibarətdir"? Məqalə birmənalı qarşılanmadı. Rusiyanın Qafqazdakı vəkili "Türk" sözünün "Tatar"la dəyişdirilməsini tələb etdi. Əli Bəy Hüseynzadə "Türk" kəliməsini "Tatar"la dəyişdirmədi, əksinə məsələnin nə qədər əhəmiyyətli olduğunu bir daha vurğuladı: "Biz ki Türk oğlu Türküz, biz ki millətlərin ən qədimi və ulusuyuz!" İzlədiyi ideologiya səbəbiylə "Həyat" qəzetinin yayınlanması dayandırılsa da, qısa zaman sonra mesenant Hacı Zeynalabdin Tağıyevin maddi dəstəyi, Əli bəy Hüseyinzadənin redaktorluğu ilə "Füyuzat" (1906-1907) dərgisi yayınlandı. Dərgi eyni ideologiyanı təqib etdi. Azərbaycan mətbuatı ("Füyuzat" dərgisi), Füyuzat Ədəbyyat məktəbinin yaranmasına öncüllük etdi. Hüseyin Cavid, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Saiq və s. bu məktəbinin təmsilçiləri idi.

Əli bəy Hüseynzadə və Əhməd Ağaoğlu xalq tərəfindən sevilən, ziyalılar arasında böyük nüfuza sahib olan tanınmış turançılardan idilər. Ziyalıları öz təsir dairələrinə almaqda "Füyuzat" onlar üçün bir vasitəyə çevrildi."Füyuzat" Osmanlı türkcəsinin Azərbaycan ədəbi dili üzərində təsirini qüvvətləndirdi. Bu cəmiyyətdə və ziyalılarda təsirsiz qalmadı. XX əsrin əvvəllərində Azərbaycan mətbuatının dilində Osmanlı türkcəsinin təsiri görünməyə başladı. Bu mənada 1906-1907-ci illərdə nəşr olunan "Füyuzat" məcmuəsi o dövrün ədəbi dilini əks et-dirirdi. Görkəmli ictimai-siyasi xadim Məhəmməd Əmin Rəsulzadə o dövrü "Asan dil – yeni lisan" adlı məqaləsində (1913) belə xarakterizə edirdi: "Bakıda fəal dövri-ədəbi başladı. Möhtərəm ədibimiz Əli bəy Hüseynzadə ilə Əhməd Kamal bəy Bakıya gəldilər. "Füyuzat" təsis olundu. Osmanlıcanı təqlid həvəsində olanlar üçün əlləri altında bir nümunə hazırlandı. Yerli mühərrirlər (yəni İstanbulu görməyən mənim kimi acizlər) onların təntənəli üslublarını tənzirə başladılar. Hələ Əli bəy həzrətlərinin yazılarına məclub olmamaq və onu "model" ittixaz etmə-mək mümkün deyil. Çünki öylə ülvi bir sənət və fəzilətə təslim olmamaq, daha məsləklərində möhkəmləşməmiş olan cavanların iqtidarında deyildi."

Azərbaycan türklərinin milli haqlarının güzgüsü sayılan "Füyuzat"ın ömrü də "Həyat" qəzeti kimi qısa oldu.Lakin dərgi millətimizin İslam ümmətindən İslam millətçiliyinə, oradan da türk millətçiliyinə keçidində mühüm rol oynadı. Əli bəy Milli Dirçəliş və Milli İstiqlal düsturu ilə türkçülüyün siyasi proqramını və elmi-nəzəri əsaslarını qoydu. Tezliklə Azərbaycan Xalq Cümhuriyyətinin milli dövlət ideologiyasına çevrilən bu üçlü tezis ("üçlü məqsəd") xalqın qan yaddaşına daxil oldu, dövlət bayrağımızın rəng palitrasında əbədiləşdi. Azərbaycan mətbuatı

və ədəbiyyatıda bu xəttlə davam edirdi. Osmanlı türkcəsi ilə Azərbaycan türkcəsi demək olar ki, ortaq məxrəcə gətirildi. Dil birliyi Azərbaycan mətbuatında və ədəbiyyatında da öz əksini tapdı. Dil birliyi üçün bütün türk xalqlarının qabaqcıl aydınları mübarizə aparırdı. "Füyuzat" dərgisi və bu məktəbin üzvləri olan şair və yazıçılar öz məqalə və əsərlərini türk dili üzərində qururdu. Cümhuriyyət dönəmində türk, türkçülük anlayışı daha da populyarlaşdı. Bakının işğaldan azad olunması, bütövlükdə türkün xilaskarlıq missiyası böyük bir coşquyla qarşılandı, türk ordusuna şeirlər yazıldı, alqışlar söyləndi, azadlıq uğruna tökülən qanlardan iftixarla bəhs olundu. M.Hadinin "Türk nəğməsi" şeiri "Azərbaycan" qəzetində çap olundu. Bu mövzuda şeir yazanlar yalnız H.Cavid, Ə.Cavad, M.Hadi, A.Şaiq deyildi. Bu xətt Umgülsüm, Davud, C.Cabbarlı, Salman Mümtaz, Əliyusif Rai, Əlabbas Müznib, Əmin Abidin yaradıcılığının ana xəttini təşkil edirdi. Cümhuriyyət dönəmində milli ruhlu şeirlər yazanların öncüllərindən biri də Abdulla Şaiq idi. O, "Arazdan Turana", "Vətənin yanıq səsi" adlı şeirlərində türkçülük, turançılıq ideyalarının poetik xəritəsini çəkmiş, "türkçülük-turançılıq-azərbaycançılığı" bir-birindən ayrı deyil, vahid şəkildə tərənnüm etmiş, türk xalqlarının birlik qurmasını arzu etmişdir. Bu ideologiya A.Şaiqin bütün yaradıcılığına yansımışdı, bəzən "açıq", bəzən "gizli." Məsələn, A.Şaiq "Arazdan Turana" poemasında yalnız Turançılıq tərənnüm olunmur. Poema keçmişi və bugünü özündə ehtiva edir. "Bu poema ilk əsərdir ki, adında Turan sözü ilə yanaşı Araz sözü də işlənir ki, bu da Azərbaycanı Turan kimi dərk etmək fikrindən irəli gəlirdi. Hadisələr Araz, Kür çayları ilə Quzğun dəniz arasında baş verir. Turan dərdi Arazı danışdırır. Şair nağıllara qayıdır və "Qızıl alma" ideyasına müraciət edir." "Qızıl alma"ya müraciət etməsi A.Şaiqin Z.Göyalpın Turançılıqla bağlı nəzəri və poetik düşüncələri ilə tanışlığının təqdimidir. Bu cür yanaşma milli romantizmin əsas xüsusiyyətlərindəndir. Əsərin baş qəhrəmanı Dünya gözəli indi dardadır; Div onu əsir almış, başını onun dizinin üstünə qoymuşdur. Poemanın baş qəhrəmanı olan Dünya gözəli vətən , vətən isə Turandır. Dünya gözəli göz yaşlar içərisindədir, çünki yad əllərdədir. Dünya gözəli onu azad edəcək igidi, xilaskarını gözləyir:"Yoxmu Turanda qurtaracaq ər bəni?" Dünya gözəlinin iniltisini anaya, Quzğun dənizə yavruları Kür və Araz çatdırır. Quzğun dəniz "dişi bir qaplan" kimi qeyzə gəlir və Dünya gözəlini azad edir:"O dağ kibi yüksələn dalğaları yürüdü,/ Yüz milyonluq Turanı başdan-başa bürüdü."

Şeirindünya gözəlinin azad olması ilə nəticələnməsi, şairin Turanın qurulacağına inamıdır. Turanın qurulacağına inamlı olan A.Şaiq yalnız şeirlərində deyil, bütün fəaliyyətində: şeirlərində və dərsliklərində türkçülük, dil birliyi, ədəbiyyat birliyi ideologiyasını təqib etmiş füyuzatçılar hərəkatına mənsub yaradıcı şəxsiyyətlərdən idi. Onun əsərlərində "türkləşmək, islamlaşmaq, avropalaşmaq (müasirləşmək)" konsepsiyasının ifadə olunması normaldı. Bu dəyərlərdən çıxış etməsi ortaq dil, tarix, mədəniyyət, gələcək tale barədə düşüncələri onu Turan coğrafiyasına bağlayır. "Dildə, fikirdə və əməldə birlik" (İsmayıl Qaspiralı) ideyasının daşıyıcılarından biri kimi təqdim edir. Ümumtürk tarixinə, dilinə, ədəbiyyatına və onun tədqiq və tədrisinin əhəmiyyətininə böyük əhəmiyyət verən Abdulla Şaiq bu işi ədəbiyyata dair dərsliklərində, publisistik yazılarında, nəsr, dramaturgiya və poeziyasında ardıcıl və sistemli şəkildə davam etdirirdi.

A.Şaiq Cümhuriyyət dövründə təşkil edilmiş Bakı Dövlət Universitetində və yenicə fəaliyyətə başlamış Ali Pedaqoji İnstitutunda tədris olunan Azərbaycan ədəbiyyatı tarixi üzrə mühazirələr aparmışdır. Ana dilində proqram və dərsliklərin azlığı, hətta yoxluğu dərsliklərin yazılmasını zəruri etmişdi. A.Şaiq qısa müddət ərzində H.Cavidlə birlikdə dərs vəsaiti hazırlamışdı. Ardınca H.Cavidlə birgə hazırladığı "Ədəbiyyat dərsləri" adlı dərsliyi təkrar çapdan çıxmışdı. Dərsliklərin hazırlanmasında var qüvvəsi ilə çalışan A.Şaiq "Xatirələrim"də bu dövrü xarakterizə edərək yazırdı: "Zəif vücudumla gecə-gün düz çalışaraq yoxluqlardan bir varlıq yaratmalı idim. Bir tərəfdən müxtəlif proqramlar yazıb Maarif Komissarlığında təsdiq etdirir,

bir tərəfdən ədəbiyyata məxsus dərsliklər tərtib edir, bir tərəfdən ədəbiyyat və ədəbiyyat nəzəriyyəsinə dair elmi materiallar hazırlayırdım.”

Ə.Hüseynzadə, "İntiqad ediyoruz, intiqad olunuyoruz" başlıqlı məqaləsində yazırdı: "Fədai lazımdır,fədai! Türk qanlı, müsəlman etiqadlı, firəng fikirli, Avropa qiyafəli fədai!" Abdulla Şaiq “Zəif vücuduyla gecə-gündüz çalışaraq” xalqına xidmət edən, gənclərin yolunu işiqlandıran “fədai” idi.

A.Şaiqin bütün dərslikləri əhəmiyyətli və qiymətlidir, bunların ikisi Azərbaycan Xalq Cumhuriyyəti Maarif Nazirliyinin nəşr etdirdiyi “Ədəbiyyat dərsləri” (H.Cavidlə birgə, 1919) və “Türk çələngi” (1919) siyasi və elmi müstəvidə xüsusi əhəməyyətə malik dərsliklərdir, çünki bu dərsliklər AXC-nin yürütdüyü siyasəti özündə əks etdirir. Bu dərsliklərdən söz açarkən Azərbaycan Xalq Cümhuriyyətinin dilə münasibətinin üzərindən sükutla keçmək olmur. Bu dövrdə “Azərbaycan parlamentinin dilində də iki cəhət özünü aydın göstərir: bir tərəfdən, Azərbaycan ümumxalq dili üzərində yüksələn, o biri tərəfdən daha çox Osmanlı dilinə çəkən, bəzi hallarda tamamilə Osmanlı dilindən ibarət olan bir dil.” Cümhuriyyətin qurucusu Məhəmməd Əmin Rəsulzadənin öz dili Osmanlı dilinə yaxın idi.

Yarandığı gündən ədəbi dilə xüsusi əhəmiyyət vermiş AXC, bunu dövlət səviyyəsində həyata keçirmişdi. Ana dilini bilməyən şəxslər yüksək vəzifələrə təyin edilməmiş, ana dilində yazılmayan ərizələrə baxılmamışdır. AXC dövründə nəşr olunan ilk milli dərsliklər, o cümlədən Abdulla Şaiqin “Türk çələngi” və “Ədəbiyyat dərsləri” Ortaq Türk Dili, Ortaq Türk Ədəbiyyatı və Ortaq Türk Kültürü ideologiyasına xidmətə köklənmişdi.

A.Şaiqin 1919-cu ildə tərtib və çap etdirdiyi "Türk çələngi" dərsliyində Əlabbas Müznib, Bürhanəddin, Əhməd Hikmət, Məhəmməd Əmin Yurdaqul, Hüseyn Cavid, Ziya Göyalp, S.P.Sezai, Ə.Qanib bəy, A.Gündüz, S.Nihal, X.Ədib, Ə.Müznib, S.Ə.Şirvani, M.P.Vaqif və digər türk və Azərbaycan şair və yazıçılarının şeir və hekayələri verilmişdi. Burada toplanan bütün hekayə və şeirlərdə ("Vətən torpağı", “Altun ordu", "Sancaqdar", "Qanın üsyanı", "Azərbaycan", "Bayrağım", "Vətən yanğısı", "Altun ordu", "Yeni ay doğarkən" və s.) şeirlərində türk qəhrəmanlığı tərənnüm olunur və türk yurdunun indiki zamanda başına gələn fəlakətlər anladılırdı. A.Şaiqin tərtib etdiyi dərsliklərin yeni ziyalı nəslinin türk ruhunda formalaşmasında böyük əməyi olmuş, "Türk ədəmi-mərkəziyyət Müsavat-Marş"da "Birləşəlim, türk oğlu, bu yol millət yoludur",- deyə xalqı birliyə çağırmışdır.

Beləliklə, XX əsr Azərbaycan pedaqoji fikir tarixində xətti və imzası olan şəxsiyyətlərdən biri olan A.Şaiq türkçülük əhvali-ruhiyyəsi ilə xalqına xidmət etmişdir. Yaradıcılığının müxtəlif mərhələlərində 11 adda ədəbiyyata, 4 adda Azərbaycan dilinin qrammatikasına dair dərslik hazırlamışdı. Dərsliklər Azərbaycan Demokratik Cümhuriyyəti dövründə yüksək dəyərləndirilmiş, “Gülzar”, “Uşaq gözlüyü”, “Türk çələngi”, H.Cavidlə birgə yazdığı “Ədəbiyyat dərsləri” kitabları Maarif Komissarlığının komissiyasının qərarı ilə ikinci dəfə çapdan çıxmış, məktəblərdə dərslik kimi istifadə olunmuşdur.

A.Şaiqin dərslikləri günümüzdə aktuallıq kəsb edir. Onun “Türk çələngi” və “Ədəbiyyat dərsləri” A.Şaiqin türklük düşüncələrinin təqdimidir. A. Şaiq “Türk çələngi” (Türk buketi) kitabında böyük bir sevgi, məhəbbət və diqqətlə bu çələngin içərisinə Turan adlı məmləkətin şair və yazarlarını toplayaraq bütövləşdirmişdir. Bu çələngin (Turanın) içərisində Turan adlı məmləkətin şair və yazıçıları eyni dildə danışan tək millət idi, bir idi, birlik idi.

Açar sözlər:XIX əsrin sonu - XX əsrin əvvəlləri, Azərbaycan mətbuatı vəədəbiyyatı, Turançılıq ideologiyası, A.Şaiq, “Türk çələngi”

INTERNAL CONFLICT, BELONGINGNESS AND THE PROBLEM OF LONELINESS IN CESARE PAVESE'S NOVEL "THE MOON AND THE BONFIRES"
CESARE PAVESE'NIN "AY VE ŞENLIK ATEŞLERI" ROMANINDA İÇSEL ÇATIŞMA, AİDLİK, YALNIZLIK SORUNU

Aygun HEYDAROVA

Azerbaycan Devlet Pedaqoji Universitesi, Azerbaycan edebiyatı,
ORCID ID: 0000-0002-2517-9145

Özet

Makalede 20. yüzyıl İtalyan yazarı Cesare Pavese'nin "Ay ve Şenlik Ateşleri" adlı eserinde içsel çatışma, yalnızlık, aidiyet gibi konular analiz düzeyine getirilmektedir. Analiz, romandaki karakterlerin kendine özgü yönlerinin, zihinsel durumlarının ortaya çıkarılmasına dayanmaktadır. İkinci Dünya Savaşı sonrasında İtalya'da yaşanan olaylarda savaşın çizgisi ve insanlar ön plana çıkıyor. Savaşın insanlık açısından trajedisi, sıradan insan yaşamlarının tezahürü aracılığıyla sunuluyor. Makale, yazarın savaşı daha geniş bir bağlamda iç çatışma, aidiyet ve yalnızlığın birleşimi olarak sunduğu sonucuna varıyor. Eserde iç çatışma, aidiyet, mensubiyet konusu incelenerek yazarın biyografisine atıfta bulunularak aralarındaki paralellikler belirtilmektedir. Bu açıdan bakıldığında eserde açıkça "Yazar Ben" seçilmiştir. Eserde okuyucuya aktarılmak istenen her türlü fikir sembolizm kullanılarak aktarılmıştır. Bu, yazarın ana üslup özelliğidir. Makalede ayrıca konunun günümüzle bağlantısı da tanımlanıyor. Makalede yalnız hissetmenin temelinde sevgi eksikliğinin yattığı sonucuna varılmıştır. Dolayısıyla ailesini tanımayan, aile sevgisinin ne olduğunu bilmeyen biri kendi arayışına girer. Bu arayışta sık sık kaybolur. Tek kelimeyle yazarın sunduğu konu, taşıdığı anlam ve fikir yüküyle renklidir.

Anahtar kelimeler: içsel çatişma, aidlik, yalnizlik

Abstract

In the article, issues such as internal conflict, loneliness and belonging are brought to the level of analysis in the work "The Moon and the Bonfires" by the 20th century Italian writer Cesare Pavese. The analysis is based on revealing the unique aspects and mental states of the characters in the novel. In the events that took place in Italy after the Second World War, the line of war and people come to the fore. The human tragedy of war is presented through the manifestation of ordinary human lives. The article concludes that the author presents the war in a broader context as a combination of internal conflict, belonging and loneliness. In the work, the issues of internal conflict, belonging and membership are examined and the parallels between them are stated by referring to the author's biography. From this perspective, "Author I" is clearly chosen in the work. All kinds of ideas that are intended to be conveyed to the reader in the work are conveyed using symbolism. This is the main stylistic feature of the author. The article also describes the relevance of the subject to today. The article concludes that lack of love lies at the root of feeling lonely. Therefore, someone who does not know his family and does not know what family love is, begins his own search. He often gets lost in this search. In a word, the subject presented by the author is colorful with the meaning and burden of ideas it carries.
Keywords: internal conflict, belonging, loneliness

GİRİŞ

İtaliya ədəbiyyatında yeni realizm hərəkatı 20-ci əsrin sonu və 21-ci əsrin əvvəllərində baş verən ictimai və mədəni dəyişikliklərə cavab olaraq meydana çıxdı. Yeni realizm yazıçıları immiqrasiya, qloballaşma, iqtisadi bərabərsizlik, urbanizasiya və sosial ədalətsizlik kimi mövzuları əsərlərinə gətirir, İtaliya həyatını ideallaşdıran təsvirlərindən qaçırdılar. Onlar tez-tez real həyat hadisələrindən, insanlardan və şəraitdən ilham alaraq reallıqları yeni bir üslubla təqdim etməyə çalışırdılar.

Bu hərəkat müasir İtaliyanın müxtəlif səslərini və perspektivlərini cəsarətli əsərlərlə oxuculara təqdim edərək onları cəmiyyət və bəşəriyyət haqqında narahat həqiqətlərlə üzləşməyə çağırırdı. Çezare Paveze birbaşa olaraq yeni realizm hərəkatı yazıçıları arasında təqdim olunmasa da, onun İtaliya ədəbiyyatına, xüsusən də İkinci Dünya müharibəsindən sonrakı dövrdə təsirini qiymətləndirməmək olmaz. Çezare Paveze yadlaşma, ekzistensializm və insanın daxili aləmini – təkliyini, kimsəsizliyini tədqiq edən introspektiv və psixoloji cəhətdən dərin əsərləri ilə onu da bu cərəyanın qurucusu (Merve, 2023) kimi dəyərləndirmək olar.

ÇEZARE PAVEZENİN MÜRACİƏT ETDİYİ MÖVZULAR.

Çezare Pavezenin müraciət etdiyi mövzularda tez-tez müharibədən sonrakı İtaliyada həyatın sərt reallıqları öz əksini tapırdı. Onun "Ay və tonqallar" ("La luna e i falò") və "Təpədəki ev" ("La casa in collina") kimi əsərləri İtaliya cəmiyyətinin iç üzünü, insanların daxili mübarizəsini açıq şəkildə təqdim edir.

Çezare Paveze yaradıcılığında İtaliya gerçəkliklərini müasir mövzular kontekstində təqdim edirdi ki, bu da sonrakı nəsil İtaliya yazıçıları üçün münbit zəmin yaradırdı. Onun psixoloji dərinliyə, sosial tənqidə vurğu etməsi yeni realizm hərəkatını səciyyələndirən realizm ruhu ilə səsləşirdi.

Çezare Paveze romanları, şeirləri və esseləri ilə tanınır. Onun məşhur əsərləri kimi, İkinci Dünya müharibəsindən sonra doğma şəhərinə qayıdan bir gəncin hekayəsindən bəhs edən, şəxsiyyət, yaddaş və məna axtarışı mövzularını toxunduğu "Təpədəki ev" (La casa in collina), fəlsəfi dialoqlar toplusu olan, mifologiya, tarix və insan mövzularını əhatə edən "Leuco ilə dialoqlar" (Dialoghi con Leuco), münasibətlərin, istəklərin və zamanın gedişatının mürəkkəbliyini əks etdirən "Sahil" (La spiaggia), Amerikada illər keçirdikdən sonra doğma kəndinə qayıdan qəhrəmanın iç dünyasının təsvir edildiyi "Ay və tonqallar" (La luna e i falò)ın adlarını çəkə bilərik.

Onun yaradıcılığının ana xəttini ekzistensial mövzular, kənd həyatı, tarix və yaddaş, təklik və s. təşkil edir.

ÇEZARE PAVEZENİN "AY VƏ TONQALLAR" ƏSƏRİ.

"Ay və tonqallar" Pavezenin ən məşhur əsərlərindən biridir. Bu əsərdə “yazıçı məni” aparıcıdır. Təsadüfi deyil ki, yazıçı onu “ən güclü əsərim” (Pavese, 2017:450) adlandırıb. Əsərdə ay və tonqal rəmzi mənada işlənmişdir. Ay sirli və cəlbedici bir simvol kimi, tonqallar isə insanın daxili istəklərinin və həvəsinin ifadəsi kimi təqdim edilir. Yazıçı günlüyündə əsərin janrını “simvolik gerçəklik” adlandırıb (Pavese, 2017: 453). Əsərin dili sadə və aydın olsa da, onun alt qatında emosional dərinlik və fəlsəfi fikirlər vardır. Paveze obrazların daxili aləmlərini araşdırarkən oxucunu da düşündürür. Bu əsərdə Çezare Pavezenin insan varlığını sorğulayan, onun mürəkkəbliyini dərk edən və bununla bağlı bütün dilemmaları təqdim və təsvir etmə gücündə olan bir ədib olduğunun şahidi oluruq.

Əsər 1950-ci ildə nəşr olunmuşdur. Yazıçı əsərin sujet xəttini Amerikadan vətəninə qayıdan adı açıqlanmayan bir kişinin İkinci Dünya müharibəsindən sonra uşaqlığının keçdiyi kəndinə yenidən baş çəkməsi üzərində qurur. Əsərdə keçmişin nostalji həsrəti ilə dövrün sərt reallıqları arasında qalan qəhrəman geri qayıdarkən həm geridə qoyub getdiyi cəmiyyətdən, həm də qarşılaşdığı müasir dünyadan uzaqlaşır. Paveze köhnə ənənələrin yeni ideologiyalarla toqquşduğu və müharibənin yaralarının hələ də qaldığı müharibədən sonrakı İtaliyanın təsvirini

verməklə yaddaş və yadlaşmaq konsepsiyasını təqdim edir. Əsərin mərkəzində yaddaş və onun etibarsız təbiəti dayanır.

Paveze əsərdə keçmişi və yaşadığı dövrü məharətlə bir araya gətirir, yaddaşın zəifliyi haqqında reallıq və illüziya arasındakı sərhədləri təsvir edir. Baş qəhrəmanın şəxsi səyahətinin fonunda müharibənin kollektiv travması təsvir edilir. Canlı şəkildə yaradılmış obrazlar itki və məyusluq hissi çəkirlər. Bunun səbəbi onları var edən dəyərlərin aşınması nəticəsində yaranan problemlərlə üzləşmələridir.

"Ay və tonqallar" əsərində gözəllik və vəhşilik yan-yana mövcuddur. Həm bayramın, həm də məhvin simvolu olan tonqallar insan təbiətinin mürəkkəbliyinə və həyatın faniliyinə işıq saçır. Məhz buna görə də "Ay və tonqallar" ilk nəşr olunduğu gün kimi aktualdır.

Əsərdə Amerikadan İtaliyanın Piemont bölgəsindəki uşaqlıq kəndinə qayıdan kişi "Anguilla" ləqəbi daşıyır. Bu ləqəbin özü belə simvolik məna daşıyır (Koran, 2022: 363) Anguilla keçmişi ilə yenidən əlaqə qurarkən, o, dərin təcrid və yadlaşma hissi ilə mübarizə aparır. Anguillanın tənhalığının əsas mənbələrindən biri onun kənddəki "yad" statusudur. Qəhrəman kökləri cəmiyyətdə olmasına baxmayaraq, xaricdə keçirdiyi vaxtlar onu uşaqlığına qarşı yadlaşdırmış kimi hiss edir. Bu hiss onu həyatın ritminə tam inteqrasiya oluna bilməməsi ilə nəticələnir ki, bu da onun introvert təbiəti ilə ahəng yaradır.

"AY VƏ TONQALLAR"DA YALNIZLIQ PROBLEMİ.

Bundan əlavə, Paveze qəhrəmanın təkliyini və ekzistensial həsrətini simvollaşdırmaq üçün roman boyu ay motivindən istifadə edir. Ay uzaq və eterik varlığı ilə Anguillanın tənhalığını daim xatırladır, mənzərəyə unudulmaz parıltı verir və tənhalıq hisslərini vurğulayır. Nəhayət, "Ay və tonqallar" əsərində tənhalığın insan psixikasına dərin təsiri, onun dünya haqqında təsəvvürləri formalaşdıran qüvvə kimi təsvir edir. Anguillanın səyahəti boyu Paveze oxucuları tənhalığın təbiəti və onun insan təcrübəsindəki əhəmiyyəti haqqında düşünməyə dəvət edir:

"Arzum çin olmadı. Budur, qayıtmışam, burdayam, varlıyam. "Anjelo" mehmanxanasında yaşayıram, Kavalerlə söhbət edirəm. Bəs mənə toxunacaq əllər, məni tanıyacaq gözlər, mənə hay verəcək səslər hanı? Onlar yoxdular. Onlar çoxdan yoxdular... Mən lap uzaqdan gəlmişəm – artıq bu evə məxsus deyildim, artıq balaca Çinto kimi də deyildim, dünya məni dəyişmişdi" (Çezare, 2015: 94).

Ümumiyyətlə, tənhalıq insanlar tərəfindən əhatə olunsa belə, başqalarından təcrid olunmuş və ya əlaqəsi kəsilmiş subyektiv hissdir. Bu, sosial təcrid, mənalı əlaqələrin olmaması və ya başqaları tərəfindən başa düşülməməsi və ya qiymətləndirilməməsi səbəbindən baş verə bilər. Yalnızlıq yalnız xarici amillərlə müəyyən edilmir; fərdlər dərin emosional əlaqələri yoxdursa və ya səhv başa düşüldüyünü hiss edirlərsə, hətta başqalarının yanında tənha hiss edə bilərlər. Yalnızlığın psixi sağlamlığa, özünə hörmətə və ümumi rifaha təsir edən əhəmiyyətli emosional və psixoloji təsirləri ola bilər. Əsərin qəhrəmanını da geniş yayılmış təklik və ekzistensial boşluq hissi təqib edir.

"AY VƏ TONQALLAR"DA DAXİLİ MÜNAQİŞƏ PROBLEMİ.

Çezare Paveze "Ay və tonqallar" əsərində daxili münaqişə və aidiyyət probleminə də toxunmuşdur. Daxili münaqişə, tənhalıq və aidiyyət hissi insan təcrübəsinin dərin tərəfləridir və hər biri fərdin düşüncələrinə, duyğularına və hərəkətlərinə müxtəlif yollarla təsir edir.

Bir şəxs öz daxilində əks arzular, inanclar və ya emosiyalar yaşadıqda daxili münaqişə yaranır. Bu münaqişə mənəvi dilemmalar, ziddiyyətli məqsədlər və ya şəxsiyyətlə mübarizə kimi müxtəlif formalarda özünü göstərə bilər.

"Və burda təkcə itkiyə, qurbanlara yanmırsan – burda bir gecənin içində iz belə qoymadan yoxluğa gömülən illərin acısını çəkirsən. Bəlkə də haqlı deyiləm, bəlkə beləsi daha yaxşıdı? Bəlkə hər şeyin tonqalda çırtıltıyla yanan quru ot kimi yanması yaxşıdı?" (Çezare, 2015: 174)

Daxili münaqişənin həlli çox vaxt introspeksiya, qərar qəbul etmə və bəzən güzəştə getməyi əhatə edir. Amerikada illər keçirdikdən sonra doğma kəndinə qayıdan baş qəhrəman roman boyu daxili münaqişə ilə boğuşur. O, keçmişlə bağlı xatirələrini qarşılaşdığı reallıqla uzlaşdırmaq üçün mübarizə aparır. Xaricdəki təcrübələri onu formalaşdırsa da, özünü uşaqlığının tanış mənzərələrindən və insanlarından qopmuş tapır. Bu daxili qarşıdurma müharibənin travması və yaxınlarının itkisi ilə daha da şiddətlənir, onun emosional səyahətinə mürəkkəblik qatları əlavə olunur.

"AY VƏ TONQALLAR"DA AİDLİK PROBLEMİ.

Mənsubluq sosial qruplar və ya icmalar daxilində bağlılıq, qəbul edilmiş və dəyərli hiss etmək üçün əsas insanın ehtiyacına aiddir. Bu həm qrupun bir hissəsi olmaq hissini, həm də başqaları tərəfindən başa düşülmək və təqdir edilmək hissini əhatə edir. Mənsubiyyət müxtəlif kontekstlərdə, məsələn, ailə, dostluq, mədəni və ya dini icmalar və ya iş yeri mühitlərində yaşana bilər. Güclü aidiyyət hissi təhlükəsizlik, özünə dəyər və məmnunluq hisslərinə kömək edə bilər, aidiyyətin olmaması isə yadlaşma, rədd edilmə və təklik hisslərinə səbəb ola bilər. Əsərdə aidlik problemi qəhrəmanın doğma kəndində ev və aidiyyət hissi tapmaq axtarışı vasitəsilə təqdim edilir:

"Yer üzünü aşağı-yuxarı gəzmişəm və hər yerdə yaxşı adamların olduğunu, harada doğulmaqlarından asılı olmayaraq, bir-birinə arxa durduqlarını bilirəm, amma bir yerdə qərar tutmamaqdan, sərgardan həyat tərzindən əvvəl-axır usanırsan, istəyirsən haradasa kök salasan, kəndinə, torpağına qarışasan, həyatının bir mənası olsun və növbəti baharın gəlişinəcən unudulmayasan" (Çezare, 2015: 6).

Qəhrəman torpağa, el-obaya dərin bağlılığına baxmayaraq, o, illərin uzaqlaşmasından, yoxluğunda kənddə baş verən dəyişikliklərdən özünü yad bir insan kimi hiss edir. O, həqiqətən hara aid olduğu və evin onun üçün nə demək olduğu sualları ilə boğuşarkən, mənsubiyyət axtarışı şəxsiyyət və məna axtarışı ilə iç-içə olur:

"Amma məgər qoz ağaclarını yerində tapa bilməyəcəyimi ağlımın ucundan keçirmişdim? əgər o, yerində yoxdursa, deməli, hər şeyin sonudu. Bu fikir məni o qədər məyus etdi ki, heç kəsi haylamadım, hətta sakitcə axan suya belə nəzər salmadım. Bax, elə həmin an burda doğulmamağın, burdakı qəbirlərdə doğmalarının nəşinin yatıb-yamadığını bilməməyin, bu yerlərdə qan qohumluğunun yoxluğunun, bu torpaqlara istənilən dəyişikliyin pərt etməyəcəyi qədər möhkəm kök salmağın necə bir duyğu olmasının fərqinə vardım" (Çezare, 2015: 9).

İnsanın həyatında bu üç cəhət çox vaxt bir-birinə qarışır. Məsələn, daxili qarşıdurma yaşayan biri başqalarından anlayış və ya dəstək olmadıqda, təklik hissini də artıra bilər. Əksinə, güclü aidiyyət hissi tənhalıq hisslərini azaltmağa kömək edə bilər və daxili münaqişə zamanı dəstək verə bilər. Bu dinamikanı başa düşmək və idarə etmək şəxsi inkişaf, emosional rifah və başqaları ilə mənalı əlaqələri gücləndirməklə mümkündür:

"İnsanı rahat buraxsan, ürəyini qabar edənləri əvvəl-axır özü bayıra püskürəcək" (Çezare, 2015: 29).

Ümumiyyətlə, "Ay və tonqallar" müharibədən sonrakı İtaliya kontekstində daxili münaqişə, mənsubiyyət və tənhalıq arasındakı mürəkkəb qarşılıqlı əlaqəni araşdıran, insan duyğularının və təcrübəsinin mürəkkəbliyinin dərindən təqdim edildi bir əsərdir. Bu da əsərə dərinlik və rezonans verir.

NƏTİCƏ.

"Ay və tonqallar" Çezare Pavezenin daxili münaqişə, tənhalıq və aidlik mövzularını dərindən işlədiyi mühüm əsərlərindən biridir. Paveze romanında obrazların daxili aləmlərini dərindən açır, onların emosional mürəkkəbliyini və mənəvi konfliktlərini təsvir edir. Bu münaqişələr obrazların inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir. Sonda qeyd edək ki, "Ay və tonqallar" Pavezenin daxili konflikt mövzusunu ustalıqla idarə etdiyi və obrazların şəxsi inkişafı və sosial dəyişikliklərin təsirlərinin dərin portretini təqdim etdiyi bir əsərdir.

ƏDƏBİYYAT.

Çezare, Paveze. Ay ve tonqallar. Qanun nəşriyyatı, 2015, 222 s.
Koran, Oğuz. Cesare Pavesenin Ay ve Şenlik Ateşleri adlı romanının monomit reorisi bağlamında incelenmesi. İdil, 91 (2022 Mart): s. 361–367.

Merve, Türk. Cesare Pavese: Bir yazarın yaşama uğraşı… Söylenti dergisi. 13.03.2023. https://www.soylentidergi.com/cesare-pavese-bir-yazarin-yasama-ugrasi/

THE THEME OF LOVE IN THE WORKS OF BAKHTIYAR VAHABZADE
BAHTİYAR VAHAPZADE`NİN SANATINDA AŞK KONUSU
BƏXTİYAR VAHABZADƏNİN YARADICILIĞINDA MƏHƏBBƏT MÖVZUSU

HÜSEYNOVA PƏRİXANIM SOLTAN QIZI

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru

Azərbaycan, Bakı

Xülasə

Məqalədə Bəxtiyar Vahabzadənin lirikasında məhəbbət motivləri araşdırılır. “Gecələr uzanaydı”, “Hansımız yoxuq”, “Bir salama dəymədi”, “Heyf”, “Yağma yağış”, “Dedin”, “Bir mənəm, bir də sükut”, “Unutmaq istərəm”, “Biləsən” və s. şeirlərində eşq ünsürləri tədqiq edilir, vüsal, həsrət, ayrılıq, aşiqin hiss və duyğuları, həsbi-halı, düşüncələri təhlilə çəkilir.

Tədqiqatçı şairin lirik qəhrəmanını hiss və duyğuların tərənnümçüsü, ümumbəşəri dəyərlərin daşıyıcısı, eyni zamanda özünəməxsus xarakterik xüsusiyyətlərə malik obraz kimi də səciyyələndirir.

Şairin məhəbbət şeirlərində fəlsəfi fikirləri də qabardılır. Tədqiqatçı öz rəy mülahizələrini sitatlar üzərində apararaq elmi cəhətdən əsaslandırır, polemikaya geniş yer verir.

Məqalədə müəllif ədibin şeir yaradıcılığında sevən qəlblər arasında etibar, vəfa, inam axtarışlarını diqqət önünə çəkir. Tədqiqatçı şairi qəlb aləmini vəsf edən şair kimi də səciyyələndirir.

Sənətkarın “Dedim-dedin” dördlüyündə dörd misrada fəlsəfi məna yaratdığını söyləyərək, şeirin məziyyətlərinə işıq salır.

Tədqiqatçı şairin eşqə verdiyi tərifi önə gətirərək klassiklərin eşqlə bağlı kəlamlarını xatırladır. Bu zaman Füzulinin, Xəqaninin yaradıcılığına, onların eşq fəlsəfəsinə müraciət olunur.Bəxtiyar Vahabzadənin eşq fəlsəfəsini araşdıraraq onu klassiklərlə qiyas edir.

Məqalədə həmçinin şairin Vətən, dil sevgisi önə gətirilir. Bəxtiyar Vahabzadə vətən, dil aşiqi kimi də tədqiqata cəlb olunur. Müəllif ədibin yetmişdən artıq şeir kitabında məhəbbət mövzusunun xüsusi yer aldığını diqqət mərkəzinə çəkir.

Şairin “Bir salama dəymədi”, “Heyf” şeirlərinin yazılma tarixinə nəzər salaraq ideya, məzmun, bədii baxımdan müqayisə edir. Müəllif şair haqqında tanınmış, nüfuzlu mütəfəkkirlərin fikirlərinə də diqqəti cəlb edir.

Açar sözlər: *poetika, lirika, məhəbbət, eşq, sədaqət*

Abstract

The article examines the motives of love in Bakhtiyar Vahabzade's Lirika. "If the nights were long", "Which of us are not", "Don't rain", "You said". "I am one, and there is silence", "I want to forget". "You know" and other elements of love are explored in his poems, longing, separation, the lover's feelings and emotions, financial situation and thoughts are analyzed.

The researcher characterizes the poet's lyrical hero as a singer of feelings and emotions, a bearer of universal values, and at the same time as an image with unique characteristics.

Philosophical thoughts of the poet are also highlighted in his love poems. The researcher scientifically bases his opinions based on quotations and gives ample space to polemics.

In the article, the author draws attention to the search for trust, loyalty, and faith among loving hearts in the poet's creation. The researcher characterizes the poet as a poet who reveals the world of the heart.

That the artist created a philosophical meaning in four lines in the quatrain "Dedim-dedin". saying, sheds light on the merits of the poem.

The researcher brings to the fore the poet's definition of love and reminds the sayings of the classics about love. At this time, Fuzuli's and Khagani's creativity and their philosophy of love are addressed. Examining Bakhtiyar Vahabzadeh's philosophy of love, he compares him with the classics.

The article also highlights the poet's love for the Motherland and language. Bakhtiyar Vahabzade is involved in research as a lover of motherland and language. The author draws attention to the fact that the topic of love has a special place in the writer's more than seventy poetry books.

By taking a look at the history of the writing of the poet's poems "It was not worth a salute" he compares them from the point of view of idea, content, and art. The author draws attention to the opinions of well-known and influential thinkers about the poet.

Key words: *poetics, lyrics, love, love, loyalty*

GİRİŞ

Bəxtiyar Vahabzadənin yaradığında məhəbbət mövzusu çoxşaxəlidir. Qadına sevgi, vətənə sevgi, dilə sevgi şairin istər poeziyasında, istərsə də publisistikasında geniş, bütöv və konkretdir. Bu sevgi parçalanmır. Bəxtitar Vahabzadə - aşiq, öz eşqinə sadiqdir. Təbii ki, şairin vətənə, dilə sevgisi fərdilikdən ümumiliyə, ümumilikdən isə ictimailəşərək xüsusi əhəmiyyət kəsb edir.Sosiallaşır, siyasiləşir. Qadına məhəbbət isə şairin şəxsi lirik duyğularının ifadəsidir. Zatən, şairdə vurğunluq olmasa o əsl şair də ola bilməz. Olsa da onun şeiriyyəti duyğusuz, hissiz, insan mənəviyyatına təsir edəcək qədər qüdrəti də olmaz. Bəxtiyar şeiriyyəti "vurğun ovqatdan, vurğun mənəvi aləmdən" gəlir.

Bəxtiyar Vahabzadə yetmişdən artıq şeir kitabının müəllifidir. Bu kitablarda cəmlənən şeirlərin sırasında məhəbbət mövzusu xüsusi yer tutur. Bu şeirlər həm fəlsəfi məzmunu, həm də hiss və duyğuların tərənnümçüsü olan lirik qəhrəmanı ilə seçilir. Şairin lirik qəhrəmanı ümumbəşəri insani dəyərlərin daşıyıcısıdır. O, özünəməxsus xarakterik xüsusiyyətə malikdir. Lirik qəhrəmanın keçirdiyi hiss, həyəcan vüsal, ayrılıq, göz yaşları təbiidir.

Bəxtiyar Vahabzadənin qadın sevgisinə həsr olunmuş məhəbbət mövzulu şeirlərində ("Sən güləndə", "Yağma yağış", "Gecələr uzanaydı", "Bir salama dəymədi", "Heyf", "Dedim-dedin", "Bir mənəm, bir də sükut" "Unutmaq istərəm", "Hansımız yoxuq", "Yaman darıxmışam", "Getsən, gəlsən", "Qısqanıram", "Verərdim", "Təslim", "Könüllü məhkum", "Sənə deyəsi" və s.) vüsal, həsrət, ayrılıq, aşiqin hiss və duyğuları, həsbi-halı, düşüncələri canlandırılır. Bu Bəxtiyar şeirinin sevgi, xoşbəxtlik axtarışları və ona qovuşmaq harayıdır. Onun sevgi şeirləri "Zamana və məkana sığmayan, müasir insanın mənəvi əzabları, könül çırpıntıları və ürək yanğısıdır".

ƏSAS

"Bir mənəm, bir də sükut" [1, səh. 5] şeirində gecə vaxtı məşuqəsinin yolunu gözləyən aşiqin keçirdiyi həyəcan, həsrət dolu duyğuları tərənnüm olunur. Hər yan qaranlıq, sanki insanlarla bərabər təbiət də yatıb. Yalnız oyaq qalan aşiq, bir də sükutdur ki, sanki o da aşiqə həmdəm, sirdaş olmuş, onunla birgə yarının yolunu gözləyir. Lakin səhər açılmaq üzrədir. Səhər bir azdan nuru ilə ətrafı işıqlandıracaq, amma hələ də yardan bir xəbər yox. Aşiqsə sükutla birgə intizarla, həsrətlə onun yolunu gözləyir:

Vaxt keçir, ay dolanır, indi doğar nurlu sabah,

Əqrəb əqrəblə görüşdü, yenə sən gəlmədin, ah!

Uyuyur indi həyat, göydə sükut, yerdə sükut,

Bir mənəm gözləyən həsrətlə səni, bir də sükut.

"Dedim, dedi" şeiri mükalimə şəklində qurulub. Şeir aşıq şeiri üslubundadır. Şeirin ideyasını inam, etibar təşkil edir. Burada iki obraz var: aşiq və məşuq. Sevgilisinin şıltaqlığına dözən aşiq, nigarına anlayış göstərərsə, nigarı da ona vəfalı, etibarlı olacağını əmin edir:

Dedim: "Gəl tərk eylə bu şıltaqlığı"

Dedin: "Mən oynağam kəpənək kimi"

Dedim: "Yuvan yoxmu?" – dedin: "Dünyanın

Döşündə bitərəm mən çiçək kimi."

Bu dördlükdə şair böyük bir fəlsəfi məna yaratmış, sevən qəlblər arasında etibar, vəfa, inam axtarmış və ona önəm vermişdir.

Görkəmli xalq yazıçısı Süleyman Rəhimov əbəs yerə onun haqqında deməmişdir: "Sən şeirdə ecazsan. Öz ustadın Səməd Vurğun nəfəsisən, sən bizim Səmədin ən ləyaqətli şagirdisən... qoy onun şahin şöhrətli, qartal qanadlı şeiri Yer kürəsinin hər tərəfinə yayılsın" [5].

"Bir salama dəymədi" şeirində beş il yaşanmış hisslərin, duyğuların, həsrətin ağrı-acısı var. Şeirin məzmunundan aydın olur ki, şairin beşillik həyatı elə-belə ötməyib. Həsrətdən qəlbin gözlərdən axıtdığı "qanlı sellər" nakam sevgidən eşq nəğmələri söyləyir.

Şeirin qələmə alınmasının maraqlı bir tarixçəsi var. Deyilənə görə, şair tələbəlik illərində bir qızla dərin məhəbbət yaşamışdır. Həmin qız başqa bir fakültədə əcnəbi dil üzrə təhsil alırmış. O, institutu bitirdikdən sonra təyinatını başqa ölkəyə alır. Bəxtiyar Vahabzadə bu təyinata etiraz edir, ona "getmə" deyir. Lakin həmin tələbə qız şairi dinləməmişdir. Bu üzdən də onların arasında əbədi ayrılıq yaşanmışdır. Şair başqa biri ilə evlənmiş, tələbə qız isə ömrünün sonuna kimi ailə həyatı qurmamışdır. Bir gün onlar təsadüf nəticəsində şəhərdə üz-üzə gəlirlər. Şair ona salam verir, xanım isə nəinki onun salamını almır, heç üzünə belə baxmır.

Heç üzümə baxmadan yanımdan necə keçdin?

Sən eşqin salamını qorxuyamı dəyişdin?

Yoxsa sən öz əhdinə, ilqarına ağ oldun?

O qədər yaxın ikən, bu qədər uzaq oldun?

Şirin gülüşlərimiz, acı fəğanlarımız

Bir salama dəymədi?

Şair sevgilisini etinasızlıqda, vəfasızlıqda, əhdini pozmaqda qınayır. Lakin sonda gec də olsa

səhvini başa düşür. Anlayır ki, günahkar özüdür. Qızın qəlbinə elə dəyib ki, onu bağışlamaq mümkün deyil. Artıq onu çoxdan itirib. Sonası əlçatmaz bir çiçəyə dönən aşiq ah-fəğan edir:

Qop ey tufan, əs ey yel! xəzan olum, tökülüm....

Getdin, dalınca baxdım, can ayrıldı canımdan,

Sən necə etinasız ötə bildin yanımdan?

Ah çəkdim, başım üstə yarpaqlar əsdi, gülüm.

Sənin qəlbin əsmədi?

Arxana da baxmadın.

Niyə sənin yolunu məhəbbətin kəsmədi?

Qazancımız de, bumu?

Deyilməmiş o salam əlvidamız oldumu?

Sən mənə zülm eylədin, mənə zülm yaraşır.

Bir salama dəyməyən eşqə ölüm yaraşır.

Qız isə şairin vəfasızlığından incimiş, qəlbi qırılmış, küsmüş, təsadüfi görüşdən də sevinməmiş, salamı almamaqda eşqinə yas tutduğunu,ona münasibətini bildirmişdir.

“Heyf ki, “Bir salama dəymədi” şeirləri ayrı-ayrı zamanlarda yazılmasaydı, hər iki şeirin məzmunundan çıxış edərək belə nəticəyə gələrdik ki,” Heyf ki” “Bir salama dəymədi”nin ardıdır.

“Heyf, o alovlu ötən çağlara” deyən, şair sevgilisi ilə keçirdiyi o günləri xatırlayaraq dərin kədər hissi ilə bir daha onların yaşanmayacağına heyfslənir:

Heyf o gözlərə, o baxışlara,

Özgə birisinə baxacaq həmən

Heyf o ilahi qövsi qaşlara,

Sınacaq kədərli düşüncələrdən.

Heyf gülə bənzər o dodaqlara

Özgə bir dodağa toxunacaqdır.

Şair bir tərəfdən sevgilisini əğyara qısqanır. Digər tərəfdən isə sevgilisinin onu unutmayacağına, daim onu düşünəcəyinə, anacağına, bu düşüncələrdən alnına qırışlar düşəcəyinə, “ilahi, qövsi-qaşların” sınacağına heyfslənir. Sonu əbədi ayrılıq olan bu nakam eşqdə də yenə özünü güahkar bilir. Sevgilisinin də, özünün də yaşadıqlarına, çəkdikləri möhnətə də, yaşadıqları xoş anlara da heyfslənir. Özünü günahkar bilərək məhəbbətlərini qoruya bilmədiyinə, səadətini əlindən başqa birisinə-əğyara verdiyinə təəssüflənir.

“Unutmaq istərəm”də ayrılıqdan keçirdiyi hiss və duyğularını qələmə alır. Ayrılığın acı şərbətini o da içmiş, eşqin əzablarından o da keçmişdir. Ötənləri fikrindən, xəyalından uzaqlaşdırsa da, lakin qəlbindən çıxara bilmir. Çünki qəlbən aşiq olmuşdur. Real sevgi, həqiqi məhəbbət unudulmur. Unut desə də qəlbə hökm edə bilmir. Aşiqin qəlbə qəzəbi sərhədləri aşıb keçsə də faydasızdır. Eşq elə bir hissdir ki, onun da “ağlını, iradəsini, səbrini” əlindən almış, əsiri etmişdir.

Eşqimin odunu söndürə bilmir.

Qəzəbim sel kimi əsib daşsa da

Eşqin əlində əsir qalan böyük Füzuli demişdir: "Əql yar olsaydı, tərki-eşqi-yar etməzmidim?" Nizami, Füzuli tərifində: "Eşq imiş hər nə var aləmdə". "Elm bir qilü qal imiş ancaq".

Bəxtiyar isə eşqə belə tərif verir:

Bu elə qayğı ki, bu elə qəm ki,

Azdırar yüz illik yolundan səni...

Eşqin yolu qəmli bir karvandır. Burada səbr, iradə, əql acizdir. Böyük şair Xəqani bu yolda sevincin, şad günün olmadığını deyir:

Yazıqlar, vay o qəlbi yanmış aşiqlərə ki,

Bir nəfəs çəkməmişdir qeyri-sənin havandan

Onun görən olmadı şad gününü bir əsla

Sevinc yeli əsmədi dalısınca heç zaman.

Bəxtiyara görə eşq elə bir od-alovdur ki, o həm həsrətdən üzər, yandırar, həm də ayrılıqdan könül evini viran qoyar: Dedin: "Yordu məni bu üzüntülər, dünya dağılmaz ki, ayrılsaq əgər." Dedim:-"Yox! Dağılmaz, dünyaya nə var, könül dünyamızsa viranə qalar." Şairin fəlsəfəsində dünyaya nə var ki, o qədər ayrılıqlar salıb, könülləri viran qoyub. Aşiq sevgilisinə məsləhət görür ki, gəl biz fələyin oyununa uyub ayrılmayaq, əgər biz ayrılsaq bu eşqlə dolu qəlbimiz viran qalacaq. Könül aləminin eşqsiz mənasızlığını ifadə edərək eşqə önəm vermiş, qəlb evinin gözəlliyini eşqdə axtarmışdır. Burada şair fəlsəfi fikrini təlqin edir, dünyanın vəfasızlığından şikayətlənir.

Şair sevginin gözəl hiss olduğunu, sevənlərin məhəbbətdən gözəlləşdiyini, bu gözəlliyin sevənlərin bir-birinə olan eşq dolu baxışlarından gəldiyini tərənnüm edir: "Əgər sənə baxmasaydım, sən də belə görünməzdin". Xalq arasında belə bir kəlam var: "Sevən gözəlləşər". Bu baxışında, duruşunda dəyişiklik olan gənc oğlana, qıza söylənər. Bəxtiyar Vahabzadə də xalq kəlamlarından yaradıcılığının bütün janrlarında faydalanmışdır. Şair burada həmçinin gözəlliyi gözəl baxan gözlərdə axtarmış, hər nəyə necə baxarsan, o cür də görərsən fəlsəfi fikri "Sən Leyliyə Məcnunun gözü ilə bax "-el arasında dolaşan deyimi xatırladır.

"Neçə yol vəd verib əhdə vəfa qılmadı yar"-deyən şair sevgilisini əhdə vəfasızlıqda qınayır. "Yağma yağış" şeiri intizar, narahatçılıq, həyəcan, sevinc dolu şeiriyyətdir. Bəstələnməmiş hazır, həzin nəğmədir. Görüşə tələsən gənci buludların dolub –boşalması, "naxış-naxış" yağan yağış qorxuya salır. Axı görüşünə tələsdiyi göy çəməndə onu gözləyən biri var. Göylərdən "ürəyini" boşaltmamasını, yağışdan yağmamasını, onu islatmamasını, sevincinə kədər, zəhər qatmamasını minnət edir. Sonra da yağışın onu qorxutmadığını, yağsa da görüşə gedəcəyini, ürəyini açacağını, bütöv olan eşqinin çətirə dönüb onları yağışdan qoruyacağını söyləyir:

Yağsan da mən gedəcəyəm,

Görüşəndə yağışda biz.

Üstümüzə açılacaq,

Çətir kimi öz eşqimiz.

Bəxtiyar üçün sevgi nədir? Sevdiyin qadının səni duyması, baxışından anlaması Uzaq məsafədən gəlişindən, ayaq səsindən tanıması. Bu kişinin sevdiyi qadından gözlədiyi real məhəbbətdir. Əgər sevdiyi qadında axtardığı birgə xoşbəxt həyatı varsa, sevgi realdırsa, həqiqətən də sevən qadın onu duyacaq:

Baxışdan söz götür, söz anla sözdən,

Həssas ol,sevgilim,ömrün boyu sən.

Yüz yox, min ayaq səsinin içində onun ayaq səslərini seçəcək. "Əgər sevirsənsə ayaq səsimdən, gərək biləsən ki, Bəxtiyar gəlir". Bu ayaq səsi istər yaxından gəlsin, ya uzaqdan.

Fikrət Qoca şairin şeirdəki lirik duyğuları haqqında yazır: "Qadını elə bir ülvi məhəbbətlə səsləyir ki, ayaq səsindən də sevgilisini tanısın. Maşın, tramvay, traktor, təyyarə, bir-birindən vahiməli silah səsləri arasında məhəbbət yaşayır. Öz məhəbbətini ayaq səsindən tanıya bilən gözəl yaşayır. İnsan ülviləşir, yüksəlir, tərəqqi adlanan bir vahiməli, vahiməsiz texnikanın başı üstündə dan yeri kimi gözəl insan öz məhəbbəti ilə dayanır". Şairin qadına münasibətində həm də Azərbaycan kişisinin xarakterik obrazı var [4, səh.49].

"Eşq hissiymiş Bəxtiyar Vahabzadə lirikasının fərdiliyi və fərqliliyi elə bundadır. Heç nə ötəri deyil, tamdır, dolğundur, daxilən yaşanmış poetik ovqatın təzahürləridir" [4, səh.11].

Şair aşiqdir : "Təkcə buna öyünürəm, ana dilim, ömrüm boyu eşqin ilə yandı sinəm", " Vətəni sevməkdir, vətəni sevmək, şairin ən böyük vəzifəsi də".

Hər bir söz sənətkarının əsas vəsaiti dildir. Ana dilinin incəliklərini bilməyən nə qədər istedadlı olsa da, iç dünyasına bağlansa da, eşq oduna yanıb külə dönsə də əsl sənət nümunəsi yaratmaqdan məhrumdur. B.Vahabzadə əlinə qələm alıb yazmağa başladığı andan bu həqiqəti dərk etmiş və vətən sevgisi ana dilinin qorunması ilə mübarizə zəminində daha da şiddətlənmişdir. Özünü şair kimi təsdiqləməyə çalışdığı çağlarda yüksək dairələrdə ana dilinin arxa plana keçirildiyini, dövlət sənədlərinin rus dilində aparılmasını, paytaxtda milli məktəblərin çoxunun beynəlmiləlləşdirilməsini görüb həm dolayı şəkildə poetik əsərlərində, həm də publisistik məqalələrində hamını ayıqlığa, sayıqlığa səsləmişdir. Sovet dönəmində açıq-aşkar rus dilinin tədris və idarəçilikdəki hegemonluğuna, şəbəkələrinin günü-gündən daha da genişləndirilməsinə qarşı çıxmaq imperiyanın məngənəsinə düşmək idi. B.Vahabzadə hələ onda kommunistləri öz silahları ilə vurmağın yolunu tapmışdı. Sovet dövlətinin banisi B.İ.Leninin fikirlərinə və imperiyanın ən ali qanunlar toplusuna söykənərək respublikanın siyasi rəhbərliyini haqqa qaytarmağa təşəbbüs göstərərək anlatmaq istəyirdi ki, Rusiyanın kommunistləri qardaş xalqların haqqını yeməklə tarixi ənənələrə malik mədəni xalqı - rusları alçaldır, Puşkini, Dostoyevskini, Tolstoyu utandırırlar.

Publisistik yazılarındakı üsyankar fikirlərini ona görə qulaqardına vururdular ki, qələmini iti qılınca çevirən B.Vahabzadə V.İ.Leninin kəlamlarından özünə qalxan tutaraq göstərirdi ki: "Müxtəlif millətlərin azad və mehribancasına birgə yaşaya bilməsi üçün... tam demokratizm olmalıdır. Heç bir millət üçün, heç bir dil üçün gərək heç bir imtiyaz olmasın! Azlıq təşkil edən millətlərə qarşı azacıq da olsa, təzyiqə, azacıq da olsa ədalətsizliyə gərək yol verilməsin!"

Şair "Komsomolskaya pravda" qəzetinin 1988-ci il 16 yanvar tarixli nömrəsində xüsusi müxbir S.Romanyukun "Arqumentlər olmadan" adlı məqaləsini oxuyub bərk təəccüblənir. Məqalədə göstərilirdi ki, Qırğızıstanda "Əmək kollektivində vətənpərvərlik tərbiyəsi və milli tərbiyə" mövzusunda respublika elmi-praktik konfransı keçirilir. Çingiz Aytmatov çıxışında milli dildə uşaq bağçalarının və məktəblərin açılması, qırğızlar tərəfindən rus və qırğız dillərinin öyrənilməsi məsələlərinə dair A.Tokombayevlə polemikaya girir və qırğız dilinin gərəksiz hala düşməsinə etiraz səsini ucaldır. Onun bu mühüm, ağrılı məsələyə tənqidi münasibəti S.Romanyuku özündən çıxardır. Müxbir yazır: "...Ç.Aytmatov həmin konfransın tribunasından bildirir ki, bu iş (qeyri-qırğızlar üçün qırğız dili dərsləri) lüzumsuzdur və acı istehza ilə soruşur: "Əgər qırğızlar öz dillərini bilməsələr, görəsən, qırğız dilini öyrənən ruslar bu dildə kimlə danışacaqlar?" B.Vahabzadə "Komsomolskaya pravda" qəzetinə məktubla müraciət edir və S.Romanyukun qırğız millətinin düşdüyü acınacaqlı vəziyyəti siyasiləşdirməsinin əleyhinə

çıxaraq deyir: "Görəsən, S.Romanyuka niyə elə gəlir ki, bu sözlərin arxasında məhz milli məhdudiyyət və milli təkəbbür gizlənir? Məgər ana dilinə, doğma mədəniyyətə məhəbbət, onların inkişaf etdirilməsinə qayğı, ana dilində uşaq bağçaları və məktəblərin olmasını istəmək hər bir xalqın ən adi hüququ deyilmi? Məgər hər bir azad xalqın bu adi, elementar hüququ tələb etməsi milli məhdudiyyət və təkəbbürmü deməkdir? Axı, S.Romanyuk bir qədər əvvəl, həmin qəzetin 1987-ci il 29 noyabr tarixli nömrəsində belə bir fakt gətirmişdi ki, Qırğızıstanın paytaxtı Frunzedə (indiki Bişkekdə) qırğız dilində cəmi bir məktəb var! Bəs, görəsən, bu faciəli fakt niyə "hörmətli" müxbiri narahat etmir! Axı, belə fakt hər hansı xarici ölkədə olsaydı, biz nə hay-küy qopardıq?!" B.Vahabzadənin yazısını oxuyan Ç.Aytmatov onun bədii yaradıcılığı ilə maraqlanmış, SSRİ Dövlət mükafatına layiq görülmüş əsərlərinin rusca nəşrinə ön söz yazmış və Bakıya şairin görüşünə gəlmişdir.

Ana dilini xalqın ruhu, mənəvi dünyası, psixologiyası, "yaradıcılıq taleyi" sayan B.Vahabzadəyə görə, insan ən dərin və ən incə hissələrini yalnız anasından öyrəndiyi, orta məktəbdə möhkəmləndirdiyi dil vasitəsilə ifadə edə bilir. Ancaq ana dili vasitəsi ilə hər kəs öz düşüncələrini, duyğularını və dünyanı necə dərk etdiyini başqalarına anlatmağa qadirdir – hökmünü verərək özü də şeirlərinin rəvanlığını, vüsətini, gücünü ondan almışdır. Sovet dönəmində qazanmaq istədiyi ən böyük uğur ana dilinin rəsmi dövlət idarələrində işlənməsinə nail olmaq idi. Təsadüfi deyil ki, 1989-cu ildə Azərnəşrin hüquq elmləri doktoru M.Cəfərquliyevin rus dilində buraxdığı "Məhkəmə icraatında milli dil problemləri" adlı kitabını böyük sevinclə qarşılamışdı. Şair dərhal müəllifə zəng çalıb kitabın ana dilində də buraxılmasını arzu etdiyini bildirmiş, mətbuatdakı yazısında isə uğurlarından söz açaraq onu yüksək dəyərləndirmişdir.

Xalqın gələcəyinə inamını itirənlərin mühüm dövlət postlarında yüksək vəzifələr tutmasını görəndə ədib qəzəbini gizlətmir, havaya görə işlərini quranların azərbaycanlıların namus və qeyrəti sayılan Ana dilini hər zaman istənilən dilə dəyişəcəyinə şübhə etmir və belələrinin maskalarını yırtaraq tövsiyə edir ki, başqa dillərdə bülbül kimi ötüb öz soydaşlarının taleyindən narahatlıq keçirməsinlər, dərdə düşməsinlər, millətinin sabahının işıqlı olacağına əmindir, böyük Füzuliləri, Sabirləri və Üzeyir bəyləri yaradan azərbaycan türklərinin gələcəyinə də, onun dilinə və mədəniyyətinə də inamı hədsizdir. Vətən, Ana dili problemlərindən danışanda sözünü havaya ötürmür, üzünü konkret insanlara tutur, öz baltalarımızın imtiyazlarının əllərindən alınmasına çalışaraq onları susmağa, irəliyə doğru atılan addımlarda badalaq gəlməməyə, uğurlarımızın qarşısına kötük atmamağa çağırırdı: "Siz hələ ən adi bir həqiqəti bilmirsiniz ki, Ana dili vaxta görə seçilməməli, Ana dili olduğuna görə bütün dillərdən seçilməli və sevilməlidir. Vətəni də gözəl və səfalı olduğuna görə sevmirlər. Yalnız Vətən olduğuna görə sevirlər."

90-cı illərdə qaldırdığı problemlərə tərəfdaşlarının meydana gəldiyini görən B.Vahabzadənin gələcəyə inamı daha da artırdı. Ə.Tahirzadənin "Ana dili və azadlıq" (19 iyul, 1991-ci) məqaləsində ("Azadlaq" qəzetinin redaktoruna ünvanladığı "Su başdan bulanar" açıq məktubunda dərc olunub) "quşu gözündən vurması", şairin 40 ilə yaxın bir müddətdə həm şeirlərində, həm də məqalələrində dediklərini əyani faktlarla daha da dərinləşdirməsi qəlbini riqqətə gətirirdi. Ə.Tahirzadənin: "...Gürcü, erməni, yaxud eston hakim mafiyası son anda öz millətinin mənafeyini satmağa razı olmur. Çünki ana dili ilə birgə onun təfəkkürünə hopmuş "milli mənafe" duyğusu buna yol vermir. Ancaq daha çox öz əməkçi xalqının hesabına (başlıca olaraq rüşvətlə) dövlətlənmiş və hakimiyyətə çıxmış "Şərq" mafiyası (Azərbaycan, özbək, türkmən, və s.) isə son anda bu sərvəti və hakimiyyəti itirməmək xatirinə "əslində, heç bir mənəvi tellə bağlanmadığı xalqına asanlıqla dönüklük edir..." – fikrlərinin ürəyindən xəbər verdiyini vurğulamaqla kifayətlənmir, Azərbaycanda hökmən rus dilini bilən, Moskvanın mənafeyini qoruyan şəxslərin irəli çəkilməsini bizim faciələrimizin başladığı nöqtə sayır. Bu

səbəbdən də nə qədər qərar və fərmanlar verilsə də, respublikamızda ana dilinin dövlət statusu qazanmamasını, yenə köhnə hamamda köhnə tasların qaldığını, dəyirmanın öz bildiyini elədiyini, çaxçaxla millətin başını ağrıtdığını ürək ağrısı ilə xatırladır. Başqa xalqların eyni durumda öndə gedənlərin tamamilə özgə tərzdə fəaliyyət göstərdiklərini vurğulayaraq bizimkilərin ibrətlənməsini istəyir. Hələ durğunluq dövründə belə Baltik respublikalarında, Gürcüstan və Ermənistanda ana dili dövlət idarələrində işləndiyi halda Azərbaycanda yenidənqurmadan sonra da bu qədər qərar və fərmanlar verilməsinə baxmayaraq, elə əvvəlki vəziyyətin davam etməsinə yanıb-yaxılırdı.

Lakin müstəqillik əldə edilən kimi bir il keçməmiş vəziyyət tamamilə dəyişir. Rus dilini cani-dildən müdafiə edənlər kəkələyə-kəkələyə Ana dilində danışmağa başlayır, övladlarını rus məktəblərindən çıxardıb Azərbaycan məktəblərinə qoyurlar. Demə, B.Vahabzadənin on illər boyu döyülüb-söyülərək qaldırdığı problemin həlli belə asan imiş. Əslində rus dilli "bülbüllər"imizin qarnının azarı başqa imiş. Şair "Ana dili – Dövlət dili" məqaləsində Tünzalə Qasımovanın "Azadlıq" qəzetinin 18 dekabr 1992-ci il sayında dərc olunan "Zəka axınını necə azaltmaq olar?" məqaləsində qaldırdığı məsələyə kəskin cavabında şəraiti düzgün dəyərləndirərək yazırdı ki, "Necə yəni, özün bu millətə mənsub olasan, bu millətin çörəyini yeyib, bu Vətənin suyunu içəsən, amma onun dilini bilməyəsən? Axı, sən xalqın dilini bilmirsənsə, demək, millətinin ruhuna, mənəviyyatına, tarixinə yadsan. Demək, bu millətə övlad deyilsən".

Onun publisistikasında hər şey açıq qoyulur, sözünü üzə vurmaqdan çəkinmir. "Gidi dünya"nın tərs-məzhəb işlərini əvvəllər də görüb heyrətlənmişdi. Dünən onu dil məsələsində qamçılayanlar, "Mənim övladım ana dilini bilməsə də olar" hökmü ilə rusca təhsilin daha vacib olduğunu sübut etməyə çalışanlar görən nə səbəbə tələm-tələsik övladlarını rus məktəblərindən çıxarıb Azərbaycan məktəblərinə verirlər? Bu suala şair sualla cavab verirdi: "Rus dilini ana dili hesab edən bu ziyalılar bəs niyə Rusiyaya qaçmırlar? Əgər səbəb dil məsələsidirsə, bu cənablar gərək Rusiyaya üz tutaydılar. Demək, Rusiyada xoş güzəran tapmayacaqlarını bildiklərindən onlar xoş güzəran arxasınca Türkiyəyə və Amerikaya gedirlər". Bəli, əsas məsələ onların vətənpərvər olub ana dilinə böyük məhəbbət bəsləmələri deyil, qazanc mənbələrinin Azərbaycanda, Türkiyədə, ABŞ-da olmasında imiş. Bu yerlərdə artıq rus dili iş görmək bacarığını itirdiyindən Ana dili yada düşüb.

Qabiliyyətinə və qələminə dərin hörmət bəslədiyi dilçi alim Musa Adilovun "Aydınlıq" qəzetində (30 yanvar, 1993) dərc etdirdiyi "İki dilin bir adı" məqaləsini oxuyub "Doğrudanmı, bu məqaləni dilçi yazmışdır?" - deyə təəccüb edir. Müəllif məqaləsində bizim dilimizi bir dil, türk dilini isə tamamilə başqa dil sayaraq belə nəticəyə gəlir ki, demə, Azərbaycan dili türk dilləri qrupuna mənsub deyilmiş! Şair aksiomun müzakirə obyektinə çevrilməsinin gülünc hal olduğunu bildiyindən M.Adilovun mənasız fikri ilə mübahisəyə girişməkdən yan keçir. Dilçi-alimin ziddiyyətli qənaətləri ilə özünü tamam dolaşdırdığını isə diqqət mərkəzinə çəkməklə ulu bir xalqın soyuna, kökünə həqarət edənlərin maskasını yırtır. "Dünyanın hansı millətinin iki dili var? İki rus, iki ingilis, iki fransız, iki alman və s. dili varmı ki, türk dili də iki olsun? Bəlkə, müəllif ləhcələri nəzərdə tutur? Bəli, Amerikada yaşayan ingilislərin dili ilə İngiltərədə yaşayan ingilislərin dili arasında müəyyən ləhcə fərqi var. Amma ikisi də ingilis dilli adlanır. Eləcə də ərəb dili. Əlcəzair, İraq, Səudiyyə Ərəbistanı, Misir və s. ölkələrin hamısında müəyyən ləhcə fərqləri ilə danışılan dil ərəb dili adlanır. Lakin heç kəs bu dili Əlcəzair, İraq, yaxud Misir dili adlandırmır?"

Nədənsə, bu gün də "türk" sözü ermənilərlə bir sırada bəzi Azərbaycan sakinlərini də bərk təşvişə salır, gecələr yuxusuna haram qatır. Onların kökünün kimlərə bağlandığı ilə işimiz yoxdur. Lakin damarlarından türk qanı axanların özlərini ulu əcdadlarının adı ilə adlandırmalarından niyə qıcıqlandıqları qəribədir. Şair hələ 90-cı illərin başlanğıcında

M.Adilovun timsalında türklüyümüzə həqarətlə baxanları tənqid atəşinə tutaraq yazırdıki, müəllif dilimizi "Azərbaycan türkcəsi adlandırsaydı, onunla razılaşmaq olardı. Lakin o, bunu da qəbul etmək istəmir. Zorla boğazımıza yeridilən "Azərbaycan dili" istilahını müdafiə edir. "Aydınlıq" qəzetinin tərtibçisi, elə bil, qəsdən Adilovun "Dilimizin adı Azərbaycan dilidir" fikrini sübut etməyə çalışan məqaləsinin yanındaca (eyni səhifədə) bu fikri qətiyyətlə inkar edən Hamlet Əsgərsoylunun "Qatıq qara da ola bilər?" məqaləsini vermişdir. Görəsən, bunu tərtibçi qəsdən eləmiş, yoxsa, bu təsadüf Allahın işidir? Paradoksa baxın. Dilimizi "Azərbaycan dili" adlandıran dilçi professora Neft Akademiyasının müəllimi nə gözəl cavab verir: "Qatıq qara da ola bilərmi?" Adilov bəlkə soyadının sonundakı "ov"u da millətimiz üçün doğma hesab edir? Əgər dilçi-alim "ov"u da bizə doğma hesab edirsə, vay bizim halımıza!"

Beləliklə, B.Vahabzadənin dil sevgisi və onun uğrunda mübarizəsi həyatının əsas amalı, hərtərəfli yaradıcılığının mühüm mövzularından biridir. Özünü, kökünü yad təsirlərin yardımı ilə unutmasını xalqımızın ən böyük bəlası hesab edən şair şeirlərində olduğu vüsətlə publisistik yazılarında da xüsusi vurğulayırdı: "Bizim dilimizin türk dili olması, millətimizin də türk adlanması aksiomdur. Yəni, bunun sübuta ehtiyacı yoxdur". O, soydaşlarına kimliyini anlatmaq üçün yaşadığı tarixi hadisələrə üz tutub tutarlı misallar çəkirdi. Stalin-Səməd Vurğun qarşılaşması haqqındakı bir maqalə barədə yazırdı: "Səhv etmirəmsə, Stalinin 60 illiyi münasibətilə 30-40-cı illərdə bir kitab çıxmışdı. O kitab məndə son zamanlara qədər var idi. Orada Səməd Vurğunla Stalin arasında bir dialoq verilmişdi. Təxminən o dialoq belə idi: Stalin S.Vurğundan adını, familiyasını soruşur. O, Səməd Vəkilov deyir. Stalin cavabında deyir ki, sən Vəkilzadəsən. Sonra milliyyətini xəbər alır. S.Vurğun türkəm deyir. Stalin deyir, sən türk deyilsən, azərbaycanlısan. Millətimizin "azərbaycanlı" adlanması bu vaxtdan başlandı".

Milli məclisdə dövlət dili məsələsi müzakirə olunanda B.Vahabzadə digər türk xalqlarının (özbək, qazax, tatar, qırğız, başqırd və s.) mövcudluğunu düşünərək neçə illik mübarizəsinə nöqtə qoyacaq "millətimizin adını "Azərbaycan türkü", dilimizi isə "Azərbaycan türkcəsi" adlandırılması ilə bağlı qərarın çıxarılması" təklifini irəli sürmüşdü.

Ədəbiyyat

1. B.Vahabzadə. Lirika (1950-1960)
2. B.Vahabzadə. Əsərləri. Bakı, ADN-1990 XII cilddə, X cild, Bakı, Elm, 2009
3. İfrat Əliyeva. Bəxtiyar Vahabzadənin lirikası. Bakı, Yazıçı, 1983
4. Bəxtiyaram mən, Bakı, Çaşıoğlu, 2016
5. "Azərbaycan" jurnalı, 1975 №10
6. "Azadlıq" qəzeti 19 iyul 1991, 18 dekabr 1992, 30 yanvar 1993
7. "Knijnoye obozreniye"qəzeti 1987, №4
8. "Komsomolskaya pravda" qəzeti 16 yanvar 1988
9. "Aydınlıq" qəzeti 8,30 yanvar 1993
10. "Azərbaycan" qəzeti 7 fevral 1993

ISSUES TO PAY ATTENTION WHILE TEACHING FUNCTION SUBJECT WITHIN THE COURSE OF MATHEMATICS IN THE HIGH SCHOOL

ORTA MƏKTƏB RİYAZİYYAT KURSUNDA "FUNKSİYA" MÖVZUSUNUN TƏDRİSİ ZAMANI DİQQƏT EDİLMƏLİ MƏSƏLƏLƏR

AKHUNDOVA ELNARA BUKHSAY

Phd in Mathematics Azerbaijan State Pedagogical University, Guba Head teacher of the department of "Mathematics and Computer Science"

Summary

Function and its explanation/expression are important topics in the mathematics course of the high school. Special attention is required regarding a number of issues during the teaching process of this subject. Its methodically efficient to follow a certain scheme during the explanation process of the function and its types. It is required/necessary to draw attention of students to the analytical expression of the studied function,its properties and graph construction. Is is very important to know the general properties of the function to be able to build its graph.So, when we talk about general properties of the function that means whether it is odd or even, ascending or descending function, also if it is cyclical or non- cyclical, finite or infinite function, etc. It is also necessary to try to build graphs withthe graphcalculators when it is possible. It would help students to have a better understanding of the function related concepts. Various tasks related to the graphs' displacement should be given to students for their practice. It is important to form the skills of the presentation and reading of the graphic information during high school. The problems and examples that are solved by applying the properties of the function show its scientific and practical importance. Thus, all mentioned above show that it is important to pay attention to the number of points/issues during teaching process of the funcitons, whether it is elementary or transcendent.

Key words: *function, properties of the function, graph of the function, definition domain and the set of values ,linear function, square function, elementary function, transcendent function.*

Xülasə.*Orta məktəb riyaziyyat kursunda funksiya və onun tədrisi mühüm mövzulardandır.Bu mövzunun tədrisi zamanı bir sıra məsələlərə xüsusi diqqət yetirmək lazımdır.Funksiya və onun növlərinin öyrədilməsi zamanı müəyyən sxemə əməl olunması metodiki cəhətdən səmərəlidir. Şagirdlərin diqqətini öyrənilən funksiyanın analitik ifadəsinə, xassələrinə və qrafikinin qurulmasına cəlb etmək lazımdır. Funksiyanın qrafikini qurmaq üçün onun ümumi xassələrini bilmək çox vacibdir.Funksiyanın ümumi xassələri dedikdə onun tək və ya cütlüyü, artan və ya azalan olması, dövri və ya dövri olmaması, məhdud və ya qeyri-məhdud olması və s. başa düşülür. Mümkün olduqca qrafiklərin qrafkalkulyatorlarla da qurulmasına çalışmaq lazımdır.Bu zaman şagirdlər funksiya ilə bağlı anlayışları daha yaxşı dərk etmiş olurlar. Şagirdlərə qrafiklərin yerdəyişməsinə aid müxtəlif tapşırıqlar vermək lazımdır. Orta məktəbdə qrafik məlumatı oxuma və təqdimetmə bacarıqlarını da formalaşdırmaq lazımdır.Funksiyanın xassələrinin tətbiqi ilə həll olunan məsələ və misallar onun elmi- praktik əhəmiyyətini göstərir.İstər elementar, istərsə də transendent funksiyaların tədrisi zamanı bir sıra məsələlərə diqqət etmək lazımdır.*

Açar sözlər: *funksiya, funksiyanın xassələri, funksiyanın qrafiki, təyin oblastı və qiymətlər çoxluğu, xətti funksiya , kvadratik funksiya, elementar funksiya, transendent funksiya.*

Orta məktəb riyaziyyat kursunda funksiya və onun tədrisi mühüm mövzulardandır.Bu mövzunun tədrisi zamanı bir sıra məsələlərə xüsusi diqqət yetirmək lazımdır.Funksiya və onın növlərinin öyrədilməsi zamanı müəyyən sxemə əməl olunması metodiki cəhətdən səmərəlidir. Orta məktəbdə konkret funksiyanı aşağıdakı metodiki sxem üzrə öyrətmək olar:

1) Öyrəniləcək funksiya ilə əlaqəsi olan məsələ və misalı araşdırmaq.Bu zaman şagirdləri bu funksiyanın öyrənilməsinin vacib olduğuna inandırmaq lazımdır.
2) Funksiyanın tərifini vermək və onu əvvəl öyrənilmiş funksiyalardan fərqləndirən mühüm xassələrini göstərmək;
3) Şagirdləri funksiyanın qrafiki ilə tanış etmək;
Şagirdlərin diqqətini öyrənilən funksiyanın analitik ifadəsi və xassələri ilə yanaşı qrafikinin qurulmasına da cəlb etmək lazımdır. Funksiyanın qrafikini qurmaq üçün onun ümumi xassələrini bilmək çox vacibdir.Funksiyanın ümumi xassələri dedikdə onun tək və ya cütlüyü, artan və ya azalan olması, dövri və ya dövri olmaması, məhdud və ya qeyri-məhdud olması və s. başa düşülür.Orta məktəbdə qrafik məlumatı oxuma və təqdimetmə bacarıqlarını da formalaşdırmaq lazımdır.
4) Funksiyanı araşdırmaq və əsas xassələrini (funksiyanın təyin oblastı və qiymətlər çoxluğunu, monotonluq aralıqlarını, işarəsinin sabit olduğu aralıqları, sıfırlarını, ekstremum nöqtələrini, dövriliyini, tək və ya cüt olmasını, məhdudluğunu , kəsilməzliyini və s.) göstərmək. Adətən natamam orta məktəbdə bu xassələr yalnız onun qrafiki əsasında müəyyən edilir.Bəzi xassələri (məsələn, tək-cütlüyü, artan-azalan olması və s.) isə həm də analitik üsulla əsaslandırmaq mümkün olur.
5) Funksiyanın xassələrinin tətbiqi ilə məsələ və misal həll etmək. Bu mərhələ əsas anlayışların və nəzəri müddəaların möhkəmləndirilməsi və uyğun bacarıq və vərdişlərin formalaşması mərhələsi də adlanır. Funksiyanın xassələrinin tətbiqi ilə həll olunan məsələ və misallar onun elmi- praktik əhəmiyyətini göstərir.

Natamam orta məktəbdə şagirdlər funksiyanın əsas xassələrini həm qrafik dildə, həm simvolik dildə, həm də nitq vasitələri ilə ifadə etməyi öyrənirlər.Sözsüz ki, bu bacarıqlar tədricən formalaşır.

Orta məktəb kursunda $y = ax + b$ xətti funksiyasının əsas xassələri aşağıdakı kimi şərh edilə bilər:

1. $y = ax + b$ funksiyasının təyin oblastı və qiymətlər çoxluğu bütün həqiqi ədədlər çoxluğudur, yəni $D(f) = (-\infty; +\infty)$, $E(f) = (-\infty; +\infty)$.

2. $y = ax + b$ funksiyası $a > 0$ olduqda artan funksiyadır, $a < 0$ olduqda isə azalan funksiyadır. Belə ki, $a > 0$ olduqda x dəyişəni 0-dan $+\infty -$ a qədər artdıqda $f(x)$ funksiyası b-dən $+\infty$-a qədər artır, x dəyişəni 0-dan $-\infty -$ a qədər azaldıqda isə $f(x)$ funksiyası b-dən $-\infty$-a qədər azalır. Beləliklə, $\forall x \in (-\infty; +\infty)$ üçün $x \uparrow$ olduqda $f(x) \uparrow$ olur, $x \downarrow$ olduqda isə $f(x)\downarrow$ olur, yəni $f(x)$ funksiyası $(-\infty; +\infty)$ çoxluğunda artandır.Eyni qayda ilə $a < 0$ $\forall x \in (-\infty; +\infty)$ üçün $x \downarrow$ olduqda $f(x) \uparrow$ olur, yəni $f(x)$ funksiyası $a < 0$ halında $(-\infty; +\infty)$ çoxluğunda azalandır.

3. $f(x) = ax + b$ funksiyasının qrafiki ordinat oxunu (0;b) nöqtəsində kəsən düz xəttdir. Həm də xətti funksiyanın qrafikinin koordinat müstəvisi üzərindəki vəziyyəti a və b sabitlərinin işarəsindən asılıdır. Əvvəlcə qrafikin vəziyyətinin b-dən asılılığı araşdırılır. $f(x) = ax + b$ düsturunda x=0 olduqda y=b alırıq. Deməli, verilmiş funksiyanın qrafiki a-nın ixtiyari qiymətində (0;b) nöqtəsindən keçir və OY oxundan uzunluğu b ədədinə bərabər parça ayırır. Ordinatın y=b qiyməti x=0 qiymətinə uyğun olduğundan b sabitinə başlanğıc ordinat da deyilir.Sonra qrafikin vəziyyətinin a-dan asılılığını araşdıraq. Göstərilir ki, a sabitindən

$f(x) = ax + b$ funksiyasının qrafikini OX oxu ilə əmələ gətirdiyi bucağın qiyməti asılıdır. Bəle ki, $a < 0$ olduqda qrafikin OX oxuna meyil bucağı iti bucaq, $a > 0$ olduqda isə bu bucaq 90^0-dən böyük olur. Bu bucağı α ilə işarə edək. Onda $a = \text{tg}\,\alpha$ olur və buna görə də a sabitinə $f(x) = ax + b$ funksiyasının qrafikinin bucaq əmsalı deyilir.

Orta məktəb riyaziyyat kursunda kvadratik funksiyanın isə aşağıdakı istiqamətlərdə araşdırılması yaxşı nəticə verər:

1. $y = x^2$ və $y = ax^2$ funksiyasının qrafiklərinin müqayisəsi,
2. $y = x^2$ və $y = x^2+n$ funksiyasının qrafiklərinin müqayisəsi,
3. $y = x^2$ və $y = (x + m)^2$ funksiyasının qrafiklərinin müqayisəsi.

Mümkün olduqca qrafiklərin qrafkalkulyatorlarla da qurulmasına çalışmaq lazımdır.Bu zaman şagirdlər funksiya ilə bağlı anlayışları daha yaxşı dərk etmiş olurlar.Şagirdlərə qrafiklərin yerdəyişməsinə aid müxtəlif tapşırıqlar vermək lazımdır. Onlar hər bir halda qrafiklərin hansı koordinat oxu üzrə yerini dəyişdiyini araşdırırlar. Qrafik məlumatı oxuma və təqdimetmə bacarıqlarına aid də suallar verilməsi məqsədəuyğundur.

1. $y = x^2$ funksiyasının qiymətlər cədvəlinə əsasən x-in dəyişməsinə görə y-in dəyişməsi haqqında hansı fikirləri söyləyə bilərsiniz,
- x-in istənilən qiymətində y-in qiyməti mənfi deyil,
- x-in qiymətlərinin müxtəlif olmasına baxmayaraq y-in qiymətləri təkrarlanır.
2. Bəs, funksiya $y = -x^2$ şəklində olsaydı, sizcə bu qrafikin vəziyyəti necə dəyişəcəkdi?

Şagirdlər bu y-in qiymətlərinin müsbət olmamasını, qrafikin isə bütünlüklə aşağı yarımmüstvidə yerləşdiyini bilməlidir.

3.$x = 3$ olduqda, $y = x^2$ funksiyasının qiyməti y =9 olur, bəs $y = 3x^2$ funksiyası üçün x=3 olduqda y-in qiyməti necə dəyişəcək? (3 dəfə artacaq). Bəs $y = \frac{1}{3}x^2$ funksiyasında y necə dəyişəcək? (3 dəfə azalacaq).

Şagirdlərin diqqətini belə bir məsələyə cəlb etmək lazımdır ki, $y = 3x^2$ funksiyasının qiymətləri x-in eyni qiymətlərində $y = x^2$ funksiyasının qiymətlərinə nəzərən daha yavaş artır. Odur ki, onun qrafiki daha dikdir, dardır və y oxuna daha çox sıxılmış olur. $y = \frac{1}{2}x^2$ funksiyasının qiymətləri isə $y = x^2$ funksiyasının qiymətlərinə nəzərən daha yavaş artır. Odur ki, onun qrafiki daha genişdir.

4.$y = x^2+n$ və $y = (x + m)^2$ yazılışlarına görə bu qrafiklərdən hansının Ox oxu boyu, hansının Oy oxu boyu sürüşdürməklə alındığını söyləmək olar?

$y = x^2$ yazılışı onu göstərir ki, artıq kvadratik funksiya (x^2) var və üzərində əlavə edilən n ədədinin işarəsindən asılı olaraq dəyişməsi bütünlükdə y-in qiymətini dəyişdirir.$y = (x + m)^2$ yazılışı isə onu göstərir ki, x-in qiyməti m qədər dəyişdikdən sonra kvadratik funksiya yaranır. Qrafik yerini $y = x^2$ parabolasına görə Ox oxu boyu dəyişəcək.

5.$y = ax^2$ funksiyasındakı a əmsalı $y = x^2$ finksiyasının qiymətlərinə, qrafikin vəziyyətinə necə təsr edir?

a-ya müxtəlif qiymətlər verməklə $y = ax^2$ funksiyasının qrafikinin $y = x^2$ funksiyasının qrafikinə nəzərən vəziyyətini əyani müşahidə etməklə bu sualı cavablandırmaq olar.Şagirdlər $y = x^2$ funksiyasına nəzərən a əmsalının qiymətindən asılı olaraq parabolanın qollarının sıxıldığını və ya genişləndiyini , a əmsalnın işarəsindən asılı olaraq isə parabolanın qollarının yuxarı və ya aşağı yönəldiyini görməlidirlər.

6. $y = x^2+n$ funksiyasındakı n həddi $y = x^2$ funksiyasının qiymətlərinə, qrafikin vəziyyətinə görə necə dəyişir?

Şagirdlər n-ə müxtəlif qiymətlər verməklə $y = x^2$ qrafikinin yerini necə dəyişdiyini müşahidə edirlər. Qrafik n həddinə görə Oy oxu boyunca aşağı və ya yuxarı sürüşdürülür.

7. $y = (x + m)^2$ funksiyasındakı m həddi $y = x^2$ funksiyasının qiymətlərinə görə necə dəyişir? Burada m həddi *x*-in tam kvadrat qiymətinə təsir edən ədəddir, odur ki, qrafikin O*x* oxu boyunca sola və ya sağa hərəkəti labüddür.

8.$y = a(x - m)^2+n$ fuksiyasındakı a əmsalı $y = x^2$ funksiyasının qiymətlərinə, qrafikin vəziyyətinə necə təsir göstərir?

Sonra *a, m, n* hədlərinin eyni zamanda daxil olduğu kvadratik funksiyasının $y = x^2$ funksiyasına nəzərən dəyişməsi ümumiləşdirilir. *a*-nın işarəsinin və qiymətinin funksiyanın qrafikinə təsirinə baxaq:

- $a > 0$ olduqda parabolanın qolları yuxarı, $a < 0$ olduqda, qolları aşağı yönəlir.
- $-1 < a < 1$ olduqda, parabola absis oxuna sıxılaraq, $y = x^2$ parabolasından geniş olur.
- Əgər $a > 1$ və ya $a < -1$ olarsa, parabola absis oxundan şaquli istiqamətdə dartılaraq $y = x^2$ parabolasımndan dar olur.

n-in işarəsinin və qiymətinin təsiri

- Parabola Oy oxu boyunca $|n|$ vahid, $n < 0$ olduqda aşağı və ya $n > 0$ olduqda yuxarı sürüşdürülür.
- n parabolanın təpə nöqtəsinin ordinatına uyğundur.

m-in işarəsinin və qiymətinin təsiri

- $m > 0$ olarsa, parabola absis oxu boyu sağa, $m < 0$ olarsa, sola sürüşdürülür.
- m parabolasının təpə nöqtəsinin absisinə uyğundur.
- $x - m = 0$ parabolanın simmetriya oxunun tənliyidir. $x = m$ düz xətti parabolanın simmetriya oxudur.

1. Kvadrat üçhədlidən tam kvadrat ayırma bacarıqlarına diqqət edilir.
2. Kvadratik funksiya aşağıdakı göstəricilərə görə təhlil edilir.

- Simmetriya oxunun tənliyinə,
- Təpə nöqtəsinə,
- ƏBQ və ƏKQ qiymətinə,
- Təyin oblastına və qiymətlər çoxluğuna,
- O*x* oxu ilə kəsişməsinə,
- Oy oxu ilə kəsişməsinə.

Ümumi şəkildə verilmiş kvadratik funksiyanın qrafikini qurmaq üçün aşağıdakı nöqtələri müəyyən etmək lazımdır. $y = x^2+2x - 3$ funksiyası üzərində göstərək.

$a = 1, b = 2, c = -3$.Təpə nöqtəsinin absisini tapaq. $m = -\frac{b}{2a} = -1$.Təpə nöqtəsinin ordinatını tapaq. $x = -1$ qiymətini $y = x^2+2x - 3$ düsturunda nəzərə alaq. $y = 1 - 2 - 3 = -4$ təpə nöqtəsi (-1,-4) .Oy oxunu hanı nöqtədə kəsdiyini tapaq. $y = x^2+2x - 3$ düsturunda $x = 0$ yazsaq, $y = -3$ alarıq, yəni ordinat oxu ilə kəsişmə nöqtəsi (0,-3) olur. İndi O*x* oxunu hansı nöqtədə kəsdiyini tapaq. $y = x^2+2x - 3$ düsturunda $y = 0$ yazsaq, $y = x^2+2x - 3$ kvadrat tənliyin kökləri $x_1= -3$ və ya $x_2= -1$ olduğunda parabolanın absis oxunu kəsdiyi nöqtələr. (-3,0) və (1,0)

Ümumiyyətlə,funksiyanın qrafikini qurmaq üçün onun ümumi xassələrini bilmək çox vacibdir.Funksiyanın ümumi xassələri dedikdə onun tək və ya cütlüyü, artan və ya azalan olması, dövri və ya dövri olmaması, məhdud və ya qeyri-məhdud olması və s. başa düşülür.

Məktəb riyaziyyat kursunda öyrənilən ilk transendent funksiyalar triqonometrik funksiyalardır. Transendent funksiyaların öyrənilməsində müəyyən metodik çətinliklər olur.Məktəb riyaziyyat kursunda triqonometrik funksiyaların öyrənilməsinin böyük əhəmiyyəti var. Belə ki, triqonometrik funksiyalar çox güclü hesablama vasitəsidir.Triqonometrik funksiyalar nəzəriyyəsi funksiyaların əsas xassələrini əyani nümayiş etdirmək vasitəsidir.Triqonometrik funksiyalar əvvəlcə düzbucaqlı üçbucaqda, sonra vahid çevrədə daxil edilir.Müəllim triqonometrik funksiyaların öyrədilməsi zamanı qeyd etməlidir ki, bu vaxta qədər öyrəndiyimiz funksiyalar (məsələn, y=kx+b, y=k/x, y=x^2 və s.) elə analitik ifadə ilə verilirdi ki, bu ifadələr sərbəst dəyişən üzərində aparılan cəbri əməllərin yerinə yetirilməsi ardıcıllığını göstərirdi.Triqonometrik funksiyaların analitik ifadələri isə bu ardıcıllığı göstərmir.Müəllim şagirdlərə bildirir ki, buna baxmayaraq triqonometrik funksiyaların qiymətlərini istənilən dəqiqliklə hesablamaq mümkündür.

Məktəb riyaziyyat kursunda loqarifmik və üstlü funksiyaların öyrənilməsinin də böyük əhəmiyyəti var. Məktəb riyaziyyat kursu bu funksiyalarsız elmi-praktik əhəmiyyətini itirərdi.

Üstlü y=a^x (a> 0, a≠0, burda a funksiyanın əsasıdır) funksiyasının xassələrini öyrənərkən mənfi kəsr üstlü qüvvətlərin xassələrini təkrar etmək lazımdır. $0^{-\frac{1}{2}}$; $(-2)^{\frac{3}{8}}$ və s. ifadələrin mənasız olduğunu xüsusi qeyd etmək lazımdır.Üstlü funksiyanın təyin oblastının həqiqi ədədlər, qiymətlər çoxluğunun müsbət ədədlər çoxluğu olduğu göstərilməlidir..a>1 olduqda artan, 0<a< 1 olduqda azalan olduğu xüsusi vurğulanır.Məktəb kursunda üstlü funksiya anlayışı həqiqi ədədlər çoxluğuna genişləndirildikdə a^x (a>0) ifadəsinin x-in irrasional qiymətlərində varlığı isbatsız qəbul edilir.

Orta məktəbdə tərs funksiya anlayışına əsasən üstlü funksiyadan sonra loqarifmik funksiyanın daxil edilməsi elmi-metodik cəhətdən çətinlik törətmir.

Loqarifm - b ədədini almaq üçün a əsasını yüksəltmək lazım gələn qüvvət üstünə b ədədinin a əsasına görə loqarifmi deyilir və $\log_a b$ kimi işarə edilir.y=$\log_a x$ (a> 0, a≠0) funksiyasına loqarifmik funksiya deyilir.Üstlü və loqarifmik funksiya qarşılıqlı tərs funksiyalardır.Qeyd edək ki, loqarifmaların hesablanmasında onluq və natural loqarifmalardan daha çox istifadə olunur.Loqarifmik funksiyanın araşdırılması zamanı məlum olur ki, onun təyin oblastı bütün müsbət ədədlər, qiymətlər çoxluğu isə bütün həqiqi ədədlər çoxluğudur.Loqarifmik funksiya a>1 olduqda artan, 0<a< 1 olduqda azalandır.Funksiyanın şagirdlərin köməyi ilə qrafiki qurularkən bütün xassələr nəzərə alınır.

Orta məktəbdə triqonometrik funksiyalar (sinus, kosinus, tangens və kotangens) ədədi arqumentin funksiyaları kimi təyin edilir.Burada bucağın radian ölçüsü və onun dərəcə ölçüsü ilə əlaqəsi yada salınır:

1 rad= $\frac{180^\circ}{\pi} \approx 57°17`....$; α rad= $\frac{180^\circ}{\pi} \cdot \alpha$;

$1^\circ = \frac{\pi}{180^\circ}$; p° =$\frac{\pi}{180^\circ} \cdot$ p rad

Triqonometrik funksiyaların hər birinin tərifi verilir, xassələri göstərilir, qrafikləri qurulur.Xassələr araşdırılarkən xüsusilə tək-cüt, artan-azalan, dövri olub –olmaması, məhdud olub-olmaması məsələlərinə diqqət yetirilir.Yada salaq ki bu dörd triqonometrik funksiyadan yalnız kosinis cüt funksiyadır, qalanlar tək funksiyadır. Triqonometrik funksiyaların dövrü olmağı ilə bərabər, onların ən kiçik müsbət dövrünə baxılır.Çox vaxt funksiyanın dövrü dedikdə ən kiçik müsbət dövrü nəzərdə tutulur.Bu sinifdə həmçinin triqonometrik funksiyaların cəminin , hasilinin və nisbətinin dövriliyi məsələlərinə baxılır.Bu zaman ortaq ölçülü və ortaq ölçüsüz ədədlər haqqında məlumat verilməlidir.Qeyd edək ki, $\frac{a}{b}$ nisbəti rasional ədəd olarsa a və b

ədədlərinə ortaq ölçülü, $\frac{a}{b}$ nisbəti irrasional ədəd olarsa a və b ədədlərinə ortaq ölçüsüz ədədlər deyilir. Fizikada rəqsi hərəkətlər, onların ən sadəsi harmonik rəqslər də triqonometrik funksiyaların köməyi ilə öyrənilir.Bu zaman harmonik funksiyalar da araşdırılır.

Tərs triqonometrik funksiyalara tərif vermək üçün əvvəlcə tərs funksiya anlayışına baxılmalıdır.Bunun üçün tərs funksiyanın tərifi verilir, ona nümunələr göstərilir. Yada salaq ki, $[a;b]$ parçasında təyin olunmuş və qiymətlər çoxluğu $[c;d]$ parçası olan y=$f(x)$ funksiyası üçün $f(x)$=y tənliyinin yeganə x=g(y) kökü varsa, y=$f(x)$ funksiyasına tərsi olan funksiya, x=g(y)-ə isə onun tərs funksiyası deyilir.

Həmçinin qarşılıqlı tərs funksiyalar haqqında da məlumat verilir.Bir-birinin tərsi olan funksiyalara qarşılıqlı tərs funksiyalar deyilir.Qarşılıqlı tərs funksiyaların qrafiklərinin xəttə nəzərən simmetriyasına baxılır.Burda tərs funksiyanın varlığı haqqında teoremi isbat etmək olar:.

Teorem: Əgər $f(x)$ funksiyası $[a;b]$ parçasında artandırsa (azalandırsa) , onun qiymətlər çoxluğunda təyin olunmuş y=g(x) tərsi var və tərs funksiya da artandır (azalandır).

Tərs funksiya anlayışı öyrənildikdən sonra triqonometrik funksiyaların tərs funksiyalarına – arksinus, arkkosinus, arktangens, arkkotangensə baxılır, onların xassələri araşdırılır və qrafikləri qurulur.

Elementar funksiyanın öyrənilməsi prosesində şagirdlərin qrafik dili mənimsəməsinə nail olmaq çox vacibdir.Şagird dərk etməlidir ki, funksiyanın qrafikini qurmaq üçün onun əsas xassələrini bilmək lazımdır. Eyni sinifdən olan funksiyaların qrafiklərinin qurulmasında həndəsi çevirmələrdən (paralel köçürmə, oxa görə simmetriya, mərkəzi simmetriya və s.) istifadə etmək səmərəlidir.Yuxarı siniflərdə qrafiklərin qurulmasında törəməni tətbiq etməyi öyrənmək şagirdlərin qrafik qurmaq imkanlarını genişləndirir.Bu imkanlardan maksimum istifadə etmək üçün müəllim təlimdə şagirdlərin qrafik bilik və bacarıqlarını inkişaf etdirməyə xidmət edən çalışmalara geniş yer verməlidir.

İstifadə olunmuş ədədbiyyat:

1.Ə.M.Məmmədov, R.Y.Şükürov "Elementar riyaziyyat"(dərs vəsaiti) Bakı 2010
2.Ə.M.Məmmədov "Funksiya və onun xassələri" Bakı 2002

3.A.B.İsayev, N.B.Nəsirov və b."Funksiyalar və onların qrafikləri (metodik göstəriş) Bakı 1997

4.S.A.Feyziyev,R.Y.Şükürov"Riyaziyyatın ibtidai kursunun nəzəri əsasları"Bakı 2010(dərslik)

5.N.A.Sadıqov "Riyaziyyatın ibtidai kursunun elmi əsasları" Bakı 1991.

AZƏRBAYCAN DİLİNİN QAYDALARI

ABDULLAYEVA SƏMİNƏ SABİR QIZI

ADPU, P.f.d baş müəllim

Dil qaydaları nitq mədəniyyətinin ən zəngin və ümumilikdə dilçiliyin ən həssas tərkib hissələrindən biridir. Mükəmməl, sabit və vahid dil qaydaları nitqin doğru, düzgün, aydın, məntiqli, maneəsiz ötürülməsinin, yayılmasının və mühafizəsinin tənzimləyici bir hüquqi təminat bazasıdır. Dil qaydaları nitqin təsiri ilə daimi dəyişkənliyə meyillidir. Ona görə də bir çox hallarda onun sabitliyinin qorunmasında icbari normaların tətbiq olunmasına zərurət yaranır. Ancaq dil qaydaları başdan-başa icbari normalara tabe edilmir. Çünki bu normaların özü zaman-zaman dil-nitq proseslərində tənzimlənərək inkişaf edir. Odur ki, sabit və vahid qaydaların bir çoxu məhz subyektiv müdaxilə edilmədən norma hüququ qazanmışdır. Dil qaydaları təkcə yazıya tətbiq edilən normalar çərçivəsində məhdudlaşmır. Dil qaydaları həm yazılı və həm də şifahi informasiyaların tənzimlənmə vasitəsindən ibarətdir. Bununla yanaşı məişət dili səviyyəsindəki danışıq dilinin və hətta dialekt və şivələrin özlərinin də zaman-zaman müəyyən areallar üzrə yaşayan qaydaları da mövcuddur. Məhz bu gün yazılı dildə tətbiq olunan dil qaydalarının bir çoxu areal səciyyəli dialektlərdən regional tipli danışıq dilinə, oradan ümumi şifahi və yazılı dilə süzülə-süzülə, saflaşa-saflaşa, cilalana-cilalana keçid almışdır.

Açar söz: Dil qaydaıarı; Şifahi dil; Yazılı dil**;** Sabit yazı; Sait-samit ardıcıllğı;

Dialekt və danışıq dilinə demək olar ki, heç bir icbari qayda tətbiq edilmir. Cəmiyyətin mədəni-ictimai, iqtisadi, siyasi inkişafı və informasiyaların mərkəzləşdiricilik təsirləri ilə həmin nitq-danışıq növləri arasında daimi bir yaxınlaşma baş verir ki, bu da fərqlərin aradan çıxmasında başlıca əhəmiyyət kəsb edir. Məsələ burasındadır ki, müasir Azərbaycan yazı dili qaydalarının sabitləşməsində bir çox nailiyyətlər əldə edilməsinə baxmayaraq məişət xarakterli danışıq dili ilə ümumi şifahi dil arasında qəti sərhəd müəyyən edilməsi sahəsində ciddi çətinliklərimiz vardır. Məsələn, ümumi şifahi dil qaydalarının tənzimlənməsi məqsədlərinə xidmət edən orfoqrafiya lüğətlərinə məhz adi məişət danışığı üçün səciyyəvi olan elementlər də gətirilir. Bundan başqa indiyədək hazırlanan orfoepiya lüğətlərində vahid bir prinsipə riayət edilmir. Ona görə də hətta son illərdə hökumət tərəfindən təsdiqlənməsi üçün təqdim edilən və təsdiqlənmə qərarı qüvvəyə minən orfoepiya qaydaları barədə yenidən müzakirələrin keçirilməsinə şərait yaranır. Bu ondan irəli gəlir ki, şifahi dil və onun statusu həll edilməmiş qalmaqdadır. Səbəb odur ki, şifahi dilin prinsipləri, onun yazılı dilə münasibət dərəcəsi məsələləri barədə fikir birliyi formalaşmamışdır. Belə ki, ziyalıların bir çoxunda və hətta dilçi mütəxəssislərin təsəvvüründə xüsusən yanaşı samitlərin tələffüzü zamanı danışıq dilində baş verən dəyişikliklər ümumi orfoepiya norması kimi qəbul olunur. Bu təsəvvürlər hələ orfoepiya normaları ilə bağlı tərtib edilmiş əvvəlki lüğətlərdə əks olunduğundan yeni vəsaitlərdə də öz təsirlərini göstərməkdədir. Lakin cəmiyyət inkişaf edir, yazılı qaydaların təkmilləşməsi şifahi qaydaların da əsaslandırıcı bir məntiq üzərində qurulmasını zamanın zəruri tələbinə çevirir. Cəmiyyət inkişaf etdikcə intellektlər də çevikləşir, bu da yazı dilinin təkmilləşməsinə təsir etdiyi kimi şifahi dilin də zənginləşməsinə zəmin yaradır. İnsanlar yazı dili ilə yanaşı şifahi dilin də səlis, aydın anlaşıqlı olmasına daha artıq maraq göstərirlər. Son zamanlarda fikir və düşüncələrin yazıdan daha çox şifahi dil vasitəsi ilə ifadəsinə meyilliliyin daha da artması

müşahidə edilir. Yaxşı qurulmuş şifahi nitq həm verbal və həm də qeyri-verbal ünsiyyət vasitələrinin qovşağında ifadə edildiyi üçün dinləyicini daha çox özünə cəlb edə bilir. Şifahi dilin ümumi anlayış diapozonu geniş dinləyici kütləsinə yönəldiyi üçün müasir inkişaf etmiş cəmiyyətdə yazı qaydaları ilə şifahi nitq qaydaları arasında norma yaxınlığına riayət olunmasına daxili bir tələbat yaradır. Bu da istər istəməz ümumi şifahi dil qaydalarını məişət xarakterli danışıq dili normasının əsiri olmaqdan uzaqlaşdırır, yazı ilə şifahi arasında mümkün yaxınlaşma baş verməsinə ciddi bir zərurət yaradır. Bu müasir mədəni nitqin ən bariz nümunəsinin formalaşdırılmasında başlıca prioritet kimi diqqətdən kənarda qalmamalıdır. Ana dili qaydalarının öyrənilməsinə həsr olunmuş bu mövzunun aktuallığı da məhz yazılı və şifahi dil qaydalarında yaxınlaşma dinamikasının mövcudluğu faktlarının təsbit edilməsi ilə bağlıdır. Onu da əlavə etmək lazımdır ki, son zamanlar orfoqrafiya dair aparılan diskussiyalarda da belə bir meyilliliyin aşkar əlamətləri barədə müəyyən intuisiyaların müşahidəsi də diqqəti cəlb edir. Yaxşı haldır ki, Azərbaycan dilinin yeni orfoepiya normalarının mübahisəli məsələləri ilə bağlı Nəsimi adına Dilçilik İnstitutunda keçirilən yekun müzakirə belə bir diqqətəlayiq nəticə ilə yekunlaşmışdır: "Orfoepiyada həm də orfoqrafik normalar gözlənilməlidir. Danışıqda ədəbi dil normaları sabitləşdikdə tələffüzlə yazı qaydaları arasındakı fərq azalır"[1].

Normativ, sabit, mükəmməl yazı və şifahi qaydaların mövcudluğu hər hansı bir dilin möhtəşəmliyidir, onun qüruru və şöhrətidir. Yazıda olduğu kimi orfoepiyada da icbari qaydaların yəni yazılı dilə məxsus müəyyən qaydaların tətbiqi təcrübəsinin optimal nəticə verməsi ilə əlaqədar rus dilçisi O.N.Nikonova alman dili orfoepiyası ilə bağlı bir faktı nümunə gətirir. Görkəmli dilçi metodist Bəşir Əhmədov O.N.Nikonovanı heyrətləndirən almaniya təcrübəsi ilə əlaqədar yazır ki, «Azərbaycan dilçiliyində normativ orfoepiya qaydaları hələ üzə çıxarılmamışdır. Artıq mədəniyyətimiz elə bir inkişaf səviyyəsinə gəlib çatmışdır ki, orfoqrafiya qaydaları kimi orfoepiya qaydaları da qəti surətdə nizama salınmalı və rəsmi şəkildə təsdiq edilməlidir[2]. Orfoepiya qaydalarının nizama salınması məsələsi ilə bağlı burada Almaniya təcrübəsinin nəticələridə xatırlanır. Göstərilir ki, hələ 1898-ci ildə Almaniyada vahid ədəbi tələffüz qaydaları yaratmaq ideyası baş qaldırmışdır. Bu ideyanın həyata keçirilməsi ilə əlaqədar komissiya yaradılmışdır. Komissiyanın müəyyən etdiyi normalar kitab halına salınmış və 1898-1927-ci illər ərzində 14 dəfə nəşr olunmuşdur. Müəyyən edilən vahid tələffüz üçün başlıca meyar kimi qəbul olunmuşdur. Qaydalara ciddi urətdə riayət olunmaqla alman cəmiyyətində vahid tələffüz normalarının sabitləşməsi ideyası həyata keçirilə bilmişdir. Məqalədə həmçinin göstərilir ki, alman təcrübəsinin tətbiqindən nəticə çıxarmaq Azərbaycan dilinin də yazılı və şifahi qaydalarının sabitləşməsində bir örnək rolu oynaya bilər[3].

Dil qaydaları fənninin tədrisinin mühüm nəzəri və praktik əhəmiyyəti vardır. Fənnin nəzəri əhəmiyyəti ondan ibarətdir ki, tələbələrdə ana dilinin yazılı və şifahi dil qaydalarının mənimsənilməsinə yaradılan maraq onların intellektual keyfiyyətlərinin inkişafına ciddi təsir göstərə bilər. Bununla da tələbələrdə fənnin öyrədilməsinə yaradılan maraq eyni zamanda onlarda tədqiqatçılıq keyfiyyətlərinin formalaşmasına ciddi təsir göstərə bilər. Mövzunun praktik əhəmiyyəti odur ki, birincisi, təhsil alanlarının özləri düzgün yazmaq və danışmaq vərdişlərinə yiyələnməklə özlərinin əmək fəaliyyətində qaydaların əməli tətbiqi ilə bağlı uğurlu nəticə əldə edə bilərlər.

Həqiqətən dildə sabit yazı və şifahi dil qaydalarının mövcudluğu müasir informasiya və kommunikasiya mərhələsinin ən ciddi bir probleminə çevrilmişdir. İnformasiya zənginliyi xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatında çox mühüm rol oynayır. İnformasiya bolluğu

[1] Azərbaycan dilinin yeni orfoepiya normalarının mübahisəli bəndləri ilə bağlı yekun müzakirə keçirilib: scence.gov.az/az/news/open/22846
[2] Əhmədov B. Azərbaycan dili təliminin qanunları, prinsipləri və metodları. Bakı, Mütərcim, 2007, 120 s; s.19.
[3] Əhmədov B. Azərbaycan dili təliminin qanunları, prinsipləri və metodları. Bakı, Mütərcim, 2007, 120 s; s.20.

xalqın beynəlxalq aləmdəki nüfuzunun etibarlı təməli və canlı mənbəyidir. Müasir qloballaşma dünyada informasiya bolluğu hansı dilə məxsusdursa həyati nailiyyətlər də həmin dil cəmiyyətində daha çox baş verir. İnformasiya bolluğunun, zənginliyinin, təsirliliyinin başlıca təməli isə ilk növbədə dil normalarının mükəmməl olması ilə şərtlənir. Əks halda dil informasiyalarının mühiti daralır, belə dillərdə informasiya yayımı passivləşir, qəbulu isə aktiv olur. Odur ki, beynəlxalq aləmdə geniş informasiya nüfuzuna malik olmaq üçün dil qaydalarının mükəmməl olmasına, onların qorunmasına, mənimsənilməsinə və mənimsədilməsinə ciddi yanaşmaq tələbi birinci yerdə dayanmalıdır. Bu da fənnin tədrisi işində onun başlıca məqsəd və vəzifələrinin müəyyən olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Düzgün yazı və şifahi dil qaydalarının mənimsədilməsinə nail olmaqla tədqiqatçılıq meyillərinin inkişaf etdirilməsinə stimul yaratmaq. Bu məqədlə aşağıdakı vəzifələrin yerinə yetirilməsi vacib hesab olunur:

1) Danışıq dilində formalaşan ümumi normaya keçən elementlərin sabitləşmə mənbələrini müəyyən etmək

2) Şifahi və danışıq dilinə məxsus ümumi və fərqləndirici elementləri təyin etmək

3) Dialekt-danışıq dili-şifahi dil elementlərinin keçid dinamikasını müəyyən etmək

4) Şifahi dilin başlıca təməli hesab olunan orfoepiya qaydalarına dair mübahisəli məsələlərin optimal həlli yollarına nail olmaq

5) Yazılı və şifahi dil qaydalarının tətbiqi texnologiyalarının metodologiyasını müəyyən etmək.

Mövzunun araşdırılması, tədrisi və tətbiqi ilə bağlı məsələlərin həlli üçün başlıca hədəflər aşağıdakılardan ibarətdir:

1) Beynəlxalq informasiya mühitində ana dilinin nüfuzunun gücləndirilməsinə nail olmaq

2) Ana dilinin daimi, sabit, vahid və mükəmməl qaydalarının yaradılması işinin iştirakçıları ola biləcək intellektlərin yetişdirilməsinə nail olmaq

Qloballaşma və informasiyaların surətli axını mərhələsində ana dilinin mükəmməl qaydalarının mühafizəsinə ciddi riayət etməklə əcnəbi dil elementlərinin surətli keçidinə mümkün sipər yaratmaq lazımdır.

Dil qaydaları haqqında ana dilinin tədrisi ilə əlaqədar orta məktəb dərsliklərində ilkin məlumatlar verilir. Lakin onu demək lazımdır ki, həmin qaydalarda bir çox mübahisəli məsələlər də müşahidə edilir. Daha çox mübahisə yaranmasına səbəb olan məsələlər tələffüzdə danışıq elementləri səviyyəsindəki variantlardan ibarətdir. Odur ki, orta məktəb dərsliklərində bu həssas məqamların qaydalara söykənən normalarla təsbit olunmasına xüsusi diqqət yetirilməsinə ehtiyac vardır. Ali məktəblərin tədris planlarına yeni daxil edilmiş dil qaydaları fənni üçün 15 saat mühazirə, 30 saat seminar məşğələsi aparılması nəzərdə tutulur.

Dərslik tədris olunan fənn üçün ilk təcrübədir. Ona görə də burada hər hansı məsələ barəsində mübahiə məqamlarının yaranacağı da istisna deyildir. Dərslik barədə qeyd, irad və təkliflərini çatdıran hər bir kəsə müəllif əvvəlcədən öz təşəkkürünü və minnətdarlığını bildirir.

Nəticə

Dil qaydaları hər hansı bir qapalı sahə olmayıb bütün dil istifadəçilərinin bilməli və riayət etməli olduğu ümumi normalar məcmusudur. Dil qaydalarından müvafiq normalar çərçivəsində istifadə edilməsi fikrin düzgün, aydın, rabitəli və məntiqəuyğun çatdırılmasının vacib şərtidir.

Dil qaydalarından həm yazılı və həm də şifahi nitq prosesində istifadə edilir. Bu qaydalar dilin fonetik, leksik, morfoloji və sintaktik səviyyələrində vahid bir sistem təşkil edir.

Ədəbiyyat siyahısı

1. Budaqova Z., Rüstəmov R. Azərbaycan dilində durğu işarələri. Bakı, Elm, 1977, 134 s;
2. Kərimov B. Müasir Azərbaycan dili (Sintaksis). Bakı, Adiloğlu, 2017, 428 s;
3. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. Fonetika, orfoepiya, orfoqrafiya. Bakı, Şərq-Qərb, 2007, 256 s; s. 151; 197.
4. Əfəndizadə Ə. Orfoqrafiya-orfoepiya-qrammatika lüğəti. Bakı, maarif, 1983, 89 s; s.9, 11, 14, 15, 17.

POLICY OF INDEPENDENT STATEHOOD OF GREAT LEADER HEYDAR ALIYEV

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MÜSTƏQİL DÖVLƏTÇİLİK SİYASƏTİ

MƏMMƏDOVA AYNUR AKİF QIZI

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Xarici Dillər Mərkəzi, müəllim,

0009-0003-0048-8923

Xülasə

Azərbaycan xalqının ümummilli lideri, dünya səviyyəli siyasi xadim Heydər Əliyev çoxəsrlik dövlətçilik tariximizdə yeni parlaq səhifə açan nadir, bənzərsiz şəxsiyyətdir. Tarixin yaddaşında əbədi iz qoymaq hər insana nəsib olmayan böyük xoşbəxtlikdir. Bu yalnız Heydər Əliyev kimi dahi şəxsiyyətlərin qismətinə düşən müstəsna taledir. Bütün həyatını xalqının xoşbəxt gələcəyinə, qüdrətli Azərbaycan dövlətinin yaradılmasına və inkişafına həsr etmiş bu dahi şəxsiyyətin Vətən və xalq qarşısındakı xidmətləri misilsizdir. Azərbaycanda müstəqil dövlət təsisatlarının qurulması, beynəlxalq normalara söykənən demokratik, hüquqi dövlətin yaranması, milli, mənəvi və əxlaqi dəyərlərimizin qorunub saxlanması, bu dəyərlərin ümumbəşəri ideyalarla daha da zənginləşdirilməsi, ilk Milli Konstitusiyamızın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi prosesinin müvəffəqiyyətli həlli məhz ümummilli liderimiz Heydər Əliyevin xidmətləridir. Təsadüfi deyil ki, ulu öndərimizin fəaliyyəti öz miqyası və əhəmiyyəti etibarilə Azərbaycanın hüdudlarından çox-çox kənara çıxıb.

Açar sözlər: Şəxsiyyət, gələcək, cəmiyyət, yüksəliş, iqtisadi

Abstract

National leader of the Azerbaijani people, world-class political figure Heydar Aliyev is a rare, unique personality who opened a new bright page in the history of our centuries-old statehood. Leaving an eternal mark in the memory of history is a great happiness that not every person has. This is an exceptional fate that only happens to geniuses like Heydar Aliyev. The services of this genius to the Motherland and the people, who dedicated his whole life to the happy future of his people, to the creation and development of the mighty Azerbaijan state, are unparalleled. The establishment of independent state institutions in Azerbaijan, the creation of a democratic, legal state based on international norms, the preservation of our national, spiritual and moral values, the further enrichment of these values with universal ideas, the adoption of our first National Constitution, the formation of a civil society and the determination of a new economic course are precisely the successful solutions It is the services of our national leader Heydar Aliyev. It is not by chance that the activity of our great leader has gone far beyond the borders of Azerbaijan in terms of its scale and importance.

Key words: Personality, future, society, promotion, economic

Annotasiya. Dünya miqyasında ən nüfuzlu dövlət başçıları, politoloqlar tərəfindən dəfələrlə bəyan edildiyi kimi, Azərbaycan və böyük türk dünyasının dahi oğlu Heydər Əliyev zəmanəmizin ən yüksək zirvəsində duran tanınmış siyasi xadimlər sırasında öz layiqli yerini tutub. Xalqımızın yaddaşında yaradıcı, qurucu və xilaskar obrazını daim yaşadıb, qəlblərdə

özünə əbədi məhəbbət qazanıb. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illəri yaddaşlarda təkcə iqtisadi yüksəliş, təsərrüfatın bütün sahələrinin inkişafı dövrü kimi deyil, həm də elmin, təhsilin, mədəniyyətin misilsiz tərəqqisi illəri kimi qalıb. Məhz həmin dövrdə gələcək müstəqilliyimizin təməl daşları hörülüb, iqtisadi, sosial və mədəni potensialı formalaşıb. 1969-1982-ci illərdə həyatımızın bütün sahələrində köklü islahatlar aparılmış, əsaslı dəyişikliklər baş vermişdir. Bu nəhəng işlər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil edir.

Aktuallıq. Heydər Əliyev fenomeninin ən mühüm göstəricilərindən biri də Azərbaycançılıq məfkurəsinin, milli ruhun hədsiz yüksəlməsi, milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında dövlətçilik arzularının və hisslərinin güclənməsi, real siyasi amilə çevrilməsidir. Bu səbəbdən xalqımız üçün mühüm rol oynamış dahi Ulu öndərin dövlətçilik siyasətini öyrənmək olduqca aktualdır.

Metod. Tədqiqat zamanı Ulu öndərin dövlətçilik siyasəti müşahidə, təhlil və statistik metodlardan istifadə edilməklə ifadə edilmişdir.

Giriş.

Böyük strateq Heydər Əliyev hələ Azərbaycana rəhbərliyinin birinci dövründə ölkənin inkişafı istiqamətində gördüyü işlərlə, qəbul etdiyi cəsarətli qərarlarla, həyata keçirdiyi tikinti-quruculuq tədbirləri, habelə bir neçə onillikdən sonra müstəqillik əldə edəcək respublikamızın gələcəyinə hesablanmış digər məqsədyönlü addımları ilə özünün ümummilli lider obrazını yaratmış, tarix isə böyük öndərin bu statusunu bütün mərhələlərdə qorumuşdur. 60-cı illərədək Azərbaycan aqrar ölkəsi kimi tanınırdı. Onun əsas sənaye mənbəyi neft idi. Lakin məhz Heydər Əliyev hakimiyyətinin ilk illərindən qəti addımlar atmaqla respublikaya olan bu münasibəti dəyişməyə nail oldu. Belə ki, qısa müddət ərzində həm yüngül, həm də ağır sənaye inkişaf etdi, bir sıra zavod və fabriklər istifadəyə verildi. Yaradılmış yeni iş yerləri əsasında insanların rifah halı daha da yaxşılaşdı.

Heydər Əliyev o illərdə respublikanı nəhəng tikinti meydançasına çevirmək, irimiqyaslı obyektlərin, strateji əhəmiyyətli sənaye müəssisələrinin inşasına xüsusi əhəmiyyət verməklə yanaşı, bir sıra yeni təhsil ocaqları, o cümlədən Cəmşid Naxçıvanski adına hərbi məktəbi yaratmışdı. Bu hadisə azərbaycanlıların döyüş ruhunun inkişaf etdirilməsində mühüm rol oynamışdır. Ordu quruculuğunda bu məktəbin rolu böyükdür. Respublikamız müstəqillik əldə etdikdən sonra hərbi liseyin məzunları ordumuzun yaranmasında, vətənimizin ərazi bütövlüyünün qorunması uğrunda mübarizədə həmişə ön cəbhədə olmuşlar. Qarabağ döyüşlərində vuruşan Azərbaycan zabitlərinin 70%-dən çoxu hərbi liseyin yetirmələridir.

İndi dünya analitiklərinin böyük önəm verdiyi milli mədəniyyətin yayılması siyasətini Heydər Əliyev hələ sovet dövründə özünəməxsus tərzdə həyata keçirirdi. Çünki ulu öndər Azərbaycanı dünyada məhz milli dəyərləri, tarixi, mədəniyyət özəlliyi ilə tanıdırdı. Məhz onun təşəbbüsü ilə ölkənin tanınmış musiqiçiləri, şairləri, yazıçıları, müğənniləri, bəstəkarları, artistləri dünyanın ayrı-ayrı ölkələrində çıxış edirdilər. Əlbəttə ki, burada siyasi məqam da var idi, o da Azərbaycanı tanıtmaq idi.

Təbiətcə musiqinin vurğunu olan, incə və həssas musiqi duyumuna, zövqünə malik olan, Azərbaycan və dünya mədəniyyətinin bədii nümunələrini həvəslə dinləyən, dövlət rəhbərliyində də, şəxsi həyatında da, ailəsində də musiqidən ayrılmayan, musiqi və musiqiçilər haqqında peşəkar musiqi tənqidçisi kimi çox dəyərli rəy və fikirlər söyləyən, musiqişünaslığın elmi fikir və ideyalar dairəsini zənginləşdirən, daim musiqiçilərlə dostluq edən Heydər Əliyevin həyat və fəaliyyətini musiqi mədəniyyətindən ayrı təsəvvür etmək qeyri-mümkündür. Hətta o Zərifə xanımın müşayiəti ilə mahnılar ifa edərək bundan çox böyük zövq alırdı. O, musiqiyə

dərindən bağlı bir şəxsiyyət kimi bu sənətə, onun yaradıcılarına, problemlərinə daim böyük diqqət yetirmiş, sənət adamlarına hörmət və ehtiramla yanaşmışdır.

Musiqimizə, mədəniyyətimizə verdiyi yüksək qiymət və qayğı özünü, o cümlədən Heydər Əliyevin mədəniyyət işçilərinə münasibətində də göstərirdi. Prezidentin teatr tamaşasının premyerasında iştirakı və yaxud da teatrın truppasını qəbul etməsi, onlara yaradıcılıq uğurları arzulaması, neçə-neçə bəstəkarın, rəssamın, respublikada görkəmli muğam ustalarının yaradıcılıq gecələrinin, yubileylərinin keçirilməsi ilə bağlı sərəncamları mədəniyyətimizin həyatında önəmli rol oynamışdır.

Heydər Əliyev sevməklə yanaşı, həm də onu musiqini insanlara sevdirirdi. Bu onun böyük maarifləndirmə missiyasından irəli gəlirdi. Heydər Əliyev yaşlı nəslin yaradıcılığına da çox böyük qayğı göstərmiş, gənc nəslin yaradıcılıq imkanlarının genişlənməsinə hərtərəfli yardım etmişdir.

Ulu öndər Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövrü Azərbaycan tarixinə siyasi, sosial-iqtisadi və mədəni yüksəliş dövrü kimi daxil olaraq xalqın milli mənlik şüurunun, müstəqillik ideallarının oyanışına güclü təkan vermişdir. Ulu öndər hələ o dövrlərdən milli inkişafın yeganə yolunu xalqın yüksək təhsil almasında, maariflənməsində görmüş, respublikada elmin inkişafı üçün bütün zəruri tədbirləri həyata keçirmişdir. O, yaxşı bilirdi ki, cəmiyyətin tərəqqisinə, elmin, mədəniyyətin inkişafına təsir göstərən ən qüdrətli vasitələrdən biri də təhsildir.

Heydər Əliyev şəxsiyyətinin böyüklüyü məhz onda idi ki, o, bütün fəaliyyəti boyu bu sahələrə diqqət və qayğısını əsirgəməmiş, cəmiyyətdə yüksək bilikli, intellektual və elitar təbəqənin formalaşmasına çalışmışdır. Təsadüfi deyildir ki, 1969-1982-ci illər həm də Azərbaycan elminin, təhsilinin intibah dövrü kimi xatırlanır. Heydər Əliyev öz fəaliyyəti və siyasi təcrübəsində hər zaman elmi fikrin ən yeni, mütərəqqi nailiyyətlərindən faydalanmış, cəmiyyətin, xalqın inkişaf zəminini elmdə, maariflənmədə görmüşdür. Ulu öndərin ötən əsrin 70-80-ci illərində gənclərin respublikada və onun hüdudlarından kənarda yüksək səviyyədə təhsil almasına, ixtisaslı kadr kimi yetişməsinə hər cür şərait yaradırdı.

Məlum olduğu kimi müasir dövrdə qadınların kişilərlə bərabər hüquqa malik olması, yüksək dövlət vəzifələrində çalışması, lider olması, təhsil alması olduqca vacibdir. Hələ, 1974-cü ildə "Azərbaycan qadını" jurnalının 50 illik yubiley təntənəsində ulu öndər Heydər Əliyev demişdi: "Biz çalışmalıyıq ki, ali məktəblərdə və texnikumlarda daha çox qadın təhsil alsın, elmi fəaliyyətlə məşğul olsun. Xüsusən, kənddə qadınlar və uşaqlar arasında bədən tərbiyəsi və idmanın daha da inkişaf etdirilməsi problemlərinə biz diqqətimizi xeyli artırmalıyıq".

Heydər Əliyev Azərbaycanla, onun tarixi və bu günü ilə bağlı biliklərin tədrisinə böyük önəm verir və bunu vətənpərvərlik tərbiyəsinin ən mühüm amili hesab edirdi. Bununla əlaqədar Heydər Əliyev belə demişdir:"... Müstəqil Azərbaycanın hər bir gənci məktəbdə milli təhsil alaraq, öz xalqının, millətinin qədim zamanlardan indiyə qədər olan tarixini gərək yaxşı bilsin. Əgər bunu bilməsə o, həqiqi vətəndaş ola bilməz. Əgər bunu bilməsə o, millətini qiymətləndirə bilməz. Əgər bunu bilməsə o, millətinə olan münasibəti ilə istənilən səviyyədə fəxr edə bilməz" [1,54]. Ulu öndərin bu gün də yaşamaqda olan ideya-siyasi varlığına öz münasibətimizi təkcə iftixar hissi keçirməklə deyil, həm də bu ideya dünyasını öyrənmək, tədqiq etmək və həyata keçirməklə ifadə etməliyik. Əsas məsələ bu ideyalara sahib çıxan yeni nəslin yetişdirilməsidir.

Tarixi təcrübə təsdiqləyir ki, dövlət müstəqilliyinin qorunub saxlanılması onun qazanılmasından daha ağrılı və çətin prosesdir. Belə bir ziddiyyətli və mürəkkəb mərhələdə dövlətin xilası məhz vətənpərvər liderlərdən asılı olur. 1991-ci ildə Azərbaycan özünün dövlət müstəqilliyini elan etsə də, bu, əslində, 1993-cü ilin ortalarına qədər formal xarakter daşımışdır.

Ulu öndərin 1993-cü ilin oktyabrında dövlət başçısı seçilməsindən sonra müstəqil Azərbaycanın hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması prosesi daha da sürətlənmişdir. Ümummilli lider ilk növbədə, ölkədə ictimai-siyasi sabitliyin bərpası istiqamətində gərgin iş aparmış, qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirilmiş, respublikamızın sosial-iqtisadi yüksəlişinə yol açan ən mühüm amil kimi cəmiyyətdə ictimai-siyasi sabitlik bərqərar edilmişdir. Dövlət çevrilişlərinin qarşısı alınmış, Azərbaycan vətəndaş müharibəsi təhlükəsindən xilas olmuşdur.

Müstəqil dövlətimizin ərazi bütövlüyünün bərpası və Ermənistan silahlı qüvvələrinin hücumlarının qarşısının alınması, ölkənin müstəqilliyinin qorunub saxlanması üçün ordu quruculuğu istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. Ulu öndər bir ictimai-iqtisadi formasiyadan digərinə keçid dövründə respublikanın qarşısında duran strateji vəzifə və hədəfləri düzgün müəyyənləşdirməklə, dünyanın qabaqcıl dövlətlərinin təcrübəsində sınaqdan uğurla çıxmış, müsbət nəticələri sübut olunmuş inkişaf kursunun Azərbaycan gerçəkliyinə adekvat modelini yaratmışdır. Ulu öndər qısa müddətdə özəl mülkiyyətçiliyə, sahibkarlığa, sərbəst rəqabətə meydan açan, liberallığı özündə ehtiva edən, sosialyönümlü mahiyyət daşıyan, habelə xarici iqtisadi əlaqələrin gücləndirilməsi və münbit biznes mühitinin formalaşdırılması yolu ilə ölkəyə investisiya axınını stimullaşdıran müasir innovativ inkişaf modelinin praktik surətdə gerçəkləşdirilməsinə nail olmuşdur. "Azərbaycan dövlətinin strateji yolu yalnız demokratiya, sərbəst iqtisadiyyat prinsiplərinin bərqərar olması, bazar iqtisadiyyatı və sahibkarlığın inkişafıdır" - deyən Heydər Əliyev demokratik düşüncə və həyat tərzinin bütün dünyada diktə etdiyi bu meyarlara hər zaman sadiqlik göstərmiş, milli inkişaf naminə bu yolun alternativsizliyi fikrinin ictimai rəyə aşılanmasına nail olmuşdur[3,27].

Ümummilli lider mərkəzi planlaşdırma və bölgü sistemindən sərbəst bazar münasibətlərinə əsaslanan iqtisadi modelə keçid prosesinin aztəminatlı təbəqənin maraqlarına toxunmaması üçün dövlət büdcəsində sosial müdafiə tədbirlərinə geniş yer ayrılmasını da təmin etmişdir. Böyük siyasi xadim Heydər Əliyev hər bir fərdin maraq və mənafelərini təmin etmədən, ədalət meyarını qorumadan güclü dövlət yaratmağın mümkünsüzlüyünü çıxışlarında hər zaman vurğulamış, vətəndaşlara göstərilən hüquqi yardımın səviyyəsinin müntəzəm surətdə artırılmasının əsas təşəbbüskarı kimi çıxış etmişdir. Ulu öndərin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipini, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyd-şərtsiz təmin olunmasının bünövrəsini qoymuşdur.

Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçmişdir. Demokratik tələblərə tamamilə cavab verən bu ali sənəd müstəqil Azərbaycanın ilk Konstitusiyası kimi tarixilik qazanmışdır. 1995-ci ildə müstəqil Azərbaycanın parlamentinə keçirilən ilk seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar açmışdır. Bu hadisə dövlət müstəqilliyinin prioritet istiqamətlərini müəyyənləşdirmək və həyata keçirmək yolunda əsas istinad mənbəyi rolunu oynamışdır. Bununla da Azərbaycanın dünya dövlətləri sırasında özünəlayiq yer tutması, beynəlxalq münasibətlərin subyektinə çevrilməsi istiqamətində ardıcıl fəaliyyətin əsası qoyulmuşdur. 1995-1997-ci illərdə Azərbaycan insan hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı bir sıra beynəlxalq konvensiyalara, sazişlərə qoşulmuşdur. Azərbaycan Respublikasının insan hüquqlarının qorunması sahəsində əldə etdiyi ən mühüm nailiyyətlərdən biri də BMT və Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda imzalanmış "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında" memorandum olmuşdur. Həmin memoranduma əsasən, BMT insan hüquqlarını

dəstəkləmək və müdafiə etmək sahəsində ümumi biliklərin və potensialın Avropa standartlarına uyğunlaşdırılınası, prosedur və hesabatlar sisteminin təkmilləşdirilməsi, mülki cəmiyyətin inkişafı və digər məsələlər sahəsində Azərbaycan Respublikası hökuməti ilə birgə tədbirlər həyata keçirmişdir. 1998-ci ilin 22 fevralında ümummilli lider Heydər Əliyev "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman imzalamış, insan hüquqları sahəsində həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası müəyyən edilmişdir. Bu sənədlə insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır. 1998-ci il 18 iyul tarixdə isə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq olunmuşdur. Dövlət Proqramına əsasən, Azərbaycanın qoşulduğu konvensiyalara və qəbul etdiyi qanunvericilik aktlarına, eyni zamanda Konstitusiyanın müddəalarından irəli gələn tələblərə müvafiq olaraq insan hüquqlarının müdafiəsi sahəsində görülən işlərin səmərəliliyi daha da artırılmışdır. Ulu öndər 1993-cü ildən tətbiqinə moratorium qoyduğu ölüm hökmü 1998-ci il fevralın 10-da tamamilə ləğv edilmiş, Azərbaycan bütövlükdə Şərqdə bu qətiyyətli və tarixi qərara imza atan ilk ölkə olmuşdur. Yüksək humanizmin və insanpərvərlik örnəyinin bariz ifadəsinə çevrilən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltmiş, 2001-ci ilin 25 yanvarında müstəqil respublikamız Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata tamhüquqlu üzv qəbul edilmişdir.

Böyük siyasətçi insan hüquqları çərçivəsində qadın hərəkatının inkişafına da güclü stimul vermişdi. Ölkəmizdə dövlət qadın siyasətinin əsas prinsiplərinin müəyyən edilməsinin və dövlət səviyyəsinə qaldırılmasının məhz Heydər Əliyevin adı ilə bağlı olması danılmaz bir tarixi faktdır. O, qadınların idarəetmə, qərarqəbuletmə və sosial həyatın bütün sahələrində irəli çəkilməsini vacib bilmişdir. Azərbaycanda qadın hüquqlarının qorunması, təbliğ olunması, onlara yüksək imtiyazların verilməsi, qadınların dövlət siyasətinin həyata keçirilməsində və qanunların qəbul edilməsində iştirakının artırılması Heydər Əliyev siyasətinin ayrılmaz tərkib hissələrindən olmuşdur.

Ulu öndərin qadınlarla bağlı məsələlərin həlli üçün imzaladığı mühüm fərman və sərəncamlar qadın hüquqlarının reallaşması və təminatı istiqamətində irəliyə doğru atılmış tarixi addımlar olmuşdur. Heydər Əliyev hər zaman vurğulayırdı ki, dövlət quruculuğunun bütün mərhələlərində xüsusi xidmətləri olan Azərbaycan qadınları ölkəmizdə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, milli dövlətçiliyimizin daha da möhkəmləndirilməsi üçün bu gün də var qüvvələrini sərf edirlər. Azərbaycanda lider qadınlar, sahibkar qadınlar yetişir. İqtisadiyyatda, siyasətdə, elmdə, təhsildə, bir sözlə, bunu hər sahədə görmək olar. Hökumətdə, nazirliklərdə, Milli Məclisdə qadınlarımızın fəallığı artmaqda davam edir. Bu kimi müsbət nəticələrin əldə olunmasında Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə qadın hüquqlarının qorunması üçün bir çox qanunlar qəbul etməsi, fərman və sərəncamlar imzalaması, beynəlxalq təşkilatlara üzv olaraq mühüm sənədlərin ölkəmizdə tətbiq olmasını reallaşdırmasındakı rolu danılmazdır. Azərbaycan qadınları cəmiyyətin dinamik inkişafı istiqamətində həyata keçirilən irimiqyaslı layihələrdə öz fəallığı ilə seçilirlər. Böyük şəxsiyyət Heydər Əliyev 1998-ci ildə "Azərbaycanda qadınların rolunun artırılması haqqında" fərman da imzalamışdır. Bu sənəd hər mənada qadınların fəallığına, cəmiyyətdə öz yerlərini tutmalarına kömək olmuşdur. Heydər Əliyevin 2000- ci ildə imzaladığı "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" fərmanı isə ölkədə qadın siyasətinin daha da güclənməsinə gətirib çıxarmışdı. 2000- ci ilin iyun ayında Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasında qadın məsələləri üzrə 2000-2005-ci illər üçün Milli Fəaliyyət Planı"nı qəbul etmişdir. Bu proqram milli prioritetləri nəzərə alaraq, Pekin Strategiyası əsasında hazırlanmışdır. Proqram siyasət, iqtisadiyyat, sosial, mədəniyyət, təhsil və səhiyyə sahələrini, eləcə də, qaçqın və məcburi köçkün qadınların problemlərini əhatə etmişdir. Milli Fəaliyyət

Planının müddəalarını həyata keçirmək üçün qurumlararası qrup da yaradılmış və həyata keçirilməsində həm dövlət strukturlarının, həm də QHT-lərin iştirakı nəzərdə tutulmuşdur.

1995-ci ildə keçirilmiş IV Ümumdünya Qadın Konfransında dünyanın 189 ölkəsi Pekin Bəyannaməsi və Fəaliyyət Platformasını qəbul etmişdi. Platformanın əsas məqsədi qadınların siyasi, iqtisadi və sosial vəziyyətlərinin yaxşılaşdırılması olmuşdu. Pekin Bəyannaməsi və Fəaliyyət Platforması bütün dünya qadınlarının hüquqlarının qorunacağını və sülhə, gender bərabərliyinə nail olmaq üçün inkişaf proseslərində yaxından iştiraklarına mane olan amillərin aradan qaldırılacağını bəyan etmişdi. IV Ümumdünya Qadın Konfransı Azərbaycanda qadın hərəkatının dönüş nöqtəsi kimi qiymətləndirilə bilər. O vaxt ölkəmizdə qadın problemləri ilə məşğul olan dövlət qurumu yox idi. Elə buna görə də, ümummilli lider Heydər Əliyev "4-cü Ümumdünya Qadın Konfransına hazırlıqla əlaqədar Azərbaycan qadınlarının Milli Komitəsinin yaradılması haqqında" 15 sentyabr 1994-cü il tarixli Fərman imzalamışdı. Azərbaycan qadınlarının Milli Komitəsində dövlət strukturlarının qadın rəhbərləri və qeyri-dövlət qadın təşkilatlarının nümayəndələri təmsil olunmuşdur. Milli Komitə bir il ərzində Pekin konfransına ciddi hazırlaşmışdı. Ulu öndər bu məsələni diqqətində saxlayırdı. Müdrik dövlət başçısı yaxşı bilirdi ki, XX əsrin sonlarında Ermənistanın hərbi təcavüzü ilə üzləşən, ərazisinin 20%-i işğal altında olan, müharibənin ağrı-acılarını yaşayan, bir milyon qaçqın və məcburi köçkünü olan Azərbaycan qadınlarının bu konfransda iştirakı olduqca böyük əhəmiyyət kəsb edir. Ümummilli lider xalqa müraciət edərək demişdir: "Milyondan artıq qaçqını və məcburi köçkünü olan Azərbaycan üçün bu gün ən ümdə vəzifə Ermənistan Respublikasının hərbi təcavüz nəticəsində doğma evindən-ocağından məhrum olan qaçqın qadın və uşaqların problemlərini həll etməkdən ibarətdir"[2, 18].

Konfransda qadınların cəmiyyətdə vəziyyətinin yaxşılaşdırılması sahəsində 12 strateji istiqamət müəyyən edilmiş, qadın və təhsil, qadın və sağlamlıq, qadınlara qarşı zorakılıq, qadınlar və silahlı münaqişələr, qadınlar və yoxsulluq, qadınların insan hüquqları, qərar qəbuletmədə qadınların rolu və digər bu kimi vacib məsələlər diqqət mərkəzinə gətirilmişdi. Bu gün qürurla deyə bilərik ki, həmin konfransın iştirakçısı olan qadınların əksəriyyəti rəhbər vəzifələrdə çalışır, ölkənin ictimai-siyasi həyatında aktiv iştirak edirlər.

Ümummilli lider Heydər Əliyev tərəfindən dövlət qadın siyasətinin həyata keçirilməsi onun imzaladığı fərman və sərəncamlarda, xüsusilə, "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyanın ratifikasiya edilməsində və bu Konvensiyaya Əlavə Protokolun imzalanmasında öz əksini tapmışdır. Şübhəsiz ki, Azərbaycan qadınları və ümumiyyətlə dünyanın bütün qadınları üçün "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiya (CEDAW) xüsusi əhəmiyyətə malikdir. Bu Konvensiya - qadın hüquqlarının müdafiəsi üzrə əsas beynəlxalq sənəddir. Onun preambulasında deyilir ki, qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi, qadınlar və kişilər arasında bərabərliyin təmin edilməsi BMT-nin əsas prinsiplərindən biridir. Qadın hüquqlarının müdafiəsi, onlar üçün yaradılan bütün imkanların daha da genişləndirilməsi Prezident İlham Əliyevin dövlət siyasətində müəyyən etdiyi prioritet istiqamətlərdəndir. 2006-cı ildə qadınlarla bağlı işlərin daha mütəşəkkil və ardıcıl şəkildə aparılması üçün Prezident İlham Əliyevin Fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. Qadın Problemləri üzrə Dövlət Komitəsinin bazasında yaradılan yeni qurum dövlət başçısının ailələrə, qadınlara və uşaqlara olan diqqət və qayğısının aydın təzahürüdür.

Heydər Əliyev dövlətçilik irsinin əsas istiqamətlərindən biri də dövlətin milli təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin olunması sahəsində kompleks tədbirlərin görülməsidir. Ölkənin hərbi qüvvələrinin yaradılması dövlətçiliyin əsas atributu və qarantı hesab olunsa da, təəssüf ki, SSRİ dağıldıqdan sonra Azərbaycanda hakimiyyəti ələ keçirməyə müvəffəq olmuş qüvvələrin səbatsız siyasəti nəticəsində bu amil ölkənin dövlətçiliyi üçün təminata deyil, təhlükəyə

çevrilmişdi. Ordu quruculuğunda və ölkənin milli təhlükəsizlik sisteminin formalaşdırılmasında yol verilən kobud səhvlər son nəticədə Azərbaycanda qanunsuz hərbi birləşmələrin timsalında vətəndaş müharibəsinin subyektlərinin meydana çıxmasına səbəb olmuşdu. Ordunun siyasiləşməsi, dövlətçilik prinsiplərinə əsasən deyil, şəxsi siyasi maraqlara nəzərən formalaşdırılması sonda Azərbaycanın müstəqilliyi üçün ciddi təhlükə mənbəyi idi. Yalnız ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə gəldikdən sonra bu tendensiyaya qarşı ciddi mübarizə aparmış, dövlətin milli təhlükəsizliyinin və ərazi bütövlüyünün təminatçısı funksiyasını yerinə yetirən sabit və güclü silahlı qüvvələrin yaradılmasına nail olmuşdur.

Bütün mənalı həyatını ölkəmizin tərəqqisinə, insanların rifahının yaxşılaşdırılmasına həsr edən ümummilli liderimiz ailənin cəmiyyətdəki rolunu xüsusi olaraq qeyd edirək, deyirdi ki: "Ailə dəyərləri, ailə ənənələri, milli mənəvi dəyərlərimizə sədaqət, uşaqların müasir səviyyədə tərbiyəsi mühüm əhəmiyyət kəsb edir". O, ailədə ananın rolunu yüksək qiymətləndirirdi: "...hər bir insan dünyada həyatına görə, bütün varlığına görə anaya borcludur"[4,36]. O, hesab edirdi ki, insan yalnız oxuyub təhsil aldığı məktəbdə, çalışdığı kollektivdə deyil, həmçinin böyüyüb boya-başa çatdığı ailədə formalaşır. Hər bir ailədə böyüyən və tərbiyə alan insan, bütövlükdə dünyaya təsir edə bilir və onun təməlini təşkil edir. Ona görə də bu sosial təsisatın qorunması və müdafiə edilməsi hamımızın vəzifə borcudur. Biz bu vəzifələri yerinə yetirməklə, ulu öndərin ruhunu da şad etmiş oluruq.

Uşaqların sağlamlığı, onların yaxşı təhsil və təlim - tərbiyə alması, Vətən və xalq üçün gərəkli övladlar kimi böyüməsi ümummilli liderin daim diqqətində olmuşdur. "Mən həyatımın, bu günümün, gələcəyimin xoşbəxtliyini məhz uşaqlara qayğıda, diqqətdə görürəm", - deyən dahi şəxsiyyətin rəhbərliyi ilə müstəqillik illərində ölkəmizdə dövlət uşaq siyasəti yeni forma və məzmun qazanmış, bu sahədə zəngin qanunvericilik bazası yaradılmışdır. O deyirdi ki: "Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır".

Ulu öndər Heydər Əliyevin möhkəm təməllər üzərində əsasını qoyduğu balanslaşdırılmış xarici siyasət uzaq hədəflərə hesablanmış strateji fəaliyyət konsepsiyası olmaqla, müstəqil Azərbaycanın beynəlxalq arenada nüfuz və mövqelərinin güclənməsinə, ümummilli problemlərinin həllinə yönəlmişdir. İnamla deyə bilərik ki, bu siyasət 2003-cü ilin oktyabrından Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı - cənab İlham Əliyevin rəhbərliyi altında uğurla həyata keçirilir. Ulu öndər Heydər Əliyevin demokratik dövlətçilik strategiyasını ləyaqətlə davam etdirən Azərbaycan Prezidenti müəyyənləşdirilmiş möhkəm ənənələr üzərində özü də yeni bir dövlətçilik məktəbinin banisinə çevrilmişdir. Cənab İlham Əliyev respublikamızı uğurlu innovativ inkişaf yoluna çıxarmaqla, Cənubi Qafqaz bölgəsində həyata keçirilən qlobal enerji- kommunikasiya layihələrinin başlıca təminatçısına çevrilmişdir. Xalqa layiqli xidmət andını əməli işi ilə doğrultmuş dövlət başçısı Azərbaycanın iqtisadi inkişaf prioritetlərini dəqiq müəyyənləşdirmiş, hər bir vətəndaşın maraq və mənafeyinin yüksək səviyyədə təminatına yönəlmiş demokratiya kursunu inamla davam etdirmişdir. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın istəyilə hakimiyyətə qayıdışı ilə Azərbaycanda əldə edilmiş milli birlik ölkəmizin ən qiymətli mənəvi-ideoloji sərvətlərindən biridir və 16 ildə cənab İlham Əliyev ümumxalq həmrəyliyinin möhkəmləndirilməsi xəttini davam etdirmiş, bu siyasi xətti özünün konkret addımları ilə kamil elmi-nəzəri konsepsiya səviyyəsinə qaldırmışdır. İnsan hüquqlarının maksimal müdafiəsini nəzərdə tutan bu addımlar özündə həm də humanist dəyərləri, mütərəqqi prinsipləri ehtiva edir.

Dövlət başçısı İlham Əliyev Azərbaycanın sosial-iqtisadi inkişafı ilə paralel gedən demokratikləşmə proseslərini bir-birindən təcrid olunmuş şəkildə götürmədən hər iki xətti Azərbaycanın gələcək yüksəlişinin vahid istinad nöqtəsi kimi əsaslandırmışdır. Cənab İlham

Əliyevin bununla bağlı irəli sürdüyü fikirlər təkcə Azərbaycanın yox, ümumilikdə demokratiya yoluna yenicə qədəm qoymuş bütün müstəqil ölkələrin gələcək inkişafının təməl prinsipi kimi tətbiq edilə bilər: "Demokratikləşmə prosesi və sosial iqtisadi inkişaf. Bunlar hamısı vahid bir prosesin tərkib hissələridir. Birini o birindən ayırmaq mümkün deyildir. Əgər biz diqqətimizi ancaq iqtisadi məsələlərə yönəltsək, siyasi proseslər kənarda qalsa, demokratikləşmə getməsə, ölkədə siyasi islahatlar getməsə, uğur qazana bilmərik. Biz bütün bu işləri paralel şəkildə aparmalıyıq. Eyni zamanda, əgər iqtisadiyyat inkişaf etməsə, onda demokratikləşmə prosesi də təhlükə altına düşər. Çünki kasıb ölkədə, çoxlu sosial problemləri olan ölkədə insanlar demokratiya, siyasi proseslər haqqında düşünmürlər. İnsanları ancaq gündəlik məsələlər düşündürür. Ona görə paralel şəkildə, hərtərəfli inkişaf Azərbaycanı yaxın zamanlarda çox güclü dövlətə çevirəcəkdir".

Nəticə. Bu gün cənab Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli islahatlar Azərbaycan dövlətinin siyasi xarakterini və inkişaf yolunu müəyyən edir. Bu müəyyənləşmə Azərbaycanın qısa müddət ərzində iqtisadi inkişaf göstəricilərinə görə bütün dünyada liderə çevrilməsi faktıdır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Tanap, Bakı-Tbilisi-Qars kimi nəhəng layihələrin gerçəkləşməsi, respublikamızın ümumilikdə Avropa regionunun gələcək enerji təhlükəsizliyi missiyasını üzərinə götürməsi xalqımızın dünya arenasında layiqli yerini təmin edir. Azərbaycan insanının gün-güzəranı yaxşılaşır, şəhər, kənd və qəsəbələr abadlaşır, respublikamızda işsizliyin və yoxsulluğun səviyyəsi ilbəil azalır. Azərbaycanın mövcud iqtisadi potensialının insan kapitalına çevrilməsi istiqamətində atılan addımlar elmi inkişafa doğru sürətli kurs götürüldüyünü təsdiqləyir. Hazırkı mərhələdə neft və qeyri-neft sektorunun gəlirlərindən əldə olunan külli miqdarda vəsaitin respublikamızda vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu prosesinin daha da sürətləndirilməsinə, ümumilikdə, insan amilinin yüksəlişinə yönəldilməsi demokratiya sahəsində böyük təcrübəsi olan dövlətlər, ayrı-ayrı beynəlxalq təşkilatlar, nüfuzlu ekspertlər tərəfindən müsbət qarşılanır. Dövlət başçısı həyata keçirdiyi islahatları məhz ulu öndər Heydər Əliyevin müəllifi olduğu möhkəm təməl üzərində davam etdirir və yeni dövrün tələblərinə uyğun zənginləşdirməyə çalışır. Milləti Heydər Əliyev ideyaları ətrafında birləşdirən cənab İlham Əliyev özünü azərbaycanlı sayan, bu mənsubiyyətdən qürur duyan hər kəsi ulu öndərimizin işıqlı, nurlu arzularının, ideyalarının həyata keçirilməsi istiqamətində səfərbər edir. Bütün bunlar tam mənada deməyə əsas verir ki, Prezident İlham Əliyevin dövlətçilik təcrübəsində siyasi varislik ənənələrinin davamı, üstəlik, mütərəqqi inkişaf meyillərinin gücləndirilməsi ideyası üstünlük təşkil edir.

Ədəbiyyat

1 "Heydər Əliyev. Müstəqilliymiz əbəbdidir". I. Bakı, "Şərq-Qərb", 2013, 632 səh.
2 "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir". II. Bakı, "Şərq-Qərb", 2013, 752 səh.
3 Heydər Əliyev. İki cilddə. I cild. (Müstəqillik illərinə qədərki dövr) AMEA A.A.Bakıxanov ad. Tarix İnstitutu. – Bakı: Turxan NPB, 2013, 500 səh.
4 Heydər Əliyev. İki cilddə. II cild. (Müstəqillik illəri dövrü) AMEA A.A.Bakıxanov ad. Tarix İnstitutu. Bakı: Turxan NPB, 2013, 704 səh.

SOME PROBLEMS ENCOUNTERED IN OUR LANGUAGE
DİLİMİZDƏ QARŞIYA ÇIXAN BƏZİ PROBLEMLƏR

MEHDİYEVA MƏTANƏT BAHADUR QIZI

ADPU, baş müəllim

Xülasə

Azərbaycan dilinin tədrisində hal-hazırda mübahisə doğuran məsələlər çoxdur.Bu məsələlərin bəziləri praktik, bəziləri isə nəzəridir. Birmənalı qəbul olunmayan bu problemlərdən durğu işarələrinin işlədilmə qaydaları ilə bağlı qarşılaşdığımız çətinlikləri nümunə göstərə bilərik. Xüsusən vergülün işlədilmə halları daha çox mübahisəli vəziyyət yaradır. Bu problemləri əll etmək üçün dilçi alimlərin yekdil bir rəyi önəmlidir. Buna görə də problemli məsələlər sistemləşdirilməli və alimlərin öhdəliyinə verilməlidir. Məruzədə məhz bu problemlərə toxunulmuşdur.

Açar söz: punktuasiya, durğu işarələri, vergül

Summary

Currently, there are many controversial issues in the teaching of the Azerbaijani language. Some of these issues are practical, and some are theoretical. Among these ambiguous problems, we can give an example of the difficulties we face with the rules of using punctuation marks. In particular, the use of commas creates a more controversial situation. To solve these problems, a unanimous opinion of linguists is important. Therefore, problematic issues should be systematized and entrusted to scientists. These problems were touched upon in the report.

Key words: punctuation, punctuation, commas

Giriş

Müasir Azərbaycan dilinin tədrisi orta məktəbdə,eləcə də əksər ali məktəblərdə bir fənn kimi tədris olunur. Azərbaycan dilinin bir çox fakültələrdə tədrisinin əsas səbəbi doğma dilimizi daha dərindən mənimsəmək,orfoqrafik və orfoepik ,leksik və qrammatik normalara düzgün əməl etməkdir.Qeyd edək ki, ixtisasından asılı olmayaraq, hər bir ziyalı Azərbaycan dilinin özünəməxsus dil qaydalarına əməl etməli,savadlı yazı mədəniyyətinə,gözəl və düzgün danışığa sahib olmalıdır. Bütün üslublarda dil normalarına düzgün şəkildə əməl olunmalıdır.

Bildiyimiz kimi, dilimizin tədrisi işində Azərbaycan dilinin tədrisi ilə məşğul olan müəllimlərin rolu əvəzsizdir. Azərbaycan dili dərslərinin düzgün elmi əsaslarla, pedaqoji prinsiplərə uyğun şəkildə aparılması ayrı-ayrı konkret problemlərlə əlaqədar ali məktəblərdə tələbələrin biliyini artırır,onların mühakimə qabiliyyətini inkişaf etdirir, zənginləşdirir.

Dilimizin bu və ya digər sahəsinə dair mövzuların dərindən və hərtərəfli öyrədilməsi ilə bağlı tədris zamanı qarşıya müəyyən problemlər çıxır. Bu problemlər istər fonetika, orfoqrafiya, orfoepiya, leksikologiya, istərsə də morfologiya və sintaksis sahəsində ortaya çıxır.Bu problemlərdən bəziləri dilçilər üçün daha əsas, həll olunmalı məsələlərdir.Bəziləri isə peşəsindən asılı olmayaraq, istər tələbə,istər fəhlə, istər jurnalist, şair, yazıçı, deputat ,nazir-hər bir kəs üçün ciddi və vacib olan məsələlərdir. Buna görə də bu cür problemlərin həll olunması üçün dilçilər tərəfindən müəyyən vəsaitlər hazırlanmalıdır.

Qeyd edək ki, bu gün təhsilimiz öz inkişafına görə müəyyən addımlar atmaqdadır. İstər orta məktəblərdə, istərsə də ali məktəblərdə yeni təlim metodlarından istifadə, İKT sahəsində müəyyən irəliləyişlər göz qabağındadır. Azərbaycan dilinin tədrisi də bu gün müasir səviyyədə,müasir tələblərə uyğun şəkildə tədris olunur.Dilimizin tədrisi zamanı qarşıya çıxan müəyyən problemlər var ki,onlar dilçi alimlər tərəfindən birmənalı qarşılanmır. Xüsusən də,ali məktəb dərsliklərində müəyyən dil qaydaları, müəyyən mövzularda bəzi məqamlar birmənalı qarşılanmır.Hətta onu da qeyd etmək lazımdır ki, bəzi dil qaydaları orta məktəb dərsliyində bir cür, ali məktəb dərsliklərində isəfərqli verilir. Bu problemləri dilçi-müəllimlər diqqət mərkəzində saxlamalı, xüsusən də ali məktəbdə dilimizi tədris edən müəllimlərimiz müqayisəli şəkildə tələbələrə tədris etməlidir. Fikir müxtəlifliyinə rast gəlinən zaman müqayisəli fikirlərə münasibət bildirməli, subyektiv yanaşma prinsipinə əməl etməlidir.

Bu gün dilimizin tədrisində qarşıya çıxan problemlərdən daha çox diqqəti çəkən məqamlardan bəzilərinə nəzər salaq.Bu məsələlərdən biri punktuasiya ilə bağlıdır.Ümumiyyətlə, dilçiliyimizə nəzər saldıqda görürük ki, durğu işarələri haqqında bir çox metodik vəsaitlər, kitablar yazılmışdır. Ə.Qarabağlının "Orta məktəbdə puktuasiya metodikası", M.Şirəliyev və M.Hüseynovun "Azərbaycan dilinin durğu işarələri", M. Hacıyevin "Durğu işarələri" kitabıprof. Zərifə Budaqovaya qədər yazılmış vəsaitlərdir. M.Həsənovun "Azərbaycan dilində durğu işarələrinin tədrisinə dair" (1991) kitabı isə sonrakı illərin məhsuludur. Müasir dövrümüzdə durğu işarələri barədə sintaksisdən bəhs edən bəzi ədəbiyyatlarda məlumata rast gəlirik.2011-ci ildə Həmzə Əliyev və Arif Kazımovun nəşr etdirdikləri "Durğu işarələrinin işlədilməsi qaydaları" adlı kitabı da maraq doğuran kitablardandır.Bu sıraya V. Dumanoğlu və İ. Əsgərin "Azərbaycan ədəbi dilində durğu işarələri" kitabını da əlavə də bilərik . Kitab 2016-cı ilin nəşridir. Prof. Mahirə Hüseynovanın " Müasir Azərbaycan dilində punktuasiya məsələləri" kitabında durğu işarələri ilə bağlı müəllifin zəruri saydığı və tədris prosesində vacib hesab etdiyi məsələlər dilçiliyin müasir nailiyyətləri baxımından izah edilir,həmçinin durğu işarələrinin praktik aspektləri zəngin dil materialları əsasında təhlil olunur.Bu kitab isə 2017-ci ilin nəşridir.Qeyd edək ki,ali məktəb dərsliklərinin əksəriyyətində sintaksis bölməsində durğu işarələri haqqında məlumat verilir.Durğu işarələri içərisində işlənmə tezliyinə görə ən geniş yayılmışı vergüldür. Yazılı nitqdə durğu işarələri ilə bağlı ən çox səhv də elə vergüllə bağlıdır. *O* və ya *bu* əvəzliyi ilə ifadə olunan mübtəda isim, sifət və ya say ilə ifadə olunan cümlə üzvündən əvvəl gələrsə, ondan sonra vergül qoyulur. *O* şəxs və ya *bu* işarə əvəzliyi ilə ifadə olunan mübtəda əvəzlik, feil, zərf və köməkçi nitq hissələrindən əvvəl gələrsə, ondan sonra vergül qoyulmur(1,s.26). Bu, Z.Budaqovanın fikridir. Prof. B. Xəlilov da alimin bu mülahizələrini təsdiq edir və əlavə olaraq onu da vurğulayır ki, mübtəda *o* şəxs əvəzliyi ilə ifadə olunduqda ondan sonra *bu* işarə əvəzliyi gələrsə, *o* şəxs əvəzliyindən sonra vergül işarəsi qoyulmalıdır. Prof. Q. Kazımov isə yazıda şəxs əvəzliyindən sonra (isim, sifət, say və zərfdən əvvəl) vergül qoyulduğunu bildirir(2,s.216). V.Dumanoğlu və İ.Əsgər isə *o,bu* şəxs əvəzliklərindən sonra feil və köməkçi nitq hissələri gəldikdə vergül qoyulmadığını diqqətə çatdırır. Bir məqamı da qeyd edirlər ki, bir vaxtlar mübtəda vəzifəsində işlənən *o, bu* əvəzliklərindən sonra, feil və köməkçi nitq hissələri ilə yanaşı, zərf də gəldikdə vergül qoyulmurmuş (3,s.46).B.Xəlilovun fikirləri Z.Budaqovanın fikirləri ilə üst-üstə düşür. Əslində bu cür fikir müxtəlifliyinin olması vergüldən istifadədə bir sərbəstlik yaradır. Etiraf etmək lazımdır ki, hal-hazırda da bu cür fikir müxtəlifliyi hökm sürür.Yəni dəqiq sistem yoxdur. Prof. Ə.Əfəndizadənin bir fikri diqqətimizi çəkir: "Bəzən ismin də qarşısında gələn *o, bu* mübtədalarından sonra verğülə ehtiyac duyulmayan hallar olur. Məsələn,"O Kiyevdən dünən qayıdıb", "Bu Nəsiminin heykəlidir" kimi cümlələrdə *o, bu* əvəzlikləri yalnız mübtəda kimi çıxış edir, təyinlə qarışdırılmır. *O, bu* əvəzlikləri mübtəda vəzifəsini daşıyarkən onları təkcə köməkçi sözlərin qarşısında verğüllə fərqləndirməyə ehtiyac yoxdur. Ona görə ki, belə halda həmin əvəzliklər heç vaxt təyin ola bilmir. Məsələn, "O da qaynaqçıdır"(4, s.76). Ə.Əfəndizadə

o, bu əvəzlikləri ilə ifadə olunan mübtədalardan sonra yalnız köməkçi söz gəldikdə vergüldən istifadə etməyi məqsədəuyğun hesab edir. Fikrimizcə, *o, bu* əvəzlikləri mübtəda vəzifəsində işlənərkən onlardan sonra vergül işarəsinin qoyulmasına dair vahid bir qayda yaradılmalıdır. Bu zaman vergüldən istifadədə sərbəstliyin qarşısı alınar.

Prof. M.Şirəliyev və M.Hüseynov *o, bu* əvəzliklərindən sonra isim, sifət, say gəldikdə vergül qoyulmasını məqbul hesab etmişlər.

Prof. İ.Məmmədli *o,bu* əvəzliklərindən sonra feil və köməkçi nitq hissələrindən başqa, qalan nitq hissələri ilə ifadə olunan cümlə üzvü gəldikdə vergül qoyulmasını məqbul hesab edir. *O, bu* əvəzlikləri mübtəda vəzifəsində işlənərkən özündən sonra feil və köməkçi nitq hissələri (feili sifət və modal sözlərdən başqa) gələrsə, vergül qoyulmadığını vurğulayır .Prof. A.Axundov qeyd edir ki, durğu işarələrindən yazılan kitablarda ən çox durğu işarələrinin qrammatik mahiyyəti açıqlanır. Fonetik vəzifəyə önəm verilmir. Xüsusən, vergül işarəsi başdan-başa qrammatik yüklə yüklənir. Alim yazır: "Doğrudanmı belədir? Nə üçün , məsələn, "O kitab oxumaqla vaxtını keçirirdi" cümləsində *o* sözü ilə *kitab* sözü arasında heç bir fasilə olmadığı halda, biz o sözündən sonra vergül işarəsi qoymalıyıq? Və yaxud, nə üçün " O özü də kitab oxumağı sevirdi" cümləsində isə *o* sözü ilə *özü də* sözü arasında fasilə verildiyi halda həmin durğu işarəsindən istifadə etməyək? Ancaq ona görəmi ki, dilçilik kitablarında belə yazılır?"Alim yazılı dildə durğu işarələrindən çox istifadəni məqbul hesab etmir, rus dili, eləcə də Avropa dillərində durğu işarələrindən istifadənin məhdudluğunu alqışlayır. Fikrimizcə, durğu işarələri yazılı nitqimizdə zəruru olan hallarda işlənərsə, onların işlənmə yeri də dəqiq və mübahisəsiz olar. Məs.: vergülün 54 işlənmə yeri göstərilir və hər bir halda onun qoyulması tələb olunursa, bu qaydaları yadda saxlamaq və yazılı nitqə tətbiq etmək çox mürəkkəb və çətin bir işə çevrilir. Müqayisə üçün deyə bilərik ki, inkişaf etmiş dillər sırasında olan ingilis dilində vergüldən nadir hallarda, işlənməsinə zəruriyyət duyulduqda istifadə olunur.

Punktuasiya sahəsində problem təkcə vergül işarəsi ilə bağlı qarşıya çıxmır.Bu sahədə birmənalı qəbul olunmayan digər faktlara da rast gəlirik. Qeyd edək ki, bu gün hamımız üçün stolüstü kitab ola biləcək müasir Azərbaycan dili dərsliyinə ehtiyac böyükdür.Baxmayaraq ki, dilçilərimizin bu sahədə ərsəyə gətirdikləri dərsliklər var, amma bəzi məsələlərdə fikir müxtəlifliyinə rast gəlindiyi üçün dilçi alimlərin birgə əməyi sayəsində yeni dərsliyin hazırlanması labüddür.

Kaynakça

1. Budaqova Z.İ. Azərbaycan dilində durğu işarələri. Bakı: Elm, 1977, 85 s.
2. Kazımov Q.Ş. Müasir Azərbaycan dili (Sintaksis). Bakı: Təhsil, 2007, 496s
3. Əsgərov İ.V., V.Dumanoğlu. Müasir Azərbaycan ədəbi dilində durğu işarələri. Bakı: Elm və təhsil, 2016, 179 s.
4. Əfəndizadə Ə.R. İki halda verğüldən istifadəyə dair // Nitq mədəniyyəti məsələləri, 1988, səh. 66-76

POSSIBILITIES OF USING LISTENING TEXTS IN ELEMENTARY GRADES
İBTİDAİ SİNİFLƏRDƏ DİNLƏMƏ MƏTNLƏRİNDƏN İSTİFADƏ İMKANLARI

FƏRİDƏ SƏFƏRƏLİYEVA

Azərbaycan Respublikası, Bakı şəhəri. Azərbaycan Dövlət Pedaqoji Universiteti,

Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrası Pedaqogika üzrə fəlsəfə doktoru, dosent ORCİD İD:*https://orcid.org/0000-0003-1161-5759*

XÜLASƏ

Dinləmə bacarığını formalaşdırmaq üçün düşünmək, analiz etmək vacibdir, bunun üçün şagirdləri dinləməyi öyrətmək vacib amillərdən biridir. Şagirdlərdə dinləmə bacarığı inkişaf etdirilmədiyi təqdirdə digər məzmun xətləri – oxu, yazı,dil qaydaları ilə bağlı iş üzərində də bir sıra çətinliklər qarşıya çıxa bilər. Çünki bu bacarıqlar sistem şəklində ardıcıl və bir-biri ilə əlaqəli şəkildə aparılmalıdır. Həmçinin, dinləmə dərslərində şagirdləri bir-birinə sual verməyə, öz fikirlərini ifadə etməyə, eləcə də müzakirə etməyə sövq etmək lazımdır.

Dinləmə mətni səsləndiriləndə mətn ilə bağlı fikir söyləmək dinləmə və danışma prosesini sintez edərək, şagirddə məntiqi təfəkkürün inkişafına şərait yaradir, çünki dinləmə zamanı şagird bütün fikrini mətnə cəlb edir vətəsəvvüründə canlandırmağa çalışır. Danışma prosesi isə şagirdi düşünməyə təhrik edir. Qeyd etmək yerinə düşər ki, ifadə yazı metodikasında da müəyyən bir mətn müəllim tərəfindən oxunur və şagirdlər dinləyirlər, mətndə yazılışı çətin olan sözlər izah olunur, mətnin məzmunu şagirdlərə mənimsədilir. Məlum olduğu kimi şifahi ifadə forması ilə dinləmə meyarında bir sıra oxşarlıq öz əksini tapır. Hər ikisi də şagirddə dinləmə, anlama, danışma bacarıqlarını formalaşdırır. Dinləmə dərslərində də ifadə yazı dərslərində olduğu kimi şagird dinlədiyini özününküləşdirir, öz sözləri ilə yazaraq, fərdi nitq ünsürlərinə yer verilir. Beləliklə, şagirddə öyrənmək, öyrəndiyini ardıcıl, əlaqəli, məntiqi və rabitəli şəkildə ifadə etmək bacarığı formalaşır. Motivasiya mərhələsində dinləmə mətnlərindən geniş istifadə olunur. Motivasiya mərhələsini dinləmə mətnləri üzrə quran müəllim, həm də fəndaxili inteqrasiya etmiş olur, çünki şagirdlər mətni dinlədikdən sonra öz fikirlərini səsləndirirlər, müzakirə edirlər .

Dinləmə mətnləri üzrə motivasiya prosesi daha düşünülmüş, hazırlıqlı olmalıdır. Dinləmə mətnləri yalnız şagirdləri motivasiyaya sövq etmir, həmçinin onlarda dinləmə bacarığı, mətnin hissələri arasında əlaqə yaratma, analizetmə, nəticə çıxarma bacarıqlarını da formalaşdırmış olur.

Açar sözlər: müəllim üçün metodik vəsait,motivasiya, nitq

Summary

To form the skill of listening, it is important to think, analyze, for this, teaching students to listen is one of the important factors. If listening skills are not developed in students, a number of difficulties may also arise over the work on other lines of content – reading, writing, language rules. This is because these skills must be carried out in a coherent and interrelated way in the form of a system. Also, in listening classes, students need to be prompted to ask each other questions, express their thoughts, as well as discuss.

When a listening text is played, expressing an opinion about the text synthesizes the process of listening and speaking, creating conditions for the development of logical thinking in the student, because during listening, the student draws his whole thought into the text and tries to reproduce it in his imagination. And the process of speaking provokes the student to think. It is worth noting that even in the methodology of expression writing, a certain text is read by the teacher and students listen, words that are difficult to spell are explained in the text, the content of the text is assimilated to students. As is known, a number of similarities are reflected in the listening criterion with the verbal form of expression. Both form in the student the skills of listening, understanding, speaking. In listening classes, as in expression writing classes, the student makes his own listening, writing in his own words, individual speech elements are included. Thus, the student is formed the ability to learn, to express what he has learned in a coherent, coherent, logical and communicative way. At the motivational stage, listening texts are widely used. The teacher, who sets up the motivational stage on listening texts, also has intra-trick integration, because students, after listening to the text, voice their thoughts and discuss them .

The process of motivation on listening texts should be more thoughtful, prepared. Listening texts not only motivate students, they also have the ability to listen, create connections between parts of the text, analyze, draw conclusions.

Keywords: methodical manualfor teacher, motivation, speech

Giriş

Dinləmə şüurun qapısıdır, dinləmə mətnin oxusu, dərk olunması keyfiyyətin qiymətləndirilməsində kiçik ölçü vahididir. Ondan əsas mətn üçün motivasiya vasitəsi kimi istifadə edildikdə bütün didaktik keyfiyyətlər üzə çıxmış olur. Deməli, dinləmə mətnləri də əsas mətnə nisbətən kiçik həcmli olsa da, motivasiya, qiymətləndirmə vasitəsi olsa da, rabitəli mətndir; şagirdlərin nitqini inkişaf etdirir. 2008-ci tədris ilindən başlayaraq kurikulum sənədində, o cümlədən dərsliklərdə dinləmə mətnlərinə rast gəlinir. İbtidai siniflərdə Azərbaycan dili təliminin məqsəd və vəzifələrindən danışarkən bir sıra kompleks cəhətləri mütləq nəzərə almaq lazımdır. Məsələn, şagirdin şifahi nitqini inkişaf etdirmək məsələsində; oxu varsa, deməli, dinləmək də vardır, yaxud əsas mətn varsa, onun dinlənilib anlaşılması ilə yanaşı, ona əlavə vasitə kimi dinləmə mətni də olmalıdır.Ən başlıcası isə, dinləmə mətnlərinin oxu standartlarını optimal reallaşdırmaq imkanları var. Bunlarla da kiçik summativ qiymətləndirmələr keçirmək mümkündür. Oxunan və ya dinlənilən mətnin tələffüzünün ədəbi normalara uyğunluğu mədəni nitqi doğurur.

İbtidai siniflərin Azərbaycan dili müəllimləri nəzəri cəhətdən bütün bunları dərk etməyə hazırdılarmı? Onların özləri ədəbi tələffüz normaları ilə nitq kompetensiyalarına yiyələnmişlərmi? I-IV sinif "Azərbaycan dili" dərsliklərində müxtəlif mövzularla bağlı dinləmə mətnləri var. Onları tərtibçilər şagirdlərdə elmə, biliyə, dostluğa, sədaqətə, səxavətə və s. rəğbət hissi aşılamaq üçün müntəxəbatlardan, kitablardan, internetdən, didaktik materiallardan və s. seçmişlər. Dərslik tərtibində maraqlı mətnlərdən istifadə tarix boyu başlıca prinsip olmuşdur, indinin özündə də belədir. Eyni zamanda əsas mətn maraqlı hadisələrdən bəhs edirsə, dinləmə mətni isə ibrətamiz hekayələrdən, münasibətlərdən bəhs edir və uşaqların mənəvi aləminə xoş təəssüratlar bəxş edir. Metodik vəsaitdə dinləmə oxudan sonra gəlir və mətn təxminən belədir:

Qanadlı sözlər.

Təkcə elə insan canlı deyil ki, söz də canlıdır, o da necə deyərlər, doğulur, yaşayır, dünyanı gəzir. Elə sözlər var ki, doğulan kimi, uçub aləmi dolaşır, dildən-dilədüşür. Bunlar "qanadlı sözlər" adlanır. Belə sözlərin başqa canlılardan bir fərqi var; onlar ölmür. Özü də yaşayır, onu yaşadan insanı da yaşadır. Belə kəlamlar ***aforizm*** *adlanır. Aforizmlər həmcə kiçik, mənaca dərin olur. Lap atalar sözləri kimi. Lakin atalar sözlərinin müəllifi məlum olmur...*

Bu dinləmə mətninin informativ yükü ağırdır, lakin həcmi çox geniş, 230 səhifədən çox olduğundan hamısını əhatə edə bilmirik. Dinləmə mətnin tərbiyəvi əhəmiyyəti böyükdür və qiymətləndirmə imkanları var. Sözsüz ki, dinləmə mətnlərini oxuyarkən müəllim atalar sözü ilə aforizmin fərqini nümunələrlə izah etməyə çalışmalıdır.
Dinləmə mətnlərinə nəzər saldıqda görürük ki, ədəbi tələffüzü üzrə çalışmalar verilməmişdir. Yəni bu standartlar içərisində oxu var, "ifadəli oxuyur" yoxdur.
Metodik vəsaitdə orfoepik tapşırığa rast gəlmədik. Halbuki, dinləmə mətnindəki 230 sözdən bir çoxu bu qayda ilə oxunmalı və dinlənilməli idi: *qanaddı sözdər, cannıdı, yaşıyır, bunnar, sözdərin, cannılardan, onnar, yaşıyır,həcimcə, kiçiy,sözdərinin, məllifi, fikirrərdi, hak'qında, borjduyux, birrəşməlidi, torpaxda, yerrəşməlidi, danışığınnan, şəxsiyyətdərin, düşərəy. Buradan belə bir fikir formalaşır ki:*

1. Dinləmə mətnləri əsas mətnlərin məzmununun mənimsədilməsində motivasiya nümunəsinə çevrilir;
2. Azərbaycan dili dərslərində dinləmə mətnləri üzrə qurulan təlim işi elmi biliklərin anlayışlara çevirməsində güclü vasitədir;
3. Dinləmə mətnləri düzgün, ifadəli oxu vərdişlərinin formalaşdırılmasına təkan verir;
4. Dinləmə materialları vasitəsilə şagirdlərdə təhlil-tərkib, analiz-sintez bacarıqları yaradılır;
5. Dinləmə materialları şifahi və yazılı nitqin inkişaf etdirilməsi imkanlarına malikdir;
6. Dinləmə materiallarının şərti ifadə nümunəsi olaraq inşaya çevrilmək imkanları geniş didaktik yoldur;
7. Dərsliklərdəki dinləmə materialları üzərində eyni zamanda oxu, yazı və nitq materiallarından səmərəli istifadə şagirdlərin nitqini zənginləşdirir, dünyagörüşünü formalaşdırır.
8. Psixoloji anlamda dinləmənin, dinləmə mətninin nitq inkişafında rolundan danışarkən onların didaktik əsaslarını aşağıdakı sxemlərdən də görmək olar:





Alimlərin fikrincə, eşidib-anlama vərdişlərinə müasir dövrün tələbləri səviyyəsində yiyələnmiş dinləyici bir çox materialları əhatə etmiş olur. Bunlardan ən birincisi odur ki, əsas diqqət şagirdlərə tələffüz vərdişlərinin lazımi səviyyədə aşılanmasına yönəldilməlidir; ikincisi isə, birinci ilə bilavasitə əlaqədar olaraq mətnin qrammatik və intonasiya strukturlarının daşıdığı

məlumatdır [1, s.10]. Məqaləmdə müəllim üçün metodik vəsaitindəki dinləmə mətnlərini tədqiqata cəlb etdim.

III sinif üçün yazılımışMüəllim üçün metodik vəsaitdə "Dəmir yumruq" dinləmə mətni verilmişdir. "Təbii sərvətlərlə zəngin olan Qarabağ Azərbaycanın ən qədim guşələrindən biridir. Mənfur qonşumuz Ermənistan əsrlər bu torpaqlara göz dikib, əl uzadıb. 1992-ci ilin fevral ayından başlayaraq 1993-cü ilin oktyabrın 10-a kimi Dağlıq Qarabağ və ona bitişik 7 rayonumuzu işğal edib.
Azərbaycan dövləti heç zaman müharibə tərəfdarı olmayıb. İşğal olunmuş Azərbaycan torpaqlarını geri qaytarmaq üçün ulu öndər Heydər Əliyev, sonralarisə prezident İlham Əliyev daim sülh danışıqları aparıb. Lakin işğalçı Ermənistan sülh yolunu deyil, müharibəni seçib.
2020-ci il sentyabrın 27-si Ermənistan tərəfi Azərbaycanın sərhəd rayonlarını yenidən atəşə tutdu. Bu səbir kasasının daşması üçün sonuncu damla idi. Azərbaycan prezidenti İlham Əliyev işğal olunmuş torpaqları geri qaytarmaq üçün hərbi əməliyyata başlamaq əmrini verdi. Bu əməlliyyat "Dəmir yumruq" adlandı.
Hər bir Azərbaycan vətəndaşı Vətən uğrunda yumruq kimi birləşdi. Sentyabr ayının 27-dən başlayan II Qarabağ Müharibəsi noyabr ayının 10-da Azərbaycan ordusunun qələbəsi ilə bitdi. 44 gün davam edən müharibə ərzində oktyabrın 4-ü Cəbrayıl, oktyabrın 17-si Füzuli, oktyabrın 20-si Zəngilan,oktyabrın 25-i Qubadlı, noyabrın 8-i Şuşa, noyabrın 20-si Ağdam, noyabrın 25-i Kəlbəcər və dekabrın 1-i Laçın rayonu işğaldan azad edildi.
Azərbaycanın döyünən qəlbi Şuşa şəhəri uğrunda gedən döyüşləri xarici ölkələrin jurnalistləri belə təsvir edirlər: "Azərbaycan əsgərləri Şuşaya çatmaq üçün sıldırım qayaları aşırdılar. Onlar Şuşanı tanksız, topsuz, dronsuz, sadəcə əlbəyaxa döyüşlə aldılar".Şuşa uğrunda gedən döyüşlərdə, əsasən Azərbaycanın Xüsusi Təyinatlı Qüvvələri iştirak edirdilər. Bu qüvvələrə Hikmət Mirzəyev,Zaur Məmmədov, Tehran Mənsimov kimi komandanlar rəhbərlik edirdilər. Şuşanın işğaldan azad edildiyi gün, yəni noyabrın 8-i Azərbaycanda Zəfər Günü elan edildi [2, s.48]. Dinləmə mətninin sonunda formativ qiymətləndirmə aparılır. Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar əsasında qiymətləndirilir.

- Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir.
- Mövzu ilə bağlı araşdırmalar apararaq təqdimatlar edir.
- Məlumatları qrafik informasiya (məlumat vərəqi, cədvəl, diaqram) şəklində təqdim edir.

Bu bizim xalqın, millətin, igid oğullarımızın qələbəsidir və kiçik yaşlı məktəblilərə tariximiz, dövlətimiz barədə məhz məktəbdə geniş danışılmalıdır.Dinləmə mətnində diqqətimi çəkən bir məqam oldu."Səbir kasasının daşması" ifadəsi məncə şagirlərə qaranlıq qala bilər. Məhz ibtidai sinif müəllimi şagirdlərin qeyri-fəal lüğət fondundakı sözləri fəal lüğət fonduna daxil etməlidir. Səbir kasasının daşması- sözünü müəllim frazeoloji birləşmə olduğunu şagirdlərə dinləmə mətnini oxuduqdan sonra izah etməyə çalışmalıdır.
İbtidai siniflərdə Azərbaycan dili dərsləri, bir qayda olaraq, dinləmə-anlama (və danışma) məzmun xəttinin reallaşdırılması ilə başlayır. Bu məzmun xətti özündən sonrakı məzmun xətlərinin (oxu, yazı və dil qaydaları) hər birinin ayrılıqda inteqrativliyi baxımından xeyli zəngin təlim fəaliyyətidir. Çünki dinləmədən oxuda, yazıda və dil qaydalarında da köməkçi vasitə kimi istifadə edilir. Digər bir cəhətdən dinləmə psixolojisi həm məzmun xəttində, həm də dinləmə mətnində dominantlıq kəsb etməyə başlayır. Deməli, dinləmə hər bir strateji və taktiki gedişin strukturunda və ya reaksiyalarında iştirak edir.
III sinfin sonunda şagirddə 1-ci məzmun xətti ilə bağlı aşağıdakı billk və bacarıqlar formalaşır:
1. Dinləyib-anlama və danışma.
Şagird: 1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.
1.1.1. Dinlədiyi fikir ətrafında müzakirələrdə münasibətini bildirir. 1.1.2. Dinlədiyi fikirləri təhlil etməklə mövqeyini şərh edir.
1.2. Şifahi nitq bacarıqlarına malik olduğunu nümayiş etdirir.

1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir.
1.2.2. Dialoji nitqində situasiyaya uyğun etiketlər seçir və mövzu ilə bağlı fikirlərini bildirir.
1.2.3. Fikirlərini aydın və obrazlı etmək məqsədi ilə bədii ifadələrdən istifadə edir.
1.2.4. Ədəbi-bədii nümunələri ifadə edərkən müvafiq situasiyaya uyğun jest və mimikalardan istifadə edir.
Başqa bir səhifədə "Dirsə xan oğlu Buğac" dinləmə mətni verilmişdir.Dərsliklərə, eləcə də müəllim üçün metodik vəsaitə nəzər saldıqda kifayət qədər müxtəlif janrlardan bədii əsərlərə rast gəlirirk. Sözsüz ki, qəhrəmanlıq dastanları ilə tanış olmaq ibtidai sinif şagirdləri üçün maraqlı və əhəmiyyətlidir.Dinləmə mətnin sonunda tapşırıqlara nəzər yetirək:
2.2.2 Tapşırıq c(dərslik) Şagirdlər Dirsə xan oğlu Buğac" mətni üzrə hekayə xəritəsi tərtib edirlər. Bununla da mətnin məzmununu qavradıqlarını nümayiş etdirirlər.
Səh.34-də "Qaraca Çoban və Dirsə xan oğlu Buğac" mətnlərinin müqayisəsi verilib. MMV-də qeyd edilir ki, müəllim dinləmə mətninin yalnız girirş və əsas hissəsini səsləndirir. Şagirdlər tapşırıqda verilmiş şəkillərə əsasən mətnin sonluğunu təxmin edib yazırlar. Əlbəttə ki, istər oxu, istərsə də dinləmə mətnlərinin tədrisi zamanı peşəkar müəllim təlimin məqsədlərini (öyrədici, tərbiyəedici və inkişafetdirici)unutmamalıdır.
Metodik vəsaitdə "Yer bizim planetimizdir" dinləmə mətni öz əksini tapmışdır. Dinləmə mətninin sonunda bu tapşırıq verilib: Müəllim şagirdlərin diqqətini dərsliyin 32-33-cü səhifələrindəki dünya xəritəsinə yönəldir. Burada müxtəlif xalqların nümayəndələri milli geyimlərdə təsvir edilib.Şəkillərin altında onların mənsub olduqları xalqın adı yazılıb. Şagirdlər bu şəkillərə diqqət edir, xalqların adını oxuyur, daha sonra isə onların hansı ölkədə yaşadıqlarını təxmin edirlər. İstifadə üçün verilmiş ölkə adları tapşırığın asanlıqla yerinə yetirilməsinə kömək edəcək.Bu mətn şagirdlərin ümumi dünyagörüşünün və estetik zövqünün formalaşmasına imkan yaradır.Azərbaycan dilinin tədrisində son məqsəd şagirdlərin şifahi və yazılı nitq bacarıqlarını inkişaf etdirməklə, onları nitq mədəniyyətinə yiyələndirməkdən ibarətdir. Şagirdlər öz fikirlərini Azərbaycan dilində şifahi və yazılı şəkildə düzgün ifadə etməkdə çətinlik çəkmirlərsə, təlimin müvəffəqiyyətlə həyata keçdiyi qənaətinə gəlmək olar.
Sonda onu qeyd etmək istərdim ki, Azərbaycan dili fənnindən başlıca məqsəd şagirdlərdə mədəni nitq vərdişləri formalaşdırmaqdır. Odur ki, metodikamız mədəni nitq didaktikası prinsiplərinə uyğun istiqamətdə təkmilləşməlidir. Dinləmə materialı oxu, yazı, danışıq, qiymətləndirmə, məqsəd və funksiya daşıyıcısı olsa da, həmçinin ifadə mətni kimi öyrənilməlidir. Həmçinin dinləmə mətni rabitəli mətn olduğu üçün onun üzərində fonetik, leksik, frazemik cəhətlərdən nitq inkişafı əməliyyatları aparıla bilər.
Dinləmə materialı yığcam və ya geniş məzmunlu, həm də ifadə mətnidir. Onun süjetini lazım gəlsə, müvafiq suallarla və ya istənilən əlavələrlə yeniləşdirmək ifadəni inşaya çevirmək olar, buna da ən optimal nitq inkişafı metodikası deyilir. Dinləmə mətnlərinin metodikası da digərləri ilə inteqrasiyalarda fəaliyyət göstərməlidir.

ƏDƏBİYYAT SİYAHISI

[1] Alan Kroutora, E.Vendi Soul, Samuel Metyu və b. *Düşünən sinif üçün öyrətmə və öyrənmə üsulları*. 2005, 206 s.
[2] Nurullayeva U, Zahidova Ş, Bayramova İ, Xanalıyeva A, Məhyəddinova K, *Azərbaycan dili,III sinif (II hissə).* Bakı, 2021.
[3]Veysova Z. *Fəal interaktiv təlim.* Müəllim üçün vəsait. 2009.

ROMANTICISM IN AZERBAIJANI LITERATURE
AZƏRBAYCAN ƏDƏBİYYATINDA ROMANTİZM

HƏSƏNOVA LEYLA ZIYAFƏT QIZI

Azərbaycan Dövlət Pedaqoji Universiteti
Filologiya fakültəsi, müəllim Orcid İd:0009-0006-9057-9205

Xülasə

Məqalədə romantizmin bir cərəyan olaraq Azərbaycan ədəbiyyatında meydana gəlməsindən, bu cərəyanın meydana gəlməsini yaradan ictimai və siyasi səbəblərdən, Azərbaycan ədəbiyyatı ilə dünya ədəbiyyatındakı romantizmin oxşar və fərqli xüsusiyyətlərindən, eləcə də, romantizm cərəyanını digər cərəyanlardan fərqləndirən ideya-estetik xüsusiyyətlərdən geniş şəkildə bəhs olunur. Dünya ədəbiyyatında XVIII əsrdə, Azərbaycan ədəbiyyatında isə nisbətən daha gec XX əsrin əvvəllərində meydana gələn romantizm cərəyanı, əslində ədəbiyyatımızda daha erkən dövrlərdə artıq kök salmağa başlamışdı. Lakin o dövrdəki ictimai-siyasi mühit romantizmin bir cərəyan olaraq yox, sadəcə romantik bir düşüncə tərzi kimi formalaşmağına icazə verirdi. Bütün bunlar isə gələcəkdə Azərbaycan ədəbiyyatında öz yerini möhkəm tutacaq olan romantizm cərəyanına cığır açmaqda idi.Qeyd olunanların nəticəsi olaraq XX əsrdə Azərbaycan ədəbiyyatı özünün ən görkəmli romantik yazıçılarınıöz oxucusunavə dünya ədəbiyyatına təqdim edir. Məqalədə Əli bəy Hüseynzadənin redaktorluğu ilə 1906-1907-ci illərdə çap olunan "Füyuzat" jurnalından da bəhs olunmuş, eləcə də bu jurnalın romantizmin bir cərəyan olaraq inkişaf etməsindəki rolu xüsusi olaraq vurğulanmışdır. Həmçinin jurnalın çap olunduğu dövrdə toxunduğu məsələlər, əsas mövzu istiqamətləri də tədqiqata cəlb olunmuşdur.Eyni zamanda dünya ədəbiyyatında romantizm cərəyanının ən görkəmli nümayəndələri ilə Azərbaycan romantik ədəbiyyatının görkəmli nümayəndələri müqayisə olunmuş, həmin istiqamətdə ərsəyə gələn əsərlərin ideyası, mövzu istiqamətləri müəyyənləşdirilərək müxtəlif fərziyyələr irəli sürülmüş və bu istiqamətdə dolğun mülahizələr irəli sürülmüşdür.

Açar sözlər: romantizm, ədəbiyyat, ədəbi cərəyanlar, romantik poeziya

Summary

In the article, the emergence of romanticism as a trend in Azerbaijani literature, the social and political reasons for the emergence of this trend, the similar and different features of romanticism in Azerbaijani literature and world literature, as well as the idea-aesthetic features that distinguish the trend of romanticism from other trends are discussed in detail. The trend of romanticism, which appeared in world literature in the 18th century, and in Azerbaijani literature at the beginning of the 20th century, actually began to take root in our literature earlier. However, the socio-political environment of that time allowed romanticism to be formed not as a trend, but as a romantic way of thinking. All this paved the way for the trend of romanticism, which would take its place in Azerbaijani literature in the future. As a result of the above, Azerbaijani literature presents its most prominent romantic writers to its readers and world literature in the 20th century. The article also mentions the "Fyuuzat" magazine published in 1906-1907 under the editorship of Ali Bey Huseynzade, as well as the role of this magazine in the development of romanticism as a trend. Also, the issues that the magazine touched upon at the time of its publication, the main subject areas were also involved in the research. At the

same time, the most prominent representatives of the romanticism trend in world literature were compared with the prominent representatives of Azerbaijani romantic literature, the ideas and themes of the works created in that direction were determined, various hypotheses were put forward, and full considerations were put forward in this direction.

Key words: romanticism, literature, literary events, romantic poetry.

Azərbaycan ədəbiyyatında romantizmin bir cərəyan kimi meydana gəlməsini araşdırmaq üçün ilk əvvəl romantizmcərəyanı anlayışına diqqət yetirmək lazımdır. Romantizm ədəbi cərəyanının ən başlıca xüsusiyyəti yazıçının həyatı və həyat həqiqətlərini olduğu kimi yox görmək istədiyi kimi qələmə almasıdır. Bu cərəyanın nümayəndələri insan şəxsiyyətində mənəvi başlanğıcın yetkinliyini, fəallığını istəyir, insan dünyasının gözəlliyini burada axtarır. Bu istəklə həyat təzadları istər-istəməz toqquşur, sənətkar idealı güclü müqavimətə rast gəlir. Sənətkarda bəzi hallarda yaranan şübhəçilik, utopik meyllər də buradan meydana meydana gəlir. Mənəvi başlanğıcın fəallığını həyat təzadlarından üstün tutmaq, bədii idrakın işığını insan qəlbinə yönəltmək, insanı daha ülvi gerçəklik olduğuna inandırmaq beləliklə də onu mənəm-mənəmlikdən, şərdən çəkindirmək meyli romantizmin təbiətini səciyyələndirən əsas xüsusiyyətlərdir. Dünyaca məşhur alman filosofu Hegel "Estetikaya dair mühazirələr"də dünya romantizminin mahiyyətinin xüsusən belə qeyd edirdi ki, romantik sənət mərhələsində təbiətdən uzaqlaşmaq, öz-özüylə səmimiliklə qovuşmaq sayəsində öz həqiqətinə inanır, xarici gerçəkliyi özünə həmahəng olmayan varlıq sayır. Romantizmin əsl məzmunu alman filosofunun fəlsəfi-estetik əqidəsinə görə, "mütləq daxili həyatdır, müvafiq forması isə öz müstəqilliyini, azadlığını anlayan mənəvi subyektivlikdir." [8, s.4]

Əlbəttə, Hegelin romantizmə baxışını mütləqləşdirmək doğru olmazdı: romantiklərin bədii yaradıcılığının konkret təhlili bəlkə bu cür baxışın birtərəfli olduğunu aşkara çıxara bilər. Lakin Hegel dünya romantizmini idealla həyat arasında yaranan təzadla bağlayanda haqlı idi. Romantizmə xas olan bu cəhət Belinskinin məqalələrində yeri gəldikcə nəzərə çatdırılırdı.

"Romantiklərin estetikasında real həyatdan olanla ideal arasındakı seçim həmişə ikincinin tərəfində olmuşdur. Onların sənət estetikasında real həyatı təsvir etmək deyil, ideal olanı təsvir etmək üsünlük təşkil edir." [3, s.28] həqiqətəndə romantiklər yaradıcılığları boyu idealı təsvir etməyə çalışırdılar. Lakin onlar bu zaman belə həqiqət axtarışında olurdular. Çünki onlar düşünürdülər ki, insanın real həyatdan daha çox ehtiyyacı olan şey ideal həyatdır. Bu isə onu deməyə imkan verirdi ki, real həyat həqiqətləri cəmiyyətdə dərindən öyrənilmir və cəmiyyəti idarə edən qanunlar dərk olunmurdu.

Romantizm ədəbi cərəyan olaraq Avropa və Rusiyada XVIII əsrdə, Türkiyədə isə XIX əsrin sonlarına yaxın yaranmışdır. Maarifçiliyin əksinə isə romantizm bir cərəyan olaraq Azərbaycan ədəbiyyatında Rusiyanın yox, məhz Türkiyənin vasitəsilə keçmişdir. Asiya və Avropanın oyanışı kimi səciyyələndirilən mühüm ictimai-siyasi hadisələr Azərbaycanda nisbətən daha gec – XX əsrin əvvəllərində baş verdiyindən romantizmdə ədəbi bir cərəyan olaraq həmin dövrdə ədəbiyyatımızda öz yerini almışdır.

Akademik İ.Həbibbəyli bu cərəyan haqqında qeyd edir: " Romantizm – Azərbaycan ədəbiyyatında dövrün ictimai-siyasi hadisələrinə romantik baxışları, xəyalda və idealda əks-səda tapan qavrayışları ifadə edən ədəbi cərəyandır. Romantizm ədəbi cərəyanının nümayəndələri şəxsiyyət və cəmiyyət məsələlərində də idealın tərənnümünə üstünlük vermişlər. Onlar özlərinin romantik ideallarını əks etdirmək üçün orijinal obrazlı poetik vasitələrdən və simvollardan yaradıcılıqla istifadə etmişlər. idealla gerçəklik arasında təzaddan doğan həyəcanların bədii ifadəsi olan romantizm ədəbiyyatında xəyal və gerçəklik əsas yer tutmuşdur. Romantiklərin gələcəkçilik idealarında dövrün çağırışları ilə həmahəng ümummilli ideyalar və maarifçi-demokratik baxışlar qüvvətlə səsləndirilmişdir." [7]

Romantizm cərəyanının nümayəndələrinin sənət estetikasında tez-tez rast gəlinən məfhumlar içində ideal, gözəllik, kamillik kimi anlayışlar da geniş yer tutrdu. Bu ifadələri işlətməklə əslində romantiklər ideal, əlçatmaz, utopik olan bir dünyanın mənzərəsini canlandırırdılar.

Romantiklər köhnəfikirli yazıçıları yalnız köhnə formada yazdığlarına görə deyil, bəlkə də birinci növbədə köhnə fikirləri, feodal dünyası ənənələrini, orta əsr sxolastikasını, köhnəlmiş dini düşüncələri və s. təbliğ etdiklərinə görə tənqid və rədd edirdilər. bu da onların fəlsəfi görüşləri ilə əlaqədar idi. Romantiklər artıq belə bir fikrə gəlirdilər ki, zamanla ayaqlaşmayan bütün köhnə fəlsəfələr, köhnə düşüncələr, feodal dövrün qalıqları, orta əsr sxolastikası artıq lazımnsız bir hal almışdır. Köhnə dini fəlsəfələr dünya xalqlarının fəlakətinə səbəb olmuşdur. Məhz buna görə də bu köhnə fəlsəfələrdən bir dəfəlik əl çəkmək lazımdır. M.Hadi qeyd edirdi: "dövri-haziri – mədəniyyət fəlsəfəyi-xəyaliyyə, hakimiyyəti-vəhyiyyə dövrü deyildir. [M.Hadi, "Çində asari-tərəqqi", "Füyuzat" məcmuəsi 1907, N1].

Romantiklərə görə şeirin, sənətin ən mühüm vəzifələrindən biri "dünyaya gələn yeni fikirləri" təbliğ etməkdən ibarət olmalı idi. M.Hadi "Dünyaya yeni fikirlər gəlir, həyati-şəxsiyyə və ictimaiyyə xüsusunda , üsuli-tərbiyə haqqında yeni, gözəl və pek ali fikirlər meydanə qoyulur." deyirdi. [M.Hadi, "Dövri-mədəniyyət", "Füyuzat" məcmuəsi 1907, N13]

Romantiklərin şeirdə köhnə şeirə qarşı müdafiə etdiyi yeni şeir hər şeydən əvvəl azadlığa yol açan "inqilab sədası", "inqilab bıçağı" olmalı idi. Yeni şeirin hər bir misrası xalqı intibaha, müasirləşməyə çağırmalı və hər cürə köhnəliyə, mövhumata, əsarətə ruhani, cismani despotizmə, köhnə adət-ənənələrə, köhnə fəlsəfələrə, bədbinliyə qarşı kəskin silaha çevrilməli idi. Yeni tipli, həqiqi, əməl-pərvər şair isə, hər şeydən əvvəl "inqilab yaradıcısı", böyük məslək sahibi "ictimai yazıçı" olub yeni nəsillərə işıq tutmalıdır.

Romantikilər (epiqonçuları) özlərinə məxsus xırda burjua demokratizmi cəbhəsindən tənqid edirdilər. "Müqəddəs söz sənətini pula satan", burjua-feodal aristokratiyasına xidmət edən məsləksiz, məddah şairlərə qarşı romantiklər çox amansız idilər.

Azərbaycanda romantizm cərəyanının nümayəndələrinin əsas elmi-təşkilat yeri Əli bəy Hüseynzadənin redaktorluğu ilə Bakıda 1906-1907-ci illərdə nəşr olunan "Füyuzat" jurnalı idi desək yanılmarıq. Cəmi bir il işıq üzü görməsinə baxmayaraq "Füyuzat" jurnalı romantikləri öz ətrafında toplayaraq ədəbi məktəb yaratmağı bacarmışdı. Ə.Hüseynzadənin rəhbərlik etdiyi bu məktəb Şərq və Qərb mədəniyyətini birləşdirmək məqsədi ilə çıxış edərək, bu istiqamətdə çox gözəl əsərlərin yaranmasına şərait yaratmışdır.

Ə.Hüseynzadənin "Füyuzat" jurnalının ilk nömrəsində çap olunan baş məqaləsində bu məsələlər öz əksini belə tapmışdır: "Sözümüzə diqqət buyurlusun: "Həyat füyuzatdır" demiyoruz, "Həyat meyli-füyuzatdır" diyoruz!... Təbiri-axərlə həyat, füyuzati-vicdaniyyəyə meyl arzusudur. Həyatın övsafından olan, bütün mücahidat və mübarizatımız bu şövqi-mənəvinin sövqü ilə vüqua gəlməkdədir. Bir fərddə, bir cəmaətdə, bir millətdə, bütün bəşəriyyətdə şövqi-füyuzat yox isə, o fərdi, o cəmaəti, o milləti, o bəşəriyyəti ölü sayılmalıdır. Hərəkət və fəaliyyət göstərsə dəxi ölü sayılmalıdır." ["Füyuzat" N1, s.2]

Yuxarda qeyd olunanlar bir daha sübut edir ki, romantizmin estetikası və nəzəri prinsipləri XX əsrin əvvəllərindən başlayaraq artıq formalaşır və ədəbiyyatda öz yerini möhkəmləndirməyə başlayırdı. Lakin unutmamaq lazımdır ki, ədəbiyyatda ilk əvvəl romantik ədəbiyyata aid nümunələr yaranmış, daha sonra isə romantizmin nəzəri-estetik prinsipləri formalaşmışdır. Bu hadisə dünya ədəbiyyatında da belə təzahür etmişdir. Daha dəqiq desək, V.Hüqonun "Kromvel" dramına ön sözü dünya ədəbiyyatında romantizmin manifesti hesab edilir. Ancaq bu heçdə o demək deyil ki, həmin kitab yazılana qədər Avropada romantizm meydana gəlməmişdir. Əksinə, o dövrə qədər romantizm artıq əlli ilə yaxın bir dövr idi mövcud idi. Bu

hadisə öz əksini Azərbaycan ədəbiyyatında da göstərir. Ədəbiyyatımızda Ə.Hüseynzadənin romantizmin estetik-nəzəri prinsiplərini formalaşdırdığı zamana qədər artıq bu səpkidə xeyli əsərlər yazılmışdı. Bunlara misal olaraq İ.Qutqaşınlının "Rəşid bəy və Səadət xanım", A.Bakıxanovun "Kitabi əsgəriyyə", N.Nərimanovun "Bahadır və Sona" əsərlərini misal göstərmək olar.

Ə.Hüseynzadənin "Füyuzat" jurnalında nəşr etdirdiyi "Heyrət, yaxud bir mələyin insanlara xitabı" şeiri isə Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının manifesti hesab oluna bilər:

Səmadan bir mələk heyrətlə der: İnsanlar! İnsanlar!

Nədir bu, ruyi-ərzi qaplıyor al qanlar, insanlar!

Şəhid etdiyiniz ixvanınızdan almasın fəryad!

Əcəb kimdir şu xunalud olan bicanlar? İnsanlar!

Ölən kim, öldürən kim, zülm edən kim, ağlayan kimdir?

Bir az fikr eyləyin: Sizdən degilmi onlar? İnsanlar! ["Füyuzat" N1, 1906]

Ə.Hüseynzadənin bu şeiri romantizmin bütün nəzəri-estetik prinsiplərini özündə əks etdirdiyi üçün çox keçmədən digər romantiklərin də diqqətini cəlb etmiş və eyni poetik üslubda çoxlu şeirlər yazılmışdır.

Göründüyü kimi, romantizm bir cərəyan olaraq formalaşana qədər müəyyən bir zaman keçmişdir. Romantiklərin yaradıcılığında şeir daha çox gerçəkliyə, onun axtarışına yönəlmiş, insanları hürriyyətə, işıqlı gələcəyə sövq etmişdir. Eyni zamanda, romantiklərin bədii yaradıcılıq nümunələrində Qərb və Şərq klassiklərinin adları böyük hörmət və ehtiramla yad olunur. Romantizmin estetik tələbinə uyğun olaraq Nizami Gəncəvi, Ömər Xəyyam, Məhəmməd Füzuli, M.Ə.Sabir, Hüqo, Hiller, Gete, Bayron, Şiller, T.Fikrət, Ə.hamid, Puşkin, Lermontov yaradıcılığına maraq özünü göstərirdi. Ə.Hüseynzadə, M.Hadi, H.Cavid, A.Şaiq və başqa yazıçılarımız romantizm üslubuna müraciət etdikcə bu üslubun estetikasıda bir o qədər inkişaf etmiş və genişlənmişdir. "Onlar (romantiklər) ədəbiyyatın mənbəyni də, predmetini də birinci növbədə bəşəriyyətin xeyirxahlıqları saydıqları əməlpərəvər filosofların, dahilərin, kəskin qələmə malik olan mütəfəkkir yazıçıların düşünüb irəli sürdüyü "parlaq fikirlərdən", ümumbəşəri ideyalardan ibarət hesab edirdilər. Başqa sözlə, bədii təfəkkür, bədii ədəbiyyat onların nəzərində hər şeydən əvvəl real canlı varlığın, gerçəkliyin deyil, bəlkə böyük başlarda doğan böyük fikirlərin güzgüsü idi." [1, s.53]

Romantizm yazıçının həyata baxışının xüsusi bir formasıdır, humanizm, işıqlı gələcəyə ümid, xəyalpərvərlik, maddi və mənəvi azadlıq isə onun əsas xüsusiyyətidir.

"Epiqonçuluğa qarşı olan romantiklərin yeni estetik prinsiplərində ədəbiyyat və sənət canlı real həyatdan daha çox ideyalar aləmini təsvir edir, predmrtin işıqlı fikirlərdən, bəşəri ideyalardan alırdı. Bütün hallarda tərəqqi və təkamül, eləcə də

Mükəmməlliyətçilik romantizm cərəyanının əsas xüsusiyyətlərindəndir. Romantiklər təkcə bir istiqamətdə ədalət və ya gözəllik axtarmırdılar. Onlar bütünlüklə mükəmməlliyə can atırdılar. Həyatda hər şeyin sadəcə gözəllik və ədalət üzərində qurulmasını bir növ tələb edirdilər. Romantik dünyagörüşünün əsasında iradə və söz azadlığı, insan şəxsiyyətinin toxunulmazlığı kimi mühüm məsələlər dayanırdı. Romantiklər insanın mənəvi zənginliyini onun maddi zənginliyindən daha üstün tutur, mənən düzgün olmayan insanın üstünlüyünün mümkünsüzlüyünü elan edirdilər. İnsanın daxili aləminin zənginliyini insan varlığının ən dəyərli amili kimi qiymətləndirirdilər. "Romantiklər eyni zamanda, insandakı nadir,

təkraredilməz olana yüksək diqqət göstərirdilər, bu diqqət bəzən fərdə sitayiş xarakteri alırdı. Fərdə sitayiş etmək insanın cəmiyyətdə eyni səviyyəyəgətirilməsindən, hamarlanmasından özünü müdafiəyə keçid idi.” [3, s.15]

İstifadə olunmuş ədəbiyyat:

1. Cəfərov M. Azərbaycan ədəbiyyatında romantizm Bakı, 1963, 217 s.
2. Əfəndiyev T. Azərbaycan romantizmi və onun təşəkkülü problemləri//525-ci qəzet, 2019, s.16-17
3. Əfəndiyev T. Romantizm:təşəkkülü, problemləri, şəxsiyyəti Bakı: Vətənoğlu , 2020, 477 s.
4. Əhmədli B. Romantizm: bütün yönlərilə//Ədəbiyyat qəzeti, 2020, s. 23-24
5. “Füyuzat” jurnalı 1906-1907-ci illər
6. Həbibbəyli İ. Azərbaycan ədəbiyyatında romantizm//525-ci qəzet, 2022 s.14-20
7. Həbibbəyli İ. Tənqidi realizm epoxası və romantizm//525-ci qəzet, 2017, s.12-13
8. Ismayılov Ə. Dünya romantizm ənənələri və Hüseyn Cavid Bakı: Yazıçı, 1983, 219 s.
9. Osmanlı V. Azərbaycan romantikləri Bakı: Yazıçı, 1985, 219 s.
10. Osmanlı V. Azərbaycan romantizmi I cild, Bakı: Elm, 2010, 464 s.
11. Osmanlı V. Azərbaycan romantizmi II cild, Bakı: Elm, 2014, 449 s.
12. Şəmsizadə N. Azərbaycançılıq Bakı: Nurlar, 2006, 190 s.

EXPLORING THE HISTORIKAL AND AESTHETIC SIGNIFICANCE OF NOVRUZALI –VELI KHAN RELATIONS IN J. MAMMADGULUZADEH'S "MAILBOX"

C. MƏMMƏDQULUZADƏNİN "POÇT QUTUSU" HEKAYƏSİNDƏ NOVRUZƏLİ –VƏLİ XAN MÜNASİBƏTLƏRİNİN TARİXİ VƏ ESTETİK MAHİYYƏTİ

TƏYYAR SALAMOĞLU

***Filologiya elmləri doktoru, professor,* ADPU, Azərbaycan, Bakı**

ORCİD – 0000- 0001 -8364-1580

Xülasə

Məqalədə Azərbaycan tənqidi realizminin böyük nümayəndəsi C. Məmmədquluzadənin "Poçt qutusu" hekayəsi araşdırma obyekti kimi seçilmişdir. Əsərin estetikası aşkarlanarkən tarixilik prinsipi önə çəkilmişdir. Hekayənin aparıcı qəhrəmanları- Novruzəli və Vəli xan obrazlarına, onların qarşılıqlı münasibətlərinə indiyəqədərki ədəbiyyatşünaslıqda olduğundan tam fərqli yanaşmalar ortaya qoyulmuşdur. Ədəbiyyatşünaslığın obrazlara verdiyi təhlillərin ideoloji mövqedən aparıldığı, əldə olunan qənaətlərin sinfi yanaşmanın nəticəsi kimi meydana çıxdığı mətn həqiqətlərindən uzaq qənaətlər kimi tənqid edilmişdir.

Məqalədə başlığa çıxarılan problemə aşağı-yuxarı təbəqə münasibətlərinin əksliyi kontekstində yox, milli birlik zəminində təhlil verilmişdir. Xarakterlərin estetik düşüncədə yer alan səciyyəsi və münasibətləri milli birliyin simvolu kimi tarixi proseslərlə sıx əlaqədə araşdırılmış, bədii mətn materialı ilə əsaslandırılmışdır.

Açar sözlər: *realist nəsr, estetik funksiya, sosial təbəqələr, hekayə janrı, tarixilik.*

Abstract

This article examines "Mailbox" by J. Mammadguluzadeh, a prominent figure in Azerbaijani critical realism, focusing on its historical and aesthetic elements. The story's main characters, Novruzali and Veli Khan, and their relations are analyzed through a fresh perspective, diverging from traditional interpretations of literary studies so far. The existing literary analyses given by literary studies to these characters are challenged for their ideological bias, suggesting that previous conclusions drawn about these characters are skewed by a class-based approach and do not accurately reflect the text's true essence.

Instead of framing the narrative within the confines of upper-lower class conflict, the article explores it through the lens of national unity. It delves into the characters' traits and relationships within the broader context of historical events, justifying these interpretations with the artistic text itself.

Keywords: *realistic prose, aesthetic function, social classes, genre of the story, historicity.*

GİRİŞ

Cəlil Məmmədquluzadə (1869-1932) XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycan realist nəsrinin ən böyük nümayəndəsidir."Danabaş kəndinin əhvalatları'', "Poçt qutusu" və " Usta Zeynal" onun ən məhşur nəsr əsərləridir.

Azərbaycan bədii nəsrinin tarixində ” Poçt qutusu” hekayəsinin müstəsna mövqeyi vardır. Əsərin süjet xəttinin əsasında maraqlı bir əhvalat dayanır: Novruzəli şəhərdə yaşayan ağası Vəli xana kənd sovqatı gətirir. Vəli xan ona bir məktub verir ki, aparıb poçta salsın. Novruzəli poçtxananın nə olduğunu bilmir. Buna görə də məktubları poçt qutusundan götürən məmuru oğru zənn edib döyür. Hökumət qulluqçusunu döydüyü üçün Novruzəliyə üç ay həbs cəzası verirlər.

Poçtxananın nə olduğunu bilmədiyi və ağasına sədaqətlə qulluq etdiyi üçün Azərbaycan ədəbiyyatşünaslığında indiyə qədər Novruzəli avam və nadan, qul psixologiyalı, sosial düşüncədən məhrum bir insanın obrazı kimi xarakterizə edilmişdir. Ədəbiyyatşünaslıq Vəli xan obrazından isə varlı təbəqəni təmsil edən istismarçı tip kimi söhbət açmış, əsərin ideya-məzmununu bütövlükdə sinfi münasibətlər konteksində şərh etmişdir.

Halbuki bədii mətn bizə Novruzəli və Vəli xan obrazlarına, Novruzəli-Vəli xan münasibətlərinə tamam fərqli müstəvidə yanaşmağa imkan verir. Düşünürük ki, bu fərqli yanaşma obrazlarının xarakterinin və onların arasındakı münasibətlərin tarixi və estetik mahiyyətini daha obyektiv şəkildə meydana çıxarır.

ARAŞDIRMA

Azca tarixə yanaşsaq, görərik ki, XX əsrin ilk illərində Azərbaycanda milli ictimai düşüncənin təşəkkülü və təşkilatlanması prosesi gedirdi. Sənaye kapitalizminin və kənddə burjua münasibətlərinin inkişafı əhalinin sosial təbəqələşməsini sürətləndirirdi. Kapitalist münasibətləri milli ictimai təfəkkürün formalaşmasına əsaslı təkan verirdi. Azərbaycanda kapitalistləşmə yerli və xarici kapitalın rəqabəti şəraitində gedirdi. Milli burjuaziya müxtəlif sosial təbəqələrin həyat şəraitinin yaxşılaşmasında və onların ictimai şüurunun oyanışında maraqlı idi. Milli burjuaziya milli sosial təbəqələri öz ətrafında sıx birləşdirməyə və xarici kapitalla rəqabətdə Azərbaycan iqtisadiyyatında həlledici mövqeyə nail olmağa çalışırdı. Bu cəhət istər sənaye, istərsə də kənd burjuaziyasının çarizmin müstəmləkəçi siyasətinə müqavimət hərəkatını gerçəkləşdirir, ən müxtəlif milli sosial təbəqələri öz ətrafında birləşdirməkdə, milli ictimai təfəkkürün formalaşmasında maraqlı edirdi. “Azərbaycan xalqı yeni əsrin siyasi, sosial və iqtisadi tələtümlərinə milli varlığını gerçəkləşdirmək ümidi ilə” daxil olur, milli burjuaziya və onların yetişməkdə olan ideoloqları bunun üçün müxtəlif mübarizə formaları axtarıb tapırdılar.

Azərbaycan xalqının milli ictimai varlığın oyanışı uğrunda mübarizəsi həm şəhərdə - sənayenin kapitalistləşməsi mühitində, həm də sosial təbəqələşmənin sürətləndiyi və kapitalist münasibətlərinin təşəkkülə başladığı kənd mühitində gedirdi. XX əsrin əvvəlləri kapitalistləşmənin yetirdiyi kəndli ideoloqlarının meydana çıxması ilə də səciyyəvilik qazanır. İsmayıl xan Ziyadxanov, Fərrux bəy Vəzirov və bu kimi digərləri kənd burjuaziyasının nümayəndələri olmaqla bərabər, həm də kəndli ideoloqları olaraq Azərbaycan tarixində şərəfli yer tuturlar. Əsrin ilk illərində Azərbaycan kəndində sosial şərait və bu şəraitdə milli oyanışa təkan verən amillər haqqında Azərbaycan tarixi kitabında oxuyuruq: “Kənd əhalisinin sayca az, lakin imtiyazlı təbəqəsini yenə də əsasən bəylər və ağalar təşkil edirdilər. Bu zümrə nümayəndələrinin böyük bir hissəsi Azərbaycanın sosial-iqtisadi və siyasi həyatında fəal iştirak edirdi. Onlar çarizmin müstəmləkə əsarətinə nifrət bəsləyir, xalqın ən məzlum təbəqələrinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün yollar arayırdılar. Məşhur Gəncə mülkədarı, görkəmli ictimai-siyasi xadim İsmayıl xan Ziyadxanovun yaratmış olduğu “Müdafiə” partiyasının əsas proqramı kəndli həyatının yaxşılaşdırılması, kənddə mədəniyyətin yüksəldilməsi və s. məsələləri əhatə edirdi. Fərrux bəy Vəzirov və b. kəndlilərin qayğısına qalmağa çalışırdılar” (1,130).

Heç şübhəsiz ki, milli burjuaziya istər sənaye, istərsə də kənd təsərrüfatında öz yerini möhkəmləndirdikcə onun çarizmin müstəmləkəçi siyasətinə müqaviməti də güclənirdi. Bu mənada kənd burjuaziyası ən geniş mənada Azərbaycan kəndlisinin müdafiəçisi və arxası rolunda çıxış edirdi. Əlbəttə kənd burjuaziyası və kəndlisi müxtəlif sosial təbəqələri təmsil edirdilər və onların arasında iqtisadi mənafe əksliklərindən qidalanan müəyyən ziddiyyətlərin, qarşıdurmaların olması qaçılmaz idi. Lakin milli ictimai şüurun inkişafı sürətləndikcə kənd burjuaziyası və kəndli müstəmləkə zülmünə qarşı çıxış, milli özünüdərk və təsdiq kontekstində birləşə bilir, birincilər ikincilərin öz hüquqlarını dərk etməsi, çar üsuli-idarələri qarşısında öz mənafelərini müdafiə edə bilməsinə maraq göstərirdilər.

"Poçt qutusu"nda cərəyan edən hadisələr, bu hadisələrdə əsas qəhrəman rolunda çıxış edən Novruzəli kənddə gedən bu sosial proseslərdən, kəndlinin öz hüququ uğrunda mübarizəsini gerçəkləşdirən milli hərəkatdan kənarda deyildi. Fikrimizcə, Novruzəli konkret tarixi şəraitin estetik ifadəsi olaraq Azərbaycan kəndlisinin ictimai şüurunda yaranan oyanışın təmsilçisi kimi meydana çıxır. Lakin obrazın estetik funksiyası bununla bitmir.

Ədəbiyyatşünaslıq Novruzəli obrazını bu qədər ağır ittihamlarla yükləyəndə onun istinad etdiyi estetik həqiqət nədən ibarət olur? Novruzəliyə qarşı yönəlmiş bütün ittihamlar öz başlanğıcını qəhrəmanın "poçt qutusu"nun nə olduğunu bilməməsi ilə bağlıdır. " Poçt qutusu nədir və onun vasitəsi ilə məktubu necə yola salmaq lazımdır?" sualı xalis texnoloji prosesi göz önünə gətirir. "Poçt qutusu"nun funksiyasının nə olduğunu bilməmək informativ xarakterli bir məsələdir. Heç şübhəsiz, poçt qutusu cəmiyyətin mədəni tərəqqi yoluna çıxmasının əlamətlərindən biridir. Lakin mədəni tərəqqinin bütün vasitələri hər yerə həmişə eyni zamanda çatmır. Radionun, televiziyanın və b. informasiya mənbələrinin olmadığı bir vaxtda bu tamamilə qanunauyğun bir prosesdir. Novruzəli ucqar bir kəndin sakinidir. Cəmiyyətdə gedən texnoloji proseslərdən kənarda qalan bir məkanda yaşayır. Bu və ya digər dərəcədə özü də buna işarə edir: "Ay xan, mən kətdi adamam, mən nə bilirəm poçtxana nədi?" (3,327). Ədəbiyyatşünaslıq kiçik bir erməni uşağının, qoca rus qadınının bu texniki prosesi öz məişət həyatının üzvi tərkib hissəsinə çevirməsini qeyri-millətlərin "seyrə balonlarla çıxması", bizim millətin geridə qalması hesab edərək, qəhrəmanın "baş töhməti"nə çevirir.

"Poçt qutusu" hekayədir. Hekayədə də hadisələrin təfsilatı yox, detallar, ştrixlər əsasdır. Müəllif öz niyyət və məramını bu detal və ştrixlər əsasında irəli aparır. Bu mənada erməni uşağının, rus qadınının poçt qutusu ilə rəftarı, doğrudan da, mədəni tərəqqinin əlamətidir. Novruzəlinin poçtdan, teleqrafdan xəbərsizliyi, doğrudan da, mədəni geriliyin əlamətidir. Ancaq cəhalətin, nadanlığın, avamlığın əlaməti deyil. Tənqid və ədəbiyyatşünaslıq mədəni tərəqqiyə münasibətdə başqa xalqların irəliləyişini xüsusi nəzərə çarpdırsa da, bu zaman, çox ehtimal ki, bilərəkdən, incə bir məqam unudulur. Bütün mədəni tərəqqi prosesləri ilk növbədə şəhərə çatır. Onun genişlənməsi, ucqarlara yayılması zaman tələb edir. Erməni uşağı da, rus qadını da şəhərdə yaşayır. Onların poçt qutusu ilə rəftar etməyi bacarması tam təbiidir. Çünki mədəni inkişafın içindədirlər. Novruzəli isə ucqar bir kənddə yaşayır. Kəşfi və tətbiqi çox da uzaq zamana aid olmayan poçt və teleqraf haqqında məlumatsızlıq Novruzəlinin düşünməyən və hərəkətsiz, ictimai cəhətdən "çəkisizlik" şəraitində yaşayan bir qəhrəman olmasının dəlili ola bilməz. Hekayədə, geniş götürüləndə, mədəni tərəqqi baxımından xalqları üz-üzə qoymaq tendensiyası yoxdur. Çünki əsərdə Novruzəlinin şəhərdə yaşayan soydaşlarının poçt qutusu ilə rəftarına, mədəni tərəqqinin poçt, teleqraf kimi vasitələrindən istifadəsinə kifayət qədər geniş yer ayrılıb. Nəinki Novruzəlidən fərqli zümrəyə mənsub Vəli xan, hətta Novruzəli ilə eyni ictimai təbəqəni bölüşdürən nökər də poçtdan, teleqrafdan istifadəni adi məişət işi kimi qəbul edir. Novruzəlinin poçt haqqında informasiyasızlığının cəhalət, nadanlıq, avamlıq adlandırılmasına heç bir əsas yoxdur. Məsələnin bu tərəfi – Novruzəlinin poçt qutusu ilə rəftarı nə qədər komik situasiyada təsvir edilir, hekayənin süjet xəttində nə qədər iri planda təqdim

edilirsə də, eyni zamanda, bu detal millətin maariflənməsi, mədəni tərəqqisinin zəruriliyini şərtləndirirsə də, ancaq Novruzəlini "ictimai məzmun cəhətdən "müflis" elan etməyə" (5,179) əsas vermir. Bəlkə də hekayədə "Novruzəli də diksinməli, hərəkətə gəlməli"dir (Y.Qarayev) qənaətinə də yer var, ancaq onu "yuxulayan, yatan qəhrəman" elan etməyə heç bir əsas yoxdur.

Novruzəlinin boynuna qoyuruq ki, o, "düşünməyən qəhrəmandır", "narahat yox, narazı yox, razı qəhrəmandır! Üsyan edən, fəryad edən yox, yuxulayan, yatan qəhrəmandır. Ədalət, həqiqət, haqq, nahaqq haqqında heç düşünmək istəməyən qəhrəmandır" (5,178).

Tənqidi realizmdə aparıcı qəhrəman tipi kimi qəbul edilən "kiçik adam"a verilən bu xarakteristika ədəbiyyatşünaslığımızda indiyə qədər heç bir etiraz doğurmamış, yeni realizm tipinə məxsus qəhrəmanın əsas təyinedici əlamətləri kimi birmənalı qəbul olunmuşdur. Lakin Novruzəliyə - "kiçik" qəhrəmanın modeli, etalonuna verilən bu xarakteristika bədii mətnin həqiqətləri ilə təsdiq olunurmu? Yox, təsdiq olunmur.

Bir janr kimi hekayədə hadisələrin təfsilatlı təsvirinin əsas olmadığını, hadisəyə işarə edən səciyyəvi detalların – ştrixlərin süjetin inkişaf dinamikasını təmin edən, müəllif mövqeyini gerçəkləşdirən, obrazın xarakterini açan uyğun vasitə, prinsip olduğunu artıq qeyd etmişik. Bu prinsiplə yanaşanda hekayədə Novruzəlini razı yox, yuxulayan, yatan yox, narazı, narahat və hətta üsyan edən, fəryad edən bir qəhrəman kimi səciyyələndirməyə əsas verən ciddi detal, işarə var. Axı, Novruzəli ilə ilk tanışlığımızda, o ağzını açıb danışanda biz onu mağmun və məzlum birisi kimi yox, mövcud sosial şəraitlə barışmayan, içində yaşadığı mühitdəki sosial ədalətsizliyi qəbul etməyən və ona tənqidi münasibət göstərən bir insan kimi tanıyırıq. Novruzəlinin sosial düşüncədən məhrumluğunu önə çəkməyi qarşısına məqsəd qoyan ədəbiyyatşünaslıq bütün hallarda onun Vəli xana dediyi "Bu nə sözdü, ay xan? Mən ölənə kimi sənə qulam..." – sözlərini ictimai, vətəndaşlıq düşüncəsindən məhrumluğunun əsas göstəricisi kimi dönə-dönə qabardır, təhlil müstəvisinə gətirib mənalandırır. Novruzəlinin bu sözləri onun bir vətəndaş kimi sosial haqlarını bilməməsinin və bu barədə düşünmək istəməməsinin təkzibedilməz dəlili hesab edilir.

Lakin Novruzəlinin birinci "söz"ünün arxasınca gələn ikinci "söz"ü bu "təkzibedilməz dəlil"i heçə çıxardığı üçün ədəbiyyatşünaslıq onun üstündə təfərrüatlı dayanmağı, qəhrəmanın vətəndaşlıq düşüncəsinin, sosial özünüdərkinin, sosial ədalətsizliyə etirazının, bu etirazı "söz"dən əmələ keçirmək üçün atdığı addımın mahiyyətinə varmağı lazım bilmir. Bu ikinci "söz" nədən ibarətdir? Vəli xanla Novruzəli arasındakı aşağıdakı dialoqa diqqət yetirək:

"Xan üzünü tutdu qonağa:

- Novruzəli, poçtxananı tanıyırsan?

Novruzəli cavab verdi:

- Ay xan, mən kətdi adamam, mən nə bilirəm poçtxana nədi?
- Çox əcəb, nəçərnik divanxanasını ki, tanıyırsan?
- Bəli, xan, başına dönüm, tanıyıram, niyə tanımıram. Keçən həftə mən elə gəlmişdim nəçərniyin yanına şikayətə. Xan, and olsun sənin başına, bizi katda çox incidir. Əslinə baxsan bizim bu katdamız özgə tayfadandı; odu ki, bizi görməyə gözü yoxdu, keçən həftə mənim iki buzovum itmişdi. Getdim..." (3,327).

Dialoqdan məlum olur ki, Novruzəli elə keçən həftə "nəçərnik divanxanası"na şikayətə gəlibmiş. Məqsədi də kəndxudanın onları incitməsi ilə bağlı "nəçərnik"ə şikayət etmək imiş. Novruzəlinin "nəçərnik divanxanası"na şikayətə gəlməsi bir ümumiləşdirici detal olaraq onun "razı" yox, birmənalı şəkildə "narazı" qəhrəman olduğunu sübut edir. Novruzəlinin divanxanaya gəlişi təhtəlşüur deyil, düşünülmüş, dərk edilmiş hərəkətdir. Onun kənddəki sosial

ədalətsizliklə nəinki barışmamasının, hətta bu ədalətsizliyə aktiv etirazının göstəricisidir. Dialoqdan görünür ki, Novruzəli bir kəndli olaraq haqqını bilir. Novruzəlinin kəndxudadan şikayətə gəlişi onun mövcud qanunlardan baş çıxartması haqqında da düşünməyə əsas verir.

Novruzəli – Vəli xan münasibətləri Azərbaycan kənd burjuaziyası ilə kəndlisi arasındakı tarixi gerçəklikləri simvollaşdırmaq baxımından da kifayət qədər maraq doğurur.

Prof. Y.Qarayevin qənaətinə görə "möhtəşəm bir xarakter, şəxsiyyət və insan Novruzəliyə çevrilərkən" "şəxsiyyət olmaq haqqı"nı itirir. Yenə də tədqiqatçıya görə, yazıçı məhz bu haqq uğrunda mübarizə aparır, dövrün, ictimai sistemin günahı ucbatından Novruzəlinin (Novruzəlilərin) itirilmiş haqqının qaytarılması zərurəti və tələbi ilə çıxış edir. Novruzəlinin "şəxsiyyət olmaq haqqı"nı itirməsinə əsas kimi Y.Qarayev də daxil olmaqla əksər ədəbiyyatşünaslar onun Vəli xana münasibətini və Vəli xana dediyi aşağıdakı sözləri əsas gətirirlər: Bu nə sözdü, ay xan? Mən ölənə kimi sənə qulam...

Ədəbiyyatşünaslığın ümumi rəyinə görə, bu sözlər Novruzəlinin xarakterinin qul psixologiyasına köklənməsinin göstəricisi, onun öz sosial hüquqlarını bilməməsi, vətəndaş düşüncəsindən, şəxsiyyət olmaq imkanından məhrumluğunun əlamətidir. Ədəbiyyatşünaslığa görə, öz "ictimai rəqib"inə (Y.Qarayev) qul olmaq psixologiyası və düşüncəsi, hər şeydən qabaq, bu "ictimai rəqib"i ictimai rəqib kimi dərk etməmək, başqa sözlə,onu düşmən gözündə görməməklə bağlıdır. Əslində ədəbiyyatşünaslığın bu tipli təhlilləri Novruzəli – Vəli xan münasibətlərini sinfi müstəvidə qiymətləndirmədən təkan alır. Bu zaman Novruzəli – Vəli xan münasibətlərinin milli zəminə söykənən iqtisadi və mənəvi, həmçinin psixoloji əsasları tamam unudulur. Ədəbiyyatşünaslıq təhlillərində xan tufeyli və istismarçı sinfin nümayəndəsi kimi qəbul edilir, onun aşağı təbəqəyə (burada Novruzəliyə) münasibəti marksist fəlsəfənin əsaslandırdığı kimi siniflərarası antoqonist ziddiyyətlər prizmasından şərh edilir. Vəli xan tufeyli, istismarçı təbəqənin təmsilçisi olaraq Novruzəliyə (Novruzəlilərə) düşmən sinfin nümayəndəsi elan edilir.

Ədəbiyyatşünaslıq bunu da etiraf edir ki, "xanın həqiranə gülüşü bizi hiddətləndirir; biz onun gülüş və qəhqəhələrini bir qədər də tündləşdirib,qəzəb hissi ilə yoğurub xanın öz üzərinə yağdırırıq" (4,56). Bədii əsərdə özünə yer alan yuxarı təbəqə nümayəndələrinə ədəbiyyatşünaslığın nifrətamiz, ikrahedici baxış pafosu nəticə etibarı iıə ona gətirib çıxarır ki, bədii mətndə özünə yer alan yuxarı təbəqə nümayəndələri, onların aşağı təbəqə insanları ilə qarşılıqlı əlaqə və ünsiyyətinin heç bir mənəvi, psixoloji məqamları elmi təhlilə cəlb edilmir. Vəli xanın Novruzəliyə insani münasibəti, onların bir-birini başa düşmək, anlamaq və dəyərləndirmək müstəvisində qarşılıqlı ünsiyyəti Məhəmmədhəsən əmi- Xudayar bəy münasibətləri ilə eyniləşdirilir. Ədəbiyyatşünaslıq Vəli xanla Xudayar bəy arasında Azərbaycan kəndlisinə münasibətdə köklü fərqi bir qırağa atır, onu elmi təhlilə çəkməyə lüzum görmür. Məsələ burasındadır ki,Vəli xanın Novruzəliyə xoş münasibətinin əsasında Vəli xanla Xudayar bəy arasındakı fərq dayanır. Müəllif bunun fərqinə varır, amma ədəbiyyatşünaslıq yox.Novruzəlinin xanı "ictimai rəqib" kimi tanımamasının, dərk edə bilməməsinin əsasında Novrzuəli ilə xanın münasibətlərini sinfi fərqlərin tənzimləməsi yox, iqtisadi münasibətlərin xarakteri müəyyənləşdirir. Niyə düşünmürük və ya düşünmək istəmirik ki, Novruzəli, doğrudan da, qul psixologiyalı bir adamdırsa, onda o, kəndxudanın zülmkarlığını necə dərk edir, özünün bu zülmü haqq etmədiyini necə başa düşür? Qul psixologiyasına malik adam, başqa sözlə, müasir anlayışla desək, manqurt düşüncəli insan kəndxudanın zülmkarlığı barədə hakim dairələrə şikayət etmək, başqa sözlə, öz haqqını müdafiə etmək fikrinə düşə bilərmi? Şübhəsiz ki, yox. Maraqlıdır, kəndxudanın zülmünü heç bir tərəddüd etmədən yuxarı dairələrə çatdıran və aktiv şəkildə öz haqqını tələb edən Novruzəli niyə Vəli xana yanaşmalarında çevrilib tamam başqa adam olur. Ondan nəinki şikayət etmək, narazı qalmaq haqqında düşünmür, hətta özünü ona borclu hesab edir. Onu özünün hamisi gözündə görür. İnsan təbiətinə, onun psixologiyasına

az-çox bələdlik heç bir şübhə yeri qoymur ki, insan ona zülm edən, onun qanını soran başqasına (kim olursa olsun) heç vaxt aşağıdakı sözləri deməz:

"Bəli, başına dolanım, xan, qurban olsun sənə mənim yetim-yesirim! Sənsiz mənim bir günüm olmasın!.." (3,333).

Bu tipli sözlər insanın dilinə daxili, ürəkdən gələn minnətdarlıq duyğularının birbaşa təlqini ilə gəlir. "Sənsiz mənim bir günüm olmasın" ifadəsi öz xarakterinə görə alqışdır. Insanın insana sonsuz məhəbbət hissindən güc alır. Biz Novruzəlini cəsarətli, lazım gələndə öz haqqı,hüququ uğrunda çəkinmədən çarpışan bir insan kimi tanıyırıq. Kəndxudadan şikayəti də, poçt məmuruna qarşı hərəkətləri də qul təbiətinin, məzlumluğun onun xarakterinə yad olduğunu göstərir. Müəyyən münasibətlə Novruzəli özü də buna işarə edir: "- Niyə, mən uşaq deyiləm ki, kağızı özgəsinə verəm! Məni o qədər də xam bilmə. Heç nəçərnik də bu kağızı mənim əlimdən ala bilməz" (3,329). Bu sözlər Novruzəlinin dilindən təbii bir duyğunun ifadəsi kimi çıxır və onun ümumiyyətlə özünəxas cəsarətli kəndli təbiətinə malik olmasından xəbər verir. Deməli, nəçərnikə münasibətdə belə cəsarət nümayiş etdirmək potensialına malik bir insanın xanın qarşısında ikiqat əyilməsi qul psixdologiyasının təzahürü sayıla bilməz. Bu Vəli xan-Novruzəli əlaqələrinin hansısa iqtisadi münasibətlə tənzimləndiyini, bu tənzimlənmənin qarşılıqlı hörmətə əsaslandığını, mənəvi bağlılığa gətirib çıxardığını düşünmək üçün bizə tam əsas verir.

Bizə elə gəlir ki, Vəli xan – Novruzəli münasibətlərinin xarakterini başa düşmək üçün XX əsrin əvvəllərində Azərbaycan kəndində baş verən sosial proseslərin mahiyyətinə varmaq, iqtisadi əlaqələr sistemində Vəli xanın və Novruzəlinin yerini dəqiq müəyyənləşdirmək lazımdır.

Novruzəli öz ictimai mənsubiyyətinə görə sahibkar kəndlisidir. Yəni o zaman Azərbaycan kəndində torpağın çox hissəsi yenə də dövlətin əlində cəmləşmişdi. Dövlət torpaqlarında çalışan kəndlilər "dövlət kəndliləri" kimi tanınırdı. Torpaqların bir hissəsi ayrı-ayrı sahibkarlara məxsus idi. Sahibkar torpaqlarında çalışan kəndlilərə "sahibkar kəndlisi" deyilirdi. 1870-ci il kəndli islahatı kəndlinin sahibkardan asılılığını rəsmən aradan qaldırdı. Kəndli öz pay torpağına sahib olur, bununla bərabər "öz məhsulunun onda bir hissəsini malcəhət kimi torpaq sahibinə verməli idi" (1,70). 1870-ci ilə" Əsasnamə"si XX əsrin ilk illərində də qüvvədə idi və bu "Əsasnamə" sahibkar kəndlisinin öz sahibindən rəsmi asılılığına son versə də, iqtisadi asılılıq bu və ya digər dərəcədə qalırdı. Çünki "çəmən, otlaq və meşə sahələri", su arxları torpaq sahiblərinin ixtiyarında idi. Kəndli həmin yerlərdən əvvəllərdə olduğu kimi, torpaq sahibinin razılığı ilə istifadə edə bilərdi" (1,134). Əslində tarixi məlumatlardan aydın görünür ki, XX əsrin əvvəllərində mülkədar-kəndli münasibətlərinin əsasında işgüzar iqtisadi əlaqələr dayanırdı. Kəndli hələ satın alıb birmənalı şəkildə öz şəxsi mülkiyyətinə çevirə bilmədiyi torpaqlardan istifadə etmək, əkinini suvarmaq, heyvan-qarasını otarmaq üçün sahibkarın-mülkədarın ixtiyarında olan otlaq sahələrindən, su mənbələrindən istifadə etmək üçün sahibkarla işgüzar əlaqələr qurur, əldə etdiyi məhsuldan ona da pay ayırırdı. Biz Novruzəlinin yerini bu iqtisadi münasibətlər sisteminin içində arayırıq. Çünki hekayədə məsələnin bu tərəfinə açıq-aydın işarələr edilmişdir. Hekayədə oxuyuruq: "Xan çıxdı və gördü ki, qapını döyən xanın öz kəndlisi "İtqapan" kəndinin əhli Novruzəlidi. Bu şəxs çox vaxt xanın yanına gəlib-gedər və hər gələndə olmaz ki, undan, əriştədən, baldan, yağdan gətirməsin. Bu səfər də Novruzəli əliboş gəlməmişdi". Diqqətimizi o da çəkir ki, Novruzəlinin gətirdikləri xanın malikanəsində "sovqat" kimi qəbul olunur. Xanla nökər arasındakı dialoq bu baxımdaqn səciyyəvidir:

"Xan, bu ulaq kimindi, bu şeyləri kim gətirib?
- Xan cavab verdi?
- Ədə o şeyləri yerbəyer elə! Oları bizə itqapanlı Novruzəli sovqat gətirib" (3,329).

Hekayənin bütöv məzmunundan görünür ki, Vəli xan – Novruzəli əlaqələrində "ictimai yuxarı"nın "ictimai aşağı"ya istismarçı, zülümkar münasibətindən söhbət gedə bilməz. Ilk

növbədə, xanın gözütoxluğu, öz kəndlisinə hörmətlə yanaşması diqqəti çəkir. "A kişi, Novruzəli! Bu nə zəhmətdi çəkmisən?" sözləri xanın öz kəndlisinə insani münasibətinin ifadəsidir. Novruzəlinin gətirdiklərinin az-çoxluğu ilə də qətiyyən maraqlanmaması,Novruzəlinin gətirdiklərini həqiqətən sovqat şəklində qəbul etməsi xanın istismarçı, zülümkar xarakteri ilə bağlı düşünməyə heç bir əsas vermir. Bizə elə gəlir ki, Vəli xan haqqında "heç bir iş görmədən, zəhmət çəkmədən, hazır mədaxil hesabına yaşayan bir tufeyli" (M.Məmmədov) kimi danışmağın vaxtı çoxdan keçmişdir. Çünki hekayənin mətn materialı Vəlixanı bizə alicənab, gözütox, mədəni və işgüzar xarakterli bir insan kimi təqdim edir. Hekayədə Vəli xanın işgüzar bir insan olmasına işarə edən, onun daha çox iş həyatı ilə maraqlandığını sübut edən, Novruzəlinin sovqatının onun maddi təminatında əhəmiyyətli yer tutmadığını göstərən xəsiscəsinə işarə edilmiş, lakin çox səciyyəvi bir detal var. Bu detal xanın İrəvan səfərinin vacibliyi ilə bağlıdır: "Xan çox tələsirdi İrəvana getməyə, çünki xanı orada çox vacib işlər gözləyirdi" (3,326). Arvadının naxoşluğu ilə bağlı keçirdiyi həyəcanın içində İrəvanla bağlı səfərinin təxirə salınması həyəcanı da kifayət qədər yer tutur. Açıq-aşkar hiss olunur ki, bu səfərin məqsədində arvadının havasını dəyişməsinin onun xəstəliyinə müsbət təsiri məsələsinin rolu həlledici deyil, xanın İrəvana səfərində işgüzar məqsəd öndədir. Onun arvadına qayğıkeş münasibəti, Novruzəlinin "ərköyün" hərəkətləri müqabilində səbrli və təmkinli davranışı, "ictimai aşağı"nın nümayəndəsi ilə mədəni rəftarı xanın ziyalı xarakteri haqqında düşünməyə əsas verir.

NƏTİCƏ

Hekayənin mətnaltı qatları bizə bunu deməyə əsas verir ki, bu xarakterlə xanın öz kəndlisinə çox yaxşılıqları keçmişdir. Biz hekayədə Novruzəlini maddi təminatında heç bir problemi olmayan Azərbaycan kəndlisi kimi görürük. Ədəbiyyatşünaslığımızda da etiraf olunmuşdur ki, "onun bütün hərəkətləri, arzu və istəkləri sadə bir kəndli üçün səciyyəvidir. O, hər dəqiqə bir zəhmətkeş, təsərrüfatçı və iş adamı kimi görünür"(2,31). Ədəbiyyatşünaslıqda onun iqtisadi cəhətdən təmin olunmasına, "zəruri olan hər şeyinin varlığına, bunun "gətirdiyi sovqatdan da aydın görünməsi"nə (Y.Qarayev) də işarə edilmişdir. Mətndə bəzi əlavə detallar da var ki, doğrudan da,Novruzəlinin bir kəndli kimi maddi cəhətdən problem yaşamadığını sübut edir. Elə isə onun maddi cəhətdən təmin olunmasının, əldə etdiyi iqtisadi imkanların mənbələri haqqında düşünmək qaçılmaz zərurətə çevrilir. Novruzəli – Vəli xan münasibətlərindəki məhrəmlik, Novruzəlinin öz ağasına ölçüsüz minnətdarlıq hissi bu "təminat"ın köklərini Vəli xana bağlayır. Məhz bu "bağlar" Vəli xan – Novruzəli münasibətlərini əks sosial təbəqələrin qarşıdurması yox, aşağı və yuxarı təbəqənin bir-birini başa düşməsi, ictimai şüurun inkişafı nəticəsində milli "ictimai yuxarılar"ın milli "ictimai aşağılar"a qayğı göstərməsi, milli tərəqqinin məhz bu cür milli birlik əsasında təmin olunacağına inamlarının təyin etməsi haqqında düşünməyə əsas verir.

ƏDƏBİYYAT SİYAHISI

1.Azərbaycan tarixi. Bakı. Çaşıoğlu, 2014.

2.Məmmədov M. Cəlil Məmmədquluzadənin bədii nəsri. Bakı. Azərb. SSR EA nəşr., 1963.

3.Məmmədquluzadə C. Əsərləri. Birinci cild. Bakı. Azərb. SSR EA nəşr., 1966.

4.Hüseynov F. Adi əhvalatlarda böyük həqiqətlər. Bakı. Gənclik. 1977.

5.Qarayev Y. Realizm: sənət və həqiqət. Bakı. Elm, 1980.

ARTISTIC-AESTHETIC AND PHILOSOPHICAL UNDERSTANDING OF MUHAMMAD FUZULI'S CREATIVITY

MƏHƏMMƏD FÜZULİ: BƏDİİ DÜŞÜNCƏNİN UCALIQ ÖRNƏYİ

MƏRYƏM ÜMMAN

Gəncə şəhəri, Ə.Cavad adına 2-li tam orta məktəb

Xülasə

Görkəmli Azərbaycan şairi Məhəmməd Füzulinin təxminən beş yüz ilə yaxındır ki, yazılır, yozulur, müxtəlif istiqamətli təhlillərin problemnə çevrilir. Ancaq yenə də sözə, təhlillərə ehtiyac doğurur. Yeni-yeni istiqamətlərin, araşdırmaların mövzusu olaraq sistemli yanaşmalarda sirrinin açılmasına imkan yaradır. M.Füzuli irsinə olan maraq öz dövründən daim artan istiqamətdə getmişdir. Şairin sağlığında və ondan sonrakı dövrlərdə yaşamış təzkirəçilər, alimlər, ədəbiyyat adamları Qəstimonlu Lətifi, Əhdi Bağdadi, Sam Mirzə, Sadiq bəy Əfşar, Riyazi ədəbiyyatşünas alimlər Məhəmməd Cəlal, Əbuziya Tofiq, M.F.Köprülüzadə, Ə.Gölpinarlı, Ə.Qaraxan, H.Mazıoğlu, Hammer, Hartman, Gibb, A.Krımski, A.Sur, F.Köçərli, İ.Hikmət, H.Araslı, M.Cəlal, M.Quluzadə, S.Əliyev və başqaları böyük şairin yaradıcılığına xüsusi həssaslıqla yanaşmış və onu müxtəlif kontekstlərdə təhlilə gətirmişlər. Avropa alimi Gibb onu "qəlb şairi" kimi səciyyələndirməklə şeirlərinin mətn simmetriyası, yüksək sənət intelleksiyası nümayiş etdirməsinə xüsusi diqqət yetirmişdir.

Açar sözlər. XVI əsr, M.Füzuli, klassik ədəbiyyat, qəzəl, qəsidə, rübai və s.

Özet

Ünlü Azerbaycan şairi Muhammed Füzulin yaklaşık beş yüz yıla yakın zaman diliminde yorumlanmış ve çeşitli araştırmaların konusu haline gelmiştir. Ancak yine de analize ihtiyaç duyulmakatdır. Yeni yönelimlerin ve araştırmaların konusu olarak sistematik yaklaşımlar bazı sırlarının açığa çıkmasını mümkün kılmaktadır. M.Fuzuli'nin eserlerine olan ilgi onun zamanından bu yana sürekli olarak artmaktadır. Şairin yaşadığı dönemde ve sonrasında yaşayan tezkire alimleri, edebiyatçıları: Gastimonlu Latifi, Ahdi Bağdadi, Sam Mirza, Sadık Bey Afşar, matematikşi edebiyat alimleri Muhammed Celal, Ebuzziya Tevfik, M.F.Köprülüzade, A.Gölpınarlı, A.Karahan, H.Mazıoğlu, Hammer, Hartman, Gibb, A.Krımski, A.Sur, F. Köçerli, İ.Hikmet, H.Araslı, M.Celal, M.Guluzade, S.Aliyev ve diğerleri büyük şairin eserlerine özel bir hassasiyetle ve farklı bağlamlarda yaklaşmışlardır. Avrupalı bilim adamı Gibb, onu "kalb şairi" olarak nitelendirmiş ve şiirlerinin metinsel simetri ve yüksek sanatsal zeka göstermesine özellikle dikkat etmiştir.

Anahtar kelimeler. 16. yüzyıl, M.Fuzuli, klasik edebiyat, gazel, kaside, rubai

Summary

The famous Azerbaijani poet Muhammad Fuzulin has been written and interpreted for almost five hundred years and has become a problem of various analyzes. However, it still calls for words and analysis. As a subject of new directions and researches, it makes possible to reveal the secrets of systematic approaches. Interest in the heritage of M. Fuzuli has been constantly increasing since his time. Tazkira scholars, scholars, literary figures who lived during the poet's lifetime and later: Gastimonlu Latifi, Ahdi Baghdadi, Sam Mirza, Sadiq Bey Afshar, Mathematical literature scholars Muhammad Jalal, Abuziya Tofig, M.F. Köprülüzade, A. Golpinarli, A. Garakhan, H. Mazıoğlu, Hammer, Hartman, Gibb, A. Krymski, A. Sur, F.

Kocharli, I. Hikmet, H. Arasli, M. Jalal, M. Guluzade, S. Aliyev and others have approached the work of the great poet with special sensitivity and analyzed it in different contexts. they brought The European scientist Gibb characterized him as a "poet of the heart" and paid special attention to the fact that his poems show textual symmetry and high artistic intelligence.

Key words. XVI century, M. Fuzuli, classical literature, ghazal, ode, rubai, etc.

Azərbaycan poeziyasının Füzuli yüksəkliyi.Şairin ayrı-ayrı poetik örnəklərində müxtəlif məqamlarda bu möhtəşəmliyin əlçatmazlığını və ecazkarlığını vurğulayırdı. ”Ənisül-qəlb”də “mənim könlüm sədəfdir, sözlərimdir dürri-qəltanı, dənizdir elmim, allah feyzidir neysan barani” **(8, 183)** deyərək söz, sənət kəhkəşanında hansı ucalıqda durduğuna diqqət yetirirdi.

Böyük türkoloq alim B.Çobanzadə XVI yüzillik ədəbiyyatı kontekstində məsələyə yanaşaraq vurğulayırdı ki, “XVI əsrdəki Azərbaycan türk ədəbiyyatının bədii yüksəkliyi, vertikalı Füzuli ilə ölçülürsə, dil və yaradıcılıq ünsürləri vasitəsilə və içərisinə də aldığı bədii və lisani komponentlərin genişliyi və horizontal meyarı Xətai ilə təmsil olunur.

XVI miladi əsrdən sonra Füzulinin açdığı cərəyan ilə Xətainin başladığı cərəyan gah birləşərək, gah bir-birinin üstündə yerləşərək, hər halda eyni feodal ədəbiyyatı çərçivəsi daxilində inkişaf etmişdir” **(4, 332).**Buraya on altıncı yüzilliyin zənginliyi və ədəbi axarın müəyyənləşdirdiyi qan daşıyan damarlar səviyyəsində Dirili Qurbanini də əlavə etməyin gərəyi yaranır. Bütünlükdə tarixi-mədəni prosesin çeşidli və çoxqatlı zənginliyində sonrakı ədəbi-mədəni proses üçün əsasa çevrilməklə həm də istiqamətverici funksiyada görünür.Füzuli milli özünüdərkin və oyanışın nümunəsi olaraq özünü bütün parametrlərdə zühur etdirmək düşüncəsi ilə bədii sözün sonsuz imkanlarından çıxış etməklə etnik kimliyi nümayiş etdirdi. “Bu dövr biri digərindən fərqlənən, müxtəlif sənət zirvələrini fəth edən Füzuli, Xətai, Qurbani kimi böyük söz ustaları yetirdi.

Füzuli klassik şeirin bayrağını uca göylərə qaldırdı. Xətai böyük əqidə yolunda qılınc ilə sözü məharətlə birləşdirdi. Qurbani el sənətini xalqa daha yaxın yeni və daha böyük axara yönəltdi” **(9, 3).** Söz, sənət korifeylərinin toplaşdığı bu əsr öz zənginliyi və açdığı yeni axarla sonrakı dövrlərə işıq tutur, gedilən yolun polifoniyasında bir möhtəşəmliyi sərgiləmək funksiyası ilə örnəyə çevrilir.

Əhdi Bağdadi, Ruhi Bağdadi, Şəmsi Bağdadi, Rindi Bağdadi, Hüsni Bağdadi, Zöhdi Bağdadi, Muradi Bağdadi, Fəzli Bağdadi, Elmi Bağdadi, Kəlayi Bağdadi, Zayeyi Bağdadi, Zehni Bağdadi və s. kimi sənətkarlarla təmsil olunan Bağdad ədəbi mühiti özünün zəngnlik axarı və ədəbi-mədəni mühit formalaşdırma təsəvvürü baxımından “övliya çırağı” olaraq geniş şəkildə təhlillərə şərait yaradır. M.Füzulinin belə bir zənginlikdə günəş kimi parlaması təbii və onun istedadını şərtləndirən məqamlar sırasındadır. Məhz bu səbəbdən də böyük qürur və fəxrlə şair vurğulayırdı:

Ey Füzuli, məskənim çün Kərbaladır, şeirimin,

Hörməti hər yerdə vardır, xalq onun müştağıdır.

Nə qızıldır, nə gümüş, nə ləlü nə mirvaridir,

Sadə torpaqdırsa, lakin Kərbəla torpağıdır. **(6, 23).**

M.Füzuli yaradıcılığının bədii estetik məzmunu və fəlsəfi mahiyyəti əski təsəvvürdən, mif yaddaşından, sözün ilahi simmetriyasının dərkindən çoxqatlı mahiyyətinə qədər olanların açımına bağlanır. Yüz illəri əhatələyən bu düşüncə təkcə şairin yaşadığı zaman çərçivəsində olanlara və ondan sonrakı dönəmlərin bədii-estetik düşüncəsinə (həm də qavramına) bağlanmır. Onun magik və platonik qatı özünəqədərki yüzillikləri də əhatələmək funksiyası ilə diqqət önünə gəlir. Özünüdərk səviyyəsində ədəbi-mədəni, bədii-estetik axarın polifonik palitrasına

diqqət yetirən şair "aləmi-izlətin yeganəsiyəm, Qafdan-Qafa yox mənə həmtay"**(7, 155)** deməklə müasirlərinə və gələcəyə kimliyini ünvanlayırdı. Şairin bədii-estetik və fəlsəfi düşüncəsinin dərki ilk öncə özünün dediklərindən başlanğıcını götürür. Söz simvolikası və onun işarələdiyi məzmun üfiqi və şaquli yanaşmalarda mükəmməl bir sistemi, mənalandırmanın polifonik axarında sufi terminologiyasına dayanmaqla əlavə çalarlar qazanmanı faktlaşdırır. Şairin "Qafdan Qafa yox mənə həmtay" deməsi sırf reallığa və bir neçə qatlı məna yükünə bağlanmaqla sufi mahiyyəti, fəlsəfi konteksti, mofoloji layı və tarixi aspekti diqqət önünə gətirməklə şərtlənir. Sufi ədəbi-nəzəri düşüncəsində, eləcə də etnik təsəvvürdə qafın işarələdiyi məzmun ucalıq, əlçatmazlıq anlamında ciddi bir müəyyənliyi, qəlibləşməni diqqət önünə gətirir. Təsəvvüfdə bunun sərgilədiyi mənzərə "ruhi-mənəvi ucalıq, batini saflıq və yüksəliş məqamı anlamında işlədilir", həm də sərgilədiyi məzmun bütün parametrlərdə şairin özü tərəfindən deyilməklə müəllif kimliyini şəxsiyyət, istedad, yüksək sənət intelleksiyası səviyyəsində bilgi verməyə yönləndirir.

"Musa kəlamlı şair". "Musa kəlamlı şair" kimi sözdən bir ecazkarlıqlar yaradan sənətkar qəzəlləri, qəsidələri, rübailəri, müxəmməsləri, müstəzadları, nəsri, poemaları, məktubları və s. ilə sözün ucalığı və əndazəsi timsalında özünü açıma və təqdimə köklənir. "Heyrət, ey büt, surətin gördükdə lal eylər məni, surəti halım görən surət xəyal eylər məni" deyiminin bədii-estetik qatı, fəlsəfi məzmunu bütün aspektləri ilə Füzuli heyrətini, onun söz kəhkəşanının ecazkarlıq məramını şərtləndirir və bu ecazkarlıq miqyasında bir heyrət etməni sərgiləyir. Heyrətin bu səviyyəsi ancaq və ancaq vurğunluğu, eşq və vəhdət məzhəbi səviyyəsində olanların spesifikasına və onun ucu-bucağı görünməyən məna və məzmun qatına bağlanır. M.C.Cəfərov "Füzuli düşünür" monoqrafiyasında yazır: "Füzulidən sonra dörd yüz ildir ki, Azərbaycan şeiri tərəqqi edir, yeni fikirlər, bədii ifadələrlə zənginləşir. Lakin Füzuli şeiri köhnəlmir, öz təzəliyini, təravətini itirmir. Hərhansı dövrdə olursa olsun Azərbaycan şeirini Füzulisiztəsəvvür etmək mümkün deyil.

Füzuli indi də bizim canlı müasirimiz olaraq qalır. Bədii təfəkkürümüzün inkişafına öz nəcib təsirini göstərir. Onun incə, zərif, gözəl, həm də qüdrətli şeir rübabının təsir gücü get-gedə daha da artır, təsir dairəsini daha da genişləndirir. Bununla belə Füzulini yaşadan və bundan sonra da yaşadacaq səbəbləri təkcə bir ədəbi təsirlə məhdudlaşdırmaq, onun sənətinə olan məhəbbəti, onun nüfuzunu yalnız şairlərdə, ədiblərdə, onların əsərlərində axtarmaq doğru olmazdı. Füzulini yaşadan sözün geniş mənasında xalq olmuşdur" **(3, 3).** Dorudan da, M.Füzulinin zənginliyi Azərbaycan, fars, ərəb dillərində yazdığı lirikaya, lirik şeirlər divanına, qəsidələr divanına, "Bəngü Badə", "Yeddi cam", "Leyli və Məcnun", "Söhbətül əsmar" poemalarına,"Şikayətnamə"sinə və digər məktublarına, "Səhhət və Mərəz", "Rindü Zahid" adlı farsca yazılmış alleqorik, ictimai-fəlsəfi məzmunlu nəsr əsərlərinə, "Hədiqətüs-süəda" kimi türkcə yazılmış nəsr nümunəsinə, "Hədisi ərbəin tərcüməsi"nə, "Mətləül etiqad" kimi ərəbcə yazılmış elmi-fəlsəfi əsərinin sərgilədiyi təsəvvürə və zənginliyə bağlanır. M.Füzuli bu zənginliyin hər bir örnəyi ilə yerinin ucalıq olduğunu və sözün kutsallığı səviyyəsində sərgilənən təsəvvürün haralara gedib çıxa bilməsinin modelini yaradıcılığında cızır. Müxtəlif vəziyyətlərdə bu ucalığın mahiyyətinə diqqəti yönəldir və "sözün əndazəsi o qədər böyükdür ki, müəllimlər sözün məhsulu bildilər Quranı, duanı, vəhyi" söyləyir. Şairin ucu-bucağı görünməyən söz gülşəni bədii-estetik tutumu, məna yükü və janr məzmunu ilə bütün parametrlərdə əlçatmazlığı sərgiləyir.

Nalədəndir ney kimi avazeyi-eşqim büland,

Nalə tərkin qılmazam ney tək kəsilsəm bənd-bənd.

Qıl mədəd, ey bəxt, yoxsa kami-dil mümkün deyil,

Böylə kim ol dilrüba bidərddir, mən dərdmənd. **(6, 40).**

Göründüyü kimi, lirik mənin iş dünyasını, istək və arzularını, təsəvvürlərini, ideoloji və fəlsəfi baxışlarını, daha çox isə sufi məfkurəsini bir bütöv olaraq içinə almaq gücü və imkanları ilə diqqət önünə gələn bu misralar müxtəlif kontekstlərdə açımı zəruriləşdirir və bədii-estetik məzmunu ilə ədəbi abidə olma təsəvvürü formalaşdırır. Bidərdlik və dərdməndlik hüdudlarında sərgilənən mənzərə bütün spesktrləri ilə ney timsalında ümumiləşdirilir. Daha doğrusu, neyin Şərq təsəvvüründə olan funksiyası və sərgilədiyi məzmun öz mifoloji, əfsanəvi qatı ilə çox-çox əski inamlara, haqqında olan söyləmələrə bağlanır və onun təsəvvüf timsalında ortaya qoyduğu məzmun da eyni arxaiklikdən öz başlanğıcını götürməklə şair və ney timsalında olanların naləsinə dayanır.

Neyin naləsi və şairin onunla özü arasında bağlantılar görməsi və bunun bela nalə qoparmasının mahiyyətinə dayanan məsələlər əvvəldən axıra qədər sənətkarın ruhunun səsi olaraq özünü nümayiş etdirir. “Nə yanar mənə atəşi-dildən özgə, nə açar qapıb badi-səbadan qeyri” deyən şair özü timsalında tənhalığını, biganəlik və kimsəsizlik, təklik səviyyəsində qarşılaşdığı duyğusallığı diqqət önünə gətirir.

Pərişanhalın oldum, sormadın hali-pərişanımı,

Ğəmindən dərdə düşdüm, qılmadın tədbiri-dərmanım.

Nə dersən, ruzigarım böyləmi keçsin, gözəl xanım?

Gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım!(6**, 120).**

Hər bir nümunə ilə orijinallığıtəqdim edə bilmək imkanları baxımından diqqət önünə gələn sənətkar bir üslub yaradıcısı, sozün poetik siqləti səviyyəsində bədii-estetik zövq formalaşdıra bilmək və onu nümunəyə çevirmək gücü ilə özünü göstərir. Dərdə düşmə və dərdə əlac etmə kontekstində sıralanan bu özünəməxsus müraciətlərin orijinallıqla mətnə gətirilməsi baxımından da spesifikləşir. Füzulişünas alim Firuz Sadıqzadə vurğulayır ki, “Füzulinin bədii dühası məhəbbət lirikasında daha parlaq şəkildə özünü göstərir. Bu da təbiidir, çünki Füzuli qəlb şairidir. O, şeiri “könül xəzinəsinin gövhəri” adlandırır.

Şərqin qüdrətli sənətkarlarından sonra Füzulinin qəzəl yazması, “nazik nəzm” – lirik şeirdə nə tək müvəffəq olması, bu sənət cıdırında çoxlarını üstələyib qələbə qazanması ədəbiyyat tarixi üçün nadir hadisə idi” **(10, 7-8).**M.Füzuli bütün tərəfləri ilə xalqın zənginlik və ucalıq nişanəsi olaraq əsrləri-əsrlərə calayır.Özgürlük missiyasındamilli kimliyini nümayiş etdirməklə gəlinən yolu və gediləcək tarixi bir ünsiyyət yolçusu olaraq diqqət önünə gətirir. Toplumun ruhani dünyası, əxlaqi-fəlsəfi dünyagörüşü, bədii-estetik zövqü və təfəkkürü, etnosun mənəvi zövqü, dil və mədəniyyət tariximüxtəlif janrlar və şeirlər səviyyəsində özünü ehtiva edə bilmək gücü ilə spesifikləşir.

Vay, yüz min vay kim, dildardan ayrılmışam,

Fitnə çeşmi sahiri-xunxardan ayrılmışam,

Bülbüli-şuridəyəm, gülzardan ayrılmışam,

Kimsə bilməz kim, nə nisbət yardan ayrılmışam,

Bir qədi şümşadü gülrüxsardan ayrılmışam.**(6,126).**

M.Füzulinin qüdrəti onun sözü, sözə nizam vermənin ümumi prinsiplərinə, bədii kamilliyin mümkünlüyü timsalında nümunə olmaya dayanır. Eşq fəlsəfəsi “kim nə miqdar olsa eylər ol miqdar söz” düşüncəsinin sərhədləri daxilində özünü təzhür etdirmək simpatiyası ilə spesifikləşir. Yuxarıdakı misralarda şairin həyacanı və harayı eyni xətdə biri-digərini tamamlamaqla və “vay, yüz min vay” müstəvisində baş verənlərin səbəb və nəticəsinə bağlanır. Ayrılmağının hicrət, ağrı dolu əzablarından danışan sənətkar bir məqamı xüsusi olaraq

vurğulayır ki, "kimsə bilməz kim, nə nisbət yardan ayrılmışam" deməklə mahiyyətə diqqəti yönəldir. "Orta əsrlərin ağır illərində rabitə vasitələrinin ibtidai vəziyyətdə olduğu zamanlarda Füzulinin şeirləri əlyazmaları şəklində Şərqin müxtəlif ölkələrində yayılıb əldən-ələ gəzir, əzbərlənib dildən-dilə keçirdi. Bu əsərlər şairin vətənindən çox uzaqlarda, Çində yaşayan uyğurların içərisində, Orta Asiyada taciklər və özbəklər arasında, Türkmənistanda, Tatarıstanda, Türkiyədə, Bolqarıstanda, Misirdə və bir çox başqa ölkələrdə yayılmışdır və indi də sevilə-sevinə oxunmaqdadır" **(2, 3)**. Məhz bunun nəticəsidir ki, dünyanın müxtəlif Şərq əlyazmaları saxlanan kitabxanalarında böyük şairin əsərlərinin müxtəlif əlyazmaları ilə qarşılaşırıq.

Füzulinin rəngarəng mövzularda yazdığı nümunələr bütünlükdə həyat reallığı ilə şairin duyğusal düşüncələri arasında özünün ifadəsini tapır. "Tapmadıq bir iz ruzigar əhlində biz" deyən şair dünyanın vəfasızlığı timsalında məsələyə yanaşmaqla onun gəliş-gedişlərində baş verən olacaqlar timsalında "bu vəfasız dəhrdə biz dərdə olduq mübtəla" deməklə məsələnin mahiyyətinə diqqəti yönəldir və canlandırma üsulları ilə orijinal bir örnəyi yaddaş nümunəsinə çevirir. Məktubları, qəsidələri, qitələri, mürəbbeləri, müxəmməsləri, müsəddəsləri, eləcə də süjetli əsərləri bütün məzmunu ilə Füzuli böyüklüyünü təqdimə yüklənir. Şairin məfkurə genişliyində təkcə istedadını deyil, həm də o istedadın təzahür formalarını bir bütöv olaraq təqdimə yüklənir. Nəsihətləri və ictimai mühitin problemlərinə yönlənmiş bədii nümunələri də bu zənginliyin mühüm tərəfidir.

Ey müəllim, aləti-təzvirdir əşrarə elm,

Qılma əhli-məkrə təlimi-maarif zinhar.

Hər nə təzvir etsə əhli-cəhl ona olmaz səbat,

Məkri-əhli-elmdir, əsli-fəsadi-ruzigar.(5**, 375).**

M.Füzulininədəbi irsi zənginlik qatı mövzu mündəricəsi, ifadə üsullarının özünəməxsusluğu, çeşidli həyat həqiqətlərinin polifonik axarı ilə sənətkarın ideallarını, bədii-estetik düşüncəsini, fəlsəfi baxışlarının reallıq müstəvisində hansı əlçatmazlığı işarələdiyini aydınlaşdırır.

Nəticə.XVI əsr özünün məktəb səviyyəsində əlçatmazlığını və türk, eləcə də Şərq şeir ənənəsinin uğurlarını və ümumi axarını daha çox Füzuli istedadı ilə təzahür etdirir. Qəzəlləri, qəsidələri, rübailəri, poemaları, alleqorik səpkili əsərləri, məktubları, ərəb, fars, Azərbaycan dilində yaratdıqları hamısı şairin istedadını, özündən sonrakı ədəbiyyata təsir baxımından oynadığı funksional rolu aydınlaşdırır. Qələmindən çıxan hər bir ədəbi nümunə hadisə olmaq səviyyəsində bir istiqamətdə yaradıcı istedadının əlçatmazlığını faktlaşdırırsa, digər xətdə Azərbaycan poeziyasının uğurlarını diqqət önünə gətirir. Bütün bunlar dövr və mühit müstəvisində poeziyasının zənginləşmə axarının meyar və prinsiplərini, yüzilliklər boyu M.Füzuli sənətinə artan marağın mahiyyətini və nümunə olmanın spesifikasını şərtləndirir.

ƏDƏBİYYAT

1.Allahmanlı M. Klassiklər, yenə də klassiklər. Bakı: Elm və təhsil, 2023, 256 s.

2. Araslı H.Böyük Azərbaycan şairi Füzuli. Bakı: Azərbaycan Uşaq və Gənclər nəşriyyatı, 1958, 312 s.

3. Cəfərov M.C. Füzuli düşünür. Bakı: Azərbaycan Uşaq və Gənclər ədəbiyyatı, 1959, 236 s.

4. Çobanzadə B. Seçilmiş əsərləri. Beş cilddə, I c., 2007, 336 s.

5. Füzuli M. Əsərləri. Beş cilddə, I c., Bakı: Azərnəşr, 1958, 466 s.

6. Füzuli M. Əsərləri. Beş cilddə, III c., Bakı: Azərnəşr, 1958, 466 s.

7. Füzuli M. Əsərləri. Beş cilddə, IV c., Bakı: Azərnəşr, 1961, 392 s

8. Füzuli M. Heyrət, ey büt. Bakı: Gənclik, 1989, 224 s.

9. Kazımov Q. Ulu zirvə: haqq aşiqi, el şairi Dirili Qurban – Qurbani. Qurbani. Bakı: Bakı Universiteti, 1990, 280 s.

10. Sadıqzadə F. Füzulinin gözəllik idealı. Füzuli M. Əsərləri. Beş cilddə, III c., Bakı: Azərnəşr, 1958, s. 3-18.

LEGEND MOTIVES IN AZERBAIJANI EPIC POETRY OF 1920-40 YEARS
1920-40-CI İLLƏR AZƏRBAYCAN EPİK ŞEİRİNDƏ ƏFSANƏ MOTİVLƏRİ

QÜDRƏT UMUDOV

ADPU-nun dosenti, filologiya üzrə fəlsəfə doktoru Bakı, Azərbaycan

https://orchid.org/0009-0001-2991-2316

Xülasə

Milli düşüncənin kökləri, milli kimliyin əsası, qazanılmış milli mənəvi sərvətin özülü milli ədəbiyyatın başlanğıcı olan folklordadır. Folklor yazılı ədəbiyyat üçün bütün zamanlarda qida mənbəyi olmuşdur. Folklor motivləri ədəbiyyata mövzu verməklə yanaşı onun milli xarakterinin müəyyənləşdirilməsinə səbəb olur. Təsadüfi deyil ki, folklorun yazaılı ədəbiyyata təsiri "günəşin torpağa təsiri" ilə müqayisə edilir.

Elə bir yazıçı, şair tapmaq çətindir ki, onun yaratdıqları xalq dilindən, bu canlı dilin şəhdini-şəkərini canında, mahiyyətində daşıyan folklor çeşməsindən qidalanmasın. Folklordan süjet, motiv, ideya almaq bədii yaradıcığın bütün dövrlərində reallaşdıran bir yaradıcılıq xüsusiyyətidir.

N.Gəncəvi, M.Füzuli, Xətai, M.P.Vaqif, M.Ə.Sabir, S.Vurğun, M.Müşfiq və onlarla digər görkəmli sənətkarlar öz dövrlərinin sosial-ictimai mətləblərini bədii söz vasitəsi ilə ifadə etmək oxucunun dünya görüşünə, mədəni yüksəlişinə əhəmiyyətli təsir göstərmək məqsədi ilə şifahi xalq yaradıcığına, xalq hikmətinə, el sözünə müraciət etmiş, ondan bəhrələnmişlər.

İstər qədim və orta əsrlərdə, istər XVII-XVIII yüzilliklərdə, istərsə də sonrakı dövrlərdə ədəbiyyatımızın milli (eləcə də bəşəri mahiyyətdə) inkişafında mühüm xidmətləri olan adlı-sanlı sənətkarlar xalq təfəkküründə formalaşan, milli folklordan gələn mövzulara müraciət etməklə mükəmməl, şedevr yazılı ədəbi nümunələr ortaya qoymuşlar.

Ümumiyyətlə, bütün zamanlarda, o cümlədən XX yüzillikdə, sözügedən 20-40-cı illərdə də şairlərin folklor motivlərindən istifadə etməsi təbii bir proses olmuşdur. Həmin illərdə yaranan çoxsaylı mənzum hekayələr, poemalar, təmsillər və s. yaradıcılıq nümunələrində bolluca folklor motivlərinə, o cümlədən xalq əfsanəsi motivlərinə rast gəlindiyini vurğulamalıyıq. Təqdim olunan məqalədə məhz bu problem araşdırılaraq gözdən keçirilir.

Açar sözlər: ədəbiyyat, folklor, epik poeziya, motiv

Summary

The roots of national thought, the basis of national identity, the essence of acquired national moral wealth are in folklore, which is the beginning of national literature. Folklore has always been a source of food for written literature. Folklore motifs not only provide a topic for literature, but also determine its national character. It is no coincidence that the influence of folklore on written literature is compared to "the influence of the sun on the earth".

It is difficult to find such a writer and poet who is not nourished by the folk language he creates, the folklore fountain that carries the sugar of this living language in its soul and essence. Getting a plot, motif, idea from folklore is a creative feature of an artistic creator in all periods.

N. Ganjavi, M. Fuzuli, Khatai, M.P. Vagif, M.A. Sabir, S. Vurgun, M. Mushfiq and dozens of other prominent artists expressed the social and public issues of their times through artistic words, which is important for the reader's world view and cultural advancement. in order to have an impact, they turned to the oral folk creator, folk wisdom, word of mouth, and benefited from it.

Both in the ancient and middle ages, in the 17th and 18th centuries, and in later periods, the famous artists who had important services in the development of our literature (as well as in the human nature) created perfect, masterpiece written literary examples by addressing the themes formed in the national thought and coming from the national folklore. .

In general, it has been a natural process for poets to use folklore motifs at all times, including the 20th century and the mentioned 20-40 years. Numerous verse stories, poems, fables, etc. created in those years. we must emphasize that there are plenty of folklore motifs, including folk legend motifs, in the examples of creativity. This very problem is examined in the presented article.

Keywords: literature, folklore, epic poetry, motive

Sovetlər dönəmi 20-30-cu illər Azərbaycan poeziyasının əvəzsiz simalarından biri, öz istedadı ilə taleyi arasında uğursuz bir uçurum olan ölməz Mikayıl Müşfiq şeirlərinin əsas dayaq nöqtəsi onun parlaq istedadı idisə, onun ikinci istinadı ədibin klassik poeziyamıza dərindən bələdliyi ilə bərabər, yüzilliklərin sınağından çıxmış milli və şərq folkloruna aşinalığı və sevgisi idi, desək, yanılmarıq. Şairin poetik irsində özünü göstərən folklor qaynaqlarında bir əlvanlıq özünü göstərməkdədir. Ruha xoş gələn kolorit və əlvanlıq bir yandan şifahi ədəbiyyat elementlərini şairin özünəməxsus ifadə tərzi, yanaşma üsulu ilə əsərlərinə daxil etməsi, canlı, şirin xalq nəsri ruhuna yaxınlığı ilə bağlıdır. Müşfiq poeziyasında xalq əfsanələri, rəvayətləri, nağıl, dastan elementləri, habelə aşıq sənətinin cizgiləri ilə güclü və qabarıqdır. Şairin şeiriyyətindəki xəlqilik də məhz bununla bağlıdır.

Faktlara müraciət edərkən, məsələn, onun məşhur "Çoban" poemasının xalq əfsanəvi motivləri əsasında nəzmə çəkildiyini qeyd edə bilərik. Əsərdə qədim Səbayıl şəhəri – mənbələrdə adı "Qala", "Karvansara" adlanan liman şəhərinin dəniz suları altında qalması bədii, poetik tərzdə izah olunur. Abşeron yarımadasının Xəzər sahillərində bir vaxtlar möhtəşəm qala-şəhər olan sirli Səbayıl haqqında əfsanələrimiz mövcuddur. Onlardan birində deyilir ki, Xəzərin ləpədöyənində Səbayıl adlanan bir şəhər var imiş O şəhərin Xəzərə baxan mənzərəli bir yerində dikilən xan sarayında Quşxan adlı bir hökmdar yaşayırmış. Xan bir gün onun sarayını tikmiş ustanın yanında oturmuş və ondan soruşmuş ki, usta bu saraydan daha gözəl, daha möhtəşəm bir saray yarada bilərmi? Ömrünü sənətinə həsr etmiş qoca memar cavab verir ki, bəli, bundan daha yaxşı saray yarada bilərəm. Quşxan bu cavaba darılmış və dərhal cəllada qocanın boynunun vurulması əmrini verir. Qısqanc xan düşünür ki, memar ətraf xanlara onunkundan daha gözəl saray ucalda bilər.

Xalq arasında qəddar xanlar və onların zülm yuvası olan sarayları ilə bağlı çoxlu əfsanə və rəvayətlər dolaşmaqdadır. Onlardan daha birisi Müşfiqin sözügedən poeması ilə olduqca yaxındır. Quşxan, qızı Mərcan və onun vurulduğu, Mərcanı ondan artıq sevən Dəmirdaş haqqında olan əfsanədir. Şair sirli Səbayıl şəhəri və onun suya batması ilə əlaqədar olan əfsanələrə yaxşı bələd idi. Onlardan doğan hikmətdən məharətlə istifadə etmişdir. Xanın etdiyi günahlar, zülm və haqsızlıqlar cavabsız qalmır. Allah günahkarı və onun sarayını suya qərq edir. Müşfiq bu əhvalatı belə anır:

Bu bir əfsanədir, nağıldır fəqət,

Tarixdə azmıdırböylə həqiqət?

Tarixdə dağılan saraylar azmı?

Döyüşdə pozulan alaylar azmı?

Azmı yoxsulların çəkdiyi səflər,

Basılan tərəflər, basan tərəflər?

Bağışla, oxucum, sual olarmı?

Həqiqət olmasa, xəyal olarmı?

Ey əfsanələrin qəhrəman oğlu,

Əsrlər tapdadı keçdiyin yolu [2, s.183].

Şair "Çoban" poemasında Səbayıl əfsanələrində xalqın vurğuladığı ideya yükünə sadiq qalmış, tarixdə çox rast gəlinən ictimai əsarət və haqsızlıqları nəzmə çəkmiş, folklor süjetinin poemasında bir daha canlandırılması ilə müasir oxucunun yaddaşının milli-mənəvi ruhda təzələnməsinə nail olmuşdur.

Folklor süjet və motivləri, xalq nağıl və əfsanələri müasir yazarlar üçün ən zəngin mövzu və ideya mənbəyidir. Nağıllar M.Müşfiqin də ilham alıb bəhrələndiyi zəngin mənəvi xəzinədir. Onun motivi xalqdan alıb gənc nəsil üçün yenidən daha poetik tərzdə işləməsi diqqətəşayandır. "Şəngül, Şüngül və Məngül" nağılı Müşfiqin poetik ifadəsində öz bədii məziyyətini itirməmiş, əəksinə daha gözəl, daha süslü olmuşdur. Şair nağılın bədii açarına belə toxunmamış, milli nağıl formullarını məharətlə yazılı ədəbiyyata-epik şeirimizə gətirmişdir:

Biri varmış, biri yoxmuş,

Məzlumların dərdi çoxmuş.

Saqqallı bir keçi varmış,

Gəzdiyi yer qayalarmış.

Dağdan-dağa atlanaraq,

Hər zəhmətə qatlanaraq,

Yaşarmış öz əməyiylə,

Başqasının köməyiylə,

Dolanmaqdan utanarmış,

Onun üç yavrusu varmış:

Biri Şəngül, biri Şüngül,

Biri də balaca Məngül..

Həm böyüklərin, həm də kiçiklərin çox sevdiyi şair olan M.Müşfiq öz yaradıcılığında başqa nağıl motivlərinə müraciət etmişdir. "Kəndli və ilan" poeması da bu sıradandır. Qədim Azərbaycan nağıllarındakı ideya, humanizm ənənələri şairin əsas diqqət mərkəzində olmaqla bu poemanın da əsas ana xəttini, ideya istiqamətini müəyyənləşdirmişdir. Poema folklordan ustalıqla bəhrələnməyin ən yüksək sənətkarlıqla ifadəsidir.

Mikayıl Müşfiqin uşaqlar üçün yazdığı "Kəndli və ilan" nağılında olan əfsanə və nağıl elementlərindən bacarıqla istifadə edilmiş, ilan zoomorfu kəndli antropomorfu ilə qarşılaşdırılmışdır. Şair bu nağılı qələmə aldığıillərdə tədqiqatçı alim S.Fituni Şamaxı ərazisindən müxtəlif əfsanə materiallarını toplayıb yazıya almışdı. Onlar arasında bir əfsanə də

bir kəndli ilə ilanın rastlaşması, kəndlinin onu öldürmək məqsədilə yuvanın ağzına süd qoyması, ilanı südü içdikdən sonra qaba qızıl atmağı və s. təsvir edili. M.Müşfiq bu motivdən öz epik şeirində faydalanmış, uşaqlar üçün ibrətamiz mənzum bir nağıl hasilə gətirmişdir.

M.Müşdiq əfsanədən aldığı motivi belə nəzmə çəkir:

Vaz keçdi acığından,

Sonra dağarcığından,

Aldı bir parça çörək,

Əsərək, titrəyərək,

Atdı ilana sarı,

İlan da ona sarı

Atdı böyük bir qızıl. [3, s.340]

Folklar süjetinə xüsusi həssaslıqla yanaşan şair mahiyyətə, özünəməxsus tərzdə yanaşmaqla uşaqlar üçün çox maraqlı, poetik bir nağıl formalaşdırmışdır.

XXyüzilliyin ən parlaq poetik istedad sahiblərindən biri Səməd Vurğundur. S.Vurğun həm də öz xalqına, onun epik düşüncəsinə, zəngin folkloruna kifayət qədər yaxşı bələd olub, bu irsin materiallarından yeri gəldikcə ustalıqla bəhrələnən bir sənətkar olmuşdur. “Bu əfsanələri şair sadəcə nəzmə çəkməklə kifayətlənmir, eyni zamanda onlarda öz əksini tapan xalqın istək və arzularını izləyir, meydana çıxarır, mənalandırır, yaşadığı dövrün hadisələri ilə bağlayır [4, s.82].

O, öz şeiriyyatında, özəlliklə poemalarında əfsanə və nağıl motivlərini bacarıqla sintez edə bilmiş, bu yolla da qələmə aldığı nümunələrin bədii dəyərini daha da yüksəltmişdir. Onun “Ayın əfsanəsi”, “Qız qayası”, “Bulaq əfsanəsi” və s. poemaları xalq əfsanələrindən istifadə yolu ilə ərsəyə gəlmişdir. Şair mənzum dramlarında yeri gəldikcə əfsanə, rəvayət və nağıl motivlərindən məharətlə istifadə etmiş, oraya qoyduğu bədii məhsulun siqlətini xeyli artırmışdır. “Fərhad və Şirin” dramında Azər babanın dilindən səslənən əhvalat çox ibrətamizdir. Orada deyilir ki, Şirvandakı dirilik suyu tək insana əbədi həyat bəxş etmir, o həm də qəhrəman oğullara güc, qüvvət bəxş edir. Bu su Vətən övladlarını məğlubedilməz edir. Məlum əfsanəyə işarə edən şair deyir:

Deyirlər bu sudan Xızır peyğəmbər

Gəlib təsadüfən içmiş doyunca.

O gündən ölməmiş tarix boyunca

İnsan donundakı o qanadlı quş,

Əsrlərdən bəri uçub yox olmuş.

Fəqət deyirlər ki, o yenə sağdır.

İslamın dar günü qayıdacaqdır [5, s.118]

S.Vurğunun folklora sadiq gözəl poemalarından biri “Qız qayası”dır.Poemada şair artıq Qarabağa səfər etmişdir. Vətənimizin bu dillər guşəsi də ona ilham verir. İsa bulağı, “Xarı bülbül” əfsanəsi, bülbülün yanıqlı səsi, çobanların zil şikəstəsi şairi coşdurur. Onun ruhuna hakim kəsilən ssevinc, fərəh hissi şair qəlbini riqqətə gətirir. Bulaq üstə su içərək saqqalından su daman qoca maraqlı bir əhvalar danışır. Eşitdiyi əfsanəvi qissəyə “Qız qayası” adı verən şair onu nəzmə çəkir. Başı bəlalar çəkmiş Şuşa qalasında hakim olan bir zalımxan xalqa etdiyi

zülmlər az imiş kimi, bir də harada bir gözəl qız görür, sorağını alır, onu zorla saraya gətirdib zorla hərəmxanasına qatırmış. Bir gün də bulaq üstə gözəl el qızını görüb onu zorla saraya aparır. Qız ona tabe olmur. Bir gün qız qaçır. Xanın adamları onu təqib edir. Çarəsiz qalan qız özünü qayadan atır.

Əfsanəyə "Qız qayası" adı verən S.Vurğun onun təsiri ilə qələmə aldığı "Aslan qayası" poemasında həmən səhnəni belə təqdim etmişdir:

Həyata son dəfə yumub gözünü,

Qızcığaz qayadan atdı özünü.

Lakin deyirlər ki, altdan yuxarı

Qabardırmış donun dağlar rüzgarı.

Qızcığaz ölməyib, sağ düşmüş yerə,

Yayılmış bu xəbər bütün ellərə...

Budur, "Qız qayası" adlanmış qaya,

Sirrini verməmiş ulduza aya...

İxtiyar sözünü bitirən zaman

Buludlar töküldü qaş-qabağından [4, s.85]

S.Vurğunu milli folklor, xüsusilə də əfsanə, rəvayət və nağıl kimi janrlar daha çox ona görə cəlb edirdi ki, onlarda xalqın taleyi, həyat və məişəti, ağrı və acıları və təbii ki, sevinci daha çox əksini tapmış və saxlanmışdır. Onun "Ölən məhəbbət" poemasının mərkəzində belə əfsanələrdən biri dayanır. Əsərin əvvəlində on dörd yaşlı mələksima bir qızın portreti canlanır. Şair qızın poetik portretini yaradarkən epitetlərə xəsislik etməmiş, ən təsirli ifadələrlə bir qızcığaz obrazı yaratmışdır. Dağlar qoynunda asudə böyümüş yavru çox dalğın və kədərlidir. Öz qardaşını bir ağacın altına çağırıb ona yalvaran qız olduqca həyəcanlıdır. Belə görünür ki, bir ocaqda böyümüş, bir ananın laylasını dinləmiş cütlük, yəni qardaş və bacı elin adəti üzrə bir-biri ilə evlənməlidirlər. Buna necə razı olmaq, dözmək olar? – düşüncəsində olan qız özünə yer tapa bilmir. Özünü oda atmaqla bir rüsvayçılıqdan qurtulmağı düşünür. Qızcığaz bu ağır vəziyyətdə dəhşətə gələrək düşünür:

Elin qaydasıyla, qanunuyla biz,

Bir bacı, bir qardaş evlənməliyik.

Bunları duyduqca, düşündükcə mən,

Bil ki, ayaqlarım üzülür yerdən.

Tüklərim ürpərir, tutulur dilim.

Başqadır, qardaşım, mənim sevgilim.

Rüsvayçı adətə boyun əyməkdənsə, Arazın sularında qərq olmağı seçən, şərəf və ləyaqətini namusla qoruyan el qızının son anlarını şair belə təsvir edir:

Məyus baxışlarla qızcığaz dönür,

Həyatın altında bir günəş sönür.

Ay düşür Araza, Araz lal axır,

Ayın işığında bir xəyal axır. [4, s. 86]

Xalq şairinin əfsanə motivləri əsasında qələmə aldığı poemalarından biri də "Aslan qayası" əsəridir. Öz şair fantaziyasını işə salan ədib "ana", "bala", "zəhmət", "işıq", "məhəbbət", "torpaq" anayışlarını özünəməxsus şəkildə mənalandıraraq oxucusuna yetirir. Poemada "şairin məqsədi, bir tərəfdən keçmiş cəmiyyəti, istismar dünyasını" onun bütün sərt və qəddar qanunlarını oxucunun gözləri qarşısında canlandırmaq, xoş güzərana çatdırmaqdır. O biri tərəfdən isə gənc nəsilə vətənpərvərlik, milli iftixar hissləri tərbiyə etmək, xarici işğalçılara, düşmənlərə qarşı nifrət duyğularını gücləndirməkdən ibarətdir" [4, s.88].

Şair bu əsərinin mövzu qaynağı olaraq xalq yaradıcılığına, onun əfsanə janrına istinadını aşğıdakı misralarda belə ifadə etmişdir:

Bizim Xəzər sahilində bir qocaman qaya var,

Sinəsində parçalanır ağ köpüklü dalğalar.

Ellər onu əzizləyir, deyir "Aslan qayası",

Məhəbbətdən qurulmuşdur torpağının mayası.

Yaşamışdır bizim qaya neçə bahar, neçə qış

Ağızlardan ağızlara dastan olub dolaşmış

Bu bir şirin əfsanədir babalardan yadigar,

Bunda əziz bir ölkənin vicdanı var, qəlbi var [5, s.100]

Öz çoxşaxəli yaradıcılığında xalq ədəbiyyatı materiallarından lazımi qədər yararlanan ədiblərdən biri də Cəfər Cabbarlı olmuşdur. Onun müxtəlif əsərlərində folklor motivlərinə rast gəlmək mümkündür. Sənətkarın ən çox üz tutduğu folklor janrı əfsanədir ki, "Qız qalası" poemasında bunun təsdiqi ayrınca görünür. Görkəmli ədəbiyyatşünas Təyyar Salamoğlu bu əsər barəsində yazır: "Qız qalası" poemasında müəllif hadisələrin inkişaf məntiqini milli varlığın tarixi xarakterinə tabe tutmuşdur. Atası tərəfindən ehtirasla sevilən qızı özünü Qız qalasından atması bir xalq əfsanəsi kimi məşhurdur. Müəllif də əfsanənin süjet xəttinə daxil edərkən təhrifə yol verməmişdir. Qız qalası haqqnda çoxsaylı əfsanələr içərisində atası tərəfindən sevilən qızın intihar etməsi süjetinin üzərində poemada təfərrüatla dayanılması hansı ideya estetik yükü daşıyır? Ədəbiyyatşünaslığımızda bu sual qoyulmuş və ona verilən cavabda məhz bu əfsanə süjetinin romantizmin estetik tələbləri üçün uyarlığı əsas gətirilmişdir"[7, s.494].

Bu xüsusda Vəli Osmanlının da fikri maraq kəsb edir: "Bəllidir ki, Qız qalası haqqındakı əfsanənin xalq arasında müxtəlif variantları mövcuddur. Onlardan məhz bu variantın seçilməsi təsadüfi deyildir. Bu variantdakı əhvalat qeyri-adidir. Eldə görünməmiş bir əhvalatdır. Onda məsumluq var, azğınlıq var. Onda ismət var, bədnamlıq var. Bu cür kontrastlarsa romantizm sənətinə maraqlı, cazibəli görünən keyfiyyətdir" [8, s. 195].

C.Cabbarlı əsərin mövzusunu qəmli bir xalq rəvayətindən, daha doğrusu bir əfsanədən aldığını belə xatirladır:

Burası örtülü bütün eldən...

Pək dərin keçmişin, fəqət dildən –

Dilə vardırdığı dumanlı xəbər,

Xalq içində maraqla söylənilər...

...Söylənir bu ... fəqət mənə bir gün,

Qoca, düşkün qiyafəli bir pir

Pək gözəl, şairanə sözlərlə,

Etdi bir qəmli macəra təsvir... [6, s.172]

Deyildiyi kimi Qız qalası ilə əlaqədar əfsanə və rəvayətlər xalq arasında müxtəlif variantlarda dolaşsa da, nədənsə C.Cabbarlı milli heysiyyətə toxunan bir variantı seçmişdir. T.Salamoğlu və A.Rüstəmli kimi tədqiqatçıların oxşar qənaətlərinə əsaslansaq bunun səbəbinin zamanın, hakim rejimin təzyiqi ilə bağlı olduğunu deyə bilərik.

"Od gəlini", "Qız qalası" kimi əsərlərin ateist bir rejimin diqtəsi ilə qələmə alındığını vurğulamalıyıq. Öz qızı Durnaya aşiq olan Qantemir müsəlman əxlaqı, əqidəsi ilə yaşamayan biri olduğundandır ki, qızına eşq elan edir. İmanlı insan, xan, kitaba qail olan ata belə rüsvayçılığa yol verə bilməzdi.

Biz öz məqaləmizdə ötən əsrin 20-40cı illərində yaradıcılıq fəaliyyətində olmuş üç görkəmli sənətkarın epik-poetik yaradıcılığında folklorun, özəlliklə əfsanə janrının təsiri məsələsini qısaca gözdən keçirdik. Gəldiyimiz qənaət belədir ki, bütün dövrlərdə folklor yazılı ədəbiyyat üçün əvəzsiz qida mənbəyi olmuşdur. M.Müşfiq, S.Vurğun, C.Cabbarlı kimi sənətkarların əsərləri bunu deməyi bizə imkan verir.

Ədəbiyyat:

1. Müşfiq M. Seçilmiş əsərləri iki cilddə, 2-ci cild, Bakı, "Azərnəşr", 1960, 421 s.
2. Müşfiq M. əsərləri, üç cilddə, 2-ci cild, Bakı, - "Səda", 2004, 390 s.
3. Müşfiq M. Seçilmiş əsərləri, Bakı, "Şərq-Qərb", 2004, 352 s.
4. Əfəndiyev P. Səməd Vurğun və xalq yaradıcılığı. Bakı: "Yazıçı", 1992, 123 s.
5. Vurğun S. Seçilmiş əsərləri, 5-ci cilddə, 3-cü cild, Bakı: "Şərq-Qərb", 2013, 388 s.
6. Cabbarlı C. əsərləri, 4 cilddə, I cild, Bakı: "Şərq-Qərb", 2005, 328 s.
7. Salamoğlu T. XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının aktual problemləri, Bakı: "Elm və təhsil", 2021, 664 s.
8. Osmanlı V. Azərbaycan romantikləri, Bakı: "Yazıçı", 1985.

TRANSLATOR OF PATRIOTIK IDEALS AHMED JAVAD

VƏTƏNPƏRVƏLİK İDEALLARININ TƏRCÜMANI ƏHMƏD CAVAD

YAQUB BABAYEV

filologiya elmləri doktoru, professor, Əməkdar müəllim Azərbaycan Dövlət Pedaqoji Universiteti Azərbaycan, *ORCİD: https://orcid.org/0000-0002-4738-9426*

XÜLASƏ

Məqalədə Azərbaycanın istiqlal şairi kimi tanınan Əhməd Cavadın ideya və ideallarından və bunların gənc nəslə öyrədilməsinin əhəmiyyətindən danışılır. Göstərilir ki, sənətkarın yaradıcılığının birinci mərhələsi XX əsrin ikinci onilliyinə, ikinci mərhələsi isə sovet dövrünə təsadüf edir. Onun yaradıcılığında vətənpərvərlik, xalqsevərlik, vətənin və xalqın azadlığı, müstəmləkəçilik rejiminə, rus-bolşevik işğalına qarşı etiraz, xalqın səadəti və müstəqilliyi kimi ideya və ideallar aparıcı yer tutur. Ə.Cavadın şeirlərinin dili sadə və aydındır. Folklor dilinə yaxındır. Sovet dövründəki əsərlərində senzuradan yayınmaq üçün simvolik fikir və anlayışlardan tez-tez istifadə edən müəllif həm də ədəbiyyatımızda simvolizmin nümayəndəsi kimi tanınır. O, əsərlərinin istər ideya-məzmun cəhətlərinə, istərsə də dil-üslub xüsusiyyətlərinə görə bir nümunə və tərbiyə məktəbidir. Azərbaycanda milli idealların, vətənpərvərlik hisslərinin təbliğində Ə.Cavadın böyük rolu olmuşdur. Sənətkarın yaradıcılığı bir sıra şairlərimizin bədii irsinə, yaradıcılıq məfkurəsinə də təsir göstərmişdir.

Məqalədə deyilən bu məsələlər yığcam şəkildə şərh edilir. Təhlil zamanı sənətkarın konkret əsərlərinə istinad edilir.Göstərilir ki, biz Ə.Cavadın ideya və ideallarını öyrənməli və gənc nəslə öyrətməliyik.

Açar sözlər:*Əhməd Cavad, poeziya, milli istiqlal, XX əsrin əvvəlləri, sovet ədəbiyyatı, milli ideal, tərbiyə, gənc nəsil*

Abstract

The article discusses the ideas and ideals of Ahmad Javad, known as the poet of independence of Azerbaijan, and the importance of teaching them to the younger generation. It is noted that the first stage of the artist's work dates back to the second decade of the twentieth century, and the second stage to the Soviet era. Ideas and ideals such as patriotism, love to nation, freedom of the homeland and the people, protest against the colonial regime, the Russian-Bolshevik occupation, the happiness and independence of the people occupy a leading place in his work. The language of A.Javad's poems is simple and clear. It is close to folklore language. The author, who often used symbolic ideas and concepts to avoid censorship in his Soviet-era works, is also known in our literature as a representative of symbolism. He is an example and an educational school for its works, both in terms of ideas and content, as well as in terms of language and style. A.Javad played a great role in the promotion of national ideals and patriotic feelings in Azerbaijan. The artist's work has also influenced the artistic heritage and creative ideology of a number of our poets.

These issues are briefly described in the article. The analysis refers to the specific works of the artist. It is shown that we must study the ideas and ideals of A. Javad and teach them to the younger generation.

Key words: Ahmad Javad, poetry, national independence, earli 20th century, Soviet literature, national ideal, upbringing, young generation

Giriş

Xalqımızın tarixində milli intibah dövrü kimi səciyyələnən XIX əsrin II yarısı-XX əsrin ilk onilliklərində Azərbaycan ictimai-siyasi, ədəbi-mədəni mühitində yetişən milli, fədakar, "xalqa, vətənə təmənnasız xidmət" ideyası ilə yaşayan elitar ziyalı dəstəsinin qələm və fikir mücahidlərindən biri də Əhməd Cavad Axundzadə idi. Bir çox milli məsləkdaşları, əqidə yoldaşları kimi o da rus-bolşevik siyasi rejiminin yaratdığı irticaçı hakimiyyət burulğanında repressiyaya uğrayıb qərq oldu. Cismən əlimizdən alındı. Ancaq onun amalları və əməlləri, ideya və təlqinləri, milli oxucu kütləsinə çatdırmaq və onu tərbiyələndirmək istədiyi nəsihət və diktələri, onun və məsləkdaşlarının nişan verdiyi, qoyduğu yol və ruh indi də yaşamaqdadır. Ona görə də biz bu gün də, sabah da Əhməd Cavad kimi münəvvərlərimizi, onların amal və əməllərini, yaradıcılıq məhsullarını, kütləyə çatdırmaq istədiklərinioyrənməli və öyrətməliyik. Bu klassiklərimizə ehtiramla yanaşı həm də indiki və gələcək nəslin düzgün, dürüst, milli və vətənsevər ruhda tərbiyəsi üçün lazımdır.

Ə.Cavadın ideya və ideallarının çağdaş dəyəri

Bəs biz Ə.Cavaddan nəyi və nələri öyrənə bilərik? Əlbttə, bu böyük istiqlal şairindən öyrənməli şeylər çoxdur. Bir yazıda onların hamısını tam şəkldə əhatə etmək mümkün olmadığından bəzi zəruri notlar üzərində dayanmaq istəyirik. Məsələn, bizim ondan öyrənə biləcəyimiz vacib keyfiyyətlərdən biri məsləki, əqidəsi yolunda fədakarlıqdır. Sənətkar bir şeirində məsləki uğrunda şəhidliyə hazır olduğunu belə bəyan edir:

Bən bu gün məsləkim üstündə ölürsəm, nə zərər?!

Məsləkli ölüm bil ki, bu dünyaya dəyər! [2,283]

Şairə görə məsləki,əqidəsi yolunda ölmək şərəfsiz yaşayışdan daha yüksək məqamdır. O, məslək, etiqad şəhidi olduğunu əməli ilə də sübut etdi.

Biz vətən sevgisini, yurd həsrətini, el-oba sevdasını, insan qəlbində milli duyğu və düşüncənin təntənəsini də Ə.Cavaddan öyrənə bilərik. Onun poeziyası bütünlüklə milli ruh, vətən və millət eşqi üzərində köklənmişdir. Həm də şairin vətənpərvərlik duyğuları onun dünyaya göz açdığı doğma yurddan, ilk dəfə gördüyü eldən-obadan başlayır, tədricən böyüyüb bölgə və nəhayət, Azərbaycan miqyasına çevrilir. Son nəticədə isə bütün türk-Turan coğrafiyasını əhatə edir. Məsələn, "Aşiqin dərdi" gəraylısı ilkin yurdundan, elindən-obasından ayrılan bir insanın qərib sızıltılarıdır. "Gəncəm, hey..." qoşmasında sevginin miqyası bir az da böyüyüb vətənin bir parçası olan Gəncəyə məhəbbətin bədii ifadəsinə çevrilir, bölgə miqyasını alır. "Azərbaycan", "Azərbaycana", "Bən kiməm?" və s. şeirlərində bütün Azərbaycan bu məhəbbətin, vətən sevdasının obyekti kimi götürülür. "Şeirim", "İstanbul", "Kuropatkinə", "Çırpınırdı Qara dəniz" və s. poeziya örnəklərində isə sənətkarın vətəninin hüdudları bütün türk-Turan coğrafiyasını əhatə edir.

Ə.Cavadın yurd, vətən sevgisi ruhani sevgidir. Ruhun cismə aşiqliyi kimidir. Vətəndən, el-obadan ayrılıq və onun qəmi şair üçün ruhun iztirabı, onun mənəvi dünyasının dərdi, qüssəsidir. "Aşiqin dərdi" şeirni sənətkar 1916-cı ildə Kutaisidə olarkan qələmə almışdır. Burada o, doğma elinin-obasınının ayrılıq həsrətini çəkir. Yurdundan fəraqın aşiqlik dədini yaşayır və onu poetik sözə çevirir:

Ayrı düşdüm bən elimlə,

Gedən bulud, getmə dinlə;

Ağla bana öz dilimlə,

Türk aşiqi söyləyəni!

Aşiqin bir el dərdi var,

Ellər oxur, ellər yazar!

Bən düzərəm, zaman pozar,

Göz götürməz bu gülşəni! [2,145]

"Gəncəm, hey…" qoşması səmimi, saf bir övladın öz doğma anasına sevgisi timsalındadır. Bu övlad sevdiyi anasının gözəlliklərini sayır, ona xeyir-dua, uğur arzulayır. 1918-ci ildə AXC dövründə yazılmış bu şeirin ovqatında bir sevinc, nikbinlik vardır.

"Azərbaycan, Azərbaycan", "Azərbaycana" və s. bu tipli şeirlərində tərənnüm hədəfi sənətkarın "yar", "canan", "dilbər" adlandırdığı bütöv Azərbaycandır. 1919-cu ildə müstəqillik dövründə qələmə alınmış "Azərbaycan" şeirində nikbin, fərəhli bir ruh, zəfər ovqatı hakimdir. Bu şeir S.Vurğunun məşhur "Azərbaycan" şeirindən təxminən 16-17 il əvvəl yazılmışdır və S.Vurğunun Ə.Cavaddan təsirləndiyi, eynu mövzuda şeir yazarkan sələfi ilə eyni notlardan yararlandığı aydın şəkildə hiss olunur. Hər iki poetik Vətənnamənin ideyası, vəsf obyekti, dili, üslubu, təsvir üsulu, ifadə tərzi, intonasiyası ciddi şəkildə oxşarlıq təşkil edir. Numunə üçün Ə.Cavadın qoşmasından bir-iki parçaya nəzər salmaq kifayətdir:

Dağlarının başı qarlı,

Sinəsi yaşıl ormanlı!

...Durna gözlü bulaqların,

Cənnət kimi yaylaqların!

Geniş-geniş oymaqların,

Azərbaycan, Azərbaycan!

...Bir yanında Bəhri-Xəzər!

...Sinən odu şölə salır!

Dünya səndən işıq alır![2,217]

Hər iki şeirn müqayisəsi göstərir ki, S.Vurğun Azərbaycan barəsində öz poetik himnini yaradarkan sələfindən yetərincə bəhrələnmişdir. Hər iki şair tərənnüm yolu ilə Vətənini təqdim edir və ona məhəbbət oyadır.

Ə.Cavadın Vətənin azdlığa qovuşduğu AXC dövründəki şeirləri ilə Vətəninin istilaya məruz qaldığı sovet dönəmindəki şeirlərinin ruhunda, ahəngində, ideyasında, ovqatında kəskin fərq vardır. Birinci dövrdə yaradılmış poetik nümunələr nə qədər nikbindirsə, ikinci dönəmdə qələmə alınmış şeirlər bir o qədər hüzünlü, ağrı-acılıdır. Çünki Vətənin azadlığı, müstəqilliyi, xalqının hürr yaşayışı şair üçün hər şeydir. Bütün gözəlliklərdən üstündür. Sovet işğalı dövründə sənətkar vətən dərdini, vətən harayını açıq şəkildə ifadə edə bilmədiyindən ya simvollardan yararlanır, ya da folklora üz tutur. Fikrini dolayısıyla, mətnaltı, simvolik deyimlərlə bəyan edir. 1928-1929-cu illərin məhsulu olan "Səsli qız" poemasında siyasi rejimin senzurasından yayınmaq üçün müəllif öz ideallarını ifadə etmək məqsədilə folklor süjetinə müraciət edir. Bu nağılvari süjetdə təsvir olunan və istilaya məruz qalan kiçik və gözəl ölkə əslində simvolik mənada Azərbaycan, işğalçı ölkə isə Rusiya imperiyasıdır. İşğalçı Xaqan istila etdiyi səadət ölkəsinin bütün hürriyyətini, xoşbəxtliyini onun əlindən alır. Ancaq sənətkar Səsli

qızın əlilə ona zəhər verdirib xalqın intiqamını alır. Müəllif demək istəyir ki, vətənin və xalqın azdlığını qaytarmaq üçün fədailər, fədakarlar, qisasçılar lazımdır. Poemadakı Səsli qız mübariz, vətənsevər, qəlbi vətən eşqi, xalq sevgizi ilə döyünən vətən övladlarının timsalıdır. Azərbaycanda istiqlal mübarizəsinin tarixini tədqiq edən Hüseyn Baykara bu əsər barədə doğru olaraq yazır: "Poemada görünən bu acı və qanlı simvolik tablolar Azərbaycanın azadlıq mübarizəsində şairin simvolik pərdələrə bürüyərək anlatdığı faciəli hadisələrdir. Bu romantik parçalarda Azərbaycanın müstəmləkə altında yaşamasını çox acı bir şəkildə təsvir etmuşdir. Şair Əhməd Cavad rus işğalından sonra Azərbaycan xalqının yaşadığı bəxtsiz yaşayışa sözün əslmənasında ürəkdən acışmışdır" [1,180]."Səsli qız"da öz vəzifəsini, var-dövlətini qorumaq üçün müstəbid Xaqana, yada-yağıya yaltaqlanan satqınlar, vətən xainləri, tacirbaşılar, din xadimləri, yüksək çinli məmurlar milli namusunu itirmiş dönüklər kimi qəzəblə lənətlənir. Şair bu mənada oxucusunu ayıq olmağa, vətənin namuslusunu, fədaisini satqınlarından, xainlərdən ayırmağa çağırır.

Ə.Cavad vətənin dərdlərinin, faciələrinin, ağrı-acılarının hayqıran dili, səsi, harayı, nidasıdır. Şair özü bu həqiqəti "Bən kiməm?" şeirində belə ifadə edir:

Soranlara, bən bu yurdun

Anlatayım nəsiyəm:

Bən çeynənən bir ölkənin

"Haqq!" bağıran səsiyəm![2,138]

O, yoxsulların, haqsızların, məzlumların şairidir. Dərdi də haqsızların, məzlumların dərdidir. Yəni onun kədəri fərdin kədəri deyil, milli-ictimai kədərdir.

Sənətkarın Azərbaycan sevgisi Turan sevgisi ilə qovuşur. Biz türkçülüyü, milli etnik yaddaşa bağlılığı, Böyük Turan sevdasını da Ə.Cavaddan öyrənə bilərik. O, bir Turan yolçusudur, türkün yaşadığı hər yer geniş mənada onun vətənidir. Şair bu geniş vətənin hər yerini, küncünü-bucağını, qaranlığını öz azadlıq, səadət məşəli ilə işıqlandırmaq idealı,istəyi ilə yaşayan bir türk mücahididir, qələm və fikir münəvvəridir:

Şeirim sınıq bir türk sazı, ağladaraq tellərini,

Adaq-adaq gəzmək istər könlüm Turan ellərini!

Ben bir Turan yolçusuyam, əlimdə bir sönük məşəl,

Aman, şeirim, hümmət eylə, aman, təbim, bir qanad çal!

...Turan öylə bir müqəddəs Kəbədir ki, hər bir daşı

Kölgəsində düşər yerə Türkün əgilməyən başı! [2,124]

"İstanbul", "Kuropatkinə", "Çırpınırdı Qara dəniz" və s. şeirlərində də müəllifin Turan sevgisi özünün bədii-ruhani ifadəsini tapır. "İstanbul"şeirində türk dünyasının mənəvi paytaxtı olan İstanbul vəsf olunursa, "Çırpınırdı Qara dəniz"də türk qüruru, türkün qədimlik və fatehlik əzəməti, türk bayrağının müqəddəslik və bütün türk qövmləri üçün vəhdət simvolikası son dərəcə pafoslu, romantik və qürurverici bir poetik duyğu ilə ortalığa qoyulur. Doğrudan da: "Türkiyə şairləri Qara dəniz haqqında çox əsərlər yazmışdır. Ancaq bunların heç biri Türkiyədə Ə.Cavadın "Çırpınırdı Qara dəniz" şeiri qədər sevilib, yayılıb qiymətləndirilməmişdir" [6,41].

Biz düşmənə, yada, yağıya nifrəti də Ə.Cavaddan öyrənə bilərik. Müstəmləkəçi, istilaçı istər rus, istər ingilis, istərsə də bir başqa qiyafədə olsun şairin vətəninin qapısını bəd niyyətlə döyürsə, müəllif ona qəzəblə baxır, lənətlər yağdırır. "İngilis", "Kuropatkinə" və s. şeirlərində müəllif ingilis işğalçılarının şərq siyasətini tənqid edir. Türk-islam dünyasında, o cümlədən

Azərbaycanda, əzanları susduranlara, ellərin var-yoxunu talayanlara, xalqın dilini, dinini əlindən almağa çalışanlara, vətən dağlarının başına duman əvəzində məzlumların ahını çökdürənlərə nifrətlər, lənətlər yağdırır. Turan toplumunu bu "Türküstan cəlladları"ndan intiqam almağa səsləyir.

Biz müstəqil dövlətimizin rəmzi olan bayraq sevgisini də bu istiqlal şairindən öyrənə bilərik. AXC-nin himnini yazan Ə.Cavad həm də poeziyamızda Azərbaycan bayrağına ən gözəl şeirlər qoşan, onu bədii sözün vəsf hədəfinə çevirən bir istedad sahibidir. Şairin "Azərbaycan bayrağına", "Elin bayrağı", "Al bayraq" şeirləri poeziyamızda milli bayrağımıza həsr olunmuş ən uğurlu, təsirli bədii örnəklər sırasındadır. Həm də bu mövzuda qələmə alınmış ilk nümunələrdəndir. Sözlə yaradılmış bir rəsm tablosunu xatırladan "Al bayrağa" şeirində müəllif bayrağını qürur və sevinclə oxucuya təqdim edir:

Gül rəngində bir yaprağın

Ortasında bir hilal!

Ey Al Bayraq, sənin rəngin

Söylə, neyçün böylə al!?[2,141]

Şair milli dövlətinin ucalan rəmzinin nişanələrinin simvolik işarələrini bədii yozumla oxucuya təqdim etməyi də unutmur:

Sən ey hilal, al qoynuna,

Aldın göydən yıldızı!

Məftun etdin sən kəndinə,

Ən sevdalı bir qızı!..

Buradakı "hilal", "yıldız", sevdalı qız" şairin başqa mənzum əsərlərində də rast gəldiyimiz simvollardır. Ay-ulduzlu bayrağa məftun olan həmin sevdalı qız Azərbaycan, yəni sənətkarın müstəqilliyindən, azadlığından qürur duyduğu, vəcdə gəldiyi Vətəndir.Ə.Cavad Azərbaycan əsgərinə ("Ey əsgər"), xilaskar türk ordusuna ("Türk ordusuna"), şəhidlərə ("Şəhidlərə") şeir həsr edən, AXC dövründə ilk dəfə marş ("Marş") yazan sənətkarlarımızdandır. Bunlar sənətkar və vətəndaş qəlbinin hayqırtıları, bədii sözə çevrilmiş nidasıdır. Biz bayrağımıza, şəhidlərimizə, qazi döyüşçülərimizə, xilaskar türk əsgərinə məhəbbətin fəlsəfəsini də Ə.Cavaddan öyrənə bilərik.

Biz gənc nəslə sənətkarın yaradıcılıq irsinin bütövlükdə bir "Vətənnamə" , "Hürriyyətnamə", vətən, hürriyyət, miillətsevərlik imanına aid dərslik olduğunu, hər cür nəcib və milli duyğuları onun əsərlərindən öyrənməyin mümkünlüyünü də başa salmalıyıq. Şair çox zaman, xüsusilə sovet irticası dövründə öz fikirlərini, ideallarını, istəklərini açıq şəkildə deyə bilmədiyindən simvollardan bol-bol istifadə edir, mətləblərini rəmzi tülə bükərək verir. Təbii ki, məqsəd sovet senzurasından yayaınmaq idi. Bu mənada o, ədəbiyyatımızda simvolizmin ustad nümayəndələrindən biri kimi tanınır. M.Ə.Rəsulzadə yazır: "...Milli cərəyanın digər nümayəndəsi Cavad Axundzadənin işi bolşevik dövründə qətiyyən gətirmir. Əski bir "müsavatçı" olduğuna görə onu həbs edirlər. Mətbuat səhifələrində, ədəbiyyat qurultaylarında hər yerdən uzaqlaşdırılır və qovulur. Əsərlərini nəşr etmirlər və nəşr olunanları isə toplayırlar. Bütün bunlara baxmayaraq onun yazdığı parçalar əldən-ələ gəzərək gənc kommunistlərin arasında belə yayılır. Gənc bolşevik şairlər öz yazdıqları şeirlərini Cavadın tənqid və təqdirinə ərz edəcək dərəcədə onun təsirinə düşürlər. Siyasi olmayan parçaları bəzən fürsət olduqda mətbuat səhifələrində özünə yer tapır. Bunların çoxu rəmzidir" [8,68].

Sənətkarın rəmzi anlayış və ifadələri kifayət qədər uğurlu alınmış, mətləbin obrazlı ifadəsinə çevrilmişdir. Məsələn, bəzi simvolik şeirlərində "yel" ("yellər"), "duman", "dumanlı dağlar" dedikdə şair mövcud qaranlıq ictimai-siyasi mühitin, rus-bolşevik hakimiyyətinin nəhs ab-havasını, "şimal yeli" dedikdə rus müsəmləkəçiliyini, şimaldan gələn istila küləyini, "Göy göl", "yar", " nazlı qız" dedikdə Azərbaycanı və onun gözəlliklərini, "ay", "ulduz", "hilal" dedikdə Azərbaycanın bayrağındakı müstəqillik, hürriyyət atributları olan rəmzi işarələri, "Kür" dedikdə ölkənin istiqlalını nəzədə tutmuşdur. Şairin məşhur "Göy göl" qoşması ədəbiyyatımızda simvolizmin son dərəcə qiymətli poetik nümunələrindən biridir. Bu şeirdən danışarkan Bəkir Nəbiyevhaqlı olaraq yazır: "Göy göl" Ə.Cavad üçün sadəcə bir sututar, yaxud bir qədər geniş mənada coğrafi obyekt deyildi. Bu nadir təbiət hadisəsini şair doğma Gəncənin, bütün Azərbaycanın−Vətənin rəmzi kimi tərənnüm etmişdi və bu rəmz, bu vətən obrazı onun şair təxəyyülündə əbədilik yer tutmuşdu" [7,68].

Əyil Kürüm, əyil keç,

Meydan sənin deyil, keç.−[8,68].

dedikdə müəllif acı bir hüznlə dogma yurdunun əlindən alınmış istiqlalına, ictimai-siyasi mühitin onun ölkəsi üçün yaratdığı rəzalətlərə işarə edir. Dərdini Kürə söyləyən şair Vətənin sinəsindən axan, ona xeir-bərəkət gətirən bu çayı, saflıq, təmizlik rəmzi olan suyu simvolik anlamda Azərbaycanın axıb gedən istiqlalı, səadətikimi mənalandırır. Bütün məyusluqlara, üzüntülərə baxmayaraq şair gələcəyə ümidini də itirmir, rəmzi anlayışlarla yurdunun istiqlalına qovuşacağına, parlaq istiqbalına da inanır. 1921-ci ildə qələmə aldığı "Nə üçündür?" şeirində yazır:

Yetər artıq bu göz yaşı, bu hicran!

Mən istərəm yaşıllıqlar solmasın!

Sevdaların sonu hicran olmasın!

…Ölümgetsin, qalmasın da kölgəsi,

Olsundünya−o birsevincölkəsi!

Ah, o günlərkönülbeləumunca,

Dəyişsəydibirgözaçıbyumunca!

Eyuçarkandüşübölənkəpənək,

Səndəgözlə, eləbirgüngələcək!..[2,71]

Biz hər bir xalqın, etnik toplumun milli kimliyinin ilkin şərti olan, onun milli varlığının pasportuna çevrilən ana dilnə sevgini, qayğını, təəssübkeşlik hissini də Ə.Cavaddan öyrənə bilərik. Bunu onun poeziya dili aydın şəkildə sübut edir. Doğrudur, yaradıcılığının erkən çağlarında şairin qələmə aldığı poetik nümunələrin dili ağırdır, ərəb-fars kəlmə və ibarələri ilə yüklənmişdir. Lakin onun1913-cü ildən sonrakı şeirlərinin dili sadə, duru və aydındır. Xalis xalq dilidir və xalq dilinin, canlı ünsiyyət dilinin bütün şirinliyini, şəhdi-şəkərini, obrazlılığını özündə ehtiva edir. 1913-cü ildə o, "Dilimiz" adlı dəyərli bir şeir yazır. Bu, əslində sənətkarın dilə münasibətdə, milli dil təəssübkeşliyində manifest şeiridir. Əsər təmiz, safana dilini unudub ərəbizm-farsizmlərlə yüklənmiş qəliz bir Azərbaycan türkcəsində yazan qələm sahiblərinə ünvanlanmışdır. Sənətkar qələmə aldığı əsərlərin dilində "qara" əvəzinə "siyah", "dil" əvəzinə "zəban", "ağ" əvəzinə "bəyaz", "paltar" əvəzinə "əlbəsə", "bacı" əvəzinə "həmşirə" işlədənləri, milli dilə və ədəbiyyata yanlış yön verən "qocaman ədiblərimiz"i kəskin şəkildə tənqid və ittiham edir. Dili ərəb-fars təsirinə məruz qoyanların tarixin töhməti, lənəti ilə üzləşəcəyini xatırladır.

Ə.Cavadın poeziya dilinin zərifliyini, sadəliyini, saflığını anlamaq üçün onun bayatılarını, etnoqrafik etüdlərini, yaxud tərcümələrini oxumaq kifayətdir. Bənzərsiz bir mahnının yaranmasına vəsilə olmuş "Gəncədən gəlirəm..." şeirinin dili sanki xalq ruhunun ən sadə, bakir, axarlı, şirin poetik ifadəsidir:

Gəncədən gəlirəm, yüküm xurmadı,

Gəncənin yolları burma-burmadı,

Gəncədə bir qız var, teli durnadı,

Günəşə sən çıxma, mən çıxım deyir!

Gəncədən gəlirəm, yüküm çiçəkdi,

Gəncənin gülləri ləçək-ləçəkdi.

Gəncədə bir qız var, adı Çiçəkdi,

Quşlara sən uçma, mən uçum deyir.[2,59]

Ana dilimizin obrazlı laylarına enməyi, onun lətafətini, təşbehatlarını, məcazlar sistemini üzə çıxarmağı, bənzərsiz poetik fiqurlar vasitəsilə bəzəkli söz yaratmağı, sözə estetik can və nəfəs verməyi də biz haqqında danışdığımız bu istiqlal şairimizdən öyrənə bilərik. Aşağıdakı orijinal məcazlarla bəzənmiş poetik parçada olduğu kimi:

Sən sevda buludu, mən təşnə dodaq,

Sən pək iyi bir sərv, mən solğun yarpaq.

Mən quru bir ağac, sən gül ağappaq,

Sinəmə dəyirdi oxlar şaqhaşaq![2,42]

Nəticə

Humanist sənətkarın yaradıcılığında insan varlığın ən qiymətli məxluqudur. Onun şərəfi, əzəməti və gözəlliyi hər cür tərifə layiqdir. Ümumiyyətlə, şərq ədəbiyyatında olduğu kimi Füzulidə də reallıqda Tanrıdan sonrakı ən uca məqam bəşəri xilqətə məxsusdur. Şairin lirikasında Tanrı cəlalının və gözəlliyinin tərifi də insanın mikromiqyasda cəlal və gözəlliyinin tərifindən başlanır. Ancaq onu da qeyd etmək yerinə düşər ki, mütəsəvvüf poeziyada olduğu kimi, Füzulidə də kəmalat və cəhalət baxımından adəm övladı iki qrupa ayrılır: kamil insan və cahil insan. Təbii ki, bədii-fəlsəfi dəyərləndirmədə bu insanların yeri, mövqeyi və mərtəbəsi bir-birindən kəskin surətdə fərqləndirilir. Birincinin ucalığı müqabilində ikincinin ucuzluğu nəzərə çatdırılır. İnsan mənəvi-əxlaqi kamilliyə, öz gözəllik, ləyaqət və şərəfini dərk etməyə çağırılır. Füzuli poeziyasının izlədiyi başlıca qayələrdən biri budur. Şairin fikrincə cəhalətlə «*hasili-ovqati-şərif*» (şərəfli ovqat hasil etmək) mümkün deyil. Bunun üçün irfani rütbəyə çatmaq lazımdır Bunun əsas yolu isə eşqə bağlıdır və aşiqlik meydanından keçir. Bir sözlə, məhəbbət yolçuluğu və aşiqlik missiyası Füzulinin eşq fəlsəfəsinin əsas mahiyyətini, rüknünü təşkil edir. Həm də bu yolçuluq ilahi eşqə dayanan irfani yolçuluqdur.

ƏDƏBİYYAT

1. Araslı H. Böyük Azərbaycan şairi Füzuli. Bakı, 1958

2.**Araslı H.** Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. Bakı, 1998

3.**Babayev Y**. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər). Bakı, 2018

4.**Əliyev S.** Füzulinin poetikası. Bakı, 1986

4.**Füzuli M**. Əsərləri, 5 cilddə (tərtib edəni: Araslı H.), Bakı, a) I c., 1958; b) II c., 1958; c) III c., 1958; ç) IV c., 1961; d) V c., 1985

5. Füzuli M. Əsərləri, 6 cilddə (tərtib edəni: Araslı H.), I-VI cildlər, Bakı, 2005

6. **Füzuli M.** Leyli və Məcnun (tərtib edib nəsrə çevirəni, müqəddimə və şərhlərin müəllifi: Əliyev S.) Bakı, 1991

7. **Füzuli M.** Seçilmiş əsərləri. 2 cilddə. I c. (lirik əsərləri-şərhlərlə. Tərtib edəni: Yusifli X.) Bakı, 2005; II c. (epik əsərləri-şərhlərlə. Tərtib edəni: Xəliloğlu S.), Bakı, 2005

8. **Hikmət İ.** Azərbaycan ədəbiyyatı tarixi. 2 cilddə, II c., Bakı, 1928

9. **Köçərli F.** Azərbaycan ədəbiyyatı. 2 cilddə. a)I c., Bakı, 1978; b)I c., Bakı, 2005 (təkrar nəşr)

10. **Köprülüzadə F**. Azəri ədəbiyyatına dair tədqiqlər. Bakı, 1926; 1996

11. **Quluzadə M.** Füzulinin lirikası. Bakı, 1965

12. **Quliyeva M.** Şərq poetikasının əsas kateqoriyaları. Bakı, 2010

13. **Məhəmməd Füzuli** (məqalələr toplusu). Bakı, 1958

14. **Səfərli Ə., Yusifli X.** Azərbaycan ədəbiyyatı tarixi (qədim və orta əsrlər). Bakı, 2008

MÜSTƏQİL AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN DÜNYAYA İNTEQRASİYASINDA HEYDƏR ƏLİYEVİN XİDMƏTLƏRİ

AYNURƏ ƏSGƏROVA

ADPU-nun Heydər Əliyev Mərkəzin baş mütəxəssisi

Özet

Makalede Haydar Aliyev'in Azerbaycan kültürünün dünyada tanıtılmasında, Azerbaycan'ın uluslararası kuruluşlarla işbirliğinin kurulmasında, Azerbaycan'ın kültürel mirasının dünya kültür mirasının bir parçası olarak kabul edilmesi yönünde önemli hizmetlerinden bahsediliyor. Azerbaycan yazarlarının ve kültür adamlarının yıldönümlerinin yabancı ülkelerde kutlanmasında Haydar Aliyev'in önemli faaliyeti gösterilir. Büyük liderin Azerbaycan'ın kültür, sanat ve edebiyat şahsiyetlerine gösterdiği özen anlatılıyor. Haydar Aliyev tarafından Ulusal Müzik Günü, Azerbaycan Sineması Günü, Azerbaycan Alfabesi ve Ana Dili Günü'nün kurulması, Azerbaycan'ın ulusal kültürünün gelişmesine önemli bir katkı olarak değerlendiriliyor. Haydar Aliyev'in öncülüğünde Azerbaycan devletinin kültür politikasının hukuki temellerinin oluşturulması anlatılıyor.

Anahtar Kelimeler: Azerbaycan, Haydar Aliyev, kültür, UNESCO, kültürel miras, yasa.

Abstract

The article talks about Heydar Aliyev's important role in promoting the independent Azerbaijani culture in the world, establishing Azerbaijan's cooperation with international organizations, and accepting Azerbaijan's cultural heritage as part of the world's cultural heritage. Heydar Aliyev's important role in celebrating the anniversaries of prominent writers and cultural figures in prestigious organizations in foreign countries is shown. The great leader's attention to outstanding culture, art and literature figures in Azerbaijan is explained. Heydar Aliyev's founding of National Music Day, Azerbaijani Cinema Day, Azerbaijani Alphabet, and Mother Language Days is considered an important contribution to the development of the national culture of Azerbaijan.

Keywords: Azerbaijan, Heydar Aliyev, culture, UNESCO, cultural heritage, law.

Xülasə

Məqalədə Müstəqil Azərbaycanın mədəniyyətinin dünyada tanıdılmasında, Azərbaycanın nüfuzlu beynəlxlaq təşkilatlarla əməkdaşlığının qurulmasında, Azərbaycan mədəni irsinin dünya mədəni irsinin tərkib hissəsi kimi qəbul olunmasında Heydər Əliyevin mühüm xidmətlərindən bəhs edilir. Xarici ölkələrdə nüfuzlu təşkilatlarda görkəmli ədiblərin, mədəniyyət xadimlərinin yubileylərinin keçirilməsində Heydər Əliyevin mühüm fəaliyyəti göstərilir. Ulu öndərin Azərbaycanın görkəmli mədəniyyət, incəsənət, ədəbiyyat xadimlərinə göstərdiyi diqqət şərh olunur. Heydər Əliyev tərəfindən Milli Musiqi Günü, Azərbaycan Kinosu Günü, Azərbaycan Əlifbası və Ana Dili Gününün təsis edilməsi Azərbaycanın milli mədəniyyətinin inkişafına mühüm töhfə kimi qiymətləndirilir. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin mədəniyyət siyasətinin hüquqi bazasının formlaşdırılmasından danışılır.

Açar sözlər: Azərbaycan, Heydər Əliyev, mədəniyyət, YUNESKO, mədəni irs, Qanun.

XX əsrdə Azərbaycan mürəkkəb proseslərlə qarşılaşsa da həyatın bütün sahələrində ictimai-siyasi, sosial-iqtisadi, elm, texnika, mədəniyyət və incəsənət sahəsində əldə etdiyi uğurlu addımları, qazandığı nailiyyətləri ilə XXI əsrə qədəm qoydu. Respublikamızın dövlət müstəqilliyi bərpa edildikdən sonra mədəni, mənəvi həyatında mühüm dəyişikliklər baş verdi. Birinci Qarabağ müharibəsinə, erməni işğalçıları tərəfindən yüzlərlə sosial-mədəni obyektin məhv edilməsinə baxmayaraq, Azərbaycan mədəniyyəti mübarizliyi, mənəvi qüvvələrin öz kökünə və bəşəri dəyərlərə daha möhkəm bağlanması ilə səciyyələnirdi. Müstəqil dövlət kimi Azərbaycanın qarşısında duran əsas vəzifələrdən biri mədəniyyətin inkişaf etdirilməsi problemi oldu. Azərbaycan 1991-ci ildə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatına (əvvəlki adı İslam Konfransı Təşkilatı) İSESKO-ya, 1992-ci il iyunun 3-də BMT-nin Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə təşkilatı olan YUNESKO-ya üzv qəbul edildi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışından sonra bütün sahələrdə olduğu kimi, mədəniyyət və incəsənət sahəsində aparılan məqsədyönlü fəaliyyət nəticəsində Azərbaycan dünya mədəniyyətinin tərkib hissəsinə çevrildi. Ümummili lider çıxışlarının birində "Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir. Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir" demişdir. Zəngin və yüksək mədəniyyətə malik olan Azərbaycanın xalqının dünyaya tanıdılmasında ümummilli lider Heydər Əliyevin böyük və gərgin zəhməti olmuşdur. Məhz onun yorulmaz fəaliyyəti nəticəsində Müstəqil Azərbaycan beynəlxalq birliyin bir parçası olaraq daha möhtəşəm uğurlara imza atmağa başladı. 1993-cü il dekabrın 6-da Azərbaycan YUNESKO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" 1972-ci il 16 noyabr tarixli konvensiyasına qoşuldu. Azərbaycan beynəlxalq mədəni əməkdaşlıq təşkilatı olan Türksoyun yaradıcılarından biri oldu. 1993-cü il iyulun 12-də Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Şimali Kipr Türk Respublikası, Türkmənistan, Türkiyə və Özbəkistan respublikalarının mədəniyyət nazirləri 8 maddədən ibarət "Türksoyun strukturu və fəaliyyət prinsipləri haqqında" müqaviləni imzaladılar. Təşkilatın məqsədi türk xalqları və ölkələri arasında mədəni əlaqələri genişləndirmək, xalqların mədəniyyət və incəsənətini qorumaq, dirçəltmək və inkişaf etdirmək idi.

1994-cü il fevralın 21-də Heydər Əliyevin müvafiq sərəncamı ilə YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası yaradıldı. 1996-cı ilin noyabrında Azərbaycan-YUNESKO əməkdşlığına dair sazişin imzalanması təhsil, elm, mədəniyyət və humanitar sahələrdə əməkdaşlığın yeni mərhələsinin başlanğıcını qoydu. Məhz bundan sonra Azərbaycanda ali təhsilin TASİS və TEMPUS proqramlarına uyğun şəkildə yenidən qurulmasına dair iki layihə reallaşdırılmağa başladı. 1997-ci ilin aprelində ölkəmiz Avropanın Mədəniyyət Konvensiyasına qoşuldu. Beynəlxalq Muzeylər Şurasının və Beynəlxalq Kitabxanalar Şurasının Milli Azərbaycan Komitələri yarandı. 2000-ci ilin aprelində türk dövlət başçılarının altıncı zirvə görüşünün Bakıda keçirilməsi mühüm hadisə oldu. Zirvə görüşündə qardaş ölkələr arasında əməkdaşlıq məsələləri müzakirə olunaraq "Bakı bəyannaməsi" qəbul olundu.

Azərbaycanın YUNESKO, Avropa Şurası, İSESKO və digər beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq etməyə başlaması respublikamızın qlobal mədəni məkanda nüfuzunun artmasına səbəb oldu. Azərbaycan tarixndə ilk dəfə olaraq 2000-ci ildə Qız qalası daxil olmaqla İçərişəhər Dövlət Tarix Memarlıq Kompleksi, 2003-cü ldə Şirvanşahlar Sarayı YUNESKO-nun Mədəni İrs Siyahısına daxil oldu. 2002-ci ildə YUNESKO tərəfindən Bəşəriyyətin Şifahi və Qeyri-Maddi Mədəni İrsinin şah əsəri elan olunan Azərbaycan muğamı 2003-cü ildə YUNESKO-nun "Bəşəriyyətin şifahi və mənəvi irsinin şedevrləri" siyahısına daxil edildi və bununla da muğamın bədii təkrarolunmazlığı, dünya mədəniyyəti üçün dəyəri təsdiq olundu.

Azərbaycan mədəniyyətinin, irsimizin beynəlxalq aləmdə tanıdılması istiqamətində həyata keçirilən tədbirlər, görkəmli ədiblərin və mədəniyyət xadimlərinin yubileylərinin xarici

ölkələrdə nüfuzlu təşkilatlarda keçirilməsi, 1996-cı ildə Məhəmməd Füzulinin anadan olmasının 500 illik, 2000-ci ildə "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileylərinin YUNESKO-da qeyd olunması Azərbaycanın beynəlxalq miqyasda artan nüfuzunun göstəricisi idi.

Ümummilli lider Azərbaycan mədəniyyətinin dünyada tanıdılması istiqamətində gördüyü böyük işlərlə bərabər ölkə daxilində mədəniyyət, incəsənət, ədəbiyyat xadimlərinə, istedadlı gənc yazıçı və şairlərə daim diqqət və qayğı göstərmişdir. Heydər Əliyev 1997-ci il noyabrın 10-da "Azərbaycan Respublikasında ədəbiyyat və incəsənət xadimlərinə dövlət qayğısının artırılması haqqında" fərman imzaladı. Qocaman ədəbiyyat və incəsənət xadimləri, gənc istedadlı yazıçı və şairlər üçün fərdi təqaüdlər təyin edildi.

Dahi bəstəkar Üzeyir Hacıbəyovun anadan olmasının 110 illik yubileyi ərəfəsində ulu öndər tərəfindən 1995-ci ildə imzalanmış fərman ilə 18 sentyabr "Milli Musiqi Günü", 2000-ci il dekabrın 18-də imzalanmış sərəncam ilə avqustun 2-si tarixi kino işçilərinin peşə bayramı- "Azərbaycan Kinosu Günü", 2001-ci il avqustun 9-da imzalanmış fərman ilə avqustun 1-nin Azərbaycan Respublikasında "Azərbaycan Əlifbası və Ana Dili Günü" kimi təsis edilməsi Azərbaycanın milli mədəniyyətinin inkişafına mühüm töhfə vermiş oldu.

Mədəniyyətin qanunvericilik təminatına böyük önəm verən ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan dövlətinin mədəniyyət siyasətinin hüquqi bazası yaradıldı. Qısa müddət ərzində mədəniyyət sahəsində 10-dan artıq qanun qəbul edildi. 1998-ci il fevralın 6-da "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunun qəbul edilməsi ölkənin mədəni həyatında mühüm hadisə oldu. 1998-ci il dekabrın 29-da "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu, 1998-ci il aprelin 10-da "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu, 1998-ci il mayın 15-də "Memarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu, 1998-ci il iyulun 3-də "Kinematoqrafiya haqqında" Azərbaycan Respublikasının Qanunu, 2000-ci il martın 24-də "Muzeylər haqqında" Azərbaycan Respublikasının Qanunu, 2000-ci il mayın 30-da "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanunun və digər qanunların qəbul olunması ölkədə mədəniyyətin yeni ideologiya, yeni humanist prinsiplər əsasında tərəqqisinə geniş yol açmış oldu.

Ulu öndərin mədəniyyət sahəsində apardığı islahatlar, mühüm fəaliyyət sayəsində Azərbaycan mədəniyyəti dünya mədəniyətinin tərkib hissəsi kimi qəbul olundu, ölkəmiz dünya mədəni hadisələrinin mərkəzinə çevrildi. Bu ənənələr ulu öndərin siyası kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Azərbaycan Respublikasının Birinci Vitse-Prezidenti xanım Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycan qloballaşma kontekstində çıxış edərək mədəniyyətlərin dialoquna çalışır, öz mədəniyyəti ilə dünya mədəniyyətini zənginləşdirir.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Avropa Mədəniyyət Konvensiyasına qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu, 22 aprel 1997;

2.https://www.mfa.gov.az/az/category/beynelxalq-teskilatlar/islam-dunyasi-tehsil-elm-ve-medeniyyet-teskilati-isesko-azerbaycan-munasibetleri

3. F.Hüseynova Müstəqillik dövründə Azərbaycan-Türkiyə əlaqələrinin kulturoloji aspektləri. Bakı, 2007, 302 səh.;

4. Q.Rəcəbli Azərbaycan tarixi. Bakı, 2013, 544 səh.;

5. M.Süleymanlı Mədəni İrs. Bakı, 2019, 424 səh.;

6. S.Qurbanov “Siyasi fəaliyyət özü bir mədəniyyətdir”. “İki sahil”qəzeti, 23 mart 2021;

7. B.Bəybalayev “Azərbaycan-YUNESKO əməkdaşlığının inkişaf etdirilməsində Beynəlxalq Bioetika Komitəsinin rolu böyükdür”. “Respublika”qəzeti, 04 iyul 2021.

"FEAST OF SACRIFICE"(QURBAN BAYRAMI) IN THE WORKS OF SULTAN MAJID GANIZADE

"QURBAN BAYRAMI" SULTAN MƏCİD QƏNİZADƏ YARADICILIĞINDA

ŞÖHRƏT MƏMMƏDOVA

ADPU

Özet

Azərbaycan ədəbiyyatının inkişafında mühüm mərhələ olan XlX əsr yeni məzmuna, ideya-bədii məziyyətlərə malik uşaq ədəbiyyatının yaranması ilə də səciyyələnir. Bu əsrdə uşaq ədəbiyyatının yaranması mürəkkəb proses olub,bir tərəfdən uşaq folklorunun, klassik ədəbiyyatımızdakı uşaq mütaliəsi nümunələrinin

yaradılması ənənələrinə, digər tərəfdən isə yeni əsrin gətirdiyi müasir ab-havaya, yeni dövrün maarifçilik, mədəni inkişaf, tərəqqi tələblərinə əsaslanırdı.

Azərbaycan maaifinin tərəqqisi yolunda böyük xidmətləri olan şəxsiyyətlərdən biri olan Sultan Məcid Qənizadə (1866-1937) bütün xalqın o cümlədən, uşaqların bədii ədəbiyyat vasitəsilə tərbiyə olunmasına xüsusi əhəmiyyət vermişdir.O, bu fikirdə idi ki, qaranlıqda gəzməklə heç nə görüb, göstərmək olmaz. İşıq gətirilməlidir, işıq gələndə zülmət öz-özündən məhv olar və bununla belə,hər şey öz rəngində görünər.Yazıçının fikrincə, bu nicat yolunu, şəfalı işığı, ilk növbədə məktəblər və xalqını ürəkdən sevən müəllimlər, yazıçılar gətirə bilərlər.

Yükək düşüncə sahibi olan böyük sənətkar bədii ədəbiyyata dövrün tələbi, pedaqoji işin mənafeyi baxımından yanaşmışdır. Maarifpərvər dramaturq M.F.Axundzadə ədəbi ənənələrinin davamçısı olmuşdur. Ədibin fikrincə, o əsərlər yaşamağa qadirdir ki, həyatı bəzək-düzəksiz, təhrif olunmadan əks edir, müəllifi isə parlaq istedad, dərin bilik və rəvan sənətkarlıq təbinə malikdir. O, xalqın gözünü açmaq , eyiblərini göstərmək, gerilik və cəhalət dumanını dağıtmaq üçün yeni ədəbiyyatın, hekayə, roman və səhnə əsərlərinin roluna böyük üstünlük verirdi.

Xülasə

Azərbaycan maaifinin tərəqqisi yolunda böyük xidmətləri olan şəxsiyyətlərdən biri də Sultan Məcid Qənizadədir. (1866-1937) O, bütün xalqın o cümlədən, uşaqların bədii ədəbiyyat vasitəsilə tərbiyə olunmasına xüsusi əhəmiyyət vermişdir.

Yüksək düşüncə sahibi olan böyük sənətkar bədii ədəbiyyata dövrün tələbi, pedaqoji işin mənafeyi baxımından yanaşmışdır. Maarifpərvər dramaturq M.F.Axundzadə ədəbi ənənələrinin davamçısı olmuşdur.

"Allah xofu" hekayəsindən sonra S.M. Qənizadə kiçik oxucular üçün 1907 ci ildə "Qurban bayramı"hekayəsini qələmə alır və "Dəbistan" məcmuəsində nəşr etdirir. "Şeyda" imzası ilə nəşr edilən bu hekayənin bütöv şəkildə adı "Qurban bayramı və yaxud on gün riyazət "dir. Sənətkar oxucuların xahişi ilə 1916 və 1919-cu illərdə əsəri ayrıca kitabça halında nəşr etdirərkən mətndə xırda dəyişikliklər etmişdi. Sənətkarın etdiyi bu dəyişikliklər cümlə və sözlərə aiddir. Əsas süjet, epizodlar, bir sözlə, bədii mətnin əsas sistemi, məzmun və ideya öz yerində qalmışdır.

"Qurban bayramı" yüksək sənətkarlıq səviyyəsinə malik bir hekayədir. Hər şeydən əvvəl əsər "maraqlı kompozisiya üsullarına malikdir. Bunlardan üçü hekayədə özünü daha qabarıq surətdə nəzərə çapdırır: təsvir-təhkiyə, alleqoriya və dialoq.

Məqalədə S.M.Qənizadənin "Qurban bayramı" hekayəsi sənətkarlıq baxımından təhlil edilmiş, əsər klassik nəsrin dəyərli nümunələrindən biri kimi dəyərləndirilmişdir.

Açar sözlər: Hekayə, islam, müsəlman, din, vətənpərvər, qayğıkeş, sənət, yoxsulluq, millət

Summary

Sultan Majid Ganizadeh(1866-1937) is one of the personalities who made a great contribution to the progress of Azerbaijan's education. He paid special attention to the education through fiction of all people, including children.

The great writer, who had a strong mind, approached fiction from the point of view of the requirements of the time and the interests of pedagogical work. Enlightened playwright M.F. Akhundzadeh was a follower of literary traditions.

After the story of "Fear of God," S.M. Ganizadeh wrote the story "Feast of Sacrifice" for young readers in 1907 and published it in "Debistan" magazine. The whole title of this story, published under the signature of "Sheyda", is "Feast of Sacrifice" or ten days of math". At the request of readers, the writer made minor changes to the text, when he published his work in a separate booklet in 1916 and 1919. These changes made by the writer apply to sentences and words. The main plot, episodes, in short, the main system, content and idea of the literary text remained in place.

"Feast of Sacrifice" is a story with a high level of craftsmanship. First of all, the work has "interesting compositional methods. Three of them stand out in the story: description, allegory and dialogue.

In the article S.M. Ganizadeh's "Feast of Sacrifice" story is analyzed from the point of view of art, the work is evaluated as one of the valuable examples of classical prose.

Key words: Story, Islam, Muslim, religion, patriot, caring, art, poverty, nation, story

Qənizadə bir yazıçı olmaqdan çox, vətəndaş-müəllim idi.O,müəllimliyi bütün peşələrdən ali ,bütün sənətlərdən üstün tutur, özünün müəllim olduğuna görə fəxr edirdi. Xalqın balalarına elm, mərifət paylayan yoxsul bir müəllimi tükənməz xəzinə və sərvət sahibi kimi qiymətləndirirdi. S.M.Qənizadə gənc nəslin ədəbi təhsili ilə bağlı problemlərin ardan qaldırılması üçün səylə çalışmış, bu sahədə səmərəli təşəbbüslər də göstərmişdir.O. Bakı-Dağıstan milli məktəbinin müfəttişi işlərkən " ana dilində həm təlim üçün və həm də dərsdəniraq vaxtlarda oxumaq üçün kitablar" nəşri ilə əlaqədar məktəb komitəsi qarşısında məsələ qaldırmışdır.(1.55) Ədibin qələmindən çıxan maraqlı və dəyərli original əsərlərindən biri olan "Allah xofu" hekayəsində də elm və maarifin insan üçün əhəmiyyətlli olması məsələsinə də toxunulur.

S.M.Qənizadənin qələmə aldığı uşaq ədəbiyyatı mövzusu əsasən iki istiqamətdə nəzər-diqqəti cəlb edir: orjinal və realist bədii əsərlər, bir də təbdil və tərcümələr. Hələ 1893 –cü ildə sənətkar xalq nağılının sujeti əsasında "Tülkü və Çaq-çaq bəy" adlı bir mənzum yumoristik poemasını yazıb və məzmununa uyğun gələn beş şəkillə birlikdə Bakı quberniya idarəsinin mətbəəsində kitab halında nəşr etdirərək kiçik oxucularının ixtiyarına vermişdir. 1906-cı ildə Azərbaycanda "Dəbistan" və "Rəhbər" kimi uşaq mətbuatı orqanlarının nəşrə başlaması ilə maarifçi sənətkar yenidən uşaq ədəbiyyatı cəbhəsinə qayıdır."Allah xofu"(1906,№11,18), "Qurban bayramı"(1907,№1-4) kimi klassik hekayələrini "Dəbistan"da,"Körpə uşaqlar tərbiyəsi" (1906, №3) adlı fiziki tərbiyəyə dair elmi – kütləvi məqaləsini isə "Rəhbər" də nəşr etdirir. "Allah

xofu" 1916-cı ildə, "Qurban bayramı" isə 1916 və 1919- cu illərdə ayrıca kitabça halında da işıq üzü görmüşdür.

"Allah xofu" hekayəsindən sonra S.M. Qənizadə kiçik oxucular üçün "Qurban bayramı"hekayəsini qələmə alır və "Dəbistan" məcmuəsində nəşr etdirir. "Şeyda" imzası ilə nəşr edilən bu hekayənin bütöv şəkildə adı "Qurban bayramı və yaxud on gün riyazət "dir. Sənətkar oxucuların xahişi ilə 1916 və 1919-cu illərdə əsəri ayrıca kitabça halında nəşr etdirərkən mətndə xırda dəyişikliklər etmişdi. Sənətkarın etdiyi bu dəyişikliklər cümlə və sözlərə aiddir.Əsas süjet, epizodlar, bir sözlə, bədii mətnin əsas sistemi, məzmun və ideya öz yerində qalmışdır.

Hekayə dini mövzudadır. İslam dininə məxsus mühüm bir ritualın – qurban bayramının keçirilməsi prosesində tipik bir müsəlman ailəsində baş verən hadisələr, mənəvi, əxlaqi, iqtisadi və psixoloji proseslər əsərin əsas mövzu obyektini təşkil edir.Yazıçı bu ailənin timsalında son dərəcə mükəmməl, dolğun bir umumiləşdirmə apara bilmişdir. Müsəlman ailələrinin, mövcud sosial mühitdə böyüklü-kiçikli ictimai fərdlərin həmin bayrama münasibəti fonunda üşükləi vəziyyəti, keçirdiyi iztirablı halları, məsum mənzərəni real, olduqca inandırıcı lövhlərlə canlandırır. Eyni zamanda bu ailələrdə böyüyən nəslin islam mühitindəki tərbiyə ahəngini, fənalaşma, ətalət və süstlük qirdabına yuvarlanma prosesini həyatın real gerçəkiyinə

uyğun bir məntiqlə təcəssüm etdirir.

Vacib olan bir məsələni də demək yerinə düşər ki, burada ədib heç bir zaman islam dininə qarşı çıxmamışdır. Baxmayaraq ki, S.M.Qənizadə Aleksandrovski Müəllimlər İnstitutu kimi yüksək dərəcəli bir ali məktəbdə təhsil almışdır və öz doğma dininə münasibəti də daim tamamilə müsbət olmuşdur.O öz etiqad və inanc sisteminə həmişə rəgbət, hörmət və məhəbbətlə yanaşmışdır.Yəni bədii yaradıcılığında ədibin məqsədi heç də dini tənqid etmək deyil, buradakı umumi mənzərəni, sosial mühiti real şəkildə oxucuya çatdırmaqdır.

Bir faktı qeyd etmək yerinə düşər ki və. "Qurban bayramı" dini mövzulu əsər olduğundan sovet dövründə çap edilməmiş, hətta S.M. Qənizadənin nəşr olunan əsərlərinə də salınmamış və tədqiqatdan kənarda qalmışdır. Hekayənin bəzi məziyyətləri barədə yığcam şəkildə ilk dəfə A. Məmmədov və X. Məmmədov danışmışdır.

Bir sözlə bu əsər islamı təbliğ edən bir hekayədir. Bu Salmanın mülahizə və təlqinlərində öz əksini tapır. Usta Saman qatı bir islam təəssübkeşidir. Onun nəzərində müsəlmançılıq ayrı-ayrı xalqların sadəcə olaraq vahid etiqadı, dini inamı yox, milli birliyidir.O bütün müsəlmanları eyni millət kimi anlayır. İslam millətinin birliyini, yekdilliyini fədakar bir təəssüblə təbliğ edir. Bununla belə usta Salmanın islam birliyi ideyası zərərli görünmür. Çümki bu birlik heç kimə, heç nəyə qarşı yönəlmir. Sadəcə olaraq cəmi müsəlmanların bir-birinə əl tutmasının, kömək və himmət etməsinin, millətin tərəqqisi və inkişafına çalışmasının, milləti-islamın inkişafı üçün rəvac verməsinin tərəfdarı kimi ziyanlı görünməyən bir mövqe tutur.

Hekayədə mövzu obyekti kimi kiçik bir müsəlman ailəsi götürülür. Ailə cəmi üç nəfərdən – ata dəllək usta Salmandan, ana Gülsümdən və övlad yeddi yaşlı İsmayıldan ibarətdir. Əslində bu ailə bütün müsəlman ailəmini tipik bir hüceyrəsidir, miniatürdə bütün müsəlman dünyasıdır. Daha dəqiqi, bu ailə aləmin analoqu, tam bənzəridir. Bənzərliklər çoxdur; dünyagörüşün məhdudluğu, çarəsizlik, süstlük, sadəlövhlük, zavallılıq, miskinlik, hər şeyə kor-koranə inam, etiqadda kortəbiilik, məsumluq, mübarizə əzminin yoxluğu, təvəkkül, çətin məqamda çıxış yolunu ancaq göz yaşı tökməklə görmək və s. Əsərin əsas qəhrəmanı yeddi yaşlı İsmayıldır. O, böyüməkdə olan tipik bir müsəlman uşağıdır. Tərbiyə ahəngi də bütün islam dünyasında olduğu kimidir. Ismayıl məhdud bir mühitdə böyüyüb təriyə alır. Bu, elmdən, maarifdən, mütərəqqi və müasir dünyadan xəbərsiz, süst, məhdud bir mühitdir. Ismayılın əlaqədda olduğu, gördüyü

mühit ata-anası, qonum-qonşular, təhsil aldığı mollaxana, getdiyi məhəllə məscididir. Bilik mənbəyi isə atası usta Salmanın, mollaxanada mollanın, məsciddə molla Mahmudun və Göyçək kişinin söylədiklərindən ibarətdir. Belə bir ictimai mühitdə böyüyən və tərbiyə alan uşağın sonralar Məmmədhəsən əmiyə, usta Zeynala, usta Ağabalaya çevriləcəyi əvvəldən bəllidir. Bu barədə A.Məmmədovun qənaətinə şərik çıxmaq olar: "Əgər usta Salman Məmmədhəsən əmi, usta Zeynal, usta Ağabala silsiləsindəndirsə, İsmayıl həmin tiplərin uşaqlığıdır" (10, 98).

Ismayıl həssas bir uşaqdır. Eşitdiklərinə həsasslıqla yanaşır. Bunların fərqinə varır. Onlar barədə öz təsəvvür və bilik dairəsi çevrəsində götür-qoy edir. Məsələn, millət və himmət barədə atasının izahatlarndan sonra o, uzun müddət bununla bağlı düşüncəyə dalır, öz dünyasında onu təhlil edir, özünəməxsus qənaətlərə gəlir: "Usta Salman sözün qurtardı. İsmayıl həmin vüqar ilə balışa söykənib fikirdə idi. Yeddi yaşında bu səbi indi on gün idi ki, gecə-gündüz millət və məzhəb söhbətlərinə alidə olub riyazətdə idi. Bu on günün müddətində uşaqlara müxtəs o qədər müləkə hasil etmişdi ki, "millət" və "himmət" nə olduğun aydınca çaşa düşürdü. Qurban ayının əvvəlindən millət və məzhəb qeyrəti nabalığ İsmayılın balaca ürəyində qonçalaşıb baş verdiyində indiki qurban söhbətində haman qönça şüküft etməkdə idi" (8, 17).

İsmayılın millət və himmət barədə düşüncə və qənaətləri atasının, Göyçək kişinin və s. şəxslərin izahatları əsasnda formalaşır. Əslində o, bu anlayışların etnik sosial, fəlsəfi mahiyyətini anlamır və anlaya da bilməz. Ancaq onu öyrənir ki, millət onun dindaşları, onunla eyni etiqada mənsub olanlardır və onlara yardım etmək, kömək göstərmək lazımdır. Onun "millət"in nə olduğu barədə yanlış, dolaşıq təsəvvürü atasının bu barədə dumanlı şərhlərindən qaynaqlanır.

Kiçik qəhrəmanın arzu və istəkləri də ətrafdan eşitdikləri əsasında formalaşır. Həm də bunlar fərdi istəklər olmayıb cəmiyyət, millət haqqında ümuni toplumun mənafeyi, xoşbəxtliyi, rifahı, taleyi ilə bir bağlanır.Məsələn,şeytanın pis, fəsadd və şər törədən bir məxluq, insanların düşməni olduğunu eşidən İsmayıl onu birdəfəlik yox etmək ehtirası ilə yaşayır.Həmvətənlərinin, mənub olduğu millət övladlarının ac-yalavac, köməksiz, çarəsiz qaldığını eşidib gələcəkdə onlara daha böyük himmətlər edəcəyi barədə düşünür.

İsmayıl ata-anası üçün də sevimli, ürəyiyanan bir övladdır.O, atasının kasıblıq ucbatından qurban kəsə bilmədiyini gördükdə dərin məyusluq və iztirab hissi keçirdir.Atasına Allah qarşısında xəcalətdən çıxmaq, borcunu yerinə yetirmək üçün onu qurban kəsməsini xahiş edir.

Usta Salman və Gülsüm kasıb və zavallı şərq adamıdırlar.Dəllək usta Salman bir az da əhli savaddır, vaxtı olanda arabir qəzet, kitab mütaliəsi ilə məşğul olur. Amma onun elm, bilik və maarif dairəsi məhdud olaraq qalı. Başqa həmvətənlərindən elə bir üstün cəhəti ilə fərqlənmir.

"Qurban bayramı"nda vətənpərvərlik, millətsevərlik ideyası aparıcı xətlərdən birini təşkil edir. Bu hiss usta Salmanda çox güclüdür.O, həmin təssübkeşlik hissini övladı İsmayıla da ötürür. Ancaq onlar vətən və millətə xidmət etməkdə, ona faydalar verməkdə acizdirlər.Ac və aciz həmvətənlərinə Allahın əziz günündə kömək etmək, ianə verməkdən ötrü atanın bir şahıya, ananın iki qəpiyə, balaca İsmayılın isə yeganə şəxsi əmlakı olan cama gücü çatır.Bununla belə usta Salmanın "millət eşqinə" yaşamaq,"millətə himmət"barədə fəlsəfəsi sərrast və qənaətləndirici təsir bağışlayır. O, oğluna başa çalır ki: "Qurban kəsməkdən murad qoyun qanı tökmək deyil, bəlkə, fədakarlıqdır.Fədakarlıq və himmət ikisi bir söz mənasındadır.

Himmət işində az-çox nəzərə alınmaz.Millət eşqinə hər kəs öz bacardığı qədər himmət etmək borcudur.

Himmət təkcə pul ilə deyil. Dövlətlilərin himməti pul ilə olur, igidlərin himməti can ilə olur. Alimin və müəllimin himməti təlim və tərbiyə ilə olur.Axır ki, hər kəs öz varından millət yolunda himmət və fədakarlıq etmək borcudur".

"Qurban bayramı" yüksək sənətkarlıq səviyyəsinə malik bir hekayədir. Hər şeydən əvvəl əsər "maraqlı kompozisiya üsullarına malikdir. Bunlardan üçü hekayədə özünü daha qabarıq surətdə nəzərə çapdırır: təsvir-təhkiyə, alleqoriya və dialoq. Bədii əsərdə təsvir-təhkiyə müxtəlif funksiyalar daşıyır.Yazıçı bu üsuldan daha çox qəhrəmanlarını səciyyələndirmək, hadisələrin milli koloritini qüvvətləndirmək üçün istifadə etmişdir...Dialoqlar bir qayda olaraq əksər hallarda informasiya xarkteri daşıyır. Bu, Salman və İsmayılın dialoqlarında daha qabarıq nəzərə çarpır" (10,195)

"Qurban bayramı"hekayəsinin dil axarı ahəstə və aramlıdır. Hadisələrin təsviri üçün iti, sürətli təhkiyə ritmindən imtina edilmişdir. Bu, haqqında danışılan varlığın təbiətinə nə qədər uyğun gəlir?Əslində bu həyatın özünün hərəkəti, tərpənişi və inkişaf tempi son dərəcə ləngdir. Hər şey donuq, süst, ətalətli, səbirli təvəkküllüdür.Təhkiyənin ləng axarı, səbirli gedişi mövcud aləmin təbiəti ilə tam müvazidir, onunla mütənasibdir.

Hekayədə yazıçı uşaq aləminin dərinliyinə enməyi bacarır. Onun mövqeyi İsmayılın tərəfindədir. Lakin o, özünü zahirən bitərəf kimi aparır, mövqeyini aşkar şəkildə bəlli etməyə tələsmir.Hadisələrə, qəhrəmanın düşüncələrinə istiqamət verir, sonra səbrlə onu izləyir. Onun əsərin ideyasına şərikliyi batindədir.

"Qurban bayramı" psixoloji hekayədir. Yazıçı obrazların mənəvi – psixoloji portretini yaratmağa daha çox fikir vermişdir. Bu, Azərbaycan ədəbiyyatında, bəlkə də yeganə əsərdir ki, islam ehkamının mənəvi əsarətində yaşayan fanatik uşağın daxili potreti bu qədər təbii və ustalıqla təsvir edilmişdir.Hekayədə umumi fonda hərəkət azdır.Tanıdığımız məkanlar isə usta Salmanın evi, onun həndəvəri və məscid həyətidir. Burada da dəyişən, bir-birini əvəz edən rəngbərəng mənzərələr yox sabit həyat və bir də obrazların maraqları, düşüncələri, izahatları vardır.İşdən, əməli fəaliyyətdən çox fikir və hisslər, psixoloji məqamlar vardır. Usta Salmanın dərdləri, məsələləri anlama, qavrama, təhlil ədasından qopub gələn şərhləri,Gülsümün sarsıntıları, İsmayılın maraq və aruları çox real, təfərrüatlı, inandırıcı şəkildə təsvir edilmişdir.Hekayədəki obrazların öyrədən (usta Salman) və öyrənən (İsmayıl) bölgüsü tez-tez təhkiyədən mükaliməyə keçmək zərurəti yaradır.

Obrazlar xaraktercə çox dolğun və mükəmməldir.Usta Salman həm bir ata, həm bir millət qayğıkeşi həm də yoxsul bir ailə başçısı, İsmaıl isə hələ dünyanın acı-şirinini, isti-soyuğunu yeni-yeni öyrənməyə başlayan, bir çox müşküllərin mahiyyətini bilmədən onların həlli üçün sadəlövh inam bəsləyən, özünəməxsus məhəbbəti və nifrəti olan bir uşaqdır.

"Qurban bayramı" hekayəsi dini mahiyyətli məqamlar olsa da, balaca İsmayılın simasında gənc nəslin gələcəyinə, xalq üçün çalışmaq amalına sahib çıxacağına inam vardır. İsmayıl zəhmət adamlarının Qurban bayramı günərində daha qabarıq şəkildə üzə çıxan yoxsulluğu, cəmiyyətdəki varlı-yoxsul təbəqələşməsi ilə barışmaq istəmir, atasına söz verir ki, böyüyəndə öz millətinə xeyir verəcəkdir.

Ədəbiyyat.

1. Ağayev Ə. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan pedaqoji fikrinin başlıca problemlərinə dair. "Azərbaycan məktəbi" jurnalı., 1975, №1, s. 55.
2. Azərbayan klassik uşaq ədəbiyyatı antalogiyası. Bakı: Elm, 1988.
3. Babayev B. Uşaq ədəbiyyatı nümunələrinin təhlili xüsusiyyətləri. Bakı: Müəllim, 2006.
4. Bəktaşi İ. XX əsr uşaq mətbuatında ədəbiyyat. Bakı: ADU-nun nəşri, 1965.
5. Cavadov T. XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan uşaq poeziyası. Nam.diss. avtoreferatı. Icild. Bakı, 1972.
6. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. K.Məmmədovun redaktəsi ilə. Bakı: Elm, 1979.

7. Hacıyev A. Azərbaycan uşaq ədəbiyyatı tarixi. – Bakı: Təhsil, 2004.
8. Qənizadə S.M. “Qurban bayramı” – Bakı: “Məktəb” 1916, 1919.
9. Qənizadə S.M. Seçilmiş əsər. Bakı: Azərnəşr, 1965, 326 s.
10. Məmmədov A. Azərbaycan hekayəsi, Bakı: Yazıçı, 1984.
11. Məmmədov X. S.M. Qənizadə. Bakı: Yazıçı, 1983.

ABDULLA ŞAİQ ŞEİRLƏRİNDƏ MÖVZU RƏNGARƏNGLİYİ

ƏNTIQƏ ASLAN QIZI QƏHRƏMANOVA

Azərbaycan Dövlət Pedaqoji Universiteti filologiya üzrə fəlsəfə doktoru, dossent

Xülasə

A.Şaiq Azərbaycan ədəbiyatının ən görkəmli şairlərindən biridir. O, uşaq ədəbiyyatına gözəl əsərlər bəxş etmişdir. Yazdığı əsərlərdə uşaq dünyasının sirli-sehirli aləmindən, onların maraq dairəsindən, təbiətdəki canlılara göstərdikləri məhəbbətdən söz açılır. Belə şeirlərdən "Xoruz", "Keçi", "Uşaq və dövşan", "Yetim cücə", və s. göstərmək olar. Şair şeirlərində gülləri, çiçəkləri vəsf edir. şair yazdığı bir sıra şeirlərdə uşaqlarda poeziya ilə musiqinin gözəlliyindən, zövq almağı aşılayır. Onlarda əməksevərlik, təmizlik, təhsilə maraq oyadır. Şairin "bahar nəğməsi", "Əkinçi nəğməsi", "Məktəbli marşı" , "Vətən nəğməsi" və s. şeirləri uşaqların musiqi zövqünə ,zehni inkişafına kömək edir. Şairin yaradıcılığı ədəbiyyatımızda böyük iz buraxmışdır.

Açar sözlər: Azərbaycan dili, məktəb, uşaq, ədəbiyyat, şeir, ana, vətən, xoruz, dostluq

Summary

A.Shaig is one of the most prominent poets of Azerbaijan literature. He donated exquisite works to child literature. In his works It is talked the mysterious realms of the child's world, their interest, and their love to nature.For example Rooster, Goat, Child and Rabbit, Orphaned chick. The poet describes flowers in his poems. The poet teaches the children to enjoy the beauty of poetry and music. With his poems he aroused interest to diligence, cleanliness, education in the children. His "The song of Spring", "The song of cultivator", "School anthem", "The song of Motherland" and other poems help the children to enjoy music and to develop their mind. The poet's creativity left a great mark in our literature.

Key words: school, child, literature, joy, mother, motherland, rooster, friendship

Giriş

A.Şaiq XX əsr uşaq ədəbiyyatımızın yaradılması və inkişaf etdirilməsinə ardıcıl və məqsədyönlü şəkildə çalışmış, öz fəaliyyəti ilə bu sahədə bir məktəb yaratmışdır. "O, müntəzəm və ardıcıl şəkildə həmişə uşaq ədəbiyyatı ilə yaşamış, nəfəs almışdır. Azərbaycan uşaq şeiri və nəsri dramaturgiyası bütöv və müstəqil bir klassik məktəb səviyyəsində məhz onun yaradıcılığında kamala çatmışdır" (Y.Qarayev) (3.səh.134)

Abdulla Şaiqin ilk mətbu şeiri də uşaqlar üçün yazılmışdır. "Ananın öz oğluna lay-lay" deməsi başlıqlı bu şeirdə ana öz övladına onun ulu və şöhrətli söykökə, gözəl və zəngin, əsrarəngiz təbiətli vətənə bağlı olduğunu belə başa salır: lay-lay mələkim, sevdiciyim, yavrucuğum, yat. Bir də ələ düşməz bu cocuqluq dəmi, heyhat! Türk oğlusan, əcdadın ulu, şanlı, şərəfraz. İştə vətənimdir, a quzum, şanlı bu Qafqaz". Həyata qədəm qoyduğu elə ilk anlardan ana öz övladının mənəvi-əxlaqi tərbiyəsi ilə yanaşı, həm onun fiziki sağlamlığı qayğısına qalır, həm də yavrusuna parlaq günəşli bir səhər arzulayır.

A.Şaiq uşaq poeziyasına, onun maraq dairəsi və anlaq səviyyəsinə bələd olan incə zövqlü, həssas duyğulu sənətkardır. Odur ki, uşaqların nağıl və əfsanə qanadlı fantaziyası, gördükləri, müşahidələri qarşısında duyduğu heyrət və təəccüb onun şeir və hekayələrində romantik bir vüsətlə əks etdirilmişdir. Bu əsərlərdə romantizmə xas zahiri sadəlövlük, ilkinlikdən doğan

saflıq, heyrət və varlığı dərk etmək cəhdləri sanki uşaq dünyasının sirli-sehirli aləmindən güc alır. Uşağın ilkin olaraq ətraf aləmə, təbiətdəki canlılara göstərdiyi diqqət və maraq şairin "Xoruz", "Keçi", "Uşaq və dovşan", "Yetim cücə" və s. şeirlərində öz əksini həyatdan doğan romantik heyrətin poetik ifadəsi şəklində tapmışdır.

Xoruzun hərəkət və əlamətlərindən təəccüblənib bütün bunların sirrini anlamağa çalışan uşaq ona belə deyir:

Ay pipiyi qan xoruz,

Gözləri mərcan xoruz!

Sən nə tezdən durursan

Qışqırıb banlayırsan

Qoymayırsan yatmağa

Ay canım, məstan xoruz!

Hər birimizin uşaqlıqdan əzbər bildiyimiz bu kiçik şeirdə ifadə olunan heyrət və saflıq dolu məna və məzmun dərinliyi, bütün bu cəhətlərin böyük ustalıqla uşaq marağına uyğun ifadəsinin nəticəsidir ki, o, uşaq poeziyasının klassik nümunələri sırasına daxil olmuşdur. Yaxud, "Keçi" şeirində keçinin hərəkətləri ilə yanaşı, onu gözləyən təhlükədən narahat olan uşağın hiss və həyəcanlarını görürüksə, başqa bir şeirdə "Uşaq və dovşan"ın dialoqu vasitəsilə digər canlılarla insanın ünsiyyət yaratmaq cəhdini və bütün mümkünsüzlüyünün şahidi oluruq. Dovşanın ondan qaçmasını istəməyən uşaq onu özü ilə dostluğa belə çağırır:

Dovşan, dovşan, a dovşan:

Qaçma dayan a dovşan,

Qaçma səni sevəndən

Can kimi bəsləyəndən.

Dovşan isə uşaqdan qaçmasının səbəbini belə izah edir:

Dura bilmərəm, dadaş,

Yanında var alabaş

Xəbərdaram işindən

Qurtarmaram dişindən

A.Şaiqin uşaq şeirləri həm də uşaqları təbiətdəki müxtəlif canlılar, eyni zamanda təbiət hadisələri, müxtəlif çiçəklər, bitkilərlə yaxından tanış etmək, onların xüsusiyyətləri və ətraf aləmdəki yeri barədə məlumat və bilik, anlayış vermək məqsədi daşıyır. Yuxarıda haqqında söz açdığımız şeirlərdən başqa "Quzu", "Bülbül", "Yetim cücə", "An", "Kəpənək", "Qızılgül", "Bənövşə", "Zanbaq", "Qərənfil" və s. şeirlər deyilənlərə misaldır. "Səhər", "Payız gecəsi", "Bahar" adlı bir neçə şeir, "Ulkər", "Tonqal" və s. şeirlər balaca oxucularda həm də təbiətə, onun gözəlliklərinə məhəbbət hissi aşılamaq məqsədi daşıyır. Məsələn, dillər əzbəri olan "Bənövşəyəm, bənövşə, düşmüşəm dilə, dişə" misraları ilə başlayan şeirdə bu bahar çiçəyinin xüsusiyyəti barədə - nə vaxt açıb, solması haqda deyilir:

Bahar oldu açaram

Qar, borandan qaçaram

Başqa güllər açanda

Mən quş olub uçaram.

Burada bənövşə çiçəyinin digər çiçəklərdən tez açıb az ömür sürməsi bilərəkdən solub getmək yox, "quş olub uçmaq" kimi ifadə olunur. Bununla şair bənövşənin əbədi yaşarlığı, sadəcə olaraq uçub harayasa getməyi və nə vaxtsa qayıdacağı haqda oxucuda təsəvvür yaradır. Balaca oxucu intizarla bənövşənin "qayıdacağı" anı gözləyir:

Qərənfiləm mən

Gözəl güləm mən

Yaşıl saplaqlı

Bir sünbüləm mən.

A.Şaiq təkcə gülləri, çiçəkləri vəs etmir. O, başqa bir hadisə və əlamətin hər birində bu təbiət gözəlliklərini bir əlamətini tapır.

A.Şaiq uşaqlarda poeziya və musiqi zövqünün cilalanması, onlarda təmizlik, səliqəlilik, əməksevərlik, təhsilə maraq və s. sevgi hissinin aşılanması məqsədi ilə də çoxlu şeir yazmışdır. Şairin "Bahar nəğməsi", "Əkinçi nəğməsi", "Dəmirçi nəğməsi", "May nəğməsi", "Məktəbli marşı", "Vətən nəğməsi", "Ana yurdum" və s. şeirləri uşaqların musiqi zövqünə, zehni inkişafına onların vətənpərvərlik ruhunda tərbiyələnmələrinə xidmət edir. "Təmizlik" şeiri başqa əxlaqi sifətlər təlqin edir. Şeirdə balaca qəhrəmanın dili ilə oxuyuruq:

Səhər durunca,

Əlimdə fırça,

Sildim dişimi,

Bildim işimi.

İnanmırsan, bax,

Dişim ağappaq

Üstüm tər-təmiz,

Bax beləyik biz.

Uşaqlara bu cür əxlaqi keyfiyyətlər cürbəcür forma və üsullarla aşılanır. Bundan başqa "Arı", "Bir quş" və s. bu kimi şeirlər də təsir gücü ilə seçilir.

Uşaqlarda zəhmətsevərlik, valideyinlərin köməyinə yetişmək duyğusu A.Şaiqin "Yeni köməkçi" şeirində oğlanın tarlada xış sürən anasına könüllü kömək etməsinin təsviri ilə aşılanır. "Leyla", "Oyan, oğlum", "Məktəbdə" və s. şeirlərdə isə balaca qəhrəmanlar elm oxuyub tərəqqi etməyə, layiqli vətəndaş kimi yetişməyə çağırılırlar.Məsələn, "Layla" şeirində ana öz balasını ancaq yemək-içmək avarası olmaqdan çəkindirib, böyüyüb "bir azca boy atandan" sonra oxumaq barədə düşünməyə və məktəbə getməyə səsləyir6

Böyü bir az, yeddi yaşa yetgilən,

Səhər tezdən dur, məktəbə getgilən;

Dərs oxuyub, yazmağa səy etgilən;

Layla quzum, layla gözüm, yatgilən,

Rahat olub bir azca boy atgilən

A.Şaiq balaca qəhrəmanını addım-addım izləyir. Biz onun "Oyan, oğlum!" şeirində sanki "Layla" şeirindəki uşağı artıq məktəb yaşında görürük. Şair bu dövrdə uşağa layla demək yox, onu dərsə həvəsləndirməyə, əslində laylanın məzmun və ideyasını dəyişməyə üstünlük verir:

Ağıllı oğlum, oyan!

Qiymətlidir hər zaman

Tez ol dur, get məktəbə,

Sarıl elmə, ədəbə

Səhər ziyandır yuxu

Məktəbə get, dərs oxu.

A.Şaiq uşaqlar üçün "Tülkü və aslan", "Aslan, qurd və tülkü", Tülkü və qurd" və s. təmsillər də yazmışdır. Həmin təmsillərdə düşüncəsizliyin və lovğalığın acınacaqlı nəticəsi, zalımlıq və tamahkarlıq kimi cəhətlər tənqid olunub, ibrətamiz əxlaqi nəticələr çıxarılır. "Tıq-tıq xanım", "Tülkü Həccə gedir", "Yaxşı arxa" mənzum nağıllarında, "Şələquyruq" adlı nağılları, hekayəsində balaca oxucularına folklordan bəhrələnmə yolu ilə maraqlı əhvalatlardan bəhs edir. Bu zaman onlarda özündən razılıq, hiyləgərlik və riyakarlıq, tamahkarlıq və ziyankarlıq və s. kimi zərərli vərdişlərdən uzaq olub, ağıllı, sadə və səmimi, dostluqda həmrəy və sədaqətli olmaq kimi əxlaqi sifətlər aşılamağa çalışır.

A.Şaiq bu mənzum nağılları o qədər sənətkarlıqla işləmişdir ki, onlar bu gün də öz təravətlərini qoruyub saxlayırlar. Hətta sonralar həmin əsərlərin motivləri əsasında uşaqlar üçün tamaşalar hazırlanmış, cizgi filmlər çəkilmişdir.

A.Şaiq folklor və klassik yazılı ədəbiyyatımızın motivləri əsasında uşaqlar üçün "Eloğlu", "Vətən", "Fitnə", "Nüşabə", "Şah Abbas", "Qaraca qız", "Qoç-Polad", "Tapdıq Dədə" və s. pyeslərini qələmə almış və Azərbaycan MEA-nın müxbir üzvü Əziz Mirəhmədovun yazdığı kimi, uşaq dramaturgiyası sahəsində Azərbaycanda yeni-yeni müəlliflər ordusunun yaranmasına səbəb olmuş, habelə gənc müəlliflərin qələmlərinin bu sahədə püxtələşməsində öz müəllim və təcrübəli yazıçı qayğısını əsirgəməmişdi. A.Şaiqin bu pyesləri Azərbaycanda yeni yaradıcılıq istiqamətinin formalaşıb inkişaf etməsinə səbəb oldu. Bakıdakı "Kukla teatrı"nın A.Şaiqin adını daşıması da bu baxımdan təsadüf kimi baxılmamalıdır.

Ədibin "Tonqal" şeirində digər şeirlərində olduğu kimi şairin müşahidə və bənzətmələri incə və poetik olduğu qədər də həyatidir.

Bir qırmızı güldür tonqal,

Bir dəstə sünbüldür tonqal

Bağdan dərilmiş lalədir,

İçilməz al piyalədir

Tonqal üzərində qurulan bənzətmələr onun çırta – çırtla yanarkən "oxuduğu nəğmə" uşaqlarda müşahidə və fantaziya qabiliyyətinin formalaşdırılıb inkişaf etditilməsinə xidmət edir.

Bundan başqa ədibin "Vətən" şeiri də vardır.

Sən ey gözəl vətənim,

Yurdum, yuvamsan mənim,

Səndə xoş ömür sürür

Şeirlərim, sevənim.

Sənsən yanan çırağım

Yurdum, yuvam, ocağım

Havam, suyum, torpağım,

Bağım, tarlam, çəmənim.

Ədibin bundan başqa digər "Vətən" şeiri də vardır ki, bu şeirdə Vətənlə bağlı sıxıntı və əzabları əks olunmuşdur. Şair vətəni gül ləçəklərinə qonan şəbnəmi də dərddən yağan göz yaşlarına bənzədir. İnkişafdan qalan və düçar olduğu faciənin təsiri ilə sanki donub qalan vətənin bu ağlar vəziyyəti vətəndaş şairin canını üzüb, cismini əridərək zəiflədir. Vətəni canı kimi sevən şairin ilham pərisi "gözəl mələk" də qüssə - qəm içindədir.

Gördükcə dərdini əriyir cismi-natəvan

Ney tək sızıldayan dili – pürqəm Vətən, Vətən.

Qarşımda dərd, matəmə batmış gözəl mələk

Səslər həzin səda ilə hərdəm: Vətən, Vətən.

A.Şaiq vətənin bu möhnətinin tarixi-ictimai səbəblərini axtararkən yadına "övladi naxələf" də düşür. Vətən övladının naxələf çıxması fikri ona sonsuz dərd gətirir.

Nəticə

A.Şaiq Azərbaycan ədəbiyyatının ən görkəmli, misilsiz nümayəndələrindən biri olmuş, əsərləri ilə Azərbaycan ədəbiyyatında böyük iz buraxmışdır. Biz A.Şaiq yaradıcılığımnda elə bir məsələ tapa bilmərik ki, məhz A.Şaiq o məsələyə toxunmasın. Dövrün, ictimai şəraitin bir çox problemlərinə məhz ös əsərlərində geniş şəkildə toxunmuş və xalqın maariflənməsində böyük xidmətləri olmuşdur. Təsadüfi deyil ki, məhz A.Şaiqi uşaq ədəbiyyatının banisi hesab edirlər. Uşaq ədəbiyyatının ən gözəl incilərini, dövrümüzün uşaqlarının dilinin əzbəri olan şeirləri, hekayələri böyük ustalıqla qələmə almış və bu şeirlərin, hekayələrin çoxu uşaqların tərbiyəsində danılmaz faktdır. Çünki bu şeirlərin, hekayələrin çoxu tərbiyəvi əhəmiyyət kəsb edir.

Ədibin bir çox şeirlərində necə vətənpərvər şair olduğu açıq-aşkar görsənir. Xalqın ağır dövrlərində keçirdiyi sarsıntını, zülmünü çox məharətlə canlı təsvirlərlə öz əsərlərində canlandırmışdır.

Ədəbiyyat:

1. A.Şaiq. "Seçilmiş əsərləri". 3 cilddə. II cild. Avrasiya Press". Bakı, 2005
2. A.Şaiq – biblioqrafik göstərici. "Şaiqanə Yad et". Bakı, 2016
3. A.Şaiq. "Arazdan Turana". Bakı, Nurlan, 2004

NATIONAL LEADER H. ALIYEV AND WRITER I. EFENDIEV CREATION
ÜMUMMILLI LIDER H. ƏLIYEV VƏ XALQ YAZIÇISI İ. ƏFƏNDIYEV YARADICILIĞI

YEGANƏ NƏRİMAN QIZI QASIMOVA

F.ü.f.d., dosent ADPU, Ədəbiyyat kafedrası

Summary

H. Aliyev's attention and concern for the development of our national culture, especially our literature, cannot be compared with the activities of any head of state in the humanitarian field. With his initiative and direct leadership, the jubilee celebrations of our artists were held, their statues were erected, their names were immortalized, their books were published with high circulations, their works were translated into world languages and promoted, they were awarded orders and medals, and they were awarded with a Presidential scholarship. N. Ganjavi, I. Nasimi, M. Fuzuli, M. P. Vagif, M. F. Akhundzade, J. Mammadguluzade, H. Javid, C. Jabbarli, S. Vurgun, S. Rahimov, B. The celebration of the anniversaries of Vahabzade, I. Efendiyev, R. Rza and dozens of our classics belonging to different generations at the national and international level is connected with the name of the great leader. Of course, it is impossible to cover all the works done in this direction in one article. It is worth mentioning only one fact. It is Heydar Aliyev's appreciative attitude towards Huseyn Javid's personality and art.

Key words: leader, ideologist, creativity, literature, culture

Giriş

Dövlətçilik salnaməmizdə özünəməxsus iz qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş H. Əliyev dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Elmin, iqtisadiyyatın, sənayenin, tarixin, fəlsəfənin, mədəniyyət və incəsənətin - bir sözlə, həyatımızın bir çox sahələrinin bilicisi, universal bilik sahibi olan H. Əliyev rəssamla bir sənətşünas, yazıçı ilə bir ədəbiyyatşünas-kulturoloq, memarla mahir bir mütəxəssis kimi fikir mübadiləsi edə bilirdi.

Müdrik lider ilk gənclik illərindən ədəbiyyatı yüksək səviyyədə mənimsəmiş, daim ədəbi prosesi maraqla izləmiş, bir ideoloq-analitik kimi ədəbiyyatı sənət meyarları ilə təhlil etməyi bacarmışdır. Buna onun həm hərtərəfli biliyi və dünyagörüşü, həm də çoxillik təcrübəsi imkan vermişdir. H. Əliyevin fikrincə, "Azərbaycan xalqının müsbət xüsusiyyətlərindən biri də odur ki, mədəniyyətə, ədəbiyyata daim diqqət, qayğı göstərib və hörmət edibdir. Bilmirəm, bəlkə də səhv edirəm, ancaq yazıçıya, şairə, mədəniyyət xadiminə bizim Azərbaycandakı kimi hörmət və ehtiram bəlkə də az yerlərdə tapılar, bunun kökləri var. Çünki bizim ədəbiyyatımız da, mədəniyyətimiz də zəngindir. Ədəbiyyatımızı, mədəniyyətimizi və tariximizi zənginləşdirən şəxsiyyətərdə olubdur. Ona görə də xalq bu şəxsiyyətlərlə həmişə fəxr edərək, onların yaratdıqlarını sevə-sevə oxuyaraq mədəniyyətə, ədəbiyyata hörməti nəinki saxlayıb, hətta artırıblar" [1, 152].

Açar sözlər: lider, ideoloq, yaradıcılıq, ədəbiyyat, mədəniyyət

H. Əliyevin milli mədəniyyətimizin, xüsusilə ədəbiyyatımızın inkişafına diqqəti və qayğısı heç bir ölkə başçısının humanitar sahədə fəaliyyəti ilə müqayisə oluna bilməz. Onun təşəbbüsü və bilavasitə rəhbərliyi ilə sənətkarlarımızın yubiley təntənələri keçirilmiş, heykəlləri ucaldılmış,

adları əbədiləşdirilmiş, kitabları yüksək tirajlarla nəşr olunmuş, əsərləri dünya dillərinə tərcümə edilərək təbliğ edilmiş, orden və medallara layiq görülmüş, Prezident təqaüdü ilə mükafatlandırılmışlar. Qədim abidəmiz olan "Kitabi Dədə Qorqud" dastanlarının, N.Gəncəvi, İ.Nəsimi, M.Füzuli, M.P.Vaqif, M.F.Axundzadə, C.Məmmədquluzadə, H.Cavid, C.Cabbarlı, S.Vurğun, S.Rəhimov, B.Vahabzadə, İ.Əfəndiyev, R.Rzavə onlarla müxtəlif nəsillərə mənsub klassiklərimizin yubileylərinin respublika və beynəlxalq səviyyədə qeyd olunması ulu öndərin adı ilə bağlıdır.Bu istiqamətdə görülən işlərin hamısını bir yazıda əhatə etmək əlbəttə imkan xarıcındədir. Təkcə bir faktı xatırlatmaq yerinə düşər. O da Heydər Əliyevin Hüseyn Cavidin şəxsiyyətinə və sənətinə olan qədirşünas münasibətidir.

Ümummilli liderin Cavid sənətinə verdiyi yüksək dəyər, onun xatirəsini əbədiləşdirmək sahəsində imzaladığı sərəncamlar – 1981-ci ildə ədibin 100 illik yubileyi haqqındakı tarixi qərarı, yaşadığı evin şairin adını daşıyan muzeyə çevrilməsi, 1982-ci ildə Cavidin cənazəsinin Uzaq Sibirdən gətirilərək doğma torpağa tapşırılması, məqbərəsinin təntənəli açılışı ilə bağlı tarixi nitqi, əsərlərinin külliyyatının nəşri, dramlarının yeni üslubda səhnəyə qoyulması və bu kimi möhtəşəm tədbirlər ölkə rəhbərinin, hər şeydən əvvəl, ədəbi-mədəni irsə varislik münasibətinin ifadəsidir. Düşünürük ki, bu həssas münasibət və səmimi bağlılıq bir siyasi xadimin, dövlət başçısının mənsub olduğu xalqın böyük şairinə bəslədiyi məhəbbətin ən bariz timsalıdır və ayrıca bir mövzu kimi xüsusi araşdırılma predmeti olmalıdır. Onun fəaliyyətinin əsasında hər zaman insan amili – azərbaycanlı anlayışı dayanmış, xalqımızın milli müstəqillik ideologiyası, istiqlaldüşüncəsi formalaşıb möhkəmlənmişdir.

Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi vaxtdan etibarən, xüsusilə XX əsrin 60-cı illərində ədəbi prosesdə milli təfəkkürün canlandırılması mühüm bir hadisə və dövrün tələbi kimi dəyərləndirilmişdir. Bədii ədəbiyyatın insan mənəviyatına təsiri həmişə böyük olmuşdur. Məhz bu baxımdan mədəniyyət xadimləri və ziyalılarla görüşlərində H.Əliyev deyirdi ki, biz yazıçılardan müasir həyat hadisələrinin dərin ictimai-bədii tədqiqini gözləyirik, elə əsərlər ki, orada cəmiyyətin şəxsi və ümumi mənafelərinin dialektikası, şəxsiyyətin hüquq və vəzifələrinin dialektikası açılıb göstərilir.

H. Əliyev tarixi mövzularda yazılan və tarixi şəxsiyyətlərin bədii obrazlarını canlandıran əsərlərə yüksək həssaslıqla yanaşırdı. O, tarixi yaradan şəxsiyyətlərlə yanaşı, həm də bu tarixin özünün obyektiv və dürüstyazılmasına da diqqət yetirirdi: "Qeyd etmək istəyirəm ki, tarixi simaların obrazları yaradılan və tariximizin çox mühüm dövrləri tərənnüm olunan əsərlər ən yüksək səviyyədə yazılmalıdır. Bunlar çox mühüm, açıq deyək ki, mürəkkəb mövzulardır. Belə mövzuların öhdəsindən yalnız yüksək istedadlı, dərin bilikli sənətkarlar gələ bilərlər. Buna görədə tarixi mövzulu əsərlər yaratmağa girişməzdən əvvəl ədib öz qüvvə və imkanlarını götür-qoy etməli, böyük, ciddi hazırlıq işi aparmalıdır" [5].

Böyük öndər tarixi milli yaddaşı irəliyə doğru inkişafın əsas amillərindən biri hesab edirdi. İctimai formasiyanın hər yeni mərhələsində millət öz tarixini dərk etmək istəyir. Ədəbiyyatın isə bu prosesdə rolu mühümdür. Azərbaycan Yazıçılarının VII qurultayındakı nitqində Heydər Əliyev deyirdi: "Hər bir sənətkar öz xalqının övladıdır və onun tarixi qarşısında məsuliyyət daşıyır. Əvvəlki nəsillərin istedadı və əməyi ilə yaradılmış bütün sərvətləri mənimsəmədən və araşdırmadan yeni mədəniyyət yaratmaq mümkün olmadığı kimi, əvvəlki təcrübəyə arxalanmadan müvəffəqiyyətlə irəliyə getmək olmaz". Təbii ki, bu ədəbiyyatda tarixi mövzu problemini zəruri edir. "Tarix ən qüdrətli və təsirli tərbiyə vasitələrindən, şüurları və həyat mövqelərini formalaşdırmaq vasitələrindən biridir". Bu fikirləri ilə natiq yazıçılar qarşısında tarixi canlandirmaq kimi çətin və ali vəzifə qoyurdu. Burada yazıçının vəzifəsi çoxcəhətli ola bilər, lakin ən başlıcası "xalqın tarixini onun müasir mədəniyyətinə xidmət göstərməyə cəlb etmək"dən ibarət olmalıdır. "Yazıçı sənəti salnaməçi peşəsinə yaxındır" deyən H.Əliyev xüsusilə Azərbaycan tarixinin hansı dövrünü əks

etdirməyin, eləcə də mədəniyyət və elm xadimlərimizin obrazlarının ədəbiyyata gətirilməsinin zəruriliyini də qeyd etmişdi.

Məhz bu baxımdan Xalq yazıçısı, dramaturq və publisist İlyas Əfəndiyevin yaradıcılığı ulu öndərin həmişə diqqət mərkəzində olmuşdur. Bu, xüsusən Azərbaycanın müstəqillik qazandığı dövrlərdə yeni bir vüsət almışdır.

Hələ ötən əsrin 80-cı illərində H. Əliyev xalq yazıçısının sənət fəaliyyətini vurğulayaraq yazırdı: "Bir çox romanların və pyeslərin müəllifi olan İlyas Əfəndiyev respublikada yazıçı və dramaturq kimi xalq tərəfindən tanınmış, bəyənilmiş və sevilmişdir" [2].

İ. Əfəndiyevin "Hökmdar və qızı" pyesinə tamaşa etdikdən sonra H. Əliyev dramaturqun tarixi mövzularda yazdığı əsərlərin əhəmiyyəti üzərində dayanır: "İlyas Əfəndiyevin yaradıcılığı başqa cəhətlərlə yanaşı bir də ona görə əhəmiyyətlidir ki, o, öz əsərlərində Azərbaycan xalqının tarixinin çox mühüm səhifələrini ədəbiyyat, teatr vasitəilə buğünkü nəsillərə çatdırıbdır.... Beləliklə, xalqımızı həm tarixə hörmət bəsləməyə sövq etmiş və bu barədə xidmətlər göstərmişdir, tarixi bilmək üçün xalqımıza yardım etmişdir, eyni zamanda, yaşadığımız zamanda mənəviyyat, əxlaq, insanlıq, vətənə və millətə sədaqət ruhu aşılamışdır" [1,140].

H. Əliyev ədəbiyyata aid çıxışlarında belə bir prinsipdən çıxış edirdi: "Xalqımız, xüsusən gənc nəsil tariximizi bilməli, görkəmli şəxsiyyətlərimizi yaxından tanımalıdırlar". Məhz bu baxımdan H. Əliyev İ. Əfəndiyevin "Hökmdar və qızı" dramının tarixilik və müasirlik qatını açıb göstərir və tarixi dəyəri ilə yanaşı, müasir həyata təsirini də müəyyənləşdirir: "Əsərin bir mənası da bundan ibarətdir ki, xalqımızı, elə o vaxt keçmiş tarixi dövrlərdə də bədbəxt edən içindəki çəkişmələr olub. Bu həqiqətdir ki, xanlar o vaxt bir-biri ilə çəkişməsəydilər, ədavət aparmasaydılar, bəlli iddiada olmasaydılar, biri o birinə hörmət edib hamısı birləşsəydilər, buna nail ola bilərdilər. Düzdür, İbrahim xan bundan çox şikayətlənir ki, mən xanlıqları birləşdirmək istəyirəm, amma birləşmirlər. Bu da həqiqətdir. Çünki İbrahim xan, Cavad xan, Quba xanı Fətəli xan da, Şəki xanı da şah olmaq istəyirdi. Bəli, hər biri istəyirdi ki, şah olsun. Ancaq bunlar bir yerdə olsaydılar, yığılıb hamısı desəydilər ki, gəlin bir nəfəri şah seçək və ona da itaət edək, əlbəttə ki, bu faciələrdən bəlkə də xilas olmaq mümkün olardı"[1, 142]. Həqiqətən də, İlyas Əfəndiyev özünəxas cəsarətlə istər bədii yaradıcılığında istərsə də publisistikasında tariximizi, xalq həyatını, milli müstəqilliyimizi azərbaycançılıq və türkçülük məfkurəsi ilə əks etdirib. Xüsusilə ata-baba yurdu Qarabağın tarixi keçmişi və bu günü sənətkarı həmişə düşündürmüşdü. "Ədəbiyyat və incəsənət" qəzetinə verdiyi bir müsahibəsində İ. Əfəndiyev bir mövzuya aid konkret misallar göstərir: "Xalqı qıra-qıra gəlib Şuşa qalasında, öz qoşununun ortasında hər tərəfdə mühafizə dəstəsi ilə əhatə edilmiş halda sakin olan Ağa Məhəmməd şahın adı bir vətənpərvər tərəfindən öldürülməsi, minlərlə insanın, vətən torpağının xilas edilməsi, sonra isə, satqın, mürtəce xainlərin həmin xilaskarı tutub, ayağına nal çaldıraraq İran şahının hüzuruna göndərmələri dəhşətli faciə deyildi? Yaxud, Qarabağ xanı İbrahimxəlil xanın bütün arvad-uşağı ilə bərabər gecə qılıncla doğranması hadisəsi? Şekspir qələminə layiq olan bu faciələr və buna bənzər digər hadisələr bədii ədəbiyyatımızda yenə də öz həqiqi yüksək ifadəsini gözləyir" [4, 99]. Tarixi hadisələri müasir baxımdan mənalandıraraq müqayisələr aparmağı və tarixin dərslərindən ibrət götürməyi Heydər Əliyev qələm adamlarına həmişə tövsiyə edir. Tarixi səhvlər üzündən uzaq keçmişimizdə xalqımızın yaşadığı faciələrlə müasir dövrümüzdə başımıza gələn müsibətlərin eyni kökdən, eyni mənbədən qaynaqlandığını, keçmiş təcrübədən ibrət ala bilməməyimizi gündəmə gətirir və bu işdə ədəbiyyatın, yazıçı şəxsiyyətinin önəmini qeyd edir: "Bu çəkişmələr dünən də vardı, bu gündə var. 1988-ci ildən xalqımızın başına gələnlər, ermənilərin Azərbaycana təcavüz etməsi, Dağlıq Qarabağ məsələsini qaldırması nəyin nəticəsində oldu? Azərbaycanın içində gedən çəkişmələrin nəticəsində oldu.... Əgər Azərbaycan xalqı birləşsəydi, hamı bir olsaydı, ermənilərin qarşısını almaq mümkün

olmazdımı?.... Xalqımızı..... bu təhlükədən qorumaq, birləşdirmək və həmrəy etmək, Azərbaycanın bu ağır dövründə hamının müstəqilliyimizi qoruyub saxlaması üçün bu əsərin çox böyük əhəmiyyəti var- həm pyesin, həm də sizin bu səhnədə yaratdığınız bu tamaşanın Bizim gəncləri bu tamaşaya mütləq gətirmək lazımdır- universitetlərdən, məktəblərdən gəlsinlər baxsınlar. Tamaşanı tez-tez qoymaq lazımdır ki, çoxları gəlib baxsın. Həm tariximizi, həm başımıza gələn faciələri bilsinlər, həm də bundan ibrət götürsünlər, nəticə çıxarsınlar. Bumdan sonra belə şeylərə yol vermək olmaz- müstəqilliyimizi, azadlığımızı əldən vermək olmaz. Əsərdəki son monoloqda da bunlar deyilir"[1, 144].

Xalq yazıçısı İ. Əfəndiyevin yaradıcılığı sovet dövrünün sosioloji şablonlarını dağıtması, sosialist realizminin estetik tələblərinə uyğungəlməməsi, xalq həyatının milli mənafe baxımından və tarixi dürüstlüklə canlandırması Ulu Öndərin diqqətini cəlb etmişdi."İlyas Əfəndiyev Azərbaycan teatrına çox böyük töhfələr veribdir, böyük xidmətlər göstəribdir, çox dəyərli əsərlər yaradıbdır. İlyas Əfəndiyevin yaradıcılığı başqa cəhətlərlə yanaşı, bir də ona görə əhəmiyyətlidir ki, o öz əsərlərində həm Azərbaycan xalqının tarixinin çox mühüm səhifələrini ədəbiyyat, teatr vasitəsilə bugünkü nəsillərə çatdırıbdır, həm də öz əsərlərində müasir həyatımızın müsbət və mənfi cəhətlərini çox gözəl təsvir edibdir". Beləliklə xalqımızı həm tarixə hörmət bəsləməyə sövq etmişdir və bu barədə xidmətlər göstərmişdir, tarixi bilmək üçün xalqımıza yardım etmişdir, eyni zamanda yaşadığımız zamanda mənəviyyat, əxlaq, insanlıq, Vətənə və millətə sədaqət ruhunu aşılamışdır. Hesab edirəm ki, xalqımız bu əsərlərdən çox bəhrələnmişdir" [1, 140] .

Heydər Əliyev "Hökmdar və qızı" tamaşasının premyerasından sonra səhnə arxasına keçərək yaradıcı heyət-rejissor və aktyorlarla görüşmüş,"maraqlı, məzmunlu və mənalı" tamaşa hazırladıqları üçün onları təbrik etmişdir. Tariximizin bu dövrünün keçmişdə təhrif olunduğunu, tarixçi və salnaməçilərin bu hadisələrə açıq, müasir gözlə, yenidən baxmağa başladıqlarını qeyd edərək bir daha vurğulamışdır ki, "bütün vasitələrlə, o cümlədən mədəniyyət, ədəbiyyat, teatr vasitəsilə indi həqiqəti xalqa bildirmək lazımdır. Həqiqətin xalqa belə çatdırılması daha təsirlidir, xalq bunu qavraya bilir. Yenə də deyirəm, böyük bir kitabı götürüb oxumaq, ondan nəticə çıxarmaq olar. Amma bu o qədər də asan deyil. Lakin bunu ədəbiyyat dili ilə yazıb çatdırmaq, sizin kimi çox gözəl aktyorların ifasında bu vasitə ilə xalqa çatdırmaq çox əhəmiyyətlidir. Mən əsəri bu baxımdan çox yüksək qiymətləndirirəm" [1, 141].

Bir ictimai xadim, ölkə başçısı və şəxsiyyət olaraq Heydər Əliyev, sözün əsl mənasında, qələm adamlarının yaxın dostu, məsləkdaşı, mədəniyyətimizin hamisi olmuşdur. Ədəbiyyat haqqında söylədiyi nitqlərinin birində "...bizim ədəbiyyatımız, mədəniyyətimiz xalqımızın milli sərvətidir və intellektual mülkiyyətdir" deyən ulu öndərin çoxcəhətli fəaliyyətinin ayrılmaz tərkib hissəsi, böyük milli ideyaları həyata keçirmək yolunda onun mənəvi silahı olmuşdur.

Ədəbiyyat:

1.Heydər Əliyev və mədəniyyət. 3 cilddə. II c. Bakı, 2008, 520 səh.

2. Əliyev Heydər. Xalq yazıçısı İlyas Əfəndiyevin 80 illik yubileyi münasibətilə "Ədəbiyyat qəzeti", 199427 may

3. Əliyev Heydər. İlyas Əfəndiyevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin fərmanı "Mədəniyyət" qəzeti, 1994 30 may

4.Yeganə Qasımova. İlyas Əfəndiyevin bədii publisistikası. Bakı, 2017, 155 səh.

5.Nəbiyev Bəkir. İbrətamiz tamaşa ("Hökmdar və qızı" pyesinin tamaşası haqqında) "Azərbaycan" qəzeti, 199627 dekabr

LINGUISTIC FEATURES OF ISA MUGHANNA'S CREATIVITY
İSA MUĞANNA YARADICILIĞININ DİL XÜSUSİYYƏTLƏRİ

GÜNEL HÜMMƏTOVA (PƏNİYEVA) SALEH

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının baş müəllimi, f.ü.f.doktoru

Orcid ID:0000-0002-8916-3484

Summary

Isa Huseynov's creativity has become an object of analysis from several contexts. Literary scholars and linguists have expressed opinions from several aspects. Tofig Hajiyev likened the novel "Mahshar" to a "ship with a heavy load" and I. Huseynov to a "traveler of long journeys", the first sentence of the novel is like the words spoken during a breath and exhalation that corresponds to the characteristics of the syntagm term in the science of linguistics, "each in that first sentence The group of words about breathing came to me like a verse of a poem - I read this "group of words - verses" with rhythmic pronunciation, I did not feel the weight of a page in the sentence, I received as much information as the number of "group of words - verses"; the abundance of information in this one sentence reminded me of the concept of "heavy laden ship"[2], I felt myself in the ocean waves" and emphasized the weight of the language feature in the work. At the same time, linguist Isa Mughanna emphasized that even if you are a linguist, you cannot understand some words in his works without a dictionary. This was proof that it came from the professionalism of the writer and that the writer deeply knew the etymological meaning of the words.

The relevance of the topic is to bring together the ideas of linguists about the language of Isa Mughanna's work and create a common meaning.

The purpose of the research. The main purpose of scientific research is to bring together and analyze the ideas of the writer's works in the language context.

Research method: It is a comparative analysis method.

Scientific novelty: The scientific novelty of the research was the main components of the diversity of the writer's language by approaching the idea that linguists and academics have studied the linguistic features of Isa Mughanna's works from a new aspect.

Keywords: prose, language, etymology

Xülasə

Mövzunun aktuallığı.Azərbaycanın istiqlaliyyət əldə etməsi İsa Hüseynovun yaradıcılığının daha da çiçəklənməsinə, mahiyyətcə dəyişməsinə səbəb olmuş, tarixi mövzuda yeni-yeni əsərlərin yaranmasına təkan vermişdir. Ədibin tarixi romanlarında bir tərəfdən dövrün panoramı çəkilmiş, xalqımızın etnoqrafik yaddaşının aparıcı cizgiləri qabardılmış, digər tərəfdən ədəbi və siyasi şəxsiyyətlərin canlı, real bədii obrazı yaradılmışdır.İsa Hüseynov əsərlərini müxtəlif janrlarda yazmasına baxmayaraq Azərbaycan ədəbiyyatında daha çox tarixi romanlar və povestlər müəllifi kimi tanınmaqda və sevilməkdədir. Ədibin əsərlərində ən qədim dövrlərdən tutmuş XX yüzilə qədər Azərbaycan tarixinin ən mürəkkəb, keşməkeşli hadisələri

(həmçinin bu fonda ədəbi və siyasi şəxsiyyətlərin obrazları) bədii təcəssümünü tapmışdır. Yazıçının tarixi romanlarını səciyyələndirən əsas cəhətlərdən biri onun müraciət etdiyi tarixi dövrü bütün təfərrüatı ilə canlandıra bilmək məharətindədir. Daha doğrusu, yazıçı tarixi yalnız quru fakt və sənədlərin işığında təqdim etmir, ona can və ruh verir, özünün qeyri-adi fantaziyası ilə təsvir etdiyi dövrün təbii mənzərəsini, panoramını yarada bilir. İsa Hüseynovun povestləri tarixə qeyri-adi sevgi və vurğunluqdan yaranmışdır; onların ruhunda, mayasında yüksək vətənpərvərlik və vətəndaşlıq amalı özünü göstərməkdədir. Bu romanlar yalnız bədii düşüncənin məhsulu olmaqla qalmayıb xalqımızın etnoqrafik yaddaşını əks etdirən qiymətli salnamələr kimi dəyər daşımaqdadır.

Dilçi alimlərin İsa Muğanna yaradıcılığının dili ilə bağlı fikirlərini bir araya gətirmək və ümumi məna yaratmaq mövzunun aktualliğini təşkil edir.

Tədqiqatın məqsədi. Elmi tədqiqatın əsas məqsədi yazıçının əsərlərinin ideyalarını dil kontekstində bir araya gətirmək və təhlil etməkdir.

Tədqiqat metodu: Müqayisəli təhlil üsuludur.

Elmi yenilik: Tədqiqatın elmi yeniliyi dilçi alimlərin və akademiklərin İsa Muğanna yaradıcılığının dil xüsusiyyətlərini yeni aspektdən tədqiq etməsi fikrinə yanaşmaqla yazıçının dilinin rəngarəngliyinin əsas komponentləri olub.

Açar sözlər: nəsr, dil, etimologiya

Giriş

Hüseynov yaradıcılığı bir neçə konteksdən təhlil obyektinə çevrilib. İstər ədəbiyyatşünaslar, istərsə də dilçilər bir neçə aspektdən fikir söyləmişlər. Tofiq Hacıyev "Məhşər" romanını "ağır yüklü gəmiyə", İ.Hüseynovu isə "uzaq səfərlər səyyahı"na bənzədərək romanın ilk cümləsinin özünəməxsus şəkildə dilçilik elmində olan sintaqma terminin xüsusiyyətinə uyğun olan bir nəfəs alıb-vermə müddətində deyilən sözlər kimi *"həmin birinci cümlədəki hər tənəffüslük söz qrupu mənə bir şeir misrası kimi gəldi- bu "söz qrupu - misralar"ı ritmik tələffüzlə oxudum, cümlədə bir səhifəlik ağırlıq hiss etmədim, "söz qrupu - misralar"ın sayı qədər informasiya aldım; bu bir cümlədəki informasiya bolluğu həmin "ağır yüklü gəmi"[2]* anlayışını yadıma saldı, özümü okean dalğalarında hiss etdim" fikri ilə əsərdəki dil xüsusiyyətinin ağırlığını vurğulamışdır. Eyni zamanda dilçi İsa Muğanna yaradıcılığındakı bəzi sözləri dilçi olsa da belə lüğətsiz anlaya bilmədiyin vurğulamışdır. Bu həm yazıçı profesionallığından irəli gəldiyinin həm də yazıçının sözlərin etimoloji mənasını dərindən bildiyinin sübutu idi.

Yazıçı romanın dilini səciyyələndirən vasitələrdən biri bədii suallardır. Yazıçı təhkiyə və monoloqlarda hadisələrin çözələnməsi üçün sual cümlələrinə bol-bol yer vermişdir: *"Doğrudanmı, bu evdən də çağa səsi gələcək?! O çal, pırpız qaşların altında o cür heybətli qan çanağına dönən gözlər də güləcək?! Qardaşoğluna "bircə bala" deyən Sultan Əmirli də "mənim balam" deyəcək?! Nə vaxt ola bilər bu iş?*"[4] İsa Hüseynov nəsrinin dil xüsusiyyətləri ilə bağlı Akademik Aydın Xan isə qeyd etmişdir ki," *"İdeal"a doğru aparan yol..." məqaləsində"İdeal" romanını İsa Hüseynov yaradıcılığının "şah" əsəri kimi dəyərləndirərək "kodları axıra qədər öyrənilməyən yeni linqvistik – semantik vahidlərə malik dillə qələmə alınmış ciddi bir ədəbi-fəlsəfi nümunədir" və İsa Hüseynov yaradıcılığını qədim Şərq-Azərbaycan ədəbi-fəlsəfi izini layiqli şəkildə davam etdirdiyini vurğulayaraq bütün ədəbi mühiti maraqlandıran "Varlığın mənası nədir?"[3]*sualının cavabını düşündürən aktual qloballaşma məsələsinin izahını öz SafAğ elmi ilə verdiyini, varlığın mənasının izzahının isə SafAğ elmilə bağlı olduğunu qeyd etmişdir.

Q.Xəlilov «Bizim qızlar» povestinin yığcam dillini, uzun uzadı təsvirçilikdən uzaq olduğunu qiymətləndirmiş, əsərin dilinin aydın və obrazlı olduğunu qeyd etmişdir. Lakin bununla yanaşı o, əsərin mənfi və zəif cəhətlərini də əsaslı şəkildə tapıb göstərmişdir. Q.Xəlilov əsərdə sönük təsvir edilən Mirzəoğlu surətinin tamamilə artıq və yersiz olduğunu qeyd etmişdir. Doğrudan da «köhnəpərəst», «yenilikdən az xoşu gələn» Mirzəoğlu surəti əsərin nə ideyasının açılmasına, nə də hadisələrin inkişafına qətiyyən xidmət etmir. Bundan əlavə Q.Xəlilov əsərdə bəzi sözlərin və fikirlərin yerində işlənmədiyini söyləyir və bunu misallarla isbat etməyə çalışırdı. Misal üçün «Sənəm xalanın oğluna qarşı məhəbbəti yenicə özünü büruzə verir»[1: s.30], ya da «sənə qarşı rəğbətim və hörmətim var» kimi cümlələrdəki «qarşı» sözü yerində işlənməmiş və tamamilə artıqdır.

"Qapalı dünya”da bəzən əfsanəvi görünən çox böyük tarixi problemlərə toxunulmuş və bu cəhətdən müəllif bir çox tarixçi, dilçi və teoloqları qabaqlamışdır, lakin əslində, "Qapalı dünya” bədii ədəbiyyat — roman materialı deyildir. Ona görə də romanın dili yazıçının ilk əsərlərinin dili ilə müqayisədə xeyli mürəkkəbləşib. "Məhşər” romanındakı sosial-fəlsəfi araşdırmalar yazıçının bədii dil məsələlərinə də yeni nəzərlə baxmasına, bədii dilin sosial-linqvistik, emosional-estetik keyfiyyətlərini xeyli mürəkkəbləşdirməsinə, ilk əsərlərindəki sadə, müxtəsər, təbii təhkiyədən uzaqlaşmasına səbəb olmuşdur. Ona görə də ”İdeal” nisbətən çətin oxunur. Bütün bunlar yazıçının bir filosof-sənətkar kimi ictimai mühitə, dilə, dinə, insan psixologiyasına daha dərindən nəzər salması ilə əlaqədardır.

Romanın əsas təhkiyəçi obrazı müəllif özüdür. Lakin əsər o qədər də sadə quruluşa malik deyildir və yazıçı təhkiyəsini tez-tez müxtəlif obrazların monoloqları əvəz edir. Əsərin çox mühüm fəsli olan ”Qapalı dünya”da isə təhkiyəçi obrazı Sultan Əmirlidir. Yazıçının təhkiyə dili obrazların dili ilə müqayisədə ədəbi normalara daha uyğun və təmizdir. Lakin yazıçının təhkiyə dili də bədii dil nümunəsi olduğundan normadan kənar leksik və frazeoloji vahidlərdən məhrum deyildir: "Səməd çəpərsiz, hasarsız hamar, geniş həyətin çəmənə qovuşduğu yerdə, su quyusunun dikdirində oturmuşdu. Baxırdı və səhərin toranında hər şeyi görürdü. Gödək, yoğun barmaqların ucunda kibrit çöpü alovlanıb Əlləzoğlunun üzünün biz-biz tüklərini işıqlandırdı. Sonra şam kimi şö’lələnib, içəridən zirəzə ilə boşurğu bağlı pəncərə taxtalarının arasından o yana düşdü. Səmədin kirpiyi də tərpənmədi. ” [2]

Bu cümlələrdə qrammatik quruluş və əksər leksik vasitələr normalara uyğundur. Lakin yazıçının təhkiyə dilindəki çəpər, dikdir, biz-biz, boşurğu, zirəzə kimi sözlər sadə danışıq dili və müəyyən mə’nada şivə sözlərdir. Bu cür sözlər obrazların dili ilə müqayisədə yazıçı təhkiyəsində məhduddur. "Qapalı dünya”da Sultanın təhkiyə dili də ədəbi normalara müvafiq qurulmuşdur. Lakin bu hissədə etimoloji araşdırmalar, fəlsəfi-ictimai və onomastik terminoloji leksika Sultanın nağıl etdiyi sehrli-sirli Bağday əhvalatının, Odərlər mədəniyyətinin təbiətindən doğur və Sultanın nitqini bədii nitq sxemindən çıxarır.

Fikrimizcə, "Yanar ürək"dəki "bəsitliy"in, "İdeal"dakı mürəkkəbliyin kökünü onların inikas üsulları arasındakı fərqdə axtarmaq lazımdır. Bu, ilk növbədə, romanların bədii dili arasındakı fərqdə özünü aşkar göstərir. Hər iki romanda obrazları adlandırmanın mahiyyətində ciddi fərqlər var.

Nəticə

Xalq yazıçısı İsa Muğanna (Hüseynov) Azərbaycan nəsrinin inkişafında sanballı xidmətləri olan söz sənətkarıdır. Yeni Azərbaycan nəsrini onun, artıq nəsr poetikasının gözəl nümunələrinə çevrilmiş əsərləri olmadan təsəvvür etmək çətindir. O, Azərbaycan ədəbiyyatının inkişafında, nəsr dilinin zənginləşməsində özünəməxsus yeri var. O, bir növ xalqımızın taleyini öz şəxsi həyatında yaşamış, onun ağrı-acılarını ürəyində daşımış, erməni-daşnak zülmünün hər

cür sifətini görmüş, didərginliyin, qaçqınlığın əzablarını çəkmiş cəfakeş, fədakar bir şəxsiyyət olmuşdur.

Ədəbiyyat

1. AYDIN, X. Ə. 75 İLLİK ÖMRÜN PROZASI // ƏDƏBİYYAT .– 2003,13 İYUN.–S. 2.
2. Arif M.Böyük məsuliyyət hissi ilə.//"Ədəbiyyat və incəsənət" qəzeti, 5 oktyabr 1963
3. Abdullayev K. Müəllif əsər oxucu. Bakı: Yazıçı, 1985, 156 s.
4. HACIYEV, T. İ.UZAQ SƏFƏRLƏR KAPİTANI // ƏDƏBİYYAT.–2008, 6 İYUN. –S.3.
5. HÜSEYNOV, İ.M. SEÇİLMİŞ ƏSƏRLƏRİ, [3 CİLDDƏ] / İ.HÜSEYNOV. – BAKI: AZƏRNƏŞR, – C.1.– 1988.– 416 S.

STORY "MILL" BY M. SULEYMANLI

M.SÜLEYMANLININ "DƏYİRMAN" POVESTİ

GÜNEL HÜMMƏTOVA (PƏNIYEVA) SALEH

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının baş müəllimi, fil.ü.f.dok., Orcid ID:0000-0002-8916-3484

Xülasə

Yeni dövr Azərbaycan nəsrinin ardıcıl mübarizə apardığı mənəvi qüsurlardan biri, bəlkə də birincisi meşşanlıq təzahürləridir ki, bu da klassik dövrün ənənəvi ardıcıllığıdır. Lakin bu ardıcıllıq özünə bəzi yeni prinsiplər əlavə edərək öz novatorluğu ilə seçilir. Beləki, maddi cəhətdən heç bir sıxıntı çəkməyən klassik meşşanların mənəviyyatında boşluq və havasızlıq hakimdir. Onlar müəyyən silkə və təbəqəyə aid olan insanlardır. Lakin, bu dövrki meşşanlar bundan fərqli olaraq, ziyalı da, fəhlə də, kəndli də, fabrik direktoru da ola bilər. Müasir nəsrimizdə klassik-köhnə meşşanlıq özünü daha çox meşşanlığın görünən, yəni zahiri cəhətlərində göstərir. Maddi toxluq, qızıla, var-dövlətə hərislik, firavan həyat, harınlıq bu meşşanlığın görünən cəhətini ifadə edir. Bu mövzuda yazılan nəsr nümunələrinə M.Süleymanlının "Dəyirman", "Duzsuzluq" povesti, Elçinin "Poçt şöbəsində xəyal" dramatik povesti və s. bu kimi nasirlərin nəsr əsərlərini göstərmək olar.

M.Süleymanlı "Dəyirman" povestindəki dəyirmanı yuxarı və aşağı hissələrə bölür, insanları da vəzifələrinə görə mərtəbələrə bölür. Bu bölgü getdikdən sonra kimin harda dəyirmanın aşağı, yoxsa yuxarı hissəsində oturmasını təyin edir. Yuxarı təbəqənin nümayəndələri –ticarət şöbəsinin müdiri kimi pullu adamlar dəyirmanın yuxarı başında əyləşə bilərlər. Aşağıda isə nisbətən az pulu olanlar – yuxarıdakıları əyləndirənlər otura bilərdilər. Onlar hər gün yaxud həftədə bir neçə dəfə dəyirmana gəlir, yeyir, içir, kef çəkirlər. Eyni hadisə sabah da, birigün də davam edir. Arada Temir müəllim adətindən əl çəkir, naxırçı Gülü isə araqdan zəhərlənib ölür. Lakin buna baxmayaraq dəyirman bir maqnit kimi hanını özünə cəlb edir, gəlməyən bircə Sarı Qasım idi, onu da gətirirdilər. Demək olar ki, bütün kənd bu kicik dəyirmanda əks oluna bilir. Əlbəttə, bu şərtilik daxilində müəllifiin oxucuda müəyyən qəzəb hissi oyadır. Ayılma, oyanma, şüurlu dərketmə prosesi başlananda artıq povest sona yetir. Dəyirmanın içi bizdə nifrət oyadır, lakin M.Süleymanlı təkçə dəyirmanın içini təsvir edir, çölü isə içiylə eyniləşdirilir. Bu eyniləşmə povestin estetik dəyərini, içtimai sambalını azaldır. Dəyirmandan kənarda işıqcı Vəlidir ki, o da özünün dediyinə görə üç gün əvvəl içkini tərgidib, Sarı Qasım dəyirmana getməsə də, əslində ordakılardan fərqlənmir, təsadüfü deyildir ki, gec-tez o da dəyirmana ayaq açır, kolxoz sədri kimdirsə, yəqin o da yuxarıda əyləşən tiçarət şöbəsinin müdirinə bənzəyir, bu adam naxırçı Gülünün dəyirmana gəlməsinə səbəb olur. Dəyirmanın çölünü həm də anaların, qadınların nalələri tutub. Bu mənada qatı, tünd boyalar həddindən çoxdur, təsvir olunan mənfilik olduğundan güclü nəzərə çarpır.

Biz bu povestin janrını müəyyənləşdirmək istəsək şərti də olsa, müəyyən mənada satirik povest də adlandıra bilərik. Burada ifşa hədəfi məlumdur – cəmiyyətimizə yad olan antipodlar, mənəvi parazitlər, hətta povestdə mənfi qüvvələrin yüksək həddə qaldırılması ifrat dərəcəyə çatır. Bu özünü ayrı-ayrı təsvirlərdə də göstərir. Mənfiliyin təkzibində müəllifin istifadə etdiyi bu üsul əsərdə ifşa pafosunu daha da qüvvətləndirir. Janr xüsusiyyətlərinə görə isə yuxarıda qeyd etdiyimiz - satirik povestin ona görə tələblərinə tam olaraq cavab vermir ki, satirik əsərə xas

olan gülüş burda kinayəli və sərt qəzəblə əvəz olunmuşdur. İfşa və gülüş hədəfi olan tiplər isə gülüşdən daha çox qəzəb hissi oyadırlar. Dəyirmana gələn ikinci tip adamlar isə (Temir müəllim, naxırçı Gülü və başqaları) mənəvi cəhətdən passiv, iradəsiz, təsir altına düşən, başqalaşan, öz təbii keyfiyyətlərini itirməyə başlayan şəxslərdi. Əgər birincilər – pullular, el malını talan edənlər yediklərini qusurlarsa, ikincilər – başqalaşanlar, öz içlərini yeyir, qan qusurlar (naxırçı Gülü).. Nətcə isə o qədər də fərəhli deyil. Yalnız Temir müəllimdə şüurlu şəkildə özünüdərketmə baş verir.

Müəllif bu adamların bədbəxtliyinə sonsuz təəssüf və rəğbət hissi oyatmağa çalışır, onların taleyində faciəvi mamontlər nəzərə çarpdırılır. Əlbəttə, povestdə bədbəxtliyin səbəbləri kifayət qədər açılmır, bu mənada yalnız nətiçə oxucuya çatdırılır.

Açar sözlər: nəsr, povest, təsvir, qəhrəman

Summary

One of the moral defects, perhaps the first one, with which the Azerbaijani prose of the new era is constantly fighting, is the manifestations of mischievousness, which is a traditional sequence of the classical period. But this sequence stands out for its innovation by adding some new principles to itself. Thus, emptiness and lack of air prevails in the spirituality of classical meshshans, who do not suffer from any financial hardships. They are people belonging to a certain caste and class. However, the meshshans of this period can be intellectuals, workers, peasants, and factory directors. In our modern prose, classic-old meshshanism manifests itself mostly in the visible, that is, external aspects of meshshanism. Material satiety, greed for gold and wealth, prosperous life, and greed express the visible aspect of this tyranny. Prose examples written on this topic include M. Suleymanli's "Mill", "Saltness", Elchi's "Ghost in the Post Office" dramatic story, etc. prose works of such prose writers can be shown.

M. Suleymanli divides the mill in the story "Mill" into upper and lower parts, and divides people into floors according to their duties. After this division, it determines who sits at the bottom or top of the mill. Representatives of the upper class - paid people such as the head of the trade department - can sit at the top of the mill. Those who had relatively little money - those who entertained those above - could sit below. They come to the mill every day or several times a week, eat, drink and have fun. The same event continues tomorrow and the day after. In the meantime, the teacher Temir gives up his habit, and the cook Gulu dies of vodka poisoning. But despite this, the mill attracted the inn like a magnet, the only one who didn't come was Sari Gasim, who was also brought. Almost the whole village can be reflected in this small mill. Of course, within this convention, the author arouses a certain feeling of anger in the reader. When the process of awakening, awakening, conscious understanding begins, the story ends. The inside of the mill arouses hatred in us, but M. Süleymanli describes the inside of the mill, and the outside is identified with the inside. This identification reduces the aesthetic value of the narrative, the social sambal. Outside the mill, the lightman is Vali, who, according to himself, gave up drinking three days ago, although Sari Gasim does not go to the mill, he is actually no different from the people there, it is no coincidence that sooner or later he also steps into the mill, whoever is the chairman of the kolkhoz, he is probably the businessman who sits above looks like the head of his department, this person causes the grocer Gülu to come to the mill. The outside of the mill was also filled with the moans of mothers and women. In this sense, solid, dark colors are too much, the depicted negativity is strongly noticeable.

If we want to define the genre of this narrative, we can call it a satirical narrative in a certain sense. Here the target of exposure is known - antipodes alien to our society, spiritual parasites, even the elevation of negative forces in the narrative reaches an extreme level. This is also shown in individual images. This method used by the author in refuting negativity strengthens

the pathos of exposure in the work. According to the characteristics of the genre, it does not fully meet the requirements of the above-mentioned satirical narrative, because the laughter characteristic of a satirical work is replaced by sarcastic and harsh anger. Exposed and laughing types, on the other hand, arouse feelings of anger more than laughter. The second type of people who came to the mill (teacher Temir, nakhirçi Gülü and others) were morally passive, unwilling, influenced, changed, and began to lose their natural qualities. If the first ones - those who have money, those who loot people's property, vomit what they eat, the second ones - those who have changed, eat their own insides and vomit blood (Nakhirchi Gulu).. But Netja is not so happy. Self-awareness occurs only in teacher Temir.

The author tries to evoke a sense of infinite pity and sympathy for the misfortune of these people, the tragic mammoths are noticeable in their fate. Of course, the causes of unhappiness are not revealed enough in the story, in this sense only the result is conveyed to the reader.

Keywords: prose, narrative, description, hero

RƏQƏMSAL ƏSRDƏ LINQVISTIK YANAŞMA

Dos., f.ü.f.d VAQİF İSRAFİLOV

Azərbaycan Dövlət Pedaqoji Universiteti

Özet

Artan hesablama gücünə və böyük həcmdə məlumatlara çıxışa əsaslanan dərin öyrənmə neyron şəbəkələri kimi yeni yanaşmaların ortaya çıxması HLT-ni dil maneələrini aradan qaldırmaq üçün əlverişli həll yoluna çevirir. Yüksək keyfiyyətli tərcümə və real vaxt rejimində nitqin tanınması xidmətlərinin əlçatanlığının artması bizneslər və hökumətlər üçün öz xidmətlərini, məzmununu və dəstəyi istənilən dildə təqdim etmək imkanından yararlanmaq üçün alətlər yaradır. HLT-dəki təkmilləşdirmələr, ilk növbədə, getdikcə daha böyük və daha dəqiq tənzimlənmiş linqvistik məlumat və resurslara daxil olmaq və onları dəstəkləmək qabiliyyətinə əsaslanır. Məlumata çıxışın olmaması HLT-nin texnoloji inkişafına mane olur. Onun əldə edilməsi və istifadəsi sənaye ilə bu məlumatları yaradan, sahib olan, ehtiyac duyan və istifadə edən müxtəlif maraqlı tərəflər arasında əməkdaşlıqdan asılıdır. Beləliklə, sənaye və məlumat sahibləri arasında sıx əməkdaşlıq zərurətə çevrilir. Bundan əlavə, bu cür məlumatların istifadəsinin tənzimlənməsi daha açıq olmalıdır və əsas dil resursları (annotasiya edilmiş korpuslar, leksikonlar və ontologiyalar) qarşılıqlı fəaliyyət göstərməli və açıq mühitdə paylaşılmalıdır.

Avropada azlıqların dilləri (və ya daha az resursu olan dillər) və HLT sektoru üçün xüsusi problemlər Regional və ya Azlıqların Dilləri üzrə Avropa Xartiyasına əsasən, regional və ya azlıqların dilləri rəsmi dildən fərqli dillərdir. Bu dillər ənənəvi olaraq ştatın müəyyən bir ərazisində əyalət əhalisinin qalan hissəsindən sayca kiçik bir qrup təşkil edən vətəndaşlar tərəfindən istifadə olunur. Ona görə də bu dillər tərifinə görə rəsmi dillərə müxalifdirlər. Düzdür, ümumiyyətlə, azlıqların dilləri rəsmi dillərlə müqayisədə yayılma və dəstək baxımından əlverişsiz vəziyyətdədirlər. Belə dilləri daha kiçik və ya azlıq dilləri adlandırmaq daha məqsədəuyğundur. Onlar üçün dil texnologiyalarından, alətlərdən və resurslardan ən çox faydalananlar ümumiyyətlə azdır və bəzi hallarda faktiki olaraq mövcud deyildir. Əslində, ingilis dili ilə digər rəsmi, ortaq rəsmi və ya qeyri-rəsmi Aİ dilləri arasında genişlənən texnoloji uçurum var ki, bunlardan bəziləri ola bilər. artıq rəqəmsal yox olmaq ərəfəsindədir.

Bu texnologiya boşluğunu aradan qaldırmaq üçün siyasət ingilis dilindən başqa Avropa dilləri, xüsusən də daha kiçik və daha az resurslu dillər üçün texnologiyanın inkişafının təşviqinə diqqət yetirməlidir və bununla da rəqəmsal vasitələrlə dilin qorunmasını təşviq etməlidir. Avropa dil mühəndisliyi və texnologiyası sahəsində güclü tədqiqat bazasına malikdir və yenilikçi iştirakçıların çatışmazlığı mümkünsüzdü.

Ən çox danışılan altı dil (ingilis, alman, fransız, italyan, ispan və polyak) daxil olmaqla çoxdilli ssenariyə keçmək vəziyyəti yaxşılaşdıracaq, lakin yenə də Avropa əhalisinin 15%-ni geridə qoyacaq. 11 Avropa ölkəsində (Finlandiya, Yunanıstan, Estoniya, Litva, Slovakiya, Çexiya, Latviya, Rumıniya, Bolqarıstan, Portuqaliya və Macarıstan) əhalinin yarıdan çoxu bu dillərin heç birindən istifadə edərək yaxşı ünsiyyət qura bilməyəcək. Üstəlik, çoxdilli siyasətin təşviqi nəinki daha kiçik və azlıqların dillərində danışanlara qarşı ədalətsizlikdir, həm də daha az təhsilli və yaşlı əhalini geridə qoyaraq dərin rəqəmsal uçurum yaradacaq.

Sosiodemoqrafik amillərlə xarici dil qabiliyyəti arasındakı əlaqəni təhlil edərkən nəticələr göstərir ki, təhsil xarici dil bilikləri ilə ən sıx əlaqəli olan xüsusiyyətdir. Orta hesabla, 19 yaşından sonra formal təhsili tərk etmək ingilis dilini xarici dil kimi danışmaq şansını təxminən 19 dəfə, ən çox yayılmış altı Avropa dilindən birində danışmaq şansını formal təhsili tərk etməklə müqayisədə təxminən doqquz dəfə artırır. 16 yaşından əvvəl isə yaş daha əhəmiyyətlidir, çünki gənclər (30 yaşdan aşağı) yaşlı insanlarla müqayisədə ingilis dilində xarici dil kimi orta hesabla beş dəfə, ən çox yayılmış altı dildən birini isə dörd dəfə daha çox danışırlar. Sosial statusun təsiri vacib olsa da, təhsildən daha az təsir göstərir (yüksək sosial status xarici dildə danışmaq şansını aşağı sosial statusdan təxminən üç dəfə artırır). Beləliklə, bir neçə seçilmiş dilə əsaslanan dil siyasəti dərin dil bölgüsü yaradacaqdır. Dil maneələrinin Aİ-də mobillik üçün bu qədər vacib olduğunu qismən izah edə bilən səbəblərdən biri təyinat ölkəsində Aİ miqrantının dilində göstərilən dövlət xidmətlərinin olmamasıdır.

Açar sözlər: linqvistik yanaşma, rəqəmsal inqilab, çoxdillilik, dil fərqləri

İstifadə olunmuş ədəbiyyat:

1.Georg Rehm. Endi Way. A Strategy Agenda for digital language equality, Dublin 2023, 412 s.

2. Sarah E.Hercula , Fostering Linguistic Equality, New York, 2020, 224 s.

3.Daniel Dinkelman, Sociolinguistics in the digital era, USA, 2024, 250 s.

4. Penelope Gardner-Chloros, Language Selection and Switching in Strasbourg, North Las Vegas,1991, 229 s.

PROMINENT SCIENCE AND EDUCATION DEVOTION FIRIDUN BEY KOCHLI
GÖRKƏMLİ ELM VƏ TƏHSİL FƏDAİSİ FİRİDUN BƏY KÖÇƏRLİ

MƏNSURƏ QARDAŞXAN QIZI İSMAYILOVA

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Azərbaycan Dövlət Pedaqoji Universiteti

Xülasə

XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycanın pedaqoji fikir tarixində xüsusi mərhələdir. Ümumiyyətlə, bu dövr ədəbi-mədəni, ictimai-siyasi həyatın bütün sahələrində milli oyanışın aprıcılığı ilə səciyyələnir. Firidun bəy Köçərli də həmin mədəni hərəkatın möhtəşəmliyində günəş kimi parlamış və pedaqoji fikir tariximizə bir nümunə olaraq əvəzsiz töhfələr vermiş şəxsiyyətlərdəndir. Qori müəllimlər seminariyasını bitirən ədib bütün ömrü boyu müəllimlik fəaliyyəti ilə nümunəyə çevrilmiş, elmin, təhsilin, mədəniyyətin çiçəklənməsinə əvəzsiz töhfələr vermişdir. Pedaqqoji fəaliyyətinin İrəvan dövrü, Qori mərhələsi, Qazax müəllimlər seminariyasındakı gördüyü böyük işlər bu gün də örnəkdir və sistemli təhlillər üçün əsaslı material verir.

A.Bakıxanov, M.Ş.Vazeh, İ.Qutqaşınlı ilə başlayan maarifçilik hərəkatı XIX əsrdə M.F.Axundovun, H.Zərdabinin, S.Ə.Şirvaninin, A.O.Çernyayevskinin C.Ünsizadənin, S.Vəlibəyovun, R.Əfəndiyevin, M.Mahmudbəyovun, A.Şaiqin, S.M.Qənizadənin və digərlərinin gərəkli, məqsədyönlü fəaliyyəti ilə diqqət önünə gəlir. Firidun bəy Əhməd ağa oğlu Köçərli də məhz bu böyük ziyalılar nəslinin layiqli nümayəndəsi kimi XIX əsrin sonu XX əsrin əvvəllərində gərəkli işləri ilə şərəfli tarix yazmışdır. "Tarixi-müqəddəs"(Mahmud Əfəndizadə və Firidun bəy Köçərli tərəfindən tərtib edilib), "Tatar komediyaları", "Azərbaycan türklərinin ədəbiyyatı", "Balalara hədiyyə", "Azərbaycan tatarlarının ədəbiyyatı","Azərbaycan ədəbiyyatı tarixi materialları" bütün mahiyyəti ilə gəlinən yolun zənginliyini diqqət önünə gətirir.

Açar sözlər: F.Köçərli, Qori, Qazax, İrəvan, müəllimlər seminariyası, "Balalara hədiyyə", məktəb və s.

Summary: The end of the 19th century and the beginning of the 20th century is a special stage in the history of pedagogical thought of Azerbaijan. In general, this period is characterized by the national awakening in all spheres of literary-cultural, social-political life. Firidun Bey Kocharli is one of the personalities who shined in the greatness of that cultural movement and made invaluable contributions as an example to our history of pedagogical ideas. Adib, who graduated from the Gori teachers' seminary, became an example through his teaching activities throughout his life, contributed to the prosperity of science, education, and culture. The Yerevan era, the Gori stage, and the great works he did in the Kazakh teachers' seminary are examples of his pedagogical activity even today.

The enlightenment movement that started with A. Bakikhanov, M. Sh. Vazeh, I. Gutgashinli in the 19th century, followed by M. F. Akhundov, H. Zardabi, S. A. Shirvani, A. O. Chernyaevsky, J. Unsizade, S. Valibeyov, R. Efendiyev, M. Mahmudbeyov, It comes to the fore with the necessary and purposeful activities of A. Shaigin, S.M. Ganizade and others. Firidun Bey Ahmed Agha Oghlu Kocherli, as a worthy representative of this generation of great

intellectuals, wrote an honorable history with his necessary works at the end of the 19th century and the beginning of the 20th century.

Keywords: F. Kocherli, Gori, Gazakh, Yerevan, teachers' seminary, "Gift to children", school, etc.

Giriş. Azərbaycan elmi-pedaqoji, ədəbi-mədəni mühitinin ən görkəmli şəxsiyyətlərindən biri Firidun bəy Köçərlidir. Zəngin və ensiklopedik dünyagörüşü ilə böyük ideallara köklənən ədib bütün səviyyələrdə əməli və elmi fəaliyyəti ilə örnək olacaq mücahidlərdəndir. "Əsrimizin ilk rübündə realist bədii nəsr, dramaturgiya, inqilabi satira və pyblisistika sahəsində C.Məmmədquluzadənin, yeni şeir sahəsində M.Ə.Sabirin, musiqi mədəniyyəti cəbhəsində Ü.Hacıbəyovun gördüyü iş ədəbiyyatşünaslıq elmində Firidun bəy Köçərlinin üzərinə düşmüşdür" **(Cəlal, 1982: s. 412).** Buraya əlavə olunmalı mühüm bir istiqamət də vardır və bu da F.Köçərlinin Azərbaycan pedaqoji fikrinin tarixində oynadığı rolla bağlı məsələdir. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsinin Qazaxa gətirilməsi və Qazax müəllimlər seminariyasının pedaqoji fikir tariximizdə oynadığı funksional rolun özülü F.Köçərli tərəfindən qoyulmuşdur. Azərbaycan pedaqoji fikir tarixi ətrafında təhlillər aparan prof. Ə.Şərif yazır: "Çar Rusiyasının heç bir təhsil ocağı Qori Müəllimlər Seminariyası qədər Azərbaycana mədəniyyət xadimi verməmişdir" **(Nəzirli, 2018: s. 14).** Doğrudan da, Azərbaycan pedaqoji fikir tarixinə diqqət yetirdikdə Qori müəllimlər seminariyasının yeri əlahiddəliklə görünür. Onun formalaşdırdığı təsəvvür müqayisəli yanaşmalarda müxtəlif müstəvilərdə təhlilləri zəruri edir.

Azərbaycan məktəb tarixini və F.Köçərli. Azərbaycan məktəb tarixini təhlil edən ziyalılar çox doğru olaraq vurğulayırlar ki, "müəllim məktəbin canı və içində olduğu millətin çırağı məqamındadır". Firidun bəy öz məqamı və gördüyü işləri ilə xalqın məktəb tarixində bu funksiyanı yerinə yetirmişdir. Qori Müəllimlər seminariyasını bitirən ədib (1885) İrəvan gimnaziyasında müəllimlik fəaliyyətinə başlayır və orada şəriət və türk dili dərslərini deyir. Mirzə Məhəmməd Qəmərli, Mirzə Kazım Mətlə, Məşədi İsmayıl Bəzmi, Fars Abbas və s. kimi simalarla əlaqələri sonrakı dövr üçün uğurlu başlanğıc olub. Hətta özü də vurğulayırdı ki, "şəhri İrəvan keçmişdə mərkəzi üləma, füzəla və şüəra olub, Axund Molla Məhəmməd İrəvani kimi böyük alim və müxtəhidlər yetiribsə də, axır vaxtlarda belə fazil və alim şəxslərdən və dəqiq ədiblərdən və xoştəb şairlərdən məhrum qalıbdır. Elm və mərifət əshabı varsa da, onların ədəbi avama nisbətən çox azdır, yoxluq mənzələsindədir. İrəvan şairlərdən məşhuru Məşhədi İsmayıl Hacı Kərimzadə "Bəzmi təxəllüsüdür"**(Köçərli, 1981: s. 203)**. Burada diqqətçəkici tərəf, Məşədi İsmayıl Bəzminin yeni tipli məktəblərə və tədris üsullara meyillənməsidir. F.Köçərli bu sırada onun əlifba hazırlamasını və yaradıcı pedaqoji fəaliyyətini diqqət önünə gətirir.

İrəvan pedaqoji mühitindəki fəaliyyəti F.Köçərlinin sonrakı dönəmləri üçün bir başlanğıc funksiyasını yerinə yetirmişdir. On il İrəvan gimnaziyasında çalışan ədib Qori müəllimlər seminariyasına(tatar şöbəsi) Azərbaycan dili və şəriət müəllimi təyin olunur. İyirmi üç il orada çalışan (1895-1918) F.Köçərli təkcə müəllimlik fəaliyyəti ilə işlərini bitmiş hesab etmir, mətbuat səhifələrində uğurlu məqalələri, tərcümələri, araşdırmaları, toplayıcılıq fəaliyyəti ilə nümunəyə çevrilir. Uşaqlar üçün oxu kitabı kimi tərtib etdiyi "Balalara hədiyyə"(1912) bu gün də yaddaşlara izini qoymuş ədəbi abidələrdəndir.

Fəaliyyət göstərdiyi seminariyada ana dilinin tədrisini yaxşılaşdırmaq üçün əlindən gələni əsirgəmir, mənsəb və səlahiyyət sahiblərinin diqqətini bura yönəltməyə çalışır. Seminariyanın Azərbaycan şöbəsinə inspektor təyin olunması (1917) onun bu məsəhədəki fəaliyyətinə əlavə imkanlar qazandırır. Tatar şöbəsinin Azərbaycanın şəhərlərindən birinə köçürülməsi məsələsini qaldırır 1894-cü ildən başlayan bu təşəbbüs Azərbaycan Demokratik Cimhuriyyəti

yaranması ilə həllini tapır və Azərbaycan Xalq Maarifi Komissarlığının razılığı ilə şöbənin Qazağa köçürülməsi reallaşır. Seminariyanın açılışı 17 sentyabr 1918-ci ildə olur. Bugünkü məktəb tarixi əldə etdiyi uğurlar üçün ilk növbədə həmin seminariyaya borcludur. Məktəbin nəzdində yaradılan uşaq evi, yaşlılar üçün savad kursu, qaçqınlara yardım fondu F.Köçərlinin sistemli fəaliyyətinin uğurlu göstəriciləridir.

Ümumiyyətlə, XIX əsrin sonu və XX əsrin əvvəlləri Azərbaycanın ictimai-siyasi, elmi-pedaqoji fikrinin inkişafında xüsusi mərhələdir. Onun reallaşdırdığı təsəvvür, müəyyənləşdirdiyi sistem bütün aspektləri ilə problemlərin aradan qaldırılmasına yönəlmişdi. M.Mahmudbəyov, S.Vəlibəyov, T.Bayraməlibəyov, S.S.Axundov, R.Əfəndiyev, E.Sultanov, C.Məmmədquluzadə, Ü.Hacıbəyov və s. kimi böyük şəxsiyyətlərin yetişdiyi mühit mahiyyəti ilə Qori müəllimlər seminariyasının əzəmətini faktlaşdırır. F.Köçərli də həmin mühitin qüdrətli nümayəndələrindən olub xalq və millət mücahidi kimi böyük ideallara köklənmişdir. Zaqafqaziyada ilk pedaqoji elmlər doktoru Ə.Seyidov vurğulayır ki, "Firidun bəy Köçərli böyük pedaqoqdur. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsini Qazaxa köçürməklə xalqımızın maariflənməsində əvəzsiz əməyi olan şəxsiyyətdir. Firidun bəy sadəcə praktik müəllim deyildir. O, tədqiqatçı alim, ədəbiyyatşünas, nəzəriyyəçi-pedaqoq və yüksək mədəniyyətli humanist, ziyalı idi" **(Nəzirli, 2018: s.487).**"Balalara hədiyyə", "Azərbaycan türklərinin ədəbiyyatı" əsərləri, dövrün ziyalılarına olan müraciət-məktubları, xalq ədəbiyyatının toplanması sahəsindəki gərəkli addımları və s. görkəmli maarifçi F.Köçərlinin fəaliyyətinin çöxşaxəliliyini səciyyələndirir. Bugünkü pedaqoji fikir, ədəbiyyat tarixindəki əldə olunan zəngin təcrübə və folklorşünaslıq sahəsindəki gərəkli işlər bütün səviyyələrdə F.Köçərlini bir nümunə olaraq diqqət önünə gətirir.

Pedaqoq, maarifçi, ədəbiyyatşünas F.Köçərli.XIX əsrin sonlarından ədəbiyyat tarixi ilə bağlı materialları bir yerə toplayıb ayrı-ayrı sənətkarlar haqqında oçerklər yazmaq onu daha çox düşündürmüşdür. Təzəcə pedaqoji fəaliyyətə başladığı illərdən bir-birindən maraqlı portret-ocerklər yazması və müxtəlif səpkili mülahizələri bunun göstəricisidir. R.Qənbərqızı bunları diqqət önünə gətirərək vurğulayır ki, "F.Köçərli Azərbaycan ədəbiyyatı tarixinə aid əsərlər yazmaq fikrinə XIX əsrin sonlarında, hələ İrəvan gimnaziyasında müəllimlik etdiyi illərdə (1885-1995) düşmüşdü. Elə bu illərdə o axtarışlar apararaq Azərbaycan ədəbiyyatına dair əlinə keçən böyüklü-kiçikli hər cür mətbuu əsəri, əlyazmasını, məlumatı səylə toplamağa, tədqiq edib öyrənməyə çalışmışdır" **(Ruqiyyə, 1978: s.15).**Ümumiyyətlə, Qori müəllimlər seminariyası, İrəvan pedaqoji mühiti onun fəaliyyəti və sistemli araşdırmaları üçün müstəsna rol oynaması ilə diqqət önünə gəlir. E.Sultanov görkəmli maarifçi-pedaqoqun "Balalara hədiyyə" əsəri və gördüyü gərəkli işlərlə bağlı mövqeyini sərgiləyərək vurğulayırdı ki, "bu kitabdan vətən qoxusu, dağların ətri, köçərilərin tüstüsü gəlir". Bu düşüncə bütünlükdə XIX əsrin sonu və XX əsrin əvvəllərində ziyalı mühitinin məzmun-mahiyyətini, apardığı işlərin perspektivlərini diqqət önünə gətirir. "Maarif xadimləri və onların məslək dostları olan müəllimlər daha çox dərslik və dərs vəsaitləri hazırlayır, təlim və tərbiyə işinə böyük qayğı ilə yanaşır, öz ədəbi və ictimai fəaliyyətlərini də bu istiqamətə yönəldirdilər. Onların bədii əsərlərində də daha çox uşaqların həyatından, əxlaq və əhvalından, gələcəyə inamından, arzu-istəklərindən, çətinliklərindən bəhs edilirdi. R.Əfəndiyev, S.S.Axundov, A.Şaiq, Ü.Hacıbəyov, F.Köçərli, S.M.Qənizadə, Y.V.Çəmənzəminli, İ.Musabəyov kimi maarifpərvər ziyalı və yazıçıların bu sahədə müstəsna xidmətləri olmuşdur. Onların ədəbi-bədii yaradıcılığı ilə pedaqoji fikirləri bilavasitə bir-birini tamamlayırdı. Onlar yeni üsullu məktəb uğrunda mübarizə aparmaqla yanaşı, bu məktəbə lazım olan dərs vəsaitlərinin hazırlanması, tədris olunan əsərlərin diqqətlə seçilməsi kimi ən vacib məsələlərdə də böyük fəallıq göstərirdilər" **(Namazov, 2007: s. 104).**Bütün bunlar mühitin ehtiyaclarını ödəməyə və toplumu maarifləndirmə işinin məqsədyönlü aparılmasına bağlanırdı.

"Balalara hədiyyə" və F.Köçərlinin pedaqoji fəaliyyətində, təhlillərində özünü göstərən bütün məsələlər problemlərin həllinə köklənmişdi. Burada təkcə folklor örnəklərini bir araya gətirib kitablaşdırmaq məqsədə çevrilmir, həm də onların uşaqlara mənimsədilməsi prinsip olaraq əsas götürülür. Çünki uşaq oyunları, sanamalar, inamlar, etiqadlar, əfsanə, rəvayət, nağıl örnəkləri uşaqların tərbiyəsi, əxlaq gözəlliyinin aşılanması üçün əsaslı qaynaqdır. "Bu kitabdakı nağıl və hekayələr azərbaycanlıların ata-babadan qalma düzgü və tapmacaları, misal və nəğmələri "bizi keçmişimizlə aşina edir, bizi kəndimizə tanıtdırır və keçmişimizə qarşı bizdə milli bir duyğu oyandırır" **("İqbal", 1913: s.2).** XX əsrin ilk onilliyi Azərbaycan pedaqoji fikrinin tarixində xüsusi canlanma, yenilik, axtarış və tapıntılarla müəyyənləşir.

F.Köçərli pedaqoq, maarifçi, ədəbiyyatşünas kimi çoxyönlü fəaliyyəti ilə ədəbi-mədəni mühit üçün örnək idi. Bir növ əqidə və məslək yoldaşları ilə birgə böyük ideallara köklənmişdi. "Müsəlman müəllimlərinin hikməti" (1903), "Azərbaycan tatarlarının ədəbiyyatı" (1903), "Mirzə Fətəli Axundov" (1910), "Balalara hədiyyə" (1912) və s. əsərləri məzmun və mündəricəsi ilə ciddi təsəvvür formalaşdırır. "Balalara hədiyyə"nin müqəddiməsində "Mühərririn ifadeyi-məramı" adlı yazı vermişdir. Xalqın zəngin xəzinəsi adı ilə vurğuladığı örnəklər əsrlərin çox-çox dərinliklərindən yaddaşlarda yaşayan örnəklər kimi qiymətləndirilir və vurğulanır ki, "o, zaman keçdikcə unudulan xalq bayatılarını, nağıllar, tapmacalar, atalar sözü və məsəllər, sayaçı sözlərini ən zəngin xəzinə hesab edir, gənc nəslin tərbiyəsində folklorun müstəsna xeyri olduğunu göstərirdi. O öz xalqının şifahi ədəbiyyat nümunələrini göz bəbəyi kimi qoruyub saxlayan, nəsildən-nəsilə, zamandan-zamana ötürən qonşu xalqları nümunə göstərərək yazırdı: "O millət ki, öz tarixini, dolanacağını, vətənini və dilini sevir - bu qisim əsərləri kəmali-şövq və diqqətlə cəm edib ziqiymət sərmayə kimi saxlayır və balalarının ilk təlim və tərbiyəsini onları öyrənmək ilə başlayır" **(Cəlal, 1982: s. 419).**F.Köçərlinin bu qənaətləri H.Zərdabinin "Əkinçi" qəzetindəki çağırışlarının davamı və onun həyata keçirilməsinin konret örnəyi kimi görünür.

"Qaranlıqda qalanlarımız", "Məişətimizə dair", "Dünyada bəla nədən törəyir", "Həqiqi gözəllik və hərəkətsiz nisfimiz", "Sabir haqqında", "Vəfati-şair", "Ədəbiyyatımıza dair məktub", "Ana dili" və s. məqalələri görkəmli pedaqoq-ədəbiyyatşünasın mühitin problemlərini aradan qaldırmağa yönəlik fəaliyyətinin göstəricisidir. Məsələn, "Ədəbiyyatımıza dair məktub"da zəngin folklor yaddaşından gələnlərə həssaslıq göstərərək yazır: "Gözəl nəsihətlər, hikmətamiz hekayələr vətənə məhəbbət, millətə xidmət, təvarixdən şayani-diqqət əhval və rəvayətlər, dostluqda sədaqət, əhdə vəfa etmək və bunlar misilli min cür uca fikirlər və müqəddəs hisslər" şairləri məşğul etsə daha yaxşı olar" **(Cəlal, 1982: s. 421).** Ümumiyyətlə, F.Köçərli fəaliyyətinin əsasında onun müəllimliyi və bütün olanlara bu kontekstdən yanaşması dayanır. Qadın azadlığı sahəsindəki qənaətləri, qızların və bütünlükdə uşaqların oxuması sahəsində olan mülahizələri, xalqın gələcəyi naminə vətənpərvər gəncliyin formalaşdırılması və s. baxımından olan qənaətləri reallığa hesablanmışdır. "Ana dili" məqaləsində ədibin qaldırdığı fikirlər bir növ H.Zərdabinin, Ü.Hacıbəyovun, H.Zeynallının, S.Hüseynin, M.Ə.Rəsulzadənin, M.Şahtaxtlının, C.Məmmədquluzadənin, A.Səhhətin və başqalarının fikir və mülahizələrinin davamı kimi görünür. Görkəmli pedaqoq, ədəbiyyatşünas vurğulayır ki, "hər millətin özünəməxsus ana dili var ki, onun məxsusi malıdır. Ana dili millətin mənəvi diriliyidir, həyatının mayəsi mənziləsindədir. Ana südü bədənin mayəsi olduğu kimi, ananın dili də ruhun qidasıdır, hər kəs öz anasını və vətənini sevdiyi kimi, ana dilini də sevir"**(Cəlal, 1982: s. 421).**F.Köçərlinin dil, məktəb, dərslik, maarif mücadiləsinin mahiyyəti xalqın mədəni səviyyəsinin yüksəldilməsinə və özünüdərkinə xidmət edirdi.

Böyük türkçü, ictimai xadim, əvəzsiz ziyalı İsmayıl bəy Qaspralı yazırdı ki, "türk yurdunun ən şiddətli ehtiyacı məktəb və maarifdir. Türk yurdunun gələcəyi məktəb və maariflə bağlıdır. Hakim bir millətin məhkum düşməsi, məhkum bir millətin yox olması məktəbsizlikdən irəli

gəlir". XIX əsrin sonu və XX əsrin əvvəllərinin ziyalı mühiti bütünlükdə bunu dərk etməklə böyük mücadiləyə başlamışlar və bu sahədə az bir zaman içərisində ciddi uğurlar qazanmışlar. M.F.Axundov, S.Ə.Şirvani, C.Ünsizadə, S.Vəlibəyov, M.Mahmudbəyov, S.M.Qənizadə, A.Səhhət, F.Köçərli məhz bu ideyalar üzərində köklənməklə elm, təhsil, maarif işində gərəkli addım atmaları ilə sonrakı dönəmlər üçün nümunəyə çevrildilər. Ayrı-ayrı bölgələrdə maarif və təhsil məşəlini yandırmaq yolunu tutdular.

F.Köçərli seminariyanı bitirdikdən sonra İrəvan gimnaziyasında Azərbaycan dili və şəriət müəllimi (1885-1895), Zaqafqaziya Müəllimlər Seminariyasında Azərbaycan dili və şəriət müəllimi (1895-1910) işləmişdir. Seminariyanın Azərbaycan şöbəsində müvəqqəti təlimatçı kimi fəaliyyəti (29 mart 1910-cu ildən) və bu sahədə əldə etdiyi təcrübə bütünlükdə elm və maarifin çiçəklənməsinə yönlənmişdi. Azərbaycan pedaqoji fikir tarixində F.Köçərlinin fəaliyyəti bütün səviyyələrdə örnək olma səciyyəsi daşıyır. Zaqafqaziya müəllimlər seminariyasının Azərbaycan şöbəsinin Qazaxa gətirilməsi (1918-ci il iyun ayı) və öz xərcinə bu işlərin məsuliyyətini üzərinə götürməsi fədakarlıq nümunəsidir.

Qori müəllimlər seminariyasının məzunlarının xatirələri, eləcə də F.Köçərlinin onlara məktubları, digər müasirləri ilə yazışmaları maarifpərvər ziyalının fəaliyyətinin, apardığı mücadilənin məqsəd və məramını aydınlaşdırır. Məsələn, Xəlil bəy Hacılarov xatirələrində yazır: "Xatirimdədir, bizim tələbə yoldaşlarımızdan Əli Qasımov qəzetlərə tez-tez məqalələr göndərib çap etdirərdi. Tələbələrimizdən Ələkbər Abbasov (Qərib) yazdıqları məqalələri Bakı qəzetlərində çap edilmiş görərdi. Tələbələrdən Əfəndizadə Rəcəb Qoridə oxuduğu zaman bir çox maraqlı hekayələr yazmışdır. Firidun bəy Köçərli bizə Azərbaycan ədəbiyyatının nə qədər zəngin və qiymətli olduğunu öyrətdi, bizi ana dilində savada alışdırdı. Mətbuat və nəşriyyat aləmi ilə tanış etdi. Qori şəhərinə gəldiyimiz zaman bizim çoxumuz, xüsusilə mən özüm azərbaycanca savadsız idik. Qısa müddət ərzində Firidun bəy bizi savadlı elədi. Hətta bizi məqalələr yazmağa, yazdığımız məqalələri Bakı qəzetlərində çap etdirməyə kömək etdi"**(Nəzirli, 2018: s. 369).**Göründüyü kimi, görkəmli ədib bir ziyalı olaraq dərs dediyi tələbələrə təkcə elmi və onun sirlərini öyrətməklə kifayətlənməmiş, həm də onlara bir həyat, insanlıq dərsi keçmişdir. Bunlar F.Köçərlinin məktublarında da görünür. Məsələn, Rəcəb Əfəndizadəyə yazdığı məktubdan F.Köçərliyazır: "Mehribanım Rəcəb! Nə üçün qəzetlərdə əhval yazmırsan? Mümkün olsa "Yeni iqbal"a hekayələrindən göndər, dərc olsun. İstəyirsən, mən Üzeyirə yazım sənin barəndə və o sənə məxsusi təklif eləsin yazmağa" **(Nəzirli,2018: s. 371).**Bütün bunlar ədibinmühit yaratma bacarığını,münasibət və davranışlarının məqsəd və məramını, dərs dediyi tələbələrinin sonrakı taleyində oynadığı funksional mənzərəni aydınlaşdırır.

Nəticə. Azərbaycan xalqının mədəniyyət tarixində F.Köçərli görkəmli pedaqoq, ədəbiyyatşünas, folklorçu, mühərrir, ictimai xadim kimi müstəsna rolu ilə diqqət önünə gəlir. İrəvandakı pedaqoji fəaliyyəti, Qori müəllimlər seminariyasındakı gördüyü əvəzsiz işlər, Qazax müəllimlər seminariyası ədibin pedaqoji fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirir. Bu zəngin fəaliyyətin digər tərəfində "Müsəlman müəllimlərinin himməti" (1903), "Müsəlmanlar üçün kitab nəşri haqqında" ("Tərəqqi" qəzeti, 1909), A.Şaiqə yazdığı tarixi məktub (26 may 1911-ci il), "Ana dili" (1913) və s. məqalələri, eləcə də "Balalara hədiyyə" (1912) toplama işləri danaynır. Məsələn, A.Şaiqə yazdığı məktub mühitin problemlərinə diqqəti yönəltmək baxımından xüsusi əhəmiyyət kəsb edir. "Göndərdiyiniz kitabçalar yetişdi və məni artıq dərəcədə xoşhal etdi. Bu qisim sadə dildə yazılmış və məalı öz məişətimizdən götürülmüş əsərlər yenicə başlayır meydana gəlməyə. Ona binaən xırdaca uşaqlar üçün yazılan nağıl və hekayələr asan və sadə olsa, nə qədər açıq dildə yazılsa və uşaqların fəhminə yaxın olsa, bir o qədər mənzurda olan mətləblər artıq dərəcədə hasilə gəlib yaxşı meyvələr gətirər" **(Şaiq. 1978:s. 403).** Bütün bunlar dövrün yaşanan problemlərinə həssaslığı və onun aradan

qaldırılması məsələsinin vacibliyini diqqət önünə gətirir. Böyük ideallarla yaşayan F.Köçərlinin indi anadan olmasının yüz altmış ili tamam olur və xalqın yaddaşında gərəkli işləri ilə əvəzsiz təsəvvür formalaşdırmış bu ədib, heç şübhəsiz, bundan sonra da neçə yüz altmış illər boyu xatırlanacaq və örnək kimi nümunəyə çevriləcəkdir.

ƏDƏBİYYAT

1. Cəlal M., Hüseynov F. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı: Maarif, 1982, s. 421).

2. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1992, 477 s.

3. Xəlil Z., Əsgərli F. Uşaq ədəbiyyatı. Bakı: ADPU, 2011, 498 s.

4. "İqbal" qəzeti, 23 may 1913, № 366.

5. İsayev İ. Pedaqoji irsimizdən: M.V.Vidadidən H.K.Sanılıyadək. Bakı: ADPU, 2014, 406 s.

6. Köçərli F. Azərbaycan ədəbiyyatı.İki cilddə, I cild. Bakı: Elm, 1978, 596 s.

7. Köçərli F. Azərbaycan ədəbiyyatı. İki cilddə, II cild. Bakı, Elm, 1981, 596 s.

8. Köçərli F. Balalara hədiyyə. Bakı: Şərq-Qərb, 2013, 172 s.

9. Köçərli F. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1963, 486 s.

10. Məmmədov M., Babayev Y., Cavadov T. Pedaqoji mühit və uşaq ədəbiyyatı. Bakı: Maarif, 1992, 288 s.

11. Namazov Q. Azərbaycan uşaq ədəbiyyatı. Bakı: Bakı Universiteti, 2007, 444s.

12. Nəzirli Ş. Qoridən gələn qatar.Bakı: Şərq-Qərb, 2018, 492 s.

13. Ruqiyyə Q. Firidun bəy Köçərli və onun "Azərbaycan ədəbiyyatı" əsəri. Firidun bəy Köçərli. Azərbaycan ədəbiyyatı. Bakı: Elm, 1978, s. 8-67.

14. Rüstəmöv F.Pedaqoji oçerklər: sələflərim və müasirlərim. Bakı: Elm və təhsil, 2010, 344 s.

15. Şaiq A. Əsərləri. 5 cilddə, V c., Bakı: Yazıçı, 1978, 456 s.

ONOMASTIC UNITS AS PEDAGOGICAL AND POETIC TOOLS
ONOMASTİK VAHİDLƏR PEDAQOJİ VƏ POETİK VASİTƏ KİMİ

RƏHİLƏ HÜMMƏTOVA

f.ü.f.d. dosent, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Filologiya fakültəsi
Azərbaycan dili və onun tədrisi texnologiyası bölümü
ORCİD 0000-0003-2521-6361

XÜLASƏ

Zəngin dil faktlarını, xalqın yaşanmış maddi tarixinin izlərini, yer-yurd, qəbilə, tayfa adlarını özündə qoruyub-saxlayan onomastik vahidlər bədii məqsədin daşıyıcısı kimi də çox mühüm əhəmiyyətə malikdir. Onomastik vahidlərin poetik funksiyasından bəhs edilərkən konkret onomastik mənbə olmalı və linqvistik müstəvidə təhlil edilməlidir. Onomastik leksikanın poetik funksiyasının tədqiqində ən dəyərli mənbə, heç şübhəsiz ki, folklor və yazılı ədəbiyyatımız, xüsusən aşıq poeziyasıdır. Məna və məzmun baxımından olduqca zəngin olan onomastik vahidlər hər bir əsərin mövzusu və ideyası ilə əlaqələndirilir, poetik kateqoriya kimi ifadənin estetik siqlətini qüvvətləndirmək məqsədi daşıyır. Lakin xüsusi sözlərin əhəmiyyəti bununla məhdudlaşmır. Dilin lüğət tərkibində xüsusi çəkisi olan onomastik vahidlər tədris prosesində çarpaz inteqrativliyin yaradılmasında, ayrı-ayrı fənlər arasında əlaqənin qurulmasında yaxından iştirak edir. Məqalədə müxtəlif əsərlərdən seçilmiş nümunələrdə müşahidə edilən Qarabağ, Qarqar, Muğan, Xaçın, Murov, Şirin, Xosrov, Mehman, Leyli kimi onomastik vahidlərin poetik funksiyasından, inteqrativliyin yaradılmasındakı rolundan söhbət açılmışdır: *Var olsun Qarabağ, əcəb səfadır, Başa Xaçın axar, ayağa Qarqar.Göyçə qar əlindən zara gəlibdir, Muğan həsrət çəkir, a yağa qar, qar.(A.Ələsgər)*

Bu misralardakı onomastik vahidlərlə fənlərarası inteqrasiya yaratmaq, təhsilalanlara təcnisdə adı çəkilən toponim və hidronimlərin coğrafiyası, dil mənsubiyyəti, leksik-semantik xüsusiyyətləri, etimologiyası, poetik funksiyası haqqında məlumat vermək, tam təsəvvür yaratmaq mümkündür. Bu halda əsərin aşıladığı ideya və məzmun daha aydın şəkildə dərk edilər. Məlum olar ki, Qarabağ–Muğan toponimlərinin, Qarqar–Xaçın hidronimlərinin qarşılaşdırılması bədii məqsədə xidmət göstərir, üslubi mahiyyət kəsb edir. Bədii ifadə vasitələrindən olan təzad məhz onomastik vahidlərlə daha yüksək estetik siqlət qazanmış olur. Etnos əsasında yaranan Qarqar hidronimi həmçinin cinasların yaradılmasında xüsusi əhəmiyyət daşıyır. Cinas qafiyələrdən yola çıxaraq dilçiliyin leksikologiya bölməsi ilə əlaqə yaratmaq, sözlərin leksik-semantik qrupları haqqında xatırlatma aparmaq, omonimlər, onların poetik imkanları, kontekstual omonimlik və s. ilə bağlı məlumatları dərinləşdirmək, fikrimizcə, mütləq xarakter daşımalıdır. Həmçinin cinaslar haqqında elmi-nəzəri məlumatlar fonetika bölməsi ilə də inteqrasiyanı zəruri edir. Bu cür çarpaz inteqrasiya fənlər üzrə alınmış nəzəri biliyi artırmaq, möhkəmləndirmək və dərinləşdirmək, təlimin keyfiyyətini yüksəltmək məqsədinə xidmət edir.

Açar sözlər: onomastik vahidlər, poetik məqsəd, inteqrasiya, üslubi imkan, folklor

Summary

Onomastic units, which contain rich linguistic facts, traces of the people's material history, names of lands, tribes and clans, are also very important as carriers of artistic purpose and stylistic points. When discussing the poetic function of onomastic units, there must be a specific onomastic source and it must be analyzed on a linguistic level. Undoubtedly, the most valuable source in the study of the poetic function of onomastic lexicon is our folklore and written literature, especially ashug poetry. Onomastic units, which are very rich in meaning and content, are associated with the theme and idea of each work, aiming to strengthen the aesthetic character of the expression as a poetic category. However, the significance of special words is not limited to this. Onomastic units, which have a special place in the vocabulary of the language, are closely involved in the creation of cross-integrativeness in the teaching process, in establishing links between different subjects. The article discusses the poetic function of onomastic units such as Karabakh, Gargar, Mugan, Khachin, Murov, Shirin, Khosrov, Mehman, Leyli, and their role in the creation of integrativity.: *Long live Karabakh, it is a wonderful place, The Khachin flows to the head, Gargar to the feet. Goycha was damaged by snow, Mugan is missing for snow, snow. (A. Alasgar)*

It is possible to create interdisciplinary integration with onomastic units in these verses, to inform students about the geography, language affiliation, lexical-semantic features, etymology, poetic function of the toponyms and hydronyms mentioned in the article, to create a complete picture. In this case, the idea and content instilled in the work are more clearly understood. It can be seen that the comparison of Karabakh-Mugan toponyms, Gargar-Khachin hydronyms serves an artistic purpose and has a stylistic essence. Contrast, which is one of the means of artistic expression, acquires a higher aesthetic character with onomastic units. The ethnonym Gargar hydronym is also of special importance in the creation of jinns. To connect with the lexicology department of linguistics based on rhymes, to remind about lexical-semantic groups of words, homonyms, their poetic possibilities, contextual homonymy, etc. In our opinion, it is necessary to deepen the information on Scientific and theoretical information about jinns also makes it necessary to integrate with the phonetics department. Such cross-integration serves the purpose of increasing, strengthening and deepening the theoretical knowledge acquired in the subjects, improving the quality of teaching.

Keywords: onomastic units, poetic purpose, integration, stylistic possibility, folklore

GİRİŞ. Ədəbi dilimizin leksikasının mühüm hissəsini təşkil edən onomastik vahidlərin hərtərəfli tədqiqi Azərbaycan dilinin və xalqının tarixini, etnogenezini öyrənmək baxımından mühüm əhəmiyyətə malikdir. A.Qurbanov bu haqda yazırdı: "Dilin lüğət tərkibində xüsusi yeri olan onomastik leksikanın dərindən araşdırılması, diqqətli təhlili, elmi şəkildə ümumiləşdirilməsi xalqımızın dilinin və tarixinin bir çox mürəkkəb və zəruri məsələlərinin açılmasına kömək edir. Buna görə də onomastik materiallara elmi mövqedən yanaşmaq, onun dəqiq və əsaslı təhlilini vermək aktual və zəruri məsələlərdəndir ". (7, s.3)

Zəngin dil faktlarını, yer-yurd, qəbilə, tayfa, çay, dəniz və sairə adlarını özündə qoruyub-saxlayan onomastik vahidlər üslubi funksiyası ilə də mühüm əhəmiyyətə malikdir. Onomastik vahidlərin poetik imkanları araşdırılarkən konkret onomastik mənbə olmalı və bu mənbənin üzərində onların üslubi məqamları linqvistik müstəvidə təhlil edilməlidir. Onomastik leksikanın poetik funksiyasının tədqiqində ən dəyərli mənbə, heç şübhəsiz ki, folklor və yazılı ədəbiyyatımız, həmçinin aşıq poeziyasıdır. Məna və məzmun baxımından olduqca zəngin olan onomastik vahidlər hər bir əsərin mövzusu və ideyası ilə əlaqələndirilir, poetik kateqoriya kimi ifadənin estetik siqlətini qüvvətləndirmək məqsədi daşıyır. Lakin xüsusi sözlərin əhəmiyyəti bununla məhdudlaşmır. Dilin lüğət tərkibində xüsusi çəkisi olan onomastik vahidlər tədris

prosesində çarpaz inteqrativliyin yaradılmasında, ayrı-ayrı fənlər arasında əlaqənin qurulmasında yaxından iştirak edir. Məlumdur ki, fənlərin inteqrativ əsaslarla tədrisi müasir dərsə verilən tələblərdən biridir. İnteqrasiya termini təhsildə XX əsrin sonundan daha aktiv şəkildə istifadə olunmağa başlansa da, əslində onun ifadə etdiyi məzmun həyatın, cəmiyyətin öz içərisində mövcud olmuşdur. "Zaman-zaman diferensial yanaşmalar hissələrə bölünməni, ayrılmaları tənzimlədiyi kimi, inteqrasiya prosesləri də bütövləşmələrin, tamamlanmaların nəticəsi kimi meydana çıxmışdır. Bütün elm sahələrində, o cümlədən sosiologiyada və pedaqogikada inteqrasiya önəmli yer tutmuşdur. Ona görə də pedaqogikada "inteqrasiya", "inteqrativlik", eləcə də "təhsildə inteqrasiya" və sair anlayışlardan istifadə olunmağa başlanılmışdır". (6, serqqapisi.az)

ARAŞDIRMA. Müasir cəmiyyətdə baş verən sosial proseslər, ölkələrarası iqtisadi-mədəni əlaqələrin formalaşması və möhkəmlənməsi təhsilin inkişafında xüsusi tələblər irəli sürür. Bu tələblərdən biri də əvvəlki sətirlərdə qeyd etdiyimiz kimi, təlimdə inteqrativliyin təmin olunmasıdır. Çoxdandır ki, qloballaşan təhsil sistemində, eləcə də elm sahələrində inteqrasiya, inteqrativlik, təhsildə inteqrasiya, inteqrativ təlim, inteqrativ dərs, inteqrativ fənn və s. ifadələrdən, söz birləşmələrindən daha tez-tez istifadə olunmağa başlanılıb. Müxtəlif dünya dövlətlərinin təhsil sistemlərində genişlənən inteqrasiya, əlaqəli təhsil təlim edilən fənlərin də arasında inteqrasiyanın vacib olmasını şərtləndirir. Fənlərarası inteqrasiyanın düzgün və zamanında qurulması təlimin keyfiyyətinin yüksəldilməsinə təminat verir. Fikirlərimizi bir nümunə üzərində əsaslandırmağa çalışaq: Var olsun *Qarabağ*, əcəb səfadır, Başa *Xaçın* axar, ayağa *Qarqar*. *Göyçə* qar əlindən zara gəlibdir, *Muğan* həsrət çəkir, a yağa qar, qar. (A.Ələsgər)

Bu misralardakı onomastik vahidlərlə fənlərarası (tarix, çoğrafiya, dilçilik, ədəbiyyat və s.) inteqrasiya yaratmaq, təhsilalanlara təcnisdə adı çəkilən toponim və hidronimlərin coğrafiyası, dil mənsubiyyəti, leksik-semantik xüsusiyyətləri, etimologiyası, poetik funksiyası və s. haqqında məlumat vermək, bu coğrafi məkanlar – toponimlər, hidronimlər barədə tam təsəvvür yaratmaq mümkündür.

Qarabağ – Kiçik Qafqaz dağlarından başlamış Kür və Araz çayları arasındakı ərazini əhatə edir. Qarabağ adı mənbələrdə XII əsrlərdən çəkilməyə başlanılır. Ən qədim insan məskəni – Azıx mağarası da burada tapılıb. Qarabağ toponiminin etimologiyasını, dil mənsubiyyətini tədqiq etmək də olduqca önəmlidir. Təhsilalanlar bu sözün mənşəyini araşdırmaqla qədim türk etnosları haqqında da kifayət qədər məlumat ala bilərlər.

Qarqar – Azərbaycanda çay, uzunluğu 115 kilometr, hövzəsinin sahəsi 1490 kvadrat kilometrdir. Qarabağ silsiləsinin 2080 metr hündürlüyündən başlanır. Qarqar hidroniminin qədim türk tayfası olan qarqarlarla əlaqədar olduğu haqqında elmi fikirlər mövcuddur. Yunan alimi Strabonun "Coğrafiya" kitabında qarqarların adı çəkilir. Elmi araşdırmalarda "qarqarların türkmənşəli tayfa olduqları, e.ə.VII əsrdə sakların içərisindən gəldikləri, bu etnonimin Dağıstan, Azərbaycan, Şərqi Türkiyə və İranda bir sıra toponimlərin adlarında saxlanması barəsində fikirlər öz əksini tapmışdır".

Misralarda adı çəkilən Xaçın çayın uzunluğu 119 kilometrdir. Qarabağ silsiləsinin 2100 metr hündürlüyündən başlanır, Kəlbəcər, Ağdam, Bərdə ərazilərindən keçir.

Göyçə – Qədim türk-oğuz yurdu olan Göyçə mahalı Göyçə gölü sahilində, Murov dağla Qarabağ vulkanik yaylasının arasında yerləşir. 1923-cü ildən Ermənistana pay verilib.

Muğan – Kür-Araz ovalığının bir hissəsi. Quru çöl iqlimi var. İllik yağıntı 200-300 mm-dir. Göründüyü kimi, misralardakı onomastik vahidlər vasitəsilə tarix, coğrafiya, dilçilik, ədəbiyyat, eləcə də ədəbiyyat nəzəriyyəsi fənləri arasında inteqrasiya yaratmaq mümkündür. Bu halda əsərin aşıladığı ideya və məzmun daha aydın şəkildə dərk edilər. Göyçə – Muğan

toponimlərinin, Qarqar –Xaçın hidronimlərinin qarşılaşdırılması bədii məqsədə xidmət göstərir, üslubi mahiyyət kəsb edir. Bədii ifadə vasitələrindən olan təzad məhz onomastik vahidlərlə daha yüksək estetik siqlət qazanmış olur. Etnos əsasında yaranan Qarqar hidronimi həmçinin cinasların yaradılmasında xüsusi əhəmiyyət daşıyır. Cinas qafiyələrdən yola çıxaraq dilçiliyin leksikologiya bölməsi ilə əlaqə yaratmaq, sözlərin leksik-semantik qrupları haqqında xatırlatma aparmaq, omonimlər, onların poetik imkanları,kontekstual omonimlik və s. ilə bağlı məlumatları dərinləşdirmək, fikrimizcə, mütləq xarakter daşımalıdır. Həmçinin cinaslar haqqında elmi-nəzəri məlumatlar fonetika bölməsi ilə də inteqrasiyanı yaratmağa şərait yaradır. Bu cür çarpaz inteqrasiya fənlər üzrə alınmış nəzəri biliyi artırmaq, möhkəmləndirmək və dərinləşdirmək, təlimin keyfiyyətini daha da yüksəltmək məqsədinə xidmət göstərir.

Fənlərası, eləcə də fəndaxili inteqrasiyanın yaradılması mütləq şəkildə zərurətdən yaranmalı, mövzunun məqsədinə, verilmiş elmi-nəzəri məlumatların dərinləşdirilməsinə və möhkəmləndirilməsinə xidmət göstərməlidir. Əgər təhsilverən folklorun xüsusi qolu olan aşıq poeziyasından söhbət açırsa, nümunələri elə seçməlidir ki, inteqrativliyi yarada bilsin, onomastik vahidlərin köməyi ilə fənlərarası inteqrasiyanı quraraq təhsilalanlarda koqnitivliyi, çevik təfəkkürü inkişaf etdirməyə nail olsun.

Bədii nitqdə yüksək estetik siqlətin, emosional təsirin yaranmasında, şübhəsiz, sözün məcazi mənada işlənməsi, məcazlar sistemi (təşbeh, metafora, epitet, sinekdoxa və s.) üstün mövqedə dayanır. Ancaq bir faktı da danmaq olmaz ki, poetikliyi, emosionallığı yaratmaq üçün obrazlara verilən adların da mühüm əhəmiyyəti var. Ayrı-ayrı əsərlərdəki şəxs adlarının üslubi-funksional imkanları araşdırılarkən belə qənaətə gəlmək olur ki, obrazlara verilən adlar milli koloritin yaranmasında, əsərin ideya və məzmununun daha möhkəm bağlanmasında xüsusi çəkiyə malik olur. Bədii üslubda obrazlara verilmiş adlar poetik funksiya daşıyır, ifadənin təsir gücünün qüvvətləndirilməsində söz sahibi olur, əsərin ideyasının, mövzusunun, süjet xəttinin açılmasında əhəmiyyətli rol oynayır. Hər bir misrası əxlaqi-didaktik məzmunu, fəlsəfi dərinliyi, estetik siqləti ilə seçilən Nizami Gəncəvinin "Xeyir və Şər" əsərində obrazlarına verdiyi adların əmelləri ilə üst-üstə düşdüyünü müşahidə edərək irəli sürdüyümüz mühakimələrə haqq qazandırırıq:Gəncin birinin adı *Xeyir*, birinin adı *Şərdi,* Onlar adları tək işlər görərdi...

N.Gəncəvinin böyük məhəbbətlə yaratdığı bəzi obrazların adlarının (antroponimlərin) semantikasına və poemanın ("Xosrov və Şirin") ideya və məzmununa nə dərəcədə bağlı olduğuna da nəzər yetirək: Cürətdə kişidən heç geri durmur, Böyük olduğundan *Məhinbanudur*.

Məhinbanu hibrid sözdür, iki müstəqil mənalı sözün birləşməsindən əmələ gəlmişdir. Məhin (ərəb) – böyük, ali, möhtərəm; banu (f) – xanım deməkdir. Tarixdə müxtəlif adlarla (Şamira, Şamiramata) tanınsa da, bu müdrik qadını Nizami Gəncəvi Məhinbanu adlandırır. Əsəri oxuduqca Məhinbanunun bir böyük, bir ana kimi Şirinə öyüd-nəsihət verdiyini, yurduna başçılıq, böyüklük etdiyini, möhtərəm, ali bir xanım olduğunu, bu gözəl keyfiyyətlərinə görə el-obası tərəfindən sevildiyini müşahidə edirik.

N.Gəncəvinin böyük sevgi ilə yaratdığı Şirin sdının mənasını açmağa çalışaq. Şirin Sasani şahənşahı II Xosrovun (Sasanilərin 23-cü şahı) həyat yoldaşı, Sasani məlikəsi idi. Sasani məlikəsinin adının böyük sevgi dastanına – "Xosrov və Şirin" ə gətirilməsi təsadüfi deyil. Bu poema Xosrov Pərvizlə sevgilisi Şirin haqqında qədim bir hekayət əsasında işlənmiş mənzum romandır. Nizami Gəncəvidən əvvəl Ə. Firdovsi "Şahnamə" də Xosrov və Şirindən söz açıb. Lakin Nizami Gəncəvi bu qədim hekayətə yeni, təravətli ab-hava gətirib, Şirin obrazına yeni nəfəs verib. Şirin fars mənşəli söz olub "ağızda şəkər, bal kimi xoş tam verən; dadlı, ləzzətli" mənalarını verir. "Xosrov və Şirin" poeması ilə tanış olan hər bir oxucu müəllifin Azərbaycan gözəlinin qüsursuz obrazını böyük fəxrlə yaratdığını, Şirinin həm zahirən, həm daxilən " şirin, şəkər " olduğunu hiss edir. Adının semantikasından doğan "şəkər, dadlı, ləzzətli" ifadələri

bütün əsər boyu hiss edilir və bu hiss Xosrovun məhəbbətinə, Fərhadın Şirinə olan imkansız eşqinə, bu eşq uğruna dağları çapmasına, çöllərə düşməsinə də haqq qazandırır. N. Gəncəvi Şirinin ölüm səhnəsini təsvir edərkən də böyük heyranlıqla yaratdığı sevimli obrazını Xosrov məclisində yatan şəkərə bənzədir. Şair onun qururunu, cəsarət və etibarını sonsuz ehtiramla, evfuizmlə, təsirli bir dillə vəsf edir: Xosrov məclisində yatan şəkərə, Xoş olsun bu yuxu yüz kərə!...Alqış bu ölümə, əhsən *Şirinə!* Öldürən *Şirinə*, ölən *Şirinə!*

Dahi Nizami Şirin antroponimini üç dəfə təkrar etməklə misraların məzmununu poetik tülə bürüyür, "şəkər" kəlməsinin semantikasına əlavə şirinlik qatır, Azərbaycan gözəlinin nə üçün bu qədər sevildiyinin səbəbini açıqlamağa çalışır. Bu fakt təsdiq edir ki, N.Gəncəvi obrazlara ad verərkən forma ilə məzmunu, əsərin struktur-semantik bütövlüyünü nəzərə almış, obrazların adları ilə əməllərinin assosiativliyini qabartmışdır. Obrazlara verilən adların poetik funksiyası açılmaqla yanaşı, onların dil mənsubiyyətindən də bəhs olunmalı, dilçiliyin leksikologiya bölməsi, lüğət tərkibində alınma sözlər, eləcə də xüsusi sözlərlə (onomastik vahidlər) bağlı əldə edilmiş elmi-nəzəri məlumatlar xatırlanmalı və möhkəmləndirilməlidir.

Bir qədər də şifahi xalq ədəbiyyatında işlənmiş onomastik vahidlərin poetik funksiyasına nəzər yetirək. Şifahi xalq ədəbiyyatının müxtəlif janrlarında, xüsusilə bayatılarda, aşıq poeziyasında müşahidə edilən onomastik vahidlərin linqvistik müstəvidə araşdırılması onların poetik vasitə olaraq istifadə edildiyi mühakiməsini də söyləməyə əsas verir. Folklor ədəbiyyatında onomastik vahidlər çox müxtəlif poetik məqamlarda işlənir. Bu cəhətdən Azərbaycan şifahi ədəbiyyatı, xüsusilə bayatılar zəngin nümunələlərlə doludur. Bayatılarda geniş səpkidə işlənmiş onomastik vahidlər yaşanmış duyğuların gerçəkliyini əks etdirən, daha geniş poetik imkanlar yaradan üslubi vasitə kimi əvəzsizdir. Onu da qeyd edək ki, bayatılarda üstün mövqeyi ilə seçilən onomastik vahidlər dildən hazır şəkildə götürülür. Bayatılarda işlənmiş toponimlər lirik qəhrəmanın yaşadığı coğrafi məkan haqqında dəqiq məlumat verir, təsvir olunan hadisənin baş verdiyi yeri konkretləşdirir; fikrin bədii təsir gücünü qüvvətləndirir; tarixi həqiqətləri unutmağa qoymur; müqayisə məzmunu yaradır, metaforik obraza çevrilərək həmin məzmunu daha da gücləndirir; ucalıq, əzəmət, vüqar və əyilməzlik kimi keyfiyyətlərin rəmzi olaraq verilir; türkdilli tayfa birləşmələrinin bu torpaqlarda əski çağlardan yaşamış olduğunu bildirir; ritm, ahəng yaratmağa, uğurlu qafiyə, eləcə də cinas qafiyə düzümünə xidmət göstərir: Eləmi, *Murov dağa*, Düşübdür qrov dağa. *Məcnunu Leyli* üçün Hu çəkir *Murov dağa*. *(4, s.176)*

Bayatıda adı çəkilən oronim (Murov dağı) Kiçik Qafqaz dağ silsiləsində ən yüksək zirvələrdəndir. Hündürlüyü 3343 metrdən artıqdır. Bayatıda adının keçməsi yalnız qafiyə düzümünə xidmət göstərməsi ilə məhdudlaşmır. Misraların semantik tutumunda, ideyanın çatdırılmasında Murov onomastik vahidinin xüsusi çəkisi vardır. Bayatının ikinci misrasında (Düşübdür qrov dağa) Murovla fonetik tərkibcə uyğunlaşan **qrov** vahidi ilk baxışda adi qafiyə təsiri bağışlayır. Bu, həqiqətən, belədir. Lakin misraların mətnaltı mənası daha dərindir. Sanki **qrov** leksik vahidindəki soyuqluq hələ ömrünün yazında Leylinin həyatının şaxtaya düşəcəyi, sönüb gedəcəyi fikrini bizə təlqin edir. Təbii ki, qrov düşəndə onun altında qalan bitkilər soyuğa dözmür. Deməli, Leylinin taleyi ilə qrov bir-birini tamamlayır. Eləcə də Murovla qrov. Axı Murov deyəndə elə qar yada düşür. Bax beləcə onomastik vahidlərin – oronim və antroponim-lərin bayatının misralarında yaratdığı poetikliyin sehrinə düşürük. Təbii ki, apelyativ sözlərin də poetikliyin ifadəsində rolu az deyil.

Bayatılarda hidronimlərin yüksək estetik siqlət yaratdığı da müşahidə edilən faktlardandır. Folklor ədəbiyyatının lirik növü üzərində aparılan araşdırmalar onu deməyə əsas verir ki, Kür və Araz hidronimləri lirik qəhrəmanın hiss və duyğularının tərənnüm obyekti kimi ən çox müraciət edilən çay adlarıdır: Eləmi, *Araz* ağlar, *Kür* gələr, *Araz* ağlar. Qardaşlar ayrı düşüb, Dözməyib *Araz* ağlar. *(4, s.223)*

Niyə məhz Kür, Araz? Niyə Araz çayının adı çəkiləndə yaralarımız qövr edir, qəlbimiz sızlayır? Niyə Araz çayı metoforik obraz kimi səciyyələndirilir? Bunun səbəbi nədir, kökü nəyə bağlıdır?

Elə bu bayatıda adı çəkilən hidronimlərlə yola çıxaraq tarix, coğrafiya fənləri arasında yenə də inteqrasiya yaratmaq, qan yaddaşımızı vərəqləmək mümkündür. Araz tarixə Azərbaycanın qəlbində özü boyda yara açan çay kimi düşüb. Bu tarix Azərbaycan xalqının qara hərflərlə yazılmış tarixidir. 1813-1828-ci illərdə "Gülüstan" və "Türkmənçay" müqavilələrinə əsasən Azərbaycan adlı ulu bir məmləkət ruslar və farslar tərəfindən iki yerə parçalandı. Azərbaycanın şimalı rusların, cənubu isə farsların müstəmləkəsinə çevrildi. Ana balasından, qardaş qardaşından ayrı salındı. Bu ayrılığı Arazdan gördülər, onu qınadılar. Araz da bu həsrət, nisgil yanğısı ilə yandı, alışdı, özü boyda qəm yükünü çiyinlərində daşıdı, ayrı düşən qardaşların taleyinə ağladı. Nümunə kimi verdiyimiz bu bayatıda real tarixi həqiqətlər, lirik qəhrəmanın daxili duyğuları, nisgili Araz hidronimi vasitəsilə çatdırılır. Bəzən elə düşünürəm ki, *Araz* və *ayrılıq* kəlmələri eyni semantik tutuma malikdir, sinonim sözlərdir. İstər-istəməz Araz hidronimindən söz açılanda ayrılıqdan doğan həsrət alovu bütün varlığımıza hakim kəsilir, bu həsrətə Araz da dözə bilmir, göz yaşı tökür. Hicran notları üstündə köklənmiş bayatının dramatizmini də elə "Dözməyib Araz ağlar" misraları tamamlayır. Qeyd edək ki, sərhəd rəmzi kimi verilən Araz misraların semantik gücünü artırmaqla bərabər, poetik ritm, ahəngdarlıq, kövrəklik, nisgil dolu bir ovqat yaradır və bu ovqatı Araz hidroniminin üç dəfə təkrar edilməsi daha da ekspressivləşdirir.Bax beləcə cəmi dörd misralıq bayatıda metaforik obraz kimi səciyyələndirilən Araz hidroniminin poetik funksiyasından fənlərarası inteqrasiyaya yol salmaq, Araz və Kür hidronimlərinin uzunluğu, mənbəyi, mənsəbi, hövzəsi, etimologiyası və s. haqqında araşdırmalar aparmaq, təhsilalanları bu tədqiqata cəlb etmək, Kür və Araz çay adlarının bayatılarda çox vaxt qoşa çəkildiyi səbəbləri müəyyənləşdirmək tapşırıqlarını vermək mümkündür.

Bəzən bayatılarda misraların forma və məzmunu ilə birbaşa bağlı olan onomastik vahidlər coğrafi məkanı dəqiqləşdirdiyi kimi, özündə ədəbi dilimizin tarixi izlərini də qoruyub-saxlayır: Əzizim, *Qarayazı,* Kür yanı, *Qarayazı.* Yara ağ gün yazıldı, Mənə bəd, qara yazı. *(4, s.263)*

Bayatıda müşahidə edilən *Qarayazı* oronimdir – Ağstafa rayonunda, Kür çayının sol sahilində düz adıdır. Şərqdən Ceyrançöllə əhatə olunur. Qışı quraq keçən mülayim isti yarımsəhra və quru çöl iqlimi var. Qarayazı həmçinin meşə adıdır. Qazax rayonu ərazisində, Kür çayının hər iki sahilində tuqay meşəsidir. 1931-1940-cı illərdə Tovuz meşə təsərrüfatının, 1940-cı ildən sonra isə Ağstafa meşə təsərrüfatının tərkibinə daxil edilmişdir.

Qarayazı – sıx, qalın, böyük meşə, böyük düz, böyük çöl mənalarında işlənir. Qarayazı oronimi quruluşca mürəkkəbdir, "qara" və "yazı" leksik vahidlərinin I növ təyini söz birləşməsi modeli əsasında formalaşmışdır. Qədim türk leksik layında, eləcə də müasir Azərbaycan ədəbi dilində ***qara*** leksik vahidi müxtəlif məna çalarları ilə onomastik vahidlərdə, mürəkkəb sözlərin və söz birləşmələrin tərkibində işlək olmuşdur: Qara dağ, Qarabalıq mağarası, Qara quzey (böyük, iri, nəhəng, geniş, hündür mənalarında); qara saç, qara paltar, qarayanız (rəng mənasında); qara qayğı, qara gün, qarayaxa, qəlbiqara (məcazi mənada); qara su (keyfiyyətsiz, içməyə yararsız su mənasında) və s. Oronimin ikinci tərkib hissəsi olan *yazı* leksik vahidi də müasir Azərbaycan ədəbi dil nöqteyi-nəzərindən arxaikləşib. " Çöl, düz " coğrafi termininin sinonimi kimi işlənən ***yazı*** qədim türk dilinin leksik layında çox işlək olub. " Orxon –Yenisey " abidəsində *(yazı (KTk 7) çöl, düzənlik. 8, s.69)*, " Kitabi-Dədə Qorqud " (*Ozan, evin dayağı oldur ki,* ***yazıdan-yabandan*** *evə bir qonaq gəlsə, ər adam evdə olmasa, ol onu yedirər, içirər, ağırlar... 3, s. 26*) dastanında, S.Sarayinin "Divan" ında və diğər abidələrdə *" çöl, düz "* mənalarında qeydə alınıb. Nümunə kimi verdiyimiz bayatıda Qarayazı oronimi həm lirik qəhrəmanın coğrafi məkanını konkretləş-dirir, misralarda ahəng, ritm yaradır, cinas qafiyə

düzümünə başçılıq edir, həm də təzadın ifadə üsulunda mühüm əhəmiyyət daşıyır. Qarayazı oronimi ilə sıralanan cinas qafiyə fonunda lirik qəhrəmanın taleyinə yazılan“ pis, qara bəxti” daha qabarıq görünür. Beləliklə, Qarayazı oroniminin poetik funksiyası açıldıqca dilin keçdiyi inkişaf tarixinə də nəzər salmaq, dilçiliyin leksikologiya bölməsi, həmçinin morfologiya, sintaksis bölmələri arasında inteqrasiya yaratmaq, coğrafiya fənni ilə əlaqə qurmaq, bu fənlər üzrə müvafiq mövzularla bağlı əldə olunmuş elmi-nəzəri məlumatları möhkəmləndirmək mümkün olar. Həmçinin təhsilalanlar da dərk edərlər ki, onomastik vahidlər, xüsusən toponimlər “torpağın köksündə tarixin izlərini” özündə qoruyub-saxlayır. Bu baxımdan tədqiqat işlərində ən qiymətli və etibarlı mənbələrdən biri məhz onomastik vahidlərdir.

Başqa bir bayatıda adı çəkilən onomastik vahidi – idionimi izləyək: Əzizim, tara bax, Teli qırıq tara bax. Kövrək bayatılarla Ağlat məni, **“** *Qarabağ* **“.** *(4, s.159*)

Onomastik leksikanın bir layı olan idionimlər (ktematonimlərin bir növü) də yüksək emosionallıq yaratmağa qadirdir. Bayatının lirik qəhrəmanı yurdu talanmış, əzəli və əbədi məskəni olan Qarabağdan (Şükürlər olsun ki, Qarabağ öz sahiblərindədir!) didərgin salınanlardandır. O, üzünü metaforik obraz kimi təsvir edilən “Qarabağ “ a tutur, onu ağlatmağı xahiş edir. Axı onsuz da dərdi başından aşır, qəlbi qan ağlayır. Bu xahişin səbəbi nədir? Niyə “Qarabağ şikəstəsi”? Səbəbi çox sadədir: Azərbaycanın zərbi muğamlarından olan “Qarabağ şikəstəsi“ ağır tempdə oxunur. Bayatı çələngindən toxunmuş şikəstə həm bayatı kövrəkliyini, həm öz ruhunda olan kədəri, nisgili, sözün ifadə etməyə gücü çatmadığı həzin duyğuları ifadə edir. Bu möhtəşəm sənət əsərində nə qədər böyük bir qürur hissi olsa da, zilə qalxan zəngulələrində, pərdə-pərdə enən bəmində bir o qədər də insan qəlbini yandırıb-yaxan sirli-sehrli dünya var. Məhz bu məqamlar lirik qəhrəmanın “Qarabağ şikəstəsi“ nə canlı bir varlıq kimi baxmağına səbəb olmuşdur. Metaforik obraz olaraq müraciət obyektinə çevrilən “Qarabağ şikəstəsi ” dərd əhli kimi dərdlinin dərdini, kədərini dərindən duyur, lirik qəhrəmanın ağrı-acılarını yüngülləşdir-məyə çalışır. “Qarabağ“ həmçinin bayatının misralarına öz kövrəkliyi ilə sığal çəkir, qafiyə düzümünü tamamlayır. “Qarabağ” idionimi poetik mətləbin açılmasında mühüm əhəmiyyət daşıdığı kimi, fənlərarası əlaqənin də qurulmasında iştirak edir. Təhsilverənin təşəbbüsü ilə tədqiqatlar aparmaq, Azərbaycan muğam sənəti, muğamın növləri, muğam ifaçıları, ifalarındakı fərqlər və s. haqqında məlumatlar toplamaq, bayatıda adı çəkilən onomastik vahid müstəvisində əldə edilmiş məlumatları bütövləşdirmək, tamlaşdırmaq, fikrimizcə, vacib olan faktorlardandır. Folklor ədəbiyyatının xüsusi bir qolu olan aşıq poeziyasında da külli sayda işlənən onomastik vahidlər müxtəlif poetik funksiya daşıyır. Onomastik vahidlər təşbeh, epitet, mübaliğə, metafora və s. kimi bədii təsvir və ifadə vasitələrinin formalaşmasında iştirak edir. Bəzən də onomastik vahidlər birbaşa məcaz kimi çıxış etməsə də, misraların semantik assosiativliyində olduqca üstün rol alır: Dəli çaylar kimi çırpar dalğalar, İnildər torpağı, daşı *Əsriyin.* Ölməyəm, üstünə çatam, Azaflı, Kefli bulaqlardı başı *Əsriyin. (A.M.Azaflı)*

Bu misralarda *Əsrik* hidronimi “dəli çaylar”, “kefli bulaqlar” birləşmələrindəki epitetlərin mənasını tamamlayır. “Əsrik”, “dəli” və “kefli” sözləri əslində eyni semantik yuvada birləşir. “Əsrik” qədim türk sözüdür, “sərxoş, dəli, aşıb-daşan” mənalarını bildirir. Ədəbi dilimizin müasir vəziyyəti ilə müqayisədə arxaikləşmişdir. Lakin göründüyü kimi, hidronim, eləcə də toponim (həm də kənd adıdır) məhz *Əsrik* adı ilə yaşamaqdadır. Beləliklə, *Əsrik* hidroniminin poetik xüsusiyyətlərini açmaqla həm də dil tarixi, dialektologiya, dilçiliyin leksikologiya bölmələri ilə əlaqə yaratmaq, sözlərin köhnəlməsinin səbəbləri, dilin lüğət tərkibinin sosial sifarişli olması, bəzi sözlərin (Qarayazı, Əsrik və s.) müasir ədəbi dilin lüğət tərkibindən çıxsa da, onomastik vahidlərdə, eləcə də regional müstəvidə istifadəsi və s. haqqında daha geniş araşdırmalar aparmaq və onları birləşdirib bütövləşdirmək mümkün ola bilir.

NƏTİCƏ. Beləliklə, müxtəlif bədii əsərlərə müraciət edərək onomastik vahidlərin obrazlılığı yaradan qüvvətli poetik kateqoriya olduğunu, fənlərarası inteqrasiyanın qurulmasındakı rolunu az da olsa, izlədik. Və belə qənaətə gəldik ki, onomastik vahidlər əsərin ideya-bədii xüsusiyyətləri, forma və məzmunu, struktur-semantik bütövlüyünü tamamlayan bədii vasitə olduğu kimi, fənlərarası, fəndaxili əlaqələrin yaradılmasında pedaqoji vasitə kimi də iştirak edir. Bu cür inteqrasiya prosesləri bütövləşmələrin, tamamlanmaların nəticəsi kimi üzə çıxır.

İstifadə edilmiş ədəbiyyat

1. ASE. ASE-nin Baş Redaksiyası. I cild. Bakı, 1976
2. ASE. ASE-nin Baş Redaksiyası.VIII cild. Bakı, 1984
3. Azərbaycan ədəbiyyatı inciləri. “Yazıçı”. Bakı, 1987
4. Həkimov M. Elat bayatıları. “Azərbaycan Dövlət Kitab Palatası”. Bakı, 1996
5. Hümmətova R. Aşıq M.Azaflının poetikası. “Elm və təhsil”. Bakı, 2015
6. http://sərqqapisi.az. « elm-v-t-hsil» 4…
7. Qurbanov A. Azərbaycan onomalogiyasının əsasları. 2 cilddə. I cild.

“Nurlan”. Bakı, 2004

8. Şükürov Ə. Qədim türk yazılı abidələrinin dili. “Maarif” nəşriyyatı. Bakı, 1993

STRUCTURAL-SEMANTIC EXPANSION IN CERTAIN PERSONAL SENTENCES
MÜƏYYƏN ŞƏXSLİ CÜMLƏLƏRDƏ STRUKTUR-SEMANTİK GENİŞLƏNMƏ

F.e.d., dosent, ƏDALƏT ABBASOV, P.ü.f.d., dosent, HƏMZƏ ƏLİYEV

Azərbaycan Dövlət Pedaqoji Universiteti

XÜLASƏ:

Müəyyən şəxsli cümlələrdə subyekt (mübtəda) və subyektsizlik (mübtədasızlıq) variantları mövcuddur:

a) Sən təəssübkeşsən
b) Təəssübkeşsən

İkinci dərəcəli üzvlər vasitəsilə müəyyən şəxsli cümlələrin struktur-semantik tərkibində genişlənmə baş verir. Başqa sözlə, müəyyən şəxsli cümlələrdə həm struktur, həm də semantik diapazon həcm etibarilə genişlənir.

Məsələn: a) Sən həmişə təəssübkeşsən; b) Hamıya qarşı çox təəssübkeşsən.

Bu tip cümlələrin mövcud struktur komponentlərini, yəni faktik quruluşunu nəzərə alaraq, geniş müəyyən şəxsli cümlələr adlandırmaq daha məqsədəuyğun sayılır.

Subyekti xəbərdəki şəxs sonluğuna görə müəyyən edilən geniş müəyyən şəxsli cümlə konstruksiyasına canlı danışdıqda (nitqdə) olduğu kimi yazılı abidələrimizin dilində də kifayət qədər rast gəlmək mümkündür.

Məsələn:

Hərzə-mərzə söyləmə, mərə itim kafir!

Altıma Al ayğırım, nə bəzənməzsən (Dədə Qorqud).

Fikrimizcə, bu cür konstruksiyalı cümlə tiplərini struktur-semantik əhatəsinə görə təktərkibli müəyyən şəxsli geniş cümlə termini ilə şərh etsək daha düzgün olar.

Cüttərkibli cümlə konstruksiyasının təkamülü prosesində semosintaktik dəyişmə nəticəsində mübtəda mövqeyində dayanan söz atılır. Məsələn:

Bəri gəlgil, başım bəxti, evim təxti!

Qurulu yaya bənzər çatma qaşlum! (Dədə Qorqud)

Qeyd etdiyimiz kimi, cüttərkibli cümlə konstruksiyasının bu modeli müxtəsər sadə cümlə dinamikasının ən yüksək təkamül dövrüdür. Belə tipli cümlələr real obyektiv münasibətlərin məzmunundan asılı olaraq ünsiyyətin tələbatını subyektin göstərdiyimiz ifadə tərzi ilə ödəyir.

Müşahidələr göstərir ki, Azərbaycan dilinin hər hansı sinxron mərhələsində həm mürəkkəb cümlə strukturları, həm də həmin strukturlar ardıcıl olaraq semosintaktik deformasiyaya məruz iki proses eyni koordinativ mərhələyə təsadüf edir.

Gər sənincün qılmayam çak, ey buti-nazikbədən,

Görüm olsun, ol qəba əynimdə pürahən kəfən.

Həbibi

Açar sözlər: struktur model, subyekt, obyekt, semantika, semosintaktik deformasiya, sinxron mərhələ, struktur-semantik diapazon, konstruksiya, cüttərkibli cümlə, təktərkibli cümlə

SUMMARY

There are subject (mubtada) and non-subject (mubtadazil) options in certain personal sentences:

c) You are a bigot
d) You are bigoted

The structure-semantic content of certain personal sentences is expanded through secondary members. In other words, both the structural and the semantic range expand in terms of volume in certain personal sentences.

For example: a) You are always bigoted; b) You are very bigoted towards everyone.

the existing structural components of thistype of sentences, thatis, theiractualstructure, it isconsideredmoreappropriatetocallthembroad personal sentences .

It ispossibletofind a widedefinitepersonalsentenceconstruction, whosesubjectisdeterminedbythepersonendinginthenews, as well as inthelanguage of ourwrittenmonuments, as well as inspeech .

Forexample:

Don't say anything, infidel!

Take it tome, mystallion, youdon'twearanything (DadeGorgud).

Inouropinion, it wouldbemorecorrecttointerpretsuchconstructionalsentencetypeswiththetermsingle-componentdefinitepersonalbroadsentenceduetoitsstructural-semanticscope.

semiosyntacticchangeintheprocess of evolution of compoundsentenceconstruction, thewordstandingintheposition of prepositionisdropped. Forexample:

Come on , I'mlucky, myhouseisthethrone !

My eyebrows are dry like summer ! (Grandpa Gorgud)

As we have mentioned, this model of the construction of two-part sentences is the highest evolutionary period of the dynamics of a concise simple sentence. Sentences of this type satisfy the need of communication with the way of expression of the subject, depending on the content of real objective relations.

Observations show that at any synchronous stage of the Azerbaijani language, bothcomplexsentencestructures and twoprocessessubjecttosemantic-syntacticdeformation of thosestructuresoccur at thesamecoordinativestage.

If I don't do it foryou , oh butt -thinbody,

Letmesee, betheshroudthatwearsme .

Habibi

Key words: structural model, subject, object, semantics, semiosyntacticdeformation, synchronousstage, structural-semanticrange, construction, double sentence, single sentence

Cüttərkibli cümlələrdə əksərən mübtəda məntiqi subyektə, xəbər məntiqi predikata uyğun gəlir. Ümumiyyətlə, sadə cümlədə subyekt-predikat münasibətlərinin təkamülü ilə yanaşı, struktur-semantik genişlənmə gedir; *"ikinci dərəcəli üzvlər formalaşır. Cümlə genişlənmiş olduqda iki qütbə, iki zonaya – mübtəda və xəbər zonalarına ayrılır. Mübtəda ona aid üzvlə - təyinlə birlikdə mübtəda zonasını (və ya mübtəda qütbünü), xəbər ona aid olan üzvlərlə - tamamlıq, zərflik və təyinlə birlikdə xəbər zonasını (və ya xəbər qütbünü) əmələ gətirir. Ənənəvi struktur konstruksiya burada da özünü göstərir"*[15,s.14]. Belə ki, mübtədanın konkret leksik vahidlə və ya xəbərə görə, yəni xəbərdəki şəxs sonluğuna görə müəyyənləşməsi baxımından müəyyən şəxsli cümlələr iki cür olduğu kimi, struktur-semantik genişlənmə zamanı da eyni quruluş variantları əks olunur (mübtəda –> leksik məna daşıyan leksik vahid; xəbər + subyekt elementi – şəxs sonluğu).

Məsələn:

Birdən, elə bil ki, bir səs eşitdim,

Bilmədim mənası: alqış, ya qarğış.

Bayaqdan üstündə oturduğum daş

Sən demə bir uçuq məzar daşıymış.

Göstərdiyimiz misallar yuxarıdakı sxemə uyğundur.

Birinci və ikinci misralarda mübtəda ayrıca sözlə deyil, xəbərin sonundakı subyekt elementinə (şəxs sonluğuna) əsasən müəyyən edilir. Bir sözlə, subyekt məntiqi mübtədadır. Mübtədanın konkret leksik vahidlə ifadə edilməməsinə baxmayaraq ona aid üzvlərin sıralanması müvafiq qaydaya əsaslanır.*"Qədim türk yazılı abidələri kəşf edilib oxunana qədər heç bir intellektualınaglına gəlmirdi ki, bu mukəmməl yazılar məhz türklərə aid ola bilər"* [85,s.63].

Yazılı abidələrimizin dilində də eyni münasibətdə olan subyekt-predikat konstruksiyası mövcuddur.

Birinci şəxsin təkinə aid olanlar:

Ağzın üçün ölüm, qardaş!

Dilin üçün ölüm, qardaş!

Yerini-yurdunu soruşsam, nə yerdir?

İkinci şəxsin təkinə məxsus:

Niyə yatırsan, igid?

Qafil olma, gözəl başını qaldır, igid

Ala gözlərini aç, igid!

Subyekti ayrıca leksik vahidlə-mübtəda ilə ifadə edilən müəyyən şəxsli cümlələrdə də struktur-semantik genişlənmə eyni mexanizmlə yaranır(*"Dilin müxtəlif təzahür formalarını struktur-funksional əlaqə halında araşdırmaq məqsədə uyğundur"***[80,s.57].** Sadəcə subyektin konkret mübtəda ilə təmsil edilməsi bu tipli konstruksiyanı əvvəlki struktur tərkibindən fərqləndirir.

Məsələn,

...Mən dünyaya gələndə

Sevindilər bir zaman.

Mən indi bu dünyaya

Gəlməyimə peşiman.

Tarixi abidələrimizin dilində də eyni struktur mənzərənin şahidi oluruq.

Məsələn:

Mənim soyum içində bunun kimi kişi yox idi.

Mən deyirəm xalqın başı (öndəri) bu olacaq.

Yaxud:

Gözüm, gözüm, yalnız gözüm!

Yalnız gözlə mən Oğuz yurdunu əsir etdim!

Ala gözümdən ayırdın, igid məni!

Şirin candan ayırsın, tanrı səni!

Belə ki, mən çəkirəm göz dərdi.

Subyektinintəmsilçisi ikinci şəxs təki ilə ifadə edilən müəyyən şəxsli cümləyə aid olan.

Məsələn:

- *Bunları sən srağagün danışdın ki!*
- *Necə danışmışam!*
- *O, axşam saat onda sən hamısını demisən, budur, yazmışam!*
- *Lap elə belə danışmışam?*
- *Belə demisən!*
- *Heç artıq - əskiyi yoxdu? Dünən gecədən bəri ha götür – qoy eləyirəm axı!*

Kişmişov dəftəri büküb çeşməyini götürər, gözünü ovuşdurardı:

- *Di get, get gör təzə nə var, nə yox! Əliboş gəlmə...*
- ...
- *Oturma, sən dur get!*

Birinci şəxsin təkində olduğu kimi, mübtədası ikinci şəxsin təki ilə ifadə olunan müəyyən şəxsli cümlə strukturu da, yazılı abidələrimizin dilində müasir dilimizdə olduğu kimidir.

Məsələn:

Qara Dağa yetəndə sən, keçid versin!

Aşqın – daşqın sular keçsən, keçid versin!

Yaxud:

Niyə yatırsan sən,

Qafil olma, gözəl başını qaldır, igid!

səciyyəli (struktur xarakterli) bütövdə xəbərin tərkibində işlənən morfoloji əlamət leksemdən şəkilçiyə qədər uzun bir təkamül yolu keçmişdir. İlkin dövrlərdə bu leksik vahid sintaktik vəzifəsi baxımından subyekt (iş görən) rolunu oynamış, ancaq təkamül prosesində mövcud sintaktik funksiyasını itirmiş leksik – semantik cildini dəyişərək – deformasiyaya uğramış və şəkilçiləşmişdir. Bütün bu sintaktik – morfoloji əvəzlənmə inkişafın bütün mərhələlərində özünün subyektiv funksiyasını qoruyub – saxlamışdır.

Nəticə etibarilə xəbər yerində işlənən söz subyekt elementinə (şəxs sonluğuna) əsasən iş görən funksiyasını icra etməyin yeni bir ekspozisiyasınaqədəm qoyur. Subordinativ əlaqə üzrə

düzələn modifikasion birləşmələrdə“alternativ subyektin”ifadəsi fono – morfoloji deformasiyanın mövcud olması ilə tətbiq edilir. Dil iyerarxiyasınınən yuxarı mərhələsini təşkil edən sintaksisdə kateqorematik mərhələ subyektin leksemsiz ifadəsini kontekst vasitəsilə də təzahür etdirir.

Nəinki sözün dəqiq mənası mətnə görə müəyyən edilir, həmçinin müəyyən şəxsli cümlələrin təktərkibli, yəni mübtədası ayrıca leksik vahidlə ifadə edilməyən konstruksiyasında da kontekstual – situasiyanın rolu əvəzsizdir.

Məsələn,

Üç doğma balamın tutdum əlindən,

Bir gün də onların əzizi oldum.

Ömrümün davamı nəvələrimlə,

Bir gün də yaşamaq nəsibim oldu.

Və ya başqa bir nümunə:

- *Kömək edin! Kömək edin!*
- *Aman allah, - Marta Holdmenin rəngi ağardı,*
- *Bu mister Harrisonun səsidir*
- *Kömək edin! Harrisonun son dəfə də xırıltısı eşidildi.*
- *Kənara çəkilin, - Dronqo qorxudan yerindəcə donub qalmış və dəhşətdən gözləri hədəqəsindən çıxmış qadına dedi, sonra da qaçıb özünü bir neçə dəfə zərblə qapıya çırpdı.*

Müasir Azərbaycan ədəbi dilinin ən qədim və sonrakı inkişaf (orta dövr) mərhələlərində də dilin struktur vahidləri təfəkkürdə birlikdə mövcud olmuş və bir –biri ilə qarşılaşdırma əlaqəsi əsasında kontakt vəziyyətində təzahür etmişdir. Bu cür paradiqmatik təkamül prosesini dilin yuxarıda qeyd etdiyimiz mərhələlərinə məxsus mətnlərdə də müşahidə edirik:

Məsələn:

Ayuruşbuişkənədü[r] çarəmiz

Yaman yolğa girmiş cigərparəmiz,

Qaytabanını güdən sarvanınam,

Qaracıq atını güdən ilxıçınam.

Beşikdə qoyub gəldiyin qardaşınam.

Sadə cümlə strukturunda belə tip cümlələrin mövcudluğu dil təfəkkürünün dialektikası – klassik üslubla folklor üslubunun vəhdəti əsasında formalaşıb və davamlı sabitləşmə mərhələsinə qədəm qoymuşdur.

Akademik N.Q.Cəfərov yazır: “...*Müxtəsər cümlə strukturunda subyektin morfoloji ifadəsi dildə sonrakı hadisədir; daha əvvəlki dövrlərdə, ümumiyyətlə, sadə cümlənin xəbəri nominativ quruluşa malik olmuşdur:*

Saz ağası – söz ağası. Qız yükü – duz yükü. Dağ yeri – duman yeri. (atalar sözü)” **[69,s.21].**

Nominativ quruluşlu sadə cümlə modelləri yazılı abidələrimizin dilində də özünü göstərir. Lakin biz həmin modellərin ilkin kommunikativlik kimi təqdim edilməsini düzgün saymırıq; əslində bu dilin əvvəlki dövrü üçün səciyyəvi olan nominativ strukturların sonrakı üslubi – nitq təzahürüdür. *“Dədə Qorqud”dastanında sadə cümlələr daha çox,mürəkkəb cümlələr isə az*

*işlənilmişdir"***[96,s.119].**

Tədqiqatin məqsədinə uyğun Azərbaycan dili materialları üzərində aparılan statistik analiz zamanı əldə edilən nümunələrin kəmiyyət fərqi də bunu sübut edir.

Müasir Azərbaycan dilində olduğu kimi tarixən də həmin dövrün kommunikativliyininüslubi yuxarıdakı fikrə uyğun olması ilə səciyyələnir. Azərbaycan dili abidələrindən aydın olur ki, istər sadə - müxtəsər, istərsə də sadə geniş tərkibli müəyyən şəxsli cümlələr subyektinin ifadə vasitəsi baxımından nominativ səciyyəli olmuşdur. Bu isə o dövr dilinin daxili dinamik tərzi ilə əlaqəli şərh edilməlidir.*"Dədə Qorqud"dastanlarının sintaktik quruluşu cümlələri baxımdan müasir Azərbaycan dilindən növcə miqdarına görə fərqlənir"* [95,s.120].

Dilimizin sonrakı inkişaf mərhələsində "daxili dinamika" bütünlüklə funksionallaşır. Ünsiyyətdə cüttərkibli cümlənin subyektinin ikili xarakterə malik olması səciyyəvi əlamət qazanır. Eyni predikativlik mühitində subyekt təzahürünün leksik – morfoloji diferensiallaşması nəticəsində müstəqil ifadə tərzi formalaşır. Bu cür müstəqilləşmənin sabit üslubi xarakter qazanması subyekt göstəricisininzənginləºməsinin təzahürü kimi dəyərləndirilməlidir. Kommunikativlikdəmüºahidə olunan bu ikili ifadə vasitəsi sintaktik üslubi – semantik çaların da rəngarəng xüsusiyyət kəsb etməsinə gətirib çıxardır. Cüttərkibli cümlə konstruksiyasının təkamülü prosesində semosintaktik dəyişmə nəticəsində mübtəda mövqeyində dayanan söz atılır. Məsələn:

Bəri gəlgil, başım bəxti evümtəxti!

Qurulu yaya bənzər çatma qaşlum!

Qoşa badam sığmayan tar ağızlum!

Güz almasına bənzər al yanaqlım!

Fikrimizi digər bir nümunə üzərində qurmaqla şərh edək:

Elmıdam batır bolsun,

Dövlətli dayım gəlsin.

İlinearkatursun,

Tuşmanı yaman görsün.

Qeyd etdiyimiz kimi cüttərkibli cümlə konstruksiyasının bu modeli müxtəsər sadə cümlə dinamikasının ən yüksək təkamül dövrüdür. Belə tipli cümlələr real və obyektiv münasibətlərin məzmunundan, fikir mübadiləsindən, əhatə dairəsindən asılı olaraq ünsiyyətin tələbatını subyektin göstərdiyimiz ifadə tərzi ilə ödəyir. Eyni zamanda, klassik üslubda sabitləşmiş norma öz mənbəyini folklor mənbəyindən almışdır. Bu ifadə forması ədəbi dilin bütün mərhələləri üçün səciyyəvi olması ilə yanaşı, çağdaş perspektivliyini də təzahür etdirir.

Beləliklə, söylədiyimiz fikirləri yekunlaşdırası olsaq, nəticədə müxtəsər cümlə semantikasiningenislənməsinə dair belə bir cədvəl alınar.

Hər iki prosesi meyl ətrafında birləşdirəsi olsaq, ikisindən birini qəbul etməliyik; bu proseslər ya bir – birinin xronoloji davamıdır, ya da elə dil yaranandan hər ikisi paralel şəkildə mövcuddur.

Müşahidələr göstərir ki, Azərbaycan dilinin hər hansı sinxron mərhələsində həm mürəkkəb cümlə strukturları təşəkkül tapır, həm də həmin strukturlar ardıcıl olaraq semosintaktik deformasiyaya məruz qalır və sadələşir. Deməli, zaman etibarilə hər iki proses eyni koordinasiyaya düşür. Məsələn, Həbibinin şeirlərində sadə cümlənin söylədiyimiz əlamətlərinə

uyğun modelinə rast gəlmək mümkündür.

Gər sənincün qılmayam çak, ey buti – nazikbədən,

Görüm olsun, ol qəba əynimdə pirahən kəfən.

Sadə cümlənin ilkin və ibtidai forması baş üzvlərdən (birindən və ya hər ikisindən) ibarət olan formadır. Bunlar müxtəsər cümlələrdir.

Baş üzvlər ikinci dərəcəli üzvlər vasitəsilə genişləndirilir və geniş cümlələr əmələ gəlir. *Həmcins və xüsusiyyətləşmiş üzvlərlə, xitablar, ara sözlər və ara konstruksiyalarla struktur – semantik cəhətdən daha da zənginləşdirilir və nəticədə genişləndirilmiş sadə cümlələr formalaşır"* [141, s.216]

Müxtəsər cümlənin struktur modeli, cümlənin qrammatik əsası olan baş üzvlər əsasında formalaşır. Müxtəsər cümlə termininə cüttərkibli cümlə anlayışı alternativ sayılır. Cüttərkibli cümləyə qrammatik əsası baxımdan şəxsli cümlə strukturu müvafiq gəlir.

Dilin inkişafının təzahürü olan nitqdə işlənən cümlələrin böyük əksəriyyəti müəyyən şəxsli cümlədir Xronoloji baxımdan əlamətlərinin göstərilməsi cəhətdən də məlum oldu ki, mübtədası olan bütün cümlələr müəyyən şəxslidir.

- *Mən düşünürəm...*

Dronqonəsə demək istədi, amma sözünü tamamlamağa macal tapmadı.

və yaxud:

...Azadlıq verilmir, alınır,

Onun elçisidir, ölüm, qan – qada.

1) Adətən, biz Steyterlə tennis oynayırıq
2) *O hətta tennis kortunun qapısını da kilidləyirdi*

Gəlin, ölçə bilək biz xeyri, ziyanı,

Bəzən əvəzidir on qış, bir yazın.

Üzümü tuturam sizə mən bu gün

Əsilli, nəsilli rus ziyalısı...

Mən Tahirzadənin adını çəkməyi israrla məsləhət görmürəm.

1) Əlaçı tələbə acgözlüklə kitabı oxudu.
2) Bu oxucular onu, yaxşı tanıyırdılar.

Nəticə etibarilə deyə bilərik ki, " müəyyən şəxsli cümlələrin struktur – semantik genişlənməsi ikinci dərəcəli üzvlərin hesabına baş verir. Bu prosesə görə də müəyyən şəxsli cümlələr müxtəsər müəyyən şəxsli və geniş müəyyən şəxsli cümlə olaraq iki tipə bölünür:

1. Müxtəsər müəyyən şəxslicümlə yalnız baş üzvlərin (hər ikisinin və ya birinin) iştirakı ilə qurulur.

Məsələn:

a) Bir neçə saniyədən sonra qapı aralandı və bayıra çıxan qadın açarları ona uzatdı.
- *Götürün.*
- *Təşəkkür edirəm, missis Harrison.*

Göstərilən nümunələr müəyyən şəxsli müxtəsər cümlələrdir. Bu tip cümlələrdə faktik olaraq baş üzvlərdənbiri – xəbər iştirak edir. Buraxılmış üzv iştirak edən üzvə görə müəyyənləşdirilir. Belə cümlələrin buraxılmış üzvü – məntiqi subyektdir.

b) Kömək edin, mən ölürəm, kömək edin, - deyirdi,
Açdı Baba müəllim pəncərəni bir anda..
Yaxud:

İgidim, mən gözlərəm

Bir ilə gəlməsən, iki il gözlərəm

İki ilə gəlməsən, üç – dörd il gözlərəm,

Dörd il yox, beş – altı il gözlərəm.

Öz struktur tipi baxımdan bu nümunələr də müxtəsər müəyyən şəxsli cümlələrdir. Sadəcə olaraq bu nümunələrdə mübtəda konkret sözlə (mən əvəzliyi ilə) ifadə olunmuşdur.

Müəyyən şəxsli geniş cümlələrdə də subyekt (mübtəda) və subyektsizlik (mübtədasızlıq) variantları mövcuddur:

a) Mən əzilən bir sinfin hayqıran,
Haq bağıran sədasından yarandım.
Ölümlərin pəncəsində hıçqıran
Məzlumların nəvasından yarandım.
Başqa bir misal:
...Sən Adəmə tac urdun,
Şeytana lənət qıldun,
Bir suçdan ötrü
Dərgahdan sürdün.

Nümunələrdə ikinci dərəcəli üzvlər vasitəsi ilə müəyyən şəxsli cümlələrin struktur-semantik tərkibi genişlənmişdir. Bu tip cümlələrin mövcud struktur xüsusiyyətlərinifaktik quruluşunu nəzərə alaraq cüttərkibli geniş müəyyən şəxsli cümlələr adlandırmaq daha məqsədə uyğun sayılır.

b) Əsərəm külək kimi,
Açaram ləçək kimi,
Mən qışda şimşək kimi
Birdən çaxan olmuşam.

Subyekti xəbərdəki şəxs sonluğuna görə müəyyən edilən geniş müəyyən şəxsli cümlə konstruksiyasına yazılı abidələrimizin dilində də kifayət qədər rast gəlmək mümkündür.

Məsələn,

Hərzə - mərzə söyləmə, mənə itim kafir!

Altıma Al ayğırım, nə bəgənməzsən.

Məncə, belə konstruksiyalı cümlə tiplərini struktur – semantik əhatəsinə görə təktərkibli müəyyən şəxsli geniş cümlə istilahıilə şərh etsək, daha düzgün olar.

Ədəbiyyat

1. Abbasov,Ə.M.Səməd Vurğun yaradıcılığında istifadə edilən aforizmlərin sintaktik-semantik xüsusiyyətləri // –Bakı:Pedaqoji Universitetin xəbərləri, humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, –2018.№3, –s.12-18.
2. Cəfərov,N.Q.Tarixin tərcümeyi-halı/N.Q.Cəfərov. –Bakı:Elm və təhsil,–2014.–263s.
3. Cəfərov,N.Q.Azərbaycanşünaslıq ideologiyasının etnoqrafik əsasları /N.Cəfərov, V.Sərdarov,A.Cəfərov. –Bakı:AzAtaM, –2016. –214s.
4. Cəfərov, N.Q. Azərbaycan dilində sadə cümlənin struktur-semantik inkişafı:/filologiya elmləri namizədi.dis./– Bakı,1985. –150s.
5. Dəmirçizadə,Ə. Azərbaycan ədəbi dilinin tarixi I hissə /Ə.Dəmirçizadə / Bakı:Maarif, –1979. –267s.
6. Dəmirçizadə,Ə. Müasir Azərbaycan dili(cümlə üzvləri). /Ə.Dəmirçizadə. Bakı:AEA, –1974. –122s.
7. Kazımov,Q. Müasir Azərbaycan dili,sintaksis. (IV hissə). /Q.Kazımov.-Bakı:Elm və təhsil,–2010.–497s.

TENDENCIES OF ASSIMILATION IN THE WORK OF MAHIRA NAGYGIZI
MAHİRE NAĞIKIZI YARATICILIĞINDA UYUM EĞİLİMLERİ

MƏMMƏDOV BƏHRAM CƏFƏR OĞLU

filologiya üzrə fəlsəfə doktoru, ADPU-nun Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrasının baş müəllimi
Azərbaycan Respublikası ORC1D: 0000-0002-3631-1412

ÖZET

Azerbaycan Türkçesindeki asimilasyon eğilimleri belli bir dönemin olgusu olarak tarihte kalamaz, dil yaşayan bir organizma gibi sürekli kendini yenileme, köklerinden beslenme ihtiyacı duyar. Azerbaycan dilinin yenilenmesi, yaratılması ve şekillenmesinde asıl ağırlık, dil taşıyıcılarının şair ve yazarlarına düşmektedir. Bu anlamda çağdaş Azerbaycan şiirinin güzel örneklerini yaratan, Azerbaycan şiirine yeni bir soluk, yeni bir ruh veren şair, dil araştırmacısı, profesör doktor Mahira Nağıkızı'nın lirik yaratıcılığı dikkat çekmektedir.

Makalede Mahira Nağkızi'nin şiirlerinde asimilasyon eğilimlerine ilişkin unsurların bulunduğuna değinilmektedir. Şiirlerinde kullandığı kelime ve deyimler, kelimenin hem sözlük hem de içerik bakımından şiirsel anlamı, Azerbaycan'ın edebi dilini etnik hafızasına geri döndürmektedir.

Makalede Mahira Nağkızi'nin şiirlerinden uyum eğilimleri sürecine ilişkin pek çok kelime seçilmiş ve bu kelimelerin sözlük anlamları açıklanmıştır.

Anahtar kelimeler: uyum eğilimleri, poetik, yeni sözler, mana, türk kökenli

Summary

The tendencies of assimilation in Azerbaijani Turkish cannot remain in history as a phenomenon of a certain period, the language, like a living organism, feels the need to constantly renew itself, to be nourished by its roots.The main weight of the renewal, creation, and formation of the Azerbaijani language falls on the poets and writers of the language carriers. In this sense, the lyrical creativity of the poet, language researcher, professor MahiraNagygızı, who created beautiful examples of contemporary Azerbaijani poetry, gave new breath and new spirit to Azerbaijani poetry, attracts attention.

The article mentions that there are elements of assimilation tendencies in the poetry of MahiraNagygizi. The words and phrases used in his poems, the poetic meaning of the word, both lexically and content-wise, return the literary language of Azerbaijan to its ethnic memory.

In the article, many words related to the process of assimilation have been selected from the poems of MahiraNagygyzi and the lexical meaning of these words has been explained.

Key words: assimilation, poetic, new words, meaning, Turkish origin

Giriş

Bir ulusun (xalqın) var olması, varlı olması üçün bir çox nədənləri (səbəblər) var. Onlardan biri də dildir. Bu mənada Azərbaycan dili türk dillərindən biri kimi Azərbaycan ulusunun var olmasının, dövlət olmasının nədənlərindən biridir. Bu dil min illər boyu basqılara, talanlara sinə

gərmiş, varlığını qorumuşdur. Dilimizin qorunması, mövcudluğunun təmin edilməsi xalqın gələnəklərə sahib çıxmasından, dövlətini, sınırını(sərhəddini) qorumasından asılı olduğu qədər, dil daşıyıcılarının, şairlərin, yazıçılarının da dilə sahib çıxmasından, doğma dilimizdə yazıb-yaratmasından da asılıdır. Bu önəmli missiyanı əsrlər boyu şairlərimizdən İ. Nəsimi, M. P. Vaqif, Dədə Ələsgər daşımış, ötən əsrin əvvəllərində M. Ə. Sabir, H. Cavid, C. Cabbarlı, S. Vurğun, əsrin sonlarında R. Rza, M. Araz, X. R. Ulutürk, B. Vahabzadə kimi şairlərimiz Azərbaycan türkcəsinin işləkliyini təmin etmiş, söz zənginliyini artırmışdır. Yuxarıda adları çəkilən sənətkarlardan C. Cabbarlı, R. Rza xüsusilə seçilir, onlar Azərbaycan dilində özləşmə-alınma sözlərin milli sözlərlə əvəzlənməsi istiqamətində ciddi işlər görmüşlər. Xüsusilə, Cəfər Cabbarlının 1920-ci illərdən sonra yazdığı "Oqtay Eloğlu"əsərindən sonra "Sevər", "Özdəmir" adları; "Od gəlini" əsərindən sonra "Solmaz", "Gülgün", "Qorxmaz", "Aqşin", "Gülüş adları geniş yayılmağa başladı. İddia etmirik ki, bu adları Cəfər Cabbarlı yaratdı, xeyr, bu adlar dildə mövcud idi, ölməz sənətkar bu adları bədii dilə gətirdikdən sonra bu adlar xatırlandı, xalqın dilində yenidən vətəndaşlıq hüququ qazanmağa başladı. C.Cabbarlının dilin inkişafında söz sənətkarlarının rolu haqqında maraqlı qeydini burada xatırlatmaq yerinə düşərdi. C. Cabbarlı "Zəhmət" qəzetinin 19-20, 23-25-28 iyun 1922-ci il tarixli 133-141-ci nömrəsində çap etdirdiyi "Ədəbi mübahisələr" adlı məqaləsində yazırdı: "Caviddə su kimi duru, almas kimi saf, parlaq və oynaq bir lisan vardır ki, bu islahına çalışan lisanımızın təkamül özülü ola biləcəkdir zənnindəyik. Zatən bir millət üçün lisanı onun şairləri, ədibləri yaradırlar ki, Cavid də bu cəhətdən qiymətlidir. Bizcə, Cavidin orta bir yol götürmüş lisanı Azərbaycanda tətbiq ediləcəyi kimi, ərəbləşmiş Fikrət və Hamid lisanlarını da meydandan sıxıb çıxaracaqdır."(1; 113-114)

Örnəkdən də göründüyü kimi C. Cabbarlı dilin yaradıcıları arasında şairləri, yazıçıları üstün mövqeydə görür, özləşmə meyillərində şair və yazıçıların danılmaz rolunu xüsusi vurğulayır. C. Cabbarlıdan sonra Azərbaycan dilində özləşmə meyillərinin davamçıları sırasında Xalq şairi Rəsul Rzanın əvəzsiz rolu vardır. Xalq şairimiz Azərbaycan dilində bir çox sözlərin, o cümlədən *könüldaş, , özümləşmək, özümlü, gətirmə, bəlirmək, bəlir, gərəklik, eşidimli, doyumsuz, öyrənc, çağdaş, çimərlik, uçarlıq* və s. kimi sözlərin dildə xatırlanmasına, işlədilməsinə nail olubdur. Heç şübhəsiz ki, şair "yox"dan söz yaratmamışdır, O, Azərbaycan türkcəsində var olan sözlərə sadəcə bir nəfəs vermişdir, onları öz türkcəsində işlətməklə gərəkliliyini azərbaycanlılara xatırlatmışdır.

Azərbaycan türkcəsində özləşmə təmayülləri müəyyən bir dövrün hadisəsi kimi tarixdə qala bilməz, dil canlı orqanizim kimi hər daim yeniləşmək, köklərindən qidalanmaq zərurəti hiss edir. Cəfər Cabbarlının təbirincə desək, dilin yeniləşməsi, yaranması, formalaşması işinin əsas ağırlığı da dil daşıyıcılarının şairlərin, ədiblərin üzərinə düşür. Bu mənda çağdaş Azərbaycan poeziyasının bir-birindən gözəl nümunələrini yaradan, Azərbaycan poeziyasına yeni nəfəs, yeni ruh verən şair, dil tədqiqatçısı, professor Mahirə Nağıqızının lirik yaradıcılığı diqqəti cəlb edir.

Mahirə Nağıqızı poeziyasında özləşmə meyillərinin ən vacib elementlərini görə bilirik. Onun şeirlərində işlənmiş söz və ifadələr, sözün poetik məna yükü həm lüğəvi, həm də məzmun cəhətdən Azərbaycan ədəbi dilini etnik yaddaşına qaytarır. Şair "Xocalı" şeirində yazır:

Qaysaqlanmaz süngülənən yarası,

Qan qarışıq göz yaşıdı Xocalı

Çiliklənib sinəmizdə parası

Əbədilik başdaşıdı Xocalı.(2; 61)

"Xocalı" şeiri Mahirə Nağıqızı qələmindən göz yaşıtək ağ kağıza süzüləndə 2018-ci il idi. Hələ Qarabağ azad olunmamış, Xocalı erməni tapdağından qurtulmamışdı. Məzmun şairin ürək ağrısından doğmuşdu, lakin mənanın ifadəsi şairin öz dilinin saf, büllür kimi parlaq Azərbaycan

dilinin gücü ilə yaranmışdı. İlk bənddən verilmiş bu nümunədə 14 leksik və qrammatik mənaya malik söz işlənib. Bu sözlərin yalınız biri "əbədi" sözü (leksik şəkilçisi "-lik" adlardan sifət və isim düzəldən milli olmaqla) alınma sözdür. Digər 13 söz türk mənşəlidir. Şeirdəki "Qaysaq" isminə "-lan" adlardan feil düzəldən şəkilçi artırmaqla "qaysaqlan", "süngü" isminə "-lən" şəkilçisi artırmaqla "süngülənən" feili və "çiliklənmək" feili təkcə mənanın yüksək poetik təzhürü deyil, həm də Azərbaycan dilində özləşmənin ifadəsidir. Nümunədə işlənmiş 13 sözün tarixi köklərinə nəzər salsaq görərik ki, bu sözlərin hər birinin min ildən artıq yaşı var.

"Xocalı" şeirinin sonuncu bəndi də tamamilə milli, türk mənşəli sözlərlə ifadə olunub:

Yetir işi sona, səsin susmasın,

Nağıqızı, ana səsin susmasın,

Susanları qına, səsin susmasın,

Susanların qarğışıdı Xocalı.

Bənddə işlənmiş 16 sözün hər biri türk mənşəlidir. Bu bəndi oxuduqda assosativ olaraq qərəzli şəkildə "Azərbaycan dilində elə bir cümlə deyin ki, o cümlədə alınma söz olamasın" deyən Azərbaycan türkcəsinin qüdrətini qəbul etmək istəməyən, ərəb-fars dillərində izafət tərkiblərindən istifadəni yüksək intellekt göstəricisi sayanlarları xatırlamalı oluruq. Mahirə Nağıqızı şeirinin göz yaşı kimi dupduru misraları arasında Azərbaycan dilində nəinki cümlə, hətta yeri-göyü silkələyən fikirlər var. "Xocalı" şeirinin sonuncu bəndi təkcə sözlərin milliliyi ilə diqqəti cəlb etmir. Bu bəndin misralarını oxucuya sevdirən, oxucunu düşündürən eyni zamanda böyük sənətkarlıqla yaradılmış "s" ünsüsüzünün alliterasiyasıdır. Oxucu özü də hiss etmədən 20 dəfə "s" samitinin təkrarı ilə qarşılaşır. Burada professor Əzizxan Tanrıverdinin "s" səsinin alliterasiyası ilə bağlı fikirlərini xatırlamaq yerinə düşərdi:

" s"-nın alliterasiyası sakitlik, süstlük məna çalarlarının yaradılmasında mühüm vasitələrdən hesab olunur...Yeri gəlmişkən, bu tip alliterasiyaları təsadüfü hesab etmək olmaz...məna çaları cümlənin ümumi semantik yükündən doğur ki, bu da məhz "s" alliterasiyası ilə qüvvətləndirilir."(3; 150-151)

Mahirə Nağıqızı poeziyasında səsin ahəngi, alliterasiyası həm də ona görə qüvvətlidir ki, o birbaşa milli sözlərin poetik gücünün göstəricisi kimi çıxış edir.

Azərbaycan dilində özləşmə meyilləri ədəbi dili başqa dillərin təsirinə məruz qalmaqdan qoruyur desək yanılmarıq. Şairin yaradıcılığında bəzən elə nümunələrlə qarşılaşırıq ki, onların dildə alınma mənşəli qarşılığı var, şair istəsə alınmalardan istifadə edə bilər, lakin üstünlüyü milli, öz türkcəmizdə olan sözlərə verir.

Məsələn, "Onun daş nağılı" kitabında "Yığıram" şeiri var. Bu şeirin ikinci bəndində ilk "Ər öyüdündən topladım" misrasında "öyüd" sözünün alınma "nəsihət" sözünün yerində işləndiyini aydın müşahidə edə bilirik. Və yaxud

"Ər gərəkdir: ürək isti, baş soyuq",

"Qanla qar suvardılar,

Qandan ayaz öləzidi"(2; 73)

kimi misralarda "ər", "ayaz" isimləri, "suvar(maq)", "öləzi(mək)" feilləri təkcə dildə özləşmə meyilləri deyil, həm də milli düşüncənin poetik ifadəsidir.

Özləşmə onun sehirli misralarında elə ustalıqla ifadə edilir ki, alımadan milliyə sözlərin keçidini belə izləyə bilir. "Görünür" şeirində

"Yağı düşmən qaçaraqda dayandı

Əhvalından, qırımından görünür"(2; 85)

misrasındakı "yağı" və "qırım" sözləri alınma "əhval" alınma sözünün fövqündə daha cəlbedicidir.

Mahirə Nağıqızı yaradıcılığında özləşmə daha çox qədim mənbələrdən, xalq dilindən, mövcud oxşarlıq əsasında söz yaratma yolu ilə formalaşır. Onun şeirlərini diqqətlə oxuduqda görürük ki, misralar arasında tarixizim və arxaizimlər vardır ki, bu söz və ifadələrin həm tarixi keçmişimizi bilmək, həm də dildə unudulmuş sözləri xatırlamaq, yenidən diriltmək baxımdan əhəmiyyəti vardır.

"Dağların başında duman süd kimi,

Sərinci gözlərdi, ***daşırmaq*** olmaz"(4; 40")

Bağ könlün, bağça könlün,

Dərdimə ***taxça*** könlün.

Alar sultan qəlbimi,

Verməz bir ***axça*** könlün.(5; 14)

İkinci misrada "sərinc" tarixizmi və "daşır(maq)" feili,sonrakı bənddə "taxça" ismi, sonuncu misrada isə "axça" tarixizmi bu baxımdan diqqəti cəlb edir. Bu sözlərin poeziyanın dili səviyyəsinə yüksəldilməsi adi hadisə deyil, bu sözlərə yenidən ruh vermək Azərbaycan türkcəsinin yeniləşməsi, kökünə bağlı dil kimi yenidən göyərməsini təmin etməkdir.

Həmçinin "Ulduzla danışaq" şeirində işlənmiş "Ulduzlar görəsən, solğun, sayrışan" misrasındakı "solğun" və "sayrışan" sifət və feili sifətləri xalq dilindən götürülmüş sözlərdir. Onun misralarında xalq dilindən gələn leksik vahidlərlə yanaşı dilin qrammatik xüsusiyyətləri ilə də qarşılaşmaq mümkündür. Məlumdur ki, Azərbaycan dilində sifətin üç dərəcəsindən biri çoxaltma dərəcəsidir. Çoxaltma dərəcəsinin morfoloji və sintaktik üsulla formalaşması da məlumdur. Ədəbi dildə morfoloji yolla çoxaltma "ca" ədatının və "m, p, s" ünsüzlərinin sifətlərin üzərinə artırılması ilə yadda qalır. Mahirə Nağıqızı yaradıcılığında isə xalq dilindən süzülüb gələn fərqli nümunələr özləşmənin bariz nümunəsi kimi canlanır.

"Niyə uzaqdan ***apaydın***

Niyə birdən duman oldun."

nümunəsində "apaydın" və yaxud, "Qırmızı, mavidir, bəyaz, ***bəmbəyaz***"misrasında "bəmbəyaz" ifadələri canlı xalq dilindən götürülmüş qrammatik xüsusiyyətlərdir.

Mahirə Nağıqızının "Yanından keçmə dağların" kitabında toplanmış şeir nümunələrində özləşməyə aid xeyli nümunələr vardır. Məsələn,

"Talan var, ay talan var,

Bac alıb, ***öc*** alan var"

misrasında "öc";

"Doymadınmı, ***çərçi*** dərdim,

Qəm gəzdin dilənçi dərdim”

nümunəsində “çərçi” arxaizmi;

“***İrdəsin*** közü, ağlasın,

Söyləsin düzü, ağlasın

Qədrimi kim bilibsə,

Oxşasın, özü ağlasın”

bayatısında “irdəsin” sözləri bu baxımdan maraq doğurur. Xüsusilə, “irdəsin” feili düşündürücüdür. Bu sözlə ilk qarşılaşdığımızda sözün çap xətası olduğunu düşündük, təkrar oxuduqda, şairin bilib, oxucunun bilmədiyi söz olması qənətinə gəldik. Lüğətlərə nəzər saldıqda aydın oldu ki, dilimizdə “irdəmək/ irdələmək” feilləri vardır. “irdələ(mək)” Azərbaycan türkcəsində “təmizləmək”, Anadolu türkcəsində “araşdır(maq)” mənasında işlədilir.(6; 269)

Bayatının digər misralarına nəzər saldıqda “irdəsin” feilinin “təmizləsin” mənasında işləndiyini aydın dərk etmək olar. Məzmundan da bəlli olur ki, “ağlayan adam közü təmizləsin ağlasın”mənası mənası anlaşılır.Bunu iki cür başa düşmək olar: 1. Ağlayan adam kədərlidir, ocağın başında oturub, közü eşərək, təmizləyərək ağlaya bilər. 2. Ağlayan adam yaranın közünü(qaysağını) eşərək, təmizləyərək(qopararaq) ağlasın. III şəxsin əmr şəklində olan “irdəsin” feili hər iki halda bayatının ümumu məna yükünü zənginləşdirməklə yanaşı dilimizdə özləşmənin ən gözəl nümunələrindən birdir.

Mahirə Nağıqızı yaradıcılığında elə orjinal, dilimizdə var olan, lakin unudulan feillər vardır ki, o feillərin ədəbi dilə gətirilməsi, onların özləşdirilməsi dilimizin inkişafı üçün olduqca vacibdir.

“Səkər kəhəri dünyanın

Qəmdi yəhəri dünyanın.”

Nümunəsində “sək(mək)” feili at üstündə dünyanı fəth edən ulu türk babalarımızın yadigarıdır, desək yanılmarıq. At türkün qanadıdır-deyib babalarımız, Mahirə Nağıqızının şeirlərində türkün özü də var, atı da var, atı ilə bağlı sözləri də var:

Ay nadanın bəngi dünya,

Huşyarların zəngi dünya.

Kiminə ***qantarğa*** oldun,

Kimiyə üzəngi dünya.

Akademik Ağamusa AxundovAzərbaycan dilinin izahlı lüğətində “qantarğa” sözünün mənasını belə izah edir: “Qantarğa-isim yüyənin atın ağzına keçiridilən qoşa dəmir hissəsi”(7; 193)

Bu bayatıda şair dünyanın poetik təsvirini verir, deyir ki, nadanlara bu dünya bəngdir, bəng sözünün fars dilində verilməsi təkcə şeiriyyət xatirinə deyil, neqativ mənanın fars dilində “örtbasdır” edilməsidir, bir növ şair, pis mənanı dilimizdəki sözlərə layiq bilmir, lakin dünyanın bəzi insanları getdiyi yoldan saxladığını təsvir etdikdə, fikrin kökü “qaytarmaq” feilinə bağlı olan “qantarğa” milli sözü ilə verilməsi şairin dilə və onun milli mənsubluğuna verdiyi dəyər aydın olur.

Şairin “ Buluddu ***əlçim*** olar, Toplama ***çin-çin*** olar”, “Niyə baxdın ***yanı-yanı***, Mənə qurdun haqq divanı” misralarındakı “***əlçim***”, “***çin-çin***”, “***yanı-yanı***” kimi sözlər də canlı xalq dilindən süzülüb gələn, Azərbaycan ədəbi dilində özləşməni təmin edən sözlərdir.

Mahirə Nağıqızı bir müəllimdir, ömrünün böyük bir hissəsini azərbaycanlı balalarının aydınlanmasına, təhsil almasına həsr edən ziyalılarımızdandır. O bir müəllim, söz sənətkarı kimi dəqiq bilir ki, bilgi dil vasitəsi ilə ötrülür, toplum və bilgi arasında əngəl, maneə olmamalıdır. Ana dilimizin bilginin(elmin) dili ola bilməsi üçün, əldə ediləcək bilimə aid informasiyanın daşına, çatdırıla bilməsi üçün dilimizin söz zənginliyi, qıvraqlığı artırılmalıdır. Məhz ona görə də şair Mahirə Nağıqızının şeirində, sözündə Azərbaycan dilinə vurğunluq, dilimizdə unudulan sözlərə xüsusi qayğı, diqqət, həmin sözlərin aktuallaşdırılması, özləşmə meyilləri daha da qüvvətlidir.

Ədəbiyyat siyahısı

1. Cavidşünaslıq araşdırmalar toplusu I cild, Bakı, 2018
2. Mahirə Nağıqızı, Salam olsun, Bakı, “ADPU-nun mətbəəsi” 2020
3. Ə. Tanrıverdi “Dəli Kür romanının poetik dili, Bakı, “Elm və təhsil”, 2012
4. Mahirə Nağıqızı, Onun daş nağılı, “ADPU-nun mətbəəsi, Bakı, 2020
5. Mahirə Nağıqızı Yanından keçmə dağların.., Bakı, “ADPU-nun mətbəəsi”, Bakı 2021
6. S. Nişanyan, Sözlerin soyağacı, Çağdaş Türkcenin etimolojik sözlügü, İstanbul, “Everest yayınları”2009
7. Ağamusa Axundov Azərbaycan dilinin izahlı lüğəti, Bakı, “Elm”nəşriyyatı, 2005

ABDURRAHIM BEY HAGVERDIYEV AS AN EDUCATOR-REALIST ARTIST
ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEV MAARİFÇİ-REALİST SƏNƏTKAR KİMİ

MAHRUX DÖVLƏTZADƏ

ADPU, Azərbaycan, Bakı, ORCİD- 0000-0002-2366-6097

Xülasə

XIX əsrin sonu, XX əsrin əvvəllərində ictimai, ədəbi-mədəni və tənqidi düşüncədə maarifçilik meylləri mövcud idi. Ədəbiyyatda maarif, elm, təhsil, insanların savadlanması zərurəti mühüm yer tuturdu. XX əsrin əvvəllərinin elmi düşüncəsi mövqeyindən dinə və onun atributlarına göstərilən münaisbət də fərqlidir.

Ədəbiyyatşünaslığın müstəqillik dövrünə qədərki baxışlarında islami dəyərlərin cəmiyyət həyatında oynaya biləcəyi rola dair mövqeyi birtərəflidir.. Maarifçi realistlərin yaradıcılığında özünə yer alan islami fikirlər, xüsusən bu fikirlərin müəllif dünyagörüşünün ifadəsi kimi meydana çıxan cəhətləri ədəbiyyatşünaslığımızda bir qayda olaraq, ya müəllifin dünyagörüşündəki ziddiyyət, ya da məhdudluq kimi izah olunmuşdur. Halbuki, Ə.Haqverdiyevin "Ata və oğul", "Ayın şahidliyi" və s. əsərlərdə dini ideyaların müəllif dünyagörüşünün ifadəsi kimi yer alması həmin müəlliflərin mövzuya verdikləri bədii həlldəki ziddiyyət, yaxud mövzunun bədii dərkində müəllif düşüncəsindəki məhdudluq kimi başa düşülə bilməz.

Tədqiqatçılar bədii nəsrdəki dini motiv, süjet və dünyagörüşlərin mahiyyətini şərh edərkən müəllif mövqeyinin ifadəsini ortaya qoymalarına baxmayaraq, bu mövqeyə şərik olmurlar. Müasir tənqidin əsas vəzifəsi sovet ədəbiyyatşünaslığında ideologiyanın yol verdiyi bu yanlışı düzəltmək olmalıdır.

Açar sözlər: maarifçilik, Ə.Haqverdiyev ,dini düşüncə, maarifçi nəsr

Summary

Social, literary-cultural, and critical thinking saw enlightenment movements at the close of the 19th and the start of the 20th centuries. Science, education, literature, and the necessity of educating people all played significant roles. A distinct perspective on religion and its characteristics is also held in comparison to early 20th-century scientific ideas.

The position of literary studies on the role that Islamic values can play in the life of society in the pre-independence views is one-sided. The Islamic concepts that emerged in the writings of enlightened realists were typically seen in our literary studies as a contradiction or a constraint of the author's worldview, particularly when these concepts manifested as an expression of the author's worldview.

However, the incorporation of religious concepts as a means of expressing the author's worldview in A. Hagverdiyev's "Father and Son", "The Moon's Testimony" and etc. works cannot be interpreted as a limitation on the author's creative interpretation of the subject matter or as a contradiction in the artistic solution offered to the subject by those authors.

While interpreting the religious motif, story, and worldviews in the literary language, the researchers express the author's position; yet, they do not agree with the position taken by the

author. Resolving the oversight caused by ideology in Soviet literary studies ought to be the primary goal of contemporary critique.

Key words: enlightenment, A. Hagverdiyev, religious thought, enlightening prose

GİRİŞ

Azərbaycan ədəbiyyatında maarifçi- realizm XIX əsrdə təşəkkül tapmış və bir neçə inkişaf mərhələsindən keçmişdir. Müstəqillik dövrünün ədəbiyyatşünaslığında XIX əsrin "Azərbaycan ədəbiyyatında maarifçi realizm dövrü" kimi təsnif edilməsinə dair konseptual mövqeyin meydana çıxması da bu fikri bir daha təsdiq edir. Bu mövqeyin elmi əsası isə ən qısa şəkildə belə xarakterizə edilir: "*XIX əsrdə dövrün ən mühüm ideyası (bəlkə də ideologiyası) maarifçilik, ədəbiyyatın əsas inkişaf istiqaməti isə maarifçi realizm idi"* [1, s.230-231]. XIX əsrin sonu, XX əsrin əvvəlləri [1890-1920] sovet dövrü Azərbaycan ədəbiyyatşünaslığında müstəqil bir dövr statusu alaraq tədqiq edilir. Dövrün ədəbiyyatı daha çox "izm"lərin tipoloji müxtəlifliyində - maarifçi realizm, tənqidi realizm və romantizm ədəbi cərəyanları kontekstində araşdırılır.

ARAŞDIRMA

Həm Azərbaycan maarifçi, həm də tənqidi realizmində dayanıqlı mövqeyə malik olan, həyat hadisələrini obyektiv və həssas şəkildə müşahidə edib, sənətə gətirməyi bacaran Ə.Haqverdiyev yaradıcılığını XIX əsrin sonlarından XXəsrin 30-cu illərinə qədər davam etdirmişdir.

Maarifçi realistləri düşündürən mühüm məsələlərdən biri də insanların dini maarifləndirilməsi məsələsi idi. Bu məqamda maarifçilər din xadimlərinin böyük əksəiyyətinin öz üzərlərinə düşən rolu düzgün yerinə yetirməməsi məsələsini qoyurdular.

Ə.Haqverdiyevin maarifçi-realizmi hekayə yaradıcılığının ilkin mərhələsində dini aspektdə təşəkkül tapır; "Pir", "Şəbih", "Seyidlər ocağı" kimi hekayələrdə dini fanatizmi hədəflədiyi halda, ilk hekayəsində insana islam əxlaqı ilə aydın yol göstərir. Deməli, əksər maarifpərvər ədiblər kimi Ə.Haqverdiyev də dini hədəf seçmir, cəhaləti tənqid edirdi.

Ə.Haqverdiyevin "Ata və oğul" hekayəsində ölüm ayağında olan atanın oğluna vəsiyyətinə diqqət yetirək: *"Əvvəla, bala, bu gündən ömrünün axırınadək sən bunu heç xəyalından çıxartma ki, müsəlmansan. Quranın və peyğəmbərin şəriətinin hökmlərinə həmişə itaət elə və bilgilən ki, bu itaətin axirət ruyi-səfidliyindən səvay, dünya xoşbəxtliyi də sənlə olar və Allahın əli və kölgəsi heç vaxt sənin üstündən kəm olmaz"* [3,s. 12].
Əsərdən gətirilən səciyyəvi sitatlar sübut edir ki, maarifçi-realistlər milli cəmiyyəti mənsub olduğu dinin mahiyyətinə dərindən bələd olmağa, onun göstərişlərinə əməl etməyə çağırırdı və bunu zamanın ciddi sosial problemi kimi dərk edirdi. Ə. Haqverdiyevin "heç xəyalından çıxartma ki, müsəlmansan" motivini önə çəkməsi sübut edir ki, maarifçi- realistlər zamanın reallıqlarında insan və onun mənsub olduğu din məsələsində kifayət qədər problem görür və onu bədii təsvir predmetinə çevirməklə soydaşlarını ruhən və mənən, eyni zamanda ağıl vasitəsilə mənsub olduğu dinə münasibət göstərməyə çağırırdılar.
Prof. T.Salamoğlu yazır: *"Ə.Haqverdiyevin "Ata və oğul" hekayəsi üzərindəki müşahidələrimiz müəllifin idealist dünyagörüşündən çıxış etdiyini, ictimai şüurun tərbiyəsində, cəmiyyət insanını normal vətəndaş kimi yetişdirməkdə Allahın müqəddəs kitabına, şəriət hökmlərinə, Məhəmməd peyğəmbərin hədislərinə aktiv rol verdiyini görürük. Ə.Haqvediyev mətnə dini dünyagörüşü mövqeyindən bədii həll verir və bu "həll"də dini dünyagörüşü heç bir halda "pərdə-tül" funksiyasında çıxış etmir.Məsələ burasındadır ki, "Ata və oğul" hekayəsində hadisələrin bütün inkişaf məntiqi dini inanc sisteminə tabe tutulmuşdur"* (1, 239).
Çağdaş ədəbiyyatşünaslıqda problemin bu cür düzgün qoyuluşu sonrakı tədqiqatlarda da bədii mətnlərdə dini inanc sisteminin təzahür xüsusiyyətlərini diqqət mərkəzinə almağa gətirib çıxarır.

Ə.Haqverdiyevin yaradıcılığında XX əsrin 20-ci illərində yazdığı əsərlərlə 20-ci ilə qədərki dövrdə yazdığı əsərlər arasında dinə münasibət mövqeyindən ciddi fərqlər meydana çıxır. "Qəndil" hekayəsi 20-ci illərdə yazılmışdır. Hekayədə hadisələr Şura zamanında cərəyan edir: Müəllif obrazın xatırlamaları şəklində İsgəndər bəyin keçmişdə insanlara etdiyi dəhşətli zülmlərdən bəhs edir; Bütöv bir kəndi əsarətdə saxlamasını, onların namusuna təcavüz etməyə qədər hər cür əxlaqsızlığını və vəhşiliyini bədii təsvirin mərkəzinə çəkir. Yazıçı təsvirinə görə, yalnız insanlar bu zülmdən "Şura hökuməti dağlara tərəf üz qoyan"dan sonra qurtarırlar. "Qəndil hekayəsi belə başlanır: *"Bütün dağlar arasında İsgəndər bəyin adı söylənirdi. İgidlikdə, at çapmaqda, düşmən bağrı yarmaqda tayı-bərabəri yox idi"* [3, s.235].

Diqqətimizi cəlb edir ki, bu iki cümlədə Azərbaycan bəyinin tarixi xaarkterini əks etdirmək üçün kifayət qədər potensial cəmlənib. Bəs, niyə müəllif bu imkandan istifadə etmir və başlanğıcın diktə etdiyi məntiqdən büsbütün kənara çıxır? Çünki, hekayənin yazıldığı illərdə ədəbi tənqid Ə.Haqverdiyevi *"liberal-mülkədar məfkurəsini ifadə etmək"də* [2,s.24] *"proletar inqilabının mahiyyətini lazımınca anlaya bilməmək"də* [2,s.24] ittiham edir və onun qarşısına özünü "yenidən qurmaq" tələbi qoyurdu. Buna görə də əvvəlki əsərlərdə yuxarı təbəqə obrazlarını "liberal-mülkədar məfkurəsi" mövqeylərindən, əslində isə obyektiv mövqedən əks etdirən sənətkar indi həmin obrazları rejimin tələbləri çərçivəsində əks etdirməyə can atır və "yenidən qurulduğu"nu sübut etmək istəyir. Azərbaycan bəyi ilə bərabər, "Qisas" hekayəsində "Müsavat" hökumətinə verilən ən mənfi xarakteristika da bu hökumətin siyasi rejimin gözündə *"Azərbaycanda Oktyabr düşmənləri"* sırasında yer alması ilə bağlı idi.

XX əsrin əvvəllərində yazılmış əsərlərdə yuxarı təbəqə obrazları obyektiv müəllif müşahidəsi ilə yaradılırdı, buna görə də onlara sovet dövrünün ədəbiyyatşünaslığının sinfi mövqedən dəyər verməsi narahatlıq doğurmaya bilməz. Lakin 20-ci illərdə məsələ bir qədər mürəkkəbləşir. Bu illərdə həm yuxarı təbəqə nümayəndələrinin obrazlarının yaradılmasında, həm də bu obrazların elmi dəyərləndirilməsində sinfilik amili önə keçir.

Maarifçi -realist sənətkarın insan həyatının tənzimlənməsində, tərəqqiyə doğru hərəkətində elm və təhsilə mühüm əhəmiyyət verməsi heç bir şübhə doğurmayan həqiqətdir. Lakin maarifçi realistlər elm və təhsilin düzgün əxlaqla birləşdikdə əsas səmərə verməsi fikrini həmişə yaradıcılıqlarında əks etdirmişlər. Elə "Ata və oğul" da daxil olmaqla haqqında yuxarıda danışılan əsərlərin ümumi tipoloji xüsusiyyətlərindən biri budur ki, onlarda müəllifin maarifçi dünyagörüşü elm və təhsillə müsəlman əxlaqını birlikdə götürür. Tərəqqiyə, inkişafa gedən yolda onların vəhdətdə iştirakını əsas sayırlar. Bu əsərdə mollaxana məktəblərinin obrazı dəqiq rəsm olunmuş, onun ictimai tərəqqidəki yerinə düzgün qiymət verilmişdir. Məhz buna görə də həmin düzgün elmi qiymət maarifçi- realistlərin əsərlərində yaratdığı molla və mollaxana məktəbləri obrazları ilə üst-üstə düşür. Ə.Haqverdiyevin "Ata və oğul" hekayəsinəki mollaxana məktəbinin mollası Mirzə Həsibi xatırlamaq kifayətdir. Hacı Xəlilin keçdiyi həyat yolunda qazandığı müvəffəqiyyətlərdə bu məktəbdə aldığı savadın və molla Mirzə Nəsibin ona əxlaqi təlqinləri və qayğısının müstəsna rolu olduğunu müəllif hekayə boyu qabardır. Demək, Ə.Haqverdiyevin düşüncəsində mollaxananın və orada dərs deyən mollanın "mürtəce" obrazı yox, tərəqqiyə xidmət edən və xeyirxah obrazı vardır. Həmin obraz maarifç realistlərin əksər əsərlərindən keçir. Onlar dinin təhsilə müsbət münasibətini ifadə edəndə tarixi reallığın mahiyyətindən çıxış edirdilər.

İnsanların dini maarifləndirilməsi məsələsi maarifçi -realistləri düşündürən mühüm məsələlərdən biri idi. Bu məqamda maarifçilər din xadimlərinin böyük əksəiyyətinin öz üzərlərinə düşən rolu düzgün yerinə yetirməməsi məsələsini qoyurdular.

XX əsrin əvvəllərində ictimai və estetik düşüncədə islamçılıq ideologiyasının mühüm bir ideya istiqaməti, əsas məfkurə istiqamətlərindən biri kimi ortalığa atılmasını sovet dövrünün

ədəbiyyatşünaslığı da təkzib edilməsi mümkün olamayan fakt kimi təsdiq edir. Lakin onu mümkün qədər geriliyin əlaməti, inkişafa mane olan, ehkamçı mövqe kimi, həm də bu hərəkatın və düşüncənin mahiyyətini birtərəfli şəkildə, əsl mahiyyətini açmadan təqdim edirdi.

Azərbaycan sovet ədəbiyyatşünaslığında fanatizmə tənqidi münasibət dinə tənqidi baxış kimi qələmə verilir. Ədəbiyyatşünaslıq sovet ideologiyasının təsiri altında müəlliflərin və qəhrəmanların dini dünyagörüşündən çıxış etməsini elmi təhlil arsenalından uzaq tutmağa çalışır. Əsərlərdə qəhrəmanların dini fanatikcəsinə dərkinə tənqidi yanaşmaları müəllifin ateist mövqeyinin ifadəsi kimi şərh olunur. Müəllifin və qəhrəmanların dini inancdan irəli gələn düşüncələri, əsərlərin dini motiv və süjetləri islami dəyərlərin ifadəsi kimi yox, kifayət qədər mücərrədləşdirilərək milli və ümumbəşəri dəyərlərin ifadəsi hesab edilir. Bədii mətnləri dini məzmundan uzaqlaşdırmaq əsas məqsədə çevrilir. Bilavasitə müəllifin dini dünyagörüşünün əksi kimi yaranan əsərlərin (S.M.Qənizadənin "Qurban bayramı", "Allah xofu", Ə. Haqverdiyevin "Ata və oğul", "Ayın şahidliyi" tipli əsərlərin) dini motivlərdən sərf-nəzər edilir və ümumi əxlaqi dəyərlər kontekstində təhlil edilir.

NƏTİCƏ

Ə.Haqverdiyevin yaradıcılığının birinci dövründə yazılmış hekayələrinin, maarifçi-realist əsərlərinin dini motiv və dünyagörüşündən kənarlaşdırılan təhlillər əsərlərin obyektiv məzmun və ideyasının təhrifi ilə təqdim edilir. Maarifçi realizmin 1920-ci ilə qədərki mərhələsində bədii əsərdə əks olunan müəllif dünyagörüşü sənətkarın həyata baxışlarının həqiqi bədii ifadəsi kimi meydana çıxırdı. Maarifçi realizmdəki açıq tendensiyalılıq prinsipi 20-ci illərin ədəbiyyatında da davam edir. Lakin 20-ci illər ədəbiyyatında maarifçi düşüncənin açıq tendensiyalılıq prinsipinin təzahürü kimi görünən müəllif dünyagörüşü ideologiyadan güc alır. Müəllif dünyagörüşünün bədii ifadəsi kimi meydana çıxan əsərlər əslində siyasi-ideoloji missiya yerinə yetirir. Bu mənada XX əsrin əvvələrinin maarifçiliyi ilə 20-ci illər maarifçiliyi arasında yaranan tipoloji fərqlər yaranır. Bütün bunlarla bərabər, 20-ci illər estetik fikrinin zamanın siyasi tələqinlərinə bədii ənənənin gücü ilə müqavimət göstərməsi hallarına da rast gəlirik. Bu tip əsərlər 20-ci illər nəsrində azlıq təşkil edir. Bununla belə, bu cür hallar maarifçi realizmin milli ənənələrinin 20-ci illər nəsrində də bu və ya digər dərəcədə qorunub saxlandığını sübut edir

ƏDƏBİYYAT SİYAHISI

1. Salamoğlu T. XIX əsrin sonu, XX əsrin əvvəlləri. Azərbaycan ədəbiyyatının aktual problemləri.bakı, 2021, s.662

2.Mütəllimov T. Əbdürrəhimbəy Haqverdiyevin poetikası. Bakı: Yazıçı, 1988, 328 s

3.Haqverdiyev Ə. Seçilmiş əsərləri. II cild. Bakı .lider, 2005.

ULU ÖNDƏRİN ÖLKƏMİZİN İNKİŞAFINDAKI XİDMƏTLƏRİ

ABDULLAYEVA MAHİRƏ MÖVLUD QIZI

Pedaqogika üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlər Pedaqoji Universitetinin Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrasının baş müəllimi

Giriş

Dahi dövlət xadimi ümummilli liderimiz Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının qurucusu olmaqla bərabər, vaxtında verdiyi qərarları və sərəncamları ilə ölkəmizin, dilimizin, mədəniyyətimizin inkişafına böyük xidmətləri olmuşdur.

Ümummilli liderimiz Heydər Əliyevin "Hər bir xalqın səviyyəsini onun bilik səviyyəsi müəyyən edir. Bilik səviyyəsinə də nail olmaq üçün təhsil daim mövcud olmalıdır və o, ardıcıl surətdə inkişaf etməlidir. Təhsil daim təkmilləşdirilməlidir. Bütün bunlar Azərbaycan təhsil işçilərinin üzərinə düşən vəzifədir" sözləri müəllimlərin məsuliyyətini hər zaman daha da artırır (1,s.2-6).

Açar sözlər: Ulu öndər, ümummilli lider, Azərbaycan, təhsil, dilimiz, siyasət.

Ana dilimizin inkişafında və bu dilin dünya arenasına çıxması uğrunda əlindən gələni edən Azərbaycan xalqının Ümummilli lideri Heydən Əliyev ana dilimiz barədə dediyi başqa bir fikrə diqqət edək: "Ana dilimiz bizim sərvətimizdir. Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan inkişaf etdirən onun dilidir. Dil böyük bir aləmdir. Hər bir xalq öz dili ilə yaranır, ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə çatdırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur"(2, s.7).Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra özünün geosiyasi imkanlarını gerçəkləşdirməyə başladı. Onun siyasi zəkası sayəsində Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi aradan qaldırıldı. Bu gün Azərbaycanın suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü qorumağa tam qadir olan orduya malik olması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında göstərdiyi misilsiz xidmətlərindən biri sayıla bilər .

"Lissaqon samitində Azərbaycan qələbə çalmışdır. Heydər Əliyevin siyasəti qələbə çalmışdır" (4, s. 245).

Dahi dövlət xadimi Heydər Əliyev öz natiqliyi ilə də nümunə olacaq bir şəxsiyyət idi. OnunAzərbaycan və rus dillərində mükəmməl çıxışları dinləyicilərin hər zaman rəğbətini qazanmış, onu bir natiq kimi məşhurlaşdırmışdır. Ulu Öndərin çıxışlarını izlərkən qürur hissi keçirməmək mümkün deyildi: "Mən çox fəxr edirəm ki, mən Azərbaycanlıyam!"

Dini etiqad azadlığımıza da məhz Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti dövründə qovuşa bildik. İslam dini barədə ölkədə verdiyi sərəncam və qanunlar buna sübut ola bilər.

"Heydər Əliyev 53 dövlətin hüzn-rəğbətini qazandı, səsini aldı və gələcəkdə işi davam etdirməyə nail oldu"(3, s.246).

Ulu Öndər H.Əliyevin rəhbərliyi dövründə Yeni Azərbaycan Partiyası yaradıldı və o çətin illərdə gənclərə tək doğru yolu göstərən bir siyasi partiya oldu.

Ölkəmiz Ulu Öndər Heydər Əliyevin siyasəti sayəsində sosial-iqtisadi və mədəni inkişafa başladı və bu istiqamətdə gedən işlərin uğurlu davamçısı hal-hazırda dövlət başçımız Prezident İlham Əliyevdir. O, atasının vəsiyyətini də həyata keçirdi, nəticədə 44 günlük müharibədə ordumuz düşmənə qalib gələrək, Azərbaycanın gözü Qarabağı azad etməyə nail oldu.

Hazırda bütün dünyada ekoloji problemlərin qarşısının alınmasının qlobal çağırış olduğunu çoxlarımız bilirik. Azərbaycanın da bu istiqamətdə çağırışlara qoşulan ölkələr sırasında olduğu qürurvericidir.

Hələ 1970-ci illərin əvvəllərindən Ulu Öndər Heydər Əliyevin məqsədyönlü siyasəti nəticəsində ölkəmizdə bioloji ehtiyatların qorunub-saxlanılması, nəsli kəsilmək təhlükəsi olan növlərin bərpası, areallarının genişləndirilməsi istiqamətində mühüm işlər görülmüşdü. Ümummilli liderimiz Heydər Əliyev o zamanlar və müstəqillik illərində də Bakı və Abşeronun yaşıllaşdırılmasına, pozulmuş ekoloji tarazlığın bərpasına diqqət yetirmişdir. Onun Azərbaycan təbiətinin mühafizəsinə qayğısını və ona xüsusi önəm verdiyini ölkəmiz müstəqillik qazandıqdan sonra da görmək mümkündür. Ətraf mühitin və ekologiyanın mühafizəsi sahəsində dövlət siyasətinin əsaslarının formalaşdırması məhz onun əməyinin nəticəsidir.Ulu Öndərin başqa siyasətləri kimi "Yaşıl dünya" ilə bağlı problemlərin həlli də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azərbaycan dövlətinin çətin zamanında onun xilaskarı olmuş insana Ulu öndər və Ümummilli Lider adı yaraşır. Bu gün nə qazanmışıqsa Ümummilli liderimiz Heydər Əliyevin yürütdüyü düzgün və uğurlu siyasətin nəticəsidir.

İstifadə olunmuş dəbiyyat siyahısı

1. "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu // Azərbaycan dili və ədəbiyyat tədrisi. Bakı, 2003, N 1, s.2-6.

2. "Azərbaycan Respublikasında dövlət dili haqqında", "Azərbaycan Respubliksı Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikasının Fərmanı // Azərbaycan dili və ədəbiyyat tədrisi, Bakı, 2003, N 1, s.7.

3. Həsən Mirzəyev. Elmi, pedaqoji fəaliyyətim və ömür yolumdan sətirlər. Bakı, Elm, 2008, 288 s.

4. "Səs qəzeti, N 42 (3091), 5 mart, 2008-ci il, s.4.

XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ TÜRKİYƏ VƏ AZƏRBAYCAN ŞAİRLƏRİNİN YARADICILIĞINDA VƏTƏNPƏRVƏRLİK VƏ İSTİQLAL MÖVZULARI: VƏTƏNƏ AİD HİSSLƏRİN BƏDİİ İFADƏSİ MƏHMƏT AKİF ƏRSOY, ƏHMƏD CAVAD VƏ BƏXTİYAR VAHABZADƏ POEZİYASINDA ƏSAS AMİL KİMİ

AYSEL BALASULTAN QIZI ŞEYDAYEVA

ADPU-nun Quba filialı, Sosial və humanitar məsələlər üzrə direktor müavini

Pedaqogika üzrə fəlsəfə doktoru, Qabaqcıl təhsil işçisi

XÜLASƏ

Ədəbiyyat məbədinin ucaldılmasında danılmaz rolu olan bir çox şairlərin poeziyasının dərinliklərində qərq olmamaq mümkün deyil. Bu mənada XX əsrin əvvəllərində Türkiyə və Azərbaycanda yaşayıb yaratmış, hər iki qardaş xalqın poeziyasında lirikasının mövzu dərinliyi, insan hislərinə birbaşa xitab edən rəngarəngliyi, Vətən məhəbbətinin, milli şüurun, azadlıq eşqinin əsərlərində inikası ilə istiqlal şairləri ünvanını alan Məhmət Akif Ərsoy və Əhməd Cavad yaradıcılıqları onların ölçüsüz istedadlarının təcəllası, əsərlərinin ehtişamından xəbər verir. Vətənpərvər insanın ruhuna xitab edən Məhmət Akif Ərsoy və Əhməd Cavadı təhlil və tədqiq etdikdə şahid oluruq ki, bu şairlərin əsərləri bir neçə mənada oxucunun diqqətini özünə çəkir. Lakin hər iki şairin yaradıcılığını bir istiqaməti özündə ehtiva edən dərin mövzu var: Vətən istiqlaliyyəti! Böyük Hüseyn Cavid yazırdı: *"Azadlıq! Öylə nazlı afət ki, qan tökülməyincə üzə gülməz o işvəkar!*

Açar sözlər: lirika, ənənə, ədəbiyyat nümunələri, şeirlər, türkçülük

Bəli, kimi canıyla, kimi qələmiylə bu nazlı afət üçün savaşıb zaman-zaman. Tədqiqatlardan aydın olur ki, XX əsrin əvvəllərində Türkiyədə olduğu kimi, Azərbaycanda da milli azadlıq hərəkatı genişlənmiş, Hüseyn Cavid, Əhməd Cavad, Cəfər Cabbarlı kimi şair və yazıçılar Məhmət Akif Ərsoylarla bir sırada qədim türk xalqlarını millət kimi təsdiq etmək üçün savaşmış, əski türk düşüncəsini müsəlman toplumu fəlsəfəsindən millət müstəvisinə qaldırmağa nail olmuşlar. Bu yüksəliş ədəbiyyata və mədəniyyətə siraət etdikcə mövzular hər hansı konkret milli türk zəminində deyil, ümumtürk anlayışları səviyyəsindən çıxış etməyə başladı. Məhz buna görə də azadlıq aşiqlərinin həmin dövr üçün Vətən istiqlaliyyəti adlı mübarizə mövzusuna türkçülük anlayışı da əlavə edildi.

Məhmət Akif Ərsoy Türkiyə Respublikası və Şimali Kipr Türk Respublikasının İstiqlal Marşının müəllifidir. "Vətən şairi" və "Milli şair" ünvanları ilə tanınır. Məhmət Akifin İstiqlal Marşı ilə yanaşı, Çanaqqala dastanı, Bülbül və 1911–1933-cü illər arasında nəşr olunan yeddi şeir kitabındakı şeirləri bir araya gətirən Safahat ən dəyərli əsərlərindəndir. Olduqca qiymətli bədii əsərlər müəllifi olan Məhmət Akif Ərsoyun İstiqlal Marşı onun Türkiyə tarixinə biganə qala bilməyən bir vətənpərvər olduğunun təsdiqidir. Türk millətinin azadlığını sərgiləyən İstiqlal Marşı Anadoluda Milli Azadlığın davam etdiyi sırada M.A.Ərsoy tərəfindən qələmə alınan bir şeir nümunəsidir. Təsadüfi deyildir ki, hansı zamanda oxunmasından asılı olmayaraq bu şeir bir vətəndaş kimi M.A.Ərsoyun Qurtuluş savaşını qazanacağına olan inancını, Türk əsgərinə olan güvənini, Türk elinə olan bağlılığını dilə gətirir:

Qorxma, sönməz bu şəfəqlərdə süzən al bayraq; Sönmədən yurdumun üstündə yanan ən son ocaq.
O mənim millətimin ulduzudur, parlayacaq; O mənimdir, o mənim millətimindir ancaq. Çatma, qurbanın olum, çöhrəni, ey nazlı hilal! Qəhrəman xalqıma bir gül! Nə bu şiddət, nə cəlal? Sənə olmaz tökülən qanlarımız sonra halal... Haqqıdır, Haqqa tapan millətimin istiqlal!

Şeirin bütün misralarında dərin Vətən məhəbbətinin atəşində yanıb-alovlanan azadlıq əsgərinin qələm gücü dayanır. Bu güc sanki tarixin türklər haqqında kəsdiyi qədərin – qorxmazlığın, cəsarətin, özünəməxsusluğun, haqsızlıqla və əsarətlə barışmazlığın təntənəsi kimi ortaya çıxır. Məhz buna görə də türk xalqları Məhmət Akif Ərsoyu, öz azadlıqlarını sevdikləri kimi bu gün də böyük coşğu ilə sevir.

Əhməd Cavad da sözlərin sehrini Vətənin istiqlaliyyəti uğrunda sərf etməyi sevən şairlərdən idi. Onun türkçülüyə olan tükənməz məhəbbəti əsərlərində əks olunurdu. Osmanlı dövlətinin müharibədə iştirak etməsindən həyəcanlanaraq yazdığı "Qara dəniz" şeirini oxuduqda oxucu açıq-aydın hiss edir ki, azadlıq sevdalı şair böyük ümidlərlə yaşayıb. "Qara dəniz" şeirinin son bəndi bu fikri belə təsdiqləyir:

Dost elindən əsən yellər

Mənə şeir... salam söylər.

Olsun bizim bütün ellər

Qurban Türkün bayrağına.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını milli tariximizin ən parlaq səhifəsi kimi sevinclə qarşılayan Əhməd Cavad müstəqil dövlətimizin himnini - "Azərbaycan marşı"nı yazır, sanki bütün canı və qanı ilə Vətənə qurban olmanın qururunu ifadə edir:

Azərbaycan!Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!Səndən ötrü can verməyə cümlə hazırız! Səndən ötrü qan tökməyə cümlə qadiriz!

Şairin Azərbaycan bayrağına ithaf etdiyi şeir də onun üçrəngli, ay-ulduzlu bayrağımıza böyük sevgisinin bədii ifadəsi olmaqla yanaşı, həm də türkün vətən sevdası anlayışının məcmusudur:

Türküstan elləri öpüb alnını

Söyləyir dərdini sana, bayrağım!

Üç rəngin əksini Quzğun dənizdən

Ərməğan yollasın sana, bayrağım!..

Əhməd Cavad, məşhur "İstiqlal uğrunda şeirlər" kitabının çapı ilə həmin dövrdə mətbuatda Əhməd Cavadın əleyhinə hücumlar başlamasına səbəb olsa da azadlıq uğrunda tökülləcək qandan, veriləcək candan qorxmur!

Haqsız yerə güllələnən Əhməd Cavadın bu gün ruhu sakitlik tapıb. Çünki bu sakitlik Azərbaycan xalqının azadlığı və istiqlaliyyəti uğrunda mübarizə aparan Əhməd Cavadın Azərbaycan Respublikasının Dövlət Himninin müəllifi kimi bütün dünyada yaşayan azərbaycanlıları bu himnin sədaları birləşdirməsi onun böyük vətənpərvərlik ideyalarının Azərbaycan durduqca yaşamasından doğur. Sevindirici haldır ki, 2022-ci il aprel ayının 20-də Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandanımız İlham Əliyev "Əhməd Cavadın 130 illiyinin qeyd edilməsi haqqında" Sərəncamı imzalamaqla xalqımızın tarixinə və bu tarixin yazılmasında xidməti olan insanlara xalqın, onun iradəsinin ən ali ifadəsi olan dövlətin dəyişməz münasibətini növbəti dəfə ifadə edib. Sərəncamda Əhməd Cavad Azərbaycanın

ədəbi-bədii fikir tarixində istiqlal şairi kimi özünəməxsus dəst-xətti ilə seçilən, müstəsna mövqeyə malik söz ustadlarından biri, qəlbi ilə bağlı olduğu xalqının müstəqillik ideallarına həyatı boyu sadiq qalmış sənətkar, azadlıq motivləri ilə zəngin yaradıcılığı milli məfkurədən yoğrulmuş ideya adamı kimi təqdim olunur: "Azərbaycanın dövlət rəmzlərini yüksək şeiriyyətlə alovlu tərənnüm edən şairin müstəqil dövlətçiliyə sevgi aşılayan əsərləri dərin vətənpərvərlik duyğularının heyrətamiz poetik ifadəsidir".

Vətən mövzusunu daha dərin bir şəkildə yaşayan və oxucusuna bu hisləri göstərməyi bacaran şairlərdən biri də Bəxtiyar Vahabzadədir. Vətən onun Bütöv Azərbaycanı əhatə edən sözdür Azərbaycan ədəbiyyatının XX əsrdə yetişdirdiyi şairlərdən biri kimi o, yaradıcılığı boyu həmişə şeirlərində Vətənini, azadlığını, insanların daxili aləmini tərənnüm edib. Onun şeirlərində türkçülük, Azərbaycançılıq, xalqına sədaqət, yurduna bağlılıq qeyd olunmalı xüsusiyyətlərdir.

Tədqiqatlarda Bəxtiyar Vahabzadənin lirikasını üç hissəyə ayırmaq olar: fəlsəfi lirika, məhəbbət lirikası və təbiət lirikası. Bütün vətənpərvərlik ruhunda yazdığı əsərlərdə isə Bəxtiyar Vahabzadə poeziyasında ifadə etdiyi cəsurluq milli ovqat və dünyagörüşü ilə heç cür uzlaşmağa çalışırdı, çünki B.Vahabzadə öz duyğularını qətiyyən cilovlamaq istəmirdi, onun azadlıq eşqi, müstəqillik ideyaları zamanı qabaqlamağa can atırdı:

"Mənim damarlarımda

Gur sellər çağlamışdır.

Anam cəngilər üstə

Məni qundaqlamışdır.

Azərbaycan oğluyam,

Min ildir, öz adımın Keşiyində durmuşam,

Silahım olmayanda Nifrətimi barıttək Qəlbimə doldurmuşam..."

Çünki İstiqlal şairi Bəxtiyar Vahabzadə cəsarətli qələm və kəlam sahibi olmaqla yanaşı həm də oxucusunu fəlsəfi sətirləri ilə öz dünyasını tapdırır, həyacanına sahib çıxa bilirdi.

Şair oxucusunun birbaşa qəlbinə xitab edir, həyatın enişli-yoxuşlu amma olduqca özünəməxsus günlərinin, qazanılmış taleyüklü məsələlərin Vətənlə bağlı olmasından bəhs edir. Vətən mövzusunun əslində necə dərin bir mənaya sahib olduğunu, insan üçün nələr ifadə etdiyini bədii şəkildə təsvir edir:

Ey Vətən oğlu, düşün, bil ki, sənindir bu Vətən,Sabahın, həm bu günün, həm dünənindir bu Vətən.
Sənin öz dövlətin, öz millətin, öz cəddin varVətən uğrunda ölənlər ölümündən doğular.

Biz Vətən məcnunu, el aşiqi, sülh əsgəriyikBiz Vətən naminə ölsək, dirilərdən diriyik.Mənim öz ulduzumu bağrına basmış hilalım,Dedi öndər: "Yönü bayraqdakı üç rəngdən alım".

Sən bu gül bayrağın altında məramınca yaşa,Qoyma düşmən nəfəsindən ona çirkab bulaşa. Sənin öz bayrağının kölgəsi cənnətdi sənə,Günəş hər gün doğur ancaq içimizdən Vətənə.

Hər üç istiqlal şairini birləşdirən Vətən və istiqlaliyyət mövzusu onların bu hissləri Vətən marşı kimi qələmə aldıqları əsərlərdə möhürlənir. Oxuduqca Məhmət Akif Ərsoyun "İstiqlal marşı"ndan süzülən *"əzəldən bəridir hür yaşadım, hür yaşaram"* ifadəli atəşin közlərinin, Əhməd Cavadın *"Qalxıb, bir də enməz elin bayrağı, O sənin, o mənim əlimdədir, bil!* – imzalı yanğısının və Bəxtiyar Vahabzadənin *"Bəşərin dərdini öz dərdi bilib millətimiz. Bizim öz niyyətimizdən doğub hürriyyətimiz"* deyən Vətən eşqinin bu gün daha da alovlanması günümüzə qədər gəlib çıxıb. Çünki ədəbiyyatın, mədəniyyətin, haqq mübarizəsinin bir məramı

var: Əbədi istiqlal! Məhmət Akif Ərsoyun da dediyi kimi *"Haqqıdır, Haqqa tapan millətimin istiqlal!"*

İstifadə edilən ədəbiyyat siyahısı

1. Atatürk dövrü türk ədəbiyyatı. Ankara 1981.
2. Bəşirova, J. Nitq aktları arasında əlaqələrin xüsusiyyətləri.// Filologiya məsələləri, –2013, № 2, –s. 151-155.
3. Əliyev M.İ. "Azərbaycan şeirinin vəzn və evfoniya problemləri" Bakı. 1983
4. Xəlilov P.Türk xalqlarının və şərqi slavyanların ədəbiyyatı. Bakı. 1994.
5. Quliyev E. Türk xalqları ədəbiyyatı Bakı 2011
6. Quliyev E. Türk xalqları ədəbiyyatı Bakı 2014
7. https://www.kriteri.az/articles/ehmed-cavad-yaradiciliginda-azerbaycanciliq-mefkures
8. https://portal.azertag.az/az/node/14297

ALI MƏKTƏB MÜƏLLİMİNİN PEDAQOJİ USTALIĞI

SALMANLI FİDAN NAMİQ

Azerbaijan State Pedagogical University

Xülasə

Pedaqoji ustalığa malik müəllim müasir sivilizasiyaya və gəncliyə uyğun yeni yanaşma metodları və texnologiyalar hazırlamağı bacarmalı, biliyi və praktiki fəaliyyəti baxımından hər zaman tələbələri qabaqlamalıdır. Müəllim tələbə kollektivinin hər bir üzvünə fərdi yanaşmağı bacarmalı, ən çətin və mürəkkəb anlarda ruhdan düşməməli, hər bir pedaqoji situasiyada adekvat davranış formasında olmalı, səbirli, təmkinli dözümlü olmalı, hisslərini idarə edə bilməli, özünə qarşı daima tələbkar olmalı, davranışını nəzarət altında saxlamalı, səlist nitqi olmalı, tələbələrin fikirlərini söyləməsinə şərait yaratmalı və onları dinləməyi bacarmalı, təhsil – tərbiyə imkanlarına nikbin münasibət göstərməlidir.

Açar sözlər: pedaqoji takt, pedaqoji fəaliyyət, pedaqoji qabiliyyətlər,pedaqoji texnika.

Pedaqoji prosesin intensivliyini daim yüksəltmək bacarığı ustalıq adlanır. Müəllim fəaliyyətinin əsas amillərindən biri də pedaqoji ustalıqdır. Öz işinin peşəkarı olan müəllim tədris etdiyi fənnin əsaslarını dərindən bilməli,yaradıcı fəaliyyət göstərməli,elmin müxtəlif sahələrinə bələd olmalı,psixologiyanı və pedaqogikanı bilməli, yüksək mədəniyyətli şəxs olmalıdır. Pedaqoji ustalığa malik müəllim təhsil – tərbiyənin qanunauyğunluqlarını, prinsip və qaydalarını hərtərəfli bilir, diaqnostlaşdırma, proqnozlaşdırma və layihələşdirmə bacarığı olur. Müəllimi öncəliklə müəllim kimi tanıdan, xarakterizə edən keyfiyyət – peşə biliklərdir. Peşə biliyi zəif olan müəllim nüfuzdan düşür. A.S.Makarenko qeyd edirdi ki, “ tələbələr müəllimlərinə ciddiliyi, soyuqluğu, quruluğu və hətta yersiz irad tutmalarını bağışlayar, lakin zəif peşəkarlığını bağışlamazlar.” Tələbələr müəllimlərində öncəliklə aydın və dəqiq bilik, bacarıq və sərişta, qabiliyyət, təmkin, işə daim hazırlıq, məsuliyyət və qarşılıqlı hörmət, yaradıcı qabiliyyət, haqq və ədalət, məntiqi düşüncə, tərbiyə prosesini bilmək, tərbiyəetmək bacarığını üstün tuturlar. Pedaqoji ustalıq müəllimin peşə bilikləri sistemi ilə şəxsi keyfiyyətlərinin ahəngdarlığının inteqrasiyasıdır. Pedaqoji ustalığın göstəricilərinə aiddir;

- ✓ Pedaqoji fəaliyyət;
- ✓ Pedaqoji takt;
- ✓ Pedaqoji qabiliyyətlər;
- ✓ Pedaqoji texnika;

Müəllimin fəaliyyəti olduqca çətin və mürəkkəb prosesdir. Tələbələrin diqqətinin idarə edilməsi, fəal təlim metodlarından istifadə edilməsi, digər fənlərlə inteqrasiyanın qurulması müəllimdən dərin bilik, bacarıq, sərişta lilik, məsuliyyət, mahirlik tələb edir. Müəllim öncəliklə ixtisasını sevməli, etik davranış qaydalarına əməl etməlidir. Tələbələrin fərdi xüsusiyyətləri, pedaqoji prosesdə iştirak səviyyəsi və onları əhatə edən sosial mühit heç də həmişə eyni deyildir. Buna görə də ali məktəb müəllimi tələbələrə fərdi yanaşmağı bacarmalı,onlarla dərsdənkənar vaxt keçirməli, müxtəlif üsullardan istifadə edərək onları təlimə cəlb etməlidir**.**

Pedaqoji fəaliyyətin əsas istiqamətləri bunlardır:

✓ Tələbələrin peşə bilikləri ilə silahlandırılması və onlarda elmi dünyagörüşün formalaşdırılması;

✓ Cəmiyyət tərəfindən müəyyən edilən əxlaqi normalar ilə tələbələrin tanış edilməsi, tələbələrdə etik davranış mədəniyyətinin tərbiyə edilməsi, düzlük, doğruçuluq, dostluq, yoldaşlıq, əməksevərlik, qayğıkeşlik,vətənpərvərlik, mərdlik, əməkdaşlıq, kollektivçilik,təşkilatçılıq, birlik, cəsurluq və s. kimi əxlaqi keyfiyyətləri formalaşdırmaq;
✓ Tələbələri müstəqil həyata hazırlamaq məqsədi ilə bacarıq və vərdişlərin inkişaf etdirilməsi;
✓ Yetişməkdə olan gənc nəsildə mənəvi əqidə və inamın formalaşdırılması;
✓ Tələbələrin intellektual səviyyəsinin və psixi xüsusiyyətlərinin inkişaf etdirilməsi.
✓ Sosial mühitdə olan neqativ təsirlərə qarşı fəaliyyətin təşkil edilməsi.

Pedaqoji fəaliyyəti düzgün təşkil edən müəllim, tələbə tərəfindən tədris materialının müstəqil, şüurlu və yaradıcı tərzdə mənimsənilməsinə nail olur. Həmçinin, tələbələrə gələcək mütəxəssis üçün zəruri olan keyfiyyətlər aşılayır, tələbələrin hərtərəfli inkişaf etmiş vətəndaş kimi formalaşmasına, fəal həyat mövqeyi qazanmasına şərait yaradır. Pedaqoji ustalığa malik müəllim müasir sivilizasiyaya və gəncliyə uyğun yeni yanaşma metodları və texnologiyalar hazırlamağı bacarmalı, biliyi və praktiki fəaliyyəti baxımından hər zaman tələbələri qabaqlamalıdır.

Pedaqoji ustalığa malik müəllimin keyfiyyətləri:
✓ Öz üzərində daima işləyərək elmi və professional hazırlığını inkişaf etdirir;
✓ Zəngin məntiqi təfəkkürə malik olmaqla elmin bütün sahələrinə inteqrasiya etməyi bacarır;
✓ Tədris etdiyi fənni elmin və texnikanın müasir inkişaf səviyyəsində bilir;
✓ Təhsil – tərbiyə prosesini ardıcıl sürətdə qurmağa imkan verən metodik hazırlığa malikdir.
✓ Tələbələrin təlim – idrak fəaliyyətini özünün şəxsi keyfiyyətlərinə əsaslanaraq səmərəli təşkil etməyi bacarır.
✓ Qrupun hər bir üzvünün maraq və meyillərinə, qabiliyyətlərinə çox yaxşı bələddir və öz fəaliyyətini sistemləşdirərkən bunları nəzərə alır;
✓ Prinsipialdır, ədalətlidir, möhkəm əqidəyə malikdir, məsuliyyətlidir, səbirlidir. Öz fəaliyyətində cəmiyyətin tələblərini, dövlətin mənafeyini əsas götürür;
✓ Həyatda fəal mövqeyə malikdir, ölkənin daxili və xarici siyasəti ilə maraqlanır, KİV – ni diqqətlə izləyir, sosial insandır;
✓ Humanistləşdirmə, humanitarlaşdırma, diferensiallaşdırma prinsiplərindən istifadə edərək təhsil – tərbiyə prosesini qurmağı bacarır;
✓ Geniş dünyagörüşünə, yüksək mədəniyyətə malikdir;
✓ Tələbələrə inanır,etibar və hörmət edir, onların şəxsi həyatı ilə maraqlanır, daima onlara dəstək göstərməyə çalışır;
✓ Texniki, yaradıcı, əmək, idman, və s. kimi ümumi bacarıqlara malikdir;
✓ Həm aktyor, həm də rejissordur.
✓ Tələbələr üçün ən yaxşı nümunə, ən mükəmməl etolondur;
✓ Tənqidə daimaa açıqdır, səhvini etiraf etməyi bacarır, mənfi cəhətlərini müsbət keyfiyyətlərlə əvəz etmək üçün daima çalışır;
✓ Nəfsinə qalib gəlməyi bacarır, maddi gəliri mənəvi sərvəti olan müəllimlik peşəsindən üstün tutmur.

Pedaqoji ustalığa malik müəllimin xarakterinin bütövlüyünü, möhkəmliyini və məharətini nümayiş etdirən, dərin psixoloji biliklərə əsaslanan əsas göstəricilərdən biri pedaqoji taktdır. Müəllim tələbə kollektivinin hər bir üzvünə fərdi yanaşmağı bacarmalı, ən çətin və mürəkkəb anlarda ruhdan düşməməli, hər bir pedaqoji situasiyada adekvat davranış formasında olmalı, səbirli, təmkinli dözümlü olmalı, hisslərini idarə edə bilməli, özünə qarşı daima tələbkar olmalı,

davranışını nəzarət altında saxlamalı, səlist nitqi olmalı, tələbələrin fikirlərini söyləməsinə şərait yaratmalı və onları dinləməyi bacarmalı, təhsil – tərbiyə imkanlarına nikbin münasibət göstərməlidir. Bütün bunlar pedaqoji taktı təşkil edir. Pedaqoji proses ziddiyyətli, dinamik və dəyişkəndir. Buna görə də, müəllim hər bir pedaqoji situasiyanın həllinə yaradıcı yanaşmalı, hazır şablonlardan istifadə etməməlidir. Pedaqoji takta malik müəllim tələbələri qarşısında tələblər qoymağı, xəbərdarlıq etməyi, səhvlərdən çəkindirməyi bacarır.

Pedaqoji taktın struktur elementlərinə müəllimin əxlaqi keyfiyyətləri, mənəvi zənginliyi, sözü ilə əməlinin üst – üstə düşməsi, cəld davranışı, situasiyanı düzgün qiymətləndirməsi, şəxsi kədərini qrupa gətirməməsi, gümrah, enerjili, nikbin olması, tələbələrin mövqe və baxışlarına hörmət etməsi, yaradıcılıq əhvali – ruhiyyəsi yaratmağı bacarmalı, öz qüvvə və imkanlarına inanmalı, eqoistlikdən uzaq olması, digər müəllim yoldaşlarının mənfi cəhətlərini tələbələrlə müzakirə edərək, müəllim yoldaşının nüfuzunu aşağı salmaması və bununla müəllim adının müqəddəsliyini qoruması, tələbələr arasında fərq qoymaması, danışıq nitqində təhqir, şəxsiyyəti alçaldan sözlərdən uzaq durması aiddir. Müəllim fikirlərini səlist çatdırmağı bacarmalıdır. Nitqi zamanı mimika və pantomimikalardan istifadə etməlidir. Səs tonu, ifadə etdiyi cümlələr tələbələri yormamalı, onların diqqətini cəlb etməlidir.

Pedaqoji ustalığa yiyələnmək müəllimdən bir çox keyfiyyət, bacarıq və qabiliyyətlər təşkil edir. Ali məktəb müəlliminin qabiliyyətlərini dörd qrupda ümumiləşdirmək olar.

1. Xüsusi qabiliyyətlər

- Müşahidəçilik qabiliyyəti;
- Nitq mədəniyyəti;
- Davranış adekvatlığı;
- Pedaqoji texnikanın uğurla tətbiqi;
- Şəraitdən çevik sürətdə çıxış yolu tapmaq;
- Əks əlaqə yaratmaq;
- Pedaqoji takt;
- Pedaqoji ustalıq;

2. Pedaqoji qabiliyyətlər

- Didaktik qabiliyyətlər;
- Konstruktiv qabiliyyətlər;
- Təşkilati qabiliyyətlər;
- Kommunikativ qabiliyyətlər;
- Qnostik qabiliyyətlər;
- Avtoritar qabiliyyətlər;
- Perseptiv qabiliyyətlər;
- Suqqestiv qabiliyyətlər;

3. Spesifik qabiliyyətlər

- İxtisas hazırlığı;
- Metodik hazırlıq;
- Pedaqoji və psixoloji biliklərə malik olmaq;
- Nəzəri (akademik) qabiliyyətlər;

4. Şəxsi qabiliyyətlər.

- Erudisiya
- Dözümlülük, səbr və təmkin
- İnsanların psixoloji vəziyyətini başa düşmək
- Həssaslıq
- Yaradıcı təfəkkür
- Məntiqi hafizə

- Diqqətin həcmi və bölüşdürülməsi.

Pedaqoji proses pedaqoji yaradıcılıq üçün əsas laboratoriyadır. Bu prosesdə pedaqoji qabiliyyətlərin rolu böyükdür. Gəlin onları nəzərdən keçirək:

Konstruktiv qabiliyyətlər. Tələbə şəxsiyyətini layihələşdirməyə imkan verir.Təhsil- tərbiyə prosesini modelləşdirməyə, bütün potensial imkanlardan səmərəli istifadə etməyə şərait yaradır. Əgər müəllimin dəqiq diaqnozu varsa, təhsil – tərbiyə fəaliyyətini məhsuldar təşkil edir. Gələcək fəaliyyətinin modelini qurur, özünün və tələbələrinin fəaliyyət növlərini layihələşdirir.

Didaktik qabiliyyətlər. Tələbələrə tədris materialını dəqiq öyrətmək,fənnə maraq oyatmaq, çətin olanı əlverişli təlim üsullarından istifadə edərək asanlaşdırmaq, mürəkkəb olanı sadələşdirmək, aydın olmayanı aydınlaşdırmaq aiddir. Bununla tələbələrdə fəal, sərbəst düşüncəni stimullaşdırmaq olur.

Qnostik qabiliyyətlər. Müəllim tədris etdiyi fənni tədris həcmində bilməməli, daima araşdırma aparmalı, öz üzərində işləməli, yeni biliklər öyrənməli, pedaqoji fəaliyyətini elmi innovasiyalar ilə zənginləşdirməli, tədqiqat işi aparmalıdır.

Perseptiv qabiliyyətlər. Tələbələrin keçici psixoloji vəziyyətini anlamaq qabiliyyəti. Tələbənin daxili aləminə varma qabiliyyəti.

Təşkilatçılıq qabiliyyətləri. Müəllim qrupun bütün üzvlərini dərsə cəlb etməli;dərsi düzgün təşkil etməli,düzgün planlaşdırmalı və vaxta düzgün nəzarət etməlidir. Təşkilatçılıq həmçinin tələbələrin fəaliyyətinə rəhbərlikdə, onların asudə vaxtlarını müasir dövrün tələblərinə uyğun qurmaq bacarığında, tələbələri ictimai işlərə cəlb etmək və vəzifə bölgüsü aparmaq, görülmüş işləri yekunlaşdıraraq təhlil etməkdə özünü göstərir.

Avtoritar qabiliyyətlər. Tələbələrə iradi – emosional təsir göstərməklə onların nüfuzunu qazanmaqdır. Bu qabiliyyət müəllimin qətiyyət, təkidlilik, dözüm, tələbkarlıq və s. kimi iradi keyfiyyətləri və tələbələrdə özünə inam, məsuliyyət hissi kimi şəxsi psixi xüsusiyyətlər ilə vəhdətdədir.

Kommunikativ qabiliyyət. Tələbə və iş kollektivi ilə ünsiyyətin yaradılmasıdır. Ünsiyyət zamanı müəllim tələbəyə yalnız informasiya vermir, eyni zamanda tələbəni birgə fəaliyyətə, elmi əməkdaşlığa cəlb edir. Pedaqoji prosesin gedişinin təhlili olur. Yol verilən səhvlər, həmçinin, arzuolunmaz nəticələrin səbəbləri aşkarlanır və qısa zamanda korrektə edilir.

Suqqestiv qabiliyyət. Tələbələrə emosional, təlqinedici təsir göstərə bilmək bacarığıdır.

Pedaqoji ustalığın əsas göstəricilərindən biridə pedaqoji texnikadır. Pedaqoji texnika iki qrup bacarıqları özündə birləşdirir.

1. Özünə sahib olmaq, emosional vəziyyəti idarə edə bilmək və ünsiyyət texnikası;
2. Didaktik, təşkilatçılıq bacarığına və qarşılıqlı təsirin əlaqə texnikasına malik olmaq.

Müəllim zahiri görkəminə, geyiminə, necə dayanmaq, stol arxasında necə oturmaq, necə qalxmaq, səsi necə idarə etmək, necə gülümsəmək və s. kimi mühüm detallara fikir verməlidir.

Beləliklə, məlum oldu ki, pedaqoji ustalığa malik müəllim olmaq üçün xüsusi istedada ehtiyac yoxdur. Pedaqoji ustalığa yiyələnmək çətin və uzun bir prosesdir. Bu təhsil – tərbiyə prosesində tələbələrlə qarşılıqlı ünsiyyətdə formalaşır və tərbiyə olunur. Burada müəllimdən fənnini, onun tədrisi metodikasını və psixologiyanı bilmək, tələbələri sevmək, əsl vətəndaş olmaq, möhkəm əqidə və ideyalılıqla seçilmək, rəhbərlik nüfuzu, tələbələri duya bilmək, tələbələrin hiss və həyəcanını, qəlbini hiss etmək, pedaqoji intuisiya, humanistlik, yaradıcılıq, dözümlülük, səbir və təmkin, təhlil etmə və nəticə çıxarmaq, pedaqoji məharətini daim inkişaf etdirmək, ədalətli

olmaq tələb olunur. Bu zaman peşəsini qəlbən sevən bütün müəllimlər pedaqoji ustalığa yiyələnərək, ustad müəllim ola bilər.

İstifadə olunmuş ədəbiyyat:

1. İlyasov M. Müəllimin pedaqoji ustalığı. Bakı: Elm və təhsil, 2013
2. Rüstəmov F., Dadaşova T. Ali məktəb pedaqogikası Bakı: Nurlan, 2007
3. Həmzəyev M. Pedaqoji Psixologiya. Bakı: Maarif, 1991

SÖZLÜ HALK YARATICILIĞININ ÇOCUK EDEBİYATI ÜZERİNDEKİ ETKİSİ

ELSA BABAYEVA

Azerbaycan, Azerbaycan Devlet Pedagoji Üniversitesi, Guba şubesi

Edebiyat https://orcidşorg/0009-0005-6933-0176

Özet

Sözlü halk yaratıcılığı Azerbaycan çocuk edebiyatının ana kaynaklarından biridir. Çocuk edebiyatı açısından Azerbaycan'ın sözlü halk yaratıcılığı-folkloru çok zengin bir manevi zenginliktir. Halk yaratıcılığının bilge, derin ve bilge felsefesi, tür çeşitliliğine bakılmaksızın destanlarda, şiir örneklerinde ve tüm eserlerde yüzyıllar boyunca etkisini sürdürmüştür. Böyle bir manevi zenginliğin çocuk edebiyatına etkisi yeri doldurulamaz ve tekrarlanamaz. Çağların süzgecinden geçerek günümüze kadar gelen gerçek halk bilgeliğinde bilgeliğin yanı sıra sadece çocuklara yönelik pek çok renkli örnek bulunmaktadır.

Bu eserler sanatsal boyalarla yüksek bir üslupla tasvir edildiği için hem tür hem de estetik açıdan çocukların ruhuna yakındır. Son derece çeşitli sözlü halk yaratıcılığı türlerinin varlığı: bir yandan tamamen çocuk masalları, diğer yandan bilmeceler, çocuk şarkıları, sayısız çocuk oyunu, diğer yandan bilmeceler çocuk edebiyatının yüksek sanatsal kaynaklarıdır. Sözlü halk yaratıcılığının şiirsel etkisiyle mutlu, sevimli, muzip, neşeli, çocukların minik kalplerini okşayan, onların duygularına dokunan şiirler yazmak da doğaldır.

Bu nedenle yazarların çoğu çocuk eserlerinde doğrudan sözlü halk yaratıcılığına değinmektedir. Bu tür eserlerde sözlü halk yaratıcılığının özelliği olan açıklık, akıcılık, tatlılık, iyilikseverlik, doğruluk, mücadele, hayırseverlik, kahramanlık gibi ahlaki niteliklerin halk deyimleri tarzında anlatılması dikkat çekmektedir. Bu da çocuğun konuşmasının, düşünmesinin ve hayal gücünün gelişmesine yol açar.

Akademisyen Bekir Nabyev, çocuk yazarlarımızın halk masallarından temalar alarak yeni masalları kendilerinin yazdığını yazıyor; Yüzyılların sınavından geçen masal türü, bir çocuğun kalbini ve zihnini etkilemek ve ona yol göstermek için yetenekli bir yazarın elinde çok gerekli bir edebi araçtır. Kıyıda durup denize bakarken ufkun ve suyun nerede buluştuğunu ve nerede ayrıldığını gözlemlemek imkansızdır, bu nedenle masallarda zengin yaşam malzemesinin ve yaratıcı fantezinin birbirine ne kadar kaynayıp karıştığını belirlemek bazen zordur. diğer. Araştırmacı, masal yazarlarının eserlerindeki büyüleyici olayların sadece çocukları eğlendirmek amacıyla tasarlanmadığını, onların okudukları, gördükleri ve duydukları şeylerin özünü derinlemesine anlamalarına yardımcı olacak araçlar olarak düşünüldüğünü yazıyor. Yazarlar, küçük çocukların bilgi düzeyine ve sanat zevkine uygun anlatım araçlarını ve görselleri bulup tanımlayarak, eserlerinde önemli eğitsel sonuçlar ve gerekli sosyal içeriği sağlamayı başarırlar.

Anahtar kelimeler: sözlü halk yaratıcılığı, çocuk şiirleri, halk masalları

QUZEY AZƏRBAYCANDA XRİSTİANLIĞIN TARİXİNƏ DAİR BƏZİ MƏLUMATLAR

Prof. Dr. HACI NURU OĞLU HƏSƏNOV[1]

Doç. Dr., RAMİL YÜZƏHMƏD OĞLU NİFTƏLİYEV[2]

Xülasə

Mötəbər qaynaqlardan əldə olunan məlumatlar sübut edir ki, XIX əsrin əvvəllərində də Gəncəsər alban kilsəsi öz müstəqilliyini qorumaq uğrunda mübarizəni davam etdirirdi. XVIII əsrin ikinci yarısında Gəncəsər kilsəsinin nüfuzu güclənməyə başladı. Gəncəsar patriarxının fəaliyyətinin nəticəsi idi ki, hətta Həştərxan yeparxiyası Üçkilsə yurisdiksiyasından çıxmışdı. Həştərxan yeparxiyasının Gəncəsər katolikosunun tabeliyini qəbul etməsi Üçkilsənin narazılığı ilə qarşılandı. Təşviş keçirən katolikos Simeon yepiskopların iclasını çağırmaqla bu məsələni müzakirə etmiş və arximandrit Davidi Peterburq sarayına göndərməyi qərara almışdı. Məhz, həmin vaxtdan Üçkilsənin Rusiya ilə ilk əlaqələri yaranmağa başladı: II Yekaterina Həstərxan yeparxiyasının Simeonun xahişi ilə Gəncəsər katolikosluğuna deyil, Üçkilsəyə birləşdirdi.

1836-cı il martın 11-də çar tərəfindən 10 fəsil və 141 maddədən ibarət "Rusiyada erməni-qriqoryan kilsəsinin işinin idarə olunması haqqında əsasnamə" təsdiq edildi. Qanunun 1830-cu ilin martında tərtib edilmiş əsasnamə layihəsi dəfələrlə müzakirə olunduqdan sonra nəhayət Üçkilsə patriarxının bəzi qeydləri nəzərə alınmaqla çar tərəfindən təsdiq edilmişdi. Əsasnamənin I fəsli erməni-qriqorian kilsəsinin ümumi hüquqları və üstünlükləri, II fəsli Üçkilsə Ali Patriarxı, III fəsli Üçkilsə erməni-qriqorian sinodu, IV fəsli erməni-qriqorian kilsələrinin yeparxiya rəisləri, V fəsli erməni-qriqorian konsistoriya və dini idarələri, VI fəsli monastırlar, VII fəsli bəyaz ruhanilər, VIII fəsli erməni-qriqorian kilsəsinin ruhani seminariyaları, IX fəsli erməni-qriqorian kilsəsinin mülkiyyətinin idarəsi və sonuncu, X fəsli erməni-qriqorian kilsəsinin ruhani və kilsə xidmətçilərinin gəlirləri və onların dul və yetimləri himayəsi haqqında idi.

Açar sözlər: Azərbaycan, alban, kilsə, Üçkilsə, qriqorian, monastır

Summary

Information obtained from reliable sources proves that even at the beginning of the 19th century, the Albanian church of Ganjasar continued to fight for its independence. In the second half of the 18th century, the influence of the Ganjasar church began to strengthen. As a result of the Ganjasar patriarch's activity, even the Eparchy of Astrakhan was removed from the jurisdiction of Uchkilsa. Accepting the subordination of the Catholicos of Ganjasar by the Eparchy of Astrakhan was met with the displeasure of the Uchkilsa. Alarmed, Catholicos Simeon discussed this issue by calling a meeting of bishops and decided to send Archimandrite David to the Petersburg palace. Precisely from that time, the first relations of Uchkilsa with Russia began to emerge: Catherine II, at the request of Simeon, merged Hastarkhan diocese with Uchkilsa, not Ganjasar Catholicos.

On March 11, 1836, the tsar approved the "Statute on the Management of the Work of the Armenian-Gregorian Church in Russia" consisting of 10 chapters and 141 articles. The draft statute of the law, drawn up in March 1830, was finally approved by the tsar, taking into account some remarks of the patriarch of the Three Churches, after many discussions. Chapter I of the Statute is the general rights and advantages of the Armenian-Gregorian Church, Chapter II the Supreme Patriarch of the Three Churches, Chapter III the Armenian-Gregorian Synod of the

Three Churches, Chapter IV the diocesan heads of the Armenian-Gregorian churches, Chapter V the Armenian-Gregorian consistory and religious offices, Chapter VI the monasteries, VII Chapter 10 was about white clergy, Chapter VIII was about spiritual seminaries of the Armenian-Gregorian Church, Chapter IX was about the management of the property of the Armenian-Gregorian Church, and lastly, Chapter X was about the income of the clergy and church servants of the Armenian-Gregorian Church and the protection of their widows and orphans.

Key words: Azerbaijan, Albanian, church, Uchkilsa, Gregorian, monastery

Giriş

Əvvəlki dövrlərdə olduğu kimi, XIX əsrin əvvəllərində də Gəncəsər kilsəsi öz müstəqilliyini qorumaq uğrunda mübarizəni davam etdirirdi. XVIII əsrin ikinci yarısında Gəncəsər kilsəsinin nüfuzu güclənməyə başladı. Gəncəsar patriarxının fəaliyyətinin nəticəsi idi ki, hətta Həştərxan yeparxiyası Üçkilsə yurisdiksiyasından çıxmışdı. Həştərxan yeparxiyasının Gəncəsər katolikosunun tabeliyini qəbul etməsi Üçkilsənin narazılığı ilə qarşılandı. Təşviş keçirən katolikos Simeon (1763-1780-cu illərdə taxtda olmuşdur) yepiskopların iclasını çağırmaqla bu məsələni müzakirə etmiş və arximandrit Davidi Peterburq sarayına göndərməyi qərara almışdı. Məhz, həmin vaxtdan Üçkilsənin Rusiya ilə ilk əlaqələri yaranmağa başladı: II Yekaterina Həstərxan yeparxiyasının Simeonun xahişi ilə Gəncəsər katolikosluğuna deyil, Üçkilsəyə birləşdirdi [3, s. 104].

XVIII əsrin sonlarında Üçkilsə ermənilərinə nisbətən Qarabağ qriqorian albanların Rusiyaya münasibətdə təsirli üstünlüyü hiss olunacaq dərəcədə yuxarı olması, hətta Üçkilsə patriarxlığına alban əsilli arxiyepiskopun keçməsi reallığı da yaratmışdı. G.A. Ezovun "Üçkilsənin rus hökuməti ilə münasibətləri" adlı broşurasına istinad edən V.L. Velişko yazırdı: "XVIII əsrin sonlarında Üçkilsə katolikosunun ümumxalq seçkisi prinsipinin əksinə olaraq, bu kafedraya yalnız Üçkilsə ruhaniləri tərəfindən seçilmiş arxiyepiskop Qukas (Lukas) oturdu. Konstantinopol erməni patriarxı Zaxariya protest etdi. Qukas ona mehriban məktub yazdı, bu zaman isə Konstantinopol erməni icması türk hökumətindən Zaxariyanın vəzifəsindən götürülməsini xahiş etdi. Cənab Ezovun göylərədək mədh etdiyi Qukasın tələskənliyi onunla izah edilir ki, Üçkilsə taxtına Aqvan (Şuşa şəhəri yaxılığında Qanzasar monastırı) patriarxı İsraelin seçilməsindən yaxa qurtarmaq lazım gəlmişdi. Söhbət müstəqilləşən Aqvan patriarxlığına zərbə vurmaq və teokratik mütləqiyyət yaratmaqdan gedirdi." [9, s. 79].

Əsas hissə. XVIII əsrin 80-ci illərində Rusiyanın şərq siyasətinin tərkib hissəsi olaraq, 1787-ci ildə Cənubi Qafqazda Albaniya dövlətinin yaradılması ilə bağlı xüsusi layihə hazırlanmışdı. G.A. Potyomkinin hazırladığı həmin layihədə İrandakı qarışıqlıqdan istifadə edərək Bakı, Dərbənd, digər torpaqları tutmaqla, Gilanı birləşdirməklə ələ keçirilmiş torpaqları Albaniya adlandırmaq göstərilirdi [6, s. 46].

II Yekaterinanın ölümündən sonra imperator olan Rusiya imperatoru I Pavel qoşunlarını Cənubi Qafqazdan geri çağırması qriqorian albanları çətin duruma saldı. Həm də I Pavelin 1799-cu ildə Qarabağ məliklərinin adına imzaladığı fərman [5, s. 457] onlar üçün gözlənilməz oldu. Fərmanda imperator Qarabağ məlikləri üçün ayrıca dövlətin yaradılması deyil, "Rusiyanın tabeliyindəki Kartli-Kaxetiyanın Qazax torpaqlarına köçməsini" tövsiyə edirdi.

Rusiya Cənubi Qafqazda albanlardan və gürcülərdən yararlanaraq "xristianları müsəlmanların zülmündən xilas etmək" şüarından çıxış etməklə buraya soxulmaq üçün bəhanə əldə etdiyi kimi, İstanbulu imperiyanın mərkəzi olmasını arzulayan Rusiya çarları Osmanlı imperiyasına da soxulmaq üçün burada yaşayan ermənilərdən istifadə etməyə başladı. Bununla da imperiyanın bu yönümdəki fəaliyyəti bəhrəsini verməyə başlamışdı. Belə ki, Rusiyanın

İstanbuldakı elçisi Tomar 1801-ci ildə mərhəmət hissilə Üçkilsəsinin başçısı Qukas Rusiyanın köməyi ilə öz millətini bərpa etməyə çalışdığını qeyd edirdi [9, s. 80].

Cənubi Qafqazda baş verən siyasi hadisələr Gəncənin işğal edilməsi, Qarabağ, Şəki və Şamaxı xanları ilə "Kürəkçay" müqavilələrinin bağlanması nəticəsində Alban kilsəsinin və məliklərin müstəqil qüvvə kimi siyasi rolunu azaltdı. İrəvan xanlığına qarşı yürüşlər isə Üçkilsəyə diqqəti yenidən artırdı. Bu yürüşlərin uğursuz olması gələcəkdə İrəvan ermənilərindən daha geniş istifadə edilməsini zəruri etməyə başladı. Buna görə də Üçkilsə ətrafında siyasət davam etdirildi. İndi Rusiyanı Cənubi Qafqazın qriqorian alban əhalisini deyil ermənileri maraqlandırırdı. Belə vəziyyət Qarabağ albanları üzərində ermənilərin təsirinin daha da artmasına şərait yaradırdı. XIX əsrin əvvəllərinədək Üçkilsə katolikosu ilə rəqabət aparan və bəzən də tamamilə ondan asılı olmayan ayrıca mövcud olan Aqvan patriarxlığı xarici katolikosun nəfinə əvvəlcə sıxışdırıldı, sonra isə Qarabağ və Gəncənin birləşdirilməsi ilə xəlvəti ləğv edildi, eskomasiya (məharətlə mənimsəmək və ya xəlvəti dəyişmək) olundu [9, s. 79].

Alban taxtları yeni yaranmış bu situasiyanı kifayət qədər qiymətləndirə bilmədilər və əvvəlki kimi hərəkət etməkdə davam edirdilər. Cənubi Qafqazda Gürcüstan dövlətini yaratmağa çalışan A.P. Sisianov tərəfindən Yelizavetpol xristian icmasına rəhbərliyini Tiflis apxiyepiskopuğuna verilməsi [29, s. 672] patriarx İsrailin narazılığına səbəb olmuşdu. Həm də erməni katolikoslarının xeyrinə sıxışdırılan Alban patriarxı İsrail 1806-cı il 19 avqust tarixli məktubunda Qudoviçə yazırdı: "Ağvan vilayəti (Qarabağ, Yelizavetpol, Şəki və Şirvan) onun eparxiyasına daxildir və həmişə tamamilə onun xüsusi səlahiyyətində olmuşdur. Amar patriarxlığından asılı olan keçmiş Ararat patriarxlığının ona heç bir aidiyyəti yoxdur. Qaydalara görə Yelizavetpol (xristian) icmasının xahişi ilə indi də onların yanındayam və 40 ildən çoxdur ki, onların monasrları və eparxiyalarına layiqincə patriarxlıq etmişəm. Lakin indi rəhbərliyin əmrinə əsasən guya onlar (Yelizavetpol xristian icması nəzərdə tutulur) Sisianov tərəfindən Tiflis apxiyepiskopu İoanın idarəçiliyinə verilmişdir. Ona görə də xahiş edirəm ki, həmin əraziyə rəhbərliyi mənə qaytarasınız" [20, s. 79-80].

Qarabağ patriarxı İsrail onun xahişi yerə salındığı üçün [22, s. 388] ruslara qarşı üsyan etmişdi. O, Yelizavetpol albanlarına vergi yığanlara qarşı çıxmağı tapşırmışdı. Belə ki, onun əmrinə əsasən 500 yüzə yaxın yerli alban vergi yığmağa göndərilən yepiskop Minas daşa tutulmuşdu. Buna görə İsrail Yelizavetpoldan qovulmuşdu və geri qayıtmağa icazə verilmirdi [25, s. 80-81].

Patriarx İsrailin ölümündən sonra Gəncəsərin Üçkilsəyə birləşdirmək xahişi ilə Üçkilsə apxiyepiskopu İoannes Qudoviçə müraciət etmişdi. Onun təqdim etdiyi məktubunda yazılırdı: " ... titulyar Aqvan patriarxı İsrailin ölümündən sonra, bizim dünyasını dəyişmiş Danilin arzusu nəzərə alınaraq, diyarda yaşayan bütün ermənileri mənim tabeliyimdə birləşdirməyi imperatordan rica etməyinizi xahiş edirəm" [8, s. 81].

İsrailin ölümünün xəbərini alan Sarqis qardaşı vardapet Bağdasarı Gəncəsərə yola salır. Bağdasar qısa müddətdə Gəncəsər monastırını qaydaya saldı. İbrahimxəlil xanın hədələrindən ehtiyat edərək ruslar tərəfindən işğal olunmuş ərazidəki Axpat monastırında yeparxiya yepiskonu olan Sarkiz Həsən-Calalyan burada alçaldılmışdı. Bununla bağlı Qudoviçə yazdığı məktubunda məlumat verirdi [17, s. 401-402]. Qudoviçdən mənfi cavab alan arxiyepiskop Sarkiz ruslara qarşı itaətsizlik göstərməyə başlamışdı [18, s. 425-426]. Həm də Yelizavetpol "ermənileri" alçaldılırdı. Belə ki, Yelizavetpolun "erməni əhalisi"nin kovxa Bədəl Apryumovun vəzifəsinin əlindən alınması haqqındakı şikayətinə [7, s. 445-446] cavab olaraq Qudoviç onu çalışqan xidmətinə görə gümüş medalla təltif etmişdi [19, s. 444-445].

Axpat monastırında 12 il qalan katolikos Sarkis Həsən-Calalyan 1812-ci ildə Gəncəsərə qayıdaraq Alban katolikos taxtını ələ keçirə bildi. Qarabağa qayıdandan sonra Sarkis dərhal özünü Alban katolikosu adlandlrdı və katolikosluq huquqlarından istifadə etməyə başladı.

Katolikos Sarkis Gəncəsərə qayıdandan sonra onunla Üçkilsə arasında yeni bir mübahisə baş verdi. Bunun səbəbi katolikos Sarkis Gürcüstanda olan zaman Üçkilsəyə gedərək, kömək istədiyi bildirəndə katolikos möhüründən əl çəkəcəyi təqdirdə köməyin göstəriləcəyi cavabını almışdı. Məcburi şəkildə buna gedən Sarkis Üçkilsənin şərti ilə razılaşmalı olmuşdu. Bundan sonra o, Axpat monastırında apxiyepiskop təyin edilmişdi [28, s. 188]. Sarkiz həmçinin P.D. Sisianova da müraciət edərək onun Axpat monastırının arxiyepiskopu kimi təsdiq etməyini xahiş etmişdi [26, s. 285]. Üçkilsənin şərtləri ilə razılaşmasına baxmayaraq arxiyepiskop Sarkisin Tiflisdəli Üçkilsə nümayəndəsi ilə ziddiyətləri tamamilə aradan qaldırılmadı.

Alban katolikosluğunun müstəqilliyini hər şeydən yüksək tutan Sarkis Üçkilsəyə verdiyi vədi pozmalı oldu. "Üçkilsədən asılı olmadan yaşamağa öyrəşmiş bu xalqın özünün əsrlər boyu xüsusi dini idarəsi olan Alban katolikosluğu olmuşdur" fikrinin müəllifi olan Raffi Sarkisin bu katolikosluğun nümayəndələrindən biri olduğunu yazırdı [28, 156 **].**

Sarkis Qarabağa qayıdan kimi bir çox xanlara məktublar yazaraq, hətta yanına gedərək onların razılığı ilə özünə Qarabağ patriarxı rütbəsini almışdı. Mehdi qulu xan hətta Üçkilsənin Qaradağda təsirini zəiflətmək üçün özünün ilə 1227-ci ilin şəvval ayında (1812-ci il noyabr-oktyabr) imzaladığı xüsusi fərmanı ilə onunun Gəncəsər katolikosu hüququnu təsdiq etmişdi [11, s. 81].

Gülüstan müqaviləsinin bağlanması erməni katolikoslarının fəaliyyətini daha da artırmış oldu. Mehdi qulu xan tərəfindən Sarkizin Gəncəsər patriarxı kimi tanıması Yefremi hiddətləndirmişdi. O, hətta Rtişşevi katolikos Sarkizə qarşı tədbirlərin görülməsinə təhrik edə bilmişdi. Üçkilsə patriarxı Yefremdən şikayət alan Rtişşev özünün Orbelianiyə ünvanladığı məktubunda bu hadisəyə münasibətini bildirirdi. O, yazırdı: "Əlahəzrət imperatorun qanununa [Burada 1809-cu il 30 oktyabr qanunu nəzərdə tutulur (Bax: 15, s. 1178-1179)] məhəl qoyulmadan patriarx adını almaq həvəsinə düşən arxiyepiskop Sarkis özbaşına Qarabağda ona həvalə edilən yeparxiyada arxiyepiskop adına layiq olmayan hiyləyə əl ataraq, cidd-cəhd və xahiş dolu məktublarla həm də bir sıra xanları öz tərəfinə çəkməklə özünə Qarabağ patriarxı rütbəsini təsdiqləmişdir. Belə ki, əlahəzrət imperator Rusiya imperiyası hüdudlarında yaşayan bütün erməni xalqının vahid patriarxı kimi Üçkilsə monastırında taxtı olan müqəddəs Yefrem layiq görmüş və təsdiq etmişdir. Bunun haqqında çarın fərmanı ... sizə də təqdim edilmişdir. Sizə tezliklə, apxiyepiskop Sarkisi yanına çağıraraq, ona həmin fərmanın gücünü təlqin etməyi və özünü özbaşına Qarabağ patriarxı adlandırmağı ağlına gətirməyi belə qadağan etməyi, bundan sonra ona həvalə edilən dindarlar evini sakit və vicdanla idarə edəcəyi və əks təqdirdə Rusiya qanunları ilə ciddi cəzalandırılacağını bildirməyi tapşırıram." [24, s. 437].

Üçkilsə patriarxı Yefrem özünün "Qarabağ erməni ruhanilərinə və xalqına müraciəti"ndə yazırdı:" arxiyepiskop Sarkis göstəriş olmadan özbaşına yerli diyara getmiş, Ümumrusiya İmperatorunun Şahanə hökmünün və mənim yüksək patriarx hakimiyyətimin əksinə olaraq, patriarx kimi qırmızı möhürdən istifadə etmişdir. Lakin nə zaman ki, alihəzrət, qalib baş komandan general Nikolay Fyodoroviç Rtişşev Tiflisə gəldi, Əlahəzrətin Şahanə hökmünə uyğun olaraq, ona bilmərrə patriarx adlanmağı qadağan etdi və qərara aldı ki, o, Qanzasar monastırının yeparxial arxiyepiskopu adlanmalıdır, knyaz Dmitri Orbeliani tərəfindən ondan bu barədə iltizam alındı. Lakin o, Əlahəzrətin belə şahanə hökmünə qarşı və müqəddəs Eçmiədzin taxtına və bizim patriarx hakimiyyətimizə qarşı çıxmağa, yeparxiya üzrə özbaşına gəzib və müqəddəs Miro paylamağa və kilsələrdə nevirak gəlirlərini toplamağa cəsarət etmişdir. Bu səbəblər üzündən arxiyepiskop Sərkis öz iradəsi ilə lənətlənmə altına düşüb ki, bu işdə sizin də iştirakınızı arzu etmir, bununla elan edirəm ki, o, bundan sonra öz dərəcəsindən uzaqlaşdırılır." [14, s. 443].

Beləliklə, Üçkilsə patriarxı Yefrem və arxiyepiskop Nersesin birgə fəaliyyəti nəticəsində 1815-ci ilin dekabrın 18-də "Qriqorisdən başlanan Alban" katolikosluğu rəsmi şəkildə ləğv edildi [28, s. 188]. Sarkis isə Gəncəsər arxiyepiskopu və ya mitropoliti təyin edildi.

1822-ci ildə Qarabağ xanlığının, bununla eyni zamanda məlikliklərin ləğv edilməsi ilə bu məsələnin tamamilə aradan qaldırılması ilə nəticələndi. Alban katolikoslarının hüquqları onların Qafqaza gətirdikləri Rusiya hakim dairələrinin əli ilə erməni katolikosu və arxiyepiskop tərəfindən ləğv edildi. Bununla da Üçkilsə patriarxlığının xristian albanlarının ermənilərdirilməsi prosesini daha da gücləndirmiş oldu.

1823-cü ildə Şuşa şəhərində Bazel Yevangel cəmiyyəti fəaliyyətinə başladı. Cəmiyyət hökumətin icazəsi ilə Şuşada özünün məktəbini açdı. Cəmiyyətin fəaliyyətinə müsəlmanların protestantlığı qəbul etmələri daxil idi. Lakin yerli "ermənilər" protestantlığı qəbul etməklə böyük həvəslə Bazel məktəbinə gəlməyə üstünlük verirdilər. Qriqoryanlığa etiqad etdiyinə görə onu erməni hesab etdiyi üçün lüteranlığı qəbul etmək icazəsini istəyən alban-xristianın dinini dəyişməyə israr etməsi ilə bağlı rus Sinodunun sənədi maraq doğurur [13]. Qarabağ yeparxiyasının arxiyepiskopu Bağdasar Şuşa "ermənilərinin" mütəmadi olaraq lüteranlığın qəbul etdiyi haqqında məlumat verirdi [27, s. 291-293]. Bazel cəmiyyətinin fəaliyyətinin gələcəkdə gözlənilməz nəticələr verəcəyindən ehtiyat edən hökumət 1835-ci ildə Şuşadakı Bazel missionerləri cəmiyyətinə "erməni" uşaqlarının onların məktəblərinə qəbuluna qadağa qoydu [16, s. 767-769].

Gəncəsər arxiyepiskopu Sarkis nəhayət, 1823-cü ildə Rusiyaya sədaqətli olacağı haqqında məktub yazaraq A.P. Yermolova bildirir [23, s. 125]. İkinci Rusiya-Qacar müharibəsi başa çatan kimi arxiyepiskop Sarkis satqınlıqda ittiham olunaraq Tiflis həbsxanasına salınır. Onu Abbas Mirzə tərəfindən əsir götürülən "ermənilərin" bir hissəsinin azad etdiyinə görə səkkiz aydan sonra həbsdən buraxılır [21, **s.** 251-252]. Lakin həbsdə olan zaman ona verilən işgəncələr onun sağlamlığını əlindən almışdı. Tiflisdən qayıdandan bir müddət sonra o, dünyasını dəyişir.

Arxiyepiskop Sarkisin ölümündən iki il sonra 1830-cu ildə Qarabağ məliklərinin xahişi nəzərə alınaraq Üçkilsə tərəfindən yepiskop Sarkisin qardaşı oğlu yepiskop Bağdasar onun yerinə təyin edildi [28, s. 190]

1836-cı il martın 11-də çar tərəfindən 10 fəsil və 141 maddədən ibarət "Rusiyada erməni-qriqoryan kilsəsinin işinin idarə olunması haqqında əsasnamə" təsdiq edildi [4, 194-209]. Qanunun 1830-cu ilin martında tərtib edilmiş əsasnamə layihəsi dəfələrlə müzakirə olunduqdan sonra nəhayət Üçkilsə patriarxının bəzi qeydləri nəzərə alınmaqla çar tərəfindən təsdiq edilmişdi. Əsasnamənin I fəsli erməni-qriqorian kilsəsinin ümumi hüquqları və üstünlükləri (1-9), II fəsli Üçkilsə Ali Patriarxı (10-32), III fəsli Üçkilsə erməni-qriqorian sinodu (33-54), IV fəsli erməni-qriqorian kilsələrinin yeparxiya rəisləri (55-71), V fəsli erməni-qriqorian konsistoriya və dini idarələri (72-82), VI fəsli monastırlar (83-101), VII fəsli bəyaz ruhanilər (102-111), VIII fəsli erməni-qriqorian kilsəsinin ruhani seminariyaları (112-116), IX fəsli erməni-qriqorian kilsəsinin mülkiyyətinin idarəsi (117-126) və sonuncu, X fəsli erməni-qriqorian kilsəsinin ruhani və kilsə xidmətçilərinin gəlirləri və onların dul və yetimləri himayəsi (127-141) haqqındadır.

Əsasnamənin "Erməni-qriqorian kilsəsinin yeparxiya rəisləri haqqında" adlandırılan fəsildə erməni-qriqorian kilsəsi həmin etiqadın arxiyepiskopları tərəfindən idarə olunan yeparxiyalara bölündüyü göstərilir (55). Rusiya hüdudlarında erməni-qriqorian kilsəsinin altı yeparxiyasının yerləşdiyi bildirilirdi. Bunun dördü İrəvan, Qarabağ, Şirvan və Gürcüstan olmaqla Cənubi Qafqazın payına düşürdü.

Əsasnaməyə görə, Qarabağ yeparxiyası Qarabağın özündəki, Şəki və Talış əyalətlərindəki erməni-qriqorian kilsələrini əhatə edirdi. Tatev mitropoliyası Qarabağdan ayıraraq patrarxın özünün rəisi olduğu İrəvan yeparxiyasına verilmişdi. Beləkillə, erməni-qriqorian kilsəsi elan olunan Azərbaycan ərazisindəki bütün Alban kilsələri onun yeparxiyalarına daxil edildi.

1836-cı il Əsasnaməsi ilə erməni-qriqorian kilsəsi nəinki ənənəvi mövqeyini saxladı, eyni zamanda Alban kilsəsinin ləğvi ilə onun irsinin və mülkiyyətinin ona verilməsi ilə vəziyyəti daha da yaxşılaşdırdı, real olaraq hakim rus pravoslav kilsəsinə yaxın bir səviyyəsini təsbit etmiş oldu. Əsasnamənin qəbulundan sonra real vəziyyətin ona uyğunlaşdırılmış şəkildə həyata keçirilməsinə başlandı [2].

Üçkilsədə meydana gələn erməni kilsə tarixi ədəbiyyatından fərqli olaraq, keçmiş İstanbul patriarxı Malaxiya Ormanian fransız dilindən rus dilinə tərcümə edilmiş kitabında (1913) Alban kilsəsi haqqında yazır ki, Xəzər Albaniyası taxtı XIX əsrin əvvəllərində ləğv olunmuşdur, yəni o, Alban kilsəsinin ləğvini etiraf edir [2].

1836-cı ildə Şuşada Qarabağ yeparxiyası təsis edildi. Bağdasar Üçkilsəyə çağırılaraq sədaqət andı içdirdikdən sonra Qarabağ yeparxiyası konsisteriya mitropoliti təyin edildi. Bir müddət sonra Qarabağ yeparxiyası rəisi təyin olunan Bağdasar 1852-cü ilədək həmin işi icra etmişdir [10, s. 544].

Nəticə. Qarabağ yerarxiyası ruhani idarəsi Şuşa şəhərində yerləşdirildiyinə görə Qarabağ katolikosluq dini-mədəni mərkəzləri fəaliyyətlərini dayandırmış oldu. Belə vəziyyət Gəncəsər monastırının baxımsızlığına gətirib çıxardı. XIX əsrin sonlarında artıq Qarabağın digər monastırlarında olduğu kimi, Gəncəsər monastırında da monastır arxivi və kitabxanası müəmmalı şəkildə yoxa çıxmışdı. “ ... Bu ecazkar monastır mənəvi və maddi cəhətdən məhv edilmişdir, daşlar tədricən tökülmüş və dağılmışdır, dam örtüyü zədələnmişdir, hasar ayrı-ayrı yerlərdə çökmüşdür və layiqli qapıları qalmamışdır, çoxlu sayda qiymətli əlyazmalar talan edilmişdir, gördüyümüz kimi qalan əlyazmalar nəm və laqeydliyin qurbanı olmuşdur, savadlı insanların, məktəblərin, rahibələrin və hətta sadə oxucuların yoxluğu ucbatından monastırda aylardır ki, heç bir xidmət göstərilmir” [12, s. 600].

XIX əsrin ikinci yarısında Qarabağda tikilən kilsələrin erməni Qriqorian kilsələri kimi qotik üslubda deyil, qədim alban kilsələri memarlığı üslubunda tikilməsi [1, s. 245] yerli qriqorian albanların itaətsizliyinin nəticəsi kimi qiymətləndirmək olar.

Ədəbiyyat

1. Qarağnamələr. III kitab. – Bakı: Şərq-Qərb, 2006. – 248 s.
2. Şükürov Ş. Azərbaycanda Alban kilsəsinin ləğvindən 180 il ötür // https://apa.az/az/xeber/sosial-xeberler/xeber_azerbaycanda_alban_kilsesinin_legvinden__-417927
3. Верт П. Глава церкви, подданный императора: Армянский католикос на перекрестке внутренней и внешней политики империи, 1828-1914 // Ab İmperio, №3, 2006. – С. 99-138
4. Высочайше утвержденное положение о управлении делами Армяно-Грегорианской Церкви в Росии // Полное собрание законов Российской Империи. Собрание Второе. Том XI. Отделение 1. 1836 г. – СПб.: в типографии II отделения собственной е.и.в. канцелярии, 1837. Ст. 8970
5. Грамота императора Павла владетельным Карабахским меликам // Русский архив, 1903 г., № 9-12
6. Дневник А.В. Храповицского 1792-1797. – СПб.: Издание А.Ф. Базунова, 1874. – 610 с.

7. Жалоба елисаветпольских жителей армян И. В. Гудовичу на кевха Бадала с просьбой упразднить его должность // Присоединение восточной Армении к России. Сборник документов. Т. I. (1801-1813). Док. 392
8. Записка Армянского архиепископа Иоанесса, поданная гр. Гудовичу // Акты, собранные Кавказской Археографической комиссией. Т. 3. Док. 152
9. Кавказ. Русское дело и междуплеменные вопросы. Полное собрание публицистических сочинений В.Л. Величко. Том I. – С.-Петербург: Типография Артели Печатного Дела, 1904. – 216 с.
10. Карабахская епархия // Кавказский календарь на 1853 год. – Тифлис: Печатано в типографии канцелярии наместника Кавказского, 1852
11. Магалян А.В. Армянский княжеский род Асан-Джалалянов в XVII–XIX веках // Кавказский сборник. - Москва: Аспект Пресс, 2017. – С. 74-90
12. Мамедова Ф. Кавказская Албания и албаны. – Баку: ЦИКА, 2005. – 798 с.
13. Мамедова Ф. Об исторической географии Кавказской Албании, Армении и албанском этносе // https://udi.az/articles/0052.html
14. Обвещение патриарха Ефрема всему Карабагскому армянскому духовенству и народу, от 18-го декабря 1815 года. - Эчмиадзин // Акты, собранные Кавказской археографической комиссией. В 12-ти томах. Т. V. – Тифлис: Типография главного управления наместника кавказского. – 1873. – 1170 с. Док.552
15. О имении сему патриарху в своем ведомстве по духовным и церковным делам армян, в Российской империи находящихся, и об избрании для управлении оными архиепископа // Полное собрание законов Российской империи с 1649 года. Т. XXX. 1808-1809. – СПб.: печатано в типографии II отделения собственной его императорского величества канцелярии, 1830. Ст. 23873
16. О мерах к устройству шотландский колоний у Кавказских гор // Полное собрание законов Российской империи. Собрание второе, т. X. Отделение первое. 1835. – СПб.: в типографии II отделения собственной е.и.в. канцелярии, 1836. Ст. 8 271
17. Отношение И. В. Гудовича ахпатскому архиепископу Саркису о беспрекословном подчинении его архиепископу Грузии — Иоаннесу // Присоединение восточной Армении к России. Сборник документов. Т. I. (1801-1813). Док. 343
18. Отношение И. В. Гудовича архиепископу Саркису о даче отчета об употреблении церковных сборов // Присоединение восточной Армении к России. Сборник документов. Т. I. (1801-1813). Док. 375
19. Отношение И. В. Гудовича елисаветпольскому жителю Бадал кевхе Апрюмову о награждении его серебряной саблей за услуги, оказанные русским // Присоединение восточной Армении к России. Сборник документов. Т. I. (1801-1813). Док. № 393
20. Письмо Агванского патриарха Израиля к гр. Гудовичу, от 19-го августа 1805 года // Акты собранные Кавказской Археографической комиссией. Т. 3. Док. 149
21. Письмо архиеп. Нерсеса к ген. Паскевичу, от 14-го июня 1827 года, №89 // Акты, собранные Кавказской археографической комиссией. В 12-ти томах. Т. VII. – Тифлис: Типография Главного Управления Наместника Кавказского. – 1878. – 1011 с. Док. 204
22. Письмо И. В. Гудовича архиепископу Исраелу о невозможности восстановить его епархиальным начальником в Елисаветполе // Присоединение восточной Армении к России. Сборник документов. Т. I. (1801-1813). Док. 323
23. Письмо митрополита Саркиса Хасан-Джалаляна А.П. Ермолову о приверженности к России // Присоединение восточной Армении к России. Сборник документов. Т. II. (1814-1830). Ереван. АН АрмССР. 1978. Док. № 89

24. Предложение ген. Ртищева ген.-л. кн. Орбелиани, от 19-го ноября 1813 года, № 680 // Акты, собранные Кавказской археографической комиссией. В 12-ти томах. Т. V. – Тифлис: Типография главного управления наместника кавказского. – 1873. – 1170 с. Док.518
25. Предписание гр. Гудовича ген.-м. Небольсему, от 11-го ноября 1807 года, №603 // Акты, собранные Кавказской Археографической комиссией. Т. 3. Док. 151
26. Прошение Ахпатского архиепископа Саркиса П. Д. Цицианову об утверждении его в правах // Присоединение восточной Армении к России. Сборник документов. Т. I. (1801-1813). Док. 204
27. Рапорт ген.-адъют. Стрекалова, от 4-го сентября 1830 года, №490 // Акты, собранные Кавказской Археографической комиссией. Т. 7. Док. 237
28. Раффи. Меликства Хамсы.– 254 с.https://archive.org/details/B-001-037-991-ALL
29. Шопен И. Исторический памятник состояния Армянской области в эпохи его присоединения к Российской империи. СПб., 1852

THE MAIN ISSUES OF TEACHING IN THE "SOCIAL WORK" SPECIALTY
AZƏRBAYCANDA "SOSİAL İŞ" İXTİSASI ÜZRƏ KADR HAZIRLIĞININ BƏZİ MƏSƏLƏLƏRİ

KAMAL SƏRVƏR OĞLU KAMALOV

Azərbaycan Dövlət Pedaqoji Universiteti Quba filialının "Hunanitar fənlər" kafedrasının baş müəllimi (Quba şəhəri, Lütfi-zadə küçəsi 4)

Summary

Solving social problems and improving people's well-being in our republic, which gained independence at the end of the last century, were among the main conditions determining the future development of Azerbaijan. For this, first of all, there was a great need for new and skilled specialists who could deal with those problems. The initiation of personnel training in the field of social work in higher schools was intended to solve such problems. Therefore, first of all, special attention should be paid to the organization of teaching in higher schools where these specialists are trained. Although some work has been done in this field in the past period, we cannot consider the experience gained as satisfactory.

The article also touches upon such necessary issues and gives recommendations on solving the still existing difficulties, both theoretically and practically.

Key words: education, management, method, problem, socialization, population, textbook, social worker, modern

XX əsrin sonlarında müstəqillik əldə edən Azərbaycanın qarşısında duran başlıca məsələlərdən biri də ölkə əhalisinin sosial rifah halını yaxşılaşdırmaq, sosial müdafiəyə ehtiyacı olan əhali qruplarının ehtiyaclarını diqqətdə saxlamaq, ümumilikdə insanların sosial problemlərinin həlli istiqamətində təcili, həm də konkret tədbirlər görməkdən ibarət idi. Bu isə heç də asan deyildi. Bir tərəfdən bu problemləri həll edəcək idarəetmə strukturunun milli maraqlara uyğun formalaşmaması, bir tərəfdən yeni idarəçilik metodlarına cavab verə biləcək yerli kadrların olmaması, digər tərəfdən isə yaxın gələcəkdə bu istiqamətdə çalışacaq və nəhayət, müasir tələblərə cavab verə biləcək kadr hazırlığının olmaması problemləri birə-beş artırırdı. Bunlar isə digər sahələrdə olduğu kimi, əhaliyə sosial xidmət istiqamətində daha açıq-aydın hiss olunurdu. Açıq etiraf etmək lazımdır ki, əksər respublikalardan fərqli olaraq, Azərbaycanda sosial iş sahəsi üzrə kadr hazırlığı prosesi ləngiyirdi. Nəhayət, 2005-ci ildə respublikamızda ilk dəfə Bakı Dövlət Universitetində, özü də yalnız magistratura pilləsində sosial iş ixtisası üzrə kadr hazırlığına başlanıldı (2).

Açar sözlər: təhsil, idarəetmə, metod, problem, sosiallaşma, əhali, dərslik, sosial işçi, müasir

Etiraf edək ki, sosial iş ixtisası üzrə kadr hazırlığı hər bir dövrün real və zəruri məsələsi olmalıdır. Keçmiş SSRİ məkanında bu istiqamətdə kadr hazırlığına o qədər ciddi yanaşılmayıb. Elə bunun nəticəsidir ki, həmin sahədə işləyənlər də əvvəllər müxtəlif xidmət sahələrində çalışanlar və bəzən sosial peşə ilə heç də bağlılığı olmayan insanlar olub. Məhz yeni şəraitə uyğun kadr hazırlığı zamanı da məhz bu amil əsas götürülmüşdü. Amma ölkədə nəinki sosial işçilərin vəzifələri və sosial xidmətlərin funksiyaları, heç bu sahə üzrə kadr hazırlığının aparıldığı haqda yetərincə məlumat yox idi. Ali məktəblərə qəbul imtahanlarının nəticələrinə

əsasən bu ixtisaslara qəbul olunanların sabah taleləri necə olacağı elə onların özü üçün də qaranlıq qalmışdı. Eyni ilə bu hal 1991-ci ildə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunun sosiologiya ixtisasına qəbul olunan və gələcəkdə hansı sahədə çalışacağı haqda məlumatı belə olmayan gənclərin üzləşdiyi analoji vəziyyəti xatırladırdı (6).

Heç kimə sirr deyil ki, ali təhsil müəssisələri həmin dövrdə heç də az problemlərlə üz-üzə qalmadılar. Cəmiyyətin bu haqda məlumatsızlığl elə ali məktəbdə dərs deyən müəllimlərdən də yan keçmədi. Gələcək sosial işçiləri yetişdirəcək, ölkəyə insanların sosial müdafiə sahəsindəki problemlərini müəyyənləşdirəcək və aradan qaldıra biləcək kadrların hazırlanması işi bəzən elə bu sahədən az-çox xəbəri olan pedaqoqlara tapşırıldı. Zaman keçdikcə, həmin təsadüfi pedaqoqları sosioloqlar, psixoloqlar, daha təcrübəli sosial işçilər əvəz etdikcə, bu sahədəki boşluqlar aradan qaldırıldı. Amma elmi-metodiki cəhətdən mövcud vəziyyəti qənaətbəxş hesab etmək olardımı? Dərslik və dərs vəsaitlərinin olmaması, fənn proqramlarının ölkə reallıqlarının nəzərə almadan hazırlanması zamanı bəzən milli maraqlar və xüsusiyyətlər nəzərə alınmamışdı.

Hazırda Azərbaycanda 20-ə yaxın ali məktəbdə və bir onun yarısı qədər də orta ixtisas təhsili müəssisəsində "Sosial iş" ixtisası üzrə kadrlar hazırlanır. Sevindiricidir ki, bu ali məktəblərin bir qismi gələcək sosial işçilərin zəruri tələblərə cavab verən səviyyədə hazırlanması sahəsində kifayət qədər təcrübə qazanmışlar. Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti və onun filialları (Quba və Şəki), Azərbaycan Dövlət İqtasad Universiteti, Azərbaycan Universiteti, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası kimi ali məktəblərin bu yönümdə fəaliyəti və tədrisin təşkili vəziyyəti yalnız yüksək dəyərləndirilməlidir. Ümumilikdə, günümüzün tələblərinə cavab verən təhsil prosesi ilə yanaşı, bu ali məktəblərdə sosial iş ixtisası üzrə kadr hazırlığı ilə bağlı aparılan və keçirilən tədbirləri yalnız alqışlamaq olar. Amma bütün bunlara baxmayaraq, bu gün ölkəmizdə həmin ixtisaslar üzrə təhsil alan tələbələrin təminatını ödəyəcək və müasir tələblərə cavab verə biləcək elmi-metodik ədəbiyyatlar hələ də yetərincə deyil. Bəzən tədris prosesini həyata keçirən müəllimlər bu səbəbdən xarici dərsliklərə mürüciət etməli olurlar. Eyni fənn üzrə müxtəlif ali məktəblərdə hazırlanan fənn proqramları da bir-birindən gərqlidir. Bu da həmin fənnləri tədris edən müəllimlərin bəzən bu sahə üzrə mütəxəssis olamaması və belə bir vacib məsələyə subyektiv yanaşmasından irəli gəlir. Bəzi ali məktəblərdə bu ixtisas üzrə hələ ilk məzun buraxılışının olmaması onların son kursda harada istehsalat təzrübəsi keçəcəyi və bu kimi aktual bir məsələnin necə təşkil olunacağı ilə bağlı maraqlı suallar ortaya çıxarır. Tələbələrin xarici ölkələrin ali məktəblərinin uyğun təhsil ocaqları ilə əməkdaşlığı – qarşılıqlı təcrübənin öyrənilməsi, tələbə mübadiləsi, birgə tədbirlərin təşkili də ümumi işə yalnız müsbət təsir göstərə bilər. Bütün bu və digər bu kimi sual doğuran məqamları ümumiləşdirərək təklif etmək istərdim ki, 2-ci kursdan başlayaraq, gələcək sosial işçilərin ixtisaslaşması prosesi təşkil olunsun. Konkret olaraq, onların çətin həyat şəraitində yaşayan hansı əhali kateqoriyaları ilə işləyəcəyi elə tələbəlik illərindən müəyyənləşməlidir və gələcəkdə əlillərlə, valideynlərini itirmiş uşaqlarla, ahıllarla, penitensiar müəssisələrsən cəza çəkməkdən azad edilmiş və cəmiyyətə adaptasiyada hələ də problemləri olan və s. bu kimi sosial müdafiəyə daha çox ehtiyac duyulan adamlarla ünsiyyətdə olacaq bu günün tələbəsi – sabahın sosial işçisi indidən özünü olduqca məsuliyyətli bir prorsesə hazırlamalıdır. Çünki belə insanlarla işləməmək heç də asan deyil. Ona görə də gələcək mütəxəssislər sabahın həkimləri kimi bu məsuliyyəti dərk etməli və özlərini bu prosesə hazırlamalı, bir sözlə təcrübə toplamalıdırlar. Digər ən vacib məsələ isə cəmiyyətin özündə geniş maarifləndirmə işlərinin aparılması və bu işdə elə tələbələrin də iştirakı təmin edilməsidir. Bu həm də gələcək sosial işçiləri öz peşələrinə daha məsuliyyətlə yanaşmağa sövq edər. Onlar bir daha dərk edərlər ki, ailə üzvlərindən, qohumlarından, hətta ən yaxın adamlarından doğmalıq hiss etməyən insanların onların mənəvi yardımına daha çox ehtiyacı var.

ƏDƏBİYYAT

1. Qəhrəmanov E.Ə., Əhmədov Y.P. Sosial işin əsasları. Dərs vəsaiti. Bakı, "B-print", 2014.

2. Əhmdov Y.P. Sosial işin nəzəriyyəsi və təcrübəsi. Bakı, PG Nəşrlər Evi, 2013.

3. Məmmədova R.O. Sosial işə giriş. Ali məltəblər üçün dərslik. Bakı, 2019.

4. Firsov M.V., Studenova E.Q. Sosial işin nəzəriyyəsi. Ali məktəblər üçün dərslik. Bakı, 2018.

5. Firsov M.V. Sosial işin nəzəriyyəsi. Dərs vəsaiti. Bakı, "Elm və təhsil", 2018.

6. Quliyev R. Sosiologiya: nəzəriyyə və tədqiqat metodologiyası. Bakı, 1995.

ALİ PEDAQOJİ UNİVERSTETLƏRDƏ RİYAZİYYAT MÜƏLLİMİ HAZIRLIĞINDA RİYAZİ VƏ METODİK HAZIRLIĞIN QARŞILIQLI ƏLAQƏSİ

ƏMİRAĞA MƏMMƏDAĞA OĞLU ŞİXƏMMƏDOV

ADPU –nun Quba filialının baş müəllimi

Summary

Mathematics teacher training is one of the fields of special importance in the sphere of education. It ensures the quality of personnel training for all areas of society and the state. In modern conditions, mathematics teacher training is characterized by its multi-level, multifunctionality and dynamism, which is reflected in this article.

Keywords: university education, professional activity skills, personnel training, education, experience

Bəşəriyyət inkişaf etdikcə ictimai-mədəni həyatın bütün sahələrində modernləşmə ilk növbədə strateji əhəmiyyət kəsb edən təhsil sahəsində özünü göstərir. Dünyanın təhsil sistemində əldə edilən bütün nailiyyətlər diqqət mərkəzinə çıxır və ayrı-ayrı ölkələrin pedaqoji sahədə çalışan peşəkar mütəxəssisləri tərəfindən nəzərdən keçirilərək qiymətləndirilir.

Bu baxımdan riyaziyyat elmi ümumbəşər mədəniyyətinin bir hissəsi olub, elm və texnikanın dilidir, dünya mədəniyyətinin tərkib hissəsidir. Onun köməyi ilə təbiətdə və cəmiyyətdə baş verən bir çox hadisələr və proseslər modernləşdirilir, öyrənilir və proqnozlaşdırılır. Hər bir insan gündəlik həyatında, əməli fəaliyyətində riyaziyyatla qarşılaşır, riyazi bilik və bacarıqların olmasından faydalanır. Riyazi biliklərə malik olmaq, müasir texniki vasitələrlə davranmağı, müxtəlif sosial-iqtisadi və siyasi informasiyalar əldə edilməsini və qavranılmasını asanlaşdırır. Rasional ədədlər əmelləri, tənasübü, həndəsi fiqurlar haqqında anlayışları, cədvəl, diaqram və qrafik şəkildə verilmiş məlumatları oxumağı təsadüfü hadisələrin ümumi qanunauyğunluqlarını və s. bilmədən müasir cəmiyyətdə normal yaşamaq mümkün deyil.

Açar sözlər: universitet təhsili, peşəkar fəaliyyət bacarığı, kadr hazırlığı, təhsil, təcrübə .

Riyaziyyat bir elm olmaqla insanların əməli fəaliyyətindən doğan tələbat kimi yaranaraq öz daxili qanunauyğunluqları ilə inkişaf edir. Gündəlik həyatda dəqiq və humanitar elm sahələrinin inkişafında, texnika və texnologiyaların təkmilləşdirilməsi prosesində ortaya çıxan problemlərin həllində insanların yaxın köməkçisinə çevrilir.

Pedaqoji universitetlərdə riyaziyyat müəllimi hazırlığında riyaziyyatın tədrisi mühüm əhəmiyyət kəsb edir. Kompüter texnikasından və elmi metodlardan istifadə edilməsi həm orta məktəbdə, həm də ali məktəbdə riyaziyyatın tədrisi səviyyəsinin yüksəldilməsini bir vəzifə kimi qarşıya qoyur. Məktəblərdə riyaziyyatın lazımı səviyyədə tədrisini isə yüksək hazırlığa malik müəllimlər təmin edə bilərlər. Buradan belə nəticəyə gəlmək olar ki, məktəbdə riyaziyyat tədrisinin müvəffəqiyyəti ali məktəbdə müəllim hazırlığından əsaslı şəkildə asılıdır.

Müasir təhsil konsepsiyasında tələbələrin düşünmə və idrak fəaliyyətinin maksimum inkişaf etdirilməsi prinsipi başlıca rol oynayır. Deməli, gələcək riyaziyyat müəllimini XXI əsrin məktəbinin tələbləri səviyyəsində hazırlamaq tələb olunur. Bütün bunlar riyaziyyat fənnini tədris edən müəllimlərin riyazi hazırlığını özünəməxsus yüksək tələblərin verilməsini qarşıya qoyur. Hər bir riyaziyyat müəllimi riyazi strukturlar və onların modellərini elmi-nəzəri

aspektinə dərindən yiyələnməklə yanaşı, onların ekvivalent tərifini, xassələrini bilməli, funksional asılılıqları aşkar etmək vərdişlərinə malik olmalıdır.

Son illərdə ali pedaqoji universitetlərdə riyaziyyatın tədrisi sahəsində xeyli dəyişikliklər həyata keçirilmişdir. Belə ki, riyaziyyat fəninin yeni dövlət standartları və müvafiq fənn proqramları hazırlanmışdır. Bunlar isə öz növbəsində tələbələrdən riyazi hazırlıq, müəllimlərdən isə təlim materialını daha yüksək səviyyədə tədris etməyi tələb edir. Orta məktəbdə ali riyaziyyat elementləri ilə yanaşı, riyazi fənlər ayrılıqda tədris edilir. Lakin tədris planında və proqramlarda mövzular vaxt etibarı ilə elə bölünmüşdür ki, həm ixtisas fənnləri, həm də qonşu fənnlər arasında əlaqələrin yaradılması biliklərin inteqrasiyasını təmin edən faktora çevrilir.

Günün tələblərinə cavab verən peşəkar müəllimin hazırlanması zamanı aşağıdakı məsələlərin nəzərdə tutulması mühim rol oynayır;

1) Tədris planları və proqramlarının təkmilləşdirilməsi;
2) Tədris materialının məzmununda milli nəaliyyətlərin geniş işıqlandırılması;
3) Tələbələrin elmi –metodiki vasitələrlə təmin edilməsi;
4) Tələbələrin müstəqil işləmələrinin səmərəli yollarının müəyyənləşdirilməsi;
5) Tələbələrin elmi və metodik xarakterli tədqiqat işlərinə cəlb edilməsi;
6) Məktəblərdə keçirilən pedeqoji təcrübənin məzmunu və formasının təkmilləşdirilməsi;
7) Abutriyent qəbulunda pedeqoji işə olan maraqların nəzərə alınması və s.

Riyaziyyat müəlliminin hazırlığı əsasən üç mərhələyə bölünür;

1) Ali məktəbə qədərki dövr;
2) Ali məktəb dövrü:
3) Riyaziyyat müəllimi kimi fəaliyyət göstərdiyi dövr;

Bu mərhələlər bir –biri ilə qarşılıqlı əlaqədədir.Bunların içərisində ən mühüm mərhələ ali məktəb dövrüdür.Çünki məhz ali məktəbdə tələbə həm riyaziyyat elminin zəruri məsələlərini öyrənir, riyazi biliyi inkişaf edir,riyaziyyat müəllimi peşəsinin əsaslarına yiyələnir, həm də elmi –metodiki yaradıcılığa həvəsi artır.Bu işdə tələbələrin müstəqil işə cəlb edilməsi,onlara yaradıcılıq tələb edən elmi və metodiki tapşırıqların verilməsi, nəticələrinin yoxlanması və xüsusi qeyd edilməsi mühüm rol oynayır.Tələbə riyaziyyatdan müəyyən bir məsələnin ümumi şəkildə həlli yolunu tapırsa və bu onun ilk yaradıcı işidirsə, onun sevincinin həddi hüdudu olunar.Belə işlərin səmərəli təşkili gələcəkdə yüksək ixtisaslı kadrların yetişməsinə gətirib çıxarır.

Tədqiqatlar göstərir ki, gələcək riayziyyat müəllimlərində elmi informasiya tələbatın artırılması bir sıra şərtlərin gözlənilməsi vacibdir;

1) Tələbələrin riyaziyyat elminə həvəsinin artırılması və bu sahədə biliyini dərinləşdirməyə meyl göstərməsinə şəraitin yaradılması;
2) Tələbələrin elmi dərnəklərə və disputlara cəlb edilməsi;
3) Tələbələrin problem xarakterli məruzə və çıxışlarda iştirakı;
4) Tələbələrin elmi cəmiyyət dərnəklərində təşkilati işləri onların özlərinə həvalə edilməsi və s.

Ali pedeqoji məktəbin riyaziyyat kursunun elmi və tədris ideyaları əsasən aşağıdakı fənlər üzrə öz əksini tapır: riyazi analiz, ali cəbr və ədədlər nəzəriyyəsi, ədədi sistemlər, riyazi məntiq, həndəsə kursları, elementar riyaziyyat, riyaziyyatın tədrisi metodikası, informatika və ehtimal nəzəriyyəsi və s.

Məlum olduğu kimi bu fənlər olduğu kimi bu fənlər özləri müxtəlif bölmələrdən ibarətdir.Bunların arasındakı əlaqələrin aşkar edilməsi, qeyri –standart situasiyalarda bu biliklərin tətbiq edilməsi gələcək riyaziyyat müəlliminin peşə hazırlığında mühüm rol oynayır.Belə ki, riyazi analiz, ali cəbr, ədədlər nəzəriyyəsi ilə digər fənlərin tədrisi və qazanılan biliklərin orta məktəbin riyaziyyat kursu ilə əlaqələndirilməsi əslində ali və orta məktəb kursları arasında varisliyin təmin edilməsi, fənlərarası əlaqələrin reallaşdırılması deməkdir.Bu isə tələbənin riyazihazırlığının peşə -pedaqoji istiqamətini təmin edir. Müasir dövrün həm ali və həm də orta məktəbinin təhsil alanları əvvəlki illərdəkindən ciddi fərqlənir.İqtisadi tələblər,təhsilin sosial bazasındakı dəyişikliklər gələcək riyaziyyat müəlliminin bir fərd kimi, bir mütəxəssis kimi statusunda bəzi dəyişiklikləri zəruri edir.Bu iki cəhətdən özünü göstərir:

1.Müasir riyaziyyat müəllimi məktəbdə kompüterləşmə məsələlərini bilməli, fərdi kompüterləri işlətməyi və şagirdlərə öyrətməyi bacarmalıdır.

2.Riyazi modelləşdirmə, riyazi proqramlaşdırma məsələlərindən baş çıxarmalı və bunların elementlərinin məktəbdə tətbiqini və tədrisini bacarmalıdır.

Gələcək riyaziyyat müəlliminin tam hazırlığı ilk növbədə onların elmi və metodiki hazırlığı ilə müəyyən edilir.O, öz ixtisasını və peşəsini sabahkı məktəbin tələblərinə cavab verəcək səviyyədə saxlamalıdır. Gələcək riyaziyyat müəlliminin ali məktəbdə qazandığı pedaqoji təhsili elə ümumnəzəri bünövrəyə malik olmalıdır ki, müəyyən müddət üçün o, öz qüvvəsini saxlasın və bunun əsasında özünütəhsil vasitəsilə biliklər sistemini günü – gündən təzələmək imkanı olsun. Ali pedaqoji məktəbdə qazanılan riyazi biliklər siteminin sintezindən yaranan ümumi riyazi hazırlıq məktəb riyaziyyat kursunun müvəffəqiyyətlə tədris etməyə imkan versin.

Bu isə günün ən başlıca tələblərindən biridir.

Ali pedaqoji məktəblərin riyaziyyat fakültəsində tələbələr zəruri olan riyazi biliklərini genişləndirmək və dərinləşdirməklə yanaşı, həm də peşə hazırlığına xidmət edən riyaziyyatın tədrisi metodikası fənnini öyrənirlər. Bu məqsədlə riyaziyyat müəlliminin metodiki hazırlığının əsas məsələlərini aşağıdakı kimi müəyyənləşdirmək olar:

1.Müəllimlik peşəsinə yiyələnmək prossesində, tərbiyə məsələləri də əhatə olunur,yəni gələcək müəllimdə yaradıcı peşə təfəkkürü formalaşmaqla yanaşı, həm də peşə-mənəvi keyfiyyətlər tərbiyə olunur.

2.Müəllimin metodiki hazırlığı onun peşə təfəkkürünün formalaşmasında xüsusi rol oynayır .Çünki ali məktəb təhsilinin son illərində metodiki fənlərin tədrisi nəticəsində riyazi biliklər ilə metodiki biliklərin sintezi yeni məzmunda özünü göstərir.

3.Gələcək riyaziyyat müəlliminin metodiki biliklər sisteminə aşağıdakıların daxil edilməsi:

a) Müxtəlif psixoloji və ümumdidatik yanaşmalara əsaslanan və riyaziyyat təliminin müxtəlif nəzəri konsepsiyalarına dair biliklər.

b) Riyaziyyat təliminin metodologiyasına biliklər (təlimin metodları və priyomları).

c) Riyaziyyat təlimi xüsusiyyətlərini nəzərə almaqla, metod və priyomların tətbiqi texnologiyaların tətbiqi texnologiyasına dair biliklər.

4.Müəllimin metodiki bacarıqları məzmununa aşağıdakıların daxil edilməsi:

- tədris olunacaq materialı məntiqi –didaktik təhlil etmək bacarığı;

- tədris olunacaq materialı məntiqi strukturu və məzmunu ilə yanaşı şagirdlərin imkanlarını və təlimin məqsədlərini nəzərə alınmaqla, müvafiq metod və priyomları seçmə bacarığı;

- orta məktəb riyaziyyatının istənilən mözusunun tədrisi texnologiyasını hazırlamaq bacarığı;

- şagirdlərin təlim fəaliyyətinə görə fərqləndirmək bacarığı;

- tədris materialının tərbiyəedici və inkişafetdirici imkanlarından düzgün istifadə etmək bacarığı.

Tədris materialının məntiqi strukturunu və təlimin məntiqi priyomlarını başa düşməklə yanaşı, təlim metodlarını seçməyi,şagird fəaliyyətini idarə etməyi, təlimin prosesini intensivləşdirməyi bacarmaq və s məsələlər müəllimin peşə təfəkkürünü təşkil edir.

Gələcək müəllimlərin peşə hazırlığında riyaziyyatın tədrisi metodikası fənni üzrə praktik və seminar məşğələlərinin məzmununun düzgün müəyyən edilməsi çox mühüm rol oynayır. Bu cəhətdən təlim prossesində metodiki məsələlərin həll edilməsi böyük əhəmiyyətə malikdir.

Pedaqoji ədəbiyyatda "pedaqoji məsələ" terminindən istifadə edilir və təlim prosesində tələbələri müəllimlik peşəsinə hazırlamaq üçün həmin məsələlərdən geniş istifadə edilir. Ümumiyyətlə, məsələ dedikdə -müəyyən kəmiyyətlər və ya hadisələr arasındakı asılılıqlara və verilmiş müəyyən qiymətlərə görə məlum olmayan qiymətin və ya asılılığın tapılması tələbi başa düşülür. Bu baxımdan, tələbənin metodiki hazırlığını əməli cəhətdən başa düşmək üçün metodiki anunauyğunluqları açıb göstərən məsələlərdən istifadı edilir.

Metodiki məsələ müəyyən mənada parametr daxil olan məsələləri xatırladır. Bu və ya digər tədris situasiyasında konkret şərtlərdən asılı olaraq, metodiki məsələlərin müxtəlif həlləri ola bilər. Tədris situasiyasının variantları çoxaldıqca, məsələnin mürəkkəbliyi də artır.

Pedaqoji ədəbiyyatda metodiki məsələləri iki qrupa ayırırlar:

1.Dərslikdəki materialın şərhi ilə bağlı olan məsələlər;

2. Təlim prosesi ilə bağlı olan məsələlər.

Birinci qrupa aşağıdakı məsələləri aid etmək olar:

1.Dərsliyin hər hansı mövzusuna aid struktur blok-sxemin tərtib edilməsi.

2. Tərifin məntiqi təhlili:

- anlayışın dərk edilməsi sxeminin tərtib edilməsi;

- verilən anlayışın başqa anlayışla əlaqə sxeminin tərtib edilməsi;

- anlayışların təsnif sxeminin tərtib edilməsi.

3. Teoremlərin isbatı ilə bağlı məsələlər:

-teoremin isbatına aid blok – sxemin tərtib edilməsi;

- isbatın məntiqi mərhələlərinin ayırd edilməsi;

- teoremin yeni isbat üsulunun axtarılması.

4. Verilmiş tipli standart məsələnin həlli alqoritmi üzərində iş:

- verilmiş tipli məsələnin həlli alqoritmi üçün blok- sxemin tərtib edilməsi;

- şagirdlərə alqoritm qurmağı öyrətmək.

5.Şagirdlərə məsələ tərtib etməyi öyrətmək.

İkinci qrupa aşağıdakı məsələləri aid etmək olar:

1.Riyaziyyatın tədrisi prosesində meydana gələn müxtəlif pedaqoji situasiyaların təhlili.

2.Müxtəlif təlim metodlarının tətbiqilə tədris prosesinin modelləşdirilməsi.

3.Müxtəlif əyani vasitələrin və didaktik materialların hazırlanması.

4.Məktəbin riyaziyyat kabinəsini təchiz etmək.

Praktik və ya seminar məşğələlərində metodiki məsələlərin həlli əsasən müzakirə və müxtəlif rəylərin, fikirlərin tutuşdurulmasına, müqayisə edilməsinə gətirilir. Burada tələbənin pedaqoji faəliyyətinə üstünlük vermək lazımdır.Çünki onun riyaziyyatdan ilan elmi biliyi ilə metodiki biliyi çuğlaşır və yeni keyfiyyət kəsb edir.

Tələbələrin metodiki hazırlığını təmin etmək məqsədilə, pedaqoji proseslərin bütün elementləri ilə onları tanış etmək lazımdır. Bu məqsədlə aşağıdakı metodiki işlərin icrasını tələbələrə həvalə etmək olar:

1.Şagirdlərin yazı işlərinin yoxlanılması və qiymətləndirilməsi;

2.Şagirdlərin yoxlama işləri nəticələrinin təhlili;

3.Riyaziyyatdan sinifdənxaric tədbirlərin keçirilməsi, görülmüş işin nəticəsinin təhlili;

4.Hazırlanmış dərsin icmalına rəy verilməsi;

5.Elmi-metodiki məruzə və referat hazırlanması;

6.Məktəbin riyaziyyat kabinəsi və onun iş rejimi ilə tanışlıq.

Ali pedaqoji məktəbdə tələbələrlə aparılan sistematik iş onları gələcək peşəyə həvəsləndirir. Belə ki, metodiki məsələni həll etmək məqsədilə tələbələrə müəyyən mənbələr göstərilir və onlar növbəti məşğələyə hazırlaşarkən həmin mənbələrdən istifadə edirlər.

Tərəfimizdən tələbələrə təqdim olunan metodiki məsələlərin siayahısı əsasən aşağıdakılardan ibarətdir:

1.Məsələ həlli vasitəsilə təlimə dair dərs fraqmenti hazırlamaq (dərsiklərdən istifadə etməklə)

2.Tədqiqat metodunun məktəb riyaziyyat kursunun müəyyən bir mövzusuna tətbiqinə aid metodik işləmə hazırlamaq;

3.İnduktiv metodun tətbiqinə dair riyaziyyat dərslərindən fraqment hazırlamaq;

4.Deduktiv metodun tətbiqinə dair riyaziyyat dərslərindən fraqment hazırlamaq;

5.Müəyyən tipli məsələlərin həlli üçün ümumi alqoritmin işlənib hazırlanması;

6.Cəbri məsələlərin həlli metodikasını işləyib hazırlamaq;

7.Məktəb həndəsə kursundan hər hansı teoremin isbatına aid (axtarış, isbat prosesi və yekun tətbiqləri) dərs fraqmentinin işlənib hazırlanması;

8.Hər hansı teoremin iki metodla verilmiş isbatından hansının əlverişli olduğunu əsaslandırmaq.

Yuxarıda göstərilən amilləri nəzərə alaraq, riyaziyyat müəllimi hazırlığında riyazi və metodiki işlərin müasir səviyyədə qurulması, gənc mütəxəssis hazırlığı və peşə sərişətlliyinin daima yüksək səviyyədə saxlamağa imkan verir.

Ədəbiyyat

1. A.S.Adıgözəlov Orta məktəbdə riyaziyyatın tədrisi metodikası. Bakı 2012
2. A.O.Mehrabov Azərbaycan təhsilinin müasir problemləri. Bakı 2007
3. Ə.Ə . Ağayev Təlim prossesi ənənəvi və müasirlik. Bakı 2006
4. Kurikulum jurnalları.

5. Abdurazaqov.R, Məsimov.N, Cəlilova.S Məktəbdə yeni informasiya texnologiyalarından istifadənin yeri və rolu.
Azərbaycan məktəbi 2011.№2

THE PRINCIPLE OF JUSTICE IN ILHAMALIYEVSMULTICULTURALISM POLICY

İLHAM ƏLİYEVİN MULTİKULTRALİZM SİYASƏTİNDƏ ƏDALƏT PRİNSİPİ

ŞİXBABAYEVA AYGÜN ŞİXBABA Q.

Baş müəllim, Azərbaycan Dövlət Pedaqoyi Universiteti Quba filialı,

ORCİD:0000 -0002-5205-820X

Xülasə: Multikultralizm Azərbaycan xalqının həyat tərzidir.Əsrlər boyu xalqımız toleriantlıq , dözümlülük , başqa dinlərə və mədəniyyətlərə hörmət prinsipini həyat tərzinə çevirərək bu prosesə mühüm tövhələr vermişdir.Bu tövhələrin əsasında Azərbaycanın əsrlər boyu mədəniyyətlərin qovuşdugu məkanda yerləşməklə dinlər və sivilizasiyalar arası anlaşmada aparıcı rol oynamasıdır ki, bu da cəmiyyətimizdə toleriantlıq mühiti yaradıb.Azərbaycanda mültikultralizm ənənələrinin inkişafı və möhkəmlənməsi üçün bütün zəruri siyasi və sosial şəraitin olması və bunun dövlətə rəhbərlik edən siyasi liderlərin və azərbaycan xalqının təmin etməsi , dövlətin bu işdə böyük dəstəyidir.

Multikultralizmin özündə ehtiva etdiyi bütün dinlərin və etnosların, mədəniyyətlərin birgə təhlükəsiz yaşaması prinsipinin ümum bəşəri dəyərlər kontekstindən dəyərləndirən Azərbaycan Respubikasının prezidenti İlham Əliyev Multikultralizm siyasətini hər zaman yüksək qiymətləndirərək dünyanın sülh və barış içərisində yaşaması üçün bu siyasətin alternativi olmadığını qeyd edir və dünyada bu prosesə qarşı olan təhlükəni hiss edir və onun xilası naminə mühüm təşəbbüslər irəli sürür.Azərbaycan dinlərarası və etnoslararası dialoqun inkişafında öz önəmli rolunu oynayaraq dünyada sülh və ədalətin təmin olunmasına çalışır.

Açar sözlər: Azərbaycan, Multikultralizm, toleriantlıq,ədalət,humanizm

Multiculturalism is the way of life of the Azerbaijani people. Over the centuries, our people have made important contributions to this process by turning the principle of tolerance, endurance, and respect for other religions and cultures into a way of life. Based on these contributions, Azerbaijan has played a leading role in the understanding between religions and civilizations by being located in the place where cultures meet for centuries, which is has created an environment of tolerance in our society. The presence of all the necessary political and social conditions for the development and strengthening of the traditions of multiculturalism in Azerbaijan, and the provision of this by the political leaders who lead the state and the people of Azerbaijan, is the great support of the state in this matter. The President of the Republic of Azerbaijan IlhamAliyev, who values the principle of living in the context of general human values, always appreciates the policy of multiculturalism and notes that this policy is not an alternative for the world to live in peace and harmony, and he feels the danger to this process in the world and puts forward important initiatives for its salvation. Azerbaijan plays and will continue

to play an important role in the development of inter-religious and inter-ethnic dialogue and is an example to the world.

Keyword: Azerbaijan,Multiculturalism,tolerance,justice,humanism

Giriş

Multikultralizmi beynəlxalq platformaya çevirmək istəyən Azərbaycan prezidenti İlham Əliyev dünyada ədalət və humanizmın olmadıgı yerdə sülhün, multikultralizmin olmayacagını çox gözəl bildiyi üçün müxtəlif beynəlxalq səviyyəli tədbirlərin keçirilməsində hər zaman maraqlı tərəfdaş kimi çıxış edir.Məsələn 2008 –ci ildə Avropa Şurasına üzv ölkələrinin mədəniyyət nazirlərinin Bakıda keçirilən toplantısına İslam Əməkdaşlıq Təşkilataına üzv ölkələrinin mədəniyyət nazirləri də dəvət olunmuşdu.Bu tarixdə ilk dəfə baş verdi.2009 cu ildə Bakıda İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrinin mədəniyyət nazirlərinin toplantısına isə Avropa Şurasından mədəniyyət nazirləri qatılmışdı.”Bakı prosesi “ adlanan bu təçəbbüs sonradan Azərbaycanda dünya dini liderlərinin Zirvə görüşünün , mədəniyyətlər arası dialoq və Bakı Beynəlxalq Humanitar formlarının keçirilməsinə təkan verdi.Artıq bu kimi tədbirlərin Azərbaycanda keçirilməsi ənənəvi xarakter daşıyır.Məsələn Bakı Humanitar Forumu ənənəvi olaraq keçirilir.Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu BMT tərəfindən dəstəklənir.BMT Sivilizasiyalar Alyansının Qlobal Forumu , Dünya dini liderlərinin Zirvə görüşləri , bütün bu tədbirlərin bir məqsədi var –dinlərarası dialoqu möhkəmləndirmək , dini ayrı- seçkiliyə qarşı birgə mübarizə aparmaq, multikultral dəyərləri təblig etmək və dünyaya öz tövhəmizi vermək.Bu tədbirlər multikultralizm ənənələrinin dünyada təbligində Azərbaycanın əvəzsiz rolunu göstərir.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev 2015 ci il mayın 18 də Bakıda keçirilən III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışındakı nitqində bu haqda deyib:Bizim ölkədə multikultralizm ənənələri hər zaman güclü olub və Beynəlxalq Multikultralizm Mərkəzinin yaradılması bu dəyərlərin təşfiqi istiqamətində hökumətimizin atdıgı daha bir addım idi.Multikultralizmin alternativi yoxdur.Hesab edirəm ki, multikultralizmi gələcəyi olmayan məhfum kimi təqdim etmək təhlükəlidir, əksinə səylərimizi dayandırsaq , dünyada vəziyyət dahada pisləşəcək.”

Dünyada multikultralizm ənənələrinin təbligində Heydər Əliyev Fondunun da rolu əvəzsizdir.Azərbaycanın birinci xanımı Vitse-prezident Mehriban xanım Əliyeva ölkəmizdəki multikultralizm ənənələrinin dünyaya təblig və təqdim olunmaslında bir sıra silsilə tədbirlərin keçirilməsının təşəbbüskarı və iştirakçısıdır.Məsələn ,birinci xanım Mehriban xanım Əliyevanın iştirakı ilə Parisdə “Dini toleriantlıq :azərbaycanda birgə yaşamaq mədəniyyəti” mövzusunda keçirilən konfrans multikultralizmin bu və ya digər formada sıxışdırıldıgı Avropanın gələcəyində onun əhəmiyyətini göstərdi.

“Ekstremizm və terrorçuluga qətiyyətlə yox deməklə biz cəmiyyətimizdə dözümlülük , sülhseverlik toleriantlıq dəyərlərinin təbliginə geniş fikir verməliyik.Ayrı- seçkilik , ksenofobiya , islamafobiya , antisemitizm kimi təhlukəli amillər bəşəriyyət tarixində sivilizasiyaların və xalqların fəlakətinə səbəb olub.Dərin multikultralizm köklərinə malik ölkə kimi , azərbaycan qlobal arenada bu dəyərlərin təşviqi üçün vacib rolunu oynamaga hazırdır ”, - deyə Mehriban xanım Əliyeva vurgulayıb.

Bu gün Azərbaycan regionun iqtisadi və siyasi lideri olaraq ozünün geosiyasi nüfuz dairəsini qlobal miqyasda böyütməktədir.Bir dövlət olaraq Cənubi Qafqazda sabitliyin təminatçısı olmaqla yanaşı , bir çox beynəlxalq layihələrin fəal iştirakçısı və təşkilatçısıdır ki, bu da respublikamızın beynəlxalq nüfuzunun yüksəlməsinin və dövlətimizə olan inam və etibarın göstəricisidir.Prezident İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılıgı ilə “Parçalanmıç dünyanın bərpası “ mövzusunda XI Qlobal Bakı Forumunun keçirilməsi bunun sübutudur.68 ölkədən 400 dən çox qonagın qatıldıgı Qlobal Bakı Forumu dünya düzənində təhdidlərə qarşı ugurlu mübarizədə humanizm və ədalət prinsipinin qorunması və işlək mexanizimə getirilməsinə xidmət edir.Prezident İlham Əliyevin

bəyan etdiyi kimi Qlobal Bakı Forumu müxtəlif tərəflərin fikirlərini birləşdirən inklüziv və yaxşı platformadır ki , müzakirə olunan məsələlər təşəbbüslər qismində dünya içtimaətinə təqdim olunur.Bu gün dünyanın münaqişə potensialı həddindən artıq yüksəlib , bəşəriyyət çox ciddi təhdidlərlə üz-üzə qalıb.

Forumda dövlət başçısı həmçinin qeyd edərərək bildirib ki, "Bütün tarixi faktlar tam aydın idi və biz ədaləti , beynəlxalq hüququ özümüz berpa etdik.Heç kəs bizə kömək etmədi.Biz bunu özümüz etdik və göstərdik ki, güclü siyasi iradəmiz , həmçinin potensialimiz var.Çünki güclü hərbi imkanlar və xalqın birliyi olmadan biz ugur qazana bilməzdik."Bu gün biz soyuq müharibənin bitməsindən sonra bu günədək baş vermiş bəlkədə ən ciddi Şərq Qərb qarşıdurmasının şahidi oluruq.Qoşulmama Hərəkatı körpülərinin salınmasında , münaqişələrin həllində yeni yanaşmaların formalaşdırılması və Qoşulmama Hərəkatının təməl prinsiplərinin – Bandunq Prinsiplərinin təmin edilməsində mühüm rol oynaya bilər və oynamalıdır.Həmin prinsiplər – sülh , əməkdaşlıq , ərazi bütövlüyünə və süverinliyə hörmət, habelə sərhədlərin toxunulmazlığından ibarətdir.İlham Əliyev XI Qlobal Bakı Forumunun çıxışında bildirmişdir ki,"Qoşulmama hərəkatına sədrlilik dövründə bizim prioritetlərimiz içində neokolonializmə qarşı mübarizə məsələləri durmuşdur, bu gündə bu belədir.bizim xarici siyasət istiqamətləri arasında bu sahə xüsusi önəm daşıyır.Bir müddət bundan əvvəl azərbaycanda Bakı Təşəbüs qrupu yaradılmışdır.Bu, beynəlxalq qurumdur.Bu qrumun əsas məqsədi kolonializmin , yeni müstəmləkəçiliyin yeni təzahürlərinə qarşı mübarizə aparmaq və bu gün müstəmləkəçilikdən əziyyət çəkən xalqları dəstəkləmək , o xalqların hüquqi əsaslar üzərində azadlıga qovuşmasını təmin etməkdir.Azərbaycan prezidenti İlham Əliyev çıxışlarının birində qeyd etmişdir:"Biz ədalətin tərəfdarıyıq.Hər yerdə ədalət olmalıdır-cəmiyyətdə, ailədə, beynəlxalq münasibətlərdə.Ədalət pozulduqda hər şey pozulur.Sankı dünyada yeni dəyərlər sistemi formalaşır.Ədalət əvəzinə eyri -ədalətli yanaşma , bərabərlilik əvəzini qeyri bərabərlilik , düzgünlük əvəzinə riyakarlıq , yalan.Bax biz buna qarşı mübarizə aparırıq".

Onu da düşünək ki, ədalət anlayışına yanaşmanın subyekti oldugu kimi obyektiv tərəflərdə var.Dünya dəyişir , dəyərlər, ölçülər,nizam -intizam qaydaları , idarəçilik parametirlərdə həmçinin.Yeni düzən təhlükəsizlik məsələlərinin vacibliyi reallıgını ortaya qoyur.Təhlükəsizlik isə təhdidlərə qarşı mübarizə immunitetinin möhkəmliyindən qaynaqlanır.Dövlətimizin başçısının da vurguladıgı elə budur.

Bu gün Azərbaycan dünyada bir toleriantlıq nümunəsidir.1989-cu ildə SSRİ də aparılan sonuncu ümumittifaq əhali siyahıyaalınmasının məlumatlarına görə Azərbaycanda yaşayan millətlərin , xalqların və etniklərin sayı əvvəlki illərə nisbətən nəinki azalıb əksinə, xeyli artaraq 115-ə çatıb.2009 cu ilin siyahıya alınmasına görə Azərbaycan əhalisinin 8,4 faizini milli azlıqlar , azsaylı xalqlar və etnik qrupların nümayəndələri təşkil edir.Dövlətimiz milli azlıqların müdafiəsi ilə baglı 50 dən çox beynəlxalq konvesiyaya qoşulub.Respublikamızda 380 dən artıq dini icmanın mövcud olması və onlara eyni münasibətin göstərilməsi Azərbaycanı dünya miqyasında toleriant ölkə kimi bir daha təsdiqləyir.Yunesko-nun 2005 ci ildə qəbul etdiyi "Mədəni özünü müdafiə müxtəlifliyin qorunması və təşviqi haqqında Konvensiyaya" uygun olaraq ölkəmizdə yaşayan milli azlıqlar və etnik qrupların mədəniyyəti Azərbaycan mədəniyyətinin tərkib hissəsi kimi qorunur, və inkişaf etdirilir.Bu xalqların milli mədəniyyətinin , incəsənətinin , adət-ənənələrinin və dilinin qorunub saxlanılması üçün lazım olan bütün işlər görülür.Azərbayacan dövləti burada yaşayan xalqların və etnik qrupların maddi və bədii mədəniyyət nümunələrinin , milli məişətinin dünya içtimaətinə çatdırılması istiqamətində də böyük işlər görür.Prezident İlham Əliyevin təşəbbüsü ilə etnik azlıq və qrupların mədəni irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi məqsədi ilə iki ildən bir azsaylı xalqların incəsənəti festivalı keçirilir.Azsaylı xalqların adət-ənənəsini , mətbəxini , folklorunu əhatə edən filimlər və verilişlər xarici dillərə tərcümə olunaraq Avropa tamaşaçısına

təqdim olunur.Ümumiyyətlə mültikultralizm, toleriantlıq anlayışından danışanda ədalət anlayışı heç zaman unudulmalı deyil.Ədalət olmayan yerdə toleriantlıq, toleriantlıq olmayan yerdə multikultralizm mövcud ola bilməz.Azərbaycan cəmiyyətində multikultralizm və toleriantlıgın belə derin koklərə malik olmasının əsas səbəbi məhz Dövlətimiz,cəmiyyətimiz , dövlət liderlərimiz tərəfindən ədalət anlayışının işlək mexanizimə gətirilməsidir.Prezidentimiz İlham Əliyev bu günki gündə nə inki Azərbaycanda bütün dünyada sülh və barışı özündə daşıyan bir ədalət təmsilçısıdır.

Ədəbiyyat siyahısı:

1.Xalq qəzeti 04.03.2023

2.Kamal Abdulla "Azərbaycan multikultralizmi"

3.president.az xəbərlər 09 mart 2023

4.president.az xəbərlər 14 mart 2024

5.multikultral.az 05.12.2019

6.www.amerikaninsesi.20mart2015

PEDAQOJİ DƏSTƏK TEXNOLOGİYALARINA DAİR KONSEPTUAL YANAŞMALARIN PRAKTİK ƏHƏMİYYƏTİ

BEYDULLAYEVA LALƏ DAŞDƏMİR

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filliali
https://orcid.org/0009-0006-6849-4205

Xülasə: Şagirdə pedaqoji dəstək olmaq təlim prosesindəmüəllim və şagird arasında əməkdaşlığı möhkəmləndirməkdir.Təlimdə əməkdaşlıq vasitəsiləşagirdlərin uğur əldə etməsi imkanlarının pedaqoji reallığı özəksini tapmalı, xüsusi texnologiyalarının tətbiqi ilə həyata keçirilməlidir.Təhsilin inkişaf tendensiyaları keyfiyyət baxımdan müxtəlif texnologiyalara yol açmış olur.Təlimin vəzifələrinin həlli şəxsiyyətyönümlü və inkişafetdirici situasiya daxilində olur, şagirdə özü haqqında yeni təsəvvürlər yaradır, həyatın mənası, dəyərlərini və açdığı imkanlarını göstərir.Uşaq şəxsiyyətinin sərbəst və ahəngdar inkişafı üçün şəraitin yaradılması zəminində keyfiyyətli təhsil alma çərçivəsində təhsil alanın qabiliyyət və bacarıqlarının reallaşdırılmasına şəraitin yaradılmasıdır.

Açar sözlər: pedaqoji dəstək, pedaqoji dəstək texnologiyaları,humanist pedaqogika,şagirdə humanist yanaşma.

Summary: Pedagogical support in the student is to strengthen the cooperation between the teacher and the student in the training process. The pedagogical reality of the opportunities for students to achieve success through cooperation in training should be reflected and implemented by the application of special technologies. The development trends of education lead to different technologies from a qualitative point of view. is within a personality-oriented and developing situation, creates new ideas about himself to the student, shows the meaning, values and opportunities of life. On the basis of creating conditions for the free and harmonious development of the child's personality, it is the creation of conditions for the realization of the student's abilities and skills within the framework of quality education

Key words: pedagogical support, pedagogical support technologies, humanistic pedagogy, humanistic approach to the student

Pedaqoji dəstək mənası altında müəllim və şagirdin təlim prosesində əməkdaşlığının təşkili nəzərdə tutulur. Bu əməkdaşlıq təlim fəaliyyətində yaranmış çətinliyin aradan qaldırılmasına və şagirdin uğur əldə etməsi üçün imkanlarının reallaşdırılmasına yönəlmişdir. Pedaqoji dəstək texnologiyalarının uğurla reallaşdırılması üçün öncədən mövcud çətinliklərin araşdırılıb üzə çıxarılmasına nail olamağa çalışdıq və bunları bildikdən sonra intellektual inkişaf istiqamətində pedaqoji dəstək texnologiyaların reallaşdırılmasını nəzərdə tutduq.

Əxlaq və humanizm fundamental anlayışlar hesab edilir. Əgər əxlaq və humanizm təhsilin keyfiyyət göstəricilərinə çevrilsə insanın təbiətinin gözəlləşməsinə və fasiləsiz inkişaf prosesinə təkan olar. İnsanın ucalması və təkmilləşməsi yolunda şəxsiyyətin dayağı onun həyat və fəaliyyətində istiqamətləndirici qüvvəyə çevrilər. Bu kimi anlayışlar istiqamət, forma, məzmun olaraq biri-biri ilə sıx vəhdət təşkil etdikdə humanist pedaqogikanın mahiyyətini təşkil edir!

Təhsil prosesində insanpərvərlik ideyaları ilə silahlanmış dərsliklər və dərs vəsaitləri insani keyfiyyətləri yüksək amallarla təqdim etdikdə, bəşər naminə hər bir insanın yaşaması və yaratması tam aydın məqsədə çevrilir (1. s 26).

Burada dərsliyə və dərs vəsaitinə verilən əsas tələblər:

- Kitabların didaktik prosesin subyekti olan şagird, müəllim, valideylərlə "danışması";
- Daim əməkdaşlığın, birgə yaradıcılıq fəaliyyətinin, əlaqənin və fəaliyyətin korreksiyasının təmin edilməsi;
- İntellektual fəaliyyətə motivasiya və stimul verməsi;
- İdraki – təlimi fəaliyyətin idarə edilməsi;
- Əhvalı-rifahının nəticələri haqqında qayğılı yanaşmanın olması;
- "Mən"in inkişafı üçün şəraitin təmin edilməsi.

Humanist pedaqogikanın əsasları:

- Müəllim və şagirdə hörmətlə və humanist yanaşma;
- Kitabların məzmunu nəzərə alınaraq didaktik prosesin iştirakçılarına pedaqoji dəstək;
- Uğur situasiyası;
- Mədəni ünsiyyət;
- Əməkdaşlıq və birgə yaradıcılıq: müəllim və şagird birgı inkişaf edir, böyüyür;
- İşlək didaktik və metodik prinsiplər;
- Təlim –tərbiyə prosesinin iştirakçılarının özünütəhsil sistemi üçün informasiya – didaktik Təminat (müəllim, şagird, valideyn);
- Şəxsiyyətin humanist səriştəsinin artırılması (müəllim, şagird, valideyn).

Xüsusi diqqət müəllim şəxsiyyətinə yönəlmiş olur. Uşaqları sevən müəllim - ən gözəl müəllimdir, qəlbini uşaqlara verməyi bacaran müəllim - ən gözəl ustaddır. Müəllim intellekt işığı olmalıdır ki, şagirdlərdə təlimə maraq və sevgini oyatmağı bacarmalıdır, təlim – tərbiyə prosesində çətinlik yaşayan şagirdin yanında sədaqətli dost kimi olmalı və ona istiqamət verməlidir:

– Əsl müəllim şagirdlərə müstəqil düşünməyi, daxili potensialına inanaraq güvənməli, öz gücünə inanmağa sövq etməlidir;
– Dərk etdirməlidir ki, mənəvi inkişafın birinci pilləsi şəxsiyyətin yaradıcılığıdır;
– Uşağı yaradıcılığa ruhlandırmalıdır;

Uşaqda fərqli potensialı görməlidir:

– Öz xəsiyyətinin yüksək keyfiyyətlərini nümayiş etdirmək, insanlarla, şagirdlərlə incə rəftar etmək;
– Dözümlülük və tolerantlığı özündə tərbiyə etmək;
– Hər bir uşağın sonsuz yaradıcılıq gücünə özündə inam yaratmaq;
– Humanist pedaqogikanın insanpərvərlik gücünə inam .

Bizim tədqiqatın aktuallığı və problemə dair aparılan araşdırmaların əsas nəbzi aşağıdakı suallarda müşahidə olunacaq:

– Kim öyrədir?
– Nəyi öyrədir?
– Necə öyrədir?

– Müasir məktəbin məzunu necə olacaq? Öz həyat missiyasını necə yerinə yetirəcək?

Təhsilin məqsədlərindən biri differensiallaşmadırsa (fərdi yanaşma), uşaq öz həyat fəaliyyətini müxtəlif istiqamətlərdən onun bütövlüyünü formalaşdıran aspektlərdə reallaşdırır ki, bu da tamlıq təşkil edən individ, subyekt, şəxsiyyət vəhdətini təşkil etməlidir.

Təlim - tərbiyə və uşağın formalaşması proseslərində pedaqoji dəstəyin yerini müəyyən etməklə uşağın yaşadığı şəxsi həyatının faktlarına və prosesdə sosiallaşma faktorlarına istinad edərək alimlər və tədqiqatçılar pedaqoji reallığın yeni münasibətlər sisteminin yaratdığını göstərirlər.

Ənənəvi sistemdə didaktik prosesin müəllim- şagird arasında vasitə olaraq bilik, norma, nümunə çıxış edir. İnnovativ sistemdə əlaqənin predmeti olaraq uşağın təlim fəaliyyətinin nəticələri olur. Təlimin vəzifələrinin həlli şəxsiyyətyönümlü və inkişafetdirici situasiya daxilində olur, şagirdə özü haqqında yeni təsəvvürlər yaradır, həyatın mənası, dəyərlərini və açdığı imkanlarını göstərir.

Təlimin ilkin mərhələlərində kiçik yaşlı məktəblilərdə biliklər sisteminin bünövrəsi qoyulur ki, gələcək illərdə əqli və praktik əməliyyatlar səriştəsinin, bacarıq və vərdişlərin formalaşmasına imkan yaradılsın. Bu bacarıqlar olmadan təlim və praktik fəaliyyətlərin həyata keçirilməsi imkansız olardı. Qeyd etdiyimiz fundamentin olmaması bir çox hallarda məktəbin orta siniflərində oxuyan şagirdlər üçün təlimin mənimsənilməsində problemlər yaradır, təhsil prosesindəki boşluqları üzə çıxarır. Əgər uşağın inkişafında ciddi problemlər müşahidə edilmirsə zamanında uşağa adekvat köməklik göstərmək olar. Lakin bu məqamda təlim fəaliyyətində uşağın hansı çətinliklərlə üzləşməsinin səbəblərini konkretləşdirmək mütləqdir.

Müasir məktəb təhsilinin modernləşdirilməsi dövründə diqqəti çəkən vacib məqam uşaq şəxsiyyətinin sərbəst və ahəngdar inkişafı üçün şəraitin yaradılması olmuşdur və bu zəmində keyfiyyətli təhsil alma çərçivəsində təhsil alanın qabiliyyət və bacarıqlarının reallaşdırılmasına şəraitin yaradılmasıdır.

E.A.Krükovanın şəxsi-inkişafetdirici situasiyanın strukturu haqqında tədqiqatlarını innovativ yanaşmalara aid etmək olar. Burada təqdim olunan komponentləri göstərməyi zəruri hesab edirik:

- şəxsi-inkişafetdirici situasiyanı yaradan pedaqoq;

- şəxsi inkişafının ehtiyacını duyan şagird;

- şəxsiyyət tərəfindən tələb olunan həyat fəaliyyəti;

- situasiyanın inkişafına dair konmponentlər;

- dialoqlar sistemi, oyunlarla imitasiya və s.

Situasiyanın baş vermə əlamətləri:

- məzmun axtarış və seçim prosesində uşağın iştirakı;

- şəxsi funksiyaların üzə çıxmarılması – məsuliyyət, subyektivlik, refleksiya və s.

Bununla yanaşı bir çox aparılmış tədqiqatlarda təhsil sisteminin monitorinqi zamanı qarşıya qoyulmuş vəzifələrin reallaşdırılmasında problemlər üzə çıxmışdır:

➢ məktəblilərin psixoloji durumunda yaranmış problemlər;

➢ təlim fəaliyyətində mənfi motivasiyanın güclənməsi;

➢ ümumtəhsil məktəbləri üçün nəzərdə tutulmuş təhsil proqramlarının tətbiqi prosesində yaranan çətinliklər və bunların mənimsənilməsindən əziyyət çəkən şagirdlərin durumu;

➢ davranışında nöqsanlar müşahidə edilən şagirdlərin sayının artması məktəb dezadaptasiyasına aid risk qrupuna aid edilənlər.

Buradan məlum olur ki, təlim prosesində problemlər yaşayan şagirdlər üçün didaktik dəstək ən önəmli məqamlardan biridir. Klassik və müasir təhsil elminin mərkəzi məsələlərindən olan təlimdə çətinlik çəkən və geri qalan şagird tipologiyasına və onlarla bağlı təsnifatların verilməsini müşahidə etmişik. Slavina L.S. təlimdə mənimsəmədə çətinlik çəkən şagirdləri beş qrupla təsnifatını verir:

➢ təlimə münasibəti düzgün olmayan şagirdlər;

➢ verilmiş təlim materiallarının mənimsənilməsində çətinlik çəkənlər;

➢ təlimi iş üçün vərdişləri və qabiliyyətləri formalaşmamış şagirdlər;

➢ təlim əməyinə alışqanlıqları olmayan şagirdlər;

➢ idrakı və təlimi maraqları aşağı olan şagirdlər.

L.V.Xuxaryova və V.A. Savelyevanın təsnifatında təlimdə geri qalmanın səbəbləri aşağıdakı səviyyələrlə göstərilmişdir: fizioloji-anatomik, psixoloji – funksional, şəxsi emosional və şəxsiyyətin sosial keyfiyyətləri (5. s. 75).

N.P. Lokalovaya görə şagirdlərin təlimdə geriləmələri - təqdim edilmiş təhsil standartları və təlim proqramları ilə təhsilin məzmununda nəzərdə tutulmuş tematik geriləmələr olur ki, bu da öz növbəsində nəticəyönümlü təlim prosesinin yaradılmasında çətinlik yaradır (5. s. 85).

Q.M.Kocaspirovanın fikrincə təlim prosesində aşağı nəticələrin əldə olunma səbəbi təqdim edilmiş təlim proqramından nisbətən təhsilin məzmununun mənimsənilməsi olmuşdur (5, s. 129)

Y.Z.Gilburx şagirdin təlimdə geriləməsinin ümumi və spesifik xüsusiyyətlərini göstərir. Ümumi geriləməni şagirdin məktəb proqamı ilə nəzərdə tutulmuş əsas fənlərdən geriləməsi deməkdir. Spesifik geriləmə isə yalnız bir fənni nəzərdə tutur, baxmayaraq ki, digər fənlər üzrə ümumi gedişat normal ola bilər (4. s. 78).

Məktəbdə təlim prosesində şagirdin geriləməsi probleminin effektiv həlli yolunun tapılması üçün ilkin səbəblər aşkarlanmalıdır.

Q.İ.Vergels, V.A.Matveyeva və A.İ.Rayeva düşünürlər ki, məktəblinin təlimində gerilənməsinin səbəblərini aşağıdakı kimi təsnifatını vermək olar

-şagirdin psixi xüsusiyyətləri ilə bağlı;

- biliyin keyfiyyətinin və aşağı həcminin azalması
- yetərincə formalaşmamış təlim fəaliyyəti;
- təlim fəaliyyətinin deformasiyası ətrafdakılarda münasibətdən asılı olaraq (5. s 66)

Y.K.Babanski və N.İ. Muraçkovski təlimdə geriliyin biliklərdə boşluq kimi göstərməklə əməyin təşkili prosesində yetərincə vərdişlərin formalaşmaması, psixi proseslərdə inkişafla bağlı problemlərin olmasını vurğulayırlar (4. s 78). Tədqiqatçı İ.V.Dubrovinanın rəhbərliyi altında problemlə bağlı araşdırma aparan qrup üzvləri təlimdə geriliyin əsas səbəblərini iki qrupa ayırmışdır: geniş mənada idrakı fəaliyyətlə əlaqələnməsi – şagird pis dərk edir, mənimsəmənin keyfiyyəti çox aşağıdır, uşaqların motivasiyasında inkişafın aşağı olması (3. s. 106)

Tədqiqatçı P.P.Borisov təlimdə geriliyin səbəblərini daha dəqiq təsnifatla verməyə çalışaraq, səbəbləri dörd böyük blokda cəm edir:

- pedaqoji səbəblər (ayrı-ayrı fənlərin tədrisində səthi yanaşmalar, biliklərdə öncədən yaranmış boşluqlar, sinifdən sinifə keçid prosesinin düz aparılmaması)

- sosial -məişət xarakterli səbəblər (ailədə maddi problemlər, valideyn laqeyidliyi, uşağa nəzarətin zəif olması, uşağın gün rejiminin olmaması).

- Fizioloji səbəblər (xəstəliklər, sinir sistemində olan problemlər)

- Psixoloji səbəblər (yaddaş və diqqətin inkişafı, xüsusiyyətləri, nitq inkişafında ləngimələr, idrakı maraqları aşağı səviyyədə olması) (2. s 153-158).

Nəticə

Beləliklə, məktəb təlimində yaranan çətinliklərin səbəbləri təlimdə geriləmələr kimi başa düşmək lazımdır və bu hadisənin üçtərəfli araşdırılması məqsədə uyğundur – pedaqoji, psixoloji və psixi olmaqla vəhdət şəkildə. Təlimdə uğursuzluğun ən başlıca səbəblərdən biri pedaqoji səbəbdir – müəllim səriştəsinin olmaması və effektiv təlim üsullarından istifadənin olmaması.

Pedaqoji dəstək anlayışının bir neçə tərifini göstərmək olar. Q.M. Kocaspirovaya görə pedaqoji dəstək – peşəkar pedaqoqlar və psixoloqlar tərəfindən dərhal və təxirəsalınmaz köməkdir ki, bu öz növbəsində uşağın fərdi problemlərinə yönəlməlidir. Bu problemlər onun fiziki və psixi durumu ilə əlaqəli ola bilər, yaşadığı və fəaliyyət göstərdiyi mühit çərçivəsində kommunikasiya məsələsinə dair ola bilər, özünütəsdiq, təlim naliyyətlərində uğur və s. əhatə edə bilər.

O.S.Qazman pedaqoji dəstək anlayışının tərifini aşağıdakı kimi verir – insanın şəxsi potensialını açan, şagirdlərə, müəllimlərə və valideynlərə sosial, psixoloji, şəxsi çətinlikləri dəf etmək üçün köməklik göstərən pedaqoji fəaliyyət sistemidir. Bu elə bir prosesdir ki, uşaqla birgə onun maraqlarından çıxış edərək konkret məqsədləri müəyyənləşdirmək, məqsədə doğru qarşılanacaq çətinliklərin aradan qaldırılmasında optimal seçimlərin edilməsinə imkan yaradılır. Proses çərçivəsində şagirdin müstəqilliyi, sərbəst seçim imkanları, onun ləyaqətinin özünütərbiyənin həyat tərzinə uyğun formalaşması və bunların təsiri altında müstəqil olaraq təlimdə istənilən nailiyyətlərin əldə olunması xüsusilə gözlənilməlidir. Pedaqoji dəstəyin məqsədi- maksimal dərəcədə şəraitin yaradılması və şagirdin təlimi tələblərinin ödənilməsi, özünütəsdiq olmalıdır [36].

Müşahidələrimizdən də məlum oldu ki, motivasiyası və idrakı maraqları aşağı olan şagirdlər təlim prosesində daha çox çətinliklərlə üzləşməli olur.

Diaqnostik mərhələdə pedaqoji dəstəyin göstərilməsi məqsədi ilə uşaqla kontakt yaradılmalıdır, təlimdə geriləmələrin səbəbləri öyrənilməlidir, uşaqla birgə problem hərtərəfli öyrənilib dəyərləndirilməlidir, problemin diaqnostikası aparılmalıdır.

Araşdırılma aparılan mərhələdə bu cür uşaqların məktəbdə, ailədə, dərs prosesində əks-əlaqələrinin necə qurulduğu öyrənilməlidir. Bu mərhələdə şagirdin şəxsi, intellektual, inkişafının fərdi qaydada, dəqiq diaqnostikasının aparılması mütləqdir.

Psixoloqla birgə uşağın təlim çətinliklərinə dair kartotekanın hazırlanmasını təmin etmək və buraya sosial-psixoloji məlumatları daxil etmək bu mərhələyə aiddir. Bu uşağın fəaliyyəti çərçivəsində biliklərin əldə olunması prosesinin araşdırmaq, şəxsiyyətlər arası münasibətlərdə olan problemləri üzə çıxarmaq, yaranmış problemlərin həlli yolları və üsullarını müəyyən etmək də mütləqdir.

Razılığa gəlmə mərhələsində problemlə bağlı məsuliyyət və funksiyaların bir qisminin cavabdehliyini uşağın üzərinə qoymaqla, əməkdaşlıq haqqında "müqavilə" bağlanması nəzərdə tutulmalıdır

Fəaliyyət mərhələsində birgə və fərdi konsultasiyaların, oyunların, söhbətlərin təşkili vacib məqamlardandır. Proses daxilində uşaqlar adekvat şəkildə problemlərə münasibət bildirir, pozitiv qaydada imkanlarını dəyərləndirməyi bacarırlar. Bu məqam şagird üçün aktiv təlim və təlimdən kənar fəaliyyətin təmin edilməsi, onun özünüreallaşdırması, uğur situasiyasının yaradılması çox vacibdir.

Müəllim uşağın şəxsi potensialına onun gücünə əsaslanmaqla imkanlarına inam yaratmalıdır. Təlim prosesində çətinlik yaşayan şagirdin təlim nəticələrinin yüksəldilməsi üçün onun daxili imkanlarından istifadə etməklə çətinliklərin öhdəsindən müstəqil şəkildə gələcəyinə inam yaratmaq lazımdır.

Refleksiya mərhələsində fəaliyyətin keçmiş mərhələlərində əldə olunan uğur və uğursuzluğun birgə müzakirəsi, problemin həlli imkanlarının araşdırılması müəllimin pedaqoji təcrübəsinə istinad etməklə birgə işin qurulması nəzərdə tutulur.

Müəllim və şagirdin birgə uğurlu fəaliyyətində bəzi şərtlərin gözlənilməsini nəzərdən keçirək:

- Kömək və dəstəyi uşağın razılığı əsaında qurmaq: köməyi özü də istəyə bilər və yaxud şagirdə təklif edilmiş köməyin həvəslə qəbul etməsi;

- Öz problemlərinin həllində uşağın fəallıq göstərməsi;

- Birgə əməkdaşlıq. Bu şərt məzmunun və texnoloji baxımdan pedaqoji dəstəyin mahiyyətini özündə əks etdirir, problemin konstruktiv həllində köməklik göstərir Müəllim və şagirdin birgə fəaliyyətinin nəticəyönümlü xüsusiyyətlərini özündə əks etdirir.

- Konfidensiallıq prinsipinin gözlənilməsi. Şəxsi söhbətlərin, konsultasiyaların aparılmasında uşaqda müəllimə qarşı inamın yaranmasına, ilkin diaqnostik metodikaların tətbiqi zamanı çöx vacib və incə bir işdir..

- Xeyirxahlıq və dəyərin verilməsi (dəyərsizləşdirmə də ola bilər).

- Uşağın hüquq və maraqlarının müdafiəsi. Müəllim və tərbiyəçi hər bir vəziyyətdə uşağın tərəfində olmalıdır və onun maraqlarından çıxış etməlidir. Müəllim daim dəstək olur, şagirdin mövqeyini müdafiə edir.

İstifadə edilmiş ədəbiyyat

1. Газман, О.С. Педагогика свободы: путь в гуманистическую цивилизацию XXI века // Классный руководитель. – 2000. – № 3.

2. Локалова Н.П.Школьная неуспеваемость: причины, психокоррекция, психопрофилактика: учеб.пособие . – СПб.: Питер, 2009)

3. Коджаспирова Г.М. Педагогика: учебник. – М.: КНОРУС, 2010

4. Славина Л.С. Трудные дети: Избранные психологические труды./ Под ред. В.Э.Чудновского. – М.: Изд-во Московского психолого-социального института, Воронеж: МОДЭК, 2006)

5. Хухарева Л.В., Савельева В.А. «Школьные успехи» комплексная психолого-педагогическая программа для младших школьников с трудностями в обучении// Вестник практической психологии образования -2009 - № 3 (20)

THE PLACE OF PROBLEM SOLVING IN THE FORMATION OF MATHEMATICAL SKILLS IN ELEMENTARY GRADES

İBRİDAİ SİNİF ŞAGİRDLƏRİNDƏ RİYAZİ BACARIQLARIN FORMALAŞDIRILMASINDA MƏSƏLƏ HƏLLİNİN YERİ

CƏLİLOVA LƏTİFƏ QƏRİBAGA QIZI

Dissertant Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialı Riyaziyyat və İnformatika kafedrası, baş müəllim.

Summary

A significant part of the teaching period in the school mathematics course is intended for problem solving. Through problem solving, students acquire mathematical knowledge, skills, and skills. In the presented problems, life situations should be described and students should be taught the ability to solve such problems. This process will form the ability of students to apply the mathematical knowledge they have learned. At the same time, through problem solving, it is possible to create interest in mathematics in students and to engage them in creative activities. Every mathematical problem is solved by a judgment process, and each step of the judgment process requires the use of mental operations. When the correct method for solving the problem is applied, students become interested in solving the problem, and cognitive activity is increased through the solved problem.

Key words: problem solving, reductive-algorithmic, reductive-algorithmic, reductive-heuristic, reductive-heuristic, research skills.

Xülasə

Məktəb riyaziyyat kursunda tədris müddətinin xeyli hissəsi məsələ həlli üçün nəzərdə tutulmuşdur. Məsələ həlli vasitəsilə şagirdlər riyazi bilik, bacarıq və vərdişlərə yiyələnirlər. Təqdim edilən məsələlərdə həyati situasiylar təsvir olunmalı və şagirdlərdə bu cür məsələlərin həlli bacarığı aşılanmalıdır. Bu proses şagirdlərdə öyrəndikləri riyazi bilikləri həyata tətbiqetmə bacarığı formalaşdırar. Eyni zamanda məsələ həlli vasitəsilə şagirdlərdə riyaziyyata maraq yaratmaq, onları yaradıcı fəaliyyətə cəlb etmək mümükündür. Hər bir riyazi məsələnin həlli üsulu və həlli gedişi əsasında mühakimə prosesi durur, mühakimə prosesinin isə hər bir addımı təfəkkür əməliyyatlarından istifadə etməyi tələb edir. Məsələnin həlli üçün düzgün metod tətbiq edildikdə şagirdlərdə həm məsələnin həllinə maraq yaranır, həm də həll olunan məsələ vasitəsilə idrak fəallığı artırılır.

Açar sözlər: məsələ həlli, reproduktiv-alqoritmik,produktiv-alqoritmik, reproduktiv-evristik, produktiv-evristik, tədqiqatçılıq bacarığı.

Metodistlərin və praktik müəllimlərin fikrincə, ibtidai təhsil səviyyəsində riyaziyyat təlimində məzmun xətlərinin əsas hədəfi şagirdlərdə məsələ həlli bacarıqlarının formalaşdırılmasıdır. Məsələ həlli, məsələ həllinə verilən elmi-nəzəri şərh, bu şərhlərin reallaşdırılması ilə şagirdlərin idrak fəallığının artırılması üçün geniş imkanlar vardır. Riyaziyyat dərslərində şagirdlərin idrak fəallığını artırmaq üçün təlim prosesində müstəqillik, təşəbbüskarlıq elementlərinə diqqət yetirmək lazımdır. Məhz bu iki fəaliyyət növü şagirdlərin yaradıcı riyazi təfəkkürünün inkişafında mühüm rol oynayır. Məktəb riyaziyyat kursunda tədris müddətinin xeyli hissəsi məsələ həlli üçün nəzərdə tutulmuşdur. Məhz məsələ həlli vasitəsilə şagirdlər riyazi bilik,

bacarıq və vərdişlərə yiyələnirlər. Bu baxımdan riyazi təlimdə hesab əməllərinin xassələrinə aid məsələlərə, onların strukturuna, tiplərinə, həlli mərhələlərinə, müxtəlif üsullarla həllinə və modelləşdirmə elementlərinə geniş yer verilməsi nəzərdə tutulur. Təqdim edilən məsələlərdə həyati situasiylar təsvir olunmalı və şagirdlərdə bu cür məsələlərin həlli bacarığı aşılanmalıdır. Bu proses şagirdlərdə öyrəndikləri riyazi bilikləri həyata tətbiqetmə bacarığı formalaşdırar.

İbtidai sinif şagirdlərində məsələhəlletmə bacarığının inkişaf etdirilməsi məqsədilə iki cəhətə xüsusi diqqət yetirilməlidir: 1) məsələ həllinin mərhələlərinə düzgün riayət edilməsi; 2) şagirdlərin rast gəldiyi çətinliklərin xarakterinin müəyyən edilməsi və aradan qaldırılması.

Eyni zamanda məsələ həlli vasitəsilə şagirdlərdə riyaziyyata maraq yaratmaq, onları yaradıcı fəaliyyətə cəlb etmək mümükündür. Bunun üçün seçilən məsələlər ilk növbədə həyatdan götürülməli, düşündürücü olmalı və şagirdi yaradıcı fəaliyyətə sövq etməlidir. Məsələ həllinə elmi-nəzəri şərh verməklə şagirdlərin idrak fəallığının artırılmasında aşağıdakı üsullardan istifadəni məqsədəuyğun hesab edirəm: 1) həll olunan məsələlərin oxşar və fərqli cəhətlərinin müəyyən edilməsi (verilmiş məsələnin oxşar və fərqli cəhətlərini ayırma bacarığı şagirdlərə mürəkkəb problemləri başa düşməyə imkanı verir); 2) verilmiş məsələnin qısa şərtinin müəyyən edilməsi (məsələ ilə bağlı mühüm əlamətləri üzə çıxarmaq, təhlillər aparmaq, məsələnin qısa şərtini təqdim etmək şagirdlərdə həmin vərdişlərin formalaşmasına xidmət edir); 3)məsələ həllinə maraq yaratmaqla şagird nailiyyətlərinin müəyyən edilməsi (şagirdlərin məsələ həlli vasitəsilə nailiyyətlər əldə etmələri onlarda özünəqarşı inam yaratmaqla yanaşı, onları praktik məsələ və misalların həllinə təhrik edir); 4) məsələ həlli zamanı fərziyyələrin irəli sürülməsi və onların yoxlanılması (məsələ həlli zamanı ümumi qaydalardan çıxış edərək məsələ haqqında proqnozlar vermək, fərziyyələri irəli sürmək üçün yaradılmış təlim şəraiti, həminfərziyyələri yoxlamaq və əldə edilən nəticələri aydın izah etmək bacarıqlarının inkişafını təmin edir).

Araşdırma zamanı məlum oldu ki, elmi-metodik ədəbiyyatda riyazi məsələyə sistem-struktur yanaşma ilə bağlı tədqiqatlar çox azdır. Məsələ anlayışına sistem-struktur yanaşma metodiki problem olsa da, bir qədər mücərrəd məzmun daşıyır. Məhz ona görə də təcrübəli müəllimlər, metodistlər bu aspektə çox az meyil edirlər. Halbuki, riyazi məsələyə, xüsusilə mətn məsələlərinə sistem-struktur yanaşma ilk növbədə məsələnin xarici (informasiya) strukturunu və daxili strukturunu təyin etməyə imkan verir. Məsələnin strukturunun açılması məsələnin həll üsulu və həll sxemi haqqında dəqiq təsəvvür yaradır, həll sxemini asanlıqla tərtib etməyə imkan verir. Xüsusilə, məsələnin xarici (informasiya) strukturu sanki həll sxeminin modulu kimi özünü göstərir.

Tipologiyaya aid məsələlərin əksəriyyətinin həlli aşağıdakı dörd mərhələni əhatə edir. Həll prosesinin birinci mərhələsində şagird tərəfindən tapşırığın şərtinin başa düşülməsi, məqsədin ayrı-ayrı elementlərinin mənimsənilməsi, yaddaşın mürəkkəb sistemində lazımi məlumatların axtarılması və biliyin bərpası həyata keçirilir.

İkinci mərhələdə şagird münasib olan həll metodunu seçir, müstəqil və ya müəllimin köməyi ilə iş yerinə yetirilir.

Üçüncü mərhələdə layihiləşdirilən iş plana uyğun olaraq həyata keçirilir, nəticələr qeyd olunur.

Dördüncü mərhələdə nəticə təhlil olunur, həll variantları təkmilləşdirilir, alınan məlumatlar sistemləşdirilir.

Hər bir riyazi məsələnin həlli üsulu və həlli gedişi əsasında mühakimə prosesi durur, mühakimə prosesinin isə hər bir addımı təfəkkür əməliyyatlarından istifadə etməyi tələb edir. Məsələnin həlli üçün düzgün metod tətbiq edildikdə şagirdlərdə həm məsələnin həllinə maraq yaranır, həm

də həll olunan məsələ vasitəsilə idrak fəallığı artırılır. Məlumdur ki, mühakimə, tədqiqat, analiz və sintez metodları riyaziyyatın tədrisində, xüsusilə də məsələ həllində mühüm rol oynayır. Praktik həll üsulu və emprik metodlara əsaslanan məsələlər nəzəri-məntiqi təfəkkürün işə qoşulmasını tələb edir.İdraki məsələlərin həlli induktiv-deduktiv, analiz-sintez, müqayisə, ümumiləşdirmə və s. təfəkkür əməliyyatları üzərində qurulur. İdraki məsələlərin həllinin hər bir mərhələsində evristik və müxtəlif məzmunlu problem situasiyaların aradan qaldırılması həyata keçirilir.

Metodiki ədəbiyyatda riyazi məsələlərin həlli ilə əlaqədar fikri fəaliyyət bacarığının aşağıdakı səviyyələri fərqləndirilir:

1) reproduktiv-alqoritmik (şagird həll edilmiş məsələ əsasında yeni məsələni həll edir);

2) produktiv-alqoritmik (həll edilmiş məsələni müxtəlif üsullarla həll edir);

3) reproduktiv-evristik (şagirdlər sinifdə həll etdikləri məsələlərin doğru yerinə yetirilib və ya yetirilmədiyi haqqında düzgün qərar verir);

4) produktiv-evristik (şagirdlər onlara verilən yeni məsələni həll edir).

Riyaziyyat tədrisində şagirdlərin idrak fəallığını artırmaq yollarından biri də məsələnin müxtəlif üsullarla həll edilməsidir. Riyaziyyat məsələlərinin müxtəlif üsullarla həll edilməsi şagirdlərdə tədqiqatçılıq qabiliyyətini inkişaf etdirir.

Şagirdin tədqiqatçılıq fəaliyyəti dedikdə biz o fəaliyyəti nəzərdə tuturuq ki, onun üçün daxili motivasiya; xüsusi struktur komponentləri: problemin müəyyənləşdirilməsi, verilənlərin təhlili, fərziyyənin irəli sürülməsi, onun yoxlanılması, nəticələrin ifadə olunması; fəaliyyətin qeyri-müəyyənliyi; tədqiqatçılıq fəaliyyətinin müəyyən mərhələlərində və ya bütün mərhələlərində şagirdlərin yüksək müstəqillik dərəcəsi; şagirdlərin biliklərini zənginləşdirən obyektiv və ya subyektiv yeni nəticənin əldə olunması xarakterikdir.

Şagirdlərdə tədqiqatçılıq bacarıqlarının formalaşdırılması müəyyən tədqiqat mühitində konkret riyazi modellərin tədqiqi prosesində baş verməlidir. Biz belə düşünürük ki, kiçikyaşlı məktəblilər üçün belə optimal tədqiqat mühitini tədqiqatçılıq çalışmaları (məsələləri) yaradır. Başqa sözlə elə çalışmaların həlli ki, onun yerinə yetirilməsi zamanı şagirdlərin riyazi tədqiqatın əsas mərhələlərini keçməsi nəzərdə tutulur.

Bu seçim onunla əlaqədardır ki, tədqiqatçılıq mühiti bir sıra qeyri standart çalışmaların həlli üçün zəngin funksional imkanlara malikdir. Əsas pedaqoji məqsəd kiçikyaşlı məktəbliləri təlim fəaliyyətində qarşıya çıxan qeyri standart məsələləri müstəqil həll etməyi öyrətmək, əsas anlayışların mexaniki yadda saxlanılması və bir sıra vərdişlərin yaranmasına yönəlmiş riyaziyyatın tədrisi üzrə formalaşmış təcrübəyə dəyişiklik gətirməkdir.

Əgər şagird həll etdiyi məsələni ikinci üsulla həll edirsə, deməli, bu şagird üçün tədqiqat fəaliyyətidir. Şagirdlər o zaman məsələni müxtəlif üsullarla həll edə bilirlər ki, onlar kəmiyyətlər arasındakı asılılıqların riyazi mahiyyətini dərk etsinlər.Məsələnin müxtəlif üsullarla həlli prosesində şagirdlər məsələdə verilənlərlə axtarılanlar arasındakı asılılığı daha yaxşı dərk edir, belə asılılığın bütün mümkün variantlarını tapmağı öyrənirlər. Şagirdlərdə tədqiqatçılıq bacarığının formalaşdırılmasında qeyri-standart çalışmalardan istifadə metodikasını siniflər üzrə çalışma nümunələrində izah edək.

I sinifdə 10 dairəsində ədədlər üzərində toplama və çıxmaya aid məzmun standartlarının formalaşdırılması zamanı istifadə edilən oyuna diqqət yetirək.

Oyun cütlərlə təşkil edilə bilər. Şagirdlərdən biri 1 və ya 2 ədədlərindən birini söyləyir. Digər şagird söylənilən ədədə 1 və ya 2 ədələrindən birini əlavə edib nəticəni deyir. Yenə birinci

şagird həmin nəticəyə 1 və ya 2 ədədlərindən birini əlavə edib yeni cəmi söyləyir və s. Birinci olaraq 10 ədədini söyləyən oyunçu qalib sayılır. Oyunda qələbə çalmaq üçün necə oynamaq lazımdır?

İlk baxışda çətin görünən məsələdir. Lakin onun həllini tapmaq bir o qədər çətin deyil. Son nəticədən başlayaraq mühakimə yürüdülməlidir. Belə ki, 10 ədədini o oyunçu söyləyir ki, ondan əvvəlki gedişdə cəmdə 7 ədədinin adını çəkir. 7 ədədini söyləmək o zaman mümkündür ki, o, 4 ədədini söyləmiş olsun. 4 ədədini yalnız 1 ədədini söyləyən deyə bilər. Deməli, qalib gəlmək üçün oyuna başlamaq və 1 ədədini söyləmək, sonra isə oyunu düzgün aparmaq lazımdır.

Oyunun gedişi şagirdlərdə maraq doğurmaqla, toplamaya aid tapşırıqların yerinə yetirilməsi baxımından faydalıdır. Qeyd edək ki, bu oyundan 20 dairəsində də istifadə etmək mümükündür. Oyunu 13, 17 və s. qədər oynamaq olar.

Bundan əlavə elə tapşırıqlardan istifadə etmək olar ki, onlarda şagirdlərin həyat təcrübəsinə yaxın və imkanlarına uyğun materiallar əsasında düzgün mühakimələrin qurulması və onların əsaslandırılması tələb olunsun. Belə tapşırıqların həlli zamanı şagirdlər faktiki olaraq tədqiqatlar aparmalı, fərziyə irəli sürməli, onu yoxlamalı olur, müxtəlif, o cümlədən, riyazi obyektləri tutuşdurmağı, təhlil və tərkibin sadə növlərini yerinə yetirməyi, cins və növ anlayışları arasındakı əlaqəni müəyyənləşdirməyi öyrənirlər, başqa sözlə, belə çalışmalar şagirdlərin təfəkkür əməliyyatlarının təkmilləşdirilməsinə yönəlmişdir. Bu cür tapşırıq nümunələrini nəzərdən keçirək.

Verilən sıraları davam etdirin:



9, 7, , , 1

2, 4, , , 10

Belə tapşırıqların həlli məktəblilərdən tədqiqat aparmaq, mühakimələr yürütmək, diqqətli olmaq, müşahidəçilik və ümumiləşdirmə bacarıqları tələb edir.

Müxtəlif əlamətlərə görə təsnif edin:

8 + 1	6 + 2	4 – 2	10 – 1
9 – 1	7 + 2	3 + 2	5 + 1

Şagirdlərin tədqiqatçılıq bacarıqlarının formlaşdırılmasına, istiqamətlənmiş, onlarda idrak proseslərinin inkişafına təsir göstərmək məqsədilə fənn kurikulumu üzrə nəzərdə tutulan bilik, bacarıq və vərdişlərin aşılanması üzrə tapşırıqların ənənəvi təqdimat formasından fərqli şəkildə verilməsinə də mümkündür. Bir neçə nümunə göstərək.

Sağda soldakı bayraqlardan (ədədlərdən) çox (kiçik və ya böyük) bayraq (ədəd) çəkin (yazın).

a)



b)



Həndəsi fiqurlardan və ya ədədlərdən ibarət olan sıranın davam etdirilməsi

a)

2, 6, 10, …, …

1, 4, …, 10, …

b)

Təsnifetməyə aid tapşırıqlar:

a) ədədləri iki qrupa ayırın: 12, 30, 3, 18, 1, 2, 7, 14

b) adlı ədədləri qruplara ayırın: 20 m, 8 kq, 17 l, 13 dm, 1saat, 100 kq, 15 dəq, 40 sm, 23 saat

c) ifadələri qruplara ayırın və qiymətini tapın:

16 + 7	7 +13	19 – 8	12 – 5
15 + 4	6 - 4	11 – 7	15 + 5
2 + 7	18 – 5	14 – 2	9 + 8

Bundan əlavə şagirdlərdən məntiqi əsaslandırma tələb edən qeyri-standart tapşırıqlar da tədqiqatçılıq bacarıqlarının formalaşdırılmasına əhəmiyyətli təsir göstərir. Belə ki, şagirdlər bu zaman tədqiqatçılıq bacarığı üçün spesifik olan problemin müəyyənləşdirilməsi, verilənlərin təşkili və təhlili, fərziyyənin irəli sürülməsi, onun yoxlanılması, nəticələrin ifadə olunması kimi əməliyyatları yerinə yetirməli olurlar. Məsələn, "Qutuda 2 qırmızı və 3 göy qələm var, Qutuya baxmadan neçə qələm götürmək lazımdır ki, onların içərisində 1 göy qələm olsun?

Tapşırığın həlli zamanı şagirdlər təxminən aşağıdakı kimi mühakimə yürüdürlər:

"1 qələm götürmək yaramır, çünki baxmadan götürdükdə o qırmızı rəngli ola bilər. Baxımadan 2 qələm götürsək, ola bilər ki, qələmlərin ikisi də qırmızı rəngli, biri göyrəngli, biri qırmızı rəngli və ya hər ikisi göy rəngli olsun. Lakin bu zaman bütün hallarda 1 göy rəngli qələm olmur. Deməli, 2 qələm götürmək də yaramır. Qutudan 3 qələm götürsək, onların 3-ü də göyrəngli, 2-si göy, 1-i qırmızı rəngli, 1-i göy rəngli, 2-si qırmızı rəngli ola bilər. Burada bütün hallarda heç olmazsa, 1 göy rəngli qələm olur. Deməli, cavab 3 qələm olar."

Belə tapşırıqlar həm də şagirdlərin nitqinin inkişafına əhəmiyyətli təsir göstərir.

Ədədlər müəyyən qayda ilə yazılıb. Hər bir sütun və sətir üçün qaydanı müəyyən edin və nöqtələrin yerinə uyğun ədədləri yazın:

30	20	50	50	20	70	40	40	0
10	70	80	40	10	20	50	20	30
40	50	..	90	30	..	90	60	..

Ədədləri iki qrupa ayırın: 25, 34, 18, 30, 32, 35, 36, 40, 10

Bu tapşırığın yerinə yetirilməsi zamanı şagirdlərə aydınlaşdırmaq lazımdır ki, qruplara ayrılma əlaməti verilməmişdir, onu şagirdlər özləri müəyyən etməlidirlər. Ədədlər qruplara müxtəlif

əlamətlərə görə ayrıla bilər: cüt və tək ədədlər; sonu sıfırla qurtaran və sonu sıfırla qurtarmayan ədədlər; 5-ə bölünən və 5-ə bölünməyən ədədlər və s.

Bu zaman şagirdlərə söyləmək lazımdır ki, onlar bütün ədədlərin qruplara ayrılmasını nəzarətdə saxlamalıdırlar. Belə olmalı deyil ki, bir ədəd iki qrupda olsun.

Qutuda 4 sarı, 6 yaşıl kürəcik var. Qutudan 5 kürəcik götürdülət.

a) onların içərisində heç olmasa 1 sarı kürəcik varmı?

b) onların içərisində heç olmasa 1 yaşıl kürəcik varmı?

c) 1, 2, 3, 4, 5, 6 ədədlərindən istifadə edərək elə ədələr yazın ki, onların cəmi 100 olsun.

Geniş mənada çalışma həm biliyin mənimsədilməsi vasitəsi, həm bacarıq və vərdişlərin daşıyıcısı və inkişafetdiricisi, həm də təlimin məzmununun mənimsənilməsinə nəzarət vasitəsi olmaqla təlim-idrak fəaliyyətinin təşkili və idarəetmə vasitəsi, metodik priyomlar sistemi və təlim metodlarının ifadə formalarından biridir. Çalışmalar sistemi biliklər sisteminin mənimsənilməsi və şagirdlərin təfəkkürünün inkişafında həm vasitə, həm priyom, həm də metod rolunu oynayır.

Məlumdur ki, fikri fəaliyyətin başlanğıcı, adətən problem situasiyadır. İnsan o zaman fikri fəaliyyət göstərir ki, o nəyi isə anlamağa ehtiyac duyur. Odur ki, çalışmaların xarakteri və məzmunu təfəkkürün yaranması şərti kimi problemlilik elementlərinə malik olmalıdır.

Ədəbiyyat:

1. Rzayev, M.T. Məsələ həlli vasitəsilə şagirdlərin yaradıcı təfəkkürünün inkişafı // Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, − 2010. № 3, − s. 85-89.

2. Rzayev, M.T. İbtidai siniflərdə riyaziyyat məsələlərinin həlli şagirdlərdə idrak fəallığını artıran vasitə kimi: /pedaqogika üzrə fəlsəfə doktoru dis. avtoreferatı / –Bakı, 2016. − 22 s.

INVOLVING CHILDREN WITH AUTISM SYNDROME IN EDUCATION
AUTİZİM SİNDİROMLU UŞAQLARIN TƏHSİLƏ CƏLB EDİLMƏSİ

MEHRİBAN MƏMMƏDOVA

Müəllim. Azərbaycan Dövlət Pedaqoji Universitetin Quba filialı
ORCID: 0000-0001-7477-9430

Hal-hazırda autizm sindiromu səhiyyənin uşaq psixologiyası bölümündə ən aktual problemlərdən biridir. Bunun 3 səbəbi var:

I patologiya uşaqlar arasında kifayət qədər yüksək sürətlə artır.

II bu xəstəliyin polietioloji səbəblərdən olması qeyd edilir.

III bugünə qədər ASP uşaqların tam müalicəsi mümkün olmayıb.

Autizm sindiromlu uşaqların təhsilə cəlb edilməsi, onların unikal ehtiyaclarını və potensiallarını diqqətə alaraq, uyğun təhsil planları və proqramları təşkil etməyi tələb edir. Bu, onların təhsil prosesində mərhələli və səmərəli inkişafını təmin etməyə kömək edir. Hər bir autizm spektrində olan uşağın ehtiyacları fərqlidir. Bu səbəbdən, fərdi təhsil planları hazırlamaq və təhsil proqramlarını tənzimləmək mühüm bir rol oynayır. Bu cür üçaqlarda təhsil alma şəkili müəyəən qruplara bölünür.

1. Erkən təhsil 0 yaşdan 3 yaşa kimi
2. Məktəbdən əvvəlki təhsil 3 yaşdan 6 yaşa kimi (bəzi hallarda 7 yaş)
3. Məktəb təhsili buda ayrıca olaraq ibtidai və orta siniflərə bölünür

Fərdi təhsil uşağın güclərinə, ehtiyaclarına uyğun olaraq tənzimlənir. Fərdi təhsil sürəti disiplini və dinamikliyi ilə fərqlənir, hər usaq spesifik olduğundan fərdi yanaşmada ona uyğun hazırlanır. İlk olaraq autizm spektrində olan uşaqların təhsili üçün müvafiq məsləhətləşmə və dəstək xidmətləri təmin edilməlidir. Bu məsləhətləşmələr psixoloqlar, tərbiyəçilər və müəyyən hallarda xüsusi təlimçilər tərəfindən aparılmalıdır.

Autizim spektindəki uşaqlar üçün təhsil nə qədər erkən yaşda başlansa bir o qədər effektiv olur. Disiplinli fərdi təhsilin aralığı olmamalı və həftə üzrə 30 saatı aşmalıdır. Belə olduğu halda erkən yaşda disiplinli təhsil autistik uşağın 12-14 yaşlarında özünü sərbəst idarə etməsinə kömək olacaqdır. Pedaqoqlar tərəfindən tövsiyyə olunan fərdi təhsil təhsil simetinin praqramına uyması əsas şərtlərdəndir. Erkən yaşlarında disiplinli şəkildə təhsil almağı öyrənən uşaq yetniklik yaşlarında öz yaşıdların inkişaf qrafikinə gəlmə ethimalı var.

Hal hazırda Azərbaycanda da tətbiq olunan İnklüziv təhsil mühiti, autizm spektrində olan uşaqların daxil olmaq və inkişaf etmələri üçün mümkün olan ən yaxşı dəstəyi təmin etmək üçün ən yaxşı vasitələrdən biridir. Ailə üzvləri uşaqlarının təhsil prosesinə dəstək olmaq və evdə və təhsil mühitində təşviq edici bir mühit yaratmaq üçün dəstək olmalıdırlar.

Autizm spektində olan uşaqların təhsili, onların potensialını artırmaq və onları mümkün olan ən yaxşı şəkildə inkişaf etdirmək üçün əhəmiyyətli bir məsələdir. Yuxarıda təklif olunan yollarla mümkün ola bilər.

Açar sözlər: Autizim, təhsil, uşaq, erkən təhsil, fərdi təhsil

Currently, autism syndrome is one of the most urgent problems in the child psychology department of healthcare. There are 3 reasons for this:

I pathology is growing at a fairly high rate among children.

It is noted that this disease has polyetiological causes.

Until now, it has not been possible to fully treat ASP children.

Engaging children with autism in education requires appropriate educational plans and programs, taking into account their unique needs and potential. This helps ensure their gradual and efficient development in the educational process. Every child on the autism spectrum has different needs. For this reason, developing individual education plans and adjusting educational programs play an important role. In such triangles, the picture of education is divided into groups.

1. Early education from 0 to 3 years

2. Pre-school education from 3 to 6 years (in some cases 7 years)

3. School education is divided into primary and secondary classes separately

Individual education is adjusted according to the strengths and needs of the child. The pace of individual education differs in discipline and dynamism, since each child is specific, it is prepared according to him in an individual approach. First, appropriate counseling and support services should be provided for the education of children on the autism spectrum. These consultations should be conducted by psychologists, educators and, in certain cases, special trainers.

The earlier the education for children on the autism spectrum begins, the more effective it is. There should be no gaps in disciplined individual education and it should not exceed 30 hours per week. In this case, disciplined education at an early age will help an autistic child to freely control himself at the age of 12-14. It is one of the main conditions to comply with the program of the individual education institute recommended by the educators. A child who learns to study in a disciplined manner at an early age should be expected to catch up with the development schedule of his peers in adulthood.

Inclusive education environment, currently implemented in Azerbaijan, is one of the best means to provide the best possible support for children on the autism spectrum to enter and develop. Family members should be supportive of their children's learning process and create an encouraging environment at home and in the educational environment.

Education of children on the autism spectrum is important to maximize their potential and develop them in the best way possible. It may be possible in the ways suggested above.

Keywords: Autism, education, child, early education, individual education

AZƏRBAYCAN ÖZBƏKİSTAN ƏLAQƏLƏRİNİN MÖHKƏMLƏNMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

ŞİRİNOVA NƏHAYƏT MƏHƏMMƏD

ADPU Quba filialının Heydər Əliyev Lektoriyasının müdiri

Xülasə: Günü- gündən dəyişən, inkişaf edən, qloballaşma dövrünün tələbləri ilə ayaqlaşan dünyada xalqlararası, dövlətlərarası münasibətlərin möhkəmlənməsi, müttəfiqlik, tərəfdaşlıq, əməkdaşlıq mühitinin qurulması olduqca vacib amillərdəndir. Fəxarətlə və əminliklə qeyd edə bilərik ki, Azərbaycan və Özbəkistan xalqları da məhz belə dostluq-qardaşlıq ənənələrinə sadiq qalan iki dövlət nümunəsidir. Bu ikitərəfli məhsuldar əlaqələrin təməli və uğurlu inkişaf yolu hər kəsə bəllidir ki, nəhəng siyasət adamı, dünya şöhrətli lider, Azərbaycan xalqının böyük oğlu, Ümummili Lider Heydər Əlirza oğlu Əliyevin şah əsəridir. Bütün cahan dövlətləri bu gün ölkələrimiz arasındakı dostluq-qardaşlıq mexanizmini seyr etməkdədir. Hələ illər öncə Ulu Öndərin bizə miras qoyduğu o rəvan yol xəritəsi iki ölkə arasındakı bütün sferalarda hərtərəfli inkişafın bələdçisi oldu. Yenilənən, çiçəklənən və dünya dövlətləri sırasında qalibiyyət, zəfər ölkəsi kimi öz imzasını qoyan dövlətimizin əsas maraqlarından biri də elə bu idi.

Açar sözlər: Ulu Öndər, şəxsiyyət, xalq, faktor, inkişaf, yol xəritəsi.

Summary: In a world that is changing day by day, developing and keeping pace with the demands of the globalization era, strengthening of inter-national and inter-state relations, establishing an environment of alliance, partnership and cooperation are very important factors.

We can say with pride and confidence that the peoples of Azerbaijan and Uzbekistan are examples of two states that are faithful to such traditions of friendship and brotherhood. It is clear to everyone that the foundation of these bilateral fruitful relations and the path of successful development is the masterpiece of a great politician, a world-famous leader, the eldest son of the Azerbaijani people, National Leader Heydar Alirza oglu Aliyev.

Today, all countries of the world are watching the mechanism of friendship and brotherhood between our countries. The smooth road map that the Great Leader bequeathed to us many years ago is comprehensive in all spheres between the two countries

became the guide of development. This was one of the main interests of our state, which is renewing, flourishing and has left its mark as a country of victory and victory among the world states.

Key words: Great Leader, personality, people, factor, development, road map.

MODERN AZERBAIJANI YOUTH AND HEYDAR ALIYEV
MÜASİR AZƏRBAYCAN GƏNCİ VƏ HEYDƏR ƏLİYEV

BAYRAMOVA NUBAR ISMAYİL

Dissertation, Guba branch of ADPU, Deputy dean of the Faculty of Mathematics and Natural Sciences

https://orcid.org/0000-0001-6298-9617

Summary

Our 44-day Patriotic War, which ended with victory, once again proved to us how correctly and patriotically the young generation is raised in Azerbaijan.Therefore, the strategy of the state policy in this regard has been confirmed.In other words, today, the country's policy plays an important role in the education of the young generation, and the state youth policy, the foundation of which was laid by the national leader Heydar Aliyev, is successfully continued by President Ilham Aliyev.As a result of this, today the youth of Azerbaijan try themselves in almost all areas of the country and justify themselves with their success.But how was the foundation of so much trust in young people, or how did our young people mature in the social and political life of the country?- Looking at the recent history, as in the early 90s of the 20th century, social and political events were very sharp in the whole world, including in Azerbaijan, which set new priority issues in front of young people and called on young people to change the ways of solving problems.

Key words: Azerbaijani youth, education, Azerbaijani ideology, upbringing, national leader.

Xülasə

Qələbə ilə bitən 44 günlük Vətən müharibəmiz bizə Azərbaycanda gənc nəslin nə dərəcədə düzgün və vətənpərvər yetişdirildiyini bir daha sübut etdi. Deməli bu mövzuda dövlət siyasətinin strategiyası öz doğruluğunun təsdiqini tapmışdır. Yəni bu gün gənc nəslin yetişdirilməsində ölkə siyasətinin önəmli yer tutması, bünövrəsi Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, bu gün Azərbaycan gəncləri demək olar ki, ölkənin bütün sahələrdə özlərini sınayır və öz uğurları ilə özlərini doğruldurlar. Bəs gənclərə bu qədər güvənmənin əsası necə qoyuldu, yaxud, gənclərimizin ölkənin ictimai-siyasi həyatında bu cür püxtələşməsi necə yarandı? – Yaxın tarixə nəzər yetirəndə XX əsrin 90-cı illərinin əvvəllərində bütün dünyada olduğu kimi, o cümlədən Azərbaycanda ictimai-siyasi hadisələr çox kəskin idi ki, bu da gənclərin qarşısında yeni prioritet məsələlər qoyur, gəncləri problemlərin həlli yollarını dəyişməyə çağırırdı.

Açar sözlər: azərbaycan gəncliyi, təhsil, azərbaycançılıq ideologiyası, tərbiyə, mummilli lider.

Məlumdur ki, hər bir ölkənin maddi və mənəvi tərəqqisi onun gənclərinin social-psixoloji vəziyyətindən, təhsilindən, sosial və əmək fəaliyyətindən birbaba asılıdır. Başqa sözlə desək, hər bir ölkənin və onun millətinin gələcəyinin yüksəlişinin meyarı onun gəncləri hesab olunur.

Yəni dözlət öz gəncləri siyasətində diqqətli olmalı, onu düzgün müəyyənləşdirilməlidir. Qeyd edək ki, gənclər diyasəti dedikdə gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında fəal iştirakını təmin etmək məqsədi ilə dövlət tərəfindən müvafiq ictimai-siyasi, təşkilati-hüquqi şəraitin və təminatların yaradılmasına yönəldilmiş tədbirlər sistemidir. [Gənclər siyasəti haqqlnda Azərbaycan Respublikasının Qanunu, 9 aprel 2002-ci il // "Dələcək gənclərindir", Bakı: Azərcaycan 2004, s 410-413] Bəs bu siyasət nəyə xidmət edirdi? Bu siyasət özündə gənclərin təgsilin, sağlamlığını, intellektual və mənəvi inkişafını, hüquqlarının müdafiəsini, onların ölkənin ictimai-siyasi və mədəni inkişafında rolunu muəyyənləşdirməyi ehtiva edirdi. Xüsusən də Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən sonra xalqın xilaskarı missiyasını həyata keçirərkən bu sahədə ən önəmli işləri gəncləri yetişdirməklə başladı. O çox gözəl başa düşürdü ki, gənclərin mənəvi və etik tərbiyəsi onun dövlət siyasətinin mühüm istiqamətlirindn olmalıdır. Heydər Əliyev hələ 70-ci illərdə birinci hakimiyyəti zamanındabir çox ideya və proqramların təməlinu qoymuşdu. Lakin indi təmamilə əmin formada deyə bilərik ki, gənclər siyasətinin əsaslı islahatları 1993-cü ildən başlayaraq aparılmağa başladı. Heydər Əliyev apardığı hər bir islahatında gənclərin gücünə, enerjisinə inanırdı. [Əliyev H.Ə. Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə çıxışı, 22 sentyabr 1993-cü il, Müstəqilliyimiz əbədidir, I kitab, Bakı: Azərnəşr, 1997, s 164-182] Bu məqsədlə Heydər Əliyev ölkənin ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi həyatında gənclərin iştirakını artırmağa başladı. Heydər Əliyevin apardığı islahatlar geniş bir spektrə malik idi:

- Azərbaycan gənclərinin sosial-iqtisadi problemlərinin həlli istiqamətində aparılan islahatlar;
- Gənlərin inkişafı ilə bağlı proqram və layihələrin aparılması;
- Xaricdə təhsili gənclər üçün əlçatan edən dövlət proqramlarının təşkili;
- Gənclərin mənəvi tərbiyəsi ilə bağlı yeni ideyaların həyata keçirilməsi;
- Uşaqların və gənclərin hüquqlarının qorunması sahəsində aparılan tədbirlər;
- Ölkənin ictimai, siyasi və mədəni həyatında gəncləri təşkilatlandırdı;
- Azərbaycan gənclərinin ölkəmizin beynəlxalq əlaqələrinin formalaşmasına, ölkəmizin həqiqətlərinin dünyaya çıxarılmasında gənclərin rolunun yüksəldilməsi;
- Gənclərin dövlət orqanlarında, həmçinin qeyri-dövlət təşkilatlarında fəallığının artırılması.

Hakimiyyətə gələn kimi Heydər Əliyevin ilk işi Azərbaycan gənclərini ölkənin həyatına biganə qalmamağa çağırdı.[Əliyev H.Ə. Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə çıxış. 22 sentyabr 1993-cü il // Müstəqilliyimiz əbədidir, I kitab, Bakı: Azərnəşr, 1997, s.164-182]

İlk işi ölkədə gedən xərc-mərcliyi dayandırmaqla, cəbhədəki atəşkəsi təmin etmək olan uzaqgörən sərkərdə gənclər arasında hərbi potensialı artırmağa başladı. Bunun üçün də ölkədəki əhalinin üçdə bir hissəsini təşkil edən gəncləri əhatə edən gənclər siyasəti yaranmalı idi. Bu siyasət özündə həmçinin ölkədəki ictimai-siyasi sabitliyin və qanunçuluğun təmin edilməsini ehtiva etməli idi.Bunun üçün alaraq1994-cü ildə gənclərlə iş sahəsində vahid dövlət siyasətinin mühamlüyünü nəzərə GİN- Gənclər və İdman Nazirliyi yaratdı ki, bu uğurlu addım bu sahədə bir sıra silsilə tədbirlərin davamını gətiməyə başladı. Onun arxasınca ölkə gənclərini bir arada toplaya biləcək nəhəng tədbirlərin icrasına başlanıldı. 1996-cı il fevralın 2-də Azərbaycan Respublikasının Gənclərinin I forumu failiyyətə başladı. Heydər Əliyev həmin forumda çıxış edərək qarşıdakı onilliklər üçün gənclərin qarşısında duran vəzifələri və problemləri müəyyənləşdirdi. Məhz bu forumdan başlıyaraq gəclərlə məqsədli şəkildə hərtərəfli, mütəmadi olaraq işlər aparılmağa başladı və prezident Heydər Əliev bilavasitə özü

rəhbərlik edirdi. Elə həmin tarixi gündə, 1996-cı il fevral ayının 2-də prezident Heydər Əliyevin müvafiq sərəncamı ilə 2 fevral "Azərbaycan gəncləri" günü kimi elan olundu və o gündən etibarən bu günə kimi hər il fevral ayının 2 bayram dövlət səviyyəsində qeyd olunur, müvafiq forumların keçirilməsi də artıq ənənə şəklini almışdır.

Lakin Heydər Əliyevin gənclər sahəsində atdığı adımlar bununla bitmədi. Növbəti uğurlu addım isə 1999-cu il iyun ayının 29-da "Dövlət gənclər siyasəti" adlı fərmanın imzalanması idi. Hansı ki, bu fərman Azərbaycan gəncliyinin XX əsrədə keçmiş olduğu yolu, qarşıda duran prioritet məsələləri özündə ehtiva edirdi. Qanunda ayrı-ayrı dövlət qurumlarının gənclər ilə görrməli olduqların oşlər ön plana gətirilirdi. Nəhayət, 2022-ci il may ayının 6-da, 3 fəsildən və 14 maddədən ibarət "Dövlət gənclər siyasəti haqqında" qanun qüvvəyə mindi. Qanun özündə Azərbaycanda gənclər siyasətinin məqsədlərinin və istiqamətlərinin təşkilati və hüquqi əsaslarını əhatə edərək bu istiqamətlərdə yarana biləcək problemləri tənzimləməyə çalışırdı. [Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu. 9 aprel 2002-ci il // «Gələcək gənclərindir», s. 410-416]

Əslində 1997-2000 illər arası dövr gənclər siyasətinin normativ-hüquqi bazasının təkmilləşdirilməsinə həsr olunan bir aralıq idi. Müxtəlif dövlət proqramları həyata keçirilməklə gənclərlə iş sahəsində müxtəlif qanunvericilik və idarəedicilik sistemləri yaradılmağa başladı. Bunların hamısı da gənclərin şəxsiyyət kimi formalaşmasını, inkişafı, cəmiyyətin sosial-iqtisadi, siyasi, mənəvi tərəqqisində rolunu artırdı. Heydər Əliyevin rəhbərliyi altında qisa müddət ərzində həyata keçirilən düşünülmüş məqsədyönlü milli strategiya ölkənin bütün sahələrində gənclərlə işləmək üçün sanki bir canlanma yaratdı, spesifik olan bir sıra problemlərin həlli yollarının tapılmasında uğurlar tapıldı.

Heydər Əliyev əngərgin iş saatlarında belə gənclərin problemlərini dinləməyə vaxt tapır, müxtəlif dövlət orqanlarında vəzifə aparan şəxslərdən də bunu tələb edir, hamını buna təşviq edirdi. 1996-cı ildən etibarən aparılan islahatlar, qəbul olunan qərarlar, inkişaf proqramları gəncləri cəmiyyətin həyatında fəal iştirakını sürətləndirirdi.

Gənc ailələrə dövlət qayğısının artırılması məqsədilə ölkənin aparıcı ekspertlərinin və mütəxəssislərinin iştirakı ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən "Gənc ailə" proqramı təsis edildi. [Gənc ailə proqramı. ARDGS. İB. Bakı, 2000, № 2, s. 27-38]

Proqram Azərbaycan gənclərinin beynəlxalq tədbirlərdə iştirakını, dünya gəncləri ilə, o cümlədən xarici ölkələrdə yaşayan gənc həmvətənlərlə qarşılıqlı əlaqələrinin inkişafına imkan və şəraitin yaradılmasına, gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial və humanitar sahələrə yönəldilmiş fəaliyyətin stimullaşdırılmasına, gənclərlə işin təhlili, planlaşdırılması, təşkili və qiymətləndirilməsi üzrə mütəxəssislərin hazırlanmasına xidmət edirdi. Bu mövzuda istedadlı və yaradıcı gənclərin aşkar edilməsi və onların qabiliyyətlərinin inkişafı ilə bağlı müxtəlif tədbirlər həyata keçirilərək gənclərə ailə planlaşdırılması və reproduktiv sağlamlıq sahəsində biliklərin verilməsi vəbu sahədə xidmət göstərən müəssisələrin işinin təkmilləşdirilməsi təmin edilirdi.

Heydər Əliyev gənclərlə işləyərkən aztəminatlı gənc ailələrin sosial müdafiəsini, gənc alim və tədqiqatçıların elmi fəaliyyətinin dəstəklənməsini, gənc ailələrin sosial-iqtisadi və mədəni inkişafı üçün tədbirlərin həyata keçirilməsi, sosial müdafiəyə ehtiyacı olan aztəminatlı gənclərin sosial, mənzil, təhsil problemlərinin həlli və asudə vaxtlarının səmərəli keçirilməsinə yönəlmiş tədbirlərin həyata keçirilməsi də diqqətindən kənarda qoymurdu.

Bütün bu tədbirlərin qayəsində gənclər arasında könüllülük fəaliyyətinin təşviqi, gənclər arasında hər növ ekstremizmin və radikalizmin qarşısının alınması, həmçinin, gənclərin fərdi

inkişafı üçün qeyri-formal və informal təhsilalma imkanlarının yaradılması, ümumilikdə gənclərin inkişafı dururdu. Bu məqsədlə gənclərin yeni biliklərə yiyələnməsi məqsədi ilə informasiya texnologiyalarına yiyələnməsinə, sosial şəbəkə və multimedia vasitələrindən istifadə sahəsində imkanların artırılmasına üstünlük verilirdi.

Növbəti istiqamət gənclər arasında sahibkarlığın inkişaf etdirilməsi yolları, yaxud gənclərin iqtisadi fəallığının artırılması idi. Bunun üçün Gənclər və İdman Nazirliyi kiçik və orta sahibkarlıqda gənclərin məşğulluq səviyyəsini artırmaq məqsədilə 2002-ci ildə "Sahibkarlığın inkişafında gənclərin rolunun artırılması" adlı dəyirmi masa təşkil etdi ki, bu isə gələcəkdə gənc sahibkarlar üçün treninlər, tədqiqatlar, layihələr aparmaq üçün zəmi yaratdı. [Forumdan foruma. Bakı: Azərbaycan, 2003, s. 32-34]

Heydər Əliyevin yüründüyü gənclər istiqamətinn bir qolu qaçqın və köçkün olan gənclərin sosial müdafiəsini və cəmiyyətə inteqrasiyasını təşkil etmək və daim dövlətin nəzarətində saxlanılmasını tənzimləmək idi. Heydər Əliyevin xüsusi tapşırığından sonra müəyyənləşdirildi ki, Ermənistanın işğalçılıq siyasəti nəticəsində artıq 1990-cı illərdə 260-312 min gənc arasından 115 minə nəfəri işsiz vəziyyətdə qalmışdı, yerdə qalanları isə təhsil alırdı. Heydər Əliev bu gənclərin təhsil və işlə təminolunma məsələlərini Gənclər və idman Nazirliyinin qaşısında birinci vacib məsələ kimi qoydu və icrasına nəzarəti bilavasitə özü rəhbərlik edirdi.

Heydər Əliyevə görə gənclərin mədəni-mənəvi tərbiyəsi dövlət qurumlarının təxirəsalınmaz vəzifəsi idi. Mütəmadi olaraq gənclərin mənəvi tərbiyəsində vətəndaşlıq hisslərinin formalaşdırılmasını təmin edəcək proqramların təşkil edilməsini dövlətin müvafiq qurumlarından tələb edirdi. Onun fikrincə, gənclərdə vətəndaşlıq hislərinn formalaşdırılmasında tədrisin və təhsilin rolu böyük idi. Bəli Ulu öndər təhsili millətin gələcəyi hesab edirdi. Lakin hamıya başa salırdı ki, Azərbaycan təhsilinin əsas məqsədi Azərbaycan vətəndaşı yetişdirməkdir. Məhz bunu da Azərbaycan məktəbinin qaşısında bir məqsəd kimi qoymuşdu. Bunun üçün ilk addımı məktəblərdə dövlətin müstəqillik atributlarının təbliğini başlatmaqla atdı. Onun qurduğu vətəndaşlıq konsepsiyasının kökündə Azərbaycanın dövlət müstəqilliyinin, azadlığının mənasını, məzmununu geniş tədris etməyi, vətənpərvərlik hisslərinin insanlara uşaq vaxtlarından aşılanması dururdu. Onun üçün Azərbaycan bayrağı sadəcə bayraq deyildi, dövlətçiliyimizin, müstəqilliyimizin rəmzi idi. Heydər Əliev deyirdi: "*Bayrağa olan məhəbbət, eyni zamanda Vətənə, xalqa, dövlətə olan məhəbbətdir*"[Əliyev H.Ə. Yeni dərs ilinin başlanması münasibətilə Bakıda 18 nömrəli məktəbdə keçirilmiş mitinqdə çıxış. 1 sentyabr 1997-ci il // «Gələcək gənclərindir». Bakı: Azərbaycan, 1997, s. 162-169]

Heydər Əliyevə görə gənclərin mənəvi tərbiyəsinin bünövrəsini tariximizi, dilimizi, dinimizi, ümumbəşəri dəyərlərlə yanaşı Azərbaycan xalqının milli dəyərlərini, milli ənənələrini nə dərəcədə bilmək lari durur. Bütün bunlardan uzaq olan gənc Heydər Əliyev fəlsəfəsinə görə vətənpərvər ola bilməz. Heydər Əliyev deyirdi:"*Vətənpərvərlik böyük məfhumdur. Bu sadəcə orduda xidmət etmək deyil, Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik"*[Azərbaycanın gələcəyi etibarlı əllərdədir. Bakı: Azərbaycan, 1999, s. 54.]

Bəli bü gün Heydər Əliyev bizə gənclərin vətəndaşlıq tərbiyəsininin, mənəvi tərbiyəsininin bütün aspektlərini birləşdirən zəngin bir irsi miras qoymuşdur. Bu irs bizdən gənclərin tərbiyəsində milli ənənələrin, milli mənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə vəhdətdə götürülməsini, bunun gənclərimizin mənəvi kodeksini təşkil etməsinivə gənclərlə işin bu istiqamətdə aparılmasını tələb edir. Milli vətənpərvərliyin Azərbaycanın hər bir vətəndaşının, hər bir gəncinin həyat prinsipinə çevrilməsinə təşviq edir. Heydər Əliyevə görə işğal edilmiş torpaqlarımızın azad olunması, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi

dövlətin əsas məqsədlərindən biri olduğuna görə milli vətənpərvərlik prinsipi körpəlikdən başlayaraq, hər bir vətəndaşın həyat prinsipi, həyat qanunu, nizamnaməsi olmalıdır

[Əliyev H.Ə. Müstəqil Azərbaycan Respublikası Gənclərinin Birinci Forumunun 1 illiyi ilə əlaqədar olaraq Forum nümayəndələrinin bir qrupu ilə keçirilən görüşdə çıxış. 1 fevral 1997-ci il // Müstəqilliyimiz əbədidir, VIII kitab, Bakı: Azərnəşr, 1998, s. 382-395]

Heydər Əliyevin azərbaycançılıq ideologiyası gənclərin yetişdirilməsində ən böyük hərəkətverici amil rolunu oynadı. Heydər Əliyev deyirdi:"*Azərbaycanı sevmək azərbaycançılıq hissiyyatını özündə cəm etmək deməkdir*".[Əliyev H.Ə. Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci Forumunda çıxış. 2 fevral 1996-cı il // «Gələcək gənclərindir», s. 91-134]

Məhz bu xidmətlər Azərbaycan gəncinin hərbi vətənpərvərlik tərbiyəsini, onlarda orduya hörmət hisslərini, döyüş ruhunun möhkəmləndirilməsini gənclərin mənəvi tərbiyəsinin ən mühüm istiqaməti və müqəddəs vəzifəsi hesab etməsini formalaşdırdı.

Artıq Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənc nəslin rolu ölkənin ictimai-siyasi həyatında günü-gündən artır. Dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi artıb, vətənin inkişafı üçün səylə çalışır, öz siyasətində onlara arxalanan Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətini dəstəkləyir və müqəddəs Vətən müharibəsində olduğu kimi yenədə ehtiyac olduğu anda bir yumruq kimi birləşib, düşmənə layiqli cavab verməyə hazırdırlar.

İstifadə olunmuş ədəbiyyat

1. Gənclər siyasəti haqqlnda Azərbaycan Respublikasının Qanunu, 9 aprel 2002-ci il // "Dələcək gənclərindir", Bakı: Azərcaycan 2004, s 410-413.
2. Əliyev H.Ə. Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə çıxışı, 22 sentyabr 1993-cü il, Müstəqilliyimiz əbədidir, I kitab, Bakı: Azərnəşr, 1997, s 164-182.
3. Əliyev H.Ə. Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə çıxış. 22 sentyabr 1993-cü il // Müstəqilliyimiz əbədidir, I kitab, Bakı: Azərnəşr, 1997, s.164-182
4. Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu. 9 aprel 2002-ci il // «Gələcək gənclərindir», s. 410-416.
5. Gənc ailə proqramı. ARDGS. İB. Bakı, 2000, № 2, s. 27-38.
6. Forumdan foruma. Bakı: Azərbaycan, 2003, s. 32-34
7. Əliyev H.Ə. Yeni dərs ilinin başlanması münasibətilə Bakıda 18 nömrəli məktəbdə keçirilmiş mitinqdə çıxış. 1 sentyabr 1997-ci il // «Gələcək gənclərindir». Bakı: Azərbaycan, 1997, s. 162-169.
8. Azərbaycanın gələcəyi etibarlı əllərdədir. Bakı: Azərbaycan, 1999, s. 54.
9. Əliyev H.Ə. Müstəqil Azərbaycan Respublikası Gənclərinin Birinci Forumunun 1 illiyi ilə əlaqədar olaraq Forum nümayəndələrinin bir qrupu ilə keçirilən görüşdə çıxış. 1 fevral 1997-ci il // Müstəqilliyimiz əbədidir, VIII kitab, Bakı: Azərnəşr, 1998, s. 382-395.
10. Əliyev H.Ə. Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci Forumunda çıxış. 2 fevral 1996-cı il // «Gələcək gənclərindir», s. 91-134.

NİZAMİ GƏNCƏVİNİN YARADICILIĞINDA MULTİKULTURALİZM VƏ TOLERANTLIQ NÜMUNƏLƏRİ

CABBAROV SEYİD ABDULLA OĞLU,

Ədəbiyyat və dillər kafedrası, müəllim

İnsan övladının yer üzərində bərqərar olunmasından bu günümüzə qədər insarlar biri-birlərindən təcrid olunub, ayrı -ayrılıqda yaşaya bilməyəcəklərini dərk etmiş,könüllülük prinsipi və öz istəkləri ilə fərqli millətlərə,fərqli dinlərə mənsub insanlarla əlaqələr yaratmışdır.Müqəddəs Qurani Kərimin ayələrində də bəşər övladları arasında bu əlaqələrin qurulmasına çağrış olaraq buyurulmuşdur: Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Bir-birinizlə tanış olasınız deyə sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz, Allah yanında sizin ən dəyərliniz ən təqvalı olanınızdır. Şübhəsiz ki, Allah hər şeyi biləndir, hər şeydən xəbərdardır. **(Hucurat 13)**

Heç şübhəsiz bu ünsiyyət və tanışlıq əlaqələri geinşlənərək,məzmun və formalarına görə inkişaf etmiş, icma və məhəlli sərhədlərinin ötələrinə qədər uzanıb getmişdir.Əlbətdə ki, müxtəlif xalqalar arasında tanışlıqların yaranması, müxtəlif millətlərin bir-birləri ilə ünsiyyət qurub bir-birləri ilə əlaqələrin yarnması özlüyündə ilahi çağrışa, insan fitrətinə uyğun olsa da bəzən bu əlaəqlərin nəticələri o qədər də xoş olmayıbdır. Bəzi hallarda qələmin və sözün yerini qılınc əvəzləyərək insanlar arasında ən ağır müharibələrə qədər gətirib çıxarmışdır.Tarixin müxəlif dövürlərində insanlar arasında belə qarşıdurmalar yaranmış,müharibələr, hətta kütləvi qirğınlar və soyqırımlar baş vermişdir. Şübhəsiz, tarixi xronologiyaya əsaslanaraq əminliklə demek olar ki,müxtəlif dövrlərdə Azərbaycan xalqı da dəfələrlə ermənilər tərəfindən terrora aktlarına,soyqırımlara və amansız qətliamlara məruz qalmışdır.

Əlbbətdə ki, bu müharibələr, qətliamlar yalnız müahiribələrə cəlb edilmiş xalqları yox, bütövlükdə bəşəriyyəti qaranlıqlara aparmışdır. Ümumlikdə isə xalqların mədəni inkişafdan geriləməsinə səbəb olmuşdur. Müsir dünyada insan övladı artıq anlamağa başlamalıdır ki, birgəyaşayışın,milli və dni dözmülülüyün alternativi yoxdur. İnsanın insanı qəbul etməkdən savayı başqa yolu yoxdur!

Tarixi harmoniya göstərir ki,müxtəlif xalqların,millətlərin, irqlərin və müxtılif dinlərə mənsub insanların biryerdə yaşamalarının yeganə yolu fərqli mədəniyyət sahiblərinin xoşməramlı ünsiyyətindən keçir. Şübhəsiz ki, tarixi köklərində, milli və dini ənənələrində bu missiyanın müsbət təzhürləri olan xalqlar, millətlər bu işi daha yaxşı bacarır. Fərdlər və millətlər arasındakı xoşməramlı ünsiyyətlər, qarşılıqlı mədəni əlaqələr əsrlər boyu insanlar arasında dostluq, qonşuluq və hətta qohumluq əlaqələrinin yaranmasına səbəb olmuşdur. Nəticə olaraq millətlər və xalqlar arasında mədəni əlaqələr yaranmış, cəmiyyətdə etibarlı münasibətlər qurulmuşdur. Bu münasibətlər eyni coğrafiyada yaşayan xalqlar,millətlər və etniklər arasında baş tutaraq, multikultural dəyərlərin yaranmasına ,birgəyaşayış mədəniyyətinin formalaşmasına, tolerant dəyərlərinin dərinləşməsinə və ümumlikdə həmin xalqların mədəni inkişafına və tərəqqisinə gətirib çıxarmışdır.

Qeyd etmək alzımdır ki, müasir insan cəmiyyəti mültikultural və tolerantlıq sözləri ilə 20 ci əsrdə tanış olsalar da, öz ənənələrində birgə yaşayış mədəniyyətini məsuliyyətlə daşıyıb bu günümüzə qədər gətirib çıxaran xalqlar, millətlər də az olmamışdır.Beləliklə bu xalqlar darixi

dövrlər ərzində məruz qaldıqları müharibələrin,faciələrin yaralarını sağaltmış, öz cəmiyyətlərinin inkaşına yeni ideyalar ortaya gətirmişlər.Bununla da fərdlərin inkiçafını bütövlükdə isə ölkələrinin inkişafında yeni mərhələlərə qədəm qoymuşlar. Nəticədə insan cəmiyyəti dinclik, sabitlik və əminamanlıq şaritində yaşamağa başlamışdır. Beləliklə də multikultural və tolerantlıq dəyərlər həmin xalqların mədəni inkişafının təkanverici mexanizmlərindən birinə çevrilmişdir. Lakin ənənələrində mültikulturalizm dəyərləri olmayan yoxud bu münasibətləri cəmiyyətlərində qura bilməyən və yaxud birtərfli münasibətlər quran xalqların özləri də ətrafında olan xalqlar da böhranlarla , çətinliklərlə üz-üzə qalmışdırlar.

Bəs haqqında danışdığımız və müasir dünyanın meydana gətirdiyi mültikulturalizm və tolerantlıq anlayışı nə deməkdir? Özündə nələri ehtiva edir? Hardan və hansı şəraitdə meydana çıxmışdır?

Multikulturalizm ingilis dilindən tərcümədə sözün lügəti mənasında "çoxlu mədəniyyətlər,fərqli mədəniyyətlər" deməkdir.

"Multikulturalizm" yeni termin olaraq ilk dəfə İsveçrədə ötən əsrin 50-ci illərdən sonrakı dövürlərdə ortaya çıxmışdır. Bu termin, ölkədə dörd dildən istifadə olunması və müxtəlif dinlərin və xalqların nümayəndələrinin birgəyaşayışına əsaslanaraq meydana gəlmişdir. 1970-ci ildən başlayaraq isə Kanadada multikulturalizm rəsmi dövlət statusu almağa başlamışdır

Multikulturalizm təcrid etmə, assimilyasiya və ayrı seçkilikdən fərqli olaraq, cəmiyyətdə yalnız bir hakim etnik qrupun deyil, həmçinin digər milli azlıqların, etnik qurupların,azsaylı xalqların və hətta mühacirlərin də mədəni müxtəlifliyinin və rəngarəngliyinin mövcudiyyətidir. Multikultural dəyrləri olan cəmiyyətlər milli və etnik xüsusiyyətlərinə görə, dini mənsubiyyətinə görə fərdlər arasında heç bir fərq qoymur. Multikulturalizm ayrı-seçkilik yaratmır, əksinə daha geniş mənada çoxmədəniyyətlilik dəyərlərini ortaya çəxarır

Tolerantlıq anlayışına gəlincə isə bu söz latınca "tolerare" kökündən əmələ gələrək "dözmək, səbir etmək, tab gətirmək, xoş qarşılamaq" mənalarını verir. Tolerantlıq Anadolu türkcəsində "xoşgörü", ərəb dilində "təsamuh" terminləri ilə demək olar ki eyni mənada səslənir.Tolerantlığın ən geniş mənaları,başqalarının inanc və düşüncələrinə hörmət etmək kimi başa düşülür.

Azərbaycan ərazisində mulitikuluralizimin,tolerntlıq dəyərlərinin qədim tarixi, dərin ənənələri vardır. Tarix boyu Azırbaycan ərzisində müxtəlif xalqlar,fərqli etnik quruplar,müxtəlif mədəniyyətlərə sahib insanlar birgə yaşmış, tanışlıq və dostluq əlaqələri qurmuş, iqtisadi,mədəni və sosial bağlılıqlar yartmışdır. Azərbaycan ərazisi müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitini formalaşdırmışdır. Tarixi İpək yolu üzərində yerləşən ölkəmiz ayrı-ayrı millətlərin nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma, insanların dostluq və qohumluq şəraitində yaşadığı diyar kimi tanınmışdır.

Bu ənənələr və dəyərlər Azərbaycan ədabiyyatının bütün mərhələlərində, bütün yazılı və şifahi folklor nümunələrində öz əksini tapmışdır. Azərbaycanın görkəmli mütəfəkkirlərin, ədib və şairlərinin əsərlərində multikultural ideyalar ,tolerantlıq nümunələri müsbət obrazlarda vəsf edilmişdir. Bu nümunələrin formalaşmasında xalqımızın milli mental xusisiyyətləri əhəmiyyətli rola malikdir. Əlbətdə ki, Azərbaycan xalqqının həyatında bu dəyərlərin formalaşmasında ilk olaraq Türk-Oğuz mədəniyyətinin sonra isə İslam dəyərlərinin dərin təsirləri olmuşdur.

Milli mədəniyyətimizin ən qədim nümunəsi olan "Kitabid-Dədə Qorqud" dastanında multikultural dəyərlərin nümünələri açıq şəkildə təhkiyyə olunur. Dastanın "Qanlı Qoca oğlu Qanturalı" boyunda qəhrəman evlənmək üçün -"Baba, mana bir qız alı ver kim, mən yerimdən

turmadan ol turğac gərək! Mən qaraqoç atıma binmədən ol binmək gərək! Beləliklə Qanturalı Trabzonun xristian başçısının qızı, sarı donlu Selcan xatunu seçir. Oxucu Oğuz bəyləri üçün bu dini mənsubiyyətin heç bir mənada mənfi qarşılanmadığını dastanda açıq –aşkar görür. Dastan boyu Selcan xatuna dini baxımdan heç bir ögeyliyin nümayiş olunmaması təhkiyyə edilir .

Azərbaycanın yeni dövr ədəbiyyat nümünələrindən sayılan və 30-dan çox xarici dillərə tərcümə olunaraq dünya oxucusularının marağına səbəb olmuş "Əli və Nino" romanı da məhəbbət janrında yazılmasına baxmayaraq,20-ci əsr Azərbaycanın ictimai-siyasi hadisələrinə dərindən nəzər yetirmişdir. Bu kitab Azərbaycan xalqına xas multikultralizm və tolerant həyat tərzini özündə bütün incəlikləri ilə təbliğ edən bir əsərdir. Qurban Səidin yazmış olduğu bu əsər müsəlman azərbaycanlı Əli ilə gürcü qızə Ninonun məhəbbət hekayəsinin təsviridir.

(Əli və Nino əsəri)

Heç şübhəsiz ki, orta əsrlər Azərbaycan poetik məktəbinin nümayəndələrinin də əsərlərində ümumbəşəri dəyərlərin ,multikultural və tolerantlıq nümunələrinin təbliği məsələləri başlıca yerlərdən birini tutmüşdur.

Təsəvvüf etiqadlı,müdrik filosof, dünya şöhrətli, dahi Azərbaycan şairi, Nizami Gəncəvinin bədii yaradıcılığında ən gözəl nümunələr sayılan əsərləri ümumbəşəri dəyərlərin təbliği və təşviqi məsələsində xüsusilə fərqlənir. Müdrik şairin yaradıcılığına əsasən deyə bilərik ki, onun ümumibəşəri dəyərləri tərənnüm edən əsərlərində multikultural nümunələr və tolerantlıq dəyərləri kifayət qədər çoxdur. Əsərlərinin qəhrəmanları arasında fərqli dinə,fərqli etiqada və fərqli irqlərə mənsub insanları vəsf edir və heç bir ayrıseçkilik qoymadan öz qəhrəmanlarının misalında kamil insan obrazlarını yardır.

Azırbaycan Milli elimlər Akademiyasının Vitse-prezident, professor İsa Həbibbəyli dahi mütəfəkkirin dühası və əsərlərinin cahanşümullüyi barədə qeyd edir ki;

"Nizami Gəncəvi dünya intibah mədəniyyəti təfəkkürü üçün xarakterik olan əsl universal zəka nümunəsidir. Bir çox dünya dillərini, dəqiq elmləri və təbiət elmlərini dərindən mənimsəmiş, həm də geniş ədəbi dünyagörüşə, qeyri-adi bədii istedada malik olan Nizami Gəncəvi miqyası intibah standartlarını aşan, Renessans (yenidən doğulma) üçün yeni çağırışlar meydana qoyan ölçüyəgəlməz bir reallıqdır. Elmi-ədəbi biliklərinin universallığına görə Nizami Gəncəvi Azərbaycanın Aristotelidir". **(Ədəbiyyat fatehi və əbədiyyətin fəthi elmi məqalə)**

Mərakeşli professor Məhəmməd Fəqiri ölkəsində nəşr etdirdiyi məqaləsində dahi mütəffəkirin bədii-mənəvi zənginliyindən söz açaraq qeyd edir ki:

"Nizaminin mühüm xüsusiyyətlərindən biri həyatı sevməsi, insan ləyaqətini müdafiə etməsi olub. Onun bütün əsərləri hər hansı millətə deyil, bütünlükdə bəşəriyyətə aiddir. Nizami əsərləri, poemaları ilə insaniyyətin yeni mərhələsinin əsasını qoyub. Ərəb şeirlərindən də təsirlənmiş Nizami Gəncəvi əsərləri zamana sığmayan dahi şəxslərdən sayılır.

Bu gün Nizami Gəncəvi ilham mənbəyidir. O, sülhə, qarşılıqlı anlaşmaya, plüralizmə, təcrübə mübadiləsinə əsaslanan fəlsəfənin sahibidir. Şair hər zaman tolerantlıq və dialoqa çağıran prinsiplərə, dəyərlərə inanıb, plüralizmi insan hürriyyətinin əlamətlərindən hesab edib. Nizami birgəyaşayış və anlaşma kimi dəyərləri önə çəkib, dünya tarixi və mədəniyyətində iz qoyub. Onun dəyərini bilənlər qeyd edirlər ki, Nizami saray şairi yox, əksinə xalqın şairi olub, insanların qəlblərində yaşayıb, zamanlar və məkanlar arasında güclü körpülər qurub. Onun şeirləri və əsərləri zaman və məkan hüdudlarını aşır". **(Bəyan-əlyoum-"Nizami Gəncəvinin Ziyafətində" məqaləsi)**

Misirin üçüncü ən qədim universiteti ,İbrahim Paşa Universitetinin müəllimi, professor Abdulmonin Muhəmməd Həsəneyn dahi mütəfəkkirin yaşayıb yaratdığı dövrdə təsəvvüf fikr məktəbinin Nizami Gəncəvinin həyat və yaradıcılığına təsirləri haqqında yazır ki:

"Həmin dövrdə baş verən siyasi təlatümlər dini qarışıqlığa gətirib çıxarmışdır. Müsəlman dini məzhəbləri və fərqli təriqətlərin ardıcılları arasında üzun sürən çəkişmələr baş verirdi. Bütün bunlar öz növbəsində düçüncə qarışıqlıqları yaradır, müsəlmanlar arasında təfriqə və təəsübkeşlik burulğanlarını yaradırdı.Bu burulğanlar araşdırmamızın mövzusunu əhatə edən hicri tarixinin VI (miladiXII) əsrində ən yüksək zirvəyə çatmışdır. Lakin bu burulğandan kənarda yeganə fəlsəfi cəriyan qalmışdır ki, o da Sufilik idi. Belə ki, Təsəvvüf məktəbinin ardıcılları, gözəl əxlaq, iffətli davranışları və sağlam fikirləri ilə seçilirdilər. Həmçinin Sufiliyin düşüncə üfüqləri başqalarından, təəssübkeşlərdən daha geniş idi. Bu da onlara daha çox insanın sevgisini qazandırır , cəmiyyət arasında nüfüzlarının artmasına və güclənməsinə səbəb olur".

Misirli professor Abdulmonin Muhəmməd Həsəneyn Nizami Gəncəvinin həyatı və dini dünya görüşü barədə qeyd edir ki: "Nizaminin şeirlərinə istinad edərək deyə bilərik ki, o tamamilə dini inanclı,möminanə bir həyat yaşamışdır. O məhz yaşadığı Gəncə şəhərinin ictima-dini həyatından təsirlənmişdir. Bunu özü də təsdiq edərək, gənclik illərindən bəri dini-imanlı həyat yaşadığını qeyd edir."Yeddi Gözəl" əsərində vurğulayır ki: Gəncliyimdən bu yana Sənə yaxınlığımı dərk etdiyim üçün Səndən savayı heç kəsin qapısında dayanmadım". ("Yeddi Gözəl" səh 5) **Nizami Gəncəvi-fəzilət şairi (dövrü,həyatı,şeirləri) ikicildlik disertasiya mövzulu əsərindən**

Digər bir adı çəkilən şəhər Şamaxıdır və buradan keçəndən sonra Rubruk Muğan düzünə çatdıqlarını bildirir. Baycu Nayonla görüşündən sonra Naxçıvana gələn səyyah yenə də öz dəst xəttinə sadiq qalaraq burada müsəlman və ya türklərdən bəhs etmədən sadəcə gördüyü iki keşişdən danışır. Amma qeyd edir ki, əvvəllər burada 80 kilsə var idi [8, 136]. Fikrimcə bütün Naxçıvanda gördüyü iki rahibdən başqa heç bir xristian görməyən Rubrukun bu qədər kilsə olduğunu yazması çox büyük bir şişirtmədən başqa heçnə ola bilməz. Professor Nailə Vəlixanlının "Ərəblərdən monqollaradək" VII- XII əsrləri əhatə edən geniş mənbələrə əsaslanan əsərində bu kilsələr haqında heç bir qeyd yoxdur [9]. Bundan əlavə V. Baxşəliyev və F. Quliyevanın arxeoloji və yazılı mənbələrə əsasən "Naxçıvanın tarixi abidələri" adlı əsərində də bu kilsələr haqqında məlumat yoxdur [2].

Rubruk əsərində Təbriz şəhərinin adını çəksə də burada Azərbaycanın hakimi olan Arqun ağanın hökümdarlıq etdiyini bildirir ki, bu da həmin dövr mənbələri ilə təsdiq edilir. Həm də səyyah Gürcüstan sərhəddində Gəncə şəhərinin də yerləşdiyini bildirmişdir [8, 136].

1255-cü ildə Roma Papasının tapşırığı ilə Xubilay xanın qəbulunda olmuş Moffeo Polo daha sonra bu diplomatik münasibətləri davam etdirmək üçün 1271-ci ildə yola çıxan Marko Polo XIII əsrdə Azərbaycan şəhərləri haqqında məlumat verən nadir Avropalı səyyahlardandır [4, 478]. 24 illik səyahətinin 2 ilini Təbrizdə keçirən Marko Polonun bu şəhər haqqında verdiyi məlumat xüsusilə qiymətlidir. Polo Azərbaycanı "şəhərlər və qalalar" ölkəsi adlandıraraq Təbrizin bu şəhərlərin "ən gözəli" və "ən böyüyü" olduğunu bildirir [7, 36]. Təbriz haqqında danışarkən Polonun diqqətini xüsusən ipək parçalar, bahalı zərxaralar, ipək xalçalar, daş-qaşlar cəlb edir və bunlardan ağız dolusu söz açır. Təbrizin Asiya və Avropa arasında ticarətdə əlaqələndirici rol oynadığı qeyd edilmişdir. Polo Azərbaycan şəhərləri haqqında Təbrizdən başqa ticarət münasibətləri və ipək parçaların istehsalı barədə danışarkən Şamaxı şəhəri haqqında da məlumat vermişdir [5, 104-107]. Bundan əlavə Dərbənd şəhəri haqqında verdiyi məlumat vardır ki, fikrimcə bu məlumat özündən öncə buraya səyahət etmiş səyyahların qeydlərindən köçürülmüşdür çünki, eynilə Rubrukun cümlələrini təkrarlayır. [7, 22]

Nəticə:

Beləcə XIII əsrdə Monqol Xaqanlığı ilə əlaqələr yaratmaq istəyən, onların Avropaya yürüşlərinin qarşısını kəsməyi fikirləşən, onlardan müsəlmanlara qarşı istifadə etməyə çalışan Xristian dünyasının bir-birinin ardınca göndərdiyi səyyahların əsərlərində Azərbaycan şəhərləri elə də geniş təsvir olunmasalar da amma verilən məlumatlar qiymətlidir. Düzdür bu məlumatlar birtərəfli və xristian baxış bucağından yazılsa da bu müəlliflər bəzən gördükləri qarşısında heyran qalaraq doğruları istəmədən etiraf etməli olmuşdular. Xüsusən Marko Polonun qeydləri bu baxımdan çox qiymətlidir. Vilhelm Rubruk isə qısa amma maraqlı məlumatları ilə Azərbaycan şəhərləri xüsusən Naxçıvan haqqında məlumat verir.

İstifadə edilmiş ədəbiyyat.

1. Abbasova, F. Şabran / F. Abbasova – Bakı: Elm, - 2002. – 280 s.
2. Baxşəliyev, V. Naxçıvanın tarixi abidələri / F. Quliyeva, V. Baxşəliyev – Bakı: - Nurlan, - 2017. – 212 s.
3. Cüveyni, A. Tarihi Cihan Güşa / A. Cüveyni, Türkcə çevirən M.Öztürk – Ankara: - 2013. – 655 s.
4. Mustafazadə, T. Ümumi tarix / T. Mustafazadə, I kitab – Bakı: İqtisad Universiteti nəşriyyatı, - 2009. 1152 s.
5. Mahmudlu, Y. Səyyahlar, Kəşflər, Azərbaycan / Y. Mahmudlu – Bakı: 2012. – 296 s.

6. Plano Carpini, İ. Moğol tarihi ve Seyahetname / İ. Plano Carpini, Türkcə çevirən E.Ayan – Trabzon: Derya kitabevi, - 2000. – 141 s.
7. Polo, M. Səyahətnamə / M. Polo, Türkcə çevirən 1001 Temel eser – İstanbul
8. Rubruk, W. Moğolların büyük hanına seyahet / W. Rubruk, Türkcə çevirən E.Ayan – İstanbul: Ayişığı kitapları, - 2001. – 144 s.
9. Vəlixanlı, N. Naxçıvan ərəblərdən monqollaradək (VII-XII əsrlər) / N. Vəlixanlı – Bakı: - Elm, - 2005. – 152 s.

LEARNING STRATEGIES IN FOREIGN LANGUAGE TEACHING
XARICI DILLƏRIN TƏDRİSİNDƏ ÖYRƏNMƏ STRATEGIYALARI

VƏFA ƏHMƏDOVA

ADPU, Elmi-təşkilati şöbənin baş mütəxəssisi, ORCİD İD 0009-0006-2387-1070

„Əgər bir insana balıq verirsənsə, ona birdəfəlik çörək verirsən, əgər bir insana balıq tutmağı öyrədirsənsə, ona ömür boyu çörək yeməyi öyrədirsən“

Konfutsi

Xülasə

Öyrənmə strategiyaları xarici dilin mənimsənilməsi və istifadəsi üçün vacib alətlərdir. Məqalədə dilöyrənmə prosesində zəruri olan bacarıqlar və öyrənmə strategiyaları barədə məlumat verilmişdir. Müntəzəm strategiya təlimi dil öyrənəndə daha çox müstəqil öyrənməyə kömək edir. Müstəqil öyrənmənin təşviqi xarici dil tədrisinin əsas məqsədidir. Öyrənmə strategiyalarının öyrədilməsi tələbələrin müstəqilliyini təşviq etməyin yollarından biridir. Öyrənmə strategiyaları öyrənənlərin həm bilik əldə edə, həm nəzarət edə, həm də qəbuledici və məhsuldar dil emal proseslərini genişləndirə bildiyi alətlərdir. Onların köməyi ilə xarici dili öyrənərkən və istifadə edərkən problemləri də həll edə bilərlər. Tədqiqatlardan məlumdur ki, öyrənmə strategiyalarından istifadə öyrənmə və iş performansına əhəmiyyətli təsir göstərə bilər. Bununla belə, öyrənənlərin nəinki geniş öyrənmə strategiyaları repertuarına malik olmaları, həm də onlardan səriştəli və şəraitə uyğun şəkildə istifadə etmələri çox vacibdir. Tanış olmayan mətni oxuyarkən öyrənənlər fərdi çətinliklərlə üzləşirlər, Bu halda, öyrənənlər nəticə çıxarır, naməlum sözü kontekstdən çıxarır, onu (ikidilli) lüğətdə axtarır və/yaxud öyrənən yoldaşları ilə birlikdə işləyirlər. Bunlar oxuyarkən lüğət problemini həll etmək üçün tez-tez birləşmə və ya ayrıca istifadə olunan öyrənmə strategiyalarıdır.

Açar sözlər: öyrənmə strategiyaları, ünsiyyət bacarıqları, dilöyrənmə, öyrənən, tədris materialı.

Abstract

Learning strategies are important tools for acquiring and using a foreign language. The article provides information on the skills and learning strategies necessary in the learning process. Regular strategy training helps language learners learn more independently. Promoting independent learning is the main goal of foreign language teaching. Teaching learning strategies is one way to promote student independence. Learning strategies are tools by which learners can acquire knowledge, control, and expand receptive and productive language processing processes. With their help, they can solve problems while learning and using a foreign language. Research shows that using learning strategies can have a significant impact on learning and work performance. However, it is critical that learners not only have a broad repertoire of learning strategies, but also use them competently and appropriately. Learners face individual challenges when reading an unfamiliar text. In this case, learners make inferences, take the unknown word out of context, look it up in a (bilingual) dictionary, and/or work with fellow learners. These are learning strategies that are often used in combination or separately to solve vocabulary problems while reading.

Keywords: Learning strategies, communication skills, learning, learner, teaching material.

Ən effektiv və uğurlu təhsil üçün təkcə "nə öyrəndiyimiz" deyil, həm də " necə öyrənirik" anlamı vacibdir. Dil öyrənən öyrənmənin məqsədləri, məzmunu və metodları haqqında müstəqil qərar qəbul edirsə, bu, "avtonom öyrənmə" adlanan məsələdir. O, koqnitiv öyrənmə psixologiyasının tərkib hissələrindən biridir və burada "strategiyalar" termini də mühüm rol oynayır. Tələbə öz ideyalarını qurur və təhsilində məqsədə çatmağı planlaşdırır.

Yaddaş prosesləri öyrənmə strategiyasında böyük əhəmiyyət kəsb edir. Yeni biliklər təkcə öyrənilmir, həm də yaddaşda saxlanmalıdır. Dörd yaddaş prosesi var və onlar bir-birini aşağıdakı şəkildə izləyir:

a) ÖYRƏNMƏ: Yeni məlumat verilir və saxlanılır.

b) YADDA SAXLAMAQ: Məlumat müntəzəm axtarış vasitəsilə qorunur.

c) UNUTMA: yaddaşın məzmunundan məlumatın alınması.

d) UNUDULMUŞ: Məlumat yaddaşdan silinir.

Öyrənmək üçün biz də hiss orqanlarımızdan istifadə edirik.Hər bir fərdin xarici dil öyrənmək qavrayışı fərqlidir. Kimsə oxumaqla, kimsə dinləməklə, kimsə yazaraq və ya söhbət zamanı daha yaxşı öyrənir və s. Qavrayışda hansı hissin iştirak etməsindən asılı olaraq biz müxtəlif öyrənmə növlərini ayırırıq:

1. vizual (görərək öyrənmə) növü

2. eşitmə (eşitməklə öyrənmə) növü

3. haptik (toxunma hissi ilə öyrənmə) növü

4. şifahi tip (linqvistik-abstrakt izahlar vasitəsilə öyrənmə).

5. qarşılıqlı əlaqə yönümlü (sosial təmas və söhbət vasitəsilə öyrənmə) növü

Öyrənərkən yuxarıdakı tiplərdən hansı olduğumuzu bilmək daha yaxşıdır. Bu, öyrənməmizdə bizə kömək edir. Xarici dilin mənimsənilməsi zamanı söz ehtiyatından, qrammatik qaydalardan və həmçinin müəllimin köməyi ilə daha asan və sadə şəkildə inkişaf edə bilərik. Bununla belə, ən təsirli və ən çox tövsiyə olunan üsul bu qavrayışların bir neçəsinin, hətta hamısının birləşməsidir. Burada əsas vacib məqam müntəzəm təkrardır. Bu həm də xarici dilin müvəffəqiyyətlə mənimsənilməsi üçün təməl daşıdır. Öyrəndiklərimizi təkrar etməsək, təbii ki, tədricən biliklərimiz unudulacaq.

Kommunikativ sərişta həm şifahi, həm də yazılı formada baş verir. Gertraude Heyd deyir: "Xarici dil öyrənərkən yeni danışıq dili ilə qarşılaşırsınız. Burada tələffüzün təliminə önəm vermək lazımdır, tələffüz təbii ki, başa düşülən olmalıdır.

Kitablar, iş vərəqləri, kino, video, CD, proyektor, displey cihazları, kompüter, mikrofon, CD pleyer, fotoaparat və s. tədris materialı və tədris vəsaiti kimi xidmət edə bilər.

Hansı cəhətlərinə görə lüğəti daha yaxşı və daha asan öyrənirik? Bu suala cavablar olduqca müxtəlif ola bilər. Lüğəti öyrənmək tələbələr üçün tam asan deyil. Kimsə təcrid olunmuş şəkildə lüğəti öyrənməyə üstünlük verir, kimsə onu müxtəlif birləşmələrdə, məsələn, mətnlərdən öyrənməyə üstünlük verir və ya öyrəndiyini yazaraq yadda saxlayır.

Xarici dilin tədrisində lüğətlə yanaşı, qrammatikanın rolu təbii ki, danılmazdır. Gertraude Heyd kitabında deyir: "Xarici dil dərslərində qrammatika düzgün cümlələr qura bilmək, başa düşmək və əlaqələndirmək üçün öyrənənin mənimsəməli olduğu tədris və təlim materialıdır".

Bacarıqlar - öyrənmə üsulları

Öyrənmə üsulları xarici dil didaktikasında kommunikativ səriştənin öyrənmə məqsədi kimi xidmət edir. Belə ki, iki reseptiv bacarıq növü: “dinləmə” və “oxumaq” və iki məhsuldar bacarıq növü vardır: “danışma” və “yazma”.

Dinləyib-anlama

Eşitmə və ya dinləyib anlama nitq bacarıqlarının inkişafının xəbərçisidir və onu 'dinləmə və təkrarlama', 'dinləmə və cavab vermə' 'eşitmə və dəyişdirmə' olaraq bölmək olar. Eşitmə eşidilən məlumatın hərfi şəkildə təkrar istehsalı deyil, danışanın bəyanat vermək niyyətinin analoji qavrayışıdır. Gertraude Heyd dinləmə haqqında deyir: “Bu gün xarici dilin səslərinin düzgün eşidilməsi düzgün tələffüz üçün həlledici ilkin şərt hesab olunur”.

Xarici dil dərslərində inkişaf etdirilən və tətbiq edilən iki fərqli dinləmə tərzi var:

Dinləyicinin yaddaşında bir proses yenidən qurulur, onun mərhələlərini öyrənmə psixologiyası baxımından müəyyən etmək olar. Bu mərhələlər bunlardır: akustik siqnalların eşitmə qavrayışı (səslər, intonasiya, melodiya və s. qulaq tərəfindən qeydə alınır), eşitmə inteqrasiyası və ya assimilyasiyası (qeyd olunan siqnallar sıralanır və əlavə olunur), eşitmə identifikasiyası (mənalar eşidilmiş vahidlərə verilir.) və semantik şərh (müəyyən edilmiş məna vahidləri mənalı kontekstdə yerləşdirilir). Qavrama və şərhin effektivliyi dinləmə tapşırığının çətinlik dərəcəsindən və dinləmə təcrübəsindən də asılıdır.

Dinləyib-anlama səviyyəsi müxtəlif olan insanlar var. Kimsə çox çətinlik çəkmədən asanlıqla başa düşür, kiminsə dinləyib anlaması olduqca mürəkkəb ola bilər. Ümumiyyətlə dəqiq olanlar, adətən, dinləyib-anlama ilə bağlı daha böyük çətinliklərlə üzləşirlər. Çünki onlar hər şeyi dərindən mənimsəməlidirlər və dinləyərkən başa düşmədikləri sözləri çıxarmaq heç də asan deyil. Bunu etmək üçün yazılı mətnə etibar edə bilmədiklərinə görə bəzən bütün dinləyib-anlamanın əsas mənasını da itirirlər. Burada yeganə kömək nitqi və mətnləri dinləmək üzrə daimi təlim və bununla da dinləyib-anlama sahəsində təcrübə qazanmaqdır.

Oxuyub-anlama

Mətnin işlənməsi zamanı oxucu öz biliklərini sxemlər şəklində, ardıcıllıqla təşkil edərək mətnə gətirir və orada təqdim olunan bilik strukturları ilə əlaqələndirir.

Oxuduğunu anlama dilöyrənmədə əsas mərhələlərdən sayılır. Mətnləri oxuyarkən təkcə dil bacarıqları deyil, anlama prosesləri haqqında biliklər də vacibdir. Anlama dərinliyi çox fərqli ola bilər. Oxuyarkən məzmunu başa düşmək, linqvistik ifadə vasitələrini qavramaq və qiymətləndirmək, mətnin məzmununu şərh etmək, ümumi xüsusiyyətləri müəyyən etmək, oxucunun baxışını əks etdirmək və fərqləndirmək və ən nəhayət, mətni təsnif etmək kimi bir neçə aspekt rol oynayır.

Danışma

“Danışma” bu gün linqvistik ünsiyyətin ən vacib bacarıqlarından biri hesab olunur. Karl-Richard Bausch bildirir: “Ünsiyyət bacarıqları öyrənənin sosial qarşılıqlı əlaqə prosesində mövzuya uyğun ifadələrdən elə istifadə etmək bacarığıdır ki, dinləyən tərəfindən asanlıqla başa düşülsün”.

Dil təliminin ünsiyyət və məqsədləri danışıq funksiyalarından, məsələn, məlumat ötürmək, öz hisslərini, təəssüratlarını və mülahizələrini ifadə etmək, müəyyən davranış və hərəkətləri oyatmaq, şəxsiyyətlərarası əlaqə yaratmaq və ya saxlamaq və s. kimi funksiyalarından irəli gəlir. Burada söhbət ünsiyyət mövzusuna və ünsiyyət partnyoruna

uyğunlaşmaq, ünsiyyət niyyətini inkişaf etdirmək və ünsiyyət planı yaratmaq bacarığından gedir.

Danışmaq eşitmə qabiliyyəti, həm də lüğət və qrammatika bilikləri ilə sıx bağlıdır; burada artikulyasiya və intonasiya da mühüm rol oynayır. Aydın, səlis, kortəbii və sərbəst danışmaq mütləq səhvsiz olmaq məcburiyyətində deyil - hamı səhv edir - amma düzgün danışıq üçün səy göstərmək lazımdır. Danışıqda mühüm komponentlər natiqin ünsiyyət niyyəti və uyğun nitq vasitələrinin seçilməsi ilə yanaşı, həm də mimika, jest və digər elementlər kimi qeyri-verbal elementlərin nisbətidir.

Danışarkən ifadənin "məzmun"u və "forması" çox önəmlidir, cümlələr müxtəlif ifadələr şəklində qurula bilər. Burada daha bir şeyi qeyd etmək lazımdır: Yazı ilə müqayisədə şifahi dil üçün xeyli az vaxt var. Yazı zamanı düşünməyə müəyyən qədər vaxtımız olur, lakin dinləyib anlama zamanı vaxtımız daha məhdud olur.

Yazı

"Yazı, yəni mətnlərin (yazılı dil ifadələrinin) yaradılması son dərəcə mürəkkəb bir prosesdir ki, bunun üçün həm məzmun meyarları, həm də formal-qrammatik qaydalara və dilin qaydalarına riayət olunur.

Şifahi dil istifadəsinə keçidlə "yazı" yavaş-yavaş xarici dil tədrisində hakim mövqeyini itirdi. 1980-ci illərdən etibarən isə e-poçt, faks və internetin istifadəsi yazı bacarıqlarımızın inkişafına daha da təkan verdi. Yazı zamanı dil bacarıqları möhkəmlənir və yazı bacarıqları inkişaf etdirilir. Bu bacarıq zamanı qrammatika, leksika və fonetika kimi aspektlərin inteqrasiya prosesləri dəstəklənir. Kommunikativ sərişta mənasında məqsədə çatmaq bacarığı gündəlik ünsiyyətdə yazı funksiyasıdır. Yazarkən məzmunu düzəltməyə, mətnləri strukturlaşdırmağa, linqvistik vasitələrdən istifadə etməyə və həmçinin məlumatı ünsiyyət tərəfdaşlarına çatdırmağa nail ola bilirik. "Yazı prosesi" planlaşdırma, icra və təftiş prosesidir. Burada mətnşünaslıq və mətn dilçiliyi mühüm rol oynayır. Təkcə "nə" deyil, həm də "kim"in nəyisə yazması, daha sonra "necə" və "kim" üçün yazması vacibdir. Məktubun mərkəz nöqtələri ünvana istinad (yazıçı-oxucu əlaqəsi), linqvistik bağlantılar, məntiqi keçidlər, mətnin qurulması planları və s. əsas mərhələlərdən sayılır.

Həqiqətən danışmaq və yazmaq arasında fərq varmı? Danışıq və yazılı dil fərqli struktur xüsusiyyətləri olan iki nisbətən müstəqil sahədir.

Yazarkən bir neçə sensor kanal işə salınır. Bu da məlumatın daha effektiv yadda saxlanmasına səbəb olur, bir müddət sonra yazılan məlumatlara yenidən qayıda bilirik. Hansı daha asandır, danışmaq və ya yazmaq? Bu suala cavab vermək üçün özümüzü yoxlayaq, istənilən bir mövzu ətrafında danışaq və ya bu barədə yazmağa çalışaq. O zaman nəyin daha asan olduğunu özümüz üçün müəyyən etmiş olacağıq. Təbii ki, bu öyrənmə üsulları hər fərd üçün fərqli ola bilər.

E-Öyrənmə

Elektron təhsil (həmçinin e-learning, ingilis dili elektron öyrənmə - elektron dəstəkli öyrənmə), həmçinin e-learning kimi tanınan, Michael Kerresin tərifinə görə, rəqəmsal medianın təhsil üçün istifadə edildiyi bütün öyrənmə formaları kimi başa düşülür. Burada söhbət hesablama texnologiyasından və internetdən istifadə etməklə öyrənməkdən gedir. Təhsil məqsədinə səmərəli nail olmaq üçün ilk növbədə kompüter şəbəkələri vasitəsilə elektron materiallardan və didaktik vasitələrdən istifadə olunur. Tədqiqat üçün təqdimatlar, təlimatları olan mətnlər, video yazılar, testlər, elektron təlim modelləri və s. kimi multimedia amillərindən istifadə olunur.

Bugünkü həyatı kompütersiz, internetsiz təsəvvür etmək mümkün deyil. Lakin həddindən artıq texnologiya, elektron aləmə aludə olmaq mənfi nəticələrə də səbəb ola bilər. Elektron təhsil və klassik dərslərin birləşməsi öyrənmənin uğurla mənimsənilməsi üçün yaxşı şərt ola bilər.

Ədəbiyyat

1. Smasal, Marc (2010): Lernstrategien im Fremdsprachenunterricht. Ein Workshop für die fächerübergreifende Aus- und Weiterbildung von Fremdsprachenlehrkräften. In: Profil 2. Jg., S. 171-188.
2. COSERIU, Eugenio: Geschichte der Sprachphilosophie. A. Francke Verlag Tübingen und Basel, 2003.
3. BAUSCH, Karl-Richard; CHRIST, Herbert; HÜLLEN, Werner; KRUMM, Hans-Jürgen: Handbuch Fremdsprachenunterricht. A. Francke Verlag Tübingen, 1991.
4. HEYD, Gertraude: Deutsch lehren. Verlag Moritz Diesterweg Frankfurt am Mein, 1991.
5. http://de.wikipedia.org/wiki/E-learning.

WAYS OF FORMATION OF MATHEMATICAL KNOWLEDGE OF STUDENTS WITH WEAK VISUAL ABILITY

GÖRMƏ QABİLİYYƏTİ ZƏİF OLAN ŞAGİRDLƏRİN RİYAZİ BİLİK VƏ BACARIQLARININ FORMALAŞDIRILMASI YOLLARI

ABBASOVA ALMARƏ ƏLİSA[1], ABBASOVA KƏMALƏ MİRZƏAĞA[2]

[1]ADPU, Elmi-təşkilati şöbənin baş mütəxəssisi

orcid.org/0000-0002-0638-3351

***[2]DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi*, baş mütəxəssis**

Xülasə

Fəza təsvirlərinin formalaşdırılması problemi birbaşa görmə prinsipinin həyata keçirilməsi ilə bağlıdır. Pedaqoji təcrübədə görmənin iki forması şərti olaraq fərqləndirilir: ibtidai (bilik əldə etməzdən əvvəl o, obyektlərin və ya onların təsvirlərinin göstərilməsindən ibarətdir) və ikincil (şagirdlərin biliklərinin konkretləşdirildiyi, təsvirlərinin dəqiqləşdirildiyi və lazımi biliklərin formalaşdığı möhkəmləndirmə).

Açar sözlər: *Fəza təsəvürü, riyazi biliklər, görmə əlilliyi olan, həndəsi məsələ, həndəsi fiqurlar*

Summary

The problem of forming spatial representations is directly related to the implementation of the principle of visibility. In pedagogical practice, two forms of visibility are conventionally distinguished: primary (before gaining knowledge, it consists in showing objects or their images) and secondary (consolidation, in which students' knowledge is concretized, their representations are refined and the necessary knowledge is formed).

Keywords: *Spatial perception, mathematical knowledge, visually impaired, geometric problem, geometric figures*

Məktəbdə riyaziyyatın öyrənilməsinin məqsədlərindən biri sonrakı həyatda zəruri olan riyazi bilik və bacarıqlar sistemini mənimsəməklə yanaşı, şagirdlərin intellektual inkişafı, onların müasir cəmiyyətə inteqrasiyası üçün zəruri olan şəxsi xüsusiyyətlərin formalaşmasıdır.

Qeyd edək ki, riyazi bilik və bacarıqların inkişafı şagirdlərdə bəzi məsələlərə aydınlıq və təfəkkürün dəqiqliyi, tənqidi təfəkkür, intuisiya, məntiqi təfəkkür, alqoritmik elementlərin öyrənilməsi, məkan təsvirləri, çətinliklərin öhdəsindən gəlmək bacarığını təkmilləşdirir. İnklüziv uşaqların xüsusiyyətlərini nəzərə alaraq, məkan təsvirlərinin formalaşması və inkişafı xüsusi çətinlik yaradır. Şagirdlərin intellektual inkişafının bu cəhəti həm ümumtəhsil fənlərinin (fizika, kimya, rəsm və s.) dərslərində, həm də praktiki məşğələlərində bu və ya digər dərəcədə həyata keçirilir. Lakin təbii ki, əsasən fəza təsvirlərinin formalaşması və inkişafı həndəsə dərslərində baş verir.

İbtidai məktəbdə təlim tədris prosesi və təkmilləşdirmə dərsləri zamanı uşaqlar dəftər vərəqində, stol müstəvisində, yazı lövhəsində və geniş məkanda (sinif və məktəb) elementar fəza anlayışını öyrənirlər. İbtidai və yuxarı sinif müəllimlərinin vəzifəsi görmə qabiliyyəti zəif

olan uşaqlarda digər uşaqlarla müqayisədə olduqca az olan mövcud fəza təsvirlərini genişləndirmək və artırmaqdır.

Belə ki, əgər görmə qabiliyyəti zəif olan şagirdin öyrənilən həndəsi fiqur və ya məsələ haqqında düzgün, aydın və dolğun təsəvvürü varsa, o, bütün əməliyyatları məntiqi əsaslandıraraq, tez bir zamanda müxtəlif çevrilmə və hesablamaları apara bilər.

Görmə əlilliyi olan və görmə qabiliyyəti zəif olan bir uşağın ətrafındakı dünyanı qavramaq üçün əsas şərt toxunma və eşitmədir. Buna görə də, belə şagirdlərdə fəza təsvirlərini inkişaf etdirərkən təkcə eşitmə qavrayışına deyil, həm də toxunma (əzələ hissi), hərəkət hissinə etibar etmək lazımdır.

Məkan təsvirlərinin formalaşdırılması problemi birbaşa görmə prinsipinin həyata keçirilməsi ilə bağlıdır.

Pedaqoji təcrübədə görmənin 2 forması şərti olaraq fərqləndirilir:

1. Bilik əldə etməzdən əvvəl uşağa obyektlərin və ya onların təsvirlərinin göstərilməsi;

2. Şagirdlərin biliklərinin konkretləşdirilməsi, təsvirlərinin dəqiqləşdirilməsi və zəruri biliklərin formalaşdırılması.

Vizuallaşdırmadan istifadə edərkən dərs boyu fərdi işə diqqət yetirməklə, şagirdlərin yaşını, şəxsiyyətin inkişaf xüsusiyyətlərini və səviyyəsini, potensial imkanlarını, habelə görmə orqanlarının zədələnməsini nəzərə almaq vacibdir.

Həndəsə dərslərində fəza təsvirlərini inkişaf etdirməyin yollarından biri də şagirdlərin müəllimlə birlikdə kağızdan, kartondan, məftildən (çoxbucaqlı və çoxüzlü modellər) müxtəlif əyani vəsaitlər hazırladıqları zaman özünü göstərir.

Əgər tələbələr yalnız izahata qulaq assalar, müəllimin və ya yoldaşlardan birinin işini əyani vasitələrlə müşahidə etsələr, mövcud məkan təsvirləri ehtiyatının genişləndirilməsi və həndəsi materialın mənimsənilməsi məhsuldar ola bilməz. Buna görə də hər bir şagird, hər bir konkret həndəsi məsələnin mənimsənilməsinin ilkin mərhələsində həndəsi fiqurlar ilə işləyir. Xüsusən həndəsi cisimləri öyrənərkən, həndəsi cisimlərin birləşməsi üçün bəzi stereometrik tətbiq olunan problemləri həll edərkən, real obyektlərin modellərini yaratmağa imkan yaranır. Məkan təsvirlərinin genişləndirilməsi və həndəsi materialın mənimsənilməsi üçün riyaziyyat kabinetinin bir neçə növ əyani vəsaitlə təchiz edilməsinin əhəmiyyəti böyükdür.

Həndəsə dərslərində yeni anlayışlarla işləyərkən görmə qabiliyyəti zəif olan şagirdlərdə onların vizual təsvirlərinin düzgün formalaşmasına və konkret situasiyalarda bu anlayışları tanımaq bacarığına böyük diqqət yetirilir. Necə ki, ibtidai məktəbdə şagirdlər həndəsi fiqurları tanıyaraq ətrafdakı əşyaları araşdırır və (məsələn, dəftər düzbucaqlı, stəkanın dibi dairə, top və s.) həndəsi fiqurların təsvirlərini formalaşdırırlar.

Planimetriya və stereometriyanın öyrənilməsi zamanı bu yanaşmadan da istifadə etmək məqsədəuyğundur: ətrafdakı cisimlərdə həndəsi fiqurları və cisimləri tanımaq. Bu yanaşma görmə qabiliyyəti zəif olan şagirdlərin həndəsi məsələlərinin öyrənilməsində xüsusilə faydalıdır. Belə ki, bununla nəticə olaraq öyrənilməsi çətin olan həndəsi fiqurlar haqqında fikir formalaşdırırlar.

Beləliklə, görmə qabiliyyəti zəif olan şagirdlər bucağın təsviri ilə tanış olduqda bucağı təkcə həndəsi fiqurlarda (düzbucaqlı, kvadrat, üçbucaq) deyil, həm də ətrafdakı əşyalar üzərində (masa küncü, lövhənin küncü, kitab küncü, dəftər küncü və s.) vurğulaya bilərlər.

Həndəsə xüsusilə görmə qabiliyyəti zəif olan şagirdlərin əksəriyyəti üçün çətindir. Bu səbəbdən sinifdə stressin qarşısının alınması üzərində işləmək lazımdır. Görmə qabiliyyəti zəif olan

şagirdlərdən daha çox "zəif" olan şagirdin dostunun dəstəyini hiss etdiyi qruplarla işləməklə müsbətyönümlü nəticələr əldə edilir. Daha "güclü" isə hansısa tədris materialını izah edərək, model və ya rəsmlə işləyərək, əldə etdiyi bilikləri bir daha təfərrüatlandırır və özü üçün sistemləşdirir, ətraf mühitin obyektləri arasında yeni nümunələr tapmağa çalışır. Belə ki, görmə qabiliyyəti zəif olan şagirdlər tərəfindən riyaziyyat fənni üzrə proqram materialının keyfiyyətli mənimsənilməsinə dair müxtəlif tədris metodları və üsullarından məharətlə istifadə etməklə nail olmaq olar. Onlar arasında mühüm rol fərdi vizual təhsilə aiddir, çünki vizual-məcazi və şifahi-məntiqi təfəkkürün inkişafına, ətrafdakı reallığın obyektləri və hadisələri haqqında fəza təsəvvürlərinin formalaşmasına kömək edir.

Ədəbiyyat

1.Subia, G.S. Think Like My Teacher (TLMT): A New Method in Assessing Millennial Learners. International Journal of Arts Humanities and Social Sciences, 2018 .3, 57-61.http://www.ijahss.com

2. Назарова Л.П. Методика развития слухового восприятия у детей с нарушениями слуха. - М.: Владос. 2011. - 429 с.

3.Никольская И. А. Современные подходы к обучению математике детей с нарушениями слуха. - М.В. Секачев. 2011. - 216 с.

4.Никольская И.А. Развитие речи учащихся с нарушениями слуха на уроках математики. Дефектология. - 2007. - № 3. - С.56-59.

5.https://educationnorthwest.org/insights/teaching-math-struggling-learners

NAMIG KAMAL'S DRAMATURGY
NAMİQ KAMAL DRAMATURGİYASI

SAYALI CƏFƏROVA

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Türkologiya mərkəzinin Türk ədəbiyyatı bölməsinin mütəxəsisi, 0009-0003-7052-8097

Xülasə

Ölkəsində ilk dəfə Avropasayağı türk ədəbiyyatını yaradan və bu üslubun sevilməsinə səbəb olan yazıçı Namiq Kamaldır. Namiq Kamal "Vətən şairi" deyə şöhrət qazanmışdır. Tənzimat dövrü Türkiyəsində Namiq Kamal bir fikir və sənət inqilabçısı olaraq tanınmış və xalqın gözündə milli qəhrəman səviyyəsinə yüksəlmişdir. Namiq Kamal şeirlərində də, romanlarında da, məqalələrində də qarşısına bir məqsəd qoymuşdu: hər kəsin anlayacağı dildə, yeni üslubda ədəbiyyat yaratmaq.Məhz buna görə Avropasayağı ədəbiyyat yaratmaq uğrunda ilk mübariz N.Kamal hesab olunur.Namiq Kamalın "Vətən, yaxud Silistrə" Türkiyədə sensasiya doğuran və səs-küy gətirən ilk teatr nümunəsidir. "Vətən, yaxud Silistrə" əsərində əsərin qəhramanlarından Zəkiyyənin oxuması, bir bəyi sevməsi, sevgisinin ardınca əsgər kimi geyinib döyüşə getməsi, qəhrəmanlıq göstərməsi və s. kimi davranışların kökü qədim türk dastanlarından gəlsə də, bu əsərdə məhz Qərbdən gəlmədir və Qərbləşmə, müasirləşmə ideyasının təbliği, aşılanması kimi qəbul edilə bilər. N.Kamalın əsərlərində, xüsusilə də "Vətən yaxud Silistrə" əsərində osmanlı adını çox istifadə etməsinə rəğmən, hər fürsətdə də türk adını işlətməsi, türkün və türklüyün böyüklüyündən söz etməsni göstərir.Namiq Kamal "Vətən, yaxud Silistrə"ni də bu israr və istəklər üzündən məcburən göndərildiyi Geliboluda yazmaga başladı. Vəzifəsindən istefa verib İstanbula qayıtdıqdan sonra əsərini tamamladı. Əsərin yazılışı da, daha sonra çap edilməsi də tələsik başa gəldi. Məhz bu üzdəndir ki, "Vətən yaxud Silistrə"də bəzi dil-üslub qüsurlarına, hətta bəzi tutarsızlıqlara da rast gəlinir. Bu əsər Avropada böyük marağa səbəb olmuş, rus daha sonra digər dillərə tərcümə edilmişdi

Summary

The writer who first created European-style Turkish literature in his country and made this style popular is the writer Namiq Kemal. Namiq Kemal has gained fame as "Poet of the Motherland".Namiq Kemal was recognized as a revolutionary of ideas and art in Tanzimat period Turkey and rose to the level of a national hero in the eyes of the people. Namiq Kemal set a goal in his poems, novels, and articles: to createliterature in a new style in a language that everyone would understand. That is why N. Kamal is considered the first fighter for creating European literature. Namig Kemal's "Homeland or Silistra" is the first example of theater that caused a sensation and made noise in Turkey. In "Homeland or Silistra", one of the heroes of the play is Zakiya singing, loving a groom, going to battle dressed as a soldier after her love, showing heroism, etc. although the root of the behavior comes from ancient Turkish epics, in this work it comes from the West and can be considered as the propagation and inculcation of the idea of Westernization and modernization. Despite the fact that N. Kamal often uses the name Ottoman in his works, especially in "Vatan or Silistra" the use of his name indicates that he is talking about the greatness of Turks and Turkishness.Namiq Kemal started to write "Vatan or Silistra" in Gallipoli, where he was forced to send because of these insistences and wishes. After resigning from his position and returning to Istanbul, he completed his work. The writing

and later printing of the work was completed in a hurry. It is for this reason that in "Vatan or Silistra" there are some linguistic and stylistic defects and even some inconsistencies. This work caused great interest in Europe, Russian was later translated into other languages.

Özet

Ülkesinde Avrupa tarzı Türk edebiyatını ilk yaratan ve bu tarzı yaygınlaştıran yazar Namık Kemal'dir. Namık Kemal "Vatan Şairi" olarak ün kazanmıştır. Namık Kemal, Tanzimat dönemi Türkiye'sinde fikir ve sanat devrimcisi olarak tanındı ve halkın gözünde milli kahraman mertebesine yükseldi. Namık Kemal şiirlerinde, romanlarında ve makalelerinde kendine bir hedef belirlemiştir: Herkesin anlayacağı dilde, yeni bir tarzda edebiyat yaratmak.Bu nedenle N. Kamal, Avrupa edebiyatını yaratmanın ilk savaşçısı olarak kabul edilir. Namık Kemal'in "Vatan Ya Silistre"si Türkiye'de sansasyon yaratan ve ses getiren tiyatronun ilk örneğidir. "Vatan Ya Silistre" oyununun kahramanlarından biri şarkı söyleyen,Zekiye'dir. Aşkının ardından asker kılığına girerek savaşma, kahramanlık gösterme vb. davranışların kökeni eski Türk destanlarından gelse de bu eserde Batı'dan gelmekte ve Batılılaşma fikrinin yayılması ve telkin edilmesi olarak değerlendirilebilir. ve modernizasyon.N. Kamal'ın eserlerinde özellikle "Vatan Ya Silistre" adlı eserinde Osmanlı ismini çok kullanmasına rağmen her fırsatta Türk ismini kullanması Türk'ün ve Türklüğün büyüklüğünden bahsettiğini göstermektedir. Namık Kemal, bu ısrar ve istekleri nedeniyle göndermek zorunda kaldığı Gelibolu'da "Vatan ya Silistre"yi yazmaya başladı. Görevinden istifa ederek İstanbul'a döndükten sonra işini tamamladı. Eserin yazımı ve daha sonra basımı aceleyle tamamlandı. Bu nedenle "Vatan yaSilistre "de dil ve üslup bozuklukları, hatta tutarsızlıklar bulunmaktadır. Bu eser Avrupa'da büyük ilgi uyandırmış, daha sonra Rusça başka dillere çevrilmiştir.

Namiq Kamal türk ədəbiyyatında mühüm yeri olan sənətkarlardan biridir. Avropa yönümlü türk ədəbiyyatının görkəmli nümayəndəsidir. Türkiyədə ilk dəfə “Vətən şairi” deyə şöhrət qazanan da odur. Əsl adı Mehmet Kamal olan şairə Namiq təxəllüsünü Sofyada olanda tanış olduğu şair EşrefPaşa vermişdir. Namiq Kamalinqlabçı şair olmuşdur. O, yaradıcılığa şeirlə başlamışdır.

Namiq Kamal bir çox ədəbi növ arasında dram janrına böyük önəm vermişdir. Bunu hələ Parisde olarken atasına yazdığı mektublarda açıqca bildirmişdir. Onun dram haqqında bəzi fikirləri: “Avropada dram əsərləri ədəbi növlərin hamısından üstün sayılır”, “Avropada ən böyük ədiblərin ən gözəl əsərləri dramlarıdır”, “Bir millətin ən gözəl söyləyiş qüdrəti ədəbiyyatında, ədəbiyyatın da ən canlı ifadəsi dram əsərlərində bəlli olur.”

Namiq Kamal dramı nə üçün romandan hətta şeirdən üstün tutduğunu anlamaq çətin deyildir. O, dramınAvropa mədəniyyətində oynadığı rolu yaxından görmüş, özü de millətini, vətən sevgisi ilə şahlandırmaq yolunda dramdan faydalanmışdır.

Namıq Kamalın altı dram əsəri var: “Vətən yaxud Silistirə”, “Gülnihal”, “Zavallı Çocuq”, “Akif Bəy”, “Qara Bəla”, “Cəlaləddin Xarəzm Şah”.

Namiq Kamalın dram əsərləri içində ən önəm verdiyi “Vətən yaxud Silistre”olmuşdur. Bu əsər yaratdığı təsir baxımından zəmanəsinin ən mühüm dramı olaraq qiymətləndirilir. Pyesin məqsədi xalqda vətənsevərlik və qəhrəmanlıq duyğularını aşılamaq idi. “Vətən yaxud Silistirə” türk ədəbiyyatında romantik dramın ilk örnəklərindəndir. Namiq Kamal “Vətən yaxud Silistre” əsərini 1872-ci ilde Gelibolu'ya dövlət işinə getməzdən əvvəl yazmış, İstanbulda tamamlamışdır.Bu əsər Namiq kamalın sağlığında səhnələşdirildiyini gördüyü tek pyesidir. Əsər dəfələrlə səhnələşdirilmiş, geniş kütlələrə çatdırılmışdır.Əsl adı “Vətən”olsa da senzura tərəfindən icazə verilmədiyinə görə əsərin adı dəyişdirilmiş və “Silistrə” adı ilə yayımlanmışdır. Lakin sonralar “Vətən yaxud Silistre” şəklində çap olunmuşdur. Dörd pərdəli bir qəhrəmanlıq

və vətənsevərlik pyesidir.İlk pərdədə hadisələr Monastrda , diger pərdələrdə isə Silistrede cərəyan edir.

Ilk dəfə 1873-cü ildə Gedikpaşa Osmanlı Tiyatrında böyük kütlə qarşısında səhnələşdirilmişdir. Çox bəyənilən və alqışa səbəb olan bu əsər haqqında bəzi qəzetlərdə də təriflər yağdırılmışdır. Ancaq bu əsərin səhnələşdirilməsi və bəyənilməsi eyni zamanda Namiq Kamalın tutulmasına və Mağusa sürgünə göndərilməsinə səbəb olmuşdur.

Əsərin mövzusu 1828-1853-cü illər türk-rus müharibəsində baş vermiş hadisələrdən götürülmüşdür. Krım uğrunda ruslarla türklər arasında gedən müharibə əks olunmuşdur. 1388-ci ildə türklər tərəfindən tutulmuş bu ərazilər 1853-cü ildə rus ordusunun hücumuna məruz qalmışdır. Hadisələr 1853-cü ildə Osmanlı Dövləti ve Rusya arasında başlayan Kırım müharibəsində könüllü olaraq orduya qatılan İslam Bey ile onun arxasınca Silistre'ye geden Zekiye adlı genc qızın eşqi ətrafında cərəyan edir. Əsərin baş qəhrəmanın İslam bəydir. Əsərdəki obrazların bir çoxu tarixdə yaşamış şəxsiyyətlərdir: Abdulla Çavuşun əsl adı Mustafa Çavuşdur, beləliklə tarixi şəxsiyyət olan Mustafa bəy əsərdə Abdulla çavuş kimi təqdim olunur. Sonra, Namiq Kamal Qarsda olarkən nişanlısının ardınca müharibəyə gəlmiş və şəhid olmuş bir qızın cənazəsini görmüş, həmin qızın obrazını Zəkiyyənin timsalında canlandırmışdır. Vətənin dar günündə döyüşə gedən İslam bəy onu sevən şəxslərin arxasınca gəlməsini arzu edir. "Qardaşlar!... Mən savaşa gedirəm. İstəyənlər yanıma gəlsin. Qurşundan, güllədən qorxmuram, qorxanlar qarılarınınyanında otursun. Mümkün olsa, bütün vətən qardaşlarıma bu zəif vücudumu sipər edəcəyəm, köksüm parça-parça olmadıqca bir daşına kimsənin əli toxunmayacaq. Biz vətəni qoruyacağıq…Allah da bizi qoruyacaq…". Bunu eşidən sevgilisi Zəkiyə də ölən qardaşının geyimini geyinərək, İslamın ardından gedir, Silistrəyi müdafiə edən ərlər və zabitlər arasına qatılır.Əsərin önəmli bir hissəsi Silistirədə cərəyan edir. Silistre mühasire altındadır. Komandir Sidqi bəy qələbə qazanmaq üçün əlindən gələni edir. Ancaq vəziyyət çox çətin olur. Tək çarə düşmən cəbhəsinin inhasıdır. Bunun üçün könüllü axtarılır. İslam bəy, Abdullah Çavuş vəAdəm cildində Zəkiyə bu vəzifəni üstlənirlər. Vəzifələrinin öhdəsindən gəlirlər. Zəkiyə yaralı sevgilisi İslam bəylə maraqlanır. İslam Bey yaralandığında ona bakar. İslam Bey, yaralı olmasına rağmen yanında Zekiye ile birlikte düşman cephanesini ateşlemeye gider. Kuşatma, haftalar boyu süren yoğun saldırılardan sonra Müslüman askerlerin kahramanca direnişi sayesinde kaldırılır. Döndüklerinde kuşatmanın kaldırıldığını gören Zekiye ile İslam Bey bu mutluluk içinde yapılan düğünle evlenir.Ancaq Zəkiyənin kimliyi məlum olur. Zəkiyə Sidqi bəyin qızı idi. Sidqi bəyonun illər əvvəl tərk elədiyi qızı olduğunu öyrənir. "Vətən yaxud Silistre" mövzu etibarı ilə çox sevilmiş və təqdir edilmişdir.Əsərə yaranan maraq səbəbindən başqa sənətkarlar da bundan ilhamlanaraq dram əsərləri yazmağa başlamışlar. Avropada böyük marağa səbəb olmuş, rus daha sonra digər dillərə tərcümə edilmişdir.

"Gülnihal". Namiq Kamal "Gülnihal" əsərini 1873 cü ildə Maqosada zülm və istibdad əleyhinə yazmışdır. 5 pərdədən ibarət olan əsərin əsl adı "Razi-dil" (könüldəki sirr) olmuşdur. Lakin bu ad İstanbulda senzura tərəfindəndəyişdirilərək "Gülnihal" adlandırılmışdır. Könüldəki sirr pyesin qadın qəhrəmanlarından Gülnihalın məsum bir aşk sirridir. "Vətən" pyesindən üstün olmasına baxmayaraq onu qədər məşhur olmamışdır.

Müəllif əsərdə iki müxtəlif qütbün zülmün və istibdadın, azadlıq və xeyirxahlığın konturlarını müəyyənləşdirir. Qaplan paşanı zülmün , Muxtar bəyi isə azadlıq və xeyirxahlığın rəmzi kimi qələmə alır. İnsanların bütün haqlarını tapdalamış Qaplan paşa əmisi oğlu Muxtar bəyin sevgilisini (İsməti) əlindən almaq məqsədi ilə onu zindana saldırır. Lakin Gülnihal Muxtar bəyi zindandan azad etdirir. Gülnihal Qaplan tərəfindən xəncərlə öldürülür. Sonda Muxtar bəy qəzaya hakim gəlir. O, Qaplanı öldürür. Onun hakimiyyət illərində ədalətli idarəçilik ön plana çəkilib.

Namiq Kamalın aile mövzusunda yazdığı ilk dram əsəri "Zavallı çocuk"dur. Bu dram əsərini Namiq Kamal "İbrət" qəzetində "Ailə" adlı məqaləsini çap etdikdən sonra yazıb. Üç pərdədən ibarət olan bu dram əsərini Magosada sürgündə olanda qələmə alıb. 1873-cü ildə qələmə aldığı bu əsəri dövrün məşhur mövzularından olan gənclərin razılıqları olmadan evləndirilmələri, ailələrin övladlarının həyatlarına müdaxiləsi və onun acı nəticələrini özündə əks etdirmişdir.

İlk dəfə 1874 cü ildə səhnələşdirilən "Zavallı Çocuk" bir-birini sevən iki gəncin tragik hekayəsi ilə və daşıdığı duygusallıqla sonradan yazılacaq bir çox əsər üçün də ilham qaynağı olmuşdur.

On dörd yaşlı Şəfiqə öz evlərində böyüyən və tibb məktəbində oxuyan Atanı sevməkdə, onun tərəfindən sevilməkdədir. Buna baxmayaraq anası Tahirə xanım qızını varlı bir paşaya verərək onun zəngin gələcəyini təmin etmək istəyir. O,yalandan qızına atasının borcları olduğunu ödəyəməzsə həbsə düşəcəyini bildirir və beləliklə onu nigaha razı salır.

Şəfiqə vərəm olur. Onun vərəm olduğunu və nigahlandığını Ata eyni anda öyrənir və buna dözməyərək intahar edir. Bütün bu dərdlərə dözməyən Şəfiqə də bu dünyadan köçür.

Bu əsərin təsirləri hələ Namiq Kamal zamanından hiss edilməyə başlamışdır.

"Cəlaləddin Xarəzmşah". Namiq Kamalın bu əsəri tarixi bir dramdır. Midillidə qələmə alınan "Cəlaləddin Xarəzmşah"15 pərdədən ibarətdir. Əsər Xarəzmşah dövlətinin son hökmdarı Cəlaləddin Xarəzmşahın həyatı, qəhrəmanlığı və siyasi fəaliyyətindən bəhs edir. "Cəlaləddin Xarəzmşah" əsəri qəhrəmanlıq və vətənpərvərlik ruhunda yazılmışdır. Əsərin ana xəttini Cəlaləddin Xarəzmşahın monqol istilası dövründə düşmənə qarşı mübarizəsi təşkil edir.

"Akif bəy".Bu əsər Namiq Kamalın Maqosada yazdığı 5 pərdəlik bir dramıdır.Faciə ailə məişət mövzusunda yazılmışdır. Əsərdə Namiq Kamal ərinə xəyanət edən qadının cəmiyyət həyatında oynadığı pozucu rolunu əks etdirmişdir. Əsərin qəhrəmanı Akif Bəy dəniz süvarisidir. O, Dilrubə adlı əxlaqsız qadınla evlidir, lakin xanımını bir mələk qədər məsum hesab edir. Akif bəyin gəmisi rus donanması tərəfindən partladılır. Dilrubə yalançı şahidlərin köməyi ilə Akif bəyi şəhid elan edir. Özü isə başqası ilə evlənir. Lakin, xoşbəxtlikdən Akif bəy bir taxta parçasına tutunaraq sağ qalır. Evinə qayıdan Akif bəy atasından hər şeyi öyrənir. Həyat yoldaşından boşanır. Sonra Dilrubənin əxlaqsızlıqları barədə eşidən Akif bəy namusunu təmizləmək qərarına gəlir.

Dilrubəni silahla vurmaq istəyərkən təzə əri Əsəd araya girir. Əsəd də ölmədən əvvəl qılıncını çəkərək Akif bəyi öldürür. Akif bəyin atası da sağ qalan Dilrubəni öldürür.

Əsərin məzmunundan belə aydın olur ki, hadisələr daxilində qəhrəmanlıq ruhunu, vətən sevgisini nümayiş etdirir.

"Qara bəla". Namiq Kamalın digər pyeslərinə nisbətən ən zəif dramı "Qara bəla" əsəridir. Bu Namiq Kamalın ən son pyesidir. Əsərin mövzusu Hindistanda Babirlər Dövlet sarayında baş verən bir hadisədən götürülmüşdür. Hökmdar qızı Banu saraya işə alınan bir zəncinin təcavüzünə uğrayır. Zəhər içərək intahar edən hökmdar qızı atası və sevgilisi Xosrovu çağıraraq bu barədə məlumat verir. Bunu eşiden Xosrov dərhal xəncərini çəkərək zəncini sonra isə özünü öldürür. Xosrovun cəsədi Banunun cəsədi üzərinə yıxılır.

Namiq Kamalın "Qara Bəla" pyesinin belə zəif olma səbəblərindən biri kimi onun Maqosada zindanda olarkən, orada maddi və mənəvi baxımdan zəif düşdüyü vaxtda qələmə alması ilə əlaqələndirirlər.

ƏDƏBİYYAT

1. Quliyev Elman. Türk Xalqları Ədəbiyyatı . Bakı, 2022. s 695
2. Türkiye Türk Edebiyyatı . Ankara, 1989, s 678

3. Uluslararası Namik Kemal sempozyumu. II cilt. Tekirdağ 2010, s 1210
4. Banarlı Nihad Sami.Resimli Türk Edebiyyatı Tarihi. II cilt.İstanbul 1971. s 1366
5. Namık Kemal “Zavallı çocuk” Türkiye İş Bankasi. Kültür Yayınları. s 4

IBRAY ALTYNSARIN'S ROLEIN THE KAZAKH ENLIGHTENMENT MOVEMENT

QAZAX MAARİFÇİLİK HƏRƏKATINDA İBRAY ALTINSARİNİN YERİ

Aytən ABBASOVA

***Bakı Avrasiya Universitetinin "Azərbaycan və dünya ədəbiyyatı" kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru,* ORCİD: 0000-0003-3799-8794**

XÜLASƏ

XIX-XX əsrlərdə qazax xalqının yaşadığı çətinliklər, mövcud sosial problemlər, regionda cərəyan edən ictimai-siyasi proseslər ədəbiyyata da təsirsiz ötüşməmişdir. XIX əsr qazax maarifçilik hərəkatının görkəmli nümayəndələri Çokan Vəlixanov, Abay Kunanbayev və İbray Altınsarin qazax xalqının problemlərini dilə gətirməyi və həll etməyi qarşısına məqsəd qoyan dəyərli ziyalılar idilər. Bu dövrdə feodal-patriarxal münasibətlərinin hələ də qismən mövcud olduğu, çar üsul-idarəsinin təsiri altında dünya sivilizasiyasından tamamilə uzaq qalmış Qazaxıstandaəhalinin maariflənməsində, təhsilə yönəlməsində əvəzsiz xidmətləri olan İbray Altınsarin (1850-1899) müasir qazax nəsrinin və qazax uşaq ədəbiyyatının banisi hesab olunur.

İlk qazax dərsliklərinin müəllifi olan Altınsarin məşhur rus missioneri N.İ.İlminski ilə tanış olduqdan sonra qazax ədəbi dili ilə bağlı tədqiqatlar aparmış, rus klassiklərinin əsərlərini qazax dilinə tərcümə etmişdir.Ömrünü qazax xalqının maariflənməsinə həsr edən Altınsarin qazaxların tərəqqisi üçün oturaq həyata keçidin zəruriliyinə inanmış, bunu sadəcə fikir kimi səsləndirməmiş, oğlan uşaqlarının dülgərlik, dəmirçilik, xarratlıq, qız uşaqlarının isə sənətə yiyələnmələri üçün Orenburq və Torqay quberniyalarında peşə məktəblərinin açılmasına nail olmuşdur.

Vətən, millət, qadın hüquqsuzluğu, sosial ədalətsizlik, humanizm, ikiüzlü ruhanilərin tənqidi, əməyə və təhsilə çağırış kimi məsələləryazıçının hekayələrinin aparıcı xəttini təşkil edirdi.Qazax xalqının həyat tərzi, məişəti ilk dəfə İ.Altınsarinin hekayələrində real cizgilərlə öz əksini tapmışdır.Maarifpərvər yazıçının mövzu və ideya mündəricəsinə görə qazax ədəbiyyatında yeni mərhələ sayılan hekayə yaradıcılığında ("Hörümçək, qarışqa və qaranquş", "Ata və oğul", "Ana və uşaq", "Rus kəndlisi və vəzir", "Qıpçaq Seyitgül", "Araba və ev", "Avamlıq", "Üç oğru", "Pisliyə yaxşılıq", "Ədalət" və s.) ciddi ictimai-sosial problemlər dilə gətirilmişdir. İbray Altınsarinin hekayələrində lirik ifşa tərzi güclüdür. Yazıçı hekayələrində ilk baxışdan olduqca kiçik görünən mətləblərdən ciddi məqamlar ortaya çıxarmış, özünəməxsus bədii yanaşma ilə mətləbin mahiyyətini ustalıqla aça bilmişdir.

Açar sözlər: İbray Altınsarin, hekayə, maarifçilik, sosial problemlər, qazax ədəbiyyatı

ABSTRACT

The difficulties experienced by the Kazakh people in the 19th and 20th centuries, existing social problems, and the socio-political processes taking place in the region did not leave an impact on literature. Chokan Velikhanov, Abay Kunanbayev and Ibray Altynsarin, prominent representatives of the Kazakh enlightenment movement of the 19th century, were valuable intellectuals who aimed to express and solve the problems of the Kazakh people. Ibray Altynsarin (1850-1899), whose feudal-patriarchal relations still partially existed in Kazakhstan,

which remained completely distant from the world civilization under the influence of the tsarist administration, was considered the founder of modern Kazakh prose, who had invaluable services in educating the population and focusing on education.

After meeting the famous Russian missionary N. I. Ilminsky, Altynsarin, the author of the first Kazakh textbooks, conducted research on the Kazakh literary language and translated the works of Russian classics into the Kazakh language. Devoting his life to the education of the Kazakh people, Altynsarin believed in the necessity of transitioning to a sedentary life for the progress of Kazakhs, he did not voice it as just an idea, he managed to open vocational schools for boys to learn carpentry, blacksmithing, blacksmithing, and for girls to learn art, he opened schools in Orenburg and Torgay governorates. He made an effort to teach the Kazakh people, who earn their main income from agriculture, the methods of modern agriculture.

Issues such as homeland, nation, freedom, women's rightslessness, social injustice, humanism, call to labor and education were the leading line of the writer's stories. The way of life of the Kazakh people was first reflected in the stories of I.Altynsarin with realistic lines. In the story creation of the enlightened writer, which is considered a new stage in Kazakh literature according to the theme and idea content ("Spider, Ant and Swallow", "Father and Son", "Mother and Child", "Russian Peasant and Vizier", "Kipchak Seyitgül", "Carriage and House", "Commonwealth", "Three Thieves", "Goodness to Evil", "Justice", etc.) serious social problems are expressed. Ibray Altinsarin's stories have a strong lyrical style of exposition. He brings out serious points from seemingly small matters, he can skillfully reveal the essence of the matter with his unique artistic approach.

Key words: Ibray Altynsarin, story, enlightenment, social problems, Kazakh literature

GİRİŞ

XIX-XX əsrlərdə qazax xalqının yaşadığı çətinliklər, mövcud sosial problemlər, regionda cərəyan edən ictimai-siyasi proseslər ədəbiyyata da təsirsiz ötüşməmişdir. XIX əsr qazax maarifçilik hərəkatının görkəmli nümayəndələri Çokan Vəlixanov, Abay Kunanbayev və İbray Altınsarin qazax xalqının problemlərini dilə gətirməyi və həll etməyi qarşısına məqsəd qoyan dəyərli ziyalılar idilər. Bu dövrdə feodal-patriarxal münasibətlərinin hələ də qismən mövcud olduğu, çar üsul-idarəsinin təsiri altında dünya sivilizasiyasından tamamilə uzaq qalmış Qazaxıstanda əhalinin maariflənməsində, təhsilə yönəlməsində əvəzsiz xidmətləri olan İbray Altınsarin (1850-1899) müasir qazax nəsrinin vəuşaq ədəbiyyatının banisi hesab olunur.

İbray Altınsarin 20 oktyabr 1841-ci ildə Qazaxıstanın Torğay (indiki Kostanay) şəhərində dünyaya gəlmişdir. Onun doğulduğu illər Qazaxıstanda çar Rusiyasına qarşı üsyanların baş qaldırdığı dövrə təsadüf edirdi. Orta Cüz xanlığının sultanı Kenesarı xan milli müstəqillik üçün ciddi mübarizə aparırdı. İbray Altınsarinin atası 1845-ci illərdə Kenesarı xanın qaldırdığı üsyanın yatırılması zamanı öldürülür. Dörd yaşında ikən atasını itirən İbray bölgədə tanınan qazax bəylərindən olan babası Balqoja bəy tərfindən böyüdülmüşdü. 1844-cü ildə Orenburq sərhəd komissiyası orta məktəbin açılması ilə bağlı qərar verir. Babası İbrayın da bu məktəbdə təhsil alması üçün müraciət edir. Ancaq məktəbin açılması üç il gecikdiyindən həmin dövrdə babası onun mollaxanaya göndərir. O, 1857-ci ildən həmin məktəbi bitirərək tərcüməçi kimi çalışmağa başlayır. 1859-cü ildən etibarən Orenburq vilayət idarəsində rəsmi olaraq tərcüməçi kimi çalışmağa başlayır. Bu illərdə Kazan Universitetinin professoru, rus missioneri Nikolay İlminski ilə yaxından tanış olur. Rusiya tabeliyində yaşayan türk xalqlarını ruslaşdırmaq və xristianlaşdırmaq üçün çalışan, türk dilləri ilə bağlı araşdırmalar aparan İlminski türk ləhcələrinin ayrıca bir dilə çevrilməsi ideyasını irəli sürmüş, qeyri-rus xalqlarının kiril qrafikasına keçməsinə çalışmışdır. İlminskinin irəli sürdüyü bu ideya Rusiya Maarif Nazirliyinin 1906-cı il martın 31-də elan etdiyi qeyri-rus xalqlarının təhsili layihəsində də yer

almışdır. O, türk dilləri üçün ayrıca yazılı dil və ədəbi dil yaratmaq üçün hər bir dilin qrammatik xüsusiyyətlərinə uyğun olaraq kiril əlifbası ilə ayrıca kitablar hazırlamaqla türk xalqları arasında ayrılığın daha da artacağını və ruslaşdırma fəaliyyətlərinin sürətləndiriləcəyini düşünürdü. İlminski bu təbliğatı açdığı məktəblərdə də davam etdirməyə başlayır və türk dilində təhsil verərək xristianlıq təbliğatı ilə məşğul olan məktəblərin açılmasına nail olur. Bu məktəblərdə istifadə olunan tədris materiallarının məzmunu daha çox dini xarakter daşıyırdı.İlminskinin imperiya sərhədləri daxilində belə məktəblər şəbəkəsinin yaradılması təklifi sonradan maarif naziri Tolstoya təqdim edilmişdi. İlminskinin təkilifi ilə açılan ibtidai məktəblər dördillik təhsili əhatə edirdi. İlk iki ildə uşaqların tarixin əsaslarını öyrənməsi, ana dilində mütaliə, kilsə mahnıları və hesabın öyrənilməsi, daha sonra isə mərhələli şəkildə rus dilinin tədrisi nəzərdə tutulur. İlminski mövcud çar maarif sisteminə uyğunlaşmaqda çətinlik çəkən etnik qruplara öz dillərində təhsil verir və tədricən ruslaşdırmanı həyata keçirirdi. Təbii ki, bölgə əhalisində inam yaratmaq üçün İlminski öz əsl məqsədini açıq şəkildə dilə gətirmir, özünü müasirləşmə tərəfdarı kimi təqdim edirdi. İlminski və Altınsarin uzun illər dost olsalar da, Altınsarin onun ideologiyasını qəbul etməmiş, yalnız rus təhsil sisteminə uyğun məktəblərin açılması üçün çalışmışdır. Hətta İlminskinin dinlə bağlı görüşlərinə qarşı "Şəriəti-islam" adlı bir kitab hazılamış, dinin əsaslarını qazax uşaqlarına məhz ana dillərində öyrətməyə çalışmış, bu da İlminski tərəfindən birmənalı qarşılanmamışdır. 1860-cı ildə qazax uşaqları üçün məktəblərin açılmasına icazə verildikdən sonra İbray Altınsarin Torğay şəhərində də məktəb açmaq üçün ciddi səy göstərmişdir. O, kənd-kənd gəzərək məktəb binalarının tikilməsində iştirak edir, şəxsi vəsaiti ilə ləvazimatlar alır, mütaliə kitablarını təmin edir, yerli əhaliyə oxumağın və yazmağın əhəmiyyətindən, onun gətirəcəyi faydalardan danışırdı. Əhalinin inamını qazanan Altınsarin camaat tərəfindən məktəb binasının tikintisi üçün toplanmış pulla tikintini qısa vaxtda başa çatdırır. Məktəb 8 yanvar 1864-cü ildə açılır. Ancaq onun maarifçilik fəaliyyəti sadəcə bununla məhdudlaşmır. Altınsarin xalqın zəngin xəzinəsi olan şeir, nağıl, məsəl, dastan kimi şifahi ədəbiyyata aid bir çox materialların toplanıb qələmə alınması işinə böyük əhəmiyyət vermiş və bu istiqamətdə ciddi işlər görmüşdür.

Ömrünü qazax xalqının maariflənməsinə həsr edən Altınsarin qazaxların tərəqqisi üçün oturaq həyata keçidin zəruriliyinə inanmış, bunu sadəcə fikir kimi səsləndirməmiş, oğlan uşaqlarının dülgərlik, dəmirçilik, xarratlıq, qız uşaqlarının isə müxtəlif peşələrə yiyələnmələri üçün Orenburq və Torqay quberniyalarında peşə məktəblərinin açılmasına nail olmuşdur. Altınsarin 1879-cu ildə Torğaydakı məktəblərə müfəttiş təyin edilir. O, hər fürsətdə xalqının tərəqqisi üçün oturaq həyata keçməyin zəruriliyini vurğulayırdı. Xüsusilə də qazax qızlarının təhsil alması üçün çalışan İbray Altınsarin İrqazda qazax qızları üçün internat məktəbi açmışdır. Onun təşəbbüsü ilə sonrakı illərdə müxtəlif şəhərlərdə bir-birinin ardınca yeni qız məktəbləri açılmışdır. Açılan məktəblər üçün yeni növ dərs kitabları çap edirən Altınsarin Coğrafiya İnstitutunun Orenburq şöbəsi açıldıqdan sonra 1874-cü ildə buraya üzv təyin edilir və burada qazax etnoqrafiyasına dair ciddi tədqiqatlar aparır.

Altınsarin Torğayda müfəttiş olarkən qazax dilində mətbu orqanın nəşr olunması üçün çalışır, dövrün səlahiyyətli orqanlarına bunun zəruri olduğunu bildirir. Onun səyləri nəticəsiz qalmır, 1883-cü ilin yanvarında "Qazax qəzeti"nin ilk nömrəsini nəşr etdirməyə nail olur. Ağır xəstəliyə tutulmasına baxmayaraq maarifçilik faəliyyətlərini davam etdirir, bu illərdə Moskvada Kənd Təsərrüfatı Akademiyasında təhsil alan qazax uşaqları üçün təqaüdlərin verilməsi, dəri emal edən və sabun istehsal edən fabriklərin yaradılması üçün dövlət qurumlarına müraciət edir, səyləri nəticəsiz qalmır. O, 1889-cu il iyulun 17-də ağır xəstəlikdən 48 yaşında dünyasını dəyişmişdir.

HEKAYƏ YARADICILIĞI

İ.Altınsarin açılan məktəblərdə tədris materiallarının hazırlanması üçün dünya uşaq ədəbiyyatı ilə yaxından maraqlanır, Qərb ədəbiyyatı nümunələrini mütaliə edir və bu məktəblər üçün yeni növ kitablar çap edilməli olduğu qənaətinə gəlir. Beləliklə, yazılı qazax ədəbiyyatında uşaq ədəbiyyatının ilk nümunələrini də məhz İbray Altınsarinin özü yazır. İ.Altınsarin məktəbin açılışından duyduğu sevinc hisslərini İlminskiyə yazdığı məktubda belə dilə gətirmişdir: "Gözlədiyim baş verdi, məktəb açıldı. 14 qazax uşağı məktəbə yazılıb, hamısı yaxşı, ağıllı uşaqlardır. Qazaxlar övladlarını məktəbə göndərməyə çox həvəslidirlər, onlar bizdən ilk növbədə ölkənin qanunlarını öyrətməyi xahiş edirlər. Mən indi onlara qanunlar haqqında danışıram. Mən qoyuna hücum edən canavarın acgözlüyü ilə bu uşaqları oxutmaq üçün çalışacam. Əlimdən gələni edəcəm ki, onlar əsl insan kimi yetişsinlər. Dərslərdən qalan boş vaxtlarımda mən onlara dini biliklər də öyrədirəm, faydalı və düşündürücü hekayələr danışıram. Ən böyük arzum onların faydalı insanlar olmasını təmin etməkdir. Bu arzuya çatsam, ürəyim çox rahat olacaq." (Jarmuhamedov: 1994, 4)

Məlum olduğu kimi, hekayə və roman janrı qazax ədəbiyyatına rus ədəbiyyatı vasitəsilə daxil olmuşdur. Qazax məktəblərində tədris üçün yazdığı "Qırğız müntəxabatı" adlı kitabında yazıçının hekayələri də yer alır. Altınsarinin kitaba daxil etdiyi qısa hekayələrinin bəzilərini rus dilindən tərcümə edərək (İ.A.Krılov, L.N.Tolstoy, K.D.Uşinski, M.M.Paulson və digərlərinin əsərlərini) qazax xalqının məişəti və həyat tərzinə uyğunlaşdırmışdır. Qazax xalqının həyat tərzi, məişəti ilk dəfə İ.Altınsarinin hekayələrində bu qədər real cizgilərlə öz əksini tapmışdır. Maarifpərvər yazıçının mövzu və ideya mündəricəsinə görə qazax ədəbiyyatında yeni mərhələ sayılan hekayə yaradıcılığında ("Hörümçək, qarışqa və qaranquş", "Ata və oğul", "Ana və uşaq", "Rus kəndlisi və vəzir", "Qıpçaq Seyitgül", "Araba və ev", "Avamlıq", "Üç oğru", "Pisliyə yaxşılıq", "Ədalət" və s.) ciddi ictimai-sosial problemlər dilə gətirilmişdir.İbray Altınsarin bir çox hekayələrində atalar sözü və zərbi-məsəllərdən də istifadə etmişdir. Bu hekayələrdə lirik ifşa tərzi güclüdür. Yazıçı hekayələrində ilk baxışdan olduqca kiçik görünən mətləblərdən ciddi məqamlar ortaya çıxarmış, özünəməxsus bədii yanaşma ilə mətləbin mahiyyətini ustalıqla aça bilmişdir. Qazax yazılı ədəbiyyatının banisi hesab edilən Altınsarin qazax ədəbiyyatına yalnız mövzu baxımından deyil, həm də forma baxımından yenilik gətirmişdir. Yazıçının hekayə yaradıcılığı mövzu və ideya istiqamətinə və janr xüsusiyyətlərinə görə qazax ədəbiyyatı üçün tamamilə yeni hesab edilir. Qazax aullarındamövcud olan bərabərsizlik, qadın hüquqsuzluğu, sosial ədalətsizlik, humanizm, ikiüzlü ruhanilərin tənqidi, əməyə və təhsilə çağırış kimi məsələlər yazıçının hekayələrinin aparıcı xəttini təşkil edirdi. Bu mövzuda yazılan hekayələrdən biri də "Qıpçaq Seyitqul" hekayəsidir (1879). Qazax ədəbiyyatında ilk hekayə hesab edilən hekayənin qəhrəmanı olduqca yoxsul vəziyyətdə yaşayan bir kəndlidir. Yaşadığı kənddə hamı dolanışığını təmin etmək üçün oğurluqla məşğuldur, bir-birinin mal-qarasını oxurlamaqla güzəranını təmin edənləri məzəmmət edən Seyitqul haram yolla pul qazanmağın əleyhinədir. "Eşkiya başı yolda kalsa gerek" (Ayan: 2015, 111) deyə düşünən Seyitqul kasıbçılıqdan xilas olmaq üçün Torğay bölgəsindəki Kabırğaç çayının sahilində məskunlaşmağa qərar verir. Yağmaçılıqla məşğul olan qardaşının israrlarına baxmayaraq o, burada alın təri ilə qazanc əldə etmək üçün çalışmağa başlayır. Ancaq tək yox, obasından apardığı otuz ailə birlikdə əkinçilikləməşğul olur, çayın qarşısını kəsərək torpağı sulayır, nəticədə məhsuldarlıq sürətlə artır, əldə etdikləri məhsulu sataraq bir neçə baş mal-qara alır. Getdikcə ətraf kəndlərdən onlara qoşulanlar çoxalır, əhalinin güzəranı gündən-günə yaxşılaşır. Xalq Seyitqulu kəndin ağası seçir. O, kəndi təhlükələrdən qorumaq üçün bir qala tikdirir, silahlı gözətçilər təyin edir. Həm ticarətlə, həm də əkinçiliklə məşğul olan Seyitqulun yurdu ətraf yurdlara nisbətən daha yaxşı yaşayır. Seyitqulun oğurluqla məşğul olan böyük qardaşı isə malına göz dikdiyi bir adam tərəfindən öldürülür. Əldə etdiyi qazanc isə Türkistan

hakimləri tərəfindən bölüşdürülür. Çox keçmir ki, Seyitqul doğulub-böyüdüyü kənddəki qohumlarını da ətrafına toplayır. Müəllif halal zəhmətlə, çalıqanlıqla hər bir insanın daha yaxşı yaşaya biləcəyini göstərir, zənginlik üçün əyri yollara əl atmağın zərərini dilə gətirir.

"Təmiz bulaq" hekayəsi yazıçının ibrətamiz fikirlərini dilə gətirdiyi nümunələrdəndir. Uzaq səfərə çıxan üç nəfər dincəlmək üçün bir bulağın başında görüşürlər. Göz yaşı kimi dupduru suyu olan bulağın yanında bir daş qoyulmuş, üzərinə "Ey yolçu, bu bulaq kimi təmiz ol" sözləri yazılmışdır. Dincəlib su içən yolçular söhbət etməyə başlayır. Hər biri bu sözləri fərqli cür anlayır. Tacir olan birinci yolçu bulağın gecə-gündüz fasilə vermədən axıb digər bulaqlara qarışıb sonra da çaya qovuşduğunu söyləyərək yazının mənasını belə izah edir: "Sen de, insan, durmadan çalış, hiçbir zaman tembellik etme. Böylü yaparsan sonunda sen de yükselip muradına erişirsin." (Ayan: 2015, 114) Molla olan ikinci yolçu tacirin dedikləri ilə razılaşmır. Bu sözlərin mənasının daha dərin olduğunu düşünür. Bulağın kim olursa-olsun, hər kəsi sərinlətməyə hazır olduğunu söyləyir. "İnsan için de ibret şu: Birisine iyilik yaparsan, bu iyiliğini hiç kimseye minnet etme dediği olsa gerek." (Ayan: 2015, 114) Digər iki yolçunun sözlərini sakitcə dinləyən gənc isə düşüncəsini belə gətirir: "Bu pınarın suyu durgun olup çer çöp düşerek kirli ve çamurlu olsa, insan ve hayvan ona bunca hayran olmazdı. Pınar gece gündüz sürekli akarak temizlendiği için hayran oluyorlar, öyleyse yazının manası: gönlünü, tenini şu pınar kadar temiz tut, nasıl pınara baktığımızda güneş düşse güneşin, ot düşse otun gölgesini görürüz. Gönlün bunun gibi dışa apaçık görünsün demek istediğini düşünüyorum." (Ayan: 2015, 114) Hər üç yolçunun sözləri ilə yazıçı gənclərə həyatda düzgün yaşamağı, faydalı, çalışqan, zəhmətkeş olmağı tövsiyə edir. "Ədəb" hekayəsində bir məmləkətin hakimi zəngin biri ilə söhbət edərkən yanlarından keçən, geyimindən olduqca yoxsul olduğu bilinən biri ona əyilərək salam verir. O da eyni hərəkətlə həmin şəxsin salamını alır. Bu hərəkət yanındakı şəxsi təəcübləndirir və ondan hakim olduğu halda bir yoxsulun qarşısında nə üçün bu qədər əyildiyini soruşur. Hakim belə cavab verir: "Hiç ilim bilim öğrenmeyen bir işçi o kadar eğilip edepli olduğunu gösterirken ben ondan terbiyesiz mi kalayım?" (Ayan: 2015, 115). Yazıçı cəmiyyətdə mövqeyindən asılı olmayaraq hər bir insan üçün sadəliyi ən dəyərli məziyyət sayır, "Ədəb" hekayəsində də bu fikri dilə gətirir. "Qənaət" hekayəsində isə"çox zəngin olmaq üçün nə etməliyik?" deyə soruşan birinə Həzrəti Əlinin verdiyi cavabla yazıçı israfçılığı pisləyir, qənaətin faydalarını gənclərə öyrətməyə çalışır. "Ne kadar mal çok olsa da kanaati olmayan kişi zenginliğe eriştim diye doymaz; ne kadar mal az olsa da olana kanaat edebilse o kişinin gönlü hoş, huzurlu olur." (Ayan: 2015, 115)

"Ədalət", "Pis dost", "Rus kəndlisi və vəzir", "Təkəbbür", "Yalanın zərəri", "Yamanlığa yaxşılıq" hekayələrində də yalançılıq, namərdlik, təkəbbürlülük, ədalətsizlik, ikiüzlülük, tamahkarlıq, simiclik kimi mənfi xüsiyyətlər pislənir. "Comərd" hekayəsində isə olduqca zəngin olan bir şəxsin hər gün köhnə libasını geyinərək odun qırdığını, ot daşıdığını görürük. Yaxınlarından biri ondan onlarla insanı geyindirmək, yedirmək imkanı olduğu halda niyə bu işlərlə məşğul olduğunu soruşur. Həmin şəxs bunun üçün dörd səbəb olduğunu söyləyir. Birincisi, yalnız gözəl geyinib gəzsə, təkəbbür hissinə qapılmaqdan qorxduğunu, ikincisi, var-dövləti olduğu halda işləməklə əməyin yalnız qazanc üçün olmadığını göstərərk başqalarına örnək olmaq istədiyini, üçüncüsü, halal qazancla yediyi yeməyin daha ləzzətli olduğunu, dördüncüsü, var-dövlətinin yalnız özünə məxsus olduğunu düşünərək sədəqə verməməklə Allahdan qorxduğunu, günaha batmaqdan ehtiyat etdiyini dilə gətirir.

"Üç oğru" hekayəsində tamahkarlıq tənqid olunur. Bir tacirin köməkçisi eşşək və atınısatmaq üçün şəhərə gəlir. Üç oğru onu görən kimi oğurluq planı qururlar. Birinci oğru adamın başının qarışmağından istifadə edərək keçisini oğurlayır, ikinci oğru ona bir nəfərin keçi ilə birlikdə meşəyə getdiyi söyləyir. Nökər ondan eşşəyin ipindən tutmasını xahiş edərək keçini axtarmağa gedir. Geri qayıdanda eşşəyinin də oğurlandığını görür. Kor-peşman çayın kənarına gələn bir

nəfərin qəmgin halda oturduğunu görür. Ondan səbəbini soruşanda qızıllarının çaya düşdüyünü, amma üzə bilmədiyi üçün çıxara bilmədiyini deyir. "Eşşəyimi və keçimi oğurlatdırdığım üçün bu, mənə Allahın bir lütfüdür, qızıl çuvalını sudan çıxarıb iyirmi altın bəxşiş alaram" deyə düşünür, paltarlarını çıxarıb suya tullanır. Üçüncü oğru onun geyimlərini götürüb qaçır. Hekayə vasitəsilə müəllif uşaqlara "artıq tamahın baş yara" biləcəyini öyrətməyə çalışır. "Öyrənmənin faydaları" adlı hekayədə isə yaşlı bir ustanın gecə-gündüz demədən çalışdığını görürük. Qonşuluqda yaşayan zəngin bir ailənin oğlu boş vaxtlarında seyr edir, usta ona "Çoçuğum boşu boşuna bakmak yerine hiç olmazsa çivi çakmayı öğrensene, kim bilir bir gün bu hüner de gerekli olur" (Ayan: 2015, 110) deyir. Elə olur ki, ölkədə müharibə başlayır, həmin ailənin bütün mal-mülkü əlindən çıxır, çox çətin vəzyyətdə evsiz-eşiksiz qalırlar. Təsadüfən müharibədəki əsgərlərin ayaqqabılarına vurmaq üçün mismar lazım olduğunu öyrənir. Ayaqqabı ustaları onun düzəltdiyi mismarları çox bəyənir. O, bu işlə məşğul olmağa başlayır və ömrünün sonuna kimi çox yaxşı yaşayır. Müəllif bu hekayə ilə öyrənilən biliyin, qazanılan vərdişin bu gün olmasa da, bir gün mütləq işə yarayacağı fikrini qazax balalarına çatdırmağa çalışır. Altınsarinin əməyi,zəhməti, çalışqanlığı təbliğ etdiyi hekayələrindən biri də "Hörümçək, qarışqa, qaranquş"dur. On yaşlı uşaq babası ilə yolda gəzərkən babası hörümçəyin necə çətinliklə tor qurduğunu,qarışqanın özündən qat-qat ağır yemi necə daşıdığını, qaranquşun ağzında necə ot apardığını göstərərək hər bir canlının yem üçün yorulmadan necə mübarizə apardığını başa salır. "İşsiz olan kimse yok, Allah seni de boş gezmek için yaratmadı,çalışmayı alışkanlık haline getirmelisin" (Ayan: 2015, 82) deyən babanın sözləri ilə uşaqları zəhmətdən qaçmamağa, işləməyi vərdiş halına gətirməyə səsləyir."Ata və oğlu", "Satemir xan" hekayələrində də müəllif eyni ideya ilə gənclərə səslənir. Yeddi yaşında ikən atadan yetim qalmış Satemir hər şeydən uzaqlaşaraq səssizcə həyətdə oturarkən axsaq bir qarışqanın dama çıxmaq üçün cəhd etdiyini görür, hər dəfə yerə düşən qarışqa bir neçə cəhddən sonra dama çıxa bilir. Satemir sanki yuxudan ayılır, Allahın yaratdığı ən balaca canlı olan qarışqanın belə bu qədər əzmlə çalışdığını görüb özünü qınayır. Satemir şəhərə gedir, bir mollanın evində xidmətçi kimi işləməyə başlayır, eyni zamanda təhsil alır. Bir neçə ildən sonra Satemir xan həm hökmdar, həm də dövrünün tanınmış alimi olur. Müəllif tənbəlliyin heç bir fayda gətirməyəcəyini, əzmkarlıqla, çalışqanlıqla insanın hər bir uğura nail olacağını dilə gətirir.

"Bağça ağaçları" adlı hekayədə oğlan atasından bağçadakı iki ağacdan birinin dik, digərinin nəyə görə əyri olduğunu soruşur. Ata dik ağacın qulluq gördüyünü, vaxtlı-vaxtında budandığını, bu səbəbdən də belə göründüyünü söyləyir, bununla da baxımın faydasını dilə gətirir. Bitkilər üçün qulluq nə qədər vacibdirsə, insanlar üçün də təlim-tərbiyə o qədər vacibdir. "Bir uşaq vaxtında təlim görməsə, yanlışları düzəldilməsə, doğru yol göstərilməsə, bu əyri ağac kimi böyüyər" deyərək övladına tərbiyənin əhəmiyyətini başa salmağa çalışır.

NƏTİCƏ

İbray Altınsarinin qazax yazılı ədəbiyyatının ilk örnəkləri hesab edilən hekayələri qazax ədəbiyyatının mütərəqqi demokratik ənənələr əsasında inkişafında və formalaşmasında mühüm rol oynamışdır. Yazıçının hekayə yaradıcılığı mövzu və ideya istiqamətinə, janr xüsusiyyətlərinə görə qazax ədəbiyyatı üçün tamamilə yeni hesab edilir. Qazax aullarındamövcud olan bərabərsizlik, qadın hüquqsuzluğu, sosial ədalətsizlik, humanizm, ikiüzlü ruhanilərin tənqidi, əməyə və təhsilə çağırış kimi məsələlər yazıçının hekayələrinin aparıcı xəttini təşkil edirdi.

ƏDƏBİYYAT

1. Ayan, Ekrem (2015), İbray Altınsarin. İstanbul: Bilge kültür ve sant yayınevi.
2. Tamir, Ferhat (1998),Türk Dünyası El Kitabı, Türkiye Dışı Türk Edebiyatı kısmı. Ankara: Türk Kültürünü Araştırma Enstitüsü.

3. Başlangıcdan Günümüze Kadar Türkiye Dışındakı Türk Edebiyatları Antolojisi (1997). Kazak edebiyatı, 28.cilt. Ankara, Kültür Bakanlığı yayınları.
4. Özdemir, Aşur, Kerimbekova Bayan (2019), Metinlerle Yeni Kazak Edebiyatı. Ankara, Ferfir yayınları.
5. Özdemir,Aşur (2014), Kazak edebiyatında hikaye. İstanbul: Ötüken yayınları.
6. Söylemez, Orhan (2004),Çağdaş Kazak Hikâyeleri Antolojisi. Ankara: Elips Kitap.
7. Uluslararası türk kültürü teşkilatı türk dünyası sanat ve kültür dergisi. TÜRKSOY,№5 2018, 127 s.
8. Yaman, Ertuğrul (2004), Türk dünyası Ortak Edebiyatı. Ankara: Diyanet vakfı yayınları.
9. Jarmuhamedov; M. Ibıray Altınsarin-Tañdamalı şığarmaları. Almatı: 1994, s. 4.
10. https://adebiportal.kz/kz/translation/view/1091

COMMON TURKISH LANGUAGE FAMILY: REALITIES, PERSPECTIVES
ÜMUMTÜRK AİLƏSİNİN ORTAQ TÜRK DİLİ: REALLIQLAR, PERSPEKTİVLƏR

MİRVARİ İSMAYILOVA

Filologiya elmləri doktoru, professor, Azərbaycan Dövlət Pedaqoji Universiteti Türkoloji Mərkəz Bakı, Azərbaycan ***orcid: 0000-0002-2085-544X***

Xülasə

Müasir dövrümüzdə dildə və mədəniyyətdə diferensiasiya prosesinin qloballaşan inteqrasiyanın əksinə olaraq güclənməsi qanunauyğundur. Bunun ən başlıca səbəbi xalqların milli mənliyinin, milli özünüdərk hissinin güclənməsi ilə bağlıdır. Azərbaycanda da dil siyasəti dövlətin, xalqın prioritet məsələsi olmalıdır. Bu proses milli özünüdərk səviyyəsində qiymətləndirilməlidir. Bu milli qürurla bağlı məsələdir. Qloballaşan dünyada bu proseslərdən hansının qarşılıqlı təsiri nəticəsində üstün gələcəyini izləmək, proqnozlaşdırmaq bu prosesə təsir etmək imkanları və gərəkliyinin araşdırılması müasir elmin aktual problemlərindəndir. Əlbəttə, güclü qloballaşma şəraitində dünya dillərinin inkişafında inteqrasiya əsas rol oynayacaq, çünki qloballaşma inteqrasiyanın cəmiyyətin bütün səviyyələrinə (iqtisadi, siyasi, mədəni, dil) sirayət etməsi ilə şərtlənir. Məsələn, müasir dövrümüzdə türk xalqlarının ortaq türk dili yaratmaq istəyi inteqrasiya prosesinin güclənməsinə səbəb olmuşdur və bu istək türk dövlətlərinin sıx kontakt qurmasına aparır. Nəticədə qohum dillərin yaxınlığı nəticəsində ümumi struktur elementlərin və əlamətlərin meydana çıxması ilə ortaq türk dili reallaşa bilər. Yenidən müstəqillik qazandıqdan sonra əlifbanın latın əsasına keçirilməsi barədə ideyalar daha böyük vüsət aldı. Hədəfdə türk xalqlarının ortaq türk əlifbasının yaradılması ideyası durur. Bunun üçün qəbul olunmuş ayrı-ayrı türk xalqlarının latın qrafikalı əlifbasının təhlilinə ehtiyac var.

Açar sözlər: qloballaşma, inteqrasiya, differensiasiya, beynəlxalq ana dili, ortaq türk dili, ortaq ünsiyyət dili, ortaq türk əlifbası.

Summary

Integration, which is an intensive process of the globalized world, is strong enough to penetrate all areas of society and erase religions, languages, civilizations, borders. But out of the irresistible flow, a very strong tendency, a natural force, rises with restraint and dictates its will. The main reason for this is the strengthening of the national identity of the peoples, the sense of national self-awareness. In our modern era, it is natural that the process of differentiation in language and culture is strengthened in contrast to the globalized integration. In Azerbaijan, language policy should be a priority issue of the state and the people. This process should be evaluated at the level of national self-awareness. This is a matter of national pride. Monitoring and predicting which of these processes will prevail as a result of their interaction in the globalized world, investigating the possibilities and necessity of influencing this process is one of the urgent problems of modern science. Of course, in the conditions of strong globalization, integration will play a key role in the development of world languages, because globalization is determined by the spread of integration to all levels of society (economic, political, cultural, language). For example, in our modern times, the desire of the Turkic peoples to create a common Turkish language has led to the strengthening of the integration process, and this desire leads to close contact between the Turkic states. As a result, a common Turkish language can

be realized with the emergence of common structural elements and signs as a result of the closeness of related languages. After restoration of independence, again, ideas about chanching the conversion of alphabet to Latin , widely increased. The main goal was idea of creating the common Turkish alphabet for the Turkic peoples.Because of this, analyzing of the Latin alphabet,which had been adopted individual Turkic peoples was need.

Keywords: globalisation, integration, differentiation, international mother language, common Turkic Language, common Turkish alphabet.

Qloballaşan dünyada inteqrasiya və differensiasiya proseslərindən hansının qarşılıqlı təsir nəticəsində üstün gələcəyini izləmək, proqnozlaşdırmaq, bu prosesə təsir etmək imkanları, perspektivlərinin xüsusilə türk dilləri, türk dünyasında baş verən proseslər kontekstində araşdırılması müasir dövrümüzlə səsləşən aktual məsələdir. Türk dillərinin sonrakı mərhələlərində bu proseslərdən hansının daha əhəmiyyətli rol oynayacağını, ortaq türk dilinin perspektivlərini müəyyən etmək və bu prosesdə ortaq türk əlifbasının təsiretmə mexanizmlərinin müəyyənləşdirilməsi bir çox türkoloq alimləri, qabaqcıl fikirli insanları düşündürür. Qeyd etmək lazımdır ki, Qərb siyasətçiləri də dillərin diferensiasiyası məsələsini düzgün qiymətləndirməyə çalışır, dövlət isə regional dilləri qorumaq üçün dəstək verir. Bu dəstək isə həm hüquqi, həm də maddi formada tolerantlıq şəraitində baş verir. Qərbin liberal və demokratik siyasəti dilə qarşı plüralist və tolerant münasibət sərgiləyir. Məlum olur ki, xalqlar, kiçik etnoslar öz milli mənliyini təsdiq və təqdim etmək üçün dirəniş göstərirlər, çünki hər bir etnodilin öz orijinallığını dirçəltmək və qorumaq hissi çox güclüdür. Bunun ən başlıca səbəbi xalqların milli mənliyinin, milli özünüdərk hissinin güclənməsi ilə bağlıdır. İnsanlar "fərqli olmaq hüquqlarına həssaslıqla yanaşırlar. Hər il fevralın 21-də qeyd olunan Beynəlxalq Ana dili günü də dünyada baş verən inteqrasiya prosesinə əks təsir göstərən differensiasiya ilə bağlıdır. Yəni hər il fevralın 21-də dünya səviyyəsində qeyd olunan Beynəlxalq Ana Dili Günü dil və mədəni müxtəliflik haqqında məlumatlılığı və çoxdilliliyi təşviq və təbliğ etmək məqsədi ilə keçirilməsinin nəticəsidir. Hər bir xalq vahid dünyaya milli kimliyini təqdim etməklə daxil olmaq istəyir və bu hiss müasir dövrümüzdə daha güclü şəkildə özünü göstərir. Belə səbəblərdən biri psixoloji səciyyə daşıyır. Dildə və mədəniyyətdə diferensiasiya prosesinin qloballaşan inteqrasiyanın əksinə olaraq güclənməsi qanunauyğundur. Bu xalqların milli özünüdərk hissi ilə bağlıdır. Son onilliklərdə bütün dünyada xüsusilə kiçik xalqlarda milli özünüdərkin artmasını görməmək mümkün deyil. Məsələn, Böyük Britaniyada şotland, uels və irland dillərinin mövqeyinin güclənməsi buna sübutdur. Eyni zamanda Fransanın dil diferensiasiyasına aid dil siyasəti buna parlaq nümunədir. Fransız dilindən ingilis dilinə aid alınmaların bütünlüklə dildən çıxarılması və əvəzində nitqdə onların fransız ekvivalentinin işlənməsi xalqın dil qururunu ifadə edir. Bu proses milli özünüdərk səviyyəsində qiymətləndirilməlidir. Məsələn, Kanadada ingilis və fransız dillərinin hüquqi cəhətdən bərabər olduğu şəraitdə faktiki olaraq ingilis dilinin dominantlıq etməsinə cavab kimi Kvebekedə - separatizmin artması tendensiyası bu şəraitdə labüd, qanunauyğun hal kimi qəbul olunmalıdır. Müasir dövrümüzdə diferensiasiya və inteqrasiya proseslərinin inkişaf tendensiyası bəzən fərqli şəkildə özünü göstərir. Bu hadisə müxtəlif cəmiyyətlərdə baş verən siyasi-iqtisadi proseslər nəticəsində meydana çıxır. Məsələn, serb-xorvat dilində Bosniya və Xorvatiyanın siyasi cəhətdən ayrı-ayrı ərazilərə parçalanması dil diferensiasiyası prosesini yaratdı. Bu həm xorvat, eləcə də Bosniya serblərinin öz müstəqil dillərinin ayırma cəhdi ilə baş verdi (Bax: 3, 6-24).

Azərbaycanda da dil siyasəti dövlətin, xalqın prioritet məsələsidir. Bu proses milli özünüdərk səviyyəsində qiymətləndirilir. Bu mənada Azərbaycanda ingilis və rus dillərinin öyrənilməsinə diqqət verilməsi, bu dillərdə təhsilə meylin artması Azərbaycan dilinin daşıyıcılarının azalmasına təhlükə yarada biləcəyi inandırıcı görünmür. Bu milli qürurla bağlı məsələdir. O

insanın ki, dillə bağlı qüruru var, hansı dildə təhsil almasından asılı olmayaraq ailədə, ictimai yerlərdə dilini sevərək fəxrlə Azərbaycan dilində danışacaq.

Bu prosesə türk dünyasında necə yanaşıldığını izləmək maraqlıdır. İnteqrasiya differensiasiyadan fərqli olaraq dillərin sıx kontakt qurmasına aparır, nəticədə qohum və qohum olmayan dillərdə ümumi struktur elementlər və əlamətlər meydana çıxır. Dillərin fonetik, leksik və qrammatik sistemində olan eynilik, eləcə də alınmaların çoxluğu səbəbi də bu proseslə bağlıdır. Məsələn, müasir dövrümüzdə türk xalqlarının ortaq türk dili yaratmaq istəyi Türk dünyasında inteqrasiya prosesinin güclənməsi nəticəsində olmuşdur və bu türk dövlətlərinin sıx kontakt, ünsiyyət qurmaq istəyinin göstəricisidir. Nəticədə qohum dillərin yaxınlığı nəticəsində ümumi struktur elementlərin və əlamətlərin meydana çıxması ilə ortaq türk dili reallaşa bilər. Dillərin fonetik, leksik və qrammatik sistemində olan eynilik, həmçinin saysız-hesabsız alınmaların çoxluğu bu prosesdə nəzərə alınmalıdır.

Ortaq türk dili yaratmaq istəyi XX əsrdə də baş vermişdir. O zaman bu məsələ siyasi təqiblərin qurbanı olaraq dayandırılmışdır. Dilçilikdə süni dil (esperanto) yaratmaq meyli də mövcud olmuş, lakin bu proses uğursuzluqla nəticələnmişdir. Hesab edirik ki, bu perspektivi olmayan ideya idi. Əslində ortaq türk dili yaratmaq istəyi süni dil yaratmaqdan bir qədər fərqli olsa da, onun reallaşması da o qədər asan iş deyil. Çünki söylədiyimiz kimi xalqların milli kimliyini, identikliyini qorumaq hissi çox güclüdür. Çox qədim köklərlə bağlılıq, əsrlərin sınağından keçərək qorunub saxlanan bir-birinə yaxın olan dil, din, genetik qohumluq: türk kimliyi, həyata baxış, türk fəlsəfi dünyagörüşü ilə yanaşı müstəqil şəkildə formalaşmış hər bir türk dilinin öz milli identikliyini qorumaq cəhdi çox güclüdür. Eləcə də türk xalqlarının ortaq türk dili yaratmaq ideyasına münasibəti də birmənalı deyil. Amma hər halda Türk Dövlətləri Təşkilatının mövcudluğu, bir-birilə iqtisadi, elmi, mədəni, hərbi əlaqələr yaratmaq istəyinin qarşısıalınmaz hal alması ortaq ünsiyyət vasitəsinə ciddi ehtiyac yaratmışdı. Digər tərəfdən Türkiyə Respublikasının Rusiyadan tutmuş dünyanın hər yerindəki bütün türk dövlətləri ilə iqtisadi, siyasi əlaqələr qurması türk dilinin öyrənilməsini sürətləndirmişdir. Bu reallıqdır. Dilin təbii yolla yayılması, onun qarşısının alınması hər halda qeyri-mümkündür. Nəticədə türk dili türk xalqları arasında ortaq ünsiyyət vasitəsi rolunu öz əlinə almışdır. Bu süni yolla deyil, təbii yolla baş vermişdir. Türkiyədə turizmin inkişafı, mədəni xidmət sferasının yüksək səviyyədə təmin olunması, münbit alış-veriş şəraiti dünyanın hər yerindən turistlərin və iş adamlarının ölkəyə axınını artırmışdır. Bu isə istər-istəməz Türk dilinin öyrənilməsini zəruri etmişdir. Eləcə də demək olar ki, dünyanın hər yerində türk mətbəxinin populyarlaşması, türk iaşə obyektlərinin açılması, Türk filmlərinə-seriallarına maraq və bir çox digər amillər də (məsələn, hərbi güc) türk dilinin öyrənilməsini şərtləndirmiş, onun ortaq ünsiyyət dili olmasına böyük təkan vermişdir. Beləliklə, dövlətin siyasəti mədəni, ticari münasibətlərin inkişafı Türk dilinin öyrənilməsini şərtləndirmişdir. Türkiyə türk xalqları ilə ictimai-siyasi, iqtisadi, mədəni və s. əlaqələrin qurulmasına xüsusi əhəmiyyət verir. Qeyd edək ki, Türkiyə yalnız türk dövlətləri ilə deyil, dinindən və irqindən asılı olmayaraq dünyanın bir çox ölkələri ilə mədəni, iqtisadi əlaqələr qurur. Təbii ki, bu amil də Türkiyəyə marağın artması, eləcə də türk dilinin öyrənilməsini aktuallaşdırmışdır. Lakin bütün bunlar türk dilinin ortaq ünsiyyət vasitəsi kimi istifadəsini təsdiq etmişdir. Türk xalqlarının nəzərdə tutduğu ortaq türk dili funksiyasını ortaq ünsiyyət dili kimi istifadə edilən Türk dili yerinə yetirə biləcəkmi, digər türk xalqlarının məsələyə münasibəti necədir? Burada daha bir məsələni dəqiqləşdirmək istərdik. "Ortaq türk dili" və "ortaq ünsiyyət vasitəsi" anlayışları özündə nəyi ehtiva edir. Təbii ki, "ortaq türk dili" və "ortaq ünsiyyət dili" anlayışlarına fərqli yanaşılmalıdır. Hal-hazırda dünyanın hər yerinə səpələnmiş türk xalqları bir-birilə ünsiyyət qurarkən əsasən müasir Türkiyə dövlətinin istifadə etdiyi Türk dilindən istifadə edirlər. Türk dili eyni zamanda türk dünyası ilə əlaqə qurmaq istəyən digər xalqların da istifadə etdiyi dildir. Biz hesab edirik ki, müasir dövrümüzdə türk

dövlətlərinin qarşılıqlı anlaşması üçün işçi termin kimi "ortaq ünsiyyət dili" anlamından istifadə etmək hələlik daha məqsədəmüvafiqdir. "Ortaq ünsiyyət dili" rolunda isə dünyada çox geniş yayılmış müasir Türk dili uğurla çıxış edir. Lakin ortaq ünsiyyət dili olan Türk dili ortaq türk dili statusunun tələblərini tam ödəyə bilmir, çünki müasir Türk dili həddindən artıq alınma sözlərlə yüklənmişdir. Bu isə ortaq dil tələblərinə ziddir. Artıq qloballaşan dünyada super gücə çevrilmiş müasir Türkiyə Respublikasının dövlət dili olan Türk dili qarşılıqlı ünsiyyət vasitəsi kimi həm türk dövlətləri, həm də böyük türk dünyasına maraq göstərənlər, eləcə də dünyaya açıq olan Türkiyənin dünyaya marağından irəli gələrək dominant rol oynayır. Türkiyənin dünyanın hər yerindəki bütün türk və qeyri-türk dövlətləri ilə iqtisadi, siyasi əlaqələr qurması, eləcə də dünya dövlətlərinin Türkiyə ilə hərbi, iqtisadi, siyasi əlaqələrə can atması, Türkiyəyə böyük turist axını türk dilinin öyrənilməsini sürətləndirmişdir. Bu reallıqdır. Dilin təbii yolla yayılması, onun qarşısının alınması üçün maneələr yaratmaq hər halda qeyri-mümkündür. O ki, qaldı "ortaq türk dili" məsələsinə. "Ortaq türk dili" müasir türk xalqlarının bir-birini tam anlaması üçün yaradılacaq "dil"dir. Əlbəttə, bu vaxtilə dilçilərin yaratmaq istədiyi "süni dil" olmayacaq, çünki türkləri bir-birilə bağlayan ən güclü bağ diferensiya prosesində yaranmış fərqlərə baxmayaraq dillərinin bir-birinə yaxınlığıdır. Uzun müddət bir-birindən çox aralı düşmüş, fərqli dil birliyinə daxil olmuş ayrı-ayrı türk xalqları arasında şox ciddi dil baryeri olmasa da, hər halda onlar mövcuddur. Təbii ki, bunun aradan qalxması müəyyən vaxt tələb edəcək. Zamanla ortaq türk dilinin konturları yəqin ki, dəqiqləşəcək. Bu hər bir türk dövlətinin öz dilinə münasibəti, aparılan dil və əlifba islahatları, eləcə də onların Ümumtürk ailəsinə bu sahədə verəcəkləri istək və töhfələrlə bağlıdır. Türk xalqları mədəni, iqtisadi əlaqələri artırmaqla, elmi mübadilələri artırmaqla bu sahədə təbii seçmə yolu ilə nailiyyətlər əldə edə biləcəklər. Zənnimizcə, ilk addım kimi Türk Dövlətləri Təşkilatına daxil olan türk dövlətlərinin istifadə edə biləcəyi çoxdilli danışıq lüğəti ortaq sözlərin təbiiseçməsi ilə nəticələnə bilər Yaradıcılacaq ortaq (məsələn, ortaq musiqi, dilçilik və s.) terminləri lüğətləri, ortaq terminologiya da qarşılıqlı anlaşmanı, dili, ünsiyyəti asanlaşdıracaq.

Ortaq türk dilinin yaranmasına təkan verən ciddi bir amil də mövcuddur, bu da ortaq türk əlifbasının yaradılmasında qarşıda olan maneələrin aradan qaldırılmasıdır.

1980-ci illərin ikinci yarısından başlayaraq Azərbaycanda müstəqillik hərəkatı yenidən latın qrafikalı əlifbaya keçidi aktuallaşdırdı. Latın əsaslı yeni əlifbanın qəbul edilməsi prosesində əsas mübahisələr Azərbaycan dilinə məxsus spesifik hərflərə uyğun işarələrin qəbul edilməsi ilə bağlı olmuşdur. Müzakirə prosesində üzə çıxan mübahisəli məsələləri daha yaxşı qiymətləndirmək məqsədi ilə ilk növbədə ideal əlifba məsələsini nəzərdən keçirmək yerinə düşərdi. Dünyada müxtəlif fonetik əlifbaların yarandığı dövrdən onların təkmilləşdirilməsi istiqamətində araşdırmalar aparılmış, bu və ya digər əlifbanın qüsurlu və müsbət cəhətləri aydınlaşdırılmışdır. Bir sıra xalqlar əlifbalarında qüsurlu cəhətlərin çox olmasına baxmayaraq, ilk əlifbanı dəyişməyə cəhd göstərməmişlər. Əlifbaların dəyişdirilməsi prosesini izləyərkən, daha çox dillərin latın əsaslı qrafikaya keçməsi ilə üzləşirik. Əlifbanın kamilliyini yerinə yetirən funksiyalar: 1) bir tərəfdən nitqi dildəki səslər əsasında canlandırmaqdan ibarətdirsə, 2) digər tərəfdən nitqi yazıya köçürməkdir. Bu iki funksiya bir-biri ilə sıx qarşılıqlı əlaqədədir və bəzən onların arasındakı sərhədi müəyyənləşdirmək belə çətindir. İdeal əlifbanın meyarları məşhur dilçi Boduen de Kurtene tərəfindən irəli sürülmüşdür. O, əlifbanın ideal olması üçün bir sıra tələblərin ödənilməsinin vacib olduğunu qeyd edərək yazmışdır: «1)dildəki hər səs xüsusi və müstəqil işarə-hərflə ifadə olunmalıdır; 2)eyni bir işarə bütün hallarda yalnız bir səsi bildirməlidir; 3)eyni səs bütün məqamlarda mütləq eyni işarə ilə ifadə olunmalıdır; 4)yazıda bu və ya digər səsin tələffüzünü bildirməyən heç bir artıq işarə olmamalıdır; 5)bütün səslər yazıda ifadə olunmalıdır; 6)səslərin fərqli variantları, oxşar olmayan modifikasiyalarını bir-birindən tamamilə fərqli işarələrlə göstərmək lazımdır; 7)dildə olmayan və ya işlədilməsi mümkün olan

səslərin deyil, yalnız mövcud səslərin yazıda ifadəsinə səy göstərilməlidir» (4,12). Ümumiyyətlə, dildə olan fonem-səslərin miqdarı qədər hərfi olan əlifba ideal əlifba hesab olunur. A.Qurbanov müasir əlifbanın dörd tələbə cavab verməli olduğunu qeyd edir (5, 714-715).

Əlifbaların kamillik, yaxud ideallıq dərəcəsini konkret qiymətləndirmə meyarı yoxdur. Yuxarıdakı prinsiplər əsasında müxtəlif əlifbaların bir-biri ilə müqayisəsi zəminində hansı əlifbanın daha kamil olmasını qeyd etmək olar. Məsələn, türk dilində sözlərin birinci hecasında və təkhecalı sözlərdə **e** hərfi **ə** kimi oxunur. Lakin türk əlifbasında **ə** saitini bildirən ayrıca hərf yoxdur. Rus dilində həm **a**, həm də **o** saitini bildirən hərf olsa da bir sıra sözlərdə o yazılsa da, a oxunur və s. İngilis dilində liqatur hərflər çoxdur, məsələn, ture liqaturu ç, sion və tion isə ş fonemini bildirir. Bütün bunlar həmin əlifbaların qüsurlu cəhətləridir. Azərbaycan dilində 32 fonem vardıır. Bu cəhət əlifbada da 32 qrafemin olmasını tələb edir. Azərbaycan dilinin müəyyən tarixi inkişaf dövrlərində bu dilin fonemlər sistemində sağır nun (işarəsi N_1, n_1; $N_,$, $n_,$) səsi də olmuşdur. Bu səs müasir Azərbaycan dilində (nq) birləşməsinə uyğun gəlir. İngilis dilində də belə bir səs vardır (6). Qədim yazılı abidəmiz - «Kitabi Dədə-Qorqud» dastanlarının dilində sağır nun fonemi işləkdir. 1929-cü ildə qəbul olunmuş latın qrafikalı əlifbaya sağır nun fonemini ifadə edəcək qrafem daxil edilmişdi. Lakin müasir Azərbaycan dilində bu fonemin işlənməməsi həmin fonemə uyğun işarənin dildən çıxarılmasına imkan vermişdir.

Kiril əsaslı Azərbaycan əlifbasına hərf səciyyəsi daşımayan, səsin uzun tələffüzunu bildirən bir diakritik işarə (‘) – apostrof da daxil edilmişdi. (6, 252; 8, 67). Apostrofun Azərbaycan əlifbasından çıxarılması hələ kiril əlifbasının işlədildiyi dövrdə dəfələrlə müzakirə obyekti olmuşdur. Latın qrafikalı yeni əlifbanın layihəsinin müzakirəsi zamanı da apostrof ətrafında elmi mübahisələr getmiş, apostrof yeni Azərbaycan əlifbasının işarələr sisteminə salınmamışdır. Azərbaycan, eləcə də özbək və digər türk dillərinin əlifbasına daxil olmayan işarənin işlədilməsi dilin orfoqrafiya normalarına uyğun deyildir. İşarənin orta məktəbdə tədris prosesində istifadəsi bu və ya digər dərəcədə özünü doğrultsa da, ümumən qüsurlu cəhətdir. Tədris prosesində tərkibində uzun Ə, E, Ö saitlərinin olduğu sözlərin istisna hallar kimi öyrədilməsi məqsədəuyğundur. Müxtəlif dillərdə belə istisna hallar dilin öyrədilməsi prosesində nəzərə alınır. Yuxarıda göstərilənlərə əsaslanaraq demək olar ki, qeyd olunan iki səs ətrafında gedən mübahisələr nəzərə alınmazsa, Azərbaycan dilinin fonemlər sistemində 32 fonemin olması faktı tam təsdiqlənir. Dilin yeni əlifbasında da 32 fonemə uyğun gələn 32 qrafem vardır. Deməli, əlifbanın kamilliyinin birinci kriteriyası yeni əlifbamız üçün ödənilir. Əlifbanın kamilliyinin əsasında duran bir prinsip də bir qrafemin müxtəlif şəkildə oxunmasının, yəni onun qarşılığının iki müxtəlif səs olmasının aradan qaldırılmasıdır. Müxtəlif əlifbalar üçün bu meyar pozulur. Məsələn, ingilis dilində C hərfi sözdəki yerindən və özündən əvvəlki saitdən asılı olaraq (S) və (K) fonemlərinin qarşılığı kimi çıxış edə bilir. Rus əlifbasındakı o saiti bir sıra sözlərdə (a) foneminin qarşılığı olur, digər hallarda bu hərf (o) fonemini ifadə edir. Yeni Azərbaycan əlifbasında göstərilən cəhət yalnız K qrafeminə aiddir. Bu qrafem rus dilindən alınmış sözlərdə (K) tələffüz olunur. Lakin bu hal qeyd olunmuş meyarın pozulması deyildir. Əlifbanın kamilliyini müəyyən edən daha bir prinsip eyni səsin bütün hallarda eyni işarə ilə ifadə olunmalıdır. Əgər bir qrafem yalnız bir səsə uyğun gəlirsə, onda eyni səsə də bir qrafem uyğun gəlmiş olur. Kiril əlifbasına daxil edilmiş apostrof da adekvat rolu oynamışdır. Yeni Azərbaycan əlifbasında isə belə əlavə işarə yoxdur.

Aparılmış təhlildən aydın olur ki, Boduen de Kurtenenin ideal əlifba üçün təklif etdiyi yeddi prinsipin yeddisi də latın qrafikalı yeni Azərbaycan əlifbasında nəzərə alınmışdır. Buradan belə nəticə çıxır ki, fonem-qrafem uyğunluğu prizmasından yanaşıldıqda yeni əlifba idealdır.

Əlifba yazı ilə bağlı bir sıra digər tələblərə də cavab verməlidir. Bu tələblər əsasən diakritik işarələrlə bağlıdır. Diakritik işarə (diacritical sign)- hərfin yanında həmin hərfin başqa cür oxunması məqsədilə istifadə olunan işarədir. Diakritik işarə hərfə birləşdirilə və ya ondan ayrı verilə bilər. Diakritik işarənin hərfin yanında ona birləşmədən ayrıca işlənən formaları da çoxdur. Belə işarələrin hərfin üzərində qoyulması daha geniş yayılmışdır: **þ**, Ö, È, j, ü, i, ĉ, Ĭ, Ÿ və s. Əlifbalarda istifadə olunan əsas diakritik işarələr aşağıdakılardır: -, ..,V,\ Latın qrafikalı yeni Azərbaycan əlifbasında diakritik işarəli 16 hərf vardır: **Ç, ç, İ, i, j, t, F, Q, Ö, ö,Ü, ü, Ş, ş,Ğ, ğ.** Bu hərflərdən səkkizi baş hərf - **Ç, İ, F, Q, Ö, Ü, Ş, Ğ,** səkkizi də kiçik hərfdir**: - ç, i, j, t, ö, ü, ş, ğ.** Əlifbanın 64 işarəsinin 25 faizi diakritik işarəlidir. Bu da hər dörd hərfdən birinin diakritik işarəli olmasını göstərir. Nəzərə almaq lazımdır ki, Öö və Üü hərflərinin üzərində qoyulan iki nöqtə yazı prosesində iki əməliyyatı özündə birləşdirir. Sait fonemlər işləklikliyə görə samitlərdən daha məhsuldardır. Təbii ki, əlifbanın doqquz sait fonemindən üçünün diakritik işarəli (özü də iki nöqtə tipli) olması əlifbanın qüsurlu cəhətidir.

Beləliklə, aydın olur ki, fonem-qrafem uyğunluğu nöqteyi-nəzərindən ideal olan Azərbaycan əlifbası, diakritik işarələrin çoxluğuna görə yazı üçün ideallıqdan uzaqdır.

Digər türk dillərinin müasir əlifbalarını da nəzərdən keçirmək bu istiqamətdə görüləcək işlərə müsbət təsir göstərə bilər. Özbək dili müasir türk dilləri arasında Türk və Azərbaycan dilindən sonra ən çox danışılan üçüncü dildir. Bu gün özbək əlifbasında 35 hərfdən istifadə olunur. Özbəkistan postsovet məkanında latın əlifbasına keçən ilk dövlətlərdən olsa da, əlifbaya 1995-ci ildə edilən dəyişiklik bu əlifbanı ortaq türk əlifbasından uzaqlaşdırmış, onun istifadəsində çətinlik yaratmışdır. Burada ortaq türk əlifbasında və türk-latın əlifbalarının heç birində olmayan işarələr mövcuddur. Bugünkü özbək əlifbası öz spesifik xüsusiyyətləri ilə digər türk dillərindən seçilir. Özbək dilində ı fonemi yoxdur. Hətta tərkibində ı fonemi olan alınma sözlərdə də bu fonem i fonemi ilə əvəz olunur. Özbək dilində işlənən ayrı-ayrı saitlər də fərdi xüsusiyyətlərə malikdir. Buna nümunə olaraq i fonemini qeyd edə bilərik. i fonemi oğuz qrupu türk dilləri ilə müqayisədə, bir növ, i ilə ı, e fonemləri arasında ortaq bir mövqe tutur: oldı (aldı) və s. ў saiti o, ö kimi, o saiti isə həm o, həm də dodaqlanan å kimi müşahidə olunur: ўз (öz), vodi (dərə), ota (ata) və s. Özbək dilində istifadə edilən bütün saitlər (å istisna olmaqla) digər türk dilləri ilə, demək olar ki, eynidir. Yanlız å saiti özbək dilini digər türk dillərindən ayıran səciyyəvi bir saitdir, qalın, açıq və dodaqlanmayan a-dır, o səsinə yaxın şəkildə tələffüz edilir. İstər türk mənşəli, istərsə də alınma sözlərdəki uzun a-lar bu dodaqlanmayan şəkli ilə istifadə edilir. Özbək dilində 25 samit fonem vardır. Onların yazıdakı işarəsi isə 23-dür (j və dj (c) fonemləri j, nq (sağur nun) isə n+q birləşməsi ilə verilir). Sağur nunun qoşa qrafemlə verilməsi isə özünü doğrultmur. Özbək dilində sağur nun (nq) samiti geniş işlənir. Kiril əlifbasındakı sıralamaya görə bu samitlər aşağıdakılardır: b, v, g, d, c, j, z, y, k, l, m, n, p, r, s, t, f, x, t, s, ç, ş, q, ğ, h. nq samiti üçün ayrı bir işarə yoxdur. Ts (ц) hərfi isə rus mənşəli sözlərdə müşahidə edilir: tsirk (sirk), militsiya (polis). Kiril əlifbasında y səsi beş ayrı işarə ilə qeyd olunur: − müstəqil y (й), − sözün əvvəlində e ilə birlikdə e=ye, − sözün başında å ilə birlikdə я=yå, − Sözün əvvəlində å ilə birlikdə ё=yå, − Sözün əvvəlində u, ü ilə birlikdə ю=yu, yü. Beləliklə, 23 samit kiril əlifbasında 27 işarə ilə göstərilməkdədir. Özbək dilinin səs quruluşuna yad olan işarələrin əlavə olunması, ı, ü saitlərini əks etdirən hərflərin olmaması, h, x, k, q, n samitlərinin ikivariantlığı əlifbanı qeyri-praktik etmişdir.

Dil və əlifba islahatının həyata keçirildiyi Türkiyədə müəyyən hərflərin əlifbadan çıxarılması həmin hərflərin ifadə etdiyi səslərin fonem funksiyalarının itirilməsinə və unudulmasına səbəb olmuşdur. Nəticədə ərəb əlifbasının tətbiq olunduğu zamanlarda dildə istifadə edilən fonemlərin əlifbada olmaması xüsusən onun samit hərflərində tələffüz normalarında da fərqliliklər yaratmışdır. Türkiyədə təqribən 75 il davam edən əlifba islahatı prosesinin sonunda 1928-ci ildə latın hərflərinə əsaslanan türk əlifbası qəbul edilir. Qanuna

görə, iki ay sonra, yəni 1929-cu ilin əvvəllərindən etibarən dövlət vasitəsilə yerinə yetiriləcək bütün yazışmalarda, mətbuatda və digər sahələrdə yeni türk əlifbasından istifadəyə, bundan sonra isə məktəblərdə və digər təhsil sahələrində də yeni əlifba ilə tədrisə başlanılır.

Qazaxıstanda da əlifba islahatının həyata keçirilməsində mühüm addımlar atılır. Qəbul edilən yeni qazax əlifbasına baxdıqda görə bilərik ki, bu əlifbadakı fərqli işarələrin əlifbada olması gələcəkdə həmin dilin əlifbası üçün uğurlu hesab olunmur.

Türkmən dili əlifba islahatlarının aktiv şəkildə həyata keçirildiyi dillərdən biri kimi diqqəti cəlb edir. 70 ilə yaxın bir zaman ərzində dörd əlifba dəyişdirən türkmənlərin yeni əlifbaları, bir çox qüsurların yaranmasına səbəb olmuşdur. Bu qüsurlar türkmən-latın əlifbasını türk-latın əlifbalarından uzaqlaşdırmış və əlifba birliyi ilə ortaqlıq əlaqələrinin pozulmasına yol açmışdır.

Qırğızıstanda dəfələrlə əlifba islahatları keçirilməsinə baxmayaraq, hələ də qırğız dilinin latın əlifbasına keçid məsələsi iqtisadi çətinliklərlə əlaqədar bir layihə olaraq qalır.

Türk dünyası üçün ortaq əlifba və ortaq türk dilinin tətbiqi zamanı Azərbaycan və Türkiyə türkcəsində istifadə olunan əlifbaların əsas rol oynayacağı proqnozlaşdırılır. Bu zaman digər türk dillərinə yanaşmalar da düzgün müəyyən olunmalı, dillərin əsas spesifik xüsusiyyətləri nəzərə alınmalıdır. Türk dillərinin ortaq ünsiyyət vasitəsinin və ortaq əlifbanın qəbul edilməsi türk dillərinin tarixi yaxınlığının müasir dövrdə sürətlənməsinə səbəb olacaq. Ortaq türkcə (ünsiyyət dili) yalnız bir dilin inkişafını təmin etməklə türk dillərinin gələcəyini şübhə altına almamalı, əksinə, artıq az işlək olan türk dilləri də nəzərə alınmalıdır. Yuxarıda qeyd olunan məsələlərin türk dünyası üçün böyük əhəmiyyətini nəzərə alaraq bu sahədə işlərin sürətləndirilməsi olduqca zəruridir. Türk xalqları arasında vahid ünsiyyət dilinin yaradılması və türk xalqlarının mənşə (tarixi formalaşma) prinsipinə əsasən inteqrasiyası ilə bağlı qərarlar hökumətlər səviyyəsində qəbul edildiyi halda, bu cür dəstəyin göstərilməsi labüd və gözlənilən dir. Ortaq türk dilinin formalaşdırılması müasir türk dünyasının aktual tələbidir.

ƏDƏBİYYAT

1. Axundov A. Dil və ədəbiyyat. 2 cilddə. Bakı, Gənclik, 2003.

2. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. Bakı, Maarif, 1972.

3. İsmayılova M.Türk dilləri dialektlərində inteqrasiya və diferensiasiya məsələləri. Ankara, 2022, 297 səh.

4. Бодуен де Куртене. Несколько слов по поводу. «Общеславянской азбуке». СПБ, 1871.

5. Qurbanov A. Ümumi dilçilik. I cild. Bakı, Nurlan, 2004.

6. İsmayılova M. Azərbaycan dili və nitq mədəniyyəti. Dərslik. I cild, Bakı, 2016.

7. Zeynalov F. R. Türkologiyanın əsasları. Bakı: Maarif, 1981, s. 258.

8. Axundov A. Azərbaycan dilinin fonemlər sistemi. Bakı, 1973.

HEYDAR ALIYEV IS THE FOUNDEROF YOUTH POLICY

HEYDƏR ƏLİYEV GƏNCLƏR SİYASƏTİNİN BANİSİDİR

HƏSƏNOVA ÜLKƏR

Azərbaycan Dövlət Pedaqoji Universiteti Türkoloji mərkəz Türk tarixi bölməsinin mütəxəssisi Bakı/ Azərbaycan

Xülasə

Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan dövlətimizin gənclər siyasəti gənclərimizin hərtərəfli inkişafına şərait yaradıb. Ümummilli lider Heydər Əliyev ölkə rəhbəri olduğu müddətdən etibarən Azərbaycan gənclərinin qoruyucusu və himayədarı olmuşdur. O, dövlətin və cəmiyyətin əsas vəzifəsini sağlam düşüncəli yeni nəslin yetişdirilməsini hesab edirdi. Ümummilli lider Heydər Əliyev cəmiyyətin, ictimai və sosial həyatın bütün sferalarında gənclərin təmsil olunması üçün hər zaman geniş imkanlar yaratmışdır. Bugünkü günümüzdəyüksək intellektli, inkişaf etmiş, müasir gənclərimizin cəmiyyətdə aparıcı qüvvə kimi formalaşmasında vəəsas rol oynaması siyasətinin banisi məhz xalqımızın ümummilli lider Heydər Əliyev olmuşdur. Biz inanırıq ki, gənclərimiz hər zaman vətənimizin qorunmasında, eyni zamanda sərhəddən kənarda ölkəmizi və onun uğurlu siyasətinin dünyada təmsil olunmasında və tanınmasın da fəal iştirak edəcəklər. Beləliklə, hər bir Azərbaycan gənci ümummilli lider Heydər Əliyevin ideyalarını öz fəaliyyətində daim rəhbər tutmalı, həmçinin Azərbaycan gəncliyinin lideri olan cənab prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın müstəqilliyinin əbədi yaşaması üçün yumruğunu bir hədəfə vurmalıdır. Bu günün gəncliyi özünə inamlı, vətənpərvər, mübariz və sağlam ruhlu gənclikdir. Biz deyə bilərik ki, Azərbaycan gəncləri dövlət başçısının siyasi, iqtisadi, mədəni sahəsindəki fəaliyyətini birmənalı dəstəkləyir.

Açar sözlər: Heydər Əliyev, Azərbaycan gənci, İlham Əliyev, Vətən, müharibə.

Özet

Büyük Önder Haydar Aliyev tarafından kurulan devletimizin gençlik politikası, gençliğimizin kapsamlı gelişmesinin koşullarını yarattı. Milli lider Haydar Aliyev, ülkenin başına geçtiği günden bu yana Azerbaycan gençliğinin koruyucusu ve koruyucusu olmuştur. Devletin ve toplumun temel görevinin akıl sağlığı yerinde yeni bir nesil yetiştirmek olduğunu düşünüyordu. Ulusal lider Haydar Aliyev, gençlerin toplumun her alanında, kamusal ve sosyal yaşamda temsil edilmesi için her zaman geniş fırsatlar yaratmıştır. Milletimizin milli lideri Haydar Aliyev, yüksek zekaya sahip, gelişmiş, çağdaş gençliğimizin toplumda öncü güç olarak oluşturulması ve bugün anahtar rol oynaması politikasının kurucusu olmuştur. Gençlerimizin, vatanımızın korunmasına, ülkemizin ve başarılı politikasının sınırlar ötesinde temsil edilmesine, tanınmasına her zaman aktif olarak katılacağına inanıyoruz. Bu nedenle her Azerbaycan genci, faaliyetlerinde daima milli lider Haydar Aliyev'in fikirlerini yönlendirmeli, ayrıca Azerbaycan gençliğinin lideri Sayın Cumhurbaşkanı İlham Aliyev'in önderliğinde bağımsızlığı hedeflemelidir. Azerbaycan'ın sonsuza kadar yaşaması. Günümüz gençliği kendine güvenen, vatansever, militan ve sağlıklı ruhlu bir gençliktir. Azerbaycan gençliğinin devlet başkanının siyasi, ekonomik ve kültürel alanlardaki faaliyetlerine açıkça destek verdiğini söyleyebiliriz.

Anahtar kelimeler: Haydar Aliyev, Azerbaycan gençliği, İlham Aliyev, Vatan, savaş.

Summary

The youth policy of our state, which was founded by the Great Leader Heydar Aliyev, created conditions for the comprehensive development of our youth. National leader Heydar Aliyev has been the protector and protector of Azerbaijan's youth since the time he was the head of the country. He considered the main task of the state and society to be the upbringing of a new generation with a healthy mind. National leader Heydar Aliyev has always created ample opportunities for the representation of young people in all spheres of society, public and social life. Heydar Aliyev, the national leader of our nation, was the founder of the policy of forming our highly intelligent, developed, modern youth as a leading force in the society and playing a key role today. We believe that our youth will always actively participate in the protection of our homeland, as well as in the representation and recognition of our country and its successful policy in the world beyond the borders. Thus, every Azerbaijani youth should always be guided by the ideas of the national leader Heydar Aliyev in their activities, and also, under the leadership of Mr. President Ilham Aliyev, who is the leader of the youth of Azerbaijan, should aim for the independence of Azerbaijan to live forever. Today's youth is a self-confident, patriotic, militant and healthy-spirited youth. We can say that the youth of Azerbaijan unequivocally supports the activities of the head of state in the political, economic and cultural fields.

Key words: Haydar Aliyev, Azerbaijani youth, İlham Aliyev, Homeland, war.

Giriş

Ümummilli liderimiz Heydər Əliyevin sərəncamı ilə ölkəmizdə hər il 2 fevral tarixi Azərbaycanda Gənclər Günü kimi qeyd olunur. Ulu Öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulan bu siyasətinəsas məqsədi gənc nəslin mənəvi-psixoloji və fiziki cəhətdən sağlam yetişməsini, istedadlı və bacarıqlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə verməsini təmin edib. Azərbaycan gənclərinin inkişaf etməsi üçün "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında", "Dövlət gənclər siyasəti haqqında" bir sıra qanun, sərəncam, fərman və dövlət proqramları qəbul etmişdir. Ulu Öndərimiz Heydər Əliyev gənclərlə bağlı bu fikirləri söyləmişdir: "Hər bir xalq özünün xoşbəxt gələcəyi olan ümidlərini ilk növbədə gənc nəsillə bağlayır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir. Bu gün iftixar və qürur hissi ilə bildirmək istəyirəm ki, müasir Azərbaycan gəncliyi milli mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata- babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi indi də qoruyub yaşadır".

Dövlətin yeritdiyi gənclər siyasəti- gənclərin öz bilik və bacarıqlarını həyata keçirməsi məqsədilə dövlət tərəfindən aparılan tədbirlər sistemidir. Gənclərin hərtərəfli inkişafı ölkənin elmi, mədəni və sosial-iqtisadi inkişafı ilə sıx əlaqədardır. Gənc nəslin inkişafının əsas amili gənclərin dövlət və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsidir. Bu siyasəti əsas götürərək ölkəmizdə dövlət tərəfindən bir çox silsilə addımlar atıldı. Azərbaycan Respublikası Prezidentinin verdiyi 26 iyul 1994-cü il tarixli Fərmanı ilə ölkəmizdə Gənclər və İdman Nazirliyi yaradıldı. Ulu Öndər Heydər Əliyev: "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir" fikirlərini səsləndirərək bu nazirliyin əsasını qoydu. Dövlət qısa bir vaxtda gənclər siyasətinin əsas konturlarını müəyyənləşdirdi və reallaşdırmağa başladı. Növbəti ildə, yəni 1995-ci ildə Gənclər Təşkilatlarının Milli Şurası yaradıldı. Eyni zamanda. ümummilli lider Heydər Əliyev tərəfindən 1995-ci ildə Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsü irəli sürüldü. Bu Forumun əsas məqsədi Azərbaycan gənclərinin bir çox problemlərin həll edilməsində və cəmiyyətin və ölkənin inkişafında iştirakını təmin etmək idi.

Beləliklə də, 2 fevral 1996-ci ildə gənclərin I Forumu keçirildi. İlk Forum Azərbaycanda gənclər siyasətinin müəyyən olunmasında mühüm rol oynadı. Bunu da qeyd etməliyik ki, dünya üzrə gənclər günü yalnız 1999-cu ildə BMT-nin qərarı ilə elan edildi.

Ulu öndər Heydər Əliyev bütün çıxışların da Azərbaycan gənclərini ölkəmizin həyatında mühüm rol oynadığını xüsusilə vurğulayırdı. Ulu öndər ölkədə gənclər siyasətinin düzgün aparılmasını önəmli hesab edərək deyirdi: "Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gənclərdir. Çünki Azərbaycan Prezidenti kimi mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır".

Gənclərin II Forumu, həmçinin imzalanmış "Dövlət gənclər siyasəti haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Gənc istedadlar üçün təqaüdlərin təsis edilməsi haqqında" fərmanlar, sərəncamlar, eyni zamanda, qəbul edilmiş "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında", "Gənc ailə", "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi haqqında", "İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi, həmçinin problemlərinin həllinə yönəlmiş, onların öz bacarıqlarının inkişaf etdirmələrinə kömək edən Dövlət Proqramı qəbul edilmişdir. Eyni zamanda, qəbul edilən "Ordudan tərxis olunmuş gənclərin məşğulluğu", "Gənclər siyasəti haqqında" proqramlar, qanunlar Azərbaycan gəncliyinin inkişafı yolunda əsas faktora çevrildi.

Azərbaycan Respublikasının "Gənclər siyasəti haqqında" qanunu qəbul edildikdən sonra, 9 aprel 2002-ci il tarixində Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanıb. Gənclər siyasətinin həyata keçirilməsi əsas cavabdeh dövlət qurumu kimi Gənclər və İdman Nazirliyinə tapşırılıb.

Ölkə siyasətində bu gün gənc nəslin düzgün istiqamətə yönləndirilməsi və yetişdirilməsi mühüm yer tutur. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət gənclər siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davaç etdirilib, həyata keçirilir. Bunun nəticəsi olaraq da bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar.

2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Azərbaycan gəncliyi Dövlət Proqramı" (2005-2009-cu illər) imzalanıb. Proqrama gənclər arasında hüquq pozuntularının, narkomaniyanın və digər zərərli vərdişlərin profilaktikası sahəsində tədbirlərin həyata keçirilməsi, gənclərin sağlamlığının qorunması sahəsində tədbirlərin reallaşdırılması, kütləvi bədən tərbiyəsinin və idmanın inkişaf etdirilməsi, ölkənin ictimai-siyasi həyatında gənclərin fəal iştirakı, uşaq və gənclər üzrə təşkilatların formalaşması və inkişafı üçün şəraitin yaradılması kimi vəzifələr daxil edilib.

Dövlətimizin başçısı İlham Əliyev tərəfindən 16 aprel 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı" gənclərin xaricdə təhsil alması üçün geniş imkanlar yaratmışdır. Bu proqramın həyata keçirilməsi nəticəsində yüzlərlə Azərbaycan gənci dünyanın nüfuzlu təhsil ocaqlarında təhsil alır. Həmçinin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2007-ci il ölkədə "Gənclər ili" elan olunmuşdur. Əsas məqsəd Azərbaycan gənclərinin dövlət qayğısının artırılması, ölkənin mədəni, ictimai-siyasi və iqtisadi həyatında fəal iştirakı, təhsil, mədəniyyət, iqtisadiyyat və digər sahələrdə gənclərin xidmətlərinin qiymətləndirilməsidir.

Azərbaycan gəncliyi bu diqqət və qayğını yüksək dəyərləndirməklə yanaşı, öz məsuliyyətini dərk edir və Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji vəzifələrin uğurla həyata keçirilməsinə, respublikamızın dinamik inkişaf edən qüdrətli dövlətə çevrilməsi prosesinə öz töhfəsini verməyə çalışır. Prezidentin 2011-ci il 7 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı, 2011-ci il 19 dekabr tarixli Fərmanı ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondunun

yaradılması əsası Ulu Öndər tərəfindən qoyulmuş gənclər siyasətinin elmi-nəzəri əsaslara bağlılığının, əməli nəticəliliyinin, davamlılığının daha bir əyani sübutudur.

Ölkəmizin beynəlxalq yarışlarda təmsil olunması və idman nailiyyətlərimizin sayı ildən-ilə artır. Azərbaycanın "Rio-2016" XXXI Yay Olimpiya Oyunlarında 18 medal qazanaraq bu göstəriciyə görə, 14-cü yerdə qərarlaşması bu sahəyə göstərilən diqqət və qayğının bariz nümunəsidir. Bundan əlavə, milli komandamızın ölkəmizdə yüksək səviyyədə keçirilən "Bakı-2015" I Avropa Oyunlarında ikinci, "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında birinci yeri tutması, şahmatçılarımızın üçüncü dəfə Avropa çempionu olmaları Azərbaycan gənclərinin son illərdə idman sahəsində qazandıqları uğurların əyani göstəriciləridir.

Müasir dövrdə elmin və texnologiyanın sürətli inkişafı Azərbaycan dövlətinin də gənclərlə bağlı zamanın tələblərinə uyğun siyasət yürütməsini zəruri edib. Bu zərurəti nəzərə alan dövlətimizin başçısı gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə 2015-ci il yanvarın 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Prezident İlham Əliyev gənclərimizin dini ekstremizm, separatizm, beynəlxalq terrorizm kimi təhlükəli, zərərli təsirin altına düşməsinin qarşısını alan yeni iş metodlarının tətbiqi zərurəti ilə əlaqədar "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının təsdiq olunmasına dair Sərəncam imzalayıb. Gənclərlə bağlı bütün məsələlərin geniş əhatə olunduğu bu mühüm sənədin məqsədi Azərbaycanda gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, gənc nəslin sağlamlığını qorumaq, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaq, müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etmək, ölkədə könüllülük hərəkatını inkişaf etdirməkdir.Son dövrümüzdəki tarixi hadisələrdə Azərbaycan gənclərinin misilsiz rolu olmuşdur. Əminliklə, deyəbilərik ki, 44 günlük Vətən müharibəsində biz Azərbaycan gənclərini yenidən tanıdıq. Baş verən tarixi hadisələr gənclərimizin necə vətənpərvər olduğunu üzə çıxardı. Bəli, gənclər siyasətinin nəticəsi olaraq Azərbaycan müstəqillik dövründə dövlətçilik dəyərlərimizə bağlı, tarixi yaddaşı qoruyub saxlayan, vətənpərvər vəəzmkar bir nəsil yetişdirib. Müharibə zamanı gənclərimiz döyüşə getmək üçün könüllü yazılırdı. 44 günlük Vətən müharibəsindəAli Baş Komandanımız başda olmaqladüşmənin layiqli cavabını verərək biz qalib gəldik.

Cənab Prezident İlham Əliyev xalqa müraciətlərinin birində Azərbaycan gəncinin düşməni necə təşvişə saldığını, dərs verdiyini belə vurğulamışdır: "Bu gün də onların dövlətinin rəhbərləri gecə-gündüz yalan, uydurma yayırlar. Azərbaycan haqqında, döyüş meydanında baş verən hadisələr haqqında. Sanki kimsə gəlib bizim əvəzimizə vuruşur. Azərbaycan xalqı, Azərbaycan gəncləri, Azərbaycan əsgəri onlara dərs verir. Təkbaşına vuruşuruq, hər kəs bunu bilir".

Müharibəyə yollanan və müharibə zamanı gedən döyüşlərdə iştirak edən Azərbaycan gənclərinin hamısı qəhrəmancasına iştirak etdi. Onlar öz cəsurluqları ilə bütün dünyaya Azərbaycan gəncinin nəyə qadir olduğunu göstərdilər. Hər birn Azərbaycan gənci igidliyi, cəsurluğu və vətənpərvərlik hisləri ilə bir salnaməsi yazdılar. 44 günlük Vətən müharibəsində cəsurluğu ilə canından keçib şəhidlik zirvəsinə ucalanların əksəriyyəti Azərbaycan gəncləri idi.

Ədəbiyyat

1. "Haydar Aliyev ve Türk Dünyası". Elman Quliyev. Müəllim. S.68. Bakı,2023

2.https://files.preslib.az/

3. "Xilaskarlar" Q. Paşayev. Təhsil. S.136. Bakı. 2021,

4. “Missiya”, M.Hüseynova, ADPU- nəşriyyatı. S.366. Bakı,2019.

5. “Tarixi şəxsiyyətlər”. Beynılxalq ictimai-siyasi jurnal, №1. Bakı,2006.

HEYDAR ALIYEV'S ROLE IN STRENGTHENING THE UNITY OF THE TURKIC WORLD

TÜRK DÜNYASININ BİRLİYİNİN MÖHKƏMLƏNMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

DƏYANƏT MUSA OĞLU MUSAYEV

ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektorluğunun nəzdində fəaliyyət göstərən Turkoloji mərkəzin Türk tarixi bölməsinin müdiri, p.ü.f.d, dosent,

ORCID 0000-0001-8503-2244

Məqalədə azərbaycançılıq fəlsəfəsinin müəllifi və müasir Azərbaycanın memarı olan Heydər Əliyevin Türk dünyasının birliyinin möhkəmlənməsində, eləcə də türkçülüyün hətta Sovetlər Birliyinin mövcud olduğu dövrdə təbliğində əvəzolunmaz rolu haqqında geniş bəhs olunur. Heydər Əliyevin türkoloji fikrin inkişafına verdiyi diqqətin nəticəsində bu sahədə görülən işlər sadalanır və təhlil edilir.

Açar sözlər: *türkologiya, türk dünyası, türk xalqları, elmi araşdırmalar, Ulu öndər, fəaliyyət, araşdırmalar, mənəvi sərvət*

ÖZET

Makalede, Azerbaycancılık felsefesinin yazarı ve modern Azerbaycan'ın mimarı Haydar Aliyev'in, Sovyetler Birliği'nin varlığı sırasında bile Türk dünyasının birliğinin güçlendirilmesinde ve Türklüğün teşvik edilmesinde vazgeçilmez rolü anlatılmaktadır. Haydar Aliyev'in Türkoloji düşüncesinin gelişimine gösterdiği ilgi sonucunda bu alanda yapılan çalışmalar listelenip incelenmiştir.

Anahtar Kelimeler: *Türkoloji, Türk dünyası, Türk halkları, bilimsel araştırma, Ulu lider, faaliyet, araştırma, manevi zenginlik*

Summary

The article talks about the irreplaceable role of Heydar Aliyev, the author of the philosophy of Azerbaijanism and the architect of modern Azerbaijan, in the strengthening of the unity of the Turkic world, as well as in the promotion of chulu even during the existence of the Soviet Union. As a result of Heydar Aliyev's attention to the development of Turkological thought, the works done in this field are listed and analyzed.

Keywords: *Turkology, Turkic world, Turkic peoples, scientific research, Great leader, activity, research, spiritual wealth*

Ağır sovet sistemi şəraitində işləməsinə baxmayaraq, ümummilli liderin fəaliyyətində türk dünyası ilə əlaqələrin qurulması və genişləndirilməsi mühüm yer tutmuşdur. Bu fəaliyyət mövcud şəraitə uyğun olaraq ehtiyatla, məharətlə və uğurla həyata keçirilmişdir.

Ulu öndər Heydər Əliyevin formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada xüsusi rolunu və xidmətini müəyyən etmiş, milli dövlətçiliyimizin bünövrəsini möhkəmləndirmiş, dünya azərbaycanlılarının və türk dövlətlərinin həmrəyliyi üçün möhkəm zəmin yaratmışdır. Azərbaycanı müstəqil dövlət

quruculuğuna aparan yol məhz onun hakimiyyətə gəlişindən sonra başlamışdır. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda türkologiya sahəsində elmi araşdırmaların aparılmasına, türk yazılı abidələrinin qorunmasına, tərcüməsinə və xalq arasında təbliğinə şərait yaradılmış, türkoloqlara dövlət qayğısı göstərilmişdir.

Təsadüfi deyildir ki, 1969-cu ildə Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycanda mühüm türkoloji araşdırmalar aparılmağa başlandı. Sovet dövrünün ideoloji tələblərinə uyğun gəlməsə də, Heydər Əliyev hakimiyyətinin ilk dövrlərindən bu məsələlərə diqqət ayrımağa başladı. Onun dilimizin, qədim anadilli örnəklərimizin, ortaq türkoloji təfəkkürü əks etdirən nümunələrin, SSRİ-də yaşayan türk ədəbi şəxsiyyətlərinin öyrənilməsi və təbliği məsələlərinə özünəməxsus yanaşma tərzi Azərbaycanda türkologiyanın inkişafına təkan verdi. Türk xalqlarının birliyini möhkəmləndirmək, mənəvi körpüləri qorumaq, milli kökə qayıdış, ortaq dəyərlərimizi birləşdirmək Ulu Öndər Heydər Əliyevin fəaliyyətinin əsas məqsədlərindən birinə çevrildi. O, türk dünyasının birliyi ideyasının təməllərini artıq həmin dövrdə qoymağa başladı. Elə buna görə də Heydər Əliyev o dövrdə təkcə Azərbaycanda deyil, sovet respublikalarının türkdilli xalqları tərəfindən də çox böyük məhəbbətlə sevilirdi. Məhz buna görə, SSRİ rəhbərlərindən biri kimi Moskvada keçirdiyi illərdə dünya Heydər Əliyevi, əsasən, bir təqdimatla tanıyırdı: “Kremldə ucalan türk bayrağı”.

1969-cu ildə SSRİ məkanında ilk dəfə Bakı Dövlət Universitetində Türkologiya kafedrasının yaradılması Azərbaycanda ümumtürkoloji müstəvidə araşdırmaların yeni istiqamətlərini müəyyənləşdirdi. Heydər Əliyev türk dünyası elm və mədəniyyətinin mərkəzini yenidən Bakıda formalaşdırmağa təşəbbüs göstərirdi və 1970-ci ildə burada beynəlxalq “Sovet türkologiyası” elmi jurnalının nəşrə başlamasına nail oldu. O zaman SSRİ Elmlər Akademiyası və Azərbaycan SSR EA-nın birgə nəşri kimi fəaliyyətə başlayan bu jurnal həmin dövrdə türkoloji araşdırmaların bir növ mərkəzinə çevrildi. Müxtəlif dövrlərdə görkəmli türkoloq və dilçi alimlər M.Şirəliyev, E.Tenişev, A.Axundov, T.Hacıyev, K.Abdullayev, N.Məmmədlinin rəhbərlik etdiyi jurnal 1993-cü ildən “Türkologiya” adı ilə nəşr olunmağa başladı. Burada bütün dövrlərdə türkologiya elminin tarixi və müasir vəziyəti, problemləri, türk xalqlarının mənəvi sərvətinin tədqiqinə həsr olunmuş məqalələrlə bu nəşr ölkəmizdə və türk dünyasında yüksək nüfuz qazanıb. Artıq 1970-80-ci illərdə Azərbaycan türkologiya elminin mərkəzinə çevrilmişdi.

O dövrdə Heydər Əliyev türk xalqlarının ədəbiyyatı, mədəniyyəti ilə dərindən maraqlanır, onların təbliği istiqamətində müəyyən işlər görürdü. SSRİ-yə daxil olan xalqların və ümumilikdə türk dünyasının güclü milli təfəkkürə malik, türk dünyasına, türkologiyanın inkişafına xidmət göstərmiş ədəbiyyat xadimləri onun diqqətində idi və dahi lider onların azərbaycanlı yazıçı və şairlərlə yaxınlaşmasına, türk dünyası əlaqələrinin genişlənməsinə çalışırdı.

Təkcə ölkəmizdə deyil, dünyada türkologiyanın inkişafına, türk xalqlarını birləşdirməyə, onları vahid bir ideya ətrafında toplamağa, türk birliyi yaratmağa məhz onun təşəbbüsləri sayəsində nail olunub. O, “Həm Qırğızıstanın, həm də türk dünyasının fəxri” adlandırdığı Çingiz Aytmatovun şəxsiyyətini və yaradıcılığını da çox yüksək dəyərləndirirdi. Onun yaradıcılığı, Türk dünyası birliyinə verdiyi töhfələri həmişə xüsusi qeyd edən Heydər Əliyevin diqqəti və qayğısı ilə Azərbaycanda təbliğ olunur, yayılır, yaxşı tanınırdı. Ümummilli liderin bu sahədəki ardıcıl siyasətinin davamı kimi türk dünyasının, türkoloji fikrin dünyada təbliğinə mühüm töhfələr vermiş Çingiz Aytmatovun yaradıcılığı bu gün də Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilir.

Əsərlərində türkçülük və azərbaycançılıq ideyalarını möhkəm bir şəkildə birləşdirən və təbliğ edən, həyatı və yaradıcılığı ilə türklüyün parlaq simvolu olan dahi şairimiz Hüseyn Cavidin cənazəsinin uzaq Sibirdən Azərbaycana gətirilməsi Sovet hakimiyyəti dövründə fövqəladə

cəsarət tələb edən addım idi. Məhz onun şəxsi təşəbbüsü və rəhbərliyi ilə o vaxt Cavidin 100 illik yubileyi qeyd edilmişdir. 1982-ci ildə Cavidin nəşi doğma Naxçıvana gətirilib dəfn edilsə də, onun üzərində xatirə abidəsinin ucaldılması 1996-cı ilə təsadüf etdi. Burada möhtəşəm məqbərənin təntənəli açılışı oldu.

Heydər Əliyevin Azərbaycanda, ümumən türk dünyasında türkoloji fikrin inkişafında özünəməxsus yeri və rolu olan qazax bədii ədəbiyyatının görkəmli nümayəndəsi, linqvist, sovet dövrünün ən yaxşı türkoloqu Oljas Süleymenovla münasibətləri də diqqəti cəlb edir. Onların arasında olan səmimi dostluq xalqlar arasında əlaqələrin daha da möhkəmlənməsinə öz töhfəsini verib. "Heydər Əliyev mənim siyasi və ümumtürk dünyagörüşümü formalaşdırıb" deyən Oljas Süleymenov da öz növbəsində 90-cı illərdə Azərbaycanın haqq səsinin dünyaya yayılmasında böyük işlər görmüşdür.

Heydər Əliyevin türkoloji fikrin inkişafına verdiyi diqqət nəticəsində onun "ən çox sevdiyi şair" – Şəhriyar da türk dünyasında tanındı, sevildi, əsərləri geniş miqyasda yayıldı. Cənubi Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, lakin öz parçalanmış vətəninin digər hissəsindən ayrı düşən, Vətən həsrəti ilə yanıb-tutuşan, İran ideologiya maşınının göz açmağa qoymadığı Şəhriyara məhz Heydər Əliyev, sözün əsl mənasında, sahib çıxdı. Onu və onun türkoloji ideyalara töhfələr verən zəngin yaradıcılığını dünya türklərinə qazandırdı.

Heydər Əliyev Türkiyə Cümhuriyyəti ilə əlaqələrə xüsusi fikir verirdi. O, qardaş ölkənin qurucusu Mustafa Kamal Atatürkü dünyada XX əsrin ən böyük şəxsiyyətlərindən biri adlandıraraq deyirdi: "Ölümündən sonra da Türkiyə xalqı onun qoyduğu yol ilə gedir. Bu, Mustafa Kamal Atatürkün müdrikliyini göstərir". Təsadüfi deyildir ki, ulu öndərin təşəbbüsü və sərəncamı ilə böyük Mustafa Kamalın irsini öyrənmək və təbliğ etmək üçün 2001-ci ildə Bakıda Atatürk Mərkəzi yaradılmışdır.

Xalqımızın Ümummilli lideri Heydər Əliyev fəaliyyətinin bütün dövrlərində türkdilli xalqların maraqları, Azərbaycanın mənafeyi naminə misilsiz işlər görüb, dahi rəhbərin əsasını qoyduğu və bu gün uğurla həyata keçirilən neft strategiyası, regionda irimiqyaslı layihələrin reallaşdırılması türk dünyası ölkələri arasında birliyin, dostluğun və qardaşlığın möhkəmlənməsinə xidmət edir.

Heydər Əliyevin hazırladığı neft strategiyasının bəhrəsi olan "Əsrin müqaviləsi"nin imzalanmasında da Azərbaycanın maraqlarının qorunması ilə yanaşı, türk birliyinin mənafe və mövqeyi qətiyyətlə nəzərə alındı. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin çəkilişində daim Türkiyə ilə eyni maraqları bölüşən Azərbaycan layihələrin gerçəkləşməsində də iki dost, qardaş xalqın mövqeyini qətiyyətlə dəstəklədi.

Türkdilli dövlət başçılarının V zirvə görüşündə (1998, Astana) çıxış edən Ulu öndər Heydər Əliyev dövlət başçılarının diqqətini regional inteqrasiya prosesinə təkan verəcək layihələrin hazırlanmasına yönəltmişdi. Həqiqətən də, sonrakı illərdə dünyanın siyasi mənzərəsini dəyişən "Əsrin müqaviləsi", "Böyük İpək yolu", TRASEKA, TASİS proqramları kimi qlobal layihələrin həyata keçirilməsində, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının, TÜRKSOY-un, Türk Yazarlar Birliyinin yaradılmasında Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur.

Ulu öndər "Kitabi-Dədə Qorqud"un 1300, "Manas"ın 1000, qazax şairi və filosofu Abay Kunanbayevin 150, türk dünyasının böyük şəxsiyyəti Əmir Teymurun 660, özbək yazıçısı Məqsud Şeyxzadənin 70, Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubileylərini birlikdə türk dövlətlərinin bir yerdə qeyd etmələrini böyük tarixi hadisələr kimi çox yüksək qiymətləndirmişdir.

Ümummilli lider Heydər Əliyevə sülh uğrunda apardığı mübarizəyə görə beynəlxalq "Atatürk Sülh Mükafatı" ilə təltif olunmuşdur (1999).

Ümummilli lider Heydər Əliyev dünya azərbaycanlılarının I qurultayını təşkil etməklə (2001) təkcə Azərbaycan xalqının deyil, bütünlüklə türk dünyasının lideri kimi tarixi missiyanı həyata keçirmişdir.

Ümummilli lider Heydər Əliyevin türk dünyasının yüksəlişi barədəki strateji mövqeyini onun aşağıdakı sözləri çox aydın və açıq şəkildə göstərir: ”Özününün yeni yüksəliş dövrünü yaşayan çağdaş türk dünyası bəşər sivilizasiyasına yeni, misilsiz nümunələr vermək iqtidarındadır.Bu gün öz suverenliyini əldə etmiş bir çox türk cümhuriyyətlərinin bu sıraya qoşulması türk dünyasının gələcəyinə işıqlı ümidlər oyadır”

Qeyd etmək lazımdır ki, Azərbaycanın ümummilli liderinin türk dünyasınının qarşılıqlı əlaqələrinin yüksəlişi strategiyası bu gün də uğurla davam etdirilməkdədir. Bu gün eyni məqsəd və məram, əqidəsinə sadiqliyi ilə hörmət və ehtiram qazanmış ulu öndərin siyasi kursunun davamçısı Prezident İlham Əliyev tərəfindən ləyaqətlə yerinə yetirilir. Təsadüfi deyildir ki, günbəgün türk xalqlarının ədəbiyyat adamları, yazıçıları bir-birinə yaxınlaşır, kömək edir, xalqlarımızın ədəbiyyatını, mədəniyyətini, keçmişini, bu gününü daha geniş təhlil edib yeni-yeni dəyərli əsərlər yaradırlar.

Türk dünyasının fəxri, dünya şöhrətli Çingiz Aytmatovun Prezident İlham Əliyev tərəfindən “Dostluq” ordeninə (2008) layiq görülməsi Azərbaycan dövlətinin türk dünyası sənətinə verdiyi yüksək qiymətdir.

44 günlük Vətən müharibəsinin nəticələri, Türk Dövlətləri Təşkilatının fəaliyyətləri, ümumiyyətlə, türk xalqlarının mədəni-iqtisadi və hərbi-siyasi əməkdaşlığının günkeçdikcə daha da genişlənməsi Ulu Öndərin türk dünyasının gələcəyi haqqındakı arzularının həyata keçdiyini göstərir.

Heydər Əliyevin Azərbaycan və Türkiyə münasibətləri və bütün türk dünyası üçün xüsusi əhəmiyyət kəsb edən Böyük Millət Məclisində səsləndirdiyi "Bir millət, iki dövlət" çağırışı, hər şeydən əvvəl, Azərbaycan-Türkiyə münasibətlərinin tarixini və müasir əhəmiyyətini çox dəqiq ifadə edən, atalar sözü kimi səslənən müdrik bir aforizmdir. Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı qısa zamanda inkişaf edərək Azərbaycan-Türkiyə münasibətlərində strateji xarakterli müttəfiqliyə qədərki bütün istiqamətləri əhatə edən bir düstura çevrilmişdir. Biz Vətən müharibəsində "Bir millət, iki dövlət" prinsipinin nə qədər böyük əhəmiyyətə malik olduğunu əyani şəkildə görə bildik. "Bir millət, iki dövlət" düsturu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Cümhuriyyətinin Prezidenti Tayyib Ərdoğanın 15 iyun 2021-ci ildə işğaldan azad olunmuş Şuşa şəhərində imzaladıqları məşhur "Şuşa Bəyannaməsi" ilə dövlətlərarası münasibətlərin inkişafını tənzimləyən və istiqamətləndirən beynəlxalq əhəmiyyətə malik olan diplomatik hadisə səviyyəsinə yüksəldilmişdir.

Müasir dövrdə İlham Əliyev-Rəcəb Tayyib Ərdoğanın birliyi və həmrəyliyi türk dünyasının böyük gələcəyinin əsas təminatı deməkdir. Artıq Heydər Əliyevin böyük uzaqgörənliklə ifadə etdiyi "Bir millət, iki dövlət" gerçəkliyi türk dünyasında sürətlə genişlənməkdə olan inteqrasiyanın nəticəsində "Bir millət, iki dövlət"ə doğru inkişaf etməkdədir.

Ədəbiyyat siyahısı

1. 44 günlük Qarabağ müharibəsi: Mülahizə və nəticələr, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, Bakı – 2021,

2. Azadi S., Kremldə ucalan türk bayrağı, “İki sahil”, 12 aprel 2023,

3. Əliyeva N., Heydər Əliyev və Azərbaycanda Türkologiyanın inkişafı, “İki sahil”, 11 oktyabr 2023,

4. Hacıyev İ., Ümummilli lider Heydər Əliyevin siyasi-ideoloji fəaliyyətində Türk dünyası məsələləri, 22.04.2015

5. Həbibbəyli İ., Heydər Əliyev və türk dünyası, AMEA-nın veb saytı, 10.05.2023 https://science.gov.az/az/news/open/25035,

TURKOLOGY FROM PAST TO PRESENT
KEÇMİŞDƏN BU GÜNƏ TÜRKOLOGİYA

ŞƏKƏR MƏMMƏDOVA

Filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Pedaqoji universiteti
Türkoloji mərkəz, Bakı, Azərbaycan ORCID iD: 0009-0005-5385-4733

Xülasə

Türkologiya elm sahəsi kimi mürəkkəb inkişaf xətti keçmişdir. Onun inkişafı zamanı nəzəri və metodoloji aspektlərdə çoxşaxəli tədqiqatlar nəticələrdən, ziddiyyətli fikirlərin süzgəcindən keçir. Türkologiyanın müstəqil elm sahəsi kimi inkişafı onun dünya elmi sahəsində əhəmiyyətini və yerini, eləcə də türk xalqlarının dünya tarixində oynadığı əvəzsiz rolu ortaya qoyur. O, həm də türksoylu xalqların bütün sivilizasiyalarda yerini müəyyən edir. Avrasiya coğrafiyasının geniş çöllərində hökm sürən türk mədəniyyəti Qədim Şərq və Qərb sivilizasiyası ilə paralel inkişaf edən dərin köklərə malik faktik strukturdur.Bu strukturun araşdırılması türkologiyanın əsas predmeti olub bu sahədə Sovet türkologiyası, Macarıstan türologiyası, Türkiyə türkologiyası fərqlənir.Türkologiyanın keçmişdən bugünə müxtəlif dövlətlərdə müxtəlif inkişaf yolu keçmişdir. Hələ XI əsrdə Mahmud Kaşğarinin "Divani lüğət-it-türk" ensiklopediyası ilə Türk xalqlarının həyat tərzi və siyasi, sosyal vəziyyəti ilə bağlı ətraflı məlumat verməklə əslində türkologiyanın həmin dövrlərdə artıq formalaşdığına əsas verir. XIX əsrdə isə türkologiya filoloji aspektə inkişaf etməyə başlamış, XX əsrdən isə türk milli kimliyinin inkişafı ilə türkologiyanın tərəqqisi üst-üstə düşmüşdür. Sovet, Türkiyə, Macarıstanın seçilən türkoloqları və onların türkoloji araşdırmaları türkologiyanın bir elm sahəsi kimi inkişafında önəmli yer tutmuşdur.

Açar sözlər: türkologiya, türk xalqları, Sovet türkologiyası, türkoloji araşdırmalar

Özet

Bir bilim dalı olarak Türkoloji karmaşık bir gelişim çizgisinden geçmiştir. Gelişimi sürecinde teorik ve metodolojik açıdan multidisipliner araştırmalar, sonuçların ve çatışan görüşlerin filtrelenmesinden geçer. Türkolojinin bağımsız bir bilim dalı olarak gelişmesi, onun dünya bilimi alanındaki önemini ve yerinin yanı sıra Türk halklarının dünya tarihinde oynadığı vazgeçilmez rolü de ortaya koymaktadır. Aynı zamanda Türk halklarının tüm medeniyetlerdeki yerini de belirler. Avrasya coğrafyasının uçsuz bucaksız bozkırlarına hakim olan Türk kültürü, kadim Doğu ve Batı medeniyetlerine paralel olarak gelişen, köklü gerçek bir yapıdır. Bu yapının incelenmesi Türkolojinin ana konusu olup, bu alanda Sovyet Türkolojisi, Macar Türkolojisi ve Türk Türkolojisi öne çıkmaktadır. Geçmişten günümüze Türkoloji farklı ülkelerde farklı gelişim yollarından geçmiştir. 11. yüzyılda Mahmud Kaşgarlı'nin "Divanü Lugati't-Türk" adlı ansiklopedisi, Türk halklarının yaşam tarzı, siyasi ve sosyal durumu hakkında ayrıntılı bilgi vermekte ve Türkolojinin o dönemde oluşmuş olduğu gerçeğinin temelini oluşturmaktadır. 19. yüzyılda Türkoloji filolojik bir boyuta doğru gelişmeye başlamış, 20. yüzyıldan itibaren ise Türkolojinin gelişimi Türk ulusal kimliğinin gelişimiyle örtüşmüştür. Sovyetler Birliği, Türkiye ve Macaristan'ın seçilmiş Türkologları ve onların Türkoloji çalışmaları, Türkolojinin bir bilim dalı olarak gelişmesinde önemli rol oynamıştır.

Anahtar kelimeler: Türkoloji, Türk halkları, Sovyet Türkolojisi, Türkoloji çalışmalar

Summary

Turcology, as a branch of science, has gone through a complex development line. During its development, multidisciplinary research in theoretical and methodological aspects goes through the filtering of results and conflicting views. The development of Turkology as an independent branch of science reveals its importance and place in the field of world science, as well as the indispensable role played by Turkish peoples in world history. It also determines the place of Turkish people in all civilizations. Turkish culture, which dominates the endless steppes of the Eurasian geography, is a real, deep-rooted structure that developed in parallel with the ancient Eastern and Western civilizations. The study of this structure is the main subject of Turkology, and Soviet Turcology, Hungarian Turcology and Turkish Turcology stand out in this field. From past to present, Turkology has gone through different development paths in different countries. In the 11th century, Mahmud Kashgari's encyclopedia called "Divani Dictionary of the Turks" provides detailed information about the lifestyle, political and social situation of the Turkish people and forms the basis of the fact that Turkology was formed in that period. In the 19th century, Turkology began to develop towards a philological dimension, and from the 20th century onwards, the development of Turcology coincided with the development of Turkish national identity. Selected Turcologists of the Soviet Union, Turkey and Hungary and their Turcology studies played an important role in the development of Turcology as a branch of science.

Key words: Turcology, Turkic peoples, Soviet Turcology, Turcological studies

Aktuallıq. Türkologiyanın bir elm sahəsi kimi inkişafı bir çox səbəblərə əsaslanır. İlk növbədə türk xalqlarının dünya tarixində oynadığı rol bu xalqların mədəniyyəti haqqında araşdırmalar aparmağa, tarixi, dili, ədəbiyyatı, incəsənətinin tədqiqat obyektinə çevrilməsinə səbəb olmuşdur. Eyni zamanda qloballaşan dünyada türksoylu xalqlarla hərtərəfli inteqrasiya türkologiyanın inkişafına təkan verən amillərdən olmuşdur. Məhz buna görə də türkologoyanın bir elm sahəsi kimi keçmişdən bugünə keçdiyi inkişaf yolu, türk xalqlarının hərtərəfli öyrənilməsi bugün də öz aktuallığını qoruyub saxlayır.

Metod. Təsviri, müqayisəli, məntiqi, qarşılaşdırma metodlarından istifadə edilmişdir.

Giriş. Etnomədəni coğrafiyanın genişlənməsi və ya daralması, etnosların öz vətənlərindən çıxarılması və assimilyasiyaya uğraması, hətta tamamilə tarix səhnəsindən silinməsi də tarixi inkişaf prosesinin bir hissəsidir. Türk xalqları da bu tarixi yoldan keçmiş və öz payına düşəni yaşamışdır. Türk dünyası tarixi səbəblərə görə dağılmış, onların yaşadığı yurdlarına başqa sivilzasiyalar yerləşməyə başlamışdır. Müxtəlif siyasi amillərə görə bir çox türk xalqları öz ata yurdlarından köçməyə məcbur qalmış, beləliklə türksoylu xalqlar arasında əlaqələr kəsilmişdir. Yalnız 1990-cı illərin əvvəllərinə qədər bu hal davam etmişdir. Belə ki XX əsrin sonlarına qədər dünyanın bir çox hegemon dövlətləri, xüsusilə Rusiya və Çin arasındakı siyasi və diplomatik problemlərlə əlaqədar olaraq həmin dövlətlərin tərkibində olan türksoylu xalqların bir-biri ilə, həmçinin digər çoğrfiyada yaşayan türk xalqları ilə əlaqə saxlamaq çətinləşmişdi. Bu vəziyyət türk xalqlarının mədəniyyətində olduğu kimi, Avrasiyada qırxa yaxın türk dilinə, onun inkişafına, yayılma arealına, yazı ənənəsinin formalaşmasına da təsir etmiş, müəyyən dərəcədə izlər buraxmışdır.

Türk xalqlarının həyat tərzi və siyasi, sosyal vəziyyəti ilə bağlı ətraflı məlumatı XI əsrdə Mahmud Kaşğarinin “Divani lüğəti türk” ensiklopediyası ilə əldə edirik. XX əsrin əvvəllərinə qədər türk xalqlarının tarixi, mədəniyyəti, dili və yazılı ədəbi-bədii nümunələri xarici elm insanları tərəfindən tədqiqata cəlb edilmişdir. Siyasi və sosyal vəziyyətə görə türk xalqları öz tarixini, mədəniyyətini, dil və ədəbiyyatını araşdırmaq, tədqiq etmək üçün imkanları məhdud idi. Ona görə də türkoloji baxımdan türksoylu xalqların inkişafını müəyyənləşdirməkdə Avropa

əsaslı fikirlər ortaya çıxıb. "Tarix boyu dünyanın dil ailələri içərisində türk dillərinin özünəməxsus yeri olmuşdur. Müasir dövrdə isə bu yerin çəkisi və rolu daha çox hiss olunur. Odur ki hazırda türkdilli dövlətlərə, o cümlədən türk dillərinə maraq türkologiya elminin qarşısında duran məqsəd və vəzifələri birə-beş qat artırır". (1, səh. 6, 7)

Türkoloji elmi tədqiqatlar sistemli şəkildə aparıldıqdatürk xalqlarının tarixi və mədəniyyəti, dili və ədəbiyyatı, bunlardan başqa mənəvi, mədəni və maddi dəyərlərlə bağlı kollektiv elmi sistem yaradıb etno-linqvistik ortaq mədəni köklərə əsaslanan türk dünyasının qarşılıqlı əməkdaşlığı və mənəvibirliyi təmin etməyə yönəlmiş ortaq türk ideologiyasının əsasını təşkil edir.

Türk mədəniyyətini təşkil edən türk xlqlarının dili, ədəbyyatı, tarixi və adət-ənənələri dünya mədəniyyətinin qitələrə görə təsnifatında Şərqmədəniyyətinin bir hissəsi hesab edilir. Tədqiqat predmetindən asılı olaraq bir neçə sahədən ibarət olan Şərq elminə Avropa prizmasından baxıldıqda XVII-XVIII əsrlərdə böyük dövlətlərin Şərq ölkələrini istismar etmək siyasətindən asılı olaraq formalaşmağa başlayıb. Məsələn, İngiltərə, Fransa, Hollandiyanın Hindistan, Hint-Çin ölkələrini, Rusiya çarlığının OrtaAsiyanı ve indiki Qazaxıstan bölgəsini, Sibir ve Qafqazı istismar etməsinə görə Hint, Hint-Çin, Qafqaz və Türk xalqları haqqında məlumat toplamaq və araşdırmaq böyük əhəmiyyət kəsb edirdi. Bu tədqiqatların əhəmiyyəti istismar edilən ölkələri idarə etmək, öz maraqlarına uyğun şəkildə istifadə etməkdə idi. Həmin ölkələrin yazılı ədəbi-bədii nümunələrin tədqiq olunması bu xalqların tarixi və mədəniyyəti haqqında yetərincə məlumat almağa imkan yaratmışdır.

Rus imperiyasının siyasi və maddi maraqlarına əsasən Şərq xalqlarının tarixi, mədəniyyəti,dili, ədəbiyyatını incələyən rus elm adamları Şərq elminin yeni sahəsi olan Türkologiyanın elmi əsasını qoymuşdur.

Türkologiya türksoylu xalqların dili,ədəbiyyatı, tarixi, etnoqrafiyası, mədəniyyətini və başqa mənəvi və mədəni dəyərləri öyrənən elm sahəsidir.XVIII əsrin əvvəllərində öz istiqamətini müəyyən edən və həmin əsrin ikinci yarısında müstəqil sosial elm sahəsi kimi formalaşan Türkologiya XIX əsrin ortalarından filoloji aspektdə inkişaf etmişdir. Orta Asiya, Sibir və digər bölgələrdə yaşayan qədim türk boylarının tarixi, dili, ədəbiyyatını və mədəniyyətini araşdırmaqda çox önəmli mənbə olan Orxon, Yenisey və Talas yazılarının tapılması və təqiqata cəlb olunması Türkologiyanın dünya elmində əhəmiyyətini artırmışdır.

Orta dövrlərdə ərəb və farsca yazılmış tarixi və ədəbi əsərlərin araşdırılması türkologiyanın inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Bu dövrdə türksoylu xalqların tarixi,dili və ədəbiyyatı, etnoqrafiyası və mədəniyyəti haqqında məlumat verən əsərlərin ilk olaraq tədqiq olunanları Mahmud Kaşğarinin "Divani lüğəti türk" əsəri, Yusif Xas Hacibin "Kutatqu bilik" dastanı, Əhməd Yəsəvinin "Divan-ı Hikmət"i, sonrakı illərdə Məhəmməd Heydər Dulatinin "Tarix-i Rəşidi", Cəlayirinin "Şecere-i Türk", Fəzlullah Rəşidəddinin "Cəmi ət-Təvarix" və s. kimi əsərlər olmuşdur.

Türkologiya ilk yarandığı aspekdən inkişaf edərək filoloji baxış qazanaraq elmin xüsusi sahəsi kimi özünü göstərir. Klassik türkologiyada türksoylu xalqlarla bağlı ortaq mövzuların tarixi aspekti nəzərə alınırdısa, çağdaş Türkologiya türklərin keçmişi, bugünü vəhətta gələcəyini də öz tədqiqat obyektinə çevirməkdədir. Müasir tədqiqat mövzularından asılı olaraq türkologiya türk dili, ədəbiyyatı, fəlsəfəsi, etnoqrafiyası kimi ümumi türk mədəniyyətinin tarixi keçmişini araşdıran bir-biri ilə sıx əlaqəli fənlər tolusundan ibarətdir.

Rus və Avropa şərqşünasları dilçilik sahəsi kimi tədqiqatları nəticəsində formalaşan türkologiya elmi zaman keçdikcə yeni istiqamət götürmüş, onun fənlərarası xüsusiyyəti və əhəmiyyəti daha da dərinləşmiş, tədqiqatlarının həcmi daim genişlənmiş və genişlənməkdədir.

O dövrdə Avropa mərkəzli baxışların təsiri ilə türk xalqının mədəni inkişafıirsinə birtərəfli baxmaq, qədim yazıların siyasi, tarixi və mədəni aspektləri və sivilizasiya tarixində əhəmiyyətini və yerini nəzərə almadan onu yalnız dil materialı kimi araşdırmaq türkologiya elminin tədqiqat çərçivəsini məhdudlaşdırmışdır. Türkologiyanın kollektiv elmi sahəyə çevrilməsi çox çəkmədi. Çünki sosial xarakterli elminkişaf etmək üçün cəmiyyət də eyni səviyyədə inkişaf etməlidir. Cəmiyyətin inkişafı, ölkənin müstəqilliyi ictimaiyyətin müstəqilliyi ilə birlikdə inkişaf edən bir prosesdir. SSRİ dövründə Türkologiyanın müəyyən bir çərçivə içərisində qalması ilk növbədə fənlərarası xüsusiyyətlərinin inkişaf etdirilməməsi ilə bağlıdır. Çarlıq dövründə əsası qoyulan Sovet türkologiyası müxtəlif məqsədlərlə edilən araşdırmaları bu sahə üzrə əhəmiyyətli töhfələr verdi. "Sovet Türkologiyası də dünyadakı digər ölkələrdəki Türkoloji çalışmaları kimi şərq elminin içində doğulub inkişaf etdi. Müxtəlif məqsədləri ola da, aparılan tədqiqatlar türk elminə mühüm töhfələr verib.Dünyanın ən güclü türkologiya mərkəzləri arasında araşdırmaların sayısı və keyfiyyətinə görə Sovet türkologiyası həmişə öndə olub". (2, səh. 432)

Türkologiyanın geniş şəkildə inkişafı XIX əsrin ikinci yarısı XX əsrin əvvəllərinə təsadüf edir. Türkologiyanın inkişafı türk xalqları haqqında türk dillərində yazılı məlumatların tapılması, türk xalqlarının ayrı-ayrı mədəni-ictimai inkişaf mərhələlərini, dillərinin xüsusiyyətlərini ayrı-ayrılıqda araşdırmaq,ana dildə təhsil vermək, milli kadrların hazırlanması məsələlərinə uyğun inkişaf etmişdir. Bu dövrdə rus türkologiyasının fərqlənməsi onun tərkibində türk xalqlarının çoxluğundanvə Rusiyanın türklər yaşayan torpaqları öz sərhədləri daxilinə qatmaq istəməsindən asılı olmuşdur. "Rusiyada türkologiyanın inkişafına təkan verən iki səbəb var: birincisi, türklərin əksəriyyətinin Rusiyanın hakimiyyəti altında qalması, ikincisi, Çar Rusiyası şərqdəki torpaqları almaq niyyətində idi". (3, səh. 524-525)XIX əsrdə Rusiyanın türkologiya sahəsində müvəffəqiyyəti Qərbi Avropanınkından böyük olmuşdur. Rusiyanın türk dünyası ilə birbaşa əlaqədarolduğu üçün Qərbi Avropadan gələn şərqşünasların bir çoxu öz tədqiqatlarını burada aparmışdır. Bu dövrdə artıq türk xalqları arasında da böyük türkoloqlar yetişməyə başlayır ki,onlardan biri və ən məşhuru Mirzə Kazım bəy idi. M.Kazımbəyi M. Kaşğarlı ilə müqayisə edən Nizami Cəfərov yazır: "M.Kazımbəyin (1802-1870) türkologiya sahəsində xidmətləri o qədər böyükdür ki, romantik səslənsə də, onu ancaq türkologiya elminin banisi M.Kaşqarinin xidmətləri ilə müqayisə etmək mümkündür. ...Bununla belə M.Kazım bəy öz istedadı, zəhmətkeşliyi ilə «rus şərqşünaslığının atası» səviyyəsinə yüksəlmişdir".(4,səh. 31)

XIX əsrin 70-ci illərindən başalyaraq Sovet türkologiyasının qurucusu sayılan V.Radlovun türk dilinin tarixi mətnləri, fonologiyası, türk ləhcələri üzrə apardığı tədqiqatlar olduqca əhəmiyyətlidir. "Lakin bunlardan başqa, W. Radloff(1837-1918) Rus türkologiyasının banisi kimi əsərləri və xidmətləri ilə tamamilə fərqli bir yer tutur. Bir qrup tələbəsi və həmkarıbu nəsil türkologiyada "Radloff dövrü" kimi tanınır". (5, səh. 89) P.M.Melioranski, V.V.Bartold, N. İ. İlminski, V.D.Smirnov, N. F. Katanov, N. P. Ostroumov, A. N. Samoyloviç, S. Y. Malov,V. A. Gordlevski və başqaları rus türkologiyasının böyük tədqiqatçılarından olmuşlar.

Türk dillərinin XIX əsrdə universitetlərdə tədrisi ilə əlaqədar olaraq Rusiyada türkoloji mərkəz kimi Moskva, Sankt-Peterburq, Kazan kimi universitetlər fərqlənir. Burada türk dillərinin öyrədilməsi üçün dərs kitabları və bununla bağlı bir çox ekspertlər yetişməyə başladı. Məhz buna görə də türk dillərinin elmi cəhətdən araşdırılma imkanları genişləndirildi.

Tədqiqatlarının sayı və keyfiyyəti baxımından düyadakı türkoloji mərkəzləri içərisində sovet türkologiyası fərqlənirdi. Sovet dövründə türkologiyanın dilçilik sahəsindəki tədqiqatları geniş istiqamətdə aparılırdı: müxtəlif türk dillərinin xüsusiyyətlərini əhatə edən akademik qrammatikaların hazırlanması; hər bir dilin tarixi inkişafını və türk dillərinin ümumi inkişafını müəyyən etmək; türk dillərinin formalaşma dövrlərinin müəyyən edilməsi;

müqayisəli tarixi metod əsasında türk dillərinin qohumluq dərəcəsinin müəyyənləşdirilməsi; üslubi məsələlər; müxtəlif lüğətlərin və keyfiyyətli dərsliklərin hazırlanması; VI-VII əsrlərə aid yazıların dilinin tədqiqatı; ortaq türkcə əsərlərin dilinin araşdırılması və s.

Sovet dövründə, xüsusilə 50-ci illərdə türk dillərinin müqayisəli qrammatikası sahəsində qiymətli araşdırmalar aparan elm adamlarından S.E.Malov, N.K.Dmitriyev, M.Nasilov, N.A.Baskakov, A.N.Kononov, A.M.Şerbak, E.R.Tenişev, N.Z.Hacıyeva, B.A.Serebrennikov,K.M.Musayev və başqalarının adını çəkmək olar.

Sovet türkologiyasında türk dillərinin ümumtürkoloji baxımından sistemli şərhi mümkün olmasa da, bu sahədə görülən işlər az deyil. İlkin mərhələdə daha çox ümumtürkoloji prinsipləri əsas götürən sovet türkologiyası sonrakı mərhələlərdə bu prinsipdən uzaqlaşaraq tədqiqatları ayrı-ayrı türk dilləri, tarixi, qrammatikası üzrə aparmışdır. “Məlumdur ki, klassik türkologiyanın, o cümlədən sovet türkologiyasının ısas çatışmazlığı ondan ibarət olmuşdur ki,türk xalqlarının mənəvi irsi,bir qayda olaraq, forma-struktur planında araşdırılmış, türk mədəniyyətinin,ruhunun ideya-məzmun planına, demək olar ki, diqqət verilməmişdir”.(4.səh.238)

Müasir türkologiya elminin başladığı yer Macarıstandır. Macarıstan alimləri bir növ öz köklərini axtarmaq səyləri sayəsində türkologiyanın əsasını qoymuşlar. Macar türkoloqlar Türk dilinə, tarixinə, mədəniyyətinə, ədəbiyyatına, coğrafiyasına, etnoqrafiyasına, musiqisinə böyük töhfələr vermişlər.Macarlarla türklər arasındakı əlaqənin tarixi qədimdir. XIII əsrdən başlayaraq macarlarla türklər bir yerdə yaşamaya başlamış və bu iki xalq arasında mədəni əlaqlər qurulmağa başlamışdır.Sultan Süleyman dövründə macarlar təxminən 150 il Osmanlı hakimiyyəti altında qaldılar. Osmanlı hakimiyyəti ilə münasibətlərin inkişafı nəticəsində macar alimlərinin türk dilinə marağı daha da artdı.

Müasir Türkologiyanın Macarıstanda yaranması 1830-cu illərə təsadüf edir. Janos Repiczki Budapeşt Universitetinin ilk türk dili müəllimidir. Osmanlı salnamələrinin və sənədlərinin ilk tərcümələri məhz ona aiddir.

“1830-cu ildən sonrakı illərdə Macarıstandan çoxlu türkoloqlar yetişdi. Xüsusilə türk mədəniyyəti,dil, tarix və ədəbiyyat macar alimlərinin diqqətini cəlb etmiş və onlar bu mövzuda çoxlu tədqiqatlar hazırlamışlar. Bu araşdırmalar və tədqiqatlar bu gün də davam edir. Türklərlə macarlar arasında çox güclü bir tarixi bağ var. Bu gün Elte və Seqed universitetlərində türkologiya tədris olunur. Türk dilini öyrənmək macarların marağına səbəb olur. Macarıstandakı universitetlərdə oxuyan və burada açılan türk məktəblərində müəllimlik edən türklər vasitəsilə Macarıstanda türklərə və türkcəyə olan maraq günü-gündən artmaqdadır”. (6, səh.369)

Armin Vamberi (1832-1913) Macar Türkologiyasının banisi sayılır. Pest Kral Universitetində (indiki Eötvöş Lorand Universiteti) Avropanın ilk Türkologiya şöbəsini açan Armin Vamberi Macarıstan Elmlər Akademiyası üzvü idi. A.Vamberi XIXəsrdə nəşr etdirdiyi “Türk-tatar dillərinin etimoloji lüğəti” (1878) adlı əsəri türk dilçiliyindəki etimoloji lüğətlər haqqında nəzəri və praktiki məlumat verən dəyərli əsərdir.Fin ve Macar dilləri arasında əlaqənin varlığını qəbul etməyən Vamberi Macar dilini Uqor elementləri olan bir Türk dili olaraq görürdü. Müasir dilşünaslar arasında isə bu nəzəriyyə daha qəbul edilmir. Macar dili Türkcədən təsirlənən bir Uqor dili olaraq qəbul edilir.

24 sentyabr 1870-ci ildə Avropa ali məktəbləri arasında ilk Türkologiya kafedrası (İlk Türkologiya İnstitutu) Macarıstanın Budapeşt universitetində yaradılmışdır. O dövrdə ilk Türkologiya İnstitutunun açılmasının ən mühüm səbəblərindən biri də Turançılıq hərəkatının Finlandiya və Macarıstan xalqları arasında yayılması idi.

Türk xalqları ilə birbaşa tarixi əlaqələri olan Macarıstanda türkoloji araşdırmalar aparılaraq hunların qərbə köçü, macarların tarixi, kökü, macar dilindəki türk sözləri kimi bir çox məsələlər tədqiqata cəlb olunmuşdur. Bundan əlavə müasir türk dillərinin tədqiqi və tədrisi işi də uğurla həyata keçirilərək Seqed Universitetində qazax və macar dilləri müqayisəli şəkildə öyrənilir.

"Amma biz tərəddüd etmədən deyə bilərik ki, beynəlxalqtürkologiyanın indiki yüksək səviyyəyə çatmasında macar türkoloqların fəaliyyəti zəruri hala çevrilmişdir."(7, səh.3)

Dünya türkologiyası tarixində macar türkologiyasının yeri danılmazdır. Almassy Gyorgi, Balınt Gabor, Bodrogligeti Andras, Budenz Josef, Desko Endre, Eckman Janos, Fekete Lajos (Ludwig), Gombocz Zoltan, Halası-Kun Tibor, Hazai György, Kuun Geza Kont, Ligeti Lajos, Mandoky Kongur Istvan, Moravcsık Gyula, Pröhle Vilmos, Reguly Antal, Repıczky Janos, Taşnadi Edit, Thury Josefvə s. kimi macar türkoloqlar müxtəlif araşdırmalarla türkologiya sahəsində uğurlu nəticələr əldə etmişlər.

Türkologiynın inkişafı və eyni zamanda türk milli kimliyinin tərəqqi etməsi XIX əsrin sonu XX əsrin əvvəllərinə təsadüf edir. XIX əsrin sonlarına doğru türkologiyanın mərkəzi Osmanlı imperatorluğunun varisi olan Türkiyə Cümhuriyyəti öz öhdəsinə götürür. Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kəmal Atatürk və tərəfdaşları türkologiyanın və türk dünyasının həm mədəni, həm də siyasi varlıq olaraq bugün də öz dəyərini saxlayan addımlar atılmasında yaxından iştirak etmişlər. Mustafa Cəlaləddin Paşa, Əhməd Vəfik Paşa,Şəmsəddin Sami ve Nəcip Asım və s. Türkiyədə türk filologiyasının və tarixçiliyinin təməllərini atanlardandır. Mustafa Kamal Atatürkün göstərişi ilə 1931-ci ildə Türk Tarix Qrumunun yaradılması və genişmiqyaslı türkoloji araşdırmaların aprılması türkologiyanın inkişafına təkan verən amillərdən olmaqla yanaşı, Türkiyəni dünya türkologiyasının əsas mərkəzlərindən birinə çevirdi. Həmçinin türk dillərinin vahid kökdən yayılaraq geniş bir ərazini əhatə etdiyini göstərən Atatürkün "Günəş dil nəzəriyyəsi" onun dil məsəsləsinə böyük əhəmiyyət verdiyini göstərir. İlkin adı "Türk Dili Araşdırma Cəmiyyəti" olan Türk Dili Qurumu 12 iyul 1932-ci ildə M. K. Atatürk tərəfindən qurulması da bu sahə üzrə atılmış ən önəmli addımlardanddır.

XX əsrin 30-cu illərindən başlayaraq Türkiyədəki türkoloji araşdırmalar müxtəlif və zəngin tədqiqatların yaranmasında böyük rol oynadı və həmin dövrdən başlayaraq bir çox tanınmış türkoloq bu sahədə əvəzolunmaz əsərlər yazmışlar ki, onlara Talat Tekin, Zeynəp Korkmaz, Əhmət Cəfəroğlu,Əhmət Bican Ercilasun, Fikri Sərtkaya,Həsən Ərən, Hasibə Mazioğlu,Əhmət Buran,Şükrü Haluk Akalın, Hülya Kasapoğlu, Süer Eker, Mustafa Öner, Hatice Şirin User və başqalarını nümunə göstərmək olar.

Türkologiya Çin,Yaponiya, Monqolustan, Avropa və Amerikada da inkişaf etmiş elm sahələrindən birinə çevrilmişdir. Adı çəkilən yerlərdə türkologiyanın inkişafına əsasən ya qonşu dövlətin türk dövləti olması və ya həmin dövlətlərin tərkibində türk xalqlarının yaşaması səbəb olmuşdur. Həmçinin türk dövlətləri ilə iqtisadi, siyasi və mədəni inteqrasiya da türk xalqlarının tarixi, dili, ədəbiyyatı, mədəniyyəti, dünyagörüşü haqqında daha geniş və dəqiq elmi araşdırmalara, türkologiya elminin daha sürətlə inkişafına təkan verir.

İstifadə olunmuş ədəbiyyat

1. Buludxan Xəlilov, Türkologiyaya giriş, "Bakı çap evi" nəşriyyatı, Bakı, 2013, 384 s.
2. Ahmet Buran, Sovyet türkolojisi ve birinci türkoloji kurultayı,Turkish Studies International Periodical For the Languages, Literature and History of Turkish or Turkic, Volume 4/3 Spring, 2009

3. Qaydarov A. Türkologiya (Türkoloji) // Qazaq SSR. Qisqaşa Entsklopediya. C.3, Almati, 1988
4. Nizami Cəfər, Türkologiyaya giriş, Elm və təhsil, Bakı, 2016, 248 səh.
5. Mustafa ÖNER,Türk Dünyası ve Türkoloji, Aydın Türklük Dergisi Yıl: 1 Sayı: 1 - 2015 (87-93)
6. Mehmet Gümüşkılıç,Macaristan türkolojisi üzerine bir biyo-biyografi denemesi, Turkish Studies - International Periodical For The Languages, Literature and History of Turkish or Turkic Volume 7/4, Fall 2012, p. 367-406, Ankara-Turkey
7. Macar Türkologlar Küçük Biyografik Ansiklopedi, Ankara, 2022, 255 s.

SOCIO-POLITICAL CHARACTERISTICS OF THE ERA IN CONTEMPORARY IRAQI-TURKMAN POETRY

ÇAĞDAŞ İRAQ-TÜRKMAN POEZİYASINDA DÖVRÜN İCTİMAİ-SİYASİ SƏCİYYƏSİ

VALİDƏ ŞIXƏLİYEVA

Bakı/Azərbaycan Azərbaycan Dövlət Pedaqoji Universiteti

Türkoloji mərkəzin mütəxəssisi, ORCID:0009-0002-0708-8335

Xülasə

Türkiye Türkçesinde olan işaret sıfatları Türkmen dilinde de işaret edilerek valıqların yerlerini belirtirler. Türkmen dilinde kullanılan işaret sıfatları şunlardır: *bu, şu, o, ol, şo, şol* v.s. Türkmen dilinde işlenen *şol* işaret sıfatı Eski Anadolu ve Osmanlı Türkçesinde bol- bol kullanılan bir işaret sıfatıdır.

Şol mähfel gurlan ýere möwlam bizi ýetirse, (Dilber, s, 47)

Şol sebäpden aglaýyr men näzli ýar elden

gider.(Elden gider, s, 51)

Şu oturan uly-kiçi,

Bu sözümde ýalan barmy? (Bilen barmy, s, 3)

Perhatdan bäri boldy *şu* daglaryň diligi,(Güzel, s, 49)

Ol gözelniň döwran sürer wagtydyr.(Gyzyň, s, 31)

Sayı sıfatları Türkiye Türkçesinde olduğu kibi Türkmen dilinde nenselerin sayısını belirten kelimelerdir. Sayı sıfatları nenseleri adet olarak ya dereceleli, bölük bölük, parça veya topluluk halinde belirtirler. Bu yüzdende fonkusiyonlarına gore asıl sayı sıfatları, sıra sayı sıfatları, üleştirme ve kesir sayı sıfatları kibi çeşitlere ayrılırlar. Asıl sayı sıfatları nenselerin sayısını gösterir.

Dört barmakdan inli saçyň. (Saçyň, s, 5)

Günde ekdim *üçden*, bugdaý. (Bugdaý, s, 12)

Iki üçden,azan duş bolanda (Getirer, s, 14)

Başyn *ýüz* gowgaga salsa (Är biläni, s,15)

Ýedi ýyldan öwrülip gelsem, danyşarmu sen? (Dilber, s, 47)

Meteji goşgularında *dört, üç, iki, ýüz ,ýedi* kibi sayı sıfatlarınının işlenmesini görüyoruz.

Sıra sayı sıfatları da Türkiye türkçesinde olduğu kibi Türkmen dilinde asıl sayı sıfatların sonuna *-ncı, -nci,* ekleri elave edilerek düzelirler. Sayların sıralarını gösterirler: *dördüncü, bäşinci,altıncı, yedinci* v.s.

Üleştirme sayı sıfatları bir ayırma, bir dağıtma, bölme ifade eden nenselerin sayısını gösteren sayı sıfatlarıdır. Bu sayı sıfatları ekle değil aynı sayın tekrarı edilmesiyle yapılmakta veya ikincisine uzaklaşma hali eki getirilmekle düzelirler: *bir-bir (teker-teker), yekeme-yekeme (birer birer), üçbir (üçer üçer)* v.s.

Nesneleri soru halinde belirten sıfatlara soru sıfatları denir. Türkmen dilinde kullanılan soru sıfatları şunlardır: *niçe " kaç", näçinci " kaçıncı "*, *haysı "hangi", näçe " ne kadar"* v.s.

Niçe ýyldan bäri çekdim jepaňy, (Mährim alan ýar, s, 26)

Belirsizlik sıfatları nesneleri belirsiz olarak bildiren sıfatlara denir. Türkmen dilindede en yaygın olarak işlənən belirsizlik sıfatları şunlardır: *başğa (başka), bütin(bütün*), *ençeme (birtakım), her (her), her bir (herhangi bir*) v.s.

Her bir başyň bäş hanadyr, (Bugdaý, s,12)

Her tikende bir gül bitmez (Diýmek olmaz, s,18)

Türkmen dilinde zamirler

Türkiye türkçesinde olduğu kibi Türkmen dilinde zamirler nesneleri işaret ve temsil suretiyle karşılayan kelimelerdir. Zamriler özleride çeşitlere ayrılır: şahıs zamirleri, işaret zamrileri, dönüşüklük zamirleri, soru ve belirsizlik zamirleri.

Türkmen dilinde işlenen şahıs zamirleri şunlardır:

Teklik 1. Şahıs: men	Çokluk 1.şahıs: biz
2.şahıs: sen	2.şahıs: siz
3.şahıs: o/ ol	3. Şahıs: olar

Annagılıç Metejinin şiirlerinde en çok işlenenen şahıs zamirleri birinci ve ikinci teklik şahıs zamirleridir.

Men bir güýçli derde duşdum, (Ýazyrhanyň gyzy, s, 2)

Sen garasaň özge bir ýan, (Saçyň, s, 5)

İsimlerin hal ekleri şahıs zamirleri ile de işlenmekdedir. Şahıs zamrisinin genetif hali Türkmen dilinde şöyledir: *meniñ, seniñ, onuñ, biziñ, sizin, onlarıñ*. Türkiye Türkçesinden farklı olarak Türkmen dilinde birinci şahıs eki- *im* (*benim*) diyil – *iñ* (*meniñ)* şeklinde işlenir.

Meniň adym Aman handy (Aýdyşyk, s, 24)

Seniň ysyň hoşdan, bugdaý (Bugdaý, s,12)

Türkiye Türkçesinde olduğu kibi Türkmen dilinde de zamirlerin akkuzatifi hali -*meni, seni, onı, bizi, size, onları*; datif hali -*maña, saña, oña, bize, size onlara*; lokatif hali- *mende,sende, onda, bizde, sizde, onlarda* ; ablatif hali -*menden, senden ondan bizden ,sizden, onlardan* şeklinde işlenir.

Meni bagban etgin çemenli baga, ? (Kim geler ?, s, 35)

Bizi görüp, gülkä başlar (Ýazyrhanyň gyzy, s, 2)

Näzli dilber, bir dilegim bar *saňa,* (Yrakda durma, s, 29)

İstegenim *sende* bar, dürli bazar, Aýperi. (Aýperi, s, 44)

Ỷa ýaradan, bir dilegim bar *senden*, (Hoş olsun, s, 38)

Zamirlerde birde eşitlik hali olur: *mençe, sençe, onça, bizçe, sizçe, olarça* şeklindedir. Bu çekim eki eski devrelerde fazla kullanılmamıştır. Bugün de şahıslarda bu çekim yerine *gibi, göre, kadar* edatları kullanılmaktadır.

İşaret zamirleri nesneleri işaret etmekle kullanılır ve şunlardır: *bu, şu, ol/o, şol/şo, bular, şular ,olar*.

Ol gözelniň döwran sürer wagtydyr (Gyzyň, s, 31)

Şol sebäpden boldum yşkyň bimary (Yrakda durma, s, 29)

Dönüşlülük zamirleri asıl şahıs zamirlerinden daha kuvvetli bir ifadeye ve manaya sahip bulunan şahıs zamirleridir. Türkmencede dönüşüklük zamirisi *özdü*r. *Özüm " kendim", özüñ " kedin ", özi " kendi ", özümiz " kendimiz ", özüniz " kendiniz ", özleri " kendiler* " şeklinde işlenir.

Soru zamirleri nesneleri soru şeklinde temsil eden, onları soru şeklindeki karşlıqları olan sormaq için kullanılan zamirlerdir. Türkmen dilindeki işlenen soru zamirleri şunlardır: *kim " kim", näme " ne " , haysı/ haysısı " hangi, hangisi ", nire " nere ", näçesi " kaçı ", nireler " nereler "* v.s.

Golaýyma sen gelmeseň, *kim* geler ? (Kim geler ?, s, 35)

Belirsizlik zamrisi nesneleri belirsiz şekilde temsil eden zamirlerdir.Yaygın olaraq kullanılanlar şunlardır: *biri" biri " , ählisi " hepsi ", barı " hepsi ", her kes " her kes ", birnäçesi " birkaçı " hiç biri " hiçbiri ", hiç zat " hiçbir şey ", käbiri " bazısı ", kimdir biri " biri, birisi " v.s*

Hiç bir kimseden gorkmaryn (Aýdyşyk, s, 9)

Birniň ýerne ony gelse (Är biläni, s, 15)

Her kesi beg saýmak olmaz (Diýmek olmaz, s, 19)

Sonuç

Türkmen dilinin grammerindeki sıfat ve zamirleri türkmen yazarı Annagılıç Metejinin şiirleri örneyinde tarihi-mükayiseli metodla karşılaştırdıqda onların küçük bir farkla seçildiğini görmekdeyiz. Yazarın "Goşgular "isimli şiir kitabındakı şiirlerinde en çok işlenen asıl sıfatları, şahıs zamirlerinden birinci şahıs, ikinci şahıs zamirleri ve işaret zamirleridir. Vasıflandırma (asıl) sıfatı 41 kere, belirtme sıfatı 27, zamirlerden şahıs 92 , işaret 33, soru 4, belirsizlik 14 kez işletilmişdir. Türkmen dili Türkiyə Türkçəsi kibi türk diller ailesinin oğuz grupuna ait olduğu üçün gramerlerinde fazla farklılıkları olsada benzerliklerin çok olduğunu görüyoruz.

Kaynakça

1. Ahmet Bican Ercilasun. Türk lehçeleri grameri.Akçağ yayınları. Ankara . 2021.s.1394.
2. Annagylyç Mätäji, Goşgular " ÝEDIGEN " kitaphanajygy, TURAN neşirýaty, Aşgabat, 1991, s, 52
3. Banguoğlu T. Türkcenin Grameri. Ankara, Türk Dil Kurumu Yayınları, 2007. s. 628
4. Ergin M. Türk dil Bilgisi. İstanbul, Boğaziçi Yayınları , 2021. s.400
5. Gencan T.N. Dilbilgisi. İstanbul, Türk Dil Kurumu Yayınları , 1974. s. 306

THE ROLE OF CHIASMATIC REPETITIONS IN PROSE TEXTS
XİAZMATİK TƏKRARLARIN NƏSR MƏTNLƏRİNDƏ ROLU

Doktorant, SÜLEYMANOVA GÜLƏR ELÇİN QIZI

Xülasə. Nəsr mətnlərində dil və üslub incəlikləri yaratmaq üçün sintaktik təkraraların növlərindən biri kimi xiazmatik fiqurlardan da istifadə olunur. Xizmi təkrarların linqvistik üslubi imkanları koqnitiv əsaslı olmaqla, nəsr mətnlərinin qurulma imkanlarını, funksiyalarının gerçəkləşməsində başlıca rol oynayır, dil resurslarının semantik-emosional potensialını hərəkətə gətirir. Buna görə də nəsr dilində bütün növ təkrarlar kimi xiazm fiqurların da işlənməsi, həm də işlənmə intensivliyi ilə diqqəti cəlb etməsi olduqca xarakterikdir. Emosiya və ekspressivlik çalarları yaratmaq üçün xiazmatik təkrarların nəsr mətnlərinə nüfuzu olduqca əlverişlidir və bu təkrar növü də canlı danışıq dilinin səciyyəvi keyfiyyətlərini nəsr mətnlərinə hopdurur. Xiazmatik fiqurlar bütün məqamlarda emosional-ekspressiv keyfiyyətlərlə müşaiyət olunur və koqeziya vasitə kimi nəsr dilindəki xiazmatik fiqurlar emosionallıq və ekspressivliklə yanaşı, zəngin informasiya çalarının ən vacib xüsusiyyətlərini özündə inikas etdirir ki, məqalədə bu məsələlərdən danışılır.

Açar sözlər: koqeziya vasitəsi, xiazmı təkrarlar, informasiya vericilik xüsusiyyəti, nəsr mətnləri, emosional xassə.

Özet. Düzyazı metinlerinde kiazmatik figürler, dil ve üslup incelikleri yaratmak için sözdizimsel tekrar türlerinden biri olarak da kullanılır. Khizmi tekrarlarının bilişsel temelli dilsel üslup olanakları, düzyazı metinlerin oluşturulmasında, işlevlerinin gerçekleştirilmesinde büyük rol oynamakta ve dil kaynaklarının anlamsal-duygusal potansiyelini harekete geçirmektedir. Bu nedenle kiazma figürlerinin, düzyazıdaki her türlü tekrar gibi gelişmiş olması ve gelişim yoğunluğuyla dikkat çekmesi oldukça karakteristiktir. Düzyazı metinlere kiazmatik tekrarların nüfuz etmesi, duygu ve anlatım tonları yaratmak için çok elverişlidir ve bu tür tekrarlar aynı zamanda canlı bir konuşma dilinin karakteristik niteliklerini düzyazı metinlere de soğurur. Chiasmatic figürlere her noktada duygusal-ifade edici nitelikler eşlik eder ve bir bütünlük aracı olarak düzyazıdaki kiazmatik figürler, duygusallık ve ifade gücünün yanı sıra, makalede tartışılan zengin bilgi tonlarının en önemli özelliklerini bünyesinde barındırır.

Anahtar kelimeler: bağdaşıklık aracı, tekrarlayan kiazma, bilgilendirici özellik, düzyazı metinler, duygusal özellik.

Summary. In prose texts, chiasmatic figures are also used as one of the types of syntactic repetitions to create subtleties of language and style. The linguistic stylistic possibilities of Khizmi repetitions, being cognitively based, play a major role in the creation of prose texts, the realization of their functions, and activate the semantic-emotional potential of language resources. Therefore, it is quite characteristic that chiasm figures, like all types of repetitions in prose, are developed and attract attention with the intensity of development. The penetration of chiasmatic repetitions into prose texts is very favorable for creating shades of emotion and expressiveness, and this type of repetition also absorbs the characteristic qualities of a living spoken language into prose texts. Chiasmatic figures are accompanied by emotional-expressive qualities at all points, and chiasmatic figures in prose as a means of cohesion, along with emotionality and expressiveness, embody the most important features of rich information shades, which are discussed in the article.

Key words: means of cohesion, repeats chiasm, informative feature, prose texts, emotional feature

Sintaktik paralelizmin bir növü kimi xiazmatik təkrarlar dilçilik əsərlərində əksinə, tərs təkrarlar adları altında öyrənilir. Xiazmatik fiqurlar mətndəki sintaktik bütövlərin birliyini, birləşməni təmsil edən təkrar növlərindən biridir. Sintaktik kəsiklərin birləşməsinə xidmət göstərən xiazmatik təkrarlar nəsr mətnlərində müəyyən qədər özünə yer tapan, digər təkrar növlərindən əksinə, tərsinə söylənilməsinə görə fərqlənən sintaqmlardan biri olub, nəsr mətnlərindəki hiss və fikrin bədii axınını, duyğu tutumunu estetik macəraya yönəltək gücünə, efektinə malikdir. Xiazmatik təkrarlar nəsr dilində rəngarəng strukturlarda çıxış edərək, həm forma, həm də məzmun gözəlliyi yaradır, bir növ söz oyunu funksiyasını yerinə yetirən bu tip sintaktik fiqurlar eyni zamanda nəsr dilinə sanki şeirin ahəngdarlığını gətirir ki, xiazm təkrarların bu və ya digər amillərlə bağlı söz sənətkarları tərəfindən istifadəsinin koqnitivə əsaslarının öyrənilməsi məsələsinin aktuallığını kifayət qədər şərtləndirən cəhətlər kimi qiymətləndirilməlidir.

Digər təkrar növləri kimi, xiazmatik fiqurlardan nəsr mətnlərində yazıçının istifadəsi söyləmin tərkibində struktur – semantik resursları qiymətləndirməkdir. Mətnin kommunikativ gedişində xiazmatik təkrar fiqurlarının struktur semantik ehtiyatları gücləndirməsi qohum türkcələrdə olduğu kimi, müxtəlifsistemli dillərdə də mövcuddur və məhz buna görə də bu sintaktik fiqurlar dünya dil mənzərəsində universal sintaktik vahidlər hesab olunur. Paralellik xiazm təkrarların əsas xüsusiyyətidir və buna görə də onu sintaktik paralelizmin bir növü kimi səciyyələndirənlər tam şəkildə haqlıdırlar. Sintaktik paralelizmin növlərindən biri kimi xiazm təkrarlar da mətnyaradıcı imkanlara malik olub, komponentlərin struktur semantik cəhətdən əlaqələndirilməsində mühüm rol oynayır və Azərbaycan folklor mətnlərində bu xüsusiyyətlər daha böyük önəm kəsb edir. Məs: -Onu demək istəyirəm ki, əgər *mənim oğlum, sənin qızın olarsa, sən qızını mənim oğluma verərsən, yom mənim qızım, sənin oğlun olarsa, mən qızımı sənin oğluna verərəm* (2,25). Bu folklor mikromətni bir neçə ifadəni, sözü çıxmaq şərtilə başdan-başa xiazmatik təkrarlar üzərində qurulmuş və həmin təkrar növü və yaxud tipi mətnyaradıcı faktor kimi təmsil olunmuşdur. Həqiqətən də, sənin qızın, mənim oğlum, mənim oğlum, sənin qızın xiazmatik fiqurlar mikrotekstdə aparıcı mövqelərdə çıxış etmək, mətnin semantik yük daşıyıcısına çevrilmişdir. Bu xüsusda Ə.Abdullayev göstərir ki, "*paralellik mətnin məzmunun nüvəsidir, mətninin ümumi semantik yükünün ağırlığını çiyninə götürür. Silsilə paralellik mətninin üst köynəyinə bənzəyir və məzmun yönümün hamisi kimi özünü göstərir"* (1,162).

Nəsr mətnlərində xiazmi təkrarlar vasitəsilə xəbərin ellipsisləşməsi hadisəsi də bəzi cümlə tiplərində aydın şəkildə özünü göstərir və bunlar daha çox abstraksiya xassəli olur, yəni buraxılmış xəbəri abstrakt şəkildə təsəvvür etməklə komponentlərin bir-birinə xəbərin təkrar üsulu ilə bağlandığını dərk edirik. Məs: Xəyalında dağı arana, aranıdağa köçürtdü (2,25). Bu mikrotekstin birinci komponentində "köçürdü" xəbəri ellipsisə məruz qalsa da , xiazmatik təkrar fiqurlar yerində işlənərək, mətnyaratma funksiyasını uğurla yerinə yetirmişdir. Xəbərin bu cür ellipsisləşməsi ilə bağlı K.Abdullayev qeyd edir ki, *"Bunlar, yəni xəbərin buraxılması mətni adekvat qəbul etmək yolunda heç bir semantik maneə törətmir"* (3,300).

Sintaktik paralelizmin xüsusi növü kimi səciyyələndirilən xiazm mətndəki cümlələrin birləşməsini təmsil edən üslubi vasitədir və müxtəlifsistemli dillərdə də özünü qabarıq şəkildə göstərir. İ.R.Qulperin yazır: *"Xiazm çox sadə üslubi bir vasitədir. Bir frazafövqü birlikdə (abzasda) cümlələrin bir-birini izləməsi zamanı ya əvvəlki, ya da sonrakı cümlənin sıralanması inversiyaya uğrayır. Bu üsul bəzən daha böyük deyim kəsiklərində reallaşır. Belə ki, əgər məlumatın verilməsi zamanı əvvəlki cümlə səbəbdən nəticəyə halını ifadə edirsə, bundan sonrakı cümlədə isə nəticədən səbəbə doğru halı özünü göstərirsə burada xiazm üsulu göz qabağındadır"(*4,84). Cümlənin sintaktik özülünü təşkil edən xiazmatik fiqurlar mətn

mühitində eyni zamanda daha çox aktuallaşaraq, təkrar olunur, mətndəki sintaktik vahidləri betonvari şəkildə bir-birinə hörür. Məs: *"Tahir Mirzənin dalınca az yortdu, çox yortdu, az yortdu nəhayət ona yetişdi"* (2,45). Bu nümunədə söhbətin atın yerisindən, yetdiyindən "atı" tamamlığının ixtisarı da vizual xassəlidir və bunu bizə miktekstin ümumi məzmunu diqtə edir və xiazmatik üsul isə "az yortmaq, çox yortmaq" ifadələrinin tərsinə söz oyunu şəklindəki variantları ilə gerçəkləşdirilir, aktuallaşdırılan üzv isə cümlənin tamamlığı olur. Cümlədəki abstrakt şəkildə təsəvvür edilən "atı" tamamlığını yerinə bərpa etsək, sintaktik bütöv belə alınar: Tahir Mirzənin dalınca atı az yortdu, çox yortdu, çox yortdu, az yortdu, nəhayət ona yetişdi. Qeyd etməliyik ki, cümlədə xiazm təkrarın vasitənin köməyi ilə emosional çalarlıqlar da gücləndirilmişdir.

İ.R.Qulperin digər bir əsərində xiazmatik fiqurlara inversiyanın və paralelizmin birləşməsi kimi baxmış və fikirlərinin təsdiqi və izahı üçün alman dilinin materiallarından zəngin nümunələr vermişdir (5,234). Nəsr mətnlərinin dilində xiazmı fiqurların "*əsas tələbi odur ki, onun ikinci komponenti struktur planda birinci komponentə münasibətdə iversiyaya uğrasın. Bundan başqa, mətnin komponentləri həm də məzmun planında bir-birinə xiazmatik münasibətdə ola bilərlər. Başqa sözlə desək, hətta əgər bəzi mətnlərdə komponentlərin struktur quruluşu identik də olsa, məzmun planında bu komponentlərdəki vahidlər bir-birinə əks mövqe tuta bilərlər"* (3,304). "Dədə Qorqud" kitabından belə bir cümləyə diqqət yetirək: *Altdan geyindi, üstdən qıfillandı, üstdən geyindi, altdan qıfillandı* (6,30). Bu nümunədə işi icra edən şəxs impilistik şəkildədir, onu aşkar şəkildə özündən əvvəlki cümlənin köməyi ilə təyin etmək mümkündür. Digər tərəfdən isə xiazmatik təkrarlar bir-birinə qanunauyğun hal kimi "alt" və "üst" sözləri vasitəsi ilə əks mövqelərdə yer tuta bilmişlər.

Azərbaycan dastan mətnlərinin nəsrlər yazıya alınmış hissələrində xiazmı fiqurlar semantik cəhətdən inkar məzmunu daşıya bilirlər və bu tip təkrarlar "nə" inkarlıq bağlayıcısının köməyi ilə reallaşdırılır. Eyni zamanda bu cür xiazmlarda ikinci komponentdə xəbərin ellipsisləşməsi, inversiyalaşması halları da müşahidə olunur. Məs: *Mahmudla Məryəm on beş yaşına çatdılar, amma bu on beş il ərzində nə qız oğlanı görmüşdü, nə də oğlan qızı* (2,72). Bu cümlədə semantik bağlılıq xətti "qız oğlanı, oğlan qızı" xiazmları vasitəsilə meydana çıxır və "nə" inkarlıq bağlayıcısı sadəcə olaraq, köməkçi vahid kimi inkarlıq şalarlarını qüvvətləndirməyə xidmət göstərir.

Nəsr mətnlərində bəzi hallarda cümlə daxilində xiazmatik fiqurların köməyi sayəsində "gözəllik" anlayışı konseptuallaşdırılır. Məs: *O biri tərəfdən mahmud ağacların arasıynan gəlib bir bağa çıxdı. Baxdı ki, bağ nə bağ? Gül bülbülü, bülbül gülü çağırır* (2,72). Bu mikromətnin ikinci hissəsində gələn "Bağ nə bağ" – cümləsində sual çaları qarışıq emosionallıq keyfiyyəti də qüvvətlidir və bu keyfiyyətlər "nə" sual əvəzliyinin köməyi sayəsində yaradılmışdır. Sonuncu cümlədə maraqlı cəhət budur ki, dü xətli təkrar növü işlənən (bağ, nə bağ) cümlədən sonra xiazm sintaktik fiquru çıxış edən cümlə tipi gəlmiş və beləliklə də, təbiətin əsrarəngiz, füsunkar gözəlliyi obrazlı şəkildə konseptuallaşdırılmışdır.

Bir-birilə əks sıra ilə düzülmüş sintaktik vahidlərin eyni xəttdə, semantik cəhətdən zidd cərgələrdə çıxış etməsinin böyük üslubi gözəllik yaratma funksiyaları vardır və bu baxımdan aşağıdakı cümlə daxilində "qız oğlana, oğlan qıza" xiazmatik fiqurları olduqca səciyyəvidir: *Oğlan ixtiyarsız barmağındakı üzüyü qıza, qız da ipək dəsmalını oğlana verdi* (2,75). Bu nümunədə xiazm qəlibindəki sintaktik fiqurlar estetik funksiya yerinə yetirərək, obrazlı təsəvvürləri genişləndirir və bu genişləndirmə fonunda paradiqmatik şəkildə müqəddəs məhəbbət anlayışı motivikasiya olunur, başqa sözlə desək, həmin mücərrəd məfhun simvolizə edilir. Bədii fikrin ardıcıllığı, hisslərin obrazlı ifadəsi xiazmatik fiqurlar vasitəsilə xüsusi səviyyə kəsb edir.

Nəsr mətnlərindəki cümlələri şahmanlamaqla sintaktik vahidlərin istənilən hissələrində olan xiazmların xarakterik bədii cizgilər və bədii rənglər, mənalar yaratmaqda müstəsna xidmətləri vardır. Xiazmı təkrar fiqurlar elə sintaktik vahidlərdir ki, sanki bədii üslubda bir sistematiklik yaratmaqla ahəngdar poetik-tipoloji əlamətlər əmələ gətirir. Məs: - Keşiş, sən özün bilirsən ki, Kərəm sənin qızına, qızın da Kərəmə deyiklidi (2,97). Bu sintaktik bütövdə "Kərəm sənin qızına, qızın da Kərəmə" hissələri xiazm fiqurlar kimi çıxış edərək, bədii-tipoloji ahəngdarlıq yaratmış, mətnin maqnit nüvəsini təkrarlanan sözlərlə uğurlu bir şəkildə təmin etmişdir. Həmin komponentlərin görünümlü yerində, yəni ikinci tərəfində "sənin" əvəzliyinin işlədilməməsi ilə qənaət prinsipi gerçəkləşdirilmişdir. Bərpa əməliyyatı aparsaq, xiazmın tərkibini bütöv şəkildə aşağıdakı kimi də vermək olar ki: "Kərəm sənin qızına, sənin qızın da Kərəmə deyiklidi"

Xəbərin ellipsisi ilə müşaiyət olunan xiazmatik fiqurlara üslubi vasitə kimi nəsr mətnlərinin müəyyən komponentlərində daha çox rast gəlmək olur. Məs: Əsli də başına gələnləri Kərəmə, Kərəm də öz başına gələnləri Əsliyə danışdı (2,98). Bu sintaktik bütöv başdan ayağa bədii-tipoloji xiazm təkrarlar üzərində qurulmuş, hətta cümlənin birinci komponentində "danışdı" xəbəri abstrakt xassəli olmaqla ellipsisə uğramış, feli sifət tərkibinin substantivləşməsi yolu ilə, yəni tamamlıqdan ibarət olan xiazmatik təkrarın dəyərli və tipik nümunəsi yaradılmışdır.

Nəticə. Nəsr mətnlərində əsas spesifik-tipoloji ifadə qanunauyğunluqlarından biri kimi xiazmatik təkrar növü deyim, söyləm modelləri, strukturları üçün müstəsna xidmətlər göstərir, aydın görünüş mövqeyinə gətirilən bu nitq vahidləri əksər məqamlarda ellipsisləşmə ilə müşaiyət edilərək abstrakt xassəli olur və bədii-linqvistik dəyərləri özündə ehtiva etdirmək gücünə sahiblənir, ifadənin dinamik məna yükünü öz üzərinə götürməklə mətnin emosional, semantik-üslubi enerjisini üzə çıxarır.

Ədəbiyyat

1. Abdullayev Ə. Aktual üzvlənmə, mətn, diskurs. Zərdabi LTD.MMC. Bakı, 2011, 272 s.
2. Azərbaycan məhəbbət dastanları. Tərtib edən: M.Təhmasib. Bakı, "Elm", 1979, 510 s.
3. Abdullayev K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı, MTM, 2016, 360 s.
4. Kitabi-Dədə Qorqud. Bakı, "Yazıçı", 1970.

HEYDƏR ƏLİYEVİN QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ SİYASİ PLATFORMASI, TARİXİ VARİSLİK KONTEKSTİNDƏ

LEYLA CALALOVA,

Tarix üzrə fələsə doktoru, ADPU-nin Qərbi Azərbaycan Araşdırmalar Mərkəzinin rəhbəri

Xülasə: Qədim türk-oğuz yurdu olan Qərbi Azərbaycan torpaqlarına müxtəlif dövrlərdə məqsədyönlü şəkildə xaricdən erməni miqrantlarının gətirilərək əraziyə yerləşdirilməsi nəticəsində süni erməni dövləti yaradıldi. Türk dünyasının parçalanmasına xidmət edən bu layihə, Azərbaycan türklərinin bir neçə dəfə etink təmizlənməyə məruz qalmasına səbəb oldu. SSRİ–nın ən ali kürsüsünə qalxmağa nail olmuş yeganə müsəlman-türk övladı olan böyük dövlət xadimi, dahi siyasətçi Heydər Əliyevin bu məqamda olması Sovetlər dönəmində ermənilərin torpaq iddialarının qarşısının alınmasına ən böyük maneə idi. Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz olaraq, Heydər Əliyev 1987-ci ilin oktyabrında tutduğu vəzifələrdən istefa verdi.

Açar sözlər: Heydər Əliyev, İlham Əliyev, Qərbi Azərbaycan, Qayıdış

Ulu öndər Heydər Əliyevin siyasi bürodan istefasından 2 həftə sonra Fransa qəzetlərinə müsahibə verən Abel Aqanbekyan ermənilərin torpaq iddiasını irəli sürdü. Bununla da Qarabağ münaqişəsinin alovlanmasına start verildi. Bu isə Azərbaycan torpaqlarında süni şəkildə ikinci erməni dövlətinin yaradılmasına cəhd idi. Bu cəhdin qarşısının alınmasında ən böyük fədakarlığı məhz Heydər Əliyev və onun uğurlu siyasi varisi cənab İlham Əliyev həyata keçirdi.

Hər iki liderin hadisələrə yanaşma tərzində tarixi kontekstin mühüm amil kimi keçdiyinin şahidi oluruq. Bu faktor özünü iki istiqamətdə göstərir, həm siyasi metodoloji, həm də idarəetmə məsələlərində. Əslində bu vacib siyasi amil həm də hər iki siyasi liderin peşəcə tarixçi olması ilə də bağlı idi.

Qərbi Azərbaycan siyasi düşüncəsinin förmalaşmasında birinci amilə diqqət edək. Ölkəmiz üçün ən ağır siyasi şəraitdə ikinci dəfə hakmiyyətə gələn Heydər Əliyev, Ermənistan–Azərbaycan müharibəsinin dinc yolla həll edilməsi ilə bağlı intensiv diplomatik fəaliyyət göstərdiyi vaxtda belə, tarixi amilləri önə çəkirdi.

Heydər Əliyev Qərbi Azərbaycan siyasi düşüncəsini daimi diqqət mərkəzində saxlamaqla onu konseptual tezislər şəkilində öz çıxışlarında irəli sürürdü. Doxsanıncı illərin sonunda artıq bu fəaliyyət intensiv şəkil almışdır. 1995-ci il Azərbaycan Respublikasının yeni Konstitusiyasının qəbulu ilə bağlı iclaslarda Qərbi Azərbaycan məsələsinə toxunan Heydər Əliyev həmin ərazilərin tarixi Azərbaycan torpaqları olmasını vurğulamqla gənc nəslin tarixi yaddaşını oyadırdı.

Digər bir nümunə Ümummilli Liderin birbaşa təşəbbüsü və iştirakı ilə 1998-ci il dekabrın 9-dan 11-dək Bakıda "İslam sivilizasiyası Qafqazda" Beynəl-xalq Simpoziumundakı çıxışı idi. Heydər Əliyev beynəlxalq auditoriyaya müraciət edərək Qərbi Azərbaycanla bağlı tarixi gerçəkliklərə toxunur. O, deyir: *"İndi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan – İrəvan*

mahalı, Göyçə mahalı, Zəngibasar mahalı, Zəngəzur mahalı – bunlar hamısı müsəlmanlar, azərbaycanlılar yaşayan diyarlar olubdur. Təəssüf ki, bu ərazilərdən, diyarlardan müsəlmanlar çıxarılıblar, indi bu ərazilərdə bir nəfər də olsun müsəlman yoxdur. Bu da Ermənistan millətçiliyi, erməni ekstremizmi, erməni şovinizmi siyasətinin nəticəsidir. Əgər Qafqazda İslam sivilizasiyası haqqında danışırıqsa, həqiqəti demək lazımdır"[2].

Şübhəsiz ki, Heydər Əliyevin Qərbi Azərbaycan siyasi platformasının inkişafı ilə bağlı danışarkən, Azərbaycan qanunvericilik sisteminin tərkib hissəsinə çevrilmiş tarixi sərəncam və fərmanları barədə söz açmamaq mükün deyil. Sovet imperiyası tərəfindən müsəlman-türk xalqlarına qarşı yönəldilmiş deportasiya və soyqırım siyasətinin tərkib hissəsi olan Qərbi Azərbaycan türklərinin 1948-1953-cü illər tarixli deportasiyasına verilən hüquqi qiymət buna misaldır. Heydər Əliyev 18 dekabr 1997-ci il tarixində də 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında Fərmanı ilə Qərbi Azərbaycana qayıdışın hüquqi təminatlarının yaradılması ilə bağlı ilk və mühüm addımı atdı. Heydər Əliyev bu fərmanla məsələyə siyasi-hüquqi qiymət verməklə eyni zamanda,bu etnik təmizləmənin öyrənilməsi məsələsini dövlət və tarixşünaslıq qarşısında ümdə vəzifə kimi qoydu.

Fərmanda deyilir: *"Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.*

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları, Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi sürətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrki Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır".

Yuxarıda qeyd etdiyimiz kimi, Heydər Əliyev sözügedən Fərmanda məsləyə siyasi-hüquqi qiymət versə də eyni zamanda məsələnin tarixi kontekstdə daha ciddi şəkildə öyrənilməsini vurğulayır.

Heydər Əliyev Fərmanda deyir: *"Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir".*

Fərmanda yaradılmış dövlət komissiyası qarşısında Azərbaycan türklərinin dədə-baba yurdları olan Qərbi Azərbaycandan deportasiyasının öyrənilməsini mühüm vəzifə kimi qoyur.

Bu tarixi Fərmandan qısa müddət sonra 26 mart 1998-ci il tarixdə Heydər Əliyev Azərbaycanlıların soyqırımı haqqında Fərman imzalayır. Heydər Əliyev bu fərmanla Çar Rusiyasının Azərbaycan türklərinə qarşı müstəmləkəçilik siyasətini ifşa etməklə bərabər eyni

zamanda, 1813-1828-ci illərdə bağlanmış Gülüstan və Türkmənçay müqavilələri ilə Qərbi Azərbaycan ərazisinə ermənilərin süni şəkildə yerləşdirlməsinin mahiyyətini açır.

Fərmanda deyilir: *"İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq öz havadarlarının himayəsi altında «Ermənı vilayəti» adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. «Böyük Ermənistan» ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına «bəraət qazandırmaq məqsədi ilə» erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş geniş miqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi"[4].*

Fərmanda 1905-1907-ci və 1918-1920-ci illərdə ermənilərin Azərbaycanın mülki əhalisinə qarşı həyata keçirdiyi soyqırım cinayətləri tarixi kontekstdə dəyərləndirilməklə bərabər Xocalı soyqırımını həyata keçirilməsinə toxunmaqla "Böyük Ermənistan" xəstəliyi ilə yaşayan erməni xalqının soyqırım cinayətlərinin sistematikliyini və anatomiyasını açır.

Heydər Əliyev öz çıxışlarında Zəngəzur mahalının Ermənistana verilməsinə də münasibət bildirərək deyir: *"Zəngəzur mahalının, o cümlədən onun bir hissəsi olan Meğri, Qafan rayonlarının – Azərbaycan torpaqlarının 1920-ci ildə Ermənistana verilməsi bizim tariximizdə Azərbaycan torpaqlarının əldən getməsinin çox ağır bir hadisəsidir"[3].*

Heydər Əliyevin Nüvədi kəndi ilə bağlı çıxışıda maraq doğurur. O bildirir: *"Bəli, bu həqiqətdir ki, 1929-cu ildə Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Naxçıvan Muxtar Respublikasının burada adı çəkilən kəndləri, 657 kvadratkilometr torpağı Ermənistana verilmişdir. Bu həqiqətdir. Ancaq, tək bu deyil. Bəhs etdiyimiz ərazi Naxçıvan Muxtar Respublikasından verilmiş ərazidir. Amma bu tərəfdən – indiki Zəngilan, Qubadlı rayonları tərəfindən də torpaqlar verilibdir. Məsələn, məlumdur ki, Meğri rayonunda böyük bir Nüvədi kəndi var. O, çoxminlik əhalisi olan bir kənddir, sırf azərbaycanlı kəndidir. Nüvədi Arazın sahilində Naxçıvanla Azərbaycanın böyük torpağını ayıran, indi Ermənistanın olan Meğri rayonunda, həmin məsafənin düz ortasında yerləşir. Həmin Nüvədi kəndi də 1929-cu ildə Azərbaycanın tərkibindən Ermənistana verilibdir".*

Heydər Əliyev tərəfindən əsası qoyulmuş Qərbi Azərbaycana qayıdış siyasi platformasının uğurlu siyasi varisi İlham Əliyev tərəfindən sistematik olaraq inkişaf etdirilməklə ən yüksək səviyyəyə qaldırılmışdır. Prezident İlham Əliyev gənc nəslin düzgün tarixi şüura malik olması və əzəli torpalqarının təəssübünü çəkməsi və o torpaqlara qaydışın təmin olunması ilə bağlı üç istiqamətdə iş aparmışdır.

1) Gənc nəslin Qərbi Azərbaycanla bağlı doğru tarixi şüura malik olması.

2) Qərbi Azərbaycana qayıdışın hüquqi təminatlarının möhkəmləndirilməsi.

3) Qərbi Azərbaycana qayıdışın təmin olunması.

İlham Əliyevin çıxışlarında irəli sürdüyü tezislər zaman-zaman erməni siyasi dairələri tərəfindən siyasi möhtəkirlik mövzusuna çevrilmiş eyni zamanda təlaş və qorxu ilə qarşılanmışdır.

Gənc nəslin tarixi həqiqətləri düzgün dərk etməsi üçün İlham Əliyev öz çıxışlarında daimi Ermənistanın tarixi Azərbaycan torpaqları hesabına yaradılmasını dəfələrlə vurğulamışdır.

İlham Əliyevin 18 yanvar 2018-ci il tarixli, 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında Sərəncamı da tarixi varislik baxımdan mühüm əhəmiyyət daşıyır. Sərəncamda

deyilir: *"Erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçirmişlər. Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri də 100 il bundan əvvəl1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlardır. Həmin günlərdə Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilmişdir. Sonrakı dövrlərdə daha da azğınlaşan erməni millətçiləri qeyri-insani əməllərini davam etdirmiş, Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçirmişlər"[1].*

Eyni zamanda, Sərəncamda Azərbaycan Xalq Cümhuriyyəti hökuməti, ermənilərin törətdikləri ağır cinayətlərin araşdırılması üçün yaratdığı Fövqəladə İstintaq Komissiyasının işidə müsbət qiymətləndirilir. Sərəncamda Heydər Əliyevin azərbaycanlılara qarşı soyqırım cinayətlərinin törədilməsi ilə bağlı verdiyi 26 mart 1998-ci il tarixli Fərmanın siyasi-hüquqi əhəmiyyəti diqqətə çatdırılmışdır. 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edilməsini isə xüsusi olaraq qeyd edilmişdir.

Şübhəsiz ki, düzgün müəyyən edilmiş siyasi startegiya öz müsbət nəticəsini verməyə bilməz. Cənab İlham Əliyevin öz doğum günüdə Qərbi Azərbaycan icmasının üzvüləri ilə keçirdiyi görüşdə səsləndirdiyi fikirlər bizim Qərbi Azərbaycana qayıdışımızın təmin olunmasında ən böyük stimul və inamı yaratmışdır. Biz Qərbi Azərbaycana qayıdacağımıza inanırıq!

Nəticə: Məqalədə, müasir Azərbaycanın qurucu lideri Heydər Əliyevin çox spektirli siyasi xəttinin bir istiqaməti olan Qərbi Azərbaycana qayıdış siyasi platformasının təməl prinsipləri təhlil edilmişdir .O cümlədən, uğurlu siyasi varisi Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu platformanı necə inkişaf etdirərək daha yüksək səviyyəyə çatdırılması araşdırılmışdır.

Ədəbiyyat

1. 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 18 yanvar, 2018

2. 1998-ci il 9-11 dekabr "İslam sivilizasiyası Qafqazda" beynəlxalq simpoziumun materialları

3. 1998-ci il 26 mart Azərbaycanliların soyqırımı haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

4. 1997-ci il 18 dekabr 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi sürətdə deportasiyası haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

5. 1995-ci il 12 noyabr Azərbaycan Respublikasinin yeni Konstitusiyasının qəbulu ilə bağlı çıxışından

6. 2022-ci il 24 dekabr Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qərbi Azərbaycan İcmasının inzibati binasında ziyalılarla görüşü

THE MAIN SCIENTIFIC FEATURES OF THE PHONETICS OF TURKIC LANGUAGES IN A COMPARATIVE ASPECT

AYNUR MURAD GİZİ NAMAZOVA

Phd student of ASPU, of the Department of Modern Azerbaijani Language, Azerbaijan
https://orcid.org/0009-0001-2498-8880

Summary: Languages are constantly changing and evolving under the influence of various internal and external influences. It is impossible to think about the history of language without development and change. These changes occur sometimes in the sound system of the language, sometimes in the form and structure of the sentence, and sometimes in the vocabulary, which is the semantic side of the language.It is sounds that change most and most easily in languages. Because in structures that are used more in the language, changes occur faster and easier. Because sounds are the most commonly used elements of language, the sound systems of languages are constantly changing and evolving.

Key words: Turkic language, phoneme, wovel sounds, language, linguistics

Language, which enables communication between people and is considered the most powerful means of communication, is also one of the most important elements that ensure and protect the existence of societies. Turkish has survived until today in different geographies, being influenced by political and social events and encountering different cultures.

The dissolution of the Soviet Union is considered one of the biggest developments in the Turkish World. With the collapse of the Soviet Union, there were political, economic, social and cultural rapprochements in the Turkish communities, and relations between the Turkish communities increased. These rapprochements have also been the subject of language and literature studies. The similarities and differences of the Turkish World in terms of both language and literature have attracted the attention of researchers. One of the studies carried out in this direction is the doctoral thesis titled Word Types in Oghuz Group Turkish Dialects, which we have determined as the thesis topic. As in all languages, Turkish dialects have phonological, morphological, lexical and syntactic differences.

The first issue identified in the basic sources of the Turkish language in this study is the confusion of terms that emerged as a result of both the influence of foreign languages such as Arabic, French, English and Russian on the Turkish language and the personal preferences of linguists. As seen in our study, term unity is achieved in Oghuz dialects other than TT, but the terminology problem still continues in TT. This problem, which makes both the teaching and learning of grammar subjects difficult, should be reconsidered, and attention should be paid to using common terms to eliminate the terminology confusion seen in the sources.

Since the existence of human beings, humanity has been curious about words, words and language, and various studies have been carried out on these subjects. In studies on the Turkish language, which dates back to ancient times, the issue of vocabulary has been addressed and the word has been accepted as a lexical, structural and linguistic category.

The issue of word types, which are closely related to morphology, lexicography and semantics, was discussed at the "Problems of Turkish Grammar" meeting organized by the

Grammar Science and Application Branch of the Turkish Language Association; However, there is still no unity on this subject in grammar/linguistics books.

The issue of word types and classification of word types, which are discussed in the morphology / morphology / structural science / morphology sections, which is one of the sub-branches of grammar and linguistics in all Oghuz group Turkish dialects, has taken its place among the controversial topics of grammar studies. However, the subject of word types is not in the morphology section where affixes and roots are examined; It is an issue that should be addressed in the lexicology section.

It is known that grammatical classifications are classifications based on the principles of the Greek language, and that Greek was adapted to the grammar of the Latin language, and that Latin grammar sets an example for the grammars of all European languages. This shows that, as a result of both Turkish language studies conducted by Western scholars and studies based on Latin grammar, Western-style classifications have taken their place in our language. In line with this influence, starting from 1908, with Hüseyin Cahit, the French influence began to be seen in grammar books, and in this direction, word types were changed into nouns, verbs, adjectives, pronouns, adverbs, prepositions, conjunctions and exclamations, based on their syntagms, under the influence of Indo-European languages. It is divided into eight. When word types are mentioned, first of all, noun and verb come to mind, and these two word types can be clearly distinguished from each other. In classifications that consider words as two types, noun and verb, it is generally seen that the root of the word is taken as a criterion. When we look at our first grammar works, it is known that word types were classified as nouns, verbs and prepositions based on the lexeme of the word, under the influence of the Arabic language. Recently, some researchers have been making new genre classifications, taking into account the characteristics of the Turkish language, away from both Eastern and Western influence. It is seen that there is no absolute unity in the word type classifications in Oghuz dialects, and the word types are subjected to double, triple, five, six, eight, nine, ten, eleven and twelve classifications. When we look at the basic sources of the Turkish language regarding the classification of word types, due to the fact that traditional linguists use different criteria; It is seen that different word type classifications are made. The main criteria used in classifying word types in the scanned sources are; meaning, form, function and position of the word. When determining the place of a word in word types, it is necessary to first look at whether the word is meaningful or functional in the sentence. In our study, meaningful words: lexical words; Functional words are considered as grammatical words and include nouns, adjectives, pronouns, adverbs, main verbs and lexical words; Prepositions and auxiliary verbs are considered grammatical words. One of the important problems identified in our study regarding word type classifications is the issue of boundaries of prepositions. As a matter of fact, as a result of our study, it was seen that the boundaries of prepositions in Turkish accents cannot be drawn exactly.

When we look at the place of prepositions in word type classifications, while some researchers evaluate prepositions, interjections and conjunctions under separate headings - as a result of the eight-fold classification - some researchers put these three types under the main heading of prepositions because they do not have a meaning on their own like prepositions and do not have a specific dictionary meaning. It was determined that they were evaluated. In Oghuz dialects, many commonalities were identified regarding word types, and the main reason for the differences determined in word types was the way the writers handled the subject.

The concept of noun, which is distinguished from other word types by the plural, possessive and case suffixes it takes, is lexicographically defined as the name of everything that

exists in the world; It is also a linguistic category when defined as the common name of a noun, pronoun, adjective and adverb.

Some intensifying prepositions used in Oghuz dialects are made with the same words (a / e; -a / -e; be; Maybe, da/de; gel/gel de, etc.). In some words, phonological differences are seen (ama in TT and GT, amma in AT, emma in TmT; but in TT and TmT, but in AT; bari in TT, barı in AT; emma in TmTonşuk, yazık, parahatcılık; in GT, at least/bari; in TT, AT and TmT, maybe in GT, beki, bekim; in TT and GT, I don't know; AT, I don't know, in TmT, you know). Some words have dialect-specific uses (TT, in GT I wonder, in AT it turns out; kä in TmT, well done in TT and AT, berekella in TmT; a shame in TT, TmT and GT; yazig in AT, əfsus which appears before us as 'tassuf ki').

REFERENCES

1. Walter Porzyk (1995), p. 73.

2. Walter Porzyk (1995), p. 72.

3. Nevin Selen (1975), p. 20-21.

4. Ozcan Başkan (2003), p. 91-92.

5. Ömer Demircan (1978), Sound Structure of Turkish Turkish-Sounds in Turkish Turkish, TDK Publications, Ankara, p. 32.

6. Muzaffer Tansu (1963), p. 3.

GENERAL ISSUES RELATED TO CASE CATEGORY IN AZERBAIJANI AND OTHER TURKIC LANGUAGES

AZƏRBAYCAN VƏ DİGƏR TÜRK DİLLƏRİNDƏ HAL KATEQORİYASINA AİD ÜMUMİ MƏSƏLƏLƏR

YEGANƏ QÜRBƏT QIZI QƏHRƏMANOVA

Azərbaycan Dövlət Pedaqoji Universiteti 0000-0003-3730-7674

Summary

The case category is an important link of the language system as a category that has a strict system in the grammatical structure of languages, manifests itself according to the internal capabilities of each language and serves the correct connection of words and word combinations in the speech process. This category, which exists in most of the world's languages, differs in each language with its own elements, morphological-syntactic signs and indicators. Just as the morphological indicators of cases in different languages are different, the number also differs from each other. "There are languages in the world that started from languages without case categories (Persian, Tajik, Chinese) and have more than 40 cases or are noted to have more than 40 cases. .

In the Azerbaijani language, as well as in all other Turkic languages, the case category has a stable and formed system, and although it is mostly common, it differs to a certain extent in terms of the multivariation of its morphological features and the number of cases. It has not yet been possible to determine the exact date of the emergence of the case category in Turkic languages. Because in the oldest available written sources, the case category is already fully formed and stabilized. Therefore, it is difficult to think about when this category was created in Turkic languages. Nevertheless, the existence of the perfect case system of the noun in the Orkhon-Yenisei inscriptions, which are the oldest written monuments of Turkic languages, allows us to say that the case category in Turkic languages was formed in the inaccessible depths of history.

Keywords: case category, case, Turkic languages, Azerbaijani language, noun

Giriş

Dünya dillərində bir neçə tip hallanma formasının mövcud olmasına baxmayaraq, türk dilləri üçün tarixən bir tip hallanma xarakterikdir. Müqayisə üçün deyək ki, türk dillərində rus dilində olan birinci, ikinci və üçüncü, yaxud alman dilində olan qüvvətli, zəif və qarışıq hallanma mövcud deyildir.

Türk dillərində hal kateqoriyasının tarixini araşdırdıqda bu kateqoriyanın şumer dilinin hal sistemi ilə uyğunluğu ortaya çıxır. Orxon-Yenisey abidələrində ismin doqquz halı olmuş, doqqunzuncu hal alətlik-birgəlik halı adlanmışdır. Həmin hala uyğur yazılı abidələrində də rast gəlinir. Müasir dövrdə qazax, qaraçay-balkar, karaim, xakas, şor, çuvaş, yakut dillərində mövcüd olan birgəlik hal Azərbaycan dilinin 1939-cu ilə qədərki qrammatika kitablarında yeddinci hal kimi mövcud olsa da, sonradan dərsliklərdən çıxarılmış, yalnız altı hal saxlanılmışdır.

Türk dillərində hal kateqoriyası tarixən tam sabitləşdiyindən müasir dövrdə daha çox halların sayı və şəkilçilərin variantlılığı baxımından bir-birindən fərqlənir. Belə ki, Azərbaycan türk, tatar, qırğız, altay, noqay, kumuk, özbək dillərində isimlərin altı, karaim, qaraçay-balkar, sarı uyğur, tuva, qazax dillərində yeddi, xakas dilində səkkiz halı müəyyən edilir.

Türkologiyada, Eləcə Də Azərbaycan Dilçiliyində Hal Kateqoriyasına Münasibət

Türkologiyada, eləcə də Azərbaycan dilçiliyində hal kateqoriyası və bu kateqoriyaya aid morfoloji əlamətlərin tədqiqi daim diqqət mərkəzində olmuş, indiyədək bu sahədə xeyli araşdırma və tədqiqatlar aparılsa da, hələ də ayrı-ayrı halların funksional-semantik xüsusiyyətləri, müxtəlif halları əks etdirən morfoloji əlamətlər və onların mənşəyi, tarixi hal əvəzlənmələri kimi məsələlərlə bağlı həll olunmamış çoxsaylı problemlər qalmaqdadır. Uzun tarixi inkişaf prosesində fərqli coğrafi mövqelərə və tarixi şəraitlərə mənsub olmasına baxmayaraq, qrammatik quruluşunun əsas xüsusiyyətlərini özündə ehtiva edib qoruyan turk dillərinin tarixi və dialekt-şivə materialları sübut edir ki, hal kateqoriyası qədim dövrlərdən günümüzə kimi zəngin tarixi inkişaf yolu keçmişdir. Azərbaycan ərazisində tarixən məskun olan türk etnosunun qədim tarixi elementləri öz dilində qoruyub saxlaması, hətta ədəbi dildə qorunmayan dil faktlarının dialektlərdə özünü əks etdirməsi dilimizin qədim tarixi qatlarına dair lazımı faktları araşdırmağa da imkan yaradır. Son araşdırmalar göstərdi ki, türk etnosları Azərbaycan ərazisinin ən qədim və ilkin sakinləridir və bu ərazidə məskunlaşan türk tayfaları tarixən formalaşdırdıqları Azərbaycan ədəbi dilini inkişaf etdirdikcə dilimizin qrammatik quruluşu, əsasən, sabit qaldığından yalnız müəyyən dil faktları ədəbiləşə bilməmiş, ya da ədəbilik səciyəsini itirərək dialekt-şivə elementinə çevrilmişdir. Bu xüsusiyyət hal kateqoriyasında da özünü göstərmiş, "bu kateqoriyanın formal əlamətlərində bəzi cüzi fərqlər yaransa da, onlar, əsasən, bütün dövrlərdə mühafizə olunub qalmışdır" [15, s. 40] . Tədqiqatlar göstərir ki, "Söz birləşmələri və cümlə daxilindəki sözlər arasında əlaqə yaradan, onları qrammatik cəhətdən bir birinə bağlayan hal şəkilçiləri qədim türk yazılı abidələrində də eyni funksiyanı yerinə yetirmişdir. Lakin ismin halları say etibarı ilə, hal şəkilçiləri isə fonetik tərkibcə müasir hal şəkilçilərindən fərqlənmişdir" [11, s. 91] .

Azərbaycan dilində, eləcə də bütün digər türk dillərində hal kateqoriyası sabit və formalaşmış sistemə malik olub, əsasən ümumilik təşkil etsə də, morfoloji əlamətlərinin çoxvariantlılığı və halların sayı baxımından müəyyən dərəcədə fərqlənir. Türk dillərində hal kateqoriyasının yaranma tarixini dəqiq müəyyənləşdirmək indiyədək mümkün olmamışdır. Çünki əldə olan ən qədim yazılı mənbələrdə hal kateqoriyası artıq tamamilə formalaşmış və sabitləşmiş şəkildə özünü göstərir. Ona görə də "Bu kateqoriyanın türk dillərində nə vaxt yaarandığı haqqında indi fikir yürütmək mümkün deyildir. Lakin türk dillərinin ən qədim yazılı abidələri olan göytürk (Orxon-Yenisey) kitabələrində ismin mükəmməl hal sisteminin mövcud olması belə bir fikir söyləməyə imkan verir ki, türk dillərində hal kateqoriyası tarixin əlçatmaz ənginliklərində meydana gəlmişdir".[8, s.30-31] Türk hal sisteminin sabitliyi öz-özlüyündə onun qrammatik quruluşunun sabitliyini göstərən fakt olmaqla yanaşı, həm də bu dillərin qədimliyinin göstəricisidir. "İl xaqanın türk dövlətini yaratmasından, türk yazısının meydana gəlməsindən təxminən 1500 il keçir. Bu dövr ərzində bəzi dillərdə (məsələn, ən çox araşdırılmış hind-Avropa dillərində) hal sistemi nəhəng dəyişikliklərə uğramış, onlardan bəzilərində isə hətta sistem dağılmış, kateqoriya itmişdir. Türk dillərində isə hal kateqoriyası bu böyük tarixi dövr ərzində, demək olar ki, dəyişməz qalmışdır." [8, s 31] . Ə.Şükürlünün də məsələyə münasibəti eyni yöndədir. (19. s.187)

Deməli, həmin dövrə qədər türk dillərində hal kateqoriyası artıq sabitləşmiş, öz morfoloji-sintaktik əlamətlərini tamamilə formalaşdırmışdır. Daha maraqlı fakt ondan ibarətdir ki, son araşdırmalar türk dillərinin yarandığı ən qədim dövrlərdə bu dilin hal sisteminin indikindən fərqləndiyini, ikiqat hallanma sisteminə malik olduğunu göstərir. Əgər Orxon-Yenisey

abidələrində türk hal sistemi, yuxarıda da qeyd etdiyimiz kimi, tam formalaşmış, bu günə qədər də öz sabitliyini qorumuş vəziyyətdədirsə, demək, türk dillərinin ilkin hal sistemi eramızdan çox-çox əvvəlki mərhələdə meydana çıxmış, uzun əsrlər boyunca bu dillərin öz morfoloji quruluşunu aqlütinativliyə doğru inkişaf etdirməsi prosesində tədricən təkmilləşərək abidələrdə özünü göstərən tam formalaşmış şəklə düşə bilmişdir.

İndiyədək dilçilik ədəbiyyatında hal kateqoriyasına müxtəlif təriflər verilmişdir. Bu təriflərin hamısı hallanmanın əsas mahiyyətinin izahına yönəlsə də, hələ də bu istiqamətdə tam dolğün və dəqiq tərif yoxdur. Hələ "1934-cü ildə dosent İ.Həsənov və A.Şərifov tərəfindən yazılan "Qramer" dərsliyində "İsmin halları" xüsusi mövzu şəklində verilmiş və qeyd olunmuşdur ki, "İsimlər cümlədə mübtəda olduqları zaman şəkilçisiz işləndikləri halda, tamamlıq olduqları zaman şəkilçi qəbul edirlər. Buna ismin hallanması deyilir." [20, s 97] Ə.Dəmirçizadə və D.Quliyev tərəfindən 1938-ci ildə yazılan "Qrammatika" dərsliyində isə hal şəkilçiləri və hallanmaya belə tərif verilmişdir: "İsimlər məna və formaca dəyişilir. Haman dəyişməyə ismin hallanması deyilir. İsimlərin cümlədə müəyyən funksiyalar görməsi və məna cəhətdən dəyişməsi üçün qəbul etdikləri şəkilçilərə hallanma şəkilçiləri deyilir." [6, s.49]

Azərbaycan Elmlər Akademiyasının 1951-ci ildə nəşr etdirdiyi "Azərbaycan dilinin qrammatikası" (I hissə) kitabında hal kateqoriyası ismi feildən ayırmaq üçün əsas vasitə hesab edilir, hal və hallanma anlayışlarına ayrılıqda tərif verilir: "İsmin müxtəlif sözlərlə sintaktik əlaqəyə girib formalaşmasına hal deyilir. İsmin sözdəyişdirici şəkilçilər vasitəsilə hal formalarına düşməsinə ismin hallanması deyilir". [2, s. 106] AMEA Nəsimi adına Dilçilik İnstitutunun "Müasir Azərbaycan dili" kitabında isə hal və hallanma anlayışları ayrılmamış, hallanmanın tərifi aşağıdakı kimi göstərilmişdir: "Söz birləşməsi və cümlə daxilində isimlərin feil, qoşma və bir sıra adların tələbinə görə müxtəlif formalara düşməsinə ismin hallanması deyilir" [16, s.48-49]

Göründüyü kimi, bu təriflərin hər ikisində hallanmanın həm morfoloji, həm də sintaktik xarakteri nəzərə alınmış, söz birləşməsi və cümlə daxilində əlaqələnmə yaratmağa xidmət etməsi diqqət mərkəzində saxlanmışdır.

M.İ.Adilov, Z.N.Verdiyeva, F.M.Ağayeva tərəfindən tərtib olunmuş "İzahlı dilçilik terminləri" lüğətində hal və hallanma anlayışları belə izah olunmuşdur:

"Hal - 1. İsmə məxsus qrammatik kateqoriyalardan biri olub, əks etdirdiyi əşyanın başqa əşyalar, hərəkətlər, əlamətlərlə əlaqəsini bildirir. 2. İsmin formalarından biri olub, həmin ismin söz birləşməsi və cümlə daxilindəki digər sözlərlə əlaqəsini əks etdirir.

Hallanma – İdarə edən sözün tələbinə görə tabe olan sözün müxtəlif hal şəkilçiləri qəbul etməsi." [1, s. 325-326]

Türkologiyada və Azərbaycan dilçiliyində N.K.Dmitriyevin (7), M.Hüseynzadənin (9), N.Məmmədovun (13), Y.Seyidovun (18) da hal kateqoriyası barədə araşdırmalarında diqqəti cəlb edən məqamlar vardır.

Göründüyü kimi, lüğətdə hal kareqoriyasının morfoloji və sintaktik xarakteri ayrı-ayrı bəndlər şəklində göstərilmiş, hallanma idarə olunan tərəfin hal şəkilçiləri qəbul edib dəyişməsi kimi izah olunmuşdur. B.Xəlilovun "Müasir Azərbaycan dilinin morfologiyası" (I hissə) dərsliyində də hal kateqoriyası morfoloji-sintaktik kateqoriya kimi təqdim olunmuş, bu kateqoriyadan ümümi qrammatik kateqoriya kimi bəhs olunaraq ona belə tərif verilmişdir: "Hallana bilən sözlərin söz birləşməsi və cümlə daxilindəki feillərin, qoşmaların, adların tələbinə görə bir formadan başqa bir formaya düşməsinə hallanma deyilir". [10, s.153] C.Cəfərov və N.Abdullayevin 2004-cü ildə çap etdirdikləri "Müasir Azərbaycan dilinin morfologiyası" dərsliyində hallanma isimlərin əsas morfoloji əlamətlərindən biri kimi təqdim olunmuş və

göstərilmişdir ki, "İsimlərin isim, sifət, say, əvəzlik, feil və zərflərin tələbinə görə dəyişməsinə hallanma deyilir." [4, s. 24] . Q.Kazımov cümlə daxlində maddi varlığın əsasını təşkil edən əşya və onun hərəkəti arasında əlaqələrin yaranmasında hal dəyişmələrinin xüsusi rolu olduğunu göstərərək yazır ki, "İsimlər müxtəlif hal şəkilçiləri qəbul edərək dəyişir. İsmin hal dəyişmələrinin cəminə hallanma deyilir." [12, s. 61]

Yuxarıda göstərilənlər dilçilik ədəbiyyatında hallanmaya verilən tərifərin yalnız bir qismini əhatə etsə də, əksər tərifərdə bir-birinə yaxın və ya eyni məqamların əks etdirildiyini nəzərə alıb hamısını vermədik. Bu tərifləri diqqətlə nəzərdən keçirdikdə belə bir cəhət aydın görünür ki, onlarda hallanmaya aid əsas əlamətlər öz ifadəsini tapsa da, demək olar ki, hamısında müəyyən qeyri-dəqiqlik vardır. Elmlər Akademiyasının hər iki nəşrində, eləcə də C.Cəfərovla N.Abdullayevin və Q.Kazımovun dərsliyində verilən tərifərin hər birində hallanma yalnız isimlərin dəyişmə forması kimi təqdim olunmuş, digər söz qruplarının hallanma imkanları nəzərə alınmamışdır. Doğrudur, hal kateqoriyası ismi digər nitq hissələrindən fərqlərindən xüsusi əlamətlərdən biri və ya birincisidir, lakin dilimizdə isimləşmiş sözlərin hallanma imkanlarını nəzərdən qaçırmaq da mümkün deyildir. Burada S.Rüstəmovanın "Qrammatik kateqoriyaların dəqiq tərifi, sərhədləri haqqında nəinki Azərbaycan dilçiliyində, habelə ümumi və rus dilçiliyində hamının qəbul edəcəyi bir fikir yoxdur" [17, s.109] mülahizəsini xatırlatmaq yerinə düşsə də, zənnimizcə, tədqiqatçıların bu istiqamətdə araşdırmalarını və ayrı-ayrı qrammatik anlayış və kateqoriyalara daha dolğun tərifər vermək, qrammatik kateqoriyaların sərhədlərini daha düzgün müəyyənləşdirmək uğrunda səylərini də diqqətəlayiq hesab etmək lazımdır. Bu baxımdan yuxarida göstərilən tərifər arasında B.Xəlilovun təqdim etdiyi tərif daha məqbul olsa da, burada da "hallana bilən sözlər" ifadəsi dilçilik termini kimi bir qədər aydın olmadığından hallanmaya belə bir tərif verməyi məqsədəuyğun hesab edirik:

İsim və isimləşmiş sözlərin söz birləşməsi və cümlə daxilində idarəedici sözün tələbinə görə sözdəyişdirici şəkilçilər qəbul edib dəyişməsinə hallanma deyilir.

Hal kateqoriyası dilimizdə tarixən maraqlı inkişaf yolu keçmiş, öz qədim xüsusiyyətlərini saxlamaqla yanaşı, daha da zənginləşmişdir. Tədqiqatlar göstərir ki, "İlk baxışda ümumtürk formatları ilə aydın seçilən hal şəkilçiləri əslində çox mürəkkəb morfoloji xüsusiyyətlərə malikdir. Belə mürəkkəb vəziyyətin yaranması hal şəkilçilərinin qrammatik semantikası və eyni morfemin müxtəlif funksiya daşıması ilə bağlıdır" [5, s. 211] .

Hal kateqoriyası haqqında danışarkən tarixi və müasir dilimizdə halların sayı, hər bir halın özünəməxsus qrammatik göstəriciləri, halların bir-biri ilə genetik bağlılığı, tarixi hal əvəzlənmələri kimi məsələlər diqqəti cəlb edir. "Bəllidir ki, hal şəkilçiləri sözlər arasında qrammatik əlaqə yaradır: yiyəlik hal adlar arasında, digər hallar isə adlarla feillər arasında idarə əlaqəsi yaradır. Bu da bəllidir ki, feillərin idarə etmək xüsusiyyəti zaman-zaman cilalanmış, təsirli və təsirsiz növlər üzrə diferensiallaşmışdır. Bu inkişaf prosesi adla feil arasında əlaqə yaradan hal şəkilçilərində dərin iz buraxmışdır" [5, s. 212] . Tarixən ismin hallarının bir-biri ilə, eləcə də mənsubiyyət kateqoriyası ilə bağlılığı bu kateqoriyaların mənşəyinin, müxtəlif hallar arasında qarşılıqlı əlaqənin qədim tarixə malik olmasının göstəricisidir. İsmin ayrı-ayrı hallarında özünü göstərən bu qarşılıqlı əlaqə və mənşə bağlılığı bir çox hallarda o dərəcədə güclüdür ki, tarixən bu bağlılıq ismin hallarının bir-birini əvəz etməsinə səbəb olmuşdur. "Müxtəlif hallar arasındakı dialektik əlaqə qədimə getdikcə özünü daha çox büruzə verir" [5, s. 212] . Orxon-Yenisey abidələrinin dili üzərində apardığı araşdırmalar nəticəsində ismin hallarının funksiyaca bir-birini əvəzləməsini qədim türk yazılı abidələrinin qanunauyğun xüsusiyyəti hesab edən Y.Məmmədov bu faktların geniş yayıldığına diqqəti cəlb edərək çoxsaylı nümunələr göstərir. [14, s.34]

Azərbaycan dilinə aid qədim yazılı mənbələri və klassiklərimizin yaradıcılığını araşdırdıqda açıq-aydın görünür ki, dilimizin tarixən sabitləşmiş hal formaları Orxon-Yenisey abidələri ilə, əsasən, uyğunluq təşkil edir. "Söz birləşmələri və cümlə daxilindəki sözlər arasında əlaqə yaradan, onları qrammatik cəhətdən bir-birinə bağlayan hal şəkilçiləri qədim türk yazılı abidələrində də eyni funksiyanı yerinə yetirmişdir. Lakin ismin halları say etibarilə, hal şəkilçiləri isə fonetik tərkibcə müasir hal şəkilçilərindən fərqlənmişdir " [11, s. 91] . Hal şəkilçiləri tarixən fikrin ifadəsində sözlərin düzgün əlaqələnməsi baxımından əvəzsiz rol oynamaqla yanaşı, dil vahidlərinin milliləşməsində də xüsusi rol oynamışdır". Bir sıra morfoloji xüsusiyyətləri ilə klassik üslubun şeir qolunda poetik səciyyə kəsb edən ismin hal şəkilçiləri də ədəbi dilimizin silsiləli izafət tərkiblərindən xilas olmağına gətirib çıxarmışdır" [3, s. 128] .

Nəticə

Hal kateqoriyası ayrı-ayrı dünya dillərin qrammatik quruluşunda ciddi sistemə malik olan, hər bir dilin daxili imkanlarına uyğun təzahür edən və nitq prosesində söz və söz birləşmələrinin düzgün əlaqələnməsinə xidmət göstərən kateqoriya kimi dil sistemində mühüm rola malikdir. Dünya dillərinin əksəriyyətində mövcud olan bu kateqoriya hər bir dildə özünəməxsus elementləri, morfoloji-sintaktik əlamətləri və göstəriciləri ilə fərqlənir. Müxtəlif dillərdə halların morfoloji göstəriciləri fərqli olduğu kimi, həmin dillərdə halların sayı da eyni deyil.

Azərbaycan dilində, eləcə də bütün digər türk dillərində hal kateqoriyası sabit və formalaşmış sistemə malik olub, əsasən ümumilik təşkil etsə də, əsasən, morfoloji əlamətlərinin çoxvariantlılığı və halların sayı baxımından müəyyən dərəcədə fərqlənir. Bu kateqoriya Azərbaycan dilində tarixən maraqlı inkişaf yolu keçmiş, öz qədim xüsusiyyətlərini saxlamaqla yanaşı, daha da zənginləşmişdir. Bu dildə bəhs edilən kateqoriya ümumtürk hal sisteminə əsaslansa da, tarixən yeni xüsusiyyətlər kəsb etmiş, hal şəkilçiləri çox mürəkkəb morfoloji xüsusiyyətlər qazanmışdır. Belə mürəkkəb vəziyyətin yaranması hal şəkilçilərinin qrammatik semantikası və eyni morfemin müxtəlif funksiya daşıması ilə bağlı ortaya çıxmışdır.

İstifadə olunmuş ədəbiyyat

1. Adilov M, Verdiyeva Z., Ağayeva F. (1989). İzahlı dilçilik terminləri.Bakı, Maarif. 358 səh.
2. Azərbaycan dilinin qrammatikası (1951). Az.SSR EA-nın nəşriyyatı. I hissə. Bakı, 340 səh.
3. Azərbaycan ədəbi dilinin tarixi (2007). AMEA Nəsimi adına Dilçilik İnstitutu. II cild. Bakı, "Şərq- Qərb", 327 səh.
4. Cəfərov C., Abdullayev N. (2004). Müasir Azərbaycan dilinin morfologiyası. Bakı, 176 səh.
5. Cəlilov F. (1988). Azərbaycan dilinin morfolonogiyası. Bakı, "Maarif" nəşriyyatı, 285 səh.
6. Dəmirçizadə Ə., Quliyev D. (1938).Qrammatika. I hissə natamam və orta məktəb üçün dərslik. Bakı, Azərnəşr.225 səh.
7. Дмитриев N.K. (1962). Строй тюркский языков. Moskva, 609 c.
8. Əsədova A.(2009) . Azərbaycan dilində qrammatik hallar. Bakı, Elm və təhsil, 132 səh.
9. Hüseynzadə M. (1973).. Müasir Azərbaycan dili. Bakı, "Maarif", 358 səh.
10. Xəlilov B. (200). Müasir Azərbaycan dilinin morfologiyası. I hissə. Bakı"Elm" 280 səh.
11. Xudiyev N. (2015). Qədim türk yazılı abidələrinin dili. Bakı,
12. Kazımov K. (2010). Müasir Azərbaycan dilinin morfologiyası. Bakı, "Elm və təhsil", 400 səh
13. Məmmədov N. (1971). Azərbaycan dilçiliyinin nəzəri əsasları..Bakı, Maarif, 267 səh.

14. Məmmədov Y. (1979). Orxon-Yenisey abidələrində adlar.APİ-nin nəşri.B.. I hissə, 112 səh.
15. Mirzəzadə H. (1990). Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, 376 səh.
16. Müasir Azərbaycan dili..(1980). Bakı, AMEA. 510 səh.
17. Rüstəmova R. (2004). Azərbaycan dilçiliyində qrammatika konsepsiyasının inkişaf tarixi. Bakı, Elm, 172 səh.
18. Seyidov Y. (2011). Azərbaycan dilinin qrammatikası (morfologiya) . Bakı, 396 səh.
19. Şükürlü Ə. (1993). Qədim türk yazılı abidələrinin dili. Bakı, "Maarif", 336 səh.
20. Zeynal S (2017). Müasir Azərbaycan dili: morfologiya – isim. Bakı, 138 səh.

HEYDAR ALIYEV'S VOCABULARY
HEYDƏR ƏLİYEV VƏ ONUN SÖZ VARLIĞI

SAHILƏ İBRAHIMOVA

Azərbaycan, Bakı Azərbaycan Dövlət Pedaqoji Universiteti,
Müasir Azərbaycan dili kafedrasının baş müəllimi, fil.ü.f.dok
https://orcid.org/my-orcid?orcid=0009-0008-6960-524X

Xülasə

Anadan olmasını 101-ci ildönümündə andığımız Azərbaycanın Ulu Öndəri Heydər Əliyevin çıxışları və bəyənatlarının, yazılarının, əsərlərinin lüğət tərkibini müəyyən etmək üçün apardığımız işlərdə onun dilə hakimiyyətini, dili istifadə bacarığını, sözlərin intensivliyini, seçdiyi kolokasiya strukturları müəyyən etmək və beləcə onun dil ustalığını, ədəbi-bədii dilin üzə çıxarmağı məqsəd qoymuşuq.Heydər Əliyevin elm və təhsillə bağlı bəyənatlarında və çıxışlarında istifadə etdiyi söz varlığı xüsusi maraq doğurur. Azərbaycanın ulu öndəri, türk dünyasının müdrik şəxsiyyəti, böyük dövlət xadimi Heydər Əliyev nitqlərində, yazılarında və kitablarında istifadə etdiyi geniş söz ehtiyatı, incə semantik detallarla toxunmuş ifadələri, təsirli sintaksisi ilə nümunəvi natiqlik sənəti ustasıdır. Azərbaycan dilinin inkişafı, yayılması və öz mənliyini qazanması üçün dövlət səviyyəsində çox mühüm işlər aparan, qərarların və qanunların qəbul edilməsinə şərait yaradan Heydər Əliyev bu dil siyasəti ilə bərabər çıxışlarında, əsərlərində hər kəsə örnək olacaq dildən istifadə etməklə insanın zəngin söz ethiyatına malik olması lazım olduğunu öz simasında nümayiş etdirmişdir. Heydər Əliyevin nitq və əsərlərində lüğət tərkibinə bu aspektdən nəzər salındıqda onun ifadə qabiliyyətinə, dildən təsirli istifadəsinə görə son dərəcə əhatəli, incə semantik təfərrüatları ehtiva edən zəngin lüğətə malik olduğu görünür. Ümummillli Lider Heydər Əliyev Elm və təhsillə bağlı nitq, bəyanat və yazılarının lüğət tərkibinimüəyyən etmək üçün yaradılmış korpus kimi təqdim edilmiş lüğətlərdə elmi cəhətdən tədqiqi yolları haqqında məlumat verilmişdir.

Açar sözlər: Heydər Əliyev, lüğət, semantika, natiqlik sənəti. Dil.

Summary

Key words: Heydar Aliyev, vocabulary, semantics, public speaking, language

In the works we conducted to determine the vocabulary of Heydar Aliyev, the Great Leader of Azerbaijan, who was commemorated on the 101st anniversary of his birth, his speech, writings, and works, we determined his command of the language, the ability to use the language, the intensity of the words, the collocation structures he chose, and thus his mastery of the language, literary we have set the goal of revealing the artistic language. The vocabulary used by Heydar Aliyev in his opinions and speeches about science and education is of particular interest. The great leader of Azerbaijan, the wise personality of the Turkic world, the great statesman Heydar Aliyev is an exemplary orator with his wide vocabulary, expressions woven with fine semantic details, effective syntax, which he uses in his speeches, writings and books. Heydar Aliyev, who carried out very important work at the state level for the development, spread and gaining of his identity of the Azerbaijani language, who created conditions for the adoption of decisions and laws, along with this language policy, emphasized that a person should have a rich

vocabulary by using a language that will be an example to everyone in his speeches and works. demonstrated in his face. Looking at the vocabulary composition of Heydar Aliyev's speeches and works from this aspect, it is seen that he has a rich vocabulary that contains extremely comprehensive and fine semantic details due to his expressive ability and effective use of language. National leader Heydar Aliyev's speech statements and writings related to science and education were presented as a corpus created to determine the dictionary composition, and information was provided on the ways of scientific research of this dictionary.

By working on the dictionary of all the heritage works of HeydarAliyev's, the great leader of Azerbaijan, the wise personality of the Turkic world, we have concretely revealed the place names and special names mentioned in his speeches, which words are in his world, which words he uses more during these years, which words he prefers to use with which words. his removal proves once again what a speaker he is.

Giriş

Azərbaycanın Ulu Öndəri, türk dünyasınnın müdrik şəxsiyyəti Heydər Əliyev mirası əsərlərinin hamısının lüğəti üzərində işləməklə onun dünyasında hansı sözlər olduğunun, bu illər ərzində hansı sözləri daha çox istifadə etdiyini, hansı sözləri hansı sözlərlə işlətməyə üstünlük veriyini çıxışlarında bəhs edilən yer adlarını, xüsusi adların konkret bir şəkildə ortaya çıxarılması onun necə bir natiq olduğunu bir daha sübut edir.

Ölkəsinin başı üzərində qara buludların dolaşdığı, xalqının ölüm-qalım sualıyla qarşılaşdığı, torpaqlarının düşmən tapdağı altında qaldığı bir zamanda bir Simurq quşu kimi qanadlarını açaraq Vətəninin səmasında görünən Heydər Əliyev, ona doğru uzanan milyonlarla Azərbaycanlının ümidsiz əllərini öz qüdrətli əlləriylə tutdu, onu çağıran, onu səsləyən milyonlarla azərbaycanlının həyəcanlı səsinə öz güclü səsiylə səs verdi. Qarşısındakı bütün sədləri, maneələri öz dərin zəkasıyla, iti ağlıyla, ancaq nadir şəxsiyyətlərə xas olan parlaq istedadıyla, ən əsası isə xalqına və Vətəninə bəslədiyi tükənməz sevgisiylə, doğulub böyüdüyü torpağa sədaqəti və bağlılığıyla aşaraq, müstəqil Azərbaycanı yaratdı.Dahi azərbaycançılıq ideoloqu Heydər Əliyev deyir: “Hər bir xalq, millət üçün milli azadlıqdan,müstəqillikdən qiymətli heç bir şey yoxdur” [1;26].

Bu günlərdə onun dünyayagəlişinin 101-ci ildönümünü böyük bir məhəbbət və fəxarətlə qeyd edirik. Onu sadəcə doğum və ölüm günündə deyil, hər an, hər saat minnətdarlıqla anırıq. Və təbii ki, dünya durduqca, müstəqil Azərbaycanımız durduqca, qədirbilən xalqımız durduqca onu heç unutmayacaq, onun xatirəsinin işığına toplaşacaq, ona minnətdar olacağıq. Onu bizdən ayıran o məşum gecədən, fiziki yoxluğundan keçən illər ərzində haqqında yüzlərlə şeir yazılıb, ona poemalar həsr edilib, onu tərənnüm edən mahnılar bəstələnib, haqqında filmlər çəkilib, həyatının müxtəlif anlarını əks etdirən lentlər nümayiş olunub, elmi konfranslar, seminarlar keçirilib. Onunla sağlığında tanış olmaq, görüşmək, birlikdə işləmək səadətinə qovuşanlar, xatirəsinə həsr edilən tədbirlərdə xatirələrini bölüşür, onu şəxsən tanımaq nəsibi olmayanlar isə onun haqqında oxuduqlarını, eşitdiklərini danışırlar.

Ulu Öndərin vətən linqvomədəni məzmunun təhlili göstərdi ki, bu anlayışın koqnitiv-sistemdayağı azərbaycançılıqdır. Hansı etnik kökə mənsub olmasına baxmayaraq, o taylı-bu taylı azər-baycanlıları tək Vətən – dövlət, tək bayraq, tək millət – azərbaycançılıq ideologiyası birləşdirir.XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyəti,şübhəsizki,müstəqilAzərbaycandövlətininyaradılmasıdır.Özmüstəqilliyinibərpaedən Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməlini qoymuşdur... Azərbaycanındövlət müstəqilliyi bütün Azərbaycan xalqının səvətidir [2;286].

Əslində düşünürəm ki, onun şəxsiyyətini, kimliyini, böyüklüyünü, Vətəni, xalqı üçün etdiklərini tam olaraq anlada biləcək ən mükəmməl əsər hələ yazılmayıb, ən dəyərli söz hələ deyilməyib. Onun şəxsiyyətinin ölçüsü, bizə göründüyündən, bizim onun üçün etmək istədiklərimizdən daha böyükdür və heç şübhəsiz ki, illər keçdikcə biz onun nəhəngliyini daha dərindən anlayacağıq. Əminik ki, bu ölkə Heydər Əliyevin onu bizə əmanət etdiyi kimi qalacaqdır - bütöv və sabit, demokratik və sivil, dünya birliyində layiqli yer tutmuş bir ölkə kimi. Əlbəttə ki, bu gün möhtərəm Prezidentimiz İlham Əliyevlə birlikdə gələcəyə doğru getdiyimiz yolda Azərbaycan daha güclü olacaqdır. Buna inamımız şəksizdir. Çünki bu gələcəyin müqəddəs təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulub və hər bir azərbaycanlının Prezidenti olan, xalqına yaxşı Prezident olmağı bacaran ölkə Prezidenti İlham Əliyev bu müqəddəs yolu öz nurlu əməlləri ilə işıqlandırır.

Ulu öndərin özünün də dediyi kimi, dostu və qardaşı Süleyman Dəmirəl yazır ki, “Mən Heydər Əliyevlə Naxçıvanda olarkan ondan Azərbaycana niyə gəldiyini soruşdum. O dedi: ”Mən doğulduğum yerdə xalqıma xidmət etmək istədim. Başqa yerdə bunu edə bilməzdim.”

Bəli, o xalqına xidmət etmək üçün, ömrünün qalan hissəsini də xalqına bağışladı. O deyirdi ki, mən fəxr edirəm ki, azərbaycanlıyam. Ən böyük azərbaycanlı olan Heydər Əliyev, bizə müstəqil Azərbaycanı bəxş etdi. Bizə azərbaycançılıq ideyasını hədiyyə etdi. O, son nəfəsinə qədər nə etdisə, ölkəsi üçün, Vətəni üçün, xalqı üçün etdi. Ulu Öndər onu da vurğulayır ki,müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanması, daimi, əbədi olması bundan daçətindir[3;34].

Heydər Əliyevin dövlət quruculuğunda əhəmiyyətli bir yerdə duran dil siyasəti və onu inkişaf etdirməyin yolları haqqında söylədiyi fikirlər bizə Azərbaycan dilini xalqın mənəvi varlığı kimi sevməyi, dilin zəngin söz xəzinəsindən bacarıqla istifadə etməyi, dilin qayğısına qalmağı, onun saflığını qorumağı, onunla fəxr etməyi, onu dərindən bilməyi, mükəmməl mənimsəməyi, ana dilimizin gözəlliyini duymağı, bu gözəlliyi hər zaman hər yerdə təbliğ etməyi, bu dildə düzgün danışmaqla hamıya nümunə olmağı öyrətdi. Göründüyü kimi, Heydər Əliyev, qurub-yaratdığı Azərbaycanda xalqın mədəni, intellektual, milli-mənəvi inkişafının təməllərindən biri kimi milli dil siyasətinə böyük əhəmiyyət verirdi, bu yolda bir əsgər kimi mübarizə aparırdı. Ulu Öndərin 18 iyun 2001-ci il tarixində imzaladığı “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” fərman da həmin mübarizənin davamı idi.

Bundan başqa, dövlət dilinin tətbiqi işinin əməli şəkildə həyata keçirilməsini təmin etməkməqsədilə 2002-ci ilin 30 sentyabrında Prezident Heydər Əliyevin təsdiq etdiyi “AzərbaycanRespublikasında Dövlət dili haqqında” Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmiş,həmçinin2003-cüil2yanvarında“AzərbaycanRespublikasındaDövlətdilihaqqında”AzərbaycanRespublikasının Qanununun tətbiqedilməsibarədə”Fərmanverilmişdir.

“Azərbaycan Respublikasında Dövlət dili haqqında” Azərbaycan Respublikasının QanunuHeydər Əliyevin 1969-cu ildən başlayaraq açıq və örtülü şəkildə həyata keçirdiyi milli siyasətintərkib hissəsi, Azərbaycanın 1991-ci ildə elan edilmiş, real olaraq isə 1993-cü ildən başlamışmüstəqilliyininbəhrəsidir.

Onun bu mövzudakı çoxsaylı fikirlərindən birini xatırlayaq: “Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı bir-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, bu həm də azəbaycançılıq məsələsidir.”

H.Əliyevdeyirdi:“Dil,millətfəlsəfiməfhumdur,tarixianlayışdır.İnsanlardünyadamövcud olandan onlar hansısa dillərdə danışıblar. Bir halda ki, insanlar olub, demək, onlarınbir-biri ilə əlaqəsi üçün dil də olubdur. İnsanlar dünyada mövcud olandan müəyyən tayfalar,qruplaryaranıbdır,bundansonraonlargenişlənib,millətşəklinəgəlibçıxıblar.Onagörəhəm millət anlayışı,həm dil anlayışı,yenə deyirəm, fəlsəfi məfhumdur,fəlsəfi, tarixi anla-yışdır. Dialektikanın qanununa görə, bu iki anlayış daim inkişafda, dəyişiklikdə olubdur”[4,457].

Nəticə. Azərbaycanınuluöndəri,türkdünyasınınmüdrikşəxsiyyətiHeydərmirasıəsərlərinin hamısının lüğəti üzərində işləməklə onun dünyasında hansı sözlər olduğunu, bu illərərzində hansı sözləri daha çox istifadə etdiyini, hansı sözləri hansı sözlərlə işlətməyə üstünlükverdiyini,çıxışlarındabəhsedilənyeradlarını,xüsusiadlarınkonkretbirşəkildəortayaçıxar ılmasıkompüter dəstəkli dil araşdırmaları və təbii dil işlənməsi işləri sayəsində mümkün olacaq. Bumövzudafəaliyyətimizvə araşdırmalarımız kompüter dəstəyiilə davamedir.

İstifadə edilmiş ədəbiyyat

1. H.Əliyev.Müdrikfikirlər.IIc.,Bakı,“Çaşıoğlu”,2009,s.26.

2. Müstəqilliyin25iliAzərbaycançılıqideyasıvədilsiyasi.Bakı,“TürkDünyasıİnfo»İBnəşri, 2016,s.286.

3. H.Əliyev.Müdrikfikirlər.Ic.,Bakı,“Çaşıoğlu”,2008,s.34.

4. HeydərƏliyev.Müstəqilliyimizəbədidir,Bakı,Azərnəşr,1997,səh.7.

STUDIES ON SINATQM
SİNATQM HAQQINDA ARAŞDIRMALAR

SAHILƏ İBRAHIMOVA

Azərbaycan, Bakı AzərbaycanDövlətPedaqojiUniversiteti,
MüasirAzərbaycandilikafedrasınınbaşmüəllimi, fil.ü.f.dok
https://orcid.org/my-orcid?orcid=0009-0008-6960-524X

Özət

Sintaqm barəsində ilk tədqiqatlar Cenevrı və Praqa dilçilik məktəblərində işlənmişdir. Cenevrə dilçilərinin fikirlərinə görə sintaqm kateqoriyası dəqiq qrammatik məhfum deyil, sintaqm söz və ya söz birləşməsindəm yarana bilər.

İ.A.Boduen de Kurtene sintaqmı bölünməz sintaqtik vahidlər adlanır və onların bir birindən qrafik intervallarla ayrıldığını qeyd edir. O, sintaqmıhəm söz birləşməsi, həm də cümlənin ayrıca bir üzvü olduğunu deyir. Onun bu fikri müasirsintamqlar nəzəriyyəsi ilə uyğunluq təşkil etmir. Ona görə ki, onun fikrinə əsasən sintaqm vahidin morfoloji elementi olan, söz və ya cümlə kiminisbətən mürəkkəb morfoloji tamı bildirən sözlərdir.

F.Aslanov "Müasir alman və Azərbaycan dillərində sintaqm problemi və onun eksperimental-fonetik tədqiq" adlı tədqiqat işində qeyd edir ki, müasir Azərbaycan dilində hələ də öz həllini tapmamış və fikir ayrılıqlarına səbəb olan problemlərdən biri də canlı ünsiyyət prosesində nitq aktının bölünməsi nəticəsində yaranan sintaqm problemidir. Müəyyən inkişaf tarixinə malik olan sintaqm problemi dilçiliyin yeni sahəsi kimi elmə məlum olduqdan sonra böyük dilçi alimlərinin diqqətini çəkmişdir.

Qəzənfər Kazımovun fikrincə, bəzən söz birləşmələri ilə sintaqmlar qarışdırılır. Dilçilikdə sintaqm analayışı müxtəlif cür izah edilir. Sintaqmın İ.V.Şerba tərəfindən izahı fonetik fonetik sintaqmlara aiddir. Bu təlimə gör, sintaqmlar semantik bütövlüyə malik olan ritmik nitq bölümlərindən ibarət fonetik vahidlərdir.

Sintaqm (yunanca "syntagma" sözündəndir, "birləşmə qurma" mənasını verir). Cümlədə sintaktik əlaqə ilə qurulan və vahid bütövlükdə fəaliyyət göstərən söz birləşmələrindən, söz qruplarından ibarətdir. Sintaqmlar əlavə növünə görə fərqlənir və predikativ sintaqm, atributiv sintaqm, obyektiv sintaqm, relyativ sintaqm kimi növlərə bölünür. Söz birləşmələrindən fərqli olaraq, sintaqmların komponentləri mənasını dəyişmədən başqa sözlərlə əvəz oluna bilər.

Y.Seyidov söz birləşməsini və sintaqmı müqayisə etmişdir. O qeyd edirdi ki, sintaqm məsələsi müstəqil mövzu kimi çox qədimlərə gedib çıxır. Hətta bu barədə nə ümumi dilçilik, nə də ayrı-ayrı dillərin metarialları əsasında müstəqil şəkildə tədqiqat hazırlanmamışdır. Həm Yusif Seyidov, həm də Qəzənfər Kazımov rus dilçisi İ Şerbanın sintaqm haqqında fikirlərini qismən qəbul edir.

Açar sözlər:sinaqm, söz birləşməsi, semantik bütövlük, dil vahidləri.

Abstarct

The first studies on syntagm were developed in the linguistic schools of Geneva and Prague. According to Geneva linguists, the syntagm category is not a precise grammatical unit, but a syntagm can be a word or a word combination.

I.A. Baudouin de Courtenay's syntagm is called indivisible syntactic units and notes that they are separated from each other by graphic intervals. He says that a syntagm is both a word combination and a separate member of a sentence. This idea of his is not compatible with the modern theory of syntagms. Because, according to his opinion, a syntagm is a morphological element of a unit, which means a relatively complex morphological whole such as a word or a sentence.

F. Aslanov in his research work entitled "Problem of syntagm in modern German and Azerbaijani languages and its experimental-phonetic study" notes that one of the problems that has not yet been solved in the modern Azerbaijani language and causes disagreements is the syntagm resulting from the division of the speech act in the process of live communication. is a problem. The syntagm problem, which has a certain history of development, attracted the attention of great linguists after it became known to science as a new field of linguistics.

According to Gazanfar Kazimov, sometimes phrases and syntagms are confused. In linguistics, syntagm analysis is explained in different ways. The explanation of the syntagm by I.V. Sherba refers to phonetic phonetic syntagms. According to this doctrine, syntagms are phonetic units consisting of rhythmic speech segments that have semantic integrity.

Syntagm (from the Greek word "syntagma", meaning "combination"). It consists of word combinations and groups of words that are formed by syntactic connection in a sentence and function as a single whole. Syntagms differ according to the type of attachment and are divided into such types as predicative syntagm, attributive syntagm, objective syntagm, and relative syntagm. Unlike word combinations, the components of phrases can be replaced by other words without changing their meaning.

Y. Seyidov compared word combination and syntagm. He noted that the issue of syntagm as an independent topic goes back to ancient times. Even on this, neither general linguistics nor independent research has been prepared based on the materials of individual languages. Both Yusif Seyidov and Gazanfar Kazimov partially accept the views of the Russian linguist I. Sherba about syntagm.

Key words: synagm, word combination, semantic integrity, language units.

Giriş.

Sonillərdilçilikdənitqproblemlərinəmaraqgetdikcəartmaqdadır. Bu, tamamiləbaşadüşüləndir. Beləki,budilbütünölkəmiqyasındavasitəkodlaşdırmasistemikimideyil,nitq,nionlarınfərdiistifadəsikimiçıxışedir. Bu, hərbirinsanınözünüifadəetməninəsasyolu, onuntəfəkkürününaləti, ünsiyyətvasitəsivədigərinsanlaraeffektivtəsirvasitəsikimiçıxışedir. Dilkodlaşdırmavasitəsininümumiarsenalıdır.Nitqisəsaysız-hesabsızfərditərzlər, buvasitələrinnecəistifadəediləbiləcəyininkonkretvəəyanitəmsilidir.

AkademikL.V.Şçerbanınsözlərinəgörə, nitq "insanfəaliyyəti... ənyaxşılara...fikirvəduyğularınıifadəetmək".ufikironunzehnindəmüəllimiC.A.BaudouindeCourtenaynıntəsiriolmadanyaranmamışdır. hesabedirdiki, dilçilik "bütünrəngarəngliyiiləinsannitqinin" yrənilməsiiləhərtərəfliməşğulolmalıdır[.DilçilərW. vonHumboldt, A.A. Potebnya, İ.A. BaudouindeKurtenevəL.V.Şerbaideyalarınıinkişafetdirməklə,

dilinontolojimahiyyətininonuninsanfəaliyyətininbütünsferalarındafikirvəünsiyyətproseslərinit əminetməkqabiliyyətindəolduğunuiddiaedirlər.

W. von Humboldt iddia edirdi ki, bu, sözlərdən əmələ gələn nitq deyil, nitqdən əmələ gələn sözlərdir, dünya dilçiliyində nitqin dildən üstün olduğunu göstərən ilk şəxs olmuşdur. A.A.Potebnya dil sistemində və nitqdə leksik vahidlərin (sözlərin) mənalarını fərqləndirərək, dil və nitq sferalarını, dil vahidlərini və nitqi praktikada həqiqətən fərqləndirən ilk şəxs olmuşdur.

Nitqə girmək üçün dilin sistem vahidləri, praqmatik amillərlə qarşılıqlı təsir, konkret nitq vəziyyəti ilə onların məna keyfiyyəti dəyişir (ümumi olaraq situasiyaya, kommunikativliyə namizədliyə). Bunun nəticəsində onlar dil statusunu dəyişərək nitqə və konkret, situasiyalı məzmuna malik nitq strukturlarına çevrilirlər.

Ən zəngin nitq təcrübəsinin təhlili əsasında dilçilik nəzəriyyəsinin əsas problemləri ilə bağlı əhəmiyyətli dərəcədə dəyərli məlumatlar toplamış və nitq fəaliyyətinin nəzəriyyəsi və praktikasının bir çox mövzulu suallarına cavab tapmağa kömək etmişdir.

Bununla belə, müasir sintaktik nəzəriyyə çoxlu problem və ziddiyyətlərlə səciyyələnir. Onun bir çox problemləri təbii ki, müzakirə olunur, məsələn, dil sferası və nitq sferası, nitq və onun ilkin vahidi, dil sistemində və söz sferasında söz, söz nəsilində söz, nitq və nitq vahidlərinin vahidləri, namizədlik və ünsiyyət, şifahi və yazılı nitq birləşmələri, metalinguist və nitq yaradan quruluşlar, cümlə üzvlərinin sistemi və onların nitq nəslinin real vahidlərinə münasibəti kimi. nitq nəslində ifadə və onun rolu, cümlənin struktur sxemi və onun nitqin təşkilinə münasibəti və bir çox başqaları.

İbtidai nitq vahidinin tərifində qeyri-müəyyənlik və qeyri-müəyyənlik dilin və nitqin sferaları arasında fərqin olmamasının təbii nəticəsidir. Bu, xüsusilə, leksik vahidlərin və nitq vahidlərinin elementar qarışıqlığından özünü büruzə verir. Belə ki, nitqin inkişafının elmi əsaslarının kifayət qədər inkişaf etməməsi və elmi tədqiqatların mövzusu və məqsədinə uyğun olmayan metodlardan istifadə edilməsi də bu məqsədə xidmət edir. Tədqiqatlara həmçinin danışıq və yazılı nitq vahidlərinin tez-tez qarışıq olması da mane olur. Danışıq və yazılı nitq münasibətlərinə əsaslanan nitq vahidləri arasında hələ də aydın fərq yoxdur.

Dil tədqiqatlarının funksional aspekti, kommunikativ prosesə və onun konkret məqsədlərinə yönəldilməsi nitq nəsrinin real başlanğıc vahidinə diqqət yetirməyi zəruri edir. Bu vahidlərin əsasında şifahi və yazılı ünsiyyət, həmçinin ənənəvi nitq tərtibatının vahidlərinə diqqət yetirmək lazımdır. Burada isə yeni problemlər yaranır.

Nitq konstruksiyasının (xüsusilə cümlələrin) ayrı-ayrı sözlərin köməyi ilə struktur sxemi əsasında – leksik yayanların, eləcə də ifadələrin köməyi ilə nitq konstruksiyası nəzəriyyələri mübahisəyə və inandırıcı görünməyə meyl edir.

Kolloksiya problemi uzun müddət dil elmində ən mübahisəli problemlərdən biri olmuşdur. Bunun əksinə olaraq sintaqm problemi o qədər də mübahisəli deyil. Aydındır ki, bu, ümumiyyətlə inkişaf etmədiyi üçün, baxmayaraq ki, sual həm danışıq, həm də yazılı nitqin nəsildə başlanğıc struktur kimi çıxış edən, onun əsasında kifayət qədər dərk edilən nitq vahidliyi ilə bağlıdır.

Müxtəlif ölkələrdə yaşayan dilçilərin bir çox nəsilləri söz birləşməsi ilə diqqət yetirsələr də, onun problemini müxtəlif yollarla həll etmişlər. Bəzən elə olurdu ki, tədqiqatçılar öz doğma dilinə və doğma nitqinə arxalanmağı unutmuşdular. Ən əsası isə onlar şəxsi nitq fəaliyyətinə, onda söz və ifadələrin yeri və roluna tamamilə məhəl qoymurdular. Bu nəzəriyyələrin nəticəsində onların inkişaf etdirənlərinin şəxsi nitq fəaliyyəti ilə heç uyğun gəlmirdi. Bu halda

dil və nitqin müxtəlif leksik sferaları arasındakı fərqin, yaxın olsa da, aydın və ardıcıl şəkildə destilləşməməsi də az əhəmiyyətli deyil.

Bu ifadə və sintaqmla tanış olaraq, bir çox tədqiqatçıların, özləri üçün lazımi cavabı əvvəlcədən müəyyənləşdirmiş, heç bir şübhə olmadan əminliklə bu suala getdikləri fikrindən yaxa qurtarmaq çətindir. Bununla əlaqədar olaraq, onlar obyektiv həqiqəti aydınlaşdırmaqla məşğul deyildilər. Bu, onların fərziyyələrinin nitq praktikasına nə dərəcədə uyğun gəlməsi ilə deyil, artıq formalaşmış şəxsi fikrini təsdiq etmək üçün dəlillərin axtarışı ilə bağlı idi. Və bu, çox vaxt dil gerçəkliyi və həqiqətin özünün zərərinə olurdu.

"Nə qədər ki, tədqiqatçı mücərrədliklərlə kifayətlənir," deyə məşhur alman dilçisi Q.Pol öz dövründə qeyd edib. "O, dilin həyatı haqqında həqiqətən elmi anlayış əldə edə bilmir". Pavel özünün "Dil tarixi" adlı kitabının ikinci nəşrində yazırdı: "Elmdə tərəqqi nə qədər mürəkkəb və dərzli olsa da, mürəkkəb hipotezlərlə deyil, sadə və aydın təkliflərlə əldə edilir. Bu fərziyyələr yalnız o dərəcədə səmərə verir ki, onlar tam başa düşülür və ciddi surətdə həyata keçirilir".

Dilçilik elmində doğru olan şeylər qeyri-müəyyən və qeyri-müəyyən ola bilməz. Çünki bu, mütləq yerli natiqlərin nitq praktikasına əsaslanır və buna görə də tez və asan başa düşülməlidir.

Söz birləşmələrinin öyrənilməsinin tarixi göstərir ki, bu məsələdə hər şey elə bir şəkildə ortaya çıxdı ki, bu və ya digər fərziyyə həqiqət kimi müəyyən edildi. Hazır fikir söyləmək üçün münasib dəlillər və sübutlar axtarıldı. Çox işlər görülüb, amma etiraf etməliyik ki, nə qədər çox iş görülübsə, bir o qədər də ziddiyyətlər, şübhələr və etirazlar peyda olub. Nitq praktikası ilə heç bir əlaqəsi olmayan nəzəriyyələr meydana gəlmişdir.

Əgər biz bir ifadədən söz düşəndə, həqiqətən də, konkret fəaliyyət sferasının real bir vahidi ilə məşğul oluruqsa, aydın xüsusiyyətlərə və nitq yaradan funksiyaya malikiksə, onda sadəcə olaraq müşahidə etdiyimiz kimi bu qədər müxtəlif fikirlər olmamalıdır. Üstəlik, fərqli, bəzən diametral şəkildə əks-səda doğurmayan fikirlər adi yerli natiqlərə deyil, tanınmış alimlərə məxsusdur. Bu da burada axtarışın aparılıb-aparılmaması və lazımi vahidin öyrənilib-öyrənilməməsi ilə bağlı təbii şübhə yaradır.

İnsan düşüncə tərzinin nəticələrini nitqə çevirərək, onu sintaqmların köməyi ilə inşa edir. O, pauzaların köməyi ilə aydın şəkildə bunu ifadə edir. Dəqiq desək, onları qurmur**, yaradır.** Belə ki, təsadüfi nitqdə sintaqmlar, adətən, konkret situasiyaya psixo-nitq reaksiyası nəticəsində təsadüf nəticəsində yaranır, onlar insanın öz doğma dilində formalaşmış şəxsi təfəkkür və ideyalar sistemi əsasında yaranır. Sintaqmlar nitqin yaradıcı təbiətini göstərən strukturlardır. Bu strukturlar onun əsas və təbii formasının – şifahi formada olan materialda asanlıqla görünür. Onun daxilində onun mövzusu intonasiyalı olaraq (fasilələrin köməyi ilə) söz, ifadə və ya cümlələri deyil, birləşdirilmiş struktur-semantik leksik qrupları – sintaqmları onun quruluşu və məzmununun nəsilinin real müstəqil komponentləri kimi fərqləndirir.

Ənənəvi olaraq qrammatika nitqin bir-biri ilə qarşılıqlı əlaqəsini onun tərkibi vahidlərinin qrammatik əlaqələri və əlaqələri ilə izah edir. Fikrimizcə, bu, yalnız qismən doğrudur. Akademik L.V.Şxerba söz birləşməsinin əsaslarını "yalnız sintaksis qaydaları ilə deyil, daha vacib olan, məna əlavə etmək qaydaları ilə" izah etmişdir.

Ənənəvi olaraq qrammatika nitqin bir-biri ilə qarşılıqlı əlaqəsini onun tərkibi vahidlərinin qrammatik əlaqələri və əlaqələri ilə izah edir. Fikrimizcə, bu, yalnız qismən doğrudur. Akademik L.V.Şxerba söz birləşməsinin əsaslarını "yalnız sintaksis qaydaları ilə deyil, daha vacib olan, məna əlavə etmək qaydaları ilə" izah etmişdir.

Başqa sözlə, koherent nitq təkcə sintaktik bağlı vahidlərin inkişafı nəticəsində deyil, həm də həmin nitq strukturlarının mənalarının artması əsasında yaranır. Bu nitq elementləri qrammatik

cəhətdən bir-biri ilə bağlı deyil: onlar mənaca birləşir, qrammatik cəhətdən əlaqəli komponentlər əldə edirlər. Hər halda, məşhur dilçinin bu deyiminin hansı ideyaya gətirib çıxarması fikridir. Nitqin sintaqmatik analizi isə bu fikri təsdiq edir.

Orijinal nitq vahidlərinin delimitasiyası nitq nəsilində sintaqmların müstəsna əhəmiyyətini, onun məzmununun və qavrayışının formalaşmasını göstərir ki, bu da ilk dəfə L.V.Şxerba tərəfindən qeyd edilmişdir. Bu, dinləyicilərə sintaqmaların hər birini aydın dərk etməyə və onların mənalarının ardıcıl dərk edilməsi və toplanması nəticəsində, çatdırılan məzmunu kifayət qədər dərk etməyə imkan verir.

Dilçilər adətən nitq artikulyasiyasının variantlarından danışarkən sintaqm adlandırırlar. Onlar hətta bunun üçün bir bəraət və məqsəd tapdılar. İddiaya görə, mətnin sintaqmatik artikulyasiyasının variantları nitqin ifadə dərəcəsinin aydınlaşdırılmasına, onun semantik kölgələrinin və nüanslarının axtarışına təkan verir. Lakin tamamilə aydın deyil ki, nəyə görə müəllif konkret kommunikativ məqsəd üçün gördüyü işləri yenidən işləməli və yenidən nəzərdən keçirilməlidir. Müəllifin məzmunu dəqiq başa düşülməli, dəyişdirilməməli, öz-özlüyündə şərh edilməməli, müəllifin özünün də şübhə etmədiyi mümkün nüansları özündə axtarmamalıdır.

Beləliklə, nitqdə sintaqmaların əsas xüsusiyyəti onların pauzalar vasitəsilə aydın delimitasiyasıdır. Fellərin əsas xüsusiyyəti onların bütöv düşüncələrə korrespondasiyasıdır. Bu əsasda onlar frazeoloji kimi yararlıdırlar. Mesajın sintaqmatik quruluşunda ifadələr arasındakı sərhəd mütləq sintaqmlar arasındakı sərhədlərdən birinə düşür. Kommunikativ məqsəddən asılı olaraq, çox vaxt bir ifadə tam bir mesaj kimi fəaliyyət göstərə bilər (məsələn, bir suala tam və eyni zamanda yorucu cavab).

Hər hansı mətn şifahi nitqin yazılı nitqə çevrilməsi nəticəsində meydana çıxdığından, onun üzərində işləyərkən şifahi nitqin quruluşuna (onun sintaqmlarına və ifadələrinə), onun spesifik məzmununa, onun nəslinə və dərkinə daim arxalanmaq zəruridir. Bunun səbəbi onun insan üçün təbiət tərəfindən verilmiş əsas, təbii forması olmasıdır. Yazılı nitqin əksinə olaraq, ikinci dərəcəli, süni, insan tərəfindən yaradılmış formadır. Nitq vahid minimal nitq qruplarından ibarətdir və onların əsasında dərk edilir. Bu yolla onun düşüncələri dərk olunur, bütün akademik və elmi tərbiyələr öyrənilir.

Nəticə.İnsanlar danışır, qulaq asır, yazır, oxuyurlar. Onların nitq hərəkətlərindən hər hansı biri sadəcə sintaqmların iştirakı ilə deyil, onların əsasında həyata keçirilir. Beləliklə sintaqmlar nitqin əsas semantik və konstruktiv komponentləri və onun bütün tərkib strukturlarıdır.

Bütün yerli natiqlər nitq fəaliyyəti prosesində sintaqmlarla məşğul olur. Lakin əksər hallarda hər şey hələ də intuisiya və nitq fəaliyyətinin spontan praktikası səviyyəsində baş verir. Etiraf etməliyik ki, doğrudan da, "linqvistik elm bu elm olmadan idarə edib və müəyyən mənada idarə edir", sintaqmadan. Bu " nədənsə"dir, çünki nitqin nəsil və qavrayışında, bütün növ nitq fəaliyyətinin inkişafında sintaqmın praqmatik rolu digər leksik strukturlarla müqayisədə ən başlıcasıdır. Xüsusilə də, məzmunu kifayət qədər dərk etməyə fikir verib oxumağı öyrətmək vacibdir.

Azərbaycan dilçiliyində sintaqm haqqında müxtəlif fikirlər vardır. F.Aslanov “Müasir alman və Azərbaycan dillərində sintaqm problemi və onun eksperimental-fonetik tədqiq” adlı tədqiqat işində qeyd edir ki, müasir Azərbaycan dilində hələ də öz həllini tapmamış və fikir ayrılıqlarına səbəb olan problemlərdən biri də canlı ünsiyyət prosesində nitq aktının bölünməsi nəticəsində yaranan sintaqm problemidir. Müəyyən inkişaf tarixinə malik olan sintaqm problemi dilçiliyin yeni sahəsi kimi elmə məlum olduqdan sonra böyük dilçi alimlərinin diqqətini çəkmişdir[1, 15].

Y.Seyidov söz birləşməsini və sintaqmı müqayisə etmişdir. O qeyd edirdi ki, sintaqm məsələsi müstəqil mövzu kimi çox qədimlərə gedib çıxır. Hətta bu barədə nə ümumi dilçilik, nə də ayrı-ayrı dillərin metarialları əsasında müstəqil şəkildə tədqiqat hazırlanmamışdır[3, 2]. Həm Yusif Seyidov, həm də Qəzənfər Kazımov rus dilçisi İ Şerbanın sintaqm haqqında fikirlərini qismən qəbul edir.

İstifadə edilmiş ədəbiyyat

1.Aslanov F.Ə. Müasir Alman və Azərbaycan dillərində sintaqm problemi və onun eksperimenatl-fonetik tədqiqi. Bakı, 2009, 40s.

2.Kazımov Q.Ş. Müasir Azərbaycan dili. Sintaksis.Bakı, 2007. 494 s.

3.Seyidov Y.M.Azərbaycan dilində söz birləşmələri. Bakı Universiteti nəşriyyatı.Bakı, 1992. 408 s.

QIPÇAQLAR HAQQINDA TARİXİ QAYNAQLAR

KÖNÜL İBRAHİM QIZI SƏMƏDOVA

f.e.d., dos., ADPU-nun Müasir Azərbaycan dili kafedrasının müdiri

Xülasə: Tarixi VIII əsrdə Şərqdəki Göytürklərlə bağlı olan və bir müddət kimeklərlə birgə yaşayan, X əsrin ilk yarısında kimeklərdən ayrılıb müstəqil bir boya çevrilən və bütün bu zaman ərzində başqa Türk boylarından da ayrılan qıpçaqlar X əsrdə oğuzlarla kimeklər arasında yaşayırdılar. Tarixi mənbələrdə qıpçaqlara "ölkəsiz qıpçaqlar" adı da verilmişdir. Çünki onlar özlərinə dövlət qura bilməmiş, tayfa prinsipləri əsasında yaşamışlar. Qıpçaqların tarixi, mədəniyyəti, dili və s. indiyə qədər elə də geniş tədqiq olunmamışdır. Lakin müxtəlif mənbələrdən onlar haqqında məlumatlara az da olsa rast gəlmək olur. Qıpçaq adı həmçinin 1054 - cü illərdə rus salnamələrində polovets adı kimi də qeyd olunmuşdur. Türk dil tarixində isə Şərqi Qaradənizə köç edən tayfaları da bir yerə toplayaraq Qərb Türkcəsinin şimal qanadını təşkil edən Qıpçaqların dili, Kuman Qıpçaqcası; cənubda Misir Məmlük dövlətini quran Qıpçaqların dilləri də Memlük Qıpçaqcası olaraq adlandırılır. Misirdə də Qıpçaqların varlığı ilə bağlı müxtəlif məlumatlar vardır. Məqalədə bu mənbələrdə qıpçaqlar haqqında verilən məlumatlar ümumiləşdirilmiş və təhlil edilmişdir.

Açar sözlər: qıpçaq türkləri, tarixi mənbələr, ortaq türkcə, etnik tərkib, tayfa birlikləri

Summary: The history connected with the Goyturks in the East in the 8th century lived together with the Kimeks for a while, separated from the Kimeks in the first half of the 10th century and became an independent tribe and during this time separated from other Turkic clans lived among the Oghuz and Kimeks in the 10th century. In historical sources the Kipchaks were also called "countryless Kipchaks". As they lived on the basis of tribal principles before establishing a state for themselves. History, culture, a language of Kipchaks have not been widely studied for a long time. However there is little information about them in the various sources. The name of Kipchak was also mentioned as a Polovtsian name in Russian chronicles in 1054. In the history of the Turkish language, the language of the Kipchaks, the Kuman Kipchak language, formed the northern wing of the Western Turkic language by gathering together the tribes that migrated to the Eastern Black Sea; the language of the Kipchaks who established the Egyptian Mamluk state in the south is also called Mamluk Kipchak. There are various reports about the presence of the Kipchaks in Egypt. The article summarizes and analyzes the information given in these sources about Kipchaks.

Key words: Kipchak Turks, historical sources, common Turkish language, ethnic composition, tribal associations

Özet: Tarihi 8. yüzyılda Doğu'daki Goytürklerle bağlantılı olan ve bir süre Kimeklerle birlikte yaşayan Kıpçaklar, 10. yüzyılın ilk yarısında Kimeklerden ayrılarak bağımsız bir kavim haline geldiler ve bu dönemde zamanla diğer Türk boylarından ayrılarak, 10. yüzyılda Oğuzlar ve Kimekler arasında yaşamışlardır. Tarihi kaynaklarda Kıpçaklara "vatansız Kıpçaklar" da denilmektedir. Kendilerine bir devlet kuramadıkları için kabile ilkelerine göre yaşıyorlardı. Kıpçakların tarihi, kültürü, dili vb. şu ana kadar geniş çapta araştırılmamıştır. Ancak çeşitli kaynaklarda onlar hakkında çok az bilgi bulunmaktadır. Kıpçak adı 1054 yılında Rus kroniklerinde Polovtsça adı olarak da geçmektedir. Türk dili tarihinde, Kıpçakların dili olan, Doğu Karadeniz'e göç eden kavimleri bir araya toplayarak Batı Türk dilinin kuzey kanadını

oluşturan Kuman Kıpçak dili; Güneyde Mısır Memlük devletini kuran Kıpçakların diline de Memluk Kıpçakçası denir. Mısır'da Kıpçakların varlığına dair çeşitli rivayetler bulunmaktadır. Makalede Kıpçaklar hakkında bu kaynaklarda verilen bilgiler özetlenip analiz edilmektedir.

Anahtar kelimeler: Kıpçak Türkleri, tarihi kaynaklar, ortak Türk dili, etnik yapı, aşiret birlikleri

Türk sözü bügünkü türk xalqlarının dillərini və onların köklərini ümumiləşdirən addır. Bu söz hazırda coğrafi termin kimi Türkiyə Cümhuriyyətinin və buradakı türklərin milli adı olsa da, ümumiləşdirici etnik termin kimi geniş coğrafi arealı əhatə edir. Türk ləhcələri, boyları və hal-hazırda türk dilləri əski türkcənin fonetik, leksik, qrammatik bazasına söykənməklə həm də bir-birindən fərqli xüsusiyyətlər yaratmışdır. Müəyyən fərqli xüsusiyyətlər meydana çıxsa da, əski türkcənin özəllikləri müasir türk dillərində qorunub saxlanılmışdır. Qıpçaq toplumu bir etnos kimi müxtəlif ölkələrin tədqiqatçıları tərəfindən öyrənilmişdir. Lakin Azərbaycan elmində bu tədqiqat işləri daha çox son dövrlərə aid edilir.

Qıpçaqları tədqiq edən Avropa tədqiqatçılarını, araşdırmaçılarını isə iki qismə bölmək olar. Bir qisim tədqiqatçılar qıpçaqları müsbət, digərləri isə vəhşi, qaniçən və amansız kimi göstərmişlər. Sovet tədqiqatçıları qıpçaqların tarixindən danışarkən onları yalnız Qazaxıstan ərazisindən tədqiq etmişlər. Digər ərazilərdə yaşayan qıpçaqlar isə araşdırılmamışdır. Yuxarıda qeyd etdiyimiz kimi qıpçaqlara bir çox adlar vermişlər. Ruslar isə monqol istilasından əvvəl Rusiyanın cənubunda yaşayan bu tayfalara Polevestlər demişdilər. Sonradan qıpçaqların cənubi Rusiya çöllərinə gəlişləri və iki əsrdən çox onlarla əlaqədə yaşamaları I minillikdə Qazaxıstan sərhədlərinə köç etmələri burada qurulan Kumak dövlətinin tərkibinə qatılmaları tarixdə geniş tədqiq olunmuşdur. Hətta sonradan II minillikdə ruslarla yaxın təmasda olmuş qıpçaq qəbilələri haqqında rus dastanı olan "İqor polku dastanında" da danışılmışdır. Lakin buna baxmayaraq sonradan Qazaxıstan çöllərinə səpələnən Qıpçaq qəbilələrinin tarixi keçmişiylə bağlı ətraflı və dəqiq araşdırmalar yoxdu. Onların təmasda olduğu Kımak dövləti ilə digər xalqlarla və dövlət qurumları ilə olan münasibətləri tam olaraq məlum deyil. Onların Xarəzmşahların və digər bu kimi dövlətlərin həyatında buraxdığı izlər haqqında demək olar ki, heç bir məlumat yoxdur. Lakin ola da bilməz ki, qıpçaq tayfaları bu dövlətlərin həyatına təsirsiz ötüşsün (1, s. 42).

Qazaxların etnik formalaşmasında da qıpçaqlar böyük rola malik olmuşlar. Onlar həmçinin bügünki özbək, qaraqalpaq, qırğız, başqırd, türkmən, Altaylar və digərlərinin tərkibində, həmçinin Azərbaycan xalqının etnogenezində önəmli bir rola malik olmuşdular. Unutmaq olmaz ki, Misir Məmlük Dövləti və Xarəzmşah kimi böyük dövlətlərin idarəçiləri məhz Qıpçaqlar arasından çıxmışlar. VIII əsrdə Dehli sultanlığında onların təmsilçiləri olmuş, sonralar Gürcüstan, Macarıstan ordularının əsas hissəsini qıpçaqlar təşkil edirdi. Bu baxımdan qıpçaq məsələsi yalnız Qazaxıstanın və Orta Asiyanın qədim xalqları deyil. Şərqi Avropa xalqlarının həyatlarında da rol oynamış önəmli tayfalardan biridir. Məhz bu baxımdan Şərqi Avropa mənbələrini də araşdırmaq lazımdır.

Qıpçaqlar haqqında araşdırma aparan tədqiqatçıların əsərlərinə diqqət yetirək. Ümumiyyətlə götürəndə Qıpçaqları tədqiq edən tədqiqatçıları və əsərlərini aşağıdakı kimi ümumiləşdirə bilərik:

V.N.Tatişev və M.N. Karamzindən başlayaraq bir çox tədqiqatçılar, Polevestlərin tarixinə, əsasən də onların Qədim Rusiyayla olan münasibətindən baxmış və təhlil etmişlər. R.V.Qolubovskinin 1884 - cü ildə nəşr olunan "Tatar istilasına qədər peçeneklər, türklər və Polovestlər" – adlı əsəri ən sanballı və tutarlı qaynaq olaraq günümüzə gəlib çatmışdır. Əsərdə XIX yüzilliyin sonlarında Rusiyadakı Polovestlərin ruslarla apardığı müharibələrə diqqət çəkməklə yanaşı, onların müharibə vəziyyətlərini necə araşdırdıqlarına, ordunu necə idarə etdiklərinə də xüsusi diqqət ayırmışdır. Qolubovski əsərdə qıpçaqlar haqqında "şaşı baxışlı",

"ac gözlü", "dizginləməz bozkırlılar", "vahşi bölgənin yağmadan, barışsevər yerləşik əhalisini tarimar edib təcavüz etməkdən başqa bir şey düşünməyən sakinləri" olaraq görməməsindən danışır. Qolubovski, rus salnamələrinin etibarlı şahidliklərinə əsaslanaraq polevestlərin və rusların biri - birlərinə dostca davrandıqlarını, ticari və mədəni müqavilələr bağladıqlarını, ortaq düşmənlərə qarşı əsgəri qüvvələri birləşdirmək üçün müqavilələr bağladıqlarını və diplomatik münasibətlər inkişaf etdikcə hər iki tərəfin yuxarı təmsilçiləri arasında şəhər yaxınlıqlarını da göstərən bir xəritə də çəkmişdir.

İkinci mənbə olaraq alman alimi İ.Marquart tərəfindən yazılmış 1914 – cü ildə nəşr olunan *"Koman halkından"* əsəridir. O, bu əsərdə qıpçaq kəlməsini heç işlətməmişdir. Onların Qıpçaq federasiyasının bir hissəsi olduğuna işarə edən və Batıda (qərbdə) işlənən Koman sözündən istifadə etmişdir. Lakin bu əsər də qıpçaqların tarixinə işıq salan tək əsər deyildir. Marquartın bu əsəri qıpçaqlar haqqında müəyyən məlumatları versə də, yenə də dolğun və bütün deyildir. Bugünkü araşdırmalar əsərin yenidən işlənməsinə ehtiyac duyur.

IX–XI əsrlərdə ərəb və fars mənbələrinə əsaslanan, onların tarixi – coğrafi məlumatlarını ayrıca, bir- bir tədqiq edən B.Y.Kumekov olmuşdur. Kumekov Kımakların tarixini araşdırmış IX əsrin ortalarından Xl əsrin ortalarına qədər Kumak tayfalarının sosial və ekonomik quruluşunu, onların qəbilə federasiyasının təməlini və etno-coğrafi ərazilərinin geniş şəkildə izahını vermişdir. Dəyərli və zəngin faktlarla dolu olan bu əsərdə Kımak – Qıpçaq tarixinin sonrakı mərhələləri əsasən də XI - XIII yüzilliklərdəki tarixini araşdırmağa kömək edə biləcək bir əsərdir.

Kumak və Qıpçaq qəbilələri tarixin dövrlərində çox yaxın əlaqədə olmuşdur. Buna görə də müasir tədqiqatçılar hətta B.Y.Kumekov da daxil olmaqla – kumaklarla Qıpçaqları eyni etnik icmaya mənsub tək bir xalq olaraq görmüşdür. Farsca qaynaqlar B.Y. Kumekov tərəfindən başdan sona qədər dəqiq, təmiz şəkildə araşdırılmışdır.(2, s.3-39)

K.Ş.Şaniyazov. "Özbək xalqının etnik tarixi" - əsərində Qıpçaq tarixini özbək xalqının tarixinin formalaşmasında əsas ünsürlərdən biri hesab etmişdir. Yazar Monqol istilası zamanından sonra Dəşti Qıpçaq - dan orta Asiyaya gedən, orada yavaş – yavaş boy və qəbilə adlarını itirərək yerli əkinçi tayfalarıyla qaynaşan Qıpçaqların tarixini geniş və ətraflı qələmə almışdır. Əsərin 1 - ci hissəsində tarix səhnəsinə gəlmələrindən bəhs etmiş və Monqol istilasına qədər keçdiyi tarixi inkişaf yolunun xəritəsini çəkmişdir.

V.V.Bartoldun qıpçaqların Xarəzmlə bağlı bəzi düşüncələrinə aid olan "Moğol istilası dönəmində Türküstan" əsərində qıpçaqlarla Xarəzmşahlar arasındakı siyasi əlaqələrin bəzi yönlərinə toxunmuşdur. Lakin bunlar, qıpçaqlar haqqında bu və ya digər dərəcədə müəyyən məlumatlar olsa da, Qazaxıstanda Qıpçaq icmasının keçirdiyi uzun zamanın tarixini araşdırmaq üçün kifayət deyildir. II əsrin başlanğıcında rus salnamələri də, XI-XIII əsrin ortalarına qədər ön Qafqazın şimalında (İdildən Dneprə) və Qərbdə daha irəli ərazilərə qədər uzanan ağacsız çöllərə "Polovestkoye poli" adını verdi. (3, 1998)

Klyashtornyə görə Sır qəbilələri arasında bu yeni etnonim xarici düşmənlərin vurduğu ağır zərbələrdən sonra Türklər və Monqollar da olduğu kimi dini – tilsim düşüncəsinin nəticəsdir ki, bu da əşyalar (sujelər) və adlandırmalar (isimlər) arasındakı çox sıx əlaqələrin təzahürü şəklində rituel bir uyğunlaşma olaraq yeni bir qoruyucu ad arxasında gizlənmək arzusundan irəli gəlmiş ola bilər.

Bu haqda N.İ.Jukovskayanın da "moğol" antroponimi haqqında maraqlı fikirləri vardır. - "Günümüzdə nadir olmaqla bərabər bir zamanlar ilk adın yeni və başqa bir adla əvəzlənməsi ənənəsi vardı. İlk ad unudulub gedər. Bu ənənə insanın ağır xəstəlikdən qurtardığında yeni bir

insan olaraq doğulduğu düşüncəsiylə əlaqəlidir. "Ayrıca yeni ad ağır xəstəliyi uzaqlaşdırmaq "pis qüvvələri" kənar etmək məcburiyyətində olan bir iş idi (4, s.14)

Bu baxımdan Seyanto dövlətinin məhvi onların hansısa ilahi bir gücün olmasıyla bağlı əfsanələrin yaranmasına yol açmış və Sirlilərin həyatda qalması üçün, Uyğurlardan və digər pis ruhlardan qutarma ümidi kimi görünmüş ola bilər. Görünür, bu adın dəyişdirilməsi uyğurların siyasi çıxarlarını təmin etməsi üçün gərəkli idi. Belə ki, Eletmiş Bilge - Kağan kitabəsində də qıpçaqlar türklərlə iqtidarı bölüşən qəbilə olaraq göstərilmişdir. Klyashtornyın qeyd etdiyi kimi – "aradan uzun müddət keçdikdən sonra Qıpçaq adının ortaya çıxması səbəbləri unudulmuş və kəlmənin semantik mənası, etnik adlandırma mövzusunda bir o qədər də məna ifadə etməmişdi; Etnonimin izahı üçün yeni bir əfsanə yaradılmış və eyni şey uyğur qəbilələrinin də yer aldığı daha qarışıq Toğuz - ğuz (uyğur) federasiyasına daxil olan qəbilələr arasında göstərilirdi (5, s. 8)

Rəvayətə görə əfsanəvi Qıpçaq adı, qoruyucu ruhu "boz qurd" olan və özünü "uyğur xaqan" adlandıran Oğuz xaqanın əsgərlərindən birinin oğluydu. Əfsanəyə görə Oğuz xaqan yaxın bəylərinə Oğuz boylarının eponimlərini təşkil edən adlar verilmişdir ki, həqiqətən bu adlar orta əsrlərdə Mərkəzi və Orta Asiya xalqlarının tarixi içində yer alan Tele qəbilələrinin tarixi mənasını izah edir (6, s.67)

Qıpçaqların Azərbaycana və qonşu ərazilərə axınları və orada məskunlaşması haqqında bir sıra məlumatlar erməni dilli və gürcü dilli qaynaqlarda öz əksini tapmışdır. Onlar içərisində Leonti Mroveye aid edilən "Kartli çarlarının həyatı" adlı gürcü qaynağı diqqətəlayiqdir, burada V əsrə aid hadisələrlə bağlı Zaqafqaziya da qıpçaqların adı çəkilmişdir. Gürcü qaynaqlarından "Çarlar çarı Davidin həyatı" əsərində qıpçaqların Gürcüstana köçürülməsi faktı öz əksini tapmışdır. Erməni dilli qaynaqlardan Kirakos Qanzaketsi monqol işğalı dövründə qıpçaqların Azərbaycana axınları haqqında məlumat verir (7, 2010)

Tarixi Qıpçaq türkcəsinin bir digər qolu da erməni Kıpçaqcası olaraq adlandırılır. XI yüzilliyin ortalarında erməni Boqratlılar dövlətinin məhvindən sonra köç edərək Krıma yerləşən ermənilər, daha sonrakı yüzillikdə Qıpçaq türkcəsinin mənimsəyərək rəsmi yazışmalarda və kilsədə istifadə etməyə başladılar. Bunlara aid dil əsərləri içərisində XVI- XVII əsrlərdən qalan Ukraynanın Komonets – Podolsk şəhərində icma halında məskunlaşan ermənilərin məhkəmə sənədlərinin erməni qrafikası ilə qıpçaq dilində yazılması türk dillərinin, o cümlədən Azərbaycan dilinin tarixinin öyrənilməsi baxımından gərəkli bir mənbədir. Kiyevdə tapılan bu sənədlər II Dünya müharibəsi zamanı yanğın nəticəsində yanmışdır (8, s.15).

Nəticə: Ümumiyyətlə, qıpçaqlar haqqında istər qərb, istərsə də şərq qrupu ilə bağlı elmi tədqiqat əsərləri mövcuddur. Bununla belə, qıpçaqlar, onların Azərbaycan xalqının yaranmasında iştirakı məsələsini nə tarixçilər, nə də dilçilər geniş tədqiq etməmişdir. Tədqiqatlar demək olar ki, son dövrlərə aiddir. Tarixə nəzər salanda ilk qıpçaqların Azərbaycana axınları tədqiqatçıların qeyd etdiyi kimi, cənub istiqamətindən deyil, şimaldan baş vermişdir. Əlbəttə, Orta Asiya qıpçaqlarının Xəzər dənizinin Cənubundan ölkəmizin ərazisinə nüfuz etməsini güman etmək olar. Lakin bununla bağlı qaynaqların hər hansı bir məlumatı hələlik aşkar edilməmişdir. Şübhəsiz ki, bu axınlar Şimal istiqamətində əsas keçidlər olan Dəryal və Dərbənd keçidləri vasitəsilə həyata keçirilmişdir.

Ədəbiyyat

1. Əliyeva L.A. Qıpçaqlar və Azərbaycan. Bakı:BDU, 1999, 354s.
2. Kumekov B.Y. Arabskiye i persidsikiye istoçniki po istorii kıpçakov, 1987, VIII-XIVAlma- Ata.
3. Adcı M. Yevropa, tyurki, velikaya step. M.: İzd. Mısl., 1998, 334 s.

4. Jukovskaya N.L. Zametki o monqolskoy antroponimi. Onomastika Vostoka. M. 1980
5. Kurışjanov A.K. İssledovanie po staroqo kıpçaqkskoqo pismennoqo istoçnika: XVII vek "Russko-arabskoqo slovar". 1970, Alma-Ata
6. Tanrıverdiyev Ə. XVI əsr qıpçaq (Polovest) dilinin qrammatikası - Bakı: "Nurlan", 2000, 119 s.
7. Salis Aydin.Erməni-qıpçaqlar kimlər idilər? [Elektron resurs] 15:4. URL: https://sites.google.com/site/ipekchi/99/45, 2010.
8. Çağdaş yazı dilləri. Kuzeybatı Kıpçak qrubu. Ankara: III Akçağ. 2014, 591 s.

TÜRK, ÇİRAQ, CƏYİRLİ VƏ ÇAKAR ETNONİMLƏRİ ƏSASINDA FORMALAŞMIŞ ETNOTOPONİMLƏR

KƏRİMOVA İRADƏ MƏZAHİM QIZI

Azərbaycan Dövlət Pedaqoji Universiteti, filologiya üzrə fəlsəfə doktoru, dosent

ORCİD İD:0000-0002-8057-8333

Etnonim və toponimlərin tədqiqi bütün dövrlərdə dilçiliyin qarşısında duran ən aktual məsələlərdən biri olmuşdur. Çünki toponimlər mənsub olduğu xalqın bütün cəhətlərini, etnoqrafiyasını, tarixini, inam və etiqatlarını, tarixini və s. əks etdirməklə həmin xalq haqqında doğru həqiqətləri ehtiva edən mənbə rolunu oynamaqadadır. Uzaq keçmişdə baş vermiş etnik proseslər, hadisələr öz izlərini qabarıq şəkildə türkdilli xalqların toponimiyasında da saxlamışdır. Ərazidəki türk mənşəli toponimlərin böyük bir qismini ayrı-ayrı tayfa və tayfa birləşmələrinin adları təşkil edir ki, bu da həmin ərazidə məskunlaşmış əhalinin mənşəyi, etnik tərkibi haqqında tutarlı faktları özündə əks etdirir. Türk xalqlarının tarixən yaşadıqları ərazilərin dəqiqləşdirilməsində, etnik tərkibinin müəyyənləşdirilməsin də toponimləri areallar üzrə tədqiq etmək daha əhəmiyyətli və məqsədəuyğundur.

Açar sözlər: areal, toponim, oykonim, oronim, etnotoponim, arxaik

Türkmən. Əsasında“türk”sözüdurantoponimlərinolduqcagenişyayılmaareallarıvardır. *Türk etnosu*əsasındatəkcə Azərbaycandakəndvəqəsəbətipliyaşayışməntəqəsiadıbildirən 12 toponimqeydəalınmışdır: *Türkan* (Bakı), Türkmən (Göyçay, Bərdə), *Türkədi* (Kürdəmir, Sabirabad), *Türkəçi* (Ucar), *Türkəkəran*, *Türkənsil* (Lənkəran), *Türklər* (Beyləqan, Laçın), *Türkoba* (Xızı, Masallı).

Türk etnosuAzərbaycanınetnogenizindəaparıcı olmuşdur.Ş.Sədiyevəgörə*türk*Azərbaycanınqədimxalqlarındanbirininadıdır (18. s.44). BubarədəətraflıməlumatverənM.İsmayılovmiladdanqabaqIVyüzilliyəaidqədimAssurmənbələri ndəhaqqındaməlumatverilən, UrartumixiyazılarındaturukkilləradlandırılantürklərinUrmiyagölüyaxınlığında, bugölünuzaqvəyaxınhövzələrindəməskunolduqlarınıgöstərir (11. s.16). Çoxehtimalki, Türkmənkəndi, habeləTürkdağı (Göyçayrayonu), Türktəpəsi (Ağdamrayonu) oronimləriAzərbaycanınbuqədimaborigenlərinin (türklərin) adınıəksetdirmişdir.

M.Kaşğarlı “Divanü-lüğət-it türk” əsərində türkmən tayfası haqqında məlumat verərkən yazır:“Türkmən: bunlar oğuzdurlar” (13.s.358), “Oğuz: bir türk boyudur. Oğuzlar türkməndirlər” (12. s.128). Müəllifin bu fikirlərinə öz münasibətini bildirən B.Xəlilov yazır ki, M.Kaşğarinin “Lüğət”ində oğuzla türkmən eyniləşdirilir,eyni boyun sinonim adları kimi verilir. Əslində tükmənlər oğuza daxildir.Başqa cür desək, “oğuz” sözü ümumiləşdirici etnik termindir.Bu etnik termin digər oğuz boyları kimi türkməni də özündə ehtiva edir.Doğrudan da türkmən adı sonradan yaranmışdır (10. s.21). Bu fikirlərə bir qədər də aydınlıq gətirən müəllif yazır: “Türkmən adı sonra taranmış etnik ad kimi ehtifa dairəsi Oğuzdan məhduddur,eyni zamanda Oğuzun bir qoludur.Onu da qeyd edək ki,bu hadisəyə qədər türkmən adı olmamışdır,belə olan təqdirdə türkmən sözünü Oğuzun sinonimi kimi qəbul etmək olmaz”(10. s.22-23).

Yaşayışməskənininadınınəsasındakeçmişdəağqoyunlutayfasınınəsasqollarıdanbiriolantürkmən tayfasınınadınındurmasıehtimalıvardır.
XVəsinaxırıXVIəsrinəvvəllərindəisəqızılbaştayfaittifaqınadaxilolan***türkmənlər***Səfəvilərdövlə tininsiyasihəyatındamühümroloynamışdır.

Çıraqlar//Çırak//Çiraq.*Çırak//Çiraq* etnosu əsasında yaranmış oykonim və oronimlərin areallarına istər Azərbaycan ərazisində, istərsədə Qərbi Azərbaycanda,Özbəkistanda, Dağıstandarastgəlmək mümkündür. KəlbəcərrayonundaÇıraqlıkəndi, XocavənddəÇıraqüz, DəvəçirayonundaÇıraqqaladağı, DaşkəsəndəÇiraqkəndi, Göyçay rayonunda Çiraqlılar bulağı hidronimi, ŞamaxıdaÇıraqlıadlıkəndvəyaylaq, ÖzbəkistandaÇiraqçırayonvəkəndadı, DağıstandaÇirakçay, Çirakkəndi, Qərbi Azərbaycanda Çiraklıvəs. qeydə alınmışdır(1. s.66-67; 4.).

M.Seyidovtürkmənşəlisaktayfalarındada*çiraq*sözününfonetikvariantıolanÇiraqşəxsadınınoldu ğunubildirmişdir (17. s.23).

T.Əhmədovvəeləcədəbirsırabaşqatədqiqatçılarbizimdəqəbuletdiyimizbeləbirmülahizəyürüdürl ərki, yuxarıdaadıçəkilən“çıraq”sözüiləbağlıcoğrafiadlarındeməkolarki, hamısıeradanəvvəlCənubiQafqazavəAzərbaycanərazilərinəgələrəkburadaməskunolmuştürkmə nşəli***siraq//çiraq//şirak***tayfalarınınadınıəksetdirir (8. s.36).

XIX əsrin 60-cı illərində 62, 80-ci illərində isə 79 ailədən ibarət *çiraqlı* adlı bir tayfanın Cavad qəzasında maldarlıqla məşğul olduğu qeyd olunur (2. s.72).

Cəyirli. Ortaəsrmənbələrində*çakırlı//çəkirli*kimiadlarıçəkiləntürkdilli***cəyirli***tayfasıXVəsrdəağq oyunluvəqaraqoyunlutayfabirliyinədaxilolmuş, ƏrdəbilmahalındavəMuğandayaşamışdır. SonralarqızılbaştayfasıkimitanınancəyirlilərAzərbaycanınmüxtəlifərazilərinəyayılmışlar.XIXə srinortalarındaCavadqəzasındayaşayan 90 ailədənibarətcəyirlielatıqeydəalınmışdır. Birçoxyaşayışməntəqəsininadıcəyirlilərləəlaqədardır. Ölkəmizdə arealları yayılmış Cəyirli oykonimi də*cəyirli*tayfasınınadını özündə əksetdirmişdir. GöyçaydayaşayışməntəqəsiolanCəyirliniŞamaxırayonununCəyirlikəndindənayrılmışailələrsal dığıüçünbeləadlanmasıhaqqındafikirvardır. ŞamaxıdavəŞəkidəCəyirlikəndlərivardır. ŞəmkirvəGədəbəyərazindənCəyirçayıkeçir (4. s.551).

İ.P.PetruşevskiİsgəndərMunisiyəistinadedərək 1628-ciildətərtibedilmişəmrlərinsiyahısındaŞəkihakimiMəhəmmədSultanınCəyirliadlanankiçikqızıl baştayfasınınnümayəndəsikimitəqdimedildiyinigöstərir (16. s.138).

V.AslanovCəyirlitayfasınınŞəkidəməskunlaşmasınıSəfəvilərinhakimiyyətəgəlməsi, dahadoğrusuŞahTəhmasibvəDərvişMəhəmmədxanmünasibətlərininəngərgindövrünə (1551-ciil) təsadüfetməsinisöyləyirvəŞahTəhmasibinŞəkiyəyürüşününhəmdəşiəliktəriqətininmöhkəmlənd irilməsiməqsədinidaşımasınıqeydedir.
MəhzbusəbəbdənDərvişMəhəmmədxanınqətlindənsonraŞəkihakimiyerliadamlardandeyil, şiəliyəmənsubolanqızılbaştayfalarındantəyinedilirdi (3. s.95).

QızılbaşlarıncəyirlitayfasıyalnızŞəkidədeyil, respublikamızınbirsırarayonlarında, ocümlədəndəŞamaxıvəGöyçaydadaməskənsalmışlar. GöyçayrayonundakıCəyirlikəndininadı da vəqədimtürkmənşəli*cəgirli//cəyirli*tayfasının adıəsasındaformalaşmışdır. CəyirlitayfasınınnümayəndələrininŞamaxıdanGöyçayaköçməsifaktınıdaqəbuletməklazımgəlir. Çoxgümanki, ŞamaxızəlzələlərindənsonraonlarGöyçaydaməskunlaşmışvəyaşayışyerlərininadınıəvvəlkikənd inadıkimisaxlamışlar.

Çaxırlı. Çakar//çakər etnosu əsaslı yaşayışməntəqələrinəAzərbaycanınCəbrayılr-daÇaxırlı k., Çaxırlı dərəsi, İmişlir-da Çaxırlı k., Çaxırlı qobusu, Masallı r-daÇaxırlık. və Çaxırlı təpəsi,Xaçmazr-daÇaxmaqlıadındakəndlərə rast gəlmək olar. Qərbi Azərbaycanda İrəvanquberniyasınınYeniBəyazidqəzasında 1918-ciilədəkancaqazərbaycanlılarınyaşadığıÇaxırlıkəndininolmasıhaqqındadaməlumatlarvardır. Bukəndbir vaxtlar Qızılbulaqdaadlanmışdır (6. s. 78).

Yuxarıda adları qeyd olunmuştoponimlərtürktayfalarındanbiriolan***çakar//çəkər***etnonimiiləbağlıdır. ÇəkərlilərəramızınəvvəllərindəŞimaliQafqazdayaşamıştürkdillibulqarlarınçakartayfasındantəşəkkültapmışlar. ButayfanınmüəyyənhissəsierkənortaəsrlərdəAzərbaycanagələrəkburadaməskunlaşmışdır. Adınmüxtəlif– çaxır//çəkər//çakar//çakırfonetikvariantlarınarastgəlmək olar.

A.BakıxanovbeləbirtayfanınQubadavəŞirvandadayaşamasınıgöstərmişdir. Məhzbunagörədə, İmişlirayonundakıÇaxırlıkəndininvaxtiləŞirvandanköçübgələnailələrinsaldığınıgümanetməkolar. 1806-cıildəAbbasMirzəninŞirvanabasqınızamanı 6 minailəniburadanMuğanaköçürməsifaktıbufikriəsaslandırmağaimkanverir (5. s.193).

Q.Qeybullayevçakar//çakərsözünüs*ak+ər*kimikomponentlərə ayıraraq,ikincikomponenti "kişi, qəhrəman"anlamındaizahınıverməyə çalışmışdır. O, "çak"morfemliçaxmaq, çiqilbulqaretnonimlərinidə*sak//şak*etnonimininvariantıhesab etmişdir. Bundanbaşqa, müəllifgöstərirki, İmişli, Cəbrayıl, MasallıvəGöyçayrayonlarındakıÇaxırlıoykonimləribulqarçakartayfasının adıiləbağlı olmuşdur. İnqilabaqədərkiədəbiyyatda,qeydedilənkəndlərinadıÇaxarluvariantında olmuşdur (15.s.36, 59, 90, 135).

T.HacıyevAzərbaycantoponimlərisistemindəkiÇaxırlıadınıçakar, çak+ərkimiaçırvəÇaxırlıtoponiminçakar//çakərbulqartayfaadındanolmasınısöyləyir (9. s.279).

Butoponim*çakar/çaqar//çaxır*fonetik formalarındamüxtəlifyerlərdəmövcuddur. Beləki, bu toponimin arealları ŞimaliQafqazdaÇaqar-tabe,Çaqar-aul, DağıstandaÇaqarli-qu, Çaqar-otar, QazaxvilayətindəÇaxırlıformasındamövcuddur.

BuadınmənşəyindənyazanT.Əhmədovqeydedirki, Çaxırlıəslindəqədimbulqarların***çakar***adlıtayfaadınınqisməntəhrifolunmuşvariantıvə-***lı***mənsubluq, aidlikbildirənşəkilçiəsasındaformalaşmışdır. Onunfikrinəgörəmənbələrdəbulqarların*küvyar, yunan, oxsun, kurikar*vəs. tayfalarıiləyanaşı, *çakar*tayfasınındaadıçəkilir (7. s.34).

"Çakar"əsaslıtoponimlərdəkifonetikyaxınlıqbirsıraantroponimlərdədəözünügöstərmişdir. KDQ-dəQaraçəkürantroponimiişlənmişdir.: "Oğuzdadörtyigitniqablagəzərdi. BiriQanturalı, biriQaraçəkürvəonunoğlıQırqqınuqvəBozayğırlıBeyrək" (14. s.87).

Ə.TanrıverdiQaraçəkürantroponimindənbəhsedərkən, onunikincikomponentinin(çəkür) müasirədəbidilimizdəki "*çək+mək+ür*"strukturundaizahınınyanlışolduğunusöyləmişdir. Müəllif "qədimtürkantroponimlərisistemindəetnoniməsasındayarananadlarınüstünlüktəşkiletdiyininəzərəalsaq, "çəkür"sözünüçakar//çakərbolqaretnonimininfonetikvariantıhesabetməkolar"fikriniirəlisürür. O, T.Nağıyevin, Q.Qeybullayevinsak//şakbolqaretnonimininAzərbaycandakıbəzitoponimlərdəizinisaxlamasıhaqqındakıfikirlərinəistinadetdikdənsonrayazır: "Kitabi-DədəQorqud"unVIIboyunda

“balqarbirər”etnonimininişlədilməsini, sak/şaketnoniminin Azərbaycantoponimlərisistemindəmühafizəedildiyini, digərtərəfdən, “həryerdəəzizolan”anlamındaqunuq (kınık) etnonimininəsasındayarananqırxqınuqunQaraçəkürünoğluolduğununəzərəalsaq, Qaraçəkürantroponimindəki “çəkür”çakar//çakəretnonimininfonetikvariantıdırqənaətibirdahatəsdiqlənmişolur. Deməli, “Qaraçəkür” “*böyük+ çak//sak//şak +ər*”kimitəsəvvüredilməlidir” (19. s.111-112).

Tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, bu ərazilərin aborigen sakinləri türkdilli etnoslar olmuşlar, ona görə də bu regionda mövcud olan yer-yurd adları, əsasən türkmənşəli toponimlərdən ibarətdir.

Özet

Etnonimlerin ve yer adlarının incelenmesi her zaman dilbilimin karşılaştığı en acil sorunlardan biri olmuştur.Bölgedeki Türk kökenli yer adlarının büyük bir kısmı, o bölgeye yerleşmiş nüfusun kökeni ve etnik yapısı hakkında somut gerçekleri yansıtan tek tek kabilelerin ve kabile birliklerinin adlarıdır. Türk halklarının tarihsel olarak yaşadıkları bölgelerin belirlenmesinde ve etnik kompozisyonun belirlenmesinde alanların toponimlerinin incelenmesi daha önemli ve uygundur.

Makalede Türk, Çıralı, Çıralı ve Çakar etnonimlerinden hareketle oluşturulan Türkmence, Çıralı, Çıralı ve Çeraka etnotopoinimlerinin sözlüksel etimolojik açıklaması tartışılımaktadır.Azerbaycan'ın etnogenezinde Türk etnik grubu lider konumdaydı."Türkçe" kelimesine dayanan yer adları oldukça geniş bir dağılım alanına sahiptir. Türk etnik kökenlerine dayanarak, Azerbaycan'daki köy ve yerleşim tipi yerleşim yerlerinin adlarını ifade eden 12 yer adı kaydedildi: Türkan (Bakü), Türkmen (Göyçay, Barda), Türkadi (Kurdemir, Sabirabad), Turkechi (Ujar), Türkekaran , Türkensil (Lenkoran), Türkler (Beylagan, Laçin), Türkoba (Hızı, Masallı).

Çırak//Çırak etnosuna dayalı olarak oluşturulmuş oikonym ve oronym alanlarına gerek Azerbaycan topraklarında, gerekse Batı Azerbaycan, Özbekistan, Dağıstan'da rastlamak mümkündür.Ortaçağ kaynaklarındaisimleri Çakırlı//Çekirli olarak anılan Türkçe konuşan Çairli boyu, Akkoyunlu ve Karagoyunlu boylarına dahil olup, Erdebil kazası ve Muğan'da yaşamıştır. Daha sonra Kızılbaş kabilesi olarak bilinen halk Azerbaycan'ın farklı bölgelerine yayılmışdır.Çakar//çakər etnosu çağımızın başında Kuzey Kafkasya'da yaşayan, Türkçe konuşan Bulgarların Çakar kabilesinden oluşmuşlardır. Bu kabilenin bir kısmı Orta Çağ'ın başlarında Azerbaycan'a gelip buraya yerleşmiştir.

Araştırma sonucunda bu bölgelerin yerli halklarının Türkçe konuşan etnik gruplar olduğu, dolayısıyla bu bölgede var olan yer adlarının ağırlıklı olarak Türk kökenli yer adlarından oluştuğu belirlendi.

Anahtar kelimeler: alansal, toponim, oikonym, oronim, etnotoponim, arkaik

Summary

The study of ethnonyms and place names has always been one of the most pressing problems facing linguistics. Most of the place names of Turkish origin in the region are the names of individual tribes and tribal unions that reflect concrete facts about the origin and ethnic structure of the population settled in that region. Examining the toponyms of the areas is more important and appropriate in determining the regions where the Turkish people have lived historically and in determining the ethnic composition.

In the article, the lexical etymological explanation of the ethnonyms Turkmen, Çıralı, Çıralı and Çeraka, which were created based on the ethnonyms Türk, Çıralı, Çıralı and Çakar, is discussed. The Turkish ethnic group was in a leading position in the ethnogenesis of Azerbaijan. Place names based on the word "Turkish" have a very wide distribution area. Based on Turkic ethnic origins, 12 place names were recorded, denoting the names of villages and settlement-type settlements in Azerbaijan: Türkan (Baku), Türkmen (Göyçay, Barda), Türkadi (Kurdemir, Sabirabad), Turkechi (Ujar), Türkekaran, Türkensil (Lenkoran), Turks (Beylagan, Laçin), Türkoba (Hızı, Masallı).It is possible to encounter oikonyms and oronyms based on the Çırak//Çırak ethnos both in Azerbaijan and in West Azerbaijan, Uzbekistan and Dagestan. The Turkish-speaking Çairli tribe, whose names are mentioned as Çakırlı//Çekirli in medieval sources, was included in the Akkoyunlu and Karagoyunlu tribes and lived in the Ardebil district and Mughan. Later, the people known as the Kızılbaş tribe spread to different regions of Azerbaijan. The Çakar//çakər ethnos consisted of the Çakar tribe of Turkish-speaking Bulgarians living in the North Caucasus at the beginning of our era. Some of this tribe came to Azerbaijan and settled here in the early Middle Ages.

As a result of the research, it was determined that the indigenous people of these regions were Turkish-speaking ethnic groups, and therefore the place names existing in this region consisted mainly of place names of Turkish origin.

Key words: areal, toponym, oikonym, oronym, ethnotoponym, archaic

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Abışov E. El-oba adlarının izi ilə. Bakı. Nafta-Press, 2007, 136 s.

2. Abbasova M.Ə., Bəndəliyev N.S., Məmmədova X.N. Böyük Qafqazın cənub-şərq hissəsinin toponimiyası. Bakı: Elm, 1993, 196 s.

3. Aslanov V. Azərbaycan dilinin tarixinə dair tədqiqlər. I c., Bakı: Elm, 2002, 155 s.

4. Azərbaycan toponimləri. Ensiklopedik lüğət. Bakı: ASE baş redaksiyası nəşri, 1999, 588 s.

5. Бакиханов А. К. Гюлистан-и Ирам. Баку:Элм, 1991. 304 с.

6. Ermənistan Azərbaycanlılarının tarixi coğrafiyası. Bakı: Gənclik, 1995, 464 s.

7. Əhmədov T. El-obamızın adları. Bakı: Gənclik, 1984, 128 s.

8. Əhmədov T. Azərbaycan toponimikasının əsasları. Bakı: BDU nəşri, 1991, 318 s.

9. Hacıyev T. Onomastik vahidlər dilin unudulmaz vahidlərinin qoruyucuları kimi // Azərbaycan onomastikası problemləri. I b., Bakı: APİ nəşri, 1987, s. 279.

10. Xəlilov B. Mahmud Kaşğarinin «Divani lüğət-it-türk» əsərində etnonimlər. Bakı: GARİSMA MMC, 2009, 110 s.

11. İsmayılov M. Azərbaycan xalqının yaranması. Bakı: Azərnəşr, 1985, 72 s.

12. Kaşğari Mahmud. Divanü luğat-it-türk. I c., Bakı: Ozan, 2006, 752 s.

13. Kaşğari Mahmud. Divanü luğat-it-türk. III c., Bakı: Ozan, 2006, 752 s.

14. “Kitabi-Dədə Qorqud” dastanları. Bakı: Yazıçı, 1988, 265 s.

15. Гейбуллаев Г.А. К этногенезу азербайджанского народа. Баку: Элм, 1991, 552 с.

16. Петрушевский И.И.Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI вв. Ленинград: 1949, 383 с.

17. Seyidov M.Ə. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1983, 326 s.

18. Sədiyev Ş. Dil haqqında hekayələr. Bakı: BDU nəşri, 1959, 126 s.

19. Tanrıverdi Ə. “Kitabi-Dədə Qorqud”un söz dünyası. Bakı: Nurlan, 2007, 456 s.

QƏRBİ AZƏRBAYCANIN "ART" KOMPONENTLİ COĞRAFİ ADLARININ PALETNONİMİK MÜSTƏVİDƏ LİNQVİSTİK TƏHLİLİ

MAHİRƏ HÜSEYNOVA

filologiya elmləri doktoru, professor

ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru

Xülasə. Ölkəmiz müstəqillik qazandığı dövrlərdən üzü bəri Qərbi Azərbaycanda (indiki Ermənistan) "art" komponentli coğrafi adlar müxtəlif toponimik lüğətlərdə əksini tapmış, çoxsaylı məqalə və monoqrafiyalarda bu tipdən olan yer-yurd adlarının türkmənşəli olması elmi əsaslarla arqumentləşdirilmiş, kifayət sayda etimoloji arayışlar verilmişdir. "Art" coğrafi termini Azərbaycan dilinin yazıya qədərki leksik-semantik elementlərindən biri kimi Qərbi Azərbaycanın türkmənşəli toponimlərinin yaranması və formalaşmasında aktiv iştirak edən semantik arxaizmdir. Hər hansı bir toponimdə xalqın canlı tarixi yaşayır, onları süni şəkildə dəyişmək, tərcümə etmək, öz dilinə transkripsiya edərək özününküləşdirmək ən azından Allahslızlıqdır, di gəl ki, bu bayquş, köpək xislətli ermənilərin nə dini – imanı var, nə də Allahları. Müqəddəs torpaqlarımızda yaşamaları bir yana, xalqımızın tarixi adlarına da nankor, vandal, qəsbkar, faşist xislətli ermənilərin təbiətindədir, lakin tarix susan deyil, onun da dili var və o dil türkmənşəli toponimlərlə də gerçəkləşdirilə bilir. Erməni irticaçılarının toponimlərimizə təcavüzü kütləvi şəkildə 1935-ci ildən başlayır və "art" komponentli yer-yurd adlarına gücləri çatmadığına görə, onları dəyişdirə bilməmişlər ki, məqalədə bu məsələlər şərh edilir, həmin coğrafi adların poleoetnonimik xüsusiyyətlərinə diqqət yetirilir.

Açar sözlər: art komponentli coğrafi adlar, paleotoponimlər, Qərbi Azərbaycan, erməni vandalizmi, tarixi mənbələr

Summary. Geographical names with the "art" component have been reflected in various toponymic dictionaries since the time when our country gained independence in Western Azerbaijan (now Armenia). Numerous articles and monographs have argued that the Turkic origin of place-names of this type is scientifically based, and a sufficient number of etymological references have been given. The geographical term "Art" is a semantic archaism that actively participates in the creation and formation of toponyms of Turkic origin of Western Azerbaijan as one of the pre-written lexical-semantic elements of the Azerbaijani language. The living history of the people lives in any toponym, to artificially change them, to translate them, to make them one's own by transcribing them into one's own language is at least godless, let's say that these owlish, dog-like Armenians have neither religion nor God. Aside from living in our holy lands, it is in the nature of Armenians to be ungrateful, vandal, usurper, and fascist to the historical names of our people, but history is not silent, it also has a language, and that language can be realized with toponyms of Turkic origin. The encroachment of Armenian reactionaries on our toponyms began massively in 1935, and since they did not have the power to change the names of places with the "art" component, they were not able to change them.

Keywords: geographical names with art components, paleotoponyms, Western Azerbaijan, Armenian vandalism, historical sources

Özet. Ülkemizin Batı Azerbaycan'da (şimdiki Ermenistan) bağımsızlığını kazanmasından bu yana "sanat" bileşenli coğrafi adlar çeşitli yer adlarının sözlüklerinde yansıtılmıştır. Çok sayıda

makale ve monografide bu tür yer adlarının Türk kökeninin bilimsel olduğu ileri sürülmüştür. temel alınarak yeterli sayıda etimolojik referansa yer verilmiştir. Coğrafi "Sanat" terimi, Azerbaycan dilinin önceden yazılmış sözcüksel-anlamsal unsurlarından biri olarak Batı Azerbaycan Türk kökenli yer adlarının yaratılmasına ve oluşumuna aktif olarak katılan anlamsal bir arkaizmdir. Halkın yaşayan tarihini herhangi bir toponimde yaşamak, yapay olarak değiştirmek, tercüme etmek, kendi diline aktararak kendi haline getirmek en azından tanrısızdır, diyelim ki bu baykuşsu, köpeksi Ermenilerin ne dini var, ne de dini var. ne de Tanrı. Kutsal topraklarımızda yaşamak bir yana, halkımızın tarihi isimlerine karşı nankör, vandal, gaspçı, faşist olmak da Ermenilerin doğasında vardır ama tarih sessiz değildir, onun da bir dili vardır ve o dil de dillendirilebilir. Türkçe kökenli yer adlarıyla gerçekleştirilmiştir. Ermeni gericilerinin yer adlarımıza tecavüzü 1935'te kitlesel olarak başladı ve "sanat" unsuru içeren yer adlarını değiştirme yetkileri olmadığı için değiştiremediler.

Anahtar Kelimeler: sanat içerikli coğrafi isimler, paleotoponimler, Batı Azerbaycan, Ermeni vandalizmi, tarihi kaynaklar

Yazıya qədərki dövrün türk – Azərbaycan mənşəli çoxlu sayda leksik-semantik arxaizmləri paleotoponim yaradıcılığında fəal iştirak edən ən etibarlı nitq vahidlərindən olub, xalqın etnogenezisini təyin etmək işində misilsiz rola malikdir. Hazırda Qərbi Azərbaycan ərazisində soydaşlarımız yaşamasa da, burada mövcud olan paleotoponimlər bu topraqların antik dövrdən xalqımıza məxsusluğu barədə böyük və əhatəli tarix danışmaqdadır. Azərbaycan xalqının tarixi Azərbaycan paleotoponimlərinin tarixi qədər qədimdir. Erməni millətçilərinin xalqımıza qarşı soyqırımından, cinayətindən, qətliamlarından, zorla deportasiyasından, tarixi coğrafi adlarımıza vandal münasibətlərindən bəhs edən cənab Prezidentimiz İlham Əliyev 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə demişdir: "*Nəhayət, 1980-ci illərin sonlarında sovet hökuməti xalqımıza qarşı növbəti cinayət törətdi. Bu dəfə Ulu öndər Heydər Əliyevin hakimiyyətdən getməsindən istifadə edən həm erməni millətçiləri, həm onların sovet hökumətindəki havadarları dərhal hərəkətə keçdilər. Heydər Əliyev 1987-ci ilin noyabrında bütün vəzifələrdən uzaqlaşdırılmasından iki həftə sonra erməni millətçiləri baş qaldırdılar. Sovet hökuməti onlara dəstək oldu və həm Qarabağda, həm o vaxtki Ermənistan Respublikasında xalqımıza qarşı növbəti cinayət başlandı. Azərbaycanlılar tarixi diyarı olan Qərbi Azərbaycandan deportasiya edildi və biz bu tarixi yaxşı bilirik, xatırlayırıq və azərbaycanlıların yaşadıqları o məntəqələrin sayını da yaxşı bilirik – 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayırdılar. Mən o vaxtkı Ermənistanı nəzərdə tuturam, Ermənistan Respublikasını nəzərdə tuturam, 90-a yaxın kənddə azərbaycanlılar əksəriyyət təşkil edirdilər və bütövlükdə 300-dən çox şəhər və kənddə azərbaycanlılar əksəriyyət təşkil edirdilər və bütövlükdə 300-dən çox şəhər və kənddə azərbaycanlılar yaşamışlar. Onların hamısı 3 il ərzində Ermənistandan zorla çıxarıldı, qovuldu, bir çoxları öldürüldü, onlara işgəncələr verildi. Bütün bu cinayətlər sovet hökumətinin gözünün önündə baş vermişdi. Sonuncu kəndimiz Nüvədi 1991-ci ilin avqustunda deportasiyaya məruz qaldı. O da azmış kimi Qarabağda da xalqımıza qarşı cinayət törədildi*" (1). Göründüyü kimi, 1988-91-ci illəri əhatə edən, soydaşlarımıza qarşı erməni faşistlərinin törətdikləri qəddarcasına soyqırım və deportasiyanın son mərhələsi cənab Prezidentimizin nitqində kəskin şəkildə pislənilir, "Qərbi Azərbaycanın torpaqları azərbaycanlılara tarixən məxsus olduğuna görə heç vaxt Ermənistan torpağı sayıla bilməz" kimi düzgün və əsaslandırılmış ideya üzərinə fokuslanır. Erməni qaniçənləri təkcə soydaşlarımızı öz qədim dədə-baba yurdlarından qovmaqla kifayətlənməmiş, tarixin danışan dili olan paleotoponimlərimizə də təcavüz etmiş, onların bəzilərini özününküləşdirməyə çalışsalar da, bəzilərinə gücləri çatmamışdır, bunun da əsas səbəbi həmin vandalların xalqımızın etnogenezisində misilsiz rol oynayan qədim toponimlərin məna və mənşəyini dərk etməmələri olmuşdur. Məsələn, *qədim türk mənşəli Artasat toponimini götürək: Ermənilər*

1945-ci ildə bu qədim leksik vahidlər əsasında formalaşmış paleotoponimə təcavüz etmiş, onun strukturunda müəyyən dəyişiklik edə bilmədiklərindən toponimin əvvəlinə "verin" coğrafi terminini əlavə edərək guya ki, ermənilaşdirmişlər (2,373). Fikrimizcə, Artuşat toponimi "art+aş(us)+at" qədim türkdilli leksik vahidləri əsasında formalaşmış və həmin leksik vahidlərin toponim düzəltmədəki rolu uzun bir tarixi yol keçmişdir. Öncə qədim türkmənşəli "art" leksik vahidinin semantikasına və strukturuna diqqət yetirək. T.Əhmədov bu leksik vahidi türk dillərində yazıya qədərki dövrün məhsulu hesab edərək göstərir ki, *"Art" leksik vahidinə hazırda Lənkəran rayonu ərazisində Arta, Astara rayonunda isə Artopa oykonimlərinin tərkibində rast gəlinir. Həmin söz həm semantikasına, həm də strukturuna görə qədim türk abidələrində və bəzi türkcələrdə "dağ, dağ aşırımı, dağ keçidi" mənalarında işləndiyi qeyd edilmiş, eyni sözlə əlaqədardır"* (3,248). E.V.Sevortyan "*art" sözünü etimolojiləşdirərkən onu 2 hissəyə - kök "ar"+şəkilçi"(i)t" komponentlərinə ayıraraq təhlil etmiş və həmin leksik vahidin "ar" getmək (yerdə) və "ı(t)"- feillərdən yer mənalı isim düzəldən şəkilçidən "ibarət" olduğunu göstərmişdir* (4,179). Artasat paleotoponiminin birinci komponentindəki "art" sözü müasir tuvin, şor, qırğız, kumık, altay və s. dillərində "keçid, dağ keçidi, aşırım, dağ aşırımı" mənasında işlənir. "Art" qədim türk leksik vahidinə Qərbi Azərbaycanın və Naxçıvanın Şahbuz rayonu ərazisində mövcud olan "Salvart" oroniminin son komponentində rast gəlinir. "Azərbaycan toponimləri. Ensiklopedik lüğətində göstərilir ki, *"Salvartı//Salvardı" – Şahbuz rayonu ərazisində Zəngəzur silsiləsində dağ adıdır. Xalq etimologiyasına görə, toponim "sal" (sıldırım) və "vardı" (mövcuddur) sözlərindən ibarət olub, dağın zirvəsinin hamar qayadan ibarət olması göstərilir"* (5,424). Bu xalq etimologiyası tam şəkildə özünü doğrultmur. Fikrimizcə, Salvartı paleotoponimi "Sal+v+art" komponentləri əsasında yaranmış və tarixən toponimin formalaşması prosesində "art" türkmənşəli leksik vahidi də mühüm rol oynamışdır. Bu toponimin arxaik yaranış dövrü "Salart" şəklində olmuş, sözün ortasına "v" elementi dialekt və şivələrin təsiri nəticəsində baş vermişdir. "Salvart" toponiminin hər iki komponentindəki "sal" və "art" leksik vahidləri türk dilləri üçün ortaq leksik vahidlər kimi ta qədim dövrlərdən işlənərək, coğrafi termin rolunu, vəzifəsini yerinə yetirmişdir. "Art" coğrafi termini Qərbi Azərbaycanda mövcud olan "Ararat" toponiminin tərkibində də müəyyən fonetik hadisələrə və yaxud erməni dilinin assimilyasiyasına məruz qalaraq işlədilir və biz belə hesab edirik ki, Ararat toponiminin antik şəkli "Arart" sözüdür və ermənilər həmin sözə qısa zaman kəsiyində söz ortası mövqedə bir "a" səsi əlavə etmişlər. Arat sözünün mənasına gəldikdə deyə bilərik ki, türkmənşəli bu toponim "ar" igid, ər, qəhrəman, cəsur adam anlamında və "art" sözü isə "hündür dağ yamaclarında məskunlaşmış oba, kənd (türklərə məxsus)" mənasını ifadə edir. Erməni saxtakar tarixçilərinin uydurduqları qədim dövlət adı olan "Urartu" toponiminin fonetik tərkibində qədim "art" sözü işlənmiş və sözün əvvəlinə və sonuna "ç" saitinin artırılması erməni həyasızlığından başqa bir şey deyildir və bizim nəzərimizcə, bu söz də "sıldırım dağ keçidlərində yaşayan igid, qəhrəman türklərin məskəni" anlamına gəlir. Bu etimoloji faktlar, şübhəsiz ki, indiki Ermənistan ərazisində türkmənşəli əhalinin eradan əvvəlki dövrlərdə yaşadığını və onun aparıcı rola malik olduğunu göstərir. Onu da qeyd etməyi zəruri hesab edirik ki, Ermənistanda əgər uydurma deyilsə, eradan əvvəlki əsrlərdə hakimiyyətdə olmuş (eradan əvvəlki dövrlərdə ermənilərin Qərbi Azərbaycan ərazisində izləri-tozları da yox idi - M.H). Artaşeş, Artaşur kimi şəxs adları da türkmənşəli "art" sözü əsasında formalaşmışdır. Artaşer antroponiminin mənası "Artaşat" toponiminin mənasına tam şəkildə uyğun gəlir. "Artaşur" antroponiminin mənasına gəldikdə isə deyə bilərik ki, antik "art" və "şur" sözləri əsasında formalaşmış bu şəxs adının da hər iki komponenti türkmənşəli olub, "art" coğrafi termin ("dağ keçidi") "şur" isə qədim türk tayfasının adını bildirir, "şur tayfasına məxsus şəxsin dağ keçidində yaşaması" mənasını ifadə edir. Türkmənşəli Artaşat paleotoponimin ikinci hissəsində gələn as//aş etnonimi haqqında dilçilik əsərlərində xeyli araşdırma işlərinə rast gəlirik. Müasir ermənilər hind – qaraçı tayfalarının assimilyasiyası olacağından çox sonralar bu hibrid etnos öz

dillərinə süni olaraq az//as//aş komponentli coğrafi adları saxtalaşdırılmış yolla daxil etmişlər. "As"lar türk xalqlarının, o sıradan Azərbaycan xalqının, soykökündə duran güclü etnoslardan biri idi və bu böyük və adlı-sanlı etnosun eradan qabaq I yüzillikdə Azərbaycanda və ona qonşu ölkələrdə yaşaması haqqında zəngin elmi məlumatlar dəyərli mənbələrdə öz əksini tapmışdır. Ermənilər "aş" türk etnoslarında antik soykökünü, mədəniyyət, adət-ənənə, inam-inanc kimi ən qədim nişanələri görmüş, erkən orta əsrlərdə Qərbi Azərbaycanda deyil, başqa ərazilərdə yaşadıqları zamanlarda həmin nişanələri özlərinin adlarına çıxarmağa başladılar və bu proses Azərbaycan ərazisinə köçürüləndən sonra da davam etdirildi. "Artaşat" paleotoponimin ikinci hissəsində gələn "aş" sözü "as" türk etnosunun adıdır, yəni s-ş samit əvəzlənməsi ilə işlənən variantıdır və türkcələrdə, o cümlədən Azərbaycan dilinin dialekt arealında əskidən bu günə kimi "s, ş" əvəzlənməsi qanuni fonetik haldır. Bəlkə də, dünyada ermənilər yeganə və hibrid etnik qruplardan biridir ki, onların soykökündə, həm də toponim yaradıcılığında "aş" türkmənşəli etnos adı iştirak etməmişdir və iştirak edənlər isə söz oğurluğundan başqa bir şey deyildir. C.İsmayıloğlu da düzgün olaraq göstərir ki, "*bütövlükdə türk xalqlarının, o cümlədən Azərbaycan türklərinin etnogenezisində ilk və başlanğıc olan aslar ümumdünya tarixinin ilk mərhələlərində pozulmaz işləri və həlledici rolu olan xalqdır*" (6,122). Nəzərə alsaq ki, Asiya qitə və Azərbaycan ölkə adlarının birinci komponentində çıxış edən as//az sözləri antik dövrlərin dil yadigarlarındandır və bu xüsusda onun ilkin yaranış dövrünü türklərin onqonu kimi də xarakterizə edib və Kaşğariyə əsaslanmaqla "uğurlu və yaxşı niyyət", "tale" kimi də anlamaq olar və həmin məna və anlamın tayfa adına transformasiyası, yaxud da uyğunlaşması uzun bir tarixi prosesin nəticəsidir, fikrimizcə bu proses eradan əvvəlki yüzilliklərdə baş vermişdir. Orxon-Yenisey abidələrində adı çəkilən "az" qəbilə birləşməsinin, yaxud xalq adı sözsüz ki, "as" sözünün z samiti ilə işlənən formasıdır. Orxon-Yenisey abidələri yazıya alındığı dövrlərdə az//as etnosu türkeş qəbilə birləşməsinin tərkibində olmuşdur ki, bu barədə türkologiyada xeyli sayda araşdırma işlərinə rast gəlirik.

"Artaşat" paleotoponiminin birinci komponentində işlənən "art" coğrafi termini ilə bağlı yaranmış coğrafi adlar Qərbi Azərbaycan ərazisində xeyli saydadır və Q.Qeybullayevin B.Budaqovla şərikli yazdıqları "Ermənistanda Azərbaycan mənşəli toponimlər" kitabına istinadən onlara nümunə olaraq Artavul, Artiz, Artik, Artiqqışlaq, Artiksu və s. coğrafi adları göstərə bilərik (7,128-129) və toponimlərdə "art" sözü "dağlıq ərazi, aşırım" mənasını bildirir, qədim türk mənşəli leksik vahid kimi izah edilir. "Artaşat" paleotoponimin son hissəsində çıxış edən "at"(t) morfoloji göstəriciləri barədə türkologiyada kifayət qədər araşdırma işləri mövcuddur və həmin şəkilçinin qədim türk dillərində cəmlik bildirən morfem funksiyasını icra etməsi əsaslı faktlarla sübuta yetirilmişdir.

Hazırda Ermənistanda Abovyan (keçmiş adı Ellər, Kotayk) rayonu ərazisində "art" komponentli Artiz türkmənşəli toponimi haqqında müəyyən araşdırma işləri aparılmış və əksər tədqiqatlarda bu paleotoponiminin mənşə və etimologiyası ilə bağlı bir neçə mülahizə irəli sürülmüşdür. Artiz paleotoponimi iki komponentdən ibarətdir: "art" və "iz" tərkibləri əsasında formalaşan bu coğrafi adın yaranması və etimologiyası ilə bağlı Əziz Ələkbərlinin fikirləri xüsusi maraq doğurduğundan onu olduğu kimi burada təqdim etməyi məqsədəuyğun hesab edirik: *"art" sözünün qədim türk dilində "dağ" mənasında işlənməsi (məsələn, Ararat, yəni Aradağ) toponiminin "dağlıq ərazidə yaşayan" "Az tayfası" anlamını ortaya qoyur. Artuz yazılışında isə "uz" komponentinin çoxmənalılığında kənd "dağlılar", "dağlı, uzlar", "dağ dərəsi" anlamlarında yazıla bilər. Toponim türk dillərindəki "aşırım" mənasında "ərtiz" sözündən olması ehtimalı da nəzərdən qaçırılmamalıdır*" (8, 537). Qeyd etməliyik ki, "artiz" paleotoponimin ikinci komponentində işlənən "iz" tərkibini tez//tiz, yaxud da, iynəyarpaqlı fəsiləsindən olan "ardıc" ağac adı ilə əlaqələndirən müəlliflərin etimoloji ehtimalları gerçəkliyə

dayanmadığından inandırıcı deyildir, lakin Ə.Ələkbərlinin bu paleotoponimin mənşəyinə baxışı daha ağlabatan təsir bağışlayır.

B.Budaqov və Q.Qeybullayev hər iki komponentini qədim türk leksemləri təşkil edən "artuz" paleotoponimini qeydə almış və onu aşağıdakı kimi etimolojiləşdirməyə cəhd etmişlər: *"İrəvan xanlığının Kurkibasar mahalında kənd adı 1590-cı ildən məlumdur. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır. Ehtimal ki, gəlmə adıdır. Anadoluda Van gölünün cənub sahilində erkən orta əsrlərdə Artoş dağı və mahalından gəlmiş ailələrin məskunlaşması nəticəsində yaranmışdır"* (7,129). Göründüyü kimi toponimistlər "Artuş" coğrafi adının komponentlərinə baş vurmamış lakin həmin yaşayış məntəqəsində türk ailələrin məskunlaşma tarixini qismən düzgün təyin etmişlər. Bizim nəzərimizcə, Artuş paleotoponimi də iki qədim leksik vahid əsasında tarixən "art+us+uş+qus+quz" modelləri zəminində təşəkkül tapmışdır. İkinci komponentdə işlənən "us", "oğuz" sözündə, yəni etnonimində çıxış edən bir heca elementidir, dialekt arealında qədim "oğuz" tayfa adı "oğuz"la yanaşı, "oğuş" fonetikası ilə də işlənir. Deməli, Artuş paleotoponimini "dağda yaşayan oğuzlar" anlamında etimolojiləşdirmək elmi baxımdan inandırıcı görünə bilər.

Nəticə: İndi Ermənistan adlanan Qərbi Azərbaycanın "Art" komponentli paleotoponimlərinin etnolinqvistik müstəvidə tədqiq edilməsinin olduqca elmi və siyasi cəhətdən əhəmiyyəti vardır və bu onunla şərtlənir ki, antik dövrlərdən üzü bəri bu yurd yerləri Azərbaycan türklərinə məxsus olmuş, türkmənşəli etnoslar bu coğrafiyanın ən qədim sakinləri hesab olunmuşlar. "Art" komponentli paleotoponimlərin tədqiqi göstərir ki, bu tipdən olan coğrafi adların heç birində erməni dilinə məxsus qədim leksik, fonetik, semantik elementlər iştirak etməmişdir, çünki bunların hamısı ən azından eradan əvvəlki Azərbaycan türkcəsinin dil materialları əsasında təşəkkül tapmışdır.

Ədəbiyyat

1. Əliyev İ.H. Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündəki nitqi. Bakı şəhəri, 2022-ci il, 24 dekabr.
2. Bayramov İ. Qərbi Azərbaycanın toponimlər sistemi. Bakı, "Elm", 2005.
3. Əhmədov T. Azərbaycan toponimikasının əsasları. Bakı, Bakı Universiteti Nəşriyyatı,1991.
4. Севортян Э.В. Этимологический словарь тюркских языков (общктюркские, межтюркские основы). Москва, «Наука», 1974.
5. Azərbaycan toponimləri. Ensiklopedik lüğət. Bakı, Ensiklopediya nəşriyyatı, 1999.
6. Cəfərov C.İ. Milli etnik yaddaşın izi ilə. Bakı, "Səda", 2005
7. Budaqov B., Qeybullayev Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı.1998.
8. Ələkbərli Ə. Qərbi Azərbaycan, II cild. Zəngibasar, Çərkibasar və Qırxbulaq mahalları(Zəngilan, Qəmərli və Ellər rayonları), Bakı, "Ağrıdağ", 2002.

MƏNSUBİYYƏT ÜZRƏ QƏNAƏT PRİNSİPİNİN POEZİYADA ƏKSİ

KÖNÜL HƏSƏNOVA

Filologiya üzrə fəlsəfə doktoru, dosent

ADPU-nun Filologiya fakültəsinin dekanı

Summary: Linguistics is a field of science related to human language and thinking, language and imagination, language and cognition, language and mind, and studies the interaction of language and culture. In other words, lingucultural science is the science of mentalization-comprehension or perception in the process of human activity. In this field of science, in the object of his analysis and research, he put the problem of the economy law, which is global in the world language model, which manifests itself in linguistic categories. Russian and European linguists have been trying to solve this problem since the beginning of the last century and have been able to create valuable scientific sources until today. In their works, along with problems from other categories, the principle of saving that manifests itself in the category of belonging has been touched upon. Since the issues of researching the forms of the principle of linguistic economy manifested in the category of affiliation in poetry are not satisfactory, in this article we have tried to characterize the universality of both linguistic indicators, i.e. both affiliation and the principle of economy, in the consciousness of language.

Key words: mentality, linguoculturology, interaction of language and culture, ethnonym national-cultural values

Özet: Dilbilim, insan dili ve düşüncesi, dil ve hayal gücü, dil ve biliş, dil ve zihin ile ilgili olan, dil ve kültür etkileşimini inceleyen bir bilim alanıdır. Başka bir deyişle dilkültür bilimi, insan faaliyeti sürecinde zihinselleştirme-anlama veya algılama bilimidir. Bu bilim alanında, dünya dil modelinde küresel olan ve dilsel kategorilerde kendini gösteren ekonomi hukuku sorununu analiz ve araştırmasının nesnesine koymuştur. Rus ve Avrupalı dilbilimciler geçen yüzyılın başından beri bu sorunu çözmeye çalışıyorlar ve günümüze kadar değerli bilimsel kaynaklar oluşturabildiler. Eserlerinde diğer kategorilerdeki sorunların yanı sıra aidiyet kategorisinde de kendini gösteren tasarruf ilkesine değinilmiştir. Şiirde mensubiyet kategorisinde ortaya çıkan dil ekonomisi ilkesinin biçimlerinin araştırılması konuları tatmin edici olmadığından, bu makalede her iki dilsel göstergenin, yani hem mensubiyet hem de ekonomi ilkesinin evrenselliğini karakterize etmeye çalıştık. dil bilinci.

Anahtar kelimeler: zihniyet, dil-kültüroloji, dil ve kültür etkileşimi, etnik isim, milli-kültürel değerler

Şeir mətnlərinin qurulma texnikasında sinonim cərgədən ibarət mənsubiyyət şəkilçiləri ilə işlənən sözlərin aktivliyi özünü göstərir. Belə məqamlarda sinonim cərgəni yaradan sinonim variantda mənsubiyyət şəkilçisi saxlanılır, digərlərində qənaət formasına uyğun bir tərzdə buraxılır. əslində iki sinonim sözün eyni mənsubluq şəkilçisi qəbul edərək işlədilməsinə ehtiyac duyulmur və belə formanın işlənməsi də vacib deyildir. Məs:

Qürur, vüqarınız dağlardan uca,

Cavanla, cavansız qocayla qoca

Üstünlük verirsiz elmdə gücə

Hər yerdə arifsiz, ay Həsən müəllim (2.131)

Bu mətnin birinci misrasında ikiüzvlü sinonim dubletlər işlənmiş, ikincisində (qururunuz) mənsubiyyət şəkilçisi saxlanılmaqla, birincisində buraxılmışdır ki, bu da şeir texnikasının spesifik qayda-qanunlarından irəli gəlir. Əslində, "qürur" sözündə -unuz şəkilçisi ixtisar edilmiş şəkildə olsa da, şeirin oxunuşu prosesində bu şəkilçi təsəvvürümüzdə canlanır. Maddi söz cildində yiyəlik halda işlənməli olan birinci şəxsin cəmindəki "sizin" şəxs əvəzliyinin ixtisarı da mətnin poetexnik tələblərindən irəli gəlmiş, onun işlədilməsinə ehtiyac olmamışdır, lakin bu söz də təsəvvür və təfəkkürümüzdə əks olunma imkanlarına malik bir formadadır. Mənsubiyyət kateqoriyasının yaranması üçün poeziya dilində şəxs əvəzliyi ilə ona aid əşya və ya anlayışın ifadəçiləri olan sözlərin işlədilməsi bir o qədər də vacib deyildir. Azərbaycan poeziyasında olduğu kimi, qohum türkdilli xalqların şeir mətnlərində həm sahib şəxsi, həm də mənsub əşyanı qənaətə uyğun bir formada bir sözlə də ifadə etmək mümkündür. "Sizin qururunuz", "sizin vüqarınız" işlətdiyimiz kimi, sadəcə olaraq bir söz şəklində də "qururunuz, vüqarınız" formasında da işlətmək mümkündür və belə formalar nəinki qohum türkcələr üçün, eyni zamanda müxtəlif sistemli dillər üçün də universallıq yaradan söz şəkilləridirlər. İstər Azərbaycan dilində, istər qohum türkcələrdə, istərsə də müxtəlif sistemli dillərdə mənsubiyyət universal bir kateqoriya olub, oxşar və ya fərqli leksik-semantik vasitələrlə reallaşdırılsa da tərcümə prosesində bir etnomədəniyyətin digər etnomədəniyyətə inteqrasiyası baş verir, istər-istəməz nüxtəlif mədəniyyətlərarası kontekstlər əmələ gətirir ki, bu da mənsubiyyət kateqoriyasının qloballığını, bu xüsusda onda özünü göstərən qənaət formalarının universaliliyini şərtləndirir.

Poeziya dilində intensiv şəkildə işlənən elə birləşməsi mövcuddur ki, mənsubiyyət subyektini bildirən sözdən yiyəlik hal şəkilçisi ixtisar edilir, qənaət edilmiş forma dil normalarını pozmur, heç bir dolaşıqlıq əmələ gətirmir, əksinə, ifadə daha yiğcam, leksik şəkildə dərk edilir. Məs:

Qorbaçov planı yıxdı evimi

Tökdü bu çöllərə doğma elimi

Heydər qurtaracaq dərddən elimi

Mən buna əminəm, ay Həsən lələ (2.141)

Azərbaycan dilinin konkretlikdən ümumiliyə inkişafı ilə əlaqədar olaraq ismin yiyəlik halının həm səkilçili, həm şəkilçisiz variantları formalaşmışdır ki, hər iki forma şeir mətnləri üçün olduqca xarakterikdir, lakin qənaət prinsipi üçün ən effektiv forma mənsubiyyət birləşmələrində yiyəlik halın şəkilçisiz forması hesablanmalıdır. Qorbaçovun planı; Qorbaçov planı. Şeir mətnlərində ikiqat mənsubiyyət birləşməsinin subyekt və komponentlərində birinci qatın yiyəlik halın şəkilçisi işlənir, üslubi məqsədə xidmət edən ikinci qatın morfoloji göstəricisi ixtisar edilərək, qənaət forması əldə edilir, ixtisar edilmiş eyni forma və semantik funksiya daşıyan morfoloji göstərici təfəkkürümüzdə asanlıqla dərk edilir. Məs:

Nur tökülüb üzün qırışlarına,

Sanki qar ələnib ağ saçlarına,

Bənzıyirsən Dəmirtəpə dağına,

Baxdıqca, baxırsan, ay Həsən müəllim (2.142)

Bəndin birinci misrasında "üzün qırışları" mənsubiyyət birləşməsindəki "üzün" yiyəlik haldakı sözü birləşmənin subyekt tərəfidir, bir qat şəkildə morfolojiləşmişdir və onu ikiqat şəkildə də morfolojiləşdirmək mümkündür. Belə olan halda mətndə bir ağırlıq, artıqlıq özünü biruzə verəcəkdir. Həmin subyekt sözə "sənin" yiyəlik halda işlənən ikinci şəxsin təkindəki əvəzliyi

də əlavə edə bilərik. Sənin üzünün qırışlarına – belə olan halda mənsubiyyət birləşməsinin tərkibi genişlənir, aradan qalxmış olur, həmin model şeir mətni üçün məqbul sayılmır. Çünki ağırlaşma, mətnin heca bölgüsünün prinsipləri, qayda-qanunları ritmik çərçivə sistemindən çıxmış olur.

Şeir mətnlərində mənsubiyyət kateqoriyasının morfoloji-sintaktik üsulla ifadəsində qənaətəuyğun şəkildə bir neçə variantda özünü təzahür etdirir. Bu variantlardan biri və ən geniş spesifiki birinci şəxsin cəmində ikinci komponentdəki sözün tərkibində -mız[4] şəkilçisinin ixtisar edilməsidir. Məs:

Sən bizim ellərin alim oğlusan

Fəxr edir sənlə o ellər, inan,

Arpadan başlamış Qabusluyacan

O elin fəxrisən, ay Həsən müəllim (2.142)

Mətnin birinci misrasında şəxs paradiqmasına görə "bizim ellər" şəklində işlədilmiş mənsubiyyət birləşməsinin ikinci komponenti "ellərimiz" morfoloji tərkibində olmalıdır, lakin kommunikativ akt tələb etmişdir ki, həmin komponent şəkilçisiz (-miz) işlənsin və belə forma linqvistik qənaət üçün ən universal variantdır.

Mənsubiyyət birləşmələrinin, komponentlərinin yerlərini dəyişərək işlədilməsi şeir dili, poetikası üçün qanunauyğun linqvistik hal olub, kommunikativ prosesin ifadəsi ilə birbaşa, üzvi şəkildə bağlı bir meyar kimi qənaət prinsipinin yaranması üçün stimul rolunu oynayır. Məs:

Çəkirsən <u>qeyrətin doğma vətənin</u>

Hər qarış torpağın, çayın, çəmənin

İndi nə sənindir, nə də ki mənim

Bilirəm dərdlisən, ay Həsən müəllim (2.142)

Altından xətt çəkilmiş mənsubiyyət birləşməsi modelində olan tərkib əslində ədəbi dil normasına uyğun olaraq "<u>doğma vətənin qeyrətini</u>" morfoloji tərkibində olmalı idi. Belə olan halda birləşmənin subyekt tərəfindən sonra işlənən komponentə (qeyrətin) -i şəkilçisi artırılması zəhməti ortaya çıxır, ikiqat mənsubiyyət şəkli yaradılır, mətnin forma yükünü cüzi bir şəkildə yüngülləşdirməyə xidmət göstərir. Həmin şeir mətnində diqqəti çəkən üçüncü misrada da mənsubiyyət kateqoriyasına aid cəhətlərdir. Dilimizdə "ki" sözünün bağlayıcı, ədat kimi funksionallaşması məlum olsa da, onun mənsubiyyət kateqoriyasına xidməti barədə demək olar ki, epizodik fikirlər söylənilmişdir. Təhlilə cəlb etdiyimiz qənaət prinsipi aspektindən və semantik yöndən şeir mətninin üçüncü misrasından "indi nə sənindir, nə də ki mənim" söyləmində "ki" elementindən açıq aydın şəkildə semantik mənsubluq çaları yaratmaq keyfiyyəti sezilir. Misrada linqvistik əməliyyat aparmaqla da bu semantik çaları aydın şəkildə görə bilərik. "İndi nə sənindir, nə də mənimkidir". Belə olan təqdirdə semantik cəhətdən mənsubluq anlayışı intensivləşir və misranı qənaət formasına müvafiq bir tərzdə belə də modelləşdirmək mümkündür: "indi nə sənindir, nə mənimkidir". İnkarlıq məzmunun reallaşdıran birinci komponentdə subyekt əvəzlikdən sonra "-dır[4]" xəbərlik şəkilçisinin ixtisarı qənaət hadisəsi yaradır ki, bu da ayrıca bir araşdırmanın mövzusudur. Mənsubluq bildirən "ki" elementini də ixtisar etmək mümkündür və belə olan halda da qənaət yaradılmışdır. " indi nə sənin, nə mənimkidir". Bu formada cümlənin, yəni tabesiz mürəkkəb cümlənin birinci komponentində subyekt sözdə həm "ki" mənsubluq elementinə, həm də "-dır" şəkilçisinə qənaət edilmiş olur.

Poeziyada mənsubiyyət kateqoriyasına məxsus morfoloji göstəricilərin qənaət naminə ixtisar edilməsi sözün misra və ya bənddə işlədilmə mövqeyindən asılı olur. Belə formaların şeir dilində işlədilməsi müəyyən orfoepik və qrammatik normaların yaranması üçün əhəmiyyətli stimul rolunu oynayır. Məs:

Ayrı düşdük ata baba elindən,

Göl yaranın gözümüzün selindən,

Nəğmə söylə Ələsgərin dilindən

Dədəmizə oyan deyək, ay Həsən!(2.152)

Bu şeir bəndinin birinci misrasında poetik fikir birinci şəxsin cəminin morfoloji göstəricisi (ayrı düşdük) əsasında əksini tapır və onun tələblərinə müvafiq olaraq mənsubiyyət birləşməsi "ata babamın elindən" yaxud da "ata baba elimizdən" morfoloji tərkiblərində olmalı idi, lakin belə olan halda da, yəni şeir mətnində işlənən formada da linqvistik normalaşmaya xələl gəlmir, sadə olaraq birləşmənin komponentlərində -mızın mənsubiyyət və yiyəlik hal şəkilçilərinin işlədilməsi lazımsız görünür. Bu və ya digər nümunələrdən də aydın şəkildə görünür ki, şeir mətnlərində işlədilmə mövqeyindən, o cümlədən dilin konkretlikdən ümumiliyə doğru inkişafı ilə əlaqədar olaraq belə ixtisar formaları qənaət prinsipi üçün ən universal fonemorfoloji hadisə hesab olunur.

Şeir mətnlərində kommunikativ prosesdə birinci komponenti əvəzliklə ifadə olunan mənsubiyyət birləşmələrində şəxs əvəzliklərini maddi söz cildindəki formalarını müəyyənləşdirmək bir o qədər çətinlik törətmir, çünki hər bir şəxsə aid şəkilçi o şəxsə aid olan funksiyasını yerinə yetirmək iqtidarında olurlar, maddi söz cildində mən, sən, o, biz, siz, onlar tək və cəm məzmunu bildirən şəxs əvəzliklərinin işlədilməsinə ehtiyac qalmır. Fikrimizi bir şeir mətni və şəxs paradiqmaları üzrə linqvistik əməliyyatlar aparmaqla əsaslandıra bilərik:

Baxışların çox yorğundur,

Əməllərin tam doğrudur,

Bu millətin ər oğludur,

Həqiqətən, Həsən Mirzə!(2.162)

Bu mətndə mənsubluq məzmunu II şəxsin təkinin (sənin) -ın, -in (baxışların, əməllərin) şəkilçiləri ifadə olunmuşdur. Əlaqəli söz (sənin) maddi söz cildində şeirin poetexnik tələblərindən asılı olaraq mətndən məhrum, yaxud da təcrid edilmişdir. Üçüncü misrada III şəxsin təkindəki "o" şəxs əvəzliyi də işlənməmişdir. Bunları tərəfimizdən əməliyyat aparıb yerinə qoysaq, onda, mətn II və III şəxsin məzmununa müvafiq bir tərzdə qurulacaqdır:

(sənin) Baxışların çox yorğundur

(sənin) Əməllərin lap doğrudur,

(o) Bu millətin ər oğludur,

Həqiqətən, Həsən Mirzə!

Əvəzliklə ifadə olunan belə mənsubiyyət birləşmələrini bütün şəxs formaları üzrə dəyişdirmək mümkündür. "Mənim baxışlarım", "mənim əməllərim" (birinci şəxsin təki); "onun baxışları", "onun əməlləri" (ikinci şəxsin cəmi); "onların baxışları", "onların əməlləri" (III şəxsin cəmi). Poeziyada mənsubluq məzmunu reallaşdıran şəxs əvəzliklərinin maddi cilddəki söz formalarını onların morfoloji göstəriciləri ilə müəyyənləşdirmək olduqca asan olur.

"*Azərbaycan dilində elə mənsubiyyət birləşmələri də var ki, onların ya birinci, yaxud da ikinci tərəfi qayıdış əvəzliyi ilə ifadə olunur"* (1.35). Şeir mətnlərində bu tip mənsubiyyət birləşmələrinin yaranmasında "öz" qayıdış əvəzliyi müstəsna rol oynayaraq, həm birləşmənin birinci, həm də ikinci komponentində işlənir və bu prosesdə həmin qayıdış əvəzliyi qənaətə müvafiq bir tərzdə şəkilçisiz işlənir, mənsubiyyət şəkilçisi abstrakt şəkildə oxucu təsəvvüründə canlana bilir. Məs:

O yaxşı tanıyır öz meydanını,

Alov meydanını, köz meydanını,

Sənlə başladı söz meydanını,

Sözün sərrafıdır, xalqına bağlı,

Butadan bir xəbər, Mirzəlioğlu! (2.176)

Bu bəndin birinci misrasında "öz meydanını" birləşməsinin birinci komponenti "öz" qayıdış əvəzliyi ilə ifadə olunmuş və həmin əvəzlikdə yiyəlik halın "-nün" şəkilçisi ixtisar olunaraq qənaət formasında verilmişdir. Poeziya dilində spesifik və intensiv hal kimi "mən özüm", "sən özün", "o özü", "biz özümüz", "siz özünüz", "onlar özləri" birləşmələri əksər hallarda birinci tərəfi qayıdış əvəzliyi ilə ifadə olunan mənsubiyyət birləşməsinin birinci tərəfi həm yiyəlik hal şəkilçisi ilə, həm də bu şəkilçi qəbul etmədən də işlənir (1.35). Şəxs paradiqması üzrə birinci komponenti "öz" qayıdış əvəzliyi ilə ifadə olunmuş mənsubiyyət birləşmələrini belə də modelləşdirmək olur: mənim özümün meydanım, sənin özünün meydanın, onun özünün meydanı, bizim özümüzün meydanımız, sizin özünüzün meydanınız, onların özlərinin meydanları. Y. Seyidov belə birləşmələrdən bəhs edərək göstərir: "... mən özüm, sən özün, o özü, biz özümüz, siz özünüz, onlar özləri tipli birləşmələrin ikinci tərəfi birinci tərəfin komponentidir, lakin bunların ikinci tərəfi birinci tərəfə yeni məna gətirmək, birinci tərəfi bu və ya digər başqa cəhətdən izah etmək məqsədi daşımır. O, daha çox üslubi xüsusiyyət daşıyır, birinci tərəfi nəzərə çarpdırmaq, onu məntiqi vurğulu etmək məqsədi ilə işlədilir" (3.180). Şeirdə birinci və yaxud da ikinci komponenti "öz"qayıdış əvəzliyi işlənən mənsubiyyət birləşmələrinin tərəflərindən biri ümumi və ya xüsusi isimlərlə ifadə olunur və belə məqamlarda yiyəlik hal şəkilçisinə qənaət edilir. Məs:

Əzizinəm, öz dərdim,

Gül dərdim, qönçə dərdim,

Neynirəm özgə dərdin,

Bes edər özümə öz dərdim (4.108)

Folklor örnəklərində, xüsusən də, bayatılardan qənaət formasına uyğun "öz" qayıdış əvəzliyinin ismin qeyri-müəyyən yiyəlik halında, yəni şəkilçisiz variantda işlənməsi halları aktiv müşahidə olunur. "Öz" qayıdış əvəzliyinin stabil vəziyyətdə də semantik məzmununda bir mənsubluq çaları mövcuddur və şeir mətnlərində bəzi hallarda həmin əvəzlik üçqat mənsubiyyət şəkilçisi (öz-ü-nün-kü) qəbul edərək morfolojiləşmə imkanları qazanır. Belə məqamlarda "öz" qayıdış əvəzliyinin morfoloji tərkibində qənaət prinsipinə yol verilməsə də, bu prinsip özünü üçüncü şəxsin təkindəki "o" şəxs əvəzliyinin buraxılması ilə təzahür etdirir. Məs:

Əhriman dağıtdı gözəl novrağı

Murdar əllərilə quyular qazdı,

Özününkü etdi daşı torpağı,

Türkün buz daşına adını yazdı (2.179)

Nəticə: Şeir mətnlərinin ritmik, melodik, ahəngdar bir şəkildə verilməsində mənsubiyyət kateqoriyası əsasında özünü göstərən qənaət prinsipi poetik üslubun tələblərinə tam cavab verir. Bu linqvistik prinsip poeziya dili üçün xüsusilə səciyyəvi olub, digər linqvistik kateqoriyalar kimi, mənsubiyyətdə də ön plana çəkilir, poetik mətləbin yığcam, lakonik biçimlərdə təqdiminə şərait yaradır, şeir dilinin strukturunda, daxili vəhdətinin nizamlanmasında misilsiz dərəcədə əhəmiyyətli rol oynayır.

Ədəbiyyat

1. Müasir Azərbaycan dili -Morfologiya, II cild, Bakı “Elm” 1980, S.108
2. Həsən Mirzə- Mən necə unudum belə dərdimi?! Bakı “Qismət” 2004, 304 s.
3. Seyidov Y.- Azərbaycan ədəbi dilində söz birləşmələri. Bakı, “Maarif”, 1966, 203 s.
4. Azərbaycan folklor antologiyası. Bakı, Azərbaycan SSR E.A. Nəşriyyatı, 1964, 301s.

"FÜYUZAT" JURNALDA POEZİYA: ƏSAS MÖVZULAR VƏ JANRLAR

ƏSƏDOVA VÜSALƏ İSLAM QIZI

ADPU, Müasir Azərbaycan dili kafedrası, müəllim

ORCİD İD: 0009-0005-4403-1284

Xülasə

Romantizm ədəbi cərəyanın bariz nümunəsi kimi ədəbiyyat tarixində özünəməxsus imza ilə çıxış edən "Füyuzat" jurnalı səhifələrində nəsr əsərləri ilə yanaşı, şeirlərin də çapına xüsusi diqqət ayırmışdır. Təkcə Azərbaycan ədəbiyyatı nümayəndələri deyil, eyni zamanda tərcümə əsərlərin də yer aldığı jurnalın səhifələrində mövzu, janr baxımdan rəngarəngliyi ilə seçilən çoxlu şeir nümunməsi çap olunmuşdur. Daha çox maarifpərvərlik, xalqın, cəmiyyətin inkişafı, Azərbaycan xalqının bəzi zümrələrinin xarici ədəbiyyat nümunələri ilə tanış etməyi qarşısına məqsəd qoyan füyuzatçılar bu ideya ətrafında möhkəm birlik təşkil etmişdilər.

"Füyuzat"dakı şeirlər həm forma-məzmun, həm mövzu-ideya, həm də müəllif baxımından müxtəlifliyi ilə diqqəti cəlb edir. Jurnalın elə bir nömrəsi yoxdur ki, orada bir və ya bir neçə orijinal şeir, yaxud poetik tərcümə nəşr olunmasın. Bir illik nəşri dövründə Azərbaycan və türk xalqlarının milli əsarətə qarşı mübarizə tarixinin siyasi və bədii salnaməsinə çevrilən" "Füyuzat" jurnalında nəşr olunan orijinal poetik əsərləri nəzərdən keçirəndən sonra belə bir mənzərənin şahidi oluruq.

Açar sözlər: Əli bəy Hüseynzadə, "Füyuzat", nəzm, poeziya, Məhəmməd Hadi

Summary

As a clear example of the romanticism literary movement, "Fyuuzat" magazine, which has a unique signature in the history of literature, paid special attention to the publication of prose works as well as poems. Not only representatives of Azerbaijani literature, but also translated works are published in the pages of the magazine, which are distinguished by their variety of topics and genres. The fuyuzatists, who set themselves the goal of more enlightenment, the development of the people, society, and introducing foreign literature samples of some sections of the Azerbaijani people, formed a strong unity around this idea.

The poems in "Fyuuzat" attract attention with their diversity in terms of form-content, theme-idea, and author. There is no issue of the magazine without one or more original poems or poetic translations. After reviewing the original poetic works published in the "Fyuuzat" magazine, which became a political and artistic chronicle of the history of the struggle against national slavery of the Azerbaijani and Turkish peoples during its one-year publication period, we witness such a picture

Key words: Ali Bey Huseynzade, "Fyuuzat", verse, poetry, Muhammad Hadi

"Füyuzat" jurnalında dərc edilən bədii nümunələr içərisində şeirlər çoxluq təşkil edir. "Azərbaycan ədəbiyyatında romantizm" adlı fundamental əsərində akademik Məmməd Cəfərin dediyi kimi: "Romantiklərin nəzərində ədəbiyyat əyləncə deyildi, mübarizə vasitəsi idi" (1, s.54). Əsasən romantiklərin tribunası olub şeirin mənəviyyata daha çox təsir gücünə malik olduğunu və "əyləncə deyil, mübarizə vasitəsi" olduğunu nəzərə alan jurnalın, demək olar ki, hər nömrəsində poetik nümunələr verməsi qanunauyğun bir hala çevrilmiş, bu poetik

nümunələr üslub, məzmun, mündəricə, janr, sənətkarlıq baxımından bir-birindən fərqlənsələr də, onları ümumi bir ruh və ideya birləşdirirdi: millətə, milli mənafeyə və insanlığa xidmət. Başqa bütün şairanə hiss və həyəcanlar bu baş mövzu ətrafında cərəyan edir, bəşəriyyətin səadətini hürriyyətdə və maariflənməkdə görən sənətkarlar daha çox mənəvi, əxlaqi məsələlərə üstünlük verir və bununla da tarixin onların boynuna qoyduğu vətəndaşlıq və insanlıq vəzifəsini ləyaqətlə yerinə yetirməyə çalışırdılar.

"Füyuzat"dakı şeirlər həm forma-məzmun, həm mövzu-ideya, həm də müəllif baxımından müxtəlifliyi ilə diqqəti cəlb edir. Jurnalın elə bir nömrəsi yoxdur ki, orada bir və ya bir neçə orijinal şeir, yaxud poetik tərcümə nəşr olunmasın. Yeri gəlmişkən, qeyd edək ki, məcmuənin 27-ci və 3-ci nömrələri istisna olmaqla, qalan otuz nömrədə doxsan beş orijinal şeir nümunəsi dərc olunmuşdur.

"Füyuzat"ın səhifələrində dərc olunan poeziya nümunələrini iki yerə bölmək olar: 1) orijinal əsərlər; 2) poetik tərcümələr.

Məcmuədə dərc olunan şeirlər, əsasən, Azərbaycan və osmanlı türkcəsində olsa da, jurnalda ara-sıra fars, ərəb, hətta özbək dilində də poetik nümunələr dərc olunurdu.

Jurnal səhifələrində azərbaycanlı müəlliflərdən Abbasqulu ağa Bakıxanov, Əli bəy Hüseynzadə, Məhəmməd Hadi, Mirzə Ələkbər Sabir, Abdulla Şaiq, Hüseyn Cavid, Mirzə Həsib Qudsi, İbrahim Tahir Musayev, Səid Səlmasi, Məmməd Əmin Rəsulzadə, Əbdülxalıq Qafarzadə (Cənnəti), osmanlı müəlliflərindən Tofiq Fikrət, Abdulla Cövdət, Əbdülhəq Hamid, Mahmud Əkrəm Rəcaizadə, Əhməd Kamal, İsmayıl Səfa və başqalarının şeirlərinə yer ayırırdı.

Jurnalda dərc olunan şeirlər mövzuca rəngarəng olduğu kimi, janr etibarı ilə də rəngarəng idi. Burada lirik növün klassik şeir şəkillərindən olan qitə, qəzəl, qəsidə, məsnəvi, mürəbbe, müxəmməs, təxmis, müsəddəs, müstəzad, tərcibənd janrları ilə yanaşı, həmin dövrə qədər Azərbaycan ədəbiyyatında az təsadüf olunan, yaxud heç işlənməyən çarpaz qafiyəli dördlüklərə (A.Cövdət. "Bir kitabeyi-səngi-məzar" (N 8, s. 119-120), "Sənin üçün" (N 24, s. 378); M.Hadi. "Mövludi-fəxri-aləm" (N 15, s. 129); A.Səhhət. "Bir vərəqdir kitabi-xilqətdən - Dalonlidən tərcümə" (N 16, s. 246); Ə.Kamal. "Şəbgərdi-xəyal" (N 26, s. 402-403); sonetlərə (Ə.Hüseynzadə. "Cənnəti- qaibə - Miltondan tərcümə" (N 2, s. 30-31); Ə.Kamal. "Fəlsəfeyi-pərişan" (N 17, s. 261); "Gözəlim, açma maziyi" (N 18, s. 283); S.Səlmasi. "Xəyali-mənfur" (N 20, s. 316); "Farsca ilk sone" (N 22, s. 348); hər bəndi altı misralıq 1-3, 2-4, 5-6 (*ac bç dd*) qafiyə sisteminə malik şeirə (H.Cavid. "Hali-əsəfiştimalımı təsvirdə bir ahi- məzlumanə" (N 15, s. 231-232); hər bəndi doqquz misralıq, səkkiz misrası 1-3, 2-4, 5-7, 6-8 (*ac bç də ef*) şəklində qafiyələnən, birinci bəndin doqquzuncu misrası ya olduğu kimi, ya da qismən hər bəndin sonunda təkrarlanan poetik nümunəyə M.Ə.Rəcaizadə. "Yad et" (N 21, s. 334-335); 1-4, 2-3, 5-6 (*aç bc de*) formasında qafiyələnən bəndləri altı misralıq şeir şəklinə (İ.Səfa. "Yüksək bir dağa" (N 23, s. 360); hər bəndi on bir misradan ibarət olub 1-4, 2-3, 5-9, 6-7-8, 10-11 (*aç bc dg əef ğh*) kimi qafiyələnən şeir formasına (Ə.Mehrənnisa xanım. "Bir qız tanırdım" (N 25, s. 393-394); hətta sərbəst şeirə də rast gəlirik (Hüseyn Suad. Buvadamurda (N 19, s. 304). M.Rəsulzadənin qismən gəraylıya oxşar *aaab, cccb, dddb, eeeb ....* formasında qafiyələnən yeddi bəndlik səkkiz hecalı şeiri istisna olmaqla, jurnalda xalq şeiri formasında olan müstəqil poetik əsərə təsadüf etmədik (N 30, s.473).

Yaranıb formalaşmasında Əli bəy Hüseynzadə və "Füyuzat" məcmuəsinin danılmaz təsiri olan romantizm ədəbi cərəyanı akademik İsa Həbibbəylinin sözləri ilə desək: "Əsrlərdən bəri ədəbiyyatda yaşamaqda olan romantik ənənələrin yeni inkişafina zəmin yaratmış, cəmiyyətin və insan həyatının vacib mənəvi problemlərinin inikasını ön mövqeyə çəkmişdir. Ağılın ideal həqiqət axtarılığındakı həlledici rolu təsdiq edilmiş, romantiklər bu yolla özlərinin xoşbəxt gələcək, ideal həyat arzularını izhar etmiş, mövcud cəmiyyətin ictimai eyiblərini açıb

göstərməyə müvəffəq olmuşlar" (3, s. 101).

"Füyuzat"m səhifələrində orijinal şeirləri, əsasən, aşağıdakı baş mövzular ətrafında araşdırmaq, fikrimizcə, daha effektli ola bilər:

1. İctimai-siyasi şeirlər;
2. Maarifçilik ruhunda olan əsərlər;
3. Məhəbbət lirikası.

Əlbəttə, bölgü şərtidir və bir qədər sonra görəcəyimiz kimi, şeirlərin əksəriyyətində bir neçə mövzunun qarışıq şəkildə poetik şəkildə inikasına rast gəlmək olur.

"Füyuzat"da çap olunan poetik əsərlərin əksəriyyətini inqilab və təcəddüd əsri olan XX yüzilliyin ilk onilliklərinin ruhuna uyğun olan ictimai-siyasi məzmunlu şeirlər təşkil edir. Bunların içərisində dünyanın və cəmiyyətin real durumuna, ictimai bərabərsizliyə, dövrün insanı kölə halına salan ədalətsiz qanunlarına və anti-insani idarəçilik sisteminə, birlik və ittihada, ümumi məhəbbətə, şəxsiyyət azadlığına və s. bu kimi problemlərə həsr olunmuş şeirlərə daha çox rast gəlmək olur. Jurnalda dərc olunmuş ictimai məzmunlu, həmin illərin siyasi lirikasının gözəl nümunələri olan bir çox əsərləri konkret mövzu və problem əsasında tədqiq etmək çətindir. Çünki belə əsərlərin əksəriyyətində mövzu şaxələnir. Yəni ictimai bərabərsizlikdən danışılan şeirdə milli birlikdən də, hürriyyətdən də, tərəqqi və təkamüldən də, müsəlmanların, xüsusilə türklərin şərəfli keçmişdindən də, müasir dövrdə üzləşdiyi çətinliklərdən də bəhs olunur. Biz bunu lirik növün, daha çox emosional ovqatın məhsulu olan poeziyanın əlaməti kimi qəbul edirik.

Jurnalda Ə.Hüseynzadənin iki şeiri çap olunmuşdur ki, bunların hər ikisi ictimai mövzudadır və zəmanəsi üçün aktual olan problemlərlə yaxından səsləşirlər: "Heyrət, yaxud bir mələyin insanlara xitabı", "Həsbi-hal, yaxud bizim Hadinin iztirabı". Mətlə beytində təxəllüsü göstərilməyən birinci şeir janrına görə qəsidə, ikincisi isə məsnəvidir.

Jurnalın ilk sayında çıxan "Heyrət, yaxud bir mələyin insanlara xitabı" şeiri (5, s.10-11) məcmuənin ideya istiqamətini dəqiq müəyyənləşdirən əsərlərdəndir.

"Dəli şair" imzası ilə dərc olunan bu şeirin sərlövhəsindən sonra "Bir osmanlı qəzetəsindən götürülmüşdür" sözləri yazılmış, axırda isə belə bir qeyd verilmişdir: "Füyuzat: "Dəli şair"in bu sözlərini Qafqaziyamız əhalisi və ələlxüsus Bakı camaatı əzbərləyib hafizəsinə nəqş edə bilsə, ola bilər ki, qəti-nəfs cinayətləri şəhərimizdə bir az azalsın" (5, s. 11).

F.ü.e.d., professor Bədirxan Əhmədovun "onun – Ə.Hüseynzadənin (V.Ə.) "Dəli şair" imzası ilə təqdim etdiyi "Heyrət, yaxud bir mələyin insanlara xitabı" şeiri siyasi mövzudakı fikirlərinin, demək olar ki, manifestidir" (7, s.67), – deyə qiymətləndirdiyi şeirin təhlilinə keçməzdən əvvəl bir məsələyə münasibət bildirməyi zəruri hesab edirik. F.ü.f.d. Ofeliya Bayramlının Əli bəy Hüseynzadənin əsəri hesab edərək Ə.Hüseynzadənin "Seçilmiş əsərləri"nə daxil etdiyi (4, s.31) şeirin müəllifinin kimliyi indiyə qədər ədəbiyyatşünaslıqda mübahisəli məsələlərdəndir. Bir neçəsinə diqqət edək.

F.ü.e.d., professor İslam Ağayev şerin Ə.Hüseynzadənin olduğunu bildirərək yazır: "Şeirin özünə gəlincə, burada həm məzmun, həm dil, üslub cəhətdən Əli bəyin bu dövrdə açıq imza ilə çıxmış "Həsbi-hal" (müəllif jurnalın 25-ci nömrəsində "Füyuzati" imzası ilə çıxan "Həsbi-hal, yaxud bizim Hadinin iztirabı" şeirini nəzərdə tutur –V.Ə.) şeirilə yaxından səsləşən cəhətlər vardır. Ən başlıcası, bu şeirin dili XIX əsrin sonu, XX əsrin əvvəllərinin Osmanlı Türkiyəsində yaşayan şairlərin dil və üslubundan tamamilə fərqlənir... "Dəli şairi'in "Bir osmanlı qəzetəsindən götürülmüşdür" sözlərini əslində Əli bəy Hüseynzadənin təvazökarlığından doğan

bir bədii fənd hesab etmək olar" (7, s.16-17).

F.ü.e.d., professor Şamil Vəliyev şeirin müəllifinin kimliyi barədə konkret bir fikir irəli sürməsə də, şeirdən bəhs olunan səhifənin sonunda belə bir qeyd verir: "Bu şeirin Ə.Hüseynzadə və yaxud da Türkiyədə Dəli Hikmət adıyla tanınan şair tərəfindən yazıldığı ehtimal olunur. Müqayisə üçün. Bax: Ə.Kölpünarlı. Divan şeiri XIX yüzil, İstanbul, 1955, s.128"

F.ü.e.d., professor Aydın Abi Aydın əsərin XIX əsr türk şairi Dəli Hikmətin olduğunu əsaslandırmağa çalışır, daha çox "Dəli şair" imzası və jurnalın "Bir osmanlı qəzetəsindən götürülmüşdür" qeydi üzərində dayanaraq fikirlərini belə ümumiləşdirir: "Ancaq nədənsə tədqiqatçılarımız "Füyuzat"ın yuxarıdakı qeydlərinə əhəmiyyət verməmiş və elə sadəcə olaraq, jurnalın adlandırdığı kimi qəbul etməklə işi bitmiş saymışlar. Halbuki həmin qeydlərdə açıq şəkildə bildirilir ki, o, Azərbaycan şairi deyildir" (1, s. 15-16).

F.ü.e.d. İslam Qəribli şeri M.Hadinin əsəri hesab edən t.ü.f.d Aydın Xəlilovla razılaşmayaraq yazır: "Şeirin M.Hadinin olmadığını sübut üçün bircə faktı söyləmək yetərlidir. Altıncı nömrədə çıxmış şeiri ("Füyuzat" jurnalının 6-cı nömrəsində dərc olunan "Dəli şairə dəlilər mühibbi olan bir quşun köməyi – Tövsiyeyi-mürğ" şeiri nəzərdə tutulur - V.Ə.) M.Hadi öz əsəri kimi "Firdovsi- ilhamat"a daxil etmiş, birinci nömrədəki şeiri isə məhz başqa müəllifin olduğu üçün kitabına salmamışdır. Bizcə, şeirin müəllifi Əli bəy Hüseynzadədir"

F.ü.f.d. Rasim Mirzə heç bir qeyd-şərt irəli sürmədən şeiri Əli bəy Hüseynzadəyə aid edir . F.ü.f.d. Azər Turan isə şeiri Ə.Hüseynzadənin əsəri esab etməyən f.ü.e.d. Aybəniz Əliyeva (Kəngərli) və t.e.f.d. Aydın Xəlilovla polemikaya girərək şeirin nə türk şairi Dəli Hikmətə, nə də M.Hadiyə deyil, Ə.Hüseynzadəyə məxsus olduğunu sübut etməyə çalışır

F.ü.e.d. Aybəniz Əliyeva (Kəngərli) Ə.Kölpünarlmm "Divan şeiri XIX yüzil" psərinə istinadən şeirin Dəli Hikmətə aid olduğunu bildirir. Sonra da fikrini qüvvətləndirmək üçün şeirin son beytini (İlahi, yox xəbiri-hikmətin, ancaq yapan sənsən, Nə yapsın əql irişməz, neyləsin izanlar? İnsanlar! - V.Ə.) :

İlahi, yox xəbəri Hikmətin, ancaq yapan sənsin!

Nə yapsın, əql irişməz, neyləsin insanlar? İnsanlar! –

şəklində oxuyaraq fikrini belə yekunlaşdırır: "Heyrət, yaxud bir mələyin insanlara xitabı" şeiri yuxarıda gətirdiyimiz ilk misrada adı çəkilən Hikmətə məxsusdur, onun Əli bəyə məxsusluğu barədə heç bir mübahisə, ehtimal ola bilməz. Hikmət XIX yüzil divan şeirinin istedadlı nümayəndələrindəndir və digər şeirlərinin üslubu da bu şeirin ona məxsusluğuna inandırır" .

Amma burasını da qeyd edək ki, müəllif "Hikmət XIX yüzil divan şeirinin istedadlı nümayəndələrindəndir və digər şeirlərinin üslubu da bu şeirin ona məxsusluğuna inandırır" cümləsini yazsa da, onun XIX əsr türk ədəbiyyatındakı mövqeyi barədə heç bir məlumat vermədiyi kimi, heç bir şeirinin adını çəkmir və heç bir əsərini təhlil etmir. Buna görə də, "digər şeirlərinin üslubu da bu şeirin ona məxsusluğuna inandırır" hökmü məntiqli görünmür.

Aydın Xəlilov haqqında danışılan şeiri M.Hadinin əsəri bilməklə yanaşı "Dəli şair" imzasını da M.Hadiyə aid edir (5, s.7). Təbii ki, bu fikirlərlə razılaşmaq olmaz.

Qeyd olunanlardan belə bir nəticəyə gəlmək olar ki, birmənalı olaraq şeir M.Hadinin deyil. Bəs şeirin müəllifi kimdir? Türk şairi Hikmət, yoxsa Əli bəy Hüseynzadə? Şeirin Hikmətə aid olduğunu isbata çalışanlar, əsasən, "Dəli şair" və "Bir osmanlı qəzetəsindən götürülmüşdür" qeydinə əsaslanırlar. Amma unutmaq olmaz ki, jurnalın 25-ci nömrəsində "Füyuzati" imzası ilə çap olunmuş "Həsbi-hal, yaxud bizim Hadinin iztirabı" şeirində Ə.Hüseynzadənin "Məcnun və Leylayi-islam" əsərinə işarə olunaraq "dəli doxtur" ifadəsindən istifadə olunmuşdur ki, bu, birbaşa Ə.Hüseynzadəyə aiddir.

"Bir illik nəşri dövründə Azərbaycan və türk xalqlarının milli əsarətə qarşı mübarizə tarixinin siyasi və bədii salnaməsinə çevrilən" (4, s. V) "Füyuzat" jurnalında nəşr olunan orijinal poetik əsərləri nəzərdən keçirəndən sonra belə bir mənzərənin şahidi oluruq:

– Səhifələrində müxtəlif ölkələrin şairlərinin əsərlərinə yer ayıran məcmuənin aparıcı simaları Azərbaycan şairləridir;

– Ən çox ictimai-siyasi, maarif və mədəniyyət, məhəbbət lirikası nümunələrinə yer verilir;

– Müasir ədəbiyyatla yanaşı, klassik ədəbiyyatın nümunələri də çap edilir;

– Gənc yazarlara xüsusi diqqət yetirilir;

– Azərbaycan poeziyasında yeniləşmə, yeni formalardan olan sonet janrının və sərbəst şeirin ədəbiyyata gəlişi "Füyuzat"la başlanır;

– Şərq və Qərb ədəbiyyatlarının sintezindən yaranan poeziyaya maraq güclənir;

– Poeziya zamanla nəfəs alır, dövrün problemləri poeziyanın başlıca mövzularına çevrilir.

Ədəbiyyat

1. Həbibov (Həbibbəyli) İsa. Romantik lirikanın imkanları. Bakı, "Yazıçı", 1984, 168 s.

2. Hüseynzadə Əli bəy. Heyrət, yaxud bir mələyin insanlara xitabı. "Füyuzat" jurnalı, 1, 13 noyabr 1906-cı il, №1, s.10-11.

3. Əhmədov Bədirxan. XX yüzil ədəbiyyatı. Bakı, "Elm və təhsil", 2015, 552 s.

4. Ağayev İslam. Ədəbiyyat, mətbuat və publisistika problemləri. Bakı, "Elm" nəşriyyatı, 2008, 504 s.

5. Vəliyev Şamil. "Füyuzat" ədəbi məktəbi. Ankara, "Ejdat" yayınları, 2000, 388 s.

6. Aydın Abi Aydın. Bəzi satirik nəzirə və tənzillər. Bakı, "Ozan", 1999, 76 s.

7. Turan Azər. Əli bəy Hüseynzadə. Moskva, "SALAM press", 2008, 280 s.

CONVERSATION ETHICS

DANIŞIQ ETIKASI

NƏRMİN MEHDİYEVA

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Müasir Azərbaycan dili kafedrasının müəllimi

ORCİD:0009-0001-9072—8702

Summary

The general culture of people is the speech culture, which consists of a set of various components, and is defined as one of the most important and leading components. In the concept of speech culture, we include the culture of writing as well as the culture of speaking. The concept of cultural etiquette is used as a part of speech culture. We can say about the meaning and origin of the word etiquette that it was once used in monarch palaces, diplomatic circles, etc. rules of conduct were used under the name of "etiquette". It is directly related to the fact that currently accepted forms of behavior and politeness are called "etiquette" in any society. It is shown that the word tag has several tasks in scientific linguistics:

a) naming (nominative);

b) communication (communicative);

v) appeal (appeal).

If we group them according to their historical development, we will define the types of applications as follows:

a) appeals within the family-tribe;

b) appeals in the vernacular, appeals in the national language.

Key words: speech, ethics, conversation, culture

Xülasə

Xalqımızın milli təfəkkürünə, etnoqrafiyasına, ənənələrinə uyğun işlənilən bu ifadələr, hazır nitq modelləri bütün hallarda adamları razı salır, onlarda xoş ovqat yaradır, müsahibin fəaliyyətini istiqamətləndirir, qarşılıqlı anlaşmanı təmin edir. Dilimiz belə ifadələrlə zəngindir. Adamların gündəlik nitq fəaliyyətində onların dünyagörüşü, savad dərəcəsi, dilə şüurlu münasibətindən irəli gələn rəngarəng ifadələr tez-tez işlədilir.İnsanlara məxsus ümumi mədəniyyət müxtəlif komponentlərin məcmusundan ibarət olan, ən vacib və aparıcı tərkib hissələrindən biri kimi müəyyənləşən nitq mədəniyyətidir. Nitq mədəniyyəti anlayışına biz danışıq mədəniyyəti ilə yanaşı, yazı mədəniyyətini də daxil edirik. Nitq mədəniyyətinin tərkib hissəsi kimi mədəni etiket anlayışı işlədilir. Etiket sözünün mənası və mənşəyi haqqında deyə bilərik ki, vaxtilə monarx saraylarında, diplomatik dairələrdə və s. davranış qaydaları "etiket" adı altında istifadə edilirdi. Məhz, hal-hazırda hər hansı bir cəmiyyətdə qəbul edilmiş davranış və nəzakət formalarına da "etiket" deyilməsi bununla bilvasitə əlaqədardır. Etiket sözünün elmi dilçilikdə bir neçə vəzifəsi olduğu göstərilir:

a) adlandırma (nominativ);

b) ünsiyyət (kommunikativ);

v) müraciət (apelyativ).

Tarixi inkişafına görə qruplaşdırsaq isə müraciət növlərini belə müəyyənləşdirərik:

a) ailə-qəbilə daxilində müraciətlər;

b) xalq dilində müraciətlər, milli dildə müraciətlər.

Məqaləmizdə Azərbaycan dilində işlədilən etiketlərin ümumi mənzərəsin yaratmaq əsas məqsəd kimi qarşıya qoyulmuşdur.

Açar sözlər: nitq, etika, danışıq, mədəniyyət

Danışıq etiketləri

Danışıq etiketlərindən bəhs edərkənAzərbaycan dilinin ədəbi müraciət, danışıq etiketlərini bir neçə məna qrupuna uyğun qruplaşdıraraq aşağıdakı kimi təsviri verilmişdir:

1. **Kömək etmək, qulluq göstərmək məqsədilə:** İcazə verin kömək edim; Siz əziyyət çəkməyin, bunu mən edərəm; Qulluğunda olum; Sizə kömək etmək lazımdır?; Köməyə ehtiyacınız varmı?; Mən sizi eşidirəm; Cavab verməyə tələsməyin, bir qədər fikirləşin; Sizi narahat edən nədir?; Sizə nə kömək edə bilərəm?; Nə buyurursunuz? və s.

2. **İş gördürmək, soruşmaq, üzrxahlıq etmək məqsədilə:** İnciməyin, sizə zəhmət verəcəyəm; əgər mümkünsə; zəhmət olmasa; Buyruq olmasın; vaxtınız varsa; imkanınız olsa; Sizə əziyyət olacaq; Sizi yormayım; Rica edirəm danışın; Lütfən söyləyin; Üzr istəyirəm; Əvvəlcədən minnətdarlığımı bildirirəm və s.

3. **Məmnun olmaq məqamında:** Razıyam; Etiraz etmirəm; Sizinlə şərikəm; Xoşuma gəlir; Çox şadam; Minnətdaram; Məmnuniyyətlə; Xoşdur; baş üstə; göz üstə; Arxayın olun; Sizi unutmaram; Sizinlə işləmək mənim üçün böyük şərəfdir; Allah köməyin olsun; Tanrı sənə yar olsun.

4. **Etiraz etmək, razılıq verməmək məqamında:** Bu, məni təmin etmir; Etirazımı bildirirəm; Etiraz edirəm; Sizin fikrinizlə şərik deyiləm; Mən başqa cür düşünürəm; Bağışlayın, bu məsələdə sizinlə razı deyiləm; Bu, mənim xoşuma gəlmir; Belə etməyin; Bu, ürəyimcə deyil və s.

5. **Təskinlik vermək, razı salmaq məqamında:** Bir qədər ətraflı düşünün; Əsəbiləşməyin; Darıxmayın; İcazə verin danışım; İmkan verin fikrimi izah edim; Özünüzü ələ alın; Səbr edin; Bir qədər səbrli olun; Nə etmək olar, qismət belə imiş və s.

6. **İntizama dəvət, məzəmmət etmə:**Sizdən bu hərəkəti gözləməzdim; Belə hərəkət sizə yaraşmaz; Siz adınıza layiq hərəkət etməlisiniz; Danışığınıza fikir verin; Allah xatirinə razı olun; Nəzakətli olun; Çalışın ki, başqaları sizdən razı qalsın; Bir qədər səmimi olun, səhvinizi etiraf etməkdən çəkinməyin və s.

7. **Qarşılama məqamında:** Xoş gördük; Nə gözəl təsadüf; Xoş gəlmişsiniz; Lap vaxtında gəlmişsiniz; Həmişə siz gələsiniz; Sizin gəlişinizə şadam; Sizi arzulayırıq; Səni çoxdan gözləyirdim; Gələn qədəmləriniz var olsun və s.

8. **Dəvət etmək məqsədilə**: Xoş gəlmisiniz; Buyurun qonağımız olun və s.

9. **Vidalaşma məqamında:** Sizi səbirsizliklə gözləyirik; Salamat qalın; Zəhmət çəkdiniz; Sizə əziyyət verdik; Gecəniz xeyrə qalsın; Yuxunuz şirin olsun; Allah amanında; Eviniz abad olsun; Həmişə şadlığa gələk; Sizləri bir daha evimizdə görsək, şad olarıq; Allah yolunuzu açıq eləsin, işinizi xeyrə calasın və s.

10. **Görülən işin müqabilində razılıq, rəğbətləndirmə**: Afərin; Əhsən; Minnətdaram; Hər şey üçün minnətdaram; Təşəkkür edirəm; Sizə zəhmət verdim; Sizə borcluyam; Zəhmət çəkmə; Narahat olma; Sağ olun; Allah sizdən razı olsun; Allah köməyin olsun; Biz bundan məmnun olduq; Sizin əl qabiliyyətinizə heyranam; Sizə qibtə edirəm; Çox sağ olun; Afərin, mərhaba; Allah səni dərd-bəladan uzaq eləsin; Allah ürəyinizə görə versin; Allah sizi bizə çox görməsin; Qəm, kədər sizdən uzaq olsun; Səni Allah saxlasın və s.

11. **İcrası hər hansı bir səbəbdən mümkün olmayan işin müqabilində**: Çox sağ olun; Sizə zəhmət verdim; Əziyyət çəkdiniz; Nə etmək olar, siz bacardığınızı etdiniz və s.

12. **Arzu-istək və təbrik etmək məqamında:** Yaxşı yol; Sağlıqla qalın; Uğur olsun; Xoşbəxt olun; İşiniz avand olsun; Allah işinizə fərəc versin; Allah sənə yar olsun; Ürəyincə ömür sürəsən; Min bir budaq olun; Var olasan; Gözünüz aydın olsun; Yolunuz uğurlu olsun; Bayramınız mübarək; Ad gününüz mübarək; Yeni dərs iliniz mübarək; Həmişə şənlikdə; Halal olsun; Xeyirli olsun; Allah balalarını saxlasın; Allah köməyin olsun; Allah səni ümid yeri eləsin; Allah imdadına çatsın; Ananın südü sənə halal olsun; Əlin-qolun var olsun; Üzün ağ, başın uca olsun; Bərəkətli olsun; Göz dəyməsin; Ömrün uzun olsun; Allah iltifatını artıq eləsin; İlahi, mərhəmətinə min şükür və s.

13. **Hal-əhval tutmaq məqamında**: Əhvalınız necədir? Necə dolanırsınız?;Güzəranınız necədir?; Xanımınız necədir?; Həyat yoldaşınız necədir?; Özünüzü necə hiss edirsiniz? və s.

14. **Öyrənmək məqsədilə verilən suala cavab məqamında**: Buyurun, soruşun; Lütfən buyurun; Sizə məmnuniyyətlə cavab verməyə hazıram; Bu mənim üçün xoşdur; Bu, mənim vəzifə borcumdur; Bu dəqiqə öyrənib sizə deyərəm; Bir dəqiqə gözləyin, öyrənim; Cavabım sizi qane etdimi? Daha nəyi bilmək istəyirsiniz?; Bağışlayın, bu barədə məlumatım azdır (yoxdur); Xeyr, tanımıram; Yaxşı tanımıram; Xeyr, bilmirəm.

15. **Əzizləmə, yalvarış məqsədilə:** "Canım qurban", "baş üstə", "Göz üstə yerin var", "qurban olum", "quzum", "sonam", "dilbərim", "ağrın alım", "canım qurban", "başına dönüm" və s.

16. **Danışmağa başlamaq məqamında:** İcazənizlə fikrimi bildirim. Mənə söz verdiyiniz üçün minnətdaram. Məni dinlədiyiniz üçün təşəkkür edirəm və s.

17. **Deyilənlərlə razılaşmaq, mübahisədən imtina etmək məqamında:** Bu məsələyə hazır deyiləm. Sizin fikrinizə şərikəm. Məsələ mənə aydındır. Bu barədə söhbət açmağa ehtiyac duymuram.

18. **Məsləhət vermək məqamında:** Bunları nəzərə alsanız, yaxşı olar. Bu, sizin xeyrinizədir. Bu, sizə başucalığı gətirər. Çalışın müsahibinizi axıra qədər dinləyə biləsiniz və s.

19. **Məsləhəti qəbul etmək məqamında**: Dediklərinizlə razıyam. Bunlar mənim xeyrimədir. Faydalı məsləhətiniz üçün çox sağ olun. Sizin bu xeyirxah məsləhətinizi heç vaxt unutmaram. Sizin təklifinizi qəbul edirəm. Çalışacağam ki, dediklərinizə əməl edim. Sizin üçün bu işi etməyə çox şad olardım və s.

20. **Telefonla danışanda; Zəng edəndə**: Alo, sabahınız (axşamınız, hər vaxtınız) xeyir olsun. Bağışlayın, mən kiminlə danışıram? Sizi narahat edən Kamilədir. Bilmək istəyirəm… Fikrimi sizə çatdıra bildimmi? Çox sağ olun. Bağışlayın, vaxtınızı aldım. Deyəsən, sizi yordum. Təşəkkür edirəm. Minnətdaram. Zəngə cavab verəndə: Alo, salam, eşidirəm sizi. Buyurun. Zəhmət olmasa bir qədər ucadan danışın. Bağışlayın, zəng edən kimdir? Xoşdur. Bu saat çağıraram. Mütləq yetirərəm. Arxayın olun! Sağ olun!

21. **Süfrə etiketləri:** "Bismillah", "Bərəkətli olsun", "Allah bol eləsin", "Nuş olsun", "Buyurun", "Çox sağ olun".

Ümumilikdə götürsək isə, nitq etiketləri istər danışığımızda, istərsə də gündəlik həyat fəaliyyətimizdə ən çox müraciət etdiyimiz nitq mədəniyyətinin müraciət formalarıdır. Ədəbi dil nomalarına riayət etmək və düzgün danışıq və mədəni çıxışların, müraciətlərin formalaşması üçün nitq etigetlərinin vacibliyini də vurğulaya bilərik.

Nəticə

Nəticə olaraq qeyd edə bilərik ki,insanlar arasındakı ünsiyyət bir-birinə müraciətdən başlanır. Müraciət forması isə müraciət edənlə müraciət olunan arasındakı münasibətdən asılıdır. Hətta bu asılılıq o dərəcədədir ki, ünsiyyətin başlanması və inkişafı müraciətlə müəyyənləşir. Məhz nitk etiketləri də bu müraciət formasını daha asand və sadələşdirməklə yanaşı anlaşıqlı da edir.

THE EFFECT OF SCHOOL PREPARATION AT THE PRIMARY SCHOOL LEVEL ON THE GENERAL DEVELOPMENT OF THE STUDENT

İBTİDAİ TƏHSİL SƏVİYYƏSİNDƏ ŞAGİRDİN ÜMUMİ İNKİŞAFINA MƏKTƏBƏHAZIRLIĞIN TƏSİRİ

PƏRİ PAŞAYEVA

Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti

Özet

Çocukların okula hazırlanması her zaman pedagogları, psikologları, metodolojistleri ve fizyologları düşündürmüştür. Bu durum okul öncesi dönemde çocukların sağlık ve hijyeninde, fizyolojisinde, konuşmasında, zihinsel hazırlığında ve psikolojisinde meydana gelen kusur ve eksikliklerle ilgilidir. Ayrıca şunu da belirtmekte fayda var ki, insan yaşamının 5 yıla kadar olan süresi "altın çağ" olarak adlandırılıyor ve pedagoglar, psikologlar ve fizyologlar bu yaştaki çocukların zaten eğitime hazır olduğuna dikkat çekiyor. Eğitim reformunun uygulandığı dönemde çocukları okula hazırlamanın temel amacı, çocukların ihtiyaçları ve fırsatları dikkate alınarak okula hazırlık aşamasındaki gelişim, yetişme ve eğitim sürecini düzenlemektir. Okul hazırlığının görevleri resmi belgelerde şu şekilde belirtilmektedir: Çocukların okula başarılı bir şekilde uyum sağlaması için çocukların okuma isteklerinin geliştirilmesi ve güçlendirilmesi, okula karşı olumlu duygusal tutumları, kişisel ve sosyal özellikleri oluşturulmalıdır.

Eğitimin birinci basamağı olarak kabul edilen okul öncesi eğitim, çocukların entelektüel, bedensel ve zihinsel gelişimlerini, basit çalışma alışkanlıkları kazanmalarını, yetenek ve kabiliyetlerini ortaya çıkarmalarını, sağlıklarını korumalarını ve estetik eğitimi vermelerini sağlar.

Anahtar kelimeler: kişilik gelişimi, okula hazırbulunuşluk, eğitim düzeyi, uyum

Summary

Preparing children for school has always made pedagogues, psychologists, methodologists and physiologists think. This situation is related to the defects and deficiencies that occur in the health and hygiene, physiology, speech, mental preparation and psychology of children in the preschool period. It is also worth noting that the period of human life up to 5 years is called the "golden age", and pedagogues, psychologists and physiologists note that children at this age are already ready for education. The main purpose of preparing children for school during the period when the education reform was implemented was to organize the development, upbringing and education process during the school preparation phase, taking into account the children's needs and opportunities. The tasks of school preparation are stated in official documents as follows: In order for children to adapt successfully to school, their desire to read should be developed and strengthened, their positive emotional attitudes towards school, and their personal and social characteristics should be formed.

Preschool education, which is considered the first step of education, enables children to develop their intellectual, physical and mental development, acquire simple study habits, reveal their talents and abilities, protect their health and provide aesthetic education.

Key words: personality development, school readiness, education level, adjustment

Gələcək şəxsiyyətin hərtərəfli inkişafının əsası məktəbəqədərki illərdə qoyulur. Uşağın ailədə və ya məktəbəqədər müəssisədə təlim və tərbiyə alması onun sonrakı illərdə formalaşmasının bünövrəsini qoyur, bir şəxsiyyət kimi gələcək inkişafını müəyyən edir.

Bütün təhsil səviyyələrində şagird nailiyyətlərinin inkişafı ümumpedaqoji problem kimi təhsil sisteminin aktual məsələsidir. Şagird nailiyyətləri dedikdə şagirdin nəyi bilməsi, nəyi bacarması və ya nəyə qadir olması kimi keyfiyyətlər nəzərdə tutulur.

Bu gün respublikamızda həyata keçirilən məktəbə hazırlıq təhsili pedaqoqları, psixoloqları metodistləri, fizioloqları daim düşündürmüşdür. Bu, məktəbəqədər dövrdə uşaqların sağlamlığı və gigiyenası, fiziologiyası, nitqi, əqli hazırlığı və psixologiyasında baş verən nöqsanlar və çatışmazlıqlarla bağlıdır. Onu da qeyd edək ki, insan ömrünün 5 yaşadək olan dövrünü "qızıl dövr" adlandırıldığı nəzərə alınarsa, pedaqoq, psixoloq və fizioloqlar bu yaşda uşaqların artıq təlim əməyinə hazır olduqlarını qeyd edirlər. Təhsil islahatının həyata keçirildiyi bir vaxtda uşaqların məktəbə hazırlığının əsas məqsədi uşaqların tələb və imkanlarını nəzərə almaqla onların məktəbə hazırlıq mərhələsində inkişafı, tərbiyəsi və təhsili prosesini təşkil etməkdir. Rəsmi sənədlərdə məktəbə hazırlığın vəzifələri belə qeyd olunur: uşaqlarda oxumaq həvəsinin, onların məktəbə müsbət emosional münasibətinin inkişaf etdirilməsi və möhkəmləndirilməsi, uşaqların məktəbə müvəffəqiyyətlə adaptasiya olunması üçün onlarda şəxsi-sosial xüsusiyyətlər formalaşdırılmalıdır.

Məktəbəqədər təhsil təhsilin ilk pilləsi hesab olunmaqla, uşaqların intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini təmin edir.

Qeyd edək ki, uşağın məktəbə hazırlanması özündə iki vəzifəni birləşdirir: uşağın hərtərəfli (fiziki, əqli, estetik) və məktəbdə öyrənəcəyi fənlərin mənimsənilməsinə xüsusi hazırlığı. Uşaqğın məktəbə hazırlanması bu iki baxımdan xüsusi əhəmiyyət kəsb edir və məktəbdə təlim prosesinin səmərəli qurulmasına təsir göstərir:

1. Təcrübə göstərir ki, I sinifdə uşaqların böyük bir qisminin müvəffəqiyyətlə təhsil ala bilməməsi. sonrakı siniflərdə geridə qalmaları onların məktəbəqədər dövrü baxımsız keçirmələri, təlimə hazırlıq üzrə ilkin vərdişlərə yiyələnməmələri ilə bağlıdır.
2. Hazırkı dövrdə I sinfə 6 yaşdan başlandığından məktəbə hazırlığın yaşı bir il aşağı salınaraq 5 yaşdan olmuşdur. Beşyaşlıların məktəbə hazırlanmalarını altıyaşlılarda olduğu kimi aparmaq düzgün hesab etmək olmaz. Beşyaşlılarla hazırlığın məzmunu, formaları, metod və iş üsulları köklü də yişikliklərin aparılmasını tələb edir.

Uşaq məktəbə hazırlanarkən sonrakı bütün təlim illərində lazm olacaq aşağıdakı ümumpedaqoji keyfiyyətlərə yiyələnməlidir:

- həyatın yeni dövrü üçün iş yükünü daşımaq;
- təlim əməyi əməliyatlarını yerinə yetirmək;
- düzgün sual vermək bacarığı,
- verilmiş suala müstəqil cavab vermək;
- dinləmək, anlamaq, danışmaq kimi bacarıqlara yiyələnmək;
- təfəkkür əməliyyatları aparmaq (müqayisə etmək, tutuşdurmaq, ümumiləşdirmək, nəticə çıxarmaq.

Biliklərə, öyrənməyə maraq göstərməyən uşağın dərsdə fəal mövqe tutacağına, öz qüvvəsini, iradəsini səfərbər edəcəyinə bilik, bacarıq və vərdişlərə yiyələnəcəyinə, təlim nəticələrinə nail olacağına ümid bəsləmək olmaz. Unutmaq olmaz ki, uşağın inkişafı əqli tərbiyəsinin vəzifələri

ilə (inadkarlıq, səliqəlilik, cəhd göstərmək, məsuliyyətlilik, yaşıdlarına münasibətdə xeyirxahlıq və s.) sıx vəhdətdə həll olunmalıdır.

Uşağın məktəbə hazırlanması bu işlə məşğul olanlar tərəfindən (uşağın valideynləri, ailənin digər üzvləri, müəllimlər, tərbiyəçilər, qohumlar) müxtəlif cür başa düşülür. Bəziləri bunu çox yüngül, bəziləri isə ağır iş hesab edirlər. Bəziləri yalnız uşağın sağlamlığı və normal inkişafı ilə, bəziləri onlara dərs ləvazimatlarının əvvəlcədən alınması ilə bu işi məhdudlaşdırır. Bəziləri isə oxumağı, yazmağı və hesablamağı öyrənməi məsləhət görür. Bütün bunlar bir tərəfdən valideynlərin pedaqoji maarifə yiyələnməmələrini, digər tərəfdən məktəbə hazırlığın pedaqoji tələblərinin lazımınca qiymətləndirilməsindən irəli gəlir. Yuxarıda qeyd etdik ki, uşağın təlim nailiyyətlərinin inkişafı ümumpedaqoji problemdir. Bu baxımdan biz problemin əhəmiyyətini iki baxımdan qiymətləndirməyi məqsədəuyğun hesab edirik:

a) uşağın məktəbə hazırlamnasında məktəbəqədər müəssisədə və ya məktəbdə ümumi tərbiyə işinin təşkili mühüm əhəmiyyətə malikdir. Bu dövrdə aparılan iş uşaqğın məktəbdə təlim nailiyyətlərinə müvəffəqiyyətlə yiyələnməsi üçün zəruri olan fiziki, intellektual, mənəvi- iradi keyfiyyətlərə yiyələnməsini təmin edir.
Uşağın məktəbə hazırlanması anlayşına ilk növbədə onun fiziki hazırlığı, kollektiv fəaliyyətə və kollektivin üzvləri ilə münasibətlərə hazır olması, uşağın dünyagörüşünün, ictimai təsəvvürlərinin formalaşması, əmək sevərlik, çalışqanlıq, səbirlilik, dözümlülük, məsuliyytlilik və s. iradi keyfiyyətlərə yiyələnməsi, ətraf aləmlə tanışlığı, nitqinin inkişaf etməsi, oxumağa və yazmağa hazırlanması və nəhayət, uşağın psixoloji hazırlığı daxildir.
b) uşağın ümumpsixoloji hazırlığına yönəldilmiş işlər heç də I sinifdə keçiləcək təlim fənlərinə hazırlığı istisna etmir. Hazırlıq siniflərində ətfar aləmlə tanışlıq, savad təliminə hazırlıq və nitq inkişafı, bədii təfəkkürün inkişafı, məntiqi və riyazi təfəkkürün inkişafı, təsviri fəaliyyət, musiqi, fiziki mədəniyyət kimi məşğələlər keçilir. Bunlar isə öz növbəsində ibtidai təhsil səviyyəsində keçilən fənlərin təməli olmaqla daha yaxşı mənimsənilməsinə, kurikulumun tələbləri baxımından ilkin bacarıqların formalaşmasına, məzmun standartlarını daha yaxşı reallaşdırmağa şərait yaradır.
Təcrübə göstərir ki, məktəbə gələn uşaqların təxminən 20 faizi təlim əməyinə hazır olur və tədris materiallarının öhdəsindən müvəffəqiyyətlə gəlirlər. Bu da məktəbə hazırlıq qruplarından gələn uşaqların hesabına yazılmalıdır. Pedaqoji maarifləndirməyə cəlb edilməmiş, pedaqoji-psixoloji biliklərdən xəbəri olmayan valideynlərin öhdəsinə buraxılmış uşaqlar,şübhəsiz, məktəbə lazımınca hazır gələ bilməzlər. Ailələrdə, həmçinin uşaq bağçalarında ara-sıra təsadüfən təlimə hazırlıq xarakterli məşğələlərə cəlb edilən uşaqlar, demək olar ki, bütün parametrlər üzrə hazırlığın tələblərinə cavab verə bilmirlər.
Uşağı bioloji yaşa əsasən məktəbə qəbul etmək onu kortəbii axının içərisinə buraxmaq deməkdir. Ümumpedaqoji hazırlıqla əlaqədar yuxarıdakı vəzifələrin bəzi cəhətlərini açıqlayaq. Hər şeydən əvvəl, uşağın məktəbə hazırlanması üzrə işi normal təşkil etmək üçün onu diqqətlə öyrənmək lazımdır. Erkən yaşda körpələr evində tərbiyə alan, sonrakı fəaliyyətini uşaq bağçasında keçirən uşaqların öyrənilməsi asandır. Belə halda tərbiyəçi bir-iki yaşlarından uşaqların fəaliyyətini izləyir, iki yaşı tamam olduqdan sonra bağçanın kiçik qrupundan başlayaraq üç il onunla müntəzəm məşğul olur. Uşaq birdən–birə hazırlıq qrupuna daxil olduqda onu daim diqqətlə öyrənmək lazım gəlir.
Vaxtilə məktəbə hazırlıq 6 yaşdan başlandığı halda, indi 5 yaşdan başlanır. Psixoloqlar, xüsusən məşhur rus psixoloqu L.S. Vıqotski 6 yaşı təlim üçün ən optimal yaş hesab edir, həmin yaşı "məktəb yetişkənliyi" yaşı adlandırır.
Tərbiyəçi çalışmalıdır ki, hazırlıq qruplarında uşağın "məktəb yetkinliyi" dövrü vaxtında təmin edilsin. Akselerasiyanın təbii yolla baş verəcəyinə ümid bəsləmək, uşağı başlı- başına buraxmaq təlim prosesində onun zəiflər qrupuna keçməsi ilə nəticələnir. *(Akselerasiya-*

latınca acceleratio sözündən götürülmüş və mənası sürətlənmə deməkdir. Fərdlərin böyümə və yetişməsinin kəskin tezləşməsi, həmçinin onların ölçüsünün artması deməkdir. İnsan cəmiyyətində akselerasiya onu əhatə edən mühitin kompleks faktorlarının təzyiqi altında gedir). Belə bir şəraitdə ən yüngül təlim tapşırığı uşaq üçün ağır yükə çevrilə bilər. Bu dövrdə valideynlərin hər hansı təkidi, tələbkarlığı uşağı çıxılmaz vəziyyətdə qoyur, əsəbiləşdirir, xəstələndirir. Bəzən belə tələbkarlıq uşaq- valideyn, uşaq - müəllim və ya tərbiyəçi münasibətlərinə mənfi təsir göstərir. Təlim yükünün konkret fərdin imkanlarına müvafiq olmaması onda öz qüvvəsinə inamsızlıq yaradır, ümumiyyətlə, tapşırığı (hətta ən yüngülünü də) yerinə yetirə biləcəyinə şübhə ilə yanaşmasına səbəb olur Ona görə də valideyn hələ uşaq 4 yaşında olarkən onun fiziki və psixi fəaliyyətini öyrənməyə çalışmalı, bu prosesi izləmli, "məktəb yetkinliyi" istiqamətində inkişafn normal gedib-getmədiyini müəyyənləşdirməlidir.
Uçağın 5 yaşınadək nitqi yaranır və o, ana dilində sərbəst danışa bilir. 5-6 yaşında vacib, icbari, ciddi əmək fəaliyyəti kimi təlimə cəhd göstərir.
Beşyaşlı uşaqlar, adətən, çoxlu suallar verir, hər şeyə maraq göstərir. Müəllim və tərbiyəçilərin bir qismi həmin yaş dövrünün bu cəhətini nəzərə almadan uşaqların suallarını cavabsız qoyurlar. Bir neçə dəfə müəllimdən, tərbiyəçidən, valideynlərindən rədd cavabı alan uşaq sıxıntı, qorxu hissi keçirir, artıq sual verməkdən çəkinir. Bu isə uşağı ümumi inkişafdan saxlayır. Onu da qeyd edək ki, "uşaqdır, hələ başa düşməz" deyə verilən uydurulmuş, qeyri-elmi cavablar onların inkişafına daha pis təsir göstərir. Bu da məktəbdə uşağın psixoloji baxımdan geriləməsinə, özünə qapanmasına onu maraqlandıran sualların verilməməsinə səbəb olur.
Uşağın məktəbə hazırlanması ilə normal məşğul olmayan, yaxud ardıcıl, sistemlə məşğul olmayan müəllim və ya tərbiyəçilər onların məktəb təliminə, sonrakı inkişafına nə qədər zərər yetirirlərsə, uşağa hər şeyi öyrətməyə çalışan müəllim və ya tərbiyəçilər daha çox zərər yetirirlər. Onların bu hərəkəti iki cəhətdən zərərlidir:
1.Uşaqlar vaxtından əvvəl oxumağı, yazmağı, 20 dairəsində hesablamağı, 100-dək saymağı öyrəndikdə I sinifdə təlim onlar üçün maraqsız olur. Adətən, belə uşaqlar səviyyəcə özlərindən fərqli uşaqlar arasına düşür, müəllim onlara proqram materialını öyrətmək qay-ğısına qalır, hazırlıqlı gələnləri diqqətdən kənarda qoyur. Ona görə də bəzən belə uşaqlar üçün təlim maraqsız məşğləyə çevrilir, bir müddətdən sonra onlar zəif hesab etdikləri yoldaşlarından geri qalır.
2. Uşaq bağçasında hər şeyi öyrənən uşaqlar, əslində yüklənir, əqli inkişaf səviyyəsinə müvafiq olmayan şeyləri öyrənməkdə çətinliklərlə qarşılaşır ki, onun da nəticələri özünü sonralar göstərir. Ona görə də uşaq bağçasında yalnız proqram tələblərinə, yaş səviyyələrinə uyğun biliklər verilməlidir.
Uşağın məktəbə hazırlanmasında rejimə alışması da mühüm rol oynayır. Təlim əməyi erkən yaşlardan ciddi rejimə riayət olunması nəticəsində formalaşır. O, qısa müddətli təlim məşğələlərində iştirak edir. Məktəbəhazırlıq qruplarında bu məşğələlər məzmununa, xarakterinə və müddətinə görə I sinif dərslərinə yaxınlaşır. 30-35 dəqiqə müddətində keçirilən həmin məşğələlərdə uşaqlar tərbiyəçini uzun müddət (5-8 dəqiqə) dinləməyi, onun suallarına cavab verməyi, ona sual verməyi, yoldaşının səhvinə düzəliş verməyi, kollektiv işləməyi öyrənirlər.
Bütün bunlar uşaqları yeni aləmə, məktəb həyatına hazırlayır. Uşağın məktəbə qəbul olunması onun həyatında, şəxsiyyətinin formalaşmasında dönüş anı hesab edilir. Uşaq sistematik təlimə başlamaqla uşaqlığı başa çatır və məktəb yaşı dövrü başlanır.

Təcrübə göstərir ki, məktəbə hazırlıq zamanı müəllim və ya tərbiyəçinin köməyi ilə uşaqlar bu və ya digər müstəqil idrak vəzifələri qoymaq bacarığı; vəzifələri təhlil etmək, başlıcanı, mühümü ayırmaq bacarığı; müstəqil fəaliyyəti planlaşdırmaq; vəzifələrin həlli qaydasını seçmək; tərbiyəçinin göstərişini əldə rəhbər tutaraq, yaxud şəxsi planı ilə gələcək işinə nəzarət

etmək; tapşırığı kifayət qədər cəld və keyfiyyətlə yerinə yetirmək, şəxsi fəaliyyətini qiymətlən-dirmək kimi tədris bacarıqlarına yiyələnirlər. Bütün bunlar da ibtidai təhsil səviyyəsində uşaqların məktəbə müvəffəqiyyətlə adaptasiya olunması üçün onlarda şəxsi-sosial xüsusiyyətlərin formalaşdırılmasına imkan verir.

Uşağın məktəbdə təlim nailiyyətlərinin yüksək olmasında savad təliminə hazırlıq və nitq inkişafı, bədii və məntiqi təfəkkürün inkişafı, nitqin səs mədəniyyətinin düzgün təşkili əsas yer tutur. Bildiyimiz kimi, səs mədəniyyəti üzrə işin ən mühüm vəzifəsi nitq səslərinin düzgün tələffüz edilməsi üzrə vərdişlərin yaradılmasıdır. Təcrübə göstərir ki, dil açmağa başladığı gündən uşağa nitq səslərinə yiyələnməsi üzrə müəyyən bacarıq və vərdişlər aşılanır. Belə bir mövqe nitq səslərinin mükəmməl mənimsənilməsinə, nitqin düzgün qurulmasına, şagirdlərə öz fikrini şifahi və yazılı şəkildə məzmunlu, rabitəli, məntiqi, dəqiq, canlı, obrazlı ifadə etməyi öyrətmək baxımından əhəmiyyətlidir.

Təcrübə göstərir ki, uşağın məktəbə hazırlanması işində müəllim və tərbiyəçilərlə yanaşı, valideynlərin də üzərinə məsuliyyət düşür. Valideynlərin pedaqoji mədəniyyətinin səviyyəsi, həmçinin uşağın ailə səviyyəsi bir çox cəhətdən pedaqoji maarifləndirmənin səviyyəsindən asılıdır.

Problem dairəsində müəyyən dönüş yaratmaq, diqqəti cəlb edən uğurlar qazanmaq üçün aşağıdakı təkliflərin nəzərə alınmasını vacib sayırıq:

1. Hazırda respublikamızın təhsil sistemində aparılan əsaslı islahatlar prosesində uşaqların, o cümlədən beşyaşlıların məktəb təliminə hazırlanması mühüm dövlət əhəmiyyəti kəsb edən bir məsələ kimi xüsusi diqqət mərkəzində olmalı bu sahədə görülən işlər təkmilləşdirilməlidir.

2. Uşaq bağçasında və ya məktəblərdə beşyaşlıların məktəbə hazırlanmasının pedaqoji – metodik təminatına zəmin yaradan dərsliklər, vəsaitlər hazırlanmalı, bu işlə məşğul olanların istifadəsinə verilməlidir.

Ədəbiyyat

1. Məktəbəhazırlığın təşkili qaydaları. 2010, 8 yanvar.
2. Məktəəbəqədər təhsilin kurikulumu. 2012, 12 iyul.
3. Kərimov Y. Uşaq məktəbə gedir. Bakı, Nağıl evi, 2002.
4. Bağırlı L. Uşaqların məktəbə hazırlanmasının psixoloji məsələləri. Bakı, Nərgiz, 2003.

AS A TRAINING TOOL IN AZERBAIJANI LANGUAGE CLASSES AND BENEFIT FROM ICT

AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ TƏLİM VASİTƏSİ KİMİ VƏ İKT-DƏN İSTİFADƏ

SEVDA ABBASOVA,

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Özet

Eğitim Standartlarının belirlediği hedeflere ulaşmak, dilsel ve iletişimsel becerilerin oluşturulması sürecinde gerçekleştirilir. Azerice dilinin okulda öğretilmesi metodolojisine "yeterlilik" kavramının uygulanması, öğrenme hedeflerinin daha kesin ve katı bir tanımının araştırılması, dil ve bilgi düzeylerinin belirlenmesi, diğer bir deyişle "Azerbaycan dili" sorusunun cevabı ile birlikte; öğrencinin ana dilinde nasıl konuştuğuyla bağlantılıdır. Yetkinliğe dayalı yaklaşım, bilginin edinilmesine ve pratik beceri ve alışkanlıkların oluşturulmasına odaklanır. Azerbaycan Cumhuriyeti Yaşam Boyu Eğitim Ulusal Yeterlilikler Çerçevesinde yeterlilik şu şekilde açıklanmaktadır: Yetkinlik - kişinin bilgisi, becerileri, sosyal ve/veya metodolojik yeteneklerinin kullanımı, bir profesyonelin gerektirdiği standartlara göre faaliyetleri gerçekleştirme yeteneği uygun bilgi, beceri ve tutumların kullanılmasıyla sağlanır.

Anahtar Kelimeler: eğitim süreci, bilgi ve iletişim teknolojileri, dil yeterliliğinin oluşumu

Summary

Achieving the goals set by Educational Standards is implemented in the process of formalizing linguistic and communicative skills. The application of the "səriştə" concept to the methodology of teaching the Azerbaijani language in schools, the increase of the language and knowledge levels With the specification of the words, in other words, the answer to the question of how to consult in the poet's native language. It is related. The approach based on competence is directed towards the recognition of knowledge and the formation of practical skills and skills. In the framework of National Qualifications for lifelong education of the Republic of Azerbaijan, competence is explained as follows: Competensiya - the ability of a person to properly perform any job, any activity or action. In the process of self-determination and personal development, knowledge, skills, social and It is the ability to perform the activity in accordance with the standards demanded by the relevant environment, by making use of methodological skills, appropriate knowledge, skill and approach.

Keywords: educational process, information and communication technologies, formation of language competence,

Respublikamızın inkişafının indiki mərhələsində təhsil siyasətinin əsas vəzifəsi onun fundamental xarakterinə və fərdin, cəmiyyətin və dövlətin cari və gələcək ehtiyaclarına uyğunluğuna əsaslanan müasir təhsil keyfiyyətini təmin etməkdir. Təhsilin əsası ümumtəhsil məktəblərində qoyulur. Burada onun müasirləşdirilməsi təhsilin təkcə şagirdlər tərəfindən müəyyən biliklərin inkişafına deyil, həm də şəxsiyyətin, idrak və yaradıcılıq qabiliyyətlərinin inkişafına yönəldilməsini nəzərdə tutur.

Ümumtəhsil məktəbi universal biliklərin, bacarıqların, vərdişlərin, habelə müstəqil fəaliyyət təcrübəsinin ayrılmaz sistemini formalaşdırmalıdır. Son illər qəbul edilən təhsil standartlarında dövlət səviyyəsində təhsilin məzmununun keyfiyyətini qiymətləndirmək üçün "ümumbəşəri biliklər, bacarıqlar, habelə müstəqil fəaliyyət təcrübəsi və şəxsi məsuliyyət sistemi" kimi müəyyən edilən müasir kompetensiyaların formalaşdırılması və onlardan səmərəli istifadə etməyi təklif etmişdir.

Müasir təhsilin məzmunu yeniliklərlə doludur və buna görə də müəllimlər qarşısında pedaqoji prosesin bəzi elementlərinə yenidən baxmaq, yeni məzmun, forma və metodlar yaratmaq vəzifəsi durur. Bütün bunlar şagirdin tədrisinə, inkişafına və tərbiyəsinə yönəlmiş tədris prosesinin səmərəliliyini təmin etmək üçün nəzərdə tutulmuşdur.

Müasir cəmiyyətdə informasiya axını sürətlə artır. Şagirdlərin sinifdə aldıqları biliklər ümumi inkişaf üçün kifayət etmir. Beləliklə, davamlı özünütəhsil, müstəqil bilik əldə etmək ehtiyacı yaranır. Lakin bütün şagirdlər müstəqil bilik əldə edə bilmirlər, bunun üçün müəllimin işinin müəyyən forma və üsulları tələb olunur.

Müasir məktəbin bir xüsusiyyəti də onun təhsil resurslarının həcminin sürətlə artması şəraitində işləməsidir. Şagirdlər üçün informasiya imkanları məhdud olduğundan artıq ənənəvi təhsil sistemində yüksək keyfiyyətli təhsil xidməti ala bilmirlər. Elmi-texniki tərəqqinin indiki mərhələsində, informasiya cəmiyyətinə keçid şəraitində məktəb qarşısında şagirdlərə müxtəlif bilik sahələrində öz potensiallarını reallaşdırmaq üçün şərait yaratmaq kimi mühüm vəzifə durur.

Bu gün humanitar təhsilin məzmunu yenilənir, xüsusilə dilçilik sahəsində köklü transformasiya müşahidə olunur. Azərbaycan dilinin tədrisinin hazırkı mərhələsi təhsilin məqsədlərini müəyyən etməyə yeni yanaşmalarla xarakterizə olunur. Bacarıqlara əsaslanan yanaşmanın gücləndirilməsi Azərbaycan dilinin müasir məktəb kursunun inkişafında strateji istiqamətlərdən biridir.

Təhsil Standartları ilə müəyyən edilmiş hədəflərə nail olmaq linqvistik və kommunikativ bacarıqların formalaşdırılması prosesində həyata keçirilir. Məktəbdə Azərbaycan dilinin tədrisi metodologiyasına "səriştə" anlayışının tətbiqi təlim məqsədlərinin daha dəqiq, ciddi şəkildə müəyyənləşdirilməsinin axtarışı, dil, bilik səviyyələrinin müəyyənləşdirilməsi ilə, başqa sözlə, şagirdin ana dilində necə danışması sualına verdiyi cavabla əlaqələndirilir. Kompetensiyaya əsaslanan yanaşma biliklərin mənimsənilməsinə və praktiki bacarıq və vərdişlərin formalaşmasına yönəlmişdir. Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsində kompetensiya belə izah olunur: Kompetensiya - şəxsin hər hansı bir işi düzgün icra etmə, hər hansı bir fəaliyyət və ya tədqiqat sahəsində, eləcə də peşəkarlıq və şəxsi inkişaf prosesində bilik, bacarıq, sosial və ya metodoloji qabiliyyətlərdən isfadə etmə, müvafiq bilik, bacarıq və yanaşmadan isfadə edərək, fəaliyyətin peşəkar mühitdə tələb olunan standartlara uyğun icraetmə bacarığıdır.

Azərbaycan dilinin tədrisində səriştələrin belə iki komponentli təsviri kifayətdir.

Eyni zamanda nəzərə almaq lazımdır ki, məktəb təhsili təkcə tədrisin deyil, həm də tərbiyənin problemlərini həll edir. Nəticə etibarilə məqsəd təkcə biliklərin mənimsənilməsi və bacarıqların formalaşdırılması deyil, həm də şagirdin şəxsiyyətinin, onun intellektual və yaradıcılıq qabiliyyətlərinin, dəyər yönümlərinin inkişafıdır. Buna görə də, məktəbdə Azərbaycan dilinin tədrisində səriştələrin nəzərə alınması mütləq üçüncü komponenti - şagird şəxsiyyətinin inkişafında əldə edilməli olan məqsədləri əhatə edir.

Aydındır ki, indiki mərhələdə əsas öz imkanlarını maksimum reallaşdırmağa çalışan, yeni təcrübənin qavranılmasına açıq, müxtəlif həyat vəziyyətlərində şüurlu və məsuliyyətli seçim etməyə qadir olan insan tərbiyəsidir. Belə bir şəxsiyyəti tərbiyə etmək üçün, ilk növbədə,

şagirdlərin sözə, dilə, onun fəaliyyət qanunlarına diqqətini və marağını formalaşdırmaq lazımdır ki, bu da müəllimlə şagirdlərin yaradıcı qarşılıqlı əlaqəsi şəraitində uğurla həyata keçirilir. Məlumdur ki, qaydaların istifadəsini bilmək öz-özlüyündə savadlı yazıya səbəb olmur. Qaydanın sözünü öyrənməklə, orfoq-rafiyaya yiyələnmək eyni şey deyil. Qayda şagirdin şüuruna elə çatdırılmalıdır ki, o, orfoqrafiyanı müəyyən etmək üçün bir vasitə rolunu oynaya bilsin, nəinki yaddaşı yükləsin. Azərbaycan dili dərslərində multimedia vasitələrindən istifadə dilçilik, xüsusən də dil sahəsində əsas kompetensiyaların formalaşmasına kömək edir.

Məktəb təhsilinin inteqrasiyası və informasiyalaşdırılması prosesləri hazırda baş verən bir sıra obyektiv ziddiyyətlərin həllinə yönəlmişdir. Bunlardan bəzilərini qeyd edək:

- təlim məzmununun həcmi ilə təhsil müddətinin məhdudluğu arasında ziddiyyət;
- əldə edilmiş orfoqrafiya və durğu işarələri biliklərinin miqdarı ilə onların praktik tətbiqi imkanlarının aşağı olması arasında ziddiyyət;
- məktəbdə əldə edilən biliklərin miqdarı ilə sonrakı təhsil üçün tələb olunan biliklər arasında ziddiyyət.
- ümumtəhsil məktəbinin məzununda cəmiyyət və dövlət nizamı (əsas səriştələrin formalaşması) ilə səriştələrin, o cümlədən dil biliklərinin formalaşdırılmasının qeyri-kafi səviyyəsi arasında ziddiyyət.

Şagirdlərin dil səriştəsinin kifayət qədər formalaşmaması problemi də var ki, bunların səbəbləri aşağıda göstərdiklərimiz ola bilər:

- mövcud Azərbaycan dili dərsliklərdə nəzəri materialın mürəkkəb səviyyəsi;
- dil səriştəsinin formalaşmasına kömək etməyən tədris materiallarında tapşır-ıqların reproduktiv xarakteri;
- şagirdlərə kifayət qədər fərdi yanaşılmaması;
- şagirdlərin Azərbaycan dili dərslərinə marağının aşağı səviyyədə olması;
- mövcud informasiya resurslarından kifayət qədər istifadə edilməməsi.

Yuxarıda göstərilən ziddiyyətlərin aradan qaldırılması zərurəti bu işin aktuallığını, məqsəd və vəzifələrini müəyyənləşdirir. Əsas məqsəd kimi 5-9-cu sinif şagirdlərinin Azərbaycan dili dərslərində multimedia vasitələrindən istifadə etməklə dil səriştəsinin formalaşdırılmasıdır.

Bu məqsədin həyata keçirilməsi üçün uyğun tapşırıqlar sistemi müəyyənləşdirilir Belə ki, ümumi dərslər sistemində multimediadan istifadə əsasında şagirdlərin dil səriştəsinin inkişafı üçün dərslərin yerini müəyyən etmək; materialın mənimsənilməsini asanlaşdıran və şagirdlərin Azərbaycan dili dərslərinə marağını artırmağa kömək edən multimedia vasitələrinin imkanlarından istifadə edərək dərslərin sistemini inkişaf etdirmək; əldə edilmiş biliklərin tətbiqində praktik bacarıqların formalaşmasına yönəlmiş dərslər üçün didaktik material tərtib etmək; şagirdlərə fərdi yanaşmanın həyata keçirilməsi üzrə işi gücləndirmək; V-IX sinif şagirdlərinin dil səriştəsinin formalaşdırılması prosesində multimedia vasitələrindən istifadənin səmərəliliyini və məqsədəuyğunluğunu yoxlamaq üçün testlər sistemini hazırlamaq kimi işlər nəzərdə tutulur.

Şagirdlərdə dil səriştəsinin formalaşmasında multimedianın rolu və əhəmiyyəti haqqında qısaca məlumat verək. "Dil səriştəsi" termini ilk dəfə təxminən XX əsrin ortalarında rus alimi N.Xomski tərəfindən istifadə edilmişdir. Bu termin semantik cəhətdən “dildən istifadə” termini ilə ziddiyyət təşkil etmişdir. Bu terminlərin mənaları arasındakı fərq danışanla dinləyənin dil

haqqında bilikləri ilə dilin ünsiyyət və insan fəaliyyəti praktikasında istifadəsi arasındakı fərq kimi aşkar edilmişdir. O, bütün nitq xüsusiyyətləri ilə ana dilini linqvistik deyil, psixoloji, sosioloji, didaktik tədqiqat obyekti kimi qiymətləndirmişdir. Sonradan insan faktoruna doğru "köçürmə" baş verdi. Söhbət artıq mücərrəd bir ana dili danışandan deyil, müəyyən nitq təcrübəsi olan konkret linqvistik şəxsiyyətdən gedirdi.

Professorlar B. Əhmədov, Y. Seyidov, Y.Kərimov, A. Rəhimov, Ə. Abbasov, A. Hacıyev, H. Abdullayeva və başqaları dil kompetensiyasını dil sistemi haqqında biliklər və ondan orfoqrafiya, durğu işarələri, nitq savadına nail olmaq üçün istifadə etmək bacarığı, yəni Azərbaycan dili, onun lüğət tərkibi haqqında praktiki biliklər hesab edirdilər.

Çoxsaylı qaydaların uzun müddət yadda saxlanması, onların tətbiqi ilə bağlı qısamüddətli bacarıqların inkişafı (yalnız müəyyən bir mövzu və ya bölmə üzərində iş zamanı etibarlıdır) uzunmüddətli nəticə verə bilməz. Orfoqrafiya və durğu işarələri bacarıqlarının formalaşmasının müvəffəqiyyəti hər bir orfoqrafiya və ya durğu işarəsi vəziyyətinin linqvistik mahiyyətini dərk etmə səviyyəsindən və yazı prosesində linqvistik və sintaktik təhlil aparmaq bacarığından asılıdır.

İşin nəticələri göstərir ki, şagirdlər bir orfoqramı və ya puntoqramı digərindən fərqləndirir, sözləri verilmiş orfoqrafiya və puntoqrammalara görə qruplaşdırır, müvafiq alqoritmə uyğun hərəkət edirlər. Ancaq bütün bu biliklər, şagirdlər müəyyən bir dil vəziyyətinin izahının və ya müstəqil yazının müstəqil seçimi şəraitində olduqları anda tələb olunmur.

Bu gün müəllimin qarşısında bir sual durur: fənnin tədrisini necə təşkil etməli, hansı forma və üsullardan istifadə etməli ki, müəyyən biliyin əldə edilməsi prosesi öz yerini konkret şəraitdə bu biliklərin şüurlu tətbiqi prosesinə versin? Buna nail olmaq üçün təlim prosesində müəllimin multimedia vasitələrindən istifadə etməsi yaxşı nətiə verə bilər. Təhsilin informasiyalaşdırılması şagirdlərin dil sərişdəsinin formalaşdırılmasının mühüm vasitəsidir. Bu proses təhsilin məzmununu, metodlarını və təşkilati formalarını dəyişir.

Ümumi təhsilin informasiyalaşdırılması prosesi tədris vəsaitlərinin müxtəlifliyini yeniləri ilə tamamlamağa imkan verir. Onların köməyi ilə müəllim və şagirdlərin fəaliyyətinin tədqiqat, axtarış xarakterli olduğu dərslərdə pedaqoji vəziyyətlər həyata keçirilə bilər ki, bu da şagirdlərin dil sərişdəsinin formalaşmasına kömək edir. Müasir təhsil məktəbi ümumbəşəri biliklərin, bacarıqların, vərdişlərin, eləcə də şagirdlərin müstəqil fəaliyyət təcrübəsinin və şəxsi məsuliyyətinin ayrılmaz sistemini formalaşdırmalıdır. Müəllimin əsas problemi "təlimin yüksək keyfiyyətli mənimsənilməsini təmin edən şərt kimi şagirdlərin təhsil sərişdələrinin inkişafı üçün vasitə və üsulların axtarışıdır". Təhsil sərişdələri, fərdi və sosial əhəmiyyətli məhsuldar fəaliyyətlərin həyata keçirilməsi üçün zəruri olan müəyyən bir reallıq obyektlərinə münasibətdə şagirdin bilikləri, bacarıqları, vərdişlərinin məcmusudur.

Kompüter texnologiyaları müxtəlif fənlərin tədris prosesinin təşkilində möhkəm yer tutmuşdur. Bir neçə il əvvəl dərslərdə kompüterlə işləmək üsullarından yalnız danışırdılar. Fənlərin tədrisi sahəsində telekommunikasiyaların tətbiqi ilə bağlı yekdillik yox idi. Müasir dil dərslərində kompüterdən istifadə edərək məlumatın passiv mənimsənilməsi deyil, onun aktiv işlənməsi var ki, bu da təkcə mövzu üzrə materialı mənimsəməyə deyil, həm də ən yaxşı yolları seçərək praktikada tətbiq etməyi öyrənməyə kömək edir. İnformasiya texnologiyalarının tətbiqində dil müəlliminin qarşısında duran vəzifələr digər fənn müəllimlərinin məqsəd və vəzifələrindən bir çox cəhətlərinə görə fərqlənir. Bu tapşırıqlar mətnlə, bədii sözlə, kitabla işləməyi əhatə edir.

Azərbaycan dili müəllimi şagirdlərdə güclü orfoqrafiya və durğu işarələri bacarıqlarını formalaşdırmaq, şagirdlərin lüğət ehtiyatını zənginləşdirmək, onlara ədəbi dilin normalarını mənimsəməyi öyrətmək, uşaqlara dil haqqında biliklər verməlidir. İKT bu problemlərin

həllində müəllimə köməkçidir. Bu gün Azərbaycan dili və ədəbiyyat dərslərində kompüter həyatı öyrənmə vasitəsidir. O, müəllimə sinifdə bütün dünyaya açıq olan yeni iş mühiti yaratmağa kömək edir, həm də bu günün şagirdlərinin düşüncə tərzini sabahın ehtiyaclarına cavab verəcək şəkildə dəyişdirir.

Onu deyə bilmərik ki, kompüterdən istifadə ilə dərslərin hazırlanması və keçirilməsi müəllimdən, xüsusən də dərsə hazırlaşarkən xeyli vaxt, səbr tələb edir. Bundan əlavə, onlar təşkilati xarakterli bəzi narahatlıqlar yaradırlar. Bütün bunlarla belə dərslər müəllimə böyük məmnunluq, şagirdlərə isə fayda gətirir. L.N.Tolstoy deyirdi ki, "müəllim üçün öyrətmək nə qədər asan olarsa, şagirdlərin də öyrənməsi bir o qədər çətindir. Müəllim üçün nə qədər çətin olsa, şagird üçün bir o qədər asan olur. Müəllim özü nə qədər çox öyrənsə, hər mövzu üzərində düşünsə və onu şagirdin gücü ilə ölçsə, şagirdin düşüncə qatarını bir o qədər çox izləsə,. şagirdin öyrənməsi bir o qədər asan olar". ( )

Yaradıcı müəllimin rolu mövcud kompüter texnologiyalarının tədris prosesinə tətbiqi ilə məhdud-laşmır. Elmi-texniki prosesin "önündə" olan müəllim yeni tədris vəsaitlərinin arsenalının tərtibatçısı və sınaqçısı olmaqdan yeni dərsin işlənib hazırlanmasına qədər müəllif metodologiyasını yaratmaq üçün iş metodu seçmək imkanına malikdir.

Orta ümumtəhsil məktəb kursunda Azərbaycan dili fənni kifayət qədər mürəkkəbdir və təbii ki, hər bir müəllimin vəzifəsi bu fənnin əsaslarını şagirdlərinə tam mənimsətmək, əldə etdikləri bilikləri praktikada şüurlu şəkildə tətbiq etməyi öyrətməkdir. Şagirdlərin dil səriştəsinin formalaşmasına şərait yaratmaq üçün müəllim qarşısında təlimin vasitə və üsullarını seçmək məsələsi durur.

İnformasiya texnologiyalarının inkişafı Azərbaycan dilinin tədrisini intensivləşdirməyə, müasir dərsin tempini yüksəltməyə, müxtəlif növ yazılara sərf olunan vaxtı azaltmaqla kommunikativ məşqlərin həcmini artırmağa və Azərbaycan dilinin tədrisi ilə bağlı aktual problemləri həll etməyə imkan verdi. Müasir texniki vasitə kimi kompüter unikal öyrənmə imkanlarına malikdir:

Kompüter vizuallaşdırma üçün nümayiş vasitəsi kimi (interaktiv vizuallaşdırma). Şagirdlərin dinamik cədvəllər, istinad diaqramları, cədvəllərlə qarşılıqlı əlaqəsi xüsusilə aktivdir. Onlar söhbət zamanı, müstəqil olaraq, istinad materiallarından istifadə etməklə doldurulur. Bütün bunlar qrammatik materialın qavranılmasını və dərk edilməsini asanlaşdırır, dilin vizuallaşdırılmasını parlaq şəkildə təqdim etməyə, linqvistik problemləri həll etməyə imkan verir.

Şagirdlər dil səriştəsini formalaşdıran bacarıqları inkişaf etdirirlər: müxtəlif mənbələrdən mə-lumat çıxarmaq, nəzəri materialdan istifadə edərək diaqramlar qurmaq, məlumat ədəbiyyatından, müxtəlif linqvistik lüğətlərdən sərbəst istifadə etmək, dil vahidlərinin, hadisələrin müxtəlif növlərinin təhlilini aparmaq. İnformasiya texnologiyalarının tətbiqi ilə hər bir şagirdin təlim prosesinin idarə edilməsinə dair daha geniş başa düşülməsi əlaqələndirilir, çünki biz fərdi-şəxsi xarakter daşıyan lazımi idarəetmə məlumatlarını alırıq ki, bu da təhsilin gedişatını görməyə imkan verir.

Eyni zamanda idarəetmə subyektləri təkcə müəllim deyil, həm də şagirdin özüdür. Sinif-dərs sistemi frontal işdən, müəllimin izahatından hər bir şagirdin fərdi işinə keçidi dərsin qaçılmaz hissəsi kimi işin nəticələrinin müzakirəsi kollektiv şəkildə tamamlansın. Bu məlumat mübadiləsində multimedia vasitələri böyük köməklik göstərir. Bu birbaşa müəllimdən, həm də şagirddən məlumatların miqdarını artırarkən səmərəli təsir göstərir. Onlar müəllimə həm materialın şagird tərəfindən mənimsənilməsi dərəcəsinə, həm də təlim səviyyəsindən asılı

olaraq hər bir fərdi şagird üçün onun təqdimat sürətinə və şagirdlərin əldə etdikləri biliklərdən praktiki fəaliyyətdə istifadənin səmərəliliyinə nəzarət etməyə imkan verir.

Multimedia müxtəlif tipli informasiya emalı vasitələrinin işlənib hazırlanması, istismarı və istifadəsi prosedurunu təsvir edən texnologiyadır. Bunlardır:

- müxtəlif növ məlumatların emalı və təqdim edilməsi texnologiyaları əsasında yaradılmış informasiya ehtiyatı;
- fəaliyyəti müxtəlif növ məlumatların emalı və təqdim edilməsi ilə əlaqəli olan kompüter proqramı;
- həm ənənəvi statik vizual (mətn, qrafika), həm də müxtəlif tipli dinamik məlumatları (nitq, musiqi, video kliplər, animasiya və s.) birləşdirən xüsusi ümumiləşdirici məlumat növü.

Beləliklə, "multimedia" termini istifadəçiyə səmərəli təsir göstərmək üçün müxtəlif proqram və texniki vasitələrdən istifadə edən informasiya texnologiyaları silsiləsi deməkdir. Multimedia mətndən, səsdən, təsvirdən istifadə edən və inteqrasiya olunmuş informasiya təhsil resursları yaratmaq üçün bütün bunları vahid bütövlükdə birləşdirməyə imkan verən texnologiyadır. Buradan təhsil müəssisəsinin informasiya məkanı ilə multimedia texnologiyaları arasında əlaqə aydın görünür. Tədris prosesində multimedia texnologiyalarından istifadə qarşıya qoyulan vəzifələrdən asılı olaraq müxtəlif forma və növlərdə ola bilər. Burada bizim iki əsas üstünlüyümüz var - keyfiyyət və kəmiyyət. Şifahi təsvirləri birbaşa audiovizual təqdimatla müqayisə etsək, keyfiyyətcə yeni imkanlar göz qabağındadır.

Məlumdur ki, insanların çoxu eşitdiklərinin 5%-ni və gördüklərinin 20%-ni xatırlayırlar. Audio və video məlumatların eyni vaxtda istifadəsi yaddaqalanlığı 40-50%-ə qədər artırır. Multimedia texnologiyalarının didaktik imkanlarını aşağıdakı kimi xarakterizə edə bilərik:

- informasiya əldə etmək vasitələridir;
- təhsil məlumatlarının təqdimetmə formalarını rasionallaşdırır,
- əyanilik dərəcəsini artırır, anlayışları, hadisələri, dərketməni konkretləşdirir,
- tədris materialının keyfiyyətcə qavranılmasına təsir göstərir;
- şagirdlərin elmi və mədəni ehtiyaclarını tam şəkildə ödəyir;
- şagirdlərin təhsil məlumatlarına emosional münasibətini yaradır;
- əldə edilmiş biliklərin praktiki tətbiqinin başa düşülməsinə töhfə verir;
- orijinal yeni texnologiyalardan, maşınlardan, cihazlardan istifadə etməklə öyrənməyə marağı artırır.

Multimedia texnologiyalarından istifadənin didaktik xüsusiyyətlərinə məlumat zənginliyi; məkan sərhədlərini aşmaq bacarığı; tədqiq olunan hadisə və proseslərin mahiyyətinə nüfuz imkanı; tədqiq olunan hadisələrin inkişafda, dinamikada nümayişi; ifadəlilik, vizual texnikanın zənginliyi, emosional zənginlik daxildir.

Dərsdə multimedia vasitələrindən istifadə edərkən dərsin strukturu əsaslı şəkildə dəyişmir. O, əsas mərhələləri saxlayır. Qeyd etmək lazımdır ki, bu halda motivasiya mərhələsi artır və idrak yükü daşıyır. Bu, öyrənmənin uğuru üçün zəruri şərtdir, çünki çatışmayan bilikləri doldurmağa maraq olmadan, təxəyyül və duyğular olmadan şagirdin yaradıcı fəaliyyəti ağlasığmazdır. Bütün bunlar həm də əldə edilmiş bilikləri praktikada tətbiq etmək bacarığının möhkəmlənməsinə kömək edir və nəticədə dil səriştəsinin formalaşmasına şərait yaradır.

Ümumtəhsil məktəblərinin kompüterləşdirilməsi proqramından sonra dərslərdə multimediadan istifadə etmək imkanı artır. Bu iş metodunun üstünlüklərini qeyd etmək istərdim. Dərsin mövzusu nə qədər mürəkkəb olsa da, hər şey bütün rənglərdə, səs və bir çox başqa effektlərlə edilirsə, onu dinləməmək, baxmamaq mümkün deyil. Uşaqlarda artıq ilkin olaraq kompüter sevgisi yaranır, bu sevgi düzgün istifadə olunsa, şagirdlərin marağını artıracaq və bu da öz

növbəsində həm onların biliklərinin keyfiyyətinə, həm də tətbiq etmək qabiliyyətinə təsir edəcəkdir.

Ən çox istifadə olunan medialar bunlardır: MS Office proqram paketi; elektron multimedia nəşrləri; xüsusi kompüter proqramları. Bu sahədə tədqiqat aparan müəlliflərin əsərlərində tədris prosesində informasiya texnologiyalarından istifadənin məqsəd və imkanları müxtəlif aspektlərdən nəzərdən keçirilir. Şagirdlərdə dil səriştəsini formalaşdırmaq üçün multimedia vasitələrindən istifadənin bütün variantlarını üç böyük qrupa bölmək olar: ədəbiyyat dərsində bir kompüterdən (və ya multimedia kompleksindən) istifadə; informatika kabinetində Azərbaycan dili dərsləri; kompüterdən distant (məsafədən) istifadə.

İnformasiya texnologiyalarından istifadə edən bir çox müəllimlər ən çox yayılmış Power Point proqramının məhsulu olan təqdimatlardan istifadə edirlər. Bu halda multimedia proyektoru olan kompüter bütün texniki və qeyri-texniki tədris vasitələrini yazı lövhəsini və kitabı, televizor və videoregistratoru, illüstrativ material və səsi əvəz edir.

Dərslərini müxtəlif təqdimatlarla keçən müəllimlərimiz var. Bu şagirdlərin mövzuya mümkün qədər maraq göstərməsinə, materialın təqdimatını və mənimsənilməsini asanlaşdırmağa imkan verir.

Beləliklə, şagirdlər materialı sadəcə olaraq "yadda saxlamırlar", onu şüurlu şəkildə dərk edirlər, onun hər bir struktur elementinin əhəmiyyəti (şagirdinə görə) baxımından şərh edirlər. Bu, nəzəri materialın mənimsənilməsi mərhələsində dil səriştəsinin formalaşmasına şərait yaradır.

Dil səriştəsinin formalaşması, müxtəlif istinad sxemlərinin (alqoritmlərinin) istifadəsi ilə asanlaşdırılır. Həm Power Point-də, həm də MSWord-də yaradılmış dəstək diaqramları bilikləri sistemləşdirməyə, konkret qaydanın tətbiqi üçün alqoritm hazırlamağa, öyrənilən materialın praktiki tətbiqində öz fikrlərini əsaslandırmağı öyrənməyə imkan verir. Eyni zamanda, eyni istinad diaqramının (animasiyalı) müxtəlif məqsədləri olan bir sıra dərslərdə istifadə edildiyi güman edilir: məsələn, əvvəlcə yeni materialı izah etmək, sonra onu möhkəmləndirmək, sonra bilikləri yoxlamaq, və nəhayət, materialın sistemləşdirilməsi və ümumiləşdirilməsi.

Ölkə başçısının "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramının (2005-2007-ci illər) təsdiq edilməsi haqqında" 21 avqust 2004-cü il tarixdə imzaladığı sərəncam bu günümüz üçün zəruri olan informasiya texnologiyalarından müasir tələblərə uyğun istifadə problemlərinin həlli baxımından strateji əhəmiyyət kəsb edir. Təbii olaraq, bu tarixi sənəd indiyədək bu sahədə mövcud olan boşluqların doldurulmasına, dünyəvi təhsilə inteqrasiya yönümündə çatışmazlıqların aradan qaldırılmasına, gənc nəslin müasir standartlara uyğun daha dərindən savadlanmasına önəmli kömək göstərir.

QƏRBİ AZƏRBAYCANIN DƏRƏLƏYƏZ MAHALI ORONİMLƏRİNİN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

SEVİNC SƏRHAD QIZI SADIQOVA

filologiya üzrə fəlsəfə doktoru, dosent Azərbaycan Dövlət Pedaqoji Universiteti Azərbaycan, Bakı *Orcid ID: 0000-0001-8720-3262*

Özet
Her özel isim – onomastik birim, sözcük birimlerinin uzmanlaşması sonucu oluşur. Özel birimlerin oluşumuna katılımlarının nedenini belirlemek için, oronymlerin oluşumunda yer alan sözcük birimlerinin ilk biçimlerini keşfetmek önemlidir. Bu nedenle oronymlerin sözcüksel-anlamsal gruplara ayrılması önemlidir. Oronimlerin sözcüksel-anlamsal özelliklerine göre gruplandırılması, Azerbaycan'ın toponimi ve dilbilimi alanında yapılan araştırmalarda daha az çalışılan alanlardan biridir.
Açar sözlər: Qərbi Azərbaycan, Dərələyəz, toponim, oronim, leksik-semantik xüsusiyyət
Summary
Each special name - onomastic unit is formed as a result of specialization of lexical units. It is important to discover the initial forms of lexical units involved in the formation of oronyms, to determine the reason for their participation in the formation of special units.For this reason, it is important to divide oronyms into lexical-semantic groups. The grouping of oronyms according to their lexical-semantic features is one of the less studied areas in research conducted in the field of toponymy and linguistics of Azerbaijan.
Keywords: Western Azerbaijan, Daralayaz, toponym, oronym, lexical-semantic feature

GİRİŞ

Hər bir xüsusi ad – onomastik vahid leksik vahidlərin xüsusiləşdirilməsi nəticəsində formalaşır. Oronimlərin formalaşmasında iştirak edən leksik vahidlərin ilkin formalarının aşkar edilməsi, onların xüsusi vahidlərin formalaşmasında, iştirak etmə səbəbinin müəyyənləşdirilməsi mühüm əhəmiyyətə malikdir. Bu səbəbdən oronimləri leksik-semantik qruplara ayırmaq vacibdir. Azərbaycan dilçiliyində, toponimika sahəsində aparılan tədqiqatlarda oronimlərin leksik-semantik xüsusiyyətlərinə görə qruplaşdırılması az öyrənilən sahələrdəndir. Bu sahə ilə bağlı N.Məmmədov oronimləri aşağıdakı prinsiplərə uyğun qruplaşdırmışdır: 1.Oronimlərin dil mənsubiyyəti. 2.Oronimlərin yaradılmasında coğrafi terminlərin rolu. 3.Oronimlərin ad verilmə səbəblərinə görə təsnifatı. 4.Azərbaycanda bəzi oronimlərin mənşəyi (1,s.180). Bundan başqa, bir çox dilçilər, toponimistlər toponimlərin leksik-semantik qruplarına aid müxtəlif bölgülər vermişlər. Dərələyəz mahalı ərazisindəki oronimləri nəzərdən keçirdikdən sonra, onları aşağıdakı leksik-semantik qruplara ayırmağı məqsədəmüvafiq hesab edirik: 1.Etnonimlərdən törənən oronimlər; 2.Antroponimlərdən törənən oronimlər; 3.Hidronimlərdən törənən oronimlər; 4.Oronimlərdən törənən oronimlər; 5.Zoonimlərdən törənən oronimlər; 6.Fitonimlərdən törənən oronimlər; 7.Müəyyən hadisələri əks etdirən sözlərdən törənən oronimlər; 8.Oykonimlərdən törənən oronimlər; 9.Apelyativ leksik vahidlərdən törənən oronimlər (2,s.95). Etnonimlərdən törənən oronimlərə, yazının həcmini nəzərə alaraq, burada toxunmayacağıq.

Antroponimlərdən törənən oronimlər.Dərələyəz mahalındakı oykonimlər kimi, oronimlərin də formalaşmasında antroponimlər geniş şəkildə iştirak etmişdir. Qeyd etmək lazımdır ki, digər qruplara nisbətən, antroponimlərdən törənən oronimlər miqdarına görə çoxluq təşkil edir. Belə ki, Dərələyəz ərazisində qeydə aldığımız antroponimlərdən törənmiş oronimlərin sayı 400-dən

çoxdur. Onların birinci komponentləri şəxs adı – antroponim, ikinci komponentləri isə ərazinin relyef quruluşunu əks etdirən müxtəlif sözlərlə (topoformantlarla) ifadə olunur. Bu topoformantlardan dağ (Abduləsər dağı), dərə (Əli dərəsi), təpə (Qurban təpəsi), qaya (Gəncimalı qayası), yal (Məmərza yalı), kaha (Əlinin kahası), düz (Səfi düzü), gədik (Zamanın gədiyi), güney, quzey (Vəli güneyi, Qaraxan quzeyi), çınqıl (Hüseynalı çınqılı), biçənək (Məhəmmədəli biçənəyi), yer (Sultanın yeri), aşırım (Biniş qəbri aşırımı), kalafa (Mirzənin kalafası), yurd (Fətəli yurdu), meşə (Abtalıb meşəsi), yol (Əlidərəsi yolu), arxac (Vəlibəy arxacı), dem (Rəfinin demi), çeyil (Abduləlinin çeyili), gəz (Xıdırın gəzi) və s. misal göstərmək olar. Bunlardan əlavə, antroponim əsasında yaranmış oronimlərdən başqa, Dərələyəz mahalı ərazisində *Səfi binəsi (Axta), Hacı Qasımlı zolağı (Ardaraz), Məmməd Həsənin yoncalığı (Çivə), Həsənalı zağası (Ertiş), İsmayılın yastanası (Ələyəz), İbişin söyüdlüyü (Gülüdüzü), Təhməzin bərəyəsi (Gülüdüzü), Calalın qumu (Gülüdüzü), Hüseynin qumu (Gülüdüzü), Əsdanın yolyenəni (Gülüdüzü), Bəylərin yolaşanı (Gülüdüzü), Alışan qoruğu (Heşin), Mahmuddu yaylağı (Horbadığ), Namazın şumu (Hosdun), Qanlı Eyvaz ağacı (Hosdun), Hacıəsədin mağarası (Qalaser), Kalbahüseyn dolayısı (Qoduxvəng), Həsən qayasının başı (Qoduxvəng), Cəlilin şamı (Qovuşuq), Vəlibəy yaylağı (Qozulca), Hüseynin çöpləri (Məmərza), Təhməzin bərəsi (Nəbilər), Pərinin armudluğu (Nəbilər)* kimi oronimlər də qeydə alınmışdır ki, bunlar da ismi birləşmə modelində formalaşmışdır.

Dərələyəz mahalı ərazisində antroponimlərdən törənərək feli birləşmə modelində olan oronimlərə də rast gəlirik: *Məmmədalı əkən(Heşin), İbrahim əkən(Qovuşuq)*və s.

Hidronimlərdən törənən oronimlər. Dərələyəz mahalı ərazisində xeyli miqdarda oronimlər vardır ki, bunlar hidronimlər əsasında yaranmışdır. "Dil və onun daşıyıcılarının tarixini, tarixi coğrafiyasının, etnoqrafiyasının və s. məsələlərini həll etməkdə hidronimlər mühüm vasitələrdəndir. Bu və ya başqa ərazinin (hidronimik səciyyəsində) su hövzələrinin və su mənbələrinin bütöv şəkildə qeydə alınması vacib məsələdir. Hər bir ölkənin hidronimləri mürəkkəb tarixi inkişafın nəticəsi olub müxtəlif qədimlik dərəcəsinə malik, müxtəlif mənşəli qat və mərhələlərdən ibarətdir" (3,s.111).

Hidronimlər oronim yaradıcılığında da məhsuldar iştirak edir. Dərələyəzin hidrooronimlərini yaranma yollarına görə, əsasən, iki növə ayırmaq olar: morfoloji yolla əmələ gələn hidrooronimlər (Novlar, Kəhrizli və s.); sintaktik yolla əmələ gələn hidrooronimlər (Sulu dərə, Çay arxac və s.).

Oronimlərdən törənən oronimlər. Oronimlərin coğrafi landşaftın ayrı-ayrı obyektlərinin, torpağın üst qatının relyef quruluşunun adlarını bildirməsi məlumdur. Dərələyəz mahalı ərazisinin oronimlərini araşdırarkən məlum olur ki, onların bir qismi relyef bildirən sözlər və adlar əsasında yaranmışdır. Yəni bu adları oronimlər əsasında yaranmış oronimlər və ya oronimik oronimlər adlandıra bilərik. Bu qəbildən olan adları iki qrupa ayırmaq olar:

1.Müəyyən bir oronim digər oronimin yaradılmasında iştirak edir: *Ağ yarğan - Ağ yarğan dağı, Pələng dərəsi – Pələng dərəsi dağı, Dik daş – Dik daş dərəsi, Göy kab – Göy kab çınqılı və s.*

2.Coğrafi obyektlərin tipini bildirən terminlər oronimlərin adlandırılmasında iştirak edir: *gədik, çınqıl – Gədik çınqılı; dağ, arxac – Dağ arxac; dərə, yer – Dərə yerləri; yazı, yurd – Yazı yurdu; yarğan, dərə - Yarğan dərəsi* və s.

Bu oronimlərin komponentləri, adətən, dağ, dərə, təpə, yarğan, qaya, daş, yol, yal, gədik, dolay, zağa, kaha, qobu, yayla, çayır, biçənək, arxac, yataq, ağıl, kalafa, çala, çökək, çuxur, tap, taxta, binə, çınqıl, yastana, örüş, yazı, kaha, tala, gəz və s. sözlərdən ibarət olur.

Zoonimlərdən törənən oronimlər. Zoonimlərdən törənən oronimlər də Dərələyəz toponimləri arasında kifayət qədərdir. "Heyvan, quş, balıq, həşərat və s. canlıların adları əsasında düzələn toponimlər zootoponimlər adlanır. Tarixən xalqımızın iqtisadi həyatının bir hissəsini heyvandarlıq təşkil etmişdir. Bununla əlaqədar olaraq bir sıra yaşayış məskənləri, yer adları əmələ gəlmişdir" (4,s.331). Bu xüsusiyyət Dərələyəz zooronimlərinin bir qisminə aiddir,

çünki bu qrupa daxil olan oronimlərin digər bir qismi vəhşi heyvan adları (*Qurd təpəsi, Pələngənin güneyi, Ayı çınqılı*), başqa bir qismi gəmirici və sürünənlər adlarını (*İlanlı dağ, Siçanlı yurd*), həşərat adlarını (*Gənəli yurd, Birəli dağ, Böcəkli yurd*), quş adlarını (*Bildirçinli yer, qaraquş qayası, Qaz kahası qayası, Humay quşun qayası* və s.) əks etdirir.

Fitonimlərdən törənən oronimlər: Dərələyəzin zəngin flora və faunası onun oronimlərində də əks olunmuşdur. Fitooronimlərin formalaşması həmin ərazidə olan bitkinin daha çox olması ilə bağlıdır. Oronimin adlandırılmasında bitkinin həmin ərazi üçün xarakterik olması əsas götürülür. Beləliklə, bitki adları əsasında oronim formalaşmış olur. Dərələyəz ərazisindəki fitooronimlər iki yolla yaranmışdır: morfoloji yolla (*Almalıq, Gərməşovluq, Zirinclik, Gilənarlı, Qarağaclar* və s.) və sintaktik yolla (*Çivişli yurd, Kolluq dərə, Qarağac dərəsi, Şam meşəsi, Həmörsünlüyün biçənəyi, Alçalığın dərəsi*).

Ümumiyyətlə, Dərələyəzin zəngin bitki aləmi oronimlərin adlandırılmasında da öz əksini tapmışdır.

Müəyyən hadisələri əks etdirən sözlərdən törənən oronimlər: Dərələyəz mahalı ərazisində bir sıra oronimlər vardır ki, bunlar müəyyən hadisə ilə əlaqədar olaraq yaranmışlar. Bu qəbildən olan oronimlərin birinci komponenti, yəni baş verən hadisəni əks etdirən sözlər feli sifət tərkibi ilə, ikinci komponentləri isə topoterminlərlə ifadə olunur: Qız ölən yaylaq (Ayısəsi), Xanpərini ilan vuran dərə (Ələyəz), Təkədonduran qaya (Ələyəz), Qurban kəsilən dərə (Qovuşuq), Rus qırılan qaya (Qovuşuq) və s. Belə bir cəhəti də qeyd etmək lazımdır ki, bu qəbildən olan adların böyük bir qismi topoterminsiz işlənir. Yəqin ki, yarandığı dövrdə bu oronimlər topoterminlə işlənmiş, sonradan danışıq prosesində topoptermin ixtisara düşmüşdür. "Bir qisim mikrotoponimlərin birinci tərəfi feli sifət tərkibləri ilə ifadə olunur. Lakin belə mikrooronimlər əsasən, elliptik formada deyilir. Həm də bir tarixi hadisə ilə bağlı olur... Göstərilən mikrooronimləri araşdırarkən aydın olur ki, müəyyən bir kənd, bəzən də rayon ərazisində bu tipli mikrotoponimlər elliptik formada deyilir. Söhbətin hansı coğrafi obyektdən getdiyi məlum olur" (4.105-106). Dərələyəzdəki *Usubölən (Ağkənd), Fatı uçan (Arınc), Palantökülən (Ərgəz), Kərimqaçan (Horbadığ), Zəncir itən (Qalaser), At ölən* və s. bu qəbildəndir. Müəyyən hadisələri əks etdirən sözlərdən törənən oronimləri aşağıdakı kimi qruplaşdıra bilərik:

Hər hansı şəxslə bağlı müəyyən hadisəni əks etdirən və coğrafi terminlə işlənən oronimlər: *Hüseynalı düşən yurd (Axta), Eyvaz düşən yer (Amağu), Rusölən güney (Axta), Qaçaq vurulan yurd (Amağu), Qız ölən yaylaq (Ayısəsi), Şamo vurulan yurd (Ayısəsi), Qızyetərqaçan yer (Canı), Qız uçan qaya (Ertiş), Talıb yatan dərə (Ələyəz), Xanpərini ilan vuran dərə (Ələyəz), Fəro yatan dərə (Ələyəz), İsa yatan dərə (Ələyəz), Eyvaz düşən dərə (Ələyəz), Qızyetərqaçan yurd (Gülüdüzü), Qızyetərqaçan kövşən (Gülüdüzü), Qasımölən dərə (Gülüdüzü), Oruc ölən dağ (Herher), Zöhrə boğulan yurd (Herher), Quluboğulan kövşən (Hors), Baxşı ölən dərə (Hors), Qurbanölən dərə (Hors), Xəlil ölən kaha (Hors), Pəri ölən örüş (Hosdun), Məmmədölən yaylaq (İstisu), Məmməduçan qaya (İstisu), Həsənuçan qaya (İstisu), Qasımölən kövşən (İstisu), Qurbankəsilən kövşən (İstisu), Mehriölən kövşən (Kotanlı), Həlimə ölən yer (Kotanlı), Haqverdi toyu olan yurd (Qabaxlı), Baxışuçan qaya (Qalaser), Əsgərölən biçənək (Qoduxvəng), Ağamalılar düşən yurd (Qoduxvəng), Qurban ölən qaya (Qoduxvəng), Xəlil uçan yer (Qovuşuq), Səməd düşən yer (Qovuşuq), Rus qırılan yer (Qovuşuq), Məmməd gedən yer (Sallı), Leyliqaçan biçənək (Terp), Uşaq qırılan dərə (Zeytə), Abbas ölən yer (Gülüstan).*

Hər hansı şəxslə bağlı müəyyən hadisəni əks etdirən və coğrafi terminsiz işlənən oronimlər: *Nağı görüb (Ağkənd), Usubölən (Ağkənd), İsgəndər ölən (Arınc), Fatı uçan (Arınc), Səlimölən (Canı), Haqverdi olan (Canı), Məmmədəli döyülən (Canı), Şıxalıqorxan (çöl) (Çaykənd), Tükəzölən (dağ) (Çaykəd), Mehriölən (Ərgəz), İsgəndər əkən (Gülüdüzü), Məmmədölən (Herher), Zöhrəboğulan (Herher), Qızyetərölən (Herher), Zeynəbçalan (Horbadığ), Kərimqaçan (Horbadığ), Hüseyn düşən (Horbadığ), Zamanölən (Hors), Həsən çapılan (Hosdun), Məmməd ölən (Köçbək), Məmmədalı bəy ölən (Qabaxlı), Tutu qaçan (Qalaser),*

Seyidlər düşən (Qalaser), Novruzəli uçan (Qalaser), Qızyetərqaçan (Qoduxvəng), Xuda Mədəd düşən (Qovuşuq), Xıdır ayı basan (Zeytə).

Müəyyən canlı ilə bağlı hadisəni əks etdirən və coğrafi terminlə işlənən oronimlər: *Ayı ölən yaylağı (Ayısəsi), Qoyunbasan yurd (Ayısəsi), Maral vurulan qaya (Ayısəsi), Buzov qırılan yal (Gabut), Ayıbasan yer (Gendərə), İnəkölən kövşən (Gülüdüzü), Ayı ölən zağa (Gülüdüzü), Ayı ölən qaya (Gülüdüzü), Arı qonan qaya (Gülüdüzü), Ayıölən çınqılı (Gülüdüzü), Atölən kövşən (Qabaxlı), Qancıqölən kövşən (Qoduxvəng), Dəvə ölən biçənək (Qoduxvəng), At uçan biçənək (Qoduxvəng), Təkədonduran qaya (Ələyəz), İt qırılan yer (Sallı), Ayı ölən burun (Qovuşuq).*

Müəyyən canlı ilə bağlı hadisəni əks etdirən və coğrafi terminsiz işlənən oronimlər: *Eşşək ölən (Ərgəz), Qancıqölən (Gülüdüzü), Ayı ölən (Hors), At ölən (Köçbək), Ayı ölən (Qalaser), Eşşək uçan (Qoduxvəng), Qancıq ölən (Sallı).*

Müəyyən hadisə ilə əlaqədar yaranaraq coğrafi terminlə işlənən oronimlər: *Pultapılan kövşən (Ağkənd), İldırım düşən yer (Amağu), Tar gələn dərə (Ələyəz), Qazağ ölən yurd (Gomur), Şapa düşən yurd (Heşin), Canqurtaran dağı (Hors), Palantökülən yer (Horbadığ), Saman tökülən qaya (İstisu), Qurban kəsilən dərə (Qovuşuq), Güllə dəyən daş (Qovuşuq), Can qurtaran dağ (Heşin).*

Müəyyən hadisə ilə əlaqədar yaranaraq coğrafi terminsiz işlənən oronimlər: *Qabaq kəsilən (Ayısəsi), Palan tökülən (Ərgəz), Mis tapılan (Gabut), Qılıncsınan (Gülüdüzü), Dağ dələn (Hors), Zəncir itən (Qalaser), Sutökülən (Qoduxvəng), İlgək itən (Sallı), Səbətkeçməz yol (Qabaxlı).*

Bunlardan başqa, Dərələyəz ərazisində *Dübür yatan düzənlik (Ələyəz), Qızyetərqaçanın arxacı (Qabaxlı), Səlim ölənin çınqılı (Qabaxlı), Qaradüşən qala biçənək (Qoduxvəng), Qurbanölən qəyənin başı (Qoduxvəng), Qasım ölən dərənin kövşəni (Qoduxvəng), Sutökülənlər (Qovuşuq)* kimi müəyyən hadisə ilə bağlı müxtəlif quruluşlu oronimlər olmuşdur.

Oykonimlərdən törənən oronimlər: Dərələyəz mahalının oykonimlərini əvvəlki fəsildə ətraflı şəkildə təhlil etdik. Lakin ümumilikdə Dərələyəz toponimlərini nəzərdən keçirdikdə, belə bir faktın şahidi oluruq ki, bir sıra oronimlər məhz oykonimlər – yaşayış məntəqələrinin adları əsasında formalaşmışlar. Adətən, yaşayış məntəqəsinə yaxın olan oronimlər həmin obyektin adı ilə adlandırılırlar. Digər üsullarla yaranan oronimlərə nisbətən, oykonimlər əsasında yaranan oronimlər miqdarına görə azdır. Oykonimlərdən törənən oronimlərə Sallı dərə, Çivə yurdu, Qozulca dağı, Herher yalı, Əyricə aşırımı, İtqıran yurdu, Axta dərəsi və s. göstərə bilərik:

Apelyativ leksik vahidlərdən törənən oronimlər: Apelyativleksikaya daxil olan elə sözlər var ki, onların xüsusi adyaratma imkanları daha genişdir. Bunlara əlamət, keyfiyyət bildirən sözlər, bədən üzvlərini bildirən sözlər (baş, qaş, burun, göz, qol və s.), müxtəlif əşya adları və s. daxildir. Bu qəbildən olan sözlər müxtəlif coğrafi terminlərə qoşularaq oronimlər əmələ gətirir: *Daşlı güney (Axta), Qırmızı güney (Axta), Şor dərə (Ələyəz), Böyük düz (Ələyəz), Qızıl qaya (Ələyəz), Sarı qaya (Ələyəz), Uçuq qaya (Ələyəz), Sıvırçaq daş (Ələyəz), Top daş (Ələyəz), Əyri tar (Ələyəz), Sandıqlar örüşü (Axta), Yanıqlar örüşü (Axta), Çölməklər kövşəni (Axta), Qumlar sahəsi (Axta), Daş arxacı (Axta), Daş dərəsi (Axta), Binə arxacı (Axta), Karvan yolu (Axta), Meşə yolu (Axta), Qazma yurdu (Axta), Meşə yalı (Axta), Kəllə qaya aşırımı (Axta), Çaxmaqlı biçənəyi (Almalı), Qala dərəsi (Amağu), Böyükbaş aşırımı (Amağu), Oğru binəsi (Amağu), Ağ qaya (Ardaraz), Qara qaya (Ardaraz), Həvşə yeri (Arınc), Qum yeri (Arınc), Pir təpəsi (Arınc), Qarama dərəsi (Arınc), Axund bağı (Arınc), Göy qəcəl yaylağı (Ayısəsi), Orta təzəkli yurdu (Ayısəsi), Qala yurdu (Ayısəsi), Dəmyə yurdu (Ayısəsi), Gözəldərə dağ silsiləsi (Ayısəsi), Nahar qayası (Ayısəsi), Qarakav yeri (Bulaqlar), Şora kahası (Canı), Matəm ağacı dağı (Cul), Üç qardaş dağı (Çaykənd), Bəy torpağı (Çivə), Hörük yeri (Çivə), Ovçu yolu (Çivə), Ağ yer yoncalığı (Çivə), Dində yalı (Çivə), Boz qala yeri (Ertiş), Bayda dərəsi (Ertiş), Dəmirtəpə dağı (Ələyəz), Qaraşum yaylağı (Ələyəz), Qoşa arxaclar yaylağı (Ələyəz), Qala*

dərəsi (Ələyəz), Ov qayası (Ələyəz), Zağa qayası (Ələyəz), Təpəsi dəlik dağı (Ərgəz), Qazma yeri (Ərgəz), Uçuğun çınqıllığı (Axta), Yanığın biçənəyi (Axta), Binənin biçənəyi (Axta), Pirin yalı (Axta), Kömürlünün yalı (Ardaraz), Zağanın ağzı (Ardaraz), Sarının başı (Ardaraz), Demin dərəsi (Arınc), Yanığın çınqılı (Ayısəsi), Ağzıdarın kahası (Ayısəsi), Taxtaların yolu (Ayısəsi), Kəndin altı (Canı).

NƏTİCƏ

Qərbi Azərbaycanın Dərələyəz mahalı ərazisindəki oronimlərin leksik-semantik xüsusiyyətlərinə görə növlərinitəhlil etdikdən sonra, etnonimlərdən törənən oronimlər, antroponimlərdən törənən oronimlər, hidronimlərdən törənən oronimlər, oronimlərdən törənən oronimlər, zoonimlərdən törənən oronimlər, fitonimlərdən törənən oronimlər, müəyyən hadisələri əks etdirən sözlərdən törənən oronimlər, oykonimlərdən törənən oronimlər, apelyativ leksik vahidlərdən törənən oronimlər kimi leksik-semantik qrupların hər birinə aid külli miqdarda türkmənşəli adların mövcudluğu bu torpaqların əzəli sahiblərinin kimliyini sübut edən ən etibarlı dəlillər olduğunu üzə çıxardı.

İstifadə edilmiş ədəbiyyat:

1.Məmmədov N. Azərbaycanın yer adları. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 184 s.
2.Sadıqova S. Müasir Azərbaycan dilinin leksikologiyası: Dərələyəz toponimlərinin linqvistik-etimoloji təhlili əsasında. Bakı, ADPU, 2014, 204 s.
3.İsrafilov R., Məşədiyev Q., Cəfərov Q. Azərbaycan dilinin onomastikası. Bakı, “Elm”, 1987, 187 s.
4. Qurbanov A. Azərbaycan dilinin onomalogiyası. Bakı, “Maarif”, 1998,595s.
5.Bayramov A. Qədim Oğuz ellərinin – Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin yer-yurd adları (toponimləri), Sumqayıt, 1996, 240 s.

PLACE OF IMPLICATIVE FEATURES OF SYMBOLS IN AZERBAIJANI LITERARY TEXTS

SİMVOLLARIN İMPLİSTİK XÜSUSİYYƏTLƏRİNİNAZƏRBAYCAN BƏDİİ MƏTNLƏRİNDƏ YERİ

ZEMFİRA İSAXAN QIZI ABBASOVA

ADPU, Filologiya üzrə fəlsəfə doktoru, https://orcid.org/0000-0001-2673-8634

Xülasə

Bədii mətnlərində obrazlılıq yaradan vasitələr sırasında implistik simvollar mühüm yer tutur.Bədii üslubda mənalı hissələrə çevrilə bilir. Söz sənətkarları tərəfindən onların rəngarəng növlərindən geniş istifadə olunur. İmplist simvollar bədii mətnin dinamik və emosional keyfiyyətlərinin zənginləşməsindəaktiv iştirak edir.İfadə vasitələrinə görə rəmzi məna daşıyan bəzi hərfləri, rəng bildirən sözləri, idiomatic ifadələri, frazeoloji vahidləri, əfsanəvi şəxs adlarını, məcaz növlərini, atalar sözü və məsəlləri, bəzi bitki, meyvə, heyvan və quş adlarını, rəvayətli ifadələri və sairəni ifadə etməklə bədii obrazlılığı daha aydın, daha canlı və düşündürücü tərzdə səciyyələndirir. İmplistik simvolların əsas xarakterik cəhətlərindən biri bənzətmə əsasında qeyri-adi bədii və poetik obrazlılığın formalaşdırılmasıdır ki, birincisi bir məfhumun səciyyəvi xüsusiyyətlərinin başqa bir məfhumun üzərinə köçürülməsi ilə müqayisəsidir.

Açar sözlər: İmplistik xüsusiyyətlər, implist simvol, bəddii obrazlılıq, ifadə vasitələri, fonetik-qrafik simvollar, obrazlı vahidlərin eksplikasiya və implikasiyası.

Özet

Sanatsal metinlerde imgeyi oluşturan araçlar arasında örtülü simgeler önemli bir yer tutar. Sanatsal bir üslupla anlamlı parçalara dönüştürülebilir. Renkli çeşitleri söz ustaları tarafından yaygın olarak kullanılmaktadır. Örtülü semboller, edebi metnin dinamik ve duygusal niteliklerinin zenginleştirilmesinde etkin rol oynar. İfade araçlarına göre, sembolik anlam taşıyan bazı harfler, renk belirten kelimeler, deyimsel ifadeler, deyim birimleri, efsane kişilerin isimleri, mecaz türleri, atasözleri ve atasözleri, bazı bitki, meyve isimleri, hayvanlar ve kuşlar, anlatım ifadeleri vb. daha net, canlı ve düşündürücü bir şekilde karakterize edilmektedir. Örtük sembollerin temel özelliklerinden biri, benzetmelere dayalı alışılmadık sanatsal ve şiirsel imgelerin oluşmasıdır; bunlardan ilki, bir kavramın karakteristik özelliklerinin başka bir kavrama aktarılmasıyla yapılan karşılaştırmadır.

Anahtar Kelimeler: Örtük özellikler, örtülü sembol, sanatsal imgeler, ifade araçları, fonetik-grafik semboller, figüratif birimlerin açıklanması ve ima edilmesi.

Summary

Implicit symbols occupy an important place among the tools that create imagery in artistic texts. It can be transformed into meaningful parts in an artistic style. Their colorful varieties are widely used by wordsmiths. Implicit symbols take an active part in enriching the dynamic and emotional qualities of the literary text. According to the means of expression, artistic imagery can be expressed by expressing some letters with symbolic meaning, words indicating color, idiomatic expressions, phraseological units, names of legendary persons, types of metaphors,

proverbs and proverbs, names of some plants, fruits, animals and birds, narrative expressions and so on. characterizes in a clear, more vivid and thought-provoking manner. One of the main characteristics of implicistic symbols is the formation of unusual artistic and poetic imagery based on analogy, the first of which is a comparison with the transfer of the characteristic features of one concept to another concept.

Key words: Implicit properties, implicit symbol, artistic imagery, means of expression, phonetic-graphic symbols, explication and implication of figurative units.

Azərbaycan dilində implist simvolların ifadə vasitələri geniş dil-nitq sfera və diapozonunu malikdir. Onlardan biri də qədim və müasir qrafik işarələrin metaforkləşmə yolu ilə yaranan simvollardan ibarətdir. İstər tarixən, istərsə də müasir bədii üslubda qrafik vasitələrlə yaqradılmış simvollardan müəyyən məqsədlərlə ifadə olunmuşdur. Zənnimizcə, bədii düşüncənin hərf şəkilləri ilə ifadəsi 2 məqsədlidir: 1) gözəl bədii tərtibatçılığa; 2) müqayisə yaratmağa. Hərikiistiqamətdə yaradılansimvollardanimplikasiyagüclü olur, nəsrdiliilə müqayisədə şeirdilində dahageniş işləklikintensivliyiqazanır. "Qrafikvasitələrdən – danışıqsəslərininyazıdakı işarəsiolanhərflərisimvollaşdırmaq, təşbehyaratmaq, obrazlı lövhələrcanlandırmaq, obrazı "ekranlaşdırmaq" baxımındantəhliledərkən" (1, 126) birincinövbədə Azərbaycanklassik ədəbiyyatınıngörkəmlinümayəndəsi İmadəddinNəsimininyaradıcılığıgöz önündə dayanır. Məlumdurki, XIX əsrdə Azərbaycandahürufilikcərəyanı geniş yayılmışdı və budinitəriqətinyaradıcısı və banisiNəsiminin müəllimiFəzlullahNəimiolmuşdur. İnsanınsurətində hərflərincəmləşdiyinigöstərənbəzitəriqətnümayəndələrininyaradıcılığındahərfadlarındanibarəttəşbehlərdəngeniş şəkildə istifadə olunmuşdur. AzərbaycandilçisiY.Seyidovqeyd edir ki, "Nəsiminin "Əlif, lamvə tərs əlifba" adı ilə verilənbirneçə şeirivar. Bu şeirlərinyabeyti, yadahərmisrası əskiAzərbaycanyazısınınhərflərininadları ilə başlanır. Məsələn, *əlif – Allah, bey – bilindi, tey – Türabilər", sey – sərab, cim – cəmal, hey – həyat, xey – xəbərdar, dal – dəlil* (2, 72-73). 15 beytdənibarətbuşeirmətnindəhərmisradabirhərfimənalandırıbrəmzkimiişlədilməklə 30 hərfsimvolizəolunmuşdur. TəhlilinhəcminişişirtməməkməqsədiləNəsimininhəminşeirindənbirneçəbeytiverməyilazımbilirik:***Əlif-əla****qamətinhərkimgörər, bicanolur,****Bey-bəşarət****bulduhərkim, dilbəri sultan olur.****Nun – Necə****baxdımmənəndərrovşeyeyi-boyuna,****Vav-vallah****sənsizincənnət mana zindanolur.*

Bu tərzdəqurulmuşşeirmodelisimvollardanibarətolmaqla "mətnininterperetasiyasıüçünəsastəşkiledir. O, mətndəimplisistolaraqvəyaolmasınəzərdətutulanmövcudolanbiliklərdaxilolmaqlabütünməlumatıəhatəedir" (4,163).

Əlbəttə, həyat inkişaf etdikcə Türksoyun da fəaliyyət istiqamətləri genişlənir və çeşidli tədbirlər keçirilir. Türkdilli ölkələr arasında elmi-mədəni əlaqələrin genişləndirilməsi fikri 2-3 oktyabr 2009-cu il tarixində Türkdilli Dövlətlərin Dövlət Başçılarının Naxçıvan şəhərində keçirilmiş 9-cu Sammitində qəbul edilmiş Bəyannamədə öz əksini tapmışdır. Qeyd edək ki, Naxçıvan şəhərində keçirilmiş türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşü Türksoyun fəaliyyətinə böyük dəstək göstərmiş və türk dünyasının mədəniyyət sahəsindəki əməkdaşlığına yeni yollar açmışdır. Türksoy " Bakı İslam Mədəniyyətinin Paytaxtı- 2009" mədəniyyət ili çərçivəsində keçirilən tədbirlərdə də fəal iştirak etmişdir. Bu məqsədlə Türksoyun Daimi Şurasının 26-cı toplantısı 16-17 oktyabr 2009-cu ildə Bakı şəhərində keçirilmişdir. Toplantıda bildirilmişdir ki, Avrasiyanın türkdilli arealı çərçivəsində milli dil, tarix, mənəvi irs, mədəniyyət və incəsənət yaxınlığı ilə birləşən ölkə və xalqların regional əməkdaşlığını həyata keçirən Türksoy bu sahədə öz fəaliyyətini daha da genişləndirmişdir. Tədbirdə çıxış edən Türksoyun baş direktoru Düsen Kaseinov bu təşkilatın türk xalqlarının daha da yaxınlaşması istiqamətində həyata keçirdiyi tədbirlər barədə ətraflı məlumat vermişdir. Türk xalqlarının mədəni əlaqələrinin genişlənməsindən bəhs edən D.Kaseinov bildirmişdir ki, dahi Azərbaycan bəstəkarı Ü.Hacıbəyovun "Koroğlu" operası artıq beş ölkədə böyük uğurla nümayiş etdirilmişdir. O qeyd etmişdir ki, dünyanın ən böyük operalarından olan "Koroğlu"nun türk xalqlarının teatr səhnəsində oynanılması bu xalqların mədəni həyatında böyük hadisədir. Türksoyun beynəlxalq əməkdaşlıq sahəsindəki rolundan danışan D.Kaseinov vurğulamışdır ki, təşkilat YUNESKO, İSESKO, Avropa Şurası, Avrokomissiya, Dövlətlərarası Humanitar Əməkdaşlıq Təşkilatı (DHƏT) və MDB arasında əməkdaşlığın gücləndirilməsinə istiqamətlənmiş bir sıra tədbirlər həyata keçirmişdir.

Qeyd edək ki, Novruz bayramının YUNESKO-nun qeyri-maddi irs siyahısına daxil edilməsində Türksoyun müəyyən rolu olmuşdur. Bu baxımdan Türksoy 2010-cu ildə Novruz bayramını Parisdə YUNESKO-nun mənzil-qərargahında qeyd etmişdir.

Ümumiyyətlə, türkdilli ölkələrdə həyata keçirilən tədbirlər, o cümlədən "Türk dillərinin bədii tərcüməsinin problemləri və müasir vəziyyət" (İstanbul) və "Sivilizasiyaların dialoqunda türk dünyasının rolu" (Almatı) mövzularıarasında mədəni əməkdaşlığın genişləndirilməsində Türksoyun mühüm rol oynadığını göstərən faktlardır.

Türkdilli xalqların mədəni əlaqələrinin inkişafında Türksoyun fəaliyyətinin ulu öndər Heydər Əliyev tərəfindən dəstəklənməsini türkdilli xalqların tarixən formalaşmış ortaq mənəvi dəyərlərinin qorunması sahəsində onun uzaqgörənliyi kimi dəyərləndirmək olar.

Ulu öndərin daxili və xarici siyasətini uğurla davam etdirən, xalqımızın milli-mənəvi dəyərlərini həmişə uca tutan ölkə Prezidenti cənab İlham Əliyev də islam dini ilə bağlı tarixi ənənələrə və dini bayramlara hörmət və ehtiramla yanaşır. Bütün milli və dini bayramlarda Azərbaycan xalqını təbrik edən hörmətli Prezidentimiz Qurban bayramı münasibətilə təbrikdə demişdir: "Xalqımız öz milli-mənəvi dəyərlərinə və ənənələrinə həmişə ehtiramla yanaşır. Bütün dini mərasimlər, o cümlədən Qurban bayramı hər il böyük təntənə ilə qeyd olunur. Ölkəmizin hər yerində Allahın adına qurbanlar kəsilir, xalqımızın və dövlətimizin əmin-amanlığı və firavanlığı üçün dualar edilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Əminəm ki, Qurban bayramı da cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevriləcəkdir. Əziz bacı və qardaşlarım! Bu müqəddəs bayram günlərində bir daha hər birinizə cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram. Qurban bayramınız mübarək olsun!"

İstifadə olunan ədəbiyyat:

1. Sakit Hüseynov Xalq qazeti.-2009.-9 dekabr- səh 4

THE VERBS OF SPEAKING IN THE AZERBAIJANI AND ENGLISH LANGUAGES
AZƏRBAYCAN VƏ İNGİLİS DİLİNDƏ NİTQ FELLƏRİ

MARAL YUSUBOVA

Baş müəllim Azərbaycan, Bakı Azərbaycan Dövlət Pedaqoji Universiteti

Orcid: 0009-0004-2930-112X

Xülasə

Məqalədə Azərbaycan və ingilis dillərində danışıq fellərinin leksik semantik (və struktur) xüsusiyyətlərinin tədqiqindən bəhs olunur. Obyektin və mövzunun müəyyənləşdirilməsinin aktuallığı, məqsəd və məqsədlərin ixtirası, məqalənin yeniliyi, nəzəri və praktiki əhəmiyyəti təqdim olunan girişdə əsaslandırılır. Birinci hissə fellərin semantik təsnifatından ibarətdir. Bu hissədə almanistikada elmi-tədqiqat işləri və müxtəlif nəzəri konsepsiyalar, semantik təsnifat problemləri, fellərin morfoloji, sintaktik strukturlarının sistemli öyrənilməsi tədqiq olunur. İkinci hissə danışıq fellərinin struktur-semantik xüsusiyyətlərindən ibarətdir. Bu hissədə fellərin nitq hissələri və danışıq fellərinin ayrı-ayrı semantik qrupları arasında əhəmiyyətindən bəhs edilir. İngilis və Azərbaycan dillərində nitq fellərinin müxtəlif mənaları və nümunələri verilmiş, onların oxşar və fərqli cəhətləri müəyyən edilmişdir. Sonda tədqiqatın əsas nəticələri ümumiləşdirilmişdir.

Açar sözlər: Qrammatika, feil, vasitəli və vasitəsiz nitq, leksik semantik xüsusiyyət

Özet

Makalede Azerice ve İngilizcede konuşulan fiillerin sözcüksel anlamsal (ve yapısal) özelliklerinin incelenmesi ele alınmaktadır. Sunulan girişte amaç ve konunun tanımının uygunluğu, amaç ve hedeflerin icadı, makalenin yeniliği, teorik ve pratik önemi gerekçelendirilmiştir. Birinci bölüm fiillerin anlamsal sınıflandırmasından oluşmaktadır. Bu bölümde bilimsel araştırma çalışmaları ve çeşitli teorik kavramlar, anlam sınıflandırma problemleri, fiillerin morfolojik ve sözdizimsel yapılarının sistematik incelenmesi ele alınmaktadır. İkinci bölüm konuşma fiillerinin yapısal-anlamsal özelliklerinden oluşmaktadır. Bu bölümde fiillerin konuşma bölümleri arasındaki önemi ve konuşma fiillerinin ayrı anlamsal grupları ele alınmaktadır. İngilizce ve Azerice dillerinde konuşma fiillerinin farklı anlamları ve örnekleri verilmiş, benzerlikleri ve farklılıkları tespit edilmiştir. Son olarak araştırmanın ana sonuçları özetlenmiştir.

Anahtar kelimeler: Dilbilgisi, fiil, aracılı ve aracısız konuşma, sözcüksel anlam özelliği

Summary

The article deals with the study of the lexical semantic (and structural) pecularities of the verbs of speaking in the Azerbaijani and English languages. The urgency of determination of object and subject, invention of objectives and goals, novelty, theoretical and practical significance of article are substantiated in Introduction setting forth. The first part consists of semantic classification of the verbs. In this part are studied research works and different theoretical conceptions, problems of semantic classification, the systematical learning of morphological,

syntactical structures of the verbs in germanistics. The second part consists of structural-semantic characteristics of the verbs of speaking. This part deals with the importance of the verbs among the parts of speech and separate semantic groups of the verbs of speaking. Different meanings and examples of the verbs of hearing in English and Azerbaijani are given, the similarities and differences among them have been determined. In conclusion are generalized the main results of the research.

Key words: Grammar, verb, direct and indirect speech, lexical semantic feature

İngilis və Azərbaycan dillərində mövcud olan nitq və eşitmə feillərinin müqayisəli təhlili həmin dillərdə təfəkkür feillərinin, o cümlədən nitq və eşitmə feillərinin tipoloji müqayisə yolu ilə öyrənilməsinə, onların qarşılıqlarının müəyyənləşdirilməsinə və habelə bu tipli feillərin funksional xüsusiyyətlərinin üzə çıxarılmasına da yaxından kömək edə bilər.Vasitəsiz nitq konstruksiyası iki hissədən ibarət olur: 1) müəllif nitqi; 2) özgə nitqi. Eyni mövqedən yanaşıldıqda, vasitəli nitq də iki hissədən ibarətdir: 1) müəllif nitqi; 2) müəllifin öz adından təqdim etdiyi özgə nitqi; buna özgənin dəyişdirilmiş nitqi də deyilir. Tərkibində vasitəsiz və ya vasitəli nitq olan konstruksiyaların bu iki hissəsindən başqa müəllif nitqinin tərkibində sabitliyinə görə diqqəti cəlb edən daha bir elementi ayırmaq lazım gəlir. Vasitəsiz nitqə konstruksiyası üçün həmin element ədəbiyyatda nitq feili adlandırılır. Vasitəli nitqdə isə bağlayıcıdan istifadə olunur. Nitq feilləri adlandırılan element vasitəsiz nitq konstruksiyasının komponenti kimi qəbul olunarsa, onda üç komponentin sıralanması məsələsini araşdırmaq lazım gəlir: müəllif nitqi (MN), nitq feili (NF) və özgə nitqi (ÖN).

Ən çox rast gəlinən vasitəsiz nitq konstruksiyasını aşağıdakı sxemlə göstərmək olar:



Özgə nitqinin daxil edilməsinin əsas vasitəsi kimi çox zaman nitq feilini qeyd edirlər. Müəyyən nitq hissəsinə mənsub sözlərin ayrıca leksik-semantik qrupuna aidlik bu vasitəyə leksik-qrammatik səviyyədə baxmağa da imkan verir. Lakin müəyyən semantik qrupda birləşən sözlərdən söhbət getdiyindən biz bu vasitələri, yəni nitq feillərini vasitəsiz nitq konstruksiyalarının leksik elementləri kimi öyrənməyə, qruplaşdırmağa çalışacağıq. Eyni zamanda qeyd etmək lazımdır ki, vasitəsiz nitqi daxiletmə vasitələri təkcə nitq feilləri ilə məhdudlaşmır. Bu vasitələr sırasında feili bağlama formaları, intonasiya, qrammatik vasitələr və kontekst də yer alır. Sadalananlar yalnız leksik vasitələr deyildir. Burada həm qrammatik, həm fonetik, həm də mətn dilçiliyi ünsürləri özünü göstərir. Məsələn, kontekst artıq mətn vahididir.

Daha bir məsələnin üzərində dayanmaq lazım gəlir. Bu məsələ terminoloji mahiyyətinə görə maraq kəsb edir. “Daxiletmə vasitələri” termini bir qədər geniş əhatə dairəsinə malikdir. Özgə nitqinin daxil edilməsi üçün ilkin zəmini müəllif sözləri, müəllif konteksti yaradır. Müəllif nitqi özgə nitqinin verilməsini aydınlaşdıran vasitədir. Nitq feillərinin özü də müəllif kontekstinin tərkib hissəsi olur, yəni onlar daha çox vasitəsiz nitq konstruksiyasının birinci hissəsinin elementləri kimi çıxış edir. Əslində, vasitəsiz nitq konstruksiyasının iki hissəsi vardır: 1) müəllif nitqi; 2) özgə nitqi. Bu iki hissə bir-birinə struktur-semantik və qrammatik yolla bağlanır. Semantik əlaqə iki əsas hissəni bir-birinə bağlayan məna münasibətidir. Belə olduqda vasitəsiz nitq konstruksiyasının iki hissəsini, iki əsas komponentini bir-birinə bağlayan vasitələr vardır. Ə.Quliyev haqlı olaraq daxiletmə deyil, bağlayan vasitələr terminindən istifadə edir**.** Deməli,

yuxarıda sadalanan 5 vasitə vasitəsiz nitq konstruksiyasının komponentlərini bir-biri ilə leksik-semantik, qrammatik və digər səviyyələrdə bağlayan vasitələrdir.

Q.Çumakov özgə nitqini daxiletmə vasitəsinin müəyyən mərkəzi elementə-nüvəyə malik olmasını qeyd edərək yazır: "*Tipologiyası daxiletmənin əsas hissəsinin (daxiletmə nüvəsinin) xarakteri və tərkibi ilə müəyyənləşən daxiletmə vasitələri xüsusi maraq kəsb edir. Daxiletmə nüvələri xarakterlərinə görə aşağıdakı struktur tiplərə bölünür: feili-danışıq, vasitəli, substantiv, natamam, modal və müşaiyətedici – remarkalı*" [108, s.66]. Azərbaycan və ingilis dillərində vasitəsiz nitq konstruksiyalarının komponentlərini bir-biri ilə bağlayan vasitələrini mümkün növlərini ayrı-ayrılıqda nəzərdən keçirmək olar. Onu da qeyd edək ki, vasitəsiz nitq konstruksiyasında olduğu kimi, vasitəli nitqli cümlələrdə də nitq feilləri özgə nitqi ilə müəllif nitqi komponentləri arasında əlaqə vasitəsi rolunda çıxış edir. Nitq feillərinin böyük bir hissəsi həm vasitəsiz nitqin, həm də vasitəli nitqin ötürülməsində istifadə olunur. Bu baxımdan vasitəsiz və vasitəli nitq konstruksiyalarında həmin feillərin işlənmə xüsusiyyətlərini, müəllif sözlərinə əlavə etdikləri semantikanı ayrı-ayrılıqda nəzərdən keçirmək, müqayisəli təhlil aparmaq müəyyən təkrarlara səbəb olur. Belə təkrarlara yol verməmək üçün nitq feillərinin işlənməsini hər iki nitq növü üzrə araşdırmaq məqsədəuyğundur. Məhz bu cəhəti əsas götürərək vasitəsiz nitqin tədqiqatını nəzərdə tutan fəsildə vasitəli nitqli cümlələrdə feillərinin istifadə edilməsi xüsusiyyətlərini şərh etmək məqsədəuyğundur.

Vasitəsiz nitq konstruksiyalarını bir-biri ilə bağlayan əsas və ən məhsuldar vasitə nitq feilləridir. Ədəbiyyatda nitq feillərinin leksik-semantik qrupunun təyini ilə bağlı fikirlərdə ümumi oxşar cəhətlər çox olsa da, onların tam dairəsinin müəyyənləşdirilməsində mövqe müxtəlifliyi də vardır.

Vasitəsiz nitq konstruksiyasının komponentlərini bir-birinə bağlayan feillərin müxtəlif təsnifləri də qeydə alınır.

"*Vasitəsiz nitqi daxil edən feillər özlərinin leksik-semantik mənalarına görə bir-biri ilə danışıq və ya düşüncə aktının ifadəsinə əsasən əlaqələnən leksik-semantik qrupa aiddirlər*" – fikrini irəli sürən V.Koduxov belə feillərin, daha doğrusu, vasitəsiz nitqi daxil edən feillərin üç əsas qrupunu ayırır: 1) danışıq feilləri; 2) xüsusi nitq fəaliyyətini adlandıran feillər; 3) danışıq və ya düşüncə aktından əvvəl gələn hərəkəti yaxud hissləri ifadə edən feillər [76, s.18].

Q.Çumakov nitq feillərini danışıq, düşüncə, yazı, mahnı, səs təqlidi kimi ümumi qruplarda birləşdirir [108, s.66].

Feillərin təsnifi ilə bağlı təklif edilən bir işdə göstərilir ki, müasir ədəbi dilimizdə işlənən "demək", "danışmaq", "söyləmək", "soruşmaq", "vidalaşmaq", "çığırmaq", "çağarmaq", "səsləmək", "qışqırmaq", "dillənmək", "gileylənmək", "şikayətlənmək", "donquldanmaq", "salamlaşmaq", "acılamaq", "acıqlanmaq", "hirslənmək", "qabarmaq" və digər sadə və düzəltmə, "mübahisə etmək", "xəbər vermək", "təhrif etmək», "xəbərdarlıq etmək", "boşboğazlıq etmək", "layla demək", "qəsdən oxumaq", "təşəkkür etmək", "ifadə etmək", "elan etmək", "əlavə etmək", "təsdiq etmək" və digər mürəkkəb nitq feilləri təsriflənərək müəllifin nitqinin feili xəbəri vəzifəsində başqasının sözlərini ifadə edir". Müəllifin işlətdiyi "başqasının sözlərini ifadə edir" – fikri bir qədər yerinə düşmür. Bu feillər özgə nitqini ifadə etmir, özgə nitqini sintaktik konstruksiyaya daxil edir, bu nitqi müəllif konteksti ilə bağlamaq vasitəsi funksiyasını yerinə yetirir. Bununla belə, tədqiqatçı nitq feillərini 10 qrupa ayırır və birinci qrup kimi səs tonu və ifadə tərzi bildirənfeilləri seçir, onlarınözgə nitqinin mənasını, ifadə tərzini ifadə etməsini söyləyir. Onun fikrinə görə "qışqırmaq", "bağırmaq", "böyürmək", "çığırmaq", "haraylamaq", "hörüldəmək", "uğuldamaq", "hiddətlənmək", "hay-küy salmaq", "qışqırıq salmaq", "qıy vurmaq", "haray çəkmək" və s. feilləri fikri yüksək tonla, "deyinmək", "pıçıldamaq", "piləmək", "mızıldanmaq", "donquldanmaq", "nəm-nüm etmək" və s. feilləri isə

fikri alçaq tonla ifadə edənlər sırasına daxildir. O bu feillərin həm yazılı ədəbiyyatda, həm də adi danışıqda tez-tez işlənməsini də vurğulayır. Əlbəttə, qeyd olunmuş feillərin özgə nitqinin mənasını ifadə etməsi fikri düzgün deyildir. Burada söhbət daha çox danışıq tərzi və səsin tonu haqqında gedə bilər. K.Alxasov nitq feillərini təsnif etməklə ayırdığı digər qrupları belə düzür: 2) hiss-həyəcan bildirən feillər (*hədələmək, lənətləmək, gülümsəmək, lənət yağdırmaq, acıqlanmaq, ah çəkmək, udqunmaq, acıqlı danışmaq, qarğımaq, qarğış etmək, fəryad etmək, haray salmaq, tərif söyləmək və s.*); 3) arzu bildirən feillər(*arzulamaq, çağırmaq, arzu etmək, əmr etmək, etibar etmək, etiraz etmək, həvalə etmək, xəbərdar etmək, xəbərdarlıq etmək, komanda vermək, hökm etmək, xahiş etmək, nəsihət etmək, öyüd vermək, ultimatum vermək, hökm eləmək, and içmək və s.*). Maraqlıdır ki, müəllif arzu bildirən feillərin ən çox mürəkkəb tərkibli olub, həm də niyyət, öyüd, nəsihət, əmr və sair mənalar ifadə etməsini də göstərir ki, bu da ümumi təsnifat sxeminə uyğun gəlmir. Doğrudan da, arzu ilə hökm, etiraz bildirən feillərin bir qrupda birləşdirilməsi özünü doğrultmur; 4)sual bildirən feillər*(soruşmaq, soraqlaşmaq, əhvallaşmaq, suallaşmaq, hal-əhval tutmaq, sorğu-sual etmək, sorğu-suala tutmaq, xəbər almaq, söz soruşmaq, sual aparmaq və s.); burada da nümunə kimi sadalanan feillərin bəziləri semantik baxımdan qrupdan kənarda qalır, bəziləri isə süni təsir bağışlayır (suallaşmaq); 5)*cavab bildirən feillər *(cavab vermək, cavabdeh olmaq, boynuna almaq, təsdiq etmək, üsyan etmək, müdafiə etmək, boynuna götürmək, müdafiə etmək, yalan demək, yalan söyləmək, əks çıxmaq və s.); müəllifin razılaşmaq, aydınlaşdırmaq, təsdiqləmək feillərini də bu qrupa daxil etməsi, zənnimizcə, düzgün deyildir;* 6) danışıqla əlaqə yaradan feillər*(təkrarlamaq, əlaqələndirmək, təkrar etmək, davam etmək, sözü kəsmək, söz atmaq, sözə qoşulmaq, sözə qarışmaq, sözə başlamaq, tərəf saxlamaq və s.);* 7)danışanla əlaqə yaradan feillər *(öyünmək, yalvarmaq, lovğalanmaq, tapşırmaq, bəyəndirmək, tovlamaq, inandırmaq, qızışdırmaq, sözləşmək, öcəşmək, güvənmək, sakitləşdirmək, həvəsləndirmək, mübahisə etmək, təqdir etmək, üzə vurmaq və s.); nümunə kimi verilmiş bu feillərin danışan şəxsin bilavasitə özü ilə bu və ya digər dərəcədə mümkün olan əlaqəni bildirməsi fikri aydın deyildir;* 8) nəğmə bildirən feillər*(mahnı oxumaq, zümzümə etmək, alçaq tonla oxumaq, pəsdən oxumaq, zəngulə vurmaq, zilə qaldırmaq və s.);* 9) məktub bildirən feillər*(yazmaq, köçürmək, diktə etmək, tərcümə etmək, üzünü köçürmək, qələmə almaq, qələmi işə salmaq); zənnimizcə, müəllif yazılı nitqə aid feillər qrupunu ayırmaq istəmişdir. Burada rus dilindən qeyri-dəqiq tərcümənin də izi görünür;* 10) yamsılama bildirən feillər– *tıqqıldamaq, tıqqıldatmaq, şıqqıldamaq, şıqqıldatmaq, banlamaq, fısıldamaq, guruldamaq, mırıldamaq, miyoldamaq, zingildəmək, qaqqıldamaq, quqquldamaq, quruldamaq, civildəmək, cüyüldəmək, hırıldamaq və s.* [3, s.24-32].

Qeyd olunduğu kimi V.Koduxov vasitəsiz nitqi daxil edən feillərin üç qrupunu göstərmişdir. Tədqiqatçı hər qrupun özünü də yarımqruplara ayırmışdır. O, danışıq feillərini belə yarımqruplara bölmüşdür: 1) danışıq aktını ümumi şəkildə ifadə edənlər: *demək, danışmaq, nəql etmək, elan etmək və s.*; 2) yalnız danışıq aktını deyil, onun manerasını da bildirənlər: *donquldanmaq, deyinmək, pıçıldamaq, qışqırmaq* və s.; 3) nitqin gedişini, onun əvvəlki danışıqla əlaqəsini, başlanğıcını, davamını bildirənlər: *dilə gəlmək, sözünü kəsmək, cavab vermək, davam etmək, sözünü ağzında saxlamaq* və s.; 4) yalnız danışıq aktını deyil, nitqin məğzini də səciyyələndirən feillər: *təsdiq etmək, etiraz etmək, izah etmək, razılaşmaq, başa salmaq* və s. Xüsusi nitq fəaliyyətini adlandıran feillərin də 5 yarımqrupu göstərilir: 1) nitq fəaliyyətinin xüsusi növlərini göstərən feillər: yazmaq, oxumaq (mahnı); 2) nitq aktının xüsusi istiqamətini ifadə edən feillər; 3) vasitəsiz nitqin sual cümləsini daxil edən feillər: soruşmaq, maraqlanmaq və s.; 4) əmr, xahiş, vadar etmə məzmunlu cümlələri daxil edən iradə feilləri: əmr vermək, buyurmaq, xahiş etmək, tələb etmək, məsləhət etmək vəÜmumilikdə ayrı-ayrı türk dillərinə, xüsusilə, oğuz qrupu türk dillərinə aid materiallar əsasında feillərin leksik-semantik bölgüsü Azərbaycan dilində də özünü göstərir ki, bu da feillərin əksəriyyətinin həmin dillərdəki feillərlə ortaq semantikaya və oxşar fonetik cildə malik olması ilə bağlıdır. Nitq prosesi ilə bağlı

olan feillərin geniş leksik-semantik təsnifi baxımından N.Z.Hacıyeva və A.A.Koklyanovanın "Türk dillərində nitq feilləri"adlı əsəri də diqqəti cəlb edir. Bu, türk dillərində danışıq aktı ilə bağlı olan feillərin ilk təsnifatı kimi də dəyərləndirilə bilər. 4 Feillərin leksik-semantik mənaları baxımından ilk təsnifatlarından biri "Azərbaycan dilinin qrammatikası" adlı əsərdə aparılmışdır. Z.İ.Budaqovanın təsnifi Azərbaycan dilçiliyində ilk təsniflərdən biridir. Z.İ.Budaqova Azərbaycan dili feillərini semantik mənalarına görə 5 qrupa bölür: 1) hərəkət feilləri; 2) iş feilləri; 3) nitq feilləri; 4) təfəkkür, görmə və ya eşitmə prosesi ilə bağlı olan feillər; 5) hal-vəziyyət feilləri. 1969-cu ildə H.K.Quliyev də "Azərbaycan və türkmən dillərində feili idarə" mövzusunda müqayisəli aspektdə namizədlik dissertasiyası müdafiə etmiş və həmin dissertasiyasında o, Z.İ.Budaqovanın təsnifinə aşağıdakı məna qruplarını əlavə etmişdir: 1. Psixi vəziyyət ifadə edən feillər: utan, şadlan, sevin, heyrətlən, qəzəblən, şübhələn, inan, qorx, çəkin. 2. Səs təqlidi feillər. Buraya səs təqlidi sözlərdən əmələ gələn feillər aiddir: vızılda.3. Obrazlı feillər: diyirlən. 4. Təbiət hadisələrini ifadə edən feillər: yağ, doğ, çax. 1H.K.Quliyevdən sonra Azərbaycan dilçiliyində feillərin leksik-semantik təsnifatı məsələsinə S.Ə.Rzayev yeni yanaşma nümayiş etdirərərək, Azərbaycan dilindəki feilləri on qrup halında təsnif edir: nitq feilləri, təfəkkür feilləri, görmə feilləri, vəziyyət feilləri, fəaliyyət feilləri, hərəkət feilləri və yerdəyişmə feilləri. Feilləri leksik-semantik və qrammatik baxımdan ən maraqlı söz kateqoriyalarından biri kimi qiymətləndirən Q.Cəfərov feillərin semantik tədqiqi zamanı aşağıdakı məsələlərin əhatə olunmasını önəmli hesab edir: 1) feillərin tematik qrupları, 2) feillərin məna növləri; 3) feillərin başqa nitq hissələri ilə qarşılıqlı məna münasibətləri.2 Feillərin semantik cəhətdən təsnifləndirilməsi problemindən bəhs edən Ə.Rəcəbli qeyd edir ki, "feillərin malik olduğu və göstərdiyi iş, hal və hərəkət bunların leksik-semantik mənasını təşkil edir".3 Daha sonra müasir Azərbaycan dilində feillərin bir sıra leksik- semantik məna qruplarının olduğunu vurğulayan müəllif göstərir ki, "həmin lüğəvi mənalardan irəli gələrək feillərin bir hissəsi hərəkət, bir hissəsi iş, bir hissəsi hal, bir hissəsi vəziyyət, bir hissəsi təfəkkür, nitq, görmə prosesi və s. bildirir". Tədqiqatçı adı çəkilən bu əsərdə göytürk dilində feilin 1) hərəkət feilləri; 2) iş feilləri; 3) hal-vəziyyət feilləri; 4) təfəkkür feilləri; 5) nitq feilləri; 6) eşitmə feilləri; 7) görmə feilləri məna qruplarından söz açır.4 Apardığımız araşdırmalardan göründüyü kimi, türkoloji dilçilikdə, o cümlədən Azərbaycan dilçiliyində feillərin leksik-semantik təsnifinə geniş yer ayrılmış, feillər leksik-semantik mənasına görə ayrı-ayrı qrup və ya yarımqruplara bölünmüşdür. Nəzərdən keçirilən təsnifatlardan aydın olur ki, türk dillərində feillərin leksik-semantik təsnifat qruplarının sayı müxtəlifidir. Bir dil üçün məqbul sayılan digər bir dil üçün münasib hesab edilə bilməz. B.S.Xaymoviç və B.İ.Roqovskaya ingilis dilindəki feillərin leksik mənalarını əsas götürüb onları davamsız (terminative) və davamlı (nonterminative) başlıqları altında iki qrupda cəmləşdirirlər. Bunları bitmiş və bitməmiş feillər kimi də adlandırmaq olar.1 N.A.Kobrinanın rəhbərliyi ilə müəlliflər kollektivinin ingilis dilinin qrammatikasına həsr etdikləri əsərdə feillər iki qrupa bölünərək tədqiq edilir: hüdudlu feillər və hüdudsuz feillər. Onlar hüdudlu feillərdən danışarkən qeyd edirlər ki, onların bir çox spesifik cəhətləri vardır. Bu qrupa daxil olan feillər sona çatmış, məntiqi cəhətdən tamamlanmış, müəyyən ana, məqama qədər bitmiş hərəkətləri bildirir. Belə feillərə aşağıdakılar daxil edilir: to come, to fall, to stop, to begin, to close, to shut, to die, to bring, to find və s. Kobrina ingilis dilində feillərin aşağıdakı semantik bölgüsünü fərqləndirmişdir: 1. Hərəkət feilləri (Actional verbs). Bu feillər, əsl, tam hərəkətləri bildirmək üçün işlədilir. Məsələn: do, make, go , read və s. 2. Vəziyyət feilləri (Statal verbs). Statik və ya vəziyyət feilləri adlandırılan bu qrup feillər özləri də vəziyyət (state) bildirən feillərə (məs.: be, exist, lie, sit və s.) və əlaqə (relation) bildirən feillərə (fit, belong, have, match, cost və s.) ayrılır. Sintaktik nöqteyi-nəzərdən feillər təsirli (transitive) və təsirsiz (intransitive) feillərə ayrılır. Tamamlıqsız təsirli feillərin mənası natamamdır. Kobrina təsirli feilləri üç qrupa bölür: 1) Monotransitiv feillər (monotransitive verbs) — bir vasitəli tamamlıqla işlənən təsirli feillər: Ted told me. 2) Ditransitiv feillər

(ditransitivexlu subyektiv və obyektiv səbəbləri vardır. Verbs) — vasitəli və vasitəsiz tamamlıqla işlənən feillər: Jane gave her sister an apple. 3) Önlüklü tamamlıqla işlənən təsirli feillər (prepositional transitive verbs): Jane looks after her sister. Kobrina ingilis dilindəki feilləri daha bir bölgüdə fərqləndirir. Bu bölgü feillərin tərz (aspect) formalarına təsir edən leksik mənada aspektual səciyyəyə əsaslanır: 1) Terminativfeillər (terminative verbs); 2) Qeyri-terminative feillər (non-terminative verbs).1 Feillərin bu təsnifatı Kobrina və həmmüəlliflər tərəfindən təqdim edilən təsnifata yaxınlığı ilə seçilir. Bu bölgüdən bəhrələnən E.M.Qordon və İ.P.Krılovanın təsnifatına görə feillər semantik cəhətdən hüdudlu (terminative) və davamlı (durative) kimi iki qrupa bölünür. Hüdudlu (terminative)feillər hərəkətin müəyyən limitdən sonra davam edə bilmədiyini bildirir. Başqa sözlə desək , həmin feillərdə son nöqtə, hüdud nöqtəsi özünü göstərir. To come, to put, to bring, to jump və s. feillər bu qəbildəndir. Davamlı (durative)feillərdə hüdudlu feillərdən fərqli olaraq hansısa hüdud, limit yoxdur və belə hərəkətlər qeyri-müəyyən müddətə davam edə bilir. Belə feillərə to carry, to live, to know, to sit, to play və s. aid edilir.2 O.Musayev də ingilis dilindəki feillərə oxşar təsnifatla yanaşır. O, feilləri bir qədər fərqli terminlərlə adlandırır. O.Musayev ingilis dilindəki feilləri nominativ məna baxımından nəzərdən keçirərək onları terminativ və non-terminativ adı altında təsnif edir: “Feilləri onların malik olduqları nominativ məna baxımından nəzərdən keçirdikdə məlum olur ki, onlara xas olan leksik mənaların özlərində təbii, ilkin olaraq tərz mənası mövcuddur; bəzi feillər hüdudlu, digər feillər isə hüdudsuz hərəkətlər bildirir”.3 Feillərin müxtəlif leksik-semantik variantlarının mümkünlüyündən də bəhs edən İ.P.İvanova, V.V.Burlakova, Q.Q.Poçepstov onları 1) kontekstlə əlaqəli və 2) kontekstlə əlaqəli olmayan feillər olmaqla iki qrupa ayırır. Onu da qeyd edək ki, birinci yarımqrupa “to take”, “to give”, “to seise” və s. feillər, ikinci yarımqrupa “to stand”,” to lie”, “to run”, “to sleep” kimi feillər daxil edilir.4 Bu feillərin işlədilməsində müəyyən qanunauyğunluqların olduğunu vurğulayan V.N.Jiqadlo, İ.P.İvanova, L.L.İofik feillərin işlənmə tezliyinə əsasən onları aşağıdakı qruplara bölür: 1. Nitq feilləri; 2. Hissi-qavrayış bildirən feillər; 3. Əqli fəaliyyət bildirən feillər; 4. Xahiş və təklif bildirən feillər; 5. Konkret hərəkət bildirən feillər; 6. “Arzu”, “güman”, “istək” modallıq ifadə edən feillər.

Ədəbiyyat

1. İngilis və Azərbaycan dillərində alçaq tonlu nitq feillərinin leksik- semantik xüsusiyyətləri. Dil və ədəbiyyat Beynəlxalq elmi-nəzəri jurnal. №3 (79). Bakı-2011, səh.96-98.

2. İngilis və Azərbaycan dillərində yüksək tonlu nitq feillərinin leksik- semantik xüsusiyyətləri. Terminologiya məsələləri, №2, Bakı, Elm, 2011, səh. 80-90.

3. Azərbaycan və ingilis dillərində eşitmə felləri. (Azərbaycan və ingilis dillərində eşitmə feilləri). Поиск, Научный журнал министерства образования и науки, №2, 2012, səh. 103-107.

4. Кодухов, В.И. Прямая и косвенная речь в современном руссском языке / В.И.Кодухов. Leningrad: Гос. учебно-педагог. изд-во, 1957.85 стр.

5. Кодухов, В.И. Способы передачи чучой речи руссском языке второй половине XVII-XVIII веков / Автореф. dicc.kand. филол. наук / Ленинград, 1953.

6. Чумаков, Г.М. Синтаксис конструкций с чужой речью / Г.М. Чумаков. – Киев: Вища школа, 1975. – 220 стр.

HEYDAR ALIYEV AND WESTERN AZERBAIJAN
HEYDƏR ƏLİYEV VƏQƏRBİ AZƏRBAYCAN

QƏRİBƏ MƏMMƏD MƏMMƏDOVA

Filalogiya üzrə fəlsəfə doktoru,dosent, orcid ID-0000-0002-9062-4380

Özet

Makale, ulusal lider Haydar Aliyev'in siyasi eşitlik döneminde kadim topraklarımız Batı Azerbaycan'la ilgili amaçlı faaliyetlerine adanmıştır. H. Aliyev, bağımsız Azerbaycan devletinin kurulması ve güçlendirilmesi sürecinde eşsiz hizmetlerde bulunmuş ve kurtarma görevi yürütmüştür. Makalede, Ermenilerin sinsi planlarına karşı verilen cesur mücadeleden, tarihi gerçeklerin büyük bir siyasi öngörü ve cesaretle dünya toplumuna ulaştırılmasından bahsedilmektedir. Ayrıca sonuncusu olan 1988'den başlayarak tarihte yaşanan tüm sürgünler araştırıldı ve aydınlatıldı. Tarihsel verilerden hareketle Bolşevik işgalinden önce Çarlık Rusyası döneminde Erivan Hanlığı topraklarında MüslümanAzerbaycanların çoğunlukta olduğunu söyleyebiliriz (1,11). Sürekli sürgünler sonucunda 1980-1988-1991'deki son etnik temizlik eylemi sırasında geride kalanlar sınır dışı edildi (1,12). Bu yağmayla barışamayan milli lider H. Aliyev, bunu Azerbaycanlılara yönelik soykırım olarak nitelendirdi. H. Aliyev'in görüşlerinde Azerbaycan'ın tarihi toprakları olan Zengezur, Göyçe, Erivan her zaman yer almış ve bu alandaki tarihçiler onun talimatı doğrultusunda araştırmalar yapmış ve deliller ortaya koymuşlardır. Makalede Ermenilerin "Büyük Ermenistan" sapkın hayalleri altında gerçekleştirdiği kanlı soykırım olaylarına yer veriliyor. Bu konudaki ciddi tavrını dile getiren ve tüm hayatını bu fikirlerin hayata geçirilmesine adayan H. Aliyev, "Topraklarımızda ikinci bir Ermeni devletinin kurulmasına izin veremeyiz" dedi. Bugün özgür Karabağ, H. Aliyev'in tüm Azerbaycan fikirlerinin ilerlemesi, devletimizin Başkomutanı İ. Aliyev'in başarılı politikasının sonucudur.

Anahtar kelimeler: Batı Azerbaycan, etnik temizlik, Erivan, Göyçe, deliller

Summary

The article deals with our national leader Heydar Aliyev`s purposeful activity about the eternal lands in the Western Azerbaijan during his leadership in Azerbaijan.

Heydar Aliyev as the head of Azerbaijan Republic rendered great service in the establishment and development of Azerbaijan. As says the article during his activity he always kept in the centre of his attention the issue concerning Western Azerbaijan, as Armenians continuously used to carry out crafty ethnic cleansing policy against our nation living there and he fought against them resolutely, did everything possible with political prediction to deliver the historical truth to world community. All historical deportations carried out against Azerbaijanis, including the last, biggest one during 1988/91 have been searched in the article. With reference to the historical facts before Bolshevik occupation, in the period of Tsar Russia Azerbaijanis formed main part of the population of Western Azerbaijan but in 1988/91the last Azerbaijanis were deported from their native lands. All these data have been given in the article. Irreconcilable with this fact national leader called it the act of genocide against Azerbaijanis. Historical Azerbaijan lands as Zangezur, Goycha, İravan, were always mentioned by national

leader in his speeches and thanks to his directions our historians did great research work on the topic and showed many historical evidences.

The article deals with the frantic Armenian illusion about `Great Armenia`

We cannot afford formation of the second Armenian State within the territory of our Re public said national leader Heydar Aliyev, with this expressed his serious attention on this matter and was faithful to this idea till the end of his life.

Today completely free Garabagh, whole Azerbaijan are the celebration of Heydar Aliev`s ideas and triumph of Higher Chief Commander Ilham Aliev`s successful policy.

Key words: Western Azerbaijan, ethnic cleansing, İravan, Goycha, evidence

Giriş

Müstəqil Azərbaycan dövlətinin yaradılması və möhkəmləndirilməsi prosesində dahi şəxsiyyət, ümummilli lider Heydər Əliyevin misilsiz rolu, xilaskarlıqmissiyası əsl qəhrəmanlıq nümunəsi kimi yüksək dəyərləndirilir. Fəaliyyətidövründə ermənilərin məkrli planlarına qarşı cəsarətlə mübarizə aparmış, tarixihəqiqətləri böyük siyasi uzaqgörənlik və müdrikliklə dünya ictimaiyyətinəçatdırmış ulu öndər Heydər Əliyevin xalqımızın tarixi taleyinə hər zamanhəssaslıqla, qədirbilənliklə yanaşmışdır.

XX əsrin yetidirdiyi görkəmli siyasi və dövlət xadimləri arasında Heydər Əliyevkimi çətin, mürəkkəb, amma şərəfli həyat yolu keçmiş ikinci bir tarixi şəxsiyyəttəsəvvür etmək çətindir. O, bütün varlığını şüurlu surətdə Azərbaycana vəazərbaycançılığa həsr etmişdir. Bəlkə də buna görədir ki, Heydər Əliyev xalqınqəlbində heykəlləşmişdir. Onun azərbaycana rəhbərlik etdiyi illərin hər biritariximizə yüksəliş illəri kimi daxil olmuşdur. Ən başlıcası isə Azərbaycan vəazərbaycançılıq dünya şöhrəti qazanmışdır. Ulu Öndər Heydər Əliyevin SovetİttifaqıKommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən başkatib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz olaraq hakimiyyətindəngetməsindən istifadə edən həm erməni millətçiləri, həm onların sovethökumətindəki havadarları dərhal hərəkətə keçdilər. Heydər Əliyev 1987-ci ilinnoyabrında bütün vəzifələrdən uzaqlaşdırılandan iki həftə sonra erməni millətçiləribaş qaldırdılar. Sovet hökuməti onlara dəstək oldu və həm Qarabağda, həm ovaxtkıErmənistan Respublikasında xalqımıza qarşı növbəti cinayət başlandı.Azərbaycanlıların tarixi diyarı olan Qərbi Azərbaycandan deportasiya edildi.Bütövlükdə Qərbi Azərbaycanda 300-dən çox şəhər və kənddə azərbaycanlılar yaşamışlar.Onların hamısı 3 il ərzində Ermənistandan zorla çıxarılmış, qovulmuş, bir çoxları öldürülmüşdür.Sonuncu kənd Nüvədi kəndi 1991-ci ilin avqustunda deportasiyaya məruz qalmışdır. ErmənilərQərbi Azərbaycanı özününküləşdirmək üçün buradakı Azərbaycan toplumuna qarşı ağır hərbicinayətlər törədiblər. Məhz ermənilərin etnik təmizləmə siyasəti nəticəsində Qərbiazərbaycanlılar buradan deportasiya edilərək zorla çıxarılıblar. Qərbi Azərbaycan ərazisi, yəni,Zəngəzur, Göyçə və İrəvan qədim Azərbaycandır. Bütün tarixi mənbələr Qərbi Azərbaycantorpaqlarının məhz Azərbaycana aid olmasını mötəbər dəlilərlə sübut edir. Ancaq ermənilərinşovinist, etnik təmizləmə siyasəti nəticəsində Qərbi Azərbaycandakı Azərbaycan izləridağıdılmış və yerlə-yeksan edilmişdir. 1988-ci ildən başlayaraq bu ərazilərdə yaşayanazərbaycanlılar zorla və hərbi güc tətbiqi ilə öz dədə-baba torpaqlarından qovularaq ermənilərinetnik təmizləmə siyasətinin qurbanı olublar. Qərbi Azərbaycanda yaşamış azərbaycanlılaravaxtilə böyük zülm edilib, onlar ağır təqiblərə, hücumlara məruz qalıblar. Ermənilər oradayaşayan azərbaycanlılara qarşı da genosid siyasəti həyata keçiriblər. 1948-1953-cü illərdə QərbiAzərbaycandan 150 mindən artıq azərbaycanlını, o cümlədən 1988-1994-cü illərdə birmilyondan zorla çıxarmış və onlar qaçqın və məcburi köçkün halında Azərbaycandaməskunlaşmışlar.(1,130)

1993-cü ildəÜmummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışıilə Azərbaycan tarixi məsələləri yeni mərhələyə qədəm qoydu. Azərbaycan-Ermənistan arasındaQarabağ müharibəsinin ağır nəticələri ideoloji mübarizənin vacibliyini və hətta bu mübarizədəgecikdiyimizi ortaya qoydu. Bu səbəbdən də Heydər Əliyev ermənilərin azərbaycanlılara qarşıtəcavüzkar siyasətinin tarixinin açılmasına, bu tarixin tədqiq və təbliğinə ciddi yanaşmasərgilədi. Azərbaycan xalqının təxminən otuz illik tarixinin elə bir səhifəsi yoxdur ki, oradaHeydər Əliyevin imzası olmasın. Tarixi ərazilərimizdə dövlətçiliyin müasir mərhələsininyaradılması, vətəndaş cəmiyyəti quruculuğu birbaşa Ulu öndərin adı ilə bağlıdır. 1993-cü iliniyunun 9-da Heydər Əliyev Naxçıvandan Bakıya qayıtdı. Bu Azərbaycan xalqının tarixinə sözünhəqiqi mənasında böyük hərflərlə yazılan qayıdış idi. Heydər Əliyev görüləcək işlərin miqyas vəçətinliklərini qabaqcadan görərək xalqın təklifini qəbul etdi. Özü də sakit, təmkinlə böyük vədlərvermədən qəbul etdi. İşin rəsmi tərəfi 1993-cü il iyunun 15-də Heydər Əlirza oğlu ƏliyevinAzərbaycan Respublikası Ali Sovetinin sədri seçilməsi ilə öz həllini tapdı. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinə sədr seçiləndən sonrakı ilk çıxışındademişdir: “Ali sovetin sədri kimi xalqımızın tarixi nailiyyəti olan Azərbaycan Respublikasınındövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün əsasvəzifələrdən biri hesab edirəm” (1,83,87).Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixikeçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizlisaxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələrözünün əsl qiymətini alır. XIX-XX əsrlərdə xalqımızın başına bir sıra ağır faciələrgətirilib. Böyük dövlətlərin yeritdikləri imperiya siyasətinin icraçısı olanermənilərin əli ilə dəfələrlə azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımtörədilmiş, xalqımızı ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə düçaretmişlər. Yüz minlərlə dinc azərbaycanlı milli mənsubiyyətinə görə məhv edilmiş,öz ata-baba yurdundan didərgin salınmış, Azərbaycanın qədim yaşayış məskənlərixarabalığa çevrilmişdir. Qərbi Azərbaycanda yaşamış azərbaycanlılara vaxtiləböyük zülm edilib, onlar ağır təqiblərə, hücumlara məruz qalıblar. Ermənilər oradayaşayan azərbaycanlılara qarşı da genosid siyasəti həyata keçiriblər.Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbtibaşlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvisurətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. SoyqırımıAzərbaycan torpaqlarının işğalının bir formasına çevrildi. İrəvan, Naxçıvan vəQarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayanazərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, özhavadarlarının himayəsi altında “Erməni vilayəti” adlandırılan inzibati bölgənünyaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlılarınöz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu.“Böyük Ermənistan” ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətinAzərbaycan torpaqlarında yaradılmasına “bəraət qazandırmaq məqsədilə” ermənixalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş geniş miqyaslı proqramlarreallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həminproqramların mühüm tərkib hissəsini təşkil edirdi. “Böyük Ermənistan” yaratmaqxülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılaraqarşı açıq şəkildə geniş miqyaslı qanlı aksiyalar həyata keçirdilər. 1918-ci ilin martayından etibarən əks-inqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunasıtərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədigüdən mənfur plan həyata keçirilməyə başlandı. Sonralar tarixi dovr 30-cu illərinağir represiyaları ilə müşayət olunaraq Azərbaycanin ziyalı genofondunun məhvinənail olunmuş, bunun ardınca 1948-53-cü illər azərbaycanlıların kütləvi deportasiyadalğası, 80-ci illərdən başlayaraq Dağlıq Qarabağ probleminin yenidən süni şəkildəqızışdırılması, 1990-cı il 20 yanvar faciəsi və 1992-ci il Xocalı soyqırımı deməkolar ki, bu faciələrin pik nöqtəsi oldu.(2,s57,s59)

Tarixin acı sürprizləri olan bu faciələr qara və böyük hərflərlə tariximizinsəhifələri yazılsa da nədənsə heç kim bu acı səhifələri açıb oxumaq və eləcə dəböyüməkdə olan nəslə oxutmaqda maraqlı deyildi. Bu həqiqətlərin üstündənsükutla keçilirdi. Lakin hər qaranlıq gecənin bir işıqlı sabahı olduğu kimi bu tarixihəqiqətlərin də açılıb ağardılmasının zamanı gəldi. Bütün bu müsibətlər HeydərƏliyev dühasının cəsarəti, siyasi iradəsi sayəsində hüquqi qiymətini tapdı.Sovet illərində Ermənistanda antiazərbaycan siyasəti davam etdirilirdi. "QarabağKomitəsi" açıq fəaliyyətə başlamışdı. XX əsrin 50-60-cı illərində Moskvanınköməyi ilə Azərbaycan rəhbərliyinin qətiyyətsizliyi üzündən Azərbaycanda ermənilobbisi yaradıldı. Dağlıq Qarabağda millətçilik dərinləşir, ermənilər YuxarıQarabağdakı azərbaycanlıları açıq-aşkar sıxışdırırdılar. 1967-ci ildə Xankəndindəazərbaycanlılara divan tutuldu, bir neçə azərbaycanlı qətlə yetirildi. Həmin dövrdərespublika rəhbərliyi laqeyd mövqe tutaraq "xalqlar dostluğunu"möhkəmləndirmək üçün tədbirlər görürdü. Azərbaycan SSR Ali Sovetinin RəyasətHeyəti 1969-cu il mayın 7-də qərar verərək sərhəd rayonlarında 2 min hektardanartıq Azərbaycan torpağının Ermənistana verilməsi haqqında hələ 1938-ci il mayın5-də verilmiş qərarı təsdiq etdi. Lakin 1969-cu ilin iyulunda hakimiyyətə gələnHeydər Əliyev bu qərarın icrasına imkan vermədi.Azərbaycan xalqının xilaskarı Heydər Əliyev nəinki yaxın tarixi dövrdə eləcə dəəsrin əvvəllərində baş vermiş faciələrin də hüquqi-siyasi qiymətini almasıistiqamətindəfəaliyyətini davam etdirmiş, keçmişdə hüquqları pozulmuş insanlarabəraət verilməsi barədə tədbirlər görmüşdür. Bu baxımdan onun "Siyasi represiyaqurbanlarına bəraət verilməsi haqqında" 1996-cı il martın 15-də verdiyi fərmanxüsusi əhəmiyyət kəsb edir. Qanunda göstərilir ki, 1920-ci il aprelin 28-dənbaşlayaraq, Azərbaycan Respublikası ərazisində insan hüquqlarına zidd qanunlarəsasında totalitar dövlət rejiminin törətdiyi özbaşınalıq, zorakılıq nəticəsində yüzminlərlə günahsız insan öz siyasi əqidəsinə, fəaliyyətinə, başqa cür düşündüyünəvə ayrı səbəblərə görə represiyalara məruz qalmışdır. Bu qanunun məqsədiAzərbaycan Respublikası ərazisində törədilmiş represiyaların qurbanlarına bəraətverilməsi, onların siyasi, sosial və vətəndaş hüquqlarının bərpa edilməsi, həmçininözbaşınalığın və başqa nəticələrinin aradan qaldırılması üçün hüquqi əsaslarınmüəyyən edilməsidir. Qanunun bəraət verilməsi qaydasına aid olan hissəsi yaşayışyerindən asılı olmayaraq, 1920-ci il aprelin 28-dən 1991-ci il oktyabrın 18-dəkolan dövrdə Azərbaycan Respublikası ərazisində siyasi represiyaya məruz qalmışbütün şəxslərə şamil edilir. Bu qanunun qəbulu minlərlə xalq düşməni damğasıvurulmuş günahsız insanların gec də olsa hüquqlarının bərpası və mənəvi rahatlığaqovuşması demək idi.Ermənilər Qərbi Azərbaycanı özününküləşdirmək üçün buradakı Azərbaycantoplumuna qarşı ağır hərbi cinayətlər törədiblər. Məhz ermənilərin etnik təmizləməsiyasəti nəticəsində Qərbi azərbaycanlılar buradan deportasiya edilərək zorlaçıxarılıblar. Qərbi Azərbaycan ərazisi, yəni, Zəngəzur, Göyçə və İrəvan qədimAzərbaycandır. Məhz çarizmin dövründə ermənilər buraya məqsədli vədüşünülmüş şəkildə kütləvi halda köçürülərək Çar imperiyasına etnik dayaqyaradılmışdır. Bu siyasət rus çarı birinci Pyotrdan başlamış və Sovet-bolşevikhökuməti dövründə də daha ciddi şəkildə davam etmiş və Sovet hökumətininermənipərəst siyasəti nəticəsində Qərbi Azərbaycan torpaqları qeyri-qanuni şəkildətamamilə ermənilərə verilərək burada, yəni, bu Azərbaycan torpaqları üzərindəSovet hökuməti tərəfindən indiki Ermənistan dövləti yaradılmışdır. Amma və lakinheç bir tarixi mənbə burada qədim erməni varlığını və tarixdə hər hansısa birerməni dövlətinin mövcudluğunu təsdiq etmir. Yəni, bütün tarixi mənbələr QərbiAzərbaycan torpaqlarının məhz Azərbaycana aid olmasını mötəbər dəlillərlə sübutedir. Ancaq ermənilərin şovinist, etnik təmizləmə siyasəti nəticəsində QərbiAzərbaycandakı Azərbaycan izləri dağıdılmış və yerlə-yeksan edilmişdir. 1988-ciildən başlayaraq bu ərazilərdə yaşayan azərbaycanlılar zorla və hərbi güc tətbiqi ilaöz dədə-baba torpaqlarından qovularaq ermənilərin etnik təmizləmə siyasətininqurbanı olublar. (3,201)

Heydər Əliyev çıxışlarında Qərbi Azərbaycan mövzusunu daha aydın və hərtərəfliizah edirdi. O, 1998-ci ildə "İslam sivilizasiyası Qafqazda" mövzusunda keçirilənbeynəlxalq simpoziumda çıxışı zamanı bildirmişdi: "İndi Ermənistan adlananərazi, Qərbi Azərbaycan – İrəvan mahalı, Göyçə mahalı, Zəngibasar mahalı,Zəngəzur mahalı – bunlar hamısı müsəlmanlar, azərbaycanlılar yaşayan diyarlarolubdur. Təəssüf ki, bu ərazilərdən, diyarlardan müsəlmanlar çıxarılıblar, indi buərazilərdə bir nəfər də olsun müsəlman yoxdur. Bu da Ermənistan millətçiliyi,erməni ekstremizmi, erməni şovinizmi siyasətinin nəticəsidir" (5)Qərbi Azərbaycandan deportasiya olunmuş həmvətənlərimiz və ümumiyyətləQərbi Azərbaycan mövzusu hər zaman həm ümummilli lider Heydər Əliyevin,həm də cənab Prezident İlham Əliyevin xüsusi diqqətində olmuşdur. 1987-ci ildəHeydər Əliyevin Moskvada öz vəzifəsindən istefa verməsindən sonra ermənilərfəallaşaraq 1987-1991-ci illərdə SSRİ dövlətinin himayəsi altında QərbiAzərbaycandan azərbaycanlıların kütləvi deportasiyasını təşkil etdilər. Sözsüzki, bu, SSRİ siyasətinin son akkordları olaraq, Azərbaycan xalqına qarşıyeridilən ədalətsiz mövqenin gözlənilən nəticəsi oldu. Sonrakı tarixi dövrlərdədə bu ədalətsizliyə hüquqi qiymət verilmədi. Yalnız Ulu öndər Heydər Əliyevbu tarixi ədalətsizliyə siyasi qiymət vermişdir. Bu tarixi hadisə ilə bağlı HeydərƏliyev 1997-ci il dekabrın 18-də "1948–1953-cü illərdə azərbaycanlılarınkütləvi şəkildə Ermənistan ərazilərindəki tarixi-etnik torpaqlarındandeportasiyası haqqında", 1998-ci ilin mart ayının 26-da "Azərbaycanlılarınsoyqırımı" və 2001-ci il avqust ayının 22-də "Erməni millətçilərinin apardığıetnik təmizləmə siyasəti nəticəsində Ermənistan ərazisindəki öz tarixitorpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşmasıproblemlərinin həlli haqqında" Fərmanlar imzalamışdır. (4,430 Ulu öndərin busiyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Vətən, dil, millət, yurdanlayışları müqəddəs amal olduğu üçün dövlətimiz torpaqlarımızın bütövlüyünaminə ədalətli mübarizə aparır. Prezident İlham Əliyev Qərbi Azərbaycanıntarixi coğrafiyası, etnik tərkibi, siyasi və elmi baxımdan araşdırılmasının xüsusiəhəmiyyət kəsb etdiyini dəfələrlə vurğulamışdır. Tarix həqiqəti sevir və vətənanlayışı tarixin özündə formalaşır. Bu baxımdan tarixi Azərbaycan torpağı olanQərbi Azərbaycanda, indiki Ermənistan ərazilərində əsrlərlə xalqımızın soy-kökü, dili, ədəbiyyatı, musiqisi, adət-ənənələri, mədəni abidələri və bir sözlə,mədəniyyəti formalaşmışdır. Qədim İrəvan xanlığında və bütövlükdə indikiErmənistan ərazisində islam dininin VII əsrdən etibarən yayıldığından buərazilərdə yüzlərlə dini ibadət yerləri, daş abidələr, məscid və müsəlman yaşayış yerləri mövcuddur .Tarixi həqiqətləri üzə çıxaran, dünyaya təqdim edən Ümummilli lider HeydərƏliyevin hakimiyyətdə olduğu bütün dövrlərdə Qərbi azərbaycanlılara diqqət vəqayğı göstərilib. Azərbaycan xalqına qarşı ermənilərin dəfələrlə törətmiş olduğu vəuzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış deportasiya və soyqırımıfaktları da tariximizin açılmamış səhifələrindən biri idi. Ulu Öndərimizin ən böyükxidmətlərindən biri xalqımız üçün tarixi və taleyüklü məsələyə – ermənilərinxalqımıza qarşı təxminən iki əsrə yaxın davam etmiş və xalqımıza qarşı əraziiddiaları ilə həyata keçirdiyi soyqırımı faktlarına münasibəti məsələsidir.Xalqımıza qarşı tarixi cinayət kimi qiymətləndirilən bu aksiyaya hüquqi-siyasiqiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədiləAzərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1997-ci il dekabrın 18-də"1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etniktorpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərman imzalamışdır.Xüsusilə Ümummilli Liderimiz Heydər Əliyevin 1998-ci il martın 26-daimzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərman gələcək nəsillərintarixi hadisələri unutmaması, keçmişimizin xatırlanması üçün çox mühüm birsənəddir. (5,2)Azərbaycan xalqının təxminən otuzillik tarixinin elə bir səhifəsi yoxdurki, orada Heydər Əliyevin imzası olmasın. Tarixi ərazilərimizdə dövlətçiliyinmüasir mərhələsinin yaradılması, vətəndaş cəmiyyəti quruculuğu birbaşa UluÖndərin adı ilə bağlıdır. Erməni vəhşilikləri nəticəsində İrəvan, Zəngəzur, Göyçə,Dərələyəz kimi qədim ata-baba torpaqlarından

didərgin salınan azərbaycanlılarməcburən bu əraziləri tərk etməyə başlayıblar. Bu təzyiqlər 1970-ci illərdə nisbətənsakitləşir. Çünki üç ardıcıl sürgündən sonra 1969-cu ildə Heydər Əliyevhakimiyyətə gəlir. Onun hakimiyyətə gəlişindən sonra Qərbi Azərbaycandayaşayan hər bir ailə televiziyaları açıb onun səsini eşitmək istəyirdi. Daha sonrahəmin ailələrdə, evlərdə, hətta ən geridə qalmış kəndlərdə belə, ulu öndərinşəkilləri asılırdı. Çünki onların artıq güvəndikələri və ümid yeri kimi baxdıqları birHeydər Əliyev var idi. Heydər Əliyev hakimiyyətə gələnə qədər türkə, türkçülüyənifrəti olan erməni millətçiləri azərbaycanlıları daim narahat edirdilər. HeydərƏliyevin hakimiyyətə gəlişindən sonra kəndləri köçürtmək, dağıtmaq, buradayaşayan ziyalıları işlə təmin etməmək və kəndə erməni rəhbərinin təyin olunmasıkimi təzyiqlərini dayandırdılar. Heydər Əliyev Qərbi Azərbaycan məsələsinə hərzaman həssas münasibət bəsləyirdi. O dövrdə ali təhsil müəssisələrini yüksəkgöstərici ilə bitirən Qərbi Azərbaycanlıların Ermənistanda işə qəbul olunmasındaulu öndərin böyük xidmətləri olub: "Heydər Əliyev "Sovet Ermənistanı" adlıqəzetdə və İrəvan Dram Teatrında azərbaycanlıların və türklərin işə qəbulunubərpa etmişdi. O dövrdə Ermənistan deyilən qədim Oğuz yurdunda bəzi rayonlardaraykom katibliyi, birinci katib, icraiyyə komitəsinin sədri kimi rəhbər vəzifələrəerməni mənşəli şəxslər deyil, türklər, yəni azərbaycanlılar təyin olunmağabaşladılar. Həmçinin rayonlarda Azərbaycan dilində qəzetlər dərc olunmağabaşlandı. Buna qədər isə bu formada nə sərəncam, nə də qayda olmuşdu. Həmindövrdə Bakıda yüksək reytinqli ali məktəblərdə təhsil alması üçün QərbiAzərbaycandan olan soydaşlarımızın paytaxta ürəklə gəlməsi təmin olunmuşdu.1970-ci ilə qədər gələnlər Bakı ermənilərinin və rus şovinizminin qüdrətli olduğubir dövrə təsadüf etdiyi üçün ali təhsil müəssisələrinə daxil olan qərbi azərbaycanlıgənclər burada çox çətinliklərlə qarşılaşır, aşağılanırdılar. Heydər Əliyevinhakimiyyəti illərində isə onlar artıq buranı özlərinin ümumi Vətəni olduğunu dərketmişdilər. Ümumilli lider Heydər Əliyev hər zaman Ermənistan ərazilərininAzərbaycan torpaqları olmasını fikrini çəkinmədən dilə gətirirdi: Bu, təbii ki, qıcıqyaratmaya bilməzdi. Qədim türk yurdlarında yaşayanların Heydər Əliyevə olanümidlərini puç etmək üçün həm mərkəzi hökumət – Mixail Qorbaçov, həm dəerməni daşnakları var gücünü işə saldı. Beləliklə 1988-ci ildə növbəti sürgünəməliyyatı başladıldı. Sonuncu deportasiya zamanı azərbaycanlılarınməskunlaşdığı təxminən 200-ə qədər yaşayış məntəqəsindən soydaşlarımızqovulub. Bu, sülh və insanlıq əleyhinə cinayət idi. Heydər Əliyevin Azərbaycanxalqının dəvəti ilə yenidən hakimiyyətə gəldiyi vaxt 1992-ci ildən sonra QərbiAzərbaycandan qovulan insanlara şərait yaradıldı və qucaq açıldı. Böyük iztirablaüz-üzə gələn, qaçqın düşmüş, el-obasını tərk etmiş, sürgün olunmuş qərbiazərbaycanlılar Heydər Əliyevin sərəncamı ilə özlərini Azərbaycanın tam hüquqluvətəndaşı olduğunu hiss etdilər. Onları ən böyük təhlükələrdən ulu öndər xilas etdi.Heydər Əliyevin hakimiyyətdə olduğu qızıl dövrdə təkcə Qərbi Azərbaycana yox,bütün ərazilərə - Cənubi və Şərqi Azərbaycana da nəzarət edib. Bu baxımdanhazırda "Qarabağ Azərbaycandır!" şüarına bir yenisini də əlavə etmək olar.Əslində Azərbaycanın dünya ölkələri sırasında tanınmasında Heydər Əliyevin roludanılmazdır. "Göyçə mahalı, Zəngəzur deyəndə xalqımızın ürəyi ağrıyır, xalqo torpaqların arzusu ilə yaşayır" sözləri ilə xalqımızın iztirablarını diləgətirən Ümummilli Lider Heydər Əliyev Qərbi Azərbaycan mövzusunabütövlükdə Azərbaycan xalqının mənafeyi və ədalət prinsipindən çıxış edərəkböyük diqqət və qayğı göstərmişdir. Ulu Öndər Azərbaycan ərazilərininErmənistana verilməsi, azərbaycanlıların oradan zorla qovulmasına dair tarixifaktları vəazərbaycanlı qaçqınların geriyə qayıtmaq hüququ məsələsini ənmötəbər beynəlxalq platformalarda dilə gətirmişdir. Prezident HeydərƏliyevin azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etniktorpaqlarından kütləvi şəkildə deportasiyasına siyasi-hüquqi qiymətinverilməsi haqqında 1997-ci il dekabrın 18-də verdiyi Fərman, ölkənin milliqanunvericiliyində qaçqınların geri qayıtmaq hüququnu təsbit etməsi vəonlara göstərdiyi sosial dəstək Qərbi azərbaycanlılar tərəfindən heç vaxtunudulmayacaq. Heydər Əliyevin Qərbi

Azərbaycan məsələsi ilə bağlı tutduğumövqe, əsasını qoyduğu siyasət Azərbaycan Respublikasının Prezidenti tərəfindənlayiqincə və uğurla davam etdirilir. Prezident İlham Əliyev rəhbərliyi dövründəQarabağ və Şərqi Zəngəzurun erməni işğalından azad edilməsi ilə yanaşı, QərbiAzərbaycanın məsələsini də gündəmdə saxlayıb. Ən müxtəlif platformalarda,görüşlərdə Qərbi Azərbaycan mövzusunu səsləndirib. Ulu öndər Heydər Əliyev1994-cü ildə Böyük Britaniya Kral Beynəlxalq Münasibətlər İnstitutunda çıxışızamanı qeyd etmişdir ki, "Əgər tarixi faktları araşdırmalı olsaq, ondaxatırlatmalıyam ki, indiki Ermənistan ərazisi vaxtilə Azərbaycan torpaqları idi. Birvaxtlar bu yerlər Azərbaycana məxsus olmuş, lakin 1918-1920-ci illərdəErmənistana keçmişdir. Bir sözlə, tarixə müraciət etməli olsaq, onda görərik ki,Ermənistan Azərbaycana çox şey qaytarmalıdır. Amma indi mən onu deyirəm ki,biz Ermənistan ərazisinə, mövcud sərhədlərə göz dikməmişik, onların iddiasındadeyilik. Bununla bərabər, biz öz ərazimizin bir metrini də verməyə razılaşabilmərik".(3,47)

Ümummilli Liderin layiqli davamçısı olan İlham Əliyevin bütün sahələrdəapardığı uğurlu siyasət Vətən həsrəti ilə yaşayan Qərbi azərbaycanlılara ənböyük təsəlli və bizim haqq işimizin öz həllini tapacağına zəmanətdir. Atavəsiyyətini yerinə yetirib Şuşa şəhəri daxil olmaqla Azərbaycan torpaqlarınıyadelli işğalından azad etmiş Müzəffər Ali Baş Komandan İlham Əliyevin bugün məhz həmin şəhərdə Ümummilli Liderin 100 illik yubileyini qeyd etməsi,haqq-ədalətin təntənəsi və çox mənalı tarixi hadisə olaraq Qərbiazərbaycanlıları bir daha gələcəyə daha nikbin baxmağa inandırır.Bu gün Ulu Öndər Heydər Əliyevin ruhu şaddır. Onun canından artıqsevdiyi Azərbaycanın ərazi bütövlüyü təmin olunmuşdur. Gözəl Qarabağ və ŞərqiZəngəzur torpaqları işğaldan azad edilmişdir. Üçrəngli Azərbaycan bayrağı Şuşada, Ağdamda, Füzulidə, Kəlbəcərdə, Cəbrayılda, Qubadlıda, Zəngilanda, Laçında, Qarabağda dalğalanır. Xalqın torpaq həsrətinə son qoyulmuşdur. Zamanında Ulu Öndər tərəfindən cənnətə çevirilən Qarabağın ikinci əbədi dirçəliş və yüksəliş dövrü başlayır. Xalqımızın Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Zəngəzura, İrəvana, Göyçəyə, Qərbi Azərbaycandakı digər ata-baba yurdlarımıza dönəcəyi günlər o qədər də uzaqda deyildir.

Ədəbiyyat

1. N.Rəfiyev. Heydər Əliyev və qərbi Azərbaycan, Füyuzat, Bakı,2023, 208s.

2. Z.Sərdarov, Heydər Əliyev və Milli mübarizə Tariximiz, Çinar-çap, Bakı,2008,166s.

3. İ.Bayramov. Qərbi Azərbaycan: Tarixi Həqiqətlər və ya Ermənistanın Etnik Təmizləmə Siyasəti, Şərq-Qərb nəşriyyatı, Bakı,2011, 288s.

4. İ Bayramov,Qərbi Azərbaycanda soyqırıma məruz qalmış toponimlərimiz, Çıraq çap, Bakı, 2012, 208s,

5. Qərbi Azərbaycan (İndiki Ermənistan) yazarlar: ı Kitab, Bakı,2016,512s

6 E Kəlbizadə, Ulu öndər və Qərbi Azərbaycan,Bakı,Xalq qəzeti, 25 fevral 2023,43say,7s.

TARİXƏ İZ QOYAN GÖRKƏMLİ XADİM

MƏMMƏDOVA SVETLANA NƏSİB QIZI

Azərbaycan Dövlət Pedoqoji Universitetinin XariciDillərMərkəzinindosenti, filologiya üzrə fəlsəfə doktoru

Xülasə

Bu gün Ulu Öndər Heydər Əliyevin siyasi kursunu davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına və milli-mənəvi dəyərlərin qorunub saxlanmasına xüsusi diqqət yetirir, ölkəmiz dünyada söz və nüfuz sahibi kimi tanınaraq müdafiə qüdrətini daha da artırır. Qürurla deyə bilərik ki, Ali Baş Komandanımız və rəşadətli ordumuz 30 ilə yaxın düşmən tapdağında olan əzəli vətən torpaqlarımızı işğaldan azad edib. Ulu Öndərimizin müqəddəs vəsiyyəti yerinə yetirilərək qədim Şuşa şəhəri daxil olmaqla Qarabağ torpaqlarında Azərbaycan bayrağı dalğalanır.Bu Qələbənin mayasında rəhbər-dövlət-ordu-xalq birliyinin bərabərliyindən alınan güclü inam, möhtəşəm və sarsılmaz bağlılıq dayanır.

Açar sözlər: Lider,müstəqillik,demokratiya,islahatlar,inkşaf,sarsılmaz.

Özət

Bugün Ulu Önder Haydar Aliyev'in siyasi yolunu sürdüren Azerbaycan Cumhuriyeti Cumhurbaşkanı Sayın İlham Aliyev, devletin güçlendirilmesine, ekonominin kalkınmasına, milli ve manevi değerlerin korunmasına özel önem vermektedir. . Gururla söyleyebiliriz ki, Başkomutanımız ve yiğit ordumuz, yaklaşık 30 yıldır düşman elinde bulunan kadim vatanımızı işgalden kurtarmıştır. Ulu Önderimizin kutsal vasiyetinin yerine getirilmesi kapsamında, Şuşa kadim kentinin de aralarında bulunduğu Karabağ topraklarında Azerbaycan bayrağı dalgalanıyor.

Bu Zaferin temelinde lider-devlet-ordu-halk birlikteliğinden doğan güçlü inanç, muhteşem ve sarsılmaz bağlılık vardır.

Anahtar kelimeler: Lider, bağımsızlık, demokrasi, reformlar, kalkınma, sarsılmaz.

Summary

Today, the President of the Republic of Azerbaijan, Mr. Ilham Aliyev, who continues the political course of the Great Leader Heydar Aliyev, pays special attention to the strengthening of statehood, the development of the economy, and the preservation of national and moral values. We can proudly say that our Commander-in-Chief and our valiant army freed our ancient homeland from occupation, which was in the hands of the enemy for nearly 30 years. In fulfillment of the holy will of our Great Leader, the Azerbaijani flag is flying in the lands of Karabakh, including the ancient city of Shusha.At the root of this Victory is the strong belief, magnificent and unshakable commitment derived from the unity of the leader-state-army-people.

Key words: Leader, independence, democracy, reforms, development, unbreakable.

Giriş

Müstəqil Azərbaycan Dövlətinin xilaskarı, dünya şöhrətli siyasətçi və böyük şəxsiyyət olan Heydər Əliyev doğurdanda tarixə dərin iz qoyan görkəmli xadimlərdən biridir. O xalqını və vətənini böyük məhəbbətlə sevir və Azərbaycan dövlətinin qüdrətinin möhkəmlənməsi , iqtisadi və sosial cəhətdən inkşaf etməsi üçün əlindən gələni edirdi. Bildiyimiz kimi tarixən keçməkeşli yol keçən Azərbaycan dövləti müstəqil dövlətə sahib olmaq üçün əzmkarlıqla mübarizə aparıb. Heydər Əliyevin köməkliyi ilə Azərbaycan xalqının azadlıq mübarizəsinin əsas mərhələlərindən birini təşkil edən 17 noyabr - Milli Dirçəliş Günü tariximizdə Azərbaycanın müstəqilliyinin bərpa olunmasında önəmli rol oynayıb.1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin yeni tərkibdə ilk sessiyası keçirildi. Muxtar respublikanın adından "sovet" və "sosialist" sözləri çıxarıldı. Bununla da milli dövlətçiliyimizin dirçəlişi istiqamətində ilk böyük addım atılmış oldu. Ulu Öndərin sədrliyi ilə keçirilən həmin tarixi sessiyada Muxtar Respublikanın dövlət rəmzləri haqqında məsələ müzakirə edildi. Üçrəngli bayrağın dövlət rəmzi kimi qəbulu ilə əlaqədar təklif irəli sürüldü. Sessiya Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının bərpa olunması barədə qərar çıxararaq onun dövlət bayrağı kimi qəbul edilməsi ilə bağlı Azərbaycanın Ali Soveti qarşısında məsələ qaldırdı. Beləliklə, Heydər Əliyev müasir və müstəqil Azərbaycanın şanlı tarixini yazdı.Ümummilli Lider Heydər Əliyev hakimiyyətə gəlişi xalqa ümid oldu. Bütün sahələrdə inkişaf müşahidə olunmağa başladı, xalqımızın milli dirçəlişi və mənəvi dəyərlərinin yüksək tutulması, adət və ənənələrimizin qorunub saxlanılması reallığa çevrildi.

Bütün bunlar göstərir ki, Ulu Öndər Heydər Əliyev tariximizdə böyük iz qoyub.Onun Azərbaycan xalqınaelədikləri saymaqla bitməz.Azərbaycanın müstəqil dövlət quruculuğunun bütün sahələrində, o cümlədən hərbi təhlükəsizliyinin təmin edilməsi sahəsində gördüyü əzəmətli işlər Heydər Əliyevin mahir siyasətçi, böyük təşkilatçı olduğunu bir daha sübut edir. Azərbaycan Ordusunun formalaşdırılması sahəsində Heydər Əliyevin tarixi fəaliyyyətinin ilk addımları Naxçıvanda atıldı. Bu böyük dövlət xadiminin muxtar respublikadakı qısa fəaliyyəti bir daha göstərdi ki, məsqədyönlü, milli maraqları qoruyan siyasət yeridilməsi, xalqın milli maraqlar ətrafında birləşdirilməsi ən mürəkkəb vəzifələri belə həyata keçirməyə imkan verir. Heydər Əliyev parlaq zəkası və bənzərsiz təşkilatçılıq qabiliyyəti ilə həm Naxçıvanın erməni təcavüzündən müdafiəsini, həm də burada milli hərbi hissənin sağlam əsaslar üzərində formalaşmasını təmin etdi və bununla da respublikanın iqtidarında olan qüvvələrə də dövlətçilik nümunəsi göstərdi.Ordu quruculuğunda yeni bir mərhələnin başlanğıcını isə Heydər Əliyevin radio və televiziya ilə xalqa 2 noyabr 1993-cü il müraciəti qoydu. Azərbaycan Respublikasının Prezidenti seçilməsindən cəmi bir ay sonra edilmiş bu müraciət bir tərəfdən sağlam ordu quruculuğunun əsaslarını və bu istiqamətdə xalqın və dövlətin qarşısında dayanan mühüm vəzifələri müəyyənləşdirən konseptual bir sənəd idisə, bir tərəfdən də Heydər Əliyevin xalqa çağırışı idi. Bu çağırış xalqın bütün təbəqələri tərəfindən qəbul edildi və xalqın bütün potensialı ordu quruculuğuna istiqamətləndirildi. Yəni, Heydər Əliyev böyük dövlətçilik təfəkkürü ilə xalqın potensialını ordu quruculuğu kimi mühüm bir sahəyə səfərbər edə bildi. Heydər Əliyev respublika ağsaqqallarına, ziyalılarına, mədəniyyət və incəsənət xadimlərinə, dindarlara, iş adamlarına müraciət edib onları orduya daha yaxından kömək etməyə, əsgər və zabitlərin mübariz döyüş ruhunda tərbiyə olunmasına yardım etməyə, orduda baş verən qanunsuzluqların, başlıcası isə fərariliyin qarşısının alınmasında qətiyyətli mövqe tutmağa çağırdı. Heydər Əliyev xüsusilə hərbi strukturlara yol tapmış rüşvətxorluğa qarşı mübarizənin gücləndirilməsinin zəruriliyini vurğuladı. Bu baxımdan Ümummilli Lider orduya çağırış-səfərbərlik işinin düzgün təşkil edilməsinə böyük əhəmiyyət verir, bu məsələni yalnız hərbi komissarlıqların və hərbi strukturların deyil, eyni zamanda, dövlət və hakimiyyət orqanlarını qarşısında dayanan çox mühüm vəzifə sayırdı.

Ulu öndər Heydər Əliyev Azərbaycan dövlətinin rəhbəri olduğu ilk illərdən ana dilinin sosial-siyasi, ideoloji problemləri ilə bilavasitə məşğul olub ve bu sahədə bir çox islahatlar keçirib:

1)Azərbaycan dili dövlət dili olaraq Azərbaycan SSR-in müvafiq qanunlarında (xüsusilə Konstitusiyada) öz əksini tapıb, Moskvanın etirazlarına baxmayaraq, respublikada rus dili ilə yanaşı, Azərbaycan dilinin də rəsmiliyi təmin edilib.

2)Azərbaycandilli məktəbin, maarifin inkişafına xüsusi qayğı göstərilib, bir sıra digər Sovet respublikalarından fərqli olaraq, Azərbaycanda gəncliyin ana dilində təhsilinə üstünlük verilib.

3)Azərbaycan dilində mətbuatın, elmin tərəqqisi üçün dövlət rəhbərliyi əlindən gələni edib, Azərbaycanın böyük yazıçıları öz əsərlərini, demək olar ki, yalnız ana dilində yazıb, Azərbaycan Yazıçılar İttifaqının aparıcı mətbuat orqanları - "Azərbaycan", "Ulduz" jurnalları, "Ədəbiyyat və incəsənət" qəzeti Azərbaycan dilində nəşr edilib.

4)Azərbaycan dilinin tarixi o zamana qədər görünməmiş bir ardıcıllıqla araşdırılıb, çoxcildlik "Müasir Azərbaycan dili" kitabları yaradılıb, həmin çoxcildliklərdən biri - ali məktəblər üçün "Müasir Azərbaycan dili" dərsliyi Azərbaycan Dövlət mükafatına layiq görülüb, ana dilini araşdıran alimlərin əməyi yüksək qiymətləndirilməklə, əslində, ana dilinin nüfuzu bir daha təsdiq edilib.

5)Həm rəsmi, həm də qeyri-rəsmi yığıncaqlarda, məclislərdə Azərbaycan dilində danışmaqdan çəkinməyən respublika rəhbəri praktik olaraq ana dilinin ictimai-siyasi mövqeyinin yüksəlməsinə bilavasitə təsir göstərib, başqalarına nümunə olub.

Bütün bunlar onu göstərir ki, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin hazırlayıb həyata keçirdiyi dil siyasəti Onun dövlət quruculuğu siyasətinin inkşafına xidmət edir. Ali məktəblər üçün yazılmış "Müasir Azərbaycan dili" dərsliklərinin Respublika Dövlət mükafatına layiq görülməsi, anadilli ədəbiyyatın inkişafı üçün hər cür şəraitin yaradılması, Azərbaycan ədəbiyyatı klassiklərinin təbliği məhz bunun nəticəsi idi.

Azərbaycan təhsilinin qayğıkeş hamisi olan ulu öndərimizin "Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" 4 oktyabr 2002-ci il tarixli sərəncamı və həmin sərəncamla hazırlanmış xüsusi proqram sayəsində Azərbaycanda dünya standartlarına uyğun müasir tipli məktəb binaları tikilməyə başlandı. "Təhsil sahəsi xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir" – deyən ümummilli lider Azərbaycan təhsilinin dinamik inkişafını təmin edən bir sıra sənədlər imzaladı. "Azərbaycan Respublikasının təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 13 iyun 2000-ci il, "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il, "Azərbaycan əlifbası və Azərbaycan Dili Günü (1 avqust) təsis edilməsi haqqında" 9 avqust 2001- ci il, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun tətbiq edilməsi barədə" 2 yanvar 2003-cü il tarixli fərman və sərəncamlar təhsilimizin dünya standartları səviyyəsinə qaldırılmasında böyük rol oynadı. Bununla yanaşı, Azərbaycan tarixinin, ədəbiyyatının, coğrafiyasının, öyrədilməsinə, mükəmməl dərsliklərin hazırlanmasına, Azərbaycan dilinin öyrədilməsinə, xüsusilə dövlət dili statusunda təbliğinə diqqət artırıldı.

Ulu Öndərin Azərbaycanda hakimiyyətə ilk gəlişi durğunluq illərinə təsadüf etmişdi. Cəmiyyətin hər sahəsində olduğu kimi, səhiyyədə də əvvəlki dövrlərdə əldə edilən uğurlar öz nəticələrini göstərirdi. Bununla belə, diqqətli müşahidəçi vəziyyətin heç də yaxşı olmadığını, səhiyyənin maddi–texniki bazası cəhətdən isə hətta acınacaqlı olduğunu müşahidə edirdi. İmmunlaşdırma, bir sıra infeksion xəstəliklər, o cümlədən vərəm, malyariya, difteriya, poliomielit, məxmərək və s. narkomaniya, ana və uşaq sağlamlığı, kadr çatışmazlığı və mövcud kadrların səviyyəsi bütün bunlar Azərbaycan səhiyyəsində öz həllini gözləyən problemlərin yalnız bir hissəsi idi.Ümummilli Lider Heydər Əliyevin səhiyyənin inkişafı üzrə tədbirlər

kompleksinin əsas məqamlarından biri mövcud səhiyyə ocaqlarının abadlaşdırılması, yeni tibb müəssisələrinin tikilməsi idi. 1970–ci illərdə bir sıra bölgələrdə tibb müəssisələri yararsız binalarda yerləşirdi. 1970–1980–ci illərdə respublikada bir çox mühüm səhiyyə obyektləri inşa edildi. Təkcə uşaq poliklinikalarının sayı 1970–1975–ci illərdə 150–dən 185–ə çatdı. Yeni istifadəyə verilən səhiyyə müəssisələri arasında Uroloji Kliniki Xəstəxana, neyrocərrahiyyə, toksikologiya, yanıq mərkəzləri kimi tibb ocaqları var idi. Elmi–Tədqiqat Oftalmologiya və Elmi–Tədqiqat Onkologiya institutları üçün yeni binalar da o zaman tikilməyə başladı.Müasir səhiyyə müəssisələri müvafiq yüksək səviyyəli kadr potensialının olmasını da tələb edirdi. Həkimlərin və orta tibb işçilərinin çatışmazlığını aradan qaldırmaq üçün Heydər Əliyevin təşəbbüsü ilə ilk növbədə Azərbaycan Tibb İnstitutuna və tibb məktəblərinə tələbə qəbulu artırıldı, tibbi kadrlara ehtiyac olan ucqar bölgələrdən gələn abituriyentlər üçün güzəştlər tətbiq edildi. Bununla da rayonların səhiyyə müəssisələrində kadr çatışmazlığı tədricən aradan qalxmağa başladı.Ümummilli lider Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusu, müstəqil respublikamızın dünya birliyinə inteqrasiyasının, yeni inkişaf strategiyasının banisi olmaqla bərabər, eyni zamanda Azərbaycanda multikulturalizmin dövlət siyasətinə çevrilməsinin əsasını qoymuşdur. Heydər Əliyev 1993-cü ilin 15 iyununda ölkə rəhbərliyinə qayıtdığı gün Milli Məclisdə etdiyi ilk çıxışında bu məqamı xüsusi vurğulamış, respublikadakı çoxmillətliliyi Azərbaycanın sərvəti adlandırıb:"Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Azərbaycanın ən başlıca sərvətlərindən biri qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif dinlərə etiqad edən adamlardır. Biz bunu qiymətləndiririk və saxlayacağıq. Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir. Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Azərbaycanlı sözü bizi həmişə birləşdirib".

Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqını, millətini və bütövlükdə, vətənimizi bəlalardan qurtardı və Azərbaycanın sürətlə inkişafı üçün hər cür şəraitləri yaratdı, həmçinin, bütün sahələrdə ölkəmizin inkişaf etməsinə nail oldu. Xalqımız Ulu Öndər Heydər Əliyevin gördüyü bu yüksək səviyyəli işlərə görə ona borcludur.Həmçinin qeyd etmək lazımdır ki, Azərbaycan xalqı həm də ona görə xoşbəxt xalqdır ki, Ulu öndər Heydər Əliyevin yetirməsi olan İlham Əliyev onun ideyalarını uğurla davam etdirir ,Azərbaycan Dövlətini nəinki Cənubi Qafqazda həm də bütün dünyada ən tanınan və qəbul edilən dövlətlərdən biri edib.

Ədəbiyyat siyahısı

1.Əbədi müstəqillik tarixi yazan lider Heydər Əliyev Heydər Əliyevin 95 illik yubileyi münasibətilə mərkəzi kitabxanalarının uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait. Bakı – 2018

2. İsa Həbibbəyli, Tehran Əlişanoğlu, Əlizadə Əsgərli, Elnarə Akimova, Aygün Bağırlı, Lalə Həsənova ƏDƏBİYYATDA HEYDƏR ƏLİYEV OBRAZI TARİXİ GERÇƏKLİKDƏN İDEALA “Elm və təhsil” Bakı – 2018

3.Heydər əliyevin kəlamları Bakı- 2019

4. Heydər Əliyev Biblioqrafik Məlumat Kitabı Abuzər Xələfov, Solmaz Sadıqova Bakı- 2003

QAFQAZIN SƏNƏT MƏBƏDİ

MƏMMƏDOVA SEVDA

Azərbaycan Dövlət Pedoqoji Universiteti, Xarici Dillər Mərkəzi

Xülasə

Tarixə nəzər salsaq qeyd etmək lazımdır ki, Şuşa şəhəri zəngin və şanlı tarixi keçmişə malikdir. Azərbaycan xalqının tarixi ənənələrinin simvolu olan Şuşa qədim Xocalı-Gədəbəy mədəniyyətinin əhatə dairəsinə daxil olan ən qədim yaşayış yerlərindən birində yaranıb və daimi insan məskəninə çevrilib. Şuşa ətrafındakı qədim yaşayış yerləri, o cümlədən məşhur Cıdır düzündəki Şuşa mağarası bu ərazinin Azərbaycanda ən qədim insan düşərgələrindən biri olduğunu sübut edir. 1747-ci ildə Nadir şah Əfşarın ölümündən sonra keçmiş Qarabağ bəylərbəyliyinin ərazisində iki müstəqil xanlıq – Gəncə və Qarabağ xanlıqları yarandı. Qarabağ xanlığının əsasının qoyulması və Şuşa şəhərinin onun paytaxtına çevrilməsi Pənahəli xanın adı ilə bağlıdır. Qarabağ xanı Pənahəli xan Cavanşirlər tayfasının Sarıcanlı oymağından idi. Bu Azərbaycan tayfası Qarabağın qədim sakinlərindən olmuş və uzun müddət bölgənin ictimai-siyasi həyatında mühüm rol oynamışdır. Nadir şahın sarayında eşikağası vəzifəsini tutmuş Pənahəli xan 1738-ci ildə Qarabağa qayıtmış, 1748-ci ildə isə müstəqil Qarabağ xanlığının əsasını qoymuşdur.

Açar sözlər

Mədəniyyət,tarix, müstəqillik,vətənpərvərlik,abidələr, qala

Özət

Tarihe bakıldığında Şuşa şehrinin zengin ve görkemli bir tarihi geçmişe sahip olduğunu belirtmek gerekir. Azerbaycan halkının tarihi geleneklerinin simgesi olan Şuşa, kadim Hocalı-Gadabey kültürü kapsamına giren en eski yerleşim yerlerinden birinde oluşturulmuş ve kalıcı bir insan yerleşimi haline gelmiştir. Çıdır ovasındaki ünlü Şuşa mağarası da dahil olmak üzere Şuşa çevresindeki antik yerleşimler, bu bölgenin Azerbaycan'daki en eski insan kamplarından biri olduğunu kanıtlıyor. Nadir Şah Afşar'ın 1747 yılında ölümünden sonra eski Karabağ Beylerbeyliği topraklarında iki bağımsız hanlık - Gence ve Karabağ hanlıkları - kuruldu. Karabağ Hanlığı'nın kuruluşu ve Şuşa şehrinin başkent olması Panahali Han'ın adıyla bağlantılıdır. Karabağ Hanı Panahali Han, Cavanşir kabilesinin Sarıcanlı kolundandı. Bu Azerbaycan kabilesi, Karabağ'ın eski sakinlerinden biriydi ve uzun süre bölgenin sosyal ve siyasi hayatında önemli bir rol oynadı. Nadir Şah'ın sarayında kâhyalık görevini üstlenen Panahali Han, 1738'de Karabağ'a döndü ve 1748'de bağımsız Karabağ Hanlığı'nı kurdu.

Anahtar kelimeler: Kültür, tarih, bağımsızlık, vatanseverlik, anıtlar, kale

Summary

If we look at the history, it should be noted that the city of Shusha has a rich and glorious historical past. Shusha, a symbol of the historical traditions of the Azerbaijani people, was created in one of the oldest settlements included in the scope of the ancient Khojaly-Gadabey culture and became a permanent human settlement. The ancient settlements around Shusha, including the famous Shusha cave on the Cidir plain, prove that this area is one of the oldest

human camps in Azerbaijan. After the death of Nadir Shah Afshar in 1747, two independent khanates - Ganja and Karabakh khanates - were formed in the territory of the former Karabakh Beylarbey. The foundation of the Karabakh Khanate and the transformation of the city of Shusha into its capital are connected with the name of Panahali Khan. Karabakh Khan Panahali Khan was from the Saricjanli branch of the Javanshir tribe. This Azerbaijani tribe was one of the ancient inhabitants of Karabakh and played an important role in the social and political life of the region for a long time. Having held the position of butler in the palace of Nadir Shah, Panahali Khan returned to Karabakh in 1738, and in 1748 he founded the independent Karabakh Khanate.

Key words: Culture, history, independence, patriotism, monuments, castle.

Giriş

Qarabağ qədim tarixə malikdir və Azərbaycanın səfalı guşələrindən biridir. Qarabağ sözü "qara" və "bağ" sözlərindən əmələ gəlmişdir. Azərbaycan dilində "qara"nın rəngdən başqa "sıx", "qalın", "böyük", "tünd" və başqa mənaları da vardır. Buna görə də "Qarabağ" – "böyük bağ", "sıx bağ", "qalın bağ" mənasını verir. Bu ərazilər ta qədimdən Azərbaycanın bir hissəsi olmuşdur. 18-ci yüzilliyin ortalarında Qarabağ xanlığı yaranmışdır. Qarabağ xanlığının əsasını Pənahəli xan qoymuş və o, xanlığı müdafiə etmək üçün Bayat və Şahbulaq qalalarını tikdirmiş və Şuşada daha möhtəşəm qala tikilməsi üçün göstəriş vermişdir. 1757-ci ildə xanlığın mərkəzi Şuşa qalasına köçürülmüşdür. Pənah xanın şərəfinə qala Pənahabad" adlandırılmışdır. Sonralar bu qala yenə də Şuşa qalası kimi tanındı.

Memarlıq abidəsi sayılan Şuşada 170-dən çox yaşayış binası və 160-dək mədəniyyət və tarixi abidələr var idi. Bunların içərisində son tunc və ilk dəmir dövrü abidəsi sayılan Şuşa və Şuşakənd daş qutusu qəbirləri, daş dövrü abidəsi olan Şuşa mağara düşərgəsi, XVIII əsrə dair Şuşa qalasının divarları, Gəncə qapısı, Pənah xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansaray, M.P.Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, İkimərtəbəli karvansaray, Mehmandarovların malikanə kompleksi, Xurşidbanu Natəvanın evi və bulağı, Ə.B.Haqverdiyevin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Y.V.Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin evləri, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri, Xan Şuşinskinin, Tarzən Sadıqcanın evləri, Realni məktəbinin binası var idi.

Şuşanın gözəl təbiəti, coğrafi mövqeyi, xüsusilə çox mühüm strateji əhəmiyyətli olmasını bir çox tədqiqatçılar tərəfindən dəfələrlə bildirilmişdir. Məşhur klimatoloqlar bildirmişlər ki, dəniz səviyyəsindən 1403 metr hündürlükdə yerləşən şəhər iqlim şəraitinə , fauna və florasına görə Şuşa böyük müalicəvi əhəmiyyətli bir şəhərdir. 1854-cü ildə şəhərin cənubunda yerləşən 18 kilometr aralı "Turşsu" deyilən səfalı guşədə mədən suyunun çıxması da alimlərin mülahizəsini doğrultdu. Şuşa kurort şəhəri kimi tanınmışdır. Azərbaycanın Qarabağ bölgəsi dünyanın ən qədim insan məskənlərindən biri - 2 mln il yaşı olan Azığ düşərgəsi insanlarının yaşadığı ərazidir. Qarabağ ərazisi paleolit dövrünün Quruçay mədəniyyəti yaradıcılarının Tunc və Dəmir dövründə mövcud olan və bir-birini əvəz edən Kür-Araz və Xocalı-Gədəbəy mədəniyyətlərinin davamçılarınınyaşayışməskənidir. Qarabağın dağlıq və düzən hissəsində aşkar edilmiş qədim daş abidələr-Xocalıdakı dolmenlər, Xankəndindəki kromlexlər, eləcə də qarabağın müxtəlif yerlərindən aşkar edilmiş antik dövrə aid daş qutu qəbirlər həmin dövrün ideologiyasını-mənəvi düşüncə əks etdirən maddi mədəniyyət nişanələridir.

Buna görə də nəinki Azərbaycanda, onun hüdudlarından kənarda da Şuşa öz səfalı yerləri, istirahət guşələrinə görə məşhur idi. Şuşa dağlarında xüsusi gözəlliyi ilə seçilən və dünyanın

heç bir yerində bitməyən "Xarı bülbül" gülü bitir. Bu endemik gül həm gözəl, həm də müalicəvidir.Artıq XIX əsrin ikinci yarısında şəhər əhalisinin sayı 25 minə çatmışdı. Azərbaycan Milli Elmlər Akademiyasının məlumatına görə, təkcə XIX əsrdə Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə, 19 xəttat, 16 nəqqaş, 12 nüsxəbənd, 5 astronom, 18 memar, 16 həkim, 42-yə qədər müəllim və s. olmuşdur. Bu böyük ziyalı təbəqəsi, Şuşa şəhərini mədəniyyət mərkəzinə çevirməkdə, burada elmi və mədəniyyəti inkişaf etdirməkdə çox böyük rol oynamışlar. Azərbaycanın tarixi mədəniyyət mərkəzi olan Şuşa tanınmış elm və mədəniyyət xadimlərinin vətəni hesab edilir. Heç də təsadüfi deyildir ki, Xurşidbanu Natəvan, Molla Pəhah Vaqif, Mir Möhsün Nəvvab, Əbdürrəhim bəy Haqverdiyev, Qasım bəy Zakir, Süleyman Sani Axundov, Nəcəf bəy Vəzirov, Yusif Vəzir Çəmənzəminli, Firudin bəy Köçərli, Həmidə xanım Cavanşir, Bədəl bəy Bədəlbəyli, Əhməd bəy Ağayev, Ceyhun bəy Hacıbəyli, Səməd bəy Mehmandarov, Fərəc bəy Ağayev, Yaqub Quliyev və onlarla dünya şöhrətli xadimlərin həyatında məhz Şuşa mühitinin mühüm rolu olmuşdur. Tarixi sənədlər göstərir ki, "Üç muşketyor" və "Qraf Monte Kristo" kimi klassik əsərlərin müəllifi olan məşhur yazıçı Aleksandr Düma 1858-ci ilin ortalarından 1859-cu ilin əvvəllərinə kimi Rusiya və Qafqazda olmuşdur. Qafqaza səfəri zamanı müəyyən müddət Azərbaycan ərazisinə səyahət etmiş, 1859-cu ilin aprel ayında isə Dümanın 3 cilddən ibarət Qafqaz səyahətinin təəssüratları əsəri (fransızca: "İmpression de Voyage Le Caucase") Parisdə çap olunmuşdur.

Bakı məhəllələrinin birinin polismeysteri Piquliyevskinin evində qonaq olan Aleksandr Düma orada Qarabağ xanının qızı, məşhur şairə Xurşidbanu Natəvan və onun həyat yoldaşı knyaz Xasay Usmiyevlə tanış olur, onlar arasında səmimi dostluq münasibətləri yaranır. Fransız yazıçısı Düma Azərbaycan şairəsi Natəvanla şahmat oynayır. Oyunun nəticəsi isə çox yadda qalan olur. Belə ki, Natəvan Dümanı mat edir. Natəvan Dümaya qalib gələrkən o, Dümadan yaşca xeyli kiçik idi. Natəvanın cəmi 26, Dümanın isə 56 yaşı vardı. Qeyd etmək lazımdır ki, Heydər Əliyev Fondunun dəstəyi ilə 2016-cı il fevralın 18-də Belçika Krallığının Vaterlo şəhərində görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvanın abidəsinin açılışı olmuş və abidənin özülündə Xurşidbanu Natəvanın Qarabağ şahzadəsi olması barədə məlumat vardır.

Ümummilli lider Heydər Əliyev müdrik dövlət xadimi, dahi siyasətçi olmaqla bərabər, həm də alovlu vətənpərvər idi. Azərbaycanımızın hər bir guşəsi, hər bir bölgəsi kimi Dağlıq Qarabağ da onun üçün əziz və doğma olmuşdur. Zaman-zaman Azərbaycan torpaqlarına göz dikən ermənilərin ötən əsrin ikinci yarısında fəallaşmalarının qarşısı məhz ulu öndərin qətiyyəti sayəsində alınmışdı. Hələ Dövlət Təhlükəsizlik Komitəsinin sədri olarkən erməni millətçilərinin hərəkətlərinin qarşısını dəfələrlə qətiyyətlə alan Heydər Əliyev 1967-ci ilin iyun ayında Xankəndidə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsini tələb edən vərəqələri yayanların və bu işlərin təşkilatçılarının tutulub cəzalandırılmalarına nail olmuşdu. Dağlıq Qarabağda yaşayan azərbaycanlılar 1967-ci ildən başlayaraq ulu öndərin xilaskar fəaliyyətinin şahidi olmuş, onun vətənpərvərliyini, millətsevərliyini daha yaxından hiss etmişlər.

Heydər Əliyevin Dağlıq Qarabağdakı ən böyük xidmətlərindən birincisi isə heç şübhəsiz, Azərbaycan dilinin dövlət dili səviyyəsinə qaldırılması olub. Həmin dövrə qədər vilayətdə idarə, müəssisə və təşkilatlarda, məktəblərdə, səhiyyə və mədəniyyət müəssisələrində ad göstəriciləri erməni və rus dillərində, habelə bütün yazışmalar da bu dillərdə aparılırdı. Ulu öndərin qəti tapşırığı ilə vilayətin erməni və rus dilli məktəblərində Azərbaycan dili tədris olunmağa başlandı. Vilayətin partiya, sovet, hüquq-mühafizə orqanlarının və digər təşkilatların inzibati binalarının lövhələrinin Azərbaycan dilində yazılmasına başlanması da 70-ci illərə təsadüf edir. Dağlıq Qarabağda səhiyyənin inkişafı da məhz Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan Tibb İnstitutunu bitirən azərbaycanlılar təyinatla vilayətə göndərilir, milli kadrlarla həmin səhiyyə ocaqları möhkəmləndirilirdi.

Ümummilli lider Heydər Əliyev bildirib ki , Şuşa abidələr şəhəri olub və Azərbaycan üçün müstəsna əhəmiyyət kəsb edib, "Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur". ŞUŞA Azərbaycanın tarixi mədəniyyət mərkəzi, Qarabağın baş tacı və hərbi-strateji əhəmiyyətə malik qədim şəhəridir. Bir vaxtlar "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan, Azərbaycanın ictimai-siyasi həyatında mühüm xidmətləri olan bir sıra görkəmli xadimlərin vətəni, eləcə də tarixi mədəniyyət mərkəzi və Qarabağın baş tacı olan Şuşa şəhəri artıq işğaldan azad edilmişdir.Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində demişdir: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 may 2021-ci il tarixli sərəncamına əsasən, Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilib. Bunuda qeyd etmək lazımdı ki,Prezident İlham Əliyev "Qarabağ Universitetinin yaradılması haqqında" Sərəncam imzalayıb.Sərəncama əsasən, Xakəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində "Qarabağ Universiteti" publik hüquqi şəxs yaradılır. Nazirlər Kabinetinə iki ay müddətində Qarabağ Universitetinin nizamnaməsini təsdiq etmək və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək tapşırılıb. Nazirlər Kabineti, həmçinin universitetin fəaliyyətinin maliyyələşdirilməsi ilə bağlı zəruri tədbirlər görəcək, universitetin Xankəndi şəhərində torpaq sahəsi, tədris və yataqxana binaları, idman meydançası və digər infrastruktur obyektləri ilə təminatı məsələlərini həll edəcək.

Sərəncamda qeyd olunur ki, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması, dayanıqlı inkişafı və həmin ərazilərdə yüksək həyat səviyyəsinin təminatı üçün genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir.

Əhalinin dayanıqlı məskunlaşması və ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası istiqamətində müəyyənləşdirilmiş hədəflərin reallaşdırılmasında nəzərdə tutulan müasir yanaşmalar, o cümlədən qabaqcıl standartların, yüksək texnologiyaların tətbiqi və hər bir rayonun ixtisaslaşma sahəsinə müvafiq inkişafı yüksəkixtisaslı kadrların cəlb edilməsini şərtləndirir.

Qarabağ Universitetinin yaradılmasının sosial, siyasi əhəmiyyəti qədər mənəvi, iqtisadi əhəmiyyəti də var. Qarabağ və Şərqi Zəngəzura Böyük Qayıdışın sürətlənməsində Qarabağ Universitetinin yüksək rolu olacaq. İnsanlarımızın bölgələrdə təhsil almağa, çalışmağa önəmi artırması bütövlükdə Azərbaycan təhsilinin və elminin inkişafında müsbət nəticələrə səbəb olacaq". Təhsil dövlətçilik siyasətinin əsas vuran qolu, təməl nöqtələrindən biri olub. Qarabağ Universiteti bəlkə də Azərbaycanın xüsusi təhsil göstəricilərinə malik olan ən böyük ali təhsil müəssisəsi olacaq. İşğaldan azad edilmiş ərazilərin quruculuğunda təhsil müəssisələrinin tikintisi, bərpası və tədrisin təşkili vacib amildir. Çünki təhsil insanların həmən ərazilərdə sürətlə məskunlaşmasına, eyni zamanda həmin ərazilərdə xidməti vəzifələrinini yerinə yetirən əməkdaşların övladlarını təhsil almaq şəraitinin yaxşılaşdırılması üçün bu vacibdir.

Hər kəsə məlumdur ki, ölkə başçısı cənab İlham Əliyevin dediyi kimi, hazırda qarşıda dayanan ən mühüm vəzifələrdən biri işğaldan azad olunmuş ərazilərimizin bərpasıdır və buna görə də Azərbaycan təhsili də fəal iştirak etməlidir.

Ədəbiyyat siyahısı

1.Şuşa Azərbaycanın mədəniyyət paytaxtı Bakı-2021

2.Şuşa salnaməsi Bakı – 2015

3. Şuşa Azərbaycanın Mədəniyyət və Tarix incisidir. Tehran Vəliyev Bakı -2004

4. Qarabağ – Şuşa Yunis Hüseynov Bakı -2023

THE DIFFERENCE BETWEEN TRADITIONAL METHODS AND MODERN METHODSIN TEACHING FOREIGN LANGUAGES
XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ ƏNƏNƏVİ METODLARLA MÜASİR METODLARIN FƏRQİ

F.ü.f.d.,b/m SEVDA XƏLİLOVA

Azərbaycan, Bakı, Azərbaycan Dövlət Pedaqoji Universiteti
Orcid: 0000-0001-5909-2999

Xülasə

Məqalə ingilis dilinin tədrisinin nəzəri əsaslarının, bu dilin tədrisində istifadə olunan müasir metod və yanaşmaların, ənənəvi metodlarla müasir metodların fərqli xüsusiyyətlərinin müəyyən edilməsi, dil öyrənənlərdə qrammatik biliklərin və danışıq bacarıqlarının formalaşdırılması və inkişafı üçün tədrisi metodlarının araşdırılmasından bəhs edir.

Müasir dünyanın dəyişən reallıqları təhsil sistemlərində də belə dəyişiklikləri tələb edir. Beləliklə, innovasiya mövzusu bütün təhsil sistemi və xüsusən də xarici dillərin tədrisi üçün aktuallaşır.

Xarici dillərin tədrisinin müasir metodologiyası bizə həm ənənəvi, həm də innovativ təlim anlayışları, metodları və texnologiyalarının geniş spektrini təklif edir. Təhsil proqramlarını tərtib edənlər və müəllimlər təlimin məqsədlərindən, tələbələrin kontingentindən, tədris kursunun müddətindən və intensivliyindən və digər şərtlərdən asılı olaraq bu və ya digər üsula üstünlük verirlər. Eyni zamanda, tədris metodlarının hər birinin öz üstünlükləri və mənfi cəhətləri var və onların tətbiqinin uğuru təlimin konkret məqsəd və şərtlərindən asılıdır.

Açar sözlər: Xarici dil, ənənəvi metod,müasir metod, müəllim, tələbə

Özet

Makalede İngilizce öğretiminin teorik temelleri, bu dilin öğretiminde kullanılan modern yöntem ve yaklaşımlar, geleneksel yöntemler ile modern yöntemlerin farklı özelliklerinin belirlenmesi, dilde dilbilgisi bilgisi ve konuşma becerisinin oluşumu ve geliştirilmesine yönelik öğretim yöntemlerinin araştırılması ele alınmaktadır. öğrenciler.

Modern dünyanın değişen gerçekleri eğitim sistemlerinde de bu tür değişiklikleri zorunlu kılmaktadır. Böylece inovasyon konusu tüm eğitim sistemi ve özellikle yabancı dil öğretimi için geçerli hale geliyor.

Yabancı dil öğretiminin modern metodolojisi bize hem geleneksel hem de yenilikçi öğretim kavramları, yöntemleri ve teknolojilerinden oluşan geniş bir yelpaze sunar. Müfredat tasarımcıları ve öğretmenler, eğitimin hedeflerine, öğrenci kontenjanına, eğitim kursunun süresine ve yoğunluğuna ve diğer koşullara bağlı olarak şu veya bu yöntemi tercih ederler. Aynı zamanda öğretim yöntemlerinin her birinin avantajları ve dezavantajları vardır ve bunların uygulanmasının başarısı, eğitimin belirli hedeflerine ve koşullarına bağlıdır.

Anahtar kelimeler: Yabancı dil, geleneksel yöntem, modern yöntem, öğretmen, öğrenci

Summary

The article deals with the theoretical foundations of English language teaching, modern methods and approaches used in teaching this language, identification of different features of traditional methods and modern methods, research of teaching methods for the formation and development of grammatical knowledge and speaking skills in language learners.

The changing realities of the modern world require such changes in education systems. Thus, the topic of innovation becomes relevant for the entire education system, and especially for the teaching of foreign languages.

The modern methodology of teaching foreign languages offers us a wide range of both traditional and innovative teaching concepts, methods and technologies. Curriculum designers and teachers prefer one or another method depending on the goals of the training, the contingent of students, the duration and intensity of the training course and other conditions. At the same time, each of the teaching methods has its advantages and disadvantages, and the success of their application depends on the specific goals and conditions of the training.

Key words: Foreign language, traditional method, modern method, teacher, student

Tədris metodlarından danışanda cəmiyyətimiz üç qrupa bölünür; bir qrup ənənəvi tədris üsullarını, ikinci qrup müasir tədris metodlarını, üçüncü qrup isə effektiv tədris üçün hər ikisinin birləşməsini dəstəkləyənlərdir. Tədris və öyrənmə tarixi boyu ənənəvi üsullar öyrətmək və öyrənmək üçün daha yaxşı yollar axtarmaq üçün gəlib keçmişdir. Metodları əsasən ənənəvi və müasir metodlar kimi iki yerə bölmək olar. Ənənəvi metodlara baxmayaraq, müasir metodlar daha çox tələbə mərkəzli, konstruktivist, sorğu-sual əsaslı olur.

Son illərdə xarici dilin ünsiyyət vasitəsi kimi rolu xeyli artmışdır ki, bu da dilin tədrisi zamanı nəzərə alınmalıdır. Xarici dilin spesifikliyi ondan ibarətdir ki, biz elmin əsaslarını deyil, bacarıq və bilikləri öyrədirik və bunun üçün kifayət qədər nitq təcrübəsi tələb olunur. Dil tədrisinin məqsədi şagirdləri təkcə xarici dilin sistemi ilə tanış etmək deyil, hər şeydən əvvəl onlara dildən ünsiyyət vasitəsi kimi istifadə etməyi öyrətməkdir. Deməli, məşğələlərin bütün strukturu və istifadə olunan metodlar ünsiyyətin real vəziyyətinə uyğun olmalı, təlim şagirdlərin qarşılıqlı əlaqəsi şəraitində keçməlidir.

Tələbələrin fənn və meta-mövzu nəticələrinə, habelə şəxsi nəticələrinə nail olmaq vasitələri təhsil texnologiyalarıdır. Xarici dilin tədrisinin nəticələrini təmin etmək üçün müəllimin iş sistemi mütləq aşağıdakı texnologiyaların həyata keçirilməsini əhatə etməlidir: kommunikativ təlim texnologiyası, mətnin kommunikativ mənasını dərk etmək texnologiyası, oyun texnologiyaları, əməkdaşlıqda təlim texnologiyaları, layihə texnologiyaları və s.

Xarici dillərin öyrədilməsinin ənənəvi üsulları yenilərinin meydana çıxması ilə yoxa çıxmadı: bir metodun digərinə, yenisinin köhnəsinə və ya köhnənin yenisinə tətbiq edilməsi var idi. Geniş mənada qeyd etmək olar ki, müxtəlif üsullar arasında aydın sərhəd yoxdur, onların qarışması müşahidə olunur.

Ənənəvi metodlarla müasir metodlar arasındakı əsas fərq onların öyrənən/şagird və ya müəllimdən asılı olmasıdır. Birincisi, müəllimi təlim prosesində "hər şey" kimi qəbul etməsidir. Ənənəvi müəllim mərkəzli metod müəllimi "səhnədəki müdrik" kimi qəbul edir. Müəllim öyrədir, göstərişlər verir, əşyaları izah edir, tələbələr isə sadəcə dayanırlar və onların öyrənmələri gözlənilir. Müəllim əsasdır, nəzarətçidir, mərkəzdir, tamamilə hər şeydir; tələbələr isə yalnız passiv kuklalardır və onlardan "öyrənilənləri" "öyrənmələri" gözlənilir. Müasir metodlarda vəziyyət tam əksinədir. Onlar tələbəyə güvənirlər, öyrənənləri əsas götürürlər və müəllimin yol göstərməsini gözləyirlər. Tələbələr onların öyrənmə prosesinin əsl aktyorlarıdır.

Conficious'un məşhur deyimində olduğu kimi "Eşidirəm və unuduram, görürəm və xatırlayıram, edirəm və başa düşürəm". Real öyrənmə yalnız şagird təlim prosesində fəal iştirak etdikdə baş verir. Tələbələr təlim prosesində fəal iştirak etdikdə, onlar öz öyrənmələri haqqında daha çox məlumatlı və məsuliyyətli olurlar ki, bu da özünə inam, özünüdərk, məsuliyyət və müstəqillik təmin edir.

Müasir təlim metodları üçün çox vacib olan başqa bir şey də onların əsasən möcüzəvi texnologiya ilə tam əlaqədə olmasıdır. Texnologiya həyatımızı o qədər zəbt edib ki, onsuz hərəkət edə bilmirik. Biz hamımız onunla əhatə olunmuşuq və ətrafımızda demək olar ki, bütün işlər texnologiyanın köməyi ilə edilir. Odur ki, texnologiyaya qul olmaqdansa, onu öyrətməkdə istifadə etmək ağıllıdır. Köhnə metodların əsas tərkib hissələrinin izləri hələ də pedaqoji seçimlərimizdə öz yolunu tapsa da, bizim peşəmiz çoxlu sayda dil tədrisi kontekstlərini və məqsədlərini və daha çox tələbə ehtiyaclarını başa düşmək dövrünə çevrilmişdir. Bu, həm də pedaqoqların ən mühüm rollarından biri kimi qəbul oluna bilər. Ona görə də tələbələrin ehtiyaclarını ödəmək üçün mütəxəssislər daha yaxşı tədris modellərinin axtarışındadırlar.

Ənənəvi üsullar arasında populyar olanları Qrammatik tərcümə metodu, Birbaşa Metod və Audio Lingual Metoddur. Üç ənənəvi üsul daha çox dil öyrənməyə yönəlmişdi və beləliklə, aşağıdakı prinsiplərə əsaslanırdı

Hədəf yazı dilinin, xüsusilə onun qrammatikasının diqqətlə təhlili

Qrammatika qaydalarının öyrənilməsi

Ana dilinin tədris vasitəsi kimi istifadəsi

Tərcümə tapşırıqlarından daha çox istifadə

Oxuma və Yazma Bacarıqlarına daha çox diqqət yetirilməsi [5, s.126-127]

Dəyişən zaman və xüsusi dil öyrənmə ehtiyacları ilə bu üsullar onlardan gözlənilən nəticəni verə bilmədi. Hər hansı digər prosesdə olduğu kimi, dil öyrənmənin tələbləri və ehtiyacları dəyişməkdə davam edir, metodologiya və yanaşma da dəyişməlidir. Dili bilmək bir sıra qrammatik, leksik və fonoloji qaydaları bilməkdən daha çox şey tələb edir.

Ənənəvi metodlar əsasən qrammatik qaydanın və lüğətin öyrənilməsinə diqqət yetirir və vurğulayır və buna görə də dörd bacarığa (dinləmə, danışma, oxu və yazı) çox diqqət yetirmir. Tələbələr yazı yazarkən əsasən qrammatik qaydalardan və tərcümədən asılı olurlar və oxuyarkən qrammatik tərcümə üsulu oxumağı deyil, deşifrəni göstərən vərdişlər yaradır [5, s.127].

Tələbə hər bir sözü və onun qrammatik formasını anlamağa çalışır, çünki onun mətni başa düşmək üçün vacib olduğuna inanır. Bundan başqa, ənənəvi üsullarda danışıq və tələffüzü öyrənməyə çox diqqət yetirilmir, heç bir şifahi və ya tələffüz işi yoxdur, çünki tədris olunan yazılı dildir və bu dildən həqiqətən istifadə etmək bacarığından daha çox "zehni intizam" vurğulanır.

J.C.Richards bildirir ki, “tez-tez istifadə olunan üsullar arasında dialoqların əzbərlənməsi, sual-cavab təcrübəsi, əvəzetmə tapşırıqları və nitq və yazı təcrübəsinin müxtəlif formaları daxildir” [4, s.18].

Ən əsası, ənənəvi metodlar dilin öyrənilməsini bir bacarıq kimi deyil, lövhə və qaydaların köməyi ilə biliklərin ötürülməsi kimi qiymətləndirirdi, burada qaydaların və lüğət elementlərinin ayrı-ayrılıqda öyrənilməsi istənilən öyrənmə nəticəsini verə bilməz.

Dildən səmərəli istifadə etmək üçün öyrənənlər kommunikativ səriştəni - öyrəndikləri dildən müəyyən sosial görüşdə lazımi şəkildə istifadə etmək bacarığını inkişaf etdirməlidirlər.

D.Haymz-in kommunikativ səriştə anlayışı bir sıra təcrübə yönümlü dil pedaqoqları, xüsusən də M.Kanal və M.Svein tərəfindən işlənib hazırlanmışdır ki, onlar kommunikativ səriştənin qrammatik səriştə, sosial-linqvistik səriştə, nitq səriştəsi və strateji səriştədən ibarət olduğunu iddia edirdilər [3, s.2]. Beləliklə, 1980-ci illərdə qarşılıqlı əlaqəni dil öyrənmə vasitəsi və məqsədi kimi quran və rol oyunları, cüt iş, simulyasiyalar kimi tədris texnikalarının daxil edilməsini nəzərdə tutan kommunikativ dil tədrisi yanaşması meydana çıxdı.

Xarici dillərin tədrisinə müasir yanaşmalar, bildiyimiz kimi, ötən əsrin 60-70-ci illərinin avtoritar təhsil paradiqmasını əvəz edən və şəxsiyyətyönümlü paradiqmaya əsaslanır [2, s.134]. Metodika isə tərbiyə etmək üçün müəllimin şagirdə məqsədyönlü təsiri haqqında elm hesab olunurdu [1, s.156]. Avtoritar paradiqmanın mərkəzində bilik, vərdiş və bacarıqları tələbəyə ötürməli olan, şagirdin marağı və motivasiyasına əhəmiyyət verməyən müəllim dayanır. Müasir təlim metodları şəxsiyyətyönümlü tədris mühiti təmin edir. Şəxsiyyət yönümlü yanaşma aşağıdakı müddəalarla xarakterizə olunur.

1) Təhsil sisteminin mərkəzində şagirdin dilçi şəxsiyyət kimi inkişafı və uşağın özünəməxsus mahiyyətinin, təbii qüvvələrinin inkişafı üçün şəraitin yaradılması dayanır.

2) Ünsiyyətin əsasını ünsiyyət bacarıqları təşkil edir: yalnız şagirdə xarici dildə danışmağı, oxumağı, dinləməyi və yazmağı öyrətməklə, öyrənmənin əsas məqsədinə keyfiyyətcə nail olmaq olar. Bununla yanaşı, müəllimin diqqətini yalnız şagirdləri müəyyən sayda leksik vahidlərdən və nitq nümunələrindən düzgün istifadə etmək üçün bilik və bacarıqlarla təchiz etməyə yönəltdiyi halda, öyrənənlərin dilin praktiki mənimsənilməsini özlüyündə məqsədə çevirmək mümkün deyil. Tələbənin şəxsi keyfiyyətlərini unutmamalıyıq: ünsiyyətcillik, boşluq, əlaqə qurmaq istəyi, həmyaşıdlar komandasında qarşılıqlı əlaqə və digər fikirlərə dözümlü olmaq.

3) Əməkdaşlıq və qarşılıqlı əlaqə xarici dilin tədrisi prosesinin effektivliyinin ən vacib şərtidir ki, öyrənənlərin dil və nitq materialı haqqında bilikləri ilə deyil, həm də onların hazırlığı və öyrənilən dildə mədəniyyətlərarası ünsiyyətdə iştirak etmək istəyi ilə müəyyən edilir. Bu, tələbələrin öyrənmə fəaliyyətinin əsas forması xarici dildə dinləmək, danışmaq, oxumaq və ya yazmaq deyil, müəllimlə və bir-biri ilə canlı və motivasiyalı qarşılıqlı əlaqə olduqda mümkündür. Belə ünsiyyət-əməkdaşlığın fərqli xüsusiyyəti tərəfdaşların qarşılıqlı humanist münasibəti, iştirakçılıq istəyi, bir-birini qəbul etməsi olmalıdır.

4) Müəllimin avtoritar davranış tərzindən imtina. Avtoritar üslub təkcə qarşılıqlı inam mühitini yox, həm də öyrənmək sevincini, rahatlıq hissini, müsbət emosiyaları öldürür. Ona görə də ibrətamiz, “məşq” tonundan imtina etmək, tələbələrin nitq tərəfdaşı, ünsiyyətin köməkçisi və təşkilatçısı olmaq lazımdır. Müəllimin özünün rahat olması, digər mühakimələrə, səhvlərə dözümlü olması, tələbələri ilə empatiya qurmağı və uğurlarına heyran olmağı bacarması vacibdir..

Yuxarıda qeyd olunan fikirləri ümumiləşdirmək üçün deyə bilərik ki, ənənəvi dil tədrisi dili qrammatik qaydalar məcmuəsi və qaydalara uyğun birləşən çoxlu sözlər toplusu kimi qəbul edən hədəf dilə ənənəvi yanaşmaya əsaslanır. Beləliklə, ənənəvi metodologiya qrammatik strukturlara və lüğətin təcrid olunmuş elementlərinə diqqət yetirir. Müəllim lövhədən istifadə edərək və hər şeyi izah etməyə kifayət qədər çox dərs vaxtını sərf edir - sanki biliyi "ötürür". Şagirdlərin leksika qaydaları və maddələrini öyrənmələri və dildən istifadə edə biləcəkləri güman edilir və ənənəvi təlim metodları müəllim mərkəzlidir, bu dərslərdə müəllim aktiv rol oynadığı halda, tələbə passiv dinləyici olur.

Nəticə.Müasir metodologiya prinsipləri tələbələrin dərs zamanı baş verən hər şeyə cəlb edilməsi ilə bağlı olan tələbə mərkəzli qarşılıqlı əlaqədir. Müəllimin vəzifəsi şagirdləri üçün

uyğun fəaliyyətlər seçmək, onları dərslərdə istiqamətləndirmək və dillə təcrübə aparmağa həvəsləndirməkdir. Müasir metodologiya bir sıra ümumi xüsusiyyətlərə malik olan zəngin üsullardan ibarətdir: tələbələri əhatə edən fəaliyyətlər və real həyat vəziyyətləri. Effektiv olması üçün metodlar bir-birinin ardınca uyğun ardıcıllıqla gedir və dilin müxtəlif aspektlərinə yönəlmiş tədris balansı qorunur.

Ədəbiyyat

1. Щукин А.Н. Методика преподавания русского языка как иностранного: Учеб. пособие для вузов/ А.Н.Щукин. – М.: Высш. шк., 2003, 334 с.

2. Щукин А.Н. Обучение иностранным языкам: теория и практика: Учебное пособие для преподавателей и студентов. – М.: Филоматис, 2004, 416 с.

3. Canale M, Swain M. Theoretical bases of communicative approaches to Second language teaching and testing. Applied Linguistics 1(1): 1980, pp.1–48

4. Richards J.C. and Rodgers T. Approaches and Methods in Language Teaching, Cambridge UK: Cambridge University Press, 2001

5.https://Traditional_Teaching_Methods_vs_CLT_A_St.pdf

THE ROLE AND FUNCTION OF ONLINE FLIPPED LEARNING APPROACH IN TEACHING

FLIPPED ÖĞRENME YAKLAŞIMININ ÖĞRETIMDEKI ROLÜ VE İŞLEVI

Associate professor ULVIYYA HAJIYEVA

Azerbaijan State Pedagogical University Faculty of Philology Foreign Languages Center

https://orcid.org/0000-0002-9612-6702

Abstract

Many educators are divided about the benefits of online teaching and learning, especially in the post COVID-19 pandemic when such instruction is necessary and often accompanied by insufficient preparation. It is not surprising, therefore, that many of us who teach foreign language learners and train pre-service teachers find ourselves in a difficult moment in our professional lives. Our students are also confronting the prospect of becoming disconnected from the person who is arguably their most essential link to their learning experiences. In this article, we describe how teachers can leverage the flipped learning approach in online courses to foster teaching presence. We begin by reviewing the literature on flipped learning and Garrison, Anderson, and Archer's Community of Inquiry framework [1, 87-105]. We then introduce the Online Flipped Learning Approach, including the asynchronous and synchronous pedagogical elements that form the approach. We conclude the article by reflecting on Online Flipped Learning Approach and suggesting areas for future potential scholarship.

Key Words: flipped learning, online learning, teaching presence, Covid-19, foreign language educators, synchronous and asynchronous learning

Özet

Pek çok eğitimci, çevrimiçi öğretme ve öğrenmenin faydaları konusunda bölünmüş durumda, özellikle de böyle bir eğitimin gerekli olduğu ve genellikle yetersiz hazırlığın eşlik ettiği COVID-19 salgını sonrası dönemde zorluklardan bahsediyor. Bu nedenle, yabancı dil öğrenenlere ders veren ve öğretmen adaylarını yetiştiren birçoğumuzun mesleki yaşamlarımızda kendimizi zor bir dönemde bulmamız şaşırtıcı değildir. Öğrencilerimiz aynı zamanda öğrenme deneyimleriyle tartışmasız en önemli bağlantısı olan kişiyle bağlantılarının kopması ihtimaliyle de karşı karşıya kalıyor. Bu makalede, öğretmenlerin çevrimiçi derslerde öğretim varlığını geliştirmek için ters çevrilmiş öğrenme yaklaşımını nasıl kullanabileceğini açıklıyoruz. Flipped öğrenme Garrison, Anderson ve Archer'ın Araştırma Topluluğu çerçevesi [1, 87-105] hakkındaki belgeyi gözden geçirerek başlıyoruz. Daha sonra, yaklaşımı oluşturan eş zamanlı ve eş zamanlı olmayan pedagojik unsurları içeren Flipped Öğrenme Yaklaşımını tanıtıyoruz. Makaleyi bu belge üzerinde düşünerek ve gelecekteki potansiyel burs alanları önererek sonlandırıyoruz.

Anahtar Kelimeler: ters yüz öğrenme, çevrimiçi öğrenme, öğretim varlığı, Kovid-19, yabancı dil eğitimcileri, eşzamanlı ve eşzamansız öğrenme

Xülasə

Bir çox pedaqoqlar onlayn tədrisin və öyrənmənin faydaları ilə bağlı fikir ayrılığına malikdirlər, xüsusən də COVID-19 pandemiyasından sonrakı dövrdə bu cür təlimatın zəruri olduğu və çox

vaxt kifayət qədər hazırlıqla müşayiət olunmadığı qənaətinə gəliblər. Buna görə də təəccüblü deyil ki, xarici dil öyrənənlərə dərs deyən və çağırışaqədərki müəllimlər hazırlayan bir çoxumuz peşəkar həyatımızın çətin anlarında belə vəziyyətlə qarşılaşırıq. Tələbələrimiz həmçinin, onların öyrənmə təcrübələri ilə ən vacib əlaqəsi olan şəxslə əlaqəsinin kəsilməsi perspektivi ilə üzləşirlər. Bu məqalədə biz müəllimlərin onlayn kurslarda tədrisin mövcudluğunu artırmaq üçün ən yaxşı öyrənmə metodlarından necə istifadə edə biləcəyini təsvir edirik. Biz bu öyrənmə metodu haqqında əsasən Qarrison, Anderson və Arçerin Araşdırmaların aparılması üçün Çərçivə sənədini [1, 87-105] nəzərdən keçirməklə başlayırıq. Daha sonra bu metodun əsasını təşkil edən asinxron və sinxron pedaqoji elementlər daxil olmaqla, Onlayn Flipped Learning yanaşmasını təqdim edirik. Məqaləni Onlayn Flipped Öyrənmə metodu üzərində düşünərək və gələcəkdə potensial təqaüd sahələri təkliflər planı təqdim etməklə sonlandırırıq.

Açar sözlər: çevrilmiş öyrənmə, onlayn öyrənmə, tədrisin mövcudluğu, Covid-19, xarici dil müəllimləri, sinxron və asinxron öyrənmə

Introducton

Teaching online against the backdrop of the COVID-19 pandemic has presented many challenges. It demands even more resourcefulness and creativity because of the distractions and pressing issues that compete with our missions as teachers and students, such as curriculum mandates, accountability measures, and even scheduling, all of which make us to address any one of these as main responsibilities. However, we argue that the internet is an ally and a valuable source for establishing and maintaining the bond we share with students. Because of advances in technology, we are able to continue teaching and assessing students when we cannot meet them in person. We can also incorporate best experiences from teaching approaches used in on-ground instruction to make online learning engaging, active, and collaborative.

In this article, we draw from theoretical –scientific perspectives on flipped learning to describe an innovative new approach that allows educators to foster teaching presence in online settings. The essential argument underlying our recommendations is that by implementing flipped learning in online instruction, teachers can maintain their presence in robust and visible ways and help students remain engaged and motivated while learning online.

What is Flipped Learning

For the past 13 years, flipped learning has been implemented in a wide range of educational settings to foster student-centered learning and allow teachers to reach all students. It results from this reorganization of learning is a dynamic environment in which students use skills that are in the upper range of the revised Bloom's taxonomy – application, analysis, evaluation, and creation [2] – to engage in activities that allow them to further explore the concepts they learned outside of class [3]. Kostka and Marshall [4, 222-223] note that flipped learning can be a valuable approach for English language learners in particular, as it helps teachers to provide more opportunities for interaction and exposure to English and addresses the challenge of having mixed proficiency levels within a class [5].

The Flipped Learning Network developed an acronym, F-L-I-P, to describe the four fundamental pillars of the approach, with indicators to ensure that teachers effectively implement each of the pillars. *Flexible Environment* refers to how and where students engage in learning. Learning is fluid as the teacher is no longer the center of the physical classroom, and students have more ownership in terms of where and how they learn [6]. The second pillar, *Learning Culture*, highlights the shift from teacher-centered to student-centered instruction, emphasizing the importance of active learning, feedback, and scaffolding. The last two pillars,

Intentional Content and *Professional Educator*, focus on the teachers' role in facilitating learning and creating and curating relevant content to support learning outside of class. As a professional educator, the teacher creates a flexible learning environment, conducts regular formative assessments both in and out of class, and shares ideas and reflects on teaching with their colleagues. As Voss and Kostka (2019) note, all of the four pillars are critical for guiding the implementation of flipped learning and addressing misconceptions about the approach [5].

These pillars are also applicable to online instruction. For instance, there are many options for creating a flexible environment, as educators determine how learning can occur in the asynchronous setting and what would most benefit students in the class session. Then, the Intentional Content pillar asks teachers to focus on precisely what material to include outside of class so that they can bolster students' understanding. An example is building in instant 'quiz' items within the instructional content that encourages students to retrieve the material as they learn [7]. Finally, the Professional Educator pillar highlights the importance of considering how teachers must provide both ongoing and summative feedback to students and make them accountable in both the synchronous and asynchronous settings. Taken together, these four pillars function as signposts for both novice and experienced flipped learning educators to assure fidelity to the letter and the spirit of this robust model of instruction.

The OFLA Framework

Known as the Online Flipped Learning Approach, the model was developed by Marshall and Marshall and Rodriguez Buitrago in order to align flipped learning principles with online instruction. The key advantage to implementing OFLA is that it replicates the most important part of flipped learning instruction, which is the interactive, communicative and dynamic nature of learning that results when activities are moved out of class. By meeting synchronously on a regular basis, both the teacher and students can clearly distinguish between the in-class or synchronous learning context and the out-of-class or asynchronous learning context. They are also able to participate in real-time class sessions as they would in person and interact with their peers [8].

Throughout their planning for flipped instruction, Marshall and Parris (2020) suggest educators ask themselves four questions. First, they should consider what material should be placed in out-of-class work and in-class work. As the authors state, "anything that can be processed without your immediate feedback and assessment can be placed out of class, while in class, you provide activities that demand your facilitation, ongoing informal feedback, and guidance" [9]. Second, Marshall and Parris note that teachers must consider how they can ensure that students understand and remember what they do outside of class, offering suggestions for increasing comprehension, such as using all available multimedia. Third, the authors discuss how to maximize interaction and differentiation during class; when content delivery is moved outside of class, there is more time for group work during synchronous sessions. Finally, the authors highlight the importance of accountability and feedback both in and out of class. If we approach these questions from the standpoint of OFLA, we note that "out-of-class" work becomes the asynchronous component of the approach and the "in-class work" becomes the synchronous component. With this online delivery lens, these same questions can assist teachers in designing instruction based on SOFLA, and these four questions can align with the four pillars of flipped learning to clarify instructional goals [5].

The OFLA model comprises a series of eight steps, i.e., pre-work, sign in activity, whole group application, breakouts, share out, preview and discovery, assignment instructions, reflections, each of which shows how learning occurs in either asynchronous and synchronous ways [10].

In the following two sections, we describe each step in detail and show how teaching presence is cultivated through OFLA in both asynchronous and synchronous settings.

Conclusion

Flipped learning remains a popular area of scholarship in a wide range of educational contexts (Cheng, Hwang, and Lai, 2020), and it has gained interest in the field of TESOL as well [4, 2230243]. Nevertheless, there is limited empirical research on flipped learning and online learning. Future research is thus needed to examine applications of OFLA to English language learning in terms of students' gains in language proficiency, their perceptions of the approach, and their engagement in asynchronous and synchronous settings. Empirical work may also examine whether the advantages of flipped learning also result when it is implemented solely online. Findings from this scholarship can inform the development of effective pedagogical models and establishment of best practices.

As Garrison noted, "the educational opportunities of the Internet and communication technologies present choices that require informed leadership if learning is to be purposeful and developmental. Implicit in this is the need to rethink the purpose, approach, and nature of the educational transaction" [1, 69]. The COVID-19 pandemic has required educators to adapt quickly to massive disruptions and critically examine their approaches to teaching within the context of online learning. Technology has, in turn, moved from supporting instruction to being its focus, as teachers have relied heavily on technology to ensure that learning continues. The immediate future of instruction in the coming academic year remains uncertain; however, technology is likely to continue playing a crucial role in whatever the new normal in education becomes. We believe that the new normal might logically include SOFLA's eight-step cycle of learning as a robust option for online instruction [5].

References:

1. Garrison, D.R., Anderson, T., & Archer, W. (2000). Critical inquiry in a text-based environment: Computer conferencing in higher education. Internet and Higher Education, 2 (2-3), 87−105.

2. Anderson, L. W., & Krathwohl, D. R. (2001). A revision of Bloom's taxonomy of educational objectives. A Taxonomy for learning, teaching and assessing. Longman.

3. Brinks Lockwood, R. (2014). Flip it! Strategies for the ESL classroom. University of Michigan Press.

4. Kostka, I., & Marshall, H. (2017). Flipped learning in TESOL: Past, present, and future. In J. Perren, K. Kelch, J. Byun, S. Cervantes, & S. Safavi (Eds.), Applications of CALL theory in ESL and EFL environments (pp. 223-243). IGI Global.

5. Helaine W. Marshall https://tesl-ej.org/wordpress/issues/volume24/ej94/ej94int/

6. Voss, E., & Kostka, I. (2019). Flipping academic English language learning: Experiences from an American university. Springer Nature.

7. Schell, J. (2017). Defining a pedagogy of retrieval. Flipped Learning Today. https://flt.flippedlearning.org/fln-member-spotlight/defining-a-pedagogy-of-retrieval/

8. Marshall, H.W., & Rodriguez Buitrago, C. (2017). The synchronous online flipped learning approach. TEIS News. http://newsmanager.commpartners.com/tesolteis/issues/2017-03-15/6.html

9. Marshall, H.W., & Parris, H. (2020). Jump start your flipped learning: Nuts and bolts. Mosaic. https://sites.google.com/nystesol.org/nys-tesol-mosaic/current-issue

10. Marshall, H.W. (2020, May 1). SOFLA: The Synchronous Online Flipped Learning Approach [Video]. YouTube. https://youtu.be/gLW1mNWlo_0

11.

HEYDƏR ƏLİYEVİN ZƏNGİN İCTİMAİ-SİYASİ ÖMÜR YOLU

dosent SƏKİNƏXANIM VƏLİYEVA

ADPU Xarici Dillər Mərkəzi

Heydər Əliyevin zəngin ictimai-siyasi ömür yolunun zirvələrini xronikal qaydada birər-birər xatırlamaq olar. Amma bunların hamısını etməklə biz onsuz da bəlli olan fikir və mülahizələri təkrarlamış olardıq. Heydər Əliyevin ömür yolu, onun şəxsi keyfiyyətləri bütün məziyyətləri ilə yetərincə məlumdur. Çünki Heydər Əliyev hər zaman Azərbaycan xalqına bağlı olub və onun ömür yolu elə Azərbaycan tarixinin bir hissəsidir. Əgər söhbət Heydər Əliyevin siyasi portretindən gedirsə, bircə tezislə məhdudlaşmaq kifayət edər. Heydər Əliyev ən mürəkkəb, ziddiyyətli tarixi proseslərin gərdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətdə də təmkinini itirməyən və dünyadakı geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib mənsub olduğu xalqın, ölkəsinin çıxarlarını praqmatik ağılla və dəqiq hesablayan bir lider idi.

Bu, çoxsaylı dövlət başçılarının, beynəlxalq siyasətin ən böyük simalarının, fikir və mülahizələri ilə dünyanın hesablaşdığı politoloqların gəldiyi yekdil və dəqiq qənaətdir. Zənnimizcə, bu qənaətin əlavə şərhə, izahata ehtiyacı yoxdur. Hələ 34 il öncə Heydər Əliyevin sovet Azərbaycanının partiya təşkilatının rəhbəri seçilməsi də, sözsüz ki, onun liderlik keyfiyyətlərinə, təşkilatçılıq bacarığına və şəxsi-intellektual imkanlarına o vaxtkı mərkəz, Kreml tərəfindən verilən yüksək qiymətin göstəricisi idi. Lakin burada bir məqamı vurğulamaq vacibdir. Heydər Əliyev bu qiymət və etimadın müqabilində, sadəcə, Moskvanın təlimat və göstərişlərini həyata keçirən adi partiya funksionerinə çevrilmədi. Hərçənd, Kreml "mətbəxindən" bütün müttəfiq respublikalara ünvanlanan instruksiya məhz bu cür siyasi idarəçilik və texnologiyanı nəzərdə tuturdu. Heydər Əliyev sovet idarəçiliyinin şablonlaşmış texnologiyasını Azərbaycanın (müttəfiq respublika statusunun bəlli çərçivələri içində olsa da) rifahı, onun gələcəyi və strateji maraqlarına transformasiya etməyi bacaran bir lider oldu.

Azərbaycanın bugününə nəzər salsaq, qeyd-şərtsiz iddia edə bilərik ki, Heydər Əliyev müstəqil Azərbaycanın gələcəyini 20-30 il öncədən görən lider olub. Heydər Əliyevin rəhbərlik etdiyi sovet Azərbaycanında əldə edilən iqtisadi nailiyyətlər, təməli atılan nəhəng layihələr, bu layihələrin bugünkü müstəqil Azərbaycan üçün strateji önəmi barədə çox danışmaq olar. Amma mən bircə faktı qeyd etməklə kifayətlənmək istərdim. Heydər Əliyev 30 il öncə sovet rejiminin ən güclü vaxtlarında Azərbaycanda milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayacaq bir məktəbin yaradılmasına nail olub. O məktəb ki, Azərbaycanda milli ordu quruculuğunun əsas tədris ocaqlarından birinə çevrildi. 30 il öncə həmin məktəbin müdavimləri olanlar indi Azərbaycan Silahlı Qüvvələrinin komandirləri, generallarıdır. Əlbəttə, indi bəziləri 1973-cü ildə Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılmasını bir zavod, fabrik tikintisi qədər adi qərar hesab edə bilərlər. Amma bu qərarı vermək üçün həqiqətən böyük iradə, cəsarət və uzaqgörənlik lazım idi.

Təkcə bir məqamı xatırlamaq yetər ki, o vaxtlar SSRİ hökumətinin, Kommunist Partiyasının elan olunmamış qərarına görə, ali hərbi məktəblər, əsasən, Rusiya, Ukrayna və Belorusiyada fəaliyyət göstərirdi. "Bunları görəndə, düşünürdüm, yaxşı, biz Sovetlər İttifaqının bərabər hüquqlu müttəfiq respublikasıyıq, böyük səlahiyyətlərimiz var. Biz nə üçün ordudan təcrid olunuruq? Və nəticədə bu məktəbi yarada bildik... Bu məktəbi yaradanda heç vaxt ağlıma gətirə bilməzdim ki, 30 ildən sonra mən yenə də bu məktəblə bir yerdə onun yubileyini keçirəcəyəm.

Ancaq bu şərəf mənə qismət olub və mən özümü xoşbəxt hesab edirəm" - Heydər Əliyev bu sözləri 2003-cü il aprelin 21-də, "Respublika" sarayında Naxçıvanski adına məktəbin yubileyində çıxış edərkən bəyan etmişdi. Bəli, həmin məşum gün. Heydər Əliyev 30 il öncə təməlini atdığı bu məktəbin yubiley təntənəsində iştirak etməkdən böyük iftixar hissi keçirirdi. Onun bu iftixara, fərəhə tam haqqı vardı. Çünki Heydər Əliyevin 30 il öncə atdığı cəsarətli addımın müstəqil Azərbaycan dövlətçiliyi üçün nə qədər tarixi əhəmiyyət daşıdığını tarix özü sübut etmişdi... Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə tarix tərəfindən adekvat qiymətini alan (və alacaq) neçə-neçə belə cəsarətli addımlar atıb. Heydər Əliyevin 20 il, 30 il öncə atdığı uzaqgörən addımların Azərbaycanın gələcək inkişafına nə qədər dəqiq hesablandığını bizlər sonralar, Azərbaycan müstəqillik qazanandan sonra gördük və dərk etdik. Azərbaycanın zəngin iqtisadi potensialı, intellektual sərvəti üçün əsaslı baza məhz o illərdə yaranırdı. Heydər Əliyev sovet idarəçilik prinsiplərindən və iqtisadi sistemindən maksimum istifadə edərək Azərbaycanın, hətta ittifaq dövlətinin tərkibində belə, güclü və qüdrətli olmasını təmin etməyə çalışırdı.

Heydər Əliyev realist siyasətçi idi. Onun siyasi və idarəçilik prinsiplərinə romantizm və xülyaçılıq yad idi. Qəbul etdiyi qərarlar ilk baxışdan qeyri-populyar görünə bilərdi (məsələn, 1994-cü ildə atəşkəsin əldə edilməsi), lakin bu, son nəticədə düzgün və bütün reallıqları nəzərə alan ən optimal qərar olurdu. Heydər Əliyev xalqa fantastik və populist vədlər vermir, əksinə, real vəziyyəti və cari şəraitdə əldə edilə biləcək nəticələri açıqlayırdı. Heydər Əliyevin opponentlərinin ona ünvanladıqları iradlar daha çox Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı idi. Bəziləri Heydər Əliyevi qeyri-effektiv siyasətdə, güzəşt və kompromislərə meylli olmaqda ittiham edirdilər. Və bu ittihamın müəllifləri o kəslər idi ki, effektli siyasət dedikdə hay-küy, meydançılıq və asıb-kəsmə ilə danışmağı nəzərdə tuturdular. Heydər Əliyev isə populizmdən hər zaman uzaq olub. Populistlərdən fərqli olaraq o mürəkkəbliyi hamıya bəlli olan bu problemin çözülməsi üçün ardıcıl və aramsız siyasət aparıb. Bu siyəsət kəmhövsələ qafaları qane etməyə bilərdi. Amma onun ilk addımından uğura hesablandığı və həmin uğurun da mütləq gerçəkləşəcəyi kimsədə şübhə doğurmasın.

...Adətən, böyük şəxsiyyətlərə obyektiv qiymət verərkən onların yaşadıqları dövrün imkanları ilə müqayisədə nələri edə bildikləri əsas götürülür. Bu baxımdan Heydər Əliyevin həm Azərbaycana rəhbərlik etdiyi və həm də bu missiyadan kənarda olduğu dövrlərə qiymət verərkən birmənalı olaraq deyə bilərik ki, o, zamanın və şəraitin verdiyi imkanlardan öz xalqının maraqları və yüksəlişi naminə maksimum istifadə edib. Azərbaycanda Heydər Əliyev siyasəti, onun dövlətçilik xətti davam edəcək. Çünki bu siyasət Azərbaycanın gələcək tərəqqisinin təminatı baxımından lazımdır. Heydər Əliyev siyasəti tarazlı siyasətdir, cəmiyyətin bütün təbəqələrinin mənafelərini ifadə edir, cəmiyyətdə ahəngdarlıq yaradır, vətəndaşların hüquq və azadlıqlarını, onların milli-dövlətçilik mənafelərini, açıq cəmiyyətin ali dəyərlərini müdafiə edir. Orta statistik azərbaycanlı Heydər Əliyevin simasında ümummilli liderə məxsus bütün keyfiyyətləri — rasionalizm və müdriklik, qətiyyət, siyasi uzaqgörənlik, realizm və novatorluğu görürdü.

Ümummilli liderimiz Heydər Əliyev həmişə xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına, milli mədəniyyətimizin inkişafına, xalqın adət-ənənələrinin zənginləşdirilməsinə çalışmışdır. Eyni zamanda, Ulu Öndər gənclərimizi xalqımızın milli-mənəvi dəyərləri, milli əxlaq prinsipləri əsasında tərbiyə etməyi tövsiyə edirdi: "Biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik".Milli-mənəvi dəyərlərimizin mənimsənilməsində, onun daha da təkmilləşdirilməsində doğma dilimizin müstəsna rol oynadığı şübhəsizdir. Bu vacib amili nəzərə alan ulu öndər Heydər Əliyevin təşəbbüsü və qətiyyəti ilə 1978-ci ildə Azərbaycan SSR-

in Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit olunmuşdu. Ulu öndər Heydər Əliyev müstəqillik illərində gənc dövlətin siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, xalqımızın milli-mənəvi irsini özündə yaşadan azərbaycançılıq ideyasının da təşəkkül və inkişafına diqqət yetirirdi. O, azərbaycançılığı milli bir ideologiya kimi irəli sürür və milli-mənəvi dəyərləri bu ideologiyanın ən mühüm istiqamətlərindən və tərkib hissələrindən biri kimi qiymətləndirirdi. Onun vaxtilə söylədiyi və bütün dünya azərbaycanlıları üçün həmişə bir fəaliyyət devizi olacaq bu fikri nə qədər dərin və mənalıdır: "Hər bir azərbaycanlı mənsubiyyətinə görə qürur keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini yaşatmalıyıq". Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir.

Milli dəyərlərimizə dərindən bələd olan Ümummilli Liderimiz xarici ölkələrə səfərləri zamanı soydaşlarımızla görüşlərində onlara harada yaşamalarından asılı olmayaraq azərbaycançılıq ideologiyasına sadiqliyi, xalqımıza xas olan adət-ənənələrimizi yaşatmağı, təbliğ etməyi tövsiyə edirdi: "Bizim hamımızın bir Vətəni var - bu, Azərbaycandır. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycançılığını, öz dilini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır".Azərbaycan xalqı tarixin ən çətin dövrlərində belə, öz zəngin milli-mənəvi irsini və adət-ənənəsini yad təzahürlərdən hifz edərək onu qoruyub saxlamış və nəsildən-nəslə ötürmüşdür. Xalqımızın milli-mənəvi dəyərləri, adət-ənənəsi insanlarımızın dini etiqadına əsaslanaraq özündə çox böyük milli əxlaqi və bəşəri duyğuları təcəssüm etdirir. Müqəddəs daxili inama, mənəvi saflığa tapınan Azərbaycan xalqı tarixin ən keşməkeşli mərhələlərində belə, mənəviyyatın təntənəsinə xidmət edən İslam dininin zəngin dəyərlərindən dönməyərək bu dəyərlərə həmişə sadiq qalmışdır. İslam dininin mahiyyətini dərk edən xalqımız onun insan ruhunu paklığa səsləyən müqəddəs çağırışlarına, mərasim və ayinlərinə tarixin bütün məqamlarında əməl etməyə çalışmışdır. Ulu Öndər bu haqda demişdir: "Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir".Hətta insanların yaddaşında ateizm mərhələsi kimi qalan Sovet dönəmində də xalqımız öz milli-mənəvi dəyərlərindən, dini baxışları və adət-ənənələrindən uzaqlaşmamış, əksinə, milli və dini əxlaqa söykənərək xeyirxah işlər görərək, qohum-qonşulara, maddi yardıma ehtiyacı olanlara əl tutaraq savab qazanmağa can atmışlar. Eyni zamanda xalqımız həmin dövrdə bir çox qadağalara baxmayaraq milli və dini bayramlarını da qeyd etmişdir.Respublikamızda ikinci dəfə hakimiyyətə gələn ulu öndər Heydər Əliyev ilk gündən Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə sadiq olduğunu öz fəaliyyəti, əməlləri və bu sahədə həyata keçirdiyi tədbirlər vasitəsilə sübut etmişdir.Ümummilli Lider Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə (1993-2003-cü illər) xalqımızın milli-mənəvi dəyərlərinin, onun adət-ənənələrinin dirçəldilməsi, xüsusən İslam mədəniyyəti nümunələri olan məscidlərin, tarixi memarlıq abidələrinin, ziyarətgahların bərpası ilə bağlı tədbirlərin həyata keçirilməsi onun bir daha xalqa mənən bağlılığını və islami dəyərlərə sədaqətini göstərən parlaq misallardır. Ulu öndər Heydər Əliyevin tez-tez dindarlarla görüşməsi, dini bayramlarda məscidlərə getməsi, dindarların mənəvi ehtiyaclarına həssaslıqla yanaşması xalq arasında həmişə böyük razılıq hissi ilə qarşılanmışdır.

Azərbaycanda dövlət müstəqilliyinin bərpasından sonra respublikamızda dini bayramların, o cümlədən Qurban bayramının rəsmi şəkildə qeyd olunmasını vurğulayan Ulu Öndər bu bayramın bəşəri-mənəvi dəyərlərindən insanların faydalanmasının əhəmiyyətindən bəhs edərək demişdir: "Müsəlmanların böyük bir təntənə ilə həmrəylik və qardaşlıq rəmzi kimi qeyd etdikləri Qurban bayramı insanlar üçün yüksək bəşəri-mənəvi dəyərlərdən faydalanmaq imkanları yaradır. İslamın insanpərvərlik, mehribanlıq və mərhəmət prinsiplərinə həmişə sadiq

qalmış Azərbaycan xalqı tarixinin çətin dövrlərində belə, Qurban bayramını özünün ən əziz günlərindən biri kimi qeyd etmişdir. Dövlət müstəqilliyimizin bərpasından sonra bu günün rəsmi şəkildə bayram edilməsi xalqımızın öz milli və dini ənənələrinə sədaqətinin parlaq ifadəsidir".Azərbaycanın gələcək inkişaf strategiyasını müəyyənləşdirmiş ümummilli lider Heydər Əliyev bütün cəmiyyəti səfərbər edərək onu düzgün yola istiqamətləndirdi. Bu gün 90-cı illərin çətinliklərini artıq geridə qoymuşuq. Biz müasir Azərbaycan dövlətinin inkişafında yeni mərhələ yaşayırıq. Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunu Prezident İlham Əliyev inamla və sədaqətlə davam etdirir.Ümummilli lider Heydər Əliyev həmişə həm müdrik el ağsaqqalı, həm də təcrübəli dövlət başçısı kimi cəmiyyətimizin mənəvi əsaslarını təşkil edən ümdə prinsiplər və onların qorunub inkişaf etdirilməsi istiqamətləri barədə çox dəyərli fikirlərini xalqla bölüşmüşdür. Belə bir ünsiyyətin fərqləndirici əlaməti onun rəsmiyyətdən uzaqlığı, Ulu Öndərin cəmiyyətin sadə üzvləriilə daim təmasda olması, həmişə xalqa bağlılığı ilə şərtlənirdi.Ulu öndər Heydər Əliyev türkdilli xalqların öz milli tarixlərini, doğma dillərini, ədəbiyyatlarını, mədəniyyət və incəsənətini, adət-ənənələrini qorumağı və onları zənginləşdirməyi həmişə dəstəkləmişdir. Bu baxımdan ümummilli lider Heydər Əliyev türkdilli ölkələrin mədəni əlaqələrini həyata keçirən Türksoy təşkilatının fəaliyyətinin genişlənməsinə və Azərbaycanın bu təşkilatın işində fəallıq göstərməsinə həmişə xüsusi diqqət yetirmişdir. Azərbaycan cəmiyyətinin ölkənin müstəqilliyinin və ərazi bütövlüyünün müdafiəsi kimi vahid məqsəd ətrafında birləşdirilməsi, onun mübariz ruhunun təşkilatlandırılması və istiqamətləndirilməsi, mənəvi potensialının üzə çıxarılması üçün ulu öndər Heydər Əliyevin istinad etdiyi ən qiymətli meyar və nümunələrdən biri xalqın hərbi və qəhrəmanlıq tarixi idi. Bu tarixi o, keçmişimizdən miras qalmış zəngin və ibrətamiz bir sərvət kimi qiymətləndirir və ölkənin müdafiəsinin təşkilinin müxtəlif məsələləri ətrafında etdiyi çıxışlarında hər bir vətəndaşı da bu tarixə tapınmağa çağırırdı. Ölkə rəhbərinin fikrincə, bu tarix Azərbaycan xalqının Vətənə, torpağa bağlılıq, Vətənə sevgi tarixi idi və bu tarixə sədaqət əldə edilmiş müstəqilliyin həmişəyaşarlığına real zəmin yarada bilərdi. Məsələn, Azərbaycan xalqının ümummilli lideri bildirirdi: "Azərbaycan Respublikasının öz torpaqlarını müdafiə etmək üçün böyük potensialı var. Ən böyük potensial bizim insanların Vətənə, torpağa bağlılığı, Vətəni, torpağı sevməsi və onu qorumaq hissidir. Bu, xalqımızın tarixi ənənələrindən irəli gələn hissidir. Güman edirəm ki, xalqımızın tarixi ənənələrimizi, keçmişimizi yada salaraq Azərbaycanın bu ağır vəziyyətdən çıxması üçün bundan sonra səmərəli tədbirlər görəcəkdir". Başqa bir çıxışında ulu öndər Heydər Əliyev "Azərbaycan xalqının tarix boyu nümayiş etdirdiyi qəhrəmanlıq, cəsurluq ənənələri bu gün müstəqil Azərbaycan dövlətində yenidən yüksəlmişdir və daha da canlanacaqdır", - deyirdi. Onun belə bir fikri də vardır: "Azərbaycan xalqı tarix boyu, əsrlər boyu həmişə mərdlik, cəsarət, qəhrəmanlıq göstərmişdir, öz yurdunu, öz torpağını müdafiə etmişdir, öz mənliyini qoruyub saxlamışdır".

Heydar Aliyev's rich socio-political life path

Summary

This is the unanimous and accurate conclusion of many heads of state, the biggest figures of international politics, and political scientists whose opinions and judgments the world reckons with. In our opinion, this conclusion does not need further explanation. Even 34 years ago, Heydar Aliyev's election as the head of the party organization of Soviet Azerbaijan was, without a doubt, an indication of the high value given to his leadership qualities, organizational skills and personal-intellectual capabilities by the then center, the Kremlin. However, it is important to emphasize one point here. In exchange for this appreciation and trust, Heydar Aliyev did not become an ordinary party functionary who simply carried out Moscow's instructions and instructions. However, the instruction addressed to all the allied republics from the Kremlin "kitchen" envisaged exactly this kind of political management and technology. Heydar Aliyev

became a leader who was able to transform the templated technology of the Soviet administration into the welfare, future and strategic interests of Azerbaijan (albeit within the clear framework of the status of an allied republic).

Özet

Bu, görüş ve yargılarıyla dünyanın dikkate aldığı birçok devlet başkanının, uluslararası politikanın en büyük isimlerinin ve siyaset bilimcilerinin ortak ve doğru tespitidir. Kanaatimizce bu sonucun ayrıca açıklanmasına gerek yoktur. Hatta 34 yıl önce Haydar Aliyev'in Sovyet Azerbaycan parti teşkilatının başına seçilmesi, kuşkusuz, o zamanın merkezi olan Kremlin'in onun liderlik vasıflarına, organizasyon becerilerine ve kişisel-entelektüel yeteneklerine verdiği yüksek değerin bir göstergesiydi. . Ancak burada bir noktayı vurgulamakta fayda var. Bu takdir ve güven karşılığında Haydar Aliyev, Moskova'nın talimat ve talimatlarını yerine getiren sıradan bir parti görevlisi olmadı. Ancak Kremlin'in "mutfağından" tüm müttefik cumhuriyetlere gönderilen talimat tam da bu tür bir siyasi yönetim ve teknolojiyi öngörüyordu. Haydar Aliyev, Sovyet yönetiminin şablon teknolojisini Azerbaycan'ın refahına, geleceğine ve stratejik çıkarlarına (müttefik cumhuriyet statüsünün açık çerçevesi içinde de olsa) dönüştürmeyi başaran bir lider oldu

İstifadə olunan mənbə

https://azerbaijan.az/related-information/62

https://mod.gov.az/az/pre/25149.html

VERB METAPHORS IN FRENCH
FRANSIZ DİLİNDE FİİL METAFORLAR

ŞEHANE ESGEROVA

Azerbaycan Devlet Pedaqoji Universitesi
Öyretmen ORCID ID 0000 – 0003 – 0890 - 0065

Özet

Metaforleksikmecaztürlerindenbiridir. Kelimelerinçokanlamlılığıonların metaforlaşmasını sağlayantemelözelliktir. Metafor olayı daha mecazi, daha etkili şekilde ifade etmek için kullanılır. İsim ve sıfatlarda olduğu gibi fiillerin de metaforlaşma mevcuttur. Fiiller cümlede bağlantı kurduğu kelimeye bağlı olarak metaforlaşa bilirler. Bu ilk olarak bu fiillerin çok anlamlılığından kaynaklanır. Metaforlaşma sırasında herhangi eşya ve olaya ait nitelik, özellik diğer bir eşya ve olay üzerine aktarılır. Fiilin metaforlaşması bu fiilin müstakim, yani gerçek ve aktarma anlamlarının birleşmesinden doğar. Bu sırada fiil mecazi anlam ifade eder. Metaforik fiilinin anlamını belirlemek için bunun hangi kelime ile kullanıldığına dikkat etmek gerekir. Metaforlaşma sırasında fiil kendi gerçek anlamından tam olarak uzaklaşmıyor. Fiili metaforların yardımıyla doğa olaylarının, cansız varlıkların ve soyut kavramların canlı açıklaması yaradılır. Fiili metaforlar dilin kelime hazinesini zenginleştirmesinin yanı sıra, edebiyat için yaygın şekilde temsili ifadelerin oluşmasına da katkıda bulunur. Çağdaş dönem edebiyatında fiili metaforaları yaygın kullanımı fransızdilli yazar Eric- Emmanuel Schmitt'in eserlerinden alınmış olan örneklerle belirtilmiştir. Fransızcada fiili metaforalar edebiyatın yanı sıra konuşma dilinde de yaygın olarak kullanılmaktadır.

Anahtarkelimeler:metafor, fiil, mecazianlam

Abstract

Metaphor is one of the types of lexical metaphor. Polysemy of words is the main feature that allows them to be metaphorized. Metaphor is used to express the event more figuratively, more effectively. Like nouns and adjecdives, verbs are metaphorized. Verbs can become metaphorical depending on the word they are connected to in the sentence. This is primarily due to the ambiguity of those verbs. During metaphorization, the quality, characteristic of any object or event is transferred to another object or event. Metaphorization of the verb results from the combination of its direct meaning and transfer meaning. In this case, the verb expresses a figurative meaning. In order to determine the meaning of a metaphorical verb, it is necessary to pay attention to the word with which it is used. During metaphorization, the verb does not completely depart from its true meaning. . With the help of verbal metaphors, a vived natural phenomena, inanimate beings and abstract concept is created. Verbal metaphors, in addition to enriching the vocabulary of the language, serve to create a wide range of figurative expressions for fiction. The widespread use of verb metaphors in contemporary fiction is shown by examples from the works of the French writer Eric – Emmanuel Schmidt. In French, verb metaphors are widely used in spoken language as well as fiction.

Keyswords:metaphor, verb, figurative meaning

1.GİRİŞ

Dilin lüğət tərkibini təşkil edən sözlərin öz həqiqi mənalarından uzaqlaşaraq metaforlaşması dildə mühüm hadisədir. Metafora yunan sözü olub *köçürmə* deməkdir. Köçürmə əşya və hadisələr arasında mövcud olan oxşarlıq, bənzəyiş əsasında mümkün olur. Köçürmə xarici görünüşə, daxili keyfiyyətə, funksiyaya, forma və ya hərəkat oxşarlığına görə ola bilər. Metafora dil və təfəkkürün qarşılıqlı əlaqəsinin məhsuludur. Metaforlaşma zamanı hər hansı əşya və ya hadisəyə aid olan əlamət və xüsusiyyətlər başqa əşya və hadisələr üzərinə köçürülür. Bu zaman söz ilkin mənasından qismən uzaqlaşaraq məcazi məna ifadə edir. Deməli, məcaz sözün əsas yəni həqiqi mənasından yaranır. Həqiqi mənaya, birbaşa adlandırmağa xidmət etdiyi üçün nominativ məna da deyilir. Sözün həqiqi mənası onun məcazi mənasının yaranması üçün əsasdır. Sözün mənasını dəqiqləşdirməkdə, obrazlı olduğunu müəyyənləşdirməkdə sözün işləndiyi mətn, situasiya, hərəkət mühüm rol oynayır. Təbiətdə, həyatda əşyalar, hadisələr çox onları ifadə edən sözlər isə azdır. Məhz buna görə də bir söz oxşarlıq, bənzəyiş əsasında bir neçə anlayışı adlandıra bilir və bununlada dilin məcazlar sisteminin yaranması üçün zəmin yaranır. Metafora ən geniş yayılmış məcaz növlərindən biridir. Metafora hələ qədim zamanlardan bəri filosofların, dilçilərin diqqət mərkəzində olmuşdur. Aristotel özünün "Poetika" əsərində metaforadan bəhs etmiş, Kvintilian metaforanı "məcazın ən gözəli" adlandırmışdır. Metafora sadəcə bədii təsvir vasitəsi kimi qiymətləndirilmir, eyni zamanda canlı danışıq dili ilə bağlı olduğundan ədəbi dilin şifahi forması, bədii və mətbuat üslubunda da geniş istifadə olunur.İsim və sifət kimi feillərin də metaforlaşması dildə geniş yayaılmışdır. Feillərin metforlaşması dilin lüğət tərkibini zənginləşdirməklə yanaşı, bədii ədəbiyyat üçün mükəmməl obrazlı ifadələrin yaranmasına xidmət edir.

Feillər cümlədə əlaqəyə girdiyi sözdən asılı olaraq metaforlaşa bilirlər. Bu zaman həmin feilin müstəqim yəni ilkin mənası nəzərə alınmaqla, onun ifadə etdiyi obrazlı mənanı müəyyənləşdirmək mümükündür. Feillərin metaforlaşması onların çoxmənalılığından irəli gəlir. Bir feil işlənmə yerinə görə bir çox mənalar ifadə edə bilir.

2. TƏDQİQAT METODU

Məqalədə qarşıya qoyulan məqsədə çatmaq üçün müşahidə, müqayisə, ümumiləşdirmə yolu ilə induktiv və deduktiv metodlardan istifadə edilib.

3. Əsas

Feilin metaforlaşmasını müəyyənləşdirmək üçün, ilk növbədə feilin funksiyasını xarakterizə edən konstruksiyanı müəyyənləşdirmək, həmin feilin işləndiyi cümlənin quruluşuna, feilin işlədildiyi sözə diqqət etmək lazımdır. Feilin metaforlaşması zamanı həmin feilin canlı, cansız,konkret, mücərrəd isimlərlə işlənməsi əsas rol oynayır.Metaforanın yaranmasında çoxmənalılıqla yanaşı, təfəkkür, obyektiv gerçəkliklərin dərk olunması, əşya və hadisələr arasındakı oxşarlıq əlaqələrinin olması vacib şərtlərdəndir. Metafora insan təfəkkürünün məhsuludur. Məhz insan ətrafda baş verən hadisələri, onlar arasındakı müəyyən oxşarlığı dərk edərək müxtəlif metaforik ifadələr yaradırlar. Bir çox metaforik ifadələr dildə hazır şəkildə mövcud olsa da, bədii əsərin təsir gücünü artırmaq üçün yazıçı və şairlərin yaratdığı fərdi üslubi metaforalar da mövcuddur. Bu cür metaforalar yazıçı və şairin dünyagörüşünün, təfəkkürünün, hadisələrə olan münasibətinin, təsəvvürünün məhsuludur. Dilin lüğət tərkibi təşkil edən sözlərin müxtəlif mənalar ifadə etməsi, həmin dil istifadəçilərinin məişət həyatı, inkişaf tarixi, həyat şəraiti, elmi və mədəni yaradıcılıqları ilə bağlıdır.

Konkret varlıqlarla işlənən feili metaforalar

Emprunter və prêter feillərinin cümlədə əlaqəyə girdiyi sözdən asılı olaraq ifadə etdiyi mənalara diqqət yetirək.

Je voudrais emprunter ce livre (Le Robert, 1993). Mən bu kitabı götürmək istəyərdim.

Bu nümunədə *emprunter* feili ilkin mənasında işlənmişdir.

Elle emprunta le chemin dela vallée (Schmitt, 2021). O dərəyə gedən yol ilə getdi (yolu əlinə aldı). Emprunter – borc almaq, borc götürmək, müvəqqəti götürmək (pul, əşya, kitab və s.) mənalarında işlənir. Lakin qeyd olunan nümunədə bu mənalardan uzaqlaşaraq yeni məna kəsb edir.

Paul emprunte mille francs à Jean. Pol Jana min frank borc verir.

Paul a empruntéune route secondaire (Balibar,Conenna, 79). Paul ikinci küçə ilə getdi (küçəni əlinə aldı).

Il ne prête pas ses livres (Le Robert, 1993). O, kitablarını borc vermir. Bu numunədə "prêter" feili ilkin mənasında işlənib.

Personne ne prêtaitattention àsesmots (Schmitt, 2011). Heç kəs onun sözlərinə diqqət yetirmirdi. Göründüyü kimi bu nümunədə « prêter" əlaqəyə girdiyi isimlə birlikdə məcazi məna ifadə edir.

Prêter – borc vermək, Prêter attention – diqqət vermək, diqqət yetirmək

Feili metaforaların əsas xüsusiyyətlərindən biri insanlara məxsus hərəkətlərin cansız varlıqlar üzərinə köçürüməsidir. Bu cür metaforalar həm danışıq dilində, həm də bədii ədəbiyyatda daha çox istifadə olunur və əsərə obrazlıq, ekspressivlik verir. Cansız varlıqların canlı təsvirinin yaradılmasının tarixi daha qədimdir. Hələ ibtidai icma quruluşunda insanlar ətrafda baş verən təbiət hadisələri qarşısında aciz qalmış, bu hadisələri tam dərk edə bilmıdikləri üçün onların canlı təsvirini yaratmışdılar.

Le soleil baissa (Schmitt, 2021). Günəş battı. Baisser - əyilmək.

Nos estomacs criaient famine puis rejetaient les maigres aliments absorbés (Schmitt, 2021). Mədələmiz aclıqdan qışqırdı sonra da udulmuş yağsız qidaları qaytardı.

Coğrafi adlarla işlənən feli metaforalar

Çay, göl, dəniz, dağ və adların insana məxsus hərəkət bildirən feillərlə işlənərək canlı təsvir bədii ədəbiyyatda geniş yayılmışdır.

Les rivières cherchent la mer (Schmitt, 2021). Çaylar dənizi axtarır.

Les eaux mangeaient lentement les terres (Schmitt, 2021). Sular yavaş – yavaş torpağı yeyirdi.

Mücərrəd isimlərlə işlənən feili metaforalar

Dans ces moments – là , l'idée revint, l'idée qui a illuminé sa nuit (Schmitt, 2021). Elə bu anlarda onun gecəsini aydınlatan fikir gəldi.

Parfois, leurs regards se rencontrent (Schmitt, 2021). Bəzən onların baxışları qarşılaşır.

Aucune pensée ne me traversait la tête (Schmitt, 2021). Ağlımdan heçbir fikir keçmirdi.

Le danger se rapprochait (Schmitt, 2021). Təhlükə yaxınlaşırdı.

Un silence suivit ma déclaration (Schmitt, 2021). Sözümun ardınca bir süküt çökdü.

Je ne me suis pas arrêté, les maladies m'ont arrêté (Schmitt, 2021). Mən dayanmırdım, xəstəliklər mənə dayandırdı.

S'arrêter - dayanmaq feili həqiqi və arrêter – dayandırmaq feili isə məcazi mənalarda işlənmişdir.

Nümunələrdən göründüyü kimi, feili metaforanın köməyi ilə mücərrəd anlayışların canlı təsviri yaradılmışdır.

Təbiət hadisələrinin təsviri

Le vent atise les flammes (Scmitt, 2021). Külək allovları yelləyir.

Une pluie qui déployait les couleurs de l'arc- en – ciel à venir (Schmitt, 2021)

Le vent s'était levé(Schmitt, 2021). Külək qalxdı.

Dini əsatir adlarının, allah, ruh, cin və s canlı təsvirindən də bədii ədəbiyyatda geniş istifadə olunur.

Les Dieux et les Esprits ne partagent pas ton avis. Ils jugent que je les ai offensés. Depuis des années, ils me puissent en m'empêchant de fonder une famille (Schmitt, 2021). Tanrılar və ruhlar sənin fikrini bölüşmür. Onlar mühakimə edirlər ki, mən onları incitmişəm. İllərdir ki, ailə qurmağıma mane olaraq məni cəzalandırır.

Göründüyü kimi insana xas olan xüsusiyyətlər mücərrəd varlıqlar üzərinə köçürülərək onların canlı təsviri yaradılmışdır. Bu cür təsvirlərin tarixi daha qədimdir. Mifologiyada onlara daha tez – tez rast gəlinir.

4. NƏTİCƏ

Feillərin metaforlaşması onların ilkin mənalarından qismən uzaqlaşaraq məcazi məna kəsb etməsidir. Metaforik feilin hansı sözlə işlənməsinə diqqət yetirməklə onun ifadə etdiyi mənanı başa düşmək mümükündür. Fransız dilində felin metaforlaşması daha geniş yayılmışdır. Yuxarıda qeyd olunan nümunələrdən də aydın olur ki, feili metaforaların mühüm xüsusiyyətlərindən biri canlı varlıqlara məxsus əlamətlərin cansızlar üzərinə, maddi anlayışlara xas olan əlamətin abstrakt məhfumlar üzərinə köçürülməsidir. Bu cür feli metaforalar yazıçıya, şairə fikirlərini oxucuya daha təsirli, obrazlı çatdıra bilmək imkanı verir. Fransız dilindən gətirilmiş nümunələr əsasında feili metaforaların müasir fransız ədəbiyyatında geniş şəkildə istifadəsinə diqqət yetirilmişdir. Eyni zamanda feili metaforalardan canlı danışıq dilində, bədii və mətbuat üslubunda da istifadə olunur.

5. ƏDƏBİYYAT

1. Antoinette Balibar – Mrabti Mirella Conenna (2002) "Nouvelle approches de la métaphore" LAROUSSE 79
2. Eric – Emmanuel Scmitt (2011) "La femme au mirroir" Albin Michel , 9
3. Eric – Emmanuel Schmitt (2021) "Pradis perdus" Albin Michel 32 –55, 166. 422 - 492
4. Eric – Emmanuel Scmitt (2021) "La Porte du ciel" Albin Michel,29.68,97
5. Le Robert Micro (1993) 437, 1010

COMPARATIVE STRUCTURAL-SEMANTIC CHARACTERISTICS OF ZOONYMIC PHRASEOLOGICAL COMBINATIONS

ZOONİMİK FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN MÜQAYİSƏLİ STRUKTUR-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

ƏSƏDOVA SEVİNC SABİR QIZI

Azərbaycan, Bakı

Aərbaycan Dövlət Pedaqoji Univrtsiteti

Xarici Dillər Mərkəzi

İngilis dili müəllimi

Özet:

Her bir deyim birimi, ait olduğu milletin yarattığı bilgi aktaran bir unsurdur ve bu nedenle bunları sıradan metaforlar olarak görmek doğru değildir. İfadelerin böyle bir açıklaması çeşitli araştırma çalışmalarında bulunur ve bu fikir zaten modası geçmiş olarak kabul edilir. Deyimbilimler dilin evrensellerinden biridir, bu nedenle ifadebilimsiz bir dil yoktur. İfadeler esas olarak ulusal-etnik özellikleri yansıtır. Arkaik unsurlar bazı anlatımlarda hala korunmaktadır. Bunlar geçmiş yüzyılların örnekleridir. İfadelerin çoğu, farklı faaliyet alanlarıyla ilişkili insanlarla ilgili olduğundan, deyimlerin oluşturulmasında insan faktörü büyük bir rol oynar.

Anahtar kelimeler: Zoonom, deyimsel birleşimler, türetmesel süreç, deyimsel birim, deyimler

ABSTRACT:

Each phraseological unit is an information-transmitting element created by the nation to which it belongs, and therefore it is not correct to view them as ordinary metaphors. Such an explanation of phraseologisms is found in several research works, and this idea is already considered outdated. Phraseologisms are one of the universals of language, so there is no language without phraseologisms. Phraseologisms mainly reflect national-ethnic characteristics. Archaic elements are still preserved in some phraseology. They are examples of previous centuries. The human factor plays a big role in the creation of phraseology, as most of the phraseology is related to people, associated with different areas of their activity.

Key words: Zoonomic, phraseological combinations, derivotological process, phraseological unit, idioms

Giriş

Qədim zamanlardan insanlar anlamışlar ki, müxtəlif heyvanlar öz hərəkətləri ilə təbiət hadisələrindəki dəyişiklikləri, zəlzələni, tufanı, hətta yetişdirilən məhsulun məhsuldarlığının necə olacağını əvvəlcədən duya blmişlər. Bu da heyvanlarla bağlı müxtəlif əlamət bildirən ifadələrin yaranmasına səbəb olmuşdur.

Əsas hissə:

Zoonimlərin derivatoloji prosesdə mühüm əhəmiyyəti vardır. Onların iştirakı ilə yaranan yeni dil vahidlərindən biri də frazeoloji vahidlərdir. Yəni zoonim komponentli frazeoloji birləşmələr, yəni ZFB-lər. Onagörə də zoonimik frazeoloji birləşmələrə keçməzdən əvvəl müxtəlifsistemli dillərdə frazeoloji birləşmələrin tədqiqi məsələlərinə qısa nəzər yetirək.

İngilis dilçiliyində frazeoloji ifadə əvəzinə çox zaman idiom terminindən istifadə edilmişdir. İdiomatik ifadənin semantikasını onun komponentlərinin ilkin həqiqi mənasına dayanaraq aydınlaşdırmaq olduqca yetərsiz, bəzən də qeyri-mümkün olur.

Kuninin fikrincə, dilin frazeoloji sistemi çətin hadisə kimi xpesifik araşdırma metodları tələb edir və bu zaman leksikologiya,üslubiyyat, fonetika, məntiq, ölkəşünaslıq kimi sahələrin istifadəsini tələb edir [1, s.15].

Hər hansı bir dilin frazeoloji sistemi araşdırılarkən sadalanan elmlərlə əlaqə yaratmadan frazeologiya haqqında da mükəmməl fikir söyləmək olmaz. İngilis dilində elə frazemlər vardır ki, onlar ölkəşünaslıqla, ölkə ədəbiyyatı ilə, fonetika ilə (şəklini dəyişmiş ifadələr nəzərdə tutulur) bağlıdır. Azərbaycan dilinin izahlı lüğətində frazeologiya mənsub olduğu dilin sabit söz birləşmələrinin toplusu şəklində qəbul edilir [2, s.209].

Buna görə dilin frazeoloji sistemini (eyni zamanda zoofrazeoloji vahidləri) tədqiq etməzdən əvvəl dildəki söz birləşmələrinə diqqət yetirmək əsas məsələlərdən biridir. Məlumdur ki, *"söz birləşmələri, əsasən, frazeologiya, leksikologiya kimi dilçilik sistemləri ilə bağlıdır. Birləşmələrin tərkibində leksik vahidlər konkret məna bildirir. Söz birləşmələrinin struktural cəhətləri və eyni zamanda semantikası onun formalaşmasında iştirak edən sözlərin mənasından asılı olur"* [3]. Məlumdur ki, birləşmələr sərbəst və sabit (qeyri-sərbəst) olmaqla iki yerə bölünür.

Sərbəst söz birləşmələri iki və daha artıq sözün məna və qrammatik cəhətdən birləşməsidir. Sərbəst söz birləşmələrinə daxil olan sözləri qrammatik cəhətdən ayırmaq, ayrılıqda təhlil etmək mümkündür və bu zaman birləşmədə olan hər bir söz öz həqiqi mənasını saxlayır, onları asanlıqla tərkib hissələrə ayırmaq olur. Sərbəst söz birləşmələrindən fərqlənən sabit söz birləşmələri isə dildə hazır şəkildə olur və mənsub olduğu xalqın etnokulturologiyasını dəqiq şəkildə ifadə edir.

Söz birləşmələrinin xarekteri, semantikası onu əmələ gətirən sözlərin semanti- kası ilə möhkəm bağlı olur. Bu cəhət sabit söz birbşmələrində sərbəst birləşmələrə nisbətən o qədər də davamlı və möhkəm deyil. Çünki sabit söz birləşmələrini əmələ gətirən sözlər bəzən öz leksik mənalarını tamamilə itirir və birləşmə bütövlükdə yeni məna ifadə edir. Leksik cəhətdən sərbəst birləşmələrlə sabit birləşmələr oxşardır, onların mənaları yalnız kontekstual mühitdə müəyyənləşir. Bu xüsusiyyət həm ingilis, həm də Azərbaycan dilinin söz birləşmələrinə aiddir. Məs., to take the cake, to be in a cup of tea ; yola gəlmək, yola düşmək, bel bağlamaq və s.

Bu birləşmələr həm sərbəst, həm də sabit birləşmələr kimi mövcuddur və onların həqiqi, yoxsa məcazi mənada işləndiklərini yalnız mətn daxilində müəyyən etmək olar. Məsələn, 1) Uşağın əlindəki top yola düşdü// Qatar yola düşdü. 2) She has a cup of tea//İf she work,she can buy a cup of tea. Nümunələrdə yalnız cümlənin məzmunundan çıxış edərək birləşmələrin həqiqi və ya məcazi mənada işlənməsi müəyyən edilir.

Hər hansı bir dildə hazır şəkildə olan ifadələr vardır ki, onlar sözə ekvivalent olaraq işlədilir, onlar nitq prossesi zamanı yaranmır, sadəcə, onlar dildə hazır şəkildə mövcuddurlar, xoşu gəlmək-sevmək - to take a fansy to sb/sth.-to love // like;kələk gəlmək-aldatmaq-to wind sb.round one 's little finger-to deciete və s.

Dilimizdə sabit birləşmələr bir çox başqa terminlər adı altında(qeyri-sərbəst birləşmələr, hazır nitq vahidləri, leksik birləşmələrvə s. adı iləverilir. Bəzən leksikologiyanın, bəzən frazeologiyanın tədqiqat obyektinə çevrilir. Belə bir meyil ingilis dilçiliyində də var. İngilis dilində N.N.Amosova *"daşlaşmış element (fixed context units)"* şəklində istifadə etmişdir[4, s.98].

A.İ. Smirnitski *isə "leksik vahidlərin variantlarından//ekvivalentləri ifadəsindən* yayarlanmışdır. *Həmin terminə Arnoldun tədqiqatlarında da rast gəlirlk* [5, s. 167]. *"...Dilin frazeoloji fondunun öyrənilməsi hansı istiqamətdə (məhdud və ya geniş) olursa-olsun o, özündə frazeoloji və qeyri-frazeoloji xarekterli sabit söz birləşmələri kompleksini birləşdirməlidir"* [6, s.10].

Dildəki sabit birləşmələrin hamısı frazeoloji xarakterli deyildir. Azərbaycan dilində də mövcud olan bir çox sabit birləşmələrin nümunəsində bunu görmək olar. Məsələn, elçi getmək,elçi gəlmək, yolagəlmək və s.

Eyni fikirlə A.V.Kuninin tədqiqatlarında da rastlaşırıq. O, "*qeyri-frazeoloji xarekterli sabit birləşmələrin xüsusi bölmədə öyrənilməsi fikrini irəli sürərək həmin bölmənin frazematika adlandırılmasını"* təklif etmişdir [7.s.268].

Dilin frazeoloji tərkibinin frazem və idiomlardan ibarət olmasını hesab edən N.N.Amosova *frazemləri idiomlardan fərqləndirmişdir* [4, s. 72]. İngilis frazeologiyası çox zəngindir və onun çoxəsrlik tarixi var. İngilis frazeologiyasında sırf milli frazeologizmlərlə bərabər, xeyli beynəlxalq frazeologizmlər də vardır.

Akademik N.N.Vinoqradovun frazeologiyanın ayrıca elm sahəsi kimi inkişafında böyük əməyi inkaredilməzdir. O, rus dilində frazeoloji vahidləri təsnif etmişdir. *"Məlumdur ki, frazeologiya xüsusi dilçilik fənni kimi yalnız bizdə, Sovet İttifaqında meydana gəlib və inkişaf edir. Bir çox yerli dilçilər frazeoloji nəzəriyyəni müxtəlif dillərin materialları əsasında tədqiq edirlər. Frazeoloji problemlərə bizim dilçilik dairələrində maraq getdikcə artır. Bununla belə, bir neçə bolqar və polyak dilçilərinin tədqiqtlarını və materialın sırf empirik seçiminə əsaslanan dərslik və ya məlumat xarekterli idiom lüğətlərinin həcmli nəşrlərini nəzərə almasaq, xaricdə elmin bu sahəsi tədqiqatçıların nəzərlərindən ciddi surətdə kənarda qalmışdır"* [8, s.15].

V.V.Vinoqradovun təqdim etdiyi bölgü rus dili və rus dilinin daxil olduğu dil qrupunun digər dilləri üçün yararlı ola bilər. Akademik rus dilində olan frazeoloji vahidləri üç qrupa bölmüşdür.Bu cür təsnifat frazeoloji vahidlərin daxili mütəhər- rikliyinə əsaslanır və rus dili materiallları əsasında aparıldığı üçün müxtəlif sistemə məxsus olan dillər üçün məqsədəuyğun ola bilməz .

N.N.Amosova V.V.Vinoqradovun rus dilinin frazeologiyasına dair tədqiqatları- na münasibət bildirərək demişdir ki, *"Sovet dilçiliyində ingilis frazeologiyasının problemlərinin müstəqil işlənməsi üçün əhəmiyyətli stimulun yaranmasına səbəb oldu. Yaxın vaxtlara qədər nə bir tədqiqat işi, nə də ki, ingilis frazeoloji fondunun təsviri onun frazeoloji konsepsiyasının istiqamətindən kənara çıxmamışdır"* [4, s. 3].

Yalnız bütün leksik birləşmələr idiomatik deyil, hətta məcazi mənada işlədilən bəzi sözlər də idiom ola bilər. Məs.,"заяц" sözü həqiqi mənada idiom deyildir və fransızcaya *le lievre*, alman dilinə *der hase*, ingilis dilinə isə *the hare* şəklində tərcü- mə edilir və hər bir halda tərcümələr ifadə etdikləri məhfumla uyğun gəlir. Lakin "заяц" sözü "biletsiz sərnişin" mənasında idiomdur və başqa cür tərcümə olunur:

1.fransızca-voyageur en contrebande

2.almanca-blinder Passagier – "gözü görməyən adam//sərnişin və ya Schwarzfahrer- qara yolçu

3.ingiliscə - top-away quickfellow"[9, s.138].

Frazeologizmlərin onu yaradan xalqın milli-etnik təfəkkürü ilə bağlılığı bu birləşmələrin bir dildən başqa dilə tərcümə edilməsi məsələsini meydana gətirir. Bu məsələnin də müxtəlif səbəbləri qarşıya çıxır:

1. Dünya dillərinin müxtəlifsistemli olması;

2.Dillərin leksik fondunun sayca müxtəlifliyi;

3.Fərqli xalqların fərqli məişət və dünyagörüçə malik olması;

4. Dilin mənsub olduğu xalqın sosial inkişafının müxtəlifliyi və digər.

Məsələn, ingilis dilində tərkibində zoonimin işləndiyi "It's raining cats and dogs" ifadəsi dilimizə bir neçə variantda tərcümə edilir: 1. güclü yağış yağır, 2. elə bir yağış yağır ki, ucundan tut göyə çıx.

İfadənin tərkibində işlənmiş "cats and dogs" birləşməsi daha çox diqqəti çəkir. Bu isə aşağıdakı kimi izah edilir:

Qədimdə ingilis evlərinin damları qamışdan olarmış və bu damlar da soyuq havada ev itləri və pişikləri üçün yeganə sığınacaq olurmuş. Lakin bu damlar yağışlı havalarda sürüşkən olduğu üçün həmin ev heyvanları sürüşərək evlərin içərisinə düşərmişlər. "It's raining cats and dogs"ifadəsinin də həmin hadisə ilə bağlı olaraq yaranması ehtimal edilir.

Həmin hadisənin bizim xalqımızla heç bir əlaqəsi olmadığı üçün "cats and dogs" birləşməsi tərcümə zamanı nəzərə alınmır. Lakin qeyd etmək lazımdır ki, alınma frazeologizmlər bütün dillərdə var və adətən digər dillərə hərfi tərcümə vasitəsilə keçir. Məs. ingilis dilindən dilimizə keçən "to go Dutch" –"hesabın bərabər bölünməsi, paylaşılması" ifadəsi dilimizdə tez-tez işlənən ifadələrdəndir. İfadədə işlənmiş "go" feili tərcümədə sanki "itir" və əvəzində ismi idiomatik birləşmə yaranır. Əslində bu ifadə dilimizə ingilis dilindən deyil, rus dilindən keçmiş və rus dilində necə işlənmişsə, dilimizdə də həmin şəkildə işlədilmişdir.

İngilis dilinə aid olan: *too much pudding will choke the dog*- ifadəsi ingilislərin milli mətbəxi ilə əlaqədardır.

One can not run with the hare and run with the hound- ifadəsi isə ingilislərdə aristokrat təbəqənin əsrlərlə davam edən ova həvəsini və cins itlərə olan marağını əks etdirir.

Aforistik ifadələr və frazeologizmlər onların nüvə komponentinin zoonim, ornitonim və ya hər hansı bir sözlə ifadə edilməsindən asılı olmayaraq xalqın milli etnik cəhətlərini daha çox ifadə edir və daha çox millidir.

V.Q.Belinski frazeologizmləri*"dilin xalq fizionomiyası, onun orijinal vasitəsi, varlıq və zəka mənbəyi"* adlandırmışdır [10, s.108]. Yuxarıda verilmiş ifadənin birbaşa tərcüməsinin dilimizdə olmamasını biz də xalqın etnik mədəniyyəti, təfəkkü- rü ilə bağlaya bilərik.

Frazeoloji birləşmələr özündə atalar sözlərini, məsəlləri, yazıçıların yaratdığı aforistik ifadələri, bəzi rəvayətli ifadələri, ştarap və klişe adlanan ifadələri, ədəbi sitatları və s.-i ehtiva edir. Kunin, S.Cəfərov, A.Qurbanov kimi dilçilər cümlə şəklində olan sabit ifadələrin xalqın mentalitetini ifadə etməsini, xalqın və ona mənsub olan dilin tarixi kateqoriya olduğunu, bir dildən başqa dilə tərcümə edilmədiyini, mənalarının daha çox məcazi olduğunu söyləmişlər. N.N.Amosova, İ.V. Arnold, N.Bayramov isə atalar sözlərini, paremioloji vahidləri frazeologiyanın obyekti hesab etməmişlər.

Milli frazeolgizmlərə məişət hadisələri əsasında yaranan frazeologizmlər də daxildir. *İngilis dilindəki "It s raining cats and dogs" ifadəsini, Azərbaycan dilindəki "Qaşqabaqdan qar yağmaq" ifadəsini misal göstərə bilərik. Bu ifadə ilə Azərbaycanın məşhur muğam ustası Cabbar Qaryağdıoğlunun soyadını əlaqələndirirlər* [11].

Frazeoloji vahidlərə lap qədimdən dilçilikdə maraq yaransa da, bu dil vahidləri elmi şəkildə ilk dəfə Ş. Balli və V.Vinoqradov tərəfindən tədqiq edilmiş, həmin dil vahidlərinə, dil faktlarına elmi münasibət ilk dəfə bu alimlər tərəfindən mümkün olmuşdur.

Frazeoloji birləşmələri Ş.Balli 3 yerə ayırmışdır:

1.İki ünsürün bir vahidə çevrildiyi halda mümkün olan birləşmələr: remporter une victoire// qələbə çalmaq...

2.Seçmə sərbəstliyinin müəyyən hədlərlə məhdudlaşdırdığı adi uyuşmalar,

3.Bölünməz bütöv təşkil edən frazeoloji vahidlər: faire table rase // yer boşaltmaq...[12, s. 78].

V.V.Vinoqradov rus dilinin frazeologiyasını tədqiq edərkən Ş.Balliyə istinad etmiş, onun bölgüsündən birinci qrupu saxlamış, ona ikisini əlavə etmişdir: frazeoloji vəhdətlər və frazeoloji qovuşmalar.N.N.Amosova ingilis dilinin frazeologiyasından bəhs edərkən, bu sahədə əsasən Vinoqradovun müddəalarına qeyd-şərtsiz istinad edildiyini vurğulamış, onun konsepsiyasından kənara çıxılmamasını hətta qüsurlu hesab etmişdir. *"V.Vinoqradovun frazeologiya sahəsində araşdırmaları sabit birləşmələr haqqında konsepsiyanın inkişafında ayrıca mərhələ olub, rus dilçiliyində o vaxta qədər edilmişlərlə müqayisədə daha yüksək bir mərhələ təşkil edir"* [4, s.5]. Vinoqradovun tədqiqatına tənqidi yanaşan Amosova bu sahədə daha çox A.M.Smirnitskinin *"İngilis dilinin leksikologiyası"* əsərini qiymətləndirmişdir [4, s.5].

Azərbaycan dilçilərindən M.T.Tağıyev də həmin əsərdə FB-lərin semantik təsnifinə tənqidi yanaşmış, təsnifatı nöqsanlı, məhdud hesab etmişdir. *"Frazeologizmin və sözün əhatəsi" məqaləsində qeyd etmişdir ki, uzun müddət ərzində bir dilin frazeoloji tərkibinin həmin siniflər üzrə heç kəsin təsnif etməməsi təsadüfi deyil. Tədqiqatçılar bir neçə misalı uyuşmanın, vəhdətin ya da birləşmənin qəlibinə salmaqla kifayətlənmiş, tam təsnif etməmişlər* [13, s.210].

M.T.Tağıyev N.M.Şanskinin "Ftazeoloji tərkiblər onların strukturu nöqteyi-nəzərindən" tədqiqatına daha çox önəm verərək, bu dil vahidlərinin qrammatik xüsusiyyətlərinə görə təsnifatını daha mühüm hesab etmişdir. Eyni zamanda FB-lərin lüğət tərkibinin xarakteri, mənşəyi, ekspressiv-üslubi xüsusiyyətlərə görə təsnif edilməsini və bu zaman əhatə metodundan istifadə edilməsini əsaslı saymışdır.

N.M.Şanski "Frazeologizmlərin sintaktik modelləri" əsərində bu birləşmələri özək tərkib hissələrin işləndiyi hal və əlaqəyə girdikləri önqoşmaya görə təsnif etmiş, lakin digər bölgüləri də inkar etməmişdir.

İngilis dilinin dərin tədqiqatçılarından olan A.B.Kunin *leksik adlandırma ilə frazeoloji adlandırmanı müqayisə etmiş, ikinci istiqamətdə konnotativliyin üstünlüyünü qeyd etmişdir* [1, s.100].

Frazeologizmlərin yaranmasında zoonimlərin xüsusi rol oynadığını yuxarıda qeyd etmişdik. Zoonimlər hər bir dilin lüğət tərkibində xüsusi sistem təşkil edir. Bu cəhət digər mütəxəssislərlə yanaşı, dilçilərin də diqqətini cəlb etmişdir. Şerbak ev heyvanları və vəhşi heyvanların adlarını tarixi-müqayisəli təhlilə cəlb etmişdir.

Sadıkova Z.R. tatar dilinin zoonimik leksikasını araşdırmışdır. D.M.Mardanova *"İngilis və türk dillərinin frazeoloji zoonimlərinin müqayisəli analizi"* məsələlərindən bəhs etmişdir [14, s.189].

Amerikanın Texas universitetinin alimləri ingilis dilinin zoonim tərkibli frazeoloji birləşmələrini dərin elmi təhlilə cəlb etmişlər. D.A.Kruzun bir çox elmi əsərləri zoonimlərlə bağlıdır. Onun Kembric Universitetində çap edilmiş "Lexical semantic" adlı məqaləsində zoonimlərin sistematik leksik-semantik təsnifatı verilmişdir.

Türkoloqlardan O.N. Turbaçev, M.Fasmer, E.N.Şipova və başqaları rus dilinin zoonimlərində balıq, at, quşvə s. türkdilli zoonimlərinin işlənməsi, onların etimologi- yasının öyrənilməsi məsələləri ilə məşğul olmuşlar.

Atalar sözlərinin tərkibində zoonimlər semantik mərkəzi -nüvəni təşkil edir və metaforik məzmun daşıyır. Bunun nəticəsndə də həmin atalar sözü metaforaya çevrilə bilir. Məsələn; Rus dilinə məxsus bir atalar sözündə kobud, mədəniyyətsiz, yaxşılığı qiymətləndirməyən adam haqında deyilir: "посади свиню за стол, она и ноги на стол". Azərbaycan dilində eyni mənada: "Üz verirsən, astar da istəyir" və ya "Gəmidə oturub gəmiçi ilə dava edir" və digər atalar sözləri işlədilir.

Nəticə:

İngilis və Azərbaycan dillərinin zoonimlərinin müqayisəli təhlili, əldə edilmiş nəticələr belə tədqiqatların digər dillər üzrə, qohum və müxtəlifsistemli dillərin zoonimlərinin müqayisəli şəkildə öyrənilməsinin vacibliyini ehtiva edir. Həm ingilis, həm də Azərbaycan dillərində frzeologizm yaradılmasında vəhşi heyvanlardan canavar, şir, ayı; ev heyvanlarından it, xoruz, siçan və digərləri fəal iştirak edir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Кунин, А.В. Большой англо– русский фразеологический словарь / А.В Кунин. – Москва: "Русский язык", – 1984. – 944 с.

2. Azərbaycan dilinin izahlı lüğəti / tərt.ed. B.Abdullayev. –Bakı: Şərq– Qərb, – 2006. – 712 s.

3. Сайфутдинова, Э. Г. Деривационное развитие зоонимов в русском языке Современная филология // материалы междунар. науч. конференция, – Уфа: –2011. – с. 183– 187.

4. Амосова, Н.Н. Основы английской фразеологии / Н.Н.Амосова. –Ленинград, – 1963. –208 с.

5. Смирнитский, А.И. Лексикология английского языка / А.И.Смирнитский. – Москва: МГУ, – 1998. – 260 с.

6. Севортян, Е. В. Етимологический словарь тюркских языков / Е. В. Севортян. – Москва: АН.СССР, – 1974. – 567 с.

7. Кунин, А.В. Большой англо– русский фразеологический словарь / А.В Кунин. – Москва: "Русский язык", – 1984. – 944 с.

8. 98. Виноградов, В.В. Извранные труды. Лексикология и лексикография: [в 5 томах] / В.В. Виноградов. – Москва: Наука, – т. 3. –1977. –312 с.

9. 107.Грушко, А. А. Исследования из области латинского словообразования/ А.А.Грушко. – Москва, 1900.

10. Белинский, Б.Г. Статьи о русской литературе / Б.Г. Белинский. –Москва:–2008. – 240 с.

11. https://cyberleninka.ru/.../strukturno– semanticheskiy– analiz– zoonimicheskih– fraze ologi; https:moluch.ru.
12. Абдуллаев, И. Х. Тюркский зооним Тулпар на Северном Кавквзе /И.Х.Абдуллаев. – ТДЯК, –1982.
13. Tağıyev, M.T. Azərbaycanca– rusca lüğət /M.T.Tağıyev. – Bakı: Şərq– Qərb, – 2006. – 896 s.
14. Марданова, Д.М. Сопоставительный анализ фразеологизмов – зоонимов в английском и турецком языках: /Дисс. канд. фил. наук. / – Казань, 1997. – 283 с.

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYAS

MEHRIBAN MAHMUDOVA

ADPU Xarici Dillər Mərkəzi 0000-0003-7289-5673

Özet

Azərbaycançılığın bir ideologiya olaraq məqsədi bir sıra elmlərin nəticələrindən istifadə etmə klə Azərbaycan və azərbaycanlılar həqqında elmi təsəvvür yaratmaq və onun dünyadakı unive rsal mövqeyini müəyyənləşdirməkdir. Bu istiqamətdə ulu öndərimiz Heydər Əliyevin apardığı məqsədyönlü, uzaqgörən siyasəti tariximizin silinməz şanlı səhifələrinə və dövlətçilik ideolog iyasının əsas bazasına çevrilmişdi.Müxtəlif dövrlərdə görkəmli elm və mədəniyyət xadimləri miz azərbaycançılıq ideyasını əsərlərində özgün tərzdə ifadə etmişlər. Əsrin əvvəllərindən azə rbaycançılıq ətrafında

gedən ideya və fikir mübarizələrinə nəzər saldıqda aydın olur ki, azərbaycançılıq ideyasının tə kamül prosesi çoxşaxəli və ziddiyyətli olmuşdur. Azərbaycan milli dövlətçilik hərəkatının qab aqcıl nümayəndələrinin və Xalq Cümhuriyyətinin qurucularının konsepsiyasına görə müstəqil lik ideyası ölkədə yaşayan bütün xalqların hüquq bərabərliyinin tanınmasına əsaslanırdı. Onun fəlsəfi əsası azərbaycançılıq, islamçılıq və müasirləşmə şüarından ibarət idi. Bu şüar Azərbay can Xalq Cümhuriyyətinin rəsmi doktrinasını təşkil ediri.

Azərbaycançılıq ideologiyası ayrıayrı şəxslərin düşüncə və duyğularına hakim kəsilən

təsəvvürlərin məcmusunu, onların özlərinin, ailələrinin, xalqının, Vətəninin sabahı naminə arz ulannı əks etdirir. ideologiya dövləti yaradır, dövlət isə siyasi ideyanı məqsədyönlü istiqamətə yönəldir. Lakin bu prosesə birdənbirə yaranan, necə deyərlər, yoxdan var olan bir hadisə kimi baxmaq olmaz. Azərbaycançılığın turançılıq, islamçılıq kimi ideyalardan faydalandığını da d anmaq olmaz. Azərbaycan milli hərəkatının ilk tədqiqatçılarından olan Mirzə Bala Məhəmmə dzadənin qeyd etdiyi kimi, hələ 1905ci ilə qədər Azərbaycan cəmiyyətində milli birlikdən dah a çox dini birlik anlayışı üstünlük təşkil edird.Azərbaycançılıq ideyasını ilk dəfə yaradıcılığını n ana xəttinə çevirməkdən çəkinməyən Cəlil Məmmədquluzadənin özü də əsərlərində islam v ə Şərq siyasi mənliyinin ideoloqu kimi çıxış edirdi.

Dahi şəxsiyyət Heydər Əliyev müstəqil Azərbaycan Respublikasına on illik rəhbərliyi dövründə respublikanın gələcək inkişafının sağlam təməlini qoydu, eyni zamanda ölkə vətəndaşlarını səfərbər edən, xalqımızı beynəlxalq aləmdə vahid amal, əqidə, məqsəd və məram ətrafında birləşdirən azərbaycançılıq 2 HEYDƏR ƏLİYEV Elektron Sənədlər Toplusu ideologiyasını yaratdı. 1993-cü ildə Heydər Əliyev hakimiyyətə qayıdanda Azərbaycanda keçmiş kommunist ideologiyasından imtina edilmişdi. Lakin xalqı müstəqil dövlətçilik ətrafında birləşdirə bilən, azərbaycanlıların kimliyini, yaratdığı dövlətin xarakterini izah edən, milli-mənəvi dəyərlərini qoruyub saxlayan və inkişaf etdirən, ölkə vətəndaşlarını öz ətrafında səfərbər edərək gələcəyə aparan nə vahid ideya-siyasi təlim, nə də funksional idarəçilik sistemi yaradılmışdı. Keçmişin bütün zəngin irsindən, o cümlədən elmi, intellektual, mənəvi, ictimai dəyərlərindən total şəkildə imtina meyli Azərbaycanda sözün həqiqi mənasında, ciddi ideoloji boşluq yaratmışdı. Cəmiyyətin ideyasızlaşdırılması cəhdi bir tərəfdən keçmiş kommunist rejiminə nifrətdən qaynaqlanırdısa, digər tərəfdən 1991-1993-cü illərdə Azərbaycanı idarə edən rəsmilərin aydın məqsəd və məramının yoxluğundan, rəhbərlik etdikləri dövlətin siyasi, iqtisadi, mədəni, mənəvi inkişafı haqqında dolğun təsəvvürə malik olmamalarından irəli gəlirdi.

Ümummilli Lider qeyd edirdi ki, milli ideologiya tarixi keçmişimizlə, millətimizin adət-ənənələri, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır. Bu gün çəkinmədən və inamla söyləmək olar ki, Heydər Əliyev müasir azərbaycançılıq ideologiyasının - dövrün, zamanın tələblərini, dövlətçiliyin əsaslarını, millietnik şəraiti nəzərə alan milli təlimin banisidir. Çünki azərbaycançılıq ideologiyası məhz Ulu Öndərin dövründə həqiqi siyasi-ideoloji məzmun alaraq mükəmməl bir təlimə çevrildi və müstəqil dövlət ideologiyası səviyyəsinə qaldırıldı. Azərbaycançılıq ideologiyası sonrakı illərdə mükəmməl bir konsepsiya kimi tədricən bütün Azərbaycan vətəndaşlarının, dünyada yaşayan əksər həmvətənlərimizin, ölkəmizlə bağlılığı olan hər bir soydaşımızın milli birlik platforması rolunu oynamağa başladı. Əgər ümummilli lider Heydər Əliyevə qədər azərbaycançılıq ideyası əsasən etnolinqvistik, ədəbi-bədii, mədəni-estetik, fəlsəfi və mənəvi dəyər kimi mövcud idisə, ulu öndərin dövründə ciddi hüquqi-siyasi məzmun alaraq bitkin ideyalar sisteminə - dövlət quruculuğunun ayrılmaz tərkib hissəsinə çevrildi.

XX,əsrin sonlarına qədər bir çox milli əhəmiyyətli problemlər kimi latın qrafikalı əlifba məsəl əsi də öz öktuallığını itirməyərək həllini gözləyirdi. Məsələni ümummilli liderimiz Heydər Əli yevin tarixi qətiyyəti həll etdi. Belə ki, latın qrafikalı Azərbaycan əlifbasının tətbiqi ilə bağlı 1 8 iyul 2001ci il tarixli fərman imzalamaqla iki əsrə qədər uzun bir zaman ərzində həll olunma mış bu problemin aradan qaldırılmasında həmişə olduğu kimi, qətiyyətli mövqeyini nümayiş e tdirdi. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanı və xüsusilə latın qraf ikalı əlifbaya keçid Heydər Əliyevin özünün dediyi kimi "milliliyimizi, azərbaycançılığımızı göstərən çox mühüm bir amil kimi" qiymətləndirilməlidir.Dövlətimizin qurucusunun həmin il in 9 avqustunda "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" nö vbəti fərmanı ilə 1 avqust günü əlifbamızın və dilimizin bayramı kimi rəsmiləşdirildi ki, bu da azərbaycançılığın yeni bir bayramı oldu.Azərbaycanın böyük tarixi şəxsiyyətlərinin hər biri a zərbaycançılığı bir ideya olaraq görürdü. Heydər Əliyevin isə onlardan böyük fərqi ondan ibar ət oldu ki,o azərbaycançılığı dövlət ideologiyasına çevirdi. O deyirdi"Müstəqil Azərbaycan dö vlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qü rur hissi keçirməlidir".

Heydər Əliyev məhz siyasətçi idi və ömrünün sonuna qədər də öz vətəninin çiçəklənməsi, büt ün dünyada layiqincə tanınması və qəbul olunması yolunda yorulmadan mübarizə apardı. O ö z çıxışlarında dəfələrlə qeyd edirdi:

"Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918ci ildə yaranmış ilk Azərbaycan Demo kratik Respublikasının ənənələri əsasında müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı o laraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ö mrümün bundan sonrakı hissəsini harada olursaolsun, yalnız və yalnız Azərbaycan Respublik asının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm". Heydər Əliyevin şəxsiyyətində t əzahür edən milli iradə, möhtəşəm xalq ruhudur ki, Azərbaycanı hər cür iqdisadi, sosial-siyasi problemlərdən çıxararaq gələcəyə
əbədi müstəqilliyə aparır,Türk dünyasının fəxri olan Heydər Əliyev zəmanəmizin yetirdiyi da hi şəxsiyyətlərdəndr

Heydər Əliyev hər dövrü, hər mərhələsi məktəb olan həqiqətən qeyri-adi bir ömür yaşamış, yalnız mənsub olduğu Azərbaycan xalqının, türk xalqlarının deyil, ümumən dünya xalqlarının təsəvvüründə özünün mükəmməl obrazını, aydın cizgiləri ilə seçilən möhtəşəm portretini yaratmışdır.

.Müasir dünya yalnız iqtisadi, sosial-siyasi münasibətlər dünyası deyil, həm də etnik münasibətlər dünyasıdır. Odur ki, bu və ya digər xalqın ön sıralarda getməsi üçüntarixən qazandığı etnik potensialdan tələb olunan səviyyədə istifadə etməsi lazım gəlir.

Azərbaycanlılar dünyanın müxtəlif ölkələrində-Azərbaycanda, İranda, Rusiyada Türkiyədə, Gürcüstanda, ABŞ-da, Kana dada, Hollandiyada, Ukraynada, Belarusda, ingiltərədə, Almaniyada və digər yerlərdə yaşasalar da, onları bir-birinə bağlayan olduqca möhkəm mənəvi-ideoloji vasitələr vardır: Bu, ana dilidir, ata yurdu Vətəndir, tarixən formalaşmış etnik-mədəni sistemdir. Eyni zamanda milli liderdir! Heydər Əliyevin siyasi fəaliyyətində müstəqil Azərbaycan dovlətinin daxili möhkəmliyin beynəlxalq nüfuzunu qorumaq nə qədər möhtəşəm yer tutursa, dünya azərbaycanlılarının milli birliyi, dünya xalqları arasında özünəlayiq movqe qazanması da o qədər mühüm əhəmiyyət daşıyır. Görkəmli siyasi xadim dəfələrlə qeyd edirdi ki, müstəqil Azərbaycan Respublikasının inkişafında dünyanın müxtəlif ölkələrinə yayılmış azərbaycanlıların həmrəyliyi, mənəvi-ideoloji siyasi köməyi böyük rol oynayır. Bir xalq olaraq əsas vəzifələrimizdən biri həm həmrəyliyi gücləndirməkdən, həmin köməyin daha ardıcıl, daha intensiv xarakter almasını təmin etməkdən ibarətdir. Dünyanın müxtəlif ölkələrinə səfərlərində Azərbaycan icmalarının nümayəndələri ilə görüş onlara hərtərəfli dəstək verən ulu öndərimiz dünya azərbaycanlılarının milli bir uğrunda mübarizəni Azərbaycan dövlətıı siyasəti səviyyəsinə qaldırmışdır. Heydər Əliyev elə bir proqram hazırlamışdır ki, ondan sonra da bu siyasətin istiqamətləri aydın və məqsədyönlüdür.

Biz 1993-cü ilin sonlarından etibarən milli ideologiyanın, azərbaycançılıq ideologi sının müasir elmi-nəzəri standartlar sayəsində formalaşmasının şahidiyik. Azərbaycançılıq bu gün milli ənənələri və cc-yanları, dini və praqmatik nəzəriyyələri, manın tələbinə uyğun iqtisadi prosesləri, miyyətin inkişafının bütün çalarlarını özü birləşdirir. Bütün bunlar ulu Öndərimizin xalqı qarşısında tarixi xidmətləridir.

Açar sözlər: ideologiya, siyasət, universal, dövlətçilik, konsepsiya

Müasir dünyada təzahür edən və böyük rola malik ideoloji cərəyanlardan biri milli ideologiyadır. Tarixi baxımdan onun inkişafı orta əsrlərdə bu istiqamətdə formalaşmış strukturların dağılması və yeni ictimai-iqtisadi quruluşun və bunun nəticəsində formalaşan millətlərin təşəkkülü ilə əlaqədardır. Bütövlükdə ideologiyanın milli tipi vətəndaşların cəmiyyətə siyasi tələblərini ifadə edir, onların sosial statusunu milli mənsubiyyətlə və milli-mənəvi dəyərlərlə yüksəltməyə istiqamətlənir. Milli ideologiya hər şeydən əvvəl milli dəyərlərin təbiətinin bu və ya digər səviyyədə başa düşülməsini ehtiva edir. Daha dəqiq desək, müəyyən tarixi şəraitdə yaranmış milli ideologiya mədəni normalarla və milli-mənəvi dəyərlərlə əhatə olunmuş milli özünüdərki və milli ruhu təcəssüm etdirir, milli-mədəni yekcinsliyin güclənməsinə imkan yaradır. Bu baxımdan, ölkəmizdə əsası Heydər Əliyev tərəfindən qoyulmuş azərbaycançılıq ideologiyasının formalaşması dövlətçiliyimiz və xalqımızın inkişafında mühüm rol oynamış, milli özünüdərkin və milli ruhun dirçəlməsinə səbəb olmuşdur. 1991-ci il dekabr ayının 25-də Azərbaycan Respublikasının Ali Soveti Naxçıvan MR Ali Məclisinin təşəbbüsünü dəstəkləyərək 31 dekabrı Dünya Azərbaycanlılarının Həmrəylik günü elan etdi və həmin günün hər il milli dövlət bayramı kimi qeyd olunması barədə qərar çıxartdı.Son illərdə müstəqil Azərbaycan dövləti böyük inkişaf yolu keçərək tarixin müxtəlif sınaqlarından çıxmış və dünya dövlətləri sırasında öz layiqli yerini tuta bilmişdir. Yüzlərlə dövlətlər sırasında Azərbaycanın üçrəngli bayrağının dalğalanması, Vətənimizin adının hörmətlə, şərəflə çəkilməsi hər bir Azərbaycan vətəndaşını sevindirir və hər birimiz başa düşürük ki, Azərbaycanın dünya səviyyəsində tanınmasında Ulu öndər Heydər Əliyevin fenomenal xidmətləri əvəzsizdir..Bu gün Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı olan Azərbaycan Prezidenti cənab İlham Əliyev də dünya azərbaycanlılarının təşkilatlanması məsələsini daim diqqət mərkəzində saxlayır və bu sahədə dövlət siyasətini uğurla həyata keçirir. Ötən müddətdə Azərbaycan Prezidenti cənab İlham Əliyev xarici ölkələrə səfərlərində dünyanın müxtəlif bölgələrində məskunlaşmış həmvətənlərimizlə görüşmüş, diaspor quruculuğu işinin vəziyyəti ilə yaxından maraqlanmış, bu sahədə mövcud olan

problemlərin aradan qaldırılması üçün lazımi tədbirlər görmüşdür. 2006-cı ilin martında Bakıda keçirilən dünya azərbaycanlılarının növbəti II Qurultayında Prezident İlham Əliyevin çıxışı, yəqin ki, Vətənini sevən, onun tarixi yaralarına və problemlərinə biganə qalmayan hər bir azərbaycanlının xatirindədir. Dünya azərbaycanlıları arasında böyük əks-səda yaratmış bu çıxış, əslində, ümummilli həmrəylik yolunda proqram xarakterli bir nitq idi.Prezident İlham Əliyev dəfələrlə həmvətənlərimizin ümumi maraqlarımız ətrafında birləşməsinin tarixi zərurət olduğunu vurğulamış və Ümummilli lider Heydər Əliyevin bu sahədə əldə etdiyi nailiyyətlərə əsaslanaraq daha da irəli getmək üçün mühüm addımlar atılacağını bəyan etmişdir: "Azərbaycançılıq ideyasının birləşdirici dəyər kimi bütün dünyada yaşayan azərbaycanlılar arasında yayılması, dilimizin, mədəniyyətimizin, mütərəqqi adət-ənənələrimizin, tariximizin yaşadılması və inkişaf etdirilməsi Prezident Heydər Əliyevin ideyası idi. Düşünürəm ki, bütün dünyada yaşayan soydaşlarımızın mədəni-mənəvi birliyinin mühüm şərti olaraq bu ideya bu gün də, gələcəkdə də bizim siyasətimizin əsasını təşkil edəcəkdir".Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev diasporumuzun mütəşəkkiliyinin möhkəmlənməsinin, soydaşlarımızın milli birlik və həmrəyliyinin təmin edilməsinin Ümummilli liderimiz Heydər Əliyevin ən böyük arzularından biri olduğunu xatırladaraq xalqımızın, bütün həmvətənlərimizin böyük öndərin xidmətləri nəticəsində daha sıx birləşdiyini, Onun müəyyən etdiyi strateji kursa, ideyalara sədaqət nümayiş etdirdiyini vurğulamışdır. "Hər bir azərbaycanlı dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, Azərbaycan dövlətinin, cəmiyyətinin problemləri ilə yaşamalı, onların həlli üçün mənəvi məsuliyyət hiss etməlidir. Eyni zamanda, Azərbaycan hökuməti də Vətənimizin getdikcə artan maddi və mənəvi potensialından, siyasi nüfuzundan bütün dünya azərbaycanlılarının bəhrələnməsinə şərait yaratmalı, onların milli və vətəndaş hüquqlarının qorunması üçün istifadə etməlidir". Bu fikirlər Prezident İlham Əliyevin diaspor quruculuğuna nə qədər böyük əhəmiyyət verdiyini və həmvətənlərimizin təşkilatlanması məsələsini ən vacib vəzifələrdən biri kimi qiymətləndirdiyini bir daha təsdiqləyir.

Istifadə olunan mənbələr

https://yeniazerbaycan.com/Siyaset_e11547_az.html

https://www.anl.az/down/meqale/respublika/2010/may/119512.htm

https://files.preslib.az/projects/heydaraliyev/articles/he1477.pdf

ARTISTIC EMBODIMENT OF MOUNTAIN CULT AND MOUNTAIN IMAGES IN AZERBAIJAN LITERATURE

AZƏRBAYCAN ƏDƏBİYYATINDA DAĞ KULTU VƏ DAĞ OBRAZININ BƏDİİ TƏCƏSSÜMÜ

BİLAL HƏSƏNLİ

Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, pedaqogika üzrə fəlsəfə doktoru, Əməkdar müəllim https://orcid.org/0000-0002-6964-0546

Özət

Məlumdur ki, dağ – təbiətin əzəmətli bir hissəsinə, təpədən uca, quruluqlarda yer üzündən ucalan yerlərə deyilir. İncəsənətin müxtəlif növlərində - ədəbiyyatda, rəssamlıqda, musiqidə və s. dağ yalnız yerin səthində yüksəklik deyil, təbiətin qüdrətini, saf havasını əks etdirən gözəllik kimi tərənnüm edilir.

Azərbaycan ədəbiyyatında təbiət mövzusunda əsərlər içərisində dağlara həsr olunmuş söz sənəti nümunələri xüsusi yer tutur. Bu, təsadüfi deyildir. Dağlar həmişə öz qüdrəti, əyiməzliyi, ucalığı, gözəlliyi ilə insanların diqqətini cəlb etmişdir. Bu mənada dağlar öz əzəməti, zirvələri, yarğanları, uçurumları, qayaları, şələləri, bulaqları, meşələri, çəmənləri ilə heç bir insanı laqeyd qoymayıb. Dağlar insanlara azadlıq ruhu, igidlik, xeyirxahlıq, öz gücünə inam tərbiyə edir, kiçik problemləri, xırda hisləri unutdurur.

Açar sözlər: dağ, təbiət, inam, kult, dastan, ədəbiyyat, xalq

Summary

It is known that a mountain is a magnificent part of nature, a place that rises above the earth in the drylands. In various types of art - literature, painting, music, etc. the mountain is not only a height on the surface of the earth, but it is praised as a beauty that reflects the power of nature and pure air.

Among the works on nature in Azerbaijani literature, examples of word art dedicated to mountains occupy a special place. This is not accidental. Mountains have always attracted people's attention with their power, inflexibility, height, and beauty. In this sense, the mountains with their magnificence, peaks, ravines, cliffs, rocks, waterfalls, springs, forests, meadows have not left anyone indifferent. Mountains teach people the spirit of freedom, bravery, kindness, confidence in their own strength, and make them forget small problems and petty feelings.

Key words: mountain, nature, faith, cult, saga, literature, people

GİRİŞ

YÖNTEM

Qədim türklərin dağla bağlı inancları

Ta qədim dövrlərdən türklər dağı kultlaşdırmış, dağların insanı şər qüvvələrdən qorumasına inanmışlar. Ucalıq rəmzi olan dağlar Göy Tanrısına yaxın sayılmışdır. Qədim insanların inancına görə, Tanrıya daha yaxın olan dağlar orada yaşayan insanlarda xarakterində əhəmiyyətli cəhətlərin, dəyərlərin formalaşmasına səbəb olur. Sanki zirvələrdəki təmizlik və

əzəmət, əbədi qarlar dağlarda doğulub ömür sürən insanların da xarakterinə sirayət edir, onlara mənəvi saflıq, əyilməzlik aşılayır.

"Qədim Türk inancına görə, Dünya Dağı üç qatdan ibarətdir: birinci qat başı günəşə çatan, doqquz iqlimin kəsişdiyi ənginlikdə yerləşən Altundağdır; ikinci qat yer üzündə doqquz meşənin dərinliyində yerləşən Dəmirdağdır; üçüncü qat isə yeraltı aləmin doqquz dənizinin birləşdiyi qaranlıq məkanda yerləşən Bakirdağdır. Dəmirdağ göyün 12-ci qatına qədər yüksəlirmiş. Yerlə göyü birləşdirən Dünya Dağının zirvəsi qızıl, əyilməz hissəsi – ortası dəmir, ayağı- aşağısı bakirdən (misdən) imiş.

Məlumdur ki, qədim türk dastanları türklərin dastanlaşmış tarixidir. Çin və İran qaynaqlarında yazıya alınmış "Köç" dastanında türklərin mənşəyi Tanrıya, dağa bağlanır. Dastanda uyğur elindəki Hulin dağından, bu dağdan axan Tuğla və Selenqa çaylarından söz açılır. Gecə dağdakı ağacın üstünə göydən ilahi işıq düşür və həmin işıq doqquz ay on gün ağacın üstündə durur. Ağacın gövdəsi şişməyə başlayır, şiş yarılır, içindən beş cocuq çıxır. İnsanlar bu cocuqları böyüdür.Uşaqların ən kiçiyi olan Buğu xan böyüyüb hökmdar olur. O, çinlilərlə sülh bağlamaq üçün oğlu Tigini Çin hökmdarının qızı ilə evləndirir. Tigin atasının Xatun dağında tikdirdiyi sarayda yaşayır. Bu dağın qonşuluğunda Tanrı dağı, cənubda Qutlu dağ yerləşir. Çinlilər türklərin gücünün bu dağda, qayada olduğunu düşünüb onları zəiflətmək üçün Xatun dağındakı qayanı yox etməyi qərara alırlar. Onlar Tiginin razılığı ilə qayanı parçalayıb aparırlar. Quşlar, heyvanlar qayanın aparıldığını görüb ağlaşır. Bu hadisədən yeddi gün sonra Tigin ölür. Ölkə fəlakətə düçar olur. Tigini əvəz edən hökmdaların da ömrü az olur. Nəticədə türklər məcbur olunb öz paytaxtlarını Beş balığa köçürürlər.

BULGULAR

"Kitabi-Dədə Qorqud" dastanlarında dağ obrazı

"Kitabi-Dədə Qorqud" dastanlarında Qazılıq dağı, Qara dağ, Ala dağın adı çəkilir, dağ çiçəyi ilə ana südünün məlhəm kimi ağır yaralını sağaltmasından, dağlara tapınması,onlara canlı varlıq kimi müraciət (animizm), alqış (Qara dağım yüksəyi oğul) və qarğışlar edilməsindən (Qazılıq dağı axar sənin suların, axar ikən axmaz oldun) söz açılır. Dağın ruhu, canı olması, bu ruhun dağın otunda,çiçəyində, qarında, suyunda, arslan, keyik, qaplanında təzahür etdiyinə, dağların möcüzəsinə inam hissi xalqımızın müxtəlif inanc, mif və əfsanələrində öz əksini tapıb.

Dastanda türklərin vətənpərvərliyi, doğma yurda bağlılığı, vətən torpağının hər qarışının, dağının, daşının, hər qayasının düşmən əlinə keçməsinin yolverilməz olduğu düşüncəsi öz əksini tapıb. Əsərdə dağdakı bir qayanın belə düşmənə təslim edilməsi xəyanət kimi yozulur. Qayanın düşmən əlinə keçməsi vətənin birliyinə, bütövlüyünə qəsd kimi mənalandırılır. [8, s.321]

Türklərin dağlara münasibəti yazılı ədəbiyyatda

Nizami Gəncəvi ölməz məhəbbət dastanı olan "Xosrov və Şirin" poemasında insan məhəbbətinin qüdrətini göstərmək üçün Bisütun dağının obrazını yaratmışdır:

Dağlıqda pənahı tapar hər pələng
Böyük dəryalarda yaşayar nəhəng.
Bizim yolumuzda dedi bir dağ var,
Çətinliklə keçir ordan adamlar.
Dağları sən yarıb yol salmalısan,
Olsun gediş-gəliş bir qədər asan.

...Fərhad bu sözlərdən həycanlanaraq,

Dedi:"Ey adil şah, hardadır o dağ?"

Xosrov nişan verdi ona uzağı,

İndi adlanır o Bisütun dağı.

O dağın hər yanı qart daşdı tamam.

Daşın sərtliyini bilir hər adam." [2.s.156.]

Eşq fədaisi, sənəti ilə möcüələr göstərməyə qadir olan mahir memar, sənətkar Fərhad öz məhəbbətinin gücü ilə dağları yaracağına əmindir:

Dağlardan artıqdır mənim qüvvətim,

Orduları pozar mənim qüdrətim.

Poladdan dağ olsa, yenə də insan,

Onu parça –parça dağıdar insan. [2, s.160]

Aşıq Ələsgər doğma yurdu, oylağı, seyrangahı olan dağlara iki şeir həsr etmişdir. Birinci "Dağlar" şeirində bahar fəslinin dağlara bəxş etdiyi əsrarəngiz gözəlliyi, süsənli, sünbüllü, lalalı yamaclarında ellərin büsat qurması təsvir edir. Sonrakı bəndlərdə yay, payız, qış fəsillərində dağların fərqli görkəmi, ovqatı təsvir və tərənnüm edilir. Aşıq dağların yayın əvvəlində xana dönməsini, son ayda yetkin bostana bənzədiyini, payızın soyuq küləklərinin dağların üstündəki calalı dağıtmasını, çiskinin, dumanın gəlib-gedəndə peşimançılıq yaratdığını, qışda zərnişan geymədiyini, ağ xalat büründüyünü bədii lövhələrlə göz önündə canlandırır. Şeirdə həmçinin insan və təbiət probleminin mənəvi asppektləri də öz əksini tapıb. Dağlar həm də ədalət, xeyirxahlıq rəmzidir.Yoxsul, ərbab, şah, gədanı qoynunda yer verən dağlar, onları bir-birindən fərqləndirmir. Öz gözəlliyini, nemətlərini hamıya eyni dərəcədə bəxş edir.

İctimai motivlərin daha güclü olduğu ikinci "Dağlar" qoşmasında aşığın doğma yurdun düşdüyü faciəli vəziyyətdən doğan kədəri, nisgilli ovqatı əks olunub. Keçən əsrin əvvəllərində torpaqlarımıza göz dikən xain ermənilərin törətdiyi soyqırımı nəticəsində Göyçəlilər öz doğma yurdlarını tərk etməyə məcbur olmuş, digər rayonlara pənah aparmışdılar. Kəlbəcərdə məskunlaşan aşıq Göyçəyə yalnız iki ildən sonra qayıda bilmişdi. Bu faciəli hadisələri öz taleyində yaşayan aşıq qoşmada el – oba dərdini ifadə etmişdir.

" Bir-birinin tamamilə əksindən ibarət olan bu iki "Dağlar"ın heç birisində mücərrəd, qeyri-real heç nə yoxdur... Qoşmaların hər bəndi çox gözəl işlənmiş bir tablodur. Bu tabloların insana sevinc, fərəh verənləri də, dərd, kədər verənləri da var, üzləri güldürənləri də, gözləri dolduranları da var. Lakin bütün bunların heç birisi ancaq bir dağ kimi, bir çüşmə kimi, bir çəmənzar kimi təsvir edilmir. Hamısı insanla, insanın həyatı, gündəlik məişəti, arzu və istəkləri, sevinc və kədərləri ilə bağlıdır. Aşığın heç elə bir təbiət təsvirinə rast gəlmək mümkün deyil ki, orada insan əsas olmasın.Ələsgərə görə, dünyada nə varsa, ancaq insanla bağlı olduğu üçün gözəldir." 8, s. 12-13.)

Qafqaz dağlarının əsrarəngiz gözəlliyindən vəcdə gələn dekabrist yazıçı Bestujev –Marlinski öz məktubunda yazırdı:"...Qayaların kənarı ilə gedərkən ...başamın üstündəki ənginliklərdə qartal dövrə vurur, aşağıda bulaq şırhaşır axırdı. Şərq tərəfdə dumana qərq olmuş ucsuz-bucaqsız mavi Xəzər görünürdü.Nəhayət yaşıllığa qərq olmuş, qardan başına tac qoymuş, od rəngli gül-çiçəklə bəzənmiş Qafqaz sıra dağları adamı valeh edirdi... Nə gözəl mənzərərlərdir bunlar!

... Mən sizdən soruşuram: bu qoca Qafqazın sakinləri necə olmalıydı? Əgər Skandinaviyanın daşlı-kəsəkli çölləri millətlər yığnağı adlandırılırsa, onda niyə də Qafqaz bəşəriyyətin beşiyi adlandırılmasın? Bu dağların qoynunda düünyanın ilk insanları gəzmişlər. Onlar bu mağaralardan, dağlardan yaylalara enib orada məskən salmışlar.Dəniz suları yavaş-yavaş geri çəkilmiş, axırıncı dalğalar yox olan yerdən başlayan münbit torpaq sahələrində insanlar məskən salmışlar. [5, s. 26]

Səfər yoldaşı rəssam Moynenin "Kitab elə qarın gətirilməsi haqqındadırmı?" sualına A. Düma belə cavab verir:" Xeyr, bu kitab qar dalınca göndərilən, təhlükəli, qorxulu hadisələrlə qarşılaşan bir gəncin hekayətidir. [5, s. 33]

Fikrimizcə, müəllif əsərdəki mühüm bir məqamı nəzərdən qaçırmışdır. Bu əfsanədə daha çox xalqımızın başı qarlı dağların, zirvələrdən süzülüb gələn bulaqların qüdrətinə, onun dirilik, saflıq rəmzi olan suyunun möcüzəsinə inamı öz əksini tapmışdır.

Vaxtilə böyük şair M.Ə.Sabir həyatda qarşılaşdığı haqsızlıqlardan bəhs edərək özünü dəryada dalğaların hücumuna məruz qalan, lakin əyilməyən, sarsılmayan dağlara bənzədərərk yazırdı:

Seyli-tən öylə təməvvüclə alıb dövrü-bərim,

Bənzərəm bir qocaman dağa ki, dəryada durar.

Döysə də canımı minlərcə məlamət ləpəsi,

Zövrəqi-himmətim əvvəlki təmənnada durar,

Nə qəm, uğratsa da bir gün məni ifnayə zaman,

Mən gedərsəmsə məramım yenə dünyada durar. [4 , s. 254]

Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" poemasını dağa müraciət şəklində yazmasının səbəbini belə izah etmişdir:" Dağ göylərə yaxındır. O, təbiətin şah əsərlərindən biridir. Dağ tarixin əbədi olaraq görən aşıq gözüdür. O, vətəndə baş verən hadisələri seyr edərək öz sinə dəftərinə yazır. Şairin göylərə qalxan nalələrini əks etdirib bütün yer üzünə yayaraq hamının qulağına çatdırmağı təkcə o bacarır." [7, s.238.]

Vətənpərvər şair Heydərbaba dağına üz tutaraq tarixən xalqımızın başına gələn faciələri ürək ağrısı ilə xatırladır, xalqın birliyinin zəruriliyi arzusunu dilə gətirir:

Heydərbaba, göylər bütün bunlar dumandı,

Günlərimiz bir-birindən yamandı.

Bir-birizdən ayrılmayın, amandı!

Yaxşılığı əlimizdən alıblar,

Yaxşı bizi yaman günə salıblar. [6, s. 253]

Şair Heydərbaba dağına canlı kimi müraciət edərək xalqın öz səadətini ilk növbədə igid oğulların azadlıq uğrunda mübarizə aparmaqla əldə edəcəyini bəyan edir:

Heydərbaba, mərd oğullar doğginən,

Namərdlərin burunların ovginən,

Gədiklərdə qurdları tut, boğginən,

Qoy quzular ayın-sayın otlasın... [6, s. 254]

Şəhriyarın "Səhəndiyyə, yaxud Səhəndim" poeması yüksək lirikanın, bədiiliyin zirvəsidir. Bədii təsvir və ifadə vasitələrinin, obrazlı, qanadlı fikirlərin köməyilə ecazkar bədii örpəyə bürüdüyü poemada yaratdığı son dərəcə orijinal epitetlərə nəzər salaq:

``````````Şah dağım, çal papağım, el dayağım, şanlı Səhəndim,

```````````````````````````Başı dumanlı Səhəndim (6.s.261).

**SONUC**

Dağlar mövzusu ədəbiyyatımızın ənənəvi mövzusudur. Çox az şair, yazıçı tapılar ki, bu mövzuya müraciət etməsin. S.Vurğun, İlyas Əfəndiyev, Qasım Qasımzadə, Məmməd Araz və digər sənətkarlarımızın əsərlərində dağların gözəlliyinin tərənnümü, dağlara məhəbbət motivləri mühüm yer tutur.

**KAYNAKLAR**

1."Kitabi-Dədə Qorqud". Bakı: Çaşıoğlu, 2004, 144 s.

2. Gəncəvi N. Xosrov və Şirin. Bakı: Çaşıoğlu, 2004, 319 s.

3. Aşıq Ələsgər. Seçilmiş əsərləri. Birinci kitab. Bakı: Elm, 1972, s. 12-13.

4. Sabir M.Ə. Hophopnamə. Bakı: Çaşıoğlu, 2004, 527 s.

5. Düma A. Qafqaz səfəri. Bakı: Yazıçı, 1985. S.34-35.

6. Şəhriyar M. Seçilmiş əsərləri.Bakı: Çaşıoğlu, 2004.268 s.

7. Nəbiyev B., Ş.Salmanov. Ədəbiyyat.XI sinif üçün dərslik.Bakı:Maarif, 1996, 367 s.

8. Səfərli Ə.,Yusifli X. Ədəbiyyat. 9-cu sinif üçün dərslik. Bakı:Öyrətmən,1994.367 s.

# THE ROLE OF YEREVAN SCHOOLS IN THE FORMATION OF THE GENERATION OF THE NATIONAL INTELLIGENTSIA

# MİLLİ ZİYALI NƏSLİNİN FORMALAŞMASINDA İRƏVAN MƏKTƏBLƏRİNİN ROLU

***FƏRRUX ABBAS OĞLU RÜSTƏMOV***

***pedaqoji elmlər doktoru, professor***

**Abstract**

Our ancestors, who lived for thousands of years in Western Azerbaijan, which is outside the legal and political borders of Azerbaijan, created a rich material and spiritual culture. This culture, including the culture of education, is an integral part of the Azerbaijani culture and history of statehood. In the article, the role of secular educational institutions (primary schools, pre-gymnasiums, Russian-Tatar (Azerbaijani) schools, gymnasiums, teacher's seminars, etc.) in the development of education among Azerbaijanis, which existed in Yerevan in the 19th century, is considered.

**Key words:** Yerevan, secular education, primary school, gymnasium, teachers' seminary

1.Azərbaycanın indiki hüquqi və siyasi sərhədlərindən kənarda qalan Qərbi Azərbaycanda min illər boyu yaşayan ata-babalarımız zəngin maddi və mənəvi mədəniyyət nümunələri yaradıblar. Bu mədəniyyət, o cümlədən təhsil-tərbiyə mədəniyyəti Azərbaycan mədəniyyətinin, dövlətçilik tarixinin ayrılmaz bir hissədir.



2.Azərbaycan xalqının parçalanmasını, tarixi torpaqlarının itirilməsini, İrandan və Türkiyədən ermənilərin kütləvi şəkildə bu ərazilərə köçürülməsini təmin edən Gülüstan (1813) və Türkmənçay (1828) sülh müqavilələri ilə **milli faciəmizin əsası** qoyulmuşdur. Zaman-zaman ermənilər bu torpaqlara köçürülmüş, azərbaycanlılar isə qovulmuş, öldürülmüş, deportasiya olunmuşlar. 1828-ci ildə şəhərdə 20 min insan yaşayırdı ki, onların da 4 mini erməni, 16 mini azərbaycanlı idi. Bu gün 1 nəfər də olsun azərbaycanlı yoxdur.

3.Son illərdə Qərbi Azərbaycanın təhsil tarixinin araşdırılması sahəsində intensivləşib.Bu, cənab Prezidentin 29 dekabr 2021-ci il tarixində imzaladığı ***"İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında"*** Sərəncamla bağıdır. Milli yaddaşın bərpasına hədəflənmiş Sərəncamdır. Bu, elmi-pedaqoji, siyasi-ideoloji, mədəni-mənəvi və həm də beynəlxalq siyasi əhəmiyyətə malikdir. Hər bir millət gələcəyə öz tarixinin çiynində gedir. Keçmişi bilməmək yalnız indi baş verənlərin dərkinə deyil, həm də gələcəyə nüfuz etmək təşəbbüslərinə mane olur. Keçmiş bu günlə bağlı olduğu kimi, gələcəklə də sıx əlaqədardır. Təkcə bu günü deyil, sabahı - gələcəyi dərindən dərk etmək, qiymətləndirmək baxımından da keçmişi yaxşı öyrənməli və sələflərimizin yaratdıqları mənəvi dəyərlərə sahib çıxmalıyıq.

4.Qərbi Azərbaycanda təhsil-tərbiyə mədəniyyətinin yaranmasında həm ənənəvi, həm dünyəvi məktəblər əhəmiyyətli rol oynamışdır. Ənənəvi məktəblər İrəvanın mənəviyyat pasportuna çevrilmiş insanlar yetişdirib. Onlar Qərbi Azərbaycanda maarifin və maarifçiliyin inkişafında müstəsna xidmətlər göstərmiş, pedaqoji hərəkatın yeni müstəvidə inkişafına və ictimai mühitin formalaşmasına təkan vermiş, həm ənənəvi məktəb və mədrəsələrin, həm də üsuli-cədid məktəblərinin açılmasına, təhsilin məzmununun təkmilləşdirilməsinə, ana dilində dərsliklərin

nəşrinə, məktəbyaşlı uşaqların dünyəvi təhsilə cəlb edilməsinə, yaşlı əhalinin savad almasını nəzərdə tutan cümə məktəblərinin, teatr truppasının və mətbuat nümunələrinin yaradılmasına nail olmaqla millətin mənəvi inkişafını və tərəqqisini təmin etmişlər.

5. İrəvan quberniyasında yaşayan azərbaycanlılar Bakı və Gəncə quberniyalarından sonra sayca üçüncü yeri tuturdu. Orta əsrlərdə olduğu kimi, XIX əsrin əvvəllərində də İrəvanda uşaqların təhsili məscidlərin nəzdində və şəxsi evlərdə təşkil edilən ənənəvi məktəb və mədrəsələrdə həyata keçirilirdi. Məktəb işləri ruhanilərin nəzarətində idi. Burada ənənəvi məktəb və mədrəsələrin geniş şəbəkəsi mövcud idi. İrəvanın əhalisinin kameral siyahıya alınmasını həyata keçirən İ.İ.Şopenin yazdığına görə, XIX əsrin 20-ci illərinin sonunda İrəvanda 8 böyük məscid fəaliyyət göstərirdi ki, bunlardan da 2-si qalanın içərisində yerləşirdi. İrəvanda 4 böyük məscidin dağıldığını bildirən İ.İ.Şopenin məlumatına görə, şəhərdə 332 axund və molla, 105 mirzə, 188 seyid, 10 dərviş yaşayırdı. Yalnız Hüseynqulu xan məscidində 200 şagird oxuyurdu. Yerli azərbaycan əhalisi böyüyən nəslin dini təhsil almasına böyük önəm verirdi. Mədrəsələrdə təhsilin məzmunu digər Şərq mədrəsələrində olduğu kimi, mürəkkəb və çətin idi.

6. İrəvanda yeni məktəb sisteminin yaradılması XIX əsrin 30-cu illərinə təsadüf edir. Yerli xalqları itaətdə saxlamaq, ruslaşdırma və xristianlaşdırma siyasətini həyata keçirmək, çarizmin hökmranlığını möhkəmləndirmək məqsədilə milli ucqarlarda qəza məktəblərinin açılmasını nəzərdə tutan Zaqafqaziya məktəblərinin ilk nizamnaməsi (2 avqust 1829) qəbul olundu. Azərbaycan ərazisində ilk qəza məktəbi 1830-cu il dekabrın 30-da Şuşa şəhərində 19 şagirdlə fəaliyyətə başladı. Sonrakı illərdə Nuxada (1831), Bakıda (1832), Gəncədə (1833), Şamaxı (1837), Naxçıvanda (1837) qəza məktəbləri açılıb. 11 yanvar 1831-ci ildə İrəvan şəhərində qəza məktəbinin açılması nəzərdə tutulsa da bu, mümkün olmadı. Yeni açılan ikisinifli qəza məktəbinə Moskva Universitetinin məzunu Feodor Zboev nəzarətçi (həm də müəllim) təyin edildi. Qəza məktəbini bir il sonra- 14 yanvar 1832-ci ildə 71 şagirdlə açmaq mümkün oldu. 1834-cü ilin fevral ayında şagirdlərin sayı kəskin azaldı. 34 nəfər şagird məktəbdən xaric edildi. İlk vaxtlar məktəb İrəvan qalasının ərazisində tədrisə o qədər də yararlı olmayan birmərtəbəli binada yerləşirdi. 1834-cü ildə Pavel Dmitrevski məktəbə nəzarətçi (müdir) təyin edildi. O, hesabatında bildirirdi ki, məktəbin otağının birinin şüşəsi yoxdur, kağızla örtülmüşdür; döşəməsi torpaqdır, şagirdlər hərəkət etdikcə toz-torpaq sinfə dolur. Yağış yağanda vəziyyət dözülməz olur, yağış sinif otağına damır. Otağın işıqlandırılması normal olmadığından şagirdlər hüsnxət dərsində əziyyət çəkirlər..



Acınacaqlı hal o idi ki, 1835-ci ilin iyulunda Müqəddəs Sarkiz kilsəsinin erməni keşişinin tələbi ilə qəza məktəbi (otaqlar kilsəyə məxsus idi) öz binasından çıxarıldı. Müəllimlər 87 şagirdlərə qədim yunan filosofu Aristotel kimi açıq havada dərs keçmək məcburiyyətində qaldı. 1838-ci ildə İrəvan qəza məktəbi üçün yeni bina kirayə edildi. Yeni bina İrəvan sakini Seyid Hüseynə məxsus idi. Onun mülkü 125 tümənə (500 rubl) kirayə edilmişdi. Mülk məktəb üçün yararlı olsa da nisbətən uzaqda yerləşirdi. Təsdiq olunmuş cədvəl əsasında hər gün 4 saat dərs keçilirdi ki, onun da 2-si nahara kimi, 2-si isə nahardan sonra baş tuturdu. Hər dərs saatyarım davam edirdi. Çərşənbə və bazar günləri dərslər nahara qədər davam edirdi. Dini və çar bayramlarında dərslər olmurdu. Şagirdlər 1 iyuldan 15 avqustadək yay tətilində olurdular.

Qəza məktəbinin köçəri həyatı 1842-ci ildə başa çatdı və onun üçün tikilmiş binaya köçürüldü. 1832-1844-cü illərdə İrəvan qəza məktəbi ikisinifli məktəb kimi fəaliyyət göstərdi. Həmin dövrdə dərslər iki növbədə keçirilirdi. 1833-cü ildə qəza məktəbində 46, 1834-cü ildə 71, 1835-

ci ildə 87, 1836-cı ildə 81, 1837-ci ildə 72, 1838-ci ildə 94, 1940-cı ildə 80, 1941-ci ildə 80, 1942-cı ildə 90 şagird oxuyurdu. Tədris resursları, dərslik və yazı materialları az idi.

Yeni nizamnamədən sonra İrəvan qəza məktəbində Azərbaycan dilinin və müsəlman hüququnun (şəriətin) tədrisi reallaşdı. 1836-cı ildə Molla Tağı Mahmud oğlu İrəvan qəza məktəbinə ana dili və şəriət müəllimi təyin edildi. 1836-1856-cı illərdə qəza məktəbində çalışan Molla Tağı Mahmud oğlu azərbaycanlıların qəza məktəbinə cəlb edilməsində, onların ana dilini və şəriəti mənimsəmələrində əhəmiyyətli rol oynadı. O, 20 ildən artıq bir müddətdə İrəvan qəza

məktəbinin ştatlı Azərbaycan dili və şəriət müəllimi oldu. Molla Tağı Mahmud oğlu İrəvanda dövlət məktəbində ana dilini və şəriəti tədris edən ilk azərbaycanlı müəllim kimi məktəbdə və dini camiyyədə böyük hörmət və nüfuz sahibi olmuşdur.

7.1838-ci ildə Qazan Təhsil Dairəsinin popeçiteli qraf Musin-Puşkinin nəzarəti altında hazırlanmış "Müsəlmanlara müraciət" adlı sənəd İrəvan quberniyasındakı azərbaycanlılar arasında geniş yayıldı. Azərbaycanlı uşaqların dövlət məktəblərinə qəbulunun ildən-ilə artmasında bu müraciət əhəmiyyətli rol oynadı. Qəza məktəbi 1844-cü ildə üçsinifli məktəbə çevrildi. İrəvan qəza məktəbində 364-a yaxın azərbaycanlı oxuyub. Bu demək deyil ki, onların hamısı qəza məktəbini bitirib. Xəstəlyinə, ailə vəziyyətinə, başqa məktəbə getməsi ilə əlaqədar olaraq gedənlər çox olub. 1867-ci ildə 187 nəfərdən 82-i xaric olub, cəmi 3 nəfər məzun olub. İrəvan qəza məktəbinin Azərbaycan dili və şəriət müəllimləri Mirzə Molla Tağı Mahmud oğlu (1836-1856) və Mirzə Əkbər Elxanov (1856-1868) olub.

8.Qəza məktəbi 1869-cu ildə İrəvan kişi progimnaziyasına çevrilib. Məktəb progimnaziya kimi 1881-ci ilə kimi fəaliyyət göstərib. Progimnaziyaya daxil olan 2642 şagirddən 267-si azrbaycanlı olub. Azərbaycan dili və şəriət müəllimi Mirzə Ələkbər Elxanov (Elxani) olub.



9.31 mart 1881-ci ildə Dövlət Şurası İrəvan və Yelizavetpol (Gəncə progimnaziyalarının gimnaziyaya çevrilməsi hqqında qərar qəbul etdi. Cəmi 2 bənddən ibarət olan qərarda göstərilirdi:

İrəvan və Yelisavetpol (Gəncə-R.F.) dörd sinifli progimnaziyaları tam səkkiz sinifli gimnaziyalara çevrilsin, 1881/82-ci ildən başlayaraq beşinci və növbəti siniflər açılsın. *Vladimir İosifoviç Brajnikov* gimnaziyaya direktor təyin edilib. Sonrakı illərdə gimnaziyaya *Qriqori Alekseyev Boqolyubski,Feodor Yefimoviç Kotılevski,Fedr İliç Stasenki, E.A.Çoqaşvili* rəhbərlik etmişdir. 1913-cü ildə gimnaziyanın 29-cu buraxılış ilində məzunların ümumi sayı 535 nəfər olub.1885-ci il İrəvan kişi gimnaziyasının həyatında ilk məzunların yola salınması ilə yadda qaldı. Məzunların sayı (cəmi 6 nəfər) olsa da bu, çox böyük hadisə idi. Gimnaziyanın 700 nəfərə yaxın məzunu olub ki, onlardan da 150 nəfəri azərbaycanlı olub.

10. 1856-cı ildə Azərbaycan dili müəllimi işləyən M.Ə.Elxanov bu sahədə xeyli təcrübə topladıqdan sonra öz dövrü üçün mükəmməl hesab eddilən "Tatar dili" dərsliyini yazmışdır.

11.1885-ci ildə Qori Müəllimlər Seminariyasının məzunu *Firudin bəy Köçərli* 1885-1895-ci illərdə gimnaziyada Azərbaycan dili, şəriət, və hüsnxət fənlərini tədris etmiş, pansion tərbiyəçisinin köməkçisi vəzifəsində çalışmışdır. Qori Müəllimlər Seminariyasının məzunu *İsmayıl bəy Məmməd bəy oğlu Şəfibəyov* 1896-1918-ci illərdə gimnaziyada Azərbaycan dili, 1896-1906-cı illərdə şəriət fənlərini tədris etmiş,1896-1916-cı illərdə panson tərbiyəçisinin köməkçisi vəzifəsində işləmişdir. *Mirzə Məmməd Şeyxzadə* 1907-ci ildə, *Şeyx Əbusəttar Kazımov* isə 1908-1918-ci ildə gimnaziyada şəriət fənnini tədris etmişlər.

12.Rusiya Dövlət Şurası 20 oktyabr 1880-cı ildə "Kutaisi və İrəvan quberniyalarında müəllimlər seminariyalarının təşkil edilməsi haqqında" qərar qəbul edib. İrəvan Seminariyasına dövlət xəzinəsindən 28.350 rubl. vəsaitin ayrılması nəzərdə tutulub. Seminariyanın ilk direktoru görkəmli maarifçi Yakob Stepanoviç Suşevski olub. Sonrakı illərdə Aleksey Miropiyev, İvan Andreyeviç Pastuyeviç, Aleksey Martinov Zazuboviç, Sergey Nikolayeviç Streleçkiy, Valentin Vasilyeviç Dobrotin İrəvan Müəllimlər Seminariyasına rəhbərlik ediblər. Yakob Stepanoviç Suşevski ilk illərdə seminariyanın təşkilində böyük çətinliklərlə qarşılaşsa da 9 müəllim, 42 şagirdlə tədrisin təşkilinə nail olub. Hər il 15 nəfər azərbaycanlı tələbənin İrəvan Müəllimlər Seminariyasında dövlət vəsaiti hesabına oxuması və pansionda yaşaması nəzərdə tutulmuşdu.

İrəvan Müəllimlər Seminariyasında Azərbaycan dili müəllimi vəzifəsində Axund Məmmədbağır Qazızadə, Rəhim Xəlilov, Həmid bəy Şahtaxtinski, Mirzə Cabbar Məmmədzadə, şəriət müəllimi vəzifəsində Axund Məmmədbağır Qazızadə, Axund Əbülhəsən Qazızadə işləmişdir. İrəvan Müəllimlər Seminariyasının məzunu olan Həbib bəy Səlimov (Azərbaycan Xalq Cümhuriyyətinin generalı) az bir müddətdə seminariyada gimnastika (fiziki tərbiyə) müəllimi işləmişdir.

XIX əsrin 30-cu illərindən İrəvanda yaranan dünyəvi təhsil müəssisələri (qəza məktəbləri, progimnaziya, rus-tatar (Azərbaycan) məktəbi, gimnaziya, müəllimlər seminariyası və s.) Qərbi Azərbaycanda milli məfkurənin və milli maarifçiliyin inkişafında əhəmiyyətli rol oynamışdır.

Millət yaratdığı şərəfli tarixi ilə özünü ifadə edir. İndi yadlara, yağılara qalan qədim İrəvan şəhərində təşəkkül tapan dünyəvi təhsil maarifçilik tariximizin, milli mədəniyyət tariximizin və kimliyimizin parlaq səhifələrindən birini təşkil edir.

**Açar sözlər:** İrəvan, dünyəvi təhsil, ibtidai məktəb, gimnaziya, Müəllimlər Seminariyası



**Ədəbiyyat**

1.“İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında” Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 dekabr 2021-ci il tarixli Sərəncamı. //”Xalq qəzeti” 29 dekabr 2021-ci il

2.Məmmədov İ., Əsədov S. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı:Azərbaycan,1992

3.F.Rüstəmov. Milli müəllim kadrları hazırlayan təhsil ocağı //”Azərbaycan müəllimi” qəzeti, 7 və 20 yanvar 2022-ci il

4.F.Rüstəmov.İrəvan Müəllimlər Seminariyası və onun məzunları.Bakı:Elm və təhsil, 2021

5.Рудольф Н.Ф.Обзор деятельности Кавказского учебного округа (1908-1912 гг). Тифлисъ 1914, 231 с.

6.Сборник постановлений по Министерству народного просвещения Царствование императора Александра II, Том 7, 1877-1881.С.Петербургъ.1883.

7.Шавров Н. Новая угроза русскому делу в Закавказъе: предстояшая распродажа Мугани инородцам.СПб.1901,с.59-61

8.Шопен, Иван Иванович Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи: В тип. Имп. Академии наук, 1852, 1236 s.

# YUSIF BALASAGUNLU'S WORK "GUTADGU BILIK" AS A WONDERFUL EXAMPLE OF TURKISH ARTISTIC AND AESTHETIC THOUGHT

# YUSİF BALASAQUNLUNUN "QUTADQU BİLİK" ƏSƏRİ TÜRK BƏDİİ-ESTETİK DÜŞÜNCƏSİNİN MÖHTƏŞƏM NÜMUNƏSİ KİMİ

**Prof. Dr. ELMAN GULIYEV**

**Azerbaycan, Bakü Azerbaycan Dövlet Pedagoji Üniversitesi Türkoloji merkezin Türk edebiyatı bölümünün başkanı Orcid: 0000-0001-5413-9479**

## ÖZET

Yusif Balasaqunlunun əsərə "Qutadqu bilik" adı verməsi təsadüfi deyildir. "Xoşbəxtlik", "uğurlu tale" və s. mənalarını bildirən "qut" sözünün leksik dəyişməsi və "bilik" sözü ilə yanaşı işlənməsi nəticəsində ifadə etdiyi məna "xoşbəxtliyə aparan elm" əsərin adı ilə bağlı müəllif məqsədini özündə ehtiva edir. Əsərdə Gündoğdu ədalətin, Aydoldu səadətin, Öydülmüş ağlın, Odqurmuş isə aqibətin rəmzidir. Əsər boyu bütün məsələlər türk adı ilə ifadə olunmuş obrazlarla əlaqəli təqdim olunur. Müəllif bu obrazların fəaliyyət çevrəsində bir tərəfdən dövlət, cəmiyyət, sosial-hüquq, məişət, digər tərəfdən isə axirət və dünya problemlərini diqqət mərkəzinə çəkir.

**Anahtar kelimeler:** Y.Balasaqunlu, ədalət, səadət, ağıl, türk

## ABSTRACT

It is no coincidence that Yusif Balasagunlu called the work "Qutadgu bilik". "Happiness", "good luck", etc. As a result of the lexical change of the word "gut" and the word "knowledge", the meaning "science leading to happiness" includes the author's goal in relation to the title of the work. In the work, Gundogdu is a symbol of justice, Aydoldu is a symbol of happiness, Oydulmus is a symbol of reason, and Odgurmus is a symbol of fate. Throughout the work, all issues are presented in connection with the images expressed by the Turkish name. The author draws attention to the problems of the state, society, social law, household, on the one hand, and on the other hand, the problems of the hereafter and the world in the sphere of activity of these characters.

**Key words:** Y. Balasagunlu, justice, happiness, mind, Turkish



## GİRİŞ

Yusif Balasaqunlu XI əsr türk-islam mədəniyyətinin ilk böyük mütəfəkkir nümayəndəsidir.O, 1017-ci ildə Qaraxanlı dövlətinin (840-1212) mədəniyyət mərkəzi hesab olunan Balasaqun şəhərində anadan olmuşdur.Y.Balasaqunlunun "Qutadqu bilik" əsəri (1069-1070) türk xalqlarının bədii təfəkkür gücünü özündə əks etdirən, türkcə qələmə alınmış əsərlər içində birinci dəfə sözə Allahın adı ilə başlanılan ilk (XI əsr) yazılı sənət abidəsidir. "Qutadqu bilik" məsnəvi formasında yazılmış mənzum didaktik əsərdir. Əsər 6645 beytdən ibarətdir. Lakin əsərə 77 beytlik mənzum və kiçik bir mənsur müqəddimə də əlavə edilmişdir. Bu parçaların kim tərəfindən yazılıb əsərə əlavə edilməsi barədə hələlik dəqiq bir fikrə gəlinməsə də, ehtimal olunur ki, həmin parçalar müəlli- fin özünə məxsusdur. Çox güman ki, Y.Balasaqunlu əsərə əlavəni ömrünün sonlarında yazmışdır. Belə ki, oxucuya birbaşa ünvanlanan 75 və 76-cı beytlərdə bu hal öz təsdiqini belə tapır:

***Türkcə bu şeirləri sənin üçün düzdüm, Ey oxucu, oxuyaraq mənə dua et.***

***Mən dünyadan gedirəm, məni eşit. Kitabdan ibrət al, gözünü aç.***

Onu da qeyd edək ki, bu əlavələrin istər nəsr, istərsə də nəzm his- sələrində əsərin ətraf ölkələrdə yayılması və müəllifinə şöhrət gətirməsi barədə məlumat verilir. Müəllif kitabın Çində "Ədəbül-mülük", Ma- çində "Ənisül-məmalik", məşriğdə "Zinətül üməra", İranda "Şahname- yi-türki", Turanda "Qutadqu bilik" adı ilə şöhrət tapmasını qürur hissi ilə qələmə alır. Ehtimal ki, əsər müəllifin sağlığında əlyazma halında adı çəkilən ölkələrdə yayılmış və bunun nəticəsi olaraq Y.Balasaqunlu fakt kimi bunları əsərə əlavə etmişdir.

"Qutadqu bilik" mütəqarib bəhrinin Fa'ülün Fa'ülün Fa'ülün Fa'ül təfilə quruluşuna uyğun yazılmışdır. Lakin bu fikrə də tədqiqatçıların münasibəti birmənalı deyildir. Belə ki, əsərin milli şeir vəzni hecada ya- zılmasını təsdiqləyən fikirlər də mövcuddur. Qeyd edək ki, əsərdə 173 dördlük vardır ki, bunlar da islamiyyətdən əvvəlki mani türk şeir şəklinə uyğundur. Həmin dördlük-mani quruluşunda cinaslı qafiyələnmə sistemi mövcuddur ki, mənbələrdə bu proses sonrakı dövrlərdə milli türk şeiri olan tuyuğ şəklinin inkişafına böyük təsir göstərən amil kimi təsdiqlənir. "Qutadqu bilik" Xan dili ilə tanınan Kaşqar-Xaqaniyyə türkcəsində yazılmışdır. Yeni ədəbi dil olan Kaşqar-Xaqaniyyəsi həm də Qaraxan-

lıların dövlət dili idi.

"Qutadqu bilik" əsərinin üç əlyazma nüsxəsi mövcuddur: Vyana, Qahirə və Fərqanə.

**YÖNTEM**

1439-cu ildə Heratda Həsən Qara Şəms tərəfindən uyğur əlifbası ilə üzü köçürülmüş nüsxə İstanbula gətirilmişdir. Həmin nüsxə şərq- şünas alim Hammer tərəfindən satın alınaraq Vyana Saray kitabxanası- na hədiyyə olunmuşdur. Vyana nüsxəsi "Qutadqu bilik"in elm aləminə məlum olan ilk nüsxəsi hesab olunsa da, tədqiqatçılar onu naqis hesab edirlər. Həmin variant ilk dəfə 1870-ci ildə nəşr olunmuşdur.



"Qutadqu bilik"in ərəb əlifbası ilə yazılmış ikinci nüsxəsi 1896- cı ildə Qahirədə tapılmışdır. Qahirə Saray kitabxanasında saxlanılan bu nüsxənin materialları ilk dəfə 1943-cü ildə çap olunmuşdur. Əsə- rin ərəb əlifbası ilə üzü köçürülmüş mükəmməl nüsxəsi hesab olunan Fərqanə (Namanqan) variantı isə elm aləminə 1913-cü ildə məlum olmuşdur. Z.Vəlizadə və Fitrət tərəfindən aşkarlanan bu nüsxə ilk dəfə 1934-cü ildə nəşr olunmuşdur. Hazırda Fərqanə nüsxəsi Vilayət kitabxanasında saxlanılır.

Y.Balasaqunlunun əsərə "Qutadqu bilik" adı verməsi təsadüfi de- yildir. "Xoşbəxtlik", "uğurlu tale" və s. mənalarını bildirən "qut" sö- zünün leksik dəyişməsi və "bilik" sözü ilə yanaşı işlənməsi nəticəsində ifadə etdiyi məna "xoşbəxtliyə aparan elm" əsərin adı ilə bağlı müəllif məqsədini özündə ehtiva edir:

***Kitaba "Qutadqu bilik" adını verdim, Oxuyanı uğurlasın, əlindən tutsun.***

***Sözümü söylədim, kitabı yazdım.***

***Bu kitab uzanıb hər iki dünyanı tutan əldir.***

Y.Balasaqunlu "Qutadqu bilik"i çox əziz bir kitab kimi qiymət- ləndirir və "dəyərli biliklərlə bəzədilmiş" bu kitabı "qananlar üçün elm dəryası" hesab edir. Kitabın ən dərin hikmət və inci çələngi olması xü- susi şəkildə vurğulanır. Ona görə də müəllifin oxucuya ünvanladığı "bu kitabı hər oxuyan-yazan anlamaz, onu ancaq oxuyub-duyan başa düşər" sözləri təsadüfi səslənmir.

"Qutadqu bilik" ilk olaraq Tanrının, Məhəmməd peyğəmbər və onun 4 əshabəsinin Əbubəkr, Ömər, Osman və Əlinin, o cümlədən dövrün ha- kimi Buğra xanın tərifi ilə başlayır. Bunların ardınca gələn təxminən 270 beytlik müxtəlif başlıqlı parçalarda kainatın yaranması, 7 səyyarə, 12 bürc və insan haqqında məlumat verilir. Kitabda özünə yer tapan bundan sonrakı (təxminən 6000 beyt) bütün məsələlər 4 ulu və möhkəm təməl üzərində qurulur: a)ədalət; b)səadət; c)ağıl; d)qənaət və aqibət.

Əsərdə Gündoğdu ədalətin, Aydoldu səadətin, Öydülmüş ağlın, Odqurmuş isə aqibətin rəmzidir. Əsər boyu bütün məsələlər türk adı ilə ifadə olunmuş obrazlarla əlaqəli təqdim olunur. Müəllif bu obraz- ların fəaliyyət çevrəsində bir tərəfdən dövlət, cəmiyyət, sosial-hüquq, məişət, digər tərəfdən isə axirət və dünya problemlərini diqqət mərkə- zinə çəkir. Buna görə də əsərdə "dünyaya gələn gündən adını alıb, atınıminən, mənzil-mənzil ölümə yaxınlaşan", "özü yox, adı əbədi olan" insanın "müvəqqəti dünya ilə" "əbədi aləm" xəttindəki yeri və mövqe- yi tam müəyyənləşir, onun nəfsi tərksilah olunur. Müəllif Gündoğdu, Aydoldu, Öydülmüş və Odqurmuşun əməl, fəaliyyət, həyata baxış və dünyagörüşlərini geniş dairədə təqdim edir. Məhz bu təqdimatda hökm- dar və cəmiyyət, insan və dünya, insan və əbədi aləm problemləri önə çəkilərək ədalətli cəmiyyət idarəçiliyi barədə təsəvvür genişləndirilir. O cümlədən, bu dünya və axirətdə xoşbəxt olmağın yolları göstərilir. Gündoğdu Elik ədalətin rəmzidir. Onun xarakteri günəşin əlamət- lərinə uyğun təqdim olunur. Günəş formasını, işığını dəyişmədiyi kimi Gündoğdunun da ədalətli "nur və işığı" dəyişməzdir, günəş kainata işıq və istilik bəxş etdiyi kimi, onun da ədaləti insanlara rahatlıq və əmin- amanlıq bəxş edir, günəşin bürcü və təməli sabit olduğu kimi Gündoğ- du da ədalətli hökmündə, rəftarında sabit və qərarlıdır və s. O, uzun bir ömür yaşayan hökmdardır. Sözü bütöv, gözü, könlü tox, əməli doğru insandır. Lakin əsərdə onun müsbət keyfiyyətlərinin təqdimi bununla bitmir. Gündoğdu Elik cəsur, xoşəxlaq, bilikli, ağıllı, şəxsi meyllərdən uzaq və s. xüsusiyyətləri ilə də təqdim olunur. O, əsərdə hakimiyyəti təkbaşına idarə etməyin əleyhdarı kimi çıxış edir. Buna görə də idarəçi- likdə özünə yardımçı ola biləcək ağıllı bir köməkçi axtarır. Gündoğdu Elik əsl hökmdar olaraq sayıq və ehtiyatlılığı ilə seçilir. O, bir siyasi xadim kimi başa düşür ki, dövlət işində ehtiyat və sayıqlıq dövlətin ömrünü uzadar, qanunla idarə olunan cəmiyyətdə xalq xoşbəxt yaşa- yar. Y.Balasaqunlu Gündoğdu Elikin simasında ədalətli hökmdar obra- zı yaratmaqla türk dövlət idarəçiliyi və ictimai-siyasi görüşləri barədə

kompleks təsəvvür yaratmışdır.

Əsərdə bu cür təsəvvürlər Aydoldunun şəxsində bir qədər də konk- retləşir, fikirlər qarşılıqlı mükalimədə (Hacib-Aydoldu və Gündoğ- du-Aydoldu qarşılaşmasında) təqdim olunur. Doğruluğu özünə şüar edən Aydoldu qüsursuz xidməti ilə tanınır. Əsərdə onun adının mənası ayla müqayisədə açıqlanır: "Ay göydə birinci gün kiçik görünür, günlər keçdikcə böyüyür, bədirlənib dünyanı işıqlandırır, böyüyüb ən yüksək zirvəyə çatır, təkrar kiçilib yenidən böyüməyə başlayır". Məhz Aydoldu səadət və dövlətin rəmzi olduğundan bu açıqlamada səadətin, var-döv- lətin əbədi olmadığına, ay kimi yerini və formasını dəyişdiyinə görə

ona bel bağlamamaq, aludə olmamaq tövsiyə olunur. Aydoldu dövlətin ikinci səlahiyyətli adamı vəzir kimi cəmiyyətdə nüfuz sahibidir. Lakin müəllif onun nüfuzunun səbəbini səlahiyyəti ilə deyil, daha çox "könlü- nü tanrıya bağlaması", "həyatda hər şeyi sınaqdan çıxararaq qərar ver- məsi", "biliklə hünər əldə etməsi", "dünya malını əlavə yük bilməsi", "hər nəyin çarəsin doğruluqda axtarması" və s. ilə əlaqələndirir.

## BULGULAR

"Qutadqu bilik" əsərində Aydoldunun ictimai-siyasi, fəlsəfi, mənə- vi, psixoloji görüş və digər həyati baxışları Gündoğdu və oğlu Öydül- müşlə söhbətlərində diqqəti cəlb edir. Bu söhbətlər

əslində türk təfək- kürü yanaşmasında dövlət, cəmiyyət, ədalət və s. problemlərə baxışın ölçü və meyarlarını müəyyənləşdirmək baxımından əhəmiyyətlidir.

"Qutadqu bilik" əsərində "fəaliyyət dairəsinə" görə fərqli obraz- lardan biri Öydülmüşdür. O, əsərdə ağlın rəmzi kimi çıxış edir. Atasının ölümündən sonra Gündoğdu onu yanına çağırır və söhbət zamanı Öy- dülmüşün ağlı hökmdarı heyran qoyur. Buna görə Gündoğdu ona sa- rayda səlahiyyət verir. Çalışdığı müddət ərzində Öydülmüş uğur qaza- nır, xalqı xoşbəxtliyə, dövləti isə tərəqqiyə aparır. Öydülmüşün fikirləri maddi dünya ilə əbədi aləm müstəvisində bir növ tənzimləməyə xidmət göstərir. Öydülmüş ağıl və biliyi insanın bu dünyada qazandığı ən bö- yük nemət hesab edir. O, hər cür xoşbəxtliyin səbəbini ağıl və bilik adlı "açarla"bağlayır. Bütün əsər boyu onun aşpazlıqdan, təbiblikdən, ovçu- luqdan, tərbiyədən və s. tutmuş dövləti idarə etmək qaydalarına qədər düşüncələri əsl ağıl sahibinin görüşləri şəklində təqdim olunur. Ona görə də oxucu bu təqdimatda sosial mühit və məişətdə nəyi necə etməyin qay- dalarını öyrənir, bütövlükdə həyatda yaşamaq və davranmaq mədəniyyə- tinin türk təfəkküründən süzülüb gələn nizamı ilə tanış olur.

"Qutadqu bilik"də əsas obrazlardan biri də Odqurmuşdur. O, aqibə- tin rəmzidir. Odqurmuş bütün varlığı ilə əbədi aləmin cazibəsindədir. Heç bir qüvvə onu bu cazibədən "xilas edə" bilmir. Bu səbəbdəndir ki, onun qohumu (qardaşı) Öydülmüş dəfələrlə onu sarayda çalışmağa dəvət etsə də o, bu təklifi qəbul etmir. Ona görə ki, Odqurmuş dünya nemətlərinə göz yumaraq sarayda xidmət göstərməyi yox, axirətə (aqi- bətə) hazırlaşmağı hər şeydən üstün tutur. Bu səbəbdən də o, zahidliyi saraya getməkdən daha şərəfli bilir. Onun əqidəsi əsərdə dönə-dönə tək- rarlanan fikirlərdə təsdiqini tapır:

***Bu dünyadan əl üzüb vaz keçmək lazımdır, O biri dünyanı bu yolla əldə etmək olar.***

***Dönük dünyadan möhkəm yapışmaqla Əbədi dünyanı necə əldə etmək olar?***



Biz əsərdə Öydülmüşlə Odqurmuşun bir neçə dəfə görüşünün şahi- di oluruq. Bir növ bu görüşlər həyat və axirət problemlərinə həsr olun- duğu üçün müəyyən şərtilikdən də uzaq dayanmır. Bu səbəbdəndir ki, mənəviyyat dünyasının iki böyük simasının bir neçə dəfə üz-üzə daya- naraq fikir mübadiləsi etmələri mətləbin daha genişlikdə, bütün təfər- rüatları ilə açılmasına xidmət göstərir.

**SONUÇ**

Müəllif Odqurmuşun fikirlərini maddi və əbədi dünya kontekstində təqdim etməklə islami təsəvvürlər haqqında bilgiləri nümayiş etdirir.

"Qutadqu bilik" əsəri Yusif Balasaqunlunun özünə nəsihətləri ilə tamamlanır. 40 beytlik bu nəsihətdə müəllif biliyin insan həyatındakı rolundan, bilikli insanlarla biliksizlərin fərqindən, sözlərinin doğrulu- ğundan, bu dünyanın müvəqqəti olmasından, hər iki dünyada mövqe qazanmaqdan, əsərin 18 aya tamamlanmasından və s. bəhs edir.

"Qutadqu bilik" XI əsr türk ədəbi dilinin kamil nümunəsi kimi dil, üslub və fikrin bədii imkanları baxımından da diqqəti cəlb edir. Məhz bu dilin formalaşma və inkişafında Y.Balasaqunlunun müstəsna xid- mətləri olmuşdur. Bu fikir əsərdə öz ifadəsini belə tapır:

***Bu türkcə sözü geyik kimi gördüm,***

***Onu yavaşca tutdum, özümə yaxınlaşdırdım. Oxşadım, isitdim, tez könül verdi***

***Ancaq yenə də ara-sıra hürkür, qorxur.***

"Qutadqu bilik"də ifadə gözəlliyi baxımından diqqəti çəkən yüzlər- lə nümunəyə rast gəlmək mümkündür:

"Kamalın bəzəyi dil, dilin bəzəyi sözdür, insanın bəzəyi üz, üzün bəzəyi isə gözdür", "hər kəsin hərəkəti onun əslinə şahiddir, hərəkə- ti nədirsə, əsli də odur", "insanın özü əbədi deyil, adı əbədidir", "pis söyülər, yaxşı öyülər", "biliksiz kişi həmişə xəstə olar", "ağıl qaranlıq gecədə bir çıraqdır", "hirslə iş tutan peşman olur", "kimdə ağıl olsa, o əsilli olar" və s. Bu cür deyimlər əsərin dil və üslub baxımından zəngin- liyini, türk dilinin ifadə imkanlarının genişliyini təsdiqləmiş olur.

**KAYNAKÇA**

1. Quliyev E. Orta əsrlər türk xalqları ədəbiyyatı. Bakı, 2010.
2. Quliyev E. Türk xalqları ədəbiyyatı. Bakı, 2011
3. Quliyev E. Türk xalqları ədəbiyyatı. Bakı, 2014
4. Mahmud Kaşğari. Divanü lüğat-it türk. 4 cilddə, Bakı, 2006
5. Yusif Balasaqunlu. "Qutadqu bilik"Xoşbəxtliyə aparan elm, Bakı, 1994.
6. Yusif Balasaqunlu. Qutadqu bilik, Bakı, 1998.

# NİZAMİ "XƏMSƏSİ" VƏ ƏLİŞİR NƏVAİ

**Prof. Dr. ELMAN GULIYEV**

**Azerbaycan, Bakü Azerbaycan Dövlet Pedagoji Üniversitesi**
**Türkoloji merkezin Türk edebiyatı bölümünün başkanı**
**Orcid: 0000-0001-5413-9479**

## Özet

Nizami Gəncəvinin "Xəmsə" yaradıcılığı bir çox sənətkarlara təsir göstərmiş və onlar Nizami ənənəsi çərçivəsində qələmlərini sınaqdan çıxarmışlar. Bu sırada tanınmış özbək şairi Əlişir Nəvainin adını qeyd edə bilərik.

Ə.Nəvai "Fərhad və Şirin" poemasında Nizami yaradıcılığından kifayət qədər bəhrələnməsinə, müəyyən süjet oxşarlıqları saxlamasına baxmayaraq, Fərhada münasibətdə fərqli baxışlarını ortaya qoymuş, onu sənətkar, daşyonan, rəssam yox, hökmdar oğlu obrazında təqdim etmişdir. Ona görə də Fərhadın bir hökmdar oğlu kimi təqdimatında onun doğulması, tərbiyələnməsi, təhsili, sarayda keçən uşaqlıq illəri və s. kimi səhnələrin Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərində olmamasına təbii yanaşmaq lazımdır.

Lakin hər iki əsərdə aparıcı olsa da, müxtəlif ampulalarda (hökmdar oğlu və daşyonan) təqdim edilən Fərhadların ölüm səhnəsində bir-birinə tam şəkildə uyğun gələn epizodlar diqqətdən yayınmır. Poemaların hər ikisində Fərhada qarşı məkrli ölüm tədbiri Xosrov tərəfindən hazırlanır. Hər iki əsərdə məkrin icraçıları Şirinin yalançı ölüm xəbəri ilə Fərhadı sarsıdırlar. Hər iki əsərdə məkrli qasidlərin sözləri kimi üzləri də iblisanə görkəmdə təsvir edilir. Bunları birmənalı olaraq Nizami təsirinin nəticəsi hesab etmək lazımdır.

**Anahtar kelimeler:** Nizami, Ə.Nəvai, "Xəmsə" , şeir, ənənə

## Summary

Nizami Ganjavi's creation "Khamsa" influenced many artists and they tested their pens within the Nizami tradition. At the same time, we can mention the name of the well-known Uzbek poet Alishir Navai.

In his poem "Farhad and Shirin", A.Navai has benefited enough from Nizami's work, despite maintaining certain plot similarities, he has revealed different views on Farhad and presented him in the image of a ruler's son, not an artist, a dashoner, an artist. Therefore, in the presentation of Farhad as a ruler's son, his birth, upbringing, education, childhood years spent in the palace, etc. The absence of such scenes in Nizami Ganjavi's "Khosrov and Shirin" should be taken for granted.

However, even though it is the lead in both works, the episodes that are completely compatible with each other in the death scene of Farhads, which are presented in different ampoules (son of the ruler and Dashyonan), do not go unnoticed. In both poems, Khosrov prepares a cunning death measure against Farhad. In both works, the executors of the plot shock Farhad with the false news of Shiri's death. In both works, the faces of the insidious messengers are depicted in a demonic appearance, as well as the words. These should be considered the result of Nizami's influence.

**Key words:** Nizami, A. Navai, "Khamsa", poetry, tradition

## GİRİŞ

Nizami Gəncəvi Azərbaycan ədəbiyyatının elə görkəmli nümayəndələrindən biri olmuşdur ki, onun yaradıcılığı özündən sonrakı sənətkarlar üçün ənənə roluna çevrilmişdir. Şairin "Xəmsə" yaradıcılığı bir çox sənətkarlara təsir göstərmiş və onlar Nizami ənənəsi çərçivəsində qələmlərini sınaqdan çıxarmışlar. Bu sırada tanınmış özbək şairi Əlişir Nəvainin adını qeyd edə bilərik. Nizaminin "Xəmsə" ənənəsinə uyğun olaraq Ə.Nəvainin yazdığı əsərlərdən biri də "Fərhad və Şirin" poemasıdır. Şairin bu əsəri Ə.X.Dəhləvi və Marağalı Əşrəfin "Şirin və Xosrov" eyni adlı poemalarından sonra "Xəmsə" ənənəsi silsiləsinə daxil olan 3-cü poemadır. Əlişir Nəvai poemada "Əsərin məxəzləri" hissəsində Dəhləvi və M.Əşrəfin adını çəksə də, əsəri yazarkən Nizami Gəncəvidən təsirləndiyini və ondan bəhrələndiyini gizlətmir:

Yazım can lövhindən iki rəvayət,
Fərhadla Şirindən edim hekayət.
Gəncədə bəslənən o böyük ustad,
Bu xoş əfsanəni belə etmiş yad...

Əlişir Nəvainin yaxın dostu, zəngin yaradıcılıq irsinə sahib, Şərqin mütəfəkkir şairi Ə.Cami Nəvainin "Fərhad və Şirin" poemasından bir il öncə yazdığı "Xəmsə" silsiləsinə daxil olan "Yusif və Züleyxa" (1483) adlı məhəbbət əsərində –

Köhnəlmiş Xosrovla Şirin dastanı,
Şirin sözlə tapım yeni sultanı.
Məcnunla Leylinin bitmiş söhbəti,
Başqa bir aşiqin çatmış növbəti, –



deməsinə baxmayaraq, Nəvai bu cür mövzuların Şərq cəmiyyəti üçün aktual olduğunu xüsusi vurğulayırdı. Nizamidən təsirlənən Nəvai poemanı yazarkən əsərdəki Nizamiyə məxsus məhəbbət və cəmiyyət strukturunu qoruyub saxlasa da, Nizamidən fərqli olaraq hadisələrin mərkəzində Xosrovu deyil, Fərhadı saxlamışdır. Nizaminin "Xosrov və Şirin" poemasında Fərhad Çində sənət məktəbi keçmiş, daşlar üzərində nəqşlər yaratmaq gücündə olan rəssam (mühəndis) obrazında təqdim edilir. Nəvai isə Fərhada tam fərqli müstəvidə yanaşmış, onun taleyini hökmdar oğlu simasında müəyyənləşdirmişdir. Nizami isə öz idealları daxilində Fərhada yanaşmış, onun möhtəşəmliyini fiziki və mənəvi bütövlükdə təqdim etməyə çalışmışdır. Nizami Fərhadı zəngin mənəviyyatlı insan, mahir rəssam-usta və elmlərə vaqif şəxs kimi təqdim etməklə insanın cəmiyyətdə yeri, rolu və mövqeyi məsələsinə də toxunur, Şapurun dili ilə onu oxuculara belə təqdim edir:

Dedi: "Fərhad adlı bir cavan vardır,
Usta mühəndisdir, bir sənətkardır.
Həndəsə elmində xariqə saçar,
"Məçəsti", İqlidis sirrini açar.

Lakin Nizami Gəncəvi əsərdə Fərhadın bu cür təqdim edilməsinə baxmayaraq, mövzusuna uyğun olaraq öz qəhrəmanını eşq, məhəbbətlə bağlı hadisələrin mərkəzinə çəkməyə qərar verir və Fərhadın taleyini hadisələrlə birbaşa bağlamağa çalışır. Bu səbəbdən Nizami Fərhadı bütöv bir şəxsiyyət kimi göstərməyə üstünlük verir. Şübhə yoxdur ki, Fərhadın sənət sirlərinə, Evklid riyazi nəzəriyyəsinə və Ptolomey fəlsəfəsinə bələdçiliyi əsərdə məqsədli olaraq qabardılmış və Fərhadın şəxsiyyət amili ilə birbaşa bağlantı yaradılmışdır. Nizami öz qəhrəmanını hərtərəfli

insan modelində ("kamil bir palançı olsa da insan" düşüncəsində) verdiyi üçün onun məhəbbəti əsərdə sıradan deyil, əsərdəki mahiyyəti (obraz, hadisə və əhvalatlar anlamında) kökündən silkələmək və dəyişmək gücündə görünür. Ona görə də Nizami Fərhadı bir növ məhdud əməkçi insan çərçivəsindən çıxararaq onu öz idealları ilə üz-üzə saxlayır və yeni mündəricəni belə təqdim edir:

Şirinin qəlbində varmış bir məraq,
Qart daşlar bağrında çəkdirə bir arx.
Bu işçin arardı bir əhli-hünər,
Şapur ona verdi Fərhaddan xəbər
Fərhadçın Şapuru Şirin yolladı,
Şapur da tez gedib tapdı Fərhadı.
Pərdə arxasında Şirin durarkən,
Şirin dillə ona iş buyurarkən,
Bu xoş səsi duyan o xəstə Fərhad
Aşiq oldu ona, qopardı fəryad.
Səbrini itirdi, qərarı getdi,
İş bir yerə çatdı, həyatı bitdi.

**YÖNTEM**

Bu səhnənin bədii əksi Əlişir Nəvainin "Fərhad və Şirin" əsərində təxminən eynidir. Belə demək mümkünsə, daşyonan Fərhadla şahzadə Fərhadın düşüncə və baxışlarında ciddi fərq müşahidə edilmir. Bu mənada Əlişir Nəvainin Nizami Gəncəvidən birbaşa təsirləndiyi göz qabağındadır:



Könlünə süd düşən zamanda Şirin,
Çarə axtarırdı bu çətinlikçin,
Uzaqdan gətirmək südü bu yerə,
Böyük əziyyətdi xidmətçilərə...
...Şirin öz dərdini xəbər verirkən
Şapur lalə kimi açıldı birdən.
Əmr etsən yerinə yetirərəm mən,
Fərhadı hüzura gətirərəm mən...
Şapur gedib gəzdi, tapdı Fərhadı
Xəbər verdi ona bu əhvalatı
Şirinin qəsrinə apardı onu
Oturtdu kürsüyə, aldı könlünü.
Dodaqları şəkər, gülüşü şirin,
O pərdə dalından səsləndi Şirin.
Fərhad eşidəndə onun səsini,

Duydu ki, itirir öz qüvvəsini.

Dərindən ah çəkdi orda bir kərə,

Xəstə adam kimi yıxıldı yerə...

Lakin Ə.Nəvainin Nizami yaradıcılığından kifayət qədər bəhrələnməsinə, müəyyən süjet oxşarlıqları saxlamasına baxmayaraq, Fərhada münasibətdə fərqli baxışlarını ortaya qoymuş, onu sənətkar, daşyonan, rəssam yox, hökmdar oğlu obrazında təqdim etmişdir. Ona görə də Fərhadın bir hökmdar oğlu kimi təqdimatında onun doğulması, tərbiyələnməsi, təhsili, sarayda keçən uşaqlıq illəri və s. kimi səhnələrin Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərində olmamasına təbii yanaşmaq lazımdır.

Lakin hər iki əsərdə aparıcı olsa da, müxtəlif ampulalarda (hökmdar oğlu və daşyonan) təqdim edilən Fərhadların ölüm səhnəsində bir-birinə tam şəkildə uyğun gələn epizodlar diqqətdən yayınmır. Poemaların hər ikisində Fərhada qarşı məkrli ölüm tədbiri Xosrov tərəfindən hazırlanır. Hər iki əsərdə məkrin icraçıları Şirinin yalançı ölüm xəbəri ilə Fərhadı sarsıdırlar. Hər iki əsərdə məkrli qasidlərin sözləri kimi üzləri də iblisanə görkəmdə təsvir edilir. Bunları birmənalı olaraq Nizami təsirinin nəticəsi hesab etmək lazımdır. Əgər Nizami bədxah qasidi,

Üzü qırış-qırış, özü də idbar,

Üzü qəssab kimi "qan, qan" deyirdi,

Ağzı Nəffat kimi "yan, yan" deyirdi, –

şəklində iblisanə görkəmdə yaddaşlara həkk edirdisə, Ə.Nəvai isə onu, –

O qəddi yay kimi bir pirəzaldı

Fələk piri kimi hər sözü aldı.

Məkrdən üzündə xətt vardı çin-çin,

Dilinə ömründə gəlməmişdi çin,

görkəmində nifrət obyektinə çevirirdi.

Ə.Nəvainin digər əsərlərində olduğu kimi, "Yeddi səyyarə" əsərində də söz mülkünün sultanı hesab etdiyi dahi Nizaminin "Yeddi gözəl" poemasından təsirləndiyi göz qabağındadır. Hər iki sənətkarın "Xəmsə" silsiləsinin dördüncü sırasında dayanan bu əsərlərdə hadisələr demək olar ki, eyni mövzu və ideya ətrafında cərəyan etdirilir.

Ə.Nəvai "Yeddi səyyarə" poemasının əvvəlində Nizaminin şeiriyyətdəki qüdrətini alqışlayaraq ondan təsirləndiyini, bu mövzuda əsər yazmağın həyəcan və məsuliyyətini belə anladır:

Nizami yaradıb təzə bir mələk,

Bu, ona vəsməylə verib bər-bəzək.

Nazlı bir sərv əkib Nizami öncə,

Xosrov da gedibdir onun izincə.

İstərəm onları mən də izləyim,

Onların sözünə bənzər söz deyim.

Yox, yox boş-boşuna öyünməkdi bu,

Cəfəng danışmaqdır, sözün doğrusu,

Şahmat taxtasında çəkərək qatar,

Dayanıb üz-üzə qaralar, ağlar

De, neyləyə bilər adi piyada

Cəng meydanı olan həmin taxtada?

**BULGULAR**

Bildiyimiz kimi, Nizami Gəncəvi 1197-ci ildə tamamaladığı "Yeddi gözəl" poemasında baş qəhrəman Bəhramın simasında ədalətli cəmiyyət, ədalətli idarəçilik, yeni insan və yeni ideallar məsələlərinə önəm vermiş, problemləri zaman, insan və cəmiyyət kontekstində dəyərləndirmişdir. Bu mənada əsərdəki mövzular Sasani hökmdarı V Bəhramın hakimiyyəti dövrü ilə bağlansa da, əsərdə həmin tarix şərti olaraq yer almış, problemlərə dövlət, cəmiyyət, ədalətli idarəçilik, yeni əxlaqa və dünyagörüşə malik insan və s. çərçivəsində aydınlıq gətirilmişdir. "Yeddi gözəl"də bəzi fərqli məqamları nəzərə almasaq (Rastü-Rövşən obrazı, Simnarın faciəsi, Fitnə obrazı, Bəhramın hakimiyyət uğrunda mübarizəsi və s.) Nizaminin irəli sürdüyü və həllinə çalışdığı ideal cəmiyyət və ədalətli idarəçilik ideyaları ilə Ə.Nəvainin eyni süjetli "Yeddi səyyarə" poemasının ideyaları üst-üstə düşür. Nəvaidə səyyahların söylədiyi hekayələrin məzmun və mahiyyətində humanizmin, ədalətin, haqqın, elmin, maarifin və s. təbliğini Nizami təsiri ilə yanaşı, geniş mənada Azərbaycan intibahının Şərqə nüfuz səviyyəsi tipində qəbul etmək doğru olar. Şübhə yoxdur ki,

Arxayınlıq olan bir məmləkətdə,

Gün-gündən varlanar şəhər də, kənd də,

Bir də hünər gərək, fərasət gərək,

Elmə, maarifə məhəbbət gərək –

misralarında yer alan ədalətli cəmiyyət və yeni insan idealı, barədə Nəvai fikirlərinin kökündə Nizami idealları dayanır.

Nizami Gəncəvi XII əsr Azərbaycan bədii-estetik düşüncəsində ilk dəfə insanın cəmiyyətdə yeri və rolu məsələsinə toxunaraq nə etməli? və necə yaşamalı? suallarına cavab tapmağa çalışırdı. Düzdür, Nizamidən əvvəl də Firdovsi, Xaqani, Ö.Xəyyam, Y.Balasaqunlu, Məhsəti Gəncəvi, Şihabəddin Şöhrəverdi və s. kimi türk-şərq bədii-fəlsəfi fikrinin dahi şəxsiyyətlərinin əsərlərində insanın cəmiyyət fonunda mənəvi-əxlaqi, dini-fəlsəfi səviyyəsinin dəyərləndirilməsi diqqət mərkəzində olmuşdur. Burada məsələlər daha çox ruhi-mənəvi düşüncələrin ortaya qoyduğu kamil insan konsepsiyası daxilində həllini tapmışdır. Lakin Nizami yanaşmasında bu çərçivə genişləndirilərək insan daha çox cəmiyyəti təkmilləşdirən tarixi varlıq və tarixi şəxsiyyət tipində (Sultan Səncər, Bəhram şah, Xosrov Pərviz, İsgəndər və s.) təqdim olunur, ideallar insanın real cəmiyyətlə birbaşa əlaqəsində formalaşdırılır:

Tanısan özünü keçsən cahandan,

Yenə bu dünyada yaşayacaqsan.

Özündən hər kim ki, deyil xəbərdar,

Bir qapıdan girər, birindən çıxar.

Nizami idealları sırasında humanizm və indiki terminlə ifadə etsək demokratizm məsələləri əhəmiyyətli yerlərdən birini tutur. "Xosrov və Şirin"də, "İskəndərnamə"də olduğu kimi "Yeddi gözəl"də də əksər hadisələr bu problemlərin mahiyyətindən doğan məsələlər üzərində qurulur.

"Yeddi gözəl"də feodal-patriarxal cəmiyyəti üçün səciyyəvi olan hadisələr Bəhram şahın çevrəsində – sarayda və saraydan kənar olan insanlar arasında cərəyan edir. Nizami Bəhram şahın bütün hakimiyyət dövrünü ideallaşdırmasa da, əsərdəki şahın zalım vəziri öldürməsi, qoca çobanın evinə getməsi, ayrı-ayrılıqda 7 nəfər məzlumun şikayətini dinləməsi və s. səhnələrdə zülmə qarşı barışmazlığın şahidi olur, şairin ədalətli hökmdar və ədalətli cəmiyyət düşüncələrində mövcud olan sistemi izləyə bilirik.

Ə.Nəvai öz növbəsində Nizami Gəncəvinin obrazlarından fərqli olaraq "Yeddi səyyarə" poemasında özünəməxsus obrazlar sistemində (məsələn "Dördüncü səyyahın hekayəti" hissəsində Məsud və Cevnə) zamanından, quruluşundan və məkanından asılı olmayaraq ədalətli cəmiyyət formalaşdırmaq üçün adil insan faktorunun vacibliyini xüsusi vurğulayır:

Tabedir adil bir şaha bu ölkə,

Ellərin başına o salmış kölgə.

Görüm ömrü uzun, günü ağ olsun,

Məclisi hər zaman, çılçıraq olsun.

Hər vaxt ədalətlə hökm edən o şah,

Ədlindən aləmi eyləmiş agah.

Zülmün köklərini elə üzüb ki,

Ədalət dürrünü elə düzüb ki,

Bunun səbəbinə gördüyün diyar

Əmin-amanlıqla olmuş bəxtiyar.



**SONUÇ**

Nizaminin "Yeddi gözəl" poemasında oxucu marağına səbəb olan və yaddaqalan epizodlardan biri də Fitnə ilə bağlı əhvalatlardır. Poemanın "Bəhramın öz kənizi ilə macərası" və "Bəhramın ovlaqdan sərhəngə qonaq getməsi" hissələrində ov zamanı Bəhram şahın ox atmaqla gurun ayağını başına tikməsini Fitnənin məharət deyil, adi bir vərdiş kimi qiymətləndirməsi, şahın buna qəzəblənərək onu ölümə məhkum etməsi, Sərhəngin Fitnəni öldürməməsi, həmçinin gizlin saxlaması, Fitnənin bir öküzü 60 pilləli pilləkənlə hər gün yuxarı qaldırması, şahın bunu adi vərdiş hesab etməsi və Fitnənin ona cavabı yer almışdır. Ə.Nəvai isə "Yeddi səyyarə" poemasında "Yeddinci səyyahın hekayəti"ndə hadisələri qismən dəyişmiş və Fitnə obrazını Dilaramla əvəzləmişdir. Dilaram da Fitnə kimi şahın ovçuluq məharətini adi vərdiş kimi qiymətləndirdiyinə görə cəzalandırılır. Maraqlıdır ki, Fitnədən fərli olaraq qəzəblənən şah Ə.Nəvainin Dilaramını ac-susuz qalıb ölsün deyə əl-qolunu bağlatdırıb kimsəzsiz məkana atdırır. Nəvaidə Nizamidən fərqli olaraq öküzün pillələrlə yuxarı qaldırması səhnəsi yoxdur. Bu səbəbdən Nizaminin "Yeddi gözəl" əsərinin maraqlı səhnələrindən biri olan Fitnənin şaha ünvanladığı cavab Ə.Nəvainin "Yeddi səyyarə " poemasında yer ala bilmir:

Gümüşbədən Fitnə baş əydi şaha,

Layiqincə ona eylədi dua.

Ədəblə söylədi: "Qəribədir çox!"

Öküz adətlədir, gur vurmaq yox?

Adətlə iş görür, öküz qaldıran,

Bu başqa şey deyil, sadə bir idman.

Səbəb nədir kiçik gur vuranda sən,

Olmasın bir nəfər "adətdir" deyən?"

Lakin Nəvainin "Yeddi səyyarə" poemasında bu tipli hadisələrin hətta başqa bir tərzdə özünü göstərməsi Nəvaiyə məxsus orijinallıq nümunəsinə çevrilsə də, bütün hallarda əsərin ümumi ideyası Nizami ideallarına uyğun qurulmuş, Nəvainin öz sözləri ilə desək "Nizami sözünə bənzər söz deməklə" o, Nizami ədəbi məktəbinin layiqli davamçısı olduğunu təsdiqləmişdir.

Göründüyü kimi, əbədi sonsuzluğa yüksəlmiş Nizami Gəncəvi sənətinin ədəbi qüdrəti və bədii möhtəşəmliyi əsrlər boyu Şərqdə bu sənətdən bəhrələnmək, bu sənətin ədəbi yolçuluğuna qoşulmaq ehtiyacı doğurmuş, nəticə etibarı ilə Nizami ədəbi məktəbinin nümayəndələri sayəsində Şərq ədəbiyyatı zaman-zaman özünün böyük inkişaf yolunu davam etdirmişdir.

**Kaynakça**

1.Araslı, N. ( 2021). Nizami Gencevi ve Halk Sanatı Fıkrası / Nizami Gencevi: Hayatı ve Sanatı. Sanatçının Bilimsel Pasaportu – 25 (toplu yazarlar). Bakü - Bilim.

2.Abbasov, A. (1966). Nizami Gencevi`nin "İskendername" Eseri. Bakü - Bilim.

3.Bayat, F. (2004). Oğuzname(ler) / Dede Korkut Kitabı. Ansiklopedik Sözlük. Bakü -Önder Yayınevi.

4.Caferov, N. ( 2002), Azerbaycan Araştırmasına Giriş Bakü- AzAtaM.

5.Caferov, N. (2021). Nizami Gencevi veya Dünyaca Ünlü Azerbaycan Şairi / Nizami Gencevi Klasik ve Çağdaş Araştırmalarda (makaleler toplusu). Bakü - Bilim ve Eğitim.

6.Dede Korkut Kitabı. (2004). Ansiklopedik Sözlük. Bakü-Önder Yayınları.

7.Abülgazi Bahadır Han. (2002). Şecare-i-Terakime (Türkmenlerin soy kitabı) / Rusça`dan Çeviri, Önsöz ve Belirtilenlerin Yazarı ve Kaynakça Derleyicisi İ.M.Osmanlı. Bakü-Azerbaycan Milli Ansiklopedisi N-PB.

8.Azizova, F. (2021). "Nizami Gencevi Sanatında İntibahın Sanatsal Algısı" Deneme / Nizami Gencevi: Hayatı ve Sanatı. Sanatçının Bilimsel Pasaportu – 25 (toplu). Bakü - Bilim, 438-487

9.Gencevi, N. (1982). Hüsrev-ü Şirin. Çeviren Resul Rza, N.Gencevi. Bakü - Yazar.

10.Gencevi, N. (1982). İskendername. Şerefname. Farsça`dan Çeviren Abdulla Şaik. İkbalname. Farsça`dan Çeviren Mikayıl Rzakuluzade. Bakü - Yazar.

11.Hacıyev, T. (1999). Dede Korkut: Dilimiz ve Düşüncemiz, T.Hacıyev. Bakü - Bilim.

12.Halil, A. (2004). "Dede Korkut Kitabı"nın Semiyotik Yapısı, Türk Halklarının Edebi Geçmişi: Türk Destanları. Uluslararası Sempozyum. Bakü – Kafkas Üniversitesini Yayınları.

13 .Köroğlu, H. (1999). Oğuz Kahramanları Destanı / H.Köroğlu. Bakü - Yurt.

14 .Gafarlı, R. (2002). Mit, Efsane, Masal ve Destan (Sözlü Epik Geleneklerin Türkler Arası İlişki). R.Gafarlı. Bakü - ADPÜ Yayınları.

15. Mübariz, M. (24 Haziran 1938). Nizami Sanatına Azerbaycan Folklorunun Etkisi "Edebiyat Gazetesi", 9.

# YUNUS ƏMRƏ ŞEİRİ VƏ İRFAN

***F.ü.f.d. ÜLKƏR ELMAN BAXŞİYEVA***

***ADPU-nun Filologiya fakültəsinin Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının baş müəllimi***

## ÖZET

Klassik türk poeziyasının görkəmli nümayəndəsi Y.Əmrənin təsəvvüf ədəbiyyatının inkişafında misilsiz xidmətləri olmuşdur.Y.Əmrənin təsəvvüfi görüşlərinin əsasını Allah,kainat və insan problemləri təşkil etmişdir.Y.Əmrə öz şeirlərində təsəvvüfün ən dərin qatlarına enmiş və türk dilində yazıb yaratmışdır.Təsəvvüf fəlsəfəsi elə bir sirli xəzinədir ki,nə qədər araşdırılıb təhlil olunsa belə, onun mahiyyəti tam açıqlanmamışdır. Bu cərəyan özündə çox böyük,qatı asanlıqla açıla bilməyən dərin mənaları əks etdirir.Təsəvvüf cərəyanı İslam dinindən qaynaqlanır.Orta Asiyada Əhməd Yəsəvi ilə başlayan türk xalq təsəvvüf şeiri Y.Əmrə ilə davam etdirilərək ədəbi məktəb səviyyəsinə çatdırılmışdır.Y.Əmrədə təsəvvüf vəhdəti-vücud (varlığın birliyi) fəlsəfəsinə ,yəni Tanrıyla insan və kainatın ayrı olmadığı düşüncəsinə söykənir.Y.Əmrə sufizmində kainatda olan bütün varlıqlar,insan Allahdan qopan zərrələrdir.Y.Əmrəyə görə yalnız nəfsinə hakim olan ,bu yaxşı cövhərlərin toxumlarını qəlbində cücərdib böyüdən,Allah eşqinə,Tanrı sevgisinə tutulan şəxslər Tanrıya qayıda bilər.Təsəvvüfi görüşlərin əsasında vəhdəti-vücud fəlsəfəsi dayanır.Bu fəlsəfədə varlıq təkdir, tək olan isə Allahdır. Ən böyük həqiqət isə Allahın dərki və ona qovuşmaqdır.Yunis Əmrə təsəvvüf baxışlarında da bu hikmət diqqət mərkəzində saxlanılır. Y.Əmrəyə görə insan bütöv halda üç komponentdən ibarətdir: bədən ,can, ruh.Burada bədən zahiri görkəm ( kainatda canlı və cansız olan bütün görünənlərin zahiri görkəmi) ,can "heyvani can " (kainatdakı bütün canlı orqanizmlər) ,ruh isə yalnız ilahi əxlaq daşıyıcısı olan insanlara aid anlamlarında yer alır. Y.Əmrənin bir şeirində deyildiyi kimi,"Bir mən vardır məndə ,məndən içəri."Bütün bunlar onu göstərir ki, Y.Əmrə təsəvvüfü "duyuş, düşünüş və inanış " mərhələlərini öyrənmək və onları keçmək üçün başlıca mənbədir. Allaha qovuşmaq hər kəsə qismət olmur,bu da xüsusi qabiliyyət tələb edir.Mütləq ilahi eşq yolundan keçmək lazımdır.Bu vüsala "fənafillah"(Allahda yox olmaq,ərimək) deyilir.Y.Əmrə dini-fəlsəfi görüşlərindən aydın olur ki,Allaha qovuşma mərhələsində təsəvvüfün "dördyol" lüzumundan mütləq keçmək şərtdir.Y.Əmrəyə görə şəriət və təriqət mərifətə yetirər,lakin mərifətin dərinliyində də həqiqət vardır.Təsəvvüf ədəbiyyatının ana xətti,sütunu olan şəriət, təriqət,mərifət və həqiqət mərhələlərinin Y.Əmrə şeirlərində dini-fəlsəfi yozumu geniş yer tutur.

**Açar sözlər:** Y.Əmrə ,təsəvvüf,İrfan,Allah,Məhəmməd,türk,eşq.

**Summary:** An outstanding representative of classical Turkish poetry, Y.Amre had unparalleled services in the development of Sufi literature.The problems of Y. Emre's Sufi meetings were based on God, the universe and human problems.In his poems, Y.Amre descended to the deepest layers of Sufism and wrote in Turkish.The philosophy of Sufism is such a mysterious treasure that, no matter how much it is studied and analyzed, its essence has not been fully revealed.This current has very large, deep meanings that cannot be easily revealed.Sufism is rooted in Islam.Turkish folk Sufi poetry in Central Asia, which began with Ahmed Yesevi, was continued with Y. Emre and brought to the level of a literary school.In Y.Amre, Sufism is based on the philosophy of the unity of being, that is, the idea that man and the universe are

inseparable from God.Sufi meetings are based on the philosophy of unity.In this philosophy, existence is one, and God is one.The greatest truth is the understanding of God and reunion with Him.This wisdom is also in the focus of Yunis Emre's Sufi views.According to Emre, man as a whole consists of three components: body, soul, and spirit. It is included in the meanings of the people who carry it.As it is said in one of Y.Amre's poems, "I have an I, inside me."All this shows that Y. Emre's Sufism is the main source for studying and passing through the stages of "feeling, thinking and believing".Not everyone is fortunate enough to be reunited with God, which requires special abilities. It is necessary to follow the path of divine love.This means is called "fanafillah" (disappearance, melting in Allah).It is clear from Y. Emre's religious and philosophical views that in the stage of reunion with God, it is necessary to go through the "four-way" necessity of Sufism.According to Y.Amre, sharia and sect bring enlightenment, but there is also truth in the depth of enlightenment.The religious and philosophical interpretation of the stages of Sharia, sect, enlightenment and truth, which are the main line and pillar of Sufi literature, occupies a wide place in Y. Emre's poems.

**Keywords:** Y.Emre, Sufism, Irfan, God, Muhammad, Turk, love.

## GİRİŞ

Y.Əmrə 1240- (41)-ci ildə Sivrihasar yaxınlığında Sarıköydə anadan olmuşdur.Y.Əmrənin nəsli Anadoluya Xorasandan gəlmişlər.Təsəvvüfün görkəmli nümayəndələri Mövlana Cəlaləddin Rumi də,Hacı Bektaş Vəli də Anadoluya Xorasandan köç etmişlər.Bütün bunları nəzərə alıb,Anadolunu təsəvvüf mərkəzi adlandırsaq yanılmarıq. Y.Əmrənin də bir təsəvvüf şairi kimi formalaşmasının kökündə bu amilin dayandığını (bir çox səbəblərdən biri kimi) inkar etmək mümkün deyil. Y.Əmrə öz şeirlərində təsəvvüfün ən dərin qatlarına enmiş və ən əsası türk dilində yazıb yaratmışdır.Bəzi materialist düşüncəli insanlar Y.Əmrə haqqında (eynilə Mövlanaya yanaşdıqları kimi) çox yalnış fikirlər irəli sürmüşlər.Onların fikrincə Y.Əmrə dinin dərinliklərinə endikcə,təsəvvüfdə ucaldıqca din və dindarlıqdan da uzaqlaşmış və hətta ayrıldığını da iddia etmişlər.Bu fikirlərlə qətiyyən razılaşmaq olmaz.Şairin dinə, ibadətə olan sevgisi, münasibəti onun şeirlərindən də açıq –aydın duyulur. Həzrəti Məhəmmədə və yaxınlarına ən gözəl təriflər yazdığı şeirlərində də (”Peyğəmbər meracı”,”Məhəmməd”,”Ya Məhəmməd könlüm arzular səni”,”Gəl varalım Məhəmmədə”,”Mənə”,”Əlhəmdüllah”,”Tanrı nurdan yaratmış” və s.) biz bunun şahidi oluruq:



Bir mübarək səfər eyləyib getsəm,

Kəbə yollarında qumlara batsam,

Röyada üzünü bir yol seyr etsəm,

Ya Məhəmməd könlüm arzular səni.

Əli ilə Həsən,Hüseyn anda

Sevgisi könüldə ,eşqi bu canda,

Sabah məhşər günü o haqq divanda

Ya Məhəmməd ,könlüm arzular səni.

Təsəvvüf ədəbiyyatının ana xətti,sütunu olan şəriət, təriqət,mərifət və həqiqət mərhələlərinin Y.Əmrə şeirlərində dini-fəlsəfi yozumu geniş yer tutur.Onu da qeyd edək ki, təsəvvüf fəlsəfəsi elə bir sirli xəzinədir ki,nə qədər araşdırılıb təhlil olunsa da, hələ də onun mahiyyəti tam açıqlanmamışdır. Bu cərəyan özündə

çox böyük,qatı asanlıqla açıla bilməyən dərin mənaları əks etdirir.Təsəvvüf cərəyanı İslam dinindən qaynaqlanır.Orta Asiyada Əhməd Yəsəvi ilə başlayan türk xalq təsəvvüf şeiri

Y.Əmrə ilə davam etdirilərək ədəbi məktəb səviyyəsinə çatdırılmışdır.Y.Əmrədə təsəvvüf vəhdəti-vücud (varlığın birliyi) fəlsəfəsinə ,yəni Tanrıyla insan və kainatın ayrı olmadığı düşüncəsinə söykənir.

Eşq dənizi mənəm mən,

Dənizlər heyran mənə

Dərya mənim qətrəmdir,

Zərrələr ümman mənə.

**YÖNTEM**

Y.Əmrə sufizmində kainatda olan bütün varlıqlar,insan Allahdan qopan zərrələrdir.O,həqiqi gözəllikdir.Ruh halıyla tək olan bu həqiqi gözəllik tanınmaq,sevilmək istəyib və "Kün!" əmri verərək bütün kainatda zühur edib.Allahın cövhərləri (vücudi-mütləq,hüsni-mütləq və xeyri-məhr,yəni həqiqi varlıq, gözəllik və yaxşılıq ) və bunların əksi (adəm,qübh,ləxeyr, yəni yoxluq,çirkinlik və şər) vardır.Y.Əmrəyə görə yalnız nəfsinə hakim olan ,bu yaxşı cövhərlərin toxumlarını qəlbində cücərdib böyüdən,Allah eşqinə,Tanrı sevgisinə tutulan şəxslər Tanrıya qayıda bilər.

Mənliyim məndən getdi

Can mülkünü dost tutdu,

Laməkana qövm oldum.

Məkanın yağma olsun.

Allaha qovuşmaq hər kəsə qismət olmur,bu da xüsusi qabiliyyət tələb edir.Mütləq ilahi eşq yolundan keçmək lazımdır.Bu vüsala "fənafillah"(Allahda yox olmaq,ərimək) deyilir.Y.Əmrə dini-fəlsəfi görüşlərindən aydın olur ki,Allaha qovuşma mərhələsində təsəvvüfün "dördyol" lüzumundan mütləq keçmək şərtdir.Y.Əmrəyə görə şəriət və təriqət mərifətə yetirər,lakin mərifətin dərinliyində də həqiqət vardır.



Xəbər verin aşiqlərə,

Eşqə könül verən mənəm,

Dönüb bir eşq dəryasına

Dənizlərə dolan mənəm.

Y.Əmrə təsəvvüfündə nəfslə mübarizə əsas yerlərdən birini tutur.Bildiyimiz kimi nəfslə mübarizə ilahi əxlaqın vacib şərtlərindən biri hesab olunur.Y.Əmrə fəlsəfəsinə görə insan ilk növbədə ilahi əxlaqın "qulu" olmalıdır.Əgər insan ilahi əxlaqla əxlaqlanmırsa, öz mənəviyyatını bu əxlaqla nurlandıra bilmirsə, o heç zaman yaradanın qulu ola bilməz.Belə olan təqdirdə isə insan pisliklərdən ,qeyri-insani əxlaqlardan uzaqlaşa bilməz.

Nə desəm,hər sözüm keçər,

Əlimdə fərman tutaram

Sözüm ötkün ,hökmüm rəvan

Bir hökmü sultan tutaram.

Bildiyimiz kimi, təsəvvüf əsasən vəhdəti-vücud fəlsəfəsinə əsaslanır.Bu fəlsəfədə varlığın təkliyi əsas sayılır. Yəni varlıq təkdir,tək olan isə Allahdır. Ən böyük həqiqət isə Allahın dərki və ona qovuşmaqdır.Yunis Əmrə təsəvvüf baxışlarında da bu hikmət diqqət mərkəzində

saxlanılır. Y.Əmrəyə görə insan bütöv halda üç komponentdən ibarətdir: bədən ,can, ruh.Burada bədən zahiri görkəm ( kainatda canlı və cansız olan bütün görünənlərin zahiri görkəmi) ,can "heyvani can " (kainatdakı bütün canlı orqanizmlər) ,ruh isə yalnız ilahi əxlaq daşıyıcısı olan insanlara aid anlamlarında yer alır. Y.Əmrənin bir şeirində deyildiyi kimi,"Bir mən vardır məndə ,məndən içəri."Bütün bunlar onu göstərir ki, Y.Əmrə təsəvvüfü "duyuş, düşünüş və inanış " mərhələlərini öyrənmək və onları keçmək üçün başlıca mənbədir.Bu mənbə Allaha doğru gedən yolda ən vacib və ən önəmli xətdir

Eşqin məndən aldı məni,

Mənə səni gərək,səni.

Alışıram gecə-gündüz,

Mənə səni gərək, səni!

Nə varlığa sevinirəm,

Nə yoxluğa yerinirəm.

Eşqin ilə ovunuram,

Mənə səni gərək, səni!

**BULGULAR**

Y.Əmrədə Allah sevgisi o qədər güclüdür ki,bu sevginin təsiri insanı Allaha qovuşduran yolu "qısalda" bilir. Daha doğrusu ,Y.Əmrə fəlsəfəsində Allaha gedən yol da qısadır, Allaha qovuşma məqamı da"daha az vaxt tələb edır".Bütün bunlar "sevgi və vüsal" həsrətinin doğurduğu "reallıqlar" kimi diqqəti cəlb edir.



Eşqin şərabından içən,

Məcnun tək canından keçən,

Sənsən günüm ,sənsən gecəm,

Mənə səni gərək,səni!

Y.Əmrə təsəvvüf görüşlərində inam və ibadət problemləri də xüsusi yer alır. Y.Əmrəyə görə insan ilk növbədə Haqdan qopub Haqqa dönən varlıqdır.İnsan səbəblər aləmində sınaq dövrünü keçir v ə bu aləmdə insan "keçid mərhələsini" yaşayır.Ona görə də həmin mərhələdə inam və ibadət əsasdır. İnsanın inamı onu "ibadətə" , "könlünün təsliminə" sövq edir və insan bu yol ilə Haqqa qovuşur:

Müsəlmanam deyən adam

Şərti nədir bilsin gərək.

Tanrı buyruğun tutub

Beş vaxt namaz qılsın gərək.

Və ya ,

Bu dünyada qalmayaq gəl,

Fanidir,aldanmayaq gəl

Bir ikən ayrılmayaq gəl

Gəl dosta gedək, gəl,könül !

Y. Əmrə təsəvvüfündə insanlar irqə,dinə,millətə,rəngə,sinif fərqi və s. görə fərqlənmirlər,çünki insan Haqdan qopan zərrələrdən yaranıb."Bir çeşmədən axan su acı-dadlı olmaya" deməklə Allah hamını eyni yaradıb demək istəmişdir.Təsəvvüfün bu prinsipi müasir dövrdə multikulturalizm konsepsiyasına uyğun gəlir.Yəni təsəvvüfün yer üzündəki bütün millətlər arasındakı bərabərhüquqlu dini-fəlsəfi baxışı ,multikulturalizmdəki xalqların dostluğu,birliyi konsepsiyası ilə səsləşir. Müqəddəs Qurandan qaynaqlanan bu ideyanın 7 əsr əvvəl Y.Əmrə tərəfindən təsəvvüf düşüncəsi kimi irəli sürülməsi, əlbəttə, böyük bir hadisədir.

## SONUÇ

Sonraki dönemde, Trans Anadolu Boru Hattı Projesi anlaşması, 26 Haziran 2012'de imzalanmıştır. Azerbaycan, 2020 yılına dek büyük çoğunluğu enerji sahasında olmak üzere Türkiye'ye olan yatırımlarını 18 milyar $'a kadar çıkarmıştır. Ekonomik, ticari, askeri, eğitim, kültürel vb. birçok alanda da gelişen ilişkiler, siyasal ilişkiler üzerinde pozitif etkiler yaratmış Gürcistan'ın da dahil olduğu 2006 yılında faaliyete geçen Bakü-Tiflis-Ceyhan Petrol Boru Hattı (BTC) ve Bakü-Tiflis-Erzurum Doğalgaz Boru Hattı (BTE), Demir İpek Yolu olarak da adlandırılan, 2017'de faaliyete geçen Bakü-Tiflis-Kars Demiryolu (BTK), 2012'de anlaşmaya varılan ve 2018'de açılışı yapılan Trans Anadolu Gaz Boru Hattı (TANAP) ve 2020 yılında gaz akışı başlayan ve Azerbaycan gazını TANAP'a bağlanarak Avrupa'ya taşıyan Trans Adriyatik Boru Hattı (TAP) gibi stratejik projeler ile de güçlenmektedir. Bakü-Tiflis-Kars Demiryolu'nun kullanılmaya başlaması aynı zamanda Çin'in "Kuşak ve Yol" projesine de dahil olan "Orta Koridor"un önemli ayaklarından birinin tamamlanmasına katkı sağlarken Türkiye'den Kafkasya'ya, Hazar'dan Orta Asya'ya kombine taşımacılık örneği de göstermektedir. Türk Devletleri ile de iş birliği imkânı veren bu koridor Çin'den Avrupa'ya yük taşımacılığına da alternatif fırsatlar sunmaktadır(Çevikel, 2023:164-165).

İkinci Karabağ Zaferi bitirilmeden önce aynı sınır kapılarını Ermenistan'a kapatma politikasında olduğu gibi Türkiye 2010'da imzalanan Stratejik İşbirliği Anlaşmanın gereğine göre bütün dünya karşısında da olsa Azerbaycan'ı destekleyeceğini bütün dünyaya ilan etti. Daha önceden gerçekleştirilen siyasi ve askeri işbirliği çerçevesinde Azerbaycan ordusunun otuz yıl öncesine göre çok modern ve eğitimli olduğu gerçeğinden hareketle bu 44 günlük muharebede başarı elde edilmiştir. Bunun yanı sıra, siyasal ve ekonomik anlamda istikrarı yakalayan bir devlet olarak da Ermenistan ile baş etme kapasitesi çok belirgin olan Azerbaycan, bu dengesizliğin farkında olmayan Ermenistan'ı hem sahada hem de masada mağlup etmiştir. Bunun sonucunda da Türkiye ile "Şuşa Beyannamesi" imzalanarak stratejik derinliği daha çok artan bir ilişki seviyesine ulaşmışlardır.



**Sonuç:**

Azerbaycan ile Türkiye'nin eskiden beri toplumsal ve kültürel yakınlıktan kaynaklı olarak ilişkileri söz konusu olmuştur. Zaman zaman kesintiye uğramış olsa da, genellikle, dar zamanında birbirinin imdadına yetişme olgusu hep var olmuştur.

Osmanlının son dönemlerinde Çarlık Rusyasının baskılarına maruz kalan Azerbaycanlı Aydınların sığınacağı liman Türkiye olmuştur. Bu sığınmanın Türkiye'deki fikri platformlara da anlamlı katkıları olmuştur. Milli Mücadele zamanında Azerbaycanlıların mücadeleye maddi ve manevi katkılarının olmasının yanında, Azerbaycan Halk Cumhuriyetinin Sovyetler tarafından işgal edilip ortadan kaldırılmasından sonra da o günkü yönetimde bulunanalar ve yönetime yakın bulunan aydınların geldiği yer yine Türkiye olmuştur. Daha sonra da çeşitli vesilelerle he riki tarafın birbirinin yardımına koşması olayı hiç durmamış hep belirli aralıklarla gerçekleşmiştir.

Birinci Karabağ Savaşı denilen Ermeni Mezalimlerinin çok üst seviyede gerçekleştirildiği dönemde de Azerbaycan'ın sesini duyup ona göre politikalar gerçekleştiren Türkiye olmuştur. Kendi iç meselelerinden ötürü ilk muharebe zamanı devlet desteğini yeterince sağlayamayan Türkiye'nin sivil gruplar marifetiyle Azerbaycan'a destek olduğu bilinen bir olgudur.

Zaman içerisinde Azerbaycan'ın siyasal ve ekonomik istikrarı sağlaması ordusunu modernize etmesine fırsat tanımıştır. Bu modernizasyon ve yeni harp tekniklerine uygun doktrine göre asker yetiştirme konusunda Türkiye'den eğitim ve lojistik desteği almış olan Azerbaycan yeni dönemde meydana gelebilecek çatışmalara adım adım hazırlanan bir yapıya sahip olmuştur. Bunun da meyvesini İkinci Karabağ Muharebesinde almıştır. Azerbaycan'ın tersine Ermenistan, karaya sıkışmış bir ülke, geri kalmış teknoloji bir ordu ve yardıma muhtaç bir ekonomik yapı ile Azerbaycan karşısında dayanabilecek durumda olmadığını ortaya koymuş oldu. Ciddi olarak bölge ülkeleri ile olan ilişkilerinde de akamate uğrayan Ermenistan, uzakta kalan destekçilerinin çözüm olamadığını da bu savaş ile görmüş oldu.

Sonuçta Türkiye ile olan stratejik anlam taşıyan işbirliği de bölgede Azerbaycan'ı güçlendiren ve daha fazla kendinden emin kılan bir sosyo-kültürel sistemi tesis etmesini sağlamıştır. Adım adım otuz yıl içerisinde en derin ikili ilişkiyi aynı soyadan ve etnolojik temelden ve dinden gelen Kardeş ülke Türkiye ile kurmuş olan Azerbaycan, konjonktürel olarak da önemli bir zamanda kendi ana sorununu kendi çözebilecek kapasiteye ulaşmış oldu.

Güçlü sosyal ve ekonomik yapısıyla bölgesinde yıldızlaşan ülke olmayı başaran Azerbaycan içeride ve dışarıda sağladığı huzurlu bir politik iklim ile geleceğe daha emin adımlarla ilerleme şansı bulacak bir ülkedir. Hem Azrbaycan'ın hem de Türkiye'nin bu stratejik derinlik içeren yakınlaşması sadece siyasal anlamda değil, aynı zamanda, ekonomik anlamda da güçlendiren ve gelişmeye ivme kazandıran tarzda bir politik anlayışı temsil etmektedir.

**Kaynakça:**

Abdurrahmanlı, E. (2022). "Azerbaycan-Türkiye İlişkileri", *Yûnus Emre Anısına Türkiye Ve Türk Dünyası Araştırmaları-IX,* s.438-468.

Akpınar, Y. (2008) Resulzâde, Mehmed Emin (1884-1955). TDV *İslam Ansiklopedisi*. (Cilt. 35, ss. 2-5). İstanbul: Türkiye Diyanet Vakfı.

Çevikel, Ş. (2023). Resulzade'den İlham Aliyev'e Azerbaycan-Türkiye siyasi ilişkileri üzerine bir değerlendirme, *Anasay* 2023, Yıl 7, Sayı 25, 156-171

DEIK, Azerbaycan (2013). DEİK Türk-Azerbaycan İş Konseyi Azerbaycan Ülke Bülteni.

Hasanoğlu, M.-Memmedov, A.-Maharramov, B. (2020). "İkinci Karabağ Savaşı Sonrası Azerbaycan - Türkiye İlişkileri", Uluslararası Yönetim Akademisi Dergisi, Cilt: 3, Sayı: 3,.522-529

Nağıyeva, Ş. (Der.). (2008). *Azərbaycan Xalq Cümhuriyyəti - 90: (1918 – 1920)*: Biblioqrafiya. Bakı: M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

Mustafayev, B. (2013). Resulzade Hükümeti Dönemi ve yaşanan terör olayları (1918- 1920). *Avrasya İncelemeleri Dergisi (AVİD)*, II(2), 205-231.

Önen, L. (2021)..."1990 Sonrası Türkiye ile Azerbaycan Arasındaki Sosyo Kültürel İlişkiler". ulakbilge, 61, 923–932

Veliyev, C. (2020). *Azerbaycan-Türkiye Stratejik Ortaklığı,* Ötüken Neşriyat, İstanbul.

# Роль когнитивной лингвистики в изучении Лингвокультурологии

**Prof. Dr. Malahat VELIEVA**

**Азербайджанский Университет Языков**

**Баку, Азербайджан**

Когнитивная лингвистика как одна из современных отраслей языкознания переплетается со многими другими лингвистическими дисциплинами и во многом помогает их осознать. Научное направление когнитивной лингвистики заключается в изучении проблемы взаимосвязи языка и человеческого сознания, так как эти две неотъемлемые понятия существуют в прямом соотношении друг с другом.

В целом, когнитивизм, который является понятием, присущим не только лингвистике, но и психологии, педагогике и другим сферам науки, связанным с познавательной деятельностью, получил широкое распространение во второй половине XX века. Когнитивисты полностью противостояли бихевиоризму, который основывался на реакции обучаемого в ответ на стимул, на внешнем управляемом поведении индивида. В то время как когнитивный подход к обучению подразумевал обусловленность познавательных процессов сознанием, памятью, мышлением и умственной деятельностью индивида.



Одним из основных направлений когнитивной лингвистики является лингвокультурологическое направление, которое изучает номинированные языковыми единицами концепты в плане элементов национальных особенностей в их взаимосвязи с менталитетом, национальными ценностями и национальными элементами определенной культуры, нацеленное на понятия «от языка к культуре».

При изучении лингвокультурологии как самостоятельного направления в лингвистике конца XX века, предметом которой является как язык, так и культура народа, мы непосредственно имеем дело с определенными концептами в лингвокультурологическом аспекте. Это концепт человека, отражающий его когнитивную деятельность, который выражается в языковой форме. «Концепты человека, представляющие собой лингвокультурологические феномены, имеют несомненно когнитивную природу, так как выступают в роли «неких квантов знания», вербализованных единиц языкового сознания, этнического мировоззрения, отражающих представления о человеке» [1].

При когнитивном аспекте изучения концептов лигвокультурологии имеются более широкие возможности раскрытия взаимосвязи языка, культуры и непосредственно сознания человека, которым управляется изучение и осознание культуры. В лингвокультурологии концепт мыслится как «культурно-ментально-языковое» образование, своего рода «сгусток культуры в сознании человека, то, в виде чего культура входит в ментальный мир человека, тот «пучок» представлений, понятий, знаний, ассоциаций, который сопровождает слово [2, с. 14].

При этом становится очевидной важная роль когнитивной лингвистики в изучении концептов лингвокультурологии.

**Ключевые слова:** когнитивная лингвистика, лингвокультурология, концепт, язык, культура

**Список использованной литературы:**

1. Керимбаев Е.А. Ергубекова Ж.С. Когнитивные и лингвокультурологические аспекты исследования концептов эпического фольклора.

КОГНИТИВНЫЕ И ЛИНГВОКУЛЬТУРОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ИССЛЕДОВАНИЯ КОНЦЕПТОВ ЭПИЧЕСКОГО ФОЛЬКЛОРА - Успехи современного естествознания (научный журнал) (natural-sciences.ru)

2. Степанов Ю. С. Константы: словарь русской культуры. М.: Академический проект, 2001.

# SATIRICAL CHARACTERISTICS IN SAMAD VURGUN`S POETRY
# SƏMƏD VURĞUN POEZİYASINDA SATİRİK XÜSUSİYYƏTLƏR

**AĞABƏY GÜLŞƏN ŞIXMURAD**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialı, Humanitar və sosial elmlər fakültəsi, "Ədəbiyyat və dillər" kafedrası. Quba, Azərbaycan**

**ORCİD NO: 0000-0003-1009-8913**

## XÜLASƏ

Azərbaycan poeziyasının ilk sosrealistləri S.Vurğun, S.Rüstəm, R.Rza, M.Rahim, O.Sarıvəlli, M.Dilbazi və b. yaradıcılığında satirik xüsusiyyət 30-cu illərin sonlarından təzahür etməyə başlamışdır. Özü də bu şairlərin hər biri lirik şair kimi tanınmışdır. Lakin birdən-birə onların yaradıcılığında Sabirə istinadən şeirlərin ortaya çıxması xeyli düşündürücüdür. Belə ki, bu şeirlərin yazılma tarixi 30-cu illərin sonlarını göstərir. Doğrudur, bu şeirlərin heç birini sırf satirik poeziya nümunəsi kimi qiymətləndirmək olmaz, burada satirik bədii təsvir və ifadə vasitələrindən daha çox, tənqidi elementlər üstünlük təşkil edir. Özü də hər şairin yaradıcılığında cəmi bir neçə nümunə yazılmışdır ki, bunun da onların yaradıcılığının əsas hissəsini təşkil etmədiyi nəticəsini çıxarmaq o qədər də çətin deyil. Bunun da başlıca səbəblərindən biri sosrealizmdə satirik pafosun varlığının olmaması idi. Hər halda bu dövrdən başlayaraq sosrealist lirikada, zəif də olsa, satirik pafosun daxil olduğunu, yeni tipli, belə demək mümkünsə, satirik poeziyanın yarandığını söyləmək mümkündür.

S.Vurğun həm bədii yaradıcılığında, həm də yazdığı məqalələrdə satiraya seyrək də olsa müraciət edirdi. M.Ə.Sabir yaradıcılığı ilə bağlı məqalə, məruzə və çıxışlarında, yeri gəldikcə, problemə münasibətini bildirirdi. Lakin gözlənilmədən şairin bədii yaradıcılığında da satiraya müraciət olunur. Bu müraciət 1938-ci ildə baş verir. Məhz onun bu müraciətindən sonra sosrealistlərin yaradıcılığında yeni poetik satiraya start verilir. Çünki S.Vurğuna qədər mətbuata çıxan yeni tpli satirik şeir, demək olar ki, yaranmamışdı. Satirik hekayələr yazılsa da, yeni satirik şeirlər barədə bunu demək çətindir. Ona görə də, S.Vurğunun başlatdığı bu tənqidi şeirlərə yeni tipli satira demək daha doğru olardı.

**Açar sözlər:** Səməd Vurğun, sosrealist, satirik xüsusiyyət, tənqidi element

## ABSTRACT

The first socialist realists of Azerbaijani poetry were S. Vurgun, S. Rustam, R. Rza, M. Rahim, O. Sarivalli, M. Dilbazi and others. the satirical feature in his work began to appear in the late 1930s. Each of these poets is known as a lyric poet. However, the sudden emergence of poems referring to Sabir in their works is quite thought-provoking. So, the date of writing of these poems indicates the end of 30s. It is true that none of these poems can be considered as examples of purely satirical poetry, where critical elements prevail more than satirical means of artistic description and expression. Only a few examples were written in the work of each poet, and it is not so difficult to conclude that this is not the main part of their work. One of the main reasons for this was the absence of satirical pathos in social realism. In any case, starting from this

period, it is possible to say that satirical pathos was included in socialist realist lyrics, albeit weakly, and a new type, so to speak, satirical poetry was born.

S. Vurgun rarely resorted to satire both in his artistic works and in the articles he wrote. M.A. Sabir expressed his attitude to the problem in his articles, reports and speeches related to his work. But unexpectedly, satire is also used in the poet's artistic work. This appeal takes place in 1938. It was after his appeal that a new poetic satire was launched in the works of socialist realists. Because until S. Vurgun, a new type of satirical poem appeared in the press, it was almost not created. Although satirical stories are written, it is difficult to say the same about new satirical poems. Therefore, it would be more correct to call these critical poems started by S. Vurgu a new type of satire.

**Keywords:** Samad Vurgun, social realist, satirical feature, critical element

Azərbaycan sovet ədəbiyyatında 30-cu illərin sonlarından başlayaraq poeziyada satirik xüsusiyyətlərə, tənqid elementlərinə rast gəlinir. Bu satirik xüsusiyyətlər və ya tənqid elementləri ictimai məzmun daşımasa da, cəmiyyətdəki bəzi nöqsanları üzə çıxarırdı. Azərbaycan poeziyasının ilk sosrealistləri S.Vurğun, S.Rüstəm, R.Rza, M.Rahim və b. yaradıcılıqlarında tənqid elementləri özünü göstərməyə başladı. Bu şairlər hər biri lirik şair kimi tanınmışdır. S.Vurğunun yazdığı tənqidi şeirlərə yeni tipli satira da demək olar

"S.Vurğun yaradıcılığında satiraya müraciət 1938-ci ildə baş verir. Şair bir-birinin ardınca bir neçə yeni tipli satirik şeir yazır. Lakin elə ilk satirik şeirinin ("Çil toyuğun tək yumurtası") əvvəlində Sabiri xatırlayır və oxucuya müraciətlə əlindən satira yazmağın gəlmədiyini, buna bəlkə də, gücünün, qüdrətinin çatmadığını etiraf edir:

*Bəlkə də çatmayır buna qüdrətim,*

*Başqa bir ruhdadır şeirim, sənətim.*

*Sabir sağ olsaydı bu temanı mən*

*Ona bağışlardım candan, ürəkdən.*

*Yazardı öz böyük məharətilə,*

*Bir aslan qəlbinin cəsarətilə,*

*Biz də oxuyardıq, heyran qalardıq,*

*Bundan da başqa bir ibrət alardıq* (1, s.130).

"Çil toyuğun tək yumurtası" şeirinin bu giriş hissəsini yazmaqda əsas məqsəd şairin satirik poeziyaya münasibətini üzə çıxarır və ona yaranan kəskin ehtiyacı hiss etdirir. Şair onu ağrıdan başqa bir qüsuru da göstərir; əslində bu qüsur ictimai quruluşun əsas nöqsanlarından biri idi. Şair Sabirin nəvələri olmaqlarını ("Unutmaq olmaz ki, doğrudan da biz, Böyük Sabirlərin varisləriyik"), lakin məzhəkə yazanın olmamasını sual etməklə ("Varmı şeirimizdə məzhəkə yazan?") əslində mövcud vəziyyətə, satiranın indiki durumuna etiraz etmiş olur. Sosrealizm satiraya geniş meydan vermədiyindən şairlər öz tənqidlərini "Sabir sağ olsaydı" qeydi altında dərc etdirir və bununla da tənqidə, satiraya istinad nöqtəsi axtarırdılar. Belə bir istinad nöqtəsi isə, heç şübhəsiz, sovet ideolojisinin can-başla təqdir etdiyi M.Ə.Sabir poeziyası idi. Elə buna

görə də lirik-satirik ifadə vasitələrinə müraciət edirdilər. S.Vurğun bununla cəmiyyəti içindən qurd kimi yeyən mənəvi-əxlaqi problemləri tənqid hədəfi edirdi.

S.Vurğun şeirlərin satirik pafosu olmasa da, tənqidə müraciət səbəbsiz olmurdu; həyatda gördüyü, hiss etdiyi nöqsanları bu yolla göstərməyə çalışırdı. 30-cu illərin sonlarında lirik şair S.Vurğun satiraya müraciət etmədən keçinə bilmir. Maraqlıdır ki, şeirin yazıldığı dövrdə gülüş, satira, demək olar ki, yavaş-yavaş unudulmaqda idi. Lakin ara-sıra "Bizə məzhəkə jurnalı lazımdır",-deyə satiraya yenidən vətəndaşlıq hüququ verməyə çalışan S.Rəhman kimi sənətkarlar da var idi. Məhz bu dövrdə S.Rəhmanın "Toy" komediyasının yaranması da səbəbsiz deyildi. Onların sayəsində satira yenidən doğma ədəbi arenaya qayıtmaqda idi. S.Vurğun da şeirin əvvəlindəki lirik ricətdən sonra onu düşündürən problemləri dilə gətirirdi. Çağdaş dövrdə yazılan şeirlərin bir-birinə oxşaması, "hər səhərin yeni bir xəyala açılmaması" onu narahat edir. Şairi narahat edən əsas problemlərdən biri də "bəzən gülməyi tamamilə unutmağımız", poeziyada "məzhəkə yazanların" olmamasıdır. Oxucu şairlərdən satira gözlədiyi halda, bu cür şeirlər yazılmırdı. Şair nə qədər "satira yazmaq əlimdən gəlmir", -desə də "Çil toyuğun tək yumurtası" şeirində ciddi bir mətləbə toxunur. Süjetli poeziya nümunəsində S.Vurğun uşaqlıq illərinə qayıdır, gecə yarısı çil toyuğun qaqqıldayaraq bağırması, daha sonralar isə banlayaraq bütün kəndi yatmağa qoymaması, atasının əlinə bıçaq alıb onu kəsmək istəməsi təsvir edilir. Lakin uşaq atasını bundan çəkindirir; onu sevdiyini və öhdəsinə buraxmağı xahiş edir. Ancaq aradan xeyli vaxt keçir, "həftələr, aylar dolanır, lakin toyuğun qaqqıltısı və banlaması kəsmir ki, kəsmir. Bir gün uşaq çil toyuğun samanlığa girdiyini, dalınca gedəndə onun canına bir üşütmə düşdüyünü, sonra da yerindən qalxdığını görür. Sən demə, toyuq kiçik "fındıq boyda" yumurta yumurtlamışdır. Neçə vaxtdır çil toyuğun haray-həşiri də məhz bu fındıq boyda yumurtaya görə imiş. Toyuğun yumurtanın üstündən qalxaraq "təşəxxüslə" getməsi onun özündən razılıq əlaməti kimi mənalanır. Əlbəttə, şairin məqsədi heç də çil toyuğun yumurtlaması deyil, əgər belə olardısa şeirin heç bir ictimai mənası olmazdı. Burada şair sənətkar - sənət məsələsinə toxunur, kiçik bir əsər yazan bəzi sənətkarların hay-küy salaraq əsərindən danışması və onu yüksək sənət əsəri kimi qələmə verməsi məsələsini önə çəkir. Bu mənada şairin yaratdığı satirik portret həm müasirdir, həm də ictimai məna daşıyır. Şairin məqsədinin heç də çil toyuq olmadığını, daha dərin mətləbləri ifadə etdiyini şeirin sonuncu bəndindən də bilmək olar:



*Oxucum! Çil toyuq getmiş dünyadan...*
*Arabir fikrimə gəldiyi zaman,*
*Bəzi insanlar da yadıma düşür,*
*Onların da ömrü belə ötüşür...*

*Onlar da bir fındıq boyda iş görər,*
*Özünü aləmə igid göstərər;*
*Hələ qabaqcadan şəsti ucalar,*
*Qıy vurub aləmə hay-haray salar.*
*"Yaratdım" deyərkən heç də utanmaz*...(2, s. 276).

S.Vurğunun 1938-ci ildə ardıcıl olaraq yazdığı bir neçə şeirində satirik portretlər, tənqid hədəfləri yeni və orijinaldır. Burada ənənəvi satirik ifadə vasitələrinə rast gəlinmir. Şair bu şeirlərində özünün tənqid hədəfini birbaşa və ya dolayısıyla, yaxud satirik tənqid hədəfinin

özünün dililə ifşa etmir, daha çox satirik obyektin fəlsəfəsini açmağa çalışır. Əslində bu daha doğrudur, çünki sırf tənqid həyata müəyyən mənada birtərəfli baxmağı tələb edir, ona müxtəlif rakurslardan baxmaq və obyektin (satirik, yaxud qeyri-satirik) fəlsəfəsini açmaq obrazın uzunömürlülüyünü təmin etmiş olur. Buna görə də S.Vurğunun "İncə xanım" (1938), "Karyerist" (1938), "Xeyrə-şərə yaramaz" (1938), "Dargöz" (1938), "Ürəyi xain adam" (1938) və s. şeirlərində poeziyaya yeni satirik obrazlar gətirməklə yanaşı, bu obrazların malik olduğu düşüncə və funksiyanı da uğurla ifadə edir. Maraqlıdır ki, S.Vurğun bu şeirləri repressiyanın tüğyan etdiyi illərdə yazmışdır; bir qədər də qəzəblə və kinlə ifadə etmişdir. Belə görünür ki, şairin bu tənqid hədəfləri heç də kiçik hədəflər deyil, bunlar repressiya cəmiyyətində insanları qorxuya salmış, insanlara qarşı xain əməllərdən çəkinməmişdir. "Dargöz" şeirində şair dargözün ona məlum olan "hünər"lərini geniş oxucu kütləsi üçün məlum edir. Bu, məşhur rus tənqidçisi V.Q.Belinskinin satirik, komik obrazın "naməlumdan-məluma doğru" keçdiyi inkişaf yolu ilə bağlı formulunu çox yaxşı əks etdirir. Satirik qəhrəman Dargöz şairin "lirik mən"ini daim təqib edir, "üzünə dost kimi" gülsə də, arxada paxıllıq edir, "tez-tez valları" dəyişdirir, ona badalaq gəlir. Şair belələrini "müxənnət adam", "vaxtsız çiçək tökən bahar", "tərlan oylağında qarğa" və s. adlandırır. Şairin bu dəfəki tənqid hədəfi sənət yoldaşıdır. Sənət yoldaşının uğurlarına paxıllıq edən bu dargözün portreti belə tamamlanır:

*Sən ayaq döyürsən qaldığın yerdə,*

*Yerində sayandan sənətkar olmaz* (2, s. 284).

S.Vurğunun digər şeirlərində isə karyeristin, xeyrə-şərə yaramazların satirik obrazı yaradılır. Bu obrazlar dövrün ictimai-siyasi, ədəbi mühiti üçün tamamilə xarakterik qəhrəmanlar idi. S.Vurğunun orijinallığı orasında idi ki, indi Sabir dövrü deyildi və satirik dillə də bu cür qəhrəmanları ifşa etmək, aşkara çıxarmaq çətin idi. Ona görə də şair tamamilə ciddi bədii təsvir və ifadə vasitələri ilə yeni qəhrəmanın obrazını yaradır. Şairin karyerist qəhrəmanının daim kinli gözlərində min hiylə var, iclasa "hayla girib, ağızlardan söz qapar", "insanların başına nahaq yerdən tələ qurar" və bu minvalla da vəzifə başına keçmək istəyər. Hələ tarixə kiçik bir əsər verməsə də, "qürrəsindən quruyub", sifətindən sap-sarı kin tökülür. Onda sənət üçün duyğu və qəlb olmasa da, alqışlanmaq istəyir. Əgər hər hansı bir qəhrəmanın adı dillərdə gəzib qızların dilindən düşməyirsə, karyeristin bu xəbərdən "qaş-qabağı" açılmır. Karyeristin özü "boş nağara" olsa da, böyük-böyük adamların sözlərini əzbərləyərək yerli-yersiz misal çəkir. Buna baxmayaraq onun içi boşdur, əl vursan "dınqıltısı haray salar dağlara". Əgər bir azyaşlı çıxış vaxtı yanılsa, başqaları onu uşaqlığın səhvi kimi bağışlasa, o "mənim gözüm su içməyir bu uşağın sözündən",-deyərək onu sinfi düşmən çıxarmağa çalışır.

"Xeyrə-şərə yaramaz" şeirinin leytmotivi el arasında dolaşan bu sözlərə uyğun insan obrazının yaradılmasıdır. Şeirin əvvəlində şair deyir ki, dünyamızda adamlar müxtəlifdir, dünən karyeristin obrazını, bu gün isə "xeyrə-şərə yaramaz"ın obrazını yaradıram. Doğrudan da, şair istər karyeristin, istərsə də "xeyrə-şərəyaramaz"ın obrazını çox dəqiqliklə yaradır. Kimdir "xeyrə-şərə yaramaz"? Bu da şairin əvvəlki tənqid hədəfləri kimi sadə bir insan deyil, sənət adamıdır. Lakin sənət adamı olmasına baxmayaraq, özünü Koroğluya oxşadır, daim onların yanına gedib-gəlir, "gəlin kimi yırğalanır", "özünə bəzək vurur", "Puşkin kimi saqqal qoyur", "pedant kimi geyinir". Şairin bu satirik qəhrəmanı həm də "azından otuz dəfə məhəbbətə düçar olmuş", hər şeyi kefdə görən, hər şeyə "nə işim var?", "neyçin salım qeylü-qalı başıma?" suallarını daim özünə rəhbər tutan birisidir. O, dara düşən kimi aradan çıxar, bir sözlə, "nə ölüyə pay göstərər, nə diriyə hay verər". Şairin satirik tənqid hədəfinə ismarıcları onu bu dünyada, cəmiyyətdə yer tutmadığını, yalnız öz vəziyyətini düşünən insanların ümumiləşdirilmiş obrazı kimi səciyyələnir:

*Oxu mənim bu şerimi xeyrə-şərə yaramaz!*

*Aynaya bax, sifətindən utan bir az, öl bir az!*

*Bir yaxşı gör, nə gündəsən! Nədir sənin sənətin?*

*Ömründə heç döyməmisən qapısını qeyrətin?* (2, s. 282)

S.Vurğun ədəbi, ictimai mühitdə olan tənqid hədəflərinin iç üzünü açmağa nail olur; bunlar sadə adamlar deyil, sənət adamlarıdır. Lakin bu adamların poetik obrazı elə çəkilir ki, bu insanların nə qədər kinli, küdurətli olduğu, vicdan sarıdan isə çox kasıb olduğu görünür. Şair bu obrazlara "Ürəyi xain adam" (1938) şeiri ilə yekun vurur. Şair bu cür insanların həyat fəlsəfəsini ümumiləşdirərək belə qərara gəlir ki, onlar yüz il ömür sürsələr belə, dünəndən ölmüş hesab olunurlar:

*Açılmamış boğuq rəngin...gülər üzlü baharda,*

*Elə bil ki, gəmin batıb qərq olmuşdur sularda...*

*Bir açılsın qaş-qabağın! Üzə şax bax bir kərə!*

*Qayda budur: mil salınar əyri baxan gözlərə...*

*Qaradinməz! Yerəbaxan! Şad xəbərə küsənən!*

*Yüz il belə yaşasan da dünəndən ölmüsən sən!* (2, s. 286)

S.Vurğunun şeirləri timsalında tənqidi pafos artmağa başlayır və bu tendensiya getdikcə güclənir.

Bütövlükdə, sosrealizm mərhələsində satiranın, yumor və komizmin yeni bie mühitə düşdüyünü və fərqli bir inkişaf yolunu keçdiyini demək olar. Burada satirik şeirin özünün əvvəlki kəskinliyinin və sənətkarlıq xüsusiyyətlərini qoruyub saxlaya bilməsə də, yeni yollar, forma axtarışları hiss olunur.Satirik poeziyada mövzu və istiqamətlər dəyişdiyi kimi, dil üslub xüsusiyyətləri də dəyişməyə başladı.



**Ədəbiyyat siyahısı**

1. Ağabəy G. Satirik poeziya sosrealizm kontekstində / / Elm və təhsil Bakı :2018. -182 s
2. Vurğun, S. Əsərləri: [6 cilddə] / S.Vurğun. –Bakı: Elm, – c.6. –1972. – 461 s.
3. Vurğun, S. Seçilmiş əsərləri : [5 cilddə] / S.Vurğun. –Bakı, –c.5. –2005. –354 s

# FORMS OF ORGANIZATION OF WORK WITH TALENTED STUDENTS
# ISTEDADLI ŞAGİRDLƏRLƏ İŞİN TƏŞKİLİ FORMALARI

**QASIMOVA FATİMƏXANIM ƏZİZAĞA QIZI**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti Quba filialı, müəllim**

Psixoloqun məktəbdə şagirdlərlə fəaliyyətinin bir hissəsini istedadlı şagirdlərlə iş təşkil edir. Öncə "istedad nədir ?, istedadlı şagirdlər digər şagirdlərdən hansı keyfiyyət və xüsusiyyətlərinə görə seçilir? " - bunları bilmək vacibdir.

İstedad insanın fəaliyyəti nəticəsində üzə çıxan fərdi qabiliyyətlərin ən yüksək inkişaf səviyyəsi, insanın başqa insanlarla müqayisədə bir və ya bir neçə fəaliyyət növündə daha yüksək nəticələr almaq imkanıdır. Xüsusi istedada malik şagirdlər ətraf mühitin tənqidinə, biliyin qazanılmasına həvəskar olurlar, öz dünyagörüşlərini artırmaq üçün bütün qüvvələrini sərf etməyə hazırdırlar, yaxşı müşahidəçilik qabiliyyətinə və məlumat toplamağa malik olurlar.

**Açar sözlər:** İstedad, psixoloji iş, psixoloji testlər, valideynlər, müəllimlər və psixoloqlar

Çoxsaylı bacarıqlarına əsaslanaraq, onlar müstəqil fəaliyyətlə başqalarına nisbətən daha yaxşı məşğul olmağa qadirdilər. Belə şagirdlər əhatə olunduqları təsirlərə tənqidi yanaşmağı bacarır və hadisələrin mahiyyətini anlamağa çalışır, səthi məlumatlarla qane olmurlar. Öz yaşıdları ilə müqayisədə istedadlı şagirdlər hadisələr arasındakı münasibətləri daha yaxşı təhlil etməyi, həmçinin induktiv və deduktiv düşünməyi bacarırlar. Xüsusi qabiliyyətli uşaqları aşağıdakı qruplar üzrə təsnif etmək olar:



- Yüksək intellektual şagirdlər ;
- Yüksək səviyyəli yaradıcılıq qabiliyyətli şagirdlər ;
- Müəyyən sahə üzrə nailiyyət qazanan şagirdlər ;
- Məktəbdə yaxşı oxuyan şagirdlər.

İstedadlı şagirdlərlə işin təşkili zamanı psixoloq və müəllim qədər valideynlərin də böyük rolu var. Valideynlərin bu mövzuda düzgün qərar vermələri məqsədilə mən də valideyn iclaslarında iştirak edərək müəyyən tövsiyələr vermiş, onlar üçün müəyyən anket-sorğular hazırlayaraq təqdim etmiş, son olaraq nəticələri təhlil etmişəm.

Şagirdlərin istedadlarının müəyyən edilməsində , həmin istedadın passiv və ya daha da aktivləşdirilməsində müəllimlərin də rolu əvəzedilməzdir. Fəaliyyət göstərdiyim müddətdə müəllimlərlə " Müəllimin istedadlı şagirdlərlə işləmə meylinin müəyyənləşdirilməsi testi"ni (A.İ. Dorovskiyə görə) keçirmiş, nəticələri təhlil etmişəm.

Bəzi alimlər istedadın yaranma səbəblərini genetik faktorlarla, digər qrup alimlər isə sosial faktorlarla, yəni ətraf mühitin təsiri nəticəsində yaranıb inkişaf etdiyini söyləyirlər. Bunu əsas götürərərk, düşünürəm ki, istedadı digər 2 formada da qruplaşdırmaq olar:

- İstedad var, lakin sonradan üzə çıxarılmadıqda və ya inkişaf etdirilmədiyi halda itir ;

- İstedad yoxdur, sonradan mühit, şərait amillərindən asılı olaraq meydana gəlir.

Genetik faktoru əsas götürə alimlər belə düşünürlər ki, əgər istedad varsa, onun üçün münbit şəraitin yaranmasına ehtiyac yoxdur, bir vasitə ilə istedad özünü biruzə verəcəkdir.

Sosial amil faktorunu əsas götürən alimlər isə, mühitin, şəraitin əvəzedilməz bir imkan olduğunu bildirirlər.

Psixoloji tədqiqatlar göstərir ki, şagirdlərin fərdi xüsusiyyətləri təlim fəaliyyəti baxımından birmənalı deyildir. Onların temperament xüsusiyyətləri tədris fəaliyyətinə bilavasitə deyil, dolayısı ilə təsir göstərir. Şagirdlərin elə xüsusiyyətləri vardır ki, onlar bir tərəfdən tədris fəaliyyətinə təsir göstərir, digər tərəfdən tədris fəaliyyətinin nəticəsi məhz onlardan asılıdır.

**Keywords:** Talent, psychological work, psychological tests, parents, teachers and psychologists

Part of the psychologist's work with students at school is work with gifted students. First, what is talent? Talented students are distinguished from other students by what qualities and characteristics? ” - it is important to know them.

Talent is the highest level of development of individual abilities revealed as a result of human activity, the ability of a person to obtain higher results in one or more types of activity compared to other people. Students with special talents tend to criticize the environment, gain knowledge, are ready to spend all their efforts to improve their worldview, have good observation skills and information gathering. Based on their multiple skills, they were able to engage in independent activities better than others. Such students are able to take a critical approach to the influences they are surrounded by and try to understand the essence of events, they are not satisfied with superficial information.Compared to their peers, gifted students are better able to analyze relationships between events, as well as to think inductively and deductively. Children with special abilities can be classified into the following groups:



- High intellectual students;
- High-level creative students;
- Students who have achieved success in a certain field;
- Students who do well in school.

In the organization of work with gifted students, parents have a great role, as well as psychologists and teachers. In order for parents to make the right decisions on this matter, I participated in parent meetings and made certain recommendations, prepared and presented certain questionnaires for them, and finally analyzed the results. The role of teachers is irreplaceable in determining the talents of students, passively or further activating that talent. During my activity, I conducted the "Teacher's Propensity to Work with Gifted Students Test" (according to A.I. Dorovsky) with teachers and analyzed the results.

Some scientists say that the reasons for the emergence of talent are due to genetic factors, while other groups of scientists say that it arises and develops as a result of social factors, that is, the influence of the environment. Based on this, I think that talent can be grouped into 2 other forms:

- There is a talent, but it is lost if it is not revealed or developed later;
- There is no talent, it arises later depending on the factors of environment and conditions.

Based on the genetic factor, scientists think that if there is a talent, there is no need to create fertile conditions for it, the talent will manifest itself by some means. Scientists who take the social factor factor as the basis say that the environment and conditions are an irreplaceable opportunity.

Psychological studies show that individual characteristics of students are ambiguous in terms of educational activity. Their temperament characteristics do not directly affect the teaching activity, but indirectly. Students have such characteristics that, on the one hand, affect the teaching activity, and on the other hand, the result of the teaching activity depends on them.

# TÜRK VƏ AZƏRBAYCAN NƏSRİ MODERNİZM ƏDƏBİ CƏRƏYANI KONTEKSTİNDƏ

**Dilarə ƏLİYEVA**

**Filologiya üzrə fəlsəfə doktoru, elmi işçi, https://orcid.org/0000-0001-6443-1262**

**Xülasə**

XX əsrin birinci yarısında baş verən ictimai-siyasi proseslər ədəbiyyatda müxtəlif şəkildə öz əksini tapırdı və bu da ayrı-ayrı ədəbi məktəblərin və estetik cərəyanların yaranmasına səbəb olurdu. Fərqli coğrafi məkanlarda ədəbi cərəyan və istiqamətlərin müxtəlif xronoloji zaman müstəvisində yarana və milli ədəbiyyatlarda özünü müxtəlif şəkillərdə göstərə bilər. Bu da öz növbəsində, ədəbi cərəyan anlayışının müxtəlif ölkələrin ədəbiyyatlarında fərqli zaman müstəvisində tipoloji inkişafını şərtləndirəndirir.

XX əsr Türkiyə ədəbiyyatında Oğuz Atay, Səid Faiq Abasıyanıq, Əhməd Həmdi Tanpınar və Orxan Pamuk (yaradıcılığının ilk mərhələsində - D.Ə) kimi sənətkarlar modernizmin Qərb modelindən istifadə edərək bədii nümunələr yaratmışdılar. Orxan Pamuk yaradıcılığının ilk illərində qələmə aldığı "Cövdət bəy və oğulları" romanı türk modernist təcrübəsinin formalaşmasında böyük rolu olmuşdur. roman mövzu və poetikası ilə bir-birinə bənzəyən, təxminən eyni illərdə yazılmış, Azərbaycan ədəbiyyatında xüsusi yeri və mövqeyi olan "Qətl günü" romanını xatırladır. Bu "əbədi model"ə yazıçıların hərəsi müxtəlif prizmalardan baxırlar: Yusif Səmədoğlu "xeyir və şər", Orxan Pamuk "qaranlıq və işıq". Həm "Qətl günü", həm də "Cövdət bəy və oğulları" romanlarının müəllifləri sujetə orijinal təfəkkür tərzi ilə yanaşırlar, "yazıçı mövqeyi" hiss olunmur, obrazın daxili aləmi öz dili ilə açılır. Pamuk əsərində mənfi və müsbət obrazları təhlil etmir, eyni zamanda Yusif Səmədoğlu da öz romanında şəri pisləmir, xeyri də təbliğ etmir, oxucuya həqiqəti şərh edir. Bu nüans əsərlərin ortaq cəhətlərini daha dəqiqliyilə ortaya çıxarır. Hər iki əsərdə, müəllif sadəcə təhkiyəçi deyildir, o, eyni zamanda hadisələrə, konfliktlərə ən incə ayrıntısına qədər nüfuz edir, çözümləyir. Əsərdə diqqəti cəlb edən sürrealist anlamlardan biri də yuxudur. Otuz yeddi yaşında gənc bir tacir olan Cövdət bəy səhərə yaxın gördüyü bir yuxunu xatırlayır və ömrünün sonuna qədər bu yuxunun təsirindən çıxa bilmir. Yusif Səmədoğlunun əsərindəki Zülfüqar kişi də yuxu görür və gördüyü yuxu onun ölümü ilə nəticələnir. Romanlarda simvollardan məharətlə istifadə olunmuşdur, "Qətl günü"ndə "Baba Kaha", "Kirlikir", "Cövdət bəy və oğulları"nda "saat", güzgü" simvolik obrazları ilə əsərin təsir qüvvəsi qabardılır. Həm "Qətl günü", həm də "Cövdət bəy və oğulları" romanında daxili monoloqlar, "şüur axını" sadəcə dil zənginliyi xatirinə deyil, hekayənin mahiyyətinin müxtəlif baxımdan izahı üçün istifadə olunmuşdur. Romanlarda əsas sujet xətti fərqli tarixi dövrlərə, fərqli zaman kəsimlərinə aid olan hadisələrin birləşməsi əsasında qurulur. Əsərlərdəki hadisələri xarakter və obrazlar bir-biri ilə möhkəm bağlı olub, müasir insanın səciyyəsini aydınlaşdırır. Dövrünün ənənəvi nəsr nümunələrindən seçilən bu modernist romanlarda keçmiş müasirliyə xidmət edir.

**Açar sözlər:** milli ədəbiyyat, modernist təcrübə, simvol

# VERBAL PHRASEOLOGICAL COMBINATIONS IN THE 14TH-CENTURY PROSE MONUMENT "SIYARUN-NABI"

# XIV ƏSR NƏSR ABİDƏSİ "SİYƏRÜN-NƏBİ" ƏSƏRİNDƏ FEİLİ FRAZEOLOJİ BİRLƏŞMƏLƏR

**Zəminə RÜSTƏMBƏYLİ**

**Filologiya üzrə fəlsəfə doktoru, dosent, Bakı Avrasiya Universiteti**

## XÜLASƏ

Əsrlərdən bəri formalaşmış frazeloji vahidlər semantik cəhətdən müstəqil olmayan sabit söz birləşmələrinin, leksik komponentlərin mənalarının semantik inkişafını, eləcə də sabitlik və yeni yaranma prosesinin qarşılıqlı əlaqəsini izləməyə imkan verir. XIV əsrin türkdilli yazılı abidəsi olan Mustafa Zəririn "Siyərün-Nəbi" əsərinin dili türk dillərinin ən qədim laylarına məxsus olub, müasir günümüzdə öz ilkin leksik mənasını itirmiş və ya ilkin mənasından uzaqlaşmış, müəyyən morfoloji dəyişikliklərə uğramış hər hansı söz və ya ifadə günümüzdə də məhz frazeoloji vahidin komponentləri kimi "yaşayır". Abidənin dil materialı dilimizin çoxəsrlik inkişaf prosesində formalaşan feili frazeoloji birləşmələri bədii fikrin ifadəsi kimi semantik cəhətdən dil faktına çevrilənədək mürəkkəb inkişaf prosesinin məhsulu kimi səciyyələndirməyə imkan verir. Əsərin dilindəki feili frazeoloji birləşmələrin leksik-semantik cəhətdən dəyişikliyə məruz qalması orta əsrlər Azərbaycan türkcəsinin lügət tərkibinin inkişaf prosesini izləməyə imkan verir.

**Açar sözlər:** Mustafa Zərir, abidə, qaynaq, tərkib, birləşmə, frazeologiya, lüğət

## SUMMARY

Phraseological units formed over the centuries allow us to trace the semantic development of stable word combinations that are semantically independent meanings of lexical components, as well as the interrelationship of stability and the process of formation. The language of a written monument in the Turkish language of the XIV century "Siyarün-Nabi" by Mustafa Zarir belongs to the oldest layers of the Turkic languages, and any word or expression that has lost its original lexical meaning is now away from its original meaning or has undergone certain morphological changes, still "exists" as the components of the phraseological unit. The linguistic material of the monument allows us to define the verb-phraseological combinations formed in the historical development process of our language as a product of a complex development process until they became a semantic fact of language as an expression of an artistic idea. The lexical-semantic changes that verb-phraseological combinations have undergone in this work allow us to follow the development process of the vocabulary of medieval Azerbaijani Turkish.

**Key words:** Mustafa Zarir, monument, source, structure, combination, phraseology, dictionary

XIV əsr şairi Qazı Mustafa Zəririn "Siyərün-Nəbi" əsəri Azərbaycan türkcəsinin tarixi, etnoqrafik leksikasını araşdırmaq üçün olduqca əhəmiyyətli bir ədəbi qaynaqdır. Əsərin leksikasına daxil olan sözlərin əksəriyyətini qədim türk mənşəli sözlər təşkil edir. Tərcümə əsəri olduğunu nəzərə aldıqda abidənin dilində ərəb və fars mənşəli sözlərin də müəyyən çəkiyə malik olduğunu görə bilərik. Əsərin lüğət tərkibini təşkil edən sözlərin, termin və leksik elementlərin linqvosemantik cəhətdən qruplaşdırılması etnoqrafik leksikanın tədqiqi, eləcə də dilin leksikoloji analizi baxımından mühüm əhəmiyyət kəsb edir.

Yüzilliklərdən bəri formalaşmış frazeloji vahidlər semantik cəhətdən müstəqil olmayan sabit söz birləşmələrinin, leksik komponentlərin mənalarının semantik inkişafını, eləcə də sabitlik və yeni yaranma prosesinin qarşılıqlı əlaqəsini izləməyə imkan verir. Belə ki, "dilin ən qədim laylarına məxsus olub, müasir günümüzdə öz ilkin leksik mənasını itirmiş və ya ondan uzaqlaşmış, müəyyən morfoloji dəyişikliklərə uğramış hər hansı söz və ya ifadə bu gün məhz frazeoloji vahidin komponenti kimi "yaşayır". Həmin söz müstəqil leksem kimi işlənməsə də, frazeoloji vahidin məhz sabitliyi gücünə dildə mühafizə olunub qala bilmişdir. Elə bu "həyatın" hesabına da həmin sözün əzəlki mənasını aşkarlamaq vəya bu ilkin mənalara heç olmasa, yol açmaq mümkün olur" [1,34]. Bu baxımdan Mustafa Zəririn "Siyərün-Nəbi" adlı tərcümə əsərində Azərbaycan dilinin tarixinin öyrənilməsi üçün əvəzsiz mənbə hesab edilən frazeoloji vahidlərin araşdırılması mühüm elmi əhəmiyyət kəsb edir. Tərcümə abidələrində frazeoloji birləşmələrin tərcüməsi bədii tərcümənin ən başlıca məsələlərindən, eyni zamanda ən çətin problemlərindən olduğu tədqiqatçılar tərəfindən qeyd olunmuşdur [2,94]. Mustafa Zərir bu işin öhdəsindən gəlmək üçün bədii tərcümədə canlı xalq dilinin bütün zənginlikləri və incəliklərindən yararlanaraq sözün daxili semantikasını açmağa çalışmış və frazeologizmlərdən məharətlə istifadə etmişdir. XIV əsr anadilli ədəbiyyatımızın nümayəndəsi olan Mustafa Zərir "Siyərün-Nəbi" adlı tərcümə əsərinin mövzusu ilə bağlı bir sıra ərəb, fars sözləri, izafət tərkiblərindən istifadə etməsinə baxmayaraq, bütövlükdə götürdükdə, kitabı sadə, ümumxalq danışıq dilinə yaxın, hamının anlaya biləcəyi bir dildə qələmə almışdır. O, dilin bədiiliyini qorumaqla, ana dilinin bütün incəliklərindən yararlanmış, az sözlə böyük mətləbin anladılması baxımından canlı dildən aldığı deyim və ifadələrin məna imkanlarından üslubi-poetik vasitə kimi istifadə etmişdir: *"Zəhmət içində olasın,* ***son peşimanlıq assı qılmaya,*** *- dedi" (SN, 45a-50 a); "****Qorqu əcələ assı etməz****, qəzayı döndərməz dedi" (SN,64-152b); "****Uğrun hayır, yolu açık olsun****" (SN, 133);"****Neçə dostun var, neçə düşmənün ..... vardur****" (SN,45a-47b);"Zinhar, ya əmmi,* ***düşmandan dost işi gəlməz, dost kişilərdən düşman təşvişi gəlməz,*** *dedi" (SN,19-71b-72a);"****Yola çıqmış kişiyi yolından döndərmək xəyr olmaya dedi****" (SN,20-73b-74a).*

Verilmiş nümunələrdə *"son pəşimanlıq assı qılmaya*" (son peşmanlıq fayda verməz), *"qorqu əcələ assı etməz*" (qorxunun əcələ faydası yoxdur), "*uğrun hayır, yolun açık olsun*", "*neçə dostun, neçə düşmənün var"*, "*düşmandan dost işi gəlməz, dost kişilərdən düşman təşvişi gəlməz"*, "*yola çıqmış kişiyi yolından döndərmək xəyr olmaya*" kimi əsrlərdən bəri şifahi xalq ədəbiyyatında yer almış ifadələrdə xalqın nəsihətamiz düşüncə tərzi öz əksini tapmışdır.

Ədib duyğu və düşüncələrini daha aydın ifadə etmək, işlətdiyi sözlərin məna yükünü daha da təsirli etmək üçün xalqın zəngin ifadə qaynağı olan frazeoloji birləşmələrdən də ustalıqla istifadə etmişdir. Belə ki, *"dilin bədii-poetik strukturunda frazeologizmlər çox güclü təsvir vasitəsi, xəlqi dil emosionallığının göstəricilərindəndir"* [4, s.8]. Bu baxımdan Mustafa Zəririn "Siyərün-Nəbi" əsərində yer almış feili frazeoloji birləşmələr xüsusilə diqqəti çəkir.

*"Mustafa Zəririn "Siyərün-Nəbi" əsərinin lüğət tərkibində türk mənşəli feili frazeoloji birləşmələrin əsas yer tutduğunu görə bilərik. Əsərin dilində işlənmiş feili frazeoloji*

*birləşmələrin böyük əksəriyyəti bu gün də öz işləkliyi ilə fərqlənir. Bu birləşmələrin bir qismi heç bir dəyişikliyə uğramadan eyni fonetik tərkibdə müasir Azərbaycan ədəbi dilində işlənməkdədir: "aman vermək","ayaq basmaq", ayağına durmaq","ayağına düşmək","bel bağlamaq","bağrına basmaq", "can atmaq", "canına od düşmək", "dilə gəlmək", "əlindən qurtarmaq,"xəstə düşmək", "qanına susamaq", "qan qaynamaq","oda yanmaq","söz aç-maq", "söz qoymaq", "yoluna qurban olmaq", "yol açmaq", "yola düşmək"* və s. Digər qrup sözlər isə müasir dilimiz baxımından fonetik cəhətdən arxaikləşsə də, ədəbi dilimizdə eyni məna yükünü daşımaqdadır: *"başından çıqarmaq", "başu aşağa olmaq", "canlarından götür-mək", "cəhənnəm odına yaqmaq" "həsrət odına yanmaq, yürəgi oynamq", adı çıqmaq",* "*ad çıqarmaq*", "*əyaq altına almaq"*, "*ağzından söz çıqmaq"*, "*başu yuqaru qaldurmaq", "dilü bağlanmaq",* "*dile sığmamaq"*, "*dili dutulmaq"*, "*ələndən qurtılmaq", "əyağını düşmək*", *"ələnüdən iş gəlmək", "əqli başına gəlmək*", "*əqli getmək"*, "*əqli başından getmək"*, "*fikir əyləmək", "dünya gözinə tar görünmək", "könlü açılmaq*", "*könlinə düşmək",* "*könlindən keçmək", "könlini almaq", "könlü yumşanmaq"*, "*könli içində yer eyləmək*", *"könli taşa dönmək*", "*qarşu çıqmaq"*, "*qulağına dəgmək*", "*söz eşitmək"*, "*sözi çıqarmaq",* "*yoluna fədiy olmaq", "yola çıqmaq"*, "*yoldan çıqarmaq"*, "*yol kəsmək", "yürəgi yanmaq"*, "*yürəgi sovumaq*", "*yürəgindəki odu soyumaq*", *"yürəgində yer əyləmək", "yüzü qara olmaq*", "*yüzü qalmamaq", "yüzə baqmamaq",* "*yüz göstərmək", yüz döndərmək",* "*yüz dutmaq",* "*yüz urmaq*", "*yüz ağartmaq"* və s.

Ərəb və ya fars sözlərindən istifadə olunmaqla yaradılan feili frazeoloji birləşmələr abidənin dilində azlıq təşkil edir: *"aman vermək", "sər qoymaq", "cəhənnəm odına yaqmaq", "cəhl oduna yandurmaq", "nitqi tutulmaq", "əndişə dənizinə qərq olmaq", "əqli başında sərasimə olmaq", "fikir eyləmək", "fitnə qaynatmaq"," həsəd odına yanmaq"," həyatı getmək"," şəkəri əzülmək".*



Mustafa Zəririn "Siyərün-Nəbi" əsərində işlənən frazeoloji birləşmələrin tərkibi hissəsini təşkil edən komponentlər müstəqil leksik mənaya malik vahidlərdir. Bununla belə, frazeoloji birləşmələrin ismi komponentini təşkil edən sözlərdən bəziləri yalnız frazeoloji vahid daxilində müəyyən məna yükü daşıyır. Məsələn, **Xürd-xam eyləmək** – möhkəm döymək, kötəkləmək, qol-qabırğasını əzmək: *"Ol yigidün ardından yetdi, ağzı birlə ol yigidi tutdı, altına aldı, əvətdi ? üşətdi, üstinə çökdi, anı **xürd-xam eylədi**" (SN, 133-315b);* **Səlabət oturmaq** - qorxu hiss etmək, ürkmək, xoflanmaq: "*Sükkan birlə dəyr içində gizlənmişlərdi, qapunun iki yanında kəmin qılmışlardı, ol dəyrün guruldısından bunlarun üstinə həybət endi, **səlabət oturdı**" (SN, 117-274a);* **Xülf düşmək** – araları dəymək, çəkişmə, ixtilaf, ikitirəlik: *".... aralarına **xülf düşmiş**, Allah-təala bunları bir-birinə qırdırmış, qalanın dəxi biz varduq öldürdük, malların, tavarların, atların, tonların alduq, gəldük" (SN, 104-245a);* **Mən' eyləmək** – qadağa, yasaq etmək: *"Ayıtdı kim, nə kim Məhəmməd məsləhət görə, sən anı **mən eyləmə** demədimi?-dedi" (SN, 133-315b)* və s. Abidənin dilində işlənən bir sıra ifadələr vardır ki, ayrılıqda nominativ mənaya malik olaraq sərbəst söz birləşməsi kimi çıxış edir. Onların frazeoloji məna kəsb etməsini, məcazi məna daşıma xüsusiyyətini yalnız mətn daxilində müəyyənləşdirmək mümkün olur. Bu baxımdan H.Bayramov sərbəst söz birləşmələrinin məcaziləşdirilməsi yolu ilə frazeoloji mənada işlədilməsini şərtləndirən belə mətnə geniş mətn adını vermişdir. Belə ki, *"sərbəst söz birləşməsinin məcazi məna kəsb etməsi üçün həmin söz birləşməsinə bu və ya digər sintaktik quruluşda bir neçə sözün də birləşməsi ilə müvafiq şərait yaradılmışdır. Əgər belə şərait, yəni əlavə sözlər əhatəsi olmasaydı, həmin birləşmə frazeoloji vahid mənası kəsb etməzdi"* [3, s.26]. Mustafa Zəririn "Siyərün-Nəbi" əsərində müşahidə edilən ***gözlərini açmaq, yerə düşmək*** ifadələri də bu qəbildəndir. Əsərin dilində həmin ifadələr həm öz nominativ mənasına uyğun olaraq, həm də məcaziləşərək frazeoloji məna kəsb etmişdir. Məsələn, *"Çün **gözümi açdum**, baqdum, çəvrəmdə vələdümi görmədüm" (SN,77-178b-79a);*

*"Ya qəvm, əqlünüzi başunuza düşürünüz,* ***gölərinizi açunuz****" (SN, 64-165b); "****Gözün aç,*** *gözün aç, gözün aç, Eğin olma bu dünyanın esiri"(SN,379); "Dəxi əli birlə əti ? verdi, Əbu Cəhəl* ***yerə düşdi****, illa rəsul əlindən düşdi, başı yarıldı, əyağı sındı, burnı yəncəldi ?, əqli başından getdi, binuş olıban düşdi, yatdi" (SN, 130a-309a); "Dəxi Bəni İsrailün izzəti* ***yerə düşdi****" (Si.Da, 45a-47b).*

Abidənin dil materialı dilimizin çoxəsrlik inkişaf prosesində formalaşan feili frazeoloji birləşmələri bədii fikrin ifadəsi kimi semantik cəhətdən dil faktına çevrilənədək mürəkkəb inkişaf prosesinin məhsulu kimi səciyyələndirməyə imkan verir. Belə ki, əsərdə dilimizdə vaxtilə işlək olmuş, bu gün isə dilin arxaik qatında yer almış frazeoloji vahidlər obrazların emosional-psixoloji vəziyyətinin göstəricisi olaraq, onların keçirdiyi duyğuların poetik ifadəsi kimi işlənmişdir: *"Andan Əbu Talib ayaq üzrə turu gəldi, xütbəyi* ***ağaz eylədi*** *aytdı"(SN,47-120b-21a); "Çün Aminə xatun uru turdı, ilərü Fatimə xatunun əlin öpdi, çün söz söylədi, Abdullah anasının* ***könlini, canını qapdı****"(SN,44-118a); "Çün çəri arasına girdilər, gördilər cəmi xəlayiqlər qırılmışlardür, bir kişi diri yoqdur, çün ol iki kişi anı əylə gördilər, qorqudan* ***canları başlarına sıcradı****, tez yənə döndilər" (SN,111a-258b); "Əmüləri ayıtdılar: Əgər rəsul güräşməzsə cəmi ərəb qəbayilləri bizi* ***dilə alalar****, hörmətümüzə ziyan ola dedilər" (SN,129-306a); "Çün Abdullah ulaldı, yədi yaşına dəgdi, hüsninün şərhi* ***dillərə söyləməz oldı****" (SN, 30-90b-91b); "Şeybəni fil əlindən kəçürüb gətürdilər, ta ol filün həvlini görə, həybəti, səlabəti* ***könlünə otura****" (SN,64-156b); "Bir gün mübarək ləfzindən ki söyləyəcək şəkər əzilürdi? sözini əşidən kişinün* ***könlinə yazılurdı****..."(SN,101-238b-39a);"Şeybə ol qaraltuyu görcək* ***könli tanuqluq verdi*** *kim, yağmur bulıdına bənzəməzdi, zira yağmur bulıdınun ayruqsı əlaməti vardur"(SN,64-165b); "Dəxi aydurdı kim, nə səbəbdən atam Əbdül-Müttəlib bənüm oğlumı böylə əziz görməz, bu yətim yoxsulı əziz görür dəyü* ***könlündə kin gizlərdi****, həsəd qılurdı" (SN,97-227b-229a-b); "Zinəfər taşra çıqdı, bənzi sararmış, qaqımış,* ***qanı qurımış****" (SN,64-153b); "Bir gün Yəmamə əhli Qəssan qəbiləsindən adam öldürdilər,* ***qan qıldılar****, aralarına düşmənlik düsdi"(SN,50-126a-b);"Bir gün Əbdül-Mütəllib birlə Ədiynün* ***sözü qarşulaşdı****" (SN,28-88a); "Dəxi anun həsrəti odından xəlayiqin canı göyünə,* ***yürəkləri yapışa****" (SN, 32-95a); "Qüreyş* ***yürək bərkitdilər****, çəri düzgünin qıldılar, uruş yərağın qıldılar" (SN,106- 250a-b);* "*Bir gün mübarək ləfzindən ki söyləyəcək* ***şəkər əzilürdi****? sözini əşidən kişinün könlinə yazılurdı..." (SN,101-238b-39a)* və s.

Söyləmək, demək mənasında olan *ağaz etmək* frazemindəki ağız sözü fonetik dəyişikliyə uğrayaraq *ağaz* kimi işlənmişdir. Günümüzdə işlək olmayan bu frazeoloji vahid orta əsrlər anadilli abidələrimizin dilində geniş işlənmişdir. Məsələn, *"Göynər, ağlar, yağılur Gülşah içün, Şeir* ***ağaz eyləmiş*** *ol mah içün"* (*YMVG, 155); "Lütf ilə bir neçə sözlər söylədi, Qisseyi-Yusifdən* ***ağaz eylədi****" (ƏT, 15); "Əlqərəz, zərgəri-bədgöhər ol qədər ərəbcə* ***ağaz etdi*** *ki, nəccari-biçarə mütəhəyyir oldu" (MN,40).* Qədim türk abidələrinin dilində ***ağaz*** və ***ağız*** kimi iki variantda təsadüf edilən bu söz həm insan orqanizminin bir üzvünü, həm nitq anlamlarını ifadə etmişdir. Eləcə də qədim türk abidələrində deyilmiş, söylənilmiş mənasında eyni kökdən olan *ağazlan* sözünə də təsadüf olunur [6, s.17, 21]. *Ağaz etmək* frazemi türk dilində *ağız yapmak//ağız etmek* formasında işlənərək türk dilinin lüğətlərində üç anlamda verilmişdir: 1. birinə yaranmak için kübar danışmağa çalışmaq - *"Kolonya dökmekten, şeker tutmaktan iyi gözükeceğim diye ağız etmekten yoruldu" (L.Tekin)*; 2. həqiqəti saxlamaq, səmimi danışmamaq, birini aldatmaq mənası ilə duyğularını, düşüncələrini olduğundan başqa cür göstərəcək biçimdə danışmaq - "*Kaçacağım, tövbeler olsun, bir fırsatını bulayım diye ağız yaptı" - M.Ş.Esendal"* [7]; 3. birinin diqqətini başqa bir şeyə çəkmək üçün söz söyləmək. Göründüyü kimi, abidənin dilində agaz//ağız sözü vaxtilə nitq anlamını da ifadə etdiyi üçün *ağaz eyləmək//ağız eyləmək* frazemi *demək, söyləmək* mənalarını ifadə etməklə ayıtmaq sözünün sinonimi kimi çıxış etmişdir.

The mid-20th century witnessed a notable decline in breastfeeding rates across many parts of the world. This shift away from traditional breastfeeding practices can be attributed to a complex interaction of many factors. The rise of industrialization and urbanization led to a significant change in lifestyles, with many women entering the workforce and spending less time at home. This shift reduced opportunities for frequent breastfeeding. Aggressive marketing campaigns by infant formula companies played a significant role in influencing public perception and encouraging mothers to switch from breastfeeding to formula. Misconceptions about the nutritional adequacy of breast milk and the perceived benefits of formula contributed to the decline in breastfeeding rates. The absence of adequate support systems for breastfeeding mothers, such as workplace lactation policies and community-based breastfeeding support groups, further hindered breastfeeding practices. The consequences of this decline in breastfeeding rates have been far-reaching, with both short-term and long-term implications for infant and maternal health. Infants who are not breastfed are more susceptible to infectious diseases, respiratory illnesses, and diarrhea. Additionally, breastfeeding has been associated with reduced risks of chronic diseases such as obesity, type 2 diabetes, and certain types of cancer for both mothers and children (6-8). In spite of a substantial and continually expanding corpus of scientific evidence underscoring the diverse advantages of exclusive breastfeeding for both infants and mothers, the global scenario falls short of the ideal. A marked incongruity persists between the recognized benefits and the practical application of this approach. Alarmingly, close to 60% of infants under six months of age worldwide do not receive exclusive breastfeeding. This alarming statistic underscores the enduring obstacles in fostering and facilitating the widespread embrace of exclusive breastfeeding practices. Moreover, the absence of substantial advancement in this measure over the preceding two decades demands a reinvigorated emphasis on mitigating the underlying impediments and executing efficacious strategies. This plateau accentuates the intricacy of the matter and emphasizes the necessity for a comprehensive approach targeting the social, cultural, and economic factors obstructing the broad acceptance of exclusive breastfeeding (9-10). Exclusive breastfeeding for six months provides numerous advantages for both the infant and the mother. It offers a plethora of well-established benefits for infants, particularly emphasizing immunological protection during the first six months of life. The prompt initiation of breastfeeding, notably within the first hour postpartum, acts as a robust defense mechanism for newborns. Scientific studies indicate a notable decrease in the risk of neonatal infections, a prominent contributor to infant mortality, when breastfeeding is initiated promptly. Breast milk serves as a remarkable reservoir of immune factors, encompassing antibodies and bioactive components. These elements adeptly combat gastrointestinal infections, notably diarrhea, which can prove especially perilous for infants not exclusively reliant on breastfeeding. Research indicates a troubling elevation in the mortality risk associated with diarrhea and other infections among infants who are either partially breastfed or not breastfed at all. Hence, advocating for the early adoption of exclusive breastfeeding practices stands as a foundational element within global public health endeavors directed at safeguarding the health and viability of newborns universally. By accentuating the immunological advantages of breast milk, healthcare practitioners and public health authorities can effectively encourage mothers to embrace this optimal feeding regimen for their infants. The energy and nutrient provision for infants aged 6 to 23 months: Breast milk can fulfill fifty percent or more of the child's energy requirements from 6 to 12 months, and one-third of the child's energy requirements from 12 to 24 months. Additionally, breast milk serves as a pivotal source of energy and essential nutrients during periods of illness, thereby reducing mortality rates in malnourished children. Furthermore, infants who are breastfed exhibit a decreased likelihood of developing obesity.

Infants who are breastfed demonstrate enhanced performance on intelligence assessments. Moreover, breastfeeding correlates with increased income in adulthood: Enhancements in infant development and reductions in healthcare expenses yield economic benefits for both individual households and the broader national economy. Furthermore, prolonged breastfeeding positively impacts the health and welfare of mothers, diminishing the likelihood of ovarian and breast cancer while extending the intervals between pregnancies (9, 11-12). For decades, conventional health communication strategies, encompassing in-person education, printed materials, and audiovisual aids, have served as the primary means for advocating healthy behaviors and breastfeeding. Nevertheless, the advent of the digital era has precipitated a transformation in women's information-seeking preferences. Digital platforms, such as websites, mobile apps, and online forums, provide a swifter and more convenient avenue for accessing information. This alteration in preference underscores the imperative for a concurrent evolution in health communication methodologies (13). The advent of mobile health (mHealth) methodologies presents a notably compelling opportunity. MHealth interventions offer a multifaceted approach to fostering breastfeeding:

- Mobile health (mHealth) resources are easily accessible on smartphones and other mobile devices, facilitating on-demand access to information and support.
- Mobile applications can provide interactive functionalities like quizzes, personalized tracking tools, and support groups, thereby nurturing engagement and cultivating a sense of community.
- MHealth interventions have the capacity to deliver tailored motivational messages and educational resources, empowering women to make informed choices regarding infant feeding practices.



By adopting these digital communication strategies, healthcare providers and public health organizations can efficiently engage a broader audience and cater to the unique requirements of mothers seeking information and support regarding breastfeeding (14-15). Currently, the global population of smartphone users is experiencing a rapid expansion (16-17). Presently, the global population of smartphone users exceeds 6.65 billion, with approximately 83.07% of the world's population having internet connectivity. Since 2016, there has been a considerable rise in these figures worldwide, with 3.67 billion smartphone users accounting for 49.40% of the global population at that time. Notably, the number of smartphone users nearly doubled between 2016 and 2022. Projections indicate that global smartphone users are anticipated to reach 7.33 billion by the year 2025 (17). As a rule, women exhibit a heightened receptiveness to guidance concerning healthy lifestyles during pregnancy, driven by a strong inclination to enhance their lifestyle for the betterment of their baby's health. Consequently, they frequently turn to smartphone applications to obtain counsel regarding their pregnancy (18). The global proliferation of mobile devices has led to a surge in the utilization of mobile health applications (19). In a study investigating the factors influencing the active utilization of mobile health apps, it was projected that over 2.5 billion individuals would possess smartphones by 2019, with over 50% of them having mobile health apps installed by 2017 (20). Mobile health applications have emerged as a pivotal component in the management of personal health (18). In a study conducted in the United States, it was discovered that smartphone applications pertaining to women's health and pregnancy comprised 7% of the total number of apps available. Furthermore, within the Chinese application market, the study identified 110 applications related to maternal health. These applications were found to offer diverse functionalities and furnish pregnant women with information regarding childbirth.

This form of health guidance surpasses traditional methods and has the potential to enhance the quality of pregnancy care, particularly in regions where medical resources are limited. Numerous apps also incorporate social features, professional counseling capabilities, and specialized tools like fetal movement tracking, due date calculation, and body weight monitoring. Indeed, these self-monitoring health status functions can be employed to oversee the well-being of pregnant women (21). In a study employing a mobile phone application designed according to theoretical frameworks, notable enhancements were noted among mothers who underwent cesarean section regarding early initiation of breastfeeding within 2 hours post-birth and exclusive breastfeeding during their hospital stay (22). In another study employing a mobile application, findings indicated that while the breastfeeding rate did not demonstrate an increase compared to women receiving standard care, there was a notable decrease in the rate of breastfeeding cessation during the initial 2 weeks post-birth (14). A meta-analysis study concluded that technology-based breastfeeding support significantly contributed to enhancing mothers' breastfeeding knowledge, promoting breastfeeding initiation, and encouraging exclusive breastfeeding behaviors for the initial six months (15). Health communication modalities such as in-person educational sessions, pamphlets, audiovisual educational materials, and mass media campaigns have long been employed to advocate for healthy behaviors and breastfeeding (13).

## 2. CONCLUSION

The successful establishment and maintenance of breastfeeding rely on the supportive attitudes of midwives, adherence to evidence-based hospital practices, and the acknowledgment that many mothers will require assistance in initiating and sustaining breastfeeding. The brief hospital stay following childbirth necessitates the imparting of substantial information to new parents. Consequently, breastfeeding education and support, provided both prenatally and post-discharge, assume paramount importance. Midwives ought to undergo training to effectively support and document breastfeeding practices, and newborns should receive follow-up care from midwives at 3 to 5 days of age, with ongoing breastfeeding support extended accordingly. In the digital age, the strategic use of smartphone applications by midwives offers a powerful tool to support breastfeeding women. These applications can enhance mothers' awareness of breastfeeding practices, facilitate access to reliable information, and ultimately contribute to improved health outcomes for both mothers and newborns.



## 3. REFERENCES

1. WHO. Breastfeeding. Erişim Adresi https://www.who.int/health-topics/breastfeeding#tab=tab_1. Erişim Tarihi:15.04.2024
2. ACOG Committee. (2021). Breastfeeding challenges. ACOG Committee Opinion No. 820. American College of Obstetricians and Gynecologists. Obstet Gynecol 137:e42–53.
3. National Institute for Health and Care Excellence. (2014). Maternal and Child Nutrition. https://www.nice.org.uk/guidance/ph11/chapter/2-public-health-need-and-practice
4. UNICEF. Global breastfeeding scorecard 2023. https://www.unicef.org/documents/global-breastfeeding-scorecard-2023.
5. The World Bank. Breastfeeding: A Foundational Investment in Human Capital. https://blogs.worldbank.org/en/health/breastfeeding-foundational-investment-human-capital
6. Tomori, C. (2022). Overcoming barriers to breastfeeding. Best Practice & Research Clinical Obstetrics & Gynaecology, 83, 60-71.
7. Martucci, J. (2017). Childbirth and breastfeeding in 20th-century America. In Oxford Research Encyclopedia of American History.

8. Thorley, V. (2019). Is breastfeeding 'normal'? Using the right language for breastfeeding. Midwifery, 69, 39-44.
9. WHO. Exclusively breastfeeding under six months. Erişim Adresi: https://www.who.int/data/nutrition/tracking-tool/indicator-mapping/exclusive-breastfeeding
10. Giang, H. T. N., Duy, D. T. T., Vuong, N. L., Ngoc, N. T. T., Pham, T. T., Duc, N. T. M., ... & Huy, N. T. (2023). Prevalence of exclusive breastfeeding for the first six months of an infant's life and associated factors in a low–middle income country. International Breastfeeding Journal, 18(1), 47.
11. WHO. Infant and young child feeding. https://www.who.int/news-room/fact-sheets/detail/infant-and-young-child-feeding
12. Walters, D. D., Phan, L. T., & Mathisen, R. (2019). The cost of not breastfeeding: global results from a new tool. Health policy and planning, 34(6), 407-417.
13. Daly, L. M., Horey, D., Middleton, P. F., Boyle, F. M., & Flenady, V. (2017). The effect of mobile application interventions on influencing healthy maternal behaviour and improving perinatal health outcomes: a systematic review protocol. Systematic reviews, 6(26): 1-8. https://doi.org/10.1186/s13643-017-0424-8
14. Vila-Candel, R., Mena-Tudela, D., Franco-Antonio, C., Quesada, J. A., & Soriano-Vidal, F. J. (2024). Effects of a mobile application on breastfeeding maintenance in the first 6 months after birth: Randomised controlled trial (COMLACT study). Midwifery, 128, 103874.
15. Lau, Y., Htun, T. P., Tam, W. S., & Klainin-Yobas, P. (2016). Efficacy of e-technologies in improving breastfeeding outcomes among perinatal women: a meta-analysis. Maternal & child nutrition, 12(3), 381-401.
16. Park, J. H., & Park, M. (2021). Smartphone use patterns and problematic smartphone use among preschool children. PLoS One, 16(3), e0244276.
17. Abdulla, F., Hossain, M. M., Huq, M. N., Hai, A., Rahman, A., Kabir, R., ... & Khan, H. T. (2023). Prevalence, determinants and consequences of problematic smartphone use among preschoolers (3–5 years) from Dhaka, Bangladesh: A cross-sectional investigation. Journal of Affective Disorders, 329, 413-427.
18. Wang, N., Deng, Z., Wen, L. M., Ding, Y., & He, G. (2019). Understanding the use of smartphone apps for health information among pregnant Chinese women: mixed methods study. JMIR mHealth and uHealth, 7(6), e12631.
19. Walle, A. D., Ferede, T. A., Shibabaw, A. A., Wubante, S. M., Guadie, H. A., Yehula, C. M., & Demsash, A. W. (2023). Willingness of diabetes mellitus patients to use mHealth applications and its associated factors for self-care management in a low-income country: an input for digital health implementation. BMJ Health & Care Informatics, 30(1).
20. Wang, Y., Wu, T., & Chen, Z. (2021). Active usage of mobile health applications: cross-sectional study. Journal of Medical Internet Research, 23(12), e25330.
21. Mo, Y., Gong, W., Wang, J., Sheng, X., & Xu, D. R. (2018). The association between the use of antenatal care smartphone apps in pregnant women and antenatal depression: cross-sectional study. JMIR mHealth and uHealth, 6(11), e11508.
22. Doan, T. T. D., Pham, N. M., Binns, C., Lee, A., Zhao, Y., Dinh, T. P. H., & Bui, T. T. H. (2022). Effect of a mobile application on breastfeeding rates among mothers who have cesarean deliveries: a randomized controlled trial. Breastfeeding Medicine, 17(10), 832-840.

# THE EFFECT OF METOCLOPRAMIDE ON PROLIFERATION IN KERATINOCYTE CELL LINE

**Burcu BİLTEKİN[1]**

**[1]Assistant Professor Atlas University, Faculty of Medicine,**

**Depatment of Histology and Embryology, Istanbul, Turkey, İD:0000-0002-8435-6797**

**Objective:** Metoclopramide is a drug used in the control and treatment of nausea and vomiting. Metoclopramide is a dopamine receptor antagonist, 5HT3 antagonist and 5HT4 receptor agonist. HaCaT cells, an immortized human keratinocyte cell, have been used in many studies such as toxicity and wound healing in vitro. In this study, it was aimed to investigate the possible effect of metoclopramide on keratinocyte cell proliferation and morphology at different doses.

**Material and Methods:**

Cell counts were performed to determine cell proliferation 24 hours after the application of metoclopramide at doses of 20 ng/ml, 200 ng/ml and 2000 ng/ml to HaCat cells, which are human keratinocyte cells. Tripan blue, Hematoxylin and Eosin staining were performed to evaluate the morphological effects and viability of the administered metoclopramide doses, and was visualized with X20 magnification.

**Results:** A 2000 ng/ml dose of metoclopramide reduced the cell count statistically significantly ($p<0.05$) compared to the control group. There was no significant change in the number of cells at 20 ng/ml and 200 ng/ml doses of metoclopramide compared to the control.

**Conclusion:** Metoclopramide inhibited proliferation at a dose of 2000 ng/ml. Determining the mechanism of action of metoclopramide works on HaCat cells will be an important step for future studies.

**Keywords:** Metoclopramide, HaCat cell, Cell culture.

# INVESTIGATION OF INFRASPECIES VARIABILITY OF DAREVSKIA RUDIS (BEDRİAGA, 1886) COMPLEX FROM AN OSTEOLOGICAL PERSPECTIVE

# DAREVSKİA RUDİS (BEDRİAGA, 1886) KOMPLEKSİNİN TÜR İÇİ DEĞİŞKENLİĞİNİN OSTEOLOJİK BAKIŞ AÇISIYLA İNCELENMESİ

**TUĞÇE BAĞCI [1], ELİF YILDIRIM CAYNAK[2], ÇETİN ILGAZ[3], YUSUF KUMLUTAŞ[4], KAMİL CANDAN[5]**

**[1]Dokuz Eylül Üniversitesi, Fen Bilimleri Enstitüsü, Biyoloji ABD, İzmir, Türkiye, 0009-0004-9071-8485**

**[2]Dokuz Eylül Üniversitesi, Fen Fakültesi, Biyoloji Bölümü, İzmir, Türkiye, 0000-0001-6794-2527**

**[3]Dokuz Eylül Üniversitesi, Fen Fakültesi, Biyoloji Bölümü, İzmir, Türkiye, 0000-0001-7862-9106**

**[4]Dokuz Eylül Üniversitesi, Fen Fakültesi, Biyoloji Bölümü, İzmir, Türkiye, 000-0003-1154-6757**

**[5]Dokuz Eylül Üniversitesi, Fen Fakültesi, Biyoloji Bölümü, İzmir, Türkiye, 0000-0002-6934-3971**



## Özet

*Darevskia* genel olarak karmaşık ve birbiri içine girmiş hibrit türlerden meydana gelen bir cinstir. Hakkında son yıllara kadar pek çalışma olmaması sebebiyle taksonomik olarak sorunlu bir gruptur. Son yıllarda yapılan moleküler çalışmalarda *Darevskia rudis* kompleksi filogenetik olarak ayrılmıştır. Bu çalışmada *Darevskia rudis* kompleksinin (*Darevskia rudis rudis, Darevskia mirabilis, Darevskia obscura obscura, Darevskia obscura bischoffi* ve *Darevskia obscura macromaculata*) karşılaştırmalı osteolojisi ikili iskelet metodu uygulanarak incelenmiştir. Elde edilen verilere göre; özellikle kafatası çatısını oluşturan parietal ve frontal kemikleri ile burun bölgesinde bulunan premaxilla ve nasal kemiklerinde taksonlar arasında osteolojik farklılıkların olduğu belirlenmiştir. Bu çalışma ile *Darevskia rudis* grubuna ait taksonlar osteolojik olarak ilk kez incelenmiş ve osteolojik verilerin grupla ilgili yapılmış moleküler farklılıkları desteklediği ortaya çıkarılmıştır.

**Anahtar kelimeler:** Lacertidae, *Darevskia rudis*, osteoloji, kafatası

## Abstract

*Darevskia* is generally a genus consisting of complex and intertwined hybrid species. It is a taxonomically problematic group as there has not been much study on it until recent years. In recent molecular studies, *Darevskia rudis* complex has been separated phylogenetically. In this study, the comparative osteology of the *Darevskia rudis* complex (*Darevskia rudis rudis, Darevskia mirabilis, Darevskia obscura obscura, Darevskia obscura bischoffi* and *Darevskia obscura macromaculata*) was examined by applying the double staining method. According to the data obtained; it has been determined that there are osteological differences between taxa, especially in the parietal and frontal bones that form the roof of the skull and the premaxilla

and nasal bones in the nasal region. With this study, *Darevskia rudis* group were examined osteologically for the first time and it was revealed that osteological data supported the molecular differences made about the group.

**Keywords:** Lacertidae, *Darevskia rudis*, osteology, skull

# AS A FOLLOWER OF MIRZA ALAKBAR SABIR MIRZA FATALI AKHUNDOV SCHOOL

# MİRZƏ ƏLƏKBƏR SABİR MİRZƏ FƏTƏLİ AXUNDOV MƏKTƏBİNİN DAVAMÇISI KİMİ

**ULDUZ FƏRHAD QIZI QƏHRƏMANOVA**

**filologiya üzrə fəlsəfə doktoru, ADPU-nun "Ədəbiyyat" kafedrasında baş müəllim**

**Orcid İD: 0009-0003-4418-9319**

***Abstrakt:***

Ədəbiyyat tarixindən məlumdur ki, M.F.Axundov Azərbaycan realist ədəbiyyatının bütövlükdə nəzəri əsaslarını hazırladı, lakin təcrübi olaraq ancaq dram və nəsrə aid nümunələr yaratdı. Şeirdə isə bu vəzifəni Sabir yerinə yetirdi. Həyat həqiqətini, xalq həyatını Axundovcasına əks etdirmək, həyata Axundovcasına münasibət Sabir yaradıcılığına da hakimdir. Həyat və poeziyanın qarşılıqlı əlaqəsi problemini Sabir məhz Axundov kimi başa düşmüş və XX əsrlə başlanan inqilablar dövründə bu problemi Axundovcasına həll etmişdir. Bir sözlə Sabir "bir əsrin" (A.Səhhət) işini bir anda gördü. Sabir də Axundov kimi bədii əsərin forma və məzmununu vəhdətdə götürdü. Sabir milli realizmin yeni yetkinlik mərhələsinin yaranmasında misilsiz rol oynadı. Sabir realizmi dərin bir ictimai realizmdir xarakteristikası tamamilə doğrudur. Belə ki, XX əsrin əvvəllərində poeziyada tənqidi realizm M.Ə.Sabirlə başlandı. Sabir Azərbaycan şeiri tarixinə böyük realist sənətkar kimi daxildir. O, klassik realizmin yeni mərhələsini – tənqidi realizm mərhələsini yaratdı. M.Ə.Sabir M.F.Axundov yolunu davam və inkişaf etdirərək milli şeirdə realizmi yeni, keyfiyyətcə daha yüksək zirvəyə qaldırdı.



***Açar sözlər:*** Klassik sənətkar, satira, tənqidi-realizm, üslub, M.F.Axundov, M.Ə.Sabir

**Abstract:**

It is known from the history of literature that M.F. Akhundov developed the theoretical foundations of realist literature of Azerbaijan as a whole, but experimentally he created only drama and prose examples. Sabir performed this task in the poem. Reflecting the truth of life, people's life in Akhundovca, attitude to life in Akhundovca dominates Sabir's creativity.

Sabir understood the problem of interaction of life and poetry just like Akhundov and solved this problem in Akhundovca during the revolutions that started in the 20th century. In a word, Sabir saw the work of "a century" (A. Sahhat) at once. Like Akhundov, Sabir took the form and content of the artistic work in unity. Sabir played an incomparable role in the emergence of a new maturity stage of national realism. The characterization of Sabir's realism as a deep social realism is absolutely true. Thus, at the beginning of the 20th century, critical realism in poetry began with M.A. Sabir. Sabir is included in the history of Azerbaijani poetry as a great realist artist. He created a new stage of classical realism - the stage of critical realism. M.A.Sabir continued and developed the path of M.F.Akhundov and raised realism in national poetry to a new, qualitatively higher peak.

**Keywords:** Classical artist, satire, critical-realism, style, M.F. Akhundov, M.A. Sabir

Ədəbiyyatşünaslıqda Mirzə Ələkbər Sabirin milli klassika ilə əlaqələri həmişə tədqiqatçıların diqqət mərkəzində olmuşdur. M.Ə. Sabirin Mirzə Fətəli Axundov yaradıcılığı ilə tanışlığı ilə bağlı ədəbiyyatşünas Tofiq Hacıyev "Sabir: qaynaqlar və sələflər" monoqrafiyasında göstərmişdir ki, Sabirin M.F.Axundov irsi ilə bilavasitə tanışlığı haqqında hələlik heç bir tarixi sənəd yoxdur. Lakin bu sənədsizlik iki sənətkarın üslub yaxınlığı kimi böyük faktın qarşısında gücsüzləşir. Sabirin Axundov sənətinə bələd olduğunu ən çox güman edən tədqiqatçı Əziz Mirəhmədovdur. Ədəbiyyat tarixindən məlumdur ki, M.F.Axundov Azərbaycan realist ədəbiyyatının bütövlükdə nəzəri əsaslarını hazırladı, lakin təcrübi olaraq ancaq dram və nəsrə aid nümunələr yaratdı. Şeirdə isə bu vəzifəni Sabir yerinə yetirdi. Həyat həqiqətini, xalq həyatını Axundovcasına əks etdirmək, həyata Axundovcasına münasibət Sabir yaradıcılığına da hakimdir. Həyat və poeziyanın qarşılıqlı əlaqəsi problemini Sabir məhz Axundov kimi başa düşmüş və XX əsrlə başlanan inqilablar dövründə bu problemi Axundovcasına həll etmişdir. Bir sözlə Sabir "bir əsrin" (A.Səhhət) işini bir anda gördü. Sabir də Axundov kimi bədii əsərin forma və məzmununu vəhdətdə götürdü. Azərbaycan ədəbiyyatında janrların ənənəvi gedişinə qarşı çıxmaq, janrları dövrə, əsrə uyğun seçmək, ictimai həyatla bağlı olaraq janrları, formaları dəyişmək ilk dəfə M.F.Axundovun fəlsəfi-estetik görüşlərində formalaşdı. O yazırdı: "Gülüstan" və "Zinətül-məcaliz" dövrü keçmişdir. Bu gün bu cür əsərlər millətin işinə yaramır. Bu gün millət üçün faydalı və oxucuların zövqü üçün rəğbətli olan əsər drama və romandır. M.F.Axundov öz dediklərini həyata keçirdi. Sabir də ədəbi formalara Mirzə Fətəli tələbləri ilə yanaşırdı. O, dövrün tələbinə, "millətin işinə yarayan" formaya müraciət etdi, **inqilabi satiranın** bünövrəsini qoydu. Sabir də köhnə qəzəl ədəbiyyatına qarşı yeni ədəbi məktəbin manifestini hazırladı. Lakin Axundovdan fərqli olaraq Sabir öz manifestini elmi üslubda yox, bədii üslubda verdi:

*Ey alnın ay, üzün günəş, ey qaşların kəman!*

*Ceyran gözün, qarışqa xəttin, kakilin ilan!*

Yaxud:

*Alma çənən, çənəndə zənəxdan dərin quyu,*

*Kipriklərin qamış, dodağın bal, tənin kətan!*

Bu, Sabirin yeni forma haqqındakı manifesti idi. Lakin eyni zamanda qəzəl, qəsidə məktəbinə parodiyadır. Bu parodiya Mirzə Fətəli prinsipi idi – gülüşlə fikir söyləmək!

Sabirin "Təraneyi-şairanə", "Nə yazım" satiralarında da Mirzə Fətəli platforması ciddi müdafiə olunurdu.

*Sülluki şairin eynən səfa deyil də, nədir?*

*Vətənpərəstə bu məslək rəva deyil də nədir?*

Yaxud:

*Şairəm, çünki vəzifəm budur əşar yazım,*

*Gördüyüm nikü bədi eyləyim izhar, yazım,*

*Günü parlaq, günüzü ağ, gecəni tar yazım,*

*Pisi pis, əyrini əyri, düzü həmvar yazım,*

*Niyə bəs boylə bərəldirsən, a qare gözünü?*

*Yoxsa bu ayinədə əyri görürsən özünü?!*

M.F.Axundovun komediyaları ilə M.Ə.Sabirin satiraları aralarında ciddi üslubi təmas vardır. Hər ikisində **gülüşlə-tərbiyə** üslub birliyi mövcuddur. Sabir üslubunu əslində Axundov başlamışdır. Bu cəhətdən Axundov Sabir üçün müəyyən mənada tarixi başlanğıcdır. Üslub birliyi və ya yaxınlığı üçün janr ölçü deyildir. Bu cəhətdən Axundov və Sabirin müxtəlif janrlarda yazması onların üslub birliyini zərrəcə də olsa kölgələndirə bilmir. Sabir ideya cəhətdən olduğu kimi, üslubca da Axundovun bilavasitə varisidir. İstər Sabir satiraları olsun, istərsə də Axundov komediyalarında sənətkarların ifşa etmək istədiyi tiplər özləri-özlərini rüsvay edirlər. Sabir üslubunda tipi öz dili ilə ifşa etmək Mirzə Fətəli Axundovdan gəlir.

M.F.Axundov:

"... Heydər bəy bir belə döyüş olsun, hamıdan irəli dəstə başnda gedən mən ollam! Bir hünər göstərrəm ki, Rüstəmi-dastanda göstərməmiş ola! Məmin işim budur! Nə ki, naçalnik məni çağırıb deyir: Heydər bəy, rahat dur-otur, quldurluq etmə, yol kəsmə, oğurluğa getmə... Mənim atam Qurban bəy onu etməyib: mən ki onun oğlu Heydər bəyəm, mən də etməyəcəyəm!.."

Sabir:

*...Əqrəb kimi neştər gücü var dırnağımızda,*

*İslam susuz olsa, su yox bardağımızda.*

*Hər küncdə min tülkü yatır çardağımızda,*

*Min hiylə qurub, rütbəvü ikram alırız biz.*

*Qafqazlılarız, yol kesiriz, nam alırız biz!*

Göründüyü kimi, hər iki vəziyyətdə ifşa üsulu eynidir – tipləri özü-özlərini ifşa edirlər.

Azərbaycanda realizmin bir ədəbi məktəb olaraq XIX əsrdə yaranıb formalaşdığını iddia etmək o vaxta qədərki Azərbaycan ədəbiyyatında bu və ya başqa dərəcədə realizm xüsusiyyətlərinin olduğunu inkar etmək, yaxud Nizamidən tutmuş Vaqifə qədər orta əsrlər poeziyasında satiradan əsər olmadığını iddia etmək demək deyil. İlk dəfə M.F.Axundov tərəfindən ədəbi məktəb səviyyəsinə qaldırılan realizm və satiranın kökləri çox qədimə gedib çıxır. Satiranın tarixi daha qədimdir. Azərbaycan klassik ədəbiyyatında isə realizm XIX əsrə qədər özünün ilk gənclik dövrünü keçirərək, ancaq keçən əsrdə müstəqil bir şəkil alan realizm ədəbi məktəbi və satira üçün möhkəm əsaslar yaratmışdır. Tənqidi realizm və satira problemləri Axundov estetikasında birinci dərəcəli əhəmiyyəti olan məsələlərdəndir. Yalnız ədəbiyyatda deyil, fəlsəfə publisistikada da satira və tənqidi qüvvətləndirmək uğrunda mübarizə işi hər kəsdən əvvəl Axundovun adı ilə bağlıdır. Cəlil Məmmədquluzadə deyirdi: "Mirzə Fətəlinin əl vurduğu məsələlərin hamısından qan qoxusu gəlir". M.F.Axundov realizm, həyatilik, tipiklik uğrunda mübarizəsi, XX əsrin başqa realistləri kimi "şairəm, əsrimin ayinəsiyəm" – deyən Sabirin realizm uğrunda mübarizəsində də müvəffəqiyyətlə davam etdirilmişdir. Axundovun əsərləri ilə Sabirin nə dərəcədə tanış olduğu hələlik problem olaraq qalmaqdadır.



Mirzə Fətəli Axundovun realizmi öz mahiyyəti etibarilə maarifçi realizmdir. Q.Zakir, M.F.Axundov, S.Ə.Şirvani kimi sənətkarlar ədəbiyyatda maarifçi-realist satiranın əsasını qoymuş, onun ənənəsini yaratmışdılar. Tərlan Novruzov "Sabir ədəbi məktəbi" adlı monoqrafiyasında qeyd etmişdir ki, Mirzə Ələkbər Sabir sənətinin gücü onun doğruluğunda və həqiqət hissinin dərinliyindədir. Sabir gülüşü həyat gerçəkliklərinin xüsusi idrak formasıdır və heç də adi olmayıb fikir və idrakla yoğrulmuş gülüşdür. M.Ə.Sabir əsərlərində ifadə etibarilə bir qədər zahiri, lakin çox parlaq olan gülüş getdikcə dərinləşən, daha da mənalanan, həyatın və xarakterlərin eybəcərliklərini kəskinləşdirən, çılpaqlaşdıran satirik bir keyfiyyətdi. Sabir qəti sürətdə inanırdı ki, insanın da, bütövlükdə cəmiyyətin də qüsurlarını istehza və gülüşdən başqa heç bir şey aradan qaldıra bilməz. O, bu estetik baxışı ilə M.F.Axundova çox yaxın idi. Satirik

poeziya onun əlində gerçəkliyi dəyişmək vasitəsidir. O, nəyisə islah etmirdi, əksinə, vaxtı ötmüşü, ölümə məhkumu sökürdü, ifşa edirdi, sosial və estetik cəhətdən inkar və rədd edirdi. Sabir poziyasının yeniliyi və novatorluğu bundan ibarətdir. Abbas Səhhət yazırdı: "Sabir köhnə şeirlərlə yeni şeirlər arasında bir əsirlik qədər uçurum açdı ki, bir daha geri dönüb, o uçurumu atlanmağa kimsədə cürət və cəsarət qalmadı". Axundovla Sabirin üslubi bağlarının birləşdirilməsində hər iki böyük sənətkarın yaratdığı tiplərin də mühim xidmətləri vardır. Sabir satiralarındakı portretlərin bəziləri Axundovun komediyalarındakı və povestindəki portretlərə bənzəyir. Bu bədii şəxsiyyətlər ilk dəfə Mirzə Fətəli tərəfindən kəşf olunmuşdur. Lakin əvvəlcədən bir cəhəti xatırlamaq lazımdır: hər iki sənətkarda bədii tiplərin oxşarlığını təsdiq heç də o demək deyil ki, Sabir Axundovu hərfən təkrar edir, Sabirin tipləri Axundov tiplərinin təqlididir və ya bu xarakterlər əvvəlkinin fotosudur. Əsla! ... Əgər mövzular əsrlərdən əsrlərə keçmişsə, bu təkrar deyildir; buna əsrin özü ehtiyac duymuşdur.

**Axundov portreti:**

Ağa Kərim: Özün bilmirsən, sir-sifətin çəndan məqbul deyil.

Ağa Mərdan: A kişi, mən sənin gözündə necə görükürəm? Qoy bir aynaya baxım (bədənnüma aynaya baxır). Ağa Kərim, sən allah, mənim haramda sən eyib görürsən? Əgər dişlərimin tökülməyin deyirsən, nüzlədən tökülüb. Qocalıqdan deyil. Ovurdlarım bir az çuxura düşüb, amma çəndan da məlum olmur, saqqal üstünü örtübdür.

**Sabir portreti:**

*Qabaq dişim tökülüb,*

*Azılarım sökülüb;*

*Mənə qoca deməzlər,*

*Bir az belim bükülüb!*

**Axundov portreti:**

Hacı Qara: Kişi, özbaşına sənə nə lazım olmuşdur, mənim atama quran oxuyasan?.. Bu heç olan iş deyil! Mən həmişə özüm atama quran oxuyuram. Pul ilə mən ömrümdə quran oxutduğum yoxdur!

**Sabir portreti:**

*Ey pul! Ey zövqi-dilü rühi-qənü qüvvəti-can!*

*... Səndən ötrü bütün övladımı giryan edərəm,*

*Qeyrətü şənimi hifsindən nigahban edərəm,*

*Bir gün öz canımı hətta sənə qurban edərəm,*

*Şad olur varisim, əmma gedərəm mən nigəran,*

*Biəbi əntə və ümmi sənə canım qurban!..*

Göründüyü kimi, bu hallarda da M.F.Axundov ilə M.Ə.Sabir arasında sələf-xələflik xətti qüvvədə qalır; deməli, Sabir nəinki Axundov tiplərinin törəmələrini baltalayır, həm də Axundovun əlindən yıxıla-dura sarsılmış, yaralanmış, qaçıb canını bir təhər qurtarmış tipləri də tapıb yaxalayır və daha sərt şəkildə cəzalarını verir. Öz müəlliminin ictimai qisasını alır. Axundov insan tərbiyəsi üçün dram janrını daha yüksək qiymətləndirirdi. Bunun üçün də dram növləri içərisində komediyaya üstünlük vermişdir. Dramaturqu komediyaya müraciət etməyə məcbur edən ən başlıca tələblərdən biri xəlqiliyi bədii əsərin ən yüksək məziyyəti kimi

götürməsidir. Komediya dili bir başa xalq dilinin özüdür və Axundov üçün də komediya ən xəlqi forma idi. Axundovun da Sabirin də üslubunda tənqid başlıca yer tuturdu. Onlar ictimai qüsurları və bəlaları törədən, yaşadan ictimai quruluşu amansızcasına ifşa edirdilər. Hər ikisidə mənəvi eybəcərliyin səbəbini mövcud ictimai quruluşda görürdülər.

Hər iki sənətkarın üslbunda surətlərlə bağlı olan bir cəhət – **şahlara, hakimlərə qarşı münasibətlər tərzinin** tamam başqa istiqamətdə verilməsidir. Xalq ədəbiyyatında şahlar arasıra tənqid olunurdu. Yazılı ədəbiyyatlarda da belə hallara təsadüf etmək mümkün idi.

Ancaq bunların hamısında son məqsəd ədalətli şah idealından ibarət olduğu üçün nəticədə şahlar islah edilir və ədalət təcəssümünə şahlıq nümunəsinə çevrilirdi. Mirzə Fətəli və Sabir şahları və soltanları mücərrəd şəkildə tənqid etmir, konkret adı ilə şahların yaxasından yapışır.

**Axundov:**

Sərdar Zaman xan: ... Ona binaə əmr etdim ki, Osmaniyyə sərhəddindən ta nəhayəti-mülki-Azərbaycan tamam dəhaqinin ziraətini xərab etsinlər və çarplarını qovub gətirsinlər, körpüləri dağıtsınlar və yolları pozsunlar. Vəkta ki, Bəkir paşa sərhəddimizə daxil oldu, əgərçi müqabilində bizim qoşundan bir nəfər görmədi, amma yollar bir mərtəbədə xarab olmuşdur ki, əsal özü ilə topxana gətirməyə qadir olmayıb. Ancaq atlı və piyadəsi ilə ənvai-zəhmətdə Təbrizə varid oldu və hər tərəfə dəstə göndərib zəxrə təhsilinə iqdam etdi. Əlinə bir həbbə və bir öküz də, bir qoyun da düşmədi.

Sabir: *Cəmaət:*

*Zilli-Sultan, bura say döydürüb aldıqlarını!*

*Söyüb aldıqlarını, söydürüb aldıqlarını!*

*Zilli-Sultan:*

*Tövbə, əttövbə, xəta rahinə getdiklərimə!*

*Bilib etdiklərimə, bilməyib etdiklərimə.*

Dünya ədəbiyyatının təcrübəsi təsdiq edir ki, realizmin başlıca meyarı həqiqətin inkasıdır. Sabir də Azərbaycan realizminə büllur və şəffaf bir həqiqət hissi gətirdi. Sabir XX əsr şeirinə böyük realist və novator kimi daxil olmuşdur. Azərbaycan şeirində islahat prosesi XIX əsrdən başlanır. Kamal Talıbzadə şeirin bu prosesi barədə yazırdı: "Azərbaycan şeirinin yeni istiqaməti haqqında ilk dəfə Mirzə Fətəli Axundov yazmışdır. Bundan sonra epiqonçu şeirin "qəzəl, qəsidə ədəbiyyatının" tənqidi mətbuat səhifələrində geniş yer tutmağa başlayır" (Talıbzadə K. , 217) Mirzə İbrahimov böyük şairimiz Sabir adlı monoqrafiyasına istinadən demək olar ki, Sabirin şeirə, sənətə olan münasibəti Mirzə Fətəli Axundovun materialist estetikası prinsiplərinin davamı idi.

Sabirin yaradıcılığı bu estetik prinsiplərin yəni dolğun mənalı ədəbiyyatın təntənəsi oldu. Doğrudan da, Sabir ədəbiyyatımızda inqilab yaratdı. Mirzə Fətəli Axundovun XIX əsrin ortalarında səpdiyi toxumlar əlli il sonra, yəni XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı gülüstanında pardaqlanıb açıldı. Son dərəcədə ətirli və rəngarəng güllər bitirdi. Bu güllərin rişəsi xalq həyatının dərinliklərindən su içirdi. Onlar ətrini xalqın sinəsindən alırdı. Sabir milli realizmin yeni yetkinlik mərhələsinin yaranmasında misilsiz rol oynadı. Sabir realizmi dərin bir ictimai realizmdir xarakteristikası tamamilə doğrudur. Belə ki, XX əsrin əvvəllərində poeziyada tənqidi realizm M.Ə.Sabirlə başlandı. Sabir Azərbaycan şeiri tarixinə böyük realist sənətkar kimi daxildir. O, klassik realizmin yeni mərhələsini – tənqidi realizm mərhələsini yaratdı. M.Ə.Sabir M.F.Axundov yolunu davam və inkişaf etdirərək milli şeirdə realizmi yeni, keyfiyyətcə daha yüksək zirvəyə qaldırdı.

**Ədəbiyyat:**

1. Aslanov Seyid Miri, (2004), Mirzə Ələkbər Sabir yalnız şair idimi, Bakı, Azərbaycan Milli Ensiklopediyası
2. Əhmədov Mir Əziz (1958), Sabir, Azərbaycan SSR Elmlər Akademiyasının nəşriyyatı, Bakı
3. Hacıyev Tofiq. (1980 )Sabir: qaynaqlar və sələflər, Bakı
4. Xəyal Sona (2002) Mirzə Ələkbər Sabirə yeni nəzər, Azərbaycan Milli Elmlər Akademiyası, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Bakı
5. İbrahimov Mirzə, (1962) Böyük şairimiz Sabir, Bakı
6. Köçərli Firudinbəy, (1978) Azərbaycan ədəbiyyatı, Bakı, Elm
7. Lyukyanova A., (2002) Sabir yaradıcılığının əsas nöqtələri, Bakı, Nurlan
8. Məmmədquluzadə Cəlil, (1928, №3). Mirzə Fətəli Axundov və qadın məsələsi, "Şərq qadını" jurnalı
9. Novruzov Tərlan. (1981) M.Ə.Sabir irsinin tədqiqi və təbliği, Bakı.
10. Novruzov Tərlan. (1992) Sabir ədəbi məktəbi, Bakı, Yazıçı
11. Novruzov Tərlan, (1988) Sabir və davamçıları, Bakı
12. Sabir. (2004), Hophopnamə, Şərq-Qərb, I cild, Bakı
13. Sabir. (2004), Hophopnamə, Şərq-Qərb, II cild, Bakı
14. Talıbzadə Kamal , (1966) XX əsr Azərbaycan tənqidi, Bakı
15. Zamanov Abbas (1981), Sabir gülür, Bakı, Gənclik

# POETIC SYNTACTIC FIGURES IN THE SYSTEM OF METAPHORS

# MƏCAZLAR SİSTEMİNDƏKİ POETİK SİNTAKTİK FİQURLAR

**ULDUZ FƏRHAD QIZI QƏHRƏMANOVA**

**FİLOLOGİYA ÜZRƏ FƏLSƏFƏ DOKTORU, ADPU-NUN "ƏDƏBİYYAT" KAFEDRASINDA BAŞ MÜƏLLİM ORCİD İD: 0009-0003-4418-9319**

**Abstrakt:**

Məlumdur ki, məcazlar sistemi arasında bədii təsvir vasitələri ilə bədii ifadə vasitələri arasında müəyyən yaxınlıq və oxşarlıq var. Ona görə də bu anlayışlar ədəbiyyatşünaslıqda bəzən birlikdə "bədii təsvir və ifadə vasitələri" kimi işlənir. Lakin bunların fərqli cəhətlər də var. Belə ki, bədii ifadə vasitələri bütöv ifadə, cümlə ilə bağlı olması cəhətdən bədii təsvir vasitələrindən fərqlənir. Bədii ifadə vasitələri cümlə, tam fikir şəklində çıxış etdiyi üçün ədəbiyyatşünaslıqda bunlara poetik sintaksis, yaxud sintaktik fiqurlar da deyilir. Əslində fiqur dilin ifadə və qüvvətini artırmaq üçün işlədilən intonasion sintaktik şəkillərdir. Belə ki intonasiyanın parlaq şəkli fiqurlarda görünür. İntonasiya da cümləyə daxil olan sözlərin tələffüz tərzidir. Bu tələffüz də vurğu əsasında müəyyənləşir. Vurğu da 3 yerə ayrılır: 1. Heca vurğusu-sözlərdə bir hecanın digər hecaya nisbətən qüvvətli deyilməsidir. 2. Məntiqi vurğu-ancaq xəbərin yanında gələn vurğudur. 3. Emosional vurğu-hiss-həyəcanla deyilən vurğudur. Poetik sintaksis bədii əsərdə cümlənin quruluşuna deyilir. Qrammatikada sintaksis cümləni, sözlərin quraşdırılmasını öyrənən sahədirsə, poetik sintaksis də bədii əsərdəki cümlənin quruluşunu öyrənən sahədir. Poetik sintaksis 2 əsas ünsürdən ibarətdir: Sözlərin düzülməsi üsulu, cümlə tələffüzünün xüsusiyyətləri



**Açar sözlər:** bədii sual, bədii xitab, təcəssüm, bədii ifadə vasitələri, poetik fiqurlar

**Abstract:**

It is known that there is a certain closeness and similarity between the means of artistic representation and the means of artistic expression in the system of metaphors. Therefore, these concepts are sometimes used together as "artistic means of description and expression" in literary studies. But they also have different aspects. Thus, the means of artistic expression differ from the means of artistic description in that they are related to whole expressions and sentences. Since the means of artistic expression appear in the form of a sentence, a complete idea, they are also called poetic syntax or syntactic figures in literary studies. In fact, figures are intonation syntactic images used to increase the expression and force of the language. So, the bright image of intonation can be seen in the figures. Intonation is also the way of pronouncing the words included in the sentence. This pronunciation is also determined based on accent. Accent is also divided into 3 parts: 1. Syllable accent - in words, one syllable is pronounced stronger than another syllable. 2. Logical emphasis is the emphasis that comes next to the news. 3. Emotional accent is an accent that is said with feeling-excitement. Poetic syntax refers to the structure of a sentence in a literary work. If syntax in grammar is the field that studies the sentence, the arrangement of words, poetic syntax is also the field that studies the structure of the sentence in the literary work. Poetic syntax consists of 2 main elements: the way words are arranged, features of sentence pronunciation

**Key words:** artistic question, artistic address, personification, means of artistic expression, poetic figures

**Giriş:** Məlumdur ki, məcazlar sistemi arasında bədii təsvir vasitələri ilə bədii ifadə vasitələri arasında müəyyən yaxınlıq və oxşarlıq var. Ona görə də bu anlayışlar ədəbiyyatşünaslıqda bəzən birlikdə "bədii təsvir və ifadə vasitələri" kimi işlənir. Lakin bunların fərqli cəhətlər də var. Belə ki, bədii ifadə vasitələri bütöv ifadə, cümlə ilə bağlı olması cəhətdən bədii təsvir vasitələrindən fərqlənir. Bədii ifadə vasitələri cümlə, tam fikir şəklində çıxış etdiyi üçün ədəbiyyatşünaslıqda bunlara poetik sintaksis, yaxud sintaktik fiqurlar da deyilir.

**Əsas hissə:** Bədii sual poetik sintaksis fiqurların ən aparıcısı hesab edilir. Sual bədii əsərə gələndə bədii suala çevrilir. Əsərin emosional təsirini artırmaq, oxucuda qüvvətli hiss-həyəcan doğurmaq məqsədilə fikrin sual tərzində ifadə olunmasına bədii sual deyilir. Bədii sual heç nə öyrənməmək, məlum olmayanı soruşmaq məqsədi güdmür, əksinə, söz sənətkarına məlum olan bu və ya başqa hadisə ilə əlaqədar fikir təsdiq edilir. Əslində sənətkar bədii sualın köməyi ilə güclü emosiya yaradır. Bədii sual adi, cavab almaq məqsədi ilə işlədilən suallardan ciddi şəkildə fərqlənir. Çox vaxt cavabın özü də sualın daxilində, onun cövhərindədir. Ədəbiyyatımızda bədii sual ənənəsi folklorumuzdan gəlir. "Kitabi-Dədə Qorqud" dastanındakı şeir parçaları bədii suallar silsiləsi əsasında qurulmuşdur. Həmçinin bayatılarımızda da bədii sullar silsiləsinə rast gəlmək mümkündür. Tədqiqatçılar bədiii əsərlərdə işlədilən bədii sualları iki cür qruplaşdırıblar:

1.Cavab tələb etməyən bədii suallar. Məsələn:

Qızılgül bağü bustanım, nə dersən?

Fəda olsun sana canım, nə dersən?

Qərarü səbrü aramım tükəndi,

Kəsildi külli fərmanım, nə dersən?

Əridi iligim, qaldı sümügüm,

Bu təni tərk edər canım, nə dersən?

Xamu dərdlülərə dərman bulundu,

Dəvasız dərdə dərmanım, nə dersən?

Xamunun küfr ilə imanı vardır,

Mənim küfr ilə imanım, nə dersən?

Sənin məqsudin oldur ki, mən ölüm,

Halal olsun sana qanım, nə dersən?

Əgər yatsam min il toprağ içində,

Dürüstdür əhdü peymanım, nə dersən?

Xətai çün səni can ilə sevdi,

Sevən ölsünmü, sultanım, nə dersən?!

(Şah İsmayıl Xətai "Nə dersən?" qəzəli)

1.Cavab tələb edən bədii suallar. Bu tipli əsərlərdə sənətkarın özü qoyduğu suala cavab verir. Buna bədii ədəbiyyatda **isti-fəhm** deyirlər. Məsələn:

Apardı könlümü bir xoş qəmər yüz canfəza dilbər

Nə dilbər? Dilbəri-şahid. Nə şahid? Şahidi-sərvər.

Mən ölsəm sən büti-şəngül, sürahi, eyləmə qül-qül

Nə qül-qül? Qülqülü badə. Nə badə? Badeyi-əhmər.

Başımdan getmədi hərgiz sənünlən içtigim badə

Nə badə? Badeyi-məsti. Nə məsti? Məstiyi-sağər.

Şəha şirin sözün qılur Misirdə bir zaman kasid.

Nə kasid? Kasidi-qiymət. Nə qiymət? Qiyməti-şəkkər.

Tutuşmayınca dər atəş bəlürməz xisləti-ənbər.

Nə ənbər? Ənbəri-suziş. Nə suziş? Suzişi məcmər.

Əzəldə canım içində yazıldı surəti-məni,

Nə məni? Məniyi-surət. Nə surət? Surəti-dəftər.

Həsənoğlu sana gərçi duaçidir, vəli sadiq

Nə sadiq? Sadiqi-bəndə? Nə bəndə? Bəndeyi-çakər.

(İzzəddin Həsənoğlu "Apardı könlümü..." qəzəli)

Deməli, bədii sual fikrin, cümlənin sorğu formasında ifadə olunan bədii ifadə formalarından biridir. Nəzm əsərlərlə yanaşı nəsr əsərlərində də bədii suallara rast gəlmək mümkündür. Cəlil Məmmədquluzadənin "Ölülər" tragikomediyasında satirik qəhrəman Şeyx Nəsrullaha fanatiklərdən olan Hacı Həsənin ona yemək təklif etməsinə Şeyx Nəsrullahın verdiyi cavabında silsiləvarilik təşkil edən bədii suallara nəzər salaq: "Necə, təam? Necə cücə plov? Şeyx Əhməd, məni hara gətirmisən? Bunlar necə müsəlmandırlar? Necə mömindirlər? Bu nədir? Bu xalilər nədir? Necə təam, necə cücə plov? Şeyx Əhməd, məgər sən bunlara deməmisənmi ki, mənim xörəyim gündə bir xurmadır? " Göründüyü kimi, fanatiklərin yanında özünü pak, müqəddəs bir mömin kimi tanıtmağa çalışan Şeyx Nəsrullahın riyakar, ikiüzlü təbiətini açmağa bu bədii suallar çox kömək edir. Bədii əsərlərdə ən çox müraciət edilən poetik sintaksis fiqurlardan biri də bədii xitabdır. Xitab bədii əsərə gələndə bədii xitaba çevrilir. Bədii xitab da sənət əsərlərində fikrin, sözün təsir gücünü, emosionallığını artıran bədii ifadə vasitələrindəndir. Bədii xitabda müraciət edilən xitab canlı insan olmalıdır. İnsandan başqa, hər hansı cansız əşyalara, heyvanlara, quşlara, təbiət hadisələrinə müraciət (xitab) olunarsa, bu zaman təcəssüm yaranır. Məsələn:



**Ovçu,** insaf elə, keçmə bu düzdən!

O çöllər qızını ayırma bizdən!

Qoyma ağrı keçə ürəyimizdən,

Qoyma öz qanına boyana ceyran!

Nə gözəl yaraşır Muğana ceyran!

(Səməd Vurğun)

Verilən nümunədə xitab Ovçu-canlı insan olduğu üçün bədii xitabdır.

Prozopopeya termini də "Təcəssüm" mənasındadır. Bəzən buna personifikasiya da deyirlər. Təcəssüm-insandan başqa digər canlıların-quşların, heyvanların, bitkilərin, həmçinin cansız bir əşyanın canlandırılması, insan kimi şəxsləndirilməsidir.

Ədəbiyyatşünaslıqda insanlardan başqa digər canlılara-heyvanlara, quşlara, təbiət hadisələrinə, cansız əşyalara xitab təcəssüm adlanır. Bədii xitabda isə müraciət edilən xitab canlı insan olmalıdır. Alleqorik əsərlərdə, təmsillərdə təcəssümdən istifadə olunur. Məsələn: "Koroğlu" dastanında Nigarın durnalara xitabı, "Əsli və Kərəm" dastanında Qara keşişin qaçdığını öyrənən Kərəmin ürəyindən qara qanlar axa-axa sərv ağacına xitab etməsi təcəssüm yolu ilə yaranmışdır.

**Canım sərv ağacı,** xəbər alıram,
Sərv ağacı, sənin maralın hanı?
Gözümdən axıtma qanlı yaşları,
Sərv ağacı, sənin maralın hanı?
Yaxud:

Bir saat havada qanad saxlayın,

Nizam ilə gedən qoşa durnalar!

Qatarlaşıb nə diyardan gəlirsiz,

Qaqqıldaşa-qaqqıldaşa **durnalar?**

Mən sevmişəm onun ala gözünü,

Nəsib ola bir dəm görəm üzünü,

Yoxsa, danışırsız dilbər sözünü,

Veribsiniz nə baş-başa **durnalar?**

(Qasım bəy Zakir)



Ədəbiyyatşünaslıqda bədii təzad (Antiteza) da poetik sintaksis fiqurlar hesab edilir. Bədii əsərdə bir-birinə zidd sözlər, zidd hərəkətlərdir. Təzad sözünün mənası bir anlayış, hadisə və s. başqa birisinin **ziddinə, əksinə** olması deməkdir. Ədəbiyyatşünaslıqda buna həm də **antiteza** da deyirlər. Antiteza ədəbiyyatda çox işlənən üslubi fiqurdur. Onun əsasında həyati bir təzad dayanır. Təzad obrazlılığı gücləndirir. Bədii əsərdə məzmunca bir-birinə zidd iki anlayış və ya vəziyyətin qarşılıqlı şəkildə verilməsinə **təzad** deyilir. **Təzad aşağıdakı yollarla** yaranır.

**1.Antonim sözlərdən istifadə etməklə** təzad yaradılır. Məsələn: "Hər şeydə qara olan baxtım qarpızda ağ çıxdı" , "Siz **gəncləşirsiniz**, tarix **qocalır**".

Yaxud:

Tutuşdu **qəm** oduna **şad** gördüyün könlüm.

**Müqəyyəd** oldu ol **azad** gördüyün könlüm.

(Məhəmməd Füzuli)

Yaxud:

**Qara** siyasəti **Ağ** evin dünən.

Bir xalqı, bir evi ikiyə böldü.

(Bəxtiyar Vahabzadə)

**2.Fikirlərin, əhval-ruhiyyənin qarşılaşdırılması** ilə təzad yaradılır.

Məsələn: M.F.Axundovun "Puşkinin ölümünə Şərq poeması" şeirindən məlum olur ki, buradakı təzad təbiətin gözəlliyi qarşısında Axundovun Puşkinin ölümünə görə əhvali-ruhiyəsinin pis vəziyyətdə olmasıdır. Belə ki, əsər 1837-ci il yanvarın sonunda Puşkinin ölümü haqqında alınan acı xəbərin dərin təsiri altında yazılmışdır. Bu poema fars dilində, qəsidələr şəklində, Səbuhi təxəllüsü ilə yazılmışdır. Poema baharın tərənnümü ilə başlayır. Lakin bu baharın gözəlliyi şairdə nikbin ruh, yaşamaq həvəsi doğurmur. Buna səbəb Puşkinin vaxtsız ölümüdür. Mirzə Fətəli bu şeirdə Puşkini "sözdən qəribə naxışlar toxuyan", "rus söz ordusunun başçısı" kimi xarakterizə etmişdir. Gənc Mirzə Fətəli belə bir qüdrətli şairin ölümünə dərindən kədərlənir, onun qatillərinə lənət yağdırır, rus xalqının böyük dərdinə şərik çıxırdı.

Yaxud: Səməd Vurğunun "Komsomol" poemasından göstərilən aşağıdakı nümunədə müəllif camaatın şənlənməsi ilə Humayın dərdli görkəmini qarşılaşdırmaqla belə bir bədii təzad yaratmışdır:

Dəf vurur, qızışıb zurnaçı həmən,

Əl-ələ tutşub yallı gedilir.

Məclisə baş çəkir hər gəlib gedən,

Səslər qarışıqdır, az eşidilir.

Mağara gəlməmiş "xəstəyəm"-deyə

Gülüb-sevinməyə biganə Humay

Qapının ağzında yalvarır göyə,

Buludlar yığışır başına lay-lay.



Oksimoron yolla təzad yaradılır. Oksimoron yunan mənşəli söz olub, iki bir-birinə zidd sözlərin tərkib, söz birləşməsi əmələ gətirməsidir. Məsələn: işıqlı gecə, canlı meyit, acı gülüş, ağlar güləyən, ağıllı dəli, bəyaz zülmət, qəhqəhəli qəm, qəm dolu gülüş, ağlar güləyən və s.

Ədəbiyyatşünaslıqda Təkrir (Parallelizm) də aparıcı poetik sintaksis fiqurlar hesab edilir. Bədii əsərin emosionallığını artıran bədii ifadə vasitələrdən biri də təkrirdir. Təkrir (parallelizm) eyni sözün, söz birləşməsinin təkrar olunmasına deyilir. Əgər cümlə təkrar edilərsə, bu varsağıdır. Nitqdə sözlərin yersiz təkrarı üslubi-qrammatik cəhətdən nöqsan sayıldığı halda, bədii əsərdə bu təkrar edilən söz emosionallıq yaradır. Təkrirlər:

- Eyni misralarda ola bilər.
- Ayrı-ayrı misralarda ola bilər.
- Həm nəzm, həm də nəsr əsərlərində özünü göstərə bilər.

Məsələn:

Edəməm tərki Füzuli, səri-kuyin yarın,

Vətənimdir, vətənimdir, vətənimdir, vətənim.

(Füzuli)

**Təkririn 2 növü vardır:**

1.Anafora: Təkrar edilən söz və söz birləşməsinin misranın önündə gəlməsinə deyilir. Məsələn:

**Eşqdir** mehrabı uca göylərin,

**Eşqsiz**, ey dünya nədir dəyərin?

**Eşqsiz** olsaydı xilqətin canı.

Dirilik sarmazdı böyük cahanı. (Nizami Gəncəvi)

2.Epifora: Təkrar edilən söz və söz birləşməsinin misranın sonunda işlənməsinə deyilir. Məsələn:

Müştaqdır üzünə gözü **Vaqifin,**

Yolunda payəndaz üzü **Vaqifin,**

Sənsən fikri, zikri, sözü **Vaqifin,**

Qeyri söz yanında əfsanədəndir. (Molla Pənah Vaqif)

3.Təkrir: Təkrar edilən söz və söz birləməsinin misranın ortasında işlənərsə, elə təkrir adlanır.

Təkrir və varsağının fərqi odur ki, təkrir təkrar edilən soz və ya söz birləşməsi şəklində olur. Varsağı isə təkrar edilən cümlədir. Varsağı gəraylı və qoşmalarda bir misranın, bir sətrin təkrar edilməsidir.

**Nəticə:** Əslində fiqur dilin ifadə və qüvvətini artırmaq üçün işlədilən intonasion sintaktik şəkillərdir. Belə ki intonasiyanın parlaq şəkli fiqurlarda görünür. İntonasiya da cümləyə daxil olan sözlərin tələffüz tərzidir. Bu tələffüz də vurğu əsasında müəyyənləşir. Vurğu da 3 yerə ayrılır: 1. Heca vurğusu-sözlərdə bir hecanın digər hecaya nisbətən qüvvətli deyilməsidir. 2. Məntiqi vurğu-ancaq xəbərin yanında gələn vurğudur. 3. Emosional vurğu-hiss-həyəcanla deyilən vurğudur. Poetik sintaksis bədii əsərdə cümlənin quruluşuna deyilir. Qrammatikada sintaksis cümləni, sözlərin quraşdırılmasını öyrənən sahədirsə, poetik sintaksis də bədii əsərdəki cümlənin quruluşunu öyrənən sahədir. Poetik sintaksis 2 əsas ünsürdən ibarətdir: Sözlərin düzülməsi üsulu, cümlə tələffüzünün xüsusiyyətləri



**Ədəbiyyat:**

1. Cəlal Mir, Xəlilov Pənah, (2005) “Ədəbiyyatşünaslığın əsasları”, Bakı, Çaşıoğlu

2. Əlimirzəyev Xalid, (2008) “Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları”, Bakı

3. Əliyev Məmməd, (2000) “Ədəbiyyat nəzəriyyəsinin əsasları”, Bakı

4. Əliyev Rafiq, (2001) “Ədəbiyyatşünaslığın əsasları”, Bakı

5. Hacıyev Abbas, (1999) “Ədəbiyyat nəzəriyyəsi”, Bakı

6. Xəndan Cəfər, (1958) “Ədəbiyyat nəzəriyyəsi”, Bakı

7.Qəhrəmanova U. (2024) M.Ə.Sabir və klassik irs, Bakı

8. Rəfili Mikayıl, (1958) “Ədəbiyyat nəzəriyyəsi”, Bakı

9. Şəmsizadə Nizaməddin , (2012) “Ədəbiyyat nəzəriyyəsi”, Bakı

10.Məmmədov K. (1989) XX əsr Azərbaycan gülüşü, Bakı: Yazıçı

# "DİLDƏ MİFOLOJİ LEKSİKA"

**Dr. RAMİL SAMƏDDİN OĞLU ZEYNALOVA**

**Filologiya Elmi Üzrə Fəlsəfə Doktoru Amea İ.Nəsimi Adına Dilçilik İnstitutunun Dissertantı**

## ÖZET

Mifin əsas mövcudluq forması şifahidir, ona görə də təbiidir ki, mifologiyanı formalaşdıran mənəvi mədəniyyətin həmin seqmentinin linqvistik ifadəsinin qanunauyğunluğu, zəruriliyi, öyrənilməsi metod və prinsipləri məsələsi bir müddət əvvəl bu və ya digər formada qoyulmuşdur. Metodoloji əsasların və tədqiqat məqsədlərinin fərqliliyindən asılı olaraq, mifologiyanın dərk edilməsi və öyrənilməsi konkret dil materialının, yaradıcılığın poetik formalarının və folklorun öyrənilməsi ilə möhkəm bağlıdır. Müasir dövrdə mifoloji fikirlərin linqvistik ifadəsini öyrənmək vəzifəsi xüsusilə davamlıdır. R.O.Jacobsonun "Müqayisəli mifologiyada linqvistik sübutların rolu" adlı məruzəsində deyilir ki, müasir dövlətdə linqvistik məlumatlar ən etibarlıdır. mifologiyanın tədqiqi və dilçilik elmi mifoloji materialı təsvir etmək və şərh etmək üçün bəlkə də ən adekvat üsullara malikdir. İlk dəfə mifologiya ilə xalq yaradıcılığı və poeziyası arasındakı əlaqəni alman romantizminin nümayəndələri (F.Şellinq, L.Uhland və s.) həyata keçirdilər. Onların anlayışına görə, mifologiya şeirdə öz ifadəsini tapan bədii və ya fəlsəfi fantastikadır. Onlar mifdə təkcə xalq poetik yaradıcılığının deyil, ümumən həqiqi poeziyanın əsası hesab etdikləri poetik obrazları, simvolları, təşbehləri görürdülər. XIX-XX əsrlər boyu və indiyə qədər müxtəlif fəlsəfi cərəyanların nümayəndələri dil və mif arasında dərin əlaqələr axtarırdılar və axtarırlar. Lakin bu axtarışlar mifoloji materialı ifadə edən linqvistik vasitələrin öyrənilməsindən çox, bəşəriyyətin sosial-mədəni həyatının bir hadisəsi kimi dil və mif arasında oxşarlıqların müəyyən edilməsinə aid idi. Belə fikirlərin ifrat ifadəsi neokantçı E.Kassirerin konsepsiyasıdır ki, o, Kantın ideyalarını inkişaf etdirərək, mifin dillə fundamental eyniliyində israr edir.

**Açar sözlər;** Dil,mifologiya,leksika.

# IMPACT OF ISMAYIL BEY GASPIRALI'S PHILOSOPHY "UNITY IN LANGUAGE, THOUGHT AND WORK" IN THE CONTEMPORARY PERIOD

# İSMAYIL BEY GASPIRALININ "DİLDE, FİKİRDE VE İŞTE BİRLİK" FELSEFESİNİN ÇAĞDAŞ DÖNEMDE ETKİSİ

**Doç., Dr. Faiq ELEKBERLİ**[**]

## ÖZET

XX yüzyılın başlarında Türk Dünyası için Ali Bey Hüseyinzade'nin "Türklük, İslamlık ve Çağdaşlık" teorisi ile birlikte, İsmail Bey Gaspıralı'nın "Dilde, İşde, Fikirde Birlik" teorisinin ve Cedidciliğinin de çok mühim olduğunu düşünüyoruz. A.Hüseyinzade'nin "Türklük, İslamlık ve Muasırlık" teorisi ile İsmayıl bey Gaspıralı'nın "Dilde, Fikirde ve İşte Birlik" teorisi karşılaştırıldığında görürüz ki, Türkler için daha uygunu sonuncu olmuştur. Çünkü Gaspıralı'nın teorisinde yalnız Türk Dilinde, Türk Düşüncesinde ve Türk İşinde birlikten konu açıldığı halde, Hüseyinzade'nin teorisinde ise İslamla ve Batı Medeniyeti ile ilgili Türkçülük mefkuresi öne çıkar. Gaspıralı bir taraftan onun gibi, İslamiyete ve Muasırlaşmaya bağlı Türkçülük mefkuresini savunmakla birlikte, diğer taraftan sırf Türk Birliğini gerçekleştirmeye yönelmiş ortak Türk Dili, ortak Türk Düşüncesi, ortak Türk Davranışını da öne çıkarmıştır. Gaspıralı'nın sırf Türk Birliğine yönelen bu teorisinin Türk halkları için daha gerçekçi siyasi-felsefi bir kavram olduğunu düşünüyoruz. Gaspıralı bu teorisini ise bütün türklerin ortak gazetesi olan "Tercüman"da ifade etmişdir. Özellikle, Rusya türkleri arasında ortak Türk dilinin oluşturulması onun esas amaclarından biri idi. Onun fikrince, necib ve cesaretli olan Türk milletinin Çin sedinden Akdenize dek parçalanmasının sebebi ilk önce, ortak Türk dilinin olmaması ile ilgilidir. Bu menada, Gaspıralı kayd ediyordu ki, en azı Rusya türklerinin ortak dili olmalı ve hemin dil okullarda tedris olunmalıdır. Günümüzde Gaspıralının hedefleri hayli derecede gerçekleşmek üzredir.



**Anahtar kelimeler:** İsmayl bey Gaspıralı, Cedidcilik, Türkçülük, Türk şuur birligi, Türk dili birligi, Türk tarihi birligi, Türk kültürü birligi, Türk ekonomi birligi

## Abstrakt

We think that, along with Ali Bey Hüseyinzade's "Turkishness, Islam and Contemporary" theory, İsmail Bey Gaspiralı's "Unity in Language, Work and Thought" theory and Jadidism were very important for the Turkish World in the early 20th century. When A.Hüseyinzade's theory of "Turkishness, Islam and Contemporaryness" is compared with İsmayıl bey Gaspiralı's theory of "Unity in Language, Thought and Work", we see that the last one is more suitable for the Turks. Because, while in Gaspirali's theory, only unity in Turkish Language, Turkish Thought and Turkish Business is discussed, in Hüseyinzade's theory, the ideal of Turkism related to Islam and Western Civilization comes to the fore. On the one hand, Gaspirali, like him, defended the ideal of Turkism based on Islam and Contemporaryization, but on the other hand, he also highlighted the common Turkish Language, common Turkish Thought and common Turkish Behavior aimed solely at realizing Turkish Unity. We think that Gaspirali's theory, which focuses solely on the Turkish Union, is a more realistic political-philosophical concept for the Turkish people.

Gaspirali expressed this theory in "Tercüman", the common newspaper of all Turks. In particular, one of his main goals was to establish a common Turkish language among Russian Turks. In his opinion, the reason for the disintegration of the noble and courageous Turkish

nation from the Chinese Wall to the Mediterranean is primarily related to the lack of a common Turkish language. In this regard, Gaspirali noted that, at least, Russian Turks should have a common language and the same language should be taught in schools. Today, Gaspirali's goals are about to be realized to a great extent.

**Key words:** Ismail Bay Gaspiraly, Cedidizm, Turkism, Turkish unity consciousness, Turkish language community, Turkish history community, Turkish culture community , Turkish economics community.

# THE LEGEND-POEM: A VARIANT OF THE LEGEND GENRE IN WRITTEN LITERATURE

# ƏFSANƏ JANRININ YAZILI ƏDƏBİYYATDA ƏFSANƏ-POEMA VARİANTI

**GÜNTƏKİN MUSAYEVA**

**FİLOLOGİYA ÜZRƏ FƏLSƏFƏ DOKTORU AMEA NİZAMİ GƏNCƏVİ ADINA ƏDƏBİYYAT İNSTİTUTU, ƏDƏBİYYAT NƏZƏRİYYƏSİ ŞÖBƏSİ**

**ORCID 0009-0008-6872-0537**

**Xülasə**

Yazılı ədəbiyyatın bütün ədəbi növləri, əsərin struktur vahidləri folklordan hər zaman bəhrələnmişdir. Bu bəhrələnmə xarakterik xüsusiyyətlərinə görə fərqli şəkildə təzahür edir. Folklor yaradıcı gücünü, genetik davamlılığını epik ənənəni özündə komplektləşdirmiş olan janr və formaların yaranmasında da göstərir. Bu, fərqli mərhələlərə, ədəbi mühitlərə janrın inteqrasiyası ilə bərabər, həm də müəllif interpretasiyasına bağlı dinamik dəyişmələrlə izah oluna bilər. Forma yeniliyi bir çox hallarda fərqli janrların sinkretik birləşməsi ilə meydana gəlir. Folklor janrının yazılı ədəbiyyat janrı ilə çarpazlaşmasına uyğun olaraq forma variantları törəyir. Bu çarpazlaşma əsasında yaranan janr variantlarından biri də əfsanə-poemadır. Əfsanə folklor janrı kimi şifahi xalq ədəbiyyatında geniş yayılması ilə bərabər, həm də invariant kimi yaradıcı gücə malikdir. O, digər janrlardan daha çox mifoloji dünyagörüşünə yaxındır. Əfsanə-poema forma variantı kimi öz təşəkkül mərhələsini ədəbiyyatımızda XX əsrin əvvəllərində keçmişdir. Azərbaycan ədəbiyyatında əfsanə-poema janrının formalaşması sahəsində Cəfər Cabbarlının "Qız qalası" ilk mükəmməl örnəkdir. Doğrudur, ondan əvvəl də poemalarda əfsanə obrazları və motivləri ilə qarşılaşırıq, məsələn: Abbas Səhhətin "Şair, Şeir pərisi və şəhərli" əsəri kimi. Lakin əfsanənin janr invariantı kimi üstünlük təşkil etdiyi və poemanın əsas hissəsini təşkil etdiyi nümunə "Qız qalası" poemasıdır. Əfsanə-poema janrına aid əsərlər içərisində Səməd Vurğunun "Ayın əfsanəsi" əsəri də yüksək sənətkarlıq nümunəsi kimi diqqəti cəlb edir. Əsərin süjet və kompozisiyası bir çox cəhətdən Cəfər Cabbarlının "Qız qalası"na uyğun gəlir. Belə ki, bu poemada da müəllif əfsanənin məzmununa keçməzdən əvvəl onu gerçəkliklə, öz düşüncələri ilə əlaqələndirilən hissə təqdim edir və əfsanənin məzmununa haşiyələr daxil edir. Yaradıcılığında folklor ənənələrinə, mifologizmlərə sıx-sıx müraciət edən Rəsul Rzanın əfsanələrdən qaynaqlanan və həmin janrın poetexniki xüsusiyyətlərindən istifadə edərək yazdığı "Qız qalası" poemasının ədəbiyyatımızda özünəməxsus yeri var. Həmin poemada əfsanə janr elementləri kompleks halda iştirak edir. XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında fərqli variantlarına rast gəldiyimiz əfsanə, eyni zamanda əfsanə-poema ənənəsi sonrakı mərhələlərdə davam etdirilmiş və yazıçılarımız ondan müvəffəqiyyətlə istifadə etmişlər.

**Açar sözlər:** folklor, yazılı ədəbiyyat, əfsanə, poema, variant

**Abstract**

Folklore has perennially enriched all literary genres and structural components within written works. This enrichment varies depending on the distinct characteristics of folklore. Folklore demonstrates its creative potency and enduring lineage through the development of genres and forms that contribute to the continuity of the epic tradition. This phenomenon can be elucidated by the integration of folklore genre across various literary stages and environments, alongside the dynamic shifts shaped by authors' interpretations. Often, the innovation of literary form

emerges from the syncretic fusion of disparate genres. Variants of form emerge through the integration of folklore genre with written literature. The legend-poem is a genre variant born from this integration. While legends are pervasive in oral folk traditions as a genre of folklore, they also possess creative potential as literary invariants. Positioned closer to the mythological worldview than other genres, legends hold a unique significance. The legend-poem, as a variant form, underwent its formative stage in our literature at the beginning of the 20th century. Jafar Jabbarli's "Maiden Tower" ("Qız Qalası") stands as the pioneering exemplar of the legend-poem genre in Azerbaijani literature. While earlier instances feature legendary imagery and motifs in poems, such as Abbas Sahhat's "The Poet, the Fairy of the Poem and the Townsman" ("Şair, Şeir pərisi və şəhərli"), Jafar Jabbarli's "Maiden Tower" ("Qız Qalası") that marks the first example where the legend predominates as a genre invariant, forming the central focus of the poem. Among the works within the legend-poem genre, Samad Vurgun's "Legend of the Moon" ("Ayın əfsanəsi") stands out for its exemplary craftsmanship. The plot and composition of this work bear striking resemblances to Jafar Jabbarli's "Maiden Tower" ("Qız Qalası"). In "Legend of the Moon," the author first presents a section that bridges the narrative with reality and reflects his personal thoughts, before delving into the content of the legend. Additionally, footnotes are provided to enhance the understanding of the legend's content. Rasul Rza is recognized as an author who frequently draws inspiration from folklore traditions and mythologies in his works. His poem "Maiden Tower" ("Qız Qalası") rooted in legends and employing the poetic-technical characteristic of that genre, holds a distinctive position in our literature. In that poem, elements of the legend genre are intricately interwoven, contributing to its complexity. Since the start of the 20th century, the genres of legend and legend-poem, have been employed in Azerbaijani literature in various forms. This tradition has endured, with subsequent writers effectively utilizing these genres in their works.

**Keywords:** folklore, written literature, legend, poem, variant

# BEING A WOMAN IN THE TEXT: VOICE AND EXPRESSION TECHNIQUES IN NARRATIVE

# MƏTNDƏ QADIN OLMAQ: TƏHKİYƏDƏ "SƏS" VƏ İFADƏ TEXNİKASI

**MARAL YAQUBOVA**

**FİLOLOGİYA ÜZRƏ FƏLSƏFƏ DOKTORU, DOSENT**

**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Ədəbiyyat Nəzəriyyəsi şöbəsi**

**Bakı Avrasiya Universiteti, Azərbaycan və Dünya ədəbiyyatı kafedrası**

**Bakı, Azərbaycan**

**ORCID NO: 0000-0001-5380-0456**

**Özet**

1980-ci illərdən etibarən Qərb ədəbiyyatşünaslığında narratoloji araşdırmaların və feminist yanaşmaların əlaqələndirmə tendensiyası müşahidə olunmağa başladı. Klassik narratologiyanın qadın təhkiyələrini yetərincə izah etmədiyini düşünən bu istiqamətin ilk nümayəndəsi 1986-cı ildə "Feminist bir narratologiyaya doğru" məqaləsi ilə S.Lanser idi. Lanser və ardıcılları klassik narratolojinin kişimərkəzli strukturalist prinsipdən doğduğunu düşünür və mövcud modelləri tənqid edərək məsələyə feminist aspektdən yanaşırlar. Bədii təhkiyənin gender aspektindən ictimai təcrübə ilə bağı, normalara münasibəti və ideoloji çərçivələri əsas tədqiqat predmetinə çevrilir. Məlumdur ki, klassik narratologiyada "təhkiyənin səsi" hekayənin anlatıldığı baxış bucağını ifadə edir və üç cür olur: birinci, ikinci və üçüncü şəxs baxış bucağı. Üçüncüsü özü də iki qrupa ayrılır: məhdud üçüncü şəxs baxış bucağı və hər şeyi bilən üçüncü şəxs baxış bucağı. Feminist narratologiya klassik narratologiyanın məhz bu "səs" qavramı ətrafındakı mübahisələr ətrafında formalaşmışdır. Klassik naratologiyada səs təhkiyədəki yazar və təhkiyəçi olmayan xarakterləri bir-birindən ayıran "təhkiyəçini" vurğulayırsa, feministlər üçün səs dedikdə "qadın mərkəzli baxış aspektlərinin müdafiə edən gerçək və ya uydurma şəxs(lər)in davranışları" (Lanser) nəzərdə tutulur. Feministlər üçün hər hansı sosial-ictimai və mədəni təzyiqə dirənən qadın xarakteri önəmlidir, narratoloqlar üçün həmin xarakterin mətndəki verbal ifadəsi daha vacibdir. Feminist narratologiyanın niyyəti bu iki aspekti birləşdirməkdir, mətnin estetik qanunauyğunluqları ilə yanaşı yazar, oxucu və mətni bir-birinə bağlayan güc münasibətlərini və şərtləri də görmək, mətni tənzimləyən konvensiyaları aşkarlamaqdır. Mətndə sosial və ritorik olanın sintezini aşkarlamaq, sosial kimlik və mətn strukturunun necə birləşdiyini aşkara çıxarmaqdır. Feminist təhkiyənin səsi öz növbəsində mətndə üç şəkildə ortaya çıxa bilir: a) avtodiyeqetik təhkiyənin səsi və ya protoqonistin səsi, yazarın avtoritar olmadığı səsdir, b)heterodiyeqetik, ekstradiyeqetik təhkiyəçinin səsi, ictimai və potensial olaraq müəllifin özünə istinad durumunu ifadə etmə qabiliyyətinə malikdir; c) üçüncüsü, ictimai səs, təhkiyə avtoritar, nüfuzlu olanı paylaşan səslər kollektividir, yığımıdır. Təqdim olunan məruzədə feminist narratologiyanın yaranması, əsas istiqamətləri, metodoloji çərçivələri, humanitar-filoloji fikirdəki rolundan bəhs olunur, onun prinsipləri Şərq və Qərb kontekstində dəyərləndirilir.

Müasir Azərbaycan nəsrinə feminist narratoloji aspektdən baxanda ortaya çıxan mənzərəyə diqqət yetirilir, səbəblər və şərtlər təhlilə cəlb olunur. Feminist təhkiyənin səsinin mətnin

strukturunda öz ifadə texnikasını tapma yolları və vasitələri araşdırılır. Mətnin içində feminist səsin daxili monoloq və sərbəst dolaylı diskursda, vasitəli nitqdə özünü büruzə verməsi seçilmiş nümunələr əsasında praktik şəkildə göstərilir.

**Açar sözlər**: nəsr, müəllif, qadın, təhkiyə, təhkiyənin səsi, feminist narratologiya

## Abstract

Since 1980s, there has been a tendency in Western literary studies to combine narratology with feminist approaches. The first representative of this direction, who thought that classical narratology did not adequately explain women's narrative, was S. Lanser with her article titled “Towards a Feminist Narratology” in 1986. Lancer and her followers think that classical narratology is born from a male-centered structuralist principle and criticize existing models and approach the subject from a feminist perspective. The relationship of literary development to social experience in terms of gender, attitudes towards norms and ideological frameworks become the main subject of research. In classical narratology, it is known that the “narrator's voice” refers to the point of view from which the story is told and that there are three types: first, second and third person point of view. The third is divided into two groups: the limited third person point of view and the omniscient third person point of view. Feminist narratology has been shaped around the debates surrounding this notion of “voice” in classical narratology. Whereas in classical narratology voice emphasizes the “narrator” who distinguishes between authorian and non-authorian characters in the narrative, for feminists voice refers to “the behavior of real or fictional persons who advocate aspects of a female-centered perspective” (Lanser). For feminists, a female character who resists all forms of social and cultural oppression is important, whereas for narratologists the verbal expression of that character in the text is more important. The aim of feminist narratology is to unite these two aspects, to see not only the aesthetic order of the text, but also the power relations and conditions that bind the author, the reader and the text, and to uncover the conventions that organize the text. It is to explore the synthesis of the social and the rhetorical in the text, to reveal how social identity and textual structure merge. The voice of the feminist narrator can appear in the text in three ways: a) the voice of the autodiegetic narrator, or the voice of the protagonist in which the author is not authoritarian; b) the voice of the heterodiegetic, extradiegetic narrator, capable of expressing the public and potentially the author's self-referential situation; c) thirdly, the voice of the public, a collective ensemble of voices sharing the the authoritar. The paper discusses the emergence of feminist narratology, its main directions, methodological frameworks, its role in humanistic-philological thought, and criticizes its principles in the context of East and West. When looking at modern Azerbaijan prose from a feminist narratological perspective, attention is paid to the picture that emerges, the causes and conditions are included in the analysis. The ways and means of finding the expressive technique of the voice of the feminist movement in the structure of the text are explored. The manifestation of the feminist voice in the text through interior monologue and free indirect discourse is demonstrated practically through selected examples.

**Keywords:** prose, writer, woman, narrative, narrative voice, feminist narratology

# HECA VƏZNİNİN FOLKLORDAN YAZILI ƏDƏBİYYATA KEÇİDİ: AŞIQ ŞEİRİ TƏRZİ

**MƏLAHƏT ƏHMƏDOVA**

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**

**ORCID NO: 0009-0000-6273-8279**

Heca vəzninin mənşəyi, ilkin təkamülü, heç şübhəsiz ki, şifahi xalq ədəbiyyatı ilə bağlıdır. Yaxın Şərqdə, Orta əsrlər poeziyasının islam dininin qəbulundan sonra geniş və hərtərəfli inkişaf yoluna qədəm qoyması ərəb ədəbiyyatı poetikasının, əruz vəzninin rolunu ön plana çıxardı. Divan ədəbiyyatı prinsipləri, tərtibindəki janr sərhədlənməsi heca vəzninin işlənmə tezliyini əsaslı şəkildə azaltdı. Qazi Bürhanəddinin maniyə bənzər dörd misralıq tuyuğu divana ayrıca janr kimi daxil etməsi xalq ədəbiyyatı və yazılı ədəbiyyat arasındakı sərhədlərin açılmasında ilk addım oldu. Tuyğun rəməl bəhrinin oynaq ritmli failatun-failatun-failun qəlibində yazılması, aaba, bəzən də abab şəklində qafiyələnməsi onun maniyə və xalq poeziyasına yaxınlığını təmin edir. Qazi Bürhanəddindən sonra Nəsiminin, Nəvainin tuyğdan divan ədəbiyyatı janrı kimi istifadə etməsi poeziyamızda xalq ədbiyyat ənənələrinin struktur elementlərini artırdı. Onlardan sonrakı mərhələdə Şah İsmayıl Xətayinin heca vəznli şeir şəkillərinə müraciəti divan ədəbiyyatına aşıq şeiri tərzinin gəlişinə yol açdı. XVIII əsr poeziyasında, erkən realizm dövründə yazılı ədəbiyyatda, xüsusən M.P.Vaqifin yaradıcılığında aşıq şeiri tərzi xeyli inkişaf etdi. Azərbaycan və Türkiyə ədəbiyyatşünaslığında aşıq şeiri tərzi bir termin kimi işlənməkdədir. Termin eyni olsa da, adı çəkilən elmi mühitlərdə fərqli məzmun daşıyır. Türkiyədə aparılan tədqqiqatlarda aşıq şeiri tərzi dedikdə, xalq şeir şəkilləri, onların poetik xsusiyyətləri nəzərdə tutulur. Azərbaycan ədəbiyyatşünaslığında isə aşıq şeiri tərzi tədqiq olunarkən yazılı ədəbiyyatda folklordan gəlmə şeir şəkilləri, onların dil-üslub xsusiyyətləri, poetik keyfiyyətləri araşdırılır. Aşıq şeiri tərzindən yazılı ədəbiyyat hadisəsi kimi bəhs edilməsində Feyzulla Qasımzadənin tədqiqatları əhəmiyyətli rol oynamışdır. O, XIX əsr Azərbaycan ədəbiyyatında aşıq şeiri tərzindən ayrıca bir cərəyan kimi bəhs edir. Feyzulla Qasımzadə aşıq şeiri tərzinin spesifik xsusiyyətlərini qeyd edərkən folklor ənənələrini önə çəkir. Feyzulla Qasımzadədən sonra aşıq şeiri tərzinin tədqiqatına Tahirə Məmmədin araşdırmalarında rast gəlirik. Tahirə Məmməd də aşıq şeiri tərzinin əsas qaynağı kimi folkloru götürür. Lakin F.Qasımzadədən fərqli olaraq T.Məmməd aşıq şeiri tərzini folklor və divan ədəbiyyatı kəsişməsində öyrənir və onda klassik şeir ənənələrinin davamı məsələsinə də diqqət ayırır. Ədəbiyyatşünaslığımızda aşıq şerir tərzi adı altında olmasa da, xalq şeir şəkillərinin yazılı ədəbiyyatda variantlarının öyrənilməsi məsələsi əsas problemlərdən biri kimi araşdırılmışdır. Buna Kəmalə İsayeva, Nizami Muradoğlunun tədqiqatlarını misal göstərə bilərik.

**Açar sözlər:** aşıq şeir tərzi, Nəvai, tuyuq, XIX əsr, Xətayi, yazılı ədəbiyyat, folkor, erkən realizm

# SIMILARITIES AND DIFFERENCES IN WORD FORMATION OF AZERBAIJANI LANGUAGE AND TURKISH

# AZERBAYCAN DİLİ İLE TÜRK TÜRKÇESİNİN SÖZCÜK OLUŞUMUNDAKİ BENZERLİKLER VE FARKLILIKLAR

**VALİDA ABBASBEYLİ**

**AZERBAYCAN MİLLİ BİLİMLER AKADEMİSİ, NESİMİ'NİN ADINI TAŞIYAN DİLBİLİM ENSTİTÜSÜ, DOKTORA ÖĞRENCİSİ, 0009-0002-4909-504X**

## Özet

Dil hər bir xalqın mədəniyyətinin göstəricisidir. Cəmiyyət hər zaman dəyişir və inkişaf edir, dəyişən hər şey dildə öz əksini tapır. Hər bir dildə müxtəlif məfhumları ifadə etmək üçün yeni sözlər və ifadələr meydana çıxır. Dilin lüğət tərkibi daim inkişaf edir və lüğət tərkibinin zənginləşməsində və təkmilləşməsində söz yaradıcılığı mühüm rol oyanır. Dilin lüğət tərkibində olan sözlərin böyük əksəriyyəti sözyaratma yolu ilə əmələ gəlmişdir. Söz yaratma anlayışı qədim anlayışdır, dilimizin inkişafında, zənginləşməsində başlıca rol oynayan vasitələrdən biridir. Sözyaratma xüsusiyyəti dilin inkişafında başlıca rol oynayan vasitələrdən biridir. Məqalədə ilk olaraq dünya dillərinin təsnifatına toxunulmuşdur. Daha sonra türk dilləri ailəsinin oğuz dilləri yarımqrupuuna aid olan Azərbaycan dili və Türkiyə türkcəsinin söz yaradıcılığı prosesləri, söz yaradıcılığının bir sıra xüsusiyyətləri qeyd olunmuşdur. Azərbaycan ədəbi dilinin keçdiyi inkişaf yolu dilimizin təkmilləşməsində, zənginləşməsində əhəmiyyətli rol oynamışdır. Azərbaycan ədəbi dilində yeni sözlər leksik, semantik, morfoloji, sintaktik yolla düzəlirlər. İstər leksik, istər semantik, istər morfoloji, istərsə də sintaktik yolla yeni sözlərin əmələgəlmə prosesi bir-birindən çox fərqlənir. Məqalədə hər bir üsulun özünəməxsus xüsusiyyətlər qeyd olunmuş, həmin üsullarla yaranan sözlər nümunə olaraq verilmişdir. Azərbaycan dili ilə yanaşı Türkiyə türkcəsində isimlərdən isim və feil, feillərən isim və feil yaradan şəkilçilər qeyd edilmişdir. Hər birinə aid müxtəlif nümunələr məqalədə öz əksini tapmışdır. Hər iki dilin ayrı-ayrı söz yaratma xüsusiyyətləri ilə yanaşı, həm Azərbaycan dilinin, həm də Türkiyə türkcəsinin söz yaradıcılığında iştirak edən ortaq şəkilçilər, həmin şəkilçilərlə hər iki dildə yaranan sözlər qeyd olunmuşdur. Həmçinin məqalə də hər iki dil üçün ortaq olan, eyni mənalı sözz və ifafələrin yaranmasında iştirak edən şəkilçilər verilmişdir.

**Açar sözlər:** dil ailələri, Azərbaycan dili, Türkiyə türkcəsi, söz yaradıcılığı, şəkilçilər

## Abstract

Language is an indicator of the culture of every nation. Society is always changing and developing, and everything that changes is reflected in the language. In every language, new words and phrases appear to express different concepts. The vocabulary of the language is constantly developing, and word creation plays an important role in the enrichment and improvement of the vocabulary. Most of the words in the vocabulary of the language were formed through word creation. The concept of word formation is an ancient concept, it is one of the tools that play a major role in the development and enrichment of our language. Word formation is one of the tools that play a major role in language development. The article first touched on the classification of world languages.

Then, the processes of word creation of Azerbaijani language and Turkish Turkish, which belong to the subgroup of Oghuz languages of the family of Turkic languages, and a number of features of word creation were mentioned. The development path of the Azerbaijani literary language has played an important role in the improvement and enrichment of our language. In the Azerbaijani literary language, new words are formed lexically, semantically, morphologically, and syntactically. The process of formation of new words, either lexically, semantically, morphologically or syntactically, is very different from each other. In the article, the unique features of each method are mentioned, and the words formed by those methods are given as examples. In addition to the Azerbaijani language, suffixes that form nouns and verbs, verbs, and nouns from nouns and verbs are noted in Turkish Turkish. Various examples of each are reflected in the article. In addition to the separate word formation features of both languages, the common suffixes involved in the word formation of both Azerbaijani and Turkish Turkish, and the words formed in both languages with those suffixes, have been noted. Also, in the article, the suffixes that are common to both languages and participate in the formation of words and expressions with the same meaning are given.

## GİRİŞ

Son əsrlərdə elm, sənaye, texnologiya sahələrində bir çox dəyişiklər baş vermişdir. Bununla yanaşı cəmiyyətin yaşayışında və düşüncəsində də əhəmiyyətli dəyişikliklər özünü göstərmişdir. XX-XXI əsrlər bəşər tarixində sürətli dəyişikliklərin olduğu bir dövrdür. Xüsusilə son illərdə həyatımızın hər anında təsəvvür edə bilməyəcəyimiz qədər müxtəlifliklər baş vermişdir. Baş verən bu dəyişikliklər, müxtəlifliklər hər bir dildə öz əksini fərqli rakurslardan tapmışdır. Həmçinin bu proseslər dildə yeni söz və ifadələrin yaranmasında əhəmiyyətli rol oynamışdır. Dili yaşadan, inkişaf etdirən, qoruyan, nəsildən-nəslə ötürən xalqdır. Hər bir dil həmin xalqın şüurunun, təfəkkürünün, mədəniyyətinin göstəriciləri sırasında yer alır. Dil ünsiyyət vasitəsilə olaraq əmək prosesi nəticəsində yaranıb inkişaf etmişdir. İnsanlar arasında ünsiyyəti təmin edən əsas amil sözlərdir. Yeni danışmağa başlayan uşaqlar mənalı və mənasız sözlər deyərək ilk nitqlərini qururlar. Həmçinin insanlar yeni dillər öyrənən zaman ilk olaraq həmin dillərin sözlərini öyrənməyə başlayırlar. Sözlər hər bir dilin əsasını təşkil edir.



Dünya dillər müəyyən təsnifata uyğun olaraq təsnif edilir. Akademik Afad Qurbanov "Ümumi dilçilik" (II cild) kitabında dünya dillərinin aşağıdakı prinsiplərə görə təsnifatını vermişdir:

- Dillərin coğrafi təsnifi
- Dillərin tipoloji təsnifi
- Dillərin stadial təsnifi
- Dillərin funksional təsnifi
- Dillərin genealoji təsnifi

Dillərin genealoji təsnifinə əsasən dünya dilləri müxtəlif dil ailə və qruplarına ayrılır. Afad Qurbanov "Ümumi dilçilik" (II cild) kitabında *Hind-Avropa dilləri; Altay dilləri; Qafqaz dilləri; Ural dilləri; Paleoazi dilləri; Çin-Tibet dilləri; Amerika dilləri* və s. kimi dil ailələrini qeyd etmişdir. 23 dili əhatə edən türk dil ailəsi Altay dillər ailəsinin ən böyük dil qrupudur. Türk dilləri dünyanın müxtəlif yerlərində - Orta Asiyada, Qafqazda, Anadolunda və başqa yerlərdə istifadə edilir. Müasir türk dilləri aşağıdakı ayrılır:

- Oğuz dilləri yarımqrupu;
- Qıpçaq dilləri yarımqrupu;
- Bulqar dilləri yarımqrupu;
- Qarlıq dilləri yarımqrupu;
- Tukyuy dilləri yarımqrupu.

Türk dillərinin oğuz dilləri yarımqrupuna daxil olan *Azərbaycan dili, türkmən və türk dilləri,* qıpçaq dilləri yarımqrupuna daxil olan *qazax, qırğız dilləri* həm geniş yayılmışdır, həm də müstəqil dövlət dili kimi işlənirlər. Sait və samitlərin mövqeyi, ahəng qanununun olması, vurğunun sözün son hecasında olması, şəkilçilərin söz sonuna artırılması və s. kimi xüsusiyyətlər türk dil ailəsinin digər dillərdən fərqləndirən əsas əlamətlərdir. Türk dillərinin ümumi söz köklərində, şəkilçilərində, morfoloji kateqoriyalarında, sözyaratma qaydalarında qohumluq, oxşarlıq özünü bariz şəkildə göstərir. Oğuz dilləri yarımqrupuna daxil olan dillərin fonetikasında, qrammatikasında, yeni söz və ifadələrin yaranmasında bir sıra oxşarlıqlar və fərqliliklər özünü göstərir. Dillərin tipoloji təsnifi də dilçilikdə xüsusi rola malikdir. Tipoloji təsnifatda dillərin struktur xüsusiyyətləri əsas götürülür. Struktur xüsusiyyətlər dedikdə, hər bir dilin fonetik sistemi, lüğət tərkibi, söz yaratma xüsusiyyətləri, qrammatik quruluşu nəzərdə tutulur, həmin əlamətlər qarşılaşdırılır, fərqli və oxşar cəhətlər ortaya çıxarılır. Dillərin tipoloji təsnifatında morfoloji və sintaktik əlamətlər, dillərin müasir vəziyyəti əsas götürülür. Dilçilik ədəbiyyatında müxtəlif dövrlərdə dillərin tipoloji təsnifatı fərqli şəkildə verilmişdir. Afad Qurbanov "Ümumi dilçilik" (II cild) kitabında müasir dilçilikdə dillərin tipoloji təsnifatı aşağıdakı kimi verilmişdir:

- Köksözlü dillər;
- Aqlütinativ dillər;
- Flektiv dillər;
- İnkorporlaşan dillər.

Türk dilləri qrupunun oğuz dilləri yarımqrupuna aid olan Azərbaycan dili və Türkiyə türkcəsi aqlütinativ dillərə aiddir. Aqlütinativ dillər digər dillərdən morfoloji quruluşuna, sözyaratma xüsusiyyətlərinə, sözlərin rahatlıqla tərkib hissələrinə ayrılmasına görə fərqlənir. Həm Azərbaycan dili, həm də Türkiyə türkcəsində qrammatik quruluşda, yeni söz və ifadələrin yaranmasında bir sıra oxşarlıq və fərqliliklər mövcuddur. Hər iki dildə yeni söz və ifadələr müxtəlif formalar və üsullarla yaranır yaranır.



## 2.YÖNTEM

Məqalədə müqayisə və ümumiləşdirmə metodlarından istifadə olunmuşdur.

## 3.BULGULAR

İstər Azərbaycan dilində, istərsə Türkiyə türkcəsində müxtəlif yollarla yaranan sözlər dilin lüğət tərkibinin zənginləşməsində mühüm rol oynayır. Hər bil dil öz qrammatik quruluşuna görə çox fərqlənməsə də, yeni sözlərin yaranma yollarına görə bir sıra fərqlər mövcuddur. Azərbaycan dilində yeni söz və ifadələrin yaranmasını alimlərimiz müxtəlif şəkildə təsnif eləmişdir. S.Cəfərov "Müasir Azərbaycan dili" (II hissə) kitabında yeni sözlərin yaranma yollarını aşağıdakı kimi qeyd edirdi: "*Sözlərin leksik yolla əmələgəlmə prosesi; sözlərin morfoloji yolla əmələgəlmə prosesi; sözlərin sintaktik yolla əmələgəlmə prosesi*". A.Qurbanov "Müasir Azərbaycan ədəbi dili" (I cild) kitabında yeni sözlərin yaranmasında *leksik, semantik, morfoloji, sintaktik yolun* əhəmiyyətindən danışıb. B.Xəlilov "Müasir Azərbaycan dilinin leksikologiyası" kitabında qeyd edirdi: "Dilin lüğət tərkibinin zənginləşməsində iki mənbədən istifadə olunur: *Dilin daxili imkanları; Başqa dillərdən söz almaq*". (Xəlilov, 2008: 394) Türkiyə türkcəsində yeni söz və ifadələrinin yaranmasını Tahsin Banguoğlu "Türkçenin grameri" kitabında aşağıdakı kimi vermişdir: "Kelime yapımı dilde mevcut köklere dayanır və başlıca iki türlü olur: *üretim; birleşim*". Həm Azərbaycan dilində, həm də Türkiyə türkcəsində digər dillərdən fərqli olaraq önşəkilçi və söz daxili şəkilçi yoxdur. Şəkilçilər söz sonuna artılır. Azərbaycan dilində *sözdüzəldici* şəkilçilər, Türkiyə türkcəsində *yapım/türetim ekleri* vasitəsilə yeni söz və ifadələr yaranır.

Azərbaycan dilində yeni sözlərin yaranmasında fəal iştirak edən şəkilçilər *məhsuldar şəkilçilər* adlandığı halda, Türkiyə türcəsində belə şəkilçilər *işlek ekler* adlanır.

Azərbaycan dilində yeni sözlərin yaranmasında aşağıdakı üsulların rolu danılmazdır:

I. Leksik yolla söz yaradıcılığı:

1.Dialektlər və şivələr hesabına dilimizdə yeni sözlər yaranır. Dialekt və şivələr hesabına söz yaratmada yazıçı və şairlərimizin rolu böyükdür. Yazıb yaratdıqları əsərlərdə obrazların dilindən müxtəlif bölgələrə aid dialekt və şivələr ədəbi dilə keçmişdir. Məsələn, havalanmaq-dəli olmaq, öləzimək-sakitləşmək, dəsti-tez, cəld və s. 2.Yeni söz və ifadələrində yaranmasında alınma sözlər hesabına söz artımında özünəməxsus rolu vardır. Digər xalqlarla əlaqə və münasibət nəticəsində dilimizə yeni sözlər daxil olmuşdur. Başqa dillərdən dilimizə daxil olan sözlər dilimizin bəzi qayda-qanunlarını qəbul edir. 3.Fonetik tərkibinin dəyişməsi ilə söz artımında sözlərin tərkibində bir və ya bir neçə səsinin dəyişir. Məsələ; qurut-qurud, dağ-tağ və s. 4.Mürəkkəb sözlərin sadələşməsi hesabına söz artımında mürəkkəb sözlərin tərkibində müxtəlif səslər dəyişir, arxaikləşir.

II. Semantik yolla söz yaradıcılığı: Ümumi sözün xüsusi sözlərə keçməsi, sözlərinin mənasının genişlənməsi və daralması, konkretləşməsi, adi bir sözün termin kimi işlənməsi, omonimləşmə hesabına yaranan sözlər dilçilik kitablarında semantik yolla yaranan sözlər sırasına daxil edilir.

III. Morfoloji yolla söz yaradıcılığı: Bu yolla söz yaradıcılığı mürəkkəb proses olmaqla yanaşı həm də çox məhsuldar bir prosesdir. Dilimizdə olan sözdüzəldici şəkilçilər söz kökünə və ya başlanğıc formalara qoşularaq yeni mənalı sözlərin yaranmasında iştirak edir. “-Baz, -xah, -ım, -lıq, -sız, -ıq, -ış, -aq, - lan, -laş” və s şəkilçilərlə ad, feil və zərflər düzəlir.

IV. Sintaktik yolla söz yaradıcılığında bir neçə xüsusiyyətlərə - funksiyaya, əlamətə, bənzətməyə, qüvvətləndirməyə, mənsubiyyətə, ənənəyə, hərfi tərcüməyə görə mürəkkəb sözlər yaranır. Morfoloji yol kimi sintaktik yol da lüğət tərkibinin zənginləşməsində əhəmiyyətli rol oynayır.



Qeyd etdiyimiz üsullarla yanaşı dilimizin leksik tərkibinin zənginləşməsində onomastik vahidlərin də rolu danılmazdır. Onomastik vahidlər dedikdə, antroponimlər, toponimlər, etnonimlər, zoonimlər kimi xüsusi söz qrupları başa düşülür. Onomastik vahidlərdən yeni sözlərin yaranmasında “-lı, -i, -çılıq, -izm, -ist və s” kimi şəkilçilərdən geniş istifadə olunur.

Türkiyə türkcəsində söz kökləri vəzifələrinə görə isim kökləri və feil kökləri olmaqla iki növə ayrılır. İsim və feil köklərinə artırılaraq yeni mənalı sözün yaranmasında iştirak edən sözdüzəldici şəkilçilər “ üretim ekler” adlanır. “Üretim ekleri” yəni sözdüzəldici şəkilçilər isim və feil düzəldən şəkilçilər olmaqla iki yerə ayrılır. Türkiyə türcəsində yeni sözlər aşağıdakı üsullarla yaranır:

1.İsimdən isim yaradan şəkilçilər: Bu şəkilçilər isim kök və başlanğıc formalarından başqa isimlər düzəltmək üçün istifadə olunan şəkilçilərdir. taş-lıq > taşlıq; kulak-cık > kulakcık.

2. İsimdən feil yaradan şəkilçilər: Bu şəkilçilər isim kök və başlanğıc formalarından feil düzəltmək üçün istifadə olan şəkilçilər: baş-la > başla; av-la > avla.

3. Feildən isim yaradan şəkilçilər: Bu şəkilçilər feil kök isim və başlanğıc formalarından başqa isimlər düzəltmək üçün istifadə olunan şəkilçilərdir: al-ı-m > alım; geç-it > geçit.

4. Feilden feil yaradan şəkilçilər: Bu feil kök isim və başlanğıc formalarından başqa feil düzəltmək üçün istifadə olan şəkilçilər: gez-i-n- > gezin; döv-ün > dövün.

Qeyd etdiyimiz fərqliliklərlə yanaşı hər iki dildə ortaq şəkilçilərin olduğunu görmək olur. Bu şəkilçilərin işlənmə mövqeyi, artırıldıqları sözlərin eyni nitq hissəsi olması diqqəti cəlb edir.

Həm Azərbaycan dilində, həm də Türkiyə türkcəsində işlənən ortaq şəkilçilərə aşağıdakıları nümunə göstərmək olar:

-lıq[4] şəkilçisi hər iki dildə ad düzəldən məhsuldar şəkilçi kimi işlənir. Hər iki dildə bu şəkilçi vasitəsilə çoxluq bildirən, mücərrəd mənalı, yer mənası bildirən sözlər yaranır. Azərbaycan dili: çöllük, odunluq, təmizlik, beşlik, mənlik, yaxşılıq, dərzilik və s. Türkiyə türkcəsində: ekinlik, çöplük, günəşlik, gençlik və s.

-çı[4] (-cı[4]) şəkilçisi hər iki dildə peşə, sənət, məşğuliyyət ilə bağlı sözlər düzəldir. Azərbaycan dili: əkinçi, şikayətçi, tarixçi və s. Türkiyə türkcəsində üfürükçü, okçu, simitçi və s.

-lı[4] şəkilçisi həm Azərbaycan dilində, həm də Türkiyə türkcəsində müəyyən bir yerə, əşyaya olan mənsubluğu ifadə edən sözlər yaradır. Azərbaycan dili: bakılı, kəndli, Sultanlı və s. Türkiyə türkcəsi: köylü, yunanlı, Ankaralı və s.

-sız[4] şəkilçisi hər iki dil üçün məhsuldar şəkilçilər sırasında yer alır. Azərbaycan dili: kitabsız, dadsız, evsiz və s; Türkiyə türkcəsi: çorapsız, içkisiz, görgüsüz və s.

-la[2] şəkilçisi istər Azərbaycan dilində, istər türkcə də adlardan feil düzəldən məhsuldar şəkilçilər sırasında verilir. Azərbaycan dili: güllələmək, başlamaq, dişləmək, parçalamaq, pisləmək, hamarlamaq, üçləmək və s. Türkcədə sulamak, avlamak, serinlemek, hafiflemek və s.

-al[2] şəkilçisi Azərbaycan dilində feil düzəldən məhsuldar şəkilçi olsa da, türkcədə işlənmə dərəcəsi çox geniş deyil. Azərbaycan dili: dirilmək, boşalmaq, qısalmaq, kökəlmək, çoxalmaq, yönəlmək, ucalmaq və s. Türkcə: düzelmek, bunalmak, sağalmak və s.

Hər iki dil üçün ortaq olan sözdüzəldici şəkilçilərin sayını artırmaq olar. Həmin şəkilçilər məhsuldarlığına görə bəzən hər iki dildə bir-birindən fərqlənir.



## SONUÇ

Bu məqalədə oğuz dilləri yarımqrupuna daxil olan Azərbaycan dili və Türkiyə türkcəsinin söz yaradıcılığı üzərində tədqiqat aparılmışdır.Türk dilləri ailəsi haqqında materiallar, hər iki dilin söz yaradıcılığı xüsusiyyətləri, oxşarlıqlar, fərqliliklər qeyd olunmuşdur. Dillərin qarşılıqlı əlaqələrinin artması nəticəsində yeni sözlərin əmələ gəlmə mexanizmlərində də müəyyən dəyişikliklər olmuşdur. Məqalənin giriş hissəsində həm Azərbaycan dilinin, həm də Türkiyə türkcəsinin qrammatikasından, türk dil ailələləri haqqında məlumat verilmişdir. Məqalənin əsas hissəsində hər iki dilin söz yaradıcılığı haqqında nəzəri məlumatlar, söz yaratma prosesləri, hər iki dil üçün ortaq və fərqli olan şəkilçilər qeyd olunmuşdur.

## KAYNAKLAR

1. Banguoğlu T. (1974) Türkçenin Grameri. İstanbul “Baha Matbaası”.
2. Cəfərov S. (2007) Müasir Azərbaycan dili. II hissə. Leksika. Bakı “Şərq-Qərb”.
3. Xəlilov B. (2008) Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı “Nurlan”.
4. Qurbanov A. (2019) Müasir Azərbaycan ədəbi dili. I cild. Bakı.
5. Qurbanov A. (2019) Ümumi dilçilik. II cild. Bakı.

# ARTIFICIAL INTELLIGENCE AND ARTISTIC CREATIVITY

# SÜNİ İNTELLEKT VƏ BƏDİİ YARADICILIQ

**ƏLİYEVA ŞƏHANƏ**

**FİLOLOGİYA ÜZRƏ FƏLSƏFƏ DOKTORU AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI, NİZAMİ GƏNCƏVİ ADINA ƏDƏBİYYAT İNSTİTUTU, ƏDƏBİYYAT NƏZƏRİYYƏSİ ŞÖBƏSİ**

**ORCID: 0000-0002-3592-1577**

**Xülasə**

İnsan daim ona məlum informasiyanı təkmilləşdirir və dövrünün qazanılmış təcrübə və yeni bilik ehtiyatı ilə zənginləşdirir. Ən son texnoloji nailiyyətlərdən sayılan süni intellektin mahiyyəti və onun elmin müxtəlif sahələrinə tətbiqi günümüzün ən aktual məsələlərindəndir. Sİ-nin tətbiqi təkcə texniki elm sahələrini yox, humanitar düşüncədə gedən prosesləri, ictimai, sosial, mədəni həyatı da əhatə edir. Sərhədsiz informasiya axını, texnogen inqilablar, insan faktorunun sıxışdırılaraq robotlaşdırılması, bir düymədən asılılıq təbii surətdə mövcud olan və ya insanın fiziki və şüurlu fəaliyyətinin nəticəsində meydana çıxan nəsnələrin elektron variantlarının meydana gəlməsi ilə nəticələndi. Bu inqilab təkcə informasiya inqilabı yox, həm də mədəni inqilab oldu: bədii yaradıcılığın klassik anlamda qavradığımız mahiyyəti dəyişərək alternativ yaradıcılıq üsulları meydana gəldi. Demək olar ki, əksər koqnitiv funksiyaların Sİ tərəfindən yerinə yetirilməsi onu hesabat xarakterli, sırf informasiyayönümlü mətnlər müəllifi olması ilə yanaşı yaradıcı təfəkkürün də istehsalçısına çevirdi. Bədii yardıcılığın yeganə istehsalçısı kimi qəbul edilən müəllif öz yerini proqramlaşdırılmış maşına vermiş, beləliklə ədəbiyyatşünaslığın mühüm məsələlərindən olan müəllif mövqeyini sual altında qoymuşdur. Necə adlandırılmasından – "intellekt gücləndiricisi", "məsələlərin kollektiv həlli sistemi" (hər iki termin Vannevar Buşa məxsusdur), "süni intellekt" (Con Makkarti) – asılı olmayaraq alternativ zəka anlayışı dünyada yeni düşüncə tərzini formalaşdırdı. Sİ-nin "əlinin altında olan" baza sərhədsiz hipermətn əsasında yaranıb. Bu da Sİ-nin insan təxəyyülünə nisbətdə intertekstual əlaqələr qurma qabiliyyətinin yüksək olmasından qaynaqlanır. Müəllif tərəfindən yaradılan intertekstuallıq bədii mətnin xüsusiyyətlərindən biri kimi çıxış edərək müəllif üslubuna çevrilə bilir. Sİ-nin isə intertekstuallıqdan başqa yolu yoxdur. Bu baxımdan fərdi üslub yaratma, orijinallıq və eksperimentallıqdan məhrum Sİ mətnləri şablonlar çərçivəsindədir. Sİ-nin iş prinsipi mümkün məlumat bazaları, sonsuz sayda informasiyanın toplanıb qorunduğu data mərkəzlər əsasında qurulduğundan struktur baxımından daha çox eyni və ya oxşar mətnlər istehsal edir. Bu da hər hansı etnik-psixoloji detal və motivin işlənmə ehtimalını azaldır. Həmçinin, mövcud məlumat bazası əsasında verilmiş situasiyalara uyğun süjet quran Sİ hazır sxemlər üzərində işlədiyindən finalların təkrarı qaçılmazdır. Həmçinin, burada fərdi üslub hadisəsindən söz açmaq mümkün deyil: Sİ mövcud üslublara parodiya yolunu seçərək fərdiliyin, orijinallığın üzərindən xətt çəkir. Təbii ki, digər mətnlərdən təsirlənmədən, qarşılıqlı münasibətdə olmadan heç bir mədəni fakt üzə çıxa bilməz. Amma bu təsirlənmənin belə özünəməxsus mədəni-tarixi, psixoloji əsasları olur. Sİ-nin təsirə məruz qalması isə yalnız təkrarlanan kodlar tezliyinə müraciətdir ki, bu səbəbdən Sİ tərəfindən istehsal olunan mətnləri ənənəvi ədəbiyyata alternativ kimi götürmək lazım deyil.

